AZƏRBAYCAN DÖVLƏT İQTİSAD
UNİVERSİTETİNDƏ TƏRCÜMƏ OLUNMUŞ
DƏRSLİKLƏR

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
РОССИЙСКОЙ ФЕДЕРАЦИИ
РОССИЙСКАЯ ЭКОНОМИЧЕСКАЯ АКАДЕМИЯ
ИМ. Г.В.ПЛЕХАНОВА

ЭКОНОМИЧЕСКАЯ ТЕОРИЯ

Макроэкономика – 1, 2

Метаэкономика

Экономика трансформации

Учебник

Рекомендовано Учебно-методическим объединением по образованию в области экономики и экономической теории в качестве учебника для студентов высших учебных заведений, обучающихся по направлению "Экономика" и экономическим специальностям

Издательско-торговая корпорация "Дашков и К°"
Москва, 2008

RUSİYA FEDERASİYASININ TƏHSİL NAZİRLİYİ
Q.V.PLEXANOV ADINA RUSİYA İQTİSAD
AKADEMİYASI

İQTİSADİ NƏZƏRİYYƏ


Makroiqtisadiyyat – 1, 2

Metaiqtisadiyyat

Transformasiya iqtisadiyyatı

Dərslik

İqtisadiyyat və iqtisadi nəzəriyyə sahəsində Təhsil üzrə tədris-metodiki birliyi tərəfindən iqtisadiyyat və iqtisadi ixtisaslar istiqaməti üzrə təhsil alan ali məktəb tələbələri üçün dərslik kimi tövsiyə olunub.



"Daşkov və K°" nəşriyyat – ticarət korporasiyası
Moskva, 2008

Müəllif kollektivi:

Q.P.Juravlyova	–	*iqtisad elmləri doktoru, professor, RF-nın əməkdar elm xadimi (müqəddimə, fəs. 2, 3, 4, 6, 9, 27, 28, ümumi redaktə)*
D.Q.Aleksandrov	–	*iqtisad elmləri doktoru, professor (fəs. 26);*
V.V.Qromıko	–	*iqtisad elmləri doktoru, professor (fəs. 4);*
M.İ.Zabelina	–	*iqtisad elmləri namizədi, dosent (fəs. 29);*
M.S.Zveryeva	–	*iqtisad elmləri namizədi, dosent (fəs. 4);*
A.İ.Dobrınin		*iqtisad elmləri doktoru, professor, RF-nın əməkdar elm xadimi (fəs. 12);*
M.V.Dubovik	–	*iqtisad elmləri namizədi, dosent (fəs. 7, 8);*
T.Y.Kiselyova	–	*iqtisad elmləri namizədi, dosent (fəs. 1, 13, 20);*
Q.M.Lonskaya	–	*iqtisad elmləri namizədi, dosent (fəs. 22);*
M.A.Lıçkovskaya	–	*iqtisad elmləri namizədi, dosent (fəs. 15);*
N.N.Milçakova	–	*iqtisad elmləri doktoru, professor (fəs.9,10,11);*
N.V.Rakuta	–	*baş müəllim (fəs. 5, 14);*
Q.V.Ryabova	–	*iqtisad elmləri namizədi, professor (fəs.23,24,26);*
M.V.Savinova	–	*iqtisad elmləri namizədi, dosent (fəs. 18, 19);*
A.K.Sapor	–	*iqtisad elmləri namizədi, professor (fəs.21, qismən redaktə);*
V.M.Sinyov	–	*iqtisad elmləri namizədi, dosent (fəs. 28);*
V.V.Smaqina	–	*iqtisad elmləri doktoru, professor (fəs. 10);*
O.B.Tixonova	–	*iqtisad elmləri namizədi, dosent (fəs. 9, 17);*
L.Q.Çerednіçenko	–	*iqtisad elmləri doktoru, professor (fəs. 16, 21);*
T.M.Çerednіçenko	–	*iqtisad elmləri namizədi, professor (fəs. 3);*
A.V.Şişayeva	–	*iqtisad elmləri namizədi, professor (fəs. 9, 10, 11, 24, 25);*
V.M.Yuryev	–	*iqtisad elmləri doktoru, professor (fəs. 22).*

Rəyçilər:

V.M.Sokolinski	–	*iqtisad elmləri doktoru, professor;*
F.F.Sterlikov	–	*iqtisad elmləri doktoru, professor.*

İqtisadi nəzəriyyə. Makroiqtisadiyyat – 1,2. Metaiqtisadiyyat. Transformasiya iqtisadiyyatı: Dərslik / RF əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Q.P.Juravlyovanın ümumi redaktəsi ilə. – M.: «Daşkov və K°» nəşriyyat-ticarət korporasiyası, 2008. - 920 s.

Dərslik iqtisadi nəzəriyyənin və praktikanın nailiyyətlərinə əsaslanır. Kateqoriyalar, qanunlar, forma və metodların öyrənilməsinə xüsusi diqqət yetirilir. Makroiqtisadiyyat və yeni şəraitdə iqtisadi sistemlərin transformasiyası problemləri diqqətlə nəzərdən keçirilir.

Q.V.Plexanov adına Rusiya İqtisad Akademiyasının İqtisadi nəzəriyyə kafedrasının kollektivi tərəfindən hazırlanıb.

İqtisadi ixtisaslar və istiqamətlər üzrə təhsil alan ali məktəb tələbələri üçün nəzərdə tutulmuşdur.

Rusiya Federasiyasının əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor **Q.P.Juravlyovanın** ümumi elmi redaktəsi ilə 2008-ci ildə dərc olunmuş Экономическая теория. Макроэкономика-1,2. Метаэкономика. Экономика трансформаций adlı dərsliyi rus dilindən Azərbaycan dilinə İqtisadi nəzəriyyə - 1 kafedrası tərəfindən kafedra müdiri, iqtisad elmləri doktoru, professor **Ə.P.Babayevin** ümumi elmi redaktəsi ilə kafedranın aşağıdakı əməkdaşları tərəfindən tərcümə olunmuşdur.

Babayev Ə.P.	- *iqtisad elmləri doktoru, professor (Müqəddimə, fəsil I,II)*
Abasova S.T.	- *iqtisad elmləri namizədi, dosent (fəsil III, XXIII)*
Babayeva S.C.	- *iqtisad elmləri namizədi, baş müəllim (fəsil XIV, XXIX)*
Əliyev Ü.Q.	- *iqtisad elmləri doktoru, dosent (fəsil VI)*
Əliyeva D.Z.	- *iqtisad elmləri namizədi, dosent (fəsil V)*
Əsgərova H.C.	- *baş müəllim (fəsil XIII, XIX)*
Xankişiyev X.S.	- *iqtisad elmləri namizədi, dosent (fəsil X)*
Xankişiyeva C.X.	- *müəllim (fəsil XI)*
Xəlilova F.A.	- *müəllim (fəsil XV)*
Quliyev A.A.	- *iqtisad elmləri namizədi, dosent (fəsil XVII)*
Qurbanova Z.M.	- *iqtisad elmləri namizədi, baş müəllim (fəsil XII, XXVIII)*
Qəhrəmanov N.Ə.	- *baş müəllim (fəsil VIII)*
Məmmədov İ.İ.	- *iqtisad elmləri namizədi, dosent (fəsil VII)*
Mustafayeva Z.İ.	- *iqtisad elmləri namizədi, dosent (fəsil IV)*
Osmanov B.O.	- *dosent (fəsil XXI)*
Rüstəmov Ç.A.	- *iqtisad elmləri namizədi, dosent (fəsil IX, XVI)*
Seyidov Z.M.	- *iqtisad elmləri namizədi, dosent (fəsil XXIV)*
Sultanova L.R.	- *iqtisad elmləri namizədi, dosent (fəsil XVIII, XXVII)*
Sərdarova S.Y.	- *iqtisad elmləri namizədi, müəllim (fəsil XX, XXV)*
Vəliyeva T.Q.	- *müəllim (fəsil XXII)*
Yusifov O.Y.	- *iqtisad elmləri namizədi, dosent (fəsil XXVI, qismən redaktə)*

ISBN 978-9952-27-217-8

© Babayev Ə.P., 2009

MÜNDƏRİCAT

Ön söz. 11
I BÖLMƏ. MAKROİQTİSADİYYAT-1 16
I fəsil. Makroiqtisadiyyata giriş (makroiqtisadi problemlərin öyrənilmə metodologiyası) 16
§1. Makroiqtisadiyyatın tədqiqat predmeti 16
§2. Əsas məktəblərin nümayəndələrinin makroiqtisadi proseslərə baxışları 21
§3. Makroiqtisadi proseslərin tədqiqi metodologiyası 28
§4. Makroiqtisadiyyatda istifadə olunan əsas anlayışlar 36
II fəsil. Milli iqtisadiyyat və ictimai təkrar istehsal 44
§1. Makroiqtisadiyyatın və milli iqtisadiyyatın dərkində ümumi və fərqli cəhətlər 44
§2. İctimai təkrar istehsal bütövlükdə iqtisadiyyatın mövcudluğunun əsası kimi 47
§3. İctimai istehsalın quruluşu 53
§4. Geniş təkrar istehsalın növləri, meyarları və göstəriciləri 59
§5. Təkrar istehsal sistemində iqtisadi məkan 64
III fəsil. Əsas makroiqtisadi göstəricilər və onların ölçülməsi 67
§1. İctimai məhsul və onun quruluşu. Milli hesabdarlıq 67
§2. Ümumi daxili məhsul (ÜDM) və ümumi milli məhsul (ÜMM). Makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqə sistemi 75
§3. Milli sərvət və onun istifadəsindən gələn gəlirin mənimsənilməsi. 87
§4. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi. Xalis iqtisadi rifah. 95
IV fəsil. Ümumi iqtisadi tarazlıq və makroiqtisadiyyatın səmərəliliyi 99
§1. Makroiqtisadi (ümumi) tarazlığın mahiyyəti və ən mühüm nəzəriyyələri. 99
§2. Milli iqtisadiyyatın səmərəliliyi haqqında ümumi təsəvvür 114
§3. Maksimum iqtisadi səmərəlilik konsepsiyası 125
V fəsil. Makroiqtisadi tarazlığın keynsçi modeli: istehlak, yığım və investisiyalar 133
§1. İstehlak və yığım 133
§2. İstehlaka və yığıma orta və son həddmeyllilik 134
§3. İstehlak və yığım qrafiklərinin yerlərinin dəyişməsinə təsir edən amillər 139
§4. İnvestisiya xərcləri və investisiya tələbi 143
§5. Makroiqtisadi tarazlığın sadə keynsçi modeli 145
VI fəsil. Makroiqtisadi tarazlığın pozulması və iqtisadi inkişaf tsikllərinin nəzəriyyəsi 158
§1. Tsikllər və tsikliklik iqtisadi sistemin inkişaf forması kimi 158
§2. İqtisadi tsikllərin növləri və böhranın əsas formaları 164
§3. İqtisadi tsikllərin ən mühüm nəzəriyyələri 176

§4. Tsiklikliyin səbəbləri və iqtisadi sistemlərin sabit qeyri-tarazlı vəziyyətini müəyyənləşdirən amillər 182
§5. Antitsiklik tənzimləmə. Sabitləşdirici proqramlar. 186
VII fəsil. İqtisadi qeyri-sabitlik və işsizlik 193
§1. Məşğulluq nəzəriyyəsinin təkamüllü inkişafı 193
§2. İşsizlik və onun növləri. İşsizliyin səbəbləri 197
§3. İşsizliyin göstəriciləri və onun dinamikasını müəyyənləşdirən amillər 209
§4. İqtisadi və sosial (qeyri-iqtisadi) xərclər. Ouken qanunu 215
§5. Əmək bazarının dövlət tərəfindən tənzimlənməsi 219
VIII fəsil. Makroiqtisadi qeyri-sabitlik və inflyasiya 225
§1. İnflyasiyanın mahiyyəti və növləri 225
§2. İnflyasiyanın şərtləri və səbəbləri 228
§3. İnflyasiyanın ölçülməsi mexanizmi və üsulları 234
§4. Antiinflyasiya siyasəti 241
IX fəsil. Pul sistemi və pul bazarının nəzəri modeli 249
§1. Pul tədavülü və pul sistemi. 249
§2. Pul kütləsi və onun hesablanma göstəriciləri 260
§3. Pul bazarı. Pul tələbi və təklifi 268
§4. Pul siyasəti: məqsədləri və alətləri 278
X fəsil. Kredit-bank sistemi 285
§1. Bazar iqtisadiyyatında kreditin funksiyaları və rolu 285
§2. Bankların və bank kreditləməsinin meydana gəlməsi. Kreditin formaları 292
§3. Kredit sistemi və müasir şəraitdə onun inkişafı 300
§4. Kommersiya bankları və bazar iqtisadiyyatında onların funksiyaları 315
§5. Mərkəzi bank və bazar iqtisadiyyatında onun funksiyaları 326
XI fəsil. Maliyyə və vergiqoyma və dövlət xərclərinin iqtisadi nəzəriyyəsi. Dövlət borcu 338
§1. Maliyyənin mahiyyəti və müasir cəmiyyətdə rolu 338
§2. Dövlət maliyyələrinin nəzəri konsepsiyaları və onların təkamülü 342
§3. Dövlət büdcəsi: formalaşma və istifadə yolları 347
§4. Vergiqoymanın və dövlət xərclərinin iqtisadi nəzəriyyəsi. Fiskal siyasət 351
§5. Büdcə kəsiri və dövlət borcunun ümumi xarakteristikası 361
XII fəsil. Sosial siyasət və iqtisadiyyatın və həyat keyfiyyətinin yüksəldilməsinin sosial-iqtisadi proqramları 372
§1. Sosial siyasətin mahiyyəti 372
§2. Cəmiyyətdə iqtisadi artım və həyat səviyyəsinin qarşılıqlı əlaqəsi 384
§3. İqtisadiyyatın yüksəldilməsi və yoxsulluğun ləğvi üzrə sosial proqramlar 400

II BÖLMƏ. MAKROİQTİSADİYYAT-2 402
XIII fəsil. İstehlakın modelləşdirilməsi 402
§1. İstehlakın neoklassik konsepsiyası 402
§2. Keynsçi istehlak konsepsiyası 410
§3. Modilyaninin həyat tsikli nəzəriyyəsi 413
§4. Monetarist konsepsiya (permanent gəlir nəzəriyyəsi) 417
XIV fəsil. İnvestisiyaların nəzəri modelləri 421
§1. Əsas kapitala investisiyaların neoklassik nəzəriyyəsi 421
§2. Tobin əmsalı və əsas kapitala investisiyalar 429
§3. Keynsçi investisiya nəzəriyyəsi 434
§4. Mənzil tikintisinə investisiyalar 440
§5. Ehtiyata investisiyalar 444
XV fəsil. Multiplikator-akselerator nəzəriyyəsi 447
§1. İstehlak və yığımın dinamikasını müəyyənləşdirən amillər 447
§2. İnvestisiyalar və onların dinamikasını müəyyənləşdirən amillər 450
§3. Multiplikator və akselerator modellərində investisiyalar 452
§4. Samuelson-Xiks modeli 457
§5. Teves modeli 463
XVI fəsil. Əmtəə bazarlarında tarazlıq 466
§1. Nemətlər bazarında tarazlıq 466
§2. Neoklassik modeldə nemətlər bazarında tarazlığın şərtləri 468
§3. Keynsçi modeldə nemətlər bazarında tarazlıq 471
XVII fəsil. Pul bazarı modelinin əsas parametrlərinin formalaşma prinsipləri 477
§1. Pula tələbin formalaşması 477
§2. Boumol-Tobinin nağd pulun idarə edilməsi modeli 488
§3. Pul təklifi və ona təsir edən amillər 492
§4. Pul bazarında tarazlıq. 505
§5. Mərkəzi bankın pul-kredit siyasəti və onun növləri 509
XVIII fəsil. Əmtəə və pul bazarlarının qarşılıqlı əlaqəsi: model IS-LM 532
§1. IS-LM modelinin nəzəri əsasları 532
§2. IS əyrisi, onun elastiklik və yerdəyişmə amilləri 533
§3. LM əyrisi, onun elastiklik və yerdəyişmə amilləri. 537
§4. IS-LM modeli və tarazlı vəziyyətin dəyişdirilməsi mexanizmləri. 540
XIX fəsil. Əmtəə və pul bazarlarının qarşılıqlı əlaqəsinin dövlətin iqtisadi siyasətinə təsiri 545
§1. IS-LM modelinin keynsçi və monetarist modeli 545
§2. Keynsçi və monetarist məktəblər baxımından fiskal siyasətin səmərəliliyi 548

§3. Pul-kredit siyasətinin səmərəliliyi: keynsçi və klassik yanaşmalar 552
§4. Qarışıq siyasət konsepsiyası: kompromis mümkündürmü? 555
XX fəsil. Büdcə-vergi siyasətinin iqtisadi proseslərə təsiri 562
§1. Büdcə-vergi siyasəti, onun məqsəd və vəzifələri 562
§2. Diskret və avtomatik büdcə-vergi siyasətinin aparılma mexanizmi 565
§3. Büdcənin balanslaşdırılması metodları və iqtisadiyyatın inkişafında büdcə defisitinin rolu 573
§4. Dövlət borcunun əsas modelləri və onun iqtisadiyyata təsiri 582
§5. Büdcə-vergi siyasətinin səmərəliliyinin qiymətləndirilmələri 594
XXI fəsil. İqtisadi artımın nəzəri modelləri 598
§1. İqtisadi artımın modelləşdirilməsinin genezisi və onun yeni keyfiyyətləri 598
§2. Neoklassik artım modelləri –bazarın mütləqləşdirilməsi 610
§3. Neokeynsçi artım modelləri –dövlətin mütləqləşdirilməsi 616
§4. Artımın institusional və yeniinstitusional modelləri – sosial sintez 621
§5. Rusiyada iqtisadi artım problemi 630
XXII fəsil. Milli dövlət maraqları və ölkənin iqtisadi təhlükəsizliyi 637
§1. İqtisadi təhlükəsizliyin məzmunu və strukturu. 637
§2. Cəmiyyət maraqlarının ümumi xarakteristikası 641
§3. İqtisadi təhlükəsizliyə və milli maraqlara xarici və daxili təhlükələr 649
§4. İqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmi 655
§5. İqtisadi təhlükəsizliyin səmərəlilik meyarı əsasında maraqların təzahür yetkinliyinin qiymətləndirilməsi 659

III BÖLMƏ. MEQAİQTİSADİYYAT 669
XXIII fəsil. Açıq iqtisadiyyatın müasir problemləri 669
§1. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlığının meyarları 669
§2. Dünya iqtisadiyyatının müasir quruluşu 676
§3. «Kapitalın qaçışı» problemi və milli iqtisadiyyat üçün onun nəticələri 680
XXIV fəsil. Nisbi üstünlüklər nəzəriyyəsi və onun müasir şərhləri 684
§1. A.Smit və D.Rikardonun mütləq və nisbi üstünlüklər nəzəriyyəsi 684
§2. Xekşer–Olin konsepsiyası 671
§3. Leontyev paradoksu 695
§4. Xekşer-Olin nəzəriyyəsinin genişlənməsi 701
§5. M.Porter konsepsiyası 706
§6. İnkişaf mərhələsi, vahid sivilizasiya və sivilizasiyaların toqquşma nəzəriyyələri. 708

XXV fəsil. İstehsal amillərinin beynəlxalq hərəkəti və onların dövlət tənzimlənməsi 713
§1. İstehsal amillərinin hərəkəti nəzəriyyələri. Kapitalın beynəlxalq hərəkəti....713
§2. İş qüvvəsinin beynəlxalq miqrasiyası və onun dövlət tənzimlənməsi....722
§3. Texnologiyanın beynəlxalq hərəkəti: mexanizmləri və dövlət tənzimləməsi....725
XXVI fəsil. Beynəlxalq valyuta münasibətləri və dünya valyuta sistemi....729
§1. Valyuta növləri və onların konversiya problemləri....729
§2. Valyuta məzənnələri və dünya valyutalarının təsnifatı....739
§3. Valyuta bazarında müvazinət və nominal valyuta məzənnəsini müəyyənləşdirən amillər....762
§4. Valyuta bazarları. Valyuta bazarında sövdələşmələrin növləri....764
§5. Rusiya valyuta bazarının xüsusiyyətləri....774
§6. Tədiyyə balansı: əsas parametrlər, mənbələr və təsnifat meyarları....779
IV BÖLMƏ. TRANSFORMASİYALAR İQTİSADİYYATI....792
XXVII fəsil. İqtisadi sistemlərin müasir transformasiyası....792
§1. Sistem anlayış və iqtisadi sistemin xüsusiyyəti kimi....792
§2. İqtisadi sistemlərin inkişafı və transformasiyası....799
§3. Yeni iqtisadiyyatın formalaşması və onun ən mühüm əlamətləri....807
XXVIII fəsil. Qloballaşmanın nəzəri problemləri....833
§1. Qloballaşma prosesinin mahiyyəti və fərqli xüsusiyyətləri....833
§2. Maliyyə və əmtəə bazarlarının qloballaşması....841
§3. Dünya təsərrüfat əlaqələrinin qloballaşmasının üstünlükləri və ziddiyyətləri....843
XXIX fəsil. Qloballaşma şəraitində inkişaf iqtisadiyyatının nəzəriyyəsi....852
§1. Dünya təsərrüfatının inkişaf iqtisadiyyatı: yoxsul və varlı ölkələr....852
§2. Dünya təsərrüfatında varlılıq və yoxsulluğun qütbləşməsinin səbəbləri....857
§3. Zəif inkişaf etmiş ölkələrin (LDC) inkişaf perspektivləri....863
Ədəbiyyat....868

ÖN SÖZ

«Rus həyatı rus torpağının fərdi xüsusiyyətlərinə əsaslanan öz milli iqtisadiyyatını işləyib hazırlamayıncayadək biz dəbdə olan müxtəlif təlimlər arasında var-gəl edəcək, növbə ilə gah birinə, gah da digərinə aludə olacağıq..,»[1].

Yeni yüzilliyin iqtisadi aləmi ictimai şüurda iqtisadi, sosial və mənəvi proseslərin dinamikasının dərkində keyfiyyət dəyişikliklərinin baş verməsi ilə səciyyələnir. Dünyanın elmi mənzərəsi dəyişir. Özü də dünya onun dərki prosesindən sürətlə dəyişir. Hazırda bütün dünya, o cümlədən Rusiya xüsusi turbolentlik və rekonstruksiya, az öyrənilmiş, lakin iqtisadi inkişaf üçün tamamilə qanunauyğun və mühüm meyillərin (iqtisadi sistemlərin transformasiyası, qloballaşma, texnoloji partlayış, kompyuterləşmə, ekoloji və iqtisadi təhlükəsizlik və s.) təzahürünü yaşayır.

Bir elm kimi iqtisadi nəzəriyyənin qarşısında duran əsas məsələ iqtisadi dünyanın necə qurulması sualına cavab verməkdir. Lakin bu gün dünya dəyişdiyindən, müasir iqtisadi nəzəriyyənin qarşısında duran məsələ dünyanın yeni izahı olur. Təəssüf ki, əvvəlki iqtisadi məktəblər bu məsələni həll etmirlər. Yalnız rus alimləri deyil, Qərbin ən məşhur iqtisadçı alimləri də klassik siyasi iqtisada və müasir ekonomiksə iradlarını bildirirlər. Yaranmış vəziyyətdən çıxış Rusiya Federasiyasının ali məktəblərində iqtisadi nəzəriyyə kursunun yeniləşdirilmiş nəşrinin öyrənilməsi və təlimi konsepsiya əsasında mümkündür.

Təqdim olunan dərslikdə iqtisadi nəzəriyyə kursu bu hesabla qurulur ki, C.M.Keynsin sözlərinə görə, müasir «ali dərəcəli iqtisadçı» çoxlu qabiliyyətlərin nadir uzlaşmasına, ən müxtəlif sahələrdə nəhəng həcmdə biliyə malik olmalı və özündə elə istedadları cəmləməlidir ki, onlar nadir hallarda bir kəsdə olur. O, müəyyən dərəcədə eyni zamanda riyaziyyatçı, tarixçi, dövlətşünas, filosof olmalıdır. O, işarələrin, simvolların dilini bilməli və öz anlayışları və konsepsiyaları-

1 Витте С. Принципы железнодорожных тарифов по перевозке грузов. 2-е изд.-Киев, 1884. - С. 162.

nı sözlərlə ifadə edə bilməlidir. O, fərdidə ümumini görə bilməli, eyni zamanda mücərrədi də, konkreti də beynində saxlamalıdır. O, gələcəyi görə bilmək naminə indini keçmişin işığında öyrənməlidir. İnsan təbiətinin və onun institutlarının heç bir cəhətini iqtisadçı tamamilə diqqətindən kənarda qoymamalıdır...[1]

Müasir iqtisadiyyatın avtomatlaşdırılması və informatizasiyası şəraitində sadəcə yaradıcı təfəkkür qabiliyyəti deyil, həm də qeyri-formal addımlara, qeyri-ordinar qərarlar və hərəkətlərə, yeniliklərə qabil olmaq – budur mütəxəssislərə əsas tələb. Bu halda ön plana təfəkkür aparatının inkişafına rəvac verən nəzəri biliklər çıxır. Nəzəriyyəçi alimlərin müxtəlif təlimləri, nəzəriyyələri və baxışlarının təhlili əsasında müstəqil düşünməyi öyrətmək iqtisadi nəzəriyyə kursunun öyrənilməsində və tədrisində ən mühüm məsələ olur.

Bu gün Rusiyada iqtisadi nəzəriyyə kursunda, əslində, ekonomiks kursu keçilir. Bu onunla izah olunur ki, dünya təhsil xidmətləri bazarında Amerika məktəbi liderlik edir. Bunu istəsək də, istəməsək də, tələbələrimizə ekonomiksə dair biliklər verməliyik ki, bizim ali məktəbləri bitirən mütəxəssislər yalnız Rusiyada deyil, bütün dünyada özünə yer tapa bilsin.

Bu «İqtisadi nəzəriyyə» dərsliyi, müəllif kollektivinin fikrincə, bu məsələni həll edir. Lakin burada eyni zamanda vurğulanır ki, iqtisadi nəzəriyyə ekonomikslə eyni deyil (əks təqdirdə elmi dövriyyəyə yeni məfhumu daxil etməyin mənası olmazdı). Rusiya iqtisad elmində «iqtisadi nəzəriyyə» məfhumunun yaranması təsadüfi deyil. Bu yalnız dünyada yaranmış vəziyyət, Rusiyanın xüsusi vəziyyəti, Rusiya nəzəriyyəçi alimlərinin müxtəlif iqtisadi məktəblərin (aralarında ciddi fikir ayrılığı olanların) nümayəndələrinin barışdırmaq istəyi ilə deyil, həm də elmin inkişaf qanunları, hazırkı mərhələdə iqtisadi fikrin nailiyyətlərinin inteqrasiyasının zəruriliyi ilə izah olunur.

1 Кейнс Дж.М. Альфред Маршалл (1842-1924) // Маршалл А. Принципы экономической науки.- М.: Прогресс, 1993. Т.I.- С. 11-12.

Həm elm, həm də tədris fənni kimi iqtisadi nəzəriyyənin məzmununu mikroiqtisadiyyatın nəzəri problemləri (İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat – 1,2. Mezoiqtisadiyyat: Dərslik.- M.: İTK «Daşkov i K°», 2004) və makroiqtisadiyyatın nəzəri problemləri təşkil edir. Məhz sonunculara hazırkı «İqtisadi nəzəriyyə. Makroiqtisadiyyat – 1,2. Metaiqtisadiyyat. Transformasiya iqtisadiyyatı» dərsliyi həsr olunmuşdur. Dərsliyin belə strukturu, birincisi, ali məktəbdə modul təhsil formasına keçidlə, ikincisi və daha vacibi isə, dünya və milli iqtisadiyyatlarda baş verən əsaslı dəyişikliklərin, dünyadakı yeni meyillərin, iqtisadi sistemlərdəki yeni hadisələr və qanunların, Rusiya iqtisadiyyatının spesifikasının nəzərə alınması ilə şərtlənir.

İqtisadi fikrin nailiyyətlərini özündə cəmləyən və oxuculara təqdim olunan iqtisadi nəzəriyyə kursunda əsas diqqət aşağıdakılara yetirilir:

- iqtisadiyyata baxışların təkamülü. Buna görə də fənnin hər bir mövzusu, bir qayda olaraq, həmin problem üzrə iqtisadi fikrin işıqlandırılmasından başlayır;
- iqtisadi nəzəriyyənin əsas metodoloji müddəalarını dərk etmədən müasir aləmi başa düşmək mümkün deyil;
- yaranışdan obyektiv olaraq insana verilmiş fiziki aləmdən (təbiətdən) fərqli olaraq insanla bağlı iqtisadi sistemlərin təhlilinə. İnsan bu sistemin mərkəzi, nüvəsi olur. İqtisadiyyat insansız, onun tələbatları və maraqları nəzərə alınmadan mövcud ola bilməz. Lakin ayrı-ayrı iqtisadi sistemlərdə insan davranışının öz spesifikası var;
- beynəlxalq tələblərə müvafiq olaraq iqtisadi nəzəriyyə kursuna mütləq bütün bölmələrin («modulların») salınmasına;
- yaranmış iqtisadi vəziyyəti düzgün qiymətləndirmək məqsədilə dünya təcrübəsindən, ələlxüsus, Rusiyada istifadə etmək üçün həmin problemin müxtəlif ölkələrdə vəziyyətinə.

Təklif olunan iqtisadi nəzəriyyə kursunun öyrənilməsinin məqsəd və vəzifələri:

• bazar iqtisadiyyatının həm mikro-, həm də makrosəviyyədə fəaliyyətinin prinsipləri və qanunları haqqında ümumi təsəvvür yaratmaq;

• iqtisadi təhlilin spesifikası ilə tanış etmək;

• əsas iqtisadi kateqoriyaların, əmtəə, pul, bazar, tələb, təklif, tarazlıq, səmərəlilik, rəqabət, inhisar, inflyasiya, işsizlik və s. kimi anlayışların məzmununu açmaq;

• ən mühüm əmsalların, indeks və göstəricilərin hesablanma vərdişlərini aşılamaq;

• müxtəlif bazar strukturlarında və müxtəlif bazarlarda qiymətin əmələ gəlməsi spesifikası ilə tanış etmək;

• əlavə informasiya mənbələri ilə işləməyi öyrətmək.

Hazırkı dərsliyin xüsusiyyəti bundadır ki, o iqtisadi nəzəriyyənin və dünya sivilizasiyasının praktikasına əsaslanır, onda iqtisadi nəzəriyyənin tədrisini dünya praktikasına, dünya standartlarına yaxınlaşdırmağa cəhd edilmişdir. Ümumbəşəri əhəmiyyət kəsb edən kateqoriya, qanun, forma və metodların öyrənilməsinə xüsusi diqqət yetirilir.

«İqtisadi nəzəriyyə» dərsliyi əsasən Q.V.Plexanov adına Rusiya İqtisad Akademiyasının (Q.V.Plexanov ad. RİA) iqtisadi nəzəriyyə kafedrasının müdiri, RF-nın əməkdar elm xadimi, iqtisad elmləri doktoru, prof. Q.P.Juravlyovanın ümumi elmi redaktəsi ilə (bu kitabın I və II hissələri) iqtisadi nəzəriyyə kafedrasının müəllif kollektivi tərəfindən hazırlanmışdır. Redaktor qismində «Makroiqtisadiyyat-2», «Metaiqtisadiyyat» və «Transformasiya iqtisadiyyatı» bölmələrinin qismən redaktəsini həyata keçirmiş prof.A.K.Sapor böyük köməklik göstərmişdi.

Bəzi fəsillərin yazılması üçün Rusiya Federasiyasının digər ali məktəblərindən iqtisadçı-müəllimlər dəvət olunmuşlar.

Müəlliflər bu dərsliyin nəşri ilə bağlı fikirlərini söyləmiş və onun strukturu və məzmunu ilə bağlı dəyərli qeydlərini bildirmiş rəyçilərə minnətdardırlar və təşəkkürlərini bildirirlər.

Minnətdarlıqla qeydlər və təklifləri, oxucu rəylərini qəbul etməyə hazırıq, bu barədə aşağıdakı ünvana yazmaq olar: 115998, Moskva, Stremyannı dal., ev 36. Q.V.Plexanov ad.RİA, İqtisadi nəzəriyyə kafedrası.

I BÖLMƏ. MAKROİQTİSADİYYAT-1

I FƏSİL. MAKROİQTİSADİYYATA GİRİŞ (MAKROİQTİSADİ PROBLEMLƏRİN ÖYRƏNİLMƏ METODOLOGİYASI)

§1. Makroiqtisadiyyatın tədqiqat predmeti.
§2. Əsas məktəblərin nümayəndələrinin makroiqtisadi proseslərə baxışları.
§3. Makroiqtisadi proseslərin tədqiqi metodologiyası.
§4. Makroiqtisadiyyatda istifadə olunan əsas anlayışlar.

§1. Makroiqtisadiyyatın tədqiqat predmeti

Müasir iqtisadi nəzəriyyə iqtisadiyyatın bütövlükdə fəaliyyətinə aid olan problemlərin öyrənilməsini nəzərdə tutur. Onlar əsasən hər bir subyektə toxunur, çünki işsizlik, inflyasiya, valyuta kursu, iqtisadi konyunktura və s. problemlər bizim heç birimizdən yan keçmir. İqtisadi nəzəriyyənin bir hissəsi olduğundan makroiqtisadiyyat tamamilə təcrid olunmuş nəzəri fənn deyil, o mikroiqtisadi hadisələrlə kifayət qədər sıx bağlıdır. Eyni zamanda, iqtisadi nəzəriyyənin müstəqil bölməsi olduğundan, makroiqtisadiyyatın özünün tədqiqat predmeti və nəzərdən keçirdiyi problemlər dəsti var. İqtisadiyyatın fəaliyyət qanunauyğunluqlarının dərketmə üsullarının da müəyyən spesifik xüsusiyyətləri var. Bu fəsildə biz makroiqtisadiyyatın tədqiqat predmetini və makroiqtisadi proseslərin öyrənilməsinin özəlliklərini müəyyənləşdirəcəyik.

Makroiqtisadiyyat – iqtisadi nəzəriyyənin iqtisadiyyatın bütövlükdə fəaliyyət mexanizmini öyrənən hissəsidir. O bir çox mühüm problemləri – məşğulluq, milli gəlirin səviyyəsi, inflyasiya, valyuta kursu, tədiyyə balansı - qarşılıqlı əlaqədə nəzərdən keçirir. Bir müstəqil fənn kimi makroiqtisadiyyatın meydana gəlməsi Con Meynard Keynsin adı ilə bağlıdır. Makroiqtisadiyyatın iqtisadi nəzəriyyənin müstəqil hissəsi kimi formalaşmasına XX əsrin 20-30-cu illərindəki

iqtisadi dəyişikliklərin, o cümlədən Böyük depressiyanın güclü təsiri olmuşdur. İstehsalda azalma, işsizlik, bazarın iqtisadiyyatdakı ümumi tarazlığı bərpa etmək iqtidarında olmaması – bütün bunlar makroiqtisadi nəzəriyyələrin formalaşması üçün başlanğıc oldu. Makroiqtisadiyyat iqtisadiyyatda yaranan problemlərin həllindən «toxunmuşdur». C.M.Keynsin «Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi» kitabında onlardan XX əsrin 40-70-ci illərində tədqiqatların əsasını təşkil edənlər müəyyənləşdirilmişdir. Makroiqtisadi problemlərin öyrənilmə mexanizmi aşağıdakı problemlərin nəzəri həllindən ibarətdir:

1.Məşğulluq səviyyəsini müəyyənləşdirən amillərin aşkar edilməsi.

2.İşsizliklə mübarizə metodlarının müəyyənləşdirilməsi.

3.Pulun rolunun və pula tələbi müəyyənləşdirən amillərin öyrənilməsi.

4.Nemətlər və pul bazarları arasında qarşılıqlı əlaqəni təmin edən əsas vasitəçi kimi faiz dərəcəsinin rolunun təhlil edilməsi.

Müasir iqtisadi nəzəriyyə iqtisadi dinamika, inflyasiya, dövlət borcu, dövlətin, digər institutların iqtisadi siyasəti, beynəlxalq iqtisadiyyatın problemlərini tədqiq etməklə bu siyahını genişləndirdi.

Makroiqtisadiyyat mikroiqtisadiyyatla kifayət qədər sıx bağlıdır. Elmin müstəqil bölməsi kimi makroiqtisadiyyat mikroiqtisadiyyatdan azı yarım əsr gec formalaşmışdır, lakin iqtisadi nəzəriyyənin bu iki bölməsi arasında müəyyən qarşılıqlı əlaqə var. O, tarixən müəyyənləşir və onun praktik əsaslandırılması var. Alfred Marşallın dövründən iqtisadi nəzəriyyədə mikroiqtisadiyyat hökmranlıq edib və avtomatik olaraq nəzərdə tutulurdu ki, fərdi bazar tarazlığı prinsipi bütün iqtisadiyyata şamil edilir. Böyük depressiyanın bütün Amerika iqtisadiyyatı üçün destruktiv nəticələri bu postulatı dağıtdı və bütövlükdə iqtisadiyyatın özünün mexanizminin əsaslandırılmasını tələb etdi.

8801

Mikroiqtisadiyyatla makroiqtisadiyyatın tədqiqat predmetləri və metodları arasında xeyli fərq var. Mikroiqtisadiyyatda ayrılıqda götürülmüş bazarda qiymətin müəyyənləşdirilməsi mexanizmi, istehlakçının davranışı və istehsalçının istehsalın həcmi barədə qərar qəbul etməsinin motivasiyası öyrənilir.

Makroiqtisadiyyatda iki əsas bazar: əmtəə və xidmətlər bazarı və pul bazarı nəzərdən keçirilir. Lakin mikroiqtisadi tədqiqatdan fərqli olaraq makroiqtisadiyyat iqtisadiyyatda tarazlıq mexanizmini əmtəə və pul bazarlarında ümumi tarazlıq və onların qarşılıqlı əlaqəsi vasitəsilə müəyyənləşdirməyə çalışır. Mikroiqtisadiyyatda olduğu kimi, makroiqtisadiyyatda da bu tarazlıq mücərrəd və idealdır. İşsizliyin, inflyasiyanın, dövlət borcunun, milli istehsalın həcmində artıb-azalmaların meydana gəlməsi tarazlığın pozulmasının təzahürüdür. Makroiqtisadiyyat əsasən tarazlığın pozulmasının nəticələrini öyrənir, onları qiymətləndirir, onların mənfi təsirinin azaldılması üsullarını təklif edir.

Lakin makroiqtisadiyyat iqtisadi nəzəriyyənin mikroiqtisadiyyatdan tamamilə ayrı olan təcrid olunmuş hissəsi deyil. Makroiqtisadiyyatda eləcə də mikroiqtisadiyyatda fəaliyyət göstərən subyektlər: firmalar, ev təsərrüfatları və dövlətlər fəaliyyət göstərirlər. Onların bir çox hərəkətləri, qəbul edilmiş ümumi qərarların nəticələri yalnız ayrı-ayrı subyektlərin iqtisadi fəaliyyətinə deyil, həm də bütün iqtisadiyyata təsir edəcək. Məsələn, istehsalın ümumi azalması şəraitində investisiyalar üçün həvəsləndirmə olmur. Ayrıca bir firma üçün bu, daha az istehsal həcmində gəlirin yeni maksimallaşdırılması nöqtəsinin tapılması, bütün iqtisadiyyat üçün isə milli istehsalın yenə də azalması deməkdir. Ev təsərrüfatları daha az gəlir əldə edəcəklər, iqtisadiyyat üçün bu, istehsal olunmuş əmtəənin bir hissəsinin satılmaması deməkdir. Buna görə də makroiqtisadi tədqiqatlarda mikroiqtisadi problemlər də özünə yer alır.

Bütövlükdə makroiqtisadiyyatda aşağıdakı əsas tədqiqat istiqamətlərini fərqləndirmək olar:

1. İstehlak nəzəriyyəsi istehlakçı xərclərinin dinamikasını müəyyənləşdirən əsas amili fərqləndirir.

2. İnvestisiya qərarlarının qəbul edilməsi nəzəriyyəsi, iqtisadiyyatda investisiya tələbləri həcminin dəyişməsi haqqında qərarların qəbul edilməsində xüsusi firmaların maraqları nədən ibarətdir, sualına cavab verir.

3. Pul nəzəriyyəsi pula tələbin nə ilə müəyyənləşməsi və müasir iqtisadiyyatda pulun rolu necədir, suallarına cavab verir.

4. Məşğulluq nəzəriyyəsi yol verilən işsizlik səviyyəsini, məcburi işsizliyin səbəblərini, işsizliyin ÜDM-in dinamikasına təsirini öyrənir.

5. İqtisadi artım nəzəriyyəsi iqtisadi artımın optimal tempini, onun mənbə və nəticələrini müəyyənləşdirir. İqtisadiyyat inkişaf xarakteri daşıdığından makroiqtisadiyyat iqtisadiyyatın keyfiyyətcə yeni mərhələyə keçməsi şərtlərini, yəni iqtisadi artım şərtlərini aşkarlamalıdır.

6.İqtisadi tsikllər nəzəriyyəsi inkişafın fazalarını, onların parametrlərini, böhranlı hadisələrinin yaranma səbəblərini tədqiq edir.

7.İqtisadi siyasət nəzəriyyəsi. Makroiqtisadiyyatda prinsipial məsələlər həll olunur: dövlət iqtisadiyyatı tənzimləməlidirmi, iqtisadiyyatı dövlət tənzimləməsinin prinsipləri, metodları və hədləri necədir.

8.Beynəlxalq iqtisadiyyatın nəzəriyyəsi. XX əsrin 90-cı illərinin sonunda qloballaşma problemlərinin tədqiqi xüsusi rol oynamağa başladı.

9.Keçid iqtisadiyyatı nəzəriyyəsi. Makroiqtisadiyyatın bu bölməsinin yaranması sabiq sosialist ölkələrində «yeni» iqtisadiyyatın formalaşması ilə bağlıdır.

Makroiqtisadiyyatda tədqiqat istiqamətlərinin müəyyən xüsusiyyətləri var:

- İlk iki problem daha çox mikroiqtisadi səciyyəli olsa da, makroiqtisadi konsepsiyalar onların zəminində formalaşır.
- Keçid iqtisadiyyatı nəzəriyyəsi müstəqildir və müəy-

yən iqtisadiyyat tipinə aiddir. Bununla belə o, bütün əvvəlki problemləri özündə ehtiva edir və onların həllini təklif edir.

Bütün bu sadalanan tədqiqat istiqamətləri təcrid olunmuş səciyyəli deyil. Onların həll variantları qarşılıqlı əlaqədar olmalıdırlar ki, bütün iqtisadiyyatın fəaliyyət konsepsiyası formalaşa bilsin.

Milli iqtisadiyyat strukturuna görə çox rəngarəngdir. Onun inkişafı yalnız daimi artımdan ibarət deyil. İstənilən iqtisadiyyatda həm artım, həm tənəzzül var. Mikroiqtisadiyyatın qarşısında iqtisadiyyatda yarana biləcək ümumi tarazlığın şərtlərini müəyyənləşdirmək məsələsi durur. Bunun üçün əsas problemlər: istehlak, investisiyalar, dövlətin müdaxiləsi, işsizlik, faiz dərəcəsi, qiymət səviyyələrinin dəyişməsi və s. arasındakı qarşılıqlı əlaqəni aşkar etmək lazımdır. Nəticədə iqtisadiyyatın **vahid iş mexanizmi** yaradılmalıdır. Makroiqtisadiyyatda o, konsepsiya şəklində təzahür edir.

İqtisadiyyatın fəaliyyət konsepsiyası bir neçə problemin həllindən ibarət olmalıdır:

- Milli məhsulun dəyər etibarı ilə qiymətləndirilməsi.
- Məşğulluğun optimal səviyyəsinin əldə olunması.
- İnflyasiya.
- İqtisadi artım.
- İqtisadi tsikl.
- Dövlət siyasəti, onun istiqamətləri və səmərəliliyi.

Bir elm kimi makroiqtisadiyyat müxtəlif məktəblərlə təmsil olunub və onların nümayəndələrinin əsas problemlərə baxışları fərqlidir. Makroiqtisadi tədqiqatların mikroiqtisadi tədqiqatlardan bir fərqi də bundadır. Mikroiqtisadiyyatda tədqiqata yanaşmalarda bir-birindən əsaslı şəkildə fərqlənən yanaşmalar yoxdur.

Beləliklə, makroiqtisadiyyatın problematikası bazar iqtisadiyyatının fəaliyyət göstərməsinin müxtəlif məktəblərin nümayəndələrinin nəzəri baxışlarına əsaslanan ***bitkin konsepsiyasının*** yaradılması ilə bağlıdır.

Makroiqtisadiyyatda ***tədqiqatın xüsusiyyəti*** eyni bir problem üzrə bir neçə baxışın və ya modelin olmasındadır.

İqtisadiyyatın fəaliyyət göstərməsi, onun problemləri və onların həlli barədə əsas alternativ təsəvvürlər müxtəlif məktəblərdə formalaşıb. Ən dəyərli nəzəri konsepsiyalar aşağıdakılardır:

- neoklassik;
- keynsçi;
- monetarist;
- institusional.

Məhz bu məktəblər arasında tədqiqatın ilkin verilənləri, iqtisadiyyatın fəaliyyət göstərməsi, ayrı-ayrı bazarların qarşılıqlı əlaqəsinin qanunauyğunluqlarının aşkarlanması və onlar arasındakı əlaqənin xarakteri, iqtisadi siyasətin aparılması və prioritetləri haqqında təsəvvürlər xeyli fərqlənirlər.

§2.Əsas məktəblərin nümayəndələrinin makroiqtisadi proseslərə baxışları

Klassik məktəb iqtisadi nəzəriyyədə XX əsrin 30-cu illərinə qədər üstünlük təşkil edib. Makroiqtisadiyyat həmin dövrə qədər bütöv bir elm kimi formalaşmadığından onda nə vahid bir konsepsiya, nə də ideyanı ifadə edən bir kimsə yoxdur. Ayrı-ayrı məsələlərin və makroiqtisadi problemlərin tədqiqi və şərhini A.Smitin, D.Rikardonun, K.Marksın, L.Valrasın əsərlərində tapmaq olar. Bu istiqamət bütövlükdə ortodoksal klassikadır. Ən sistemləşdirilmiş şəkildə bu konsepsiya A.Marşallın «İqtisadi nəzəriyyənin prinsipləri» kitabında və Kembric məktəbinin digər nümayəndələrinin əsərlərində verilmişdir. Klassik məktəbin ənənələrinin davam etdirilməsində ən ardıcıl olanlar neoklassiklərdir.

Bu məktəbin əsas ideyaları aşağıdakılardır:

- İqtisadiyyat mahiyyətinə görə *təkmil rəqabət iqtisadiyyatıdır*. Qeyri-təkmil rəqabətin meydana gəlməsi təsadüfi hal olub iqtisadi təbiətin nə mahiyyətini, nə də xarakterini dəyişmir.
- İqtisadiyyat həmişə tarazlıqdadır. Qeyri-tarazlıq və-

ziyyəti təsadüfi səciyyəlidir, iqtisadiyyatın özü onu aradan qaldırır. Tarazlığın bərpa olunması Sey qanunu- nun əsasında baş verir ki, bu qanuna görə təklif tələbi doğurur. Buna görə də təklifin dəyişməsi tələbin dəyişməsinə səbəb olacaq və iqtisadiyyat yenidən tarazlıq vəziyyətinə qayıdacaq.

• Bütün istehsal amillərindən tam istifadə olunur. Təklifin səviyyəsi potensial səviyyədədir.

• Təklifin həcmi yalnız nağd istehsal amilləri ilə müəyyənləşir. Bütün amillər qarşılıqlı əvəzlənəndir.

• İqtisadiyyat özütənzimlənən olduğundan dövlətin ona təsiri minimal olmalıdır. Dövlət iqtisadiyyatı kağız pullarla təmin edir, öz maliyyə bazasını formalaşdırmaq üçün vergiləri yığır.

• İqtisadiyyat özütənzimlənəndir. Onun özündə olan tənzimləyicilər bunlardır:

- əməkhaqqı;
- qiymət;
- faiz dərəcəsi.

Özü tənzimlənən stabilləşdiricilər iqtisadiyyata, xarici müdaxiləyə müraciət etmədən, tarazlığı bərpa etməyə imkan verirlər. Xarici müdaxilə dedikdə dövlətin iqtisadiyyatı müstəqil tənzimləməsi başa düşülür.

• «Məcmu tələb – məcmu təklif» modelində əsas rol məcmu təklifə verilir.

• Qiymətlər tamamilə çevikdir, çünki onlar qısa müddət ərzində həm artma, ham də azalma istiqamətində dəyişə bilirlər.

• İqtisadiyyatda tam məşğulluq var. İşsizlik müvəqqəti xarakter daşıyır, çox vaxt könüllü olur. İşçilər istehsalın aşağı düşməsi şəraitində azala bilən daha az əməkhaqqına işləməkdənsə, işsiz olmağa üstünlük verirlər. Lakin yüksəliş mərhələsində bu əməkhaqqı artacaq.

• Klassiklər ***klassik dixotomiya*** vəziyyətindən çıxış edirdilər. İqtisadiyyat iki müxtəlif sektora bölünür:

- pul;

- real.

Bütün real bazarlar (əmtəə, torpaq, kapital və əmək) tarazlıqdadırlar. İqtisadiyyatın inkişafına əsas təsiri real sektor göstərir.

Pul və real bazarların fəaliyyəti müstəqil səciyyəlidir, pul və real sektorların bir-birinə qarşılıqlı təsiri minimaldır.

• Pullar iqtisadiyyata müstəqim təsir göstərmirlər və hesablama vahidi və tədavül vasitəsi vəzifəsini yerinə yetirirlər.

• İqtisadi subyektlər öz mənfəətlərinin maksimallaşdırılmasından çıxış edərək *rasional* fəaliyyət göstərirlər. Məsələn, firma üçün daha çox mənfəət əldə etmək, ev təsərrüfatına isə istehlakı artırmaq vacibdir. Subyektlərin qəbul etdikləri bütün qərarlar iqtisadi konyunkturanın böyük təsiri altında olur.

• Klassik yanaşma subyektiv qiymətləndirmədən azaddır, o, kifayət qədər obyektivdir.

• Neoklassik məktəbin əsas nümayəndələri R.Solou, T.Sarjent, R.Lukas, N.Uollesdir.

Keynsçi məktəb. Onun banisi C.M.Keynsdir. O, makroiqtisadiyyatı bütöv sistem kimi nəzərdən keçirir və klassik məktəbin bütün postulatlarını inkar edirdi. Keynsçilərin fikrincə, iqtisadiyyat klassik məktəb tərəfindən real iqtisadi prosesləri əks etdirməyən ideal, mücərrəd model kimi nəzərdən keçirilirdi.

Keynsçi konsepsiyanın əsas müddəaları aşağıdakılardır:

• İqtisadiyyat təkmil rəqabət iqtisadiyyatı deyil. Əksinə, bazarların qeyri-təkmilliyi müasir iqtisadiyyata xasdır.

• İqtisadiyyat çox vaxt qeyri-tarazlıq vəziyyətində olur, ümumi tarazlıq nadir hallarda əldə olunur və bu, ani xarakter daşıyır.

• Bazarın özü ümumi tarazlığın bərpa edilməsi problemini həll edə bilmir. Tarazlığın bərpa olunması, bir çox problemlərin həll edilməsinə görə məsuliyyəti dövlət öz üzərinə götürməlidir. Dövlətin iqtisadiyyata müdaxiləsi obyektiv

xarakter daşıyır.

İqtisadi prosesləri təshih etmək üçün dövlətin maliyyə və maddi imkanları var. Pul bazarında tarazlığın bərpa edilməsini o, büdcə-vergi siyasətinin köməkliyi ilə aparacaq və bunun aparılması üçün resurs dövlət büdcəsi olacaq. Büdcə-vergi siyasətini hökumət aparır. Pul bazarında vəziyyəti dövlət Mərkəzi (emissiya) bankın apardığı siyasət vasitəsilə düzəldəcək. O, pul-kredit siyasətinin aparılması üçün onda olan bütün imkanlardan istifadə edəcək.

• «Məcmu tələb-məcmu təklif» modelində aparıcı rol *məcmu tələbə* məxsusdur. Dövlət müdaxiləsi məcmu tələbin və ya iqtisadiyyatda ümumi xərclərin artmasını həvəsləndirməlidir.

• Klassik məktəbin iqtisadiyyatın özünübərpası haqqında fikri özütənzimlənən stabilləşdiricilərin fəaliyyətinə söykənsə də əslində belə deyil. İnstitusional amillərin (uzunmüddətli müqavilələr) və subyektlərin davranışlarının subyektiv xüsusiyyətlərinin, iqtisadiyyatın gələcəyi haqqında onların proqnozlarının təsiri səbəbindən qiymətlər çevik deyillər.

Faiz dərəcəsi iqtisadiyyatda yeganə tənzimləyici rolunu oynaya bilməz, çünki qənaətlə yığılmış pulun mülkiyyətçisi ilə investorların maraqları üst-üstə düşmür.

Əməkhaqqı konyunktura dəyişdikcə dəyişilə bilməz, çünki onun səviyyəsi uzunmüddətli əmək müqavilələrində təsbit olunur.

İqtisadiyyat üçün məcburi işsizlik xasdır.

• İqtisadi subyektlər *qeyri-rasional* fəaliyyət göstərirlər, onlar ənənələr, sosial şərtiliklər, davranış psixologiyası kimi subyektiv amilləri əldə rəhbər tuturlar.

• Pullar sərvətdir və onların müstəqil dəyəri vardır.

• Bütün bazarlar qarşılıqlı əlaqədardır və onların birindəki istənilən dəyişikliklər digərlərində dəyişikliklərə səbəb olur. Pul bazarı və real bazar arasında müəyyən qarşılıqlı təsir mexanizmi mövcuddur.

• İstehsal amilləri qarşılıqlı əvəzlənən deyillər, onlardan tam istifadə olunmur, buna görə də bazar iqtisadiyyatı üçün əsas problem potensial ÜDM səviyyəsinə çatmaqdır.

Monetarizm. Keynsçilər XX əsrin 30-cu illərinin ortalarında klassikləri tənqid etməklə aparıcı məktəbə çevrildikləri kimi, monetaristlər də 70-ci illərdə onların əsas postulatlarını tənqid edərək onların yerini tutdular. Monetarizm müasir iqtisadi nəzəriyyədə ən maraqlı cərəyanlardan biridir. Monetarist nəzəriyyəsinin əsasında permanent gəlir ideyası və pul tələbi nəzəriyyəsi durur.

Monetarist konsepsiyaya görə:

• İqtisadi subyektlər *uyğunlaşma gözləmələri* nəzəriyyəsinə müvafiq hərəkət edirlər.

• Ev təsərrüfatları öz gəlirlərini cari gəlirdən deyil, daimi (permanent) gəlirdən çıxış edərək planlaşdırırlar.

• İqtisadiyyata dövlət müdaxiləsi iqtisadiyyatın təbiətinə ziddir, lakin bununla barışmaq lazım gəlir. Dövlət çoxdandır ki, pul bazarındadır, nağd pulların emitentidir. Buna görə də o, birinci növbədə iqtisadiyyatın pul sektorunun tənzimlənməsi ilə məşğul olmalıdır. Tənzimlənmənin məqsədi pul kütləsinin artım dinamikasının dəyişdirilməsidir.

• Dövlətin iqtisadiyyatın real sektoruna müdaxiləsi arzuolunmazdır, çünki, birincisi, dövlət investisiyaları fərdi investisiyalardan az səmərəlidir. Bu ona görə baş verir ki, dövləti mənfəət narahat etmir, onun investisiyalarının məqsədi sosial, ümumiqtisadi problemlərin həllidir. Dövlətin investisiya qərarlarının motivasiyası bazar iqtisadiyyatı subyektlərinin fəaliyyət prinsipləri ilə uzlaşmır. İkincisi, dövlətin əmtəə və xidmətlər alışının artması yalnız dövlətin gəlirlərinin artması hesabına mümkündür. Dövlətin əsas gəlir tiplərindən biri vergi gəlirləridir. Onları artırmaq üçün dövlət müəssisənin vergilərini artırmalıdır. Xüsusi biznesin

Cədvəl 1.1

Aparıcı məktəblərin əsas müddəalarının müqayisəli təhlili

Göstəricilər	Neoklassik məktəb	Keynsçi məktəb	Monetaristlər
Subyektlərin motivasiyası	Rasional gözləmələr	Subyektiv motivasiya	Adaptiv gözləmələr
Pul	Pulun müstəqil dəyəri yoxdur, o, hesablama vahididir	Sərvətdir	Pul aktiv növlərindən biridir
Bazarların qarşılıqlı əlaqəsi	Bazarlar bir-biri ilə əlaqədar deyil	Bazarlar qarşılıqlı əlaqədardır	Uzunmüddətli dövrdə bazarlar neytraldır, qısamüddətli dövrdə pul bazarının dəyişməsi ilkindir
Subyektlərin fəaliyyətinin motivasiyası	Daha çox gəlir əldə edilməsi. Subyektlər rasional fəaliyyət göstərirlər	İnstitusional və psixoloji amillərin əhəmiyyəti böyükdür	
Qiymətlər	Çevikdir	Çevik deyillər (institusional amillərin təsiri)	Çevikdir
İqtisadiyyat	Təkmil rəqabət iqtisadiyyatı	Özütənzimlənən deyil	İdeal bazara yaxınlaşdırılmalıdır
İstehsal amilləri	Qarşılıqlı əvəzlənəndirlər	Qarşılıqlı əvəzlənən deyillər	Qarşılıqlı əvəzlənəndirlər

Cədvəl 1.1-in davamı

Dövlət siyasətinin istiqamətləri	Dövlət yalnız nağd pulun emitenti, vergi yığandır	Büdcə-vergi və kredit-pul. Məqsəd məcmu tələbi həvəsləndirməkdir	Kredit-pul (prioritet istiqamət). Məqsəd məcmu təklifi həvəsləndirməkdir
Məşğulluq	Tam məşğulluq mövcuddur	Natamam məşğulluq, məcburi işsizlik	Təbii işsizlik – iqtisadiyyat üçün normal hadisə
İqtisadiyyatda tarazlıq	Real sektorun bütün bazarları daim tarazlıqdadır	Tarazlıq anidir, o daha çox istisnadır	Tarazlıq tam məşğulluq vaxtı əldə olunur. Tarazsızlıq dövlətin fəaliyyətindən doğur
Tənzimləyicilər	Qiymətlər, əməkhaqqı, faiz dərəcəsi	Dövlət siyasəti (dövlətin əmtəə və xidmətlər alışı, vergilər)	Pul kütləsi

investisiya fəaliyyətinə həvəsi azalır və o tədricən dövlət investisiyası ilə əvəzlənir. Lakin tarixi təcrübə göstərir ki, dövlətin real sektorda iştirakı iqtisadiyyatın bütövlükdə səmərəliliyini azaldır.

- Dövlətin məqsədi bazar mexanizminin əsaslarını saxlamaqla iqtisadiyyatın sabitliyini təmin etməkdir.
- Dövlət bütün əmək qabiliyyətli vətəndaşların hamısını işlə təmin etməyə can atmamalıdır, iqtisadiyyatda obyektiv olaraq həmişə müəyyən qədər işsiz şəxs mövcuddur. Onları «təbii işsizlik» elementlərinə aid etmək olar. Dövlət məşğulluq səviyyəsini təbiidən aşağıda müəyyənləşdirməyə cəhd edərsə, bu, inflyasiya hadisəsinə səbəb ola bilər.
- İqtisadiyyatda vəziyyəti dəyişmək üçün məcmu təkli-

fi tənzimləmək lazımdır.

• Pul yalnız sərvət deyil, həm də aktivlərin elementlərindən biridir.

• Pul bazarı real sektorla yalnız dolayı mexanizmlər vasitəsi ilə deyil, həm də bilavasitə aktivlər portfelinin optimallaşdırılması mexanizmi vasitəsilə əlaqədə olur. Uzunmüddətli dövrdə pullar neytraldır. Qısamüddətli dövrdə pulların dəyişməsi iqtisadiyyatın real bölməsindəki dəyişikliklərə nəzərən daha önəmlidir.

Aparıcı iqtisadi məktəblərin əsas müddəalarının fərqini cədvəl 1.1-də daha aşkar görmək olar.

§3.Makroiqtisadi proseslərin tədqiqi metodologiyası

Makroiqtisadi proseslərin tədqiq edilməsi üçün ümumi tədqiqatların tətbiqi səciyyəvidir, lakin əsas diqqət xüsusi, spesifik tədqiqat üsullarının fərqləndirilməsinə yetirilir.

Həm mikroiqtisadiyyatda, həm də makroiqtisadiyyatda tətbiq olunan ümumi tədqiqat prinsiplərinə aşağıdakıları aid etmək olar:

• Onların qurulması və nəzəri tədqiqatlar zamanı «digər bərabər şərtlər şəraitində» prinsipindən istifadə olunur.

• Makroiqtisadiyyatda mücərrəd göstəricilər, parametrlərdən istifadə olunur, yəni onlarda ən əsas, vacib cizgilər cəmlənir.

• Makroiqtisadiyyatda tədqiqata induktiv və deduktiv yanaşmalar, həmçinin pozitiv və normativ iqtisadi nəzəriyyə uzlaşır.

• Mikroiqtisadiyyatda olduğu kimi makroiqtisadiyyatda da qrafiklərdən, düsturlardan və hesablamalardan geniş istifadə olunur.

Makroiqtisadiyyatda tədqiqat metodlarının *xüsusiyyətləri* aşağıdakı mexanizmlərdən istifadədədir:

• ümumiləşdirmək ;

• modelləşdirmək.

Ümumiləşdirmə

Əsas parametrlər, göstəricilər, kəmiyyətlər, bazarlar, subyektlərdən istifadədə makroiqtisadiyyatın öz spesifik yanaşması var. Makroiqtisadiyyat iqtisadiyyatın ayrıca sahəsi, subyekti və s. üçün deyil, bütün iqtisadiyyat üçün səciyyəvi olan prosesləri öyrəndiyinə görə o, tədqiqatda ***ümumiləşdirilmiş göstəricilər*** və ya kəmiyyətlərdən istifadə etməlidir. Onlara ümumi milli məhsul, işsizlik səviyyəsi, qiymətlərin səviyyəsi, inflyasiyanın səviyyəsi, faizin bazar dərəcəsi və s. aiddir.

Bütün subyektlər iqtisadiyyatda real fəaliyyət göstərən subyektlərin məcmusudur. Onlar dörddür: firmalar, ev təsərrüfatları, dövlət və xarici bölmə. Onlardan hər biri həmin *tip subyektlərin ümumiləşdirilmiş variantını* təmsil edir və onun üçün ən tipik davranış cizgiləri xasdır. Subyektlərin makroiqtisadiyyatda və mikroiqtisadiyyatda davranışları haqqında təsəvvürlər fərqlidir. ***Ev təsərrüfatları*** şəxsi gəlir əldə edir (vergiləri ödəyəndən sonra) və ondan istehlak və yığım məqsədilə istifadə edirlər. Mikroiqtisadiyyatda ev təsərrüfatının gəliri istehlakçı dəstini müəyyənləşdirən amillərdən biridir. Mikroiqtisadiyyatda ***firma*** üçün mənfəətin maksimallaşdırılması məqsədi onun fəaliyyətinin gəlirliyinin artırılması ilə əvəzlənir. ***Dövlətin*** rolunun tədqiqi də dəyişir. Əgər ümumi iqtisadi nəzəriyyədə dövlət institutlarının fəaliyyətinin ümumi prinsipləri təhlil olunursa, makroiqtisadiyyatda makroiqtisadi tarazlığın formalaşmasında dövlətin rolu müəyyənləşdirilir. ***Xarici bölmə*** xaricdə fəaliyyət göstərən iqtisadi subyektlərlə və xarici institutlarla təmsil olunur.

Makroiqtisadiyyatda ***ümumiləşdirilmiş bazarlar:*** əmtəə və xidmətlər, pul, əmək bazarları nəzərdən keçirilir. Onlar bir-birindən alqı-satqı obyektlərinə, qiymət tiplərinə, tarazlıq qiymətinin müəyyənləşdirilmə xüsusiyyətlərinə görə fərqlənirlər.

Əmtəə və xidmətlər (nemətlər) bazarında bütün sahə

xüsusiyyətləri aradan qalxır, onlar ümumiləşdirilmiş şəkildə təqdim olunur. Bu bazarın bir hissəsi kapital bazarıdır. ***Real kapital bazarı*** investisiya əmtəələri bazarı ilə təmsil olunur. Real nemətlər və real kapital bazarı ***real aktivlər bazarını*** əmələ gətirir.

Əmək bazarı da sahə özəlliklərindən azaddır. Orada peşə və sahə xüsusiyyətləri nəzərə alınmadan əməyin özü olduğu kimi satılır.

Əmək bazarı və real aktivlər bazarı iqtisadiyyatın real bölməsini əmələ gətirirlər.

Nəzərdə tutulur ki, ***pul bazarında*** yalnız milli valyuta tədavüldədir. Qiymətli kağızlar bazarı iqtisadi proseslərə ciddi təsir göstərdiyindən onu maliyyə bazarından müstəqil bazar kimi ayırırlar.Onda müxtəlif qiymətli kağızlar: səhmlər, istiqrazlar, veksellər, çeklər və s. tədavüldə olur, lakin makroiqtisadiyyatda tədqiqat obyekti kimi dövlət istiqrazları təmsil olunurlar.

Pul bazarı və qiymətli kağız bazarı ***maliyyə bazarının tərkib hissələridir.***

Makroiqtisadi modellərdə çoxlu ***göstəricilərdən*** istifadə olunur. Makroiqtisadi təhlilin xüsusiyyəti makroiqtisadi göstəricilərin üç qrupa bölünməsindədir:

a) axınlar;

b) ehtiyatlar (aktivlər);

v) iqtisadi konyunkturanın göstəriciləri.

Axınlar iqtisadi fəaliyyət prosesində sərvətlərin subyektlərin bir-birinə ötürülməsidir. Onlar zaman kəmiyyəti ilə ölçülən iqtisadi parametrlərdir. Axın kəmiyyətlərinə ÜMM, XMM, milli gəlir, sərəncamda qalan gəlir, istehlakçı xərcləri, dövlət alışları, yığım, investisiyalar, büdcə defisiti və s. aiddir. Bir qayda olaraq bu kəmiyyətlərin illik göstəricilərindən istifadə olunur.

Ehtiyatlar qiyməti cari məqam üçün müəyyənləşdirilən iqtisadi parametrlərdir. Makroiqtisadiyyatda istifadə olunan ən mühüm ehtiyatlara əmlakı (real kapital, maliyyə aktivi, intellektual mülkiyyət hüququ), maliyyə aktivlərini

(firmalara, ev təsərrüfatlarına, dövlətə məxsus olan ümumi aktivlər) aid edirlər. Real kassa qalıqlarını (subyektin nağd pul şəklində əldə saxlamaq istədiyi tədiyyə vəsaiti ehtiyatı) ehtiyatlara aid etmək olar. .

Axınlar və ehtiyatlar qarşılıqlı əlaqədar ola bilirlər. Ev təsərrüfatlarının büdcəsində bir tərəfdən bütün gəlir və xərc axınları, digər tərəfdən isə - əmlakda bununla əlaqədar olan dəyişikliklər əks olunur.

İqtisadi konyunktura göstəricilərinə faiz dərəcəsi, kapital aktivlərinin gəlirlilik norması, qiymət səviyyəsi, inflyasiya, işsizlik səviyyəsi, aktivlərin gəlirliliyi və s.

Makroiqtisadiyyatda istifadə olunan bütün göstəricilər ayrı-ayrı bazarlarda, iqtisadiyyat sahələrində, müxtəlif subyektlərdə qüvvədə olan orta göstəricilərdir.

Makroiqtisadi parametrlərin çoxu **nominal və real əhəmiyyət daşıyır.** Nominal göstəriciləri hesablayıb reala çevirmək üçün **qiymət səviyyəsindən (P)** istifadə olunur. Ən geniş yayılmış real və nominal kəmiyyətlər ÜDM , faiz dərəcəsi, əməkhaqqı dərəcəsini hesablamaq üçün olanlardır.

Beləliklə, makroiqtisadiyyat aşağıdakılarla səciyyələnir:

- ümumiləşdirilmiş bazarları öyrənir;
- onda ümumiləşdirilmiş sübyektlər fəaliyyət göstərirlər;
- iqtisadi proseslərin qiymətləndirilməsi üçün ümumiləşdirilmiş göstəricilərdən istifadə olunur.

Modelləşdirmə

Makroiqtisadi modelləşdirmə də müəyyən xüsusiyyətləri ilə fərqlənir. Onun üçün bütün iqtisadi subyektlərin qarşılıqlı təsir mexanizminin, onların qəbul etdiyi qərarların nəticələrinin, iqtisadiyyatın bütün sektorlarının təhlili səciyyəvidir.

Makroiqtisadiyyatda ən çox müxtəlif iqtisadi hadisə və proseslərin onlar arasındakı əlaqələrin aşkar edilməsi məqsə-

dilə formallaşdırılmış tədqiqi şəklində olan *modellərdən* istifadə olunur. Belə modellər ***ümumiləşdirilmiş səciyyəli*** olur. Makroiqtisadiyyatda ən məşhur modellər dairəvi axın modeli, AD – AS (ümumi tələb – ümumi təklif) modeli, Keyns xaçı, IS - LM modeli, Filips, Laffer əyriləri, R.Solou modeli və başqalarıdır. Bütün makroiqtisadi proseslərə müəyyən spesifik xüsusiyyətlər xasdır:

- onlar mücərrəddir;
- onlarda müəyyən şərtiliklər və sadələşdirmələr var;
- makroiqtisadi təhlilin ən ümumi aləti olub hər hansı milli spesifiklikdən uzaqdırlar.

Eyni zamanda makroiqtisadiyyatda **bütün digər şərtlərin eyniliyi prinsipi** də saxlanılır. O, nəzərdə tutur ki, tədqiq olunan parametrin dinamikası yalnız bir amilin, bütün digər amillərin sabitliyi şərti ilə, dəyişməsindən asılıdır. Məsələn, ümumi tələb yalnız qiymət səviyyəsinin təsiri altında dəyişəcək, bu şərtlə ki, sərəncamda olan gəlir, vergi ödənişləri və s. sabitdir. Deməli, makroiqtisadi modeldə endogen və ekzogen dəyişənlər istifadə olunur.

Endogen (daxili) dəyişənlər. Onların kəmiyyəti tədqiqat nəticəsində müəyyənləşdirilir. Endogen parametrlərə məşğulluq, inflyasiya, işsizlik, planlaşdırılmış xərclər səviyyəsini aid etmək olar.

Ekzogen (xarici) dəyişənlər. Onların kəmiyyəti əvvəlcədən verilir. Modelin ekzogen parametrləri qismində dövlət xərcləri, vergilərin faizi, pul təklifi çıxış edə bilir. Ekzogen parametrlərin təsiri ya hər hansı daimi verilən (konstanta), ya da təsadüfi, ehtimal olunan kəmiyyət şəklində qiymətləndirilir.

Dəyişənlərin endogen və ekzogenlərə bölünməsi şərti olaraq məktəblərin nəzəri yanaşmalarından asılıdır. Belə ki. Keynsçi pula tələb modelində faiz dərəcəsi endogen dəyişəni, gəlir isə ekzogen dəyişənidir, neoklassik yanaşmada isə gəlir endogen dəyişənidir.

Makroiqtisadiyyatda tədqiqatın məqsədləri modellərin müxtəlif ***tiplərindən*** istifadəni şərtləndirir. İqtisadi modelləşdirmənin metodologiyası müxtəlif meyarlar əsasında aparıla bilər.

- Öyrənilən əşyanın təqdim edilmə üsuluna görə modellər məntiqi, qrafik və iqtisadi olur.
- Təhlil olunan proseslərin müddətinə görə modellər qısamüddətli və uzunmüddətli olur.
- Tədqiqata cəlb olunmuş subyektlərə görə modellər :

a) sadə (iki subyekt: ev təsərrüfatı və firma);

b) dolğun (firma, ev təsərrüfatı, dövlət)

və ya

c) ikibölməli (yalnız firmalar və ev təsərrüfatları fəaliyyət göstərirlər);

ç) üçbölməli (firmalar, ev təsərrüfatları və dövlət fəaliyyət göstərirlər);

d) dördbölməli (firmalar, ev təsərrüfatları, dövlət və xarici bölmə fəaliyyət göstərirlər).

- Əgər model milli iqtisadiyyatı tədqiq edirsə, ona *qapalı* model, əgər beynəlxalq iqtisadi proseslərin təsiri nəzərə alınırsa (xarici bölmənin olması nəzərə alınırsa), *açıq* model adlanır.
- Dövrü əks etdirmə xarakterinə görə modellər statik, müqayisəli statistik, dinamik ola bilir.

İstənilən model qrafiklər, düsturlar, cədvəl-matrisa üsulu, mühasibat qeydləri şəklində verilə bilər.

Modeldə aşağıdakı növ qarşılıqlı əlaqələr nəzərə alınır:

- *Davranış* – subyektlərin motivasiyalarını, üstünlük-verimlərini nəzərə alır.
- *Texnoloji* – texnoloji və təşkilati-texnoloji asılılıqları əks etdirir.
- *Definisiyalı* – anlayışları ifadə edirlər.
- *İnstitusional* – iqtisadiyyatda müəyyənləşdirilmiş norma, ənənə, qaydalardan irəli gələn asılılıqları əks etdirirlər.

Müasir makroiqtisadi modelləşdirmədə subyektlərin ***iqtisadi motivasiyası*** mütləq nəzərə alınır.

Subyektlər

- gözləmələrin;
- üstünlükverimlərin

təsiri altında qərar qəbul edərək iqtisadiyyatda fəaliyyət göstərirlər.

İqtisadi nəzəriyyədə ***gözləmələr*** xüsusi yer tutur. Bütün subyektlər cari fəaliyyət haqqında qərarlar qəbul edir, mütləq onlarda iqtisadiyyatdakı gələcək gözləmələr haqqındakı təsəvvürlərini realizə edirlər. Onlar qiymətlərin, əməkhaqqının, vergilərin artmasını, faiz dərəcəsinin dəyişməsini və s. gözləyə bilərlər. Əgər faizlərin artması gözlənilirsə, onda gəlir sahibləri gəlirlərinin çox hissəsini cari istehlaklarına xərcləməyib, həvəslə banka aparacaqlar.

Gözləmələr baş verənlərin nəticələrinin qiymətləndirilməsindən və ya gözlənilən hadisələr barədə proqnozlardan çıxış edərək formalaşdırılır. İqtisadiyyatın modelində həm də subyektin gözləmələri haqqında məktəbin təsəvvürləri də əks olunur.

Bütövlükdə formalaşma xarakterinə görə gözləmələr ***ex post*** və ***ex ante*** ola bilir.

Ex post gözləmələri proses başa çatdıqdan sonra subyektin prosesə verdiyi qiymətdir. Onlardan verilmiş tövsiyələrin, nəzəri konsepsiyaların empirik yoxlanılmasında və ya iqtisadiyyatın inkişafının göstəricilərinin hesablanmasında istifadə olunur.

Ex ante gözləmələri subyektlərin məramlarından ibarətdir və bu məramlar qəbul edilən qərarı müəyyənləşdirir. Hazırda üç növ ex ante fərqləndirilir:

- statik;
- adaptiv;
- rasional.

Statik (sadəlövh) gözləmələr o deməkdir ki, iqtisadi subyektlər gələcəkdə də hesablamalarda cari iqtisadiyyatın parametrlərindən (məsələn, gələn ilin qiymət səviyyəsi cari ildəki qiymətlər səviyyəsində götürülür) çıxış edəcəklər.

$$P_{t+1} = P_t$$

burada P_t - cari ildəki qiymətlərin faktik göstəriciləri;

P_{t+1} – gələn ilə proqnozlaşdırılan qiymətlərin göstəriciləri.

Adaptiv gözləmələr subyektlər davranışlarını keçmişin təcrübəsindən çıxış edərək qurduqda və konyunkturanın dəyişilməsini nəzərə alaraq dəqiqləşdirmələr apardıqda yaranır. Məsələn, qiymət dəyişmələrində gözləmələr aşağıdakı şəkil alacaq:

$$P_{t+1} = P_t + b(P_t - P_{t_1}),$$

burada b keçmişin səhvlərini nəzərə alan adaptasiya əmsalıdır, $0<b<1$.

$(P_t - P_{t_1})$ – subyektlərin səhvlərinin kəmiyyətidir, cari ildə gözlənilən qiymət səviyyəsi ilə cari ilin real qiyməti arasındakı fərqdir.

Adaptiv gözləmələrin təsirinə ev təsərrüfatları və müəyyən dərəcədə firmalar məruz qalır ki, bu da onlarda iqtisadi konyunktura haqqında təsəvvürün olmaması ilə bağlıdır.

50-ci illərdə Filipp Koqanın təklif etdiyi adaptiv gözləmələr mexanizmi monetaristlər tərəfindən fəal tətbiq olunurdu, çünki insanların gələcəkdə səhvlərdən qaçmaq üçün keçmişin səhvləri əsasında necə öyrəndikləri kimi sadə həqiqəti şərh edirdi. Lakin bu metodun bütün cəlbediciliyinə baxmayaraq, onun bir iri qüsuru var idi – təcrübə gələcək hadisələrlə əlaqələndirilmirdi, gözləmələr keçmiş səhvlərdən çıxış edərək formalaşırdılar.

Rasional gözləmələr nəzərdə tutur ki, iqtisadiyyatın subyektləri planlarını əldə edə bildikləri informasiyadan çıxış edərək qururlar: qərar qəbul edəndə onlar gələcəkdə ehtimal edilən hadisələrdən çıxış edirlər. Əlbəttə, onlar keçmişin təcrübəsinə də istinad edəcəklər, buna görə də rasional gözləmələrdə keçmişin səhvlərinin nəzərə alınması mümkündür. Bütün subyektlər kifayət qədər dəqiq, sistematik səhvlərə yol vermədən fəaliyyət göstərirlər. Onların qərarlarının qəbul edilməsində informasiyanın rolu böyükdür, buna görə də subyekt daim iqtisadi konyunkturanı, dövlət nüma-

yəndələrinin çıxışlarını və s. izləməlidir. Bu modeldə proqnozlarda səhvlər təsadüfi xarakter daşıyır.

Rasional gözləmələr konsepsiyasının bir neçə şərhi var. Ən geniş yayılanı R.Lukasın modelidir ki, burada gözlənilən parametrin göstəriciləri bir neçə amildən asılıdır. Məsələn, bütün subyektləri aşağıdakı bir sıra amillərdən asılı olan qiymətlərin gələcək səviyyəsi maraqlandırır:

- iqtisadi konyunktura;
- digər subyektlərin fəaliyyətləri.

Nəticədə bütün subyektlərin qarşılıqlı fəaliyyətinin nəticələrini əks etdirən model formalaşır.

$$P_{t+1} = P_t(X_t),$$

burada X_t – qiymət yaradan amillərdir.

§4.Makroiqtisadiyyatda istifadə olunan əsas anlayışlar

Makroiqtisadiyyatda spesifik kateqoriyalar, məfhum və anlayışlardan istifadə olunur. Xatırladaq ki, makroiqtisadiyyatda ümumiləşdirilmiş subyektlər fəaliyyət göstərirlər:

- ev təsərrüfatları;
- firmalar;
- dövlət;
- xarici bölmə.

Onlar ümumiləşdirilmiş:

- əmtəə və xidmətlər;
- resurslar;
- maliyyə bazarlarında satıcı və alıcı qismində çıxış edirlər.

Subyektlərin makroiqtisadi davranışını və ümumiləşdirilmiş bazarların ümumiləşdirilmiş parametrlərini səciyyələndirən əsas parametrləri nəzərdən keçirək.

İqtisadiyyatın bütün subyektləri gəlir əldə edir və onlardan müəyyən məqsədlər üçün istifadə edirlər. **Ev təsərrüfatları** formasına görə əməkhaqqı, renta, faiz və

dividenddən ibarət olan gəlir *(Y)* əldə edirlər.

Əldə olunmuş gəlirdən onlar vergi verməlidirlər *(T)*. Yerdə qalan hissə ***sərəncamda olan gəlirdir (disposable - Y_d)***:

$$Y_d = Y - T$$

Bəzi ev təsərrüfatları əlavə gəlir kimi dövlətdən yardım, təqaüd və s., yəni transfertlər *(Tr)* alırlar. Sərəncamda olan gəlirin müəyyənləşdirilməsində bu nəzərə alınır:

$$Y_d = Y - T + Tr$$

Ev təsərrüfatları sərəncamda olan gəlirin bir qismini əmtəə və xidmətlərin alınmasına xərcləyə bilirlər, yəni ***istehlakçı xərclərini (C)*** həyata keçirirlər. İstehlakçı xərclərinə uzunmüddətli istifadə üçün gündəlik tələbat əmtəələri və xidmətlərinin alınması daxildir. Ev təsərrüfatı gəlirinin digər hissəsi yığım üçün istifadə oluna bilər. Ev təsərrüfatlarının bu növ xərcləri ***yığım (S)*** adlanır. Yığımın məqsədi ev təsərrüfatları tərəfindən əlavə gəlir əldə edilməsidir. ***Ev təsərrüfatlarının yığımından gələn gəliri faiz, yığımın gəlirliliyi isə faiz dərəcəsi (r) adlanır.*** O, əldə olunmuş gəlirin yığımın məbləğinə nisbətinin yüz faizə hasilindən ibarətdir.

Faiz dərəcəsi inflyasiyanın təsirindən «təmizlənmiş» real r və nominal – cari faiz dərəcəsi – i - ola bilər. Nominal və real faiz dərəcələri arasında əlaqə mövcuddur:

$$r = i - p,$$

Burada r – real faiz dərəcəsi;

p – qiymətlərin artım sürəti;

i – nominal faiz dərəcəsidir.

Ev təsərrüfatları ya yığımlarını bankda saxlayırlar və bu halda bank pulun saxlanılmasına görə onlara faiz (gəlir) ödəyir, ya da qiymətli kağızlar alırlar.

Beləliklə, ev təsərrüfatlarının əldə etdikləri gəlirlər iki qrupa bölünür: istehlak xərcləri və yığım:

$$Y_d = C + S.$$

Firmalar da əmtəə və xidmətlərin satışından ***gəlir*** əldə edirlər. Quruluşuna görə bu gəlirlər xərclərdən və mənfəətdən ibarətdir. Əldə olunmuş pulu firmalar ya istehsalın əv-

vəlki miqyasda bərpası, ya da onun genişləndirilməsi üçün istifadə edirlər.Firmaların mənfəət götürmək məqsədilə istehsal prosesinin bərpasına yönəltdikləri xərclər ***investisiya və ya investisiya xərcləri (I)*** adlanır. İqtisadi nəzəriyyədə investisiyalara əsas vasitələrin və xammalın alınmasına, tikintiyə və ehtiyatların dəyişdirilməsinə yönəldilən xərcləri daxil edirlər.

Öz fəaliyyətini həyata keçirtmək üçün firma həm öz pul vəsaitlərindən, həm də bankdan aldığı borcdan istifadə edə bilər. Bu borc götürülmüş vəsaitlərin əsasını ev təsərrüfatlarının bankda saxlanılan yığımı təşkil edir , buna görə də investisiyaların məbləği yığım məbləğinə bərabər olmalıdır:

$$I = S.$$

Dövlət də gəlir əldə edir və bunun əsas hissəsi firmalar və ev təsərrüfatları tərəfindən mütləq qaydada ödənilən vergilər *(T)* hesabına formalaşır. Mahiyyət etibarilə dövlət iqtisadiyyat subyektlərinin gəlirlərinin bir hissəsini ümumi iqtisadi, sosial və siyasi məsələləri həll etmək məqsədilə öz xeyrinə təkrar bölür. Lakin əldə olunmuş bu vergi gəlirlərini dövlət yenə də həmin məsələlərin həll edilməsi üçün iqtisadiyyatın subyektləri arasında təkrar bölür. Vergi ödəyənin və dövlət vəsaiti alanın eyni bir şəxs olması vacib deyil. Məsələn, gəlir vergisini işləyənlərin hamısı ödəyir, uşaqlara görə vəsaiti isə onlardan yalnız bir qismi alır.

İqtisadi nəzəriyyədə dövlətin xərcləri iki qrupa bölünür:

1.Dövlətin əmtəə və xidmətlər alışı (*G*).

2.Transfertlər (*Tr*).

Dövlətin əmtəə və xidmətlər alışı (G) – dövlətin dövlət idarəetmə orqanlarının saxlanılmasına, sənaye üçün dövlət sifarişlərinin formalaşmasına, ictimai nemətlərin istehsalına xərcləridir. Əslində onlar məhsuldar xarakter daşıyır və onların məqsədi mənfəət götürmək deyil.

Transfertlər (Tr) – dövlətin sosial məsələlərin həllinə yönəldilmiş təmənnasız, qayıtmaz ödənişləridir. Transfertlər işsizliyə görə vəsait, uşaqların saxlanılması üçün vəsait,

pensiyalar, təqaüdlər və s. şəklində ödənilir.Transfertləri əsasən ev təsərrüfatları alırlar. İqtisadi nəzəriyyədə transfertlərə həm də dövlətin təmənnasız olaraq firmalara verdiyi dotasiya və subsidiyaları aid edirlər.

Dövlətin bütün xərcləri və gəlirləri ***dövlət büdcəsində*** təsbit olunur. Gəlirlər xərclərdən çox olursa, dövlətin pul vəsaiti artıqlığı və ya ***profisit*** olur. Əgər dövlətin gəlirləri xərcləri ödəmək üçün bəs etmirsə, o, pul vəsaiti çatışmazlığı hiss edir və büdcəsi ***kəsirli*** olur. İdealda daxil olmuş vergilərin məbləği dövlət alışları və transfertlərin məbləğinə bərabər olmalıdır:

$$T = G + Tr.$$

Xarici bölmə açıq iqtisadiyyatın modelləşdirilməsində nəzərə alınır. Milli iqtisadiyyatda istehsal olunmuş əmtəənin bir hissəsi xaricə aparılır, amma eyni zamanda xarici əmtəələrin müəyyən hissəsi milli iqtisadiyyata daxil olur, yəni əmtəələrin ixracı və idxalı baş verir. ***Əmtəə ixracı (Ex)*** – əmtəənin xaricə aparılmasından gələn gəlirdir, ***idxal (Im)*** – milli iqtisadiyyatın xarici əmtəələrin alınmasına xərcləridir. İxracla idxal arasındakı fərq ***xalis ixrac (NX)*** adlanır.

$$NX = Ex - Im.$$

Yuxarıda qeyd olunduğu kimi, iqtisadiyyatda əslində tarazlıq müəyyənləşdirilməlidir, buna görə də əldə olunmuş bütün gəlirləri xərcləmək lazımdır, yəni bütün gəlirlər bütün xərclərə bərabər olmalıdır.

Əgər söhbət iqtisadiyyatın yalnız firma və ev təsərrüfatlarının fəaliyyət göstərdiyi sadə modelindən gedirsə, bu halda onda aşağıdakı bərabərlik gözlənilməlidir:

$$Y = C + I.$$

Əgər söhbət dövlətin və xarici bölmənin iştirak etdiyi təsirləri nəzərə alınan daha mürəkkəb modellərdən gedirsə, bərabərlik şəklini dəyişir:

$$Y = C + I + G + NX.$$

Bu eyniliyi ***əsas makroiqtisadi eynilik*** adlandırırlar.

Makroiqtisadiyyatda bütün subyektlər əmtəə və xidmətlər bazarlarında olur, lakin bu bazarların sahə xüsusiy-

yətləri olmadığından, onları bir böyük milli bazar kimi nəzərdən keçirmək olar. Ona əsas parametrlər: tələb, təklif və qiymət – xasdır. Lakin söhbət makroiqtisadi proseslərdən getdiyindən, bazar parametrləri spesifik xüsusiyyətlərə malik olacaq.

Bazarda tələb ümumiləşdirilmiş səciyyəli olur və ***məcmu tələb (AD)*** adlanır ki, bu da iqtisadiyyat subyektlərinin qiymətin müəyyən səviyyəsində pul xərcləri ilə müəyyənləşdirilir. Məcmu tələbin tərkib hissələrinin miqdarı modelin növündən asılıdır. Əgər ikibölməli model nəzərdən keçirilirsə, onda məcmu tələb istehlak və investisiya xərclərindən ibarət olacaq:

$$AD = C + I,$$

Üçsektorlu nəzərdən keçirilirsə, bu xərclərə dövlətin əmtəə və xidmətlər alması üçün alışlar da əlavə olunur; açıq model nəzərdən keçirilirsə, xalis ixracın həcmi də nəzərə alınır:

$$AD = C + I + G + NX.$$

Məcmu təklifi (AS) qiymətlərin müəyyən səviyyəsində əldə oluna biləcək milli istehsal həcminin dəyər qiymətləndirilməsidir.

Mikroiqtisadiyyatda ümumi bazar modelində istifadə olunan mütləq qiymət kəmiyyətləri ***qiymət səviyyəsi (P)***, nisbi kəmiyyətlə əvəzlənir.

İqtisadiyyatın subyektlərinin gəlirlərinin bir hissəsi ***maliyyə bazarına*** axır ki, buna da üç növ bazar daxildir:

- pul;
- qiymətli kağızlar və ya fond;
- valyuta.

Pul bazarında nağd pula tələb iqtisadiyyatın bütün subyektləri tərəfindən göstərilir, onun təklifi isə yalnız nağd pulun inhisarçı emitenti olan dövlət tərəfindən həyata keçirilir. *Pulun qiyməti faiz dərəcəsidir.* Bu bazarda mütləq vasitəçilər – kommersiya bankları olur.

Qiymətli kağızlar bazarında əmtəə qiymətli kağızlardır, onlara tələb iqtisadiyyatın bütün subyektləri tərəfindən

östərilir. Qiymətli kağızların alınmasında məqsəd əlavə gəlirin təmin edilməsidir. Makroiqtisadiyyatda hesab edilir ki, fond bazarında əsas alıcılar ev təsərrüfatlarıdır. Qiymətli kağızlar təklifini, buraxılışını (emissiya[1]) dövlət və ya firmalar həyata keçirir. Firma əlavə investisiya resursları əldə etmək məqsədilə səhmlər və istiqrazlar buraxır. Dövlət büdcə kəsirini və ya əlavə xərcləri maliyyələşdirmək məqsədilə borc öhdəliklərini emitə edir (səhmlərə və ya istiqrazlara çevirir). *Bu bazarda qiymət həm də faiz dərəcəsidir* (dividendlər və faizlər arasındakı fərq hələ ki, nəzərə alınmır).

Valyuta bazarında milli valyutaya tələbi həmin iqtisadiyyatın əmtəə və xidmətlərini və ya milli emitentlər tərəfindən buraxılmış qiymətli kağızları almaq üçün xarici bölmə (onun nümayəndələri) göstərir. Milli valyuta təklifini, pul bazarında olduğu kimi, yalnız milli mərkəzi bank müəyyənləşdirir. *Valyuta bazarında qiymət valyuta kursudur.*

Əmək bazarında təklif ev təsərrüfatları tərəfindən təmin edilir, əməyə tələb isə firmalardan gəlir. *Əməyin qiyməti əməkhaqqı dərəcəsidir.* Əmək bazarını iqtisadi ədəbiyyatda bəzən iqtisadi resurslar bazarı adlandırırlar. Cədvəl 1.2-də makroiqtisadiyyatda bazarın əsas parametrlərinin formalaşma xüsusiyyətləri verilmişdir. Makroiqtisadi təhlilin əsasında ***xərclər və gəlirlərin dövriyyəsi modeli*** durur (şəkil 1.1).

İqtisadiyyatın bütün subyektlərinin qarşılıqlı təsiri nəticəsində onların arasında bütün milli iqtisadiyyatın inkişaf qanunauyğunluqlarını müəyyənləşdirən qarşılıqlı əlaqələr formalaşır. Modeldə maddi nemətlər və xidmətlərin istehsalı, bölgüsü və istehlakı prosesində bütün subyektləri bir-birinə bağlayan pul axınları əks olunur.

Modeldə tədqiqatın səviyyəsi subyektlərin sayından asılıdır. Əgər iqtisadiyyatın iki subyekti: firma və ev təsərrüfatları - nəzərdən keçirilirsə, iqtisadi agentlərdən birinin gəlirləri digərlərinin xərcləridir. Firmanın xərcləri əmək-


1 Emissiya – pulların və ya qiymətli kağızların tədavülə buraxılmasıdır. Dövlət nağd pulun inhisarçı emitentidir. Hökumət və korporasiyalar qiymətli kağızların emitentidirlər.

haqqı, renta, dividendlər axınlarıdır. İstehlak xərcləri axınları firmaların hazır məhsulun satışından gəlirlərini əmələ gətirir.

Cədvəl 1.2.

Makroiqtisadiyyatda bazarın əsas parametrlərinin formalaşma xüsusiyyətləri

Bazarın növü	Təklif	Tələb	Qiymət
Əmtəə və xidmətlər bazarı	Firma	Firmalar, ev təsərrüfatları. Dövlət, xarici bölmə	İqtisadiyyatda qiymətlərin səviyyəsi
Pul bazarı	Dövlət	Ev təsərrüfatları, firmalar	Faiz dərəcəsi
Qiymətli kağızlar bazarı	Dövlət, firmalar	Ev təsərrüfatları, firmalar	Faiz dərəcəsi
Valyuta bazarı	Dövlət	Xarici bölmə	Milli valyutanın kursu
İqtisadi resurslar bazarı	Ev təsərrüfatları	Firmalar	Əməkhaqqı dərəcəsi



Şəkil 1.1. Xərclər və gəlirlərin dövranı

«Gəlirlər-xərclər» (sxemin daxilində) və «resurslar-əmtəə və xidmətlər» (zahiri axın) axınlarının hərəkəti eyni zamanda əks istiqamətlərdə həyata keçirilir. Nəticədə firmaların bütün satışları ev təsərrüfatlarının gəlirləri məbləğinə bərabər olmalıdır.

Əgər modeldə daha iki yeni subyekt (dövlət və xarici sektor) meydana gəlirsə, onda «gəlirlər-xərclər» axını görünüşcə dəyişilir.

Məhsullar və gəlirlər dövranı modelinin bir növü də var – itkilər və inyeksiyalar modeli.

İtki - gəlirlərdən ölkə daxilində əmtəənin alınmamasına istənilən istifadədir. İtkilərə yığım, vergilər, idxal aiddir.

Lakin eyni zamanda həmin axına inyeksiyalar şəklində əlavə gəlirlər qarışır. ***İnyeksiya ölkə daxilində məhsulun istehlak xərclərinə olan əlavələrdir.*** İnyeksiyalara investisiyalar, dövlət xərcləri, ixrac aiddir.

Bu modeldə fasiləsiz tarazlığın şərti itki və inyeksiyaların həcmlərinin bərabərliyidir. Belə model keynsçi məktəbin nümayəndələri tərəfindən təklif olunmuşdu.

Bütövlükdə, fasiləsiz dövranın əsas meyarı ev təsərrüfatları, firmalar, dövlət və xarici bölmənin məcmu xərclərinin istehsalın məcmu həcminə bərabərliyidir.

Əsas anlayışlar və məfhumlar

Makroiqtisadiyyat; makroiqtisadi problemlər; ümumiləşdirmə; modelləşmə, əmtəə və xidmətlər bazarı; pul bazarı; qiymətli kağızlar bazarı; maliyyə bazarı; əmək bazarı; makroiqtisadi subyektlər: ev təsərrüfatları, firmalar, dövlət, xarici bölmə; iqtisadi fəaliyyətin göstəriciləri: axınlar, ehtiyatlar, iqtisadi konyunkturanın göstəriciləri; endogen dəyişənlər; ekzogen dəyişənlər; gözləmələr: statik, rasional, adaptiv; gəlirlər; istehlak xərcləri; yığım; investisiya; əmtəə və xidmətlərin dövlət alışı; dövlət transfertləri; itkilər; inyeksiyalar.

II FƏSİL. MİLLİ İQTİSADİYYAT VƏ İCTİMAİ TƏKRAR İSTEHSAL

§1. Makroiqtisadiyyatın və milli iqtisadiyyatın dərkində ümumi və fərqli cəhətlər.

§2. İctimai təkrar istehsal bütövlükdə iqtisadiyyatın mövcudluğunun əsası kimi.

§3. İctimai istehsalın quruluşu.

§4. Geniş təkrar istehsalın növləri, meyarları və göstəriciləri.

§5. Təkrar istehsal sistemində iqtisadi məkan.

Ölkə miqyasında ayrı-ayrı sahələr və regionlar, istehsalçılar və istehlakçılar, resurslar, əmtəə və xidmətlərin tələb və təklifləri bir-biri ilə sıx qovuşur. Belə tədqiqatların əhəmiyyətinə ilk dəfə F.Kene diqqət yetirmişdi, lakin bu problemi kompleks şəkildə K.Marks nəzərdən keçirərək, ictimai təsərrüfatın bütün fəaliyyət sahələrinin qarşılıqlı əlaqədə və qarşılıqlı şərtlənmədə olduğunu göstərmişdi. Onu iki hissəyə (1-ci və 2-ci bölmələr) bölərək o aşkarlamışdı ki, bütövlükdə milli iqtisadiyyatın normal inkişafının təmin edilməsi onların arasında müəyyən proporsiyaların gözlənilməsinə əsaslanır. Məhz marksist iqtisadi nəzəriyyəsi sonralar makroiqtisadi nəzəriyyənin və tarazlıq qiymətinin əsasında duracaq ictimai təkrar istehsalın, ictimai məhsulun satılması nəzəriyyəsinin, istehsal qiymətinin əsaslarını yaratmışdı.

§1. Makroiqtisadiyyatın və milli iqtisadiyyatın dərkində ümumi və fərqli cəhətlər

Makroiqtisadiyyat iqtisadiyyatın fəaliyyətini vahid bir tam kimi tədqiq edir. «Makro» («böyük» deməkdir) sözönün hissəsi də göstərir ki, bu bölmə xalq təsərrüfatının irimiqyaslı problemlərinin nəzərdən keçirilməsinə həsr olunub.

Makroiqtisadiyyat iqtisadi nəzəriyyənin və ya, Qərbdə qəbul olunduğu kimi, siyasi iqtisadın sahəsidir və dövlət qurumlarının özəlliklərindən asılı olmayaraq iqtisadi sistemin

bütövlükdə necə fəaliyyət göstərməsini aydınlaşdırmağa ünvanlanıb.

Qədim dövrlərdə alimlər (Platon, Aristotel) dövləti insanların ünsiyyət forması və ya insanın yaşamaq üçün şərait tapdığı mühit kimi nəzərdən keçirirdilər. Aristotel hesab edirdi ki, dövləti tam kimi, ailəni isə tamın bir hissəsi kimi götürmək lazımdır, özü də tam hissədən vacibdir, çünki tam məhv edilərsə (məsələn, insan), hissə də olmaz (məsələn, onun əli). Bununla razılaşmamaq çətindir, amma hazırda biz həmin fikri bu qədər qətiliklə təsdiqləyə bilmərik. SSRİ-nin yerində başqa dövlətlər yarandı, ailələr qaldı, yalnız onların mövcud olduqları şərait dəyişdi.

Makroiqtisadiyyat iqtisadiyyatın inkişafının şərtləri, amilləri və nəticələrini bütövlükdə öyrənir. Onun obyektləri sırasına sərvət və millətin gəliri, iqtisadi artımın sürəti və amilləri, ictimai istehsalın strukturu və proporsiyaları və s. daxildirlər.

Lakin marksistlərin bir xüsusiyyəti var idi: bütün tədqiqatlar əsasən tarazlıq şəraitində, yəni məcmu tələbi məcmu təklifinə bərabər olan istehsal prosesinə aid idi. Kembric məktəbi iqtisadçılarının və onun banisi A.Marşallın, C.M.Keyns və C.Hiksin, E.Hansenin, İ.Fişerin, M.Fridmenin və b. əsərlərində daha çox əmtəə və pulların tədavülü, tarazlıq və qeyri-tarazlıq vəziyyətində pul bazarının əmtəə bazarına təsiri proseslərinə diqqət yetirilir.

Ötən əsrin 80-90-cı illərində iqtisadi nəzəriyyənin neokeynsçi və neoklassik cərəyanlarının nümayəndələri milli iqtisadiyyatın fəaliyyətinin makroiqtisadi qanunauyğunluqlarının mikroiqtisadi əsaslandırılması probleminə xüsusi diqqət yetirirdilər. Tədqiqatın bu aspekti «Yeni makroiqtisadiyyat» adlandırıldı.

Makroiqtisadiyyat, iqtisadi nəzəriyyənin tərkib hissəsi və ya bölməsi kimi və *milli iqtisadiyyat*, müstəqil elm (müasir şəraitdə iqtisadi nəzəriyyədən ayrılmış) və tədris fənni kimi, dövlət qurumları çərçivəsində mövcud olan iqtisadi sistemlərin (strukturlar, altsistemlər, subyektlər və s.) fəa-

liyyəti (təkrar istehsalı) prosesini öyrənməyə ünvanlanıb. Bu həmin məfhumların dərkinin əsasında duran ümumi cəhətdir.

Lakin onların arasında fərq də var. Əgər bazar təsərrüfat sistemi şəraitində iqtisadiyyatın müəyyən tədqiqat səviyyəsi kimi makroiqtisadiyyat əsas diqqəti iqtisadi sistemlərin inkişafının ümumi qanunauyğunluqlarının aşkarlanmasına və həmin problemlərin nəzəriyyəsinə yönəldirsə, müstəqil elm sahəsi kimi milli iqtisadiyyat əsas diqqəti ayrı-ayrı dövlətlərin (Rusiya, Böyük Britaniya, ABŞ, Fransa və b.) inkişafının xüsusiyyətinə və həmin ölkələrdəki təsərrüfatçılıq praktikasına yönəldir.

«Milli» məfhumu «ümumdövlət» məfhumunun sinonimi kimi, milli iqtisadiyyat isə ayrı-ayrı etnik qurumların – millətlər və xalqların deyil, dövlətin iqtisadiyyatı kimi başa düşülməlidir. «Millət» dedikdə bütün xalq, ölkənin əhalisinin hamısı başa düşülür. Məsələn, Rusiyanın milli iqtisadiyyatından danışdıqda, Rusiya çoxmillətli ölkə olsa da, nəzərə almaq lazımdır ki, söhbət bütün Rusiya Federasiyası əhalisindən, yəni federal səviyyədə olan hadisələrdən gedir. Beləliklə, milli iqtisadiyyat ayrılıqda götürülmüş ölkənin (dövlətin) konkret-tarixi vəziyyətini və inkişafını ümumi qanunauyğunluqlardan daha çox xüsusi, spesifik qanunauyğunluqlar mövqeyindən və ya makroiqtisadiyyatın ümumi qanunauyğunluqlarının, amma konkret-tarixi şəraitdə, təzahür formalarını öyrənir.

Bu mövzunun öyrənilməsinə milli təsərrüfatın formalaşması və inkişafının əsası kimi ictimai təkrar istehsalın nəzərdən keçirilməsindən başlamaq daha məqsədəuyğundur.

İctimai təkrar istehsal milli iqtisadiyyatı üzvi tamlıq kimi, sadəcə olaraq müəssisələr, ev təsərrüfatları, sahələr, bölmələr, komplekslərin məcmusu kimi deyil, özünü təkrar istehsal edən sistem kimi təsəvvür etməyə imkan verər. Bu, o deməkdir ki, bu sistemin elementləri arasında qarşılıqlı təsir və əlaqələr iqtisadi proseslərin arasıkəsilməz davam etdirilməsi, bərpası və təkrar olunması üçün şərait yaradırlar.

§2. İctimai təkrar istehsal bütövlükdə iqtisadiyyatın mövcudluğunun əsası kimi

İctimai təkrar istehsal daim, qarşılıqlı təkrarlanma əlaqəsində və özünün arasıkəsilməz bərpa olunma axınında ictimai istehsal prosesidir.

Cəmiyyət istehlakı və istehsalı dayandıra bilməz. Daimi əlaqədə, özünün arasıkəsilməz bərpa olunma axınında nəzərdən keçirilən istənilən istehsal prosesi isə eyni zamanda həm də inkişaf etmiş bazar iqtisadiyyatında əmtəə və pul tədavülü olmadan qeyri-mümkün olan təkrar istehsal prosesidir.

İstehsalın bütün elementlərini daim təkrar istehsal etmədən cəmiyyət mövcud ola bilməz. Başqa sözlə, iqtisadi sistem fəaliyyət göstərə bilmək üçün xammal, istehsal vasitələri, iş qüvvəsini yalnız istehsal elementləri kimi deyil, həm də iqtisadi münasibətlər kimi təkrar istehsal etməlidir. Özü də bu münasibətlərin subyektləri kimi ayrı-ayrı iqtisadi agentlər deyil, iriləşdirilmiş, ümumiləşdirilmiş qruplar və ya «aqreqatlar» çıxış edir.

İctimai əməyin bölgüsü və istehsalçıların iqtisadi təcridliyi üzərində qurulan bazar təsərrüfatçılıq sistemində təkrar istehsal bütün əmtəələrin satılması, bütün istehsal vasitələri və istehlak şeyləri əvəzlənməsi şərti ilə mümkündür.Bu şərt müəyyən xalq təsərrüfatı proporsiyalarının gözlənilməsini nəzərdə tutur.


İlk dəfə bu nəticəyə makroiqtisadi təhlilin banisi fransız iqtisadçısı Fransua Kene gəlmişdi. Onun «İqtisadi cədvəl» əsəri, «Taxıl», «Fermerlər» və s. məqalələri iqtisadi tədqiqatlarda yeni istiqamət açmışdı.

F.Kenenin təkrar istehsal modeli onun xalis məhsulun yaradılması və mənimsənilməsindəki iştiraka görə fərqləndirilən siniflər nəzəriyyəsi ilə sıx bağlıdır. Keneyə görə millət üç sinifdən ibarətdir: məhsuldar, mülkiyyətçi və qeyri-məhsuldar. Birinci sinif xalis məhsul yaradır, ikinci sinif (kral, senyorlar, kilsə) xalis məhsulu mənimsəyir, üçüncü sinfə isə o, başqa işləri yerinə yetirən, kənd təsərrüfatı ilə məşğul ol-

mayan, xalis məhsulu mənimsəməyən və yaratmayan, yalnız kənd təsərrüfatı məhsulunu başqa natural formaya çevirən vətəndaşları aid edirdi. O, kapitalist-fermerləri və fəhlə-torpaq mülkiyyətçilərini fərqləndirmir, onları vahid istehsalçı sinifdə birləşdirirdi.

F.Kenenin xidmətləri yalnız təkrar istehsal prosesini maddi nemətlərin təkrar istehsalı kimi deyil, həm də siniflərin təkrar istehsalı, yəni istehsal münasibətləri kimi təqdim etməsindədir. O, birinci olaraq əsas və törəmə gəlirlər məsələsini qaldırmışdı. F.Kene xarici ticarəti, qiymətlərin dəyişkənliyini nəzərə almadan yalnız sadəcə təkrar istehsalı təhlil edirdi. Onun təkrar istehsal nəzəriyyəsində əsas yeri realizasiya problemi tutur.

F.Keneyə görə təkrar istehsal prosesi modelini təfərrüatlı nəzərdən keçirək (şəkil 2.1).



Şəkil 2.1. F.Kenenin təkrar istehsal prosesi modeli

F.Kenenin modelinə görə dövriyyə prosesi məhsul yığımı başa çatdıqdan sonra başlayır və beş əməliyyatdan ibarət olur. Tədavülə daxil olurlar: məhsuldar sinfin (MS) yaratdığı 3 milyard livrlik kənd təsərrüfatı məhsulu (3 KT); qeyri-məhsuldar sinfin (QS) yaratdığı 2 milyard livrlik sənaye məhsulu (2 SM); əvvəlki dövrdə torpaq mülkiyyətçilərinin (TM) torpağın icarəsindən əldə etdikləri 2 milyard livr pul vəsaiti (2P).

- 1-ci əməliyyat: torpaq mülkiyyətçiləri məhsuldar sinifdən 1 milyard livrlik ərzaq məhsulu alırlar;
- 2-ci əməliyyat: torpaq mülkiyyətçiləri qeyri-məhsuldar sinifdən 1 milyard livrlik sənaye məhsulu alırlar;
- 3-cü əməliyyat: qeyri-məhsuldar sinif torpaq mülkiyyətçilərindən aldığı 1 milyard livrə ərzaq məhsulu alır;
- 4-cü əməliyyat: məhsuldar sinif 1 milyard livrə sənaye malları alır;
- 5-ci əməliyyat: qeyri-məhsuldar sinif 1 milyard livrə kənd təsərrüfatı xammalı alır.

Bu əməliyyatlar nəticəsində 2 milyard livrlik sənaye məhsulu və 3 milyard livrlik kənd təsərrüfatı məhsulu satılmışdır. Məhsuldar sinfin icarə üçün 2 milyard livri və əsas kapitalın aşınmasını aradan qaldırmaq üçün 1 milyard livrlik sənaye məhsulu var. Torpaq mütkiyyətçilərinin şəxsi istehlak üçün 1milyard livrlik ərzaq məhsulu və 1 milyard livrlik sənaye məhsulu var. Qeyri-məhsuldar sinfin istehsalat ehtiyacları üçün 1 milyard livrlik və şəxsi istehlak üçün 1 milyard livrlik kənd təsərrüfatı məhsulu var. Dövrün sonunda cəmiyyətin pul şəklində 2 milyard livri (2P), 2 milyard livrlik sənaye məhsulu (2SM) və 3 milyard livrlik kənd təsərrüfatı məhsulu (3 KT) olur. Beləliklə, təkrar istehsal üçün bütün zəruri şərtlər yaradılmışdır.

F.Kenenin təkrar istehsal modeli göstərir ki, istehsal prosesinin təkrarlanması proporsionallıq şəraitində mümkün olur ki, bu da rəqabət və qiymətlərin azad rəqs etməsi əsasında, yəni təbii qaydada əldə olunur. Dövlətin müdaxilə etməsi bu qaydanı pozur. Təbii qayda konsepsiyası təbiət qanunlarının əbədiliyini iqtisadi qanunlara şamil edirdi.

F.Kenenin təkrar istehsal nəzəriyyəsi istehsal prosesinin cəmiyyət miqyasında nəzərdən keçirilməsinin ilk cəhdi

idi. Sonralar cəmiyyət miqyasında təkrar istehsal prosesinə K.Marks müraciət etdi. ***O, ictimai kapitalın təkrar istehsalı nəzəriyyəsini*** yaratdı ki, bu da üç qarşılıqlı əlaqədə olan hissədən ibarətdir:

- mücərrəd reallaşdırma nəzəriyyəsi;
- milli gəlir nəzəriyyəsi;
- iqtisadi böhranlar nəzəriyyəsi.

İctimai kapitalın təkrar istehsalı nəzəriyyəsinin əsas müddəaları aşağıdakılardır:

1. Maddi nemətlər istehsalı istənilən cəmiyyətdə arasıkəsilməz təkrarlanan proses və ya təkrar istehsaldır.

2.İctimai kapitalın təkrar istehsalı onun istehsal sahəsi və tədavül sahəsində hərəkətidir. Bu hərəkətin nəticəsi öz əksini məcmu ictimai məhsulda (MİM) tapır, ictimai kapitalın özü isə, K.Marksa görə, bazar mexanizmi vasitəsilə qarşılıqlı əlaqədə olan fərdi kapitalların məcmusudur.

3.Təkrar istehsal prosesi üç prosesin: məcmu ictimai məhsulun, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin təkrar istehsalının vəhdətidir. Bu üç prosesi yalnız nəzəri olaraq bir-birindən ayırmaq olar, real gerçəklikdə isə onlar vəhdətdə və qarşılıqlı əlaqədə həyata keçirilirlər. İstehsalın fasiləsiz bərpasının və inkişafının maddi əsasını məcmu ictimai məhsul təşkil edir ki, o da bazar iqtisadiyyatı şəraitində əmtəə xarakteri alır və onun satışı fasiləsiz istehsal üçün zəruridir. ***Buna görə də ictimai istehsalın əsas problemi məcmu ictimai məhsulun satışıdır.*** Məhsuldar qüvvələrin təkrar istehsalı iş qüvvəsi və istehsal vasitələrinin təkrar istehsalını ehtiva edir. İş qüvvəsinin təkrar istehsalının özünəməxsusluğu ondadır ki, insan özünü yalnız müəyyən keyfiyyətdə və tipdə olan işçi kimi təkrar istehsal etmir. Bu prosesin olduqca mühüm hissəsi təbii resursların təkrar istehsalı və ya iqtisadi artımın təbii şəraitinin təkrar istehsalıdır. Cəmiyyət inkişaf etdikcə təkrar istehsal get-gedə daha çox ekoloji-iqtisadi səciyyə daşımağa başlayır.


4.Təkrar istehsal ictimai istehsalın dörd mərhələsinin hamısını: istehsalın özünü (cəmiyyətin mövcudluğu və inkişafı üçün zəruri olan maddi nemətlərin yaradılması prosesi); bölgünü (istehsal olunmuş məhsulda cəmiyyət üzvlərinin hər birinin payının, keyfiyyətinin, iştirakının proporsiyalarının müəyyənləşdirilməsi prosesi); mübadiləni (maddi nemətlər və xidmətlərin bir subyektdən digərinə hərəkəti prosesi və istehsalçı və istehlakçıların ictimai maddələr mübadiləsini əhatələyən ictimai əlaqə forması); istehlakı (istehsalın nəticələrinin müəyyən tələbatların ödənilməsi məqsədilə istifadə edilmə prosesi) əhatə edir. Bütün bu mərhələlər (məqamlar) qarşılıqlı əlaqədardır.

5.Cəmiyyətin tərəqqidə olan inkişafının şərti maşın texnikasına əsaslanan geniş təkrar istehsaldır. İctimai kapitalın genişlənmə (yığım) mənbəyi izafi dəyərdir.

6.İctimai istehsalın arasıkəsilməzliyinin şərti məhsulun illik həcmi ölçüsündə maddi, ictimai ehtiyatın yaradılması və mövcudluğudur.

7.Təkrar istehsal istehsalın quruluşu və cəmiyyətin tələbatları arasında tənasüblüyün, yəni müəyyən proporsionallığın olmasını nəzərdə tutur.

8.Bütün ictimai istehsal aşağıdakılara bölünür: I – istehsal vasitələrinin istehsalı və II – istehlak şeylərinin istehsalı. Birinci bölmənin inkişafı üstündür.



Şəkil 2.2. Qapalı iqtisadiyyatda dövlətin iştirakı ilə məhsul və gəlirlərin iqtisadi dövriyyəsinin neoklassik modeli

Müasir qərb iqtisadi ədəbiyyatında cəmiyyət miqyasında istehsalın fasiləsizliyi məhsulların və gəlirin ***iqtisadi dövriyyəsi modelində*** nəzərdən keçirilir (şəkil 2.2).

Milli iqtisadiyyatda təsərrüfat fəaliyyəti olduqca müxtəlifdir. Təsərrüfat subyektləri arasında ən müxtəlif münasibətlər mövcuddur. Müəssisələr istehsal edir və satırlar, ev təsərrüfatları istehlak edir və yığımı həyata keçirir; dövlət büdcə təşkilatları vergiləri yığır və kollektiv tələbatları ödəyirlər. Milli iqtisadiyyatdakı çoxsaylı dolaşıq prosesləri sadələşdirmək üçün istehsal və istehlak mərhələlərinin fasiləsiz təkrarlanmasını iqtisadi dövriyyə modeli şəklində təsəvvür etmək olar. Bu zaman eyni cür təsərrüfat vahidləri bölmələrdə, analoji təsərrüfat əməliyyatları isə axın kəmiyyətlərində (əmtəə və xidmətlər axını və ya əmtəə tədavülü və pul axını və ya pul tədavülü) birləşdirilir (ümumiləşdirilir).

İqtisadi dövriyyənin əsas yaradıcı hissəsi cəmiyyətə (ev təsərrüfatlarına) lazım olan məhsulları və xidmətləri hazırlayan müəssisələrdir (firmalardır). Müəssisələr təcrid olunmuş yox, yalnız onların məhsullarına tələbi yaradan alıcılarla deyil, həm də resursların hərəkəti ilə sıx, onların mövcudluğu üçün zəruri olan əlaqədə fəaliyyət göstərirlər. Bu qarşılıqlı əlaqələr istehsal olunmuş məhsulun satıldığı istehlak bazarında alış-satış vasitəsilə, həm də istehsal amillərinin alındığı resurslar bazarında həyata keçirilir. Bu qarşılıqlı əlaqələrin daim bərpa olunması, təkrarlanması və davam etdirilməsi ictimai istehsalın meyarı qismində çıxış edir.

Bazar iqtisadiyyatında əlaqə forması - bazardır. Bu o deməkdir ki, iqtisadi dövriyyədə olan bütün nemətlər iki mövcudluq formasına malikdir: natural-əşyavi və pul. Şəkil 2.2-də göstərilir ki, bu formalar sadəcə mövcud deyil, bir-biri ilə qarşıdurmadadırlar. Onların hərəkət istiqaməti əks yönümlüdür: natural-əşyavi saat istiqamətinin əksinə, pul isə saat istiqamətində hərəkət edir.

Nemətlərin iqtisadi dövriyyəsinin çıxış nöqtəsi, dominantı ev təsərrüfatlarıdır ki, özlərinin ərzağa, paltara və digər nemətlərə olan tələbatlarını ödəmək məqsədilə istehsal resursu kimi torpaq, əmək, kapital, sahibkarlıq qabiliyyəti təklif edirlər. Lakin ev təsərrüfatları, digər tərəfdən, iqtisadi dövriyyənin həm son məhsulu, həm də onun son məqsədidir. İstehsal son nəticədə istehlakı təmin etmək üçün fəaliyyət göstərir. Beləliklə, istehlakın məqsədinə resursların satılması, onlardan məhsuldar formada istehlak etmək, maddi nemətlərin istehsalı və satışı vasitəsilə çatılır.

Ev sahibləri dövlətə birbaşa vergilər ödəyir (gəlir vergisi, əməkhaqqından vergi, torpaq vergisi, avtomobilə görə və s.), dövlətdən isə əməkhaqqı və maaş, transfert ödənişləri (dövlət ödənişləri, pensiya, təqaüd, mənzil haqqına dotasiya və s.) alırlar.

Müəssisələr (firmalar) dövlətə dolayı (dövriyyə vergisi, mədən vergisi, aksiz) və birbaşa (şirkətin mənfəət vergisi, sosial sığortaya görə ödənişlər) vergilər ödəyir, dövlətdən isə subsidiya şəklində transfert ödənişləri, vergi güzəştləri, mükafatlar, güzəştli borc, büdcə təşkilatlarının cari xərclərinin ödənilməsini alır.


Bu model qapalı milli iqtisadiyyatda iqtisadi dövriyyəni səciyyələndirir. Açıq milli iqtisadiyyatın dövriyyəsi daha bir təsərrüfat subyektinin – xaricin əlavə olunması ilə mürəkkəbləşir. ***Bu proseslərin daim təkrarlanması və davam etməsi ictimai təkrar istehsalın məzmununu təşkil edir.***

§3. İctimai istehsalın quruluşu

Klassik siyasi iqtisada görə, ictimai istehsalın quruluşunu ən ümumi sxematik şəkildə təsvir etmək mümkündür (şəkil 2.3).

Rəsmi statistikaya görə, ***maddi istehsala*** maddi nemətlər istehsal olunan sahələr və müəssisələr: sənaye, kənd və meşə təsərrüfatı, tikinti, ticarət, həmçinin maddi xidmətlər göstərən sahələr: nəqliyyat, rabitə, kommunal təsərrüfatı və şəxsi yardımçı təsərrüfat daxildir.

Maddi istehsal sahəsindən qeyri-istehsal sahəsini və ya



Şəkil 2.3. İctimai istehsalın quruluşu

qeyri-maddi istehsal sahəsini fərqləndirmək lazımdır. Ona səhiyyə, maarif, elm (mübahisəli), mədəniyyət, incəsənət, mənzil, kommunal təsərrüfatı, məişət xidməti, idarəetmə, maliyyələşdirmə və kreditləmə, sərnişin nəqliyyatı, rabitə (qeyri-istehsal sahələri təşkilatlarına və əhaliyə xidmət göstərən), idman və s. aiddir.

Maddi istehsal sahəsində sərf olunan, maddi nemətlər yaradan əmək **məhsuldar əmək** kimi çıxış edir. **Qeyri-məhsuldar əmək** maddi nemətlər yaradılmasında iştirak etməyən əməkdir. Məhsuldar əmək və qeyri-məhsuldar əmək ictimai faydalıdırlar, cəmiyyətin inkişafı üçün zəruridirlər, əməyin məcmu ictimai məhsulunun səmərəliliyinə rəvac verirlər.

Yalnız əşyalar, maddi nemətlər deyil, maddi (təmir, nəqliyyat, saxlama) və qeyri-maddi (təhsil, səhiyyə, mədəniyyət, məişət) səciyyəli xidmətlər də ictimai faydalı ola bilirlər. İstehsal tələbatları elmi, informasiya, nəqliyyat və başqa xidmətlərlə təmin edilir. Bütün xidmətlərin məcmusu xidmət sahəsini əmələ gətirir.

İstehsal və şəxsi xidmətlər ictimai məhsulun tərkib hissəsidir, onların istehsalına sərf olunan əmək isə ictimai faydalı əməkdir.

ETİ müstəqil maddi məhsul yaratmayan, amma mühüm ictimai funksiyalar yerinə yetirən ***xidmət sahəsinin*** sürətlə

inkişafını şərtləndirdi. Bu sahəyə istehsal və sosial infrastrukturlar aiddirlər.

Müasir təkrar istehsalda ***hərbi texnika sahəsi*** də əhəmiyyətli rol oynayır. Bundan başqa, bəzi ölkələrdə (monoixtisaslaşmış, məsələn, neft üzrə) sıfır bölməsini də – neft hasilatını – fərqləndirirlər.

İctimai təkrar istehsal üçün istehsalda ***iki bölmənin*** olması zəruridir: I – istehsal vasitələrinin istehsalı, II – istehlak şeylərinin istehsalı. Belə bölgü istehsal vasitələri və istehlak predmetlərinin təkrar istehsal prosesində xeyli fərqli funksiyalar yerinə yetirməsi ilə əlaqədardır. Əgər birincilər əsasən məhsuldar qüvvələrin əşyavi, maddi elementlərinin təkrar istehsalına xidmət edirlərsə, ikincilər insan kapitalının təkrar istehsalına xidmət edirlər.

İctimai təkrar istehsalın I və II bölmələri arasında nisbət probleminin iqtisadiyyatın inkişafı üçün böyük əhəmiyyəti var. Ölkəmizdə vulqar, bəsitləşdirilmiş şərh olunan istehsal vasitələrinin istehsalının üstünlüyü haqqındakı ehkam tədricən həyat səviyyəsinin aşağı düşməsini, ictimai təkrar istehsalın obyektiv səviyyəsinin daralmasını şərtləndirdi. İctimai istehsalın I bölməsinin üstün artması qanunauyğunluğu istehsal vasitələrinin kəmiyyət yığımı şəraitində deyil, onların durmadan keyfiyyətcə təkmilləşməsi şəraitində işləyir, çünki ETT-nin hərəkətverici qüvvəsi ictimai əmək və məhsuldarlığının daim artması amilidir. Bizim ölkəmizə gəldikdə isə, müharibədən sonra I bölmədə istehsal həcminin artırılması əslində artırılma, yəni istehsal naminə istehsal edilirdi. Bu, ***spesifik şəraitlə*** gücləndirilmişdi.

1. Birinci bölmə HSK və kosmik işləmələrin prioritet inkişafını, bunun üçün lazım olan xammalı, materialları, enerjini, dəzgahları, avadanlığı təmin etməli idi.

2. XX əsrin 60-cı illərinin sonundan Qərbi Sibir neft və qaz yataqlarından geniş miqyasda istehsal başlandı.Bu, yanacaq-energetika kompleksinə investisiyaların kəskin şəkildə artmasına səbəb oldu.

3. I bölmədə istehsal həcminin genişlənməsi praktik ola-

raq dəyişilməyən texniki zəmində istehsalın köhnə texnologiya üsulu saxlanılmaqla aparılırdı.

Nəticədə I bölmənin son məhsulunun texniki göstəriciləri (maşınqayırma məhsulları) ləng dəyişir, II bölməyə kifayət qədər investisiyaların ayrılmaması isə müəyyən dövrlərdə istehsal aparatının nəinki mənəvi, hətta kəskin şəkildə fiziki köhnəlməsinə səbəb olurdu.

Ölkəmizin xalq təsərrüfatına investisiya qoyuluşu prosesi üçün keçmişdə I bölməyə kapitalın çox hissəsinin qoyuluşu və II bölməyə: səhiyyə, mədəniyyət və başqa həyatı təmin edən sahələrə onun tədricən azaldılması səciyyəvi idi. Hazırda xalq təsərrüfatının bütün sahələri fiziki və mənəvi cəhətdən köhnəlmiş texnikanın yeniləşdirilməsi və yeni texnologiyaların tətbiq edilməsi məqsədilə investisiya qoyuluşunun fəallaşdırılmasına kəskin ehtiyac duyur.

Müharibədən sonrakı dövrdə inkişaf etmiş Qərb ölkələrində investisiya sahəsində istehlak kompleksi və bütün sosial infrastrukturun xeyrinə kəskin dəyişiklik oldu. Bu, ETT-nin sürətlənməsinə səbəb oldu, çünki o, resurs təminatı zəminində xammal və enerji istehsalına ictimai xərcləri azaltmağa, kompleks mexanikləşdirmə və avtomatlaşdırma hesabına maddi istehsal sahəsindən əmək resurslarını azad edib insana xidmətə yönəltməyə imkan verdi. Nəticədə XXI əsrin əvvəlinə əhalinin həyat səviyyəsi praktik olaraq bütün inkişaf etmiş ölkələrdə yüksəldi.

Müasir ictimai istehsal yalnız maddi istehsalı (I və II bölmələri) deyil, həm də qeyri-maddi sahəni – ***bütün sahələrin məcmusu III bölməni əmələ gətirən qeyri-maddi xidmət və nemətlər istehsalını və nəhayət, IV bölmə kimi nəzərdən keçirilməsi daha məqsədəuyğun olan hərbi iqtisadiyyat sahəsini*** ehtiva edir. İctimai istehsalın belə quruluşu müasir əsaslı keyfiyyət dəyişikliklərini nəzərə alır. Bu həm də dərk etməyə imkan verir ki, III və IV bölmələr özü-özlüyündə istehlak və istehsal təyinatlı heç bir maddi substansiya istehsal etmirlər (konversiya istehsalından başqa). Bundan belə bir nəticə çıxır: III və IV bölmələrin doldurulmasının maddi mənbəyi və bu bölmələrin istehlak tələbinin əmtəəylə ödənilməsi (təmin edilməsi) üçün maddi mənbə ictimai istehsalın I və II bölmələri (yəni sahələri) tərəfindən yaradılan ictimai məhsuldur. İctimai təsərrüfatın tarazlaşdırılması üçün bütün bunlar nəzərə alınmalıdır.

İqtisadiyyatın qeyri-maddi səciyyəli sahəsi və hərbi (müdafiə) sahəsinin inkişafı I və II bölmələrin həcmini və quruluşunu xeyli dəyişdirir. Aşağıdakı misalı nəzərdən keçirək: burada c - sabit kapital, v - dəyişən kapital, m – izafi dəyər (K.Marksa görə), $(c+v+m)$ isə ayrı-ayrı bölmələrdə yaradılmış dəyərin həmisidir.

Fərz edək ki:

$$\left.\begin{array}{l} \text{I } (c+v+m) = 400c + 200v + 100m \\ \text{II}(c+v+m) = 300c + 200v + 200m \end{array}\right\} 1400$$

$$\Sigma(\text{I} + \text{II}) + \Sigma(\text{III} + \text{IV}) = 2000$$

III və IV bölmələrin ümumi məbləği 600 təşkil edəcək, bu halda həmin bölmələr belə olacaq:

$$\left.\begin{array}{l} \text{III}(c+v+m) = 200c + 150v + 50m \\ \text{IV}(c+v+m) = 100c + 50v + 50m \end{array}\right\} 600$$

Bu verilənlərdən I bölmə məhsullarından nə qədər istehsal etmək lazım olduğunu müəyyənləşdirmək olar:

$\text{I } (c+v+m) = \text{I } c + \text{II}c + \text{III } c + \text{IV } c$

$\text{II}(c+v+m) = \text{I } (v+m) + \text{II}(v+m) + \text{III } (v+m) + \text{IV } (v+m)$

Əgər $\text{II}c + \text{III } c + \text{IV } c = 600$-sə onda

$\text{I } (c+v+m) = 400c + 300v + 300m = 1000.$

$\text{I } (v+m) + \text{II}(v+m) + \text{III } (v+m) + \text{IV } (v+m) = 1400.$

$600 + 700 + 200 + 100 = 1600.$

$\text{II}(c+v+m) = 300c + 400v + 300m$

$\text{I } (v+m) = \text{II } c + \text{III } c + \text{IV } c$

İctimai istehsalın mürəkkəbləşmiş quruluşu nəzərə alınmaqla təkrar istehsal şərtləri dəyişir:

$\text{I } (400c + 300v + 300m) = 1000.$

$\text{II } (300c + 400v + 300m) = 1000.$

I və II bölmələr arasında funksional asılılıq $\text{I } (v+m) > \text{II } c$ (2 dəfə) olacaq.

Beləliklə, ictimai istehsalın quruluşu təkrar istehsalın

sürəti və miqyasına təsir edir. İqtisadiyyatın durğunluq və ya böhranlı vəziyyətinin aradan qaldırılması ictimai istehsalın quruluşunun normallaşdırılması yolu ilə mümkündür.

Müasir «Ekonomiks»də milli iqtisadiyyatın quruluşu müxtəlif bölmələrin məcmusu kimi nəzərdən keçirilir ki, bunlardan da ən mühümləri aşağıdakılardır:

- *ev təsərrüfatları bölməsi*: ona ölkənin bütün ailələri daxildir və o, fəaliyyətini tələbatların ödənilməsinə yönəldir;

- *sahibkarlıq bölməsi*: ölkə daxilində qeydiyyatdan keçmiş və öz fəaliyyətini mənfəət götürmək üçün təşkil edən firmaların bütün məcmusunu özündə birləşdirir;

- *dövlət bölməsi:* bütün dövlət institutları və təsisatlarından ibarətdir. Bu bölmə ictimai nemətlər istehsalını təşkil edir və sosial ödənişləri həyata keçirir, ölkənin milli gəlirini iqtisadiyyatın ayrı-ayrı bölmələri arasında təkrar bölür, milli iqtisadiyyatda pul vəsaitləri təklifini təmin edir və ölkənin xarici iqtisadi əlaqələrinin tənzimlənməsi üzrə bu və ya digər kompleks tədbirləri görür.Digər makroiqtisadi subyektlərdən fərqli olaraq dövlət öz iqtisadi fəaliyyətinin həyata keçirilməsində öz maraqlarını deyil, ümummili maraqları əldə rəhbər tutur;

- *xarici bölmə* - daimi yerləşmə yeri ölkə hüdudlarından kənarda olan bütün iqtisadi subyektlərin məcmusudur. Xarici bölmənin milli iqtisadiyyatın iqtisadi subyektləri ilə qarşılıqlı əlaqəsi xarici iqtisadi əlaqələr zəminində qarşılıqlı əmtəə, xidmətlər, milli valyuta və kapital mübadiləsi vasitəsilə həyata keçirilir.

Müasir iqtisadi ədəbiyyatda həmçinin real (real əmtəə və xidmətlər və s. istehsalı ilə bağlı olan) və maliyyə bölməsi də fərqləndirilir. Sonuncu bu gün real istehsala pul qoymadan puldan pul «düzəltməyə» imkan verir.

İqtisadi bölmələrin qarşılıqlı əlaqələrinin əsas hissəsi onların makroiqtisadi ümumiləşdirilmiş bazarda qarşılıqlı təsiri prosesində formalaşır.

§4. Geniş təkrar istehsalın növləri, meyarları və göstəriciləri

Təkrar istehsalın tipologiyası böyük rəngarəngliklə səciyyələnir və çoxmeyarlı xarakterlidir. Ən çox **iki meyar** məşhurdur:

1) Gəlirlərdən əldə olunmuş resursun istifadəsinin xarakteri;

2) istehsal amillərinin və onların fəaliyyət göstərməsinin keyfiyyət xarakteristikası.

Birinci meyara müvafiq olaraq aşağıdakı təkrar istehsal növlərini müəyyənləşdirmək olar:

- ***sadə*** – istehsal prosesinin əvvəlki miqyasda təkrarlanmasıdır, çünki bütün əldə olunmuş gəlir şəxsi (son) istehlaka sərf olunur;

- ***geniş*** - istehsal prosesinin daha böyük həcmdə təkrarlanmasıdır, çünki əldə olunmuş gəlirin bir qismi əlavə resursların alınmasına xərclənir ki, buna səbəb də istehsal daha geniş miqyasda bərpa olunur;

- **dar** – gəlirin olmaması və ya bu istehsal növünün inkişaf etdirilməsinin məqsədəuyğun olmaması səbəbindən istehsal prosesinin azaldılmış həcmdə təkrarlanmasıdır.

Bu meyar təkrar istehsalın kəmiyyət səciyyələndirilməsinə imkan verir. Lakin cəmiyyət keyfiyyətcə də inkişaf edir, sosial-iqtisadi hadisələr heç vaxt ilkin şəklində təkrar istehsal olunmurlar. Əgər belə olmasa, cəmiyyət köhnə formalarda batıb qalardı. İctimai inkişaf tarixi isə bunun qeyri-mümkün olduğunu göstərir.

Diqqətlə nəzərdən keçirdikdə hər bir tarixi dövrdə yeni elementlər aşkarlanır ki, onlar yaranır, inkişaf edir və nəhayət o qədər böyüyürlər, artırlar ki, cəmiyyətin özünün iqtisadi cizgilərini tamamilə dəyişirlər. Buna görə də sadə ictimai təkrar istehsal, yəni uzun tarixi dövr ərzində istehsal prosesində cəmiyyətin əvvəlki vəziyyətinin eynilə bərpası mümkün deyil, bu əslində abstraksiyadır. Cəmiyyətdə dəyişikliklər tədricən, nəzərə çarpmadan toplanır, iqtisadiy-

yatın belə vəziyyəti durğunluq kimi səciyyələndirilir. Müəyyən dövrlərdə dar təkrar istehsal hadisəsi də mümkündür. Qədim Romanın tənəzzülü, iqtisadi böhranlar və ya müharibələr dövründə belə olmuşdu. Belə təkrar istehsal növü XX yüzilliyin sonunda islahata gəlməyən Rusiya iqtisadiyyatının inkişaf mərhələsini səciyyələndirir. Belə dövrlərdə bir istehsalçılar müflisləşir, digərləri varlanırlar. Lakin tarixdə, bir qayda olaraq, istehsalın get-gedə daha böyük miqyasda və keyfiyyətcə yeni formalarda bərpa olunduğu geniş təkrar istehsal üstünlük təşkil edir.

İkinci meyara müvafiq olaraq ***ekstensiv, qarışıq və intensiv təkrar istehsal*** fərqləndirilir (cədvəl 2.1).

Cədvəl 2.1

Təkrar istehsal növləri

İntensiv	Qarışıq	Ekstensiv
Texnika və texnologiyanın təkmilləşdirilməsi nəticəsində istehsal potensialının artması	İstifadə olunan istehsal amillərinin sayının artması və texnika və texnologiyanın təkmilləşdirilməsi nəticəsində istehsal gücünün artması	İstifadə olunan istehsal amillərinin sayının artması nəticəsində istehsal gücünün artması

Ekstensiv təkrar istehsal geniş təkrar istehsal növlərinin konkret (ilkin) formalarından biri olub, əlavə əmək və maddi-əşyavi istehsal resursları (amilləri) hesabına əvvəlki texniki zəmində və işçilərin əvvəlki peşəkarlıq səviyyəsində istehsal miqyasının artırılmasıdır. Bu o deməkdir ki, əldə olunan əmtəə və xidmətlər artımına müvafiq olaraq lazım olan resursların hamısının artıq işlədilməsi hesabına nail olunur. Məkanın ekstensivləşdirilməsi işləyənlərin sayının artırılması, iş gününün uzadılması, investisiyaların həcminin artırılması, yeni torpaqların dövriyyəyə qatılması, idarəetmə aparatının genişləndirilməsi, çıxarılan xammalın və enerjinin həcminin artırılması və s. vasitəsilə mümkündür.

Bu halda təsərrüfatın aparılması metodu xərc aparan, təkrar istehsal forması isə fondtutumlu və resurstutumludur.

Ekstensiv təkrar istehsal növünün perspektivi yoxdur, çünki o, resurs məhdudluğu ilə üzləşir. Buna görə də özü xeyli məhdud olur.

İntensiv təkrar istehsal, ekstensivdən fərqli olaraq, istehsal amillərinin keyfiyyətcə dəyişməsi, istehsalın yeni texniki zəminə keçməsi ilə səciyyələnir.

Real həyatda intensiv və ekstensiv amillər bir-birini tamamlayaraq həmişə müəyyən kombinasiyalarda olurlar. Onlar arasında həddi nisbi və mütəhərrikdir. Tarixi inkişaf prosesində onların daim bir-birinə keçməsi baş verir ki, buna görə də bu və ya digərinin üstünlük təşkil etməsindən söhbət gedə bilər. Bu isə intensivləşmə prosesinin təhlilində intensivləşməni sözün ilkin mənasında – əməyin gərginliyinin gücləndirilməsi və iqtisadiyyatın əsasən xalq təsərrüfatında bütün gəlirin yarısından çoxunun (onun artımı) intensiv amillər hesabına əldə olunduğu intensiv inkişaf yoluna keçməsi kimi nəzərdən keçirməyə əsas verir.

İctimai istehsalın intensiv növü öz inkişafında *iki mərhələdən* keçir.

Birinci mərhələ – əl əməyinin kütləvi sıxışdırılması və onun maşın əməyi ilə əvəzlənməsi ilə bağlı olan qismən intensivləşmədir. Bu mərhələdə intensivləşmə əsasən yalnız bir amil – iş qüvvəsi hesabına həyata keçirilir, buna görə də bu mərhələ qismən intensivləşmə adlanır.

İntensiv növ ictimai təkrar istehsalın *ikinci, ali mərhələsi* əmək məhsuldarlığının istehsal amillərinin hamısının qənaət edilməsi, effekt vahidinə düşən xərclərin mütləq azaldılması ilə bağlıdır. Bu növ istehsal amillərinin hamısının intensivliyinin eyni zamanda artması ilə səciyyələnir.

İctimai istehsalın intensiv növü istehsalın elm və texnikanın nailiyyətləri, onların keyfiyyətcə dəyişməsi zəminində müxtəlif resurslardan daha yaxşı, daha dolğun istifadə edilməsi hesabına genişlənməsi deməkdir.

Alimlərin fikrincə, bütün insan fəaliyyətləri təxminən

40 il ərzində ikiqat artır. Bu, ETT nəticəsində baş verir. Elm isə bu müddət ərzində 4 dəfə sürətlə inkişaf edir. Hazırda insanların istifadə etdikləri elmi tapıntıların yarısından çoxu XX əsrin 60-cı illərindən sonra əldə olunmuşdur ki, bu da həmin dövrdə ictimai istehsalın yüksək intensivliyinə dəlalət edir.

İstehsalın intensiv inkişaf yönümünü təmin etmək üçün aşağıdakılar zəruridir:

- texnikanın təzələnməsi və istehsalın modernləşdirilməsi;
- bütün resurslardan daha yaxşı istifadə;
- istehsalın sahə strukturunda mütərəqqi dəyişikliklər;
- maddi resurslara qənaət;
- kadrların ixtisasının artırılması;
- əmək intizamının möhkəmləndirilməsi, əməyə marağın gücləndirilməsi;
- təbiəti mühafizə tədbirləri;
- idarəetmənin təkmilləşdirilməsi;
- xarici iqtisadi əlaqələrin səmərəliləşdirilməsi. Bu zaman təsərrüfatçılıq metodu qənaətedici olacaq.

Təkrar istehsalın intensiv növü sayı 10-dan yuxarı olan müxtəlif formalarda həyata keçirilə bilər. Məsələn, bunlardan aşağıdakılar məlumdur:

- ***resurstutumlu*** (fondtutumlu) – bu zaman əməyin göstəricilərinin artırılması məhsul vahidinə çəkilən xərcin artması yolu ilə mümkün olur;

- ***resursa qənaət edən*** (fonda qənaət edən) – məhsul vahidinə çəkilən resursların qənaət edilməsi ilə müşayiət olunur;

- ***neytral*** – nəzərdə tutur ki, əməyin nəticələrinin yüksəlməsi əlavə ictimai əmək sərfi hesabına əldə olunur ki, həmin əməyin qənaəti bu xərcləri kompensə edir və istehsal resursları məcmu ictimai məhsul və milli gəlirin artdığı sürətlə artırlar.

İqtisadi ədəbiyyatda **geniş və dar mənada intensivləşmə** fərqləndirilir.

Geniş mənada – bu, ictimai istehsalın bütün mərhələlərinin, həmçinin idarəetmənin, elmin, texnikanın inkişafının, infrastrukturun, yəni xalq təsərrüfatının bütün sahələrinin intensivləşməsi prosesidir.

Dar mənada – bu, istehsalın intensivləşməsi, yeni texnikanın, texnologiyanın istehsala tətbiqi, təbii resurslardan daha yaxşı istifadə və sairdir.

İntensifikasiya istehsalın əşyavi və şəxsi amillərinin təkmilləşdirilmə proseslərinin vəhdəti və bu hesaba ən yaxşı nəticələrin əldə edilməsi olduğundan onun göstəricilərini ***iki qrupa*** bölmək olar.

Birinci qrupa istehsalın təkmilləşdirilməsi prosesini əks etdirən, müəyyən vaxt kəsiyi ərzində istehsalın texniki-iqtisadi səviyyəsini səciyyələndirən amillər, o cümlədən aşağıdakılar aiddir:

1) avadanlığın yaş tərkibi, onun yararlılığı və ya fiziki aşılanması, mənəvi cəhətdən köhnəlmiş avadanlığın xüsusi çəkisi və s. (məsələn, istehsal vasitələrinin təzələnmə əmsalı);

2) fondtutumlu (orta illik fondların dəyərinin işçilərin orta siyahı sayına bölünməsi), enerjitutumlu və s.;

3) istehsalın mexanikləşdirmə və avtomatlaşdırma dərəcəsi (maşınların köməkliyi ilə hazırlanmış məhsulun həcminin məhsulun ümumi həcminə faizlə nisbəti mexanikləşdirmə əmsalını təşkil edir);

4) istehsal olunan məhsulun texniki-iqtisadi səviyyəsi, yüksək keyfiyyətli xarici nümunələrə müvafiq, rəqabət qabiliyyətli və s. məhsulun xüsusi çəkisi;

5) istehsalın təşkili səviyyəsi (əmək bölgüsünün, yeni rasional iş metodlarının tətbiqi və s. səviyyəsi); bu amillərin cəlb edilməsi hesabına əmək məhsuldarlığının inkişaf sürətini 1,3 - 1,5 dəfə artırmaq olar;

6) işçilərin keyfiyyət tərkibi;

7) investisiyaların quruluşu və onlardan səmərəli istifadə, məhsulun keyfiyyətinin artırılması və assortimentinin

genişləndirilməsində onların xüsusi çəkisi.

Geniş ictimai təkrar istehsalın intensiv növünün ***digər qrup göstəriciləri*** ictimai istehsalın və ya milli iqtisadiyyatın səmərəliliyini səciyyələndirir.

§5. Təkrar istehsal sistemində iqtisadi məkan

İctimai təkrar istehsalın bir sistem kimi bütövlüyünü təmin edən əsasını vahid iqtisadi məkan təşkil edir.

Vahid iqtisadi məkan – istehsalın maddi-texniki şərtlərinin, ictimai istehsal infrastrukturunun sahələri (nəqliyyat, telekommunikasiya və energetika sistemi) və dövlət tərəfindən yaradılan institutların məcmusudur.

Maddi-texniki mühit – istehsalın təşkili üçün əhəmiyyət kəsb edən təbii şərait, ictimai infrastruktur və əhalinin həyat fəaliyyətinin təmin edilməsi üçün əsas olan təsərrüfat sahələridir. Maddi-texniki mühit, bir qayda olaraq, parçalanma təhlükəsi olmadan tərkib hissələri təcrid oluna bilməyəcək vahid bölünməz sistem kimi istifadə edilmək xüsusiyyətinə malikdir. Bu xüsusiyyət maddi-texniki mühiti ictimai nemət edir.

Torpaq istehsalın maddi-texniki şərtlərinin əsasını təşkil edir. Eyni zamanda bu, dövlətin ərazisi, onun suverenlik sahəsidir. Vahid iqtisadi məkan mülkiyyətçisi adı dövlətə məxsusdur. Torpaq, torpaq ətrafı məkan da daxil olmaqla, ən mühüm istehsal vasitəsidir, yalnız kənd, meşə (torpaqda yerləşən su hövzələri də daxil olmaqla), balıqçılıq təsərrüfatlarının deyil, həm də mədən sənayesinin, mənzil və sənaye tikintisinin, bütün növ nəqliyyatın, energetikanın və s. əsasıdır.

İctimai təkrar istehsalda institutların da mühüm əhəmiyyəti var. Müvafiq institutlar olan inkişaf etmiş ölkələrdə dövlətin iqtisadi sahədən qismən getməsi, belə institutlar olmayan Rusiyadan fərqli olaraq, maddi-texniki mühitin ucdantutma dağılması ilə nəticələnmədi. Rusiya oliqarxlarının böyük sərvətləri əsasən bütövlükdə cəmiyyətə məxsus olan

«təbii resurslardan rentanın özəlləşdirilməsi», dövlətin susaraq razılıq verməsi hesabına formalaşmışdı.

İstehsala xidmət edən sahələrin məcmusu kimi infrastruktur vahid iqtisadi məkanın sistemyaradıcı elementidir. İctimai istehsalın arasıkəsilməzliyi və səmərəliliyi ondan asılıdır. İqtisadi münasibətlərin tədricən elektron formaya keçməsinə şərait yaradan şəbəkə informasiya texnologiyalarının xüsusi rolu var. Bu, qeyri-maddi aktivləri «fikir sürətiylə» sərbəst daşımağa, istehsalı daha ucuz və çevik etməyə imkan verir.

Bəzən iqtisadi məkan daha geniş nəzərdən keçirilir, ona biosferanı da – bəşəriyyətin sabit iqlimli yaşayış mühitini də əlavə edirlər.

Sürətlə dəyişən müasir dünyada iqtisadi məkanın əhəmiyyəti və rolu xeyli artır ki, bu da aşağıdakılarla şərtlənir:

- təkrar istehsal cəmiyyət və təbiətin təkamülünün harmonikliyini təmin edən noosfer səciyyəsi daşımağa başlayır. Bəşəriyyətin sonrakı mövcudluğunun əsas şərti təbii şəraitin insanın təbii proseslərə qaçılmaz və zərərli müdaxiləsindən sonra özünübərpaya imkan verən assimilyasiya potensialı olur;
- bu gün milli iqtisadiyyatda sabit iqtisadi artım sahə infrastrukturlarının səmərəli fəaliyyəti olmadan mümkün deyil;
- vahid iqtisadi məkanın saxlanılması ölkənin təhlükəsizliyi, bütövlüyü və suverenliyi üçün təhlükə yarada biləcək qloballaşma dövründə xüsusilə kəskin durur. Bu şəraitdə RF-nın iqtisadi məkanı dünya əhəmiyyətli ehtiyat resurs iqtisadi zona kimi qiymətləndirilir.

Qloballaşma hər bir ölkənin öz ərazi bütövlüyünü təmin etmək istəyini də saxlayır. Maraqlıdır ki, hətta transmilli korporasiyaların davranışı onları doğurmuş iqtisadiyyata qəribə «sədaqətlərini» əks etdirir. Bunu sənaye şirkətlərinin milli-region bazarında payından görmək olar ki, ABŞ şirkətlərində bu 67%, İngiltərə şirkətlərində 66%, Almaniya şirkətlərində 75%-dir.

İqtisadi məkan – ictimai təkrar istehsalın unikal resursudur. RF-da onun mülkiyyətçisi dövlətdir. Həmin mülkiyyətin həyata keçirilməsinin iqtisadi forması özündə aşağıdakı iki renta növünü birləşdirən məkan rentasıdır:

- dövlət mülkiyyətinin unikal resursu – iqtisadi məkan (və ya nadirlik rentasını) reallaşdıran mütləq məkan rentası;
- yaranma şərti dövlətin iqtisadi sistemin subyektinə verilmiş elementlərinin vahid iqtisadi məkanın keyfiyyət fərqləri olan - differensial məkan rentası.

İqtisadi məkanın tədqiqi bəzi iqtisadçılara (məsələn, V.Kornyakova) inkişaf etmiş ölkələrdə makroiqtisadi mülkiyyətin formalaşmasının baş verməsini söyləməyə əsas verir. Yeni mülkiyyət modeli yaranır ki, bunda milli «ailələr», müvafiq ölkələrin şirkətlərinin «klubları» tərəfindən xalq təsərrüfatının faktik olaraq ümumi qeyri-formal mənimsənilməsi elementləri özünə yer alır.

Əsas anlayışlar və məfhumlar

Yeni makroiqtisadiyyat; milli iqtisadiyyat; ictimai təkrar istehsal; F.Kenenin təkrar istehsal modeli; K.Marksın ictimai kapitalın təkrar istehsalı nəzəriyyəsi; iqtisadi dövriyyə modeli; maddi istehsal; qeyri-istehsal sahəsi; məhsuldar əmək; qeyri-məhsuldar əmək; ictimai istehsalın bölmələri; təkrar istehsal: sadə, geniş, dar, ekstensiv, qarışıq, intensiv; intensiv növ təkrar istehsalın formaları: resurs tutumlu, resursa qənaət edən, neytral; iqtisadi məkan.

III FƏSİL. ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR VƏ ONLARIN ÖLÇÜLMƏSİ

§1. İctimai məhsul və onun quruluşu. Milli hesabdarlıq.
§2. Ümumi daxili məhsul (ÜDM) və ümumi milli məhsul (ÜMM). Makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqə sistemi.
§3. Milli sərvət və onun istifadəsindən gələn gəlirin mənimsənilməsi.
§4. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi. Xalis iqtisadi rifah.

İqtisadi nəzəriyyədə və təsərrüfat praktikasında ictimai məhsulun ölçülməsinin müxtəlif üsullarından istifadə olunur ki, bu da ictimai istehsalın səciyyəsinə müxtəlif nəzəri yanaşmalarla, statistik hesablama metodikaları ilə, ictimai məhsulun qiymətləndirmə səviyyələri ilə şərtlənir.

§1. İctimai məhsul və onun quruluşu. Milli hesabdarlıq

İctimai məhsul bir il ərzində istehsal edilmiş əmtəə və xidmətlərin bazar qiymətlərində ifadə olunmuş məcmusudur.

Təkrar istehsal nəzəriyyəsində az-çox iz qoymuş iqtisadçılar ictimai məhsulun quruluşunu maddi-əşyavi məzmununa, funksional əhəmiyyətinə və dəyərinə (qiymətliliyinə) görə açmağa çalışırdılar. Belə ki, F.Kene iqtisadi cədvəli yaradanda ictimai məhsulda kənd təsərrüfatı və sənaye məhsullarını fərqləndirir və onların hüdudlarında istehsal vasitələri və istehlak şeylərini əsaslandırır.

A.Smit fəhlələri iki qrupa ayırır ki, bunlardan biri istehsal vasitələrinin istehsalı, digəri isə istehlak şeylərinin istehsalı ilə məşğuldur. İctimai məhsulun belə quruluşu əsasında K.Marks ictimai istehsalın iki müvafiq bölməyə bölünməsini əsaslandırır.

İctimai məhsulun təhlilində C.Keyns də belə mövqedən çıxış edir, lakin bunu yalnız tədavül sahəsinə şamil etməklə,

o görməyə bilməzdi ki, bütün ictimai məhsul istehsal vasitələri və istehlak şeyləri olmaqla iki qrup əmtəəyə bölünür. Lakin onun yanaşmasının özəlliyi ondadır ki, istehlak həcmini müəyyənləşdirəndə C.Keyns bütün satışların məcmusundan istehsal vasitələrini çıxır (Keynsə görə, bu, sahibkarların bir-birindən aldıqları şeylərdir) və istehlak şeylərinin satış həcmini tapır və tamamilə haqlı olaraq göstərir ki, öz hərəkətində onlar bir qədər fərqli qanunauyğunluqlara tabe olurlar.

İctimai məhsulun dəyər quruluşu klassik siyasi iqtisadda ən mühüm problemdir.

İctimai məhsulun dəyər quruluşu haqqında birinci ən dolğun təsəvvürü K.Marks vermiş və göstərmişdi ki, həm ayrıca əmtəənin, həm də ictimai məhsulun dəyər quruluşu istehsal prosesinin özündə iştirak edən iki amilə (maddi-əşyavi və şəxsi), yəni maddi xərclər (c) və yeni yaradılan dəyərə ($v+m$) müvafiq olan iki hissədən ibarətdir. Yeni yaradılmış dəyərə **zəruri** (iş qüvvəsinin təkrar istehsalı üçün) və ***izafi*** məhsullar (istehsalın genişləndirilməsi, həmçinin ictimai tələbatları ödənilməsi üçün) daxildir.

İctimai məhsulun dəyər quruluşunu C.Keyns də nəzərdən keçirirdi. Lakin burada da, ictimai məhsulun natural-maddi tərkibinin tədqiqində olduğu kimi, o yalnız istehsal prosesindən deyil, həm də dəyər quruluşunun tam bitkin şəkil aldığı tədavül prosesindən çıxış edirdi.

Qərb iqtisadi fikrinə görə ictimai məhsulun dəyər quruluşunda dörd element fərqləndirilir:

1) istifadə xərcləri (U);
2) amil xərcləri (F);
3) əlavə xərclər (V);
4) sahibkarların məcmu gəliri (D).

İstifadə xərcləri (U) aşağıdakı düsturla hesablanır:

$$U = (K' - B') = (K - A'),$$

burada K′ – əsas vasitələrin ilkin dəyəri üstəgəl onların saxlanılması və yaxşılaşdırılmasına çəkilən xərclər;

B′ – əsas istehsal vasitələrinin, onlardan bütün istifadə

dövründə, saxlanılması və yaxşılaşdırılmasına çəkilən xərclərdir ki, bu dəfələrlə istifadə olunması ilə səciyyələnir;

K – dövrün sonuna əsas avadanlığın cari qiymətliliyi (dəyərliliyi) yəni istehsal başa çatdıqdan sonra əsas istehsal vasitələrinin qalıq dəyəri, həmçinin başa çatmamış istehsalın və hazır məhsulun qalığıdır;

A′– həmin məhsulun istehsalına sərf olunmuş dövriyyə kapitalının (xammal, material, enerji, komplektləşdirici detallar və s.) dəyəridir.

Dövrün əvvəlində istifadə xərclərini K′ və B′ fərqi kimi hesablamaq olar. Çünki əsas vasitələrin saxlanılması və yaxşılaşdırılmasına hələ xərc çəkilməmişdir. İstehsal başa çatdıqdan sonra isə istifadə xərcləri digər - K və A′ kəmiyyətləri arasındakı fərq kimi hesablanır, çünki istehsalın nəticələri və dövriyyə kapitalına xərclər nəzərə alınmalıdır.

Amil xərcləri sahibkarın cari xidmətlərinə görə digər «istehsal amillərinə», digər sahibkarlar istisna olunmaqla, ödədiyi və həmin amillərin gəliri kimi çıxış edən məbləğdən ibarətdir. Beləliklə, amil xərcləri (F) – əməkhaqqı; borc kapitalının faizi; torpaq rentası, yəni fəaliyyət göstərməyən mülkiyyətçilərin gəlirləridir.

İstifadə xərcləri və amil xərclərinin məbləği birbaşa xərclər adlanırlar ki, sahibkarlar maksimum gəlir əldə etmək üçün onları minimuma endirməyə çalışırlar.

İctimai məhsulun dəyər quruluşunun üçüncü elementi **izafi xərclərdir** ki, avadanlığın dəyərsizləşməsi və ya istifadə xərclərinin faktik olaraq nəzərdə tutulan dəyərsizləşmədən artıq olması kimi başa düşülməlidir. Söhbət avadanlığın mənəvi aşınmasından (V) gedir.

Bütövlükdə istehsal xərclərini aşağıdakı kimi göstərmək olar:

$$U + F + V$$

Dəyər quruluşunun dördüncü elementi cəmiyyətin məcmu gəlirindən fərqli olan **sahibkar gəliridir** (D). Sahibkar gəliri dedikdə fəaliyyət göstərən mülkiyyətçiyə (sahibkara) çatan və əmtəənin dəyərinin (W) xərclərdən (U + F + V) ar-

tıqlığı kimi müəyyənləşdirilən mənfəət nəzərdə tutulur:

$$D = W - (U + F + V).$$

İctimai məhsulun dəyər quruluşu bütövlükdə belədir:

$$W = U + F + V + D.$$

Dəyər quruluşunun belə göstərilməsi daha konkretdir və müasir bazar iqtisadiyyatına daha uyğun gəlir.

İctimai məhsulun qiymətləndirilməsində bir sıra çətinliklər meydana gəlir. Bir il ərzində istehsal olunmuş yaşayış evləri, paltar, velosiped, ərzaq kimi olduqca müxtəlif əmtəələri pulla ifadə etmədən sadəcə cəmləmək və ya müqayisə etmək olmaz. Buna görə ictimai məhsul bazar qiymətlərində müəyyənləşdirilir. Əmtəələrin çoxu bazar üçün yaradıldığından, onlara bazar qiyməti qoyulur ki, bunda da problem yaranmır. Bazar qiyməti olmayan məhsullar və xidmətlərdə çətinlik yaranır. Dövlətin təmənnasız xidmətləri (ölkənin müdafiəsi, hüquq müdafiəsi, təhsil) xidmətin göstərildiyi məqam üçün formalaşmış xərclərin dəyərlərinə görə hesablanır. Müəssisələrdə (firmalarda) öz istehsalları, məsələn, öz ehtiyacları üçün hər hansı bir dəzgahın hazırlanması, müqayisə oluna biləcək qiymətlərlə qiymətləndirilir. Ev təsərrüfatlarında ailə üzvlərinin özləri tərəfindən yerinə yetirilən xidmətlər bazara çıxarılmır və onların qiymətləndirilməsi olduqca çətindir, buna görə də ictimai məhsulun kəmiyyətinin müəyyənləşdirilməsində onlar nəzərə alınmırlar.

İqtisadi ədəbiyyatda və təsərrüfat praktikasında son dövrlərə qədər ictimai məhsulun kəmiyyətinin müəyyənləşdirilməsinə iki yanaşma geniş yayılmışdı. Bunlardan marksist nəzəriyyəsinə əsaslanan bir yanaşmaya görə məcmu ictimai məhsul maddi istehsalın nəticəsidir, buna görə də xidmətlər dəyərə daxil edilmir. Belə yanaşma uzun illər ərzində bizim ölkədə tətbiq olunmuşdu.

Xarici ölkələrin iqtisadi nəzəriyyəsi və statistikasında, 1988-ci ildən isə bizim ölkədə də, ictimai məhsulun ölçülməsində milli hesablar sistemi (MHS) əsasında hesablanmış göstəricilərdən istifadə olunur.

Milli hesablar

Milli hesablar müəyyən quruluşu və fəaliyyət qanunauyğunluqları olan iqtisadi sistem çərçivəsində ümumi milli məhsul və milli gəlirin yaradılması, bölgüsü, yenidən bölgüsü və istifadə edilməsini izah edən anlayışların kompleks sistemidir.

Milli hesablar ideyasının öz tarixi var. Görkəmli Rusiya mütəxəssisi B.L.İsayev hələ 1969-cu ildə «İqtisadiyyatın təhlili və planlaşdırılmasında inteqrasiya olunmuş balans sistemləri» kitabında yazırdı ki, milli hesabdarlığın izlərini hələ qədim dövrlərdə görmək mümkündür.

Milli hesablar metodunun banisi ictimai təkrar istehsalın təhlilini ictimai məhsulun natural (maddi) və dəyər elementləri arasında balans proporsiyalarının müəyyənləşdirilməsi mövqeyindən həyata keçirmiş fransız iqtisadçısı , fiziokrat Fransua Kene hesab edilir.

Milli hesabların nəzəri əsası milli gəlir problemləri ilə məşğul olan C.Keyns, A.Bouli, K.Klark, S.Kuznets, C.Stempin əsərləri oldu. İlk MHS 1936-cı ilin məlumatlarına əsasən Fələstin üçün yaradılmışdı. Həmin dövrdə milli hesablar sahəsində Fransada, İngiltərədə, Hollandiyada xeyli iş görülmüşdü. Holland statistiki E.Van Kliffin birincilər sırasında məqalələrində milli hesablardan bəhs etmişdi. Rəsmi statistikada milli hesabın tərtib olunması istiqamətində ilk cəhd ABŞ-da 1947-ci ildə, Böyük Britaniyada 1946-cı ildə olmuşdu. Maraqlıdır ki, birincilər sırasında yaranmış Fransa milli hesablar sistemi 1946-cı ildə bir qrup fransız iqtisadçısı tərəfindən Fransa üzrə (1938-ci il üçün) MHS-dən ilk dəfə 1976-cı ildə çap olunmuş Geniş Milli Hesablar Sistemi (GMHS) kimi müasir sistemə qədər bir yol keçmişdir. Fransada həmin sistem yalnız makroiqtisadi modelləşmə üçün istifadə olunmur, həm də İqtisadiyyat, Maliyyə və Büdcə Nazirliyi, Planlaşdırma üzrə Baş Komissarlıq, həmçinin müxtəlif elmi mərkəzlər tərəfindən analitik-proqnozlaşdırma işi üçün istifadə olunur.

Birləşmiş Millətlər Təşkilatının hazırda dünya ölkələri-

nin çoxunda istifadə olunan milli hesablar modelini özündə aşağıdakıları birləşdirən müəyyən nəzəri konsepsiya kimi nəzərdən keçirmək olar: a) məhsulun və millətin gəlirinin təsviri, həmçinin investisiya və yığımın bərabərliyi baxımından onların hərəkəti; b) V.Leontyevin «xərclər-buraxılış» sahələrarası balans modeli; c) maddi nemətlər və xidmətlərin qarşı-qarşıya hərəkətini əks etdirən maliyyə vəsaitlərinin hərəkətinin (axınının) təhlili. Bu konsepsiyanın praktik tətbiqi ***milli hesablar sistemi, yəni iqtisadi münasibətlərin iştirakçıları arasında mübadilə əməliyyatlarının məcmusunun tarazlı vəziyyətini ifadə edən xüsusi balanslar kompleksinə söykənən konkret statistik sistemdir.***

Milli hesablar iqtisadiyyat üçün, bütövlükdə mühasibat uçotunun ayrıca müəssisə üçün olan funksiyanı yerinə yetirir. Milli hesab sisteminə daxil olan müxtəlif göstəricilər konkret vaxt üçün istehsal həcmini ölçməyə və iqtisadiyyatın fəaliyyətini bilavasitə müəyyənləşdirən amilləri aşkarlamağa imkan verir. Ümumi daxili məhsul və milli gəlirin hesabının verdiyi informasiya iqtisadiyyatın fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilmiş dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi üçün əsas olur.

MHS milli iqtisadiyyatın vəziyyəti və fəaliyyətinin nəticələri haqqında informasiyanın toplanılması və işlənilməsi sistemidir. Onun göstəriciləri bazar iqtisadiyyatının quruluşu, institutlar və fəaliyyət mexanizmlərini əks etdirir. MHS-nin istifadə olunması dövlətin səmərəli makroiqtisadi siyasət həyata keçirməsi, iqtisadi proqnozlaşdırma, milli gəlirin beynəlxalq müqayisəsinin aparılması üçün lazımdır.

Beləliklə, ***milli hesablar sistemi – milli hesablar konsepsiyasının nəzəri formallaşdırılması kimi çıxış edən və ölkənin ümumi milli məhsulu və milli gəlirinin istehsalı, bölgüsü və istifadə olunmasını əks etdirən hesablar, cədvəllər və balans cədvəllərinin məntiqi ardıcıl və inteqrasiya olunmuş məcmusundan ibarət olan statistik sistemidir.***

Milli hesablar sistemi ölkənin bütün hesablarını milli təsərrüfatın bütün axınlarını (əmtəələr, xidmətlər, pullar,

maliyyə sənədləri) əks etdirən vahid matrisada birləşdirilə biləcəyi qapalı sistemdir. Milli hesablar sisteminin əsas quruluş elementləri:

- iqtisadi funksiyalar (iqtisadi siyasət, iqtisadi proqnozlaşdırma, əhalinin müxtəlif qruplarının həyat səviyyəsinin qiymətləndirilməsi, onun başqa ölkələrin həyat səviyyəsi ilə müqayisə edilməsi, iqtisadi nəzəriyyənin praktika ilə əlaqəsi);
- iqtisadi əməliyyatlar – iqtisadi funksiyaların yerinə yetirilməsi prosesində təsərrüfat vahidlərinin həyata keçirdiyi fərdi aktlar (maddi nemətlər və xidmətlərlə əməliyyatlar, bölgü üzrə əməliyyatlar, maliyyə əməliyyatları və s.);
- iqtisadi agentlər – iqtisadi əməliyyatların təsərrüfat qərarları qəbul edən subyektləri, institusional vahidlər;
- həmin ərazidə bir ildən artıq fəaliyyət göstərən rezidentlər və rezident olmayanlar;
- iqtisadi əməliyyatların obyektləri – əmtəələr, xidmətlər, pullar, maliyyə sənədləri.

Milli hesablar sistemində mühasibat uçotu metodu üzrə ikiqat yazıyaalma sistemindən istifadə olunur. Milli hesablar sisteminin qurulma sistemi bütün iqtisadi proseslərin kontragentlər tərəfindən həyata keçirilən ikitərəfli əməliyyatların məcmusu kimi əks etdirilməsindədir. Milli təsərrüfat qapalı model şəklində götürülür; subyektlərin iqtisadi fəaliyyəti hesablar üzrə gəlir və xərclər axını kimi yazılır.

Milli hesablar – son məhsulun və milli gəlirin istehsalı, bölgüsü, təkrar bölgüsü və istifadə edilməsini səciyyələndirən qarşılıqlı əlaqədə olan göstəricilər sistemindən ibarət balans qurumu növüdür.


İqtisadiyyat üçün milli hesablar sisteminin əsasını bütövlükdə altı hesab təşkil edir: nemətlər, xidmətlər və istehsalın hesabı; gəlir və istehlakın hesabı; yığımın hesabı; istehsaldan kənarda dəyərin yaradılmasının hesabı (yenidən qiymətləndirmə); açan balans; bağlayan balans.

Bundan başqa, hər bölmə (qeyri-maliyyə müəssisələri, ev təsərrüfatları, dövlət müəssisələri, maliyyə qurumları,

xüsusi təşkilatlar, sığorta təşkilatları və qalan dünya) üçün də iki növ milli hesab qurulur: ***iqtisadi agentlərin sövdələşmələrinin nəticələri qeyd olunan axınların hesabları və balans təşkil edən əmlak hesabı.***

Xalq təsərrüfatının balans sistemindən fərqli olaraq milli hesablar ictimai təkrar istehsal prosesini eyni zamanda iki səpkidən nəzərdən keçirir: bir tərəfdən nemətlər və xidmətlərin istehsal və istehlak balansı kimi və digər tərəfdən gəlirlərin yaradılması və bölgüsü prosesi kimi. İstehsalda yaranan gəlir bölgüsünün təsviri MHS-nin əsas vəzifələrindən biridir.

Milli hesablar – əsas makroiqtisadi göstəricilərin beynəlxalq qiymətləndirmə standartıdır (şəkil 3.1).



Şəkil 3.1. Milli hesablar sisteminin göstəriciləri

Dünya təsərrüfat praktikası (ictimai məhsulun hesablanmasında) ona əsaslanır ki, istehsal edilmiş əmtəələrin kütləsinə yalnız maddi nemətlərin deyil, həm də həkimin, vergi müfəttişinin, banklar və ya dövlətin və s. xidmətlərinin daxil olması faktından çıxış edir və buna görə də ictimai məhsul xalq təsərrüfatının iki sahəsinin - maddi istehsal və xidmətlər sahəsinin nəticəsidir. İctimai məhsulun kəmiyyətini səciyyələndirən göstərici kimi ümumi daxili məhsul (ÜDM) çıxış edir.

Üç qrup ən mühüm makroiqtisadi göstəricilər

Makroiqtisadi təhlildə istifadə olunan ən mühüm göstəricilərin hamısı üç qrupa bölünür: axınlar, ehtiyatlar (aktivlər) və iqtisadi konyunkturanın göstəriciləri. Axın kəmiyyətlərinə istehlak xərcləri (C), yığım (S), investisiyalar (I), dövlət tədarükü (G), vergilər (T), ixrac (E*x*), idxal (I*m*) və bəzi başqa mühüm göstəricilər daxildir.

Ehtiyatlar yığılmış kapitalı, dövlət borcunu, əmlakı, milli sərvəti və s. səciyyələndirir.

İqtisadi konyunkturanın vəziyyətini aşağıdakı göstəricilər əks etdirir: nominal faiz dərəcəsi (*i*), əsaslı aktivin gəlirlilik norması (*r*), qiymətlərin səviyyəsi (P), inflyasiyanın sürəti (П), işsizliyin səviyyəsi (U) və s.

§2. Ümumi daxili məhsul (ÜDM) və ümumi milli məhsul (ÜMM). Makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqə sistemi

İctimai məhsulun kəmiyyətini səciyyələndirən və dünya təsərrüfat praktikasında tanınan əsas göstərici ümumi daxili məhsuldur (ÜDM). Bir sıra xarici ölkələrin statistikasında ümumi milli məhsul (ÜMM) göstəricisindən istifadə olunur.

ÜDM eynilə ÜMM kimi milli iqtisadiyyatın fəaliyyətinin nəticələrinin ümumiləşdirilmiş göstəriciləridir.

Ümumi daxili məhsul – ümumiləşdirici iqtisadi göstərici olub ölkə daxilində yaradılmış əmtəə və xidmətlərin məcmu dəyərini və yalnız həmin ölkənin istehsal amilləri-

ni istifadə etməklə bazar qiymətlərində ifadə edir.

Ümumi milli məhsul (ÜMM) - həmin ölkəyə məxsus istehsal amillərinin köməkliyi ilə bir il ərzində istehsal olunmuş və son nəticədə istehlak üçün nəzərdə tutulmuş əmtəə və xidmətlərin bazar dəyəridir.

Fərq ondadır ki, **ÜDM hesablanmasında ayrı-ayrı firmaların xarici şöbə və filialları nəzərə alınmadan yalnız həmin ölkə hüdudlarında istehsal olunmuş məhsul nəzərə alınır, ÜMM isə milli kapitalın ölkə hüdudlarından kənarda yerləşən milli kapitalın istehsal etdiyi məhsulu da nəzərə alır.** Ölkələrin çoxu üçün ÜDM ilə ÜMM göstəriciləri arasında fərq böyük deyil və ±1% hüdudunda dəyişir.

ÜDM-dən xarici kapitalın köməkliyi ilə həmin ölkənin ərazisində yaradılmış dəyərlərin məbləğini çıxsaq və həmin ölkə vətəndaşlarına məxsus resurslardan istifadə etməklə xaricdə yaradılmış dəyərlər məbləğini əlavə etsək ÜMM-i alarıq.

Tamamilə bağlı iqtisadiyyatda ÜMM həmişə ÜDM-ə bərabərdir. Açıq iqtisadiyyatda onlar arasında fərq xarici firmaların (filiallar, şöbələr, müştərək müəssisələr, xarici işçilərdən istifadə və s.) ölkə ərazisində inkişafı ilə müvafiq olaraq milli resursların müxtəlif formalarda xaricdə istehsal fəaliyyətində iştirakı, xarici borcların səviyyələri arasındakı fərq kimi meydana gəlir. Xaricdə istifadə olunan istehsal amilləri sahiblərinin gəlirləri milli iqtisadiyyatda istifadə olunan xarici kapitalın sahiblərinin gəlirlərindən artıq olduqda ÜMM ÜDM-dən çox olacaq.

ÜMM kimi ÜDM da müxtəlif metodlarla: xərclər vasitəsilə, gəlirlər vasitəsilə və istehsal vasitəsilə qiymətləndirmək olar. Müxtəlif metodlarla hesablamalar nəticəsində alınmış məbləğlər eyni olmalıdır. Bu onunla əlaqədardır ki, bazar təsərrüfatında bir təsərrüfatçılıq subyektinin xərcləri eyni zamanda digərləri üçün gəlirdir.

ÜMM timsalında bu metodları nəzərdən keçirək.

Xərclər vasitəsilə qiymətləndirilmiş ÜMM ayrı-ayrı adamlar, müəssisələr və dövlət tərəfindən alınmış əmtəə və

xidmətlərdən ibarətdir. Bura əsas fondlara investisiyalar və realizə olunmamış məhsulun qalıqları da daxildir. Əslində, bu cəmiyyətdə istehlak olunmuş bütün məhsul axınlarının pulla ümumi dəyəridir:

$$ÜMM = C+I+G+NX,$$

burada C – istehlak;

I – investisiyalar;

G – dövlətin əmtəə alışı;

NX – xalis ixrac.

İstehlaka (C) bütün cari əmtəə və xidmətlərin istehlakı daxildir: statistik hesablamaların xüsusiyyətlərinə uyğun olaraq bütün əmtəələr qısamüddətli istifadə (və ya birdəfəlik), uzunmüddətli istifadə əmtəələrinə bölünür və xidmətlər ayrıca verilir. Nəzərə almaq lazımdır ki, əhalinin mənzil alışına xərcləri uzunmüddətli istifadə olunan əmtəələrə daxil deyil, onlar investisiyalara aiddirlər.

İnvestisiyalar (I) – müəssisələrin bina, avadanlıq, xammal, enerji və s. alışına xərclərinin məbləği, həmçinin ayrı-ayrı vətəndaşların mənzil alışına xərcləridir. ÜMM-də ümumi investisiyalar əks olunur, amma onlardan amortizasiya xərclərini çıxsaq, onlar xalis investisiyalara çevrilərlər. Xalis investisiyalar ilin əvvəli və sonu üçün kapital qoyuluşunun olmasını göstərir.

Dövlətin əmtəə və xidmətlər alışına (G) yalnız mərkəzi hökumətin alışları deyil, həm də yerli hökumətin alışları daxildir. Bura silah alışından yol və mənzil tikintisinə, xəstəxanaların, internatlar və məktəblərin avadanlıqla təchizatına qədər bütün xərclər daxildir. Lakin dövlət borcu üzrə faizlər və transfert ödənişləri ÜMM-ə daxil edilmirlər.

Beləliklə, istehlak, investisiyalar və dövlət alışları ölkə daxilində əmtəə və xidmətlər xərcləri səciyyələndirirlər. Lakin açıq iqtisadiyyatda istehsal olunmuş əmtəənin bir qismi ölkə hüdudlarından kənarda satılır, çünki əmtəələr ixrac olunurlar. Eyni zamanda ölkə daxilində pulun bir qismi başqa ölkələrdən idxal olunmuş əmtəənin alışına xərclənir. İxrac və idxal arasındakı fərq xalis ixracı (NX) təşkil edir ki,

onun da məbləği ÜMM-ə daxil edilir.

ÜMM-in qiymətləndirilməsinin ikinci üsulu gəlirlər vasitəsilədir. Gəlir hissəsi əhalinin əmək fəaliyyətindən gələn gəlirindən (əməkhaqqı) və mülkiyyət gəlirlərindən (mənfəət, faiz, renta) ibarətdir.

$$ÜMM = W+R+Int+M,$$

Burada W – əməkhaqqı;
R – renta;
Int – faiz ödənişləri;
M – mənfəətdir.

Lakin bu halda nəzərə alınmalıdır ki, ÜMM-in tərkibində elə hissələr var ki, onlar gəlir forması almırlar: bu, amortizasiya və dolayı vergilərdir. Sonuncuya satışdan ümumi vergini, aksizləri, mülkiyyət vergilərini, lisenziya ödənişlərini və gömrük haqlarını aid edirlər.

ÜMM qiymətləndirilməsinin üçüncü üsulu istehsal vasitəsilədir. Bu üsul vasitəsilə hər bir istehsalçının bu göstəricilərin yaradılmasında xidmətləri müəyyənləşdirilir. Bu halda əlavə dəyər, yəni hər bir müəssisənin istehsal olunmuş məhsulun dəyərinə əlavə etdiyi dəyər müəyyənləşdirilir. Əlavə dəyər məhsulun satışından əldə olunan pul ilə istehsalın maddi amillərinə çəkilən xərclər arasındakı fərq kimi müəyyənləşdirilir. Əslində, bu halda bütün yeni yaradılmış dəyər müəyyənləşdirilir və buna amortizasiya əlavə olunur.

Hesablanan dövrdə iqtisadi subyektlərin həyata keçirdikləri sövdələrin heç də hamısı ÜDM və ÜMM göstəricilərinə daxil edilmir. Birincisi, bu, maliyyə alətləri ilə sövdələrdir: qiymətli kağızların – səhmlər, istiqrazlar və s. - alışı və satışının; maliyyə sövdələrinin cari real istehsaldakı dəyişikliklərə bilavasitə aidiyyatı yoxdur. İkincisi, istehlakda olmuş əşyaların və nemətlərin alışı və satışı, çünki onların dəyərliliyi əvvəllər nəzərə alınmışdı. Üçüncüsü, xüsusi transfertlər (məsələn, hədiyyələr): bu halda bu, fərdi iqtisadi subyektlər arasında pul vəsaitlərinin təkrar bölgüsüdür. Dördüncüsü, dövlət transfertləri.

Ümumi milli məhsuldan ümumi buraxılışı fərqləndirmək lazımdır.

Ümumi buraxılış müəyyən zaman kəsiyi ərzində iqtisadiyyatda istehsal olunmuş bütün əmtəə və xidmətlərin dəyərindən ibarətdir. Ona iqtisadiyyatda istehsal olunmuş əmtəələrin tamamilə hamısı, o cümlədən digər əmtəə və xidmətlərin istehsalı üçün nəzərdə tutulanlar da daxildir. Sonuncular son istehlakdan fərqli olaraq, aralıq istehlakı təşkil edirlər. ***Ümumi buraxılışdan fərqli olaraq ÜMM aralıq istehlakdan təmizlənmişdir.***

Tam məşğulluq şəraitində təmin edilən ümumi buraxılış səviyyəsi ***təbii buraxılış səviyyəsi*** adlanır.

ÜMM tərkibində (ÜDM-də olduğu kimi) bu dövrdə deyil, əvvəlki dövrdə yaradılmış hissə var: o, istehsal vasitələrindən yaradılmış əmtəə və xidmətlərə keçirilmiş dəyərdə öz əksini tapır. Bu, **amortizasiyadır.** Onu ÜMM-dən çıxsaq, **xalis milli məhsul (XMM) alarıq.**

Xalis milli məhsul ÜMM-dən kapitalın istehlak olunan hissəsini (amortizasiya) çıxılmaqla hesablanır. XMM göstəricisinin bir ciddi çatışmazlığı var: dövlətin bazar qiymətləri quruluşuna gətirdiyi təhriflər onlarda əks olunur. Dövlət müdaxiləsi olmasa, bütün əmtəələrin bazar qiymətlərinin cəmi ev təsərrüfatlarının amil gəlirlərinə qalıqsız bölünür. Lakin dövlət bir tərəfdən dolayı vergilər tətbiq etməklə, digər tərəfdən isə firmalara subsidiyalar verməklə faktik olaraq birinci halda bazar qiymətlərinin artmasına, ikinci halda isə azalmasına rəvac verir.

2005-ci ildə Rusiyanın ümumi daxili məhsulu (ÜDM) 21,5 trln rubla yaxın olmuşdu. Əhalinin bütün təbəqələrinin əməkhaqqının ödənilməsi onda təxminən ÜDM-in 15%-ni təşkil etmişdi[1]. Eyni zamanda, sənaye ölkələrində əməkhaqqı ÜDM-in 50-60%-ni təşkil edir ki, bu da iqtisadçıların tövsiyə etdikləri göstəricilərə müvafiqdir.

1 Qeyd etmək lazımdır ki, gizli «paketlər» (sənədlərdə qeyd olunmayan əməkhaqqı) nəzərə alınmaqla, bəzi ekspertlərin hesablamalarına görə, illik əməkhaqqının payı rəsmi ÜDM-in 25% -ni təşkil edə bilər.

Adambaşına düşən ÜDM və makroiqtisadi inkişaf səviyyəsi

İqtisadi inkişaf səviyyəsinin təhlilində əsas yeri ÜDM-in adambaşına düşən göstəricilər tutur. Ölkələri inkişaf etmişlərə və inkişaf etməkdə olanlara bölən beynəlxalq təsnifatın əsasında bu göstəricilər durur. Belə ki, XX əsrin 90-cı illərinin ortalarında inkişaf etmiş ölkələrə ÜDM istehsalı adambaşına 6-7 min dollar və daha artıq olan ölkələr aid idi.

Adambaşına düşən ÜDM-ə görə biz ABŞ-dan 5 dəfəyə yaxın geridəyik.

Təəssüf ki, ümumi dünya ÜDM həcmində RF-nın payı olduqca aşağıdır, baxmayaraq ki, əhalinin sayına görə biz bir sıra inkişaf etmiş ölkələrdən irəlidəyik. Əhalinin artım sürəti ÜDM-in, əməyin məhsuldarlığı və əmək potensialından istifadə səviyyəsinin, o cümlədən aqrar-sənaye kompleksində artım sürətindən böyük olarsa, yoxsulluğu özü təkrar istehsal edən «yoxsulluğun qüsurlu dairəsi», sosial-iqtisadi proseslərin məhdudlaşması prosesi baş verə bilər.

Beynəlxalq praktikada istifadə olunan digər göstərici iqtisadiyyatın sahə quruluşudur. Onun təhlili ÜDM-in sahələr üzrə hesablanmış göstəriciləri əsasında aparılır. Əvvəlcə xalq təsərrüfatının iri maddi və qeyri-maddi istehsal sahələrinin, hər şeydən öncə, emal sənayesində nisbəti öyrənilir.

Ayrı-ayrı sahələrin quruluşunun tədqiqinin də mühüm əhəmiyyəti var. Belə ki, emal sənayesinin sahə təhlili onda maşınqayırma və kimya sənayesinin, yəni elmi-texniki tərəqqini təmin edən sahələrin payının nə qədər olduğunu göstərir. Aparıcı sahələrin diversifikasiyası (rəngarəngliyi) böyükdür. Məsələn, dünyanın inkişaf etmiş sənaye ölkələrində maşınqayırma sahələrinin və istehsalın sayı 150-200 və daha artıq, inkişaf səviyyəsi nisbətən aşağı olan ölkələrdə isə 10-15 olur. Həmçinin iri təsərrüfat komplekslərinin: yanacaq-enerji, aqrosənaye, tikinti və konstruksiya materialları, müdafiə, hərbi-sənaye və s. - payı da təhlil olunur.

İlin sonuna ÜDM göstəricilərinin orta qiyməti şəkil 3.2-də (sol ordinat oxu ÜDM-in mütləq kəmiyyəti, sağ isə real ÜDM-in əvvəlki ilə görə faizlə artım dinamikasıdır) verilmişdir. ÜDM-in mütləq qiyməti sabit artım meyillidir, amma ÜDM-in artım dinamikası 2004-2006-cı illərdə 104-106%-ə qədər azalmışdır.

ÜDM və ya ÜMM-in mütləq kəmiyyətinin artması qiymət artımı ilə də şərtlənə bilər. Bu ondan irəli gəlir ki, ÜMM-in hesablanması üçün ilkin verilənlər satış həcmidir, bu isə həm satılmış məmulatların sayından, həm də onların qiymət səviyyəsindən asılıdır. Qüvvədə olan qiymətlərlə hesablanmış ÜDM nominal ÜDM, qiymətlərin dəyişməsinə görə dəqiqləşdirilmiş və ya baza qiymətlərinə görə hesablanmış ÜDM isə real ÜDM adlanır.

ÜMM deflyatoru və qiymətlər indeksi

İnflyasiya və deflyasiya ÜMM-in hesablanmasını çətinləşdirirlər. ÜMM-in həqiqi kəmiyyətini – real ÜMM-i almaq üçün nominal ÜMM-i inflyasiyanın təsirindən təmizləmək, yəni qiymətlərin indeksasiyasını tətbiq etmək lazımdır.


Nominal ÜMM-in real ÜMM-ə nisbəti ÜMM-in qiymət artımı hesabına artmasını göstərir və ÜMM deflyatoru adlanır.

ÜMM deflyatoru inflyasiyanın və ya əks prosesin – deflyasiyanın intensivliyini ölçür. Qiymət indeksi kəmiyyəti 1-dən böyükdürsə, deməli, ÜMM-in deflyasiyası, qiymət indeksi 1-dən az olarsa, inflyasiyası baş vermişdir.

ÜMM-in deflyatoru ölkədə istehsal olunmuş məhsulların hamısının qiymətlərini nəzərə alır, amma idxal olunmuş məhsulların qiymətlərini nəzərə almır. O, ÜMM-in tərkibinin dəyişməsinə müvafiq olaraq əmtəə və xidmətlər dəstində dəyişikliklərin olmasına yer qoyur.

Makroiqtisadi nəzəriyyə real ÜMM-in hesablanması üçün müxtəlif qiymətlər indeksindən istifadə edir.

Qiymət indeksi (Price Index) – cari ilin qiymətlərinin



Şəkil 3.2. Rusiyada ÜDM-in dinamikası

baza ili qiymətlərinə nisbətinin 100% hasilidir.

Aşağıdakı əsas qiymət indeksləri növlərini fərqləndirirlər:

- istehlak qiymətlərinin indeksi;
- topdansatış qiymətlərin indeksi;
- ixrac və idxal qiymətlərinin indeksi.

Daha çox qiymət səviyyəsi göstəricisi – *istehlak qiymətləri indeksi* - tətbiq olunur ki, bu da cari ildə istehlak zənbili qiymətinin onun baza ilindəki qiymətinə nisbətidir. Onu hesablayanda son əmtəə və xidmətlərin hamısı deyil, yalnız adi ev təsərrüfatının aldığı istehlak zənbilini təşkil edənlər nəzərə alınır. Bura əsasən ərzaq əmtəələri, qeyri-ərzaq əmtəələri dəsti (paltar, ayaqqabı, məişət əmtəələri) və əsas xidmətlər (tibbi, nəqliyyat, rabitə xidmətləri, istirahət, mədəniyyət, şəxsi gigiyena) daxildir.

Dəyişilməz əmtəə dəstinin hesablanmasında istifadə olunan qiymətlər indeksi ***Laspeyras indeksi*** adlanır və aşağıdakı düsturla hesablanır:

$$I_L = \frac{\sum p_t q_b}{\sum p_b q_b}$$

Burada I_L – Laspeyras indeksi;

p_t – cari ilin qiyməti;

p_b – bazis ilinin qiyməti;

q_b – bazis ilindəki əmtəənin miqdarıdır.

Bu indeks idxal məhsullarının qiymətini nəzərə alır, amma daha bahalı əmtəələrin daha ucuzları ilə əvəz olunması imkanını nəzərə almır, yəni əmtəə quruluşunda mümkün dəyişikliklərin tam dəyərləndirilməməsi baş verir.

Dəyişilən dəst üçün nəzərdə tutulan, yəni əmtəələrin qarşılıqlı əvəzlənməsi imkanını nəzərə alan ***indeks Paaşe*** indeksi adlanır və aşağıdakı düsturla hesablanır:

$$I_p = \sum p_t q_t : \sum p_b q_t,$$

Burada q_t – cari ildəki məhsulun həcmidir.

Bəzən bu indeksi istehlakçıların qiymət indeksi adlandırırlar ki, qiymət tərəzisi qismində bunda cari ildə istehsal olunmuş əmtəə və xidmətlərin miqdarı götürülür. ***Topdansatış*** qiymətlər indeksi firmaların aldıqları tipik əmtəə dəstindən ibarət olur və firmaların cari ildə aldıqları əmtəə dəsti qiymətinin onun baza ilindəki qiymətinə nisbəti kimi hesablanır.

Paaşe indeksində rifahın səviyyəsinin bu zaman azalması əks olunmur. ***Fişer düsturu*** hər iki *indeksin* çatışmazlıqlarını aradan qaldırır:

$$I_f = \sqrt{\sum I_L I_p} \text{ və ya } I_f = \sqrt{\left[\left(\frac{\sum p_t q_b}{\sum p_b q_b}\right)\right] \cdot \left[\left(\frac{(\sum p_t q_t)}{(\sum p_b q_t)}\right)\right]}.$$

Beləliklə, son illərdə geniş istifadə olunan Fişer indeksi Laspeyras və Paaşe indekslərinin orta həndəsi qiymətindən ibarətdir.

Milli gəlir. Sərəncamda qalan şəxsi gəlir

Milli gəlir - milli hesablar sistemində istifadə olunan əsas ümumiləşdirici statistik göstəricilərdən biridir. Milli gəlirin kəmiyyətini müəyyənləşdirmək üçün xalis milli məhsuldan dolayı vergiləri çıxmaq və ona subsidiyaları əlavə et-

mək lazımdır.

Dolayı vergilər – qiymətə və ya tarifə əlavələr müəyyənləşdirilməsi yolu ilə əmtəə və xidmətlərə görə yığılan vergilərdir. Birbaşa vergilərdən fərqli olaraq dolayı vergilər vergi ödəyənin, yəni qanuna görə vergi ödəmə vəzifəsi daşıyan fiziki və ya hüquqi şəxsin bilavasitə gəliri və ya əmlakı ilə əlaqədar deyil. Belə şəxs qismində adətən əmtəə və xidmətlərin istehsalçısı və ya satıcısı çıxış edir. Bu yerdə verginin ağırlığı qiymət mexanizmi vasitəsilə digər şəxsin, bir qayda olaraq əmtəə və xidmətlərin alıcısının üzərinə ötürülür. Dolayı vergilərin üç əsas növü var: aksizlər, fiskal (xəzinə) inhisar vergiləri və gömrük haqqı. Aksizlər də öz növbəsində ayrı-ayrı əmtəə və xidmətlərdən tutulan fərdi və ya seçmələrə və universallara bölünürlər. Sonunculara dövriyyə vergisi və əlavə edilmiş dəyər aiddir. Fiskal inhisar vergiləri dolayı verginin qədim, aradan çıxmaqda olan növüdür. Onların xüsusiyyəti ondan ibarətdir ki, vergi dərəcəsi müəyyən edilmir, dövlət sadəcə olaraq şərab məhsulları, duz, kibrit və s. kimi ayrı-ayrı əmtəələrin istehsalını inhisarlaşdırır.

Milli gəlir həm də ümumi milli məhsulun iki növ ödənişlər – amortizasiya və biznesdən dolayı vergilər istisna olmaqla hesablanması vasitəsilə də müəyyənləşdirilə bilər. Yuxarıda göstərilən mənada millətin ümumi gəlirlərini qazanılmış milli gəlir kimi müəyyənləşdirmək olar. Buna görə ona dolayı gəlirlər daxil edilmir, çünki onları əldə etmək üçün dövlət istehsal prosesinə heç bir resurs sərf etmir.

Milli gəlir göstəricisi əsasında ölkədə istehsal olunmuş son nəticə əmtəə və xidmətlərin dəyəri amil xərcləri ilə müqayisədə dolayı vergilərin kəmiyyəti qədər artırılmış bazar dəyəri ilə deyil, amil xərcləri üzrə qiymətləndirilir. Beləliklə, o, «cəmiyyətin xalis qazanılmış gəliridir». MG-in milli istehsalın nəticələrinin makroiqtisadi göstəricisi kimi əhəmiyyəti və onun nəzəri təhlildə geniş tətbiqi bununla müəyyənləşir.

Təsərrüfat praktikasında istehsal olunmuş və istifadə olunmuş MG fərqləndirilir.

İstehsal olunmuş MG – əmtəə və xidmətlərin yenidən yaradılmış dəyərinin bütün həcmidir.

İstifadə olunmuş MG – bu, təbii fəlakətlərdən itkilər, saxlama zamanı dəyən zərər və b.k. və xarici ticarət saldosu çıxıldıqdan sonra qalan istehsal olunmuş MG-dir.

Qeyd etmək lazımdır ki, iqtisadi nəzəriyyənin inkişaf etdiyi uzun müddət ərzində milli gəlir probleminə iqtisadi fikrin klassik məktəbinin nümayəndələri tərəfindən kifayət qədər böyük diqqət yetirilmişdi. Hələ 1664-cü ildə iqtisadi fikrin klassik məktəbinin banilərindən biri olan ingilis alimi U.Petti İngiltərə əhalisinin gəlirləri və xərclərinin balansını tərtib etmiş və onun əsasında MG-i bütün əhalinin əməkdən və əmlak (torpaq, ev və kapital) sahibliyindən aldığı gəlirlərin məbləği kimi müəyyənləşdirmişdi.

İqtisadi fikrin bu cərəyanının digər nümayəndələri **A.Smit** və **D.Rikardo** «milli gəlir» və «ictimai məhsul» anlayışlarının vəhdətini nəzəri cəhətdən əsaslandırmışdılar. Onlar ictimai məhsulun dəyərini cəmiyyətin gəlirlərinin məbləği ilə ölçərək ilk dəfə olaraq bütün əmtəələrin dəyərindən onların yaradılmasında istifadə olunmuş istehsal vasitələrinin dəyərinin çıxılmasının zəruri olması məsələsini qaldırmışdılar.

«Milli gəlir» məfhumu **P.Buagilberin** «Fransanın aspektləri»ndə rast gəlinir, artıq 1696-cı ildə isə **Qreqori Kinq** İngiltərənin milli gəlirinin qiymətləndirilməsini aparır. Məlumdur ki, **F.Kene** və A.Smit Qreqori Kinqin hesablamalarından öz nəzəri sxemlərində istifadə etmişdilər.

İctimai məhsul və milli gəlirin vəhdəti haqqındakı fikir sonralar fransız iqtisadçısı J.B.Seyin əsərlərində nəzəri cəhətdən yenidən əsaslandırıldı; o, öz sübutlar sistemini istehsal amillərinin – əməyin, torpaq və kapitalın – məhsul və xidmətlərin faydalılığı və dəyərinin yaradılmasında rolunun müəyyənləşdirilməsi üzərində qurmuşdu. Bu amillərin hər bir nemətin həm faydalılığını, həm də dəyərini yaratması fikrinə gələrək, o, bütün məhsulların dəyərini üç sinfin – fəhlələr, torpaq sahibləri və kapitalistlərin – gəlirlərinin

cəmi kimi nəzərdən keçirirdi.

Hazırda bu konsepsiya bütün elmi məktəblər və cərəyanlardan olan iqtisadçıların çoxu tərəfindən qəbul edilir; yalnız K.Marksın ardınca ictimai məhsulun yalnız istehsal fəaliyyəti prosesində istifadə olunmuş istehsal vasitələrinin dəyərini bütün ictimai məhsula əlavə edən (köçürən) canlı əməklə yaradıldığında israrlı olan ortodoksal marksistlər istisna təşkil edirlər. Nəticədə, ictimai məhsula yalnız yeni yaradılmış dəyər deyil, həm də keçirilmiş dəyər daxil olur, milli gəlirin maddi istehsal sahəsindəki fəhlələrin gəlirlərindən artıq olması isə iqtisadi məcburetməyə (istismara) əsaslanan yenidən bölgü münasibətləri ilə müəyyənləşirlər.

Amma milli hesablar sistemində daha çox **sərəncamda olan milli gəlir göstəricisindən** istifadə olunur ki, bu məfhum altında istehsal fəaliyyəti nəticəsində və ya mülkiyyətdən, bir də təkrar bölgü prosesləri nəticəsində əldə olunmuş və təsərrüfat vahidlərinə verilmiş gəlirin ümumi kəmiyyəti başa düşülür. Sərəncamda olan milli gəlirin hesablanmasında aşağıdakılar cəmlənir:

a) əməkhaqqı – pul şəklində və ya natural formada muzdlu işçilərə ödənilən mükafatlandırma;

b) sosial sığorta ödənişləri. Onlar əməyin kəmiyyəti və keyfiyyətindən asılı olmur və müəssisələr tərəfindən ödənilir;

c) biznesdən dolayı vergilər və digər dövlət yığımları;

ç) subsidiyalar – bu, «əks-vergilərdir». Onlar əsas statistik göstəricilərin hesablanmasında istifadə olunan bazar qiymətlərinə daxil olmurlar, buna görə də məcmu gəlirdən çıxılırlar;

d) müavinətlər – ev təsərrüfatlarına pul şəklində və natural formada heç bir ekvivalent olmadan inzibati və ya gəlirsiz xüsusi təşkilatlar tərəfindən ödənilən transfert ödənişləri;

e) beynəlxalq yardım – bir dövlətin digərinə təmənnasız ödənişləri və beynəlxalq təşkilatlara ödəmələr. Əgər bizə bizim etdiyimiz yardımdan daha çox yardım göstərilirsə, beynəlxalq yardım «+» işarəsi ilə, biz daha çox yardım ediriksə, «-» işarəsi ilə qeyd olunur;

ə) şirkətlərin bölünməmiş mənfəəti – istehsal edilmiş əlavə dəyərdən əməkhaqqının ödənilməsinə, amortizasiyaya, vergilərə, faizlər və dividendlərə xərcləri çıxdıqdan sonra şirkətlərdə qalan xalis gəlir;

f) mülkiyyətdən gəlirlər – dividendlər, renta, faizlər şəklində iqtisadiyyatın bütün bölmələrinə daxilolmalar;

g) fərdi fəaliyyətdən gəlirlər – kiçik qeyri-korporativ müəssisələrin və azad sənətlərin gəlirləri;

ğ) sığortadan gəlirlər – sığorta üzrə illik müavinət ödənişlərinin saldosu və sığorta üçün ödəmələr (müavinətlər ödəmələrdən çoxdursa, fərq «+» işarəsi ilə, müavinətlər ödəmələrdən azdırsa, «-» işarəsi ilə nəzərə alınır);

h) xarici aləmlə əməliyyatlardan gəlirlər – bu gəlirlərin saldosu nəzərə alınır.

Tam məşğulluq şəraitində təmin edilən milli gəlir səviyyəsi ***tam məşğulluğun milli gəliri adlanır.***

İctimai təsərrüfatdan gələn gəlirdən başqa əhalinin bir qismi dövlətdən təqaüdlər, müavinətlər, pul və natural ödənişlər şəklində əlavə gəlir alır. Hərdən ayrı-ayrı firmalar da müəyyən yardım alırlar. Dövlətin ayrı-ayrı şəxslərə və ya firmalara ödədiyi və bir istehlakçı kimi onların imkanlarını artıran bütün ödənişlər ***transfert ödənişləri*** adlanır. Buna görə də vergi və ödənişlər ödəndikdən sonra milli gəlirin yerdə qalan hissəsinə transfert ödənişlərini əlavə etsək, ümumi şəxsi gəliri alarıq.

Şəxsi gəlir ayrı-ayrı fərdi şəxslər tərəfindən istifadə üçün nəzərdə tutulur, lakin əvvəlcə ondan bütün fərdi vergiləri ödəmək lazımdır.

§3.Milli sərvət və onun istifadəsindən gələn gəlirin mənimsənilməsi

Milli sərvət - müəyyən tarix üçün cəmiyyətin malik olduğu və onun inkişaf etdiyi bütün əvvəlki dövr ərzində

insanların əməyi ilə yaradılmış maddi nemətlərin məcmusudur.

Milli hesablar sistemində milli sərvət bütün təsərrüfat subyektlərinin öz xalis kapitallarının cəmi kimi müəyyənləşdirilir, yəni maddi resurslardan başqa ona maliyyə aktivləri, qeyri-istehsal maddi aktivlər (müəllif hüququ, lisenziyalar və s.) əlavə edilir, lakin maliyyə öhdəlikləri çıxılır.

Sözün geniş mənasında milli sərvət millətin bu və ya digər şəkildə malik olduğu hər bir şeydir. Bu mənada milli sərvətə yalnız maddi nemətlər deyil, həm də təbii resurslar, iqlim, sənət əsərləri və b. daxildir. Lakin bir sıra obyektiv səbəblərdən bunların hamısını hesablamaq olduqca çətindir. Buna görə də iqtisadi təhlil praktikasında milli sərvətin yuxarıda qeyd olunmuş sözün dar mənasındakı göstəricisi istifadə olunur.

Sözün dar mənasında milli sərvətə bu və ya digər şəkildə insan əməyi tətbiq olunmuş və təkrar istehsal oluna bilən hər şeydir. Başqa sözlə, ölkənin milli sərvəti ölkənin bütün tarix boyu həmin an üçün yığılmış maddi və mədəni nemətlərinin məcmusudur. Bu, çoxsaylı insan nəsillərinin əməyinin nəticəsidir.

Milli sərvət dedikdə, sözün geniş mənasında, insan tərəfindən təkrar istehsal oluna bilən maddi, təbii və insan kapitalları formasında olan, bütövlükdə daim, arasıkəsilməz və sabit geniş təkrar istehsal prosesini təmin edən və insanın əmək fəaliyyətinin və təbii mühitin təbii proseslərinin nəticəsi olan ölkədə yığılmış iqtisadi nemətlərin cəmi başa düşülür.

Beləliklə, milli sərvət bilavasitə ictimai məhsulun istehsalı və onun təkrar istehsalı ilə əlaqədardır. Milli sərvət hər şeydən öncə ictimai məhsul, yəni bu ildə istehsal olunmuş məhsulun cari istehlakdan çox olması hesabına artır. Deməli, milli sərvətin mənbəyi geniş zəmində təkrar istehsal olunan ictimai məhsuldur. Lakin əks-əlaqə də var. İctimai məhsulun artımının özü, onun artım sürəti, artımının mütləq ölçüləri milli sərvətin həcmi və quruluşundan asılıdır.

Milli sərvətin quruluşu bir sıra ***əsas elementlərdən*** ibarətdir.

Qərbdə iqtisadçıların çoxunun tərəf çıxdığı sərvətin «üç amilli konsepsiyası» sərvətin elementlərinə istehsal aktivlərini, təbiət və insan resurslarını, başqa sözlə, istehsalın üç əsas amilini – torpaq, əmək və kapitalı aid edirlər.

İnsan tərəfindən təkrar istehsal olunmuş maddi kapital əsas və dövriyyə kapitalının və uzunmüddətli istifadə üçün istehlak əmtəələrinin məcmusu ilə təmsil olunur.

Milli sərvətə ***maddi ehtiyatlar və rezervlər*** aiddir. Bura tədavül dairəsindəki hazır məhsullar, müəssisələr və ticarət şəbəkəsindəki maddi ehtiyatlar, dövlətin maddi rezervləri və sığorta fondları daxildir.

Funksional baxımdan maddi ehtiyatlar və rezervlər gözlənilməyən şəraitlərdə iqtisadiyyatın stabilləşdirici rolunu yerinə yetirirlər. Onlar konyunktura və təbii kataklizmlər zamanı istehsalın sabitliyini və arasıkəsilməzliyini təmin edirlər. Sığorta rezervləri və ehtiyatların kəmiyyəti isə xüsusi bir məsələdir. Aparıcı sənaye dövlətlərinin təcrübəsi göstərir ki, onlar kifayət qədər böyük olmalı və istehsal potensialının 25%-dən az olmamalıdır.

Əşya formasında sərvətin mühüm elementi dövlət yaşayış fondu və sosial-mədəni təyinatlı müəssisələrdir. Bura mənzil daxil edildiyindən bu bölgü bir qədər şərtidir. Öz təbiətinə görə mənzil bütün ölkələrin statistikasında milli sərvətin quruluşunda ayrıca sətirlə verilən ev əmlakına aid edilməlidir.Mənzildən başqa ev əmlakına istehlak təyinatlı uzunmüddətli istifadə əşyaları (televizorlar, soyuducular, mebel və s.) daxildir.

İnsan kapitalı ölkə sərvətinin yığım mənbəyi, təkrar istehsalın zəruri şərtidir. Ona yığılmış bilik ehtiyatı peşə vərdişləri və təcrübə, sağlamlıq, qabiliyyət və məhsuldar əməyə həvəsləndirmə daxildir. Milli sərvətin bir elementi kimi, insan kapitalının xüsusiyyəti onun öz daşayıcısından ayrılmazlığındadır.

Və nəhayət, milli sərvətin strukturunda ***təbii resurslar***

fərqləndirilir. Bu zaman söhbət bütün təbii resurslardan deyil, yalnız təsərrüfat dövriyyəsinə cəlb olunmuş və ya artıq kəşf olunmuş və yaxın zamanlarda cəlb oluna biləcək resurslardan gedir.

Təbii kapitalın, milli sərvətin elementi kimi, dəyərinin hesablanmasını Dünya bankının bir qrup mütəxəssisi tərəfindən təklif olunmuş düsturla aparmaq olar:

$$NW = Q \cdot R \cdot (1+1/r).$$

Burada NW – təbii kapital;

Q – mövcud olan təbii resursun miqdarı;

R – renta (təbii resurslardan istifadə etməklə istehsal olunan məhsulun qiyməti ilə onun maya dəyəri və müəssisənin mənfəəti arasındakı qiymət fərqi);

r – təkrar istehsal və ya resursun tükənmə müddəti ilə müəyyənləşən kapitallaşma dərəcəsi.

Ev təsərrüfatlarının sərəncamında, yəni vergilər ödənilməndən sonra qalan gəlir ***ev təsərrüfatlarının sərəncamında olan gəlirdir.***

Makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqəsi

Makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqəsi sxem şəklində verilə bilər (şəkil 3.3).

Bu sxem mövzudan əldə olunan əsas nəticəni – istənilən milli təsərrüfat ölkə əhalisinin onların rifahının yaxşılaşdırılmasına xidmət edən gəlirlə təmin etməyə xidmət etməsini - dəqiq şərh edir. Buna görə də, milli iqtisadiyyat nə qədər səmərəli olsa, hər bir kəsin öz həyat səviyyəsini yüksəltmək imkanı bir o qədər çox olar.

Təbii resursların qiymətləndirilməsində əsas problem ağılsız istifadə və təbii mühitin korlanması şəraitində təbii sərvətin tükənməsidir.

Milli sərvətə ənənəvi yanaşmaya hazırda əlavələr tələb olunur. Məsələ burasındadır ki, merkantilistlər, fiziokratlar və klassik məktəb gəldikləri nəticələri mücərrəd mülahizələr üzərində deyil, həyatın real tələbatları üzərində qururdular.

Ümumi milli məhsul - Amortizasiya
Xalis milli məhsul - Biznesdən dolayı vergilər
Milli gəlir - Sosial sığortaya ödəmələr - Mənfəətdən vergilər Bölünməmiş mənfəət - Transfert ödənişləri
Şəxsi gəlir - Fərdi vergilər
Şəxsi sərəncamda olan gəlir və ya sərəncamda olan gəlir

Şəkil 3.3. Milli iqtisadiyyatın qiymətləndirmə göstəriciləri sistemi

Bu tələbatlar sənaye dövrü adlandırılan dövr tərəfindəndiktə olunurdu. Hazırda bəşər sivilizasiyası öz inkişafının növbəti mərhələsinə qədəm qoyur ki, onu şərti olaraq postsənaye cəmiyyəti adlandırmaq olar. Təbii ki, bu, milli sərvətə yeni yanaşma tələb edir, çünki postsənaye cəmiyyəti ən azı iki prinsipial mühüm məqamla səciyyələnir: 1) yüksək informasiyalaşma və 2) rifahın keyfiyyətinin yüksəlməsi. Bu, əlbəttə, milli sərvətin quruluşunun dərk olunması və ondan istifadədə öz əksini tapmalıdır.

Formal cəhətdən ***informasiya – onu alan üçün yenilik elementlərinə malik olan və ondan qərar qəbul edilməsini tələb edən məlumatdır.*** İnformasiya - qərar qəbul edilməsi prosesi üçün bir növ xammaldır. Təbii xammaldan fərqli olaraq informasiya qeyri-məhdud müxtəlif mənbələrdən qeyri-məhdud müxtəlif formalarda gəlir. Onun iqtisadi dəyərliliyi də müxtəlifdir: kimi üçün onun qiyməti milyonlardır, kimi üçünsə heç bir əhəmiyyət kəsb etmir. O həm iqtisadiyyatda, həm siyasətdə, həm ayrıca firmada nəzarət alətidir. Amma bu xammalı toplamaq, əldə etmək və işləmək, həmçinin işləmə prosesində zənginləşdirmək və qiymə-

tə mindirmək lazımdır. Sonra onu bazara çıxarır, yayırlar və o qərar qəbul edilməsi üçün əsas olur. Əslində, informasiya idarəetmənin əsası olur və müasir iqtisadiyyatın potensialını yalnız onun köməkliyi ilə tam realizə etmək olar.

Hazırda tamamilə aydındır ki, informasiyalaşma, inkişaf və müasir informasiya texnologiyaları və bunun əsasında milli sərvətin bütün quruluşunun kökündən dəyişdirilməsi yoluna qədəm qoymayan cəmiyyət tənəzzülə məhkumdur. İnformasiyasız biznes sadəcə olaraq mümkün deyil. Buna görə də informasiya istehsalın, ticarət fəaliyyətinin və texnoloji fəaliyyətin fundamental təməlidir. Kompyuterlərə əsaslanan müasir informasiya texnologiyaları yarananda sonra isə aydın oldu ki, iqtisadi, o cümlədən iş informasiyası, həmçinin elmi-texniki informasiya ictimai inkişafın və təsərrüfatın inkişafının nəinki həlledici amili olur, həm də milli sərvətin əsas elementlərindən birinə çevrilir.

Milli sərvətin quruluşundan danışdıqda inkişaf etmiş sənaye ölkələrinin iqtisadiyyatının inkişafında aşkar görünən meyilə diqqət yetirmək lazımdır – toxuculuq, gön-dəri, maşınqayırma kimi ənənəvi sahələrin kəskin ixtisarı (hətta ləğvi) və bu əməktutumlu istehsalların ixtisaslaşmamış ucuz iş qüvvəsinin bol olduğu inkişaf etmiş ölkələrə köçürülməsi. Bu bir tərəfdən. Digər tərəfdən isə intensiv olaraq yüksək texnoloji informasiya əmtəələrinin işlənilməsi və yayılması baş verir. Və bu istehsalların payı inkişaf etmiş sənaye ölkələrində daim artır.

Milli sərvətin hesablanmasında MDB ölkələrinin iqtisadi aktivlərinin ÜDM-in 30-40% istehsal edən xeyli hissəsinin cəmləşdiyi «kölgə iqtisadiyyatı» da nəzərə alınmalıdır. «Kölgə bölməsində» əldə olunan gəlirlər bir növ əldən çıxmış imkanlardır («kölgə sərvəti») və milli sərvətin real həcmini təhrif edirlər.

Milli sərvətin həcminə görə Rusiya həm milli sərvətin mütləq kəmiyyətinə görə, həm də adambaşına düşən kəmiyyətinə görə dünyada birinci yer tuturdu (cədvəl 3.1).

Cədvəl 3.1

Bəzi ölkələrin milli sərvəti

(XX əsrin sonu üçün adambaşına hesabla, min ABŞ doll.)

Ölkələr	Kapital	O cümlədən		
		insan	təkrar istehsal olunan	təbii
Rusiya	400	200	40	160
Qərbi Avropa	237	177	55	6
Şimali Amerika*	326	249	62	16
İƏİT-nın Sakit okean ölkələri**	302	205	90	8
Yaxın Şərq	150	65	27	58
Nəticəyə %-lə				
Rusiya	100	50	10	40
Qərbi Avropa	100	75	23	2
Şimali Amerika*	100	76	19	5
İƏİT-nin Sakit okean ölkələri**	100	68	30	2
Yaxın Şərq	100	43	18	39

* ABŞ və Kanada.

** Yaponiya, Avstraliya və Yeni Zelandiya.

Mənbə: *Валентей С.Д., Нестеров Л.И.* Накопление национального богатства на фоне мировых тенденций. М.: ИЭ РАН, 2000. С.8.

Adambaşına milli sərvət Rusiyada ABŞ və Kanadadakından 1,2 dəfə, Qərbi Avropadakından 1,7 dəfə, Sakit oke-

an regionu ölkələrindəkindən 1,3 dəfə, Yaxın Şərq ölkələrindəkindən isə təqribən 2,7 dəfə çoxdur. Rusiyanın digər ölkələri qabaqlaması xüsusilə milli sərvətin təbii tərkib hissəsinə görə daha barizdir. Təbii kapitala görə ABŞ və Kanada Rusiyadan 10 dəfə, Qərbi Avropa isə 27 dəfə geri qalırlar! ***Bu onu göstərir ki, aparıcı Qərb ölkələri ilə müqayisədə Rusiyanın sosial-iqtisadi inkişaf üçün imkanları daha çoxdur, lakin bu imkanlardan daha yaxşı istifadə olunmalıdır.***

Milli sərvətin mənbələrindən danışılanda, əsasən kapital gəlir əldə olunmasının həyata keçirici komponenti kimi vurğulanır. İnsanın təbiətdən götürdüyü resurslar isə sanki müftə hesab edilir. MHS-ə görə təbii resursların aşılanması heç cür nəzərə alınmır. Yer kürəsinin təbii potensialının rolunun get-gedə artması milli sərvətin mənbələrinin, məhz təbii resursların qiymətləndirilməsinə başqa yanaşma tələb edir. Məlumdur ki, istehsalın ilkin amillərinin iştirakı əsasında Rusiyanın məcmu gəlirinin formalaşmasında (onu 100% götürsək) əmək 5%, kapital 20%, torpaq (təbii renta şəklində) 75% iştirak edir[1]. Lakin renta gəliri təsərrüfat fəaliyyətinin nəticəsi deyil. Bu, Rusiyaya və ya başqa ölkələrə Allah tərəfindən veriləndir, buna görə də əhalinin hamısına məxsus olmalıdır. Rusiyada aparılmış özəlləşmənin nəticəsində isə əhalinin 3-5%-i Rusiya xalqlarının 90%-dən çoxunu bu rentadan istifadədən məhrum edib, dövlət büdcəsinə renta yalnız 13%-i vergi şəklində daxil olur, halbuki əməkdən daxilolmalar 70%, kapitaldan isə 17% təşkil edir. Təbii resursların xüsusi mülkiyyətçisi onun sahibkarlıq fəaliyyətinin, riskə gedərək qoyduğu kapitalın nəticəsi olan gəliri şəksiz götürmək hüququna malikdir. Lakin həmin gəlirdən artıq olan hissə hamıya məxsus olmalıdır. Bu o deməkdir ki, torpağın və təbii resursların mütləq mülkiyyətçisi dövlət olmalıdır. Torpağın sahibi və istifadəçisi isə, istər dövlət müəssisəsi, istər kollektiv və xüsusi mülkiyyətçi və ya icarəçi olsun, illik torpaq rentasını ödəməli və həmin renta dövlət büdcəsinə daxil olmalıdır.

1 Bax: Львов Д.С. Экономика развития. – М.: Экзамен, 2002. С.154.

Rentanın ictimailəşməsi ölkənin müdafiəsinə ən vacib xərcləri ödəməyə, konversiyaları, elmi, təhsili, mədəniyyəti, səhiyyəni, dövlət aparatını dəstəkləməyə imkan verərdi. Normal şəraitdə Rusiya yalnız neftdən və qazdan ildə 80 milyard dollar gəlir əldə edə bilərdi. Şəhər ərazisi, meşə və kənd təsərrüfatı sahələrinin icarəsindən renta ödənişləri də böyük bir məbləğ təşkil edə bilərdi.

Milli sərvətin insan əlinin məhsulu deyil, Allahın bizə bəxş etdiyi hissəsindən xəzinənin gəlir əldə etməsinin üstünlüyünə ilk dəfə XIX əsrin sonunda Amerika iqtisadçısı Q.Corc diqqət yetirmişdi. Bu ideyalar Rusiyada A.N.Tolstoy tərəfindən dəstəklənmişdi. Lakin renta gəlirindən obyektiv istifadə hallarına rast gəlinsə də (buna misal Alyaska, Əmirliklər və s. ola bilər), bu bütün dünyada çox nadir hadisədir.

Beləliklə, milli sərvətin artması ictimai istehsalın artımının nəticəsi və onun sonrakı inkişafının, xalqın rifahının yüksəlməsinin maddi əsasıdır.

§4. Makroiqtisadi göstəricilərin dəqiqliyi problemi. Xalis iqtisadi rifah

ÜDM-in göstəricisi ölkənin illik istehsal həcmini pulla ölçməyə imkan verir, lakin xalqın iqtisadi rifahını tam əks etdirmir.

Bizim iqtisad elmi üçün nisbətən yeni olan ***xalis iqtisadi rifah göstəricisidir.*** Dünya praktikasında o, bir sıra səbəblərdən iqtisadi rifahın tam mənzərəsini yaratmayan ümumi milli gəlir göstəricisinə əlavə kimi tətbiq olunur.

Birincisi, praktik olaraq bütün ölkələrdə xəstələrə və uşaqlara evdə qulluq, evin abadlığı (ev, ayaqqabı, aparatura və s. öz gücü ilə təmiri) kimi fəaliyyət növləri haqqında sistematik dəqiq informasiya yoxdur.

İkincisi, istehsalın fəaliyyətinin mənfi təsirləri (ətraf mühitin çirkləndirilməsi, iqlimin dəyişməsi, resursların tükənməsi) cəmiyyətin rifahının azalmasına səbəb olsa da, onlar qiymətləndirilmir.

Üçüncüsü, ÜDM göstəricisi cəmiyyətin asudə vaxtla bağlı rifahını nəzərə almır: yüksək inkişaf etmiş iqtisadi rifah şəraitində gəlir səviyyəsi keyfiyyətli istirahət və asudə vaxtın artması üçün kifayət edir ki, bu da ölkənin rifahının artmasına bərabərdir.

Dördüncüsü, dünyada, o cümlədən Rusiyada makroiqtisadi göstəricilərin dəqiq hesablanmasındakı çətinlik «kölgə iqtisadiyyatı»nın mövcudluğu hesabına artır və həmin iqtisadiyyatın miqyasını hazırda dəqiq qiymətləndirmək mümkün deyil. Rusiya Dövlət Statistika Komitəsinin fikrincə, Rusiya ÜDM-nin quruluşunda onun payı təqribən 20% təşkil edir. Lakin sual doğur: «kölgə iqtisadiyyatı»nın miqyası bu rəqəmlə məhdudlaşırmı və onun ölçüləri ÜDM-in hesablanmasında real nəzərə alınırmı? Müxtəlif ekspertlərin qiymətləndirməsinə görə, dəyər qiymətləndirməsində bu göstərici 30%-dən 50%-ə qədər təşkil edir ki, bu da, məsələn, pul vəsaitlərinin dövriyyə sürəti, vəsaitlərin hesablamalarda dövriyyə qabiliyyəti kimi göstəricilərin hesablanmasına təsir edir.

Xalis iqtisadi rifahın qiymətləndirilməsində əhalinin real tələbatları ilə onların təmin edilməsi imkanlarının nisbəti kimi müəyyənləşdirilən həyat səviyyəsi də nəzərə alınmalıdır. Burada yalnız əhalinin cari pul gəlirlərinin və faktik istehlakın qiymətləndirilməsi deyil, həm də yığımın olması, yığılmış ev əşyalarının, mənzilin, xidmətlərin, səhiyyənin və təhsilin kəmiyyəti və keyfiyyəti də nəzərə alınır.

Bundan başqa, xalis iqtisadi rifahın obyektiv qiymətləndirilməsi üçün əhalinin gəlir səviyyəsinə görə təbəqələşməsi də nəzərə alınmalıdır. Ümumi daxili məhsul bunu da əks etdirə bilmir. Bu yerdə ***Cini əmsalından*** istifadə etmək lazım gəlir, o, əhalinin bütün gəlirləri məbləğinin əhalinin ayrı-ayrı qrupları arasında necə bölündüyünü göstərir.Cəmiyyətdə gəlirlərin bərabər bölgüsü zamanı Cini əmsalı 0-a bərabərdir; cəmiyyətin gəlir səviyyəsinə görə qütbləşməsi nə qədər yüksək olarsa, əmsal bir o qədər 1-ə yaxın olar.

Asudə vaxt iqtisadi rifahın səviyyəsinə dolayısıyla təsir edirsə, «kölgə iqtisadiyyatı» iqtisadi rifah səviyyəsini, bu ümumi milli məhsulun göstəricisində kəmiyyətcə əks olunmasa da, birbaşa müəyyənləşdirir. Nəzərə almaq lazımdır ki, «kölgə iqtisadiyyatı»nın hamısı bu zaman müsbət təsir göstərmir. Bu baxımdan onu əmtəə-maddi dəyərlər və xidmətlərin cəmiyyətin nəzarətində olmayan hərəkəti, yəni ayrı-ayrı vətəndaşlar və sosial qruplar arasındakı dövlət idarəetmə orqanlarından gizlədilən sosial-iqtisadi münasibətlər kimi müəyyənləşdirmək olar. Bu münasibətlərə bütün qeydiyyata düşməyən, tənzimlənməyən iqtisadi fəaliyyətlər daxildir. «Kölgə iqtisadiyyatı»na aşağıdakılar daxildir:

- kriminal iqtisadiyyat – rəsmi iqtisadiyyatın strukturunda yer almış iqtisadi cinayətkarlıq (oğurluq; gizli, bütün nəzarət növlərindən tamamilə gizlədilən fəaliyyət: narkobiznes, qumar oyunları, fahişəlik; gəlirlərin iqtisadiyyatdan kənar təkrar bölgüsü forması kimi vətəndaşların şəxsi mülkiyyətinə qarşı cinayətkarlıq: talan, çapqın, şəxsi əmlakın oğurlanması, reket);
- fiktiv iqtisadiyyat – qüvvədə olan uçot və hesabatda real kimi əks etdirilən fiktiv nəticələr göstərən rəsmi iqtisadiyyat (təhrif olunmuş);
- qeyri-formal iqtisadiyyat – iqtisadi subyektlərin şəxsi münasibətləri və öz aralarındakı bilavasitə münasibətlərə söykənən, iqtisadi əlaqələrin rəsmi müəyyənləşdirilmiş təşkili və aparılması qaydalarına əlavə olan və ya onları əvəzləyən qeyri-formal qarşılıqlı əlaqələri;
- leqallaşdırılmamış ikinci iqtisadiyyat – nəzarətdən gizlədilən, ya qadağan olunmuş, ya da müəyyən olunmuş qaydada qeydiyyatdan keçməmiş fərdi və kooperativ fəaliyyət növləri.

Üçüncü və dördüncü elementlər xalis iqtisadi rifahın həcmini artırır, birinci və ikinci isə belə təsir göstərmirlər.

Makroiqtisadi tənzimləmə sahəsində bu və ya digər qərarın qəbul edilməsində dəqiq informasiyanın olmaması qiymət artımı, kreditin bahalaşması və kapitalın real bölmədən

möhtəkirlik sahəsinə axması arasında planlaşdırılmış nisbətin müəyyən təhrif olunmasına aparır.

Qeyd etmək lazımdır ki, Rusiya iqtisadiyyatının vəziyyətinə konkret siyasi vəziyyət, qüvvədə olan vergiqoyma və dövlət tənzimləməsi praktikası böyük təsir göstərir ki, bu da maliyyə resurslarının yığım və investisiyadan çox istehlaka yönəldilməsinə səbəb olur. Bu zaman obyektiv dəyər qiymətləndirilməsinin alınmasındakı çətinliklərə məhsul istehsalının natural ifadədə uçotu problemi də əlavə olunur ki, bu da ayrı-ayrı təşkilat rəhbərlərinin həm məhsulun vergi qoyulan bazasını azaltmaq, həm də ödəniş qabiliyyətinin olmamasını əsaslandırmaq cəhdlərindən irəli gəlir.

Beləliklə, makroiqtisadi göstəricilərin hesablanmasındakı bütün çətinliklərə baxmayaraq, bununla belə onlar ölkənin iqtisadi vəziyyətinin kifayət qədər dəqiq və faydalı indikatorudurlar, bir də milli iqtisadiyyatın iqtisadi inkişafının proqnozlaşdırılması və düzgün qərarlar qəbul edilməsi üçün olduqca vacibdirlər.

Əsas anlayışlar və məfhumlar

İctimai məhsul; ümumi daxili məhsul (ÜDM); ümumi milli məhsul (ÜMM); milli gəlir; milli sərvət; zəruri məhsul; izafi məhsul; xərclər, amilli və əlavə xərclər; milli hesabdarlıq; axınlar; ehtiyatlar; iqtisadi konyunktura; ÜMM-in qiymətləndirilməsi üsulları; ümumi buraxılış; ara məhsulu; xalis milli məhsul; ÜMM deflyatoru; qiymətlərin indeksi; Laspeyras indeksi; Paaşe indeksi; sərəncamda qalan şəxsi gəlir; ev təsərrüfatlarının sərəncamında olan gəlir; xalis iqtisadi rifah; Cini əmsalı; kölgə iqtisadiyyatı.

IV FƏSİL. ÜMUMİ İQTİSADİ TARAZLIQ VƏ MAKROİQTİSADİYYATIN SƏMƏRƏLİLİYİ

§1. Makroiqtisadi (ümumi) tarazlığın mahiyyəti və ən mühüm nəzəriyyələri.

§2. Milli iqtisadiyyatın səmərəliliyi haqqında ümumi təsəvvür.

§3. Maksimum iqtisadi səmərəlilik konsepsiyası.

Makroiqtisadiyyatın (bütövlükdə milli iqtisadiyyatın) fəaliyyətinin və sosial - iqtisadi inkişafının ən mühüm, fundamental problemlərindən biri ümumi iqtisadi tarazlıq, onun səmərəliliyi və bu və ya digər iqtisadi sistemdə yaşayan əhalinin rifahının yüksəldilməsi problemidir.

§1. Makroiqtisadi (ümumi) tarazlığın mahiyyəti və ən mühüm nəzəriyyələri

Makroiqtisadi (və ya ümumi) tarazlıq iqtisadi nəzəriyyənin ən mühüm kateqoriyasıdır.

Ümumi makroiqtisadi tarazlıq o deməkdir ki, milli iqtisadiyyatda iqtisadi proseslərin: istehsal və istehlakın, məcmu tələbin və məcmu təklifin, istehsal xərcləri və nəticələrin, maddi-əşyavi və maliyyə axınlarının balanslaşdırılması və proporsionallığına nail olunmuşdur.

Ayrıca götürülmüş bazarda yaranan qismən tarazlıqdan fərqli olaraq ***ümumi tarazlıq–bütün bazarların qarşılıqlı təsiri nəticəsində yaranır ki, bu zaman bazarlardan birində tələb və ya təklifin dəyişməsi bütün bazarlarda tarazlıq qiymətləri və satış həcminə təsir edir.***

İdeal və real tarazlıq fərqləndirilir.

İdeal (nəzəri arzuolunan) *tarazlıq* fərdlərin maraqlarının xalq təsərrüfatının bütün struktur elementlərində, bölmələrində, sahələrində optimal həyata keçirilməsi zamanı onların iqtisadi davranışında müşahidə olunur.

Belə tarazlığa çatmaq üçün aşağıdakı təkrar istehsal şərtlərinə əməl olunması nəzərdə tutulur:

• fərdlərin hamısı bazarda istehlak şeyləri tapmalıdır;

• sahibkarların hamısı bazarda onlara lazım olan istehsal amillərini tapmalıdır;

• ötən ilin bütün məhsulları realizə olunmalıdır.

Real makroiqtisadi *tarazlıq* iqtisadi sistemlərdə qeyri-təkmil rəqabət və bazara xarici amillərin təsiri şəraitində müəyyənləşən tarazlıqdır.

Ümumi iqtisadi tarazlıq ideyası başlanğıcını iqtisadçı-klassiklərin əsərlərindən götürür; doğrudur, onlar makroiqtisadi göstəricilərdən istifadə etmirdilər, onlar üçün mikrotəhlil daha səciyyəvi idi. Hər halda A.Smit göstərmişdi ki, istehsalçı və istehlakçının azad qarşılıqlı təsiri şəraitində hərc-mərclik deyil, öz şəxsi maraqlarını gözləyən fərdlərin iqtisadi qaydaları fəaliyyətdə olur ki, bu da hamı üçün sərfəli olan ümumi tarazlığın bərqərar olmasına gətirir ki, bu fikir onun bütövlükdə bazar iqtisadiyyatının fəaliyyəti haqqında aydın təsəvvürünün olmasına dəlalət edir.

Hazırda makroiqtisadi tarazlıq modelləri xeyli çoxdur və onlardan bir neçə əsasını göstərmək lazım gəlir. Ən məşhur modellər sırasında aşağıdakıları göstərmək olar: F.Kene modeli - onun sadə təkrar istehsalı və tədavülü təsvir edən «İqtisadi cədvəlləri»; K.Marksın kapitalist ictimai təkrar istehsal modeli; L.Valrasın azad rəqabət qanununun fəaliyyəti şəraitində «ümumi iqtisadi tarazlıq» modeli; V.Leontyevin «xərclər-buraxılış» modeli; C.M.Keynsin qısamüddətli iqtisadi tarazlıq modeli; C.Neymanın tarazlıqlı genişlənən iqtisadi modeli; institusional tarazlıq modeli və b.

Yuxarıda sadalanan müəlliflərin nəzəriyyələri zəminində makroiqtisadi tarazlığın müasir modifikasiya və sintez edilmiş modelləri qurulur.

Klassik ümumi iqtisadi mtarazlıq modeli bundan çıxış edir ki, bazar mexanizmi milli iqtisadiyyat miqyasında yaranan disbalansı özü-özlüyündə düzəltməyə qabildir, tarazlığı avtomatik olaraq dəstəkləmək üçün bazarın, əgər dövlət, həmkarlar ittifaqları və ya oliqarxların razılaşmaları onu korlamırsa, həmişə kifayət qədər daxili resursları var.

Modelin əsasında fransız iqtisadçısı J.-B.Seyin qanunu (Sey qanunu) durur. Qanunun mahiyyəti aşağıdakından ibarətdir: «əmtəə təklifi öz tələbini yaradır», çünki əmtəə və ya xidməti satan onun əvəzində pul alır və həmin pula başqa əmtəə və xidmətlər alır. Özü də hər kəs özünün ehtiyac duyduğu əmtəələrə ekvivalent olan miqdarda məhsul yaradır, buna görə də satıcıların gəlirlərinin məbləği alıcıların xərcləri məbləğinə müvafiq olur və nəticədə əldə olunan gəlirin hamısı mütləq alışlara xərclənir, yəni tələb və təklif həmişə tarazlaşır və nə defisit, nə ifrat istehsal mümkün deyil. Makro səviyyədə

$$\Sigma \text{ əmtəə dəyərləri} = \Sigma \text{ məcmu gəlirlərinə.}$$

Sey tarazlığının çatışmazlığı makrosəviyyədə bu bərabərliyin xülya olmasındadır. Əslində, gəlirlərin məbləği əmtəə dəyərləri məbləğindən həmişə istehlak olunmuş istehsal vasitələri kəmiyyəti qədər azdır.

A.Marşall ümumi tarazlığı müxtəlif əmtəələr üzrə ayrı-ayrı tarazlıqların məcmusu kimi nəzərdən keçirirdi və bununla da makroiqtisadi tarazlığın neoklassik nəzəriyyəsinə öz töhfəsini verdi. Özünün «Ekonomiks prinsipləri»ndə (1890) o, bazarın iqtisadi təhlilinin mərkəzində «tarazlıq qiyməti»ni götürürdü və hesab edirdi ki, qısamüddətli dövrdə onun formalaşmasına tələb təsir göstərir, uzunmüddətli dövrdə isə – təklif.

O, iqtisadi nəzəriyyəyə qrafik təhlil metodunu gətirmiş və ondan geniş istifadə etmişdi. K.Marksda olduğu kimi, Marşallda da tarazlıq resursların yerdəyişmələri hesabına bərpa olunur.

Tarazlığın müasir makroiqtisadi təhlili ümumiləşdirmələr və ya məcmu göstəricilərinin formalaşdırılmasının köməkliyi ilə müstəqil aqreqatlarla aparılır. Ən mühüm aqreqatlar aşağıdakılardır:

• tarazlı miqdarda əmtəə və xidmətləri birləşdirən milli istehsalın real həcmi;


• bütün əmtəə və xidmətlər məcmusunun qiymət səviy-

yəsi (aqreqat qiymətləri).


Bu göstəriciləri koordinat oxlarında yerləşdirsək, ictimai istehsalın səviyyəsi və dinamikasını, məcmu tələbi və məcmu təklifinin xarakteristikalarını (şəkil 4.1), iqtisadiyyatın ümumi tarazlıq şərtlərinin müəyyənləşdirilməsinin (şəkil 4.2) öyrənilməsi üçün qrafik zəmin əldə edərik.

Məsələnin belə qoyuluşu dəqiqləşdirmə tələb edir, çünki adları çəkilən göstəricilərin məhz necə formalaşdığı aydın deyil. İstehsalın real həcmini adətən ümumi milli məhsulun və ya milli gəlirin göstəriciləri ilə səciyyələndirirlər. Amma iqtisadiyyatın vəziyyəti və inkişaf perspektivlərinin qiymətləndirilməsi üçün ÜMM-in həcmindən çox onun artım sürəti vacibdir. Buna görə də üfüqi oxda ÜMM-in və milli gəlirin illik artım sürəti (şəkil 4.2), şaqulidə isə ÜMM deflyatorunun və ya qiymətlərin illik artım sürətinin hesablanması əks etdirilir. Beləliklə, alınmış koordinat sistemi həm cəmiyyətdəki maddi nemətlərin miqdarı haqqında, həm də həmin nemətlərin orta qiyməti (qiymətlərin səviyyəsi) haqqında təsəvvür yaradır ki, bu da son nəticədə bütövlükdə milli iqtisadiyyata tətbiq oluna bilən tələb və təklif əyrilərini qurmağa imkan verir.

Məcmu tələb əmtəə və xidmətlərin müxtəlif həcmlərini,



Şəkil 4.1. Məcmu tələbin və məcmu təklifin əyriləri



Şəkil 4.2. Ümumi iqtisadi tarazlığın qrafiki

yəni milli istehsalın istehlakçılarının, müəssisələr və hökumətin qiymətlərinin istənilən səviyyəsində almağa hazır olduğu real həcmini əks etdirən modeldir.

«Məcmu tələb» məfhumu iqtisadiyyatın müxtəlif bölmələrinin həmin vaxt ərzində xərcləməyə hazır olduğu pulun məcmu həcmini bildirir.

İqtisadi nəzəriyyədə ***məcmu tələb (AD, aggregate demand) dedikdə, milli iqtisadiyyatda yaradılmış bütün son əmtəə və xidmətlərin alınması üçün makroiqtisadi subyektlərin hamısı tərəfindən planlaşdırılmış məcmu xərclər başa düşülür.***

İqtisadiyyatın ayrı-ayrı bölmələri arasında xərclər bölgüsünə müvafiq olaraq onun tərkibində aşağıdakı əsas elementləri fərqləndirirlər:

C – ev təsərrüfatlarının istehlak xərcləri;

I – xüsusi bölmənin investisiya xərcləri;

G – dövlət tədarükləri;

NX – xalis ixrac.

Nəticədə məcmu tələb bütövlükdə göstərilən xərclərin cəmi kimi verilə bilər:

$$AD = C + I + G + NX.$$

Məcmu tələbin çox hissəsini (MG-in 50%) əhalinin istehlak təyinatlı əmtəə və xidmətlərə, yəni qısa olması üçün istehlak adlandırdığımız C elementinə xərcləri təşkil edir. İnvestisiya xərcləri firma və təsərrüfatların investisiya əmtəələrinə xərclərindən (ÜDM-in 15-20%-i) ibarətdir. Dövlətin əmtəə və xidmətlər tədarükü hökumətin xidmətlərin (təhsil, səhiyyə və s.) ödənilməsi və dövlət məmurlarının (federal, regional, bələdiyyə) saxlanması xərcləridir ki, bu da ölkənin milli gəlirinin 30%-ini təşkil edir. Xalis ixrac ixrac və idxal arasındakı fərqdir.

Məcmu tələb bir çox amillərdən: ölkədə qiymətlərin ümumi səviyyəsindən, real milli gəlirin səviyyəsindən, yığılmış əmlakın dəyərindən, dövlətin əhalinin gəlirlərinə vergiqoyma sahəsində, pul, kredit və s. siyasətindən asılıdır ki, bunlar vergilərin, faiz dərəcəsinin ölçülərini, pensiyaların,

dövlət büdcəsi müəssisələri və təşkilatları işçilərinin əməkhaqqının həcmini, firma və ev təsərrüfatlarının gözləmələrini, mübadilə məzənnəsini və s. müəyyənləşdirir.

İqtisadi nəzəriyyədə məcmu tələb kəmiyyətinin qiymətlərin səviyyəsindən azalan asılılıq qanunu nəzəri cəhətdən əsaslandırılır. Bu asılılıq qrafik şəkildə məcmu tələb əyrisi (bax şəkil 4.1) şəklində verilmişdir. Bu qanun qiymətlərin ümumi səviyyəsinin dəyişməsi nəticəsində iqtisadiyyatda baş verən üç effektin xarakteristikasına əsaslanır:

- faiz dərəcəsi effekti (qiymətlərin səviyyəsinin qalxması pula tələbin artmasına səbəb olur, faiz dərəcəsinin artması baş verir, buna görə də investisiya qoyuluşu və avtomobil, ev, mənzil və s. almaq üçün kredit götürülməsinə maraq aşağı düşür);
- varlılıq və ya real kassa qalıqları effekti (qiymətlərin səviyyəsinin qalxması bank əmanətlərinin, istiqrazların, yəni maliyyə aktivlərindən gəlirlərin real dəyərini aşağı salır; nəticədə istehlakçılar əvvəlki zənginlik səviyyəsini bərpa etmək üçün alışları azaldırlar);
- idxal alışları effekti (qiymətlərin səviyyəsinin yüksəlməsi xarici əmtəə və xidmətlərin idxalının artmasına və milli əmtəələrin ixracının azalmasına səbəb olur; məcmu tələbin tərkib hissəsi olan xalis ixracın azalması baş verir).

Məcmu təklif hər bir mümkün qiymətlər səviyyəsində nağd real istehsal həcminin səviyyəsini göstərən modeldir.

İqtisadi nəzəriyyədə məcmu təklif (AS, aggregate supply) ölkədə istehsal olunmuş və qiymətlərin bütün mümkün səviyyələrində firmaların müəyyən müddət ərzində bazarda təklif etməyə hazır olduqları bütün son əmtəə və xidmətlərin cəminə deyilir.

Başqa sözlə, məcmu təklif - son əmtəə və xidmətlərin qiymət indeksinin müxtəlif göstəricilərində milli istehsalın real həcmidir.

Məcmu tələb istifadə olunmuş milli gəlir, məcmu təklif isə istehsal olunmuş milli gəlir adlandırıla bilər.

Milli istehsalın (məhsulun) real həcminin qiymətlərin

səviyyəsindən asılılığı *məcmu təklif əyrisi* adlanır.

Məcmu tələb və məcmu təklif əyrilərinin kəsişməsi ***ümumi iqtisadi tarazlıq nöqtəsini*** **(E)** verir.

Makroiqtisaddan edilən əsas nəticələr kimi, makroiqtisadi təhlil bunu deməyə əsas verir ki, daha yüksək qiymətlər istehsalın genişləndirilməsini stimullaşdırır və əksinə. Bütün digər şərtlərin bərabərliyi şəraitində qiymətlərin eyni zamanda qalxması məcmu tələb səviyyəsinin aşağı düşməsinə səbəb olur. Əgər iqtisadiyyatın tarazlığı inflyasiyanın sıfır və illik real ÜMM-in 4% artımı səviyyəsində əldə olunursa, iqtisadiyyatın belə vəziyyətini optimal adlandırmaq olar. Əslində isə tarazlıq idealdan çox uzaq şəraitlərdə müəyyənləşə bilər.

ÜMM-in dinamikası və məcmu təklifin əyrisi həm də cəmiyyətdə məşğulluq kəmiyyətinin dəyişməsi barədə təsəvvür yaradır. Bütün digər şərtlərin bərabərliyi şəraitində ÜMM-in artması iş yerlərinin sayının artması və işsizliyin azalması ilə müşayiət olunur, amma depressiya və böhran dövründə işsizlik sürətlə artır. Məşğulluq səviyyəsinin dəyişməsi adətən real ÜMM-in dəyişdiyi istiqamətdə, amma zaman müddətində bir qədər gec baş verir.


Qrafik (bax: şəkil 4.1) kifayət qədər mücərrəd səciyyəlidir və iqtisadiyyatda müxtəlif konkret-tarixi vəziyyətlərin fərqlərini əks etdirir. Təkrar istehsal konyunkturasının xüsusiyyətləri nəzərə alınsa, onda məcmu təklif əyrisi üzərində üç qeyri-bərabər parça fərqləndirmək olar: üfüqi (I), şaquli (III) və aralıq (II). İlk iki parça və onlara müvafiq olan təkrar istehsal vəziyyətləri iqtisadi fikrin iki əsas məktəbi tərəfindən - keynsçi və klassik - mütləqləşdirilir. Bu, əslində bir-birinin əksi olan konsepsiyaların əsas müddəalarını məcmu təklif və məcmu tələb probleminə tətbiqində nəzərdən keçirək.

Klassik məktəb bildirir ki, istənilən məcmu təklif əyrisi şaqulidir. Bu konsepsiya iqtisadiyyatın tam gücü ilə işləməsi və resursların tam məşğulluğu ehtimalından çıxış edir. Belə şəraitdə qısa müddətdə istehsal həcminin daha da artı-


rılmasına, hətta buna məcmu tələbin artması təhrik etsə də, nail olmaq mümkün deyil. Ayrı-ayrı firmalar resurslar üçün daha yüksək qiymət təklif etməklə öz istehsallarını genişləndirməyə cəhd edə bilərlər, lakin bununla onlar digər firmaların istehsal həcmini aşağı salmış olarlar. Bazarda rəqabətin artması qiymət artımına aparır və inflyasiya amili olur. Beləliklə, məcmu gəlirin dəyişməsi yalnız qiymətlərin səviyyəsinə təsir edə bilər, lakin məcmu istehsal həcminə və məşğulluğa təsir etmir (4.3).

Keynsçi məktəb bildirir ki, məcmu təklif əyrisi ya üfüqidir, ya da ucalandır (şəkil 4.4).

Məcmu təklif *əyrisinin üfüqi parçası* iqtisadiyyatın dərin tənəzzül, əmək və istehsal resurslarından tam istifadə edilməməsi vəziyyətinə müvafiqdir. Belə ehtimalın nəzərə alınması təsadüfi deyil, çünki bu nəzəriyyənin əsası ingilis iqtisadçısı C.M.Keyns tərəfindən XX əsrin 30-cu illərində təklif edilmişdi (Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi, 1936). 1929-1933-cü illərin böhranı və depressiyasından sonra istehsal xərclərinin və resursların qiymətinin



Şəkil 4.3. Ümumi tarazlığın klassik modeli:
Y—tam məşğulluğa müvafiq olan ÜMM-in həcmi; P_1—ilkin məcmu tələb zamanı qiymətlərin səviyyəsi; P_2 — məcmu tələbin artması zamanı qiymətlərin səviyyəsidir



Şəkil 4.4. Ümumi tarazlığın keynsçi modeli:
Y_1—ilkin məcmu tələb zamanı ÜMM-in həcmi; Y_2—məcmu tələbin artması zamanı ÜMM-in həcmi; P– qiymətlərin səviyyəsidir


artmasından çəkinmədən istehsalı genişləndirmək olardı. İstehsal güclərinin yüklənməsinin artması qiymət səviyyəsinə toxunmadan milli istehsalın real həcminin və məşğulluğun artmasına aparır.

Məcmu təklif əyrisinin *aralıq parçası* yüksələndir və elə təkrar istehsal vəziyyətini nəzərdə tutur ki, bu zaman milli istehsalın real həcminin artması müəyyən qiymətlər artımı ilə müşayiət olunacaq. Bu, o cümlədən ayrı-ayrı sahələrin qeyri-bərabər inkişafı ilə, məsələn, avtomobil sənayesindən fərqli olaraq kompyuter sahəsinin intensiv inkişafı ilə şərtlənir. Qiymətlərin bir qədər artması ilə istehsalın genişlənməsi bir də onu göstərir ki, istehsal həcminin artırılması üçün köhnə avadanlıq və daha aşağı ixtisaslı işçilər istifadə olunmuşdu. Bazarda daha səmərəli resurslara məhdudiyyətlər olanda daha az məhsuldar resurslardan istifadə tamamilə realdır. Nəticədə məhsul vahidinə xərclər artır və son əmtəə və xidmətlərin qiymətini artırır. Lakin klassik məktəbin nəzərdən keçirdiyi vəziyyətdən fərqli olaraq (məcmu tələb əyrisinin şaquli parçası) istehsalın real həcmi artır.

Müasir iqtisadi nəzəriyyə ondan çıxış edir ki, göstərilən konsepsiyalar gerçəklikdə mümkün olan müxtəlif təkrar istehsal vəziyyətlərini təsvir edirlər. Deməli, məcmu təklif əyrisinin güman edilən üç formasını üç hissədən ibarət bir əyridə birləşdirmək məntiqidir: üfüqi və ya keynsçi; şaquli və ya klassik; aralıq və ya yüksələn (şəkil 4.5).

Məcmu təklif əyrisinin formasının konkretləşdirilməsi zamanı ümumi bazar tarazlığı problemi yeni çalar kəsb edir. Bu tarazlığın əldə olunduğu şərtlər müxtəlif olacaq, çünki məcmu tələbin artmasının nəticələri məcmu təklif əyrisinin yeni tələb əyrisi ilə hansı yerdə kəsişməsindən asılıdır.

Əgər məcmu tələb keyns intervalında dəyişirsə, tələbin artması milli istehsalın real həcminin artmasına səbəb olur, lakin qiymətlərin səviyyəsinə toxunmur. Əgər məcmu tələb klassik kəsikdə artırsa, bu, qiymətlərin artmasına səbəb olur, amma istehsalın real həcmi əvvəlki kimi qalır, çünki o, «tam məşğulluq» zamanı öz hüdudlarından kənara çıxa bil-



Şəkil 4.5. Təklif əyrisinin üç parçası

məz. Əgər məcmu tələb aralıq kəsikdə artırsa, bu, milli istehsalın real həcmini və qiymətlərin səviyyəsini artırır.


Məcmu təklif əyrisinin forması ilə bağlı problemin nəinki nəzəri, həm də böyük praktik əhəmiyyəti var. Müasir Rusiyaya tətbiq etdikdə, bu problemi belə ifadə etmək olar: ölkənin iqtisadi dirçəlişi üçün məcmu tələbi həvəsləndirmək lazımdırmı? 1990-cı illərin Y.Qaydar, B.Fedorov və b. kimi iqtisadçıları və siyasi liderlərinin fikrincə, qiymətlərin inflyasiya artımından qaçmaq üçün tələbi həvəsləndirmək deyil, dondurmaq lazımdır. Bu yanaşma klassik konsepsiyaya əsaslanır və tələbin formalaşmasını istehsal həcminin artımı ilə deyil, inflyasiya ilə əlaqələndirir. Lakin burada dəqiqləşdirilmirdi ki, Rusiyadakı iqtisadi vəziyyət, lap cüzi də olsa, resursların «tam məşğulluğu» modelinə bənzəmirdi. 1997-ci ildə ÜMM-in 1990-cı ildəkinin yalnız 50%-ni, sənaye istehsalı isə 40%-ni təşkil etdiyi şəraitdə Rusiya üçün keynsçi model daha uyğun gələrdi. Bununla bağlı olaraq iqtisadi böhrandan çıxışı məcmu tələb və istehsalın artırılmasının həvəsləndirilməsi ilə əlaqələndirən alim və təsərrüfatçıların yanaşması daha realistik görünür.

Həvəsləndirmə dedikdə iqtisadçılar dövlət tərəfindən məcmu tələbə təsir tədbirlərini başa düşürlər. Beləliklə, təhlilə makroiqtisadi proseslərə dövlət təsiri problemi cəlb edilir. Bu məsələdə də müxtəlif məktəblərə mənsub alimlərin fikirləri prinsipial fərqlidir.


Klassik (və neoklassik) nöqteyi-nəzər ondan ibarətdir ki, bazar iqtisadiyyatının məcmu tələbi və məcmu təklifinin dövlət tənzimləməsinə ehtiyacı yoxdur. Bu mövqe bazar sisteminin özütənzimlənən struktur olması haqqındakı tezisə əsaslanır. Bazar iqtisadiyyatı tənəzzüldən müdafiə olunub, çünki özütənzimlənmə mexanizmi həmişə buraxılan məhsulun həcmini tam məşğulluğa müvafiq olan səviyyəyə çatdırır. Özütənzimlənmə alətləri kimi qiymətlər, əməkhaqqı və faiz dərəcəsi çıxış edirlər ki, onların rəqabət şəraitində artıb-azalması əmtəə, resurs və pul bazarlarında tələb və təklifi bərabərləşdirir və resurslardan tam və rasional istifadə vəziyyətini doğurur.

Ən mühüm resurs bazarlarından biri kimi iş qüvvəsi bazarını nəzərdən keçirək. İqtisadiyyat tam məşğulluq rejimində işlədiyindən, iş qüvvəsi təklifi ölkədə olan əmək resurslarını əks etdirən şaquli düz xətdir (şəkil 4.6).

Fərz edək ki, məcmu tələbin azalması baş vermişdir. Müvafiq olaraq istehsal həcmi və iş qüvvəsinə tələb aşağı düşür. Bu, öz növbəsində işsizliyin yaranmasına və əməyin qiymətinin aşağı düşməsinə aparır. Əməyin qiymətinin daha az olması sahibkarların bir məhsul vahidinə xərclərini azaldır və onlara imkan verir ki, birincisi, əmtəə bazarında qiy-



Şəkil 4.6. Əmək bazarı:
W– real orta əməkhaqqı dərəcəsi;
L– əməyin miqdarı (işçilərin sayı);
AS_L – əməyin məcmu təklifi;
AD_L – əməyə məcmu tələb.



Şəkil 4.7. Əmtəə və xidmətlər bazarı

mətləri aşağı salsınlar (nəticədə real əməkhaqqı əvvəlki kimi qalır) və (və ya) ikincisi, daha çox ucuz işçi qüvvəsi cəlb edib istehsal həcmini və məşğulluq səviyyəsini əvvəlki səviyyəyə qaldırsınlar (güman edilir ki, işsizlər işsizlik şəraitində tamamilə işsiz qalmaqdansa, daha aşağı əməkhaqqına işləməyə razı olarlar). Beləliklə, istehsal həcmi yenidən tam məşğulluğa müvafiq olan əvvəlki səviyyəyə çatır, istehsalın tənəzzülü və işsizlik bazar sisteminin özü tərəfindən dəf edilən qısamüddətli hadisəyə çevrilirlər.

Bu kimi proseslər əmtəə və xidmətlər bazarında da gedir (şəkil 4.7).


Məcmu tələb azaldıqda istehsal həcmi azalır, lakin əməkhaqqının azaldılması hesabına sahibkar özünə zərər yetirmədən əmtəə qiymətlərini aşağı salıb istehsal həcmini yenidən tam məşğulluğa müvafiq olan səviyyəyə qədər qaldıra bilər.

Pul bazarında tarazlıq faiz dərəcəsi hesabına əldə olunur ki, bu da ev təsərrüfatlarının pullarının (yığım) miqdarını və sahibkarlar tərəfindən tələbin kəmiyyətini (investisiyalar) balanslaşdırır (şəkil 4.8).


Əgər əmtələrə tələb azalırsa və yığım artırsa, mövcud faiz dərəcəsində satılmamış əmtəələr qalır. İstehsalçılar istehsalı azaltmağa və qiymətləri aşağı salmağa başlayır. Eyni zamanda faiz dərəcəsi də aşağı düşməyə başlayacaq, çünki investisiyalar üçün maliyyə resurslarına tələb azalacaqdır. Bu vəziyyətdə yığım pulları azalmağa başlayacaq (faiz dərəcəsi aşağı düşür, əmtəələrin qiymətlərinin aşağı olması isə cari istehlakı həvəsləndirir), investisiyalar isə kreditin ucuzlaşması hesabına artır. Nəticədə yeni faiz dərəcəsində ümumi bazar tarazlığı tam məşğulluğa müvafiq olan əvvəlki istehsal həcmi səviyyəsində bərpa olunar.

Klassik (neoklassik) nəzəriyyənin gəldiyi əsas nəticə budur ki, özütənzimlənən bazar iqtisadiyyatında təkrar istehsal proseslərinə dövlətin müdaxiləsi yalnız zərər verə bilər.

Keynsçi nöqteyi-nəzər iqtisadiyyatın klassik modeldəki kimi rəvan inkişaf etmədiyini, əməkhaqqının və faiz dərə-



Şəkil 4.8. Pul bazarı:
S – yığım; I – investisiyalar;
r – faizin uçot dərəcəsi;
q – yığım və investisiyaların həcmi əməyə məcmu tələb.




Şəkil 4.9. Keyns nəzəriyyəsində əmək bazarı:
W – əməkhaqqının real orta dərəcəsi;
L_1 – tam məşğulluğa müvafiq olan əmək təklifi;
(L_2 – L_1) – işsizliyin ölçüləri

cəsinin isə arzu olunan qədər çevik olmadığını nümayiş etdirən empirik verilənlərə əsaslanır. Həqiqətən də, son onilliklər Keynsin əsas nəzəri nəticələrini təsdiqlədilər: istehsalın böhran vəziyyətində azalması zamanı qiymətlərin düşməsi mütləq deyil; qiymətin düşməsi, əgər baş verərsə, avtomatik olaraq iqtisadiyyatı tənəzzüldən çıxarda bilməz; böyük işsizlik şəraitində əvvəlki əməkhaqqı səviyyəsinin saxlanılması və ya hətta artırılması mümkündür; yığım faiz dərəcəsinin dəyişməsindən bir o qədər də asılı olmayıb, sərəncamda olan gəlir funksiyasını yerinə yetirirlər. Keynsin gəldiyi əsas nəticə də öz təsdiqini tapdı: iqtisadiyyatda tarazlığın əldə olunması üçün ÜMM-in mütləq tam məşğulluq səviyyəsinə müvafiq olması vacib deyil. Güclü depressiya dövründə bazar sistemi uzun müddətə böyük işsizlik və istehsal gücündən tam istifadə etməmək səviyyəsində «ilişə» bilər. Resurslardan istifadə baxımından optimal olmasa da, bu da tarazlı vəziyyət olacaq (şəkil 4.9).

Keyns öz təhlilində hər şeydən öncə kollektiv-müqavilə sistemi və rəsmi qanunvericiliklə təsbit olunmuş əməkhaqqının dəyişilməzliyi faktından çıxış edir (şəkil 4.10).

Belə olduqda, məcmu tələbin azalması istehsal həcminin



Şəkil 4.10.İqtisadiyyatın inkişafının keynsçi modeli:
Y_1 - tam məşğulluğa müvafiq olan istehsal həcmi;
Y_2 - azalmış tələb zamanı istehsal həcmi;
P_3 – qiymətlərin inflyasiya səviyyəsi; $E_{1,2,3}$ – tarazlıq nöqtələri

və əməyə tələbin azalması ilə nəticələnəcək. Başqa sözlə, əməkhaqqı azalmayacaq, halbuki işsizlər meydana gələcək.

Bir halda ki, əməkhaqqı dəyişmir və istehsal xərclərinin azalması baş vermir, əmtəə bazarlarında qiymətlərin aşağı düşməsini gözləmək çətindir: təklif (AS) L hərfinin güzgüdə əksi şəklini alacaq. Əməkhaqqının səviyyəsi W-dən aşağı mümkün deyil, çünki o, xərclərlə müəyyənləşir (bax: şəkil 4.10). Yalnız Y_1 nöqtəsində istehsal resurslardan tam istifadə səviyyəsinə çatır ki, bundan sonra təklif əyrisi şaquli olur. Əgər mövcud istehsal həcmində tələbin sonrakı artımı baş verərsə, bu, qiymətlərin inflyasiya artımına gətirib çıxardar. Bu halda tarazlığı E_3 nöqtəsi səciyyələndirəcək.

Lakin mövcud istehsal resursları hüdudlarında iqtisadiyyatın qeyri-optimal nöqtəsində (E_2) tarazlıq yaratmaq üçün qeyri-məhdud imkanları var ki, bu zaman milli istehsalın həcmi tam məşğulluqda olduğundan az olacaq. Buna görə də keynsçilər məcmu tələbin həcminin səviyyəsinin aşağı düşməsini təhlükəli hesab edirlər və məcmu tələbin (və deməli, məcmu istehsal və məşğulluğun) arzu olunan səviyədə dəstəklənməsi məqsədilə dövlət tənzimləməsinin zəruriliyi ideyasını əsaslandırırlar.

Beləliklə, keynsçilərin ümumi tarazlığa doğru hərəkət

prosesinin dərkində böyük xidmətləri olmuşdur. Onların nəzəri yanaşmasının fərqli xüsusiyyəti diqqəti əmək bazarının qeyri-təkmilliyinə və əməyə tələb kəmiyyətinin nemətlərə səmərəli tələbdən asılılığına cəlb etmələrindədir. *Səmərəli tələb* dedikdə, son əmtəə və xidmətlərin alışına planlaşdırılmış xərclərin elə həcmi başa düşülür ki, bu zaman nemətlər, pul və qiymətli kağızlar bazarında birgə tarazlıq əldə olunur. Keynsçi ümumi iqtisadi tarazlığın sabit vəziyyəti dörd makroiqtisadi bazardan üçündə tarazlığın uzlaşması və əmək bazarında işsizliklə səciyyələnir. Belə tarazlığa çatdıqda Valras qanunu pozulur. Buna görə də belə vəziyyət çox vaxt qeyri-Valras ümumi iqtisadi tarazlığı adlanır.

İqtisadi ədəbiyyatda makroiqtisadi tarazlığın iki məşhur şərhi istifadə olunur: bəzən «keynsçi xaç» adlandırılan «milli gəlir – məcmu xərcləri» və «məcmu tələb – məcmu təklif» və ya «AD - AS» (bu modellər haqqında «Makroiqtisadiyyat-2» bölməsində təfsilatı ilə danışılacaq).

Tarazlı və qeyri-tarazlı sistemlər

Makroiqtisadi təhlildə ümumi iqtisadi tarazlıq anlayışı ilə yanaşı tarazlı və qeyri-tarazlı sistemlərin xarakteristikası üçün istifadə olunan dövriyyə tarazlığı anlayışı da işlədilir.

Qapalı iqtisadiyyatın xüsusi sektorunda dövriyyə tarazlığı firmalar və ev təsərrüfatlarının ölkədə yaradılmış son əmtəə və xidmətlərin alışına planlaşdırdıqları real xərclərin istehsal olunmuş milli gəlirin real həcminə tən bərabər olduğu, yəni aşağıdakı bərabərlik yerinə yetirildiyi halda olur:

$$Y = C + I,$$

burada Y – real milli gəlir;

C – ev təsərrüfatlarının planlaşdırılmış istehlak xərcləri;

I – ölkənin sahibkarlıq sektoru tərəfindən planlaşdırılmış xüsusi investisiyalardır.

Planlaşdırılmış xərclər istehsal olunmuş milli gəlirlə

müqayisədə kifayət qədər olmadığı halda firmalar satışda çətinlik çəkərək hazır məhsulu anbarlara yığırlar, yəni əmtəə-maddi ehtiyatlara planlaşdırılmamış investisiyalar etməyə məcburdurlar. Planlaşdırılmış xərclər bazarda təklif olunan son əmtəə və xidmətlərin həcmindən çox olduqda isə firmaların əmtəə-maddi ehtiyatlarının tükənməsi baş verir ki, bu da həmin növ maddi dəyərlərə mənfi investisiyalar adlandırıla bilər. Beləliklə, qeyri-tarazlı iqtisadi sistemlərin tarazlı iqtisadi sistemlərdən fərqi əmtəə-maddi ehtiyatlara planlaşdırılmamış investisiyaların (I_p) olmasındadır. Formallaşdırılmış şəkildə qeyri-tarazlı sistemlərin bu fərqli əlaməti bərabərlik şəklində verilə bilər:

$$Y = C + I + I_p ,$$

burada $(I + I_p)$ – xüsusi investisiyaların ümumi həcmidir.

İqtisadiyyatın tarazlı inkişafını səciyyələndirən göstəricilərin məcmusu *iqtisadi konyunkturanı* əmələ gətirir ki, bura da, artıq qeyd olunduğu kimi, ÜMM, işsizlik səviyyəsi, şəxsi gəlirlər, sənaye məhsulunun həcmi, qiymətlərin səviyyəsi və s. aiddir.

Ümumi tarazlıq nəzəriyyəsinin geniş tətbiq sahəsi var və iqtisadiyyatın səmərəliliyini və ya qeyri-səmərəliliyini təhlil etmək üçün istifadə olunur.

§2. Milli iqtisadiyyatın səmərəliliyi haqqında ümumi təsəvvür

Səmərəlilik hazırda insan fəaliyyətinin əsas xarakteristikalarından biri, iqtisad elminin ən mühüm kateqoriyasıdır.

İqtisadi səmərəlilik haqqında ən sadə təsəvvürü faydalı səmərəni (nəticəni) və xərcləri müqayisə etməklə əldə etmək olar.

Səmərəliliyi artırmaq – səmərə vahidinə xərclərin azaldılmasına nail olmaq (əmtəə vahidi, istehsalın əvvəlki həcmi və s.) və ya «əvvəlki» xərclər (maddi, maliyyə və əmək) səviyyəsində səmərəni artırmaqdır. İstehsalın səmərəliliyinin

artması təsərrüfat işlərinin elə aparılmasını tələb edir ki, bu zaman istehsal obyektinə qoyulmuş, xammala, materiala, yanacaq və enerjiyə, işçilərin əməkhaqqının ödənilməsinə xərclənmiş hər bir manat maksimum xeyir gətirsin, buraxılan hazır məhsulun həcmi sürətlə artsın, amma məhsul vahidinə çəkilən məcmu xərclər azalsın.

Səmərəlilik (efficiency) – nadir amillərin məsrəfi ilə əmtəə və xidmətlər buraxılışı arasındakı nisbətdir. Bu nisbəti fiziki (texnoloji səmərəlilik) və ya dəyər (iqtisadi səmərəlilik) baxımından ölçmək mümkündür.

«Səmərəlilik» dedikdə yalnız bütövlükdə xalq təsərrüfatının və ya ayrılıqda götürülmüş sahənin, müəssisənin bu və ya digər zaman kəsiyi ərzində əldə etdiyi nəticəni başa düşmək düzgün deyil. Bu nəticəni səmərəlilik kimi deyil, səmərə kimi səciyyələndirmək daha düzgün olardı.

Səmərə böyük ola bilər, lakin o böyük məsrəflər hesabına əldə olunmuşsa, səmərəlilik həmin səviyyədə qala və hətta aşağı düşə bilər. Deməli, səmərə və səmərəliliyi fərqləndirmək lazımdır. Səmərəlilik yalnız istehsal göstəricilərinin artmasını deyil, həm də, (bu isə ondan daha az əhəmiyyətli deyil) əldə olunmuş artımın nəyin hesabına (hansı məsrəflər bahasına) əldə olunmasını göstərir. ***Səmərəlilik - mütləq deyil, nisbi kəmiyyətdir.***

Səmərəlilik qiymətləndirmə kateqoriyasıdır, çünki nəticənin qiymətliliyi ilə, məsrəflərin qiymətliliyinin nisbəti ilə əlaqədardır. O, qiymətlər dəyişdikcə dəyişə bilər, buna görə də həmişə mövcud olan səbəb-nəticə əlaqələrindən çıxış edərək bu nəticəyə gəlmək olar ki, istənilən subyektiv üstünlükverimində istənilən dəyişiklik əslində istənilən prosesin səmərəliliyini dəyişə bilər. Bundan başqa, başqa dəyərlər sistemindən çıxış edən insan üçün istənilən hər bir şey qeyri-səmərəli ola bilər, buradan da – bizim səmərəlilik və qeyri-səmərəlilik haqqında anlayışlarımız bizim nəyi dəyərləndirməyimizlə müəyyənləşir.

Səmərəliliyin müxtəlif formalarının təsnifatı

Səmərəlilik çoxsəpkili səciyyə daşıyır. Səmərəliliyin mahiyyəti və təzahür formalarının siyasi-iqtisadi tədqiqi ən müxtəlif əlamət və təzahür formalarının nəzərə alınmasını tələb edir.

Səmərəliliyi iki cəhətdən: təkrar istehsal və bilavasitə istehsal mövqeyindən nəzərdən keçirmək olar. Birinci cəhət istehsal, bölgü, mübadilə və istehlak mərhələlərini özündə birləşdirən bütün təkrar istehsal prosesinin səmərəliliyinin müəyyənləşdirilməsini nəzərdə tutur. Buna görə də ümumi iqtisadi səmərəlilik bütün bu mərhələlərin hamısını əks etdirməlidir. İqtisadiyyatın səmərəliliyini bütövlükdə təkrar istehsalın ayrı-ayrı mərhələlərinin səmərəliliyinin yekunu kimi nəzərdən keçirmək olar. İkinci cəhət – istehsalın səmərəliliyi, adətən, istehsal resurslarından (əmək, maddi, təbii, əsas kapital və s.) istifadə baxımından nəzərdən keçirilir.

İstehsalın iqtisadi səmərəliliyi eyni həcmdə məhsul buraxılışı zamanı elə istehsal amillərinin seçilməsidir ki, bu məsrəfləri minimallaşdırsın.

Mübadilə (bazar) səmərəliliyini «Ekonomiks»də məhsul buraxılışının istehsalçıdan istehlakçıya bölgüsünün səmərəliliyi ilə əlaqələndirirlər. Səmərəli o bölgü hesab olunur ki, bu zaman istehsal olunmuş məhsulun hamısı istehlakçılar arasında elə bölünür ki, onlardan birinin vəziyyətini pisləşdirmədən digərinin vəziyyətini yaxşılaşdırmaq mümkün deyil. Səmərəliliyin belə dərki əhalinin gəlirlərinin (əməkhaqqı, renta, mənfəət, faizlər, transfert ödənişləri və s.) səmərəli bölgüsünü nəzərə almır.

İstehlak səmərəliliyi, adətən, tələbatların ödənilməsi səpkisindən təhlil olunur ki, onların ödənilməsi hazırda Rusiyada o qədər aşağıdır ki, RF-da istehlakın qeyri-səmərəliliyindən danışmaq daha düzgün olardı.

Hazırda Rusiyada **allokativ səmərəlilik** yoxdur, yəni istehsal amillərinin bölgüsü ictimai tələbatlara cavab vermir, qiymətlər isə son həddə xərclərindən yuxarıdır. Bu, Rusiya iqtisadiyyatının inhisarçı və oliqopolik quruluşunun nəticəsidir. Özəlləşdirmə rəqabət mühitini yaxşılaşdırmaqdan çox, dövlət inhisarını (oliqopoliyasını) xüsusiyə çevirdi, təbii inhisarların mövqelərini gücləndirdi.

Bazarın rəqabət strukturu zəif olduğundan **istehsal səmərəliliyi** də müşahidə olunmur, yəni müəssisələr xərclərini minimallaşdırmağa can atmırlar. Buna görədir ki, Rusiyada bazar qiymətləri uzunmüddətli orta istehsal xərclərindən yüksəkdir. Ekspertlərin qiymətləndirməsinə görə, Rusiyada dəmiryol daşımaları tarifləri Kanadadakından yüksəkdir, halbuki Rusiyada xərclər səviyyəsi aşağıdır.

Zaman kəsiyində səmərəliliyi nəzərdən keçirdikdə statik və dinamik səmərəliliyi fərqləndirmək olar. Belə ki, son sistemli iqtisadi islahatdan sonra Rusiyada işsizliyin get-gedə artması, min beş yüzdən artıq iri müəssisənin dayanması, istehsal güclərindən 15-50% istifadə **statik səmərəliliyin** olmamasına, ölkənin istehsal potensialından tam istifadə olunmadığına dəlalət edir. Bu vəziyyəti qrafik şəkildə istehsal imkanları əyrisinin cızdığı sahə daxilində olan nöqtə əks etdirir. **Dinamik səmərəliliyin** olmaması daha təhlükəli tendensiya oldu. Buna səbəb milli resursların kəmiyyət və keyfiyyət itkiləri oldu (fəhlə sinfinin keyfiyyətcə və kəmiyyətcə azalması, ixtisası, peşəkarlığı itirmə, istifadə olunan texnologiyaların primitivləşməsi, işləməyən müəssisələrin sürətlə fiziki aşınması və dağılması). Buna qrafik şərh istehsal imkanları əyrisinin yerini sola dəyişməsi ola bilər.

İctimai istehsalın təşkilinin quruluşundan danışanda (rasional iqtisadiyyat) milli iqtisadiyyatın, onun ayrı-ayrı regionlarının, sahələri, birləşmələri, müəssisələrinin və nəhayət, sex, briqada, qruplarının, həmçinin iqtisadiyyatın müxtəlif sahələrinin ayrı-ayrı işçilərinin səmərəliliyini fərqləndirirlər.

İqtisadiyyatın mikro- və makrosəviyyələrə bölündüyünü nəzərə alaraq, mikroiqtisadi səmərəlilikdən, yəni ayrı-ayrı firmaların və ya istehsalçının və istehlakçının sə-

mərəliliyindən, bir də makroiqtisadi səmərəlilikdən, yəni milli iqtisadiyyatın ümumi iqtisadi səmərəliliyindən danışmaq olar. Rusiya iqtisadiyyatının iqtisadi səmərəliliyinin dəyişməsini makroiqtisadi aqreqatların dəyişməsində izləmək olar. Belə ki, 1990-cı ildə RF-nın ÜDM-i ikiqat, sənaye istehsalı üçdə iki qədər, investisiyalar beş dəfəyə yaxın azalmışdı. 1999-cu ildən başlayaraq ölkədə müsbət meyillər müşahidə olunmağa başladı: iqtisadi artımın müsbət sürəti RF prezidentinin 2010-cu ildə ÜDM-in ikiqat artırılması barədə qoyduğu tapşırığa əməl olunmasına ümid etməyə əsas verir.

Qeyri-rasional idarəetmədən, əsaslandırılmamış təqdimat xərclərindən irəli gələn **X-qeyri-səmərəliliyə** misallar çoxalır: dəbdəbəli ofis binaları ucaldılır, təmtəraqlı təqdimatların sayı-hesabı yoxdur.

Beynəlxalq münasibətlərin quruluşunun nəzərə alınması əsasında milli və beynəlmiləl səmərəliliyi fərqləndirirlər. Müasir şəraitdə xarici iqtisadi əlaqələr və dünya təsərrüfatının səmərəliliyi get-gedə daha çox əhəmiyyət kəsb edir ki, bu da səmərəlilik kateqoriyasını beynəlmiləl kateqoriyaya çevirir.

İqtisadi ədəbiyyatda texniki və iqtisadi səmərəliliklə yanaşı sosial səmərəliliyi də fərqləndirirlər.

Xatırladaq ki, **«texniki səmərəlilik»** məfhumu altında məhsul buraxılışının maksimum səviyyəsinə çatmaq üçün təsbit olunmuş miqdarda resurslardan (natural, fiziki verilənlərdə) istifadə başa düşülür. Bu məfhum resursların müxtəlif dəyərini və müxtəlif məhsulların istehsalından müxtəlif xeyiri nəzərə almağa imkan vermir, çünki yüksək texniki səmərəliliyə malik vacib olmayan əmtəəyə bazarda tələb olacaq.

«İqtisadi səmərəlilik» məfhumu daha geniş anlamda (yalnız istehsal səpkisində deyil) **resursların** iqtisadiyyatda daha səmərəli **yerləşdirilməsi** kimi nəzərdən keçirilir. Belə səmərəlilik müxtəlif bazar üstünlükverimlərini nəzərə alır. Ona görə, yalnız əlavə xərclərdən çox olan əlavə xeyir gətirən hərəkətlər edilir. Buna görə də iqtisadi səmərəlilik fərdi

və sosial qərarların qəbul edilməsinin əsası kimi çıxış edir.


Milli iqtisadiyyatın sosial səmərəliliyi - bir nəfərin belə tələbatlarının ödənilmə səviyyəsini cəmiyyətin digər bir üzvünün vəziyyətini pisləşdirmədən artırmaq mümkün olmayan vəziyyətdir. Belə vəziyyət **Pareto-səmərəlilik** (İtaliya iqtisadçısı V.Paretonun adı ilə) adlanır.

O təklif etmişdi ki, əgər istehsaldakı və ya istehlakdakı hər hansı dəyişikliklər digər kontragentlərin vəziyyətini pisləşdirmədən bazar sistemi iştirakçılarından ən azı birinin rifahını yaxşılaşdırırsa, *ictimai səmərəlilik yaxşılaşır.*

Əgər cəmiyyətdə Paretoya görə bütün yaxşılaşdırmalar həyata keçirilibsə, bu halda «Pareto optimumu» müşahidə olunur: cəmiyyətdə resursların bölgüsündə sosial səmərəliliyə və ümumi bazar tarazlığına çatılıb. ***Pareto optimumu və ya sosial səmərəlilik*** o deməkdir ki, istehsal və ya istehlakdakı sonrakı dəyişikliklər yalnız kiminsə vəziyyətini pisləşdirərək kontragentlərdən birinin vəziyyətini yaxşılaşdıra bilərlər.

Pareto üzrə qrafik optimallıq mümkün faydalılıq əyrisi vasitəsilə şərh oluna bilər (şəkil 4.11).

Fərz edək ki, cəmiyyətdə yalnız iki kontragent var: A və B. Onların istehsaldan (və ya istehlakdan) aldıqları faydalılığı və ya onların rifahını koordinat oxları üzərində qeyd edirik. Əgər cəmiyyətdəki iqtisadi fəaliyyətdən bütün mümkün xeyiri kontragentlərdən biri görürsə, digərinin faydalılığı (rifahı) sıfra bərabər olacaq. Amma A və B nöqtələrinin hətta bu, resursların tamamilə qeyri- bərabər bölgüsünə müvafiq olan ekstremal A və B nöqtələrini sosial səmərəli saymaq olar, çünki onlar Pareto optimumuna müvafiqdir: faydalılığı sıfır olan kontragentin vəziyyətini yalnız bütün xeyiri inhisarlaşdırmış kontragentin vəziyyətini pisləşdirmək hesabına yaxşılaşdırmaq olar. A və B nöqtələrini birləşdirən əyri hər biri cəmiyyət nöqteyi-nəzərindən iqtisadiyyatın optimal (Paretoya görə) və səmərəli vəziyyətini səciyyələndirən nöqtələr məcmusudur. Nöqtələr mümkün faydalılıq əyrisindən solda və koordinat oxlarına yaxın yer-



Şəkil 4.11. Pareto üzrə optimallıq

ləşir və resurslardan natamam istifadəyə və onların qeyri-səmərəli bölgüsünə müvafiqdir. C, D, E nöqtələrinin hər birində Pareto üzrə yaxşılaşdırma həyata keçirmək, yəni hər iki cəmiyyət üzvünün rifahını yaxşılaşdırmaq və ya birinin vəziyyətini pisləşdirmədən digərinin vəziyyətini yaxşılaşdırmaq olar.

İstehsal səmərəliliyi ilə **xərclər səmərəliliyi** (cost effectiveness) anlayışı sıx bağlıdır ki, bu da müəssisə xərcləri sabit olub, göstərilən xidməti maksimallaşdırmağa çalışanda və həmin xidmətlərin həcmini pulla ifadə etmək qeyri-mümkün olanda həmin xərclər həcmində maksimum mümkün olan əmtəə və xidmətlər istehsalına nail olmaqdır (məsələn, Böyük Britaniyanın Dövlət səhiyyə xidməti). Xərclərin səmərəliliyi çox vaxt özü məqsədə çevrilir. Buraxılışın pul dəyərini, eynilə də xərclərin pul dəyərini qiymətləndirmək mümkün olanda isə, «xərclər-fayda» təhlil metodlarından istifadə etmək olar.

İstehsalın səmərəliliyinin artması təsadüfi deyil, qanunauyğun, sabit, təkrarlanan və səbəblə şərtlənən, obyektiv fəaliyyət göstərən prosesdir. Cəmiyyət nə qədər sivil olsa, istehsalın səmərəliliyini artırmaq bir o qədər vacibdir, çünki hədsiz dərəcədə artmış istehsalda ictimai xərclərə qənaətin zəruriliyi anlamı və tələbatı artır; istehsalın məqsədi cəmiyyətin bütün üzvlərinin tələbatının ödənilməsi olur, üstünlük maddi deyil, sosial nəticəyə verilir.

Bütün bunlar söyləməyə imkan verir ki, ictimai istehsalın səmərəliliyinin artırılması ***iqtisadi qanun cizgiləri*** kəsb edir ki, bunu da ***istehsalın artan səmərəlilik qanunu*** adlandırmaq olar.

İstehsalın artan səmərəlilik qanunu – ***meyil-qanundur,*** çünki məcmu ictimai məhsulun səmərəliliyinin artmasına çox vaxt bir-birinə zidd amillər mane olur. İstehsalın səmərəliliyinin ən böyük artımı istehsalın intensiv geniş təkrar istehsalı zamanı əldə olunur ki, bu da cəmiyyətin müasir inkişafı və inkişaf etmiş ölkələrin iqtisadiyyatı üçün səciyyəvidir.

Neoklassik yanaşmadan fərqli olaraq, D.Nortun «iqtisadiyyatın səmərəliliyi zaman ölçməsində» institusional nəzəriyyəsinə əsasən, iqtisadiyyatın səmərəliliyi əsasən cəmiyyət institutlarının rolundan və vaxt amilindən asılıdır. Məsələ burasındadır ki, cəmiyyət institutları səmərəlilik sahəsində əsas yeri tutan cəmiyyətin maraq dairəsini yaradırlar. Vaxt isə insanların öyrədilməsi, təcrübə, iqtisadiyyatın səmərəliliyinin dəyişməsinə təsir edən ideyaların toplanılması prosesi kimi nəzərdən keçirilir.

Səmərəliliyin meyarları və göstəriciləri

Səmərəliliyin düzgün qiymətləndirilməsi və uçotu üçün səmərəliliyin meyarı və göstəricilərinin müəyyənləşdirilməsinin mühüm əhəmiyyəti var. Meyar – qiymətləndirmə ölçüsü, qiymətləndirmənin əsas prinsipidir və hadisənin mahiyyətini əks etdirir. Göstəricilər isə hadisəni rəqəmlərin dili ilə səciyyələndirir, onun kəmiyyət müəyyənliyini göstərirlər.

İqtisadiyyatın səmərəlilik meyarı müxtəlif iqtisadi sistemlərdə müxtəlif cür qiymətləndirilir. Bazar iqtisadiyyatında səmərəlilik konsepsiyası bazarların resursları nə qədər yaxşı yerləşdirməsini qiymətləndirmə meyarı kimi istifadə olunur.

Qlobal, məhsuldar kateqoriya olan səmərəlilik yalnız özündə həm ümumiqtisadi (xalq təsərrüfatı səviyyəsində istifadə olunan), həm də lokal (ayrılıqda götürülmüş istehsalın özəlliyini əks etdirən) və xüsusi göstəriciləri ehtiva edən sistemin köməkliyi ilə hərtərəfli səciyyələndirilə bilər. İqtisadiyyatın bütün sahələrində səmərəliliyin uçotunun proqnozlaşdırılması üçün istifadə oluna bilən mənfəət, rentabellik, fondtutumluluq və s. kimi göstəricilər mühüm yer tutur. Lakin bu göstəricilərdən hər biri səmərəliliyin bir cəhətini səciyyələndirir və bütövlükdə səmərəliliyin səviyyəsi və dinamikasını qiymətləndirmək üçün isifadə oluna bilməz. İstənilən sistem ayrı-ayrı elementlərin vaciblik dərəcəsinə bölgüsünü, tabeliliyini və onlar arasında səbəb-nəticə əlaqələrinin olmasını nəzərdə tutur. Bu, bütövlükdə səmərəlilik göstəriciləri sisteminə də aiddir.

İctimai istehsalın əsas göstəriciləri bunlardır: ictimai əməyin məhsuldarlığı (məcmu ictimai məhsulun maddi istehsal sahəsində çalışanların sayına nisbəti kimi müəyyənləşdirilir), fond verimi (milli gəlirin əsas fondların orta illik dəyərinə və dövriyyə vəsaitlərinə nisbəti), fond tutumu (fond veriminin əksi olan göstərici); ictimai istehsal səmərəsini səciyyələndirən adambaşına düşən milli gəlir, iqtisadi artım sürəti; 1 rublluq ictimai məhsula düşən istehsal və tədavül xərcləri və maddi, maliyyə və əmək məsrəflərinə qənaətdir.

Milli iqtisadiyyatın fəaliyyətinin nəticələrini makroiqtisadi göstəricilərlə səciyyələndirmək olar.

Texniki-iqtisadi səmərəlilik adətən effekt və xərclərin nisbəti kimi müəyyənləşdirilir; bu da əmək məhsuldarlığı, fond verimi, materialın verimi kimi göstəricilərlə ifadə oluna bilər.

Sosial-iqtisadi səmərəlilik istehsalın məqsədi və ona çatılması vasitələrinin nisbəti kimi müəyyənləşdirilir. O, bir tərəfdən həmin sosial sistemin sabitlik dərəcəsini, onun öz zəminində təkrar istehsal imkanlarını, digər tərəfdən isə inkişafını davam etdirmək qabiliyyətini göstərir. Nəticə kimi

ümumi daxili məhsul, məcmu ictimai məhsul və ya milli gəlir götürülür. Yəni bir neçə müxtəlif ölçülər var. Məsrəflər kimi ya məcmu iş vaxtı fondu və ya cəmiyyətin məcmu işçisinin orta siyahı tərkibi götürülür. Bir sıra hallarda məsrəflər kimi yalnız canlı əmək məsrəfinin deyil, həm də kapital, təbii resurslar, yəni iqtisadiyyatdakı bütün məsrəflərin məcmusunu götürmək nəzərdə tutulur. İstənilən halda səmərəlilik göstəricisi ziddiyyətli alınır: yuxarıda, surətdə, əgər milli gəlir və ya son məhsul götürülsə belə, məsrəflərlə ölçülən nəticə, məxrəcdə isə elə həmin məsrəflərin özü, lakin nəticənin əldə olunmasının mənbəyi kimi, olur. Bununla belə, ümumi milli məhsul və ya adambaşına düşən milli gəlir statistik hesabatlarda çox vaxt sosial-iqtisadi səmərəliliyin göstəricisi rolunda çıxış edir.

Bölgünün səmərəliliyini müəyyənləşdirdikdə yalnız nəticəni deyil, həm də məsrəfləri nəzərə almaq lazımdır. Bölgü (satış) məsrəflərinə daşıma, saxlama və idarəetmə xərcləri, bir də topdansatışçının mənfəəti daxildir. Bundan başqa, istehsalçıların məhsula tələbi yaratmaq və saxlamaq üçün ticarət məsrəfləri də (məhsulun reklamı və başqa differensasiya üsullarına məsrəfləri) olur. Ən böyük bölgü səmərəliliyi tədavül xərcləri minimallaşanda, ticarət məsrəfləri isə ümumi bazar tələbinin saxlanılması üçün zəruri olan səviyyədə saxlanıldıqda əldə olunur.

Milli iqtisadiyyatın səmərəliliyinin təhlili zamanı ictimai istehsalın ekstensiv və intensiv yollarla və ya onların uzlaşması ilə genişlənə bilməsi vacibdir. Ekstensiv yol iqtisadi artım amillərinin kəmiyyət dəyişməsini, istehsal sahəsinin genişlənməsini nəzərdə tutur. Bu halda istehsal həcminin artırılması əmək predmetləri, alətləri və iş qüvvəsinin sadəcə artırılması ilə əldə olunur. İstehsalın intensiv inkişaf üsulu ekstensivdən onunla fərqlənir ki, istehsal həcminin artırılması sadəcə olaraq cəmiyyətin məhsuldar qüvvələrinin miqdarca artırılması hesabına deyil, onların keyfiyyətcə təkmilləşməsi, yəni daha səmərəli istehsal vasitələrinin tətbiqi və əldə olan resurslardan daha yaxşı istifadə

hesabına əldə olunur. Elmi-texniki tərəqqinin təsiri altında əmək alətləri və predmetlərinin səmərəliliyi artır, istehsalın təşkilinin yaxşılaşdırılması isə onlardan daha rasional istifadə etməyə imkan verir ki, bu da iş qüvvəsinin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı istehsalın artmasına rəvac verir. İntensiv inkişaf yolu bundan ibarətdir və onun üçün istehsalın səmərəliliyinin yüksəldilməsi səciyyəvidir, çünki bu yolda istehsal nəticələrinin artım sürəti resurs məsrəflərinin artım sürətini üstələməlidir.

Nəticədə milli iqtisadiyyatın səmərəliliyinin artırılmasının, elmi-texniki tərəqqinin sürətləndirilməsi ilə yanaşı, əsas amilləri resursa qənaət, məhsulun keyfiyyətinin yüksəldilməsi, insan kapitalının fəallaşdırılması, təkrar istehsal prosesinin hərtərəfli tarazlığının və proporsionallığının təmin edilməsidir.

Yeni qloballaşma, açıq iqtisadiyyatın formalaşması şəraitində milli iqtisadiyyatın müdafiə olunma səviyyəsinin səmərəliliyi göstəricisi olduqca vacib olur. Sonuncu idxal olunan rəqabətli hazır məhsula qoyulan, lakin yerli istehsalçı üçün zəruri olan eyni cür məhsulların idxal olunan amillərinə tariflərin qoyulması və ya daha aşağı faiz dərəcəsi tətbiq edilməsi vəziyyəti ölkənin hazır məhsul təchizatçılarının real müdafiəsini təmin edir. Məsələn, fərz edək ki, yerli istehsal olan və idxal olunan eyni cür məhsulların qiyməti 100 f.st.-dir. Daha sonra fərz edək ki, yerli istehsal olan məhsulun dəyərinin 50%-ni *ölkə istehsalçısının* əlavə etdiyi və 50%-ni *idxal olunan* xammalın dəyəri təşkil edir. Əgər bu vəziyyətdə idxal olunmuş hazır məhsula 10% vergi qoyulsa, onun qiyməti 110 f.st. olar. Lakin idxal olunan xammala tarif əvvəlki kimi yenə də olmasa, onun qiyməti 50%-ə bərabər olaraq qalacaq. Nəticədə yerli əlavə edilmiş dəyər (və qiymət) 10 f.st. artacaq və özü də bu zaman yerli istehsal olan hazır məhsul idxal olunmuşla müqayisədə rəqabət qabiliyyətini saxlayacaq. Beləliklə, yerli istehsalçılara təqdim olunan səmərəli müdafiə səviyyəsi 20% (yəni 10 f.st. əlavə dəyər: 50 f.st. əvvəl əlavə edilmiş dəyər) təşkil edəcək.

§3. Maksimum iqtisadi səmərəlilik konsepsiyası

Makroiqtisadi səmərəliliyin müəyyənləşdirilməsində bu gün üçün ən çətin olanı səmərəliliyin ən maksimal olacağı nöqtənin tapılmasıdır. Əslində bütün əsas iqtisadi nəzəriyyə məktəbləri iqtisadi optimum haqqında bu və ya digər təsəvvür işləyib hazırlamışlar.

Klassik siyasi iqtisad

Əmək–dəyər nəzəriyyəsindən çıxış edərək göstərir ki, iqtisadiyyatın səmərəliliyinin artırılması hər şeydən əvvəl və əsasən ya istehsalda sərf olunan əməyin kəmiyyətinin artırılması, ya da onun məhsuldarlığının yüksəldilməsi hesabına əldə olunur. Səmərəliliyin Smit konsepsiyası istehsal həcminin, iqtisadi fəaliyyət sahəsinin genişləndirilməsindən ibarətdir ki, bunun da əsas şərti bazarın genişləndirilməsi və əmək bölgüsüdür. İqtisadi sistemin fəaliyyətinin səmərəliliyi tələbatların ödənilmə dərəcəsi ilə səciyyələnir ki, o da istehsal olunan məhsulun fiziki həcmi ilə düz mütənasibdir. Buna görə də iqtisadi səmərəlilik (əslində, səmərə) ÜDM və milli sərvət kimi kateqoriyalarla bərabər tutulur. Milli sərvətin həcmi istehsalda tətbiq edilən əməyin miqdarından asılıdır ki, bu da kapital yığımı və əhali artımı ilə tənzimlənir. Maddi sərvətin artması isə, Smitə görə, məhz iqtisadi optimumun əldə olunmasıdır.

D.Rikardo hesab edir ki, azalan gəlirlilik şəraitində iqtisadi səmərəliliyin və milli sərvətin həqiqi ölçüsü qismində ümumi məhsul deyil, xalis məhsul çıxış edir. Onun məntiqi belədir: kapital yığımı ilə təhrik olunan əhali artımı həyat vasitələri vahidinə nisbətən daha çox əmək sərf edilməsini tələb edən daha pis torpaqların becərilməsinə başlamağı şərtləndirir. Bununla əlaqədar olaraq həmin ərzaqların qiymətləri qalxır, eyni zamanda isə, birincisi, yaxşı torpaqların sahiblərinin aldıqları renta artır, ikincisi isə, işçilərin real əməkhaqqı azalır. Lakin o, yaşayış minimumundan aşağı

düşə bilməz, buna görə də pulla ödənilən nominal əməkhaqqı artmalıdır, bu da öz növbəsində mənfəət normasını aşağı salacaq. Nəticədə əməyin son həddi məhsulu elə səviyyəyə çatacaq ki, əməkhaqqı və renta ödənildikdən sonra kapitalistə mənfəət şəklində artıq heç nə qalmayacaq. Bu həddə kapital yığımı və istehsalın genişləndirilməsinə maraq olmur və bu proseslər dayanır. Buna görə də iqtisadi siyasətin məqsədi istehsal miqyasının deyil, xalis məhsulun həcminin artırılması olmalıdır. İstehsalın genişlənməsi xalis məhsulun artmasına rəvac verdikdə səmərəlidir. D.Rikardoya görə, səmərəlilik optimumu sonrakı yığıma marağın itdiyi müvazinət vəziyyətində əldə olunur, məhz burada məhsul ən çox olur.

Səmərəliliyin marjinalist konsepsiyası

Marjinalistlər klassiklərin tələbatların ödənilmə dərəcəsinin istehsal olunmuş məhsulun fiziki həcminə proporsionallığı barədə müddəanı son həddi faydalılığının azalması haqqındakı müddəa ilə əvəzlədilər və əsas kimi nadirlik prinsipini götürdülər. Onların iqtisadi səmərəlilik konsepsiyası ümumi tarazlıq nəzəriyyəsinin nəticəsi oldu. Ona istehlak əmtəələri bazarında tələb və təklifin tarazlığı nəzəriyyəsinin nəticəsi olan mübadilə səmərəliliyi və ***istehsal amilləri*** bazarında tarazlıq nəzəriyyəsindən irəli gələn istehsalın və ya məhsul buraxılışının maksimallaşdırılması məqsədilə verilmiş resursların bölgüsünün səmərəliliyi daxildir.

Bu nəzəriyyəyə görə, cəmiyyət üçün mübadilə səmərəliliyi aşağıdakı düsturla müəyyənləşdirilir:

$$\Sigma\lambda_i = \Sigma U_i / \Sigma M_i,$$

burada - $\Sigma\lambda_i$ bütün ($i = 1, 2, ..., n$) mübadilə iştirakçılarının son həddi səmərəliliyinin cəmi;

ΣU_i – bütün mübadilə iştirakçılarının son həddi faydalılığının cəmi;

ΣM_i – bütün mübadilə iştirakçılarının təsbit olunmuş gəlirlərinin cəmidir.

Lakin səmərəliliyinin belə qiymətləndirmə metodikası fərdi səmərəliliyin ölçülməsinin çətinliyi və fərdi fayda və ya səmərələrin toplanmasının qeyri-mümkünlüyü ilə bağlıdır. Yaranmış çətinlikdən çıxış yolunu V.Pareto tapdı. O, ingilis iqtisadçısı Frensis Edcuortun (1843-1926) tətbiq etdiyi «fərqsizlik əyriləri» anlayışından istifadə edərək tarazlıq vəziyyəti kimi mübadilənin səmərəliliyinin optimumu formulunu irəli sürdü ki, ona görə fərdlərdən heç biri digər fərdlərin vəziyyətini pisləşdirmədən öz vəziyyətini yaxşılaşdıra (yəni daha yüksəkdə olan fərqsizlik əyrisinə keçə) bilməz (bu barədə daha ətraflı «Mikroiqtisadiyyat» bölməsində bax).

«Pareto optimumu» - rəqabətli tarazlıq şəraitində mübadilənin maksimum səmərəliliyi – mütləq deyil, nisbidir və qiymətlərdən və mübadilə iştirakçılarının gəlirlərinin bölgüsündən asılıdır.

İstehsalın səmərəliliyinin optimumunun dərkində marjinalistlərin «xidməti» bütün istehsal amillərindən gəliri onların son həddi məhsulu ilə izah edən son həddi məhsuldarlığı nəzəriyyəsinin işlənib hazırlanmasında və istehsal amillərinə tələbin istehlak əmtəələrinə tələbdən asılılığının müəyyənləşdirilməsindədir. Son həddi məhsuldarlığı nəzəriyyəsinin banisi İohann Henrix Tünen, istehsal amillərinə tələbin istehlak əmtəələrinə tələbdən asılılığını birinci qeyd edən müəllif isə Jan-Batist Sey hesab olunurlar. Ümumi tarazlıq nəzəriyyəsi göstərilən verilənlərə əsaslanaraq istehsal sahəsində səmərəlilik problemini həll edir. Optimal o vəziyyət hesab olunur ki, bu zaman verilən məhsulun istehsal həcmini artırmaq hər hansı bir məhsulun istehsal həcmini azaltmadan qeyri-mümkün olur. Özü də bu zaman mənfəətin maksimallaşdırılması və xərclərin minimallaşdırılması qaydaları da nəzərə alınır.

Xatırladaq ki, rəqabət bazarlarında mənfəətin maksimallaşdırılması qaydaları göstərir ki, bütün istehsal amillərinin son həddi məhsulları dəyərlə ifadədə onların qiymətinə bərabərdir və ya hər bir resurs onun son həddi məhsulu pulla ifadədə qiymətinə bərabər oluncayadək istifadə olunacaq. Bu

qayda xərclərin minimallaşdırılması qaydasının sonrakı inkişafıdır. Bu qaydaya görə, xərclər hər bir resursa xərclənmiş sonuncu dollar (rubl, marka və s.) eyni çıxış, eyni son hədd məhsulu verdiyi halda minimallaşır.

Neoklassik məktəb

Neoklassik məktəb son hədd təhlili və «əmək» yanaşmasının özünəməxsus sintezidir ki, məhz bu da nəzərdən keçirilən məktəbin adı üçün əsas olmuşdur. İqtisadi səmərə- lilik probleminə gəldikdə isə, onun yeniliyi bazarın fəaliyyətinin ideal prinsiplərinin deyil, real gerçəklikdə onlardan konkret uzaqlaşma hallarının tədqiqindədir.

Neoklassik nəzəriyyənin kompromisli səciyyəli olması onun iqtisadi səmərəlilik anlayışına verdiyi tərifdən aşkar görünür. Onu marjinalistlərlə birgə tələbatların ödənilməsi səpkisindən, yəni faydalılıq konsepsiyasından çıxış edərək nəzərdən keçirən neoklassiklər eyni zamanda öz təhlillərini cəmiyyət həyatının maddi tərəfləri ilə bağlı olan və pulla qiymətləndirilə bilən tələbatlarla məhdudlaşdırırlar.

İqtisadi səmərəlilik nəzəriyyəsinə öz **münaqişələr nəzəriyyəsi** ilə Henri Sicvik əhəmiyyətli töhfə vermişdir. Onun istehsalın səmərəliliyi və bölgünün səmərəliliyi məsələlərini dəqiq ayırması xüsusi və ümumi iqtisadi xeyir, xüsusi və ictimai məhsul arasındakı fərqin olmasını sübut etməyə imkan verdi. Belə fərqin olduğu hər bir konkret halda bütövlükdə cəmiyyət nöqteyi-nəzərindən dövlət müdaxiləsi ilə bağlı xeyir və itkiləri ölçüb-biçmək lazımdır.

Neoklassik müddəaların ən yetkin ifadəçisi A.Marşall göstərirdi ki, uzunmüddətli iqtisadi tarazlıq yalnız bazarı tələb tərəfindən idarə edən tələbatlarla deyil, həm də istehsal xərcləri tərəfindəki amillərlə (yəni təklif tərəfindən) şərtlənir.

Onun səmərəlilik probleminə yanaşmasının xüsusiyyəti ondadır ki, o, tələbatların istehsalın özünün inkişafı ilə şərtlənərək daim inkişaf etdiyi və dəyişdiyini önə çəkərək,

mövcud tələbatlar haqqında şərtlərdən çıxış etməkdən imtina edirdi.

A.Marşallın səmərəlilik nəzəriyyəsinə töhfəsi **istehlakçı artıqlığı nəzəriyyəsi** adlanan nəzəriyyəni işləyib hazırlamasından ibarətdir. Sonuncu alıcının həmin əşyasız qalmaqdansa, ödəməyə hazır olduğu qiymətlə onun həqiqətən ödədiyi qiymət arasındakı fərqdən ibarətdir. A.Marşalla görə, bu artıqlıq səmərəni artırır, çünki «iqtisadi məmnunluğun iqtisadi ölçüsüdür». Milli iqtisadiyyat miqyasında səmərə Rikardonun «xalis məhsulu»na deyil, aşağıdakı şəkildə hesablanan «xalis məcmu artıqlığına» bərabərdir:

$$H - V,$$

burada H – cəmiyyətin tələbatlarının ödənilmə səviyyəsi;

V – onun əldə olunması üçün lazım olan gücdür.

Bütün sərvətin faydalılığını ifadə etmək məqsədilə bütün nemətlərin ümumi faydalılığının cəmlənməsi ilə bağlı çətinliklər A.Marşallı ümumi səmərəliliyin tədqiqini davam etdirməyə sövq etdi. Ən maraqlısı müxtəlif istehlakçı qruplarının uduşları və itkilərinin müqayisəsi metodudur ki, **kompensasiya prinsipi** kimi məlumdur.

Beləliklə, qeyd etmək olar ki, neoklassik məktəb bütövlükdə və o cümlədən A.Marşall ümumi tarazlıqdan çox, ondan konkret uzaqlaşma hallarını tədqiq edirlər. Özü də bu zaman istehsalçının artıqlığı deyil, daha çox istehlakçının artıqlığı öyrənilir, çünki cəmiyyətin əsas hissəsini istehlakçılar təşkil edir və buna görə də iqtisadi səmərəliliyin qiymətləndirilməsində məhz onların maraqları nəzərə alınmalıdır.

A.Piqunun əsərləri neoklassik ənənələrin inkişafının zirvəsi olmaqla müəyyən dərəcədə onlardan uzaqlaşmaqla səciyyələnirlər. Onun tarazlıq anlayışı optimum konsepsiyası ilə müqayisədə xeyli dəqiqləşdirilmişdir. O, istehlakçı və istehsalçı artıqlığı kateqoriyasından imtina edir. O, tarazlıq vəziyyətindən ayrı-ayrı uzaqlaşma hallarını nəzərdən keçirmir, həmin ayrı-ayrı uzaqlaşma hallarını üç qrupdan (icarəçilər və torpaq sahibləri arasında; xüsusi və ictimai maraqlar

arasında; ictimai və xüsusi məhsul arasında fərq) ibarət olan sistem halına salmağa çalışır. A.Piqunun iqtisadi optimumu təsərrüfatın elə vəziyyətini müəyyənləşdirir ki, bu zaman istehsal amillərinin «son həddictimai məhsulları» onun bütün sahələrində eynidirlər. Optimal vəziyyət hər bir sahənin xüsusi və ictimai məhsulunun müvafiq vergiqoyma və subsidiyalarla bərabərləşdirilməsi yolu ilə əldə oluna bilər.

İnstitusional məktəb

Bu məktəb institutların iqtisadiyyatda əsas funksiyasının transaksion xərclərin azaldılması olması müddəasına əsaslanaraq onların fəaliyyətinin səmərəliliyini həmin xərclərin minimallaşdırılmasında görür. İnstitutlar iqtisadiyyatın fəaliyyət göstərməsinin ən əsas amilləri olduğundan institusional tarazlıq konsepsiyası iqtisadiyyatın fəaliyyətinin səmərəliliyini üç səviyyədə: institusional, mikroiqtisadi (klassik və neoklassik məktəblər), makroiqtisadi (keynsçi və neokeynsçi məktəblər) - nəzərdən keçirməyə imkan verir. Keynsçiliyin natamam məşğulluq tarazlığı kimi, neoklassik tam məşğulluğun ümumi iqtisadi tarazlığı da demək olar ki, institusional tarazlığın xüsusi hallarıdır. Onların hamısı birlikdə iqtisadiyyatın optimum səmərəliliyini təmin edirlər. İnstitusional sistemin iqtisadi səmərəliliyi isə institutların tələb və təklifindən, iqtisadi subyektlərin öyrədilmə sürətindən və onların yeni institutlara uyğunlaşmasından, qeyri-formal institutların fəaliyyət göstərməsindən asılıdır.

Keçid iqtisadiyyatının ümumi iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsində sadalanan konseptual yanaşmalardan hansı tətbiq olunmalıdır?

Məlumdur ki, keçid iqtisadiyyatı – elə sistemdir ki, onda bir tərəfdən xeyli qeyri-bazar münasibətlərinə (əsasən müasir əmtəə istehsalı münasibətlərinin artıq inkişafı deyil, yarımçıq inkişafına söykənən), digər tərəfdən isə daha səmərəli, daha mürəkkəb təsərrüfat və sosial-iqtisadi mexanizm-

ləri zəminində yaranan postbazar münasibətlərini görmək olar.

Keçid iqtisadiyyatının tərkib hissələrindən biri kimi bazarın mövcudluğu şəraitində bazara qədərki və postbazar mexanizmlərinin belə birləşməsi, həmçinin iqtisadiyyatın bu təsərrüfat sisteminin ali məqsədi kimi insanın inkişafına yönümlənməsi yuxarıda sadalanmış yanaşmaları birləşdirən səmərəlilik meyarlarını axtarmağa imkan verir. Səmərəliliyin belə yeni birləşdirici ölçülməsinin mahiyyətini real keçid iqtisadiyyatının həmin, əvvəlki totalitar sistemdən yeni sistemə keçid üçün əsas məqsəd olan optimal nöqtəyə yaxınlaşma dərəcəsini əks etdirən göstəricilər sistemi təşkil edə bilər.

Keçid iqtisadiyyatının modelindən asılı olaraq ən səmərəli modelin yaxınlaşmalı olduğu nöqtə müxtəlif cür müəyyənləşdirilə bilər. Bu, bazara doğru nəyin hesabına olursa-olsun irəliləmək modeli ola bilər ki, buna nəzəriyyəçilərin «şok terapiyası» adlandırdıqları geriqayıtmama nöqtəsi də deyirlər, bu zaman monetarist məktəbin təsəvvürlərinə müvafiq olan təsərrüfat mexanizminin (ilk növbədə bazar mexanizminin) və mülkiyyət münasibətlərinin (birinci növbədə xüsusi) yaradılması ali məqsəd olur, cəmiyyətin itkiləri isə minimal olmalıdır.

İnsan üçün iqtisadiyyata yönümlənmə ilə bağlı olan digər bir model də mümkündür. Bu halda optimallıq meyarı həmin keçidin həyata keçirilməsinə xərclərin minimallaşdırılması ilə asudə vaxtın kəmiyyət və quruluşunun təsbit edilməsi (müəyyən normal rifah səviyyəsində) prinsipi əsasında verilə bilər. Təbii ki, cəmiyyətin asudə vaxtının müəyyən həcmi və quruluşu müvafiq sosial-iqtisadi qurum və müvafiq təsərrüfat mexanizmi ilə bağlı olacaq.

Müasir iqtisadi fikirdə ***ictimai inkişafın inteqral səmərəliliyi*** adlanan yeni yanaşma özünə yer alır. Əvvəlki konsepsiyalar hələ də çox vaxt digər dəyərləri əvəz edə biləcək mühüm dəyər kimi nəzərdən keçirilən milli sərvətin artırılmasına, istehsal olunmuş məhsulun bölgüsünün optimal yol-

ları və mexanizmlərinin axtarılmasına, kapital yığımının maksimallaşdırılmasına yönümlənmişdilər. Hazırda çoxları etiraf edir ki, insanın inkişafı yalnız istehsal fəaliyyəti üçün resursların formalaşdırılması, həyat səviyyəsi isə maddi təminatla məhdudlaşmamalıdır. ***Sərvət qanun-qaydanı, sosial sülhü və sosial ədaləti təmin etmir.*** İnsanın inkişaf konsepsiyası insanın inkişafına investisiya qoyuluşu, insanın sağlamlığının möhkəmləndirilməsi, bilik əldə etməsi, peşə vərdişlərinin təkmilləşdirilməsi yolu ilə onun imkanlarının genişləndirilməsi, həmçinin insanların əldə etdikləri bacarıqlardan həm istehsal məqsədləri, həm də mədəni, sosial, siyasi fəaliyyətdə istifadə prosesi kimi nəzərdən keçirir.

İctimai tərəqqinin ***əsas meyarı*** insanın və ətraf mühitin harmonik inkişafı olmalıdır.

Ümumi tarazlıq nəzəriyyəsi yalnız iqtisadiyyatın səmərəliliyinin və ya qeyri-səmərəliliyinin təhlili üçün istifadə olunmur. O, iqtisadiyyat sahəsində siyasətin elmi əsaslarının müəyyənləşdirilməsində mühüm rol oynayır.

Əsas anlayışlar və məfhumlar

Ümumi makroiqtisadi tarazlıq; ideal tarazlıq; real tarazlıq; məcmu tələb; məcmu təklif; tarazlı və qeyri-tarazlı sistemlər; milli iqtisadiyyatın səmərəliliyi; allokativ səmərəlilik; statik səmərəlilik; dinamik səmərəlilik; iqtisadi səmərəlilik; sosial səmərəlilik; «Pareto optimumu»; səmərəlilik meyarı; maksimum səmərəlilik; səmərəliliyin marjinalist konsepsiyası; münaqişələr nəzəriyyəsi; istehlakçı artıqlığı nəzəriyyəsi; kompensasiya prinsipi; inteqral səmərəlilik.

V FƏSİL. MAKROİQTİSADİ TARAZLIĞIN KEYNSÇİ MODELİ: İSTEHLAK, YIĞIM VƏ İNVESTİSİYALAR

§1. İstehlak və yığım.
§2. İstehlaka və yığıma orta və son həddi meyillilik.
§3. İstehlak və yığım qrafiklərinin yerlərinin dəyişməsinə təsir edən amillər.
§4. İnvestisiya xərcləri və investisiya tələbi.
§5. Makroiqtisadi tarazlığın sadə keynsçi modeli.

C.M.Keyns 1936-cı ildə «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» kitabını çap etdirərək, makroiqtisadi hadisələrin təhlilinə tamamilə yeni yanaşmanın əsasını qoydu. Bu fəsildə makroiqtisadi tarazlığın keynsçi modelinin əsas komponentləri: istehlak, yığım və investisiyalar - nəzərdən keçirilir. Keynsçi yanaşmanın mahiyyəti *məcmu xərclərin* (bütün iqtisadi agentlərin milli məhsul almalarına xərcləri) nəzərdən keçirilməsində və onların milli gəlirin kəmiyyəti ilə müqayisə edilməsindədir. İstehlak və investisiyalar məcmu xərclərin ən mühüm komponentləridir. Bu kateqoriyaların öyrənilməsi ilə yalnız keynsçilər məşğul olmurlar, amma məhz onlar bunun banisi olmuşlar. «Makroiqtisadiyyat - 1» kursunda biz əsasən keynsçi yanaşmadan danışacağıq, digər nəzəriyyələrin daha dərindən öyrənilməsi «Makroiqtisadiyyat - 2» kursunda təqdim olunacaq.

Tədqiqata başlamazdan əvvəl keynsçi yanaşmanın əsaslandığı əsas müddəaları göstərmək lazımdır.

1. Makroiqtisadi tarazlığın keynsçi modeli iqtisadiyyatın fəaliyyətini qısamüddətli dövrdə nəzərdən keçirir.

2. Bunun nəticəsi qiymətlərin və əməkhaqqının qeyri-çevikliyidir. Qısamüddətli dövrdə onlar müəyyən səviyyədə təsbit olunur və vəziyyətin təhlili aparılan dövrdə dəyişmirlər.

3. Qısamüddətli dövrdə faiz dərəcəsi də dəyişilməz götürülür. Bu, pul kütləsinin dəyişmələrinin iqtisadiyyata təsirini nəzərə almamağa imkan verir.

§1. İstehlak və yığım

İstehlak (C) nəzərdən keçirilən dövrdə (bir qayda olaraq, bir il) ev təsərrüfatlarının əmtəə və xidmətlər almasına məcmu xərcləridir.

Keynsçi modelində istehlak məcmu xərclərin birinci komponentidir və eyni zamanda, istehlak iqtisadi dövriyyədə axının göstəricisidir, yəni müəyyən zaman kəsiyi üçün (bir il) qiymətləndirilir.

Ev təsərrüfatlarının istehlak xərclərinə *uzunmüddətli istifadə əmtəələrinə* (avtomobil, soyuducu, televizor və s.), *cari istehlak əmtəələrinə* (ərzaq məhsulları, paltar, benzin və s.), bir də *xidmətlərə* (həkim, hüquqşünas, turoperator və s.) çəkilən xərclər daxildir. Ev (mənzil) alınmasına çəkilən xərclərin istehlak kəmiyyətinə deyil, investisiya xərclərinə daxil edilməsinin xüsusi əhəmiyyəti var.

Əhalinin müxtəlif qruplarında xərclərin quruluşu müxtəlifdir: xərclərin qidalanmaya düşən hissəsinin xüsusi çəkisi aztəminatlılarda çox (50%-də 100% -ə qədər), varlılarda isə azdır (20%).

Real həyatda pullarını eyni cür xərcləyən nə ayrı-ayrı adamlar, nə də ailələr var, buna görə də iqtisadi nəzəriyyədə gəlir səviyyələri müxtəlif olan adamların xərclərinin ailə büdcələrinin tədqiqi əsasında qurulmuş ***davranışın keyfiyyət modeli*** adlandırılan orta modelindən istifadə olunur. Bu model alman statistiki Ernst Engelin (1821-1896) adı ilə ***Engel qanunu*** adlanır.

Gəlirlər artdıqca qidalanmaya xərclər mütləq kəmiyyətdə artır, lakin onların xüsusi çəkisi isə azalır. Bu o deməkdeyil ki, daha yaxşı təmin olunmuşlar daha çox yeyir (bunun özünün fiziki hüdudları var), onlar sadəcə olaraq daha yaxşı qidalanır (daha çox ət, balıq, meyvə yeyir), daha keyfiyyətli əmtəə alırlar. Mənzilə, paltara, istirahətə, əyləncələrə az-çox daimi xərclər gəlirlərə nisbətən daha sürətlə artır, onların xüsusi çəkisi çoxalır.

İstehlakın kəmiyyətini müəyyənləşdirən əsas amil milli gəlirdir. Makroiqtisadi tarazlıq nəzərdən keçirildikdə ÜDM, milli gəlir və milli istehsalın həcmi kimi göstəricilər sinonim kimi istifadə olunur, çünki onlar il ərzində iqtisadiyyatda istehsal olunmuş əmtəə və xidmətlərin kəmiyyətini əks etdirirlər. Materialın şərhində daha çox «milli gəlir» (Y) məfhumundan istifadə olunacaq, amma digər məfhumlara da rast gəlinəcək. Sadə ***istehlak funksiyasını*** aşağıdakı kimi vermək olar:

$$C = C_a + cY_d,$$

burada Y_d – sərəncama qalan milli gəlir (vergilər ödəndikdən və transfertlər alınandan sonrakı gəlir);

C_a – muxtar istehlak;

c– istehlaka son hədd meyilliliyi (MPC), $0<c<1$.


Muxtar istehlak ilkin tələbat əmtəələrinə istehlak xərclərinin minimal səviyyəsidir.

Muxtar istehlakın kəmiyyəti milli gəlirin səviyyəsindən asılı deyil. Gəlir səviyyəsinin necə olmasından asılı olmayaraq insanlar yeməli, geyinməli, haradasa yaşamalıdırlar. Başqa sözlə, əgər hər hansı bir ildə milli gəlirin səviyyəsi çox aşağı olursa, fərdlər yenə də onların yaşaması üçün zəruri olan minimum nemətlər dəstini istehlak edirlər. Əgər istehlak kəmiyyəti milli gəlirdən çoxdursa, bu o deməkdir ki, ev təsərrüfatları çatışmayan vəsaiti xaricdən borc alır və ya əvvəl etdikləri yığımdan istifadə edirlər. Bütövlükdə ölkəyə gəldikdə isə, milli gəlirin aşağı səviyyəsində muxtar istehlakın xərclərini ödəmək zərurəti dövlətin xarici borcunun artmasına səbəb olur. Buna misal bir çox inkişaf etməkdə olan ölkələr ola bilər ki, onların XX əsrin 60-70-ci illərində xarici borclarını artırmaları həmin əsrin 80-ci illərinin əvvəllərində ciddi borc böhranı ilə nəticələndi.

İstehlak funksiyasının düsturundan göründüyü kimi, sərəncamda qalan milli gəlir istehlak həcmi üçün həlledicidir. Onun artması amil gəlirlərinin artması və ev təsərrüfatlarının istehlaka yönəldə biləcəyi vəsaitlərin çoxalması deməkdir. Başqa sözlə, milli gəlirin artması istehlakın art-

masına səbəb olur. Qeyd etmək vacibdir ki, bu artım həm istehlak olunan əmtəələrin miqdarının çoxalması, həm də daha keyfiyyətli və deməli, daha bahalı əmtəə və xidmətlərin istehlakı hesabına baş verir. Müxtəlif ölkələrdiki istehlakın quruluşunu müqayisə etsək, görərik ki, inkişaf etmiş ölkələrdə uzunmüddətli istifadə əmtəələrinin və «zinət əmtəələri»nin payı inkişaf etməkdə olan ölkələrdəkindən daha böyükdür.

Şəkil 5.1-də istehlak funksiyasının qrafiki verilmişdir.



Şəkil 5.1. İstehlak funksiyasının qrafiki

İstehlak, yığım, məcmu xərcləri və b. kəmiyyətlərin hesablanmasında ilk dəfə keynsçilər tərəfindən tətbiq olunmuş xüsusi yanaşmadan istifadə etmək çox əlverişlidir. Onun mahiyyəti ondadır ki, əsas qrafiklə yanaşı, məsələn, istehlak qrafiki, 45° bucaq altında yardımçı xətt çəkilir. Onun xüsusiyyəti ondadır ki, həmin xətt üzərindəki nöqtələr üfüqi və şaquli xətlər üzərində qeyd olunan bütün parametrlərin bərabərliyini əks etdirir. Məsələn, üfüqi xəttə milli gəlirin kəmiyyəti, şaqulidə isə istehlakın kəmiyyəti qeyd olunur. 45° bucaq altındakı xətt üzərindəki bütün nöqtələr milli gəlirin göstəricisinin ölkədəki istehlakın kəmiyyətinə bərabər olmasını bildirir. Amma bu yalnız yardımçı xətdir. Real istehlak xətti daha az mailidir (qrafikdə o C xətti kimi göstərilmiş-

dir). Buna görə də milli gəlirin yalnız bir qiymətində (Y_0) - C xətti yardımçı xətlə kəsişən yerdə – ölkənin sərəncamında olan gəlirinin hamısı istehlak olunur. Y_0 kəmiyyətini astana gəliri adlandırırlar.

Astana gəliri - milli gəlirin yığım olmayan və bütün milli gəlirin istehlak olunduğu kəmiyyətidir.

Əgər milli gəlirin kəmiyyəti, məsələn, Y_1 –dən azdırsa, onda ölkə borca yaşayır, çünki onun öz gəliri arzu olunan istehlak səviyyəsini ödəməyə bəs eləmir. Gəlir Y_2 –dən çox olarsa, onun istifadə olunmayan hissəsi yığıma gedir.

Ev təsərrüfatları bütün əldə olunmuş vəsaitləri əmtəə və xidmətlər alışına xərcləsəydilər, firmalar isə məhsul satışından əldə olunmuş gəliri amil gəlirləri kimi ödəsəydilər, onda gəlirlərin və xərclərin yalnız daxili dövriyyəsi olardı. Əslində isə ev təsərrüfatları sərəncamda olan gəlirin hamısını deyil, yalnız bir hissəsini xərcləyirlər. Gəlirin qalan hissəsi yığım şəklində maliyyə (bank) bölməsinə daxil olur. Firmalar isə bank bölməsindən investisiyalar cəlb edə bilərlər.

Yığım (S) sərəncamda qalan milli gəlirin ev təsərrüfatlarının istehlak üçün istifadə etmədiyi və onların sərvətlərinin artımı olan hissəsidir.

Yığım kəmiyyəti də ehtiyatın deyil, axının göstəricisidir, çünki müəyyən vaxt müddəti üçün (bir il) hesablanır.

Diqqət verin ki, ev təsərrüfatları bank bölməsindən pul borc götürərlərsə, yığımın kəmiyyəti mənfi olacaq. Beləliklə, iqtisadiyyatdakı yığımın ümumi göstəricisi ev təsərrüfatlarının məcmu yığımının (müsbətlə qeyd olunur) və məcmu borc almalarının (mənfi ilə qeyd olunur) nə qədər olmasından asılıdır.

Sərəncamda olan milli gəlir (Y_d) ya istehlak oluna ya da saxlanıla bildiyindən, yığımın funksiyası (S) sərəncamda olan gəlirdən istehlakın kəmiyyətinin (C) çıxılması yolu ilə alına bilər:


$$S = Y_d - C.$$

Yəni **yığımın funksiyasını** aşağıdakı kimi göstərmək olar:

$$S = -C_a + sY_d,$$

burada s – yığıma son hədd meyilliliyidir (MPS).

Yığımın funksiyasının qrafiki şəkil 5.2-də verilmişdir.



Şəkil 5.2. Yığımın funksiyasının qrafiki

S xətti milli gəlirin müxtəlif səviyyələrindəki yığımın kəmiyyətini əks etdirir. Şəkil 5.2-dən göründüyü kimi, milli gəlir Y_0 –a bərabər olduqda, gəlirin hamısı istehlak olunur, yəni yığım sıfra bərabərdir. Milli gəlir artırsa, yığım da artır. Belə ki, milli gəlirin Y_2 kəmiyyəti üçün yığım kəmiyyəti müsbətdir və şəkil 5.1-dəki yardımçı xətt (bissektrisa) və istehlak xətti arasındakı şaquli məsafəyə müvafiqdir.Yox, əgər milli gəlirin həcmi azdırsa (məsələn, Y_1), onda yığım mənfi olur, yəni ölkə borca yaşayır. Milli gəlirin sıfra bərabər olduğu ən əlverişsiz halda ölkə muxtar istehlak həcminə bərabər borc almağa məcburdur.

Rəqəmlərdən misallar gətirək. Cədvəl 5.1-in 1, 2 və 5-ci sütunlarında sərəncamda olan, istehlak edilən gəlirlərin və yığımın göstəriciləri verilmişdir.

Cədvəl 5.1-dən göründüyü kimi, istehlak və yığımın cəmi sərəncamda olan gəliri əmələ gətirir. Muxtar istehlakın həcmi 80 mlrd. rubl təşkil edir. Astana gəliri 400 mlrd. rubla bərabər olan milli gəlirdir.

Cədvəl 5.1

Sərəncamda olan milli gəlir, mlrd. rublla (Y)	İstehlak, mlrd. rublla (C)	APC	MPC	Yığım, mlrd. rublla (S)	APS	MPS
1	2	3	4	5	6	7
0	80	-	-	-80	-	-
200	240	1,20	0,8	-40	-0,20	0,2
400	400	1,00	0,8	0	0,00	0,2
600	560	0,93	0,8	40	0,07	0,2
800	720	0,90	0,8	80	0,10	0,2
1000	880	0,88	0,8	120	0,12	0,2

§2 İstehlaka və yığıma orta və son hədd meyillilik

Makroiqtisadi istehlak və yığımın göstəricilərinin daha dolğun öyrənilməsi üçün onların ən mühüm xarakteristikaları - orta və son hədd meyilliliklər üzərində dayanmaq lazımdır.

İstehlaka orta meyillilik (APC) milli gəlirdə istehlakın payını göstərir:

$$APC = \frac{C}{Y},$$

Məsələn, APC = 0,7 olarsa, bu o deməkdir ki, milli gəlirin 70%-i istehlak olunur.

Yığıma orta meyillilik (APS) milli gəlirdə yığımın payını göstərir.

$$APS = \frac{S}{Y}.$$

Məsələn, APS = 0,2 olarsa, bu o deməkdir ki, milli gəlirin 20% -i yığılır.

Cədvəl 5.1-in 3 və 6-cı sütunlarında istehlaka və yığıma meyilliliyin orta göstəriciləri verilmişdir.

Bu fəsildə nəzərdən keçirilən sadə keynsçi modeldə (dövlət və xarici bölmənin iştirakı olmadan) istehlak və yığıma orta meyilliliklərinin cəmi birə bərabər olur:

$$APS + APC = 1.$$

Şəkil 5.1 və 5.2-dən göründüyü kimi, milli gəlir artdıqca, istehlak və yığımın kəmiyyəti artır. Milli gəlir nə qədər çox olsa, ev təsərrüfatarının müxtəlif əmtəə və xidmətləri istehlak etmək imkanları bir o qədər geniş olur. İstehlak kəmiyyəti milli gəlirdən daha ləng artır (istehlaka orta meyillilik azalır). Yığım isə, əksinə, gəlirdən daha sürətlə artır (yığıma orta meyillilik çoxalır).

Həqiqətən də, ölkədə gəlirin səviyyəsi aşağıdırsa, fərdin əsas məqsədi ilkin tələbatlarını ödəmək və vəsaitlərini ərzaq məhsullarına, paltara və s. xərcləmək olur. Gəlir artdıqca ev təsərrüfatları daha çox rəngarəng və yüksək keyfiyyətli əmtəə istehlak edə bilir. İlkin tələbatlar ödəndikdən sonra fərdlər daha bahalı əmtəələr almaq və ya əvvəl ala bilmədikləri əmtəələri almaq barədə düşünürlər. Onlar vəsaitlərinin bir qismini iri alışlar etmək məqsədiylə yığırlar. Fərdlər nə qədər varlı olsalar, gəlirlərinin bir o qədər az hissəsini istehlak edirlər. Bu müddəa bütövlükdə bütün ölkə üçün doğrudur. Varlı ölkələrin vətəndaşları kasıb ölkələrin vətəndaşlarına nisbətən daha çox vəsait toplayırlar. Bu qanunauyğunluğa ilk dəfə C.M.Keyns diqqət yetirmiş və onu əsas **psixoloji qanun adlandırmışdı.**

Əsas psixoloji qanuna görə, iqtisadiyyat yüksəldikcə, milli gəlirin get-gedə daha az hissəsi istehlak olunur və get-gedə daha çox hissəsi yığılır. Bu proses yığım vəsaitlərinin istifadə olunması məsələsini qoyur. Keynsə qədər hesab edilirdi ki, yığımlar avtomatik olaraq investisiyalara çevrilir və bu kəmiyyətlər eynilik səviyyəsində bərabərdirlər. Bundan əlavə, neoklassiklər deyirdilər ki, yığımın yüksək səviyyəsi iqtisadi artımın mühüm şərtidir, çünki o, müəssisələri investisiya resursları ilə təmin edir. Lakin C.M.Keyns

göstərdi ki, yığımın artımı istehsalın ümumi həcminə və məşğulluğa neqativ təsirinə görə ziyanlı ola bilər. İstehlak artımının sürətinin azalması məcmu tələbin daha ləng artması deməkdir, bu da sahibkarların məhsul yaratmaq və əlavə investisiyalar qoymaq istiqamətində maraqlarına mənfi təsir göstərir. Belə vəziyyəti Keyns «qənaətcillik paradoksu» adlandırmışdı ki, bu da o deməkdir ki, yığımın artması iqtisadiyyatın inkişafına deyil, artıq istehsal böhranına və tənəz- zülə səbəb ola bilər. Bu vəziyyət investisiyaları və yığımı ayrı-ayrı iqtisadi subyektlərin - firma və ev təsərrüfatlarının etməsi nəticəsində meydana gəlir. Keyns göstərdi ki, yığım və investisiyaların kəmiyyətlərinin üst-üstə düşməsinə heç bir obyektiv zərurət yoxdur. Ev təsərrüfatları sərəncamlarında olan gəlirdən çıxış edərək yığım edirlər, firmaların qərarları isə tamamilə başqa səbəblərlə birinci növbədə daha çox mənfəət əldə etmək istəyi ilə şərtlənir. Firmaların investisiya qərarları aşağıda daha təfsilatı ilə nəzərdən keçirilir.

İstehlaka son həddmeyilliliyi (MPC) milli gəlirin bir vahid artdığı təqdirdə istehlakın nə qədər artacağını göstərir:

$$MPC = \frac{\Delta C}{\Delta Y}$$

Məsələn, MPC = 0,8-dirsə, bu o deməkdir ki, milli gəlirin 1 rubl artması istehlakın 0,8 rubl artmasına səbəb olacaq.

Əgər milli gəlir və istehlak kəmiyyətinin dəyişməsi xeyli azdırsa, onda istehlaka son həddmeyilliliyi istehlak funksiyasının törəməsi kimi müəyyənləşdirilə bilər:

$$MPC = C'$$

Əvvəlki paraqrafda nəzərdən keçirilmiş istehlak funksiyası üçün:

$$MPC = \left(C_a + cY_d\right)' = 0 + c = c, \; yəni \;\; MPC = c.$$

Yığıma son həddmeyilliliyi (MPS) milli gəlirin bir vahid artdığı təqdirdə yığımın nə qədər artacağını göstərir.

$$MPS = \frac{\Delta S}{\Delta Y}.$$

Məsələn, MPS = 0,15 olarsa, bu o deməkdir ki, milli gəlirin 1 rubl artması yığımın 0,15 rubl artmasına səbəb olacaq.

İstehlaka son həddmeyilliliyində olduğu kimi, əgər milli gəlir və yığım kəmiyyətinin dəyişməsi xeyli azdırsa, onda yığıma son həddmeyilliliyi yığım funksiyasının törəməsi kimi müəyyənləşdirilə bilər:

$$MPS = S'.$$

Əvvəlki paraqrafda nəzərdən keçirilmiş yığım funksiyası üçün:

$$MPS = S = 1 - C$$

Sadə keynsçi modelində istehlaka və yığıma son həddmeyilliliklərinin cəmi birə bərabərdir.

$$MPC + MPS = 1.$$

Son həddmeyillilikləri istehlak və yığım funksiyalarının çox mühüm xarakteristikalarıdır. *İstehlaka son həddmeyilliliyini* istehlak qrafikinin əyilmə bucağının tangensi göstərir: MPC nə qədər az olsa, istehlak xətti bir o qədər az maili olar. *Yığıma son həddmeyilliliyini* yığım qrafikinin əyilmə bucağının tangensi göstərir: MPS nə qədər çox olsa, istehlak xətti bir o qədər çox maili olar.

Cədvəl 5.1-in 4 və 7-ci sütunlarından göründüyü kimi, istehlaka və yığıma son həddmeyilliliklərinin kəmiyyəti milli gəlirin artması və ya azalması zamanı dəyişmir. Bunun nəticəsidir ki, funksiyaların qrafikləri düz xətlə verilir (bax şəkil 5.1 və 5.2). Ümumi halda istehlaka (müvafiq olaraq həm də yığıma) son həddmeyilliliyi dəyişə bilər. Məsələn, milli gəlir artdıqca onun get-gedə daha az hissəsi istehlak olunur, daha çox hissəsi yığıma gedir, çünki Keynsin əsas psixoloji qanunu qüvvədə olur. Eyni dəlillərdən gəlir artımının nəzərdən keçirilməsində istifadə etmək olar. Varlı ölkələrdə kasıb ölkələrə nisbətən sərəncamda olan gəlirin daha çox hissəsi yığıma gedəcək, çünki gəlir artdıqca istehlaka son həddmeyilliliyi azala, yığıma son həddmeyilliliyi isə arta bilər. Bu halda istehlak və yığım qrafikləri artıq düz

xətt olmayacaq.

Lakin bundan sonra biz materialın verilməsində sadəliyi saxlamaq məqsədilə istehlaka və yığıma son həddmeyilliliklərini milli gəlirin istənilən səviyyəsi üçün eyni olan sabit kəmiyyətlər kimi nəzərdən keçirəcəyik.

§3. İstehlak və yığım qrafiklərinin yerlərinin dəyişməsinə təsir edən amillər


Şəkil 5.1 və 5.2-də istehlak və yığım kəmiyyətlərinin milli gəlirdən asılılığı verilmişdir. Onlar gəlirin müxtəlif səviyyəsində bu göstəricilərin çoxsaylı mümkün qiymətlərini əks etdirirlər. Lakin hər il ölkədə yalnız müəyyən həcmdə ÜDM istehsal olunur və istehlak və yığımın da qiyməti birdir. O biri ildə ölkədə milli gəlir artar və ya azalarsa, onda istehlakın və yığımın həcmi də artar və ya azalar. Qrafikin üzərində yeni nöqtə meydana gələr, lakin qrafik öz vəziyyətini dəyişməz. Qrafiklər *boyunca* hərəkət baş verər.

Amma istehlak və yığım qrafikləri öz ilkin səviyyələrinə nisbətən *yerlərini dəyişə* bilirlər. Belə ki, müəyyən parametrlər dəyişərsə, onda milli gəlirin həmin səviyyəsində istehlak və yığım ilkin səviyyədən çox və ya az ola bilirlər.

Qrafikin yerdəyişməsinə aşağıdakı amillər təsir edirlər:

- ev təsərrüfatlarının yığılmış sərvətlərinin dəyəri;
- qiymətlərin səviyyəsi;
- gələcək qiymət və gəlirlərin gözlənilməsi;
- istehlakçı borcu;
- vergiqoyma və transfert ödənişləri.

Deyək ki, milli gəlirin dəyişilməzliyi şəraitində fərdlərin sərvəti artır. Məsələn, fond bazarında səhmlər və istiqrazların kursu qalxıb. Bu halda fərdlər eyni miqdarda səhm və istiqraza malik olsalar da, onların sərəncamındakı «sərvət» daha çoxdur. Onlar öz yığımlarına xələl gətirmədən istehlakı artıra bilərlər. İstehlak qrafiki yerini C_0 vəziyyətindən C_1 vəziyyətinə yuxarı dəyişəcək (şəkil 5.3).



Şəkil 5.3. İstehlak və yığım qrafiklərinin yerdəyişməsi

Başqa bir misal. Fərz edək ki, bəzi fərdlər yaxın gələcəkdə gəlirlərinin artmasını gözləyirlər. Bu halda onlar hazırda öz istehlaklarını, məsələn, kredit hesabına artıra və gəlirləri artdıqdan sonra onu ödəyə bilərlər. İstehlak xətti yuxarı dəyişilir. Yeri gəlmişkən, yüksək istehlakçı borcu, əksinə, istehlakı azalda bilər, çünki fərdlər aldıqları gəliri istehlaka deyil, borcların ödənilməsinə xərcləyirlər.

Qiymətlərin dəyişməsi kimi amili ayrıca qeyd etmək lazımdır. Fəslin əvvəlində biz qiymətin sabit olmasını fərz etdik, qısa dövr üçün bu doğrudur. Bir neçə ay ərzində qiymətlər az dəyişir. Lakin daha uzunmüddətli dövr nəzərdən keçirilərsə, yuxarıdakı mülahizələr bütövlükdə doğru olsa da, qiymətlərin dəyişməsini nəzərə almamaq mümkün deyil. Ölkədə qiymətlərin səviyyəsi qalxdıqda fərdlərin malik olduqları vəsaitlər dəyərdən düşür və onlar daha az əmtəə və xidmətlər istehlak edə bilirlər. Şəkil 5.3, *a*-da istehlak qrafiki C_0 vəziyyətindən C_2 vəziyyətinə dəyişilir. Qiymətlərin səviyyəsi dəyişdikdə vəziyyət bunun əksi olur.

Yuxarıda sadalanmış amillər ev təsərrüfatlarının yığımına da təsir edirlər, özü də təsir istiqamətinin istehlakın dəyişmə istiqamətinin əksi olması vacib deyil. Belə ki, gəlir vergisinin artırılması həm istehlakı, həm yığımı azaldacaq (şəkil 5.3, *b*-də istehlak qrafiki S_0 vəziyyətindən yerini S_2 vəziyyətinə dəyişir). Qiymətlərin gələcəkdə azalmasını gözləmək istehlakın azalmasına və yığımın artmasına və b.k. səbəb ola bilər.

Yadda saxlamaq lazımdır ki, nəzərdən keçirilən amillərin dəyişməsi istehlak və yığım qrafiklərinin yerini dəyişir; milli gəlirin dəyişməsi isə qrafik üzərində nöqtələrin yerini dəyişir, qrafikin özünün vəziyyətini isə dəyişmir.

§4. İnvestisiya xərcləri və investisiya tələbi

İqtisadiyyatda məcmu xərclərinin ikinci komponenti investisiyalar və ya firmaların investisiya xərcləridir.

İnvestisiyalar (I) – firmaların gələcəkdə məhsul istehsalını artırmaq məqsədilə cari istehlakı məhdudlaşdıran kapital nemətləri alışına xərcləridir. Cari istehlak dedikdə həmin ildəki istehlakın həcmi başa düşülür.

Firmalar maşınlar, avadanlıq, texnoloji xətlər və məhsul istehsalı üçün lazım olan digər şeylər almağı planlaşdırdıqlarından, həmin vəsait əmtəə və xidmətlər alınmasına, yəni istehlaka yönəldilə bilməz. Lakin istehlak imkanlarının belə məhdudlaşdırılması iqtisadiyyat üçün pis deyil, çünki istehsal gücünün artması gələcəkdə daha çox məhsul istehsal etməyə və istehlakı artırmağa imkan verir.

İnvestisiyalardan söhbət getdikdə, firmaların **real kapitala**, yəni bina və qurğulara, maşın və avadanlığa, kompyuterlərə və s. vəsait qoyuluşu başa düşülür. İqtisadi nəzəriyyədə investisiyalara həmçinin firmaların ehtiyatlarının artırılması da aid edilir, çünki sonradan onlar satılacaq və firmaya gəlir gətirəcək. İnvestisiyaların əsas növlərinə makroiqtisadiyyatda aşağıdakıları aid edirlər:

- istehsal investisiyaları;
- əmtəə-maddi ehtiyatlara investisiyalar;
- mənzil tikintisinə investisiyalar.

İqtisadiyyat dirçəlişdə olduqda, istehsalı artırmaq üçün əmtəə-maddi dəyərlərə investisiyalar artır. İqtisadiyyatda tənəzzüldürsə, hazır məhsul ehtiyatları artır, tələb azalır, istehsal genişlənmir. Deməli, investisiyalar iqtisadiyyatın

vəziyyətinin barometri rolunu oynayırlar.

Həmçinin investisiyaların bu növləri də fərqləndirilir: istehsala qoyulmuş və sabit qiymətlərdə götürülmüş real (birbaşa) və səhmlərə və başqa qiymətli kağızlara qoyulmuş portfel (maliyyə). Firmanın qiymətli kağızlar almasını hesab etməmək daha doğru olar, çünki bu halda firmalar zəruri resursları maliyyə sektorundan alırlar, lakin investisiya layihəsi kapital əmtəələri alışına yönəldilib. Maliyyə (portfel) qoyuluşları istehsalın genişləndirilməsinin əlavə mənbəyi və birja oyunları predmeti də ola bilirlər.

Qeyd etmək lazımdır ki, investisiya layihələri bir qayda olaraq, uzunmüddətli olur: vəsait qoyuluşu layihənin həyata keçirilməsinin (yeni sex tikintisi, dəzgah alınması və s.) ilkin mərhələsində həyata keçirilir, layihədən qazancı isə firma yeni dəzgahın, texnoloji xəttin, tikilmiş sexin və s. köməkliyi ilə məhsul istehsal olunanda və firma mənfəət əldə edəndə götürür. Firma kapitaldan qazancı o köhnələnə və yenisi ilə əvəz olunmalı olana qədər götürür.

Makroiqtisadiyyatdan danışandı, qeyd etmək lazımdır ki, investisiya xərcləri yalnız ayrılıqda götürülmüş firmanın deyil, bütövlükdə iqtisadiyyatın inkişafında böyük rol oynayırlar. Onlar firmalara istehsal gücünü artırmağa, yeni məhsulun istehsalına keçməyə, elmi-texniki tərəqqinin nailiyyətlərini s. tətbiq etməyə və bununla da milli gəlirin və ÜDM-in həcmini artırmağa imkan verir.

Xatırladaq ki, iqtisadi nəzəriyyədə *investisiyaların* aşağıdakı *növləri* fərqləndirilir:

1. Ümumi və xalis investisiyalar.

İnvestisiyaların birinci təsnifatı firmanın kapital ehtiyatındakı dəyişikliklərin təhlilinə əsaslanır.

Xalis investisiyalar yeni avadanlığın alınması, yeni sexin tikilməsi, yeni texnoloji xəttin quraşdırılması və işə salınması və sairdən ibarətdir.

Bütün sadalanmış misallarda əsas söz *yeni* sözüdür. Yeni layihələr həyata keçirilir, firmalar kapital ehtiyatını və daha böyük həcmdə məhsul istehsal etmək imkanını artırır.

Digər tərəfdən, artıq mövcud olan tikililər, maşınlar və avadanlıqlar əbədi mövcud ola bilməzlər: vaxt keçdikcə onlar aşınır və köhnəlirlər. Hər kapital növünün özünün xidmət müddəti var. Məsələn, bina üçün bu 20-50 il və ya başqa bir müddət, maşınlar və dəzgahlar üçün – 5-8 il və s. ola bilər. Mütləq qeyd etmək lazımdır ki, köhnəlmə yalnız fiziki deyil, həm də mənəvi ola bilir. Məsələn, kompyuter texnologiyaları çox tez qocalırlar və firmalar yaxşı vəziyyətdə olan maşınları onların proqram təminatlarının artıq informasiya sistemlərinin inkişaf səviyyəsinə uyğun gəlmədiyinə görə dəyişməli olurlar.

Aradan çıxan kapitalın əvəzlənməsinə amortizasiya deyirlər.

Firmalar hər il öz kapitallarının müəyyən hissəsini amortizasiya fonduna keçirirlər ki, istifadə müddəti bitdikdən sonra aradan çıxan avadanlığın əvəzinə yenisini ala bilsinlər. Bu halda firmanın kapitalının miqdarı artmır: sadəcə olaraq bir dəzgah və ya maşın başqası ilə əvəz olunur.

Firmanın hər il kapital alınmasına yönəltdiyi ümumi xərclərinə ümumi investisiyalar deyirlər.

Ümumi investisiyalar (I_g) xalis investisiyalarla (I_n) amortizasiyanın kapitalının (d) cəmidir:

$$I_g = I_n + d$$

Beləliklə, ümumi investisiyalar hesabına firma kapital ehtiyatını (xalis kapital) artırır və aradan çıxan vahidləri (amortizasiya) əvəzləyir .


2.Muxtar və məcburi investisiyalar.

İnvestisiyaların təsnifatının ikinci meyarı milli gəlirin firmanın yeni kapitala ehtiyacı ilə əlaqəsinə əsaslanır.

Deyək ki, hansısa firmanın tədqiqatlar və yeniliklər şöbəsi yeni məhsul növü yaradıb və firma onun istehsalına başlamaq istəyir.Bunun üçün sex binası tikmək, avadanlıq almaq və s., yəni investisiya etmək lazımdır. Belə investisiya muxtar investisiya adlanacaq, çünki onun həyata keçirilməsi ilə bağlı qərar iqtisadiyyatın cari vəziyyətindən, o cümlədən milli gəlirin kəmiyyətindən (Y) asılı deyil.

Muxtar investisiyalar həcmi milli gəlirin həcmindən asılı olmayan (muxtar) investisiyalardır.

Belə investisiyanın qrafiki şəkil 5.4-də verilmişdir.



Şəkil 5.4. Muxtar investisiyalar

Fərz edək ki, yeni məhsulun təklifi həmin firmanın işçilərinin gəlirlərinin artmasına səbəb olub, resurs təminatçıları və firmanın özünün mənfəətlərini artırıb və müvafiq olaraq ÜMM-in və məcmu tələbin artmasına rəvac verib. Bu halda məhsulun artan həcminin istehsalını həyata keçirmək üçün firmaya daha çox kapital lazım olur və o, yeni investisiyalar həyata keçirir. Belə investisiyalara məcburi investisiyalar deyirlər. ÜMM-in artması firmanın kapital ehtiyatının artırılmasına səbəb oldu.

Məcburi investisiyalar – zəruriliyinə milli gəlirin artması səbəb olan investisiyalardır.

Əvvəlki təsnifatla müqayisə apardıqda demək olar ki, muxtar investisiyalar həm xalis ola bilər, həm də aradan çıxan kapitalın əvəzlənməsi məqsədilə həyata keçirilə bilər. Məcburi investisiyalar yalnız xalis investisiyalara aiddirlər.

Misala müraciət edək. Fərz edək ki, firmaların birinci il milli gəlir istehsal etmələri üçün kifayət qədər maşınları var. Hər bir maşın 100 min rubllıq məhsul istehsal edə bilir. Hər il amortizasiya hesabına maşınların bir qisminin-1 mln. rubl məbləğində - dəyişdirilməsi lazımdır. Firmanın muxtar investisiyaları yalnız aradan çıxan avadanlığın əvəzlənməsi ilə məhdudlaşır, bütün qalan yeni investisiyalar isə ölkədə

milli gəlirin səviyyəsinə uyğunlaşmaq zərurətindən irəli gəlir. Cədvəl 5.2-nin 3-cü sütununda verilmiş milli gəlir həcminin istehsalı üçün zəruri olan kapital hesablanaraq göstərilmişdir.

Cədvəl 5.2

Milli gəlirin istehsalı üçün lazımi kapitalın hesablanması

İl	Milli gəlir (Y), mlrd. rublla	Zəruri kapital ehtiyatı, mln. dənə	Məcburi investisiyalar, mln.dənə	Kapitalın amortizasiya hesabına əvəzlənməsi, mln.dənə	Ümumi investisiyalar, mln.dənə
1	2	3	4	5	6
1	500	5	0	-	1
2	1000	10	5	1	6
3	2000	20	10	1	11
4	2500	25	5	1	6
5	2500	25	0	1	1
6	2300	23	0	0	0

Cədvəl 5.2-dən göründüyü kimi, milli gəlir artdıqca kapitala ehtiyac da artır və firmalar istifadə olunan maşınların sayını artırırlar. İnvestisiyaların məcmu kəmiyyəti (süt.6) məcburi investisiyaların (süt.4) kəmiyyətindən və amortizasiya hesabına investisiyaların (süt.5) cəmindən alınır. İnvestisiya xərclərinin sürətlə artıb-azalmasına diqqət yetirin. İkinci və üçüncü ildə onlar artır, sonra isə, hətta milli gəlirin artmasına baxmayaraq, azalırlar. Sonuncu, altıncı ildə investisiyaların həcmi sıfra bərabərdir, çünki firma öz kapitalının həcmini azaltmalıdır, yəni onlar artıq gücləri dondurur və aradan çıxan maşınları əvəzləmirlər.

İnvestisiya tələbinin formalaşması

Firmanın muxtar investisiya həyata keçirmək barədə qərarı necə qəbul etməsini daha təfərrüatı ilə nəzərdən keçi-

rək. Başqa sözlə, onun investisiyaya tələbi necə formalaşdırmasını.

İnvestisiyaya tələb firmanın investisiya xərclərinin real faiz dərəcəsindən asılılığını əks etdirir.

Real faiz dərəcəsi nominaldan inflyasiya kəmiyyəti qədər fərqlənir. *Nominal faiz dərəcəsi* pula tələblə onun təklifinin qarşılıqlı təsiri nəticəsində pul bazarında yaranır. Real iqtisadiyyatda çoxlu faiz dərəcələri mövcuddur: Mərkəzi bankın təkrar maliyyələşdirmə faiz dərəcəsi, kommersiya banklarında kreditlər və depozitlər üzrə faiz dərəcələri, istiqrazlar üzrə faiz dərəcəsi (gəlirlilik) və s. Makroiqtisadiyyatda faiz dərəcəsi çoxsaylı müxtəlif faiz dərəcələrinin ümumiləşdirilməsi nəticəsində alınan kəmiyyətdir. Hazırda biz nominal faiz dərəcəsi məfhumu altında faizin kommersiya banklarının kredit götürdüyü və verdiyi faiz dərəcəsini nəzərdə tutacağıq. Artıq yuxarıda deyildiyi kimi, real faiz dərəcəsi inflyasiya nəzərə alınmadan hesablanır. Məsələn, əgər nominal bank faizi 15%-dirsə, ölkədə inflyasiya isə 12%-dirsə, bu halda verilmiş kreditə bank cəmi real olaraq 3% alacaqdır. Real və nominal faiz dərəcələri arasındakı əlaqə **Fişer düsturu** adlanır:

$$r = i - \pi,$$

burada r – real faiz dərəcəsi;

i – nominal faiz dərəcəsi;

π – inflyasiyanın sürətidir.

Əgər ölkədə inflyasiyanın sürəti mənfidirsə, yəni qiymətlər aşağı düşürsə, onda real faiz dərəcəsi nominaldan böyük olacaq.

İnvestisiya tələbinin formalaşmasına qayıdaq. İnvestisiya qərarlarına təsir göstərən əsas amillər bunlardır:

- real faiz dərəcəsi;
- gözlənilən xalis mənfəət norması.

Gözlənilən xalis mənfəət norması firmanın, yaranmış iqtisadi konyunkturanı nəzərə almaqla, vergiləri (qoyulmuş kapitala faizlə) ödədikdən sonra nə qədər mənfəət əldə edəcəyini göstərir.

Real faiz dərəcəsi firma üçün kapital alışının qiymətini əks etdirir. Bir tərəfdən, layihəni həyata keçirmək üçün firmanın öz vəsaiti çatışmazsa, o bankdan kredit götürə və kreditdən istifadə üçün müəyyən faiz ödəyə bilər. Digər tərəfdən, əgər firma layihəni öz vəsaitləri hesabına həyata keçirirsə, onda qəbul olunmuş qərarın alternativ dəyəri mövcuddur. Məsələn, o, vəsaitləri istehsala investisiya etməyib, banka qoya və faiz ala bilərdi. Hər iki halda həlledici rolu nominal deyil, real faiz oynayır.

Firma kredit götürürsə, inflyasiya şəraitində hətta nominal faiz yüksək olarsa, onun borc alınmış vəsaitlərə real xərcləri az, investisiya layihəsi isə sərfəli olar. Əgər o, investisiya həllinin alternativ dəyərini qiymətləndirirsə, bu halda firma real olaraq hansı gəliri əldə edə biləcəyini (inflyasiyanı nəzərə almaqla dəqiqləşdirmələrdən sonra) müəyyənləşdirir. Beləliklə, **bank faizinin real dərəcəsi investisiyanı həyata keçirmənin qiymətidir.**

İnvestisiya qoymaq haqqında qərar qəbul edərkən sahibkarlar gözlənilən gəlir normasını və real faiz dərəcəsini müqayisə edirlər. Əgər gözlənilən mənfəət norması daha çoxdursa, firma layihəni həyata keçirəcək. Belə olmazsa, pullarını banka qoymaq və ya kredit cəlb etməmək firma üçün daha sərfəlidir, çünki əldə olünacaq mənfəət kredit üzrə faizləri ödəməyə kifayət etməyəcək.

Şəkil 5.5-də firmanın investisiyalara tələbi verilmişdir.

Şaquli xətdə real bank faizi dərəcəsi, üfüqidə isə həmin faiz dərəcəsində firmanın həyata keçirməyə hazır olduğu investisiyanın kəmiyyəti öz əksini tapır.

Real faiz dərəcəsi böyük olarsa (məsələn, r_1), onda həyata keçirilən layihə böyük gəlir (yüksək xalis mənfəət) gətirməlidir. Gerçəklikdə belə layihələr nisbətən azdır, buna görə də investisiyaların ümumi həcmi cəmisi I_1 olur. Faiz dərəcəsi azalanda (məsələn, r_2-yə qədər), get-gedə daha çox layihə sərfəli olur və investisiyaların həcmi artır (I_2-yə qədər).


Şəkil 5.5-dəki qrafik firmanın müxtəlif faiz dərəcələrində investisiya qoymaq istəklərini əks etdirir. Amma hər il

konkret miqdarda investisiya layihələri həyata keçirilir ki, onların da qədəri tarazlı faiz dərəcəsi ilə müəyyənləşir. Tarazlı real faiz dərəcəsi maliyyə bazarında tarazlıq əldə olunması nəticəsində müəyyənləşir. Onu bildikdə, həmin il iqtisadiyyata edilən investisiyaların həcmini birmənalı şəkildə müəyyənləşdirmək olar. Məsələn, tarazlı faiz dərəcəsi r_2-yə bərabər olarsa, həmin il investisiyaların həcmi I_2 olar.


İnvestisiyalara tələbin dəyişməsinə təsir edən amillər

İnvestisiyaların həcmi faiz dərəcəsi ilə əlaqədar olmayan hər hansı başqa amillərin təsiri altında artıb-azala bilər. Bu halda investisiyalara tələb çoxalır və ya azalır, investisiya tələbi qrafiki isə müvafiq olaraq yerini sağa (investisiyalar artır) və ya sola (investisiyalar azalır) dəyişir (şəkil 5.6).

İnvestisiyaya tələb əyrisinin yerdəyişməsinə təsir edən



Şəkil 5.5. İnvestisiya tələbi



Şəkil 5.6. İnvestisiyaya tələbin artması

əsas amillər bunlardır:

- avadanlıq alınmasına, istismarına və ona edilən xidmətə çəkilən xərclər;
- sahibkarlıq vergisi;
- texnoloji dəyişikliklər;
- nağd əsas kapital;

- sahibkarların iqtisadiyyatın gələcək inkişafından, onların məhsullarına tələbdən, gələcəkdəki xərclərdən və s. gözləmələri.

Əlavə dəyər vergisinin (ƏDV), gəlir vergisinin və digər növ vergilərin azalması, texnologiyanın dəyişməsi, bazarın genişlənməsi və s. kimi müsbət dəyişikliklər firmanın gözlənilən gəlirini artırırlar və investisiyaları daha mənfəətli edirlər. Müvafiq olaraq investisiya tələbi artır. Şəkil 5.6-da tələb qrafiki I_1 vəziyyətindən I_2 vəziyyətinə dəyişmişdir. Faiz dərəcəsi dəyişilməz olan (r*) yeni şəraitdə firmalar daha çox investisiya qoymağa hazırdırlar.

Digər tərəfdən, elə amillər var ki, investisiya prosesini ləngidirlər. Məsələn, əgər yeni avadanlığın istifadəyə verilməsi quraşdırma, sazlama və işə salma ilə bağlı əlavə xərclər tələb edirsə, aydındır ki, gözlənilən mənfəət azalacaqdır, çünki firmanın xərc çəkib, lakin gəlir götürmədiyi müddət uzanır; həmçinin firmanın kapital yığımına məcmu xərcləri artır. İnvestisiyaya tələb qrafiki yerini sola dəyişir.

Daha bir amil - istifadə olunmayan güclər (mövcud kapital ehtiyatı). Məsələn, istehsalın tənəzzülü dövründə firma məhsul istehsalını azaltmaq qərarına gəlir və bunun üçün istehsal gücünün bir qismini dondurur. Tənəzzül başa çatdıqdan sonra məhsula tələb artır və firma istehsal həcmini artırır. Onun istifadə olunmayan istehsal gücü olduğundan firma hələ ki, yeni kapitala investisiya qoymayacaq, yəni həmin anda mövcud faiz dərəcəsində iqtisadiyyata investisiyaların həcmi az olacaq.

İnvestisiya qərarlarının qəbul edilməsində sahibkar gözləmələri böyük rol oynayır və investisiyaları iqtisadiyyatda məcmu məsrəflərin ən qeyri-sabit elementinə çevirirlər. Əgər gözləmələr müsbətdirsə, məsələn, sahibkarlar iqtisadi vəziyyətin yaxşılaşmasını, vergilərin azalmasını, müəyyən növ məhsulların istehsalı üçün güzəştlərin artırılmasını, birjada səhmlərin kotirovkalarının yüksəlməsini və s. gözləyirlərsə, onda investisiya tələbi artır. Məsələn, gözləmələr mənfidirsə, yəni istehsalda tənəzzül ehtimalı varsa,

enerjidaşıyıcılarının qiymətinin artması, əmtəənin həyat tsiklinə müvafiq olaraq məhsula tələbin azalması və s. gözlənilirsə, onda sahibkarlar investisiya qoyuluşunu dayandırırlar. İnvestisiya kəmiyyəti sahibkarların əhval-ruhiyyəsindən asılı olaraq ildən-ilə xeyli dəyişə bilər.

İnvestisiyaların qeyri-sabitliyinə bütövlükdə aşağıdakı amillər təsir edir:

- avadanlığın xidmət müddəti;
- innovasiyaların qeyri-mütəmadiliyi;
- iqtisadi tsikl ərzində mənfəətlərin dəyişkənliyi;
- gözləmələrin dəyişkənliyi.

Artıq qeyd olunduğu kimi, kapitalın növündən asılı olaraq hər 5, 10 ildən və ya başqa bir müddətdən sonra onun dəyişilməsinə ehtiyac yaranar. Həmin illərdə firmanın investisiya fəallığı artır. Yeri gəlmişkən, aradan çıxan kapitalın mütəmadi əvəzlənməsi iqtisadiyyatın ortamüddətli tsiklik dəyişmələrinin səbəblərindən biri kimi nəzərdən keçirilir.

İxtiralar və kəşflər isə, əksinə, qeyri-mütəmadi dövriliklə, hərdənbir baş verirlər. Özü də mühüm kəşflər hər hansı bir sahədə baş verirlər ki, o da cəmiyyətin həmin inkişaf mərhələsində aparıcı olur. Məsələn, XIX əsrin sonu – XX əsrin əvvəllərində elektrik kəşf olunmuş, radio, telefon, daxili yanma mühərriki və s. ixtira olunmuşdular. Bu kəşflər və ixtiralar avtomobil sənayesi, kimya sənayesi, kənd təsərrüfatı və s. sahələrin inkişafına təkan verdilər ki, bu da investisiyaların sürətlə artmasına səbəb oldu. Bir neçə onillik ərzində, digər sahələrdə kəşflər edilincəyədək alınmış istehsal gücləri yeni əmtəələrin istehsalı üçün istifadə olunurdular. XX əsrin 40-cı illərində tranzistorlar ixtira olundu ki, bu da cihazqayırma, maşınqayırma, elektronika və s. sahələrin inkişafına rəvac verdi. Müasir mərhələdə iqtisadiyyatın inkişafına hərəkət verən və əsas investisiya obyekti olan ixtira mikroprosessorlar, elektron rabitə vasitələri və sairdir.

İqtisadi tsikl ərzində investisiyalar da dəyişir. İqtisadiyyat dirçəlişdədirsə, sahibkarlar daha çox investisiya edirlər, çünki əhalinin ödəniş qabiliyyətli tələbi artmış olur,

iqtisadi konyunktura istehsalın genişləndirilməsi və inkişaf etdirilməsi üçün əlverişlidir, gözlənilən mənfəət norması artır. Tənəzzül mərhələsində isə əksinə: məcmu tələb azalır, firmaların çoxu zərər çəkir, gözlənilən gəlir norması azalır və ya mənfi olur.

Yuxarıda nəzərdən keçirilən amillər investisiyaların həcminin hər il dəyişməsi ilə nəticələnir. İstehlak və yığımla müqayisədə o daha tez-tez dəyişir və onun dinamikasını əvvəlcədən demək qat-qat çətindir.

§5. Makroiqtisadi tarazlığın sadə keynsçi modeli

Bu fəsildə nəzərdən keçirilmiş istehlak, yığım və investisiyalar kimi kateqoriyalar nəinki əsas makroiqtisadi kəmiyyətlərin əsas mahiyyətini dərk etməyə deyil, həm də tarazlığın ən sadə keynsçi modelindən istifadə etməklə milli gəlirin tarazlı səviyyəsini müəyyənləşdirməyə, yanaşmaları formalaşdırmağa imkan verir. Onun sadəliyi ondadır ki, iqtisadi agentlərin yalnız iki qrupu: firmalar və ev təsərrüfatları - təhlil olunur. Biz xarici aləmin (qapalı adlanan iqtisadiyyat) və dövlətin mövcudluğunu sanki yaddan çıxarırıq. Sadə keynsçi modeldə firmalar zəruri olan məbləği istehsal vasitələrinə investisiya edərək milli məhsul yaradırlar, ev təsərrüfatları isə istehsal olunmuş əmtəə və xidmətləri istehlak edirlər. Burada vergiqoymanı və dövlət xərclərini, həmçinin nemətlərin ixrac və idxalını görmürük.

İqtisadi agentlərin planlaşdırılan məcmu xərclərini **E** ilə işarə edək. Sadə keynsçi modeldə bu xərclər cəmi iki hissədən ibarətdir - əmtəə və xidmətlərin ev təsərrüfatları tərəfindən istehlakı və firmaların investisiya xərcləri:

$$E = C + I$$

Makroiqtisadi tarazlığın müəyyənləşməsini konkret misalda nəzərdən keçirək.

Deyək ki, istehlak funksiyası

$$C = 200 + 0{,}6Y$$

kimi, investisiyalar isə $I = 400$ mlrd. rubl kimi verilmişdir.

Diqqət yetirin ki, bu modeldə milli gəlirin həcmindən asılı olmayıb, konstanta kimi verilən muxtar investisiyalar nəzərdən keçirilir. Başqa sözlə, hazırda müəyyənləşmiş faiz dərəcəsində firmalar 400 mlrd. rubl həcmində investisiyalar etməyə hazırdırlar.


Şəkil 5.7-də **C** istehlak funksiyasının qrafiki verilmişdir.

İstehlak kəmiyyətinə investisiya xərcləri məbləğini əlavə edərək məcmu xərclərin həcmini müəyyənləşdirmək olar:

$$E = C + I = 200 + 0{,}6Y + 400 = 600 + 0{,}6Y$$

Şəkil 5.7-də E və C xətləri arasında məsafə iqtisadiyyatda investisiyaların kəmiyyətinə bərabərdir.

Milli gəlirin tarazlılıq kəmiyyətini müəyyənləşdirmək



Şəkil 5.7. Makroiqtisadi tarazlığın müəyyənləşdirilməsi və ya «keynsçi xaç»

üçün 45° altında olan və üstündəki bütün nöqtələr milli gəlirin iqtisadiyyatda planlaşdırılan xərclərə bərabərliyini əks etdirən köməkçi xətdən istifadə edək. Köməkçi xətlə E planlaşdırılan xərclər xəttinin A kəsişmə nöqtəsi makroiqtisadi tarazlıq nöqtəsidir. Bu qrafik **«keynsçi xaç»** adlanır.

Makroiqtisadi tarazlıq məcmu xərclərin milli gəlir səviyyəsinə bərabər olduğu nöqtədə müəyyənləşir:

$$Y = E.$$

İstehsalın faktik həcmi tarazlıqlıdan çox olarsa, bu o deməkdir ki, planlaşdırılan xərclər yaradılan məhsuldan az-

dır, yəni mövcud tələb istehsal olunan milli məhsulu istehlak etmək üçün kifayət deyil. Satılmayan əmtəələr bununla nəticələnir ki, firmaların ehtiyatları artır, onlar isə öz növbələrində məhsul istehsalını müvazinətli səviyyəyə qədər azaldırlar.

Əgər faktik istehsal tarazlıdan azdırsa, bu o deməkdir ki, milli istehsal cəmiyyətin tələbatlarından geri qalır. Artmış tələb firmanın ehtiyatlarının azaldılması hesabına ödənilir, amma onlar eyni zamanda istehsalı və məşğulluğu artırırlar. Nəticədə ÜDM tarazlılıq səviyyəsinə qədər artır.

Beləliklə, tarazlıqda planlaşdırılan xərclərin kəmiyyəti yaradılan milli gəlirin kəmiyyəti ilə üst-üstə düşür. Bu halda istehsalçılar istehsal həcmini dəyişməkdə maraqlı olmurlar.

İndi isə bizim misal üçün tarazlı milli gəlirin qiymətini analitik yolla müəyyənləşdirək. Tarazlığın şərtlərindən istifadə edək:

$$Y = E, \quad Y = 600 + 0{,}6Y.$$

Bu tənliyi Y-ə görə həll etsək, görərik ki, milli gəlirin (milli istehsalın) tarazlıqlıq səviyyəsi 1500 mlrd.rubl təşkil edir.

Əsas anlayışlar və məfhumlar

İstehlak; yığım; investisiyalar; məcmu xərclər; iqtisadi dövranın sadə modeli; istehlak funksiyası; muxtar istehlak; Astana gəliri; istehlaka orta meyillilik; C.M.Keynsin əsas psixoloji qanunu; yığım funksiyası; yığıma orta meyillilik; yığıma son həddi meyilliliyi; istehlak və yığım qrafiklərini yaxınlaşdıran amillər; real kapital; xalis və ümumi investisiyalar; amortizasiya; muxtar və məcburi investisiyalar; investisiyalara tələb; real və nominal faiz dərəcəsi; Fişer düsturu; gözlənilən gəlir norması; investisiya funksiyası qrafikinin yerini dəyişən amillər.

VI FƏSİL. MAKROİQTİSADİ TARAZLIĞIN POZULMASI VƏ İQTİSADİ İNKİŞAF TSİKLLƏRİ NƏZƏRİYYƏSİ

§1. Tsikllər və tsikliklik iqtisadi sistemin inkişaf forması kimi.
§2. İqtisadi tsikllərin növləri və böhranın əsas formaları.
§3. İqtisadi tsikllərin ən mühüm nəzəriyyələri.
§4. Tsiklikliyin səbəbləri və iqtisadi sistemlərin sabit qeyri-tarazlı vəziyyətini müəyyənləşdirən amillər.
§5. Antitsiklik tənzimləmə. Sabitləşdirici proqramlar.

Qərbdə «meynstrim» kimi məlum olan iqtisadi nəzəriyyə iqtisadi hadisələrin bütün sərvətlərini bazar proseslərinin nəticəsi kimi sonsuz sayda tarazlı vəziyyətlər sırası kimi nəzərdən keçirir. Real gerçəklikdə iqtisadi sistemlər sabit tarazlıq vəziyyətində olduqca nadir hallarda olurlar. Onların tipik vəziyyəti qeyri-tarazlıqdır. Makroiqtisadi tarazlıqdan dövri sapınmalar bazar iqtisadiyyatı sisteminin, belə desək, xəstəlikləri olmasını göstərir ki, bunlardan da ən mühümləri tsikliklik, işsizlik və inflyasiyadır.

§1. Tsikllər və tsikliklik iqtisadi sistemin inkişaf forması kimi

İqtisadi qanunauyğunluq kimi tsiklikliyi heç də bütün alimlər tanımırlar. Amma real həyatın öyrənilməsi bu prosesin mövcudluğunu təsdiqləyir və tsikliklik bir problem kimi müasir insanı maraqlandırmaya bilməz.

Tsikliklik – milli iqtisadiyyatın və dünya təsərrüfatının vahid tam kimi inkişaf forması, bütövlükdə iqtisadiyyat miqyasında bir makroiqtisadi tarazlıqdan digərinə inkişafdır.

Buna görə də tsiklikliyi bazar iqtisadiyyatının özünütənzimləmə üsullarından biri kimi nəzərdən keçirmək olar. Tsiklikliyin səciyyəvi xüsusiyyəti dairə üzrə deyil, spiral üzrə hərəkət olduğundan o, proqressiv inkişaf formasıdır.

Tsikliklik – iqtisadiyyatın iqtisadi dinamikasının qeyri-bərabərliyini əks etdirən təbii inkişaf prosesidir.


İstehsal müxtəlif illərdə böyük və ya kiçik sürətlə arta bilər, bir sıra hallarda isə (məsələn, hazırda Rusiyada) artım mənfi işarəli ola bilir ki, bu da istehsalın düşməsi deməkdir. Buna görə də iqtisadiyyatın inkişaf dinamikasını dalğalı xətt daha dəqiq əks etdirər ki, burada hər bir dalğa iqtisadiyyatın inkişafının bütöv bir tsiklini səciyyələndirir.

İqtisadçı alimlər inkişafın belə gedişini olduqca ümumi bir məfhumla «iqtisadi fluktuasiya» adlandırırlar, çünki bazar iqtisadiyyatlarında istehsal səviyyəsi (ÜDM-in real həcmi) sabit kəmiyyət deyil, o həm xarici, həm də daxili amillərin təsiri altında fluktuasiya edir.

Tsikllər iqtisadi və ya işgüzar fəallığın dövri dəyişmələridir. Makroiqtisadi göstəricilərin dəyişmələri (ÜDM, qiymət səviyyəsi, faiz dərəcəsi, məşğulluq, iş fəallığı) dedikdə adətən onun uzunmüddətli xətti **trenddən** yayınmaları nəzərdə tutulur.

İqtisadi tsikl – iqtisadi artıma uzunmüddətli meyilin olması şəraitində bir sıra illər ərzində təkrarlanan və bir-birindən davamlığı və intensivliyi ilə fərqlənən iqtisadi fəallığın yüksəlməsi və enməsidir.

İqtisadi tsikl şəkil 6.1-də təsvir olunmuşdur.



Şəkil 6.1. İş fəallığının iqtisadi tsikli

ÜDM-in artım trendi cəmiyyətdə olan bütün istehsal resurslarından tam istifadə etmək şərtilə istehsal etmək mümkün olan ümumi məhsul həcmini səciyyələndirir. Şəkil 6.1-də göründüyü kimi, ÜDM həcmi göstəricisinin trendi bu halda müsbət meyillidir. Beləliklə, nəzərdən keçirilən dövr bütövlükdə iqtisadi yüksəlişlə səciyyələnir, lakin bu müəyyən zaman kəsiklərində iqtisadi enmənin mümkünlüyünü istisna etmir.

Qrafikdə iqtisadi tsiklin iki fazası verilmişdir. *Enmə (retsessiya)* elə bir zaman dövrüdür ki, həmin müddət ərzində real ÜDM azalır, *yüksəliş (ekspansiya)* isə elə zaman dövrüdür ki, həmin müddət ərzində ÜDM artır. İqtisadi tsiklin bir də iki dönüş nöqtəsi nəzərdən keçirilir. *Bum* – yüksəlişin bitib enmənin başladığı məqam və *dib* – enmənin bitib yüksəlişin başladığı məqam. *Tsiklin uzunluğu* iki qonşu zirvə və ya iki qonşu çökək arasındakı zaman kəsiyinin uzunluğudur, o, yüksəliş və enmə dövrlərinin müddətindən əmələ gəlir.

K.Marks tsiklin ardıcıl olaraq bir-birini əvəzləyən dörd fazasını fərqləndirirdi: böhran, depressiya, canlanma, yüksəliş. Müasir iqtisadi ədəbiyyatda ABŞ Milli İqtisadi Tədqiqatlar Bürosunun işləyib hazırladığı məfhumlardan geniş istifadə olunur, həmin məfhumlara görə tsiklə aşağıdakı dörd faza daxildir: zirvə (pik, bum), sıxılma (retsessiya, enmə), dib (depressiya), canlanma (genişlənmə).

İqtisadiyyatın yüksəlişi işgüzar fəallığın yeni müqavilələr bağlanması, işsizliyin qismən azalması, istehlak tələbinin artması ilə başlayır ki, bunun da nəticəsində əmtəə və xidmətlərin istehsal həcmi artmağa başlayır və get-gedə artır. Firmalar və alıcılar daha yaxşı vaxtlara ümid edirlər, əhval-ruhiyyələr yaxşılaşır. İnsanlar daha çox pul xərcləyirlər, çünki onlar iş və iqtisadiyyata inam əldə edirlər. Firmalar investisiya qoyur və iş yerləri yaradırlar, gəlirlər artır. Birjada səhmlərin məzənnəsi artır, lakin qiymətlər hələ ki, sabitdir. Yüksəlişin əsas əlamətləri də buradandır: *qiymətlər sabitdir, işsizlərin sayı eyni səviyyədədir və ya azalır; anbarlarda saxlanan əmtəələrin miqdarı azalır.* Bum şəraitində (yüksəlişin ən yuxarı nöqtəsi) hər şey əla gedir. İş qüvvəsinə tələb təklifi üstələyir, firmalar bütün gün ərzində işləyirlər, lakin tələbi ödəyə bilmirlər. Qiymətlər get-gedə daha sürətlə artır. Faiz dərəcələri artır, çünki hamıya pul lazımdır. Birjada səhmlərin məzənnəsi artıq düşməyə başlayır. İnvestorlar enməni gözləyirlər.

Enmə iqtisadiyyatın elə vəziyyətidir ki, bu zaman ümumi milli məhsul durmadan yarıbıyarı azalır və bu da istehsalın ixtisarına və ya onun inkişaf sürətiin azalmasına dəlalət edir. Bu dövrdə əhvallar hər yerdə pisləşir. Əmtəə və xidmətlərə tələb azalır, firmalar daha az istehsal edir, məcburən işçiləri ixtisara salırlar. İşləyənlər azaldılmış əməkhaqqı alırlar. Səhmlərin qiyməti aşağı düşür. Bankların çoxu daha kredit vermir, çünki onun qaytarılacağına ümid etmirlər. Get-gedə daha çox müəssisə bağlanır. Enmənin əsas əlamətlərinə aşağıdakıları aid etmək olar: *qiymətlər hələ ki sabitdir, lakin artıq onların düşməsinə meyil görünməkdədir; işsizlərin sayı artır, müəssisələrdə əmtəələrin miqdarı da artır.*


Enmə retsessiya və depressiya ilə müşayiət olunur. *Retsessiya* - milli istehsalın 6 ay və daha çox davam edən azalmasıdır. Təsərrüfatın durğunluq vəziyyəti, əmtəə və xidmətlərə zəif tələb, müəssisənin xeyli az yüklənməsi, kütləvi işsizliklə səciyyələnən *depressiya* dövrü bir neçə il davam edir.

İqtisadiyyatın düşməsinin ən aşağı nöqtəsi *dibdir*. Bu iqtisadiyyatın elə vəziyyətidir ki, bundan pisi daha mümkün deyil. Anbarların çoxu ağzına qədər dolub, müəssisələr məhsulu sata bilmirlər. Qiymətlər minimaldır. Müflisləşmə ölkədə kütləvi hal alır. Faizlər aşağıdır, çünki pula tələb təklifdən azdır (kreditlər heç kimə gərək deyil). Birjada səhmlərin məzənnəsi düşür.

İqtisadiyyatın belə vəziyyəti iqtisadi ədəbiyyatda böhran kimi müəyyənləşdirilir. Bazar təsərrüfat sisteminin ***böhranı*** istehsalın kəskin şəkildə enməsi ilə səciyyələnir ki, bu

da işgüzar fəallığının tədricən məhdudlaşması, azalması ilə (ticarət sövdələşmələri daha az baş tutur, həm kredit, həm də nağd ödəmə hesabına həyata keçirilən iş əməliyyatlarının həcmi azalır) başlayır. Böhran hər hansı bir əmtəəyə tələb və təklif arasında və ya müəyyən bir təsərrüfat sahəsində tarazlığın pozulmasından onunla fərqlənir ki, qiymətlərin sürətlə düşməsi, bankların müflisləşməsi və istehsal müəssisələrinin dayanması, ifrat faizinin artması, işsizliklə müşayiət olunan ümumi ifrat istehsal kimi meydana gəlir. Böhranın əsas əlamətləri: *qiymətlərin dəhşətli dərəcədə düşməsi; işsizlərin sayı maksimuma çatır; müəssisələrin anbarları satılmamış əmtəə ilə doludur.*

Rusiyada islahatlar müddətində iqtisadi enmə tarixdə görünməmiş göstəricilərə düşdü. Şəkil 6.2-də dörd ən dərin iqtisadi enmələr bir araya gətirilmişdir: ABŞ-da Böyük depressiya, İkinci dünya müharibəsində SSRİ və Yaponiyanın verdiyi itkilər, bir də Rusiyanın bazar islahatları.



Şəkil 6.2. Rusiyada 1990-1996-cı illərdə istehsal həcminin enmə dərinliyinin alternativ qiymətləndirilməsi (%-lə)
Mənbə: Вопросы экономики.1997.№11.S.23.

Lakin istehsalın düşməsini birmənalı şəkildə mənfi qiymətləndirmək olmaz. Məsələ burasındadır ki, böhran dağıdıcı nəticələri ilə yanaşı mühüm müsbət funksiyaları da yerinə yetirir. Belə ki, böhran dövründə qısa müddətə də olsa, is-

tehsal quruluşu və ödənişqabiliyyətli tələbatların quruluşu bir-birinə uyğunlaşdırılır, yəni balanslaşdırılmış təkrar istehsala çatılır. Bundan başqa, böhrandan çıxma əsas kapitalın elmi-texniki nailiyyətlərdən istifadə zəminində yeniləşdirilməsi hesabına əldə olunur. Bununla da böhran sanki elmi-texniki tərəqqiyə təkan verir: xalq təsərrüfatı texniki cəhətdən zəif, rəqabət qabiliyyəti olmayan müəssisələrdən «təmizlənir», bu da əmək məhsuldarlığının ümumi səviyyəsinin yüksəlməsinə, əmtəələrin dəyərinin azalmasına və qiymətlərin sabitləşməsinə rəvac verir, əmtəə artıqlığının «əriməsini» təmin edir. Bununla şərtlənən qiymət azalması satışın (ələlxüsus yüksək elastikli tələb əmtəələrinin) genişlənməsinə, xarici ticarətin maraqlarının artmasına səbəb olur. Böhranların bu funksiyaları xüsusilə müharibədən sonrakı illərdə daha fəal təzahür etməyə başladılar.

Bazar iqtisadiyyatının tsiklik inkişafının nəticəsi iqtisadi artım sürətindəki dəyişmələr, inflyasiya hadisələri, bir də məşğulluq səviyyəsinin dəyişməsidir ki, bunlardan sonuncu enmə, ələlxüsus depressiya dövründə qorxulu şəkil alır, çünki kütləvi işsizlik həyat səviyyəsinin aşağı düşməsinə və sosial təlatümlərə səbəb olur.

XX əsrin ortalarına qədər böhranlar vaxtı ödənişqabiliyyətli tələbin azalması, işsizliyin artması ilə əlaqədar olaraq qiymətlərin səviyyəsinin bütövlükdə aşağı düşməsi baş verirdi. Hazırda iqtisadiyyatın inhisarçı bölməsi dövlətin dəstəyi ilə nəinki böhrandan əvvəlki qiymətlər səviyyəsini saxlamağa qabildir, hətta bəzən onun artmasına da kömək edir. İstehsalın inflyasiyanın saxlanılması ilə bu kimi düşməsi *staqflyasiya* adlanır.

İqtisadi konyunkturanın dinamikasını səciyyələndirmək üçün aşağıdakı iqtisadi parametrlərdən istifadə olunur:

- tsiklik, onlar yüksəliş fazasında artır, enmə fazasında isə azalırlar (istehsal imkanlarından tam istifadə, qiymətlərin ümumi səviyyəsi, pul kütləsi aqreqatı və s.);
- əkstsiklik, onlar yüksəliş fazasında azalır, enmə fazasında isə artırlar (işsizlik səviyyəsi, hazır məhsul ehtiyatı,

müflisləşmələrin sayı və s.);

• qeyri-tsiklik, onların dinamikası iqtisadi tsiklin fazaları ilə üst-üstə düşmür (ixracın həcmi);

• qabaqlayıcı (pikə və ya dibə yaxınlaşanda maksimuma və ya minimuma çatırlar – ehtiyatlarda, pul kütləsində və s. dəyişikliklər);

• gecikən (tsiklin son həddi nöqtələrini keçdikdən sonra maksimuma və ya minimuma çatırlar – işsizlərin sayı, əmək haqqına xərclər);

• üst-üstə düşənlər (işgüzar fəallığın dəyişmələrinə müvafiq olaraq dəyişilirlir – ÜMG, inflyasiya və s.).

§2.İqtisadi tsikllərin növləri və böhranın əsas formaları

İqtisadi tsikllər

Dünyanın əsasının tsiklikliyi ideyası dünya elmində hələ Qədim Yunanıstan və Qədim Çin (xüsusilə də Çin daosalarının əsərlərində) dövründən mövcuddur. Filosofları tsikliklik ideyası yüzilliklər ərzində maraqlandırsa da, iqtisadçılar buna nisbətən gec, XIX əsrin əvvəllərində diqqət yetirdilər.

Tsikliklik ideyası əvvəllər J.-B.Seyin (1767-1832) tələbin həmişə təklifə bərabər olmasını söyləyən qanununa zidd olduğuna görə inkar edilirdi. A.Smitin, D.Rikardonun, C.St.Millin, A.Marşallın əsərlərində tsikl nəzərə çarpsa da, xırda və ötəri bir şey kimi görünürdü, bundan başqa, siyasi iqtisadın klassikləri iqtisadi tsikllərin şahidi olmamışdılar. K.Marks həmin problemə birinci olaraq ciddi diqqət yetirməyə başlayan iqtisadçılardandır.

Tsikllərin təbiəti hələ də ən mübahisəli və az öyrənilmiş problemlərdəndir. Konyunktura dinamikasının öyrənilməsi ilə məşğul olan tədqiqatçıları şərti olaraq ictimai həyatda dövri olaraq təkrarlanan tsikllərin mövcudluğunu tanımayanlara və determinist mövqedə dayanıb, iqtisadi tsikllərin qabarma və çəkilmə müntəzəmliyi ilə təzahür etməsini söylə-

yənlərə bölmək olar.

Müasir Qərb neoklassik məktəbinin ən nüfuzlu alimlərinin mənsub olduğu birinci cərəyanın nümayəndələri hesab edirlər ki, tsikllər iqtisadi sistemə təsadüfi təsirlərin nəticələridir, yəni tsikliklik iqtisadiyyata müstəqil impulsların təsirinin nəticəsidir. Bu yanaşmanın əsası 1927-ci ildə sovet iqtisadçısı Y.Y.Slutski (1880-1948) tərəfindən qoyulmuşdu, amma bu istiqamət yalnız 30 ildən sonra Qərbdə geniş tanınmışdı.

İkinci cərəyanın nümayəndələri tsikli özünəməxsus ilkin zəmin, real dünyanın elementar, bölünməz atomu kimi nəzərdən keçirməyə meyillidirlər. Bu yanaşmada *tsikl* – maddi aləmin xüsusi, universal və mütləq törəməsidir. Tsiklin quruluşunu iki əks maddi obyekt təşkil edir ki, onlar onun daxilində qarşılıqlı təsirdədirlər.[1]

Hal-hazırda iqtisadçılar, təəssüf ki, tsikilləri proqnozlaşdıra bilmir, onlar yalnız inkişaf tendensiyasını fərqləndirirlər:

• yüz il müddətinə;

• bir neçə onilliyi əhatə edən tsikllər;

• normal iqtisadi tsikllər;

• kiçik tsikllər;

• iqtisadiyyatın ayrı-ayrı bölmələri daxilində (məsələn, kənd təsərrüfatı) spesifik artıb-azalmalar;

• ayrıca götürülmüş hadisənin (məsələn, ehtiyatların həcmi) spesifik artıb-azalmaları və s.

Müasir elmə iqtisadi tsikllərin 1380-dən artıq növü məlumdur ki, onlara dalğalar deyirlər. İqtisadi ədəbiyyatda onları adətən həmin problemə xüsusi tədqiqat əsəri həsr etmiş alimlərin adı ilə adlandırırlar. Ən məşhur tsikllər *uzun dalğa* adı almış N.D.Kondratyev (50-60 il) tsikli, S.Kuznets (18-25 il) tsikli, K.Juqlar (7-12 il) tsikli, C.Kitçinin qısa tsikilləri (2-4 il), Forrester (200 il) tsikli, sivilizasiyanın inkişafını nəzərdə tutan Toffler (1000-2000 il) tsikli.

Tsikllərin bu və bir sıra başqa növlərini daha konkret

1 Соколов Ю.Н. Цикл как основа мироздания.- Ставрополь, 1995.

nəzərdən keçirək.

1. Juqlar tsiklləri (1819-1905). Dövrü 7-12 ildir. Faiz dərəcələrinin investisiya tsiklləri ilə üst-üstə düşən artıb-azalmaları ÜDM-in, inflyasiya və məşğulluğun dəyişməsinə səbəb olur.

İqtisadçılar üçün ən böyük maraq və siyasətçilər üçün ən böyük problem Juqlar tsikli və ya işgüzar tsiklidir, çünki iqtisadiyyatın tsiklik inkişafı istehsal həcmində və deməli, məşğulluq və istehlak səviyyəsində artıb-azalmalar deməkdir.

7-12 illik tsikl K.Juqların adı ilə alimin faiz dərəcələri və qiymətlərin artıb-azalmalarının fundamental tədqiqi əsasında Fransada, Böyük Britaniyada və ABŞ-da sənayedə dəyişmələrin təbiətinin öyrənilməsindəki xidmətlərinə görə adlandırılmışdır. Bu dəyişmələr investisiya tsiklləri ilə üst-üstə düşmüşlər ki, onlar da öz növbəsində ÜMM-də, inflyasiyada və məşğulluqda dəyişmələrə səbəb olmuşdur

Məlumdur ki, ilk sənaye tsikli 1825-ci ildə, maşınlı istehsal metallurgiyada və digər aparıcı sahələrdə əsas yer tutduğu İngiltərədə müşahidə olunmuşdur. İqtisadiyyata ən dağıdıcı təsiri 1920-1921, 1929-1933, 1937-1938-ci illərin iqtisadi böhranları göstərmişdi. Onlar içərisində 1929-1933-cü illərin istehsalın xüsusilə uzunmüddətli və dərin tənəzzülü ilə fərqlənən Böyük depressiyası seçilir. İ.Şumpeter (1883-1950) 1939-cu ildə 1787-ci ildən 1932-ci ilə qədər 11 Juqlar tsikli olduğunu göstərmişdi.

2. K.Marks tsiklləri (1819-1883). K.Marksın tsikllər nəzəriyyəsinin işlənilib hazırlanmasındakı xidmətini qeyd etməmək olmaz. O, yalnız və yalnız *dövri tsikllər* və ya *ifrat istehsal* böhranı adı almış sənaye tsikllərini (10-12) tədqiq etmişdir.

Marksistlər hesab edirlər ki, tsiklikliyin formal və ya abstrakt mümkünlüyü (kapitalizm dövründə) sadə əmtəə istehsalının özündədir və pulun tədavül vasitəsi və tədiyyə vasitəsi formasında alış-satış aktının pozulması zamanı ödəniş vasitəsi kimi funksiyasından irəli gəlir. Bu mümkünlük yal-

nız müəyyən inkişaf mərhələsində – maşın mərhələsində real gerçəkliyə çevrilir.

İqtisadi böhranları *kapitalizmin əsas ziddiyyəti – istehsalın ictimai səciyyəsi ilə həmin istehsalın nəticələrinin xüsusi kapitalist mənimsənilmə forması arasındakı ziddiyyət* doğurur. Kapital yığıldıqca, məhsuldar qüvvələr artdıqca istehsalın daha çox ictimailəşməsi: kapitalın təmərküzəşləşməsi və mərkəzləşməsi, sənaye mərkəzlərinin, iri kapitalist müəssisələrinin yaranması - baş verir. İctimai əmək bölgüsü dərinləşir, daxili və xarici iqtisadi əlaqələr genişlənir. Məhsullar milyonlarla işçinin əməyinin nəticəsi olur. Lakin bütün bu məhsulların mənimsənilməsi xüsusi kapitalist mənimsəməsi olur.

3. Kuznets tsiklləri (1901-1985). Dövrü 18-25 ildir. 1930-cu illərdə ABŞ-da inşaat tsikli adlandırılan dövrün tədqiqatları yarandı. C.Riqqolmen, V.Nyumen və bir sıra başqa analitiklər mənzil tikintisinin məcmu illik həcminin ilk statistik indekslərini hazırladılar və onlarda bir-birinin ardınca gələn uzunmüddətli sürətli yüksəliş və dərin enmə və ya durğunluq dövrlərinin olduğunu aşkarladılar. 20-illik artıb-azalmaları müəyyənləşdirən «*inşaat tsikli*» məfhumu da məhz onda yarandı.

Saymon Kuznets 1946-cı ildə müəyyənləşdirdi ki, milli gəlir, istehlak xərcləri, istehsal təyinatlı avadanlığa, həmçinin binalar və tikililərə ümumi investisiyalar arasında qarşılıqlı əlaqədar iyirmi illik artıb-azalmalar müşahidə olunur, özü də inşaatda onun amplitudası ən böyükdür. Sonralar tsiklin «nüvəsi» aşkar edildi: əmtəə kütləsinin artması əhalinin axıb gəlməsinə və uşaqların sayının artmasına rəvac verir, bu isə investisiyaların, o cümlədən mənzil tikintisinin artmasına gətirib çıxarır, sonra isə əks proses baş verir.

S.Kuznetsin «Milli gəlir» əsəri çapdan çıxandan sonra «inşaat tsikli» praktik olaraq daha işlədilmədi və yerini N.D.Kondratyevin uzun dalğalardan (long swings) fərqlənən uzun artıb-azalmalara (long waves) verdi. 1955- ci ildə Amerika tədqiqatçısının xidmətlərini dəyərləndirmək məqsədilə

inşaat tsiklini onun adı ilə adlandırmaq qərara alındı.

4. Kondratyev tsiklləri (1892-1938), *uzun dalğalar*. Tsiklin dövrü 50 il və ya bir qədər də artıqdır.

Uzun dalğalar nəzəriyyəsi istiqamətində iş hələ 1887-ci ildə, ingilis alimi K.Klark 1793 və 1847-ci illərin böhranları arasında fərqin 54 il olmasına diqqət yetirməsi ilə başlanmışdı. O, həmin fərqin təsadüfi olmaması barədə fikir söyləmişdi. V.Cevons elm üçün yeni olan hadisəni izah etmək üçün uzun dalğaların təhlilinə ilk dəfə olaraq artıb-azalmaların statistikasını cəlb etmişdi. Materialların oriqinal statistik təhlilini holland alimləri Y.Qederenin və S.Volfun əsərlərində texniki prosesin tsikliklik amili kimi nəzərdən keçirilməsində görmək olar.

Tsikliklik nəzəriyyəsinin işlənilib hazırlanmasında rus alimi N.D.Kondratyevin xüsusi yeri var. Onun tədqiqatları Böyük Britaniyanın, Fransa və ABŞ-ın 100-150 illik dövr ərzində inkişafını əhatə edir. O, materialları XVIII əsrin sonundan (1790) əmtəə qiymətlərinin orta səviyyəsi, kapitala faiz, nominal əməkhaqqı, xarici ticarətin dövrü, kömürün çıxarılması və istehlakı, çuqun və qurğuşun istehsalı kimi göstəricilər üzrə ümumiləşdirmişdi, yəni əslində o, iqtisadi artımın çoxamilli təhlilini aparmışdı. Tədqiqatlar nəticəsində o, aşağıdakı böyük tsiklləri ayırmışdı:

- I tsikl: 1787-ci ildən 1814-cü ilədək – yüksəldici dalğa, 1814-cü ildən 1851-ci ilədək – endirici dalğa;
- II tsikl: 1844-cü ildən 1875-ci ilədək - yüksəldici dalğa, 1875-ci ildən 1896-cı ilədək – endirici dalğa;
- III tsikl: 1896-cı ildən 1920-ci ilədək - yüksəldici dalğa.

"Böyük" yüksəlişin başlanğıcını N.D.Kondratyev istehsalda yeni texnologiyaların kütləvi tətbiqi, dünya təsərrüfatına yeni dövlətlərin cəlb olunması, ucuz hasilatının artması ilə əlaqələndirirdi.

Hər bir böyük yüksəlişdən sonra xeyli qısa bir dövr gəlir ki, bu zaman iqtisadiyyat sanki uzunmüddətli enməyə hazırlaşır. Eyni zamanda çiçəklənmə görüntüsü saxlanılır:


insanlar əvvəlki kimi ümidlə doludurlar, asanlıqla borc götürürlər, amma eyni zamanda yığılmış ziddiyyətlər istər-istəməz çölə çıxır, müəssisələrin kütləvi bağlanması baş verir, işsizlik artır və s.

N.D.Kondratyevin ən böyük elmi xidməti özü-özlüyündə uzunmüddətli artıb-azalmaları yarada bilən nəzəri sosial-iqtisadi sistemi yaratmaq cəhdi olmuşdur.

Kondratyevin uzun dalğalar konsepsiyası XX əsrin 30-cu illərində Rusiyada kəskin polemikaya səbəb oldu. Kapitalizmin "avtomatik iflası" konsepsiyasının tərəfdarları onu kapitalizmi mədh (müdafiə) etməkdə təqsirləndirirdilər, çünki onun konsepsiyasına görə, kapitalizmin özühərəkətetmə və iqtisadi quruluş böhranlarından çıxa bilmə mexanizminin olması göstərilirdi. Kondratyev haqlı çıxdı.

XX əsrdə uzun dalğaların öyrənilməsi ilə İ.Şumpeter, Y.Slutski, S.Kuznets, K.Klark, U.Mitçel, P.Bakkara, D.Qordon, T.Kuçinski kimi alimlər məşğul olmuşdular. Rusiyada bu prosesləri hazırda Y.Yakovets, L.Klimenko, S.Menşikov və b. tədqiq edirlər.

Müasir dövrləşmə qrafik şəkildə göstərilə bilər (şəkil 6.3).



Şəkil 6.3.Uzun dalğaların müasir dövrləşməsi

Birinci böyük tsiklin yüksəlişini Kondratyev İngiltərə sənaye inqilabı, ikinci tsiklin yüksəlişini dəmir yolu nəqliyyatının inkişafı, üçüncünün yüksəlişini elektrik enerjisinin, telefon və radionun tətbiqi, dördüncünün isə avtomobil sənayesi ilə əlaqələndirirdi. Beşinci tsikli müasir tədqiqatçılar elektronikanın, gen mühəndisliyinin, mikroprosessorların tətbiqi ilə şərtləndirirlər.

1921-ci ildə L.Trotski N.Kondratyevdən asılı olmayaraq öz uzun dalğalar nəzəriyyəsini irəli sürdü. O hesab edirdi ki, uzun dalğalar kapitalizmin inkişafının sürətlənməsi və zəifləməsinin tarixi dövrləridir və 1781-ci ildən 1921-ci ilə qədər müxtəlif müddətli beş dövrü fərqləndirdi, özü də göstərdi ki, uzun dalğalar iqtisadi sistemə immanent olmayıb, ekzogen qeyri-tsiklik amillərdən: sinfi mübarizənin güclənməsi və zəifləməsi nəticəsində törəyir. Müasir tədqiqatçılardan L.Trotskinin davamçılarından "Kapitalist inkişafının uzun dalğaları" monoqrafiyasının müəllifi Belçika alimi E.Mandeli göstərmək olar.

5. Kitçini tsiklləri, ehtiyat tsiklləri. C.Kitçini (1926) diqqətini maliyyə hesabları və əmtəə ehtiyatlarının hərəkəti zamanı satış qiymətlərinin təhlili əsasında uzunluğu 2 ildən 4 ilədək olan qısa dalğaların tədqiqinə yönəltmişdi.

Böhranların əsas formaları

Hər bir iqtisadi böhran təkrar istehsalın gedişində kəskin pozuntularda təzahür edir. Bu zaman elə vəziyyət yarana bilər ki, ya istehsal tələbatı, ya da tədiyyə qabiliyyətli tələb istehsalı ötür. Birinci halda artıq istehsal böhranı, ikinci halda isə az istehsal böhranı yaranır.

İqtisadiyyatın tsiklik hərəkətinin məhz bu fazasına çoxlu forma rəngarəngliyi xasdır.

Artıq istehsal və az istehsal böhranları ilə yanaşı böhranın aralıq, qismən, sahə və struktur növləri də vardır.

Aralıq böhranı canlanma və ya yüksəliş fazasının gedişini qırır və yeni tsiklin başlanmasına səbəb olmur. O, tsiklik artıq istehsal böhranından daha az dərinliyi və davamlılığı ilə fərqlənir və bir qayda olaraq lokal səciyyəli olur.

Qismən böhran bütün iqtisadiyyatı deyil, iqtisadi fəaliyyətin yalnız müəyyən sahəsini əhatə edir. Bu formaya, məsələn, maliyyə, valyuta, bank və birja böhranları aiddir.

Sahə böhranı sənayenin, kənd təsərrüfatının, inşaatın, nəqliyyatın və s. hər hansı müəyyən sahəsində təzahür edir.

İqtisadi ədəbiyyatda xüsusi olaraq fərqləndirilir:

struktur böhranları, ümumi sənaye tsiklini müşayiət edə və ya onunla üst-üstə düşməyə bilir. Ən iri struktur böhranı 1973-1975-ci illərdə baş vermişdi ki, onda neft ixracatçıları ölkələri təşkilatı (OPEK) neftin qiymətini kəskin şəkildə qaldırdı və bununla da energetika və xammal sahələrində 1974-cü ildə başlanmış böhranı struktur böhranı ilə ağırlaşdırdı;

- *aqrar böhranlar,* bir qayda olaraq təbii amillərin birləşməsi, əməyin təşkilindəki boşluqlar, texniki gerilik, torpaqdan istifadə və torpaq mülkiyyətçiliyi sistemlərindəki qeyri-təkmilliyin və s. təsiri altında baş verir. Aqrar böhranlar uzunmüddətliliyi və antitsiklikliyi ilə seçilirlər.
- *maliyyə böhranları* müharibə və ya digər fövqəladə siyasi və ya iqtisadi hadisələr (məsələn, artıq istehsal böhranları və s.) nəticəsində maliyyə işində dərin pozğuntuların baş verdiyini göstərir;
- *pul-kredit böhranları* pul-kredit sistemində tələtümlər olub kommersiya və bank kreditlərinin kəskin şəkildə azaldılması, əmanətlərin kütləvi şəkildə götürülməsi və bankların iflası, nağd pul və qızıl əldə etmək istəyi, səhmlərin və istiqrazların məzənnəsinin düşməsi, faiz dərəcəsinin kəskin artırılması şəklində təzahür edir. Burada *tsiklik və xüsusi böhranları* fərqləndirmək olar. Sonuncular iqtisadi böhranlardan asılı olmayaraq, xroniki büdcə kəsiri, məhsulsuzluq, müharibə, kredit qanunvericiliyinin təkmil olmaması səbəbindən pul-kredit sisteminin pozulması kimi xüsusi səbəblərin təsiri altında yaranırlar;
- *birja böhranları* – qiymətli kağızların, səhmlərin mə-

zənnəsinin kəskin düşməsi, onların emissiyasının azalmasıdır. Onlar pul-kredit böhranlarının təzahür formalarından biri olub, yalnız iqtisadi deyil, həm də müxtəlif növ siyasi təlatümlərin, bəzən böyük möhtəkirlik və bank kələkləri nəticəsində yaranır;

- *valyuta böhranları* ödəniş balanslarının xroniki pozuntularında, qızıl valyuta ehtiyatlarının bölgüsünün qeyri-bərabərliyinin güclənməsi, devalvasiya nəticəsində bir çox valyutaların kursunun düşməsi və s. nəticəsində meydana gəlirlər.

Üçüncü minilliyin astanasında yeni böhran forması – *iqtisadiyyatın transformasiyası böhranı* meydana gəldi. Ötən əsrin sonunda öz təsərrüfat sistemlərinin mürəkkəb transformasiyası prosesini yaşayan ölkələrin praktik olaraq hamısı istehsalın düşməsini yaşamış və ya yaşamaqda davam edirlər, yəni böhran və depressiya vəziyyətinə düşdülər. Öz daxili mahiyyətinə görə bu böhran tsiklik deyil. O, bütövlükdə istehsalın, mübadilə və bölgünün inzibati mərkəzləşdirilmiş planlaşdırılmasına əsaslanan sistemli-dövlətləşdirilmiş iqtisadiyyatın bazar iqtisadiyyatına transformasiyası – çevrilməsindən doğan olduqca geniş böhrandır.

Rusiyanın transformasiya böhranından çıxma yolları barədə Rusiya iqtisadçıları arasında fikir ayrılığı yarandı ki, bunun da əsasında onları iki böyük qrup: *radikal liberallara* və *qradualistlərə* bölmək olar.

Radikal liberallar (şok terapiyası kursunun tərəfdarları) həm iqtisadiyyatda, həm də bütövlükdə cəmiyyətdə sistemli, institusional dəyişikliklərin tez və qəti aparılması, amirlik-bölgü sisteminin bir çox dövlət strukturlarının dağıdılması tərəfindən çıxış edirlər. Bu zaman radikallar monetarist konsepsiyasına söykənir, ön plana qiymətlərin azad edilməsini çıxarır, pul kütləsinin, dövlət kreditləri və maliyyələşdirmələrinin sərt tənzimlənməsini, büdcə kəsirinin ləğv edilməsini tələb edirlər. Radikallar üçün antiböhran siyasətinə nisbətən maliyyə sabitliyi daha əsasdır.

Şok modeli təbliğatçıları onun üstünlükləri qismində

iki mülahizəni önə çəkirlər. Birincisi, dəyişikliklərin *sürətlə aparılması* (çətin ki, kimsə çoxillik şoka razı olsun). 1992-ci ilin əvvəlində Rusiya əhalisinə söz verildiyi kimi şok cəmi yarım illə məhdudlaşacaqdı. İkincisi, şok terapiyasından *ümumi ödənişin* (itkilərin) iqtisadiyyatın təkamül modelinin həyata keçirilməsində olduğundan xeyli az olması vədidir.

Liberallar hesab edir ki, Rusiyada depressiyanın çox davam etməsinin səbəbi reformaların kifayət qədər radikal aparılmamasındadır.

Bu istiqamətin iqtisadçıları hesab edirlər ki, Rusiya üçün sənaye potensialının ya "ümumiyyətlə gərəksiz olan", ya da bazar şəraitində "həyat qabiliyyətli olmayan" xeyli hissəsini (1/3-dən 2/3-ə qədərini) ləğv etmək lazımdır.

Qradualistlər tamamilə əks nöqteyi-nəzərin tərəfdarlarıdır. Onlar bazara uzun müddət ərzində, tədricən və ehtiyatla, məsələn, Çində və Vyetnamda olduğu kimi köhnə strukturların çoxunun saxlanılması şərtilə, keçidin (gradual - tədricən) tərəfindən çıxış edirlər. Qradualistlər çox vaxt keynsçi konsepsiyaya istinad edərək iqtisadiyyata dövlətin ciddi və hərdən birbaşa müdaxiləsini, dövlət bölməsinə dəstəyi və planlaşdırmanı tələb edirlər. Onlar ÜMM-in azalmasını milli fəlakət kimi nəzərdən keçirirlər. Qradualistlər bildirirlər ki, sırf monetarist metodlarla həqiqətən də inflyasiyanı ayda 2-3% endirmək olar, amma hazırda Rusiya iqtisadiyyatında heç nə ciddi dəyişdirilməzsə, bu yalnız növbəti qısamüddətli epizod olar. Qradualistlərin fikrincə, Rusiya iqtisadiyyatının xəstəliyi istehsalın ucdantutma düşməsində və əsas diqqətin xammala yönəldilməsində, bir çox yerli əmtəələr üçün daxili bazarın itirilməsində, əhalinin həyat səviyyəsinin aşağı düşməsindədir.

Ən inkişaf etmiş sənaye ölkələri ilk dəfə iqtisadi tsiklik hadisəsi ilə üzləşən andan (XIX əsrin birinci yarısı) həm iqtisadi tsikllərin özlərinin necəliyində: onlar daha az aşkar oldular, həm də sənaye tsiklinin ümumi klassik sxemi öz aydınlığını itirməyə başladı. Bu bir sıra qısamüddətli və uzun müddət təsirini saxlayan amillərlə əlaqədardır ki, bunlardan

da ən əsasları aşağıdakılar hesab oluna bilər:

İkinci dünya müharibəsinin nəticələri tsikllərin asinxronluğu adlanan hadisəyə səbəb oldu ki, bu zaman müharibədən az zərər çəkmiş ölkələr böhran dövrünə qədəm qoyduqları halda, öz təsərrüfatlarını bərpa edənlər yüksəliş mərhələsində idilər. Bu, ölkələr arasında müəyyən manevr etmək imkanı yaradırdı və bütövlükdə iqtisadiyyatın inkişafının tsiklik xarakterini əsasən itirirdi.

ETİ-ın inkişafı tsiklin hətta böhran fazası da daxil olmaqla bütün fazalarında kapitalın yeniləşməsini tələb edirdi. Nəticədə böhranın səciyyəvi xüsusiyyəti olan artıq əmtəə istehsalı artıq kapital istehsalı və istehsalın xroniki az yüklənməsi ilə əvəzləndi. ETİ şəraitində iqtisadi tsikllərin müddəti azalır, çünki elmi-texniki nailiyyətlərin işlənib hazırlanmadan praktik realizasiyaya keçmə vaxtı 3-5 ilə qədər azalır.

Dövlət tərəfindən tsiklikliyin tənzimlənməsi böhranların kəskinliyini azaltdı, onlar ÜDM-in kəskin şəkildə aşağı düşməsi şəklində deyil, onun artımının zəifləməsi şəklində getməyə başladılar.

İnflyasiya proseslərinin inkişafı hətta böhran fazasında da qiymətlərin artım tendensiyasının saxlanılması ilə nəticələndi ki, bu zaman yalnız qiymətlərin artım sürətinin zəifləməsi müşahidə olunur.

Qloballaşma milli iqtisadiyyatların inkişafının tsiklikliyinə təsir etməyə və iqtisadi tsikllərin təzahüründə yeni tendensiyaların yaranmasına təkan verməyə bilməz.

Müasir böhranların qütbləşmə şəklində qloballaşma ilə bağlı olan xüsusiyyəti tsiklik böhranların bir sıra onlardan heç də az ağır olmayan struktur böhranları: neft, ərzaq, energetika, valyuta, ekoloji, dövlət maliyyələrinin böhranı, beynəlxalq əmək bölgüsünün böhranı ilə qovuşmasıdır.

Artıq istehsal böhranları təhlükəsi qlobal iqtisadiyyatda qalır, lakin o, ilk növbədə, yalnız bazar iqtisadiyyatının formalaşma mərhələsində olduğu yerlərdə reallaşa bilir. Kortəbiilikdən çox, idarəolunma xüsusiyyətlərinə malik

olan inkişaf etmiş bazar iqtisadiyyatında isə belə təhlükənin aradan qaldırılması üçün uğurlu cəhdlər edilir. Müasir mərhələdə yaxşı təşkil olunmuş marketinq sistemi, iri müəssisələrin təsərrüfat fəaliyyətinin strateji planlaşdırılması ilə yanaşı tələbin, təklifin, qiymətlərin, faiz dərəcəsinin, səhmlərin məzənnəsinin və s. mümkün dəyişmələrini öncədən bilməyə imkan verən yeni informasiya texnologiyalarından istifadəyə xüsusi diqqət verilir. Şirkətlər hər yerdə təchizatçı ilə istehlakçı arasında uzunmüddətli kontraktlara keçirlər. Qərb məfhumları ilə desək, kontrakt iqtisadiyyatı, təşkil olunmuş iqtisadiyyat (bazar yox) formalaşır. Müasir Qərb bazarının (Avropa və Amerika qütblərinin) əsas prinsipi belədir: potensial istehsalçı əvvəlcə prinsip etibarilə istehsal edə biləcəyi məhsulun alıcısını tapır və yalnız bundan sonra istehsalı təşkil edir. Bu zaman yalnız qlobal korporasiyalar arasında deyil, həm də onlarla xırda biznes arasında – subpodrat münasibətləri əsasında – birbaşa əlaqələr qurulur.

Qloballaşma dövründə dünyada tsiklik dəyişmələrin sinxronlaşması təzahür etməyə başladı ki, buna da rəvac verən təsərrüfat həyatının beynəlmiləlləşməsi (AİB-nin yaranması ilə əlaqədar); bütün ölkələrin xarici ticarətdən asılılığının artması; beynəlmiləlləşmənin əsas daşıyıcıları kimi transmilli korporasiyaların fəaliyyəti; AİB ölkələri arasında ticarət əlaqələrində gömrük məhdudlaşdırmalarının demək olar ki, tamamilə aradan qaldırılması, Qərbi Avropa, ABŞ və Yaponiya arasında ticarətdə gömrük haqqının xeyli aşağı salınması, əmtəələrin çoxuna miqdar məhdudiyyətlərinin aradan qaldırılması (hərçənd indi də ara-sıra bəzi ölkələr arasında ticarət müharibələri baş verir) oldu.

Böhranların xarakteristikalarında qiymətlərin dinamikası dəyişmişdir: onlar tənəzzül dövründə düşməyə bilərlər. İqtisadiyyatın inhisarlaşdırılması bununla nəticələnir ki, tənəzzül dövründə iri korporasiyalar qiymətlərin düşməsinə imkan verməmək üçün bilərəkdən istehsalı aşağı salırlar. Tənəzzül dövründə bir qrup ölkənin istehsalın böhran düşməsini azaltmaq üçün bilərəkdən banklararası faiz dərəcəsi-

ni aşağı salan mərkəzi banklarının antitsiklik siyasətinə səbəb faiz dərəcələri də artmır. Konyunkturanın dövlət tənzimlənməsi bununla nəticələnir ki, işgüzar tsiklinin nisbətən tənzimlənməsi baş verir və nəticədə yüksəliş fazasında iqtisadi artım sürəti bir o qədər də böyük olmur, lakin əvəzində böhran fazasında da istehsalın düşməsi də nisbətən az olur. Bunun səbəblərindən biri ÜMM-də xidmət sahəsinin xüsusi çəkisinin artmasıdır: maddi nemətlərdən fərqli olaraq xidmətləri yığıb ehtiyatda saxlamaq mümkün deyil.

§3. İqtisadi tsikllərin ən mühüm nəzəriyyələri

İqtisadi tsikllər nəzəriyyəsi iqtisadi artım nəzəriyyəsi ilə birlikdə xalq təsərrüfatının hərəkətini izah edən iqtisadi dinamika nəzəriyyələrinə aiddir. İqtisadi artım nəzəriyyəsi artımın amillərini və şərtlərini uzunmüddətli meyil kimi tədqiq edirsə, tsikl nəzəriyyəsi iqtisadi fəallığın zamanda artıb-azalmasının səbəblərini öyrənir.

İqtisadi tsiklin ümumi qəbul olunmuş nəzəriyyəsi hələ də yaradılmamışdır. Bu gün üçün ən məşhur hesab olunan nəzəriyyələr aşağıdakılardır.

Xarici amillər nəzəriyyəsi

Bu istiqamətin banisi iqtisadi tsikllərı günəş fəallığının 11-illik tsikli ilə bağlayan ingilis iqtisadçısı U.S.Cevons (1835-1882) hesab olunur. XIX əsrin 70-ci illərində Cevons bir sıra əsərlərini çap etdirdi ki, həmin əsərlərdə o, günəş ləkələrinin məhsuldarlığa, buğdanın qiymətinə və ticarət tsiklinə təsirini tədqiq etmişdi. Lakin o, günəş fəallığının tsiklikliyini əsasən kənd təsərrüfatı və ticarətlə əlaqələndirirdi. U.S.Cevonsun ardıcılları günəşin tsiklikliyinin təsirini bütün iqtisadiyyata şamil etdilər. Belə ki, X.S.Cevons (oğul) günəş tsiklini məşğulluqdakı artıb-azalmalarla əlaqələndirdi, X.M.Mor isə günəş fəallığının ümumi iqtisadi nəzəriyyəsini işləyib hazırladı.

1987-ci ildə gənc yapon iqtisadçısı Simanaka Yudzi Yaponiyanın 1885-ci ildən 1984-cü ilə qədər inkişafının tsikliklikliyini tədqiq etdi. O, bu nəticəyə gəldi ki, bu müddət ərzində doqquz 11-illik günəş tsikli baş vermişdir və onlar Juqlar tsikilləri ilə üst-üstə düşmüşlər. Simanaka həmçinin hesab edir ki, Kuznets tsikli iki günəş tsiklinə (22 il), Kondratyev tsikli isə beş günəş tsiklinə (55 il) bərabərdir.

Xalis monetar nəzəriyyə

Tsiklin xalis monetar izahı ən dolğun ingilis iqtisadçısı R.Xourtinin (1879-1975) əsərlərində verilmişdir. Onun üçün tsikl "sırf pul hadisəsidir", bu mənada ki, pul axınının dəyişməsi iqtisadi fəallığın dəyişməsinin, çiçəklənmə və depressiyanın bir-birini əvəzləməsinin, ticarətdə canlanma və sönüklüyün yeganə və kifayətedici səbəbidir. Əmtəələrə pulla ifadə olunmuş tələb (və ya pul axını) artanda, ticarət canlanmış olur, istehsal genişlənir, qiymətlər artır. Tələb azalanda, ticarət zəifləyir, istehsal azalır, qiymətlər düşür. Pul axını – əmtəələrə pulla ifadə olunmuş tələb – bilavasitə istehlak xərcləri, yəni gəlir hesabına xərclərlə müəyyənləşir.

Qeyri-pul amillərinin bir qismi, məsələn, zəlzələ, müharibələr, tətillər, qıtlıq və s. ümumi kasıblaşmaya, başqaları isə, məsələn, məhsuldarlığın dəyişməsi, hər hansı bir sahənin hədsiz inkişafı kimi, sənayenin müəyyən sahələrində qismən depressiyaya səbəb ola bilərlər. Lakin tsiklin fazası kimi ümumi depressiya, yəni istifadə olunmamış resurslar və işsizliyin ümumi səciyyə daşıdığı vəziyyət qeyri-pul amillərinin və ya hadisələrinin, onların istehlak xərclərinin azalmasına, yəni pul axınının azalmasına səbəb olduğu hallar istisna olmaqla, nəticəsi ola bilməz.

Xalis monetar nəzəriyyəyə görə, tsikl pul inflyasiyası və deflyasiyasının kiçik miqyasda dəqiq sürətindən başqa bir şey deyil. Depressiya tədavüldə pul vəsaitləri cəminin azalması hesabına istehlak xərclərinin azalmasına görə yaranır və pulun tədavül sürətinin aşağı düşməsi nəticəsində güclə-

nir. Digər tərəfdən isə, çiçəklənmə fazasında inflyasiya prosesləri üstünlük təşkil edir. Pul axınını sabitləşdirmək mümkün olsaydı, iqtisadi fəallığın artıb-azalmaları yoxa çıxardı. Lakin bu baş vermir, çünki pul sisteminə qeyri-sabitlik xasdır.

İfrat yığım nəzəriyyəsi

İfrat yığım nəzəriyyəsində mərkəzi yeri istehlak əmtəələri istehsal edən sahələrə nisbətən istehsal təyinatlı əmtəələr hazırlayan sahələrin hədsiz inkişafı məsələsi tutur: birincilər iqtisadi tsiklin təsirinə ikincilərə nisbətən daha az məruz qalırlar. Tsiklin yüksələn fazasında istehsal təyinatlı əmtəələrin istehsalı qısamüddətli istifadə əmtəələrinin istehsalına isbətən daha sürətlə artır, enmə fazasında isə daha kəskin azalır.

İfrat yığım nəzəriyyəçilərinin baxışlarına görə, bu, yüksəliş fazasında ciddi disproporsiyanın göstəricisidir. Kapitaltutumlu əmtəələr istehsal edən sahələr hədsiz (nisbətən) inkişaf edir. Beləliklə, sadəcə pul çatışmazlığı deyil, məhz istehsal strukturundakı real disproporsiya böhrana səbəb olur.

Natamam istehlak nəzəriyyəsi

Natamam istehlak nəzəriyyəsinin əsasını İsveçrə iqtisadçısı J.Sismondi (1773-1842) qoymuşdur. Bu nəzəriyyənin müxtəlif növləri var ki, bunlardan ən əsaslandırılmışı "natamam istehlak" məfhumunu həddən artıq yığım mənasında işlədir. Depressiyalar cari gəlirin çox hissəsinin yığılması, cüzi hissəsinin isə istehlak əmtəələrinə xərclənməsi ilə şərtlənir. Məhz ayrı-ayrı şirkətlərin özükönüllü yığımı istehsal və satış arasındakı tarazlığı pozur.

Həddən artıq yığım gəlirin qeyri-bərabər bölgüsündən irəli gəlir. Yığımın çox hissəsi böyük gəlir əldə edənlərin payına düşür. Əgər əməkhaqqının səviyyəsini qaldırıb və eyni

zamanda milli gəliri daha bərabər səviyyədə yenidən bölmək mümkün olsaydı, yığımın payı belə təhlükəli dərəcədə böyük olmazdı.

Neoklassik və neokeynsçi tsikl nəzəriyyəsi

Neoklassiklər və neokeynsçilər həmrəydilər ki, tsiklilik mexanizminin fundamental səbəblərindən biri kapital ehtiyatının təkrar istehsal şəraitlərinə uyğunlaşmasıdır ki, həmin şəraitlərin özləri də bu uyğunlaşmanın təsiri altında və gedişində dəyişilirlər. Güman edilir ki, bir tərəfdən, hər il təkrar istehsal olunan dəyərin həcmi (axını) və digər tərəfdən, onun həmin an üçün yığılmış ehtiyatı arasında hansısa normal və ya tarazlı nisbət mövcuddur. Bu tarazlı nisbət pozulmayıncaya qədər tsiklik artıb-azalmalar ola bilməz. Və əksinə, bir halda ki, bu dəyişmələr, faktiki axın/ehtiyat nisbəti normal kəmiyyətdən gah bu, gah da digər tərəfə meyillənir, özü də həm istehsal, həm də kapital artıb-azalmaları baş verir. Kapitalla manevr etmək sanki daim əldən sürüşüb çıxan məqsədə – illik təkrar istehsalın həcmi ilə müqayisədə normal kəmiyyətə çatmağı güdür.

Tsikl nəzəriyyəsində neoklassik və neokeynsçi cərəyanları ayıran əsas məsələ ehtiyat/axın nisbətlərinin xarakteri və səbəbləri ilə əlaqədar suala cavabla bağlıdır. *Neokeynsçilər* hesab edirlər ki, bu nisbətin dəyişməsində fəal rolu ehtiyatın hərəkəti oynayır, *neoklassiklər* isə axının hərəkətini əsas götürürlər.

Keynsçi cərəyanın əsasını C.Keyns, C.Hiks, P.Samuelson, E.Hansen və b. qoymuşlar. Neokeynsçilərin əsas fərziyyəsi sahibkarların faktik kapitalı onun tarazlıqlı səviyyəsi ilə bərabərləşdirmək cəhdlərində olmalarından ibarətdir. Bütün tsiklik mexanizmi hərəkətə gətirən də məhz bu ilkin səbəbdir. Kapitalın tarazlı səviyyəsi neokeynsçilər üçün optimal kəmiyyətdir və iqtisadi agentlər üçün sanki kapitalın faktik səviyyəsini özünə çəkir.

Son vaxtlara qədər *neoklassiklər* böhranların müntəzəm

təkrarlanma qanunauyğunluğunu ümumiyyətlə inkar etməyə meyilli olub, onları xarici təkanların eklektik dəsti ilə izah edirdilər. Neokeynsçilərdə olduğu kimi, tsiklin mahiyyəti normal və ya tarazlıqlı ehtiyat/axın, yəni yönəldilmiş kapital və illik istehsal həcmi nisbətinin pozulması ilə izah olunur. Lakin tarazlı nisbətin iqtisadi agentlər üçün eyni zamanda həm arzu olunan və buna görə də onların davranışlarını müəyyənləşdirən kimi şərh olunduğu neokeynsçi nəzəriyyədən fərqli olaraq neoklassiklər üçün tarazlıq özüözlüyündə xüsusi cəzbedici qüvvə deyil. O, iqtisadi inkişafın gedişində başqa, onların fikrincə. daha mühüm, daha ilkin amillərin qarşılıqlı təsiri nəticəsində yaranır və ya itirilirlər.

Kapital yığımının bilavasitə səbəbi kimi neoklassiklər mənfəəti götürürlər.Arzu olunan və faktik kapital arasındakı fərq məsələsinə isə toxunulmur. Belə sxemdə kapital yığımı, əgər sahibkarın götürdüyü mənfəət daimi olsa və ya sabit sürətlə artsa, eyni bərabərdə və tərəddüdsüz gedərdi. Lakin məşğulluğun və işsizliyin səviyyələrinin və deməli, əməkhaqqı dərəcələrinin dəyişməsi səbəbindən bu baş vermir. Kapitalın həcminin artması, neoklassiklərin fikrincə, məşğulluğun artmasını tələb edər və deməli, işsizliyi azaldar. İşsizliyin azalması və əməkhaqqı dərəcəsinin artması mənfəət normasını azaldır. İnvestisiya qoyuluşu azalır, bu isə tətbiq olunan kapitalın miqdarının nisbi azalmasına və məşğulluğun aşağı düşməsinə və deməli, əməkhaqqının düşməsinə və mənfəətin artmasına aparır: yığım prosesi yenidən güclənir və i.a.

Bu ideya C.Hiks və C.Dyüzenberinin əsərlərində öz əksini tapmışdır. İqtisadiyyatın dalğavari hərəkətini doğuran əsas səbəb *faktik* məşğulluğun onun *tarazlı* kəmiyyətindən kənarlaşmasındadır.

Tsiklin psixoloji nəzəriyyələri

Psixoloji nəzəriyyələrin inkişafında üç cərəyanı fərqləndirmək olar.

Birinci cərəyan XIX-XX əsrlərin hüdudunda yaranmışdır (ona U.Cevons və V.Paretonun konsepsiyaları aiddir) və tsiklik artıb-azalmaların yaranmasında əsas rolu təsərrüfat subyektlərinin əmtəə bazarları və fond birjalarında qiymətlərin və qiymətli kağızların məzənnəsinin daha da artmasını gözləməklə əlaqədar əməliyyatlarında *möhtəkirlik motivlərinə* ayırırlar. Kortəbii şəkildə yaranmış nikbin əhval-ruhiyyə sosial-psixoloji təsir kanalları ilə sürətlə bütün sahibkarlar arasında yayılır (özgələrinə baxıb hərəkət etmək əsas rol oynayır) və tələbin möhtəkirlik şişirdilməsinə, bank kreditindən geniş istifadəyə, istehsalın iqtisadiyyatı tarazlıqlı trayektoriyadan sapındıran əsaslandırılmamış artımına rəvac verir.

Böhran faiz dərəcəsinin artmasına, qiymətlərin düşməsinə, müflisləşmələrin zəncirvari reaksiyasına görə qorxuların nəticəsi olur və uzunmüddətli depressiya ilə nəticələnir ki, iqtisadiyyatı bu vəziyyətdən faiz dərəcəsinin aşağı düşməsi və onunla birgə nikbinliyin artması çıxara bilər və bu da o cümlədən «yeni nəsil» sahibkarların meydana gəlməsi ilə bağlıdır.

Tsiklin psixoloji nəzəriyyələrindəki ***ikinci cərəyan*** XX əsrin 20-30-cu illərində yaranmışdır və əsasən A.Piqunun (1877-1959) və qismən C.M.Keynsin nəzəriyyələri ilə əlaqədardır. Əsas səbəbi müəlliflər istehsalçıların səpələnməsi şəraitində həyata keçirilən *istehsal kapitalqoyuluşlarının spesifikasında* və onunla bağlı olan *bazar informasiyasının qeyri-təkmilliyində* axtarırdılar. Bu halda tsikldə sahibkarların davranışını müəyyənləşdirən əsas amillər yeni kapitalqoyuluşlarından gözlənilən kapitalın səviyyəsi və onun faktik və gözlənilən kəmiyyətinin nisbəti olur.

Nəzəriyyənin üçüncü növü iqtisadiyyatın tsiklik artıb-azalmalarını iqtisadi subyektin xüsusiyyətlərində görür və R.Lukasın iqtisadi tsiklin tarazlı nəzəriyyəsindən ibarətdir. Tarazlı tsikl nəzəriyyəsinin mərkəzi ideyası pul şokları (yəni tədavüldə pul kütləsinin gözlənilmədən artması və bununla əlaqədar qiymətlərin yüksəlməsi) və akselerasiya me-

xanizminin qarşılıqlı əlaqəsidir. Lukas belə bir ehtimal irəli sürmüşdü ki, sahibkar öz məhsulunun qiymətinin inflyasiya artımını onun nisbi qiymətlər artımından fərqləndirə bilmir və buna görə də hər qiymət artımında investisiyaları və məşğulluq səviyyəsini artırır. Bu nəzəriyyədə dövlət xərclərinin artması ilə əlaqələndirilən qeyri-bərabər inflyasiya real məcmu tələb səviyyəsinin dəyişilməzliyi şəraitində iqtisadi yüksəliş fazasının əvvəlinə aparır. Tsiklin enən fazası sahibkar öz səhvini başa düşüb istehsal gücünü və məşğulluğu ixtisar edəndə başlayır ki, bu da qiymətlərin armasının davam etməsi fonunda baş verir və staqflyasiya yaranır.

§4. Tsiklikliyin səbəbləri və iqtisadi sistemlərin sabit qeyri-tarazlı vəziyyətini müəyyənləşdirən amillər

İqtisadiyyatın inkişafının tsiklikliyi müxtəlif nəzəriyyələr tərəfindən müxtəlif cür izah olunur (cədvəl 6.1).

Müxtəlif mənbələr iqtisadiyyatın tsiklik inkişafının çoxsaylı səbəblərini göstərirlər, lakin çox vaxt onlar eyni bir prosesin müxtəlif aspektləridir. Deyilənlərin sistemləşdirilməsi bu kimi nəzəriyyələrin iki əsas növünü: xarici və ya eksternal və daxili və ya internal - fərqləndirməyə imkan verir.

Eksternal nəzəriyyələr iqtisadi tsiklləri xarici səbəblərlə – Günəşdə qıtlığa və ümumi iqtisadi tənəzzülə aparan ləkələrin yaranması (U.Cevons, V.Vernadski), müharibələr, inqilablar və sair siyasi təlatümlərlə; yeni ərazilərin məskunlaşdırılması və bununla əlaqədar olaraq əhalinin miqrasiyası, yer kürəsinin əhalisinin artıb-azalması ilə; texnologiyanın ictimai istehsalın strukturunu əsaslı surətdə dəyişməyə imkan verən güclü inkişafı ilə izah edirlər.

İnternal nəzəriyyələr iqtisadi tsiklin yaranmasını daxili səbəblərlə – insanların iqtisadi fəaliyyətində nikbinlik və bədbinliyin nisbəti (V.Pareto, A.Piqu); yığımın artıqlığı və investisiyaların azlığı (C.Keyns); istehsalın ictimai xarakteri və və mənimsəmənin xüsusiliyi arasındakı ziddiyyət

(K.Marks); pul tələbi və təklifi sahəsində pozuntular (İ.Fişer, R.Xourti); kapitalın ifrat yığımı (M.Tuqan-Baranovski, Q.Kassel, A.Şpithof); natamam istehlak və əhalinin yoxsulluğu (T.Maltus) və s. ilə izah edirlər.

Cədvəl 6.1

İqtisadi tsiklin səbəblərinin müxtəlif nəzəriyyələrdə izahı

Nəzəriyyə	Ən görkəmli nümayəndələr	Tsiklin səbəbləri
Xarici amillər nəzəriyyəsi	U.Cevons (1835-1882)	İqtisadi tsikllərin yaranması günəş fəallığının intensivliyinin dəyişilməsi ilə əlaqələndirilir
Sənaye tsikllərı nəzəriyyəsi	K.Marks (1818-1883), F.Engels (1820-1895)	Böhranların yaranması kapitalizmin ziddiyyətləri ilə, onların dövriliyi isə kapitalın kütləvi yeniləşdirilməsi ilə əsaslandırılır
Kapitalın ifrat yığımı nəzəriyyəsi	M.Tuqan-Baranovski (1865-1919), A.Aftalon (1874-1956)	Böhran hadisələri istehsal strukturunda disproporsiya yaranması nəticəsində, yəni kapitalın ifrat yığımı nəticəsində yaranır
Kredit-pul konsepsiyası	R.Xoutri (1879-1975), İ.Fişer (1867-1947)	Böhranlar pul tələbi və təklifi sahəsində pozuntular nəticəsində yaranırlar
Keynsçi nəzəriyyə	C.Keyns (1883-1946)	Tsikl milli gəlirin hərəkəti, istehlak və kapital yığımı, bazar mexanizminin zəifliyi arasında qarşılıqlı təsirin nəticəsi kimi nəzərdən keçirilir
Yeniliklər nəzəriyyəsi	İ.Şumpeter (1883-1950)	İqtisadi artımın tsiklik prosesi texniki ixtiralar və yeniliklərin həyata keçirilməsinin sıçrayışvari olması ilə şərtlənir
Natamam istehlak nəzəriyyəsi	J.Sismondi (1773-1842)	İqtisadi böhranların səbəbi istehlakın kifayət qədər olmamasında, milli gəlirdə əməkhaqqının payının düşməsindədir
Monetar nəzəriyyə	M.Fridmen (1912)	İstehsalın tsiklik xarakteri pul tədavülünün qeyri-sabitliyi ilə izah olunur

Son dövrlərdə makroiqtisadi tarazlıq nəzəriyyələrində iqtisadi sistemlərin sabit qeyri-tarazlı vəziyyəti tədqiq olunmağa başlayıb.

Həmin tədqiqatlara görə hazırda iqtisadi sistemlərin iki növ sabitliyi fərqləndirilir. Birincisi termodinamik dönməzliklə bağlıdır ki, bu zaman sistemlər tarazlığa yaxın vəziyyətdə olurlar. Bu növə demək olar ki, tam ideal bağlı sistemlər aiddir. Belə sistemlər xaotik vəziyyətə doğru inkişaf edirlər.

İkinci növ sabitliyi ətraf aləmlə mürəkkəb qarşılıqlı təsir mexanizminə malik olan açıq sistemlər nümayiş etdirirlər. Bu növ sistemlərdə tarazlıq prinsipial olaraq qeyri-sabitdir. Məhz bu sistemlər üçün onlarla xarici aləm arasındakı sərhəd xüsusilə vacibdir: sistemin qeyri-sabitlik həddi sərhədlərin dəyişməsindən asılıdır. Bu, tarazlıqdan uzaq olan sabit vəziyyətlərdir.

Makroiqtisadi tarazlığın pozulması və qeyri-tarazlı sistemlərin real mövcudluğu bu sistemlərdə yerdəyişmələrin (bifurkasiyaların) son 50 ildə sürətli inkişaf tapmış tədqiqini obyektiv zərurət etdi.

Qeyri-tarazlı sistemlər xaotik rejimə keçməyə meyillidirlər, lakin məhz onlarda dinamik strukturların formalaşması və onların keyfiyyət dəyişmələri baş verir. Xaosdan qayda yaranır. Bifurkasiya (haçalaşma, ikiyə bölünmə) elə hadisədir ki, ondan başlayaraq keyfiyyət sıçrayışı baş verir. Bifurkasiya çoxplanlı proses olub aşağıdakılarda təzahür edir:

- sistemin inkişaf istiqamətlərinin dəyişməsində;
- sitemin yeni keyfiyyətlərini yaradan struktur dəyişmələrində;
- sistemin funksiyalarından bir qisminin daxilən şərtlənmiş zəifləməsi və digər qisminin güclənməsi hesabına onun daha yüksək və ya daha aşağı təşkili qaydasına sıçrayışlarda;
- qeyri-sabit tarazlığın köhnə strukturundan yenisinə keçiddə – sistemlə xarici mühit, xaosla qayda arasında yeni

sərhədin formalaşmasında.

İqtisadi sistemin vəziyyətinin qeyri-tarazlı tərəfə dəyişməsinə təsir edən amillərdən biri iqtisadiyyatın «keçidliliyi»dir (transformasiyasıdır).

Rusiya iqtisadiyyatının da aid olduğu keçid iqtisadiyyatında tarazlıqdan uzaq dayanıqlı vəziyyət alması ehtimalı daha çoxdur. Planlı təsərrüfatın bazar sisteminə transformasiyası bir anda həyata keçirilə bilməz. Əmtəə, əmək və kapital bazarlarının formalaşması hətta sosialist təsərrüfat sistemi daxilində bazar münasibətləri və institusional zəmin (dövlət idarəçiliyi, qanunvericilik, işgüzar mədəniyyəti) qalarsa belə, qeyri-tarazlı prosesdir. Bundan başqa, bazara keçidin bu və ya digər strategiyası uzun müddət ərzində qeyri-tarazlığın saxlanılmasını nəzərdə tutur.

İqtisadi sistemin vəziyyətinin qeyri-tarazlı istiqamətdə dəyişməsinə təsir edən digər amil informasiyanın qeyri-təkmilliyidir.

Bazarın «görünməz əli» dedikdə qiymətlərin dəyişməsi vasitəsi ilə tələb və təkliflərin uzlaşdırılmasının iqtisadi münasibətləri təşkil etməsi və intizamlı etməsi başa düşülməlidir. Lakin məhz yaxşı təşkil olunmuş bazarların işi hələ XX əsrin 50-ci illərində məşhur Amerika iqtisadçısı O.Mortenşternin çap etdirdiyi həll olunmamış problemlər siyahısına saldığı problemi doğurmuşdur. Həmin problemin mahiyyəti hətta təkmil rəqabət şəraitində qeyri-təkmil informasiya və iqtisadi agentlərin qeyri-adekvat üstünlükverimləri səbəbindən iqtisadiyyatın qeyri-tarazlı olmasının mümkünlüyündədir.

Həmin problem qismən həllini Çikaqo məktəbinin işləyib hazırladığı rasional gözləmələr nəzəriyyəsində tapdı. M.Fridmen qeyri-təkmil informasiyanın təkmil rəqabət şəraitində iqtisadi artıb-azalmalara təkan verə bilməsi ideyasını birinci olaraq formalaşdırdı[1].

Hətta iqtisadiyyatın ən sadə klassik və neoklassik modelləri də dinamik xaos yaratmağa qabildirlər. Qiymətlərin

1 Mortenştern Q. Thirteen Critical Points in Contemporary Economic Theory N.U.University Press, 1976. P,1170

tarazlı səviyyəsinin mövcudluğu hələ real qiymətlərin bu səviyyəyə meyil edəcəkləri demək deyil. İqtisadi agentlərin rasional üstünlükverimləri mütləq tarazlı sistemin sabit nöqtəsini deyil, xaotik rejim doğura bilərlər.

Sabit qeyri-tarazlı sistemlər dünya iqtisadiyyatında yayılmışlar. Söhbət yalnız ağır struktur problemləri ilə üzləşən inkişaf etməkdə olan və ya keçid iqtisadiyyatlarından deyil, həm də dünya iqtisadiyyatının uğurlu hissəsindən gedir. Buna misal XX əsrin 50-80-ci illərinin ABŞ və Şərqi Asiya ölkələri ola bilər. Məsələn, ABŞ-ın ticarət balansının kəsiri dünyanın ən iri iqtisadiyyatının tarazlı vəziyyətdə olmasına şübhə ilə yanaşmağa vadar edir. Lakin dolların dünya valyutası kimi mövqeyi hətta qeyri-tarazlı vəziyyətdə maliyyə risklərini idarə etməyə imkan verir. Həm Şərqi Asiya, həm də ABŞ məsələsində rəqabətliliyin möhkəmləndirilməsi prinsipial əhəmiyyət daşıyır.

Tarazlı və dinamik strukturların formalaşdırılmasına yönəldilmiş iqtisadi siyasət əks nəticəyə də gətirə bilər. Belə ki, BVF-nun sabitləşdirici proqramlarının tətbiqi adətən iqtisadi resurslardan natamam istifadə ilə müşayiət olunan tarazlığa yaxın vəziyyətə gətirir. Belə vəziyyət iqtisadiyyatda ***aşağı tarazlıq*** adlanır və qeyri-sabit olur. Onun pozulması ehtimalı həddindən artıq böyükdür və yeni bifurkasiyalara gətirib çıxarda bilər.

§5. Antitsiklik tənzimləmə. Sabitləşdirici proqramlar

Müasir bazar iqtisadiyyatında dövlət tsiklikliyə və iqtisadi böhranlardan itkilərin azaldılmasına təsir edə bilər və edir.

Antitsiklik tənzimləmə təsərrüfat konyunkturasına və tsiklik artıb-azalmaların zəiflədilməsinə yönəldilmiş iqtisadi fəaliyyətə təsir üsulları və metodları sisteminin tətbiqindən ibarətdir. Bu zaman dövlətin fəaliyyət istiqaməti iqtisadi tsiklin hər bir fazasında yaranan iqtisadi vəziyyətlə əks yönümlüdür.

Canlanma və yüksəliş dövrlərində antiböhran siyasətinin ən mühüm tədbirləri: pul-kredit siyasəti (uçot dərəcəsinin artırılması, dövlətin qiymətli kağızlarının açıq bazarda satılması); fiskal siyasət (dövlət büdcəsi hesablaşmalarının azaldılması, vergi dərəcələrinin artırılması); əməkhaqqı və tariflər siyasəti (əməkhaqqının azaldılması); dövlət investisiyaları siyasəti (dövlət tikintisinin azaldılması). Nəticədə işgüzar fəallığının aşağı düşməsi, iqtisadiyyatın «artıq qızdırılmasının» azaldılması.

Depressiya dövründə antiböhran siyasətinin ən mühüm tədbirləri: pul-kredit siyasəti (uçot dərəcəsinin azaldılması, dövlətin qiymətli kağızlarının açıq bazarda alınması); fiskal siyasət (dövlət büdcəsinin əlavə xərcləri, vergi dərəcələrinin azaldılması); əməkhaqqı və tariflər siyasəti (əməkhaqqının artırılması); dövlət investisiyaları siyasəti (investisiya proqramlarının həyata keçirilməsinin sürətləndirilməsi, iş yerlərinin yaradılmasına maliyyələşdirmənin artırılması).

Dövlət, beləliklə, iqtisadi tsikli modifikasiya edir, tsiklin hər fazasında gərginliyin dərəcəsini azaldır. Son onilliklərdə dünya iqtisadiyyatının inkişafının obyektiv qiymətləndirilməsi göstərir ki, böhranlar daha az dağıdıcı olurlar, depressiya xeyli azalır və ya aradan qalxır.

İki prinsipial məqam qeyd olunmalıdır. Bütün cəhdlərinə baxmayaraq dövlət iqtisadi inkişafın tsiklik xarakterini aradan qaldırmaq iqtidarında deyil, o, iqtisadi sabitliyi dəstəkləmək məqsədilə yalnız tsiklik artıb-azalmaları zəiflədə bilər.

Böhran iqtisadiyyatı dağıdaraq özü ölkənin ağır vəziyyətdən çıxması üçün maddi zəmin yaradır. Lakin 1929-1933-cü illərin Böyük depressiyasının təcrübəsi göstərir ki, yenidənqurma uzunmüddətli durğunluq prosesləri ilə müşayiət oluna bilər, bazar iqtisadiyyatının özünütənzimləmə mexanizmi isə qüsursuz deyil, onda da pozuntular ola bilər. Bununla əlaqədar olaraq müharibədən sonrakı dövr inkişaf etmiş bazar iqtisadiyyatı ölkələri üçün böhrandan çıxma

prosesini sürətləndirən sabitləşdirici proqramların tətbiqi ilə səciyyəvi olur. Keynsçi və monetarist yönümlü sabitləşdirici proqramlar daha geniş şöhrət qazanmışdırlar. Keynsin tərəfdarları tənzimləmənin əsas hissəsi kimi məcmu tələbi, klassiklərin tərəfdarları isə məcmu təklifi hesab edirlər.

Keynsçi sabitləşdirici proqram

Keynsçi proqramlar Qərbi Avropa və ABŞ-da İkinci dünya müharibəsindən sonra geniş tətbiq olunurdular və hazırda da onların, ələlxüsus Skandinaviyada, çoxlu tərəfdarları var.

Keynsçilik tərəfdarları məcmu tələbə yönümlənərək əsas diqqəti maliyyə-büdcə alətlərinə malik olub onlardan xərclərin azaldılması yaxud artırılması, ya da vergi dərəcələrinin manipulyasiya edilməsi, vergi güzəştləri sisteminin daraldılması və ya genişləndirilməsi üçün istifadə edən dövlətin tənzimləyici roluna yetirirlər. Keyns dövlətə xüsusi bölməyə istehsal sifarişlərini artırmaqla tədarüklər etməyi tövsiyə edir. Nəticədə ölkədə əlverişli investisiya mühiti formalaşmağa başlayır. Bu zaman pul-kredit siyasəti mühüm də olsa, hər halda yardımçı rol oynayır. Keynsin ardıcılı Xorrad qeyri-sabitlik zamanı kapital qoyuluşuna ucuz kreditlə həvəsləndirmək üçün aşağı faiz dərəcəsindən istifadə etməyi, ucuz pul siyasətini həyata keçirməyi tövsiyə edir.

Monetarist sabitləşdirici proqram

Klassik cərəyanın tərəfdarları əsas diqqətlərini təklif üzərində cəmləyirlər. Onlar hesab edirlər ki, bazar özütənzimlənən sistemdir və özü səmərəli inkişafı təmin edə biləcək proporsiyalara çıxa bilər. Buna görə də dövlət böhranın cəmiyyəti zəif istehsalçılardan təmizləmə missiyasının dərinləşməsinə və bazarın yeni inkişaf mərhələsinə qədəm qoymasına rəvac verməlidir.

Əsas alət kimi pul-kredit tənzimləməsi təklif olunur.

Əsas diqqət kreditin liberallaşdırılmasına deyil, onun restriksiyasına – faiz dərəcələrinin artırılması, maliyyə qoyulmaması yolu ilə bahalı pul siyasətinin həyata keçirilməsinə yönəldirlər ki, bu bazarı səmərəli olmayan istehsalçılardan təmizləməlidir. Yardımçı alət kimi vergi-büdcə siyasətindən istifadə olunur. Dövlət xərclərinin azaldılması və deməli, bütün istehlakçı tələbinin azaldılması üzrə sərt siyasət aparılır. Vergi siyasəti vergi dərəcələrinin və vergi şkalasının mütərəqqilik dərəcəsinin azaldılmasına yönəldilir. Bu, səmərəli istehsalçıların işgüzar fəallığını artırır, istehsalın və investisiya qoyuluşunun genişlənməsinə rəvac verən vəziyyət yaranır, əmtəələrin məcmu təklifi artır, işsizlik azalır. Bu zaman sabitləşdirici proqram pul kütləsinin azaldılmasını nəzərdə tutur.

Bazar iqtisadiyyatı ölkələrinin hamısı, hökumətlərinin bu və ya digər modelə üstünlük vermələrinə baxmayaraq, iqtisadiyyatın dövlət tənzimləməsi üzrə praktik fəaliyyətlərində bazar konyunkturasına, iqtisadi fəaliyyətə həll olunan məsələnin qısamüddətli və ya uzunmüddətli olmasından asılı olaraq həm keynsçi, həm də klassik təsir metodlarına müraciət edirlər.

Sabitləşdirici siyasətlərə aşağıdakı iqtisadi siyasətlərin ya hamısı və ya bir qismi daxil edilir:

- iqtisadiyyatda tədavüldə olan pul kütləsinin artımı üzərində nəzarət – hökumətin və real bölmənin kreditləşdirilməsinin Mərkəzi bank və maliyyə institutları tərəfindən məhdudlaşdırılması yolu ilə;
- milli valyutanın devalvasiyası və ya milli valyutanın idarə olunan devalvasiyası. Valyuta dəhlizi inflyasiya gözləmələrinin qarşısının alınması vasitəsi kimi bəyan edilir;
- milli hökumətin qiymətin yaranmasına müdaxilə etməyi azaltması və ya bundan tamamilə imtina etməsi; bu, xüsusi istehlakın və bir də kənd təsərrüfatının subsidiya edilməsinin azaldılması deməkdir;
- bazar metodları ilə maliyyə sabitləşdirməsi və bank faizinin müəyyənləşdirilməsinə keçid;

• əmtəə və kapitalın hərəkəti qarşısında institusional hədlərin azaldılması. Xarici iqtisadi sahənin liberallaşdırılmasına müxtəlif cür yanaşmaq olar, lakin onun zəruriliyi şəksizdir;

• iqtisadiyyatda əməyin haqqının real ödənilməsinin inflyasiyanın qarşısını almaq və cəmiyyətin varlı hissəsini yığıma həvəsləndirmək məqsədilə azaldılması. Standart sabitləşdirmə paketinin tərkib hissələri arasında bu ən təhlükəli tədbirdir. Daxili tələbin qaçılmaz azalması şəraitində xərclərin inflyasiyası artır. İqtisadi fəallığın aşağı səviyyəsinə yüksək iş riskləri müvafiq gəlir. Bu isə həmin siyasətin bəyan edilmiş məqsədləri ilə ziddiyyət təşkil edərək kapitalın ölkədən axmasına aparır.

Sabitləşdirmə proqramlarını büdcə imkanları ilə bir araya gətirmək məqsədilə onların işlənib hazırlanması və həyata keçirilməsinin prioritet istiqamətləri mövcuddur;

• büdcə kəsirinin azaldılması pul kütləsinin məhdudlaşdırılmasını tələb edir;

• büdcə kəsirinin azaldılması xüsusi yığımı sabitləşdirir. Sabitləşdirmə və hətta xüsusi yığımı artması büdcə kəsirinin azalmasının ardınca gedir, çünki xüsusi istehlak dövlət bölməsi xərclərinin azaldılmasını avtomatik olaraq əvəzləmir;

• büdcə kəsirinin azaldılması milli valyutanın real mübadilə məzənnəsini sabitləşdirir və yaxşılaşdırır;

• büdcə kəsirinin azaldılması iqtisadiyyatın bərpa olunmasına və ya artımının sürətlənməsinə rəvac verir. İqtisadi artım öz növbəsində büdcə kəsirlərinin idarə olunmasını asanlaşdırır. Əgər daxili və xarici borc ÜDM-in 30%-nə bərabərdirsə, onda pul bazasının ÜDM-ə nisbəti 10%-ə, inflyasiya 5%-ə bərabərdir, bu halda ÜDM-in 5% -lik artım sürəti maliyyə sabitliyinə ciddi xələl gətirmədən büdcə kəsirinin ÜDM-in 4% həcmində olmasına nail olmaq olar. Əgər iqtisadi artım sürəti 1%-dirsə, onda büdcə kəsirinin təhlükəsiz

həddi 2,4%-dən artıq ola bilməz[1].

Sabitləşdirmə proqramları iqtisadiyyatın restrukturizasiyası zamanı sosial gərginliyin azaldılmasına, bazar münasibətlərinin inkişafının həvəsləndirilməsinə, həmçinin ölkənin dünya təsərrüfatına inteqrasiyasının sürətləndirilməsinə yönümləndirilə bilirlər.

Sabitləşdirici proqramların ortatəcilik xarakteri onlarda tələbin tənzimlənməsinə (Demand-Side) və təklifin həvəsləndirilməsinə (Supply-Side) yönümləndirilmiş tədbirlərin uzlaşdırılmasına imkan verir. Tələbin tənzimlənməsində aşağıdakı strategiyadan istifadə olunur: maliyyə resurslarının səmərəli yerləşdirilməsi və ödəniş balansının sağlamlaşdırılması naminə məcmu tələbin məhdudlaşdırılması.

Sabitləşdirici proqramlar bir qayda olaraq daxili tələbin azaldılmasına yönəldilmiş olur. Əsas diqqətin tələbə deyil, təklifə (Supply-Side Stabilization) yönəldildiyi proqramlar daha az yayılmışdır. Onlarda rəqabətliliyin inkişaf etdirilməsi, inkişaf etməkdə olan ölkələrin dövlət bölməsinin müəssisələrinin özəlləşdirilməsi, aşağıdakıları artırmaq məqsədilə xarici və ölkə kapitalının investisiya edilməsi üçün institusional hədlərin aradan qaldırılması üzrə təkliflər vardır:

• iqtisadi səmərəlilik;

• iqtisadiyyatda yığımın və investisiyaların həcmi.

Sabitləşdirici proqramların tətbiq edilməsinin ÜDM-in düşmə kəmiyyəti ilə ölçülən qiyməti vardır. İqtisadiyyatın diversifikasiyası nə qədər az olsa, ölkədə bazar institutları nə qədər az inkişaf etmiş olsa, bu qiymət bir o qədər böyük olur. Müəyyən məqamdan başlayaraq bu proqramlar iqtisadiyyatın sabitliyini ciddi poza bilərlər. Proqramın qəbul edilməsi və həyata keçirilməsinin xərcləri onların mənfəətlərini üstələməməlidir.

Beləliklə, ***sabitləşdirici siyasət*** makroiqtisadi tarazlığın qiymətlərin sabit səviyyəsi şərtilə amillərin tam məşğulluğa yaxın səviyyəsində bərpa olunmasına və saxlanıl-

1 Fiscal Accounts and Macroeconomic Performance. World Bank Policy Research Bulletin. Vol. 4, N3, 1993, P. 4-5

masına yönəldilir. Tarazlıqdan uzaqlaşmalar həm tələb və ya təklif tərəfindən şokların nəticəsində, həm də iqtisadiy-yatdakı tsiklik artıb-azalmalar nəticəsində yarana bilirlər ki, onları həmin siyasətin kömək liyi ilə zəiflətmək və imkan daxilində mənfi nəticələrini neytrallaşdırmaq olar və lazımdır.

Deyilənləri yekunlaşdıraraq ümid etmək olar ki, iqtisad elmi inkişaf etdikcə azad bazar iqtisadiyyatında tsiklik fazaların idarəedilməsinin daha təkmil üsulları tapılacaq.

Əsas anlayışlar və məfhumlar

İqtisadi tsikl; tsiklin fazaları; tsikliklik; tsiklin növləri; böhranların əsas formaları: struktur, aqrar, maliyyə, pul-kredit, birja, tsiklik, xüsusi, ara, qismən, sahə, valyuta, iqtisadiyyatın transformasiya böhranı; radikal liberallar; qradualistlər; ən mühüm iqtisadi tsikllər nəzəriyyələri: xarici amillər, xalis monetar, ifrat yığım, natamam istehlak, neoklassik, neokeynçi, psixoloji; tsiklikliyin səbəbləri; antitsiklik tənzimləmə; sabitləşdirici proqramlar.

VII FƏSİL. İQTİSADİ QEYRİ-SABİTLİK VƏ İŞSİZLİK

§1. Məşğulluq nəzəriyyəsinin təkamüllü inkişafı.
§2. İşsizlik və onun növləri. İşsizliyin səbəbləri.
§3. İşsizliyin göstəriciləri və onun dinamikasını müəyyənləşdirən amillər.
§4. İqtisadi və sosial (qeyri-iqtisadi) xərclər. Ouken qanunu.
§5. Əmək bazarının dövlət tərəfindən tənzimlənməsi.

Tsikliklikdən başqa iqtisadi tarazlığı pozan amil işsizlikdir. İş yerini itirmək təhlükəsi hər bir yaşlı adamın həyatında ciddi problemdir. İnsanların çoxu üçün əməkhaqqı yeganə gəlir mənbəyidir və bundan başqa, iş mənəvi məmnunluq da verir. Çünki işləmək istəyən, lakin belə imkandan məhrum olan adamlar əmtəə və xidmətlərin artırılmasına öz töhfələrini verə bilmirlər, ölkədəki işsizlərin sayı ölkədə firəvanlığın aşkar göstəricisidir.

§1. Məşğulluq nəzəriyyəsinin təkamüllü inkişafı

Məşğulluq nəzəriyyəsi uzun təkamüllü inkişaf yolu keçmişdir və çoxsaylı konseptual yanaşmaların, tədqiqat metodları və alətlərinin olması ilə səciyyələnir. Həmin problemə nəzəri baxışlar dünya iqtisadi fikrinin strukturunda cərəyanların və məktəblərin olması ilə səciyyələnir.

Neoklassik məktəb D.Gilder, A.Laffer, M.Feldstayn, R.Xoll, C.Perri və b. əsərləri ilə təmsil olunmuşdur. Bu cərəyanın əsasını A.Smitin klassik nəzəriyyəsi təşkil edir. Bu müəlliflər əmək bazarını bazar qanunlarına tabe olan, daxilən yekcins olmayan və dinamik əlaqələr sistemi kimi nəzərdən keçirirlər. Onun tənzimləyicisi qismində bazar mexanizmi çıxış edir. Əməyin qiyməti (əməkhaqqının səviyyəsi) iş qüvvəsinə tələbə və onun təklifinə təsir edir, onların nisbətini tənzimləyir və onların arasında lazımi tarazlığı saxlayır. İş qüvvəsinin qiyməti bazar konyunkturasına tez və çevik cavab verir, ona real tələbdən asılı olaraq artır və ya azalır.

Əməkhaqqının artırılması və ya azaldılması vasitəsilə əməyə tələb və onun təklifi tənzimlənir. Əgər əmək təklifinin ona tələbdən çox olması səbəbindən işsizlik yaranırsa, o, qiymətlərə onların azalması və deməli, əmək bazarında tarazlıq yaranana qədər əməkhaqqının azalması istiqamətində təsir edəcək. Neoklassik model əmək bazarının özünütənzimləməsi prinsipinə əsaslanır.

Keynsçi cərəyan (C.M.Keyns, R.Qordon) əmək bazarını iş qüvvəsinin xeyli sərt təsbit olunduğu süst sistem kimi nəzərdən keçirir. Məşğulluğun əsas parametrləri – məşğulluq və işsizliyin səviyyələri, əməyə tələb, real əməkhaqqının səviyyəsi – əmək bazarında müəyyənləşmirlər, onlar istehlak və investisiya əmtəələri və xidmətləri bazarında səmərəli tələbin həcmi ilə müəyyənləşir. Əmək bazarında yalnız əməkhaqqının səviyyəsi və ondan asılı olan əmək təklifi kəmiyyəti formalaşır. Amma əməyin təklifi faktik məşğulluğun formalaşmasında əsas rol oynamır, o yalnız əməkhaqqının hazırkı məbləğində onun maksimum mümkün səviyyəsini səciyyələndirir. İş qüvvəsinə tələb məcmu tələblə, investisiyaların və istehsalın səviyyəsi ilə tənzimlənir. Məcburi işsizliyin olması səmərəli məcmu tələbin çatışmazlıqları ilə şərtlənir ki, bunu da büdcə və kredit-pul tənzimləməsinin eksponsionist tədbirləri aradan qaldıra bilər. Dövlət məcmu tələbə onun artması istiqamətində təsir etdikdə əməyə tələbin artmasına rəvac verir, bu da məşğulluğun artmasına və işsizliyin azalmasına aparır.

Keynsçi konsepsiyaya görə, məşğulluğa yalnız məcmu tələb təsir etmir, həm də ümumi tələb artımının sahələr arasında necə bölünməsi, yəni məcmu tələbin quruluşu da təsir edir. Məşğulluğun kifayət edəcək səviyyəsinin təmin edilməsinin səmərəli vasitəsi dövlətin investisiya fəaliyyətinin genişləndirilməsi, onun konkret iqtisadi inkişaf şəraitini təmin etməklə investisiyaların optimal qədərlərini müəyyənləşdirməsidir. Keynsçi model makroiqtisadi proseslərə dövlət müdaxiləsinə əsaslanır, onun həyata keçirilmə mexanizmi isə psixoloji səciyyəli qanunauyğunluqlar və hadisələr,

bir də əsas iqtisadi göstəricilər arasında multiplikativ əlaqələrə söykənir.

Monetarist məktəbinin nümayəndələri (M.Fridmen, E.Felps, F.Keyqen, D.Meyzelman, K.Brunner, A.Moltser və b.) belə bir müddəanı əsaslandırırlar ki, bazar iqtisadiyyatı elə bir özü nizamlanan sistemdir ki, onun özünün qiymətlər mexanizmi məşğulluğun rasional səviyyəsini müəyyənləşdirir. Belə sistemdə dövlət müdaxiləsi bazarın özününizamlama mexanizmində pozuntular yaradır, məcmu tələbə pulla təsir isə son nəticədə inflyasiya spiralının açılmasına səbəb olur.

Monetaristlər hesab edirlər ki, istənilən zaman anında real əməkhaqqı dərəcələri strukturunda tarazlıqla bir arada ola bilən müəyyən səviyyədə işsizlik var. Bu səviyyə «təbii işsizlik norması» adlanır və bazarın qeyri-təkmilliyi, tələb və təklifin stoxastik artıb-azalmaları, boş iş yerləri və hazırda olan iş qüvvəsi haqqında informasiyanın dəyəri, mobillik xərcləri və s. də daxil olmaqla əmək və əmtəə bazarlarının həqiqi quruluşunun xarakteristikalarını əks etdirir. Məşğulluğun öz «təbii səviyyəsi»ndən sapınmaları yalnız qısamüddətli ola bilər. Əgər məşğulluğun səviyyəsi tarazlıdan çox olarsa, bu, sürətlənən inflyasiyaya, az olarsa, sürətlənən deflyasiyaya səbəb olur. Məşğulluğun sabitləşdirilməsi üzrə siyasət işsizliyin öz təbii normasından sapınması, istehsal həcmləri və işləyənlərin sayının artıb-azalmaları ilə mübarizəyə yönəldilməlidir. Əmək bazarının tarazlaşdırılması üçün monetaristlər əsasən pul-kredit siyasəti vasitələrindən istifadə etməyi təklif edirlər.

İnstitusional-sosioloji məktəb T.Veblen, C.Danlop, C.Helbreyt, L.Ulman kimi iqtisadçılarla təmsil olunmuşdur və məşğulluq sahəsindəki problemlərin müxtəlif növ institusional islahatların köməkliyi ilə həll oluna bilməsi müddəasına əsaslanır. Onlar üçün diqqətin yalnız makroiqtisadi təhlil üzərində cəmlənməsindən uzaqlaşmaq səciyyəvidir və onlar əmək bazarındakı uyğunsuzlaqları iş qüvvəsi və onlara müvafiq olan əməkhaqqı səviyyələrinin strukturundakı sosial,

peşə, sahə, cins və yaş, etnik və sair fərqlərlə izah etməyə cəhd etmişlər.

Məşğulluğun müqavilə nəzəriyyəsi (M.Beyli, D.Qordon, K.Azariadis) neoklassik baxışlarla keynsçi baxışların sintezinə əsaslanan konsepsiyadan ibarətdir. Müəlliflər bir tərəfdən keynsçilərin pulla əməkhaqqının sərtliyi barədə tezislərini qəbul edir və hesab edirlər ki, əmək bazarında uyğunlaşma qiymətlərin deyil, istehsalın və məşğulluğun fiziki həcminin dəyişməsi hesabına baş verir. Digər tərəfdən, bu sərtliyin özü öz şəxsi iqtisadi maraqlarında hərəkət edən fərdlərin optimallaşdırılan davranışından irəli gəlir.

Bu nəzəriyyənin əsasında sahibkarlar və işçilərin öz aralarında uzunmüddətli müqavilə münasibətlərinə girmələri haqqındakı müddəa durur. İşçilər və sahibkarlar arasında razılaşma – «implisit müqavilə» yaranır və ona hüquqi müqavilə tələb etdiyinə görə deyil, hər iki tərəf üçün iqtisadi cəhətdən əlverişli olduğu üçün əməl olunur. İstehsalın tənəzzülü dövründə firma ixtisaslı işçilərin əməkhaqqını azaltmır, dirçəlişi dövründə isə kəskin şəkildə artırmır. Pulla əməkhaqqının dinamikası azaldılmış olur. İstehsalın düşməsi zamanı o aşağı düşmür, dirçəliş dövründə isə həddindən artıq qalxmır, rəvan və bir qaydada artır. Əməkhaqqının səviyyəsi müəyyən proqnozlaşdırılan hədlərdə dəyişir.

Çevik bazar konsepsiyası (R.Buae, Q.Stendinq) XX əsrin 70-ci illərində ən inkişaf etmiş Avropa ölkələrində iqtisadiyyatın quruluş yenidənqurması gedəndə yayılmışdı. Onun əsasına əmək bazarının qaydaya salınmasının zəruriliyi, daha çevik, funksional fərdiləşdirilmiş və qeyri-standart məşğulluqlara (qismən məşğulluq, natamam iş günü və ya həftəsi, qısamüddətli müqavilələr, zəvvarlıq) keçməyin zəruriliyi müddəası qoyulmuşdu. Belə yanaşma iqtisadiyyatın struktur dəyişikliklərinin xərclərini azaltmalıdır və aşağıdakıların hesabına əldə olunur:

- işə götürmənin (azad etmənin) çevikliyinin və məşğulluğun rəngarəngliyi;
- iş vaxtının tənzimlənməsinin, normalaşdırılmamış iş

günlü daha mütəhərrik iş rejiminin müəyyən edilməsinin çevikliyi;

- daha fərdiləşdirilmiş yanaşma əsasında əməkhaqqının tənzimlənməsində çeviklik;
- işçilərin sosial müdafiəsinin metodları və formalarının, həmçinin iş qüvvəsinin həcmi, quruluşu, keyfiyyəti və qiymətinin əmək bazarında tələb və təklifin artıb-azalmasına uyğunlaşmasının çevikliyi.

Ümumiyyətlə çevik əmək bazarı konsepsiyası sahibkarlar və işçilər arasında qarşılıqlı münasibətlərin forma müxtəlifliyinin yaranmasını nəzərdə tutur və məcmu xərclərin, mənfəətliliyin artmasını və əmək bazarında yüksək dinamikliyin saxlanılmasına yönümlənmişdir.

§2. İşsizlik və onun növləri. İşsizliyin səbəbləri

«İşsizlik» məfhumu ilk dəfə 1911-ci ildə Britaniya ensiklopediyasında, sonra isə 1915-ci ildə ABŞ-ın Əmək Nazirliyinin hesabatında işlədilmişdir. Hazırda işsizlik müxtəlif həcmlərdə, formalarda, müddətlərdə olmaqla dünyanın bütün ölkələrində var.

Hazırda iqtisadi nəzəriyyə işsizliyə belə tərif verir.

İşsizlik – sosial-iqtisadi hadisə olub, iqtisadi cəhətdən fəal əhalinin müəyyən hissəsinin işinin və müvafiq olaraq gəlirinin (işləmək istəyənlər adi faiz dərəcəsində iş tapa bilmirlər) olmaması deməkdir.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) standartlarına əsasən, *işsizlərə* yaşı 16 və daha artıq olub, nəzərdən keçirilən dövrdə:

- işi (gəlirli məşğuliyyəti) olmayanlar;
- iş axtaranlar, yəni dövlət və ya kommersiya məşğulluq qurumlarına müraciət edən, elanlardan istifadə edən və ya qəzetdə elan verən, bilavasitə müəssisə rəhbərliyinə (işə götürənə) müraciət edənlər, şəxsi əlaqələrindən istifadə edənlər və ya öz işini yaratmağa cəhd edənlər;
- işə başlamağa hazır olanlar aiddir.

İşsizlərə aid etdikdə yuxarıda sadalanmış meyarların hər üçü gözlənilməlidir.Şagirdlər, tələbələr, təqaüdçülər və əlillər iş axtarmaqla məşğul olduqları və işə başlamağa hazır olduqları təqdirdə statistika orqanları tərəfindən işsiz kimi qeydə alınırlar. Statistika orqanları həm də dövlət məşğulluq xidməti orqanlarında qeydiyyatda olan işsizlərin say göstəricisini də fərqləndirir.

İşsizlik – ***əmək bazarının*** ayrılmaz elementidir. Əmək bazarı bazarın qanunlarına tabe olan əmək, satan və alanların müxtəlif cür və dinamik əlaqələr sistemi şəklində olub, aşağıdakı **spesifik xüsusiyyətlərə** malikdir:

1) sahə, peşə və s. fərqlər nəzərə alınmadan vahid milli bazar kimi nəzərdən keçirilir;

2) işə götürmə münasibətlərinə təsir edən yeganə göstərici kimi əməyin qiyməti (əməkhaqqı dərəcəsi) təhlil olunur. Əmək bazarı makroiqtisadiyyatda tədqiq olunan bazarlar arasında ən qeyri-təkmilidir. Çünki o, yaşayış yerini və ya ixtisasını dəyişməklə, iş yerlərinin olması haqqında məlumatlılığın az olması, nominal əməkhaqqının çevik olmaması ilə iş axtarma prosesinin uzunmüddətli olması ilə fərqlənir. Əmək bazarının qeyri-təkmilliyi tarazlığa çatmağa mane olur və hətta «tam məşğulluq» şəraitində işsizlik olur.

İqtisadi nəzəriyyədə iş yerlərinin sayının iş axtaran adamların sayına müvafiq olduğu ***«tam məşğulluq»*** anlayışı xüsusi əhəmiyyətə malikdir.

Əmək bazarında əməyə tələb və təklifin qarşılıqlı təsiri nəticəsində məşğulluq səviyyəsi müəyyənləşir.

Qərb iqtisadçılarının çoxu bazar şəraitində müəyyən işsizlik şəraitinin olmasını qanunauyğun və zəruri hesab edirlər. C.Keyns ***«məcburi işsizlik»*** anlayışını səmərəli məcmu tələbin kifayət qədər olmamasından alırdı. ***Tam məşğulluq*** dedikdə o, onun elə vəziyyətini başa düşürdü ki, bu zaman səmərəli tələbin genişlənməsindən asılı olaraq məşğul olanların sayı heç cür dəyişmir və buna görə də onun sonrakı artımı sırf inflyasiya artımı olur, yəni öz əksini yalnız nominal kəmiyyətlərin artmasında tapır. Bu zaman məcburi işsizlik

sıfra bərabərdir.

Bir sıra iqtisadçılar işsizliyin olmasını mobil və çevik əmək bazarının zəruri əlaməti hesab edirlər. Belə şəraitdə ***təbii işsizlik səviyyəsindən*** danışmaq olar ki, onun da səciyyələndirilməsi üçün «sürətlənməyən inflyasiya zamanı işsizlik norması» NAIRU (Non Accelerating Inflation Ratt of Unemployment) anlayışından istifadə olunur. ABŞ-da bu göstərici 5,5 – 6,5% təşkil edir. Tam məşğulluq şəraitində işsizlik norması mövcud institusional strukturda əldə oluna bilən və sürətlənən inflyasiyaya səbəb olmayan ən aşağı işsizlik norması kimi başa düşülür. Yaponiyada işsizliyin bir faiz həcmində olduğu məşğulluq vəziyyəti «tam məşğulluq» kimi nəzərdən keçirilir.

M.Fridmenin fikrincə, təbii işsizlik səviyəsi iş qüvvəsindən istifadənin iqtisadi məqsədəuyğunluğunu əks etlirir, necə ki, istehsal güclərinin yüklənmə dərəcəsi əsas kapitaldan məqsədyönlü və səmərəli istifadəni əks etdirir.


Təbii işsizlik səviyyəsi – friksion və struktur işsizliyinin məcmusu və ya sabit iqtisadiyyatla bağlı olan işsizlik səviyyəsidir ki, bu zaman real milli məhsul təbii səviyyəsində olur və həm ləngiyən, həm də sürətlənən inflyasiya olmur və ya bu zaman gözlənilən inflyasiya səviyyəsi həqiqi inflyasiya səviyyəsilə üst-üstə düşür.

İşsizliyin növləri

İşsizliyin növlərinin təsnifatı müxtəlif meyarlardan istifadəyə əsaslanır (şəkil 7.1).

İqtisadi ədəbiyyatda və təsərrüfat praktikasnda işsizliyin əsas növləri friksion, struktur, mövsümi, tsiklik, texnoloji hesab olunurlar.

Friksion işsizlik. Əmək bazarında insanların bir yerdən başqa yerə köçmələri, bir müəssisədən digərinə keçmələri ilə əlaqədar olan müəyyən işsizlik səviyyəsi vardır. İşçilərin onları qane edən iş yeri, işə götürənlərin isə müəyyən ixtisasa malik iş qüvvəsini tapması üçün müəyyən vaxt



Şəkil 7.1. İşsizliyin təsnifatı

lazımdır. İş axtarmaq üçün lazım olan bu vaxt friksion işsizliyin əsasını təşkil edir. Bu onunla şərtlənir ki, hazırda olan iş yerləri haqqında tam dolğun informasiyanın olmadığı və ya bu informasiya həddindən artıq baha olduğu zaman işçilərin sayı ilə boş iş yerləri arasında müəyyən uyğunsuzluq mövcuddur. Onun səviyyəsi yeni iş axtarmaqla bağlı ümumi vaxt məsrəfləri ilə (1 aydan üç ayadək) müəyyənləşir.

Struktur işsizliyi. Struktur işsizliyin əsas səbəbi iqtisadiyyatda struktur dəyişikliklərin baş verməsi nəticəsində iş yerləri ilə işsizlərin sayı arasında peşə-ixtisas və ərazi uyğunsuzluğudur.İqtisadiyyatın inkişafı daim struktur dəyişiklikləri ilə müşayiət olunur: köhnələri sıxışdıran yeni texnologiyalar, əmtəələr yaranır. Kapital bazarında, əmtəə bazarında və əmək bazarında tələbin strukturunda dəyişikliklər baş verir. Nəticədə iş qüvvəsinin peşə-ixtisas strukturunda da dəyişikliklər baş verir ki, bu da onun ərazi və sahə üzrə təkrar bölgüsünü tələb edir. Struktur işsizliyi o zaman baş verir ki, struktur dəyişiklikləri nəticəsində iqtisadiyyatın bir sahəsində işini itirən işçilər digər sahələrdə (bölmələrdə, bölgələrdə) olan boş iş yerlərinə götürülə bilmirlər. Struktur işsizliyi friksion işsizlikdən daha uzunmüddətli (adətən altı aydan artıq) olması ilə fərqlənir və peşə hazırlığı aşağı olan və ya köhnəlmiş peşə sahibləri üçün səciyyəvi olur və bir də iqtisadi cəhətdən geri qalmış rayonların əhalisini əhatə edir.

Struktur işsizliyin formalarından biri ***texnoloji işsizlikdir*** ki, yeni texnologiyaların və yeni avadanlıqların tətbiqi nəticəsində yaranır, bu da insanların maşınla əvəzlənməsinə və onların azad olmasına aparır. Özü də bu zaman bazarın həcmi artarsa, məşğulluq əsasən yeni peşə və daha yüksək peşə hazırlığına malik işçilərin cəlb edilməsi hesabına artacaq.

Keçid dövründə Hərbi sənaye kompleksinin (HSK) konversiyasının aparılması və konyunkturanın artıb-azalmalarının güclənməsi nəticəsində xüsusi əhəmiyyət kəsb edən xüsusi ***konversiya*** və ***iqtisadi*** işsizliklərin fərqləndirilməsi

fikri söylənilir.

Mövsümi işsizlik müəyyən sahələrin: il ərzində əməyə tələbin kəskin dəyişildiyi kənd təsərrüfatı, tikinti, ov və balıq ovu və s. istehsal həcmində mövsümi tərəddüdlərlə şərtlənir. Əməyə tələbdə mövsümi tərəddüdlər, bir qayda olaraq, istehsal prosesinin ritminin xüsusiyyətləri ilə müəyyənləşirlər. Buna görə də mövsümi işsizliyin ölçüləri ümumi şəkildə proqnozlaşdırıla və işə götürənlə işçi arasında müqavilə bağlananda nəzərə alına bilər.

Tsiklik işsizlik. Onun əsasını iqtisadi tənəzzül və tələbin qənaətbəxş olmaması ilə əlaqədar məhsul istehsalı və məşğulluğun həcmindəki tsiklik dəyişikliklər təşkil edir. Tsiklik işsizlik real ÜMM-in azalması və iş qüvvəsinin bir qisminin azad olunması ilə əlaqədardır ki, bu da işsizlərin sayının artmasına səbəb olur. Bir də ***həqiqi*** (real) və ***saxta işsizliyi*** fərqləndirmək lazımdır. Birinci halda adam əmək qabiliyyətinə malikdir və işləmək istəyir, lakin əmək bazarında yaranmış vəziyyətə görə iş tapa bilmir. İkincisi bu və ya digər səbəblərdən əmək fəaliyyəti ilə məşğul olmaq istəməyənləri səciyyələndirir. İşsizlik ***aşkar*** və ***gizli, uzunmüddətli*** və ***qısamüddətli*** ola bilər. Uzunmüddətli işsizliyə tsiklik və struktur, qısamüddətliyə isə mövsümi və friksion işsizlik aiddir.

Müasir Rusiyada aşağıdakı növ gizli işsizləri göstərmək olar:

- məcburi məzuniyyətdə olanlar və qısaldılmış qrafik üzrə işləyənlər;
- işləyib, amma əməkhaqqı almayanlar;
- işin müvəqqəti və ya nisbətən daimi olmaması səbəbindən tam məşğul olmayanlar (məsələn, istehsalda inzibati məzuniyyətlərə və rəsmən iş qrafikinin qısaldılmasına səbəb olmayan dayanma halları nəticəsində);
- ixtisasları üzrə işləmək istəyi olduğu halda onların ixtisas səviyyəsi və təcrübəsinə müvafiq olmayan işdə işləyənlər;

İşi olmayıb, iş axtaran və həmin işə başlamağa hazır

olan, lakin nəzarət həftəsi ərzində təsadüfi gəliri olanlar;

İşi olmayan, işləmək istəyən və işə başlamağa hazır olan, amma çox da fəal iş axtarmayanlar (belə desək, həvəsdən düşmüş işsizlər).

BƏT-nın qiymətləndirmələrinə görə, gizli işsizliyin miqyası aşkar işsizliyin miqyasından xeyli çoxdur. Rusiyada aşkar işsizliyin dinamikasının rəvanlığı əsasən yuxarıda sadalanmış və statistik uçota çətin gələn və standart göstəricilər dəsti vasitəsilə aşkarlana bilməyən gizli formaların geniş yayılmasının nəticəsidir.

Könüllü işsizlik onunla şərtlənir ki, işçilərin müəyyən qismi bu və ya digər səbəbdən (kollektiv müqaviləyə müvafiq olaraq və ya öz iş qüvvəsini daha yaxşı əmək şəraitli və ödənişli, daha əlverişli tətbiq etmək məqsədilə) əmək bazarına çıxır və «könüllü» işsiz olur. Bundan başqa, əmək bazarının təhlili zamanı ***təkrar*** (dövri) işsizlik və iş tapmağa ümidini itirib birdəfəlik iş qüvvəsi sırasından çıxan şəxsləri nəzərdə tutan ***durğunluq*** işsizliyi kimi hadisələri nəzərə almaq lazımdır.

Müddətinə görə ***durğunluq*** və ***axar*** işsizliklər fərqləndirilir. İşsizliyin müddəti iş yerinin itirilməsi ilə yeni iş yerində işə düzəlmək arasındakı zaman kəsiyi ilə ölçülür.

İşsizliyin ***axar forması*** işçinin müəssisədən öz istəyi və müdiriyyətin təşəbbüsü ilə işdən getməsi ilə səciyyələnir. İşdən getmənin səbəbləri olduqca müxtəlif olub, həm obyektiv, həm də subyektiv səciyyə daşıyır. Keçid dövründə işçilərin öz istəkləri ilə işdən getməsinə səbəb müəssisələrin maliyyə vəziyyəti, onun ölçüləri (kiçik, böyük), mülkiyyət forması (dövlət, özəlləşdirilmiş, xüsusi şəxslər tərəfindən alınmış) olmuşdu. İşdən çıxarılma və ixtisara salınmaq səbəbindən işdən çıxarılma əmsalı özəlləşdirilmiş müəssisələrdə xüsusi və dövlət müəssisələrinə nisbətən daha böyükdür.

Ümumi və ***qeydə alınan*** işsizliklərin üst-üstə düşməməsi transformasiya olunan iqtisadiyyatlarda formalaşan əmək bazarının səciyyəvi xüsusiyyətidir. Belə ki, Rusiyada işsizliyin müxtəlif növlərinin qeydə alınması formal olaraq

tanınsa da, praktikada əmək bazarının vəziyyətinin qiymətləndirilməsində, böhranlı regionların üzə çıxarılmasında, məşğulluq siyasətinin işlənib hazırlanmasında və işsizlərin əmək bazarına adaptasiyasında əsas oriyentir kimi qeydə alınmış və ya ***rəsmi*** adlandırılan ***işsizliyin*** səviyyəsi götürülür.

Rusiyada qeydə alınan işsizliyin göstəricisi əmək bazarının yalnız bir qismini səciyyələndirir. Müxtəlif illərdə qeydə alınan işsizlik Rusiyadakı bütün işsizlərin üçdə birindən yeddidə birinə qədərini əks etdirirdi.

Beləliklə, qeydə alınan işsizlik haqqında verilənlər heç də həmişə işsizliyin əsl miqyasının, hətta onun inkişaf tendensiyasının göstəricisi qismində çıxış edə bilməz. İş qüvvəsinin tədqiqi vasitəsilə aşkarlanan işsizlik parametrlərində də real vəziyyətin xeyli təhrif olunmasına yer qalır. Bununla belə, ümumi işsizliyin göstəricisinə xas olan təhriflərin özünəməxsusluğu belədir ki, onlar nisbətən sabitdir və konyunktura amillərinin təsiri altında tərəddüdlərə daha az meyillidirlər (cədvəl 7.1 və 7.2).

Cədvəl 7.1

Məşğulluq üzrə əhalinin öyrənilməsinin verilənləri üzrə işsizlərin miqdarı

Göstərici	2000-ci il	2001-ci il	2002-ci il	2003-cü il	2004-cü il	2005-ci il
İşsizlərin sayı, min nəf.	7059,1	6287,9	6154,7	5683,3	5775,2	5208,3
Onlardan: Tələbələr, şagirdlər, təqaüdçülər, min nəf.	686,5	726,9	633,1	645,6	777,3	610,5
faiz	9,7	11,6	10,3	11,4	13,5	11,7
Qadınlar, min nəf.	3314,2	2910,2	2866,3	2675,9	2873,2	2406,9
faiz	46,9	41,5	46,6	47,1	49,8	46,2
Kənd yerində yaşayanlar, min nəf.	1894,7	1834,6	1939,8	1870,9	1876,6	1956,6
faiz	26,8	29,2	31,5	32,9	32,5	37,6

Kütləvi işsizlik ən kəskin sosial-iqtisadi problemlərdən biridir və cəmiyyətin və insanlar arasında sivil münasibətlərin mövcudluğu üçün real təhlükədir.

Region işsizliyi həmin ərazidə iş qüvvəsinə tələblə onun təklifi arasında nisbətin pozulması nəticəsində yaranır. O, ərazilərin qeyri-bərabər iqtisadi inkişafının təsiri altında formalaşır, demoqrafik, tarixi, mədəni və başqa spesifik amillərin təsirinə məruz qalır.

Cədvəl 7.2

Əmək və məşğulluq üzrə Federal Xidmətin məlumatları üzrə işsizlərin sayı (ilin sonuna)

Göstərici	2000-ci il	2001-ci il	2002-ci il	2003-cü il	2004-cü il	2005-ci il
Dövlət məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsizlərin sayı, min nəf.	1037,0	1122,7	1499,7	1638,9	1920,3	1830,1
Onlardan: Qadınlar, min nəf.	714,8	763,2	1012,6	1106,2	1272,6	1199,5
faiz	68,9	68,0	67,5	67,5	66,3	65,5
Kənd yerində yaşayanlar, min nəf.	325,3	388,1	603,0	732,8	890,8	891,2
faiz	31,4	34,6	40,2	44,7	46,4	48,7
Dövlət məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsizlərin işsizlərin ümumi sayına nisbəti, faizlə	14,8	17,8	24,4	28,7	33,3	35,1

Mənbə: Россия в цифрах. 2006: Краткий статистический сборник / Росстат.- M., 2006. C. 462.

İşsizliyin yalnız Rusiya üzrə orta göstəricilərə əsaslanan təhlili həm regionlar üzrə, həm də regionların özlərində işsizliyin otuz dəfədən də artıq fərq edən göstəricilərini gizləməklə istər-istəməz problemin kəskinliyini aradan götürür. Bu zaman işsizliyin ümumi artımı fonunda onun regionlar üzrə differensiasiyasının güclənməsinə meyil müşahidə olunur. Əgər 1993-cü ildə 60 regionda işsizliyin sə-

viyyəsi 7%-dən artıq deyildisə, XXI əsrin əvvəlində 85 regionda bu həddi keçilmiş, 23 regionda işsizlik 13%-i ötmüz, onlardan 14-də isə 20%-ə yaxın olmuşdu. Beləliklə, Rusiyanın bir sıra regionlarında işsizlik Orta Avropa səviyyəsindən iki dəfə çoxdur.

Ocaqvari işsizlik – işsizliyin regional differensiasiyası əmək bazarında vəziyyətin region daxilində yekrəng olması ilə güclənir. Belə ki, Rusiyanın əksər regionlarında (Moskva və S.-Peterburq istisna olmaqla) ocaqvari işsizliyi olan rayonlar var. Region daxilində işsizliyin differensiasiyası hərdən on və daha artıq səviyyəyə çatır. İşsizlik müəyyən regionlarda kifayət qədər möhkəm kök atır və kənardan müdaxilə olmazsa, praktik olaraq aradan qaldırıla bilmir. Ocaqvari işsizliyin formalaşmasına rəvac verən əsas amilləri göstərmək olar:

1) bir çox şəhər və rayonların monosahə ixtisaslaşması;

2) əhalinin yüksək nəqliyyat xərcləri və yaşayış yerlərinin qiymətindən irəli gələn aşağı ərazi mobilliyi;

3) iqtisadi dəyişikliklərin aparılmasına region hakimiyyətlərinin fərqli yanaşmaları;

4) miqrasiya proqramlarına həvəsləndirmənin əksinə olaraq dövlət maliyyə dəstəyinin gərginliyin zəiflədilməsinə yönəldilməsi.

İşsizliyin səbəbləri

Məşğulluq nəzəriyyəsinin təkamülünü nəzərə alaraq, işsizliyin səbəbləri haqqında məsələyə dair ümumi bir nəticəyə gəlmək olar və bu da ondan ibarətdir ki, təsərrüfatın bazar formasında təşkilinin özü qaçılmaz olaraq işsizliyi yaradır, çünki o nəzərdə tutur:

1) rəqabət şəraitində müəssisələrin müflisliyini;

2) texniki və elmi tərəqqi şəraitində kapital yığımı;

3) istehlak, yığım və investisiyada disproporsionallıq;

4) istehsalın tsiklik xarakteri;

5) bütövlükdə müasir bazarda və hər şeydən öncə əmək bazarında rəqabətin qeyri-təkmilliyi;

6) bazar infrastrukturunun qeyri-təkmilliyi.

Rusiyanın əmək qabiliyyətli əhalisinin məşğulluğunun azalmasına səbəb olan konkret səbəblərdən aşağıdakıları göstərmək olar:

Birinci səbəb. Personal artıqlığının olması (SSRİ-də sovet dövründə olduğu kimi) yeni texnikanın və əməyə qənaət edən texnologiyaların tətbiqini ləngidir, əmək məhsuldarlığının artmasına mane olur. Digər tərəfdən, artıq işçilərə əməkhaqqı ödəmək istehsal xərclərinin əsassız artmasına və buradan da istehsal olunan əmtəələrin rəqabət qabiliyyətliliyinin zəifləməsinə səbəb olur. Hədsiz çox iş yerinin olması iş qüvvəsinin süni çatışmazlığı deməkdir, bu isə əmək intizamını pozur, daha yaxşı işləməyə marağı boğur. İşsizliyin bu səbəbi ondan ibarətdir ki, xüsusi mülkiyyətə və bazar təsərrüfatçılıq prinsiplərinə keçid faktının özü əvvəllər də işsiz, lakin indiki kimi açıq şəkildə deyil, gizli şəkildə, olan xeyli insanın işsizlər sırasına salınması deməkdir.

İkinci səbəb. Müəssisələrin təsərrüfatçılığının bazar meyarları ilə dəyərləndirilməsinə keçid onların çoxunun qənaətbəxş olmadığını aşkarlayır, çünki onlar məhsulların növləri, çeşidləri, keyfiyyəti, qiyməti üzrə real tələbə uyğunlaşa bilmirlər. Belə müəssisələri adi üsulla özəlləşdirmək, çətin ki, real olsun, onları əvvəlcə qaydaya salmaq, yəni müflisləşmədən qurtarmaq, sonra isə bütövlükdə borcları ödəməyə razı və qabil olan və istehsal investisiyalarını həyata keçirə biləcək fiziki və ya hüquqi şəxslərə satmaq lazım gəlir. Aydındır ki, bu kimi yeni sahibkarlar yalnız lazımsız personalın yükündən tam azad olmaq şərtilə sahibkar olmağa risk edərlər. Bu da işsizlər sırasını artıran daha bir istiqamətdir.

Üçüncü səbəb. Dövlət müəssisələrinin çoxu qiymətlərin liberallaşdırılmasını yalnız özlərinin ifrat xərclərini ödəmək üçün deyil, həm də gəliri xeyli artırmaq (mənfəət və əməkhaqqı) üçün qiymətləri nəzarətsiz artırmaq imkanı kimi başa düşdülər. İlk vaxtlar bu alınırdı, lakin belə vəziyyət uzun müddət davam edə bilməz. Tezliklə qiymətlərin nəzarətsiz

artımı xammalın, enerjidaşıyıcılarının, komplektləşdiricilərin dəfələrlə bahalaşması və son nəticədə bütün texnoloji istiqamətlər üzrə ödəmələr böhranına səbəb oldu. O yalnız potensial müflislərdən deyil həm də məhsulu cəmiyyətə lazım olan, həddindən artıq gərəkli olan, lakin istehlakçı tərəfindən ödənilə bilməyən müəssisələrdən də yan keçmədi. Bu böhran da işsizliyi qidalandıran amillərdən biridir.


Dördüncü səbəb. Bazar islahatları yalnız dərin struktur yenidənqurması ilə müşayiət olunduqda uğurlu olurlar. Belə yenidənqurma yalnız mikroiqtisadiyyatı deyil (konkret müəssisənin restrukturlaşması), həm də makroiqtisadiyyatı əhatə edir: resursların yalnız sərt bazar rəqabəti şəraitində uğuru real perspektivləri olan sahələrdə cəmlənməsinə və müvafiq olaraq məhsuluna tələb olmayan sahələrin aradan çıxmasına aparır. Aydındır ki, iqtisadiyyatına dərin disproporsiyalar xas olan Rusiyada hər şeydən öncə HSK-nin sürətlə artırılması üçün baza olan A qrupu hədsiz şişirdilmişdir ki, belə yenidənqurma kütləvi struktur işsizliyinə səbəb olar.

Beşinci səbəb. Kütləvi işsizliyin yuxarıda sadalanan amilləri ilə yanaşı bizim şəraitdə işsizliyə rəvac verən spesifik amillər də mövcuddur. SSRİ-nin sabiq müttəfiq respublikaları (hazırda müstəqil dövlətlər), həmçinin Rusiya ilə Şərqi Avropa dövlətləri arasında mövcud olan təsərrüfat əlaqələrinin qırılması nəzərdə tutulur. Əlaqələrin belə qırılmaları müəssisələrin vəziyyətini həm maddi-texniki təminat üzrə, həm də məhsulun satışı üzrə pisləşdirdi ki, bu da əlbəttə işsizliyi qidalandırmaya bilməz. Sabiq SSRİ üçün spesifik olan amillərdən danışanda açıq-aşkar həddindən artıq şişirdilmiş HSK-dən danışmamaq qeyri-mümkündür. Onun iqtisadiyyatda xüsusi çəkisinin normallaşdırılması iş yerlərinin ümumi sayının azalmasında xeyli hiss olunacaq amildir, özü də hərbi müəssisələrin konversiya məsələsi praktikada o qədər də asan və sürətlə gedən proses olmadı. Buna görə də hazırda işsizliyin məhz hərbi zavodların cəmləşdiyi rayonlarda daha kəskin şəkil alması təəccüblü deyil.

§3. İşsizliyin göstəriciləri və onun dinamikasını müəyyənləşdirən amillər

İşsizlik mürəkkəb çoxsəpkili hadisədir. İş qüvvəsinə malik yaşlı əhali əmək bazarına nəzərən tutduqları vəziyyətdən asılı olaraq bir neçə əsas dərəcəyə bölünür.

Bütün əhali aşağıdakı təsnifatda göstərilə bilər (şəkil 7.2).



Şəkil 7.2. Yaşlı əhalinin təsnifatı

İş qabiliyyətli əhali yaşına və səhhətinə görə işləməyə qabil olanların hamısıdır. Əhalinin müxtəlif kateqoriyalara bölünməsi onların iqtisadiyyatın bazar və ya qeyri-bazar bölmələrində məşğul olmalarına müvafiq olaraq həyata keçirilir. Yaşlı əhali sırasından qeyri-bazar strukturlarına, yəni ordu, polis, dövlət aparatı kimi dövlət institutlarına yönümlənən ***institusional əhali*** fərqləndirilir. Yaşlı əhalinin yerdə qalanlarının hamısı qeyri-institusionaldır. Məşğul əhaliyə iqtisadiyyatın bazar strukturlarına yönümlənənlər aid edilir.

İş qüvvəsinə həm məşğullar, həm də işsizlər aid edilir. İş qüvvəsi tərkibinə daxil olmayanları xüsusi qrupa aid edirlər. Həmin qrupa işi olmayan, amma iş axtarma tələblərinə cavab verməyənlər daxildir. Güman edilir ki, həmin adamlarda əmək bazarında iş axtarmaq üçün maraq yoxdur. Bir qrup adamlar da var ki, onlar işləmək istəyir, lakin bu və ya

digər səbəbdən iş axtarmaqdan imtina etmişlər – bu, iş tapmağa ümidini itirənlərdir.Həmin qrup adamları işsizlərə deyil, iş qüvvəsi tərkibinə daxil olmayanlara aid edirlər.

Məşğulluq və işsizlik vəziyyətini aşağıdakı statistik göstəricilər səciyyələndirir:

- qeyri-institusional əhali $M_{qiə}$;
- məşğulların miqdarı M_m;
- işsizlərin miqdarı M_i;
- iş qüvvəsi tərkibinə daxil olmayanların miqdarı M_{qiq}.

Bu göstəricilər arasında aşağıdakı asılılıqlar mövcuddur:

- iş qüvvəsinin sayı
$$M_{iq} = M_m + M_i;$$
- qeyri-institusional əhali
$$M_{qiə} = M_m + M_i + M_{qiq};$$
- əhalinin məşğulluq səviyyəsi
$$S_m = M_m / M_{qiə};$$
- işsiz əhalinin sayı
$$S_i = M_i / (M_m + M_i);$$
- işsizlik norması
$$N_i = M_i / (M_m + M_i) \cdot 100\%;$$
- əhalinin iş qüvvəsi tərkibinə cəlb olunma səviyyəsi
$$S_{iqc} = (M_m + M_i) / M_{qiə}.$$

Bu göstəricilərin makroiqtisadiyyatda səviyyəsi və dinamikası bir sıra amillərdən: demoqrafik, cinsi və yaş, etnik, əhalinin sosial tərkibi, ayrı-ayrı regionlarda və sahələrdə əmək bazarında tələb və təklifin nisbətindən asılıdır.

İşsizliyin səviyyəsi qərb statistikasında istifadə olunan göstəricilərin – onun yayılması və müddəti - köməkliyi ilə konkretləşdirilə bilər.

İşsizliyin yayılmasının göstəricisi işsizliyin iş qüvvəsini əhatələməsini səciyyələndirir. İşsizliyin müddəti göstəricisi bir işsizlik halının orta müddətini səciyyələndirir. Orta hesabla ABŞ-da, məsələn, qısamüddətli işsizlik beş həftədən

az, uzunmüddətli isə altı aydan çox çəkir.

Uzunmüddətli işsizlik fenomeni ilə üzləşmiş ölkələrin praktik olaraq hamısının təcrübəsi göstərir ki, uzunmüddətli işsizliyin tənəzzül dövründə sürətlə artan sayı iqtisadi konyunktura yaxşılaşdıqca olduqca ləng azalır. RF Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 1994-cü ildən 2000-ci ilə qədər orta iş axtarma müddəti (bitməmiş işsizlik) 6,7 aydan 9,1 aya qədər artmışdı.

Sonrakı dövrdə orta iş axtarma müddətinin cüzi azalması meyili müşahidə olunur, lakin qeyd etmək lazımdır ki, durğunluq işsizliyi vəziyyətində qeyri-məşğulların sayı artır. 2004-cü ildə işsizlərin orta iş axtarma müddəti 8,5 ay təşkil etmişdi. İşsizlik vəziyyətində olma stajı bir il və daha artıq olanlar işsizlərin 38,4%-ni təşkil etmişdi. İşsiz şəhər əhalisi arasında durğunluq işsizliyi 34%, kənd əhalisi arasında xeyli artıq – 47%-ə yaxın təşkil etmişdi.

RF-da əhalinin iqtisadi fəallığının azalması yalnız əhalinin ümumi sayının azalması ilə deyil, həm də əmək qabiliyyətli əhalinin artması kimi əks meyillə müşayiət olunurdu ki, bu da əhalinin xeyli hissəsinin iş qabiliyyətli yaşa çatması ilə əlaqədardır. Nəticədə əmək bazarında gərginlik artırdı. Amma XX əsrin sonuna işsizliyin artmasını dayandırmaq mümkün oldu. 2002-ci ildə qeyda alınan işsizlik yenə də artmağa başladı və 2005-ci ilin yanvarında 1,9 milyon nəfərə çatdı. Bu dövrdə işsizliyin artması məşğulluq siyasətinin aparılması zamanı yol verilmiş səhvlərin nəticəsi idi. Əhalinin iqtisadi fəallığının azalması əmək qabiliyyətli əhalinin mütləq məşğulluğunun ləğvi və əmək bazarında azad çıxış etmə hüququnun əldə olunması və ya əməkdə iştirakdan imtina və başqa səbəblərlə əlaqədardır (cədvəl 7.3, 7.4, 7.5).

Əmək və məşğulluq üzrə Federal xidmət bütün ölkə miqyasında hər ay təqribən 60 min ailədə seçmə sorğular apararaq işləyənlərin və işsizlərin sayını müəyyənləşdirməyə çalışır.

İşsizliyin səviyyəsinin dəqiq qiymətləndirilməsi aşağıdakı amillərə görə çətinləşir:

İqtisadi fəal əhalinin sayı, min nəf. *Cədvəl 7.3*

RF və onun dairələri	2000-ci il	2001-ci il	2002-ci il	2003-cü il	2004-cü il	2005-ci il
Rusiya Federasiyası	72770	71547	72564	72754	73401	73881
Mərkəzi federal dairə	19531	19375	19597	19641	19795	19808
Şimal-Qərb federal dairəsi	7395	7346	7372	7402	7419	7515
Cənub federal dairəsi	9993	9872	10267	10306	10659	10745
Volqayanı federal dairəsi	15785	15531	15637	15521	15614	15741
Ural federal dairəsi	6360	6215	6242	6465	6431	6498
Sibir federal dairəsi	10078	9694	9942	9884	9974	10086
Uzaq Şərq federal dairəsi	3628	3513	3488	3534	3510	3489

İşsizlərin sayı, min nəf. *Cədvəl 7.4*

RF və onun dairələri	2000-ci il	2001-ci il	2002-ci il	2003-cü il	2004-cü il	2005-ci il
Rusiya Federasiyası	7700	6424	5813	6227	6016	5596
Mərkəzi federal dairə	1516	1165	1000	999	919	846
Şimal-Qərb federal dairəsi	710	557	460	516	444	416
Cənub federal dairəsi	1538	1372	1341	1595	1643	1526
Volqayanı federal dairəsi	1543	1306	1199	1180	1217	1152
Ural federal dairəsi	640	573	509	482	482	435
Sibir federal dairəsi	1294	1093	1001	1156	1002	946
Uzaq Şərq federal dairəsi	459	358	303	299	309	276

Cədvəl 7.5

İşsizliyin səviyyəsi, %.

RF və onun dairələri	2000-ci il	2001-ci il	2002-ci il	2003-cü il	2004-cü il	2005-ci il
Rusiya Federasiyası	10,6	9,0	8,0	8,6	8,2	7,6
Mərkəzi federal dairə	7,8	6,0	5,1	5,1	4,6	4,3
Şimal-Qərb federal dairəsi	9,6	7,6	6,3	7,0	6,0	5,5
Cənub federal dairəsi	15,4	13,9	13,1	15,5	15,4	14,2
Volqayanı federal dairəsi	9,8	8,4	7,7	7,6	7,8	7,3
Ural federal dairəsi	10,1	9,2	8,2	7,5	7,5	6,7
Sibir federal dairəsi	12,8	11,3	10,1	11,7	10,0	9,4
Uzaq Şərq federal dairəsi	12,6	10,2	8,7	8,5	8,8	7,8

Mənbə: Россия в цифрах. 2006: Краткий статистический сборник / Росстат.- М., 2006.

1. Qismən məşğulluq. Rəsmi statistikada natamam iş günü işləyənlərin hamısı tam məşğullar siyahısına daxildirlər. Onları tam məşğul hesab edən rəsmi statistika işsizliyin səviyyəsini aşağı salır.

2. İş tapmağa ümidini itirən işçilər. İş tapmağa ümidini itirən işçiləri işsizlər sırasına aid etməyən rəsmi statistika işsizliyin səviyyəsini aşağı salır.

3. Yanlış informasiya. İşləməyənlərin bəziləri həqiqətən iş axtarmadıqları halda iş axtardıqlarını bildirirlərsə, bu

halda işsizliyin səviyyəsi şişirdilmiş olur, gizli iqtisadiyyat da işsizliyin səviyyəsinin şişirdilməsinə səbəb olur.

Beləliklə, işsizliyin səviyyəsi ölkənin iqtisadi vəziyyətinin ən mühüm göstəricilərindən olsa da, onu bizim iqtisadiyyatımızın sağlamlığının dəqiq barometri hesab etmək olmaz.

İşsizliyin dinamikasına təsir edən amillərdən ən əsasları aşağıdakılardır:

1. Demoqrafik amillər – əhalinin doğuş, ölüm səviyyəsində, cins və yaş strukturunda, orta ömür uzunluğunda, miqrasiya axınlarının istiqaməti və həcmlərində dəyişikliklər nəticəsində iqtisadi fəal əhalinin payının dəyişməsi.

2. Texniki-iqtisadi amillər – ETT- nin iş qüvvəsinə qənaəti şərtləndirən sürəti və istiqamətləri. Elmtutumlu Rusiya istehsallarının dağıdılması, iqtisadi və sosial nəticələr nəzərə alınmadan bütün səviyyələrdə konversiyaların aparılması müəssisələrin kütləvi müflisləşməsi və iş qüvvəsinin uçqunvari artması təhlükəsini yaratdı.

3. İqtisadi amillər – milli istehsalın, investisiya fəallığının, maliyyə-kredit sisteminin vəziyyəti, qiymətlərin və inflyasiyanın vəziyyəti. A.Oukenin təklif etdiyi qanuna görə, işsizliyin səviyyəsi ilə ÜMM arasında əks əlaqə mövcuddur: hər bir işsizlik «dalğası» ÜMM-in real həcminin azalması ilə əlaqədardır.

4. İnstitusional amillər – qanunvericiliyin, bazarın infrastrukturunun vəziyyəti, qaydalar, adət-ənənələrin spesifikliyi və s.

İşsizliyin dinamikasını izah etmək üçün *gisterezis* haqqında fərziyyədən istifadə olunur ki, həmin fərziyyəyə görə, bəzi makroiqtisadi dəyişilənlər onları törədən səbəblər aradan qaldırılandan sonra öz ilkin qiymətlərinə qayıtmağa qabil deyildirlər. Dəyişənlərin bir qisminin müvəqqəti dəyişmələri digərlərinin daimi dəyişmələrinə səbəb olur. Məsələn, işsizlər insan kapitalı olan bacarıq və səriştələrinin bir hissəsini itirirlər və işsizliyin artımına səbəb olan şok təsiri dayanandan sonra da işləyə bilmirlər.

§4. İqtisadi və sosial (qeyri-iqtisadi) xərclər. Ouken qanunu

İstənilən cəmiyyətdə işsizlik həmişə müəyyən ***sosial və iqtisadi xərclərlə*** bağlıdır. Cəmiyyətin iqtisadi itkiləri istehsal olunmamış əmtəə və xidmətlərin dəyəri, dövlət büdcəsinə vergi daxilolmalarının azalması, işsizliyə görə ödənişlərə xərclərin artması, əmək, məşğulluq və sosial təminat üzrə böyük dövlət orqanları aparatının saxlanılmasının dəyərləndirilməsi ilə ölçülür. İşsizlik cəmiyyətdə sosial baxımdan mənfi hadisələrin güclənməsinə, gərginliyin, sosial patologiyaların artmasına səbəb olur. Amerika alimi M.Harvey Brener 1970-ci ildə ABŞ əhalisi haqqında verilənlərin təhlili əsasında qeyd edirdi ki, 30 il ərzində işsizliyin 1% artımı, onun altı il müddətində qalması şərti ilə, «sosial patologiya» göstəricilərinin: ümumi ölümlülüyün – 2%, sui-qəsd hadisələrinin – 4,1%, qətl hadisələrinin – 5,7%, dustaqxanaya düşənlərin sayının – 4%, psixi patologiyalar nəticəsində xəstələrin sayının – 4% - artmasına səbəb olur. Bütövlükdə isə cəmiyyətin işsizliyin sosial mənfi nəticələrinin aradan qaldırılmasına dövlətin xərclərinin artması ilə bağlı məcmu xərcləri xeyli böyük kəmiyyətdir.

Müasir iqtisadi ədəbiyyatda işsizliyin iqtisadi və qeyri-iqtisadi xərcləri fərqləndirilir.

İşsizliyin ÜDM-in həcminin geri qalması ilə ifadə olunan iqtisadi xərcləri cəmiyyətin resursları məcburən hərəkətsiz qalanda itirdiyi əmtəə və xidmətlərdir.

İşsizliyin qeyri-iqtisadi xərcləri

Tsiklik işsizlik sosial fəlakətdir. Depressiya fəaliyyətsizliyə səbəb olur, fəaliyyətsizlik isə ixtisasın itirilməsinə, özünə hörmətin, mənəvi dəyərlərin itirilməsinə, ailələrin dağılmasına, bir də ictimai və siyasi qarışıqlıqlara səbəb olur.

İşsizliyin faktik səviyyəsi ilə təbii işsizlik norması arasındakı fərq konyunktur işsizliyini təşkil edir.

Konyunktur işsizliyin olması istehsal güclərindən tam istifadə etməməsini və ÜDM itkisini qaçılmaz edir. Tam məşğulluq şəraitində ÜDM-in potensial mümkün həcmi ilə onun konyunktur işsizlik şəraitindəki faktik həcmi arasındakı fərq ***konyunktur fərqi*** təşkil edir. Konyunktur işsizliklə konyunktur fərq arasında sabit əlaqə mövcuddur (A.Oyken qanunu). ***Oyken qanunu,*** bir tərəfdən, ÜDM-in dinamikası ilə tam məşğulluq səviyyəsi, digər tərəfdən isə konyunktur işsizliyin səviyyəsi ilə konyunktur fərq arasında asılılığı müəyyənləşdirir. Oyken qanununun xarakteristikası üzərində bir qədər təfərrüatlı dayanaq.

İşsizliyin faktik səviyyəsi işsizliyin təbii səviyyəsindən yüksəkdirsə, bu halda ölkə ÜDM-in bir qismini itirir. İşsizliyin artması səbəbindən məhsul və xidmətlərin potensial itkisinin hesablanması Amerika iqtisadçısı A.Oykenin verdiyi qanun əsasında həyata keçirilir:

$$(Y_f - Y) / Y = a\,(U - U_n),$$

burada Y_f – tam məşğulluq şəraitində məhsul istehsalının səviyyəsi – potensial ÜDM;

Y – faktik məhsul istehsalı;

U – işsizliyin faktik səviyyəsi;


U_n – tam məşğulluq şəraitində işsizlik norması (təbii işsizlik norması);

a – Oyken əmsalı, empirik yolla hesablanmışdır və müxtəlif ölkələrdə müxtəlifdir. Onun qiymətləri çox vaxt 2 və 3 arasında olur ki, bu da tsiklik işsizlik nəticəsində ÜDM itkilərinin böyük olmasını göstərir.

Oyken qanununa görə, işsizliyin faktik səviyyəsinin onun təbii səviyyəsindən 1% artıq olması faktik ÜDM-in potensial mümkün ÜDM-lə müqayisədə orta hesabla 2,5% azalmasına səbəb olur. Məsələn, əgər cari ildə faktik ÜDM 4500 mlrd. doll., işsizliyin faktik səviyyəsi - 9%, onun təbii səviyyəsi isə 6% olmuşdursa, onda iqtisadiyyat 337,5 mlrd. doll. itirmişdir ki, bu da faktik istehsal olunmuş ÜDM-in 2,5% × 3,0% = 7,5%-ni təşkil edir. Tam məşğulluq şəraitində potensial ÜDM 4837,5 mlrd. doll. olardı. İşsizliyin faktik

səviyyəsi ötən ilin göstəricisinə nisbətən dəyişməmişsə, onda real ÜDM-in artım sürəti ildə 3% təşkil edir. Bu sürət əhali artımı, kapital yığımı və texniki tərəqqi ilə şərtlənir. İşsizlik səviyyəsinin hər 1% artımında (əvvəlki ilin göstəricisinə nəzərən) real ÜDM-in artım sürəti 2,5% azalır. Uzunmüddətli dövrdə istehsal həcminin artırılması, eyni zamanda, əlavə kapitalın, iş qüvvəsinin cəlb edilməsi və texniki tərəqqiyə nail olunması vasitəsilə mümkündür. Qısamüddətli dövrdə (2 ildən 5 ilə qədər) tələb dəyişdikdə və firma buna cavab olaraq öz istehsal həcmində dəyişikliklər etdikdə xərclərini dəyişmək mümkün olan yeganə istehsal amili əməkdir. Kapital yığımı və texniki tərəqqi tələb artanda istehsalın artırılmasına cüzi rəvac verirlər. Əgər tələb müvəqqəti olaraq düşürsə, onda firma öz əməkdaşlarını qısaldılmış iş qrafiki üzrə işə keçirir, işə götürmələri dayandırır və ən pis halda işdən çıxarmalara müraciət edir. Əmək məsrəflərini azaltmaq üçün firmalar iş gününün müddətini və ya işləyənlərin sayını dəyişə və ya hər ikisinə müraciət edə bilir. Əsas kapitaldan istifadə həddi əsas iş vaxtından əlavə işləmək, yəni həmin avadanlığın gün ərzində daha çox saat və ya həftə ərzində daha çox gün istismar edilməsi hesabına mümkündür.

Oyken qanununa görə, iqtisadi tənəzzül dövründə işsizlik artır, istehsal artdıqda isə (trendə nisbətən) azalır. Bu asılılıq şəkil 7.3-də göstərilmişdir.



Şəkil 7.3. Oyken əyrisi

Müxtəlif ölkələrdəki işsizlik səviyyələri arasında xeyli fərq var.

İşsizlik səviyyələri ona görə fərqlənirlər ki, ölkələr müxtəlif təbii işsizlik səviyyələrinə malikdirlər və çox vaxt iqtisadi tsiklin müxtəlif fazalarında olurlar. Son bir neçə il ərzində ABŞ-da işsizlik səviyyəsi bir sıra başqa inkişaf etmiş sənaye ölkələri ilə müqayisədə aşağı olmuşdur.

İşsizliyin sosial-iqtisadi nəticələrini aşağıdakı kimi ümumiləşdirmək olar: qiymətdən düşmə, cəmiyyətin insan kapitalından tam istifadə etməməsi baş verir, işsizlərin və onların ailə üzvlərinin yaşayış vəziyyəti keyfiyyətcə pisləşir, işləyənlərin əməkhaqqına əmək bazarında rəqabət aparanlar tərəfindən təzyiq güclənir, cəmiyyətin və fərdin peşə statusunun bərpa olunmasına və ya dəyişməsinə xərclər artır, deviant davranışlı, qəbul olunmuş sosial norma və dəyərlərə zidd hərəkətlərə meyilli olan şəxslər formalaşır.

İşsizlik həmkarlar ittifaqlarının əməkhaqqının artırılması tələblərini məhdudlaşdırır, çünki əmək bazarında iş qüvvəsi təklifi ona tələbdən çox olur. Uzunmüddəti işsizlik dövründə işçi ixtisasını itirir, yeni ixtisas əldə etmək və yeni şəraitlərə uyğunlaşmaq xeyli maliyyə və vaxt tələb edir. Əgər bu nəticələrin təzahür formalarından biri əvvəllər alınmış təhsilin dəyərsizləşməsidirsə, onu dövlətin mütəxəssis hazırlığına çəkdiyi xərclər sırasına aid etmək olar. Bu halda səmərəsiz dövlət xərclərindən danışmaq olar.

İşsizlik geniş səpkili sosial problemlərə səbəb olur ki, bunlara da kriminogen vəziyyətin kəskinləşməsini (sosioloqların bir qismi cinayətkarlığın səviyyəsinin artmasını işsizliyin artması ilə əlaqələndirirlər), sosial gərginliyin artması, fiziki və ruhi xəstəliklərin artması, sosial təbəqələşmənin miqyasının artması, əhalinin əmək fəallığının azalması və s. aid etmək olar.

İşsizlik Rusiya əhalisinin yoxsulluğunun ən əsas səbəblərindən biridir, yoxsulluğun səviyyəsinin aşağı salınması hazırda dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində prioritet məsələdir.

§5. Əmək bazarının dövlət tərəfindən tənzimlənməsi

İşsizliyin ciddi sosial-iqtisadi nəticələri əmək sahəsinə dövlət müdaxiləsinin zəruriliyini şərtləndirdi ki, bu da əmək münasibətlərinin şəklinin dəyişməsinə səbəb olur, bazar qüvvələrinin azadlığını məhdudlaşdırır. O, əmək bazarının məqsədyönlü tənzimlənməsi siyasətini həyata keçirir. Dövlət əmək münasibətlərini (işə götürmə və işdən çıxarma, iş gününün davamiyyəti, əməyin təhlükəsizliyi, minimum əməkhaqqı, istirahət günləri və məzuniyyətlərin verilməsi, əmək münaqişələrinin həll edilməsi, tətillərin keçirilməsi və s.) milli və beynəlmiləl səviyyədə tənzimləyən qanunvericilik sistemini yaradır.

Əmək bazarının dövlət tənzimləməsində ***əsas məqsədlər*** bunlardır:

- işsizliyin friksion və struktur formaları ilə müəyyənləşən «təbii işsizlik səviyyəsi»nin saxlanılması ilə tsiklik işsizliyin olmaması kimi başa düşülən tam məşğulluğun təmin edilməsi;
- iqtisadiyyatın inkişafının daxili və xarici şəraitlərinin dəyişməsinə tez uyğunlaşmağa, idarə edilməsini və sabitliyini saxlamağa qabil olan «çevik əmək bazarının» yaradılması, ənənəvi əmək bazarı ilə müqayisədə bu «çeviklik» işçilərdən natamam iş günü, müvəqqəti məşğulluq, iş yerlərinin dəyişilməsi, zərurətdən asılı olaraq iş funksiyalarının genişləndirilməsi və ya artırılması şəraitində istifadə zamanı özünü göstərir. İşləmək istəyənlərin hər biri belə bazarda onun tələblərinə cavab verən iş yeri tapa bilməlidir.

Əmək bazarında dövlət siyasəti ***iki əsas formada*** həyata keçirilir:

1) fəal – yeni iş yerlərinin yaradılması, məşğulluq səviyyəsinin yüksəldilməsi və işçilərin hazırlanması və təkrar hazırlanması yolu ilə işsizliyin aradan qaldırılması;

2) passiv – müavinət ödənməsi yolu ilə işsizlərin dəstəklənməsi.

Tam məşğulluğun əldə olunmasına yönümlənmiş *fəal*

siyasətin aparılması inkişaf etmiş ölkələrdə əmək bazarında dövlət siyasətinin prioritet istiqamətidir. Bu siyasətin əsas tədbirlərinə aiddir:

• iqtisadiyyata yeni iş yerlərinin yaradılmasının əsas şərti kimi çıxış edən investisiyaların dövlət tərəfindən həvəsləndirilməsi;

• struktur-işsizlərin yenidən hazırlanması və ixtisasının dəyişdirilməsinin təşkili;

• friksion və struktur işsizliklərinin azaldılması məqsədilə əmək bazarında vasitəçilik funksiyasını yerinə yetirən məşğulluq xidmətinin, əmək birjalarının inkişaf etdirilməsi, boş iş yerləri barədə məlumatların verilməsi;

• bir çox ölkələrdə əhalinin məşğulluğunun təmin edilməsinin ən mühüm metodu kimi nəzərdən keçirilən xırda və ailə sahibkarlıqlarına dəstək verilməsi;

• sahibkarların əhalinin müəyyən qruplarına – gənclərə, əlillərə – iş yerləri ayırmasının dövlət tərəfindən həvəsləndirilməsi (vergi və qanunvericilik tədbirləri ilə);

• işlə təmin olunmaq üçün, lazım olarsa, yaşayış yerinin dəyişdirilməsinə dəstək verilməsi;

• məşğulluq probleminin həll edilməsində beynəlxalq əməkdaşlıq, beynəlxalq əmək miqrasiyası ilə bağlı məsələlərin həll edilməsi;

• dövlət sektorunda – təhsil, tibbi xidmətlər sahələrində, kommunal təsərrüfatlarda, ictimai binalar və qurğuların tikilməsində – iş yerlərinin yaradılması;

• ictimai işlərin təşkili;

• ölkə və region üzrə işsizliyin orta göstəriciləri səviyyəsini dəfələrlə üstələyən bütöv «yaralı» ərazilərin fərqləndirilməsi;

• əsasında vəziyyəti proqnozlaşdırmaq və onun arzu olunmayan inkişafının mənfi təsirlərini yumşaltmaq mümkün olan region məşğulluq proqramlarının tərtib olunması. Məşğulluq siyasətinin də, tərtib olunan proqramların da əsas prinsipi – təklif olunan tədbirlərin strateji məqsədə – tam,

səmərəli və azad seçilən məşğulluq üçün şəraitin yaradılması - müvafiqliyidir;

• əmək bazarının tənzimlənməsi sahəsində dövlət siyasətinin yönümlülüyü, əmək sahəsində proseslərin izlənilməsi, onların proqnozlaşdırılması, hər şeydən öncə, böhran vəziyyətlərinin qabağının alınmasına, əmək bazarında gərginliyin yumşaldılmasına istiqamətlənməlidir;

• məşğulluğun tənzimlənməsinin əsas strateji məqsədləri məşğulluğun quruluşunun, formasının dəyişdirilməsi hesabına iqtisadi və sosial səmərəliliyinin artırılması, ölkənin insan kapitalının inkişafı üçün şəraitin yaradılması, məşğulluğun iqtisadi münasibətlərinin təkmilləşdirilməsi olmalıdır. Bunun üçün müəssisələrdə izafi məşğulluğun səviyyəsini aşağı salmaq, azad olmuş işçiləri çevik şəkildə digər sahələrə və məşğuliyyət növlərinə təkrar bölmək lazımdır. Belə tədbirlərin səmərəli aparılmasına müəssisələrin kadrlar şöbələrinin və əhalinin region məşğulluq mərkəzlərinin fəal qarşılıqlı əlaqələri dəstək verir. Demək olmaz ki, hazırda belə qarşılıqlı əlaqələr yoxdur. Lakin onlar birdəfəlik tədbirlər şəklində mövcuddur və onların keçirilməsində təşəbbüskar yalnız dövlət məşğulluq xidmətləri olur, halbuki izafi məşğulluq səviyyəsinin aşağı salınması məsələsi birinci növbədə müəssisənin problemidir. Buna görə də, söhbət müəssisələrin fəal kadrlar xidmətlərinin yaradılması, onların əməkdaşlarının xidməti təlimatlarına lazımi əlavələr və dəyişikliklərin edilməsi, həmçinin belə kadr xidmətləri üçün işçilərin öyrədilməsi və hazırlanmasının təşkilindən gedə bilər.

Dövlətin iqtisadi fəal əhali üçün mühüm sosial təminatı kimi ölkədə tam və səmərəli məşğulluğa çatılmasına diqqət yetirməsi əmək bazarının dövlət tənzimləməsinin ən mühüm tərəfidir ki, onun formalaşma mexanizmi bazar iqtisadiyyatının yeni inkişaf şəraitlərinə, istehsalın struktur yenidənqurulmasına, səmərəli sosial siyasətin formalaşmasına nəzərən daim təkmilləşəcəkdir.

İşsiz qalan əhalinin dövlət tərəfindən dəstəklənməsi,

onların sosial müdafiəsi dövlətin əmək bazarında siyasətinin *passiv* formasına aiddir. İşsiz vətəndaşlara dövlət təminat verir:

- işsizliyə görə müavinət, maddi yardım və sair sosial ödənişlər şəklində sosial dəstəyin təmin edilməsini;
- pulsuz tibbi xidməti.

İnkişaf etmiş ölkələrdə işsizlərə maliyyə yardımı işsizliyə görə sığorta sistemi əsasında həyata keçirilir. Bu ödənişlərin qarşısında duran minimum məsələ işsizlərin cari yaşayış xərclərinin təmin edilməsidir. Müddəti bir neçə aydan ömürlük yardıma (məsələn, Belçikada, Avstraliyada) qədərdir. Vəsaitlər əsasən dövlət və sahibkarlar hesabına formalaşır.

Rusiyada işsizliyin qarşısının alınması üzrə az-çox səmərəli siyasətin formalaşması tələb edir:

- iqtisadi sabitlik yolu ilə irəliləməyi;
- «tələsən problemlərin» həlli siyasətindən iqtisadiyyatın struktur yenidənqurulmasının strateji planlaşdırılmasına keçməyi;
- işsizliyi ümummilli problem kimi tanımağı və əmək bazarında dövlət siyasətinin Beynəlxalq əmək təşkilatının metodologiyası üzrə hesablanmış (Məşğulluq xidmətinin hesabatlarına əsaslanan qeydə alınmamış işsizlik deyil) ümumi işsizlik göstəricilərinə istiqamətlənməyi.

İşsizliyin qarşısının alınması məqsədilə əmək bazarının tənzimlənməsi məsələsi bir neçə tədbirə bölünür ki, bunlardan da yalnız bəziləri ayrılıqda işləyə bilir. Onların çox hissəsi isə yalnız digərləri ilə birlikdə səmərə verə bilir. Bu tədbirlərə aiddir:

- yeni iş yerlərinin yaradılmasına təkan vermək məqsədilə iqtisadi artımın qeyri-investisiya amillərinin maksimum fəallaşdırılması;
- fəal və passiv proqramların səmərəli maliyyələşdirmə mexanizminin işlənib hazırlanması (Məşğulluq Fondunun yaradılmasına qayıtmaq, lakin onun formalaşdırılma və bölgü prinsiplərinin əsaslı dəyişdirilməsi şərtilə, məqsədəuyğun olardı);

- məşğulluq xidmətlərinin işinin səmərəliliyinin artırılması. Öz həyat qabiliyyətini və səmərəliliyini praktikada sübuta yetirmiş fəaliyyət formalarının fəallaşdırılması. Bu, bir tərəfdən, işsizlərin özlərinin müstəqil iş axtarmağa yönümləndirilməsini, digər tərəfdən isə xidmətin özünün iş texnologiyasının təkmilləşdirilməsini və işinin təşkilinin dəyişdirilməsini, işsizlərə xidmətin passiv (qeydiyyat və təkrar qeydiyyat kimi uçota alma funksiyaları) növlərindən fəal növlərinə – peşə məsləhəti, peşə yönümü, psixoloji kömək - keçməyi nəzərdə tutur;
- əmək bazarında ünvanlı region siyasəti (əmək bazarlarında gərginliyin səviyyəsi yüksək olan regionlarda işsizliklə mübarizə üzrə xüsusi proqramların yaradılması);
- işsizlərə bazar dəyişmələrinin müasir mərhələsinə müvafiq olan təsirli maddi yardım sisteminin yaradılmasını bildirən səmərəli passiv siyasətin formalaşdırılması. Belə siyasətin əsasını işsizlikdən sığorta sistemi təşkil edə bilər.

Bu zaman diqqət yetirmək lazımdır ki, işsizliklə mübarizə metodları konkret ölkənin hökumətinin əldə rəhbər tutduğu konsepsiyaya əsaslanır. İqtisadi nəzəriyyənin praktik əhəmiyyəti də məhz bununla müəyyənləşir.

Müasir maltuzianlar əmək bazarında sabitliyi dövlətin doğumların məhdudlaşdırılması siyasətinin köməkliyi ilə saxlamağı təklif edirlər ki, bu da inkişaf etməkdə olan ölkələr tərəfindən fəal tətbiq olunur.

Artur Piqu və onun ardıcılları hesab edirlər ki, bütün bəlalar əməkhaqqının yuxarı olmasındadır və əməkhaqqının azaldılmasını, əməkhaqqının artırılmasının işsizliyin artması ilə müşayiət olunduğunu həmkarlar ittifaqlarına izah etməyi, dövlətin aşağı əməkhaqqına qane olanları işlə təmin etməyi, o cümlədən sosial sahənin inkişafını həvəsləndirməyi təklif edirlər.

İşsizliklə mübarizənin ***keynsçi proqramları*** ictimai işlərdən istifadə etməyi (yollar, xəstəxanalar və s. tikintisi), həmçinin bazar konyunkturasını canlandıra bilən tədbirlər

sistemini, investisiya və bunun nəticəsi kimi istehlakçı tələbini, o cümlədən dövlət sifarişlərini formalaşdırmaq və dövlət xərclərinin artırılması hesabına uçot dərəcələrinin azaldılmasını təklif edirlər.

Monetaristlər işsizlik və istehsalın tənəzzülü inflyasiyanın fonunda gedəndə dövlət büdcəsinə düşən bütün ağırlığı götürməklə inflyasiyanı azaltmağı təklif edirlər. İnflyasiyanın cilovlanması pul vahidini sağlamlaşdırar, sağlam bazar mühiti formalaşdırar. Səmərəli bazar özünü kütləvi müflisləşmələr yolu ilə geridə qalmış istehsaldan təmizləyər, boşalmış yeri perspektivli müəssisələr tutar ki, onlar da yeni əmtəələrin istehsalını genişləndirməyə başlayar və işsizliyin azalmasına rəvac verərlər. Monetaristlər bunun üçün zəif müəssisələrin gücü çatmayacaq yüksək uçot faizlərindən istifadə etməyi təklif edirlər. Monetar proqramlar R.Reyqan və M.Tetçer hökumətləri tərəfindən uğurla tətbiq olunmuşdu, bizim ölkədə isə uğursuzluqla nəticələndi, çünki istehsalın tənəzzülünün bilərəkdən dərinləşdirilməsi ölkəmizi zəif inkişaf etmiş ölkələr sırasına atdı.

İnzibati-amirlik təsərrüfatçılıq sistemindən bazar sisteminə keçən ölkələr üçün tənəzzüldən və işsizlikdən yeni spesifik çıxış yolları lazımdır.

Əsas anlayışlar və məfhumlar

İşsizlik; tam məşğulluq; əmək bazarı; iş qabiliyyətli əhali; institusional, qeyri-institusional əhali; iş qüvvəsi; əhalinin iş qüvvəsi tərkibinə cəlb olunma səviyyəsi; işsiz əhali; təbii işsizlik səviyyəsi; işsizlik: friksion, struktur, tsiklik, texnoloji, mövsümi, könüllü, real və saxta, ümumi və qeydə alınan, aşkar və gizli, durğun və axar, kütləvi, region və ocaqvari, konyunktur; işsizliyin səbəbləri; sosial (qeyri-iqtisadi) və iqtisadi xərclər; gesterezis haqqında fərziyyə; Ouken qanunu; işsizliyin nəticələri; əmək bazarının dövlət tənzimləməsi; məşğulluq və işsizliyin fəal və passiv dövlət siyasəti, konsepsiyaları və nəzəriyyələri.

VIII FƏSİL. MAKROİQTİSADİ QEYRİ-SABİTLİK VƏ İNFLYASİYA

§1. İnflyasiyanın mahiyyəti və növləri.
§2. İnflyasiyanın şərtləri və səbəbləri.
§3. İnflyasiyanın ölçülməsi mexanizmi və üsulları.
§4. Antiinflyasiya siyasəti.

Təkrar istehsal prosesinin pozulması inflyasiya kimi çoxamilli və istənilən iqtisadiyyata xas olan hadisə ilə əlaqədardır. İnflyasiya məcmu tələbin məcmu təklifi üstələdiyi makroiqtisadi qeyri-sabitliyin nəticəsidir.

§1. İnflyasiyanın mahiyyəti və növləri

İnflyasiya (latın sözü: *inflatio* – şişmə, köpmə) ən vacib makroiqtisadi problemlərdən biridir. «İnflyasiya» anlayışı ilk dəfə 1861-1865-ci illərdə Şimali Amerikada işlədilməyə başlamışdı və ilkin olaraq kağız pulların artıqlığını və onların bununla bağlı dəyərdən düşməsini bildirirdi.

Hazırda inflyasiya dedikdə, pul dövriyyəsi kanallarının əmtəə kütləsinə nisbətən həddən artıq dolması başa düşülür ki, bu da pul vahidinin qiymətdən düşməsinə və əmtəə qiymətlərinin ümumi uzunmüddətli artımına səbəb olur.

İnflyasiya uzunmüddətli proseslər: qiymətlərin ümumi səviyyəsinin artması, pullarin sabit qiymətdən düşməsi və alıcılıq qabiliyyətinin sistematik aşağı düşməsi şəklində təzahür edir. Bu hadisənin mahiyyəti bundadır. Bir proses kimi inflyasiyadan *inflyasiya şokunu* – qiymətlər səviyyəsinin birqat artırılmasını fərqləndirirlər və bu inflyasiya prosesinin genişlənməsinə və ya sürətlənməsinə təkan verə də bilər, verməyə də. Sonuncu halda iqtisadiyyat inflyasiya şokunu absorbsiya edir.

İnflyasiyanın əksinə olaraq *deflyasiya* (latın sözü: *deflatio* – şişirtmək, üfürüb atmaq) dedikdə qiymətlərin və xərclərin ümumi azalması başa düşülür. Qiymətlər artımının

orta sürətinin azaldılması *dezinflyasiya* adlanır. İqtisadi ədəbiyyatda *staqflyasiya* məfhumu da işlədilir ki, bu da qiymətlərin inflyasiya artımının istehsalda durğunluqla uzlaşmasını bildirir.

Cəmiyyətdə iqtisadi münasibətlər inkişaf etdikcə «inflyasiya»nın şərhi də dəyişmişdir. İlk vaxtlar inflyasiya dedikdə kağız ödəniş vasitələrinin qızıl ehtiyatları ilə müqayisədə artıqlığı başa düşülürdü, hazırda isə inflyasiya məfhumu altında pul dövriyyəsi kanallarının əmtəə kütləsinə nisbətən həddən artıq dolması başa düşülür. Lakin bütün dövrlərdə inflyasiya qiymətlərin ümumi səviyyəsinin uzunmüddətli artımı prosesi olmuş və cəmiyyətin iqtisadi, siyasi, sosial həyatına müəyyən təsir göstərmişdir.

İnflyasiyanın növləri

İnflyasiya çoxcəhətli hadisə olduğundan, iqtisadiyyatda onu aşağıdakı kimi təsnif edirlər:

1.Bazarın inflyasiya bərabərsizliyinin hansı formalar almasından asılı olaraq ***aşkar (açıq)*** və ***gizli (boğuq)*** inflyasiya fərqləndirilir. Aşkar inflyasiya qiymətlərin sərbəst hərəkəti, əsasən iqtisadiyyatın dolayısı ilə tənzimlənməsi metodları şəraitində baş verir və qiymət səviyyəsinin müşahidə olunan artımı ilə ifadə olunur. Gizli inflyasiya qiymətlər, əməkhaqqı, istehsal üzərində həm mikro, həm də makrosəviyyədə sərt inzibati nəzarətli təsərrüfat sistemində baş verir. O, əmtəə qıtlığının artması və onun destruktivə çevrilməsi, məhsulun keyfiyyətinin aşağı düşməsi, azad (kölgə) bazardakı qiymətlərlə dövlət qiymətləri arasındakı fərqin artmasında təzahür edir.

2.Qiymətlərin artım sürətindən asılı olaraq inflyasiya aşağıdakılara bölünür:

- ***normal*** – inflyasiyanın sürəti ildə 3-3,5% olarsa;
- ***mülayim və ya sürünən*** – qiymətlərin artım sürəti il ərzində 10% qədər olur;
- ***hiperinflyasiya (sürətli)*** – qiymətlərin il ərzində

200% qədər artması;

- ***hiperinflyasiya*** – 200%-dən yuxarı.

Sürətli və hiperinflyasiya arasında dəqiq həddi qoymaq xeyli çətindir. Lakin formal göstərici, meyar var. Bu, Amerika iqtisadçısı F.Keqan tərəfindən təklif olunmuşdu; o təklif etmişdi ki, qiymətlər artımının ilk dəfə olaraq 50% həddini aşdığı ay hiperinflyasiyanın başlanğıcı kimi, qiymətlər artımının həmin böhranlı səviyyədən aşağı düşüb ən azı bir il müddətində həmin həddi aşmadığı ay isə onun sonu kimi götürülsün.

3.Tədqiqat obyektindən asılı olaraq ***milli, region*** və ***dünya*** inflyasiyası fərqləndirilir.

4.İnflyasiya həm təsərrüfat sisteminin öz daxilində, həm də ondan kənarda yarana bilir. Sistemə nisbətdə inflyasiya impulslarının xarakterindən asılı olaraq idxal edilən və ixrac edilən inflyasiyalar fərqləndirilir. Ölkədə sərt valyuta kursu saxlanıldığı təqdirdə idxal məhsullarının istənilən qiymət artımı ölkəyə inflyasiyanı idxal edəcək. İnflyasiyanı ixrac etmək valyutası ehtiyat valyutası kimi istifadə olunan və ya substitut olmayan əmtəələri digər ölkələrin idxalında böyük yer tutan ölkələr üçün daha asandır.

5.Müxtəlif əmtəə qrupları üzrə qiymət artımının nisbətindən asılı olaraq inflyasiya ***tarazlaşdırılmış və tarazlaşdırılmamış*** olur. Tarazlaşdırılmış inflyasiyada əmtəə və xidmətlərin çox hissəsinin qiymətləri nisbətən az və eyni zamanda artır. Digər makroiqtisadi göstəricilər praktik olaraq adekvat dəyişilir. Tarazlaşdırılmamış inflyasiyada müxtəlif əmtəələrin qiymətləri bir-birinə nəzərən, özü də müxtəlif proporsiyalarda dəyişilir. İqtisadiyyat üçün ən böyük təhlükə inflyasiyanın bu növündən gəlir.

6.Təsərrüfat agentləri əsas makroiqtisadi göstəricilərin dəyişmələrini qabaqcadan görməyə cəhd edirlər. Gözlənilmə meyarına müvafiq olaraq inflyasiyalar iki qrupa bölünürlər: ***gözlənilən və gözlənilməyən.***

7.Təsərrüfat agentlərinin qiymətlərin gələcək artım sürətlərinə dair proqnozlarının dəqiqliyindən və onlara uy-

ğunlaşma səviyyəsindən asılı olaraq ***proqnozlaşdıran və proqnozlaşdırılmayan*** inflyasiya nəzərdən keçirilir.

8.Dövlətin inflyasiya proseslərinə təsir etmə qabiliyyətindən asılı olaraq onlar ***nəzarətdə olan və idarə olunmayanlara*** bölünürlər. Birinci halda dövlət qiymətlərin artım sürətini ortatəcililik səviyyəsində ləngidə və ya sürətləndirə bilir. İkinci halda qısamüddətli dövrdə inflyasiyanın səviyyəsinin nizamlanması üçün real mənbələr yoxdur.

9.İnflyasiya prosesini doğuran və qidalandıran amillərdən asılı olaraq ***tələb inflyasiyası və təklif inflyasiyası*** fərqləndirilir. Tələb inflyasiyası məcmu tələbin istehsalın real həcmi ilə müqayisədə artıq olmasından irəli gəlir. Təklif inflyasiyasını iqtisadi ədəbiyyatda, bu, mübahisəli sayılsa da, çox vaxt ***xərclər inflyasiyası*** adlandırırlar. Xərclər inflyasiyası xərclərin artması səbəbindən yaranır və bu da qiymətlərin artmasına səbəb olur.

Beləliklə, müasir dünyada inflyasiya çoxsəpkili və mürəkkəb iqtisadi prosesdir. Belə bölgü xeyli şərtidir, çünki konkret inflyasiya prosesi özündə inflyasiyanın müxtəlif növlərinin səciyyəvi xüsusiyyətlərini birləşdirə bilər, lakin belə bölgü inflyasiya haqqında biliklərin formallaşdırılması və inflyasiya proseslərinin daha dəqiq elmi tədqiq olunması üçün lazımdır.

§2. İnflyasiyanın şərtləri və səbəbləri

Ən ümumi şəraitdə inflyasiya ÜDM-in real həcmi ilə ona pul tələbinin nominal həcmi arasında disproporsiyadan doğur. Bu nəticəyə pulun miqdar nəzəriyyəsinin əsas mübadilə səviyyəsindən çıxış edərək gəlmək olar: məcmu tələbi pulun miqdarı (M) və onun tədavül sürətinin (V) hasili, məcmu təklifi isə qiymətlər səviyyəsi (P) və istehsal olunan məhsulun fiziki həcminin (Q) hasili şəklində göstərmək olar:

$$MV = PQ.$$


Bu bərabərlik artım sürəti ilə ifadə olunduqda belə şəkil alar:

$$\Delta m + \Delta v = \pi + \Delta q,$$

burada Δm, Δv, π, Δq müvafiq olaraq pulun miqdarı, onun tədavül sürəti, qiymətlərin səviyyəsi və istehsalın real həcminin artım sürətidir.

Deməli, inflyasiyanın yaranması üçün gərəkdir ki, pulun miqdarının artım sürəti və (və ya) onun tədavül sürəti istehsalın real səviyyəsinin artmasından yüksək olsun.

İnflyasiyanın monetar və qeyri-monetar konsepsiyalarını fərqləndirirlər. Şəkil 8.1-də inflyasiyanın səbəblərinin həmin konsepsiyalara müvafiq olan təsnifatı verilmişdir.



Şəkil 8.1. İnflyasiyanın səbəblərinin ümumi təsnifatı

Monetar konsepsiya tərəfdarları inflyasiyanı yalnız pul fenomeni hesab edirlər. Məlumdur ki, məcmu istehsal gücünün və real ÜMM-in təbii artımı ildə 4% təşkil edir. Deməli, pulun miqdarının istənilən artımı və (və ya) onun bu kəmiyyətdən yuxarı olan tədavül sürəti inflyasiyaya səbəb olacaq. Buna görə də monetaristlər hesab edirlər ki, bərabərsizlik inflyasiya prosesinin əsas səbəbini əks etdirir.

Monetar yanaşmaya görə, inflyasiyanın inkişafının birinci kanalı - ***istehsalın və məcmu tələbin artmasına səbəb*** olan dövriyyədə olan pul kütləsinin artmasıdır. Pul kütləsinin artması aşağıdakı səbəbdən yarana bilər:

- dövlətin ekspansionist maliyyə siyasəti;
- büdcə defisitinin «çap maşını» vasitəsilə aradan qal-

dırılması;

- kreditin kəskin şəkildə genişləndirilməsi;
- əhalinin borc öhdəliklərindən ödəniş vasitəsi kimi istifadənin artması.

Bu halda inflyasiyanın səbəbkarı kimi pul aqreqatları üzərində nəzarəti həyata keçirən kredit-bank sistemi çıxış edir. İnflyasiya prosesinin bu inkişaf üsulu inhisaraqədərki kapitalizm dövrünün «klassik» inflyasiyası üçün səciyyəvidir. Sxem şəklində bu prosesi belə təsvir etmək olar: qızılın dövriyyəsindən imtina → dövlət xərclərinin kəskin artması → dövlət büdcəsinin defisiti → kağız pulların əlavə emissiyası → qiymətlərin artması (inflyasiya) → dövlət xərclərinin yenidən artması və çevrə üzrə bu qaydada davam etmə. Qızıl standartının bərpa olunması inflyasiyanı dayandırırdı.

İnflyasiyanın inkişafının digər kanalı **pulun tədavül sürətinin** istehsal artımını üstələyən artmasından asılıdır. Pulun tədavül sürəti müxtəlif səbəblərdən baş verə bilər:

- bank işində texniki yeniliklər;
- qanunvericilikdə dəyişikliklər;
- qiymətli kağızlardan yığım vasitəsi qismində istifadə.

Qiymətlərin sürətlə artması da real kassa qalıqlarını azaldır. Bu, onunla əlaqədardır ki, real kassanın əvvəlki səviyyədə saxlanılması üçün alternativ xərclər çox yüksək olur. Əhali və firmalar alışlarını tez etməyə çalışırlar, puldan «qaçma» baş verir. Pulun tədavül sürəti vaxtaşırı artmağa meyilli olur.

Qeyri-monetar konsepsiyalarda inflyasiya çoxamilli hadisə kimi nəzərdən keçirilir. Bərabərsizlik burada inflyasiyanın səbəbi kimi deyil, zəruri şərti kimi çıxış edir. Qiymətlərin inflyasiya artımının səbəbləri isə həm pul tədavülü, həm də istehsal sahəsindən gəlir. Sonunculara istehsal xərclərinin artmasına, tələbin strukturunun dəyişməsinə, milli gəlirin təkrar bölgüsünə səbəb olan amillər aiddirlər. İnflyasiya əməkhaqqının, mənfəətin və ya vergilərin əmək məhsuldarlığı və (və ya) real gəlirin artımından daha çox artması

nəticəsində yarana bilir. Bu halda milli gəlirin fəhlələr (məşğullar), sahibkarlar və dövlət arasında təkrar bölgüsü uğrunda mübarizə başlayır. İqtisadi subyektlər gəlirin artırılmasına qiymətləri artırmaqla nail olurlar. Bu prosesin inkişafı «lider arxasınca yürüş» prinsipi əsasında baş verir: iqtisadi subyekt başqa subyektlərin gəlirlərinin artması ilə əlaqədar olaraq öz real gəlirlərinin azaldığını aşkarlayan kimi, gəlirinin azalmasını kompensə etmək məqsədilə qiymətləri artırır.

İnflyasiya şokuna səbəb inhisarın, oliqopoliyanın və dövlətin inzibati qaydada qiymətlərin artırılmasında əksini tapan bazar hakimiyyəti ola bilir.

İnflyasiyanın inkişafının ciddi səbəblərindən biri həddindən artıq hərbi xərclər və inflyasiya gözləmələridir. Dövlətin ixracla idxalı arasındakı fərq mənfi olarsa, inflyasiyanın idxalı mümkündür.

Qeyd etmək lazımdır ki, inflyasiya bütün dövrlərdə ictimai sarsıntılar, siyasi və sosial münaqişələrlə bir zamanda təzahür etmişdi. İnflyasiya prosesləri müxtəlif təbii fəlakətlər və kataklizmlərdən sonra güclənmişlər.

Beləliklə, inflyasiya amillərinin təhlili onun öyrənilməsinin iki konsepsiyasını monetar və qeyri-monetar fərqləndirməyə əsas verir. Birinci konsepsiyaya görə qiymətlərin inflyasiya artımının səbəbləri pul tədavülü sahəsindədir, qeyri-monetarist konsepsiyaya görə isə bunun səbəbləri həm pul tədavülü, həm də istehsal sahəsindədir. Özü də inflyasiyanın monetar və qeyri-monetar səbəbləri bir-birini inkar etmir və eyni zamanda fəaliyyət göstərə bilirlər. Məhz hansı amillərin inflyasiya prosesinə səbəb olması daha çox bu və ya digər ölkənin iqtisadi inkişafının konkret mərhələsinin xüsusiyyətlirə ilə bağlıdır.

Rusiya Federasiyasında inflyasiyanın monetar, qeyri-monetar və spesifik istiqamətlərinin bütün əsas cəhətləri cədvəl 8.1-də əks olunmuşdur.

Cədvəl 8.1

Rusiyada inflyasiyanın əsas cəhətləri və amilləri

İstiqamət	Amillər	
	əsas	ikinci dərəcəli
Monetar	Pul kütləsi, pul tədavülünün sürəti	**Pul kütləsinin formalaşması**: Mərkəzi bankın hökumətə verdiyi kreditlər; dövlət istiqrazlarının satılması; MB-ın kommersiya banklarına münasibətdə kredit siyasəti; dövlətin qızıl-valyuta ehtiyatlarının dinamikası. **Pul kütləsinin tədavül sürətinə təsiri**: inflyasiyanın bundan əvvəlki sürəti; valyuta kursu; maliyyə bazarının institusional strukturunun dəyişdirilməsi; işgüzar fəallıq səviyyəsi. **Gəlirlərin bölgüsü**: gəlir və xərclərin səviyyəsi; gəlirlərin xərclənmə strukturu.
Qeyri-monetar (xərc artıran)	İnhisarçılıq, xammal və enerjidaşıyıcıları qiymətlərinin dinamikası, struktur disproporsiyaları	**Davranış**: müəssisələrin inhisarçı və oliqopolist sövdələşmələri; qiymətlərin azalma istiqamətində elastikliyinin aşağı olması. **Texnoloji**: texnoloji gerilik; istehsal səmərəliliyinin sahələrarası və sahədaxili differensiasiyası; iş qüvvəsi bölgüsünün sahə strukturu

Rusiya üçün spesifik olan	Xarici iqtisadi konyunkturanın xüsusiyyətləri, barter, ödəniş borcları, pul tədavülünün seqmentasiyası, pulun real bölmədən çıxarılması və transaksion bölmədə cəmlənməsi,iq - tisadiyyatın dəyişikliklərə uyğunlaşması, iqtisadiyyatın militarizasiyası , təsərrüfat əlaqələrinin pozulması, sərt iqlim , dövlət aparatının həddsiz böyüklüyü, valyuta sərvətlərinin ölkədən çıxarılması	Adətən fərqləndirilmirlər


Mənbə: Райская Н.Н., Сергиенко Я.В., Френкель А.А. Инфляционные процессы в России (1992-1999 гг.): тенденции, факторы. - М.: ЗАО «Финстатинформ», 2001. с. 24.

§3.İnflyasiyanın ölçülməsi mexanizmi və üsulları

İnflyasiyanın mexanizmi

İnflyasiya prosesinin mexanizmi daha yaxşı inflyasiyanın iki modelinin: tələb inflyasiyası və xərclər inflyasiyasının timsalında açıqlanır.

Əvvəl artıq deyildiyi kimi, **tələb inflyasiyası** məcmu tələbin istehsalın real həcmi ilə müqayisədə artıq olması səbəbindən yaranır. Onun yaranmasında alıcılar bilavasitə iştirak edirlər, buna görə belə inflyasiyanı alıcı inflyasiyası da adlandırırlar. O, ilk dəfə keynsçi təhlili çərçivəsində tədqiq olunmuşdu (şəkil 8.2).



Şəkil 8.2. AD məcmu tələbinin artması zəminində qiymətlərin artması modeli

Tələb inflyasiyası pul kütləsinin artması (monetar impuls), dövlətin xərclərinin və (və ya) xüsusi investisiyaların artması, həmçinin pulun tədavül sürətini gücləndirən inflyasiya gözləmələri səbəbindən yarana bilir.

Tələb inflyasiyasının *ilkin mərhələsində* qiymətlər tədricən artır, bir qayda olaraq pul kütləsinin artım sürətindən geri qalır. Bu onunla əlaqədardır ki, bu dövrdə tələbin artması milli gəlirin və məşğulluğun artması ilə müşayiət olunur (hələ ki, istifadə olunmamış istehsal amilləri: istehsal

vasitələri, iş qüvvəsi, xammal mövcuddur). Bundan başqa, gəlir artdıqca, qənaətə meyil də artır, təxirə salınmış tələb əmtəəsi almağa ümid yaranır, həm də «pul xülyası» (İ.Fişer) – inflyasiyaya müvəqqəti hadisə kimi baxış qalır. Bütün bunlar pulun tədavül sürətinin qarşısını alır.

İnflyasiyanın *əsas mərhələsində* pul kütləsi artmaqda davam edir, qiymətlər «zəncirini qırır» - onların artım tempi pulların tədavülünün sürətlə baş verməsi səbəbindən kəskin şəkildə sürətlənir. Pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi onların sahiblərini əllərində olan pulları nə hesaba olursa-olsun əmtəəyə çevirməyə təhrik edir. Nəticədə inflyasiya hey artan miqyasda özü-özünü təkrar istehsal edir.

Qiymətlər sürətlə artdıqda get-gedə daha çox pul lazım olur və onların qiymətdən düşməsi pul kütləsinin artımını üstələyəndə **inflyasiyanın kritik nöqtəsi** olur. Bu, istehsalın artım sürətinin pulun tədavül sürətindən geri qalmasını bildirir.

Hər sosial qrupun özünün inflyasiyanın kritik nöqtəsi olur. Həmin həddə birinci təqaüdçülər və tələbələr çatırlar, onların ardınca qulluqçular və muzdlu işçilər, xırda istehsalçılar və nəhayət iri sahibkarlar gəlir. Dövlət üçün də kritik nöqtə mövcuddur: vergilər qiymətdən düşür, hər yeni emissiyanın gəlirliliyi azalır, bu da son nəticədə milli iqtisadiyyatın əsaslarına zərbə vurur.


Lakin məsələ bununla bitmir. Müəyyən vaxtdan sonra iqtisadiyyatda tam məşğulluğa çatılır ki, bu zaman istehsalın daha da genişlənməsi qeyri-mümkün olur (bax şəkil 8.2). Bu halda gəlirlər dəyişilməz qalır, izafi tələb isə inflyasiyanı daha da sürətləndirir. Qiymətlərin durmadan artması ilə üzləşən istehlakçılar yığımın zərərinə olaraq cari istehlakı artırmalı olurlar və bununla da növbəti qiymət artımına təkan verirlər. Yığım qıtlığı yeni investisiyalar üçün və deməli, istehsalın inkişafı və əmtəə təklifi üçün çətinliklər yaradır.

İnflyasiyanın ikinci modeli xərclərin artması səbəbindən olur ki, bu da qiymətlərin artmasına gətirib çıxarır. Bu

proses ***xərclər inflyasiyası*** adını almışdır.

Xərclərin artması ilə şərtlənən inflyasiya nəzəriyyəsi qiymətlərin artmasını *«ikiqat inhisar»* anlayışından istifadə etməklə izah edir. Bazarda bir tərəfdən oliqopolik firmalar, digər tərəfdən isə oliqopolik həmkarlar ittifaqları toqquşurlar. İnflyasiyanın təşəbbüskarı milli gəlirdə öz paylarını artırmağa çalışan həm bu, həm də digər tərəf ola bilər. Həmkarlar ittifaqlarının təzyiqi altında əməkhaqqı artır, amma o, əmək məhsuldarlığının artmasını əks etdirmir, buna görə də mənfəət azalmasın deyə, sahibkarlar qiymətləri artırmağa məcburdur. Sahibkarlar qiymətlərdə xərclərlə yanaşı gözlənilən inflyasiyanı əvəzləmək üçün müəyyən faiz əlavə etməklə qabaqlayıcı zərbə də vura bilir. Amerika iqtisadçısı Q.Ekkli bu kimi hadisələri ***qiymət əlavəsi*** (bu zaman həmkarlar ittifaqları bu gün sabahkı əməkhaqqını tələb edir, firmalar isə məhsulun qiymətinə öz faizlərini əlavə edir) adlandırmışdı.


Xərclər inflyasiyası həmçinin *xammal və enerjinin qiymətlərinin artması zəminində* də formalaşa bilər. Xammal bahalaşır, çünki hasilat, daşınma şəraiti dəyişir, avadanlığın qiyməti qalxır və s. Buna klassik nümunə XX əsrin 70-ci il-



Şəkil 8.3. Xərclərin artması zəminində qiymətlərin səviyyəsinin artması modeli

lərinin neft böhranı ola bilər: o vaxt bir barel neftin qiyməti 1,8 dollardan 32 dollara qalxmışdı.

Xərclərin artması nəticəsində istehsalın azalması baş verir və AS məcmu təklif əyrisi yerini sola doğru dəyişir (AS_1) və bununla da qiymətlərin P_0-dan P_1-ə qədər artmasını şərtləndirir (şəkil 8.3).



Şəkil 8.4. Tələb inflyasiyası ilə xərclər inflyasiyasının uzlaşması modeli

Tələb və xərclər inflyasiya modellərinin təhlili göstərir ki, tələb inflyasiyasında qiymətlərin xeyli artımı yalnız uzunmüddətli dövrdə müşahidə olunur. Qısamüddətli dövrdə isə artan tələb yalnız qiymətlərin artması ilə deyil, həm də istehsalın genişlənməsi ilə müşayiət olunur. Xərclər inflyasiyası zamanı qiymət artımı həmişə istehsalın düşməməsi və gəlirlərin azalması ilə müşayiət olunur.

Tələb inflyasiyası və xərclər inflyasiyasının məcmusu **inflyasiya spiralını** əmələ gətirir.

Şəkil 8.4-də «əməkhaqqı - qiymətlər» birləşməsinin inflyasiya spiralının açılmasına necə rəvac verməsi göstərilib.

Tələbin artmasının ardınca (əyrinin AD_0 –dan AD_1 -ə yerdəyişməsi) qiymətlərin səviyyəsinin artması müşahidə olunur ki, bu da fəhlələrin əməkhaqqının artırılması barəsində tələblərini şərtləndirir. Əməkhaqqının artması isə öz

növbəsində istehsal xərclərinin artması və deməli, AS_0 əyrisinin AS_1 vəziyyətinə yerdəyişməsi və qiymətlərin səviyyəsinin P_1 –ə qədər artması deməkdir. Bundan sonra proses spiral üzrə gedir: qiymətlərin artmasına həmkarlar ittifaqları əməkhaqqının yenidən indeksasiya edilməsi tələbi ilə cavab verirlər və bunun həyata keçiriləcəyi təqdirdə iqtisadiyyatda yenidən məcmu tələb və qiymətlər artır. Bu da sonsuz davam edir.

Belə meyilin qarşısının alınmasının səmərəli üsullarından biri əməkhaqqının artırılmasının qarşısının alınması və enerjidaşıyıcıları və nəqliyyat xərcləri tariflərinin azaldılması ola bilər. Bu şəkildə əldə olunmuş gəlir (artan qiymətlər və yaşayış məsrəfləri arasındakı fərq) biznes tərəfindən investisiya məqsədlərinə yönəldilə bilər ki, bu da, işsizlik bir qədər artsa da, istehsal olunan məhsulun həcmini artırmış olar. Bu artım isə öz növbəsində məcmu tələbi azaldır və deməli, qiymətlərin artım tempini ləngidir. İnflyasiya spiralı əks istiqamətdə açılmağa başlayır.

Bütövlükdə inflyasiyanın kompleks təhlili mexanizmini qiymətlər səviyyəsinin artım tempinin hər bir mərhələdə məcmu tələb və məcmu təklifin ölçülərindən asılılığını müəyyənləşdirməklə tələb inflyasiyası və xərclər inflyasiyasının müəyyən dövrünün timsalında aparmaq olar. Bu təhlilin qrafik şərhi inflyasiyanın bu modellərinin məcmusu ümumilikdə inflyasiya spiralı yaratdığını aşkarlamağa imkan verir və bunun xüsusiyyətləri müasir cəmiyyətdə gedən inflyasiya proseslərini ən yaxşı şəkildə açır.

İnflyasiyanın öçülməsi üsulları

Məlum olduğu kimi, inflyasiya qiymətlərin ümumi səviyyəsinin uzunmüddətli artım prosesidir. ***Qiymətlərin səviyyəsi*** altında nemət və ya nemətlər məcmusunun («zənbil») pulla qiymətləndirilməsi başa düşülür. Vaxt keçdikcə qiymətlərin səviyyəsi dəyişir, çünki bu dəyişikliyi və deməli, inflyasiyanın templərini ölçmək üçün iqtisadiyyatda

müxtəlif ***qiymətlər indeksi*** tətbiq olunur. Konkret məmulatın qiymətlər indeksi (I_{nd}) həmin məmulatın t-ci ildə qiymətinin (p_t) bazis ilindəki qiymətinə (p_b) nisbəti kimi hesablanır:

$$I_{nd} = p_t / p_b.$$

İnflyasiyanı ölçmək üçün çox vaxt aşağıdakı göstəricilərdən istifadə olunur:

- topdansatış qiymətlərin indeksi və ya istehsalçı qiymətlərinin indeksi;
- istehlak qiymətlərinin indeksi;
- ÜDM deflyatoru.

1. ***Topdansatış qiymətlərin indeksi*** – kommersiya əməliyyatlarının ən mühüm birinci – topdansatış mərhələsində qiymətlərin səviyyəsinin dəyişməsini əks etdirən nisbi göstəricidir. Bu indeks əmtəələrin qiymətlərinin onların istehsalının müxtəlif səviyyəsində dəyişməsini və ayrı-ayrı əmtəə qruplarının – mineral xammal, emal sənayesi məmulatları, elektrik enerjisi istehsalı və s. – orta ölçülüb-biçilmiş qiymətləri indeksidir. Topdansatış qiymətləri indeksi həm bütövlükdə sənayedə, həm də ayrı-ayrı sahələrdə qiymətlər səviyyəsinin dəyişməsini aşkarlamağa imkan verir.

Hazırda topdansatış ticarət bazarında inflyasiyanın miqyasını daha dəqiq ölçmək üçün daha çox ***istehsalçı qiymətləri indeksi*** kimi statistik göstəricidən istifadə olunur. Bu indeks ümumiləşdirilmiş şəkildə ara məhsullarının (natamam istehsal əmtəələri, yarımfabrikatlar) qiymətlərinin, ticarət əlavəsi və dövriyyə vergisini nəzərə almadan dəyişməsini səciyyələndirir.

2. ***İstehlak qiymətləri indeksi*** (İQİ) orta statistik istehlakçının aldığı əmtəə və xidmətlər «zənbili»nin orta qiymətlər səviyyəsinin dəyişməsini göstərir. «İstehlak zənbili»nin tərkibi bazis ili səviyyəsində təsbit olunur və onda nə qədər çox nemət olsa, inflyasiyanın dinamikasını o, bir o qədər dəqiq əks etdirər. İstehlak qiymətləri indeksi Laspeyras düsturu vasitəsilə müəyyənləşdirilir və aşağıdakı kimi hesablanır:

İQİ = İstehlak zənbilinin cari dəyəri :
: həmin zənbilin bazis ilində dəyəri.

Topdansatış qiymətləri indeksi və istehsalçı qiymətləri indeksi istehlak qiymətləri indeksi ilə sıx bağlıdır, çünki sənaye əmtəələri və xidmətlərin qiymətlərinin artması son nəticədə pərakəndə qiymətlərin artmasına səbəb olur.

*3. **ÜDM-in deflyatoru*** – cari ilin bazar qiymətlərinin bazis ili ilə müqayisədə artım tempini səciyyələndirən göstəricidir. Bu göstərici əmtəə və xidmətlərin qiymətlərinin ümumi səviyyəsini müəyyənləşdirməyə imkan verir. ÜDM-in deflyatoru Paaşe düsturu əsasında müəyyənləşdirilir və cari ilin nominal ÜDM-in real ÜDM-nə nisbəti kimi hesablanır:

ÜDM-in deflyatoru = Nominal ÜDM / Real ÜDM.

Qeyd etmək lazımdır ki, istehlak qiymətləri indeksi dəyişilməyən əmtəə dəsti üçün hesablanır, buna görə də istehsal olunan əmtəələrin quruluşundakı dəyişiklikləri nəzərə almır. ÜDM-in deflyatoru dəyişən əmtəə dəsti üçün hesablanır və bu dəyişikliyi nəzərə almağa imkan verir, lakin rifah səviyyəsinin aşağı düşməsini əks etdirmir.

İnflyasiya proseslərinin təhlilində nəzərdən keçirilən indekslərlə yanaşı ***inflyasiyanın tempi*** (π) *adlanan* və aşağıdakı kimi hesablanan göstəricidən istifadə olunur:

$$\pi = \frac{cari\ ilin\ qiymət\ indeksi - baza\ ilin\ qiymət\ indeksi}{baza\ ilin\ qiymət\ indeksi}$$

İnflyasiyanın tempi olan π göstəricisi inflyasiyanın tempindən asılı olaraq nominal faiz dərəcəsi və real faiz dərəcəsi arasındakı nisbəti müəyyənləşdərməyə imkan verir. Bu nisbət Fişer tənliyi adlanır və aşağıdakı kimi yazılır:

$$r = i - \pi, \quad \pi \le 10\% \text{ olduqda,}$$

$$r = \frac{i - \pi}{1 + \pi}; \qquad \pi > 10\% \text{ olduqda}$$

burada i – faiz dərəcəsinin nominal qiyməti;

r – faiz dərəcəsinin real qiymətidir.

Qeyd etmək lazımdır ki, bu paraqrafda nəzərdən keçirilmiş göstəricilərdən yalnız aşkar formada gedən inflyasiyanın qiymətləndirilməsində uğurla istifadə etmək olar. Gizli inflyasiya praktik olaraq ölçülməyə gəlmir.

Beləliklə. inflyasiyanın ölçülməsi üçün müxtəlif indekslərdən istifadə olunur ki, bunlar da qiymətlərin ümumi səviyyəsinin dinamikasını müəyyənləşdirməyə imkan verir. Bir qayda olaraq, topdansatış qiymətləri indeksi və ya istehsalçı qiymətləri indeksindən, istehlak qiymətləri indeksi və ÜDM-in deflyatorundan, həmçinin inflyasiyanın tempi kimi göstəricidən istifadə olunur.

İnflyasiyanın sabit artım tempi müşahidə olunan ölkə üçün qiymətlərin ikiqat artması üçün lazım olan illərin sayını hesablamaq məqsədilə hərdən «70 qaydası»ndan istifadə edilir ki, bu qaydaya görə 70 rəqəmi illik inflyasiya səviyyəsinə bölünür.

İnflyasiya mürəkkəb və kifayət qədər ziddiyyətli hadisə olduğundan onun səviyyəsinin ən kompleks və dəqiq qiymətləndirilməsi bütün verilmiş göstəricilərin istifadə edilməsi və təhlili şərti ilə mümkündür.

§4. Antiinflyasiya siyasəti

İnflyasiya ən mühüm makroiqtisadi problemlərdən biridir. Buna görə də onunla mübarizə yalnız bütün iqtisadiyyat miqyasında dövlətin gücü ilə mümkündür. İqtisadiyyatın antiinflyasiya tənzimləməsi üzrə vasitələrinin məcmusu ***antiinflyasiya siyasəti*** adlanır. Antiinflyasiya tədbirlərini yalnız aşkar inflyasiyaya tətbiq etmək olar. Əvvəlcə gizli informasiyanı aşkara çevirmək və yalnız bundan sonra onunla mübarizə tədbirləri hazırlamaq lazımdır.

İnflyasiya bazar təsərrüfatçılığının daimi yoldaşıdır, onu birdəfəlik dəf etmək mümkün deyil. Lakin antiinflyasiya tədbirləri vasitəsilə inflyasiyanın bir çox sosial-iqtisadi nəticələrinin qarşısını almaq və ya onları azaltmaq mümkündür.

Antiinflyasiya siyasətinin təsirli olması üçün hər şeydən əvvəl inflyasiyanın səbəblərini müəyyənləşdirmək lazımdır. Məlumdur ki, inflyasiya məcmu tələblə məcmu təklif arasında tələbin təklifi üstələməsi şəklində təzahür

edən disbalansın nəticəsi olub həm monetar amillərdən, həm də qeyri-monetar səciyyəli səbəblərdən yarana bilir. Lakin inflyasiyanı hansı amillərin bilavasitə gücləndirməsindən asılı olmayaraq yalnız pul təklifi tempini azaltmaqla onu məhdudlaşdırmaq olar. Təcrübə göstərir ki, praktik olaraq bütün ölkələrdə inflyasiyanın tempi ilə pul təklifinin artım tempi arasında sıx korrelyasiya asılılığı mövcuddur. Buna görə də inflyasiya tempinin azaldılması üçün aşağıdakı monetar və (və ya) fiskal siyasət vasitələrindən istifadə olunur:

1 – monetar metodlar:


- pul kütləsinin, verilən kreditlərin həcminin artımına məhdudiyyətlər tətbiq etmək;
- uçot dərəcələrinin artırılması (əksmaliyyələşdirmə dərəcələri);
- mütləq ehtiyatlar normasının artırılması;
- dövlətin qiymətli kağızlarının açıq bazarda satılması;

2 – fiskal metodlar:

- dövlət xərclərinin azaldılması;
- birbaşa və dolayı vergi dərəcələrinin artırılması, vergi güzəştlərinin ləğvi, yəni büdcəyə vergidən gələn mədaxillərin artırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;
- amortizasiya ayırmalarının qayda və normalarını tənzimləyən qaydaların sərtləşdirilməsi.

Lakin bu tədbirlərin həyata keçirilməsi heç də həmişə istənilən nəticəni vermir. Pul kütləsinin artım tempinin aşağı salınmasının qaçılmaz nəticəsi istehsal və məşğulluq səviyyəsinin aşağı düşməsidir. Bu qarşılıqlı asılılığın xarakterini Fillips əyrisi (şəkil 8.5) əks etdirir, həmin əyri göstərir ki, işsizlik artdıqca əməkhaqqının artım tempi azalır və deməli, işlizliklə inflyasiya arasında sabit və qabaqcadan görülə bilən əks əlaqə mövcuddur.

Fillips əyrisi iqtisadiyyatda qiymətlərin praktik olaraq artmadığı işsizlik səviyyəsinin mövcud olduğunu göstərir. Fillips əyrisinə əsaslanan inflyasiya (6-7% -ə qədər) nəzəriyyəsi bəzi iqtisadçılar tərəfindən tənqid olunur, amma bununla belə qısamüddətli dövrdə o, gerçəklik tərəfindən təsdiq olunur.




Şəkil 8.5 .Fillips əyrisi:
π- inflyasiyanın tempi; U– işsizlik səviyyəsi;
Ph– Fillips əyrisi

1974-1975-ci illərin dərin iqtisadi böhranı zamanı staqflyasiya adı almış vəziyyət yarandı ki, bu zaman inflyasiyanın yüksək tempi yüksək işsizlik səviyyəsi ilə eyni zamanda mövcud idi. XX əsrin 80-ci illərində işsizlik və inflyasiya eyni zamanda azalırdılar, yəni onlar əks asılılıqda deyil, birbaşa asılılıqda idilər (staqflyasiya Fillips əyrisinin sağa yerdəyişməsi kimi təsvir oluna bilər). Bu, Fillips nəzəriyyəsinə və onun əsasında aparılan iqtisadi siyasətə etibarı azaltdı.

Fillips əyrisinin yeni şəraitdə təhlilini *təbii işsizlik səviyyəsi* nəzəriyyəsi əsasında E.Felps və M.Fridmen verdilər. Bu nəzəriyyəyə görə uzunmüddətli dövrdə Fillips əyrisi şaqulidir. Əgər işsizliyin faktik səviyyəsi təbiiyə yaxındırsa, əmək bazarı tarazlıqlı vəziyyətə gəlir və inflyasiyanın faktik səviyyəsi gözlənilənə yaxın olur (şəkil 8.6).

Uzunmüddətli Fillips əyrisinin əsaslandırılmasında inflyasiya gözləmələri baxımından müxtəlif yanaşmalardan – adaptiv gözləmələr nəzəriyyəsi və rasional gözləmələr nəzəriyyəsi - istifadə olunur. Hər iki nəzəriyyə tam məşğulluq şəraitində (və ya təbii işsizlik səviyyəsində) iqtisadi subyek-



Şəkil 8.6. Qısamüddətli və uzunmüddətli dövrlərdə Fillips əyrisi:
π - inflyasiyanın tempi; U_1 – faktik işsizlik səviyyəsi;
Un – təbii işsizlik səviyyəsi;
$Ph_{qısa}$ – qısamüddətli dövrdə Fillips əyrisi;
Ph_{uzun} – uzunmüddətli dövrdə Fillips əyrisi


tlərin dövlətin iqtisadi siyasətinin dəyişmələrinə uyğunlaşmalarının gedişində onların inflyasiya gözləmələrinin necə işə düşməsini göstərirlər.

Adaptiv gözləmələr – bu, inflyasiyanın onun faktik səviyyəsinə əsaslanan proqnozlarıdır. Onlar faktik inflyasiya ilə üst-üstə düşmür və vaxtaşırı yenidən nəzərdən keçirilirlər. *Rasional gözləmələr* iqtisadi agentlərin öz proqnozlarında gələcək qiymətlər haqqında əldə olan bütün informasiyalardan istifadə etdiklərini və öz hesablamalarında orta hesabla səhv etmədiklərini bildirir.

Adaptiv gözləmələr nəzəriyyəsində uzunmüddətli Fillips əyrisi şəkil 8.7-də verilmişdir. Sonrakı dövrdəki inflyasiyanın faktik tempi hər dəfə inflyasiyanın gözlənilən səviyyəsindən yüksək olur. Nə qədər ki, iqtisadi agentlərdə inflyasiyanı qiymətləndirmə olduğundan aşağı səviyyədədir, dövlətin stimullaşdırıcı siyasəti səmərə verir və qısamüddətli dövrdə real əmtəə buraxılışının artmasına və işsizliyin səviyyəsinin azalmasına səbəb olur. Müəyyən vaxtdan sonra

iqtisadi agentlər qiymət və əməkhaqqı artımının xalis inflyasiya səciyyəli olduğunu aşkarlayırlar. Onlar inflyasiyaya verdikləri qiyməti dəqiqləşdirirlər və onun yeni, daha yüksək səviyyəsinə uyğunlaşmağa başlayırlar. Müvəqqəti azalmış işsizlik öz əvvəlki səviyyəsinə qayıdır. Dövlət siyasəti davam edərsə, bütün proses, lakin inflyasiyanın daha yüksək səviyyəsində, təkrarlanar. Uzunmüddətli dövrdə iqtisadiyyat A_1 nöqtəsindən yerini A_2, A_3 və s. nöqtələrə dəyişəcək, yəni Fillips əyrisi şaquli olacaq.

Rasional gözləmələr nəzəriyyəsinə görə, iqtisadi agentlərin inflyasiya gözləmələri gələcəkdə faktik inflyasiya ilə üst-üstə düşür (şəkil 8.7). Hökumət stimullaşdırıcı siyasət tətbiq etməyə cəhd etdikdə sahibkarlar başa düşürlər ki, öl-



Şəkil 8.7. Adaptiv gözləmələr nəzəriyyəsində Fillips əyrisi

kədə qiymətlərin ümumi səviyyəsi artmışdır. Hökumətin stimullaşdırdığı məcmu tələb hətta qısamüddətli dövrdə məcmu təklifin artımına səbəb olmur. İqtisadi sistem dərhal A_1 nöqtəsindən A_2 nöqtəsinə və b.k. yerini dəyişir, hökumətin işsizliyin səviyyəsini azaltmaq cəhdləri uğur qazanmır, amma qiymətlərin artımı ilə müşayiət olunur.

Dövlətin antiinflyasiya siyasətini həyata keçirən tənzimləyici orqanları daim inflyasiya səviyyəsi və işsizlik səviyyəsi arasında kompromis axtarışındadırlar. Özü də bu zaman onların qarşısında antiinflyasiya siyasətinin həyata keçirilməsinin iki alternativ yolu durur: uzunmüddətli dövr ərzində tədricən – ***dərəcələmək siyasəti*** və ya kəskin – ***şok terapiyası***. İqtisadi nəzəriyyədə hansı taktikanın daha səmərəli olması və daha az sosial zərər vurması məsələsində aydınlıq yoxdur. Hər şey ölkədəki sosial-iqtisadi və siyasi vəziyyətdən asılıdır.

«Şok terapiyası»nın variantlarından biri qiymətlərin liberallaşdırılması və (və ya) konfiskasiya tipli pul islahatının keçirilməsidir. Adətən bu tədbirlər şok terapiyasının ilkin tədbirləridir və inflyasiyanın gizli formadan aşkar formaya çevrilməsi məqsədilə və ya hiperinflyasiya şəraitində həyata keçirilir. İslahat nəticəsində nominal pul kütləsi ilə gəlir və qiymətlər nominal səviyyəsi arasında nisbət dəyişir. Nəticədə pul kütləsi real gəlirlərin formalaşmış səviyyəsi üzrə bölüşdürülür.

Şok terapiyasının əsas məziyyəti ondan ibarətdir ki, o, ardıcıl olaraq həyata keçirildikdə iqtisadi subyektlərdə hökumətin niyyətlərinə etibar yaranır və onların inflyasiya gözləmələrinin səviyyəsi aşağı düşür. Nəticədə qiymətlərin artım tempi azalmağa başlayır. Lakin «şok terapiyası»nın ziyanları xeyli kəskindir və istehsal və məşğulluğun kəskin azalması ilə bağlıdır.

Qısamüddətli dövrdə dərəcələmə siyasəti daha az sosial ziyanla müşayiət olunur. Lakin bu halda ***inflyasiya ətaləti*** yaranır: iqtisadi subyektlər qiymətlərin daim artmasına adət edirlər və istənilən sövdələri inflyasiyanın davam etməsini nəzərə almaqla həyata keçirirlər və bununla da inflyasiyanı dəstəkləyirlər. Onu da qeyd etmək lazımdır ki, dərəcələmə siyasəti yalnız pul kütləsi və qiymətlər səviyyəsinin ildə 20-30%-dən artıq olmadığı təqdirdə uğurlu ola bilər.

İnflyasiyayla mübarizədə xalis monetar metodlara alternativ kimi bəzən ***qiymətlər və gəlirlər siyasəti*** adlanan

metoddan da istifadə olunur. Bunun mahiyyəti ondadır ki, hökumət direktiv şəklində ya qiymətləri və nominal gəlirləri «dondurur» (şok terapiyasının bir variantı), ya da pulla əməkhaqqının artımını əmək məhsuldarlığının orta artımı (ölkə üzrə) ilə, qiymətlərin artımını isə əməyin ödənilməsinə xərclərin artımı ilə (dərəcələmənin variantı) məhdudlaşdırır. Bu halda inflyasiya gözləmələrinin sıxışdırılması baş verir, qiymətlərin və əməkhaqqının «dondurulması» isə xərclərin artımının qabağını alır və deməli, inflyasiyanı məhdudlaşdırır.

Digər tərəfdən, sonradan qiymətlər və gəlirlər üzərində nəzarətin ləğv edilməsi inflyasiyanın, ilk növbədə təxirə salınmış inflyasiya gözləmələrinin təsiri altında, kəskin artmasına səbəb ola bilər. Buna yol verməmək üçün qiymətlər və gəlirlər siyasəti onun qeyri-müəyyən müddətə qədər uzadılması şərti ilə səmərəli antiinflyasiya aləti ola bilər, amma bu da aşkar inflyasiyanın gizli inflyasiyaya keçməsi təhlükəsini yaradır.

Beləliklə, iqtisadiyyatın antiinflyasiya tənzimləməsi yalnız makroiqtisadiyyat səviyyəsində mümkündür. İnflyasiyayla mübarizədə ilk addım onun aşkar şəklə keçirilməsi olmalıdır. Sonra kompleks dövlət tədbirlərinin köməkliyi ilə (həm monetar, həm də fiskal səciyyəli) pul kütləsinin artmasının qarşısı alınmalıdır ki, bunun üçün də hökumətin şok terapiyası, dərəcələmə siyasəti, qiymətlər və gəlirlər siyasəti kimi müxtəlif alternativ antiinflyasiya siyasəti aparmaq imkanları vardır. Seçim ölkənin ölçüləri, inflyasiyanın tempi və işsizliyin səviyyəsi, sənayenin vəziyyəti, yəni ölkədəki konkret sosial-iqtisadi və siyasi vəziyyətlə müəyyənləşir. Bu zaman antiinflyasiya tənzimləməsinin müxtəlif mümkün variantlarının həyata keçirilməsinin təhlili göstərir ki, mahiyyət etibarilə inflyasiya ilə mübarizənin xətərsiz metodları yoxdur. Lakin bu məqsədlə hansı metoddan istifadə edilməsindən asılı olaraq inflyasiyanın məhdudlaşdırılmasının qiyməti müxtəlif ola bilər.

Əsas anlayışlar və məfhumlar

İnflyasiya; inflyasiya şoku; deflyasiya; staqflyasiya; dezinflyasiya; inflyasiyanın növləri: açıq, gizli, mülayim, sürünən, normal, sürətli, hiperinflyasiya, milli, regional, dünya, idxal edilən, ixrac edilən, tarazlaşdırılmış, tarazlaşdırılmamış, gözlənilən, gözlənilməyən, proqnozlaşdırılan, proqnozlaşdırılmayan, tələb inflyasiyası, təklif inflyasiyası; inflyasiya gözləmələri; inflyasiyanın monetar və qeyri-monetar konsepsiyaları; inflyasiya amilləri; inflyasiyanın mexanizmi; inflyasiyanın böhran nöqtəsi; inflyasiya spiralı; tələb inflyasiyası və xərclər (təklif) inflyasiyasının uzlaşma modeli; xərclərin artması əsasında qiymətlər səviyyəsinin artması modeli; Q.Ekklinin «qiymət əlavəsi»; qiymətlər indeksi; «70 qaydası»; inflyasiyanın tempi; antiinflyasiya siyasəti; monetar metodlar; fiskal metodlar; qısamüddətli və uzunmüddətli dövrdə Fillips əyrisi; dərəcələmək siyasəti; «şok» terapiyası; qiymət və gəlir siyasəti; inflyasiyanın ətaləti.

IX FƏSİL. PUL SİSTEMİ VƏ PUL BAZARININ NƏZƏRİ MODELİ

§1. Pul tədavülü və pul sistemi.
§2. Pul kütləsi və onun hesablanma göstəriciləri.
§3. Pul bazarı. Pul tələbi və təklifi.
§4. Pul siyasəti: məqsədləri və alətləri.

Pulun və pul sisteminin iqtisadiyyat üçün əhəmiyyətini kimsə çətin ki, inkar etsin. Rusiya azad iqtisadi cəmiyyətinin ilk prezidenti N.S.Mordvinov pulun iqtisadi həyatda rolunu müəyyənləşdirərək, belə bir fikir söyləmişdi: «Dövlətin tərkibində fəaliyyət göstərən qüvvələr sırasında birincisi pul hesab olunmalıdır»[1].

Pulun nə olduğu və onun mahiyyəti haqqında «İqtisadi nəzəriyyə» kursunun birinci hissəsində – «Mikroiqtisadiyyat - 1»də geniş bəhs olunmuşdur. Burada isə pul sisteminin mahiyyəti, iqtisadiyyatın pul bölməsinin ən mühüm elementi olan pul bazarının – iqtisadiyyatın pul və maliyyə sövdələri ilə bağlı sahəsinin işləmə mexanizmi və spesifikası nəzərdən keçiriləcək.

§1. Pul tədavülü və pul sistemi

Pul sistemi hər bir ölkədə tarixən formalaşmış və dövlət tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş pul tədavülünün təşkili formasıdır.

Pul və *pul tədavülü* olmadan bazar mümkün deyil. Sonuncu əmtəə və xidmətlər dövriyyəsini əhatələyən pul hərəkətidir. Pul tədavülü əmtəə və xidmətlərin alqı-satqısına, həmçinin maliyyə bazarının hərəkətinə xidmət edir. ABŞ-da ödəmə dövriyyəsinin 3/5-ü maliyyə əməliyyatlarının payına düşür. Pul tədavülünün maliyyə ilə belə sıx əlaqəsi bəzi iqtisadçılara pul tədavülünü ölkədə qanunvericiliklə tənzimlənən maliyyə sistemi hesab etməyə əsas verir (X.Zaydel,

1 Мордвинов Н.С. Избранные произведения.- М.: Госполитиздат, 1945. С.121.

R.Temmen).

Dünyada tarixən formalaşmış və dövlət qanunvericiliyi ilə təsbit olunmuş müxtəlif pul tədavülü sistemləri mövcuddur.

Qədim rus dövlətinin pul sistemi IX-X əsrlərdə formalaşmışdı. X əsrin sonu–XI əsrin əvvəllərində qızıl və gümüşdən ilk rus pullarının kəsilməsi başlandı. Beynəlxalq ticarətdə və daxili ticarətdə iri ödənişlərdə pul yerinə gümüş külçələr istifadə etməyə başladılar, XIII əsrdən isə Novqorodun çubuq şəklindəki külçələrini rubl adlandırmağa başladılar.

Pul sisteminin ən mühüm elementləri şəkil 9.1-də verilmişdir.

Milli pul vahidi	Ölkədə vahid kimi qəbul olunmuş və əmtəə və xidmətlərin qiymətinin ifadə edildiyi pul ölçüsü (rubl, dollar, frank və b.)
Qiymətlərin miqyası	Ölkədə pul vahidi qismində qəbul olunmuş pul metalının və həmin vahidin hissələrinin çəki ilə miqdarı
Pulların emissiya sistemi	Pul və qiymətli kağızlar buraxan qurum; pulların tədavülə qanunla təsbit olunmuş buraxılması qaydası
Pulun formaları	Əmtəə tədavülünün sabitliyini təmin etməyə qabil olan və nağd dövriyyədə qanuni tədiyə vasitəsi olan ümumi ekvivalentin müəyyən tipində əşyalaşdırılmış mübadilə dəyəri
Valyuta pariteti	Digər valyutalarla nisbəti
Pul sistemi institutları	Pul tədavülünü tənzimləyən dövlət və qeyri-dövlət müəssisələri
Tədavüldəki pul kütləsinin strukturu	Nağd və nağdsız pullar, müxtəlif dəyərli kupyuraların həcmi arasında nisbət; hesablaşmaların rahatlığı bundan asılıdır
Kassa intizamı qaydası	Kassa vasitəsilə həyata keçirilən pul hesablaşmalarının ümumi həyata keçirilmə qaydaları və onlar üzərində nəzarətin təmin edilməsi prinsipləri (ilkin nəzarət banklara həvalə olunur)

Şəkil 9.1. Pul sisteminin ən mühüm elementləri

Tədavüldə olan pulların növündən asılı olaraq üç pul tədavülü sistemi fərqləndirilir:

- ***əmtəə pul sistemləri***, əmtəə pullarından – alıcılıq qabiliyyətləri onların əmtəə dəyərlərinə əsaslanın real əmtəələrdən istifadə edirlər. Əmtəə pullarının fərqli xüsusiyyəti onların pul kimi qiymətinin əmtəə kimi qiyməti ilə eyni olmasındadır. Özü də bu pullar daxili qiymətliliyə, yəni mühüm istehlak xüsusiyyətlərinə malikdirlər. Yüksək inflyasiya şəraitində bu hətta araq, siqaret və s. də ola bilər;
- ***metal pulların tədavül sistemi***, bu zaman tam dəyərli qızıl və gümüş pullar tədavüldə olur, kredit pulları isə pul metalına (külçə və ya sikkə) sərbəst dəyişdirilir;
- ***kredit və kağız pulların tədavül sistemi***, bu zaman qızıl tədavüldən sıxışdırılmış olur və buna görə də kredit və kağız pullar qızıla dəyişdirilə bilmirlər. Fidutsiar (etibara əsaslanan) pul tədavülü sistemi tətbiq olunmağa başlayıb.

Tarix pul qismində iki metalın – qızıl və gümüşün istifadə edilməsinə əsaslanan ***bimetalizm*** (XVI-XIX əsrlər) və tədavüldə yalnız bir metalın – qızılın istifadə edilməsinə əsaslana ***monometalizm*** kimi pul sistemlərinin mövcud olduğunu göstərir ki, bu zaman kağız pullar da həmin metala dəyişdirilirdi.

Bimetalizmin üç növü mövcuddur. ***Paralel valyutalar sistemi*** qızıl və gümüş sikkələr arasındakı nisbətin həmin metalların bazar dəyərlərindən asılı olaraq formalaşması ilə səciyyələnir. ***İkili valyuta sistemi*** dövlətin iki növ sikkənin mövcud olmasını rəsmən qanuniləşdirəndə fəaliyyət göstərir. XIX əsrdə müxtəlif ölkələrdə onlar arasındakı nisbət bir qayda olaraq 15,5:1 və ya 15:1 olmuşdu. Metalların bazar qiymətləri artıb-azaldığından onların bazar nisbəti dövlətin müəyyənləşdirdiyindən fərqlənirdi. Və nəhayət, ***"axsayan valyuta" sistemi***. Bu sistemdə qızıl pulların kəsilməsi sərbəst, gümüş pulların kəsilməsi isə qapalı qaydada həyata keçirilirdi. Adı da buradandır – valyuta sanki gümüş ayağından "axsayırdı".

Qızıl sikkələrin gümüşlər tərəfindən dövriyyədən tam

sıxışdırılma təhlükəsi ("pis pullar yaxşıları sıxışdırıb çıxarırlar") bimetalizmdən imtina etməyə əsas səbəb oldu. Bu qanunauyğunluq tarixdə Kopernik-Qreşem və ya "ucuz pullar" qanunu kimi məlumdur. Bimetalik sikkə sistemində qiymətli metallar bazarında dəyəri rəsmi dəyərdən aşağı olan pullar "pis", dəyəri rəsmi qiymətindən yuxarı olanlar isə "yaxşı" pullardır.

Monometalizmə gəldikdə isə, tarixdə metalın növündən asılı olaraq onun müxtəlif formaları – mis, gümüş və qızıl – olmuşdu. Mis dövrü Rusiyada VII əsrdə mövcud olmuşdu.

Çar Aleksey Mixayloviçin 28 iyul 1656-cı il tarixli fərmanı ilə əhalidən vergilərin 2/3-i gümüş, 1/3-i isə mis pulla ödənilməliydi. Kəsilmə həcmi artdıqca mis sikkə dəyərsizləşməyə başladı və 1662-ci ildə Moskvada "mis qiyamı" adlanan hadisə baş verdi. Hökumət bir rubl mis pulu 1 qəpik gümüş pula dəyişməyə məcbur oldu.

Gümüş dövr Rusiyada, Hindistanda, Hollandiyada və b. mövcud olmuş, Çində isə 1935-ci ilə qədər davam etmişdi (gümüş tədavülü Rusiyada xəracı metal pulla qəbul edən tatarlar tərəfindən tətbiq olunmuşdu).

Qızıl monometalizmi (və ya qızıl standartı) daha geniş yayılmışdı, o əvvəlcə İngiltərədə, sonra isə başqa ölkələrdə tətbiq olunmuşdu. Rusiyada o, 1897-ci ildən Birinci dünya müharibəsinə qədər, yəni 18 il mövcud olmuşdu.

Birinci dünya müharibəsi ərəfəsində rubl artıq qızıla dəyişdirilmirdi. İnflyasiya, hiperinflyasiya dövrü başlayır. Ən aktual makroiqtisadi problemlərdən biri tədavül üçün lazım olan pulun müəyyənləşdirilməsi oldu. Birinci dünya müharibəsindən sonra Avropa dövlətləri qızıl dövriyyəsindən kağız-pul dövriyyəsinə keçdilər.

1939-1945-ci illər İkinci dünya müharibəsinin başlanğıcı üçün yalnız ABŞ-da kağız dollarların qızıl külçələrə dəyişdirilməsi, xarici dövlətlərin rəsmi orqanları üçün davam edirdi. Amerika iqtisadçısı R.Triffinin qiymətləndirməsinə görə dəlların üstün vəziyyəti 1949-cu ildən 1971-ci ilədək

ABŞ-a 54 mlrd. dollar xeyir vermişdir.

1971-ci ilin avqustunda dolların mərkəzi banklar üçün qızıla dəyişdirilməsi hüququ ləğv edildi və qızıl standartına son qoyuldu. Bəs nə baş verdi?

Qızılın demonetizasiyası hüquqi cəhətdən tamamilə başa çatdırıldı (demonetizasiya – qızılın və gümüşün ümumi əmtəə ekvivalenti funksiyasından tarixi sıxışdırılması prosesidir), yəni qızıl özünün pul funksiyasını itirdi.

Beynəlxalq valyuta fondunun nizamnaməsinə əlavələrlə qızılın rəsmi qiyməti, valyutaların qızıl tutumu və qızıl paritetləri ləğv edildi. Qızıldan qarşılıqlı ödənişlərin tənzimlənməsində istifadə etmək dayandırıldı. Bununla belə o, digər ölkələrin valyutasının alınması üçün dövlətin ehtiyatı olaraq qalmaqdadır.

Monometalizm tarixən üç standart şəklində mövcud olmuşdur: qızıl sikkə (qızıl sikkələrin azad tədavülü); qızıl külçə (qızıla standart külçənin qiymətinə müvafiq məbləğin təqdim olunduğu halda dəyər nişanlarının qızıla dəyişdirilməsi nəzərdə tutulurdu); qızıl deviz (banknotların xarici valyutaya – qızılı xırdalamaq üçün devizlərə mübadiləsinə icazə veriləndə).

1929-1933-cü illərin dünya iqtisadi böhranı monometalizm dövrünə son qoydu. Onu ölçüsüz kredit pulları sistemi və ya fidutsiar pul sistemi əvəzləyir və həmin sistem aşağıdakılarla səciyyələnir:

- qızılın demonetizasiyası;
- banknotların qızıl tutumunun ləğvi;
- nağdsız dövriyyənin xeyli genişləndirilməsi;
- kredit pullarının hakim mövqeyi;
- xüsusi sahibkarlığın və dövlətin kreditləşdirilməsi məqsədi ilə pulun emissiyasının gücləndirilməsi;
- pul tədavülünün dövlət tərəfindən tənzimlənməsi.

Fidutsiar (latın sözü *fides* - etibar) ***pul sistemləri*** – bu sistemlərdə pul nişanları ictimai maddi sərvət göstəricisi deyillər, yəni qızıla dəyişdirilmirlər. Onlar metal puldan kağız pul dövriyyəsinə keçidlə birgə formalaşmışlar.

İqtisadi ədəbiyyatda ***üç növ fidutsiar pul sistemi*** fərqləndirilir:

- keçid - özündə metal və kağız tədavülünü birləşdirir;
- tam fidutsiar standart;
- elektron-kağız pul sistemləri.

Kağız pullar tarixən metal pulların tədavülündən yaranmışlar. Onlar əvvəllər dövriyyədə olmuş qızıl və gümüş sikkələrin əvəzləyiciləri kimi dövriyyəyə girmişdilər. ***Kağız pullar*** – məcburi məzənnə ilə təchiz olunmuş və öz xərclərini ödəmək üçün dövlət tərəfindən buraxılmış pul nişanlarıdır. Onların demək olar ki, müstəqil dəyəri yoxdur.

Kağız pullar b.e. VIII əsrində Çində yaranmışdı. Kağız təqribən b.e.-nın 100-cü ilində icad olunmuşdu. İlk kağız pullar xüsusi dükanlara saxlanılmağa verilmiş qiymətli əşyalara görə, ya da paytaxtda deyil, əyalətin mərkəzindəki hesablarda saxlanılan ödənilmiş vergilərə görə şəhadət şəklində olan xüsusi qol kağızları idi.

Rusiya ərazisində kağız pullar hələ monqol istilası zamanı tədavüldə olmuşdular. Kağız pul ideyasını monqol xanları Çindən mənimsəmişdilər, Rusiya hökuməti tərəfindən isə onlar tədavülə yalnız XVIII əsrin ortalarında buraxılmışdı. İlk Rusiya kağız pulları – əskinaslar – 1769-cu ildə çap olunmuşdu. «Əskinas» («assiqnasiya») məfhumu hələ I Pyotr dövründə yaranmışdı. Assiqnasiyalar müəyyən yerdə qalmaq, pul almaq üçün verilirdilər. Onlar həm dövlət, həm də özəl göstərişlər ola bilirdilər. Assiqnasiya üzərində onun sahibinin adı göstərilir, pulun nə üçün nəzərdə tutulduğu qeyd olunurdu. Həmin kağız üzrə vergilərin və ya digər dövlət gəlirlərinin konkret göstərilmiş daxil olduğu yerdə pul ödənilirdi. 1786-cı il 28 iyununda isə II Yekaterinanın Manifesti ilə Moskvada və Sankt-Peterburqda mis pulları assiqnasiyalara dəyişən banklar Assiqnasiya bankında birləşdirildi, bu isə kağız pullara qanuni ödəniş vasitəsi statusunun verilməsi və onların mis pula dəyişdirilməsinin dayandırılması demək idi.

Əmtəə tədavülü son nəticədə əmtəənin pula deyil, əmtəəyə dəyişdirilməsi məqsədilə həyata keçirilir. Buna görə də əmtəə tədavülü üçün tədavüldə olan pulların mübadilədə iştirak edən əmtəələrin dəyərinə bərabər dəyəri təmsil etmələri vacibdir, amma pulun özünün belə dəyərə malik olması vacib deyil. Məhz bu, qızılı tam dəyərli pulların əvəzləyicisi olan kağız nişanlarla əvəz etməyə imkan verdi. Ən əsası isə – qızıl trilyonlarla pul nişanı ilə ölçülən miqyasdakı əmtəə dövriyyəsinə xidmət etmək iqtidarında deyil. Pul tədavülünə keçid əmtəə mübadiləsini kəskin şəkildə artırdı.

Kağız pulların yaranmasının bilavasitə səbəbi ***"sikkələr korlanması"***nı hesab etmək olar. Hökmdarlar pul kəsmə hüquqlarını ciddi-cəhdlə qoruyur, saxta pul kəsənlər ən dəhşətli şəkildə edam olunurdular: Rusiyada saxta pul kəsənin boğazına ərinmiş metal tökürdülər. Lakin hökmdarların özləri də görürdülər ki, sikkədə qiymətli metalın miqdarı azaldıqda, heç nə dəyişmir və tam dəyərli olmayan sikkələrin kəsilməsindən gələn xalis gəlir onların əsas qazanc mənbəyi idi (I Pyotr pulu «müharibənin topçu hissəsi» adlandırırdı. Onun dövründə pul vahidində metalın azalması müşahidə olunurdu. Çoxsaylı müharibələr apardığından o, gəliri artırmaq məqsədilə «sikkələrin korlanması»na müraciət etməli olurdu. Hökumət mis, gümüş və qızıl yataqlarının axtarılıb tapılması istiqamətində ciddi iş aparırdı. Qızıl və gümüşün ölkədən çıxarılmasını qadağan edən qanunlar qəbul olunmuşdu. I Pyotr yalnız rus pullarının xaricə aparılmasını qadağan etmirdi, həm də ölkəyə saxta pulların gətirilməsindən ehtiyat edərək, tacirlərə rum əmtəələrini rus puluna satmağı qadağan etmişdi.).

Beləliklə, «sikkələrin korlanması» anlayışına daxildir:

- sikkələrin sürtülüb yeyilməsi;
- xəzinəyə əlavə gəlir gətirilməsi məqsədilə hökumətin özü tərəfindən qızıl pulların bilərəkdən korlanması (onların çəkisinin azaldılması);
- ***emissiya gəliri (senoraj)***, yəni pulun buraxılması üzərində inhisarçılıqdan mənfəət əldə etmək məqsədilə xəzinədarlıq tərəfindən məcburi məzənnəyə malik kağız pulların

buraxılması.

Öz dəyərinə malik olmayan kağız pullar tədavül və ödəniş vasitəsi funksiyasını yerinə yetirirlər, qızıl standartı ləğv edildikdən sonra isə hətta müəyyən mənada pul yığımı funksiyasını da yerinə yetirməyə başladılar. Pul tədavülü ölkənin Mərkəzi bankının buraxdığı banknotlar formasındakı kağız pullar və dövlət xəzinədarlığının buraxdığı xəzinədarlıq biletləri vasitəsilə həyata keçirilir. Gündəlik həyatda bu iki forma vətəndaşlar üçün bir-birindən fərqlənmir.

Kağız pulların ən mühüm **çatışmazlığı** bundadır ki, dövlət pul nişanlarına olan tələbatı nəzərə almadan tədavülə istənilən miqdarda kağız pul buraxa bilər. İzafi kağız pul buraxılması mütləq onların qiymətdən düşməsi və inflyasiya ilə nəticələnir.

Tam fidutsiar standart. İstehsal inkişaf etdikcə metal pulların kredit tədavül vasitələri ilə əvəzlənməsi zərurəti yaranır. Hazırda məhz onlar ümumi ekvivalent kimi çıxış edərək qızılın rolunu yerinə yetirirlər. Eyni zamanda dəyər nişanlarının pul qismində istifadə edilməsi onlarda əmtəənin müəyyən cizgilərinin görünməsinə səbəb olur: onlar alınır və satılır, əmtəəyə dəyişdirilir, amma bu pullar əmtəənin ən əsas xüsusiyyətindən məhrumdurlar – onların öz dəyəri yoxdur. Onlar dəyəri ölçmə funksiyasını yerinə yetirirlər.

Kredit tədavül vasitələri veksellər, çeklər, banknotlar şəklində olurlar. Bu vasitələr bütünlüklə onları buraxmış Mərkəzi banka etibara əsaslandığından bankın tənzimləyici rolu kəskin şəkildə yüksəlmiş olur.

Veksel tədavülünün əsasını kommersiya krediti təşkil edir. Veksellərdən ilk dəfə XII-XIII əsrlərdə İtaliyada istifadə olunmağa başlanıb. Bu, universal kredit-hesablaşma alətidir. Rusiya imperiyasında veksellərin qanuni tərtibi 1729-cu ildə Veksel nizamnaməsinin qüvvəyə minməsi ilə bağlıdır. Hazırda milli veksel qanunvericiliyinin normaları 1930-cu ildə Cenevrə veksel konvensiyası tərəfindən qəbul edilmiş Vahid veksel qanununa əsaslanır.

Veksel tədavülünün öz hədləri var: yalnız topdansatışda

işlədilir; özü də qarşılıqlı tələblər üzrə saldolar nağd pulla ödənilir; veksel tədavülünə vekselverənin ödənişqabiliyyətli olmasına əmin olan məhdud sayda adam cəlb olunur; vekselin tədavül müddəti məhduddur.

Veksel tədavülü hüdudlarının dar olması xüsusi veksel növünün – ***banknotların*** və kredit pullarının xüsusi tədavül formasının yaranmasını şərtləndirdi.

K.Marksa görə, «banknotlar bankirə yönümlənmiş veksellərdən başqa bir şey deyil, onu təqdim edən istədiyi vaxt pullarını ala bilər və onlarla bankir xüsusi vekselləri əvəzləyir».

Banknotların tədavülünün səciyyəvi xüsusiyyətləri:

- borclu qismində dövlətin Mərkəzi bankı çıxış edir;
- banknotların təminat vasitəsi kimi ölkənin qızıl-valyuta ehtiyatları çıxış edir;
- tədavül obyektinin (banknotun) ümumi tədavül və ümumi ödəmə vasitəsi olması;
- banknot ona malik olan qarşısında müddətsiz öhdəlikdir;
- banknotlar kredit vermə qaydasında buraxıldığından və kreditlər müddət başa çatdıqda qaytarılmalı olduğundan, son nəticədə banknot da emissiya bankına qayıdır. Əgər banknotların emissiyası dövlət xərclərinin ödənilməsi məqsədilə istifadə olunursa, banknotlar faktik olaraq kredit pulundan kağız pula çevrilir.

Ölkələrin çoxunda banknotların tədavülə daxil edilməsi böyük çətinliklərlə bağlı olub, buna görə də hakimiyyət ən ağır tədbirlərə əl atırdı. Belə ki, XIII əsrdə Çində imperator kağız pulları qəbul etməməyə görə qanunda ölüm cəzasını nəzərdə tuturdu. Fransada fransız əskinaslarını qəbul etməkdən imtina etməyə görə iyirmi il katorqa, bəzi hallarda isə ölüm hökmü nəzərdə tutulurdu.

Çek tədavülü müəyyən edilmiş formada sənədin tədavülünü nəzərdə tutur və sənəddə çeki verənin kredit müəssisəsinə sənədi (çeki) təqdim edənə onda göstərilmiş məbləği ödəməsi haqqında şəksiz sərəncam verir. Çek bankdan pul

alınması və alınmış malların ödənilməsi üçün istifadə oluna bilər.

Onlar ilk dəfə İngiltərədə 1659-cu ildə tətbiq olunmuşdu. Hazırda ABŞ, Kanada, Böyük Britaniya və s. ölkələrdə mühüm rol oynayır (ABŞ-da çeklər nağdsız ödənişlərin 70%-dən çoxunu ehtiva edir və onların dəyərinin 11%-ni təşkil edir).

Çek tədavülünün nağd pul tədavülündən üstün cəhətləri:

- çeki istənilən məbləğə yazmaq olar;
- çeklər elə hesablaşmalarda istifadə olunur ki, orada qarşılıqlı tələblərin əsas hissəsi nağd pulun iştirakı olmadan ödənilir. Məhz bu pul tədavülü forması əsasında nağdsız hesablaşmalar sistemi yaranmışdır;
- istifadədə rahatdır və itirdikdə onları bərpa etmək olur. Lakin çeklə işləmək, yəni onların təhlükəsizliyini yoxlamaq xeyli çətindir. Bu, çox əməktutumlu prosesdir.

Elektron-kağız pul sistemi. Kredit pulları tərəfindən qızılın sıxışdırılması öz sonrakı inkişafını çekin bir növ adlı əvəzləyicisi olan ***kredit elektron kartlarında*** tapdı. Onların meydana gəlməsi həm ticarət şəraitlərinin dəyişilməsi, həm də bankların öz bazarlarını genişləndirmək istəyinin nəticəsi kimi bank texnologiyalarının inkişafı ilə bağlıdır. XX əsrin 60-cı illərində bank kartları meydana gələndə artıq kataloqlar üzrə ticarət sistemləri mövcud idi. Lakin internet və onlayn ticarətinin yaranması ilə plastik kartların qüsurları aşkar üzə çıxdı. Onlar üzrə hazırda çoxsaylı fırıldaqçı ödənişləri həyata keçirilir. Müştərilərin təhlükəsizliyinin təmin edilməsinin variantlarından biri ödənişlərin aparılmasında vasitəçidən istifadədir. Özü də kredit kartı haqqında məlumatlar mağazaya daxil olmur, hesablaşmalar isə ödəniş sisteminin hesablaşma mərkəzi vasitəsilə aparılır ki, bu da alıcıların kələkbazların qurbanına çevrilməsi riskini azaldır.

XX əsrin 80-ci illərində kredit kartlarından istifadənin alternativi – «smart-kart» və elektron nağd pul sistemi şəklində elektron pullar meydana gəldi.

Hazırda ***iki növ elektron pul sistemi*** fərqləndirilir:

- çoxməqsədli «card-based sistems» kartları;
- «şəbəkə» pulları.

Birinci sistem «elektron kisələr»ə əsaslanır. Elektron nağd pullar sistemi 1985-ci ildə görkəmli holland riyaziyyatçısı və kriptoqrafı D.Çaum tərəfindən təklif olunmuşdu. Elektron kupyur şəbəkə ilə ötürülən və kompyuterin verilənlər bazasında dəyişikliklər yaradan, elektrok kupyurun sahibinin və onun pul transaksiyası üzrə kontragentinin hesabının həcmi haqqında məlumatı daşıyan idarəedici siqnalların şifrələnmiş ardıcıllığından ibarətdir.

Sistemin ikinci növü «şəbəkə» pullarına əsaslanır.Pul dəyəri kompyuterin yaddaşında sərt disklərdə saxlanılır və xüsusi proqram təminatı vasitəsilə onun elektron kommunikasiya kartları vasitəsilə köçürülməsi baş verir.

Pul tədavülü dairələri. Pul tədavülü iki dairəyə bölünür: nağd və nağdsız. Pul tədavülünün nağd formasında banknotlar, xırda pullar və kağız (xəzinədarlıq) biletləri, yəni öz fiziki formasında nağd ortada olan və ödənişlərin əksər növlərində tətbiq olunan pullar nəzərdə tutulur, istifadə olunur. «Nağd pullar» məfhumu ilə yanaşı mənaca ona yaxın olan ***simvolik pullar*** anlayışı da işlədilir. Bu çox vaxt metal pullardır. Onlar elə pul vasitəsidir ki, onların bir pul kimi dəyəri və alıcılıq qabiliyyəti onların buraxılmasına (kəsilməsinin, çapının dəyəri) çəkilən xərcdən xeyli, həm də pul nişanının hazırlandığı material satılarsa, ondan əldə oluna biləcək satış pulundan yüksəkdir. Bu, metal pulların əridilib külçə halında satılmasının qarşısının alınması üçün zəruridir.

Nağdsız pul forması – bu, bank hesablarındakı pullar və Mərkəzi bankda tələb olunana qədər depozitlər və ya müddətsiz depozitlər, yəni kommersiya banklarının hesablarındakı əmanətlərdir. Çeklər, kredit kartları, veksellər, akkreditivlər, tədiyyə tapşırığı və s. vasitəsilə həyata keçirilir. Bu həm müəssisələrin öz aralarında qarşılıqlı hesablaşmalarda və banklarla nağdsız hesablaşmalarda istifadə

olunan pul vəsaitləridir, həm də vətəndaşların bank hesablarında saxlanılan pullarıdır.

Nağdsız hesablaşmaların ən geniş yayılmış forması ***bank köçürmələri-transfertdir*** (debet-kredit hesablaşma əməliyyatlarının ardıcıllığı).

Bir də ***sabit təminatlı*** pul sistemini və ***azad pul tədavülünü*** fərqləndirirlər. Belə fərq tədavüldə pul kütləsi defisitinin tənzimlənməsi ilə əlaqədardır. Sabit təminatlı sistemlərdə pul çatışmazlığı qanunvericilik qaydasında ödənilmə norması haqqındakı müddəanı təmin edir. Eyni zamanda xalq təsərrüfatının kifayət qədər pul kütləsi ilə təmin edilməməsi təhlükəsi, əgər inkişafda olan iqtisadiyyatda pul kütləsi Mərkəzi bankdakı qızıl ehtiyatının azlığı səbəbindən artırıla bilmirsə, mövcuddur ***(deflyasiya)***. Azad pul tədavülündə pul kütləsinin hədsiz artırılması təhlükəsi həmişə mövcuddur ***(inflyasiya)***, çünki tədavüldə olan pulların ödənilməsi haqqında heç bir qanun yoxdur. Müasir iqtisadiyyatda fəaliyyət göstərən pul vəsaitlərinin müxtəlifliyi ***pul kütləsinin*** ölçülməsi problemini yaradır.

§2. Pul kütləsi və onun hesablanma göstəriciləri

Pul kütləsi – təsərrüfatda nağd və nağdsız formalarda olan və xalq təsərrüfatında əmtəə və xidmətlərin tədavülünü təmin edən bütün pul vasitələrinin məcmusudur.


Pul kütləsinin strukturunda təsərrüfat dövriyyəsinə real xidmət göstərən pul vəsaitlərinin aid olduğu ***aktiv*** hissə və pul yığımlardan, hesablarda potensial hesablaşma vasitəsi ola biləcək qalıqlardan ibarət ***passiv*** hissə fərqləndirilir. Pul kütləsində xüsusi yeri "***kvazipul***" adlanan, yəni müddətli hesablarda, əmanət qoyuluşlarında, depozit sertifikatlarında, pul vəsaitlərini yalnız qısamüddətli pul öhdəliklərinə qoyan investisiya fondları səhmlərindəki pul vasitələri tutur.

Nağd pulların (metal pullar və banknotlar) və Mərkəzi bankdakı nağdsız hesablaşma pullarının (müddətsiz əmanətlər) məcmusu Mərkəzi bankın pullarını təşkil edir. Onları

həm də monetar və ya pul bazası adlandırırlar, çünki onlar xalq təsərrüfatında məcmu pul kütləsini müəyyənləşdirirlər.

Xalq təsərrüfatının mübadilə və ödəniş aparmaq üçün sərəncamında olan pul kütləsi bank bölməsinin pul təklifindən və pula tələbdən, yəni qeyri-bank sistemi təsisatlarının əllərində nağd pul və ya tələbə qədər əmanət şəklində müəyyən məbləğdə pulun olmasına cəhd etmələrindən asılıdır (şəkil 9.2).

Pula təklif və tələb əsasən pul bazarının həcmi və konyunkturasını müəyyənləşdirirlər.



Şəkil 9.2. Pul kütləsinin tənzimlənməsi

Pul təklifi dedikdə, adətən, dövriyyədəki pul kütləsi, yəni hal-hazırda ölkədə tədavüldə olan tədiyyə vasitələrinin məcmusu başa düşülür.

Lakin nə pul təklifini tənzimləməli olan vəzifəli dövlət adamları, nə iqtisadçılar arasında pul təklifinin hansı ayrı-ayrı hissələrdən ibarət olması məsələsinə vahid baxış yoxdur: maliyyə vəsaitləri qoyuluşu formalarının rəngarəngliyi elə dərəcəyə çatıb ki, bilavasitə pulun özündən (banknotlar, tələbə qədər qoyuluşlar) onların nağdlaşan və ya yarımnağdlaşan yerləşdirmə formalarına keçid nəzər-diqqəti cəlb etmədən aparılır. Nəticədə pul və qeyri-pul avuarları arasındakı hədd əvvəllər olduğu qədər aydın deyil.

Pul tədavülünü səciyyələndirmək üçün pul kütləsi göstəricilərini ümumiləşdirən müxtəlif ***pul aqreqatları*** tətbiq olunur. Onlar iyerarxiya sistemi şəklində dirlər: hər bir sonrakı aqreqat əvvəlkilərin hamısını öz tərkibində ehtiva edir, özü də onların hər biri pul sahəsinin vəziyyətini xüsusi qaydada səciyyələndirir. Pul aqreqatları bir-birindən yüksək likvidlik, yəni çox tez nağd pula çevrilmə imkanı ilə fərqlənirlər.

M0 = tədavüldəki sikkələr və banknotlar, həmçinin müəssisə və təşkilatların xəzinələrindəki nağd pulun qalığı. Maliyyə aktivləri hesablaşmaların həyata keçirilməsi məqsədilə dərhal istifadə oluna bilirlər. Bu pul aqreqatını bəzən sözün məhdud mənasında pul adlandırırlar;

M1 (*sövdələr üçün pul*) = M0 + tələbə qədərki bank depozitləri və çek depozitləri. Bu, əhalinin cari vəsaitləri, müəssisələrin hesablaşma hesabları, banklardakı tələbə qədərki hesab, yol çekləridir. Yol çeki – yol sənədidir, əsasən qeyri-ticarət xarakterli əməliyyatların aparılması və fiziki şəcslər tərəfindən nağd pul alınması üçün istifadə olunur. Hazırda pullarla məhz bu aqreqat eyniləşdirilir;

M2 (tədavüldəki pul kütləsi və ya, necə deyərlər, «geniş pullar») = M1 + kommersiya banklarının təcili və əmanət depozitləri, geri alma barədə birgünlük razılaşmalar və s.

Əmanət sertifikatları – bu, bankın yazılı şəhadətnaməsi (sənədli qiyməti kağız) olub, fiziki şəxsin bankda hesabına pul qoymasını təsdiqləyir və ona müəyyən müddətdən sonra qoyulmuş pulu və ona görə faizləri almaq hüququ verir. ***Depozit sertifikatı*** hüquqi şəxsin əmanətini təsdiqləyir. Bu alətlər pul bazarında azad tədavüldə olurlar və təcili əmanətlərdən fərqli olaraq, onlar üzrə istənilən anda pul almaq olar.

Geri alma barədə razılaşmalar (repo sövdəsi) bağlananda bank firmaya dövlətin qiymətli kağızlarını müəyyən müddətdən sonra onları daha yüksək qiymətə geri almaq şərti ilə satır. Satış və geriyə alma qiymətləri arasındakı fərq faktik olaraq banka verilmiş kreditə görə haqdır. Təcili repoların (bir gündən bir aya qədər) aparılması zamanı qiymətli kağızların balans (firma və bankın) üzrə yerdəyişmələri baş vermir. Onlar girov təminatı qismində çıxış edirlər. Repo əməliyyatları həm firma, həm də bank üçün sərfəlidir. Repolar böyük likvidliyə malikdir, çünki firma vəsaitləri istənilən anda qaytara bilər, bankların isə repo sövdələşmələri üzrə əlavə tələbləri nəzərdə tutulmur.

M1 və M2 aqreqatları arasındakı fərqi bəzən «kvazipul» adlandırırlar ki, bunlar da əsasən əmanət və təcili depozitlərdən ibarət olur.

Rusiya Federasiyasında M2 aqreqatı Mərkəzi bankın cari pul-kredit siyasətinin həyata keçirilməsi üçün kifayət edən göstərici hesab edilir və durmadan artırılır, özü də daha çox nağdsız vəsaitlər hesabına.

M3 = M2 + iri həcmli sertifikatlar və təcili depozitlər, kommersiya banklarındakı təcili repo əməliyyatları, avrodollarla təcili borclar + dövlətin qiymətli kağızları (Dövlət qısamüddətli istiqrazları (DQİ), Federal borc istiqrazları (FBİ), Dövlət ortamüddətli borc istiqrazları (DOBİ) və s.).

M4 = M3 + qısamüddətli DQİ, aşağı likvidliyə malik *pul bədəlləri.*

Pul bədəlləri dedikdə həmin ölkə ərazisində rəsmi tədavüldə olan pul əvəzləyiciləri nəzərdə tutulur. Bu pullar birinci növbədə sövdələşən iştirakçılar tərəfindən tanınmalıdır. Bu, müxtəlif qiymətli kağızlar, xarici falyuta və s. ola

bilər.

D = M4 + girov istiqrazlar.

Pul təklifinin ən dolğun aqreqatları M4 və D-dir. M4, M3-lə yanaşı, özündə digər likvidlik (asan realizə olunan) aktivlərini də, məsələn, qısamüddətli dövlət qiymətli kağızlarını birləşdirir. Onlar asanlıqla nağd pula çevrilə bildiklərinə görə likvidli adlandırılırlar. Aqreqat D-yə həm bütün likvidli vəsaitlər, həm də girov qoyulanlar daxildir. İstiqraz və ona bənzər digər kredit alətləri iqtisadiyyatın inkişafının əsas meyillərini daha dəqiq əks etdirən aqreqatlardır. Pul kütləsinin ən yüksək artım tempi, 20%-ə yaxın (aqreqat M2), 1992-ci ildə müşahidə olunmuşdur.

Müasir ölkələrin çoxunun iqtisadiyyatı açıq olduğundan ölkənin bütün yerdə qalan aləmlə qarşılıqlı əlaqələrinin vəziyyəti ilə əlaqədar pul kütləsindəki dəyişikliklərin nəzərə alınması zərurəti yaranır. Məsələn, ənənəvi pul aqreqatları tədiyyə balansının defisiti zamanı pul kütləsini azalmaq istiqamətində, tədiyyə balansının saldosu müsbət olduqda isə artım istiqamətində real artımını təhrif edirlər.

Pul kütləsinin həcmi kifayət qədər tez-tez dəyişə bilər. Hər şey pulu emissiya etmək hüququna malik olan Mərkəzi bankın siyasətindən asılıdır.

Pul kütləsinin xüsusi hesablaşma göstəricisi pul bazasıdır. Pul bazası – nağd pulların və kommersiya banklarının pul ehtiyatlarının məcmu həcmidir. İqtisadi ədəbiyyatda pul bazasını gücü çox və ya yüksək səmərəlilikli pul adlandırırlar, çünki onun tərkib hissələri pul təklifinə güclü təsir göstərirlər. Bu, pul kütləsinin daha sabit hissəsidir, çünki hökumətin hərəkətləri ilə tam nəzarətdə saxlanılır.

Rusiyada pul bazası hesablananda ona aşağıdakılar daxil edilir:

- pul bazası strukturunda ən böyük xüsusi çəkiyə malik olan tədavüldəki nağd pullar;
- bankların kassalarındakı pul vəsaitləri;
- kredit təşkilatlarının RF Mərkəzi Bankında müxbir və depozit hesablarındakı vəsaitləri (depozit – 1) banklara

qoyuluşlar; 2) bank kitablarında müştərilərin banklara müəyyən tələblərinin olmasını göstərən qeydlər;

- kommersiya banklarının Rusiya Bankında məcburi ehtiyatları.

Mahiyyət etibarilə, ***pul bazası*** – dövlətin iqtisadi agentlər *qarşısında* sırf pul öhdəlikləridir. RF Mərkəzi Bankının balansında pul bazası mənbələri maddələri ondan istifadə maddələri ilə tarazlaşdırılır.

Pul kütləsinin ən mühüm kəmiyyət göstəricilərindən biri ***pulun tədavül sürətidir*** ki, bu da pulun müəyyən vaxt ərzində xidmət göstərdiyi sövdələşmələrin sayıdır.

Pulun tədavül sürəti göstəricisi kəmiyyət ölçməsinə çətin gəlir. Adətən sövdələşmələr üzrə pulların tədavül sürətini və pul gəlirlərinin tədavül sürətini fərqləndirirlər. ***Sövdələşmələr üzrə sürət*** verilmiş zaman müddəti ərzində istehlak əmtəələri və avadanlıq alışı üzrə və ya maliyyə sövdələşmələrinə görə bütün pul köçürmələri və hesablaşmalarla əlaqədardır. ***Gəlirlər üzrə sürət*** mili gəlirin müxtəlif tərkib hissələrinin iştirak etdiyi əməliyyatlarda hər bir pul vahidinin neçə dəfə xərcləndiyini göstərir. O həm də bir təsərrüfat subyektinin çəkdiyi xərcin digərinin gəlirinə çevrilməsi üçün lazım olan ***vaxtı*** da göstərir. ***Gəlir üzrə*** sürət aşağıdakı düsturla ifadə olunur:

V = Milli gəlir (və ya ÜDM) / müəyyən müddət ərzindəki pul kütləsinin orta kəmiyyəti.

Pulun tədavül sürətini pulun tədiyyə dövrü əsasında, yəni cari bank hesabları üzrə köçürülmüş məbləğin pul kütləsinin orta həcminə bölünməsi yolu ilə də hesablamaq mümkündür. Bu göstərici ÜDM-ə daxil olmayan çox böyük həcmdə möhtəkirlik sövdələşmələrinin olduğunu göstərir.

Pulların tədavül sürətinin göstəricisi kimi həm də zaman vahidi müddətində pul vahidinin dövrlərinin sayı və ya bir dövrün uzunluğu da çıxış edə bilər.

Pulun tədavül sürətinə müxtəlif həm iqtisadi, həm də qeyri-iqtisadi amillər təsir edə bilir. ***İqtisadi amillərə*** aiddirlər: milli iqtisadiyyatın artım tempi, yaşanılan tsiklin fa-

zası, tədiyyə balansının vəziyyəti, ölkədə inflyasiyanın səviyyəsi və s. ***Qeyri-iqtisadi amillərə*** aiddirlər: inflyasiya gözləmələri, tələşlıq vəziyyəti və s. Tədavül sürətinin artırılmasının xüsusi üsulları qismində pul köçürmələri üzrə bank əməliyyatlarının müddətinin azaldılmasını və ya vətəndaşlara pul vəsaitləri verilməsinin, məsələn, ayda 2-3 dəfəylə məhdudlaşdırılmasını göstərmək olar.

İqtisadi böhranlar və tənəzzüllər adətən pulların tədavül sürətinin azalması; iqtisadi konyunkturanın artması, elektron pulların meydana gəlməsi ilə muşayiət olunur.

Təsbit olunmuş əmtəə təklifində pulun tədavül sürətinin artması pulun tədavül kanallarının dolmasına və pul kütləsinin azalmasına səbəb ola bilər.

Əmtəə tədavülünü tənzimləmək üçün ***zəruri pulun miqdarını*** hesablayırlar. Pulun miqdarını müəyyənləşdirən amillər bunlardır:

1. Bazarda satılmış əmtəənin miqdarı.
2. Əmtəə qiymətlərinin səviyyəsi.
3. Kreditin, qarşılıqlı ödənilən və nağdsız tədiyyələrin olması.
4. Pulların tədavül sürəti.

Ən əsası müəyyən zaman kəsiyi ərzində realizə olunmalı olan əmtəələrin qiymətləri cəmidir. Pulların miqdarını və onların hərəkət intensivliyini tədavül sürətindən də görmək olur.

Amerika iqtisadçısı İ.Fişer bütün lazımi amilləri nəzərə almaqla mübadilə tənliyi adlanan tənlik vasitəsilə lazım olan pulun miqdarını riyazi yolla hesablamağa cəhd etmişdi:

$$MV = PQ \quad \text{və ya} \quad M = PQ / V,$$

burada M – pulun kütləsi;

PQ- əmtəə qiymətlərinin cəmi;

V – pulun tədavül sürəti.

Bununla belə həmin tənlik xeyli əvvəllər məlum idi. «Kapital»ın birinci cildində K.Marks bu tənliyi bu şəkildə təqdim edirdi: pul kütləsi - əmtəə qiymətləri cəminin pul vahidlərinin dövrləri sayına nisbətinə bərabərdir.

O həmçinin tədavül üçün zəruri olan pul miqdarının daha dolğun və geniş tənliyinin təsvirini vermişdi:

$$M = (PQ - K + a - b) / V,$$ bərabərdir,

burada M – tədavül üçün zəruri olan pulun miqdarı;

PQ – realizə olunan əmtəə və xidmətlərin qiymətləri cəmi;

K – kreditlə satılmış əmtəələrin qiymətləri cəmi;

a – vaxtı çatmış tədiyyələr;

b – qarşılıqlı ödənilən öhdəliklər;

V – pulların tədavül sürətidir.

Beləliklə, K.Marks ***pulun tədavül qanununu*** vermişdi: tədavül üçün zəruri olan pulun miqdarı realizə olunan əmtəələrin kreditlə satılmış əmtəələrin qiymətləri cəmini çıxmaq şərtilə qiymətləri cəmi, həmçinin vaxtı çatmış tədiyyələrin, qarşılıqlı ödənilən öhdəlikləri çıxmaq şərtilə, həcmi ilə düz, pulların tədavül sürəti ilə tərs mütənasibdir.

Ölkədə yaradılmış milli məhsul nə qədər çox olarsa, tədavüldə bir o qədər çox pul olar, çünki pullar mahiyyət etibarilə əmtəəni əks etdirməlidir. Əmtəələrin, alqı-satqı əşyalarının miqdarı və həmin əmtəələrin qiyməti artdıqca, istər-istəməz pul kütləsini də artırmaq lazım gəlir. Və əksinə, əmtəələrin miqdarı və onların qiyməti azaldıqca, pul kütləsini azaltmaq lazım gəlir (məsələn, qiymətlərin liberallaşdırılması nəticəsində Rusiyada kəskin pul çatışmazlığı yarandı.Pərakəndəsatış qiymətləri 5 və daha artıq dəfə artdığı halda, pulun kütləsi cəmi 2-3 dəfə artdı. Müəssisələrin işçilərə əməkhaqqı verməyə, materiallar və məhsul təchizatı müqabilində tədiyyələri həyata keçirməyə pulları çatmırdı. Təcili qaydada tədavülə daha iri pul kupyurları buraxıldı, nağd pulun miqdarı kəskin şəkildə artırıldı, nağdsız hesablaşmalar asanlaşdırıldı, pul tədavülünü normallaşdırmaq məqsədilə müəssisələrin borclarını qarşılıqlı silmələri üçün imkan yaradıldı).

Tədavüldə pul kütləsini həm emissiya yolu ilə, həm də bilavasitə bankdakı hesablardakı pulların artırılması və ya azaldılması vasitəsi ilə artırmaq və ya azaltmaq olar. Nağd-

sız formada kreditlər, subsidiyalar, dotasiyalar verilməsi yolu ilə müəssisələrin hesabında pulun artırılması tədavüldə pul kütləsinin artırılmasına bərabərdir.


Pul kütləsi ilə bazardakı əmtəə və xidmətlər kütləsi arasındakı nisbət pulun alıcılıq qabiliyyətini müəyyənləşdirir. ***Pulun alıcılıq qabiliyyəti*** – pul vahidinə almaq mümkün olan əmtəə və xidmətlərin miqdarıdır. O, pulun dəyəri ilə əmtəələrin dəyəri arasındakı nisbəti əks etdirir, qiymətlərin dəyişməsindən daha çox asılı olur. Əmtəənin qiyməti nə qədər yüksək olarsa, pulun alıcılıq qabiliyyəti bir o qədər aşağı olar, çünki bir pul vahidinə daha az miqdarda əmtəə almaq olar. Nəticədə pulları əmtəəyə, maddi-əşyavi sərvətlərə çevirməkdə ifadə olunan «puldan qaçma» adlanan hadisə baş verir.

Pulun alıcılıq qabiliyyəti = Nominal pul kütləsi / Qiymətlərin səviyyəsi.

§3. Pul bazarı. Pul tələbi və təklifi

Pul bazarı – elə pul vəsaitləri bazarıdır ki, burada pula tələb və pulun təklifinin qarşılıqlı əlaqəsi nəticəsində pulun miqdarının tarazlıq kəmiyyəti və tarazlıq faiz dərəcəsi müəyyənləşir.

Pul bazarı pul bazarına və kapital bazarına bölünən maliyyə bazarının bir hissəsidir. Pul bazarı məfhumu altında qısamüddətli (bir ilə qədər) kredit əməliyyatları bazarı başa



Şəkil 9.3. Maliyyə bazarının strukturu

düşülür. Pul bazarı öz növbəsində uçot, banklararası və valyuta bazarlarına bölünür (şəkil 9.3).

Uçot bazarına əsas aləti xəzinədarlıq və kommersiya vekselləri, qısamüddətli öhdəliklərin (qiymətli kağızlar) digər növləri olan bazarlar aiddir.

Banklararası bazar – borc kapitalları bazarının bir hissəsidir, burada kredit müəssisələrinin müvəqqəti azad pul resursları cəlb olunur və bankların öz aralarında əsasən banklararası depozit formasında qısa müddətə yerləşdirilir.

Valyuta bazarları müxtəlif ölkələrin pul öhdəliklərinin ödənilməsi ilə əlaqədar beynəlxalq tədiyyə dövriyyələrinin ödənilməsinə xidmət edir. Burada ümumi tələb və təklif əsasında valyuta alışı və satışı baş verir (bütün ölkələr üçün ümumi tədiyyə vasitəsi olmadığından).

Kapital bazarı orta və uzunmüddətli kreditləri, həmçinin səhmlər və istiqrazları ehtiva edir. O, qiymətli kağızlar bazarına (orta və uzunmüddətli) və orta və uzunmüddətli bank kreditləri bazarına bölünür. Qısamüddətli tələbatlarının təmin olunması üçün yüksək likvidlikli vəsaitlərinin realizə olunduğu pul bazarından fərqli olaraq kapital bazarında maliyyə resurslarına olan uzunmüddətli tələbatlar ödənilir.

Maliyyə bazarını həm də *ilkin* və *təkrar* bazarlarının məcmusu kimi nəzərdən keçirmək, həmçinin *milli* və *beynəlxalq* bazarlara bölmək olar. İlkin bazar qiymətli kağızların emissiyası məqamında yaranır, onda maliyyə resursları formalaşır. Təkrar bazarlarında bu resurslar təkrar bölünür və özü də bir neçə dəfə. Təkrar bazarları, öz növbəsində, birja və qeyri-birja bazarlarına bölünür. Sonuncuda hər hansı səbəbdən birjada qiymətləndirilməyən qiymətli kağızların alışı-satışı (məsələn, banklar vasitəsilə) baş verir.

Pul bazarı mexanizminin (bunun mühüm elementləri pula tələb və onun təklifidir) fəaliyyət göstərməsi iqtisadiyyatın pul sisteminin vəziyyətində özünü göstərən ümumi vəziyyətinin təsiri altındadır.

Pul bazarında pul başqa əmtəələrdən fərqli olaraq «sa-

tılmır» və «alınmır». Faiz dərəcəsinin səviyyəsi sanki pulun «qiyməti» qismində çıxış edir. Pul bazarının özünəməxsusluğu bundadır.

Pul bazarı mexanizminin ən mühüm elementləri *pulun qiyməti, pula tələb və pul təklifidir.*

Pulun qiyməti. Pul bazarında kredit əməliyyatları üçün bank tərəfindən müəyyənləşdirilən nominal faiz dərəcəsi sanki pulun «qiyməti» qismində çıxış edir.

M0 və M1 aqreqatları üçün likvid aktivləri daha az aktivlərdən üstün sayan pulu saxlayanın almayacağı gəlir hesablanır. Bu alınmamış gəlir belə hesablana bilər:

$$i = r + \pi_e,$$

burada i – nominal faiz dərəcəsi;

r – *real faiz dərəcəsi;*

π_e – inflyasiyanın gözlənilən tempidir.

Real faiz dərəcəsi kreditə verilmiş pul məbləği vahidinin alıcılıq qabiliyyətinin artım tempini əks etdirir.

Tədavüldə olan ***pulun real alıcılıq qabiliyyəti*** (qiymətlər səviyyəsinə bölünmüş nominal pul kütləsi) real ***kassa qalıqlarının həcmi*** ilə ifadə olunur.

İqtisadi nəzəriyyədə belə bir müddəa mövcuddur ki, «tədavüldə olan pulun miqdarının dəyişməsi istehsal həcmini dəyişilməz saxlayaraq, yalnız qiymətlərin mütləq səviyyəsinə təsir edir və bu da ***pulun neytrallığı*** adını almışdır. «Pulun neytrallığı» anlayışı nəzərdə tutur ki, tədavüldəki pulun miqdarının bir dəfə dəyişməsi uzunmüddətli zaman kəsiyində istehsalın real həcminin tarazlı səviyyəsinə təsir göstərməyəcək.

Neoklassik məktəbin tərəfdarları belə bir fərziyyə irəli sürürlər ki, pul-kredit siyasətindəki dəyişikliklər hətta qısamüddətli dövrdə, əgər iqtisadi obyektlər güman edilən dəyişiklikləri gözləyirlərsə, iqtisadi sistemdə hər hansı bir dəyişikliyə səbəb olmurlar. Bu fərziyyə ***pulların superneytrallığı*** adını almışdır.

Pula tələb. Pula tələb təsərrüfat agentlərinin tədiyyə vasitəsi kimi istifadə etmək istədikləri pul vəsaitlərinin həcmi ilə müəyyənləşdirilir. Pula tələb pul gəlirinə tələblə eyni deyil. O, iqtisadi subyektlərin öz gəlirlərinin hansı hissəsini daha likvidli – nağd pul (pul kassası) şəklində saxlamağa üstünlük vermələrini göstərir və müəyyən zaman anı üçün ölçülən pul ehtiyatına tələbdən ibarətdir. Pula tələb iqtisadiyyatın bütün bölmələrində formalaşır.

İqtisadi ədəbiyyatda pula tələbin iki əsas konsepsiyası fərqlənir: neoklassik (monetarist) və keynsçi.

Pula tələbin *monetarist nəzəriyyəsi* neoklassik ənənələrə əsaslanır və tədavüldə pulun artmasının qiymətlərin artmasına, azalmasının isə azalmasına səbəb olduğunu söyləyən pulun kəmiyyət nəzəriyyəsinin əsas müddəalarını mənimsəmişdir.

Kəmiyyət nəzəriyyəsinin müasir şərhi gəlirlərin hərəkətində pulun tədavül sürəti anlayışına əsaslanır. Əgər İ.Fişerin «mübadilə tənliyində» tənliyin sol hissəsindəki pul kütləsini (M) pula tələbin həcmi (M_d) ilə əvəz etsək, onda belə alınar:

$$M_d = P \cdot Q / V .$$

Bu tənlikdən göründüyü kimi pula tələbin həcmi aşağıdakı amillərdən asılıdır:

- qiymətlərin mütləq səviyyəsindən. Bütün digər şərtlər bərabər olduqda, qiymətlərin səviyyəsi nə qədər yüksək olarsa, pula tələb də bir o qədər yüksək olar və əksinə;
- real istehsal həcmi səviyyəsindən. Onun səviyyəsi artdıqca, əhalinin real gəlirləri də artır və deməli, adamlara da daha çox pul lazım olur, çünki real gəlirlərin daha yüksək olması sövdələşmələrin də artmasını nəzərdə tutur;
- pulların tədavül sürəti. Pulun tədavül sürətinə təsir edən bütün amillər müvafiq olaraq pula tələbə də təsir edəcəklər.

Keyns özünün pula tələb nəzəriyyəsini ***likvidliyə üstünlük vermə nəzəriyyəsi*** adlandırmışdı. O, insanları sərvətlərinin bir qismini pul şəklində saxlamağa təhrik edən üç səbəb fərqləndirir:

1) puldan tədiyyə vasitəsi kimi istifadə etmək üçün (pul


saxlamağın *transaksiya motivi*);

2) gələcəkdə öz resurslarının müəyyən hissəsini nağd pul şəklində istifadə etmək imkanını təmin etmək üçün (*ehtiyat görmə motivi*);

3) möhtəkirlik motivi – borc faizi normalarının artmasının gözlənildiyi dövrdə aktivlərin istiqraz formasında saxlanılmasından irəli gələn kapital itkisindən qaçmaq istəyindən doğan pul saxlama motividir. Məhz bu motiv pula tələb kəmiyyəti ilə faiz norması arasında əks əlaqəni formalaşdırır.

Müasir pula tələb nəzəriyyəsi pula tələbin transaksiya, möhtəkirlik və ehtiyat görmə motivlərinə bölünməsini inkar edir. Faiz dərəcəsi pula tələb kimi təzahür edir, amma faiz norması pulun saxlanılmasının alternativ olması nəticəsində. Bu zaman zənginlik pula tələbin əsas amili kimi nəzərdən keçirilir. Pula tələbin həcminə gözləmələrdəki dəyişikliklər (gələcək konyunktura haqqında proqnozlar bədbin olarsa, pula tələbin həcmi azalar), inflyasiyanın olması təsir edir.

Digər maliyyə aktivlərinin alınması üçün pula tələb dividendlər və ya faizlər şəklində gəlir əldə etmək istəyi ilə müəyyənləşir və faiz dərəcəsi səviyyəsinə tərs mütənasib dəyişir. Bu asılılıq pula tələb əyrisi ilə (M_d) əks olunur (şəkil 9.4).



Şəkil 9.4. Pula ümumi tələb əyrisi

Pula ümumi tələb əyrisi (M_d) faiz dərəcəsinin hər bir mümkün qiymətində sövdələşmələr aparmaq və səhmlər və istiqrazlar almaq üçün əhalinin və firmaların malik olmaq istədikləri pulun ümumi məbləğini bildirir.

Şaquli xətt üzərində faiz dərəcələri, üfüqi üzərində isə pula tələb göstərilir. A nöqtəsində faiz dərəcəsi 10 vahidə, pula tələb isə 100 vahidə, B nöqtəsində isə faiz dərəcəsi 5 vahid azalmış, pula tələb isə 200 vahidə qədər artmışdır.


Pula tədavül vasitəsi (işgüzar, əməliyyat, transaksion və ya sövdələşmələrin aparılması üçün pula tələb) və dəyərin saxlanılma (aktivlər, ehtiyat dəyər, möhtəkirlik) vasitəsi kimi tələb məhdudlaşdırılsa, onda tələb əyrisi dəyişilər.

Birinci halda müəyyən sadələşmələrlə pula tələb faiz dərəcəsindən asılı deyil və bu halda pula tələb əyrisi şaquli olacaq (şəkil 9.5).


İkinci halda dəyərin saxlanılması vasitəsi kimi pula tələb artıq nominal faiz dərəcəsindən asılıdır və pula tələb klassik forma alır (şəkil 9.6).

Beləliklə, pula ümumi tələb nominal faiz dərəcəsindən və nominal ümumi milli məhsulun həcmindən asılıdır.

Pul təklifi və pul multiplikatoru. Pul təklifi dedikdə adətən müvafiq pul aqreqatlarından əmələ gələn tədavüldəki



Şəkil 9.5. Pula əməliyyat tələbi əyrisi



Şəkil 9.6. Pula aktiv kimi tələb əyrisi

pul kütləsi və ya hazırkı anda ölkədə tədavüldə olan tədiyyə vasitələrinin məcmusu başa düşülür.


İqtisadiyyatda pulun təklifi əsasən Mərkəzi bank tərəfindən tənzimlənir, bir də müəyyən hallarda cüzi də olsa həm əhalinin davranışından, həm də iri kommersiya maliyyə strukturlarının davranışından asılıdır.

Pul təklifi əyrisi (bax şəkil 9.4) tədavüldəki pulun miqdarının faiz dərəcəsinin səviyyəsindən (pul bazasının dəyişməməsi şəraitində) asılılığını göstərir.

Pul təklifinin qısa və uzunmüddətli əyrilərini fərqləndirirlər. M_1 aqreqatı üçün pul təklifinin qısamüddətli əyrisi şaquli xətdir, çünki pul multiplikatoru sabitdir və faiz dərəcəsindən asılı deyil. Digər aqreqatlar üçün (M_2, M_3) o, əyri xətt olur.

Pul təklifinin uzunmüddətli əyrisi pula tələb dəyişdikdə pul kütləsinin faiz dərəcəsinin dəyişməsindən asılılığını əks etdirir. Pul təklifi əyrisinin görünüşü Mərkəzi bankın apardığı pul-kredit siyasətinin taktik məqsədlərindən asılıdır.

Təklif əyrisi Mərkəzi bank pulun miqdarını sabit səviyyədə saxlamaq məqsədi güdəndə və faiz dərəcəsinin dəyişmələrinə baxmayaraq tədavüldəki pulun miqdarını inamla nəzarətdə saxlayanda şaquli olur. O, qrafikdə (bax: şəkil 9.7, a) verilmişdir. Absis oxu üzərində pul kütləsi təklifi kə-



Şəkil 9.7. Pul təklifi əyriləri növləri:
a) sərt monetar siyasət; b) çevik monetar siyasət; c) qarışıq pul siyasəti

miyyəti (M), ordinat oxu üzərində isə faiz dərəcəsi (r) qeyd olunur. Belə vəziyyət inflyasiyanın qarşısını almağa ünvanlanmış sərt monetar siyasət üçün səciyyəvidir. Bunun üçün məcburi ehtiyatların normasının dəyişdirilməsi və açıq bazarda əməliyyatlar kimi alətlərdən istifadə olunur.

Pul təklifi əyrisi monetar siyasət borc faizinin nominal ölçülərini sabit saxlamaq məqsədi güdəndə üfüqi olur (şəkil 9.7, b). Bu, Mərkəzi bankın uçot dərəcələrinin təsbit olunması və kommersiya banklarının faiz dərəcələrinin ona bağlanması ilə, bir də açıq bazarda əməliyyatların köməkliyi ilə əldə olunur. Belə siyasət yumşaq (çevik) monetar siyasət adlanır. Bu, adətən pula tələb, məsələn, pulun tədavül sürətinin artması hallarda tətbiq olunur. Bu halda ödəmələr böhranından qaçmaq olur.

Pul təklifi əyrisi Mərkəzi bank tədavüldə olan pulun miqdarının və müvafiq olaraq nominal faiz dərəcəsinin müəyyən qədər artırılmasına yol verən zaman maili olur (şəkil 9.7, v). Bir qayda olaraq bu, Mərkəzi bank məcburi ehtiyatların normasını sabit saxlayanda, amma bu əməliyyatı açıq bazarda aparmayanda baş verir. Bu siyasət (qarışıq) adətən pula tələbin dəyişmələri ÜDM-in artıb-azalmaları ilə şərtlənəndə baş verir.

Pul təklifinin dinamikası pul və digər multiplikatorların köməkliyi ilə səciyyələndirilə bilir.

Pul multiplikatoru pul təklifinin pul bazasına nisbətidir.

$$m = M_s / MB; \; M_s = m \cdot MB,$$

burada m – pul multiplikatoru;

M_s – pul təklifi;

MB – pul bazasıdır.

Pul bazası (daha güclü pullar, ehtiyat pulları) – bank sistemindən kənar nağd pullar, bir də kommersiya banklarının Mərkəzi bankda saxlanılan ehtiyatlarıdır. Nağd pullar bilavasitə pul təklifinin bir hissəsidir, amma bank ehtiyatları bankların yeni depozitlər yaratmaq qabiliyyətinə təsir edir və pul təklifini artırır:

$$MB = C + R,$$

burada C – nağd pul;

R – ehtiyatlardır;

$$M_s = C + D,$$

burada D – tələbə qədərki depozitlərdir.

Pul multiplikatoru pul bazasının bir vahid artdığı təqdirdə pul təklifinin (ölkədə pulun miqdarının) nə qədər artacağını göstərir.

Gündəlik multiplikatordan başqa depozit və kredit multiplikatorundan da istifadə etmək olar.

Depozit multiplikatoru pul bazasının bir vahid artdığı təqdirdə kommersiya banklarında depozitlərin maksimum nə qədər arta biləcəyini göstərir.


Kredit multiplikatoru pul bazasının bir vahid artdığı təqdirdə əhaliyə bank kreditlərinin məbləğinin maksimum nə qədər arta biləcəyini göstərir.

Pul bazarının modeli

Pul bazarının makroiqtisadi modeli bütövlükdə şəkil 9.8-də verilmiş qrafik şəklində ola bilər.

Pula tələb əyrisi əks maililiklidir və M_d əyrisi ilə verilmişdir.

Tarazlıq pula tələb və pul təklifi əyrilərinin kəsişmə nöqtəsində – E nöqtəsindədir. Həmin nöqtədə iqtisadi subyektlərin malik olmaq istədikləri pulun miqdarının tarazlı



Şəkil 9.8. Pul bazarının makroiqtisadi modeli

faiz dərəcəsində bank sisteminin verdiyi pulun miqdarına müvafiq olmasını əks etdirən M_E (absis oxu üzərində) və r_E (ordinat oxu üzərində) tarazlıq qiymətləri əldə olunub. M_E bərabər olan verilmiş pul təklifində tarazlığa faiz dərəcəsinin r_E qiymətində çatılır.

Faiz dərəcəsi tarazlıq səviyyəsindən yuxarı qalxarsa, pulların saxlanılmasının alternativ dəyərinin artması baş verəcək. Pula tələb M_1 –ə qədər düşəcək (A nöqtəsində tarazlığın pozulması).

İqtisadi subyektlər (kommersiya bankları, əhali) üçün öz pul vəsaitlərini alternativ aktivlərdə saxlamaq daha sərfəli olacaq və onlar pullarını, məsələn, dövlət istiqrazlarının alınmasına qoyacaqlar. Pul artıqlığı yaranır və iqtisadi agentlər ondan can qurtarmağa çalışırlar. Bu zaman bank sistemi artıq pullardan can qurtarmağa çalışacaq , bunun üçün dövlətin qiymətli kağızlarını alacaq və nəticədə onların qiyməti qalxacaq. Son nəticədə bazar mexanizmi pul tələbi və təklifini tarazlı ilkin vəziyyətə gətirib çıxaracaq. Bu zaman faiz dərəcəsi r_1 səviyyəsindən r_E səviyyəsinə qədər enəcək.

Faiz dərəcəsi tarazlı səviyyədən aşağı, r_2 səviyyəsinə düşərsə (bax: tarazlığın B nöqtəsində pozulması), onda pulların saxlanılmasının alternativ dəyəri azalacaq, pula tələb artacaq və pul çatışmazlığı yaranacaq. İqtisadi subyektlər öz pul vəsaitlərini artırmaq üçün dövlətin qiymətli kağızlarını satmağa və eyni zamanda öz təcili depozitlərini bağlamağa başlayacaqlar. Kommersiya bankları təcili əmanətlər üzrə daha yüksək faiz təklif etməyə başlayacaqlar. Bazarda dövlət istiqrazlarının çox olması onların bazar məzənnəsinin aşağı düşməsinə və gəlirliliyinin artmasına səbəb olacaq. Əks proses başlayacaq və faiz dərəcəsinin əvvəlki r_E səviyyəsində tarazlığın bərpa olunması ilə başa çatacaq.

Pul bazarında tarazlığın pozulması pula tələbdə və ya pul təklifində dəyişikliklər nəticəsində də baş verə bilər.

Pul bazarında tarazlıq pula tələb və pul təklifinin qarşılıqlı təsiri prosesində müəyyənləşir və bazarın elə vəziyyəti

ilə səciyyələnir ki, bu zaman pula tələbin həcmi ilə pul təklifi həcmi bərabər olur.

Pul bazarında tarazlıq iqtisadi agentlərin öz aktivlər portfellərində görmək istədikləri pulun miqdarının hazırkı pul-kredit siyasətinin həyata keçirilməsi şəraitində bank sisteminin təklif etdiyi pulun miqdarına bərabər olması deməkdir.

Pul təklifi və pula tələb əsasən pul bazarının həcmi və konyunkturasını müəyyənləşdirirlər.

§4. Pul siyasəti: məqsədləri və alətləri

Pul siyasəti müasir makroiqtisadi siyasətin ən mühüm elementidir.

Pul siyasəti (onu bəzən monetar da adlandırırlar) – ***ölkənin maliyyə hakimiyyəti tərəfindən onların güddükləri məqsədlərə çatmaq üçün istifadə etdikləri və tədavüldə olan pulun miqdarına təsir edən tədbirlər kompleksidir.***

Pul siyasəti vasitəsilə dövlət təsərrüfat konyunkturasını tənzimləmək və bir sıra ümumi iqtisadi məqsədlərə çatmaq – pul vahidini möhkəmlətmək, qiymətləri sabitləşdirmək, iqtisadiyyatın struktur yenidənqurmasını aparmaq, iqtisadi artım templərini sabitləşdirmək üçün pul-kredit sisteminin fəaliyyətini, pul tədavülü və krediti, borc kapitalı bazarını, nağdsız hesablaşmalar qaydasını və s. nizamlayır. Pul siyasəti çərçivəsində dövlət ötürücü mexanizm kimi pul sahəsinin müxtəlif amillərindən istifadə edərək təkrar istehsal proseslərinə əvvəlcədən hesablanılmış müəyyən təsir göstərməyə cəhd edir. Bununla əlaqədar olaraq ***tənzimlənmə prosesi iki mərhələyə bölünür.*** Birinci mərhələ Mərkəzi bankın müxtəlif monetar amilləri dəyişmək cəhdləri, ikinci mərhələ bu dəyişikliklərin təsirinin kapitalların investisiya edilməsi prosesinə, istehlak tələbinə, qiymətin əmələ gəlməsinə və s. ötürülməsi ilə bağlıdır. Bu təsir ümumi daxili məhsulun, milli gəlirin və digər makroiqtisadi göstəricilərin kəmiyyətində əksini tapmalıdır. Sxem şəklində bunu belə bir

ardıcıllıq şəklində vermək olar: *pul kütləsi – faiz norması – kapitallaşma – milli gəlir.*

Pul bölməsini tənzimləmək üçün dövlət iqtisadi, hüquqi və inzibati idarəetmə metodlarından istifadə edir ki, onların da hər birinin öz alətlər dəsti var. Bu və ya digər pul tənzimləmə metodlarından istifadə edən dövlət bütövlükdə elə təsir göstərməlidir ki, bazar əlaqələri pozulmasın.

İqtisadi (və ya dolayı) metodlar iqtisadi subyektlərə tam azad seçim imkanı verir. Pul-kredit siyasətini həyata keçirən dövlət ÜDM, qiymətlərin səviyyəsi, faiz dərəcəsinin kəmiyyəti, investisiyaların həcmi, valyuta kursu kimi mühüm iqtisadi göstəricilərə təsir göstərir. Pul-kredit siyasətini Mərkəzi bank həyata keçirir və pul tədavülünü ***xüsusi alətlərin*** – məcburi ehtiyatlar norması, uçot dərəcəsi, açıq bazarda əməliyyatlar, pul targetləşməsi (*pul targetləşdirməsi* – tədavüldə pul kütləsinin ayrı-ayrı komponentlərinin artmasının məqsəd oriyentirlərinin müəyyənləşdirilməsi (yuxarı və aşağı hədlər)), lombard kreditləməsi, valyuta müdaxiləsi və sterilləşdirməsinin köməkliyi ilə tənzimləyir.

Tətbiq sahəsində iqtisadi metodlar bütün pul tədavülü sisteminə yönümlənmiş ümumi və onun ayrı-ayrı hissələrinə, məsələn, yalnız nağdsız hesablaşmalara və ya valyuta əməliyyatlarına tətbiq olunan lokal ola bilirlər.

İnzibati və ya birbaşa tənzimləmə metodları, dolayı metodlardan fərqli olaraq, seçim imkanını xeyli məhdudlaşdırırlar. Onların özəlliyi dövlətin iqtisadi fəaliyyət subyektləri üçün məcburi olan kompleks tələbləri və sərəncamlarından ibarət olmalarındadır.

Tipik inzibati tənzimləmə alətlərinə aiddir: kvotalar; lisenziyalar; standartlar; göstərişlər; icazələr; minimum əmək haqqının müəyyənləşdirilməsi; qiymətlərin dondurulması; rentabellik normativlərinin, ticarət əlavələrinin son həddəlavələrinin müəyyənləşdirilməsi; valyuta məhdudiyyətlərinin tətbiq edilməsi (məsələn, ixracatçıların valyuta satış pullarını mütləq Mərkəzi banka satmaları, differensiallaşdırılmış valyuta kurslarının müəyyənləşdirilməsi).

Hüquqi tənzimləmə metodları dövlət tərəfindən firmalar və istehlakçılar üçün iqtisadi "oyun" qaydalarının müəyyənləşdirilməsindədir.

RF-nın pul sisteminin müasir quruluşunun qanunvericiliklə tənzimlənməsi üçün RF Mülki Məcəlləsinin (RF MM), "Rusiya Federasiyası Mərkəzi Bankı (Rusiya Bankı) haqqında " 10 iyul 2002-ci il tarixli №86-FQ, "Banklar və bank fəaliyyəti haqqında" 2 dekabr 1990-cı il tarixli №395- I, «Valyuta tənzimlənməsi və valyuta nəzarəti haqqında» 10 dekabr 2003-cü il tarixli №73-FQ və başqa Federal qanunların böyük əhəmiyyəti var.

Qanunvericilik aktları pul tədavülünü həyata keçirən orqanların məqsədlərini və fəaliyyət istiqamətlərini səciyyələndirir.

Hüquqi və inzibati tənzimləmə metodları ilə yanaşı hərdən daha bir qeyri-iqtisadi tənzimləmə metodundan – ***mənəvi inandırmadan*** istifadə olunur. Bu üsul hökumətin nüfuzuna, ədalətə və inandırma gücünə əsaslanır (dövlətin ölkə idxalçılarını müvəqqəti olaraq xaricdən alışları azaltmağa, əhalini isə yalnız ölkə istehsalı olan məhsulları almağa çağırışları).

Pul siyasətinin aparılmasında hökumətin və bankın qarşılıqlı münasibətləri adətən dəqiq müəyyənləşdirilmiş olur. Burada əsas yeri maliyyə məsələhətləri, yəni bankın büdcə ilə qarşılıqlı münasibətləri prinsipinin təsbit olunmasıdır. Hökumət öz davranışlarında məhdudlaşmışdır və yalnız ümumi makroiqtisadi siyasəti razılaşdıraraq, bankın gündəlik fəaliyyətinə müdaxilə etmir.

Mərkəzi bank nizamnaməyə görə pul tədavülünün sabitliyinə və milli valyutanın kursuna cavabdehdir və bu məqsədlə öz siyasətini digər dövlət orqanları ilə uzlaşdırır. Pul siyasəti çox vaxt bütün iqtisadi siyasətin elementlərindən biri kimi çıxış edir və bilavasitə hökumətin üstünlükverimləri ilə müəyyənləşir.

Pul siyasətinin hazırlanması və həyata keçirilməsi Mərkəzi bankın ən mühüm funksiyasıdır. O, ölkədə pul təklifi

həcminə və onun vasitəsilə istehsalın və məşğulluğun səviyyəsinə real təsir imkanlarına malik olub, kommersiya banklarının izafi ehtiyatlarının həcmini tənzimləyir. Mərkəzi bankın sərəncamında olan əsas alətlərə daxildir:

1) rəsmi ehtiyat tələblərinin tənzimlənməsi;

2) açıq bazarda əməliyyatlar;

3) faizin uçot dərəcəsi ilə manipulyasiya etmək (diskont siyasəti).

Pul təklifinə ən güclü təsir vasitəsi qismində Mərkəzi bankın ehtiyat tələbləri normasını dəyişməsi çıxış edir. Ehtiyat kəmiyyəti, yəni hər bir kommersiya bankının mütləq Mərkəzi bankın hesablarında saxlamalı olduğu bank aktivlərinin bir hissəsi, onun kredit imkanlarını əsasən müəyyənləşdirir: bank yalnız qanunla müəyyənləşdirilmiş minimum normadan artıq olan sərbəst ehtiyatları olduğu təqdirdə borc verə və bununla da pul təklifi edə bilər. Mərkəzi bank rəsmi ehtiyat tələblərini artırmaq və ya azaltmaqla bankların kredit fəallığını tənzimləyə və bununla da pul təklifini nəzarətdə saxlaya bilər.

Açıq bazarda əməliyyat – Mərkəzi bank tərəfindən dövlətin qiymətli kağızlarının satqısı və ya alqısı – pul təklifinin tənzimlənməsinin əsas iş alətidir. Qiymətli kağızların satqısı və alqısı zamanı əlverişli faizlərin təklifinin köməkliyi ilə kommersiya banklarının likvidlik vəsaitlərinin həcminə təsir etməyə, yəni onların kredit emissiyasını idarə etməyə çalışır. Açıq bazarda qiymətli kağızlar almaqla o, kommersiya banklarının ehtiyatlarını artırır və pul təklifinin artmasına rəvac verir. Mərkəzi bank tərəfindən qiymətli kağızların satılması əks nəticəyə gətirir.

Pul siyasətinin üçüncü aləti diskont siyasəti və ya uçot faizinin dəyişməsidir. Mərkəzi bank kommersiya banklarına borc verir. Bu borcların verildiyi faiz dərəcəsi faizin uçot dərəcəsi adlanır. Bu faizi dəyişməklə Mərkəzi bank bankların ehtiyatlarına təsir edə, onların əhaliyə və müəssisələrə kredit vermək imkanlarını genişləndirə və məhdudlaşdıra bilir. Uçot faizi səviyyəsindən asılı olaraq kommersiya bank-

larının faiz dərəcələri sistemi müəyyənləşir, kreditin ümumiyyətlə bahalaşması və ya ucuzlaşması baş verir və bununla da pul kütləsinin və tədavülün məhdudlaşması və ya genişlənməsi üçün şərait yaradılır.

Ölkədə bu və ya digər dövrdə yaranan iqtisadi vəziyyətdən asılı olaraq Mərkəzi bank ucuz və ya bahalı pullar siyasəti aparır.

Ucuz pul siyasəti bir qayda olaraq iqtisadi tənəzzül və yüksək işsizlik səviyyəsi vəziyyəti üçün səciyyəvidir. Onun məqsədi kreditləri daha ucuz və asan əldə olunan etməkdir ki, bununla məcmu xərcləri, investisiyaları, istehsalı və məşğulluğu artırmaq mümkün olsun. Bu məqsədlərin çatılmasını hansı tədbirlər təmin edə bilər? Birincisi, faizin uçot dərəcəsinin azaldılması kommersiya banklarını Mərkəzi bankdan daha çox borc götürməyə və bununla da öz ehtiyatlarını artırmağa sövq etməlidir. İkincisi, Mərkəzi bank dövlətin qiymətli kağızlarını açıq bazarda almaqla kommersiya banklarının ehtiyatlarını artırır. Üçüncüsü, Mərkəzi bank məcburi ehtiyat tələbləri normasını azaldır və eyni zamanda pul təklifi multiplikatorunu artırır.

Bahalı pul siyasəti məcmu xərcləri azaltmaq və inflyasiyanın tempini azaltmaq üçün pul təklifini məhdudlaşdırmaq məqsədi güdür. Ona aşağıdakı tədbirlər daxildir:

1) faizin uçot dərəcəsinin artırılması; bu, kommersiya banklarını Mərkəzi bankdan borc almağa həvəsləndirmir;

2) Mərkəzi bank tərəfindən açıq bazarda dövlətin qiymətli kağızlarının satışı;

3) ehtiyat tələbləri normasının artırılması; bu da izafi ehtiyatları məhdudlaşdırır və pul təklifi multiplikatorunu azaldır.

Bütövlükdə bütün bazara təsir göstərən pul tənzimləməsinin ümumi metodlarından başqa, mərkəzi banklar konkret kredit növlərinin tənzimlənməsi üçün nəzərdə tutulmuş selektiv metodlardan da (məsələn, istehlak tələblərinə bank kreditləri həcminin birbaşa məhdudlaşdırılması, birja qiymətli kağızlarının girov qoyulmasıyla, bir borc götürən üçün

borc həddinin müəyyənləşdirilməsi və s.) istifadə edirlər.

«Dar» və «geniş» pul siyasəti fərqləndirilir. «Dar» siyasət dedikdə valyuta bazarında investisiyaların köməkliyilə, qısamüddətli faiz dərəcələrinə təsir edən uçot siyasəti və digər alətlər vasitəsilə optimal valyuta kursunun əldə olunması nəzərdə tutulur. «Geniş» siyasət tədavüldəki pul kütləsinə təsir etməklə inflyasiya ilə mübarizəyə yönümlənmiş siyasətdir. Birbaşa və dolayısıyla olan kredit nəzarəti metodlarının köməkliyi ilə bank sisteminin likvidliyi və uzunmüddətli faiz dərəcələri tənzimlənir.

Müasir şəraitdə bank sisteminin likvidliyinin tənzimlənməsi sözün ən geniş mənasında pul tədavülü və kreditləmə həcminin artımı üzərində nəzarəti nəzərdə tutur. Təsadüfi deyil ki. bəzi olkələrdə pul kütləsinin geniş göstəricisi qismində likvidlik göstəricisi istifadə olunur. Monetarizm baxımından faiz dərəcələrinə deyil, pul kütləsinə təsir, baxmayaraq ki, bu prosesləri bir-birindən ayırmaq mümkün deyil, daha səmərəli hesab olunmağa başlayıb.Pul siyasətinin beynəlxalq cəhəti, yəni valyuta kursu, ehtiyatlar, ödəniş balansı məsələləri xüsusi problemi təşkil edir.

Digər tərəfdən, pul siyasəti büdcə və vergi siyasəti ilə dəqiq əlaqələndirilməlidir.

Mərkəzi bank pul və kredit axınlarını qanunvericiliklə təsbit olunmuş alətlər vasitəsilə və nadir hallarda ənənələrə söykənərək tənzimləməlidir.

Fiskal siyasət kimi, pul siyasətinin də öz müsbət və mənfi cəhətləri var. Onun güclü tərəflərinə tez olması və çevikliyini, fiskal siyasətlə müqayisədə siyasi təzyiqdən daha az asılılığını, siyasi cəhətdən daha çox mühafizəkarlığını aid etmək olar. Pul siyasətinin həyata keçirilməsində problemlər əsasən tsiklik asimmetriklik tərəfindən yaradılır. Onun səmərəliliyi bir də pul tədavülü sürətinin əks istiqamətli dəyişmələri nəticəsində azala bilir.

Əsas anlayışlar və məfhumlar

Pul sistemi; metal tədavülü; pul tədavülü sahələri; monometalizm; bimetalizm; paralel valyuta sistemi; qızıl sikkə standartı; qızıl külçə standartı; qızıl deviz standartı; «sikkələrin korlanması»; veksel tədavülü; fidutsiar pul sistemi; banknot; çek tədavülü; senoraj; elektron-kağız pul sistemləri; pul kütləsi; pul aqreqatları; pul bazası; pulun alıcılıq qabiliyyəti; pul bazarı; pul bazarında tarazlıq; pulun qiyməti, tələbi və təklifi; pul, depozit və kredit multiplikatorları; pul siyasəti; «geniş» və «dar» pul siyasəti; ucuz pul siyasəti; bahalı pul siyasəti; diskont siyasət.

X FƏSİL. KREDİT-BANK SİSTEMİ

§1. Bazar iqtisadiyyatında kreditin funksiyaları və rolu.
§2. Bankların və bank kreditləməsinin meydana gəlməsi. Kreditin formaları.
§3. Kredit sistemi və müasir şəraitdə onun inkişafı.
§4. Kommersiya bankları və bazar iqtisadiyyatında onların funksiyaları.
§5. Mərkəzi bank və bazar iqtisadiyyatında onun funksiyaları.

Bazar iqtisadiyyatının ən mühüm atributlarından biri müvafiq şəkildə təşkil olunmuş kredit-bank sistemidir ki, onu çox vaxt iqtisadiyyatın xüsusi növ qanı olan pulu dövr etdirən ürəyi adlandırırlar. Həqiqətən də, kreditin və kredit münasibətlərinin müasir iqtisadiyyatda əhəmiyyətini dəyərincə qiymətləndirmək olduqca çətindir.

§1. Bazar iqtisadiyyatında kreditin funksiyaları və rolu

Kredit (lat.-borc) cəmiyyətdə iqtisadi münasibətlərin inkişafını əks etdirən tarixi kateqoriyadır. O, sivilizasiyanın erkən çağında ibtidai-icma quruluşunun dağılması dövründə icmanın əmlaki təbəqələşməsi zəminində yaranmışdır. İqtisadiyyatın ümumi inkişafı ilə birgə və onun qanunları üzrə inkişaf edərək kredit özünün çiçəklənmə dövrünə bazar iqtisadiyyatı şəraitində çatdı. Bütövlükdə ictimai əməyin nəticələrinin mübadiləsi kimi, o da bazar iqtisadiyyatının obyektiv və ayrılmaz reallığıdır.

Bazar iqtisadiyyatı şəraitində kredit borc kapitalının, yəni borca verilmiş pul kapitalının hərəkət formasıdır. O, kreditverənlər və borcgötürənlər arasında münasibətləri ifadə edir və bu zaman azad pul kapitalının borc kapitalına çevrilməsini təmin edir.

Bazar iqtisadiyyatında kreditin ***zəruriliyi*** kapitalın özünün təbiəti və onun təkrar istehsal prosesində dövriyyəsi

və dövranının qanunauyğunluqları ilə şərtlənir.

Müasir istehsalın daim borc pul vəsaitlərinin cəlb olunmasına və onların iqtisadiyyatın bir sahəsindən digər sahəsinə dəyişdirilməsinə ehtiyacı var. Bunlar bir sıra amillərlə şərtlənir:

- birincisi, istehsal tsikllərinin müddətinin fərqli olması səbəbindən istehsala qoyulmuş pul vəsaitlərinin qoyulması anından qoyulmuş pulların qayıtması anı arasında həmişə zaman fərqi olur;
- ikincisi, istehsal xərclərinin minimallaşdırılmasına və müəssisənin özünün və börc götürülmüş vəsaitlərinin optimal uzlaşdırılması hesabına tədavülə zəruri ehtiyac mövcuddur;
- üçüncüsü, iqtisadiyyatın bir çox sahələrində məhsul istehsalında kənd təsərrüfatı və b. mövsümilik var:
- dördüncüsü, çox tez-tez iqtisadiyyatın ayrı-ayrı sahələrində istehsalın inkişaf etdirilməsi, yenidən qurulması və genişləndirilməsi üçün bir dəfəyə və böyük həcmdə investisiyalara zərurət yaranır.

Bazar iqtisadiyyatı şəraitində vəsaitlərin daim təkrar bölünməsinə ehtiyac olduğu aydındır, lakin bir çox nəsillər tərəfindən istehsal vasitələri kimi yığılmış kapital fiziki cəhətdən bir istehsal sahəsindən digərinə ötürülə bilməz. Məhz buna görə də kapitalın ötürülməsi prosesi pul şəklində kredit vasitəsilə həyata keçirilir.

Kredit kapitalın bir istehsal sahəsindən digərinə sərbəst ötürülməsi zərurəti ilə onun natural formada iqtisadiyyatın müəyyən nöqtələrində istehsal vasitələri şəklində təsbit olunması ilə şərtlənən ziddiyyəti həll edir. Bu zaman müəssisələrin, özəl bölmənin və dövlətin azad pul vəsaitləri və gəlirləri səfərbər olunur, ümumi iqtisadi sistem çərçivəsində bir yerə cəmlənir və hazırkı anda iqtisadiyyatın əlavə vəsaitlərə ehtiyac olan nöqtələrinə haqqı ödənilməklə müvəqqəti istifadəyə verilən borc kapitalına çevrilir. Buna görə də kredit sərbəst kapitalın bir istehsal sahələrindən digərinə ötürülməsi və onlar arasında gəlir normalarının tarazlaşdırılması üçün təyinatlanmış elastik mexanizm kimi zəruridir.

Eyni zamanda, kredit fəaliyyət göstərən müəssisələrin kapitalının fərdi dövriyyəsinin fasiləsizliyinin dəstəklənməsi vəsaiti kimi, həmçinin istehsal olunmuş məhsulun realizə olunması prosesinin həyata keçirilməsi üçün də zəruridir. Beləliklə, kredit fərdi kapitalın məhdudluğunu, ələlxüsus, bazar münasibətlərinin formalaşdığı dövrdə, dəf etməyə imkan verir.

Kapitalın dövriyyəsi prosesində istehsalın müxtəlif sahələrində müvəqqəti sərbəst pul vəsaitlərinin azad olması baş verir ki, onlar da pul formasında borc kapitalını əmələ gətirirlər və kredit mənbəyi olurlar. Sərbəst pul vəsaitləri özlərinə tətbiq sahəsi «axtarırlar», çünki boş-boşuna qalan kapital özü artan dəyər kimi kapitalın özünün təbiətinə müvafiq deyil.

Fəaliyyət göstərən kapitalistlərin bir qismində sərbəst pul vəsaitləri yarandığı zaman başqalarında əlavə kapitalın cəlb olunmasına zərurət yaranır. Vəsaitlərin kredit və kredit münasibətlərinin köməkliyi ilə həll olunan təkrar bölgüsü problemi yaranır. Borc kapitalı bazarında yaranmış müvəqqəti sərbəst pul vəsaitləri onların çatışmazlığı hiss olunan yerlərə kreditləmə prosesində təkrar bölünürlər.

Ticarət-sənaye kapitalından ayrılmış pul kapitalı tarixən borc kapitalının formalaşmasına zəmin olmuşdur. Lakin kapitalın fərdi dövriyyəsi prosesində yaranan müvəqqəti sərbəst pul vəsaitlərini borc kapitalının yeganə mənbəyi hesab etmək olmaz.

Müasir şəraitdə ***borc kapitalının*** ən mühüm ***mənbələri*** aşağıdakılardır:

1. Əsas kapitalın tam bərpası üçün amortizasiya fondunun formalaşması prosesində yaranan vəsaitlər.
2. İstehsal vasitələrinin öz dəyərlərini hazır məhsula hissə-hissə keçirmələrindən çıxış edərək, müəssisələr amortizasiya ayırmalarını hər ay və ya hər kvartal həyata keçirirlər, yəni bu proses mütəmadi və bərabər həddə aparılır.

Amortizasiya fondunun xərclənməsi isə dövri, çox vaxt isə bir dəfəyə baş verir. Buna görə də amortizasiya fondunun xeyli hissəsi müvəqqəti sərbəst pul qismində çıxış edir və borc kapitalı mənbəyi olur.

3. Müəssisələrin dövriyyə kapitalının xammal, yanacaq, materiallar və s. almaq üçün nəzərdə tutulmuş sabit hissəsi məhsulun satış pulunun daxil olma anından onun müvafiq maddi dəyərlərin haqqının ödənilməsi vaxtının üst-üstə düşməməsi səbəbindən müvəqqəti sərbəst pul vəsaiti forması alır.

4. İşçilərin əməkhaqqının ödənilməsi üçün nəzərdə tutulmuş dövriyyə kapitalının dəyişən hissəsi müvəqqəti sərbəst pul vəsaiti forması alır, çünki əməkhaqqının ödənilməsinə ayırmalar bir qaydada və mütəmadi baş verir, amma faktik ödəniş müəyyən olunmuş müddətdə dövri qaydada həyata keçirilir.

5. Müəssisənin mənfəətinin istehsalın inkişafına qoyulması üçün nəzərdə tutulan və uzun müddət ərzində istehsalın miqyasından asılı olan müəyyən kəmiyyətə qədər toplanan hissəsi də həmçinin müvəqqəti sərbəst pul vəsaiti forması alır və borc kapitalı mənbəyi olur.

6. Əhalinin bütün təbəqələrinin uzunmüddətli istifadə əmtəələri, mənzil və digər bahalı maddi nemətlərin alınması üçün nəzərdə tutulmuş pul gəlirləri və yığımı. Əhalinin bu vəsaitləri müəyyən vaxta qədər bank hesablarında yığılır və borc kapitalı mənbəyi olur.

7. Dövlətin pul yığımları və müəyyən kommersiya fəaliyyəti növlərindən gələn gəlirləri, həmçinin dövlət və müxtəlif səviyyəli yerli büdcələrdə yaranan müsbət saldolar müvəqqəti sərbəst pul vəsaiti forması alır və borc kapitalı mənbəyi olur. Sərbəst pul vəsaitləri hətta büdcə kəsirlə başa vurulduqda belə yaranırlar, çünki gəlirlərin büdcəyə daxil olması ilə xərclərin həyata keçirilməsi arasında həmişə zaman fərqi olur.

Sərbəst pul vəsaitinin xeyli hissəsi bütün ictimai kapitalın dövranı ilə əlaqədar olaraq yaranır. Bundan başqa, borc

kapitalının mənbəyi kimi əhalinin pul yığımları get-gedə daha fəal istifadə olunur. Bu meyil əhalinin yığım pullarının əsas hissəsinin bank hesablarında, sığorta şirkətlərinin və pensiya fondlarının ehtiyatlarında, həmçinin qiymətli kağızlar bazarında investisiyalarda yerləşdirildiyi bütün inkişaf etmiş kapitalist ölkələri üçün səciyyəvidir. Beləliklə, kreditin köməkliyi ilə iqtisadiyyatın özəl bölməsinin və əhalinin gəlirləri və yığımı mahiyyət etibarilə borc kapitalı olmasalar da, borc kapitalına çevrilirlər.

Kreditin mahiyyətinin ən yığcam ifadəsi onun funksiyalarıdır. Bazar iqtisadiyyatında ***kredit aşağıdakı əsas funksiyaları yerinə yetirir:***

- birincisi, pul kapitalının toplanması və səfərbər edilməsi funksiyasını ki, bu da tarixən ictimai istehsal çərçivələrini xeyli genişləndirməyə imkan yaratmışdır;
- ikincisi, pul kapitalının təkrar bölgüsü funksiyasını. Buna səbəb əhalinin sərbəst pulları, müəssisələrin mənfəətləri və dövlətin gəlirləri borc kapitalına çevrilir və kredit mexanizmi vasitəsilə və ödənişlilik və qaytarılma şərtilə istehsalın ən gəlirli sahələrinə və ya milli iqtisadiyyatın ən prioritet bölmələrinə təkrar bölünür;
- üçüncüsü, kredit tədavüldə nağd pulların kredit pulları – veksellər, çeklər və banknotlarla əvəzlənməsi hesabına tədavül məsrəflərinin azalmasına səbəb olur.

Kreditin inkişafı prosesində banklar və hesablaşma mərkəzləri vasitəsilə nağdsız dövriyyənin qabaqlayıcı artımı baş verir, bank hesablarının və əmanətlərin (kredit kartları, depozit sertifikatları və müxtəlif hesab növləri) istifadəsinin müxtəlif növləri yaranır, pul tədavülü prosesi sürətlənir;

- dördüncüsü, kredit kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesinin sürətləndirilməsi üçün mühüm vasitədir. O, rəqabət mübarizəsində fəal istifadə olunur, firmaların bir-birini udmasına, bir-biri ilə birləşməsinə rəvac verir və bununla da fərdi müəssisələrin səhmdarlar cəmiyyətləri və yoldaşlıqlarına çevrilməsinin amillərindən biri

kimi çıxış edir;

• beşincisi, bazar iqtisadiyyatında kredit iqtisadiyyatın tənzimlənməsi mexanizmi kimi istifadə olunur. İqtisadiyyatın kreditlə tənzimlənməsi – dövlətin kreditin həcmini və dinamikasını optimallaşdırmaq, borc kapitalı bazarını və bütövlükdə ölkə iqtisadiyyatını tənzimləmək məqsədilə həyata keçirdiyi tədbirlər məcmusudur.

Borc kapitalı bazarında əmtəə müvəqqəti sərbəst pul vəsaitləri olduğundan, aydındır ki, həmin vəsaitlərin müvəqqəti sərbəst olması onların verilməsinin də müvəqqəti olmasını nəzərdə tutur. Beləliklə, borc kapitalının ***qayıdanlığı*** obyektiv prosesdir və kreditin əsas xüsusiyyətlərinə aiddir. Kreditin qayıdanlığı onun ***təciliyini*** nəzərdə tutur, çünki pullar müəyyən müddətə borc verilir.

Kreditin xüsusiyyətlərindən biri də budur ki, kredit əməliyyatı həmişə etibara əsaslanan əməliyyatdır, çünki əməliyyatda iştirak edənlərdən biri borcun qaytarılmasını gözləməlidir. Buna görə də borcverən öz etibarının dərəcəsindən asılı olaraq bu və ya digər dərəcədə böyük təminat istəyə bilər. Bu, kreditin ***maddi təminatını*** onun əsas xüsusiyyətlərindən biri edir.

Borcalanlar öz maraqlarında özlərinə məxsus olmayan kapitaldan, yəni özgə pulundan istifadə etdiklərindən, onlar bazar iqtisadiyyatı şəraitində onlara verilmiş borcdan istifadə hüququ əvəzində mütləq haqq ödəməlidirlər. Buradan da kreditin daha bir mühüm xüsusiyyəti – ***ödənişliliyi*** – irəli gəlir. Kreditin ödənişliliyi ***borc faizi***, yəni mənfəətin borcalanın borcverənə ödədiyi hissəsi vasitəsilə həyata keçirilir. Borc faizi kreditin borc kapitalları bazarında vəsaitləri hərəkətə gətirən istehlak dəyərinin ekvivalenti qismində təzahür edir.

İstənilən bazarda istənilən sövda müəyyən xeyiri nəzərdə tutur. Pul vəsaitlərinin borc verilməsi sövdəsinin sərfəliliyi ***faiz norması*** ilə müəyyənləşir ki, bu da borc faizi məbləğinin borc kapitalı kəmiyyətinə nisbətidir. Faiz norması borc kapitalı bazarında tələb və təklifin nisbətindən

asılıdır, dinamik kəmiyyətdir və konkret iqtisadi vəziyyətlə müəyyənləşir.

Borc faizi kəmiyyətinə inflyasiya səviyyəsi böyük təsir göstərir. İnflyasiyanın səviyyəsi nə qədər yüksək olarsa, borc faizi bir o qədər yüksək olar, amma müəyyən həddə qədər. Borc faizinin yuxarı həddi inflyasiyanın indeksi kimi yüksək səviyyəyə qaldırıla bilməz. Əks təqdirdə borcalanlar borc faizini ödəmək iqtidarında olmazlar.

Borc faizinin obyektiv iqtisadi hədləri mövcuddur. O, o qədər kiçik olmamalıdır ki, bankın iqtisadi sabitliyinə və işinin rentabelliyinə zərər dəyməsin, amma borcalanın iqtisadi «sağlamlığına» zərər verəcək dərəcədə böyük də olmamalıdır.

Borc kapitalının tələb və təklifinin nisbəti və deməli, onun qiyməti həm bir çox obyektiv iqtisadi səciyyəli, həm də subyektiv, o cümlədən aşağıdakı amillərlə müəyyənləşir:

• istehsalın miqyası, onun tsiklik artıb-azalmaları və mövsümi şəraitlərlə;

• müəssisələrin yığım pullarının və cəmiyyətin bütün təbəqələrinin qənaətlə yığdıqları pulların həcmi ilə;

• beynəlxalq amillərlə və s.

Sadalanmışlardan başqa, ən mühüm amillərdən biri depozit faizi kəmiyyətidir ki, bankın əhalinin və hüquqi şəxslərin vəsaitlərini cəlb etdiyinə görə ödədiyi məbləğdən ibarətdir.

Və nəhayət, ən güclü amil faiz dərəcələrinin ölkənin Mərkəzi bankı tərəfindən həyata keçirilən dövlət tənzimləməsidir. Bu zaman Mərkəzi bankın tənzimləmə siyasəti ya restriksiya (kommersiya bankı tərəfindən verilən kredit resurslarının azaldılması) formasında, ya da kredit ekspansiyası (verilən kreditlərin həcminin artırılması) formasında ola bilir. Mərkəzi bankın siyasəti uçot dərəcəsinin artırılıb-azaldılması, həmçinin kommersiya banklarının məcburi ehtiyatlarının normasının dəyişdirilməsi və ölkənin Mərkəzi bankına borc faizini lazımi səviyyədə saxlamağa imkan verən digər metodlar vasitəsilə həyata keçirilir.

§2. Bankların və bank kreditləməsinin meydana gəlməsi. Kreditin formaları

Müasir kreditləmə formalarından əvvəl uzunmüddətli müxtəlif kredit formalarının yaranması dövrü olmuşdur. İlk kreditləmə formalarından biri ***sələmçi kreditidir*** ki, çox qədim dövrlərdə yaranıb və hazırda da iqtisadiyyatı zəif inkişaf etmiş inkişaf etməkdə olan bir sıra ölkələrdə anaxronizm kimi qalmaqdadır. Adi əmtəə mənimsənilməsini əvəzləmiş sələmçi krediti pul şəklində həyata keçirilir və kredit sövdələşməsi nəticəsində sələmçinin kapitalının artmasını nəzərdə tuturdu. Beləliklə, gəlir əldə olunması hələ onda kreditləmənin məqsədi olmuşdu. Bu, sələmçiliyin ayrıca sahibkarlıq fəaliyyəti sahəsinə çevrilməsindən və onun əsasında sonradan bankların və digər kredit müəssisələrinin müasir növlərinin inkişaf tapdığını söyləməyə əsas verir.

Uzun müddət mövcud olmasına və inkişaf etməsinə baxmayaraq, sələmçi krediti istehsal münasibətlərinin kapitallaşması şəraitində bir sıra səbəblərdən istehsalın borc vəsaiti ilə təmin edilməsi probleminin həlli üçün zəmin ola bilmədi:

- birincisi, sələmçi krediti əsasən borcalanların şəxsi tələbatlarının təmin edilməsi üçün verilirdi;
- ikincisi, inkişaf etmiş sələmçi kapitalı bazarı yox idi, çünki sələmçi qismində ayrı-ayrı fərdlər, ya da kiçik mübadilə məntəqələri çıxış edirdi;
- üçüncüsü, sələmçi krediti əsasən ekstremal şəraitdə şəxsi tələbatların ödənilməsinə yönəldiyindən (vergilərin, borcların və s. ödənilməsi), o, çox yüksək faizlə (200% qədər və daha artıq) verilirdi.

Əmtəə istehsalçıları sələmçi kreditinə müraciət etmək məcburiyyətində olanda, onlar istər-istəməz yüksək faiz problemi ilə üzləşirdilər və əldə olunmuş gəlirin praktik olaraq hamısı sələmçiyə çatırdı.

Bu səbəblərdən inkişaf edən kapitalist istehsalı kredit münasibətlərinin xarakterinin və onların təzahür formalarının dəyişilməsi və təkmilləşməsinə kəskin ehtiyac duyurdu. Kapitalist istehsalına keçidlə əlaqədar xeyli inkişaf tapmış növbəti kredit münasibəti forması əmtəə formasında olan kommersiya kreditidir.

Kommersiya krediti əmtəənin borca, ödənişin təxirə salınması ilə satışını nəzərdə tutur. Belə kreditin aləti bank vasitəsilə ödənilən vekseldir.

Kommersiya kreditinin əsas məqsədi əmtəənin və ondakı mənfəətin realizə olunması prosesini sürətləndirməkdir. Praktikada belə kreditin xüsusiyyəti borc kapitalının sənaye kapitalı ilə qovuşmasıdır ki, nəticədə kommersiya kreditinin həcmi sənaye və ticarət kompaniyalarında olan sərbəst kapitalın məbləği ilə məhdudlaşır.

Kommersiya kreditindən istifadəyə görə olub, əmtəənin qiymətinə və vekselin məbləğinə daxil olan faizlər sələmçi kreditindəkindən xeyli aşağıdır və bir qayda olaraq bank kreditindəkindən də aşağıdır, çünki sonuncunun əsas məqsədi mənfəət götürməkdir.

Kommersiya kreditinin forması yaranmaqda olan kapitalizmin tələbatlarına, əvvəlkilərlə müqayisədə, daha çox uyğun gəlirdi, çünki o, kapitalist əmtəə münasibətlərinin özünün təbiətindən irəli gəlir. Lakin əmtəə formasında olması səbəbindən bu kreditin bir sıra ciddi məhdudluqları üzə çıxır:

- birincisi, kommersiya krediti fəaliyyətdə olan bir kapitalist tərəfindən digərinə yalnız onun əmtəə kapitalı həcmində verilə bilər, özü də bu, ehtiyat kapitalının həcmi ilə məhdudlaşır, halbuki kreditə tələbat daha yüksək olur;
- ikincisi, kommersiya krediti yalnız həmin anda müvafiq əmtəəyə ehtiyacı olan kapitalistə verilə bilər;
- üçüncüsü, kommersiya kreditindən istifadədə müddətə görə də məhdudiyyət var, çünki öz təbiətinə görə o, qısamüddətlidir. Kreditə tələbat isə uzunmüddətli ola bilər.

Kommersiya krediti pul formasında verildikdə belə bir sıra məhdudiyyətlər olur. Onlar kreditverən müəssisənin sərbəst pul vəsaitlərinin həcminin borcalan müəssisənin pul

vəsaitlərinə tələbatı ilə üst-üstə düşməməsi, bir də kreditləyənin krediti verə biləcəyi müddətlə krediti alan üçün lazım olan müddətin üst-üstə düşməməsi ilə şərtlənir. Kommersiya kreditinin mühüm roluna və geniş yayılmasına baxmayaraq, o, əmtəə təbiətli olmasına və qeyd olunmuş məhdudiyyətlərə görə müasir kapitalist sənayesinin tələbatlarını tam ödəyə bilmir.

Beləliklə, nəzərdən keçirilmiş kreditləmə formalarından heç biri istehsalın lazımi həcmdə və lazımi müddətlərə kredit resursları ilə kütləvi və müntəzəm doldurulmasını təmin etmək iqtidarında deyil.

İri seriyalı əmtəə istehsalı şəraitində kredit müəyyən tələblərə cavab verməli və:

- kütləvi;
- müntəzəm;
- kreditin qiyməti və müddətinə görə əlyetər;
- həcminə görə qənaətbəxş olmalıdır.

Bütün bunlar yeni kreditləmə formasının – bank kreditinin – yaranmasını və inkişaf etməsini şərtləndirdi ki, hazırda o, bazar şəraitində aparıcı kredit münasibətləri formasıdır.

Bank krediti – banklar və lisenziyası olan digər maliyyə-kredit təşkilatları tərəfindən istənilən təsərrüfat subyektlərinə borc pul şəklində verilən kreditdir.

Banklar kredit və ödənişlərdə vasitəçilik funksiyasını yerinə yetirirlər. Öz vasitəçilik funksiyalarını yerinə yetirmək üçün banklar kapital bazarında olan müvəqqəti sərbəst pul vəsaitlərini cəmləyir və əlavə resursların cəlb edilməsinə tələbatı olan sahələrə və müəssisələrə yönəldirlər. Məhz buna görə də bank krediti kommersiya kreditinin məhdudluğunu aradan qaldırır və bir sıra mühüm üstünlüklər əldə edir:

- ehtiyat kapitalların həcmi ilə məhdudlaşmır;
- istənilən istiqamətə yönəldilir, yəni ondan sahibkarlıq fəaliyyətinin istənilən subyekti istifadə edə bilər;
- həcminin böyüklüyü və müntəzəmliyi səbəbindən

bank kreditinin uzun müddətə və aşağı faizlə verilməsi imkanı yaranır.

Beləliklə, bank krediti istiqamətlər, məbləğ və verilmə müddətlərinə görə kommersiya krediti hüdudlarını aşaraq əsas kreditləmə formasına çevrildi. O, daha geniş tətbiq sahəsinə malikdir. Bundan başqa, kommersiya kreditləməsinin həcmi istehsal həcminin və ya əmtəə dövriyyəsinin artması və ya azalmasından (tənəzzüldən) asılıdır, amma bank kreditinə tələb əsasən iqtisadiyyatın müxtəlif sahələrində borc öhdəliklərinin vəziyyəti ilə müəyyənləşir. Amma iqtisadiyyatın tsiklik tərəddüdlərinə hər iki kreditləmə növü məruz qalır.

İstehsal prosesində bank kreditləri ikili rol oynayır: bir tərəfdən, onlar fəaliyyət göstərən müəssisələrin ödəniş vəsaitlərinin həcmini artıra bilirlər, digər tərəfdən isə kapitalı artırırlar. Birinci halda pulun borc verilməsindən söhbət gedir ki, bu zaman kredit borc öhdəliklərinin yerinə yetirilməsinə yönəldilir; ikinci halda kapitalın həcmini artırmaq üçün borc götürülməsi nəzərdə tutulur.

Beləliklə, bank kreditləməsi, birincisi, fəaliyyətdə olan kapitalın fasiləsiz dövriyyəsinə rəvac verir, ikincisi isə, istehsalın genişləndirilməsi və təkmilləşdirilməsinin güclü vasitəsidir. Hazırda bir neçə növ bank kreditləməsi mövcuddur. Onların konkret təzahür formaları müxtəlifdir və bir sıra amillərdən, o cümlədən kredit sövdələşməsi iştirakçılarının tərkibindən asılıdır. Müasir kreditləmənin səciyyəvi xüsusiyyəti müxtəlif bank və kommersiya krediti növlərinin sıx qovuşmasıdır ki, bu da yalnız müəssisələrin deyil, ayrı-ayrı şəxslərin də (istehlak krediti və s.) kreditlənməsində təzahür edir.

İstehlak krediti banklar, ixtisaslaşmış maliyyə-kredit təşkilatları və ticarət müəssisələri tərəfindən ayrı-ayrı şəxslərə uzunmüddətli istifadə əmtəələrinin (avtomaşın, mebel, məişət texnikası) ödənilməsi üçün verilir.

İstehlak krediti əmtəənin pərakəndəsatış mağazaları vasitəsilə haqqının gec ödənilməsi şərtilə satılması zamanı

kommersiya krediti formasında və ya bankların istehlak məqsədləri üçün borc verdiyi zaman bank krediti formasında çıxış edir. İstehlak kreditinin maksimum verilmə müddəti bir qayda olaraq üç ildən artıq olmur və onun qiyməti xeyli yüksək olur.

Bu kreditləmə forması əhali istehlak kreditinin ödənilməsinə gəlirinin 1/5-ni sərf etdiyi inkişaf etmiş kapitalist ölkələrində sabit iqtisadiyyat şəraitində xüsusilə inkişaf etmişdir.

İpoteka krediti banklar və ya ixtisaslaşmış maliyyə-kredit təşkilatları tərəfindən daşınılmaz əmlakın girov qoyulması şərtilə mənzil alınması və ya tikilməsi və torpaq alınması üçün uzunmüddətli borc şəklində verilir.

İpoteka kreditləməsi kənd təsərrüfatında torpağın girov qoyulması şərtilə əsas fondların yeniləşdirilməsi üçün geniş istifadə olunur ki, bu da kapitalın bu istehsal sahəsində toplanmasına rəvac verir.

İpoteka kreditləməsinin səviyyəsi ABŞ, İngiltərə və Kanadada xüsusilə yüksəkdir, bu kredit növü üzrə faiz iqtisadi konyunkturadan asılı olaraq 10%-dən 30%-ə qədər və daha yüksək olur.

İnkişaf etmiş ölkələrdə istehlak və ipoteka kreditlərinin geniş yayılması bir sıra səbəblərlə şərtlənir:

- birincisi, belə kreditləmə zəruri maddi nemətləri kifayət qədər cavan vaxtında əldə etməyə və bunun haqqını gələcəkdə ödəməyə imkan verir ki, bu da yaşlı nəsillə birgə yaşamaq istəməyən cavan ailələr üçün xüsusilə cəlbedicidir;
- ikincisi, işləyən hər bir kəsə layiq olduğu yaşayış səviyyəsini təmin etməyə imkan verir;
- üçüncüsü, kapitalist əmtəə istehsalının qarşısında duran əsas məsələlərdən birini – əmtəə istehsalçılarının hazır məhsulu satması məsələsini həll etməyə kömək edir.

Beləliklə, göstərilən kredit növlərinin istifadə edilməsi iqtisadi metodlarla əhalinin ödəniş qabiliyyətli tələbini genişləndirməyə imkan verir. Bu, bazar qiymətlərinin sabitləşməsinə, həmçinin əsas istehlak əmtəələrinin istehsalı və

təklifini yüksək səviyyədə saxlamağa kömək edir.

Dövlət krediti – borcverən qismində dövlət və yerli hakimiyyət orqanlarının, kreditalan qismində isə əhalinin və özəl biznesin çıxış etdiyi kredit münasibətlərinin məcmusudur. Vəsait mənbəyi qismində dövlətin və yerli hakimiyyət orqanlarının maliyyə-kredit qurumları tərəfindən istiqrazlar şəklində buraxılmış qiymətli kağızları çıxış edir.

Özü də dövlət kreditinin özü ilə dövlət borcunu fərqləndirmək lazımdır. Birinci halda dövlətin maliyyə-kredit qurumları iqtisadiyyatın müxtəlif sahələrini kreditləyir, ikinci halda dövlət özü borc kapitalı bazarından vəsait alır. Bu zaman daxili istiqrazlardan gələn gəlirlər büdcə kəsirinin və dövlət borcunun maliyyələşdirilməsi üçün vergilərdən sonra ikinci mənbə olurlar.

Dövlətin kredit fəaliyyətinin genişlənməsi nəticəsində müxtəlif ölkələrdə tədricən hədsiz böyük dövlət borcu yaranır ki, məsələn, ABŞ-da o, 3 trilyon dollar təşkil edir. Özü də dövlətin aşağı rentabelli, lakin təkrar istehsal üçün zəruri olan sahələrdə (kənd təsərrüfatı, mənzil tikintisi, infrastruktur və b.) kredit fəaliyyətinin genişlənməsi həyati əhəmiyyətli və ölkə iqtisadiyyatının inkişafı üçün obyektiv zəruri olan funksiyadır.

Beynəlxalq kredit borc kapitalının beynəlxalq iqtisadi və valyuta-maliyyə münasibətləri sahəsində borc kapitalının hərəkəti və fəaliyyəti olub, kredit münasibətlərinin yalnız hər bir ölkənin daxilində deyil, həm də dövlətlər arasında mövcud olması ilə şərtlənir.

Beynəlxalq kredit ya əmtəə, ya da pul (valyuta) formasında verilir. Bu zaman həm kreditverən, həm də borcalan dövlətlər, beynəlxalq təşkilatlar, banklar və özəl müəssisələr olur.

Beləliklə, nəzərdən keçirilmiş bütün kreditləmə formalarından bazar iqtisadiyyatının tələbatlarını ödəmək baxımından ən perspektivlisi bank kreditləməsi, yəni pul formasında həyata keçirilən kreditləmədir.

Yuxarıda müəyyənləşdirdik ki, bazar iqtisadiyyatında

dövriyyə və dövranın qanunauyğunluqları müvəqqəti sərbəst pul vəsaitləri (borc kapitalları) mənbələrini doğururlar. Lakin müvəqqəti sərbəst pul vəsaitlərinin səfərbər edilməsi və toplanması, həmçinin onların borc kapitalına çevrilməsi və əlavə istehsal tələbatlarının ödənilməsinə yönəldilməsi üçün obyektiv olaraq xüsusi, kapitalların iqtisadi məkanın müəyyən nöqtələrinə yönümlənməsini təmin edən vasitəçi institutlar lazımdır. Belə vasitəçi institutlar tarixən banklar formasında yaranıb inkişaf etmişlər.

İlk banklar – «işgüzar evlər» - çox qədimdə Yaxın Şərqdə meydana gəlmişdilər. Onlar əlbəttə ki, bizim tanış olduğumuz anlamda bank deyildilər, lakin hələ Yeni Babilistan şahlığında (b.e.ə.VII-VI əsrlər) «işgüzar evlər» bir çox sırf bank əməliyyatlarını yerinə yetirirdilər. Onlar əmanət qoyuluşu və qaytarılmasını, veksellərin uçotu və çeklərin ödənilməsini, əmanətçilər arasında nağdsız hesablaşmaları, bir də bəzi kredit əməliyyatları növlərini həyata keçirirdilər.

Müasir tipli bank işi Orta əsrlərdə Avropa ilə Şərq ölkələri arasında əksər ticarət yollarının mərkəzi olan İtaliyada inkişaf etməyə başlamışdı. İtaliyaya bütün Avropadan kilsənin saxlanılması üçün nəzərdə tutulmuş (papa desyatinası) müxtəlif ölkələrin pulları ilə ödənilən pul vergiləri axıb gəlirdi. Bu münbit şəraitdə xüsusi sərraflar zümrəsi yarandı ki, onlar yalnız bir pulun başqalarına dəyişdirilməsi və qiymətli əşyaların saxlanılması ilə məşğul olmur, həm də veksel dövriyyəsinin inkişafına rəvac vermişdilər.

«Bank» məfhumu «banca» (italyanca – sərraf kürsüsü, pul masası) sözündən olub orta əsrlər italyan sərraflarının mübadilə üçün öz pullarını düzdükləri yeri bildirirdi. Sərraflar tədricən əməliyyatlarının dairəsini genişləndirirdilər: sadə pul mübadiləsindən nağdsız ödənişlər və veksel dövriyyəsinə qədər.

XV əsrin əvvəllərində ilk müasir tip banklar: Genuyada Müqəddəs Georgi bankı, sonra isə Venesiyada və Florensiyada (1587-ci il) banklar yarandı. Təqribən həmin dövrdə İtaliyada müasir ikiqat mühasibat uçotu sistemi inkişaf tapdı.

XVII əsrin əvvəllərində İtaliya banklarının prinsipləri əsasında və onlara bənzər tərzdə Amsterdamda (1609-cu ildə) və Hamburqda (1618-ci ildə) ilk banklar yaradıldı. Bu bankların hamısı əsasən ticarətə və pul dövriyyəsinə xidmət edirdi və kredit pullarının buraxılması kimi mühüm bank funksiyasını yerinə yetirə bilmirdi. Amma elə həmin XVII əsrdə Almaniyanın və bir sıra Şimali İtaliya şəhərlərinin tacir gildiyaları jirobanklar (ital.-giro - dairə) deyilən qurum yaratmağa başladılar. Bu banklar öz daimi müştəriləri arasında nağdsız hesablaşmaları həyata keçirirdilər. Məhz onda veksel əsas nağdsız ödənişin vasitəsi kimi geniş yayıldı və tədavül xüsusiyyəti kəsb etdi. Elə həmin dövrdə də ilk banknotlar meydana gəldi.

Beləliklə, artıq XVII əsrin ortalarına banklar ən inkişaf etmiş ölkələrin iqtisadiyyatının ayrılmaz hissəsinə çevrilmiş və bu ölkələrin praktik olaraq bütün pul dövriyyəsini öz əllərində cəmləşdirmişdilər. Onlar pul bazarında borcverənlərlə borcalanların maraqlarını birləşdirən maliyyə vasitəçiləri qismində çıxış edirdilər. Bank işi sahibkarlıq fəaliyyətinin çərçivəsində borc kapitalının səfərbər edilməsi və bölgüsü həyata keçirilən müstəqil sahəsinə çevrilmişdi.

Rusiyada ilk bank qurumları xeyli gec, XVIII əsrin ortalarında yaranmışdı. Və əgər Avropada əvvəlcə xüsusi banklar meydana gəlmiş, dövlət bankları isə sonra təşkil olunmuşdusa, Rusiyada əksinə, əvvəlcə iri dövlət bankları – Dvoryanski və Kupeçeski (1754) bankları yaradıldı. Xüsusi kommersiya bankları Rusiyada yalnız XIX əsrin sonlarında yarandı və həmin əsrin son illəri Rusiyada bank işinin görünməmiş vüsət alması ilə əlamətdar oldu. Bu, obyektiv olaraq təhkimçilik hüququnun ləğvi və bunun ardınca kapitalist istehsal münasibətlərinin sürətlə inkişaf etməsi ilə şərtlənmişdi.

O dövrün kommersiya bankları bir qayda olaraq səhmlər əsasında yaradılır və cəmiyyətin bütün təbəqələrinin kapitalını cəlb edirdilər. İnqilaba qədərki Rusiyanın ən iri kapitalist bankı Rus-Asiya Bankı idi; onun ölkənin müxtəlif

regionlarında 85 şöbəsi və 17 xarici filialı var idi. Onun öz kapitalının və cəlb olunmuş vəsaitlərinin ümumi məbləğinin 630 milyon rubla yaxın idi.

1917-ci il Oktyabr inqilabından sonra Rusiyanın bank sistemi bankların milliləşdirilməsi nəticəsində əslində ləğv edilmişdi. Yeni İqtisadi Siyasət dövründə bank fəaliyyəti bir qədər canlandı, amma onun təşkilinin kommersiya prinsipləri tədricən inzibati prinsiplərlə əvəzləndi, veksel tədavülü qadağan edildi, əmtəə və fond birjaları bağlanıldı, bu da uzun müddətə Rusiya kredit sisteminin tarixi inkişaf yolunu kəsdi.

§3. Kredit sistemi və müasir şəraitdə onun inkişafı. Rusiya Federasiyasının kredit sistemi

Bazar iqtisadiyyatının formalaşması və səmərəliliyinin artırılması kredit münasibətlərindən istifadə etmədən və onları təkmilləşdirmədən mümkün deyil. Müasir tip kredit münasibətlərinin formalaşması uzun inkişaf yolu keçmiş mürəkkəb iqtisadi münasibətlərin həyata keçirilməsinə əsaslanır.

Hazırda "***kredit sistemi***" anlayışına iki cəhət daxildir:

1. Kredit sistemi kredit münasibətlərinin, kreditləmə formaları və metodlarının məcmusu kimi (*funksional cəhət*);

2. Kredit sistemi borc kapitalları bazarında sərbəst pul vəsaitlərini cəmləyən və onları borc verən (*institusional cəhət*) maliyyə- kredit təşkilatlarının məcmusu kimi.

Birinci cəhətdə kredit sistemi bundan əvvəlki bölmədə nəzərdən keçirilmiş bank, kommersiya, istehlak və başqa kreditləmə növləri ilə təmsil olunmuşdur. Bütün bu kredit formalarının öz spesifik kredit münasibətləri cizgiləri və onlara xas olan kreditləmə metodları var.

İkinci cəhətdə kredit sistemi fəaliyyətlərini borc kapitalları bazarında həyata keçirən maliyyə vasitəçilərinin məcmusundan ibarətdir.

Bazar iqtisadiyyatı şəraitində kredit sisteminin əsas fəaliyyət göstərən üzvləri banklardır. Bu zaman qeyd etmək lazımdır ki, kredit sistemi müəyyən kredit sistemi çərçivəsində fəaliyyət göstərən banklar məcmusundan ibarət olan bank sistemindən xeyli geniş məfhumdur.

Müasir kredit sistemi borc kapitalları bazarının əsas hissəsidir və öz növbəsində aşağıdakı əsas institusional qruplardan (pillələrdən) ibarətdir:

1. Mərkəzi (emissiya) bank.
2. Bank sistemi:
   - kommersiya bankları;
   - əmanət bankları;
   - investisiya bankları;
   - ipoteka bankları;
   - digər ixtisaslaşmış banklar.
3. Sığorta bölməsi:
   - sığorta kompaniyaları;
   - pensiya fondları.
4. İxtisaslaşmış qeyri-bank maliyyə-kredit institutları:
   - investisiya şirkətləri;
   - maliyyə şirkətləri;
   - xeyriyyə fondları və b.

Kredit sisteminin dördpilləli strukturu (üçpilləli, əgər üçüncü və dördüncü pillələr ixtisaslaşmış qeyri-bank maliyyə-kredit institutları adı altında birləşdirilərsə) inkişaf etmiş Qərbi Avropa ölkələrinin çoxu, ABŞ və Yaponiya üçün səciyyəvidir. Lakin bazar iqtisadiyyatlı ölkələrin kredit sistemləri heç də eyni cür təşkil olunmamışdır. Bu və ya digər bölmələrinin və ya pillələrinin inkişaf səviyyəsinə görə bu ölkələrin kredit sistemləri bir-birindən əsaslı fərqlənirlər. Bu onunla əlaqədardır ki, kredit sistemlərinin formalaşması milli iqtisadiyyatın yaranmasının müxtəlif dövrlərində baş vermişdi, onların inkişaf prioritetləri isə konkret tarixi şəraitdən asılı olaraq dəfələrlə dəyişmişdi.

Buna baxmayaraq, milli səviyyədə kredit sisteminin qurulmasının bəzi ümumi prinsiplərini fərqləndirmək olar.

Kredit sisteminin qurulmasının əsas prinsipi, şübhəsiz, mərkəzi (emissiya) və ölkənin bank sistemini təşkil edən bütün yerdə qalan banklarının ***funksiyalarının qanunvericiliklə bölgüsüdür.***

Kredit sistemlərinin ümumi prinsipi aşağı səviyyəli bankların (bank sisteminin) fəaliyyətinin Mərkəzi bank tərəfindən ***nəzarətdə saxlanılması və tənzimlənməsidir.*** Mərkəzi bank, kredit sisteminin ən yüksək mərhələsi kimi, ölkə iqtisadiyyatını ödəniş vasitələri ilə təmin etməli, milli pul vahidinin ölkənin daxili bazarında alıcılıq qabiliyyətini və xarici bazarla valyuta məzənnəsinin sabitliyini dəstəkləməli, həmçinin milli iqtisadiyyatın maraqlarında pul-kredit siyasətini aparmalıdır.

Aşağı pilləli bankların kreditdə, ödənişlərdə və digər xidmətlərdə vasitəçilik fəaliyyəti bütün iqtisadi sistem çərçivəsində risk dərəcəsinin aşağı salınmasını və qeyri-müəyyənliyin azaldılmasını təmin etməyə təyinatlanıb.

Mərkəzi bankın fəaliyyəti yalnız və yalnız ümumdövlət məqsədlərinə çatılmasına yönəlməlidir. Onun siyasəti dövlətin ümumi iqtisadi siyasətinin prioritetləri ilə müəyyənləşir. Buradan da istənilən ölkənin kredit sisteminin ən vacib prinsiplərindən biri – ***Mərkəzi bankın*** ölkə daxili pul bazarında ***rəqabət mübarizəsində iştirakına qadağa*** prinsipi irəli gəlir.

Kredit təşkilatları milli kredit sistemi çərçivəsində öz fəaliyyətlərini aşağıdakı mühüm istiqamətlər üzrə həyata keçirirlər:

1. Kapital və əhalinin yığımı bazarında sərbəst pul kapitalının toplanması.
2. Sənayeyə, ticarətə və sahibkarlıq fəaliyyətinin digər subyektlərinə, həmçinin dövlətə borc kapitalının verilməsi.
3. Saxta kapitala malik olmaq və onu idarə etmək.

Yalnız müasir kredit sisteminin və geniş kredit təşkilatları şəbəkəsinin mövcud olması müəssisələrin sərbəst pul vəsaitlərinin və əhalinin yığımlarının toplanmasını səmərəli həyata keçirməyə və onları iqtisadiyyatın ehtiyaclarına yönəltməyə imkan verir.

Hazırda aparıcı kapitalist ölkələrinin kredit sistemində ciddi struktur dəyişiklikləri müşahidə olunur. Borc kapitalı bazarında bankların rolunun bir qədər azalması fonunda qeyri-bank maliyyə-kredit institutlarının gücü və təsirinin artması müşahidə olunur.

Bu proses öz əksini həm sığorta kompaniyalarının, pensiya fondlarının, investisiya, maliyyə və digər qeyri-bank bölməsi təşkilatlarının ümumi sayının artmasında, həm də Qərbin kredit sisteminin məcmu aktivlərində onların xüsusi çəkisinin sürətlə artmasında tapır. Müasir kredit sisteminin həlledici meyili həm kapital bazarında rəqabət mübarizəsinin daha da güclənməsi, həm də kapitalların iri və ən iri banklar və digər kredit təşkilatlarının əlində cəmləşməsi və mərkəzləşməsidir.

Maliyyə-kredit institutlarının iri ticarət, sənaye və nəqliyyat korporasiyaları ilə qovuşması prosesi davam edir ki, bu da maliyyə-sənaye korporasiyaları və transmilli korporasiyaların sayının artmasında özünü göstərir.Dünya kredit sistemi çərçivəsində beynəlxalq birləşmələr və maliyyə-kredit institutlarının fəaliyyətinin beynəlmiləlləşməsi davam edir.

Bütün bu hadisələr müasir şəraitdə kapital bazarında iri sənaye, nəqliyyat və digər investisiya layihələrini maliyyələşdirmək üçün lazım olan miqyasda əməliyyatları yalnız güclü maliyyə-sənaye qurumlarının həyata keçirə bilməsi ilə izah olunur.

Son illər ərzində Qərb ölkələrinin kredit sistemi daxilində də ciddi institusional dəyişikliklər nəzərə çarpır. Müxtəlif maliyyə-kredit institutları növləri arasında vəzifələrin təkrar bölgüsü və məhdudlaşdırılması prosesi baş verir.

Borc kapitalı bazarında, artıq qeyd olunduğu kimi, ən mühüm mövqeləri sığorta, pensiya, investisiya, maliyyə və başqa ixtisaslaşmış qeyri-bank təşkilatları tuturlar. Onlar borc bazarının uzunmüddətli kapital istiqamətində kommersiya banklarını sıxışdıraraq, get-gedə daha çox həmin

kapitalın əsas mənbələri olurlar. Lakin bu heç də bazar iqtisadiyyatında bankların rolunun azalması demək deyil. Kredit sistemi daxilində vəzifələrin obyektiv təkrar bölgüsü prosesi gedir ki, banklar onun emissiya, hesablaşma və digər mühüm vəzifələrinin təmin edilməsində aparıcı rol oynayırlar. Banklar qısamüddətli və ortamüddətli kreditləmə bazarında ənənəvi olaraq aparıcı mövqe tuturlar. Onlar həmçinin investisiyaların müəyyən hissəsinin də uzunmüddətli maliyyələşdirilməsini təmin edirlər.

İxtisaslaşmış qeyri-bank maliyyə-kredit institutları kimi banklar da kapital bazarında maliyyə vasitəçisi rolunda çıxış edirlər. Maliyyə bazarı operatorlarından (brokerlər, dilerlər və s.) onlar onunla fərqlənirlər ki, öz borc öhdəliklərini (depozitlər, istiqrazlar, sığorta polisləri və s.) satır, əldə olunmuş vəsaitə isə başqa maliyyə subyektlərinin borclarını alırlar. Maliyyə vasitəçilərindən fərqli olaraq maliyyə bazarı operatorları öz borc öhdəliklərini buraxmırlar.

Borc kapitalı bazarında bank maliyyə vasitəçilərinin rolu onların öz şəxsi əmanətlərinin diversifikasiyası yolu ilə əmanət sahiblərinin riskinin azaldılmasını təmin etmələrindədir. Bu da öz növbəsində real faiz normasının və kapitalın dəyərinin azalmasına səbəb olur, çünki əmanətin riski az olduqda əmanət sahibləri əmanət kapitalına nisbətən az faizə də qane olurlar.

Banklar – öz resurslarını təsbit olunmuş məbləğdə borc öhdəlikləri (depozitlər və ya əmanətlər) əsasında formalaşdıran maliyyə vasitəçiləridir. Bu vasitəçilər bütün riskləri öz üzərilərinə götürürlər, çünki əmanətçilərin mümkün itkilərini öz kapitalları ilə örtür və müştəri qarşısında yüksək məsuliyyət daşıyırlar. Buna görə də banklara depozitlər və əmanətlər səhmdar kapitalına investisiyalara nisbətən daha az riskli pul qoyuluşlarıdır.

Qeyri-bank maliyyə vasitəçiləri öz borc öhdəliklərini məbləğə görə təsbit etmirlər. Onlar maliyyə resurslarını qiymətli kağızlar bazarında investisiyalara qoyurlar, amma birbaşa kreditləmə ilə, uzunmüddətli investisiya qoyuluşlarını

çıxmaq şərtilə, bir qayda olaraq, məşğul olmurlar.

Mövcud maliyyə vasitəçiliyi modelləri müxtəlif ölkələrdə, onların bütövlükdə kredit sistemləri fərqli olduğu kimi, fərqlidirlər. Bu modellərin əsas fərqləri aşağıdakı hallarda təzahür edir:

- bankların korporasiyalarla qarşılıqlı münasibətlərinin xarakterində;
- bankların və digər maliyyə-kredit institutlarının ixtisaslaşma səviyyəsində.

Birinci halda «açıq bazar» və «korporativ tənzimləmə» modellərini fərqləndirirlər. İkinci halda isə universal maliyyə vasitəçilərinin üstünlük təşkil etdiyi modelləri və ixtisaslaşmış maliyyə vasitəçiləri arasında kommersiya və investisiya fəaliyyətləri dəqiq məhdudlaşdırılan modellər fərqləndirilir.

Amerika kredit sistemi ixtisaslaşmış maliyyə-kredit institutları ilə tipik «açıq bazar» modelidir. Özü də banklar və korporasiyalar bir-birindən asılı deyil və tərəfmüqabil seçimində tam azaddırlar. ABŞ-ın kredit sistemi ən çox inkişaf etmiş dördpilləli quruluşa malikdir və bütün pillələrinin bir qaydada inkişafı və bütün növ kredit təşkilatlarının geniş şəbəkəsi ilə fərqlənir.

Yaponiyanın müasir kredit sistemi əsasən Amerika kredit sistemi timsalında yaradılmışdır və üçpilləli quruluşa malikdir, özü də bank bölməsi daha çox inkişaf etmişdir. Lakin ABŞ-ın kredit modelindən fərqli olaraq burada banklarla istehsal və ya ticarət korporasiyaları arasında həmişə sıx əlaqə mövcuddur. Yapon kredit sistemi «korporativ tənzimləmə» modelidir, çünki hər bir korporasiyanın öz bankı var və həmin bank onun üçün əsas bankdır.

Qərbi Avropa ölkələrinin kredit sistemləri öz quruluşuna görə ABŞ-ın kredit sisteminə yaxındır, amma hər ölkənin öz xüsusiyyətləri var.

Almaniya və İsveçrədə bank sistemi əsasən kommersiya, əmanət və ipoteka banklarına əsaslanır, özü də həm bank əməliyyatları, həm də korporasiyaların qiymətli kağızları-

nın yerləşdirilməsi ilə məşğul olan universal banklar üstünlük təşkil edirlər. Almaniyanın investisiya bankları sistemi ABŞ-dakına nisbətən daha az inkişaf etmişdir, çünki ABŞ-da qiymətli kağızlarla əməliyyatların aparılması ilə yalnız ixtisaslaşmış investisiya bankları məşğul ola bilər. Almaniyanın universal kommersiya bankları həmin ölkədə mövcud olan bank qanunvericiliyinə müvafiq olaraq investisiya banklarının bütün funksiyalarını yerinə yetirmək hüququna malikdir.

Kommersiya və investisiya fəaliyyəti ilə məşğul olmaq hüququna malik olan universal banklar ixtisaslaşmış banklara nisbətən daha dayanıqlıdırlar, çünki öz əməliyyatlarının geniş diversifikasiyasının üstünlüklərindən tam istifadə etmək imkanına malikdirlər. Buna görə də bankların kommersiya və investisiya fəaliyyətinin sərt məhdudlaşdırılmasından imtinaya meyil get-gedə daha aşkar görünməkdədir.

Bütün maliyyə vasitəçiləri dövlət, səhmdar (xüsusi) və kooperativ kredit təşkilatları formasında təşkil oluna bilirlər.

Dövlət kredit təşkilatları ümumdövlət və ya region əhəmiyyətli müəyyən dövlət proqramlarının maliyyələşdirilməsi məqsədilə yaradılırlar. Onlara dövlət tərəfindən yaradılan və resurslarını dövlət büdcəsindən alan yenidənqurma və inkişaf bankları, ixrac-idxal və sair banklar aiddir. Bu bankların bütün mənfəətləri onların proqramlarının maliyyələşdirilməsinə yönəldilir və ya dövlət büdcəsinə verilir, çünki mənfəət əldə etmək bu bankların məqsədi deyil.

Dövlət kredit təşkilatlarına Qərbi Avropa ölkələri üçün səciyyəvi olan və bu ölkələrdə dövlət əmanət kassalarının dövlətin adından öz əmanətçilərinə əmanətlərin saxlanılmasına etibarlı zəmanət vermələrinə görə geniş inkişaf tapmış dövlət əmanət kassaları sistemi də aiddir. Dövlət əmanət kassaları sisteminin bütün resursları adətən toplanır və dövlətin ümummilli maraqlarında istifadə olunur.

Səhmdar (xüsusi) bankları adətən kredit təşkilatlarıdırlar, çünki onların fəaliyyətinin əsas məqsədi mənfəət əldə

olunmasıdır. Bu banklar geniş səpkidə bank əməliyyatlarını həyata keçirir və geniş əhali kütlələrinə və hüquqi şəxslərə xidmət göstərirlər. Bir qayda olaraq, belə banklar sahibkarlıq fəaliyyəti subyektlərinin cari fəaliyyətinə xidmət edən və onların qısamüddətli kreditləşdirilməsi ilə məşğul olan kommersiya (depozit-borc) bankları formasında yaradılırlar.

Səhmdar bankları formasında xüsusi banklar da (investisiya, əmanət, ipoteka və s.) yaradıla bilər. Xüsusi bankların ən spesifik təşkil forması bir şəxsə və ya bir ailəyə məxsus bankir evləri – kredit təşkilatlarıdır. Səhmdar banklarından fərqli olaraq bankir evləri öz fəaliyyətlərinin nəticələri haqqında açıq hesabat verməli (balanslarını çap etməli) deyildirlər və bu da bu kimi bank təşkili formasına müəyyən üstünlüklər verir və onları iri maliyyə maqnatları üçün cəlbedici edir.

Kooperativ banklar – üzvlərinin kooperativ mülkiyyətinə əsaslanan və məhdud bank əməliyyatlarını həyata keçirən kredit təşkilatlarıdır. Onların fəaliyyətinin məqsədi mənfəət əldə etmək deyil, öz üzvlərinin bank xidmətlərinə tələbatlarını ödəməkdir. Kooperativ banklar sahibkarlıq fəaliyyətinin xırda subyektlərinə və fərdi əmanətçilərə xidmət göstərmək üçün təyinatlanıblar. Bu bankların resursları pay ödənişləri, həmçinin Mərkəzi bankın və ya iri kommersiya banklarının kreditləri hesabına formalaşır. Kredit kooperativləri yalnız öz kooperativlərinin üzvlərinə borc verirlər. Öz üzvlərinin istehsal fəaliyyətinin kreditlənməsini həyata keçirən kooperativ banklar, bir qayda olaraq, başda mərkəzi kooperativ bank olmaqla kooperativ banklar sistemində birləşirlər. Kooperativ banklar öz üzvlərinə istehlak borcları vermək üçün də təşkil oluna bilirlər ki, bu halda onlar kredit ittifaqı forması alırlar.

Beləliklə, kredit sistemi hazırda borc kapitalı bazarının iki ən mühüm tərkib hissəsindən (qiymətli kağızlar bazarı ilə yanaşı) biridir. Dövlətin iqtisadi inkişaf səviyyəsi, ölkənin beynəlxalq iqtisadi münasibətlər sistemində yeri və rolu əsasən onun bütün hissələrinin dəqiq təşkili və ahəngdar

işləməsindən çox asılıdır.

Rusiyanın müasir kredit sistemi uzun və mürəkkəb inkişaf yolu keçmişdir ki, onun da əsas mərhələləri ölkənin sosial-iqtisadi inkişafının şəraitləri ilə müəyyənləşmişdi.

1917-ci il inqilabına qədər Rusiyanın kredit sistemi öz quruluşuna və funksiyalarına görə kapitalist təsərrüfatının tələblərinə müvafiq idi və ən inkişaf etmiş Qərbi Avropa ölkələrinin ***üçpilləli kredit sistemi modellərinə*** yaxın idi.

O dövrün kredit sisteminin birinci pilləsini ölkənin dövlət bankı təşkil edirdi. İkinci mərhələni əsasən kommersiya və əmanət bankları təşkil edirdilər. Sığorta şirkətləri və kredit yoldaşlıqları ilə təmsil olunmuş üçüncü mərhələ nisbətən az inkişaf etmişdi və qiymətli kağızlarla əməliyyatlar üzrə ixtisaslaşmış kredit institutlarına malik deyildi. Buna görə də kapital bazarında pul vəsaitlərinin toplanması və səfərbər edilməsi vəzifəsi əsasən kommersiya bankları tərəfindən yerinə yetirilirdi.

Oktyabr inqilabından dərhal sonra bankların milliləşdirilməsi nəticəsində ölkənin kredit sistemi praktik olaraq dağıdıldı. Təsərrüfatın naturallaşması və əmtəə-pul münasibətlərinin olmaması nəticəsində kreditin və kredit münasibətlərinin heç bir iqtisadi əhəmiyyəti qalmadı. Rusiya Dövlət Bankı əsasında Xalq bankı yaradıldı və sonra Xalq Maliyyə komissarlığı ilə birləşdirildi ki, bu da ölkənin kredit sisteminin tamamilə ləğv edilməsi demək idi.

Təsərrüfat münasibətlərinin naturallaşması prosesi yalnız 20-ci illərin əvvəllərində, YİS (Yeni iqtisadi siyasət) nəticəsində yenidən kommersiya bankları yarandıqdan və ölkənin Dövlət bankı bərpa olunduqdan sonra dayandırıldı.

Artıq 1925-ci il üçün yeni sosial-iqtisadi münasibətləri əks etdirən kredit sistemi əsasən formalaşmışdı. Onun əsas xüsusiyyəti kredit təşkilatlarının çoxunun dövlət mülkiyyəti olmasında və əsasən ixtisaslaşmış banklarla təmsil olunmasında idi. Bank sistemi strukturunda kooperativ banklar xeyli az yer tuturdular, kapitallaşmış mülkiyyət isə əsasən qarşılıqlı kredit cəmiyyətləri ilə təmsil olunmuşdular.

Kredit sisteminin yeni strukturunda qeyri-bank ixtisaslaşmış kredit təşkilatları, xüsusilə də Dövlət sığorta şirkəti yaradıldıqdan və kredit sistemi onun tərkibindən çıxarıldıqdan sonra, praktik olaraq tamamilə yox idi. Beləliklə, pul vəsaitlərinin toplanması və səfərbər edilməsi üzrə vəzifələr yenidən dövlət mülkiyyəti çərçivəsində kredit sisteminin bank bölməsində cəmlənmiş oldu.

XX əsrin 30-cu illərinin kredit islahatının aparılmasının gedişində ölkənin kredit sistemi birpilləliyə çevrildi (yəni mahiyyət etibarilə yenidən ləğv edildi) ki, bu da dövrün sənayeləşdirmə və kollektivləşdirmə ilə bağlı qlobal planlarının həyata keçirilməsinə yönəldilmiş sosial-iqtisadi tələbatları əks etdirirdi. Dövlət mülkiyyətindən başqa bütün mülkiyyət növləri praktik olaraq ləğv edildi, kredit sistemi isə inzibati-amirlik dövlət quruluşu çərçivəsində cəmi üç bankla – Dövlət əmək əmanət kassaları və iki sığorta təşkilatı ilə təmsil olunmuşdu.

Bu sistemdə hakim mövqeyi ***Dövlət bankı*** tuturdu ki, o da ölkənin emissiya və hesablaşma-kassa mərkəzi olduğundan eyni zamanda sənayenin, rabitənin və xalq təsərrüfatının digər sahələrinin qısamüddətli, həmçinin kənd təsərrüfatının uzunmüddətli vahid kreditlənmə mərkəzi idi. Bütün bunlar Dövlət bankını faktik olaraq dövlətin idarəetmə və nəzarət orqanlarından birinə çevirmişdi.

Tikinti bankı kənd təsərrüfatı istehsalından başqa xalq təsərrüfatının bütün sahələrinin uzunmüddətli kreditləməsi və kapital qoyuluşlarının maliyyələşdirilməsi vəzifəsini yerinə yetirirdi.

Xarici ticarət bankı xarici ticarətin kreditlənməsini həyata keçirir, beynəlxalq hesablaşmalara xidmət edir, həmçinin xarici valyutalar, qızıl və qiymətli metallarla əməliyyatları aparırdı.

Dövlət əmək əmanət kassaları sistemi ən geniş əhali kütlələrinə xidmət edir və sərbəst pul vəsaitləri və yığım pullarının cəlb edilməsi ilə məşğul olurdu. Əhalinin bütün kommunal xidmətləri üçün ödənişləri və digər ödənişləri,

həmçinin uduşlu dövlət istiqrazlarının yayımlanması bu sistem vasitəsilə həyata keçirilirdi.

Dövlət sığortası ölkə daxilində hüquqi və fiziki şəxslərin sığortalanması sahəsində inhisarçı idi.

Dövlət xarici sığortası xarici sığortası üzrə bütün əməliyyatların inhisarçısı idi. Onun vəzifəsi xaricilərin, xaricdə sovet əmlakının, nəqliyyat vasitələrinin, ixrac-idxal əməliyyatlarının və s. sığorta edilməsindən ibarət idi.

İqtisadiyyatın inzibati-amirlik idarəetmə sistemi şəraitində kredit fəal iqtisadi siyasət rolunu itirmişdi, kredit münasibətləri isə sırf formal xarakter daşıyırdı. Kreditə görə faizlərin hədsiz dərəcədə aşağı olmasına baxmayaraq, kreditlərin çox hissəsi ödənilmir və qaytarılmırdı. Bu cəhətdən xüsusilə planlı-itkili hesab olunan müəssisələr və kənd təsərrüfatı müəssisələri fərqlənirdilər. Belə müəssisələrə verilmiş kreditlər adətən silinir və sadəcə olaraq təkrar kreditləmə prosesi gedirdi ki, bu da nə bankları, nə də müəssisələri səmərəli işləməyə əlbəttə ki, həvəsləndirmirdi.

SSRİ Dövlət Bankı kredit resurslarının praktik olaraq qeyri-məhdud inhisarçısı idi. Onun hesablarında kredit sisteminin bütün qalan qurumlarının sərbəst pul vəsaitləri avtomatik olaraq toplanır və ümumdövlət börc fondunu əmələ gətirirdi. Həmin fondun vəsaitləri mərkəzləşdirilmiş qaydada və kredit planlarına müvafiq olaraq kredit şəklində xalq təsərrüfatının müxtəlif sahələri arasında bölüşdürülürdü.

Yerlərdəki kredit qurumlarının rolu əslində ayrılmış kreditin kredit planlarına müvafiq olaraq konkret borcalanlara və həmin planlarda müəyyənləşdirilmiş məqsədlərə bölməklə məhdudlaşırdı. Bu zaman banklar kredit planlarının yerinə yetirilməsinə görə müştərilər qarşısında deyil, yuxarı təşkilat qarşısında məsuliyyət daşıyırdılar. Bütün bunlar kreditləmənin əsas prinsiplərini – ödənişlilik və qayıdanlıq – pozur və kredit münasibətlərinin mahiyyətinə uyğun deyildi.

Buna görə də XX əsrin 80-ci illərinin ortalarında iqtisadiyyatın idarə olunmasının əks-mərkəzləşməsinin həyata keçirilməsi obyektiv olaraq bank islahatının aparılmasını və bankların və bank kreditləməsinin rolunun gücləndirilməsini tələb etdi. Bank sisteminin yenidənqurması 1987-ci ildə başlandı. Bank islahatının birinci mərhələsində təşkilati quruluşun dəyişdirilməsi və Mərkəzi bankdan və bilavasitə müəssisələrə xidmət göstərən ixtisaslaşmış dövlət banklarından ibarət ikipilləli bank sisteminin yaradılması nəzərdə tutulurdu. Kreditləmənin forma və metodlarının təkmilləşdirilməsi, bir də müəssisələrlə – bankların müştəriləri ilə kredit münasibətlərinin inkişaf etdirilməsi nəzərdə tutulurdu. Ümumi əks-mərkəzləşdirmə çərçivəsində ixtisaslaşmış bankların aşağı pillələrinin təsərrüfat hesabına və özünümaliyyələşdirməyə keçirilməsi nəzərdə tutulurdu.

Bankların emissiya fəaliyyətini təsərrüfatların kreditləmə fəaliyyətindən ayırmaq təklif olunurdu. Bu zaman Dövlət bankına ixtisaslaşmış bankların fəaliyyətlərinin əlaqələndirilməsi, həmçinin dövlət tərəfindən müəyyənləşdirilən və bütün banklar üçün eyni olan pul-kredit siyasətinin aparılması funksiyası həvalə olunurdu. İxtisaslaşmış banklara ya ayrı-ayrı xalq təsərrüfatı komplekslərinə xidmət etmək (SSRİ Sənaye Tikinti Bankı, SSRİ Aqrar Sənaye Bankı, SSRİ Yaşayış Sosial Bankı), ya da ayrı-ayrı fəaliyyət növlərinin həyata keçirilməsi (SSRİ Əmanət Bankı, SSRİ Xarici İqtisadi Bankı) vəzifəsi həvalə edilmişdi.

Bank islahatının birinci mərhələsinin aparılmasının gedişində sahə kommersiya banklarına istehsal sahəsi müəssisələrini həm qısamüddətli, həm də uzunmüddətli kreditləmə hüququ verilmişdi. Bu zaman Rusiya Dövlət Bankı sahə banklarına xeyli kredit resursları vermiş, lakin qeyri-istehsal sahəsi müəssisələrinin kreditləmə hüququnu özündə saxlamışdı.

Bank sisteminin yenidən qurulmasının qarşısında duran əsas məsələlərdən biri onun fəaliyyət səmərəliliyinin artırılması idi. Lakin yenidənqurma «yuxarıdan» inzibati metodlarla aparıldığından kredit sistemi kredit resurslarını ölkə iqtisadiyyatının maraqlarında bir sahədən digərinə

ötürməyə imkan verən çeviklik kəsb etmədi.

Kredit münasibətləri də prinsipial dəyişmədi, çünki yarımavtomatik rejimdə kreditləmə davam edirdi və kredit resurslarının inzibati bölgü prinsipi qalmaqda idi. Müəssisələr əvvəlki kimi müəyyən banklara təhkim olunmuşdular, banklar isə vəsaitlərinin əlverişli yerləşdirilməsi barədə düşünmədən kredit resurslarını yuxarıdan aşağı öz müəssisələri arasında bölüşdürürdülər.

Beləliklə, banklar yenə də müəssisələrin adi maliyyələşdirilməsini və onlara maliyyə xidməti göstərilməsini həyata keçirirdilər. Bu zaman kredit və kredit münasibətləri yenə də passiv rol oynayır və iqtisadi islahatların gedişinə səmərəli təsir göstərə bilmirdilər.

Dəyişikliklərin əsas hərəkətverici səbəblərindən biri bankları xalq təsərrüfatının maraqlarına yaxınlaşdırmaq idi və bu istiqamətdə müəyyən addımlar atılmışdı. Yenidənqurma bank fəaliyyətini fəallaşdırdı və xalq təsərrüfatında nağdsız hesablaşmaların qaydaya salımasına, zərərlərin və normativdən artıq əmtəə-maddi dəyərlərin kreditlənməsinin dayandırılmasına yönümlənmiş bir sıra pozitiv tədbirlər həyata keçirməyə imkan verdi.

Bankların ixtisaslaşması onların təsərrüfatlarla əlaqələrini müəyyən qədər gücləndirdi və kredit qoyuluşlarının strukturunu yaxşılaşdırdı, lakin bu müsbət nəticələr əsasən artıq bütün imkanları tükənmiş köhnə inzibati idarəetmə sisteminin tətbiqi hesabına əldə olunmuşdu. Bank sisteminin «yuxarıdan» yenidənqurması vəziyyəti əsaslı surətdə dəyişə bilməzdi, çünki iqtisadi münasibətlərə praktik olaraq toxunmurdu. Dövlət bankları bazar münasibətlərinin artan formalaşma prosesi ilə uzlaşa bilmirdilər, çünki müştərilərlə inzibati-amirlik iş metodlarını saxlayırdılar.

Eyni zamanda ən qabaqcıl banklar müştərilərlə tamamilə yeni müqavilə münasibətlərini tətbiq etməyə başladılar, tərəfmüqabil münasibətlərini yaxşılaşdırmaq və kredit resurslarından səmərəli istifadəyə görə məsuliyyəti artırmaq üçün aşağı pillələri təsərrüfat hesabına keçirməyə başladılar. Onların kredit resurslarından istifadə imkanları xeyli

genişləndirildi. Lakin bankların tamamilə bazar iqtisadiyyatı xəttinə keçirilməsi üçün bank islahatının iqtisadi münasibətlərin kompleks yenidənqurmasına yönəldilmiş ikinci mərhələsi zəruri idi.

Bank islahatının ikinci mərhələsi 1988-ci ildə başlandı və bank sahəsində bazar dəyişikliklərinin özülü olmalı olan ilk kommersiya banklarının yaradılması ilə əlamətdar oldu. Kommersiya banklarının əsas məqsədi mənfəət əldə etməkdir ki, bu da müştərilərlə münasibətdə çeviklik göstərməyə və aktiv, passiv və komissiya-vasitəçilik əməliyyatlarının aparılmasında bacarıqlı olmağa sövq edir. 1988-1989-cu illərdə əsasən ayrı-ayrı sənaye sahələrinin yığımları əsasında 150-dən artıq kommersiya və kooperativ banklar yaradılmışdı. «Aşağı»dan təşəbbüs bank islahatının ikinci mərhələsinin səciyyəvi xüsusiyyəti oldu.

Bazar münasibətlərinə keçid dövlət proqramı çərçivəsində müəyyənləşdirilmişdi ki, bank islahatının ikinci mərhələsinin əsas istiqaməti pul-kredit münasibətləri sahəsində rəqabətin inkişafı üçün şəraiti təmin edən dəqiq təşkil olunmuş bazar strukturlarının yaradılmasıdır. Səmərəli ikipilləli bank sisteminin yaradılmasının başa çatdırılmasının zəruriliyi də qeyd olunmuşdu.

Bank islahatının ikinci mərhələsinin gedişində aşağıdakı məsələlər həll edilməlidir:

1. Müasir tipli kredit sisteminin, həmçinin pul-kredit tənzimləməsinin iqtisadi metodlarla ictimai istehsalın optimal makroiqtisadi proporsiyalarını müəyyənləşdirməyə imkan verən yeni mexanizminin yaradılması.

2. Kredit sistemi çərçivəsində maliyyə resurslarının iqtisadiyyatın investisiya qoyuluşunun daha çox səmərə verə biləcəyi sahə və bölmələrinə sərbəst ötürülməsini həyata keçirmək üçün lazımi şəraitin yaradılması.

Göstərilən məsələlərin həlli bank sisteminin yenidən qurulması və bazar şəraitlərinə müvafiq formalaşan pul-kredit tənzimləməsi mexanizminin yaradılmasından başladı. Dövlət bankının statusu və onun ölkə iqtisadiyyatında rolu də-

yişdirildi. O, hökumətin tabeliyindən çıxarıldı və lazımi iqtisadi müstəqillik aldı. Sonradan bazar konsepsiyasına müvafiq olaraq Dövlət bankı əsasında Rusiyanın Mərkəzi Bankı yaradıldı.

Rusiya bank sisteminin ikinci səviyyəsi ölkənin təsərrüfat həyatı subyektlərinə kredit-hesablaşma xidmətini təmin edən kommersiya banklarının geniş şəbəkəsi, bir də bir sıra ixtisaslaşmış banklarla təmsil olunmuşdur. Məsələn, bank islahatının gedişində daşınılmaz əmlak müqabilində kredit verən ipoteka bankları, bir də torpaq sahələrinin girov qoyulması müqabilində kredit verən torpaq bankları yaranıb inkişaf etmişlər. Korporativ qiymətli kağızların yerləşdirilməsi və uzunmüddətli kreditləmə üzrə ixtisaslaşan investisiya banklarının, bir də yerli büdcələrdən istifadəni təmin etməyə təyinatlanmış bələdiyyə banklarının formalaşması prosesi başlandı. Lakin qanunvericilik bazasının qeyri-təkmil olması və ya ümumiyyətlə olmaması səbəbindən xüsusi banklar sistemi yenicə yaranır və onun formalaşma prosesi çox mürəkkəb və ziddiyyətlidir.

Beləliklə, bank islahatının ikinci mərhələsinin gedişində Rusiyada praktik olaraq ikipilləli bank sistemi formalaşdı ki, onda əsas yeri aşağıdakılar tuturlar:

1. Geniş əhali kütlələrinə xidmət göstərən Əmanət bankı.

2. Rusiyanın xarici borcları ilə işləməli olan banka çevrilmiş Xarici iqtisadi bank.

3. Ümumdövlət və region səciyyəli məqsədli proqramların maliyyələşdirilməsi üçün yaradılmış Yenidənqurma və İnkişaf bankı.

İnstitusional planda Rusiya bank sistemi tərkibində bir də bankların öz maraqlarını qorumaq, fəaliyyətlərini uyğunlaşdırmaq və müştərək proqram və layihələrin həyata keçirilməsi məqsədilə yaratdıqları ittifaqlarını, assosiasiyalarını və digər birləşmələrini göstərmək olar.

Rusiyada bazar dəyişmələrinin lap əvvəlindən kredit sisteminin yenidən qurulması çərçivəsində çox sürətlə kredit

sisteminin üçüncü pilləsini təşkil edən ixtisaslaşmış qeyri-bank maliyyə-kredit institutlarının yaranması prosesi gedirdi. Belə institutlara sığorta kompaniyaları, investisiya fondları, kredit ittifaqları və kooperativləri, pensiya fondları, maliyyə və trast şirkətləri, borc-əmanət assosiasiyaları, lombardlar və digər kredit təşkilatları aiddirlər. Bu təşkilatlar ölkənin qüvvədə olan kredit sistemi qanunvericiliyi çərçivəsində fəal surətdə əhalinin və hüquqi şəxslərin vəsaitinin toplanması ilə məşğul olur, müəssisələrin və vətəndaşların kreditlənməsini həyata keçirir, maliyyə vasitəçisi rolunda çıxış edir, trast və sair əməliyyatları həyata keçirirlər.

Beləliklə, Rusiyada tədricən bazar iqtisadiyyatı prinsipləri əsasında müasir tipli kredit sistemi formalaşır. Rusiya kredit sisteminin yeni strukturu öz məzmununa görə ən inkişaf etmiş kapitalist ölkələrinin kredit sistemi modelinə xeyli yaxındır. O, islahatdan əvvəlkinə nisbətən bazar təsərrüfatının tələblərinə daha çox cavab verir, lakin onun formalaşma prosesinin tam başa çatmasına hələ çox var.

Rusiyanın yeni kredit sisteminin ən zəif cəhəti onun hazırda əsasən investisiya fondları və sığorta kompaniyaları ilə təmsil olunan üçüncü pilləsidir.

Müasir tipli kredit sisteminin formalaşması prosesinin başa çatması Rusiyada eyni zimanda mükəmməl qiymətli kağızlar bazarının – borc kapitalı bazarının ikinci mühüm tərkib hissəsinin (kredit sistemi ilə yanaşı) yaranması şərti ilə mümkündür.

§4. Kommersiya bankları və bazar iqtisadiyyatında onların funksiyaları

Kommersiya bankı – vəsaitlərin cəlb edilməsi və qaytarılıq, təcililik və ödənişlilik şərti ilə öz adından yerləşdirilməsi üçün təyinatlanmış kredit təşkilatıdır.

Bankın əsas vəzifəsi pul vəsaitlərinin kreditverəndən borcalana və satıcıdan alıcıya yerdəyişməsində vasitəçilik-

dir. Kommersiya banklarının səciyyəvi xüsusiyyəti fəaliyyətlərinin əsas məqsədinin mənfəət əldə edilməsi (bazar iqtisadiyyatı şəraitində onların mövcudluğunun «kommersiya» əsası da elə bundadır) olmasındadır. Banklarda ümumi və xalis mənfəət fərqləndirilir. ***Ümumi mənfəət*** uçot-borc əməliyyatlarından, qiymətli kağızlara investisiyalardan faizlər və dividendlərdən, vasitəçilik əməliyyatlarından komisyon pulundan, xarici əməliyyatlardan gəlirlərdən, təsisatçılıq və birja sövdələşmələrindən mənfəətdən ibarətdir. Bankın ***xalis mənfəəti*** ümumi mənfəətlə bank əməliyyatlarının həyata keçirilməsinə çəkilən bütün xərclər arasındakı fərqdən ibarətdir. ***Bank mənfəəti normasını*** xalis mənfəətin bankın öz kapitalına nisbəti təşkil edir.

Kommersiya bankları özlərində ölkənin kredit resurslarının çox hissəsini cəmləşdirir və hazırda onlar Rusiya kredit sisteminin əsas hissəsidir. Bu banklar universal xarakter daşıyır. Onları «maliyyə supermarketləri» adlandırırlar, çünki onlar ən geniş diapazonda bank əməliyyatlarını həyata keçirir və Rusiya Bankının lisenziyası olduqda maksimum mümkün olan kredit sövdələşmələri növlərini yerinə yetirirlər. Özü də bütün digər kredit təşkilatlarından fərqli olaraq, kommersiya bankları bazar konyunkturasının dəyişilməsi ilə bağlı bütün riskləri öz üzərlərinə götürürlər.

Rusiyada kommersiya bankları ya pay, ya da səhmdar bankları formasında yaradılırlar. Pay kommersiya bankları hər bir pay sahibinin məsuliyyətinin bankın nizamnamə kapitalına qoyuluşu (payı) ilə məhdudlaşan məhdud məsuliyyətli cəmiyyət prinsipləri əsasında yaradılır. Bu zaman bank kapitalın sahibkarı olmur, çünki pay sahibləri öz kapital payları üzərində mülkiyyət hüquqlarını banka verməyib, özlərində saxlayırlar. İştirakçılar (payçılar) tərkibindən çıxdıqda onlar öz hissələrinin (paylarının) qaytarılmasını tələb edə bilərlər.

Kommersiya bankı səhmdar cəmiyyəti formasında yaradıldıqda onun nizamnamə kapitalı müəyyən sayda nominal dəyərinə görə bərabər səhmlərə bölünür. Bu zaman səhmdar

qoyulmuş kapitala mülkiyyət hüququnu itirir, amma bankın müəyyən miqdarda səhmlərini əldə edir. O, öz səhmlərini sərbəst sata bilər, lakin bankdan qoyulmuş kapitalının qaytarılmasını tələb edə bilməz, çünki bu halda nizamnamə kapitalı bankın özünün mülkiyyətidir. Bu, bankın sabitliyini və etibarlılığını artırır və onun likvidliyinin səmərəli idarə olunması üçün etibarlı zəmin yaradır.

Səhmdar kommersiya bankları qapalı və açıq tipli ola bilirlər. Qapalı səhmdar cəmiyyətlərində səhmlər az sayda məlum səhmdarlar arasında bölüşdürülür ki, onlar da öz səhmlərini yalnız digər səhmdarlarının çoxunun razılığı ilə sata bilərlər. Açıq səhmdar cəmiyyətinin səhmləri açıq yazılma qaydasında yayılır və istənilən hüquqi və ya fiziki şəxs bankın səhmdarı ola bilir. «Səhmdar cəmiyyətləri haqqında» 26 dekabr 1995-ci il tarixli № 208-FQ Federal qanun bütün səhmdar kommersiya banklarına şamil edilir.

Rusiyada kommersiya banklarının təşkil edilməsinə, qeyd olunduğu kimi, bazar iqtisadiyyatının əsaslarının formalaşdığı dövrdə başlanılmışdı. Bank sistemi islahatının ilkin mərhələsində kommersiya bankları əsasən paylar əsasında yaradılırdı, azsaylı idilər və ixtisaslaşmış dövlət bankları ilə paralel fəaliyyət göstərirdilər. Hazırda pay banklarının səhmdar banklarına çevrilməsi prosesi gedir, yeni kommersiya bankları isə əsasən səhmdar cəmiyyətləri formasında yaradılır. Hazırda Rusiyada 2000-dən artıq kommersiya bankı fəaliyyət göstərir.

Rusiyada kommersiya banklarının yaradılması və fəaliyyəti «Banklar və bank fəaliyyəti haqqında» Federal qanunla tənzimlənir.

Bu Qanuna müvafiq olaraq Rusiya Federasiyasının bank sisteminə Rusiya Bankı, kredit təşkilatları, həmçinin xarici bankların filialları və nümayəndəlikləri daxildir.

Kredit təşkilatı – fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etmək üçün bank əməliyyatları aparmaq hüququna malik olan və təsərrüfatçı cəmiyyət kimi istənilən mülkiyyət forması zəminində yaradıla bilən hüquqi şəxsdir.

Bank – ümumilikdə aşağıdakı *bank əməliyyatlarını* həyata keçirməyə müstəsna hüququ olan kredit təşkilatıdır:

- pul vəsaiti qoyuluşlarına hüquqi və fiziki şəxslərin cəlb edilməsi;
- göstərilən vəsaitlərin öz adından və öz hesabına ödənişlilik, qayıdanlıq və təcililik şərtilə yerləşdirilməsi;
- hüquqi və fiziki şəxslərin bank hesablarının açılması və aparılması.

Qeyri-bank kredit təşkilatı - ayrı-ayrı bank əməliyyatlarını həyata keçirmək hüququna malik olan kredit təşkilatıdır.

Bank əməliyyatlarına yuxarıda göstərilənlərdən başqa aşağıdakılar aiddir:

- fiziki və hüquqi şəxslərin, o cümlədən müxbir-bankların tapşırığı ilə onların bank hesabları üzrə hesablaşmaların həyata keçirilməsi;
- pul vəsaitləri, veksellər, ödəniş və hesablaşma sənədlərinin inkassasiyası və fiziki və hüquqi şəxslərə kassa xidmətinin göstərilməsi;
- nağd və nağdsız formada xarici valyutanın alqı-satqısı;
- qiymətli metalların qoyuluşa cəlb edilməsi və yerləşdirilməsi;
- bank təminatlarının verilməsi.

Kredit təşkilatları sadalanmış bank əməliyyatlarından başqa aşağıdakı sövdələşmə növlərini həyata keçirə bilərlər:

- üçüncü şəxslərə görə öhdəliyin pul şəklində yerinə yetirilməsini nəzərdə tutan zəmanətlərin verilməsi;
- üçüncü şəxslərdən pul şəklində öhdəliklərin yerinə yetirilməsini tələb etmək hüququnun alınması:
- fiziki və hüquqi şəxslərlə müqavilə əsasında pul vəsaitləri və başqa əmlakın etibarnaməylə idarə olunması;

Rusiya Federasiyasının qanunvericiliyinə müvafiq olaraq qiymətli metallar və qiymətli daşlarla əməliyyatların həyata keçirilməsi;

- fiziki və hüquqi şəxslərə sənədlərin və qiymətli şeylərin saxlanılması üçün xüsusi yerlərin və ya orada yerləşən seyflərin icarəyə verilməsi;
- lizinq əməliyyatları
- məsləhət və məlumat xidmətlərinin göstərilməsi.

Kredit təşkilatları qüvvədə olan qanunvericiliyə müvafiq olaraq başqa sövdələşmələr də həyata keçirə bilərlər. Amma kredit təşkilatlarına istehsal, sığorta və ticarət fəaliyyəti ilə məşğul olmaq qadağan edilir. Onlar federal qanuna müvafiq olaraq qiymətli kağızlar bazarında peşa fəaliyyətini həyata keçirə bilərlər. Rusiya Bankının bank əməliyyatlarının həyata keçirilməsinə lisenziyası olduqda bank ödəniş funksiyasını yerinə yetirən qiymətli kağızlarla, pul vəsaitlərinin qoyuluşa və bank hesablarına cəlb edilməsini təsdiq edən qiymətli kağızlarla və əməliyyatlarının aparılmasının federal qanuna müvafiq olaraq xüsusi lisenziyanın alınmasını tələb etməyən digər qiymətli kağızlarla onların buraxılması, alınması, satışı, uçotu, saxlanılması və s. bağlı əməliyyatları həyata keçirə bilər. Bank həmçinin fiziki və hüquqi şəxslərlə müqavilə əsasında göstərilən qiymətli kağızlarla etibar əsasında idarəetməni həyata keçirə bilər.

Banklar Rusiya Bankında saxlanılan icbari ehtiyatlar normativini, o cümlədən cəlb olunmuş vəsaitlərin müddətinə, obyektlərinə və növlərinə görə yerinə yetirməlidirlər. İcbari ehtiyatların saxlanılma qaydaları Rusiya Bankı tərəfindən müəyyənləşdirilir.

Hər bir bankın icbari ehtiyatlarını saxlamaq üçün Rusiya Bankında hesabı olmalıdır. Bu hesabın açılma və həmin hesab üzrə əməliyyatların həyata keçirilməsi qaydaları Rusiya Bankı tərəfindən müəyyənləşir.

Maliyyə etibarlılığının təmin edilməsi məqsədilə kredit təşkilatları, o cümlədən qiymətli kağızların dəyərsizləşməsi halı üçün fondlar (ehtiyatlar) yaratmalıdırlar ki, onların yaradılması və istifadə edilməsi qaydaları Rusiya Bankı tərəfindən, mənfəətdən vergiyə qədərki ehtiyatlara (fondlara) ayırmaların həcmi isə vergilər haqqında federal qanunla

müəyyənləşdirilir.

Kredit təşkilatları bir də rəqəm göstəriciləri Rusiya Bankı tərəfindən «Rusiya Federasiyasının Mərkəzi Bankı (Rusiya Bankı) haqqında» Federal qanuna müvafiq olaraq müəyyənləşdirilən icbari normativləri gözləməlidir.

Kommersiya banklarının fəaliyyətinin əsasında müəyyən ***prinsiplər*** dayanır. Birinci və ən əsas prinsip ***bankın real mövcud olan resurslar çərçivəsində işləməsidir***. Bu o deməkdir ki, başqa banklara nağdsız ödənişlər, kreditlərin verilməsi, həmçinin nağd pulların alınması bank tərəfindən yalnız onun Rusiya Bankının Hesablaşma-Xəzinədarlıq Mərkəzlərində olan (HXM) müxbir hesablarındakı resurslarının qalığı hüdudlarında həyata keçirilə bilər.

Real mövcud olan resurslar çərçivəsində iş o deməkdir ki, kommersiya bankı öz resursları və kredit qoyuluşları arasında yalnız kəmiyyət müvafiqliyini təmin etməli deyil, həm də bank aktivlərinin xarakterinin cəlb olunmuş resursların xüsusiyyətlərinə və birinci növbədə hər ikisinin müddətlərinə görə uyğunluğuna çalışmalıdır.

Real mövcud olan resurslar çərçivəsində iş prinsipinin digər tərəfi ondan ibarətdir ki, müəyyən edilmiş iqtisadi normativləri gözlədikdə, bank öz fəal əməliyyatlarının aparılmasında sərbəstdir, yəni bankın fəal əməliyyatlarının həcmi inzibati metodlarla məhdudlaşdırıla bilməz.

Kommersiya bankı real mövcud olan resurslar hüdudunda işləyib, eyni zamanda, öz likvidliyini yalnız öz fəaliyyətinin nəticələrinə görə tam iqtisadi məsuliyyətin uzlaşdığı ən yüksək dərəcədə iqtisadi sərbəstliyə malik olduqda təmin edə bilər. Buna görə də kommersiya bankının fəaliyyətinin əsaslandığı ikinci mühüm prinsip ***öz fəaliyyətinin nəticələrinə görə bankın iqtisadi məsuliyyətini də nəzərdə tutan tam iqtisadi müstəqillikdir***.

İqtisadi müstəqillik bankın öz vəsaitlərindən və cəlb olunmuş resurslardan istifadədə müstəqilliyini, müştərilərin, əmanətçilərin, borcalanların seçim azadlığını və vergilər ödənildikdən sonra yerdə qalan gəlirdən istifadə

müstəqilliyini nəzərdə tutur.

Hazırda qüvvədə olan bank qanunvericiliyi Rusiya Federasiyası ərazisində bütün kommersiya banklarına öz fondları və gəlirlərindən istifadədə tam iqtisadi sərbəstlik (banklara sərt vergilərin tətbiqi və ehtiyat vəsaitlərin normasının xeyli yüksək olması nəzərə alınmazsa) verir. Bankın vergilər və digər mütləq ödənişlər ödənildikdən sonra qalan gəlirləri bankın səhmdarlarının ümumi iclasının qərarına müvafiq olaraq bölüşdürülür. Ümumi iclas bankın müxtəlif fondlarına ayırmaların norma və həcmini, onların tərkibini və quruluşunu, həmçinin səhmlər üzrə dividendlərin həcmini müəyyənləşdirir.

Kommersiya banklarının iqtisadi məsuliyyəti mövcud qanunvericiliyə görə cari gəlirlərlə məhdudlaşmır (ixtisaslaşmış dövlət banklarının təsərrüfat hesablı qurumlarında olduğu kimi), onların kapitalına da şamil edilir. Bütün əməliyyatlarına görə riski kommersiya bankı öz üzərinə götürür, buna görə də öz öhdəliklərinə görə o, ona məxsus olan və qüvvədə olan qanunvericiliklə cərimənin yönəldilə biləcəyi bütün vəsait və əmlakla cavab verir.

Üçüncü prinsip ondan ibarətdir ki, ***kommersiya bankının öz müştərilərilə qarşılıqlı münasibətləri adi bazar münasibətləri kimi qurulur***. Kommersiya bankı borc verəndə hər şeydən əvvəl öz kredit resurslarının yerləşdirilməsinin səmərəliliyinin bazar meyarlarını, özünün kapital qoyuluşlarında riskin və likvidliyin uzlaşmasının optimallığını əldə rəhbər tutmalıdır. «Ümumdövlət maraqlarına» yönümlənmə bank işinin kommersiya xarakteri ilə bir araya sığmır və labüd olaraq onun üçün likvidlik böhranı ilə nəticələnə bilər. Kommersiya bankları müəssisələrin maliyyə fəaliyyəti üzərində ümumdövlət nəzarəti vasitəsi olmamalıdırlar.

Eyni zamanda kommersiya bankları «əl» bankları olmamalıdırlar. Çünki bazara yönümlənmə bankın müştərilərlə münasibətdə istənilən liberallığını, bir də müştəriyə banka münasibətdə əmr etməni və qeyri-iqtisadi məcburetməni

qeyri-mümkün edir. Bankın və onun bütün səhmdarlarının mənfəət əldə edilməsində maraqlı olmaları kredit resurslarının inzibati bölgü yolu ilə deyil, səmərəlilik, risk və likvidlik iqtisadi meyarları əsasında yerləşdirilməsi əsas hərəkətverici motiv olmalıdır. Buna görə də kommersiya bankının növbəti iş prinsipi yalnız borc kapitalları bazarının vəziyyətinə yönümlənmiş müstəqil kredit, faiz və depozit siyasətinin aparılmasından ibarətdir.

Dördüncü prinsip ***kommersiya bankının fəaliyyətinin tənzimlənməsinin inzibati təsir metodları ilə deyil, dolayı iqtisadi təsir metodları vasitəsilə həyata keçirilə bilməsindən ibarətdir.*** Dövlət kommersiya bankları üçün «oyun qaydaları»nı müəyyənləşdirir, lakin onlara əmr verə bilməz. Öz fəaliyyətinin nəticələrinə görə tam məsuliyyət daşımaq üçün bank yalnız öz resurslarından istifadədə deyil, həm də borc verilməsində müddətlərin və şərtlərin müəyyənləşdirilməsində, bank əməliyyatlarının aparılmasında, bank depozitləri, kreditləri və s. ölçülərinin müəyyənləşdirilməsində sərbəst olmalıdır.

Kredit, faiz və depozit siyasətinin hansı şəkildə olursa-olsun hədsiz dərəcədə tənzimlənməsi labüd olaraq bankın iqtisadi müstəqilliyini məhdudlaşdırır və maliyyə resurslarının bütün iqtisadi sistem çərçivəsində sərbəst yerdəyişməsinə mane olur. Dövlətin kommersiya banklarının siyasətinə təsiri dolayısıyla olmalı və inzibati metodlarla deyil, iqtisadi metodlarla həyata keçirilməlidir. Kommersiya banklarının cari fəaliyyəti onların özləri tərəfindən müstəqil həyata keçirilməli və yalnız bazar tənzimləmə metodlarının təsiri altında müəyyənləşdirilməlidir.

Kommersiya banklarının fəaliyyətinin bazar yönümlü olması onların funksiyalarını müəyyənləşdirir. Bazar iqtisadiyyatında kommersiya banklarının ən mühüm funksiyalarından biri müstəsna olaraq kredit təşkilatlarına xas olan və bankların «pul yaratmaq və məhv etmək» qabiliyyəti ilə şərtlənən ***pul yaratmaq funksiyasıdır.*** Bu funksiya ölkənin Mərkəzi bankının kommersiya bankları sistemi vasitəsilə

apardığı pul-kredit siyasəti çərçivəsində həyata keçirilir.

Kommersiya bankları müvəqqəti sərbəst pul vəsaitlərini səfərbər edərək, gəlirləri və yığım pullarını əmanətlər şəklində toplayır, əmanət sahiblərinə resurslardan istifadəyə görə faizlər ödəyir və bu resursları borc kapitalına çevirirlər ki, onlar da öz növbəsində bank tərəfindən sahibkarlıq fəaliyyəti subyektlərinə kredit verilməsi üçün istifadə olunur. Kredit verməklə, banklar əlavə ödəniş qabiliyyətli tələb yaradırlar, çünki borcgötürənlər alınmış vəsaiti istehsalın genişləndirilməsinə, daşınmaz əmlakın alınmasına və ya istehlak əmtəələrinin alınmasına sərf edirlər. Bu əmtəələrin ifrat istehsalının böhranından qaçmağa və pul kütləsinin (kredit ekspansiyası) inflyasiya prosesinin yaranmasına yol verməyən müəyyən hədlərdə artması prosesini tənzimləməyə kömək edir. Mərkəzi bankın pul-kredit siyasəti çərçivəsində dövriyyədə pul kütləsinin ixtisar edilməsinə zərurət olduğu halda ölkənin kommersiya bankları sistemi vasitəsilə həyata keçirilən kreditlərin məhdudlaşdırılması üzrə tədbirlər həyata keçirilir.

Kommersiya banklarının digər mühüm funksiyası müəssisələrin kapitallarının dövranı prosesində yaranan müvəqqəti sərbəst pul vəsaitlərinin və əhalinin yığımının təkrar bölgüsü yolu ilə həyata keçirilən ***kreditdə vasitəçilikdir.***

Resursların təkrar bölgüsünün əsas meyarı qismində onların borcalanlar tərəfindən istifadəsinin mənfəətliliyidir. Resursların təkrar bölgüsü təsərrüfat əlaqələrinin üfüqi xətti üzrə həyata keçirilir və prinsip etibarilə bankların iştirakı olmadan da baş verə bilər, lakin bu zaman borc verilmiş pulların itirilmə riski, bir də onların yerdəyişməsi üzrə ümumi xərclər kəskin artar.

Kommersiya bankları öz aktivlərinin geniş diversifikasiyası əsasında bank hesabında yerləşdirilmiş pul vəsaitləri əmanətçilərinin mümkün risklərini azaldırlar və bazar konyunkturasının dəyişilməsi ilə əlaqədar itkilərin hamısını öz üzərlərinə götürürlər. Onlar vəsaitlərin kreditverəndən

borc götürənə yenidən bölgüsünü ödənişlilik və qayıdanlıq şərti ilə həyata keçirirlər, özü də vasitəçiliyə görə haqq kreditdə yalnız borc kapitalı bazarında tələb və təklifin təsiri altında formalaşır. Nəticədə iqtisadiyyatda pul resurslarının bir yerdən digərinə sərbəst ötürülməsinə nail olunur ki, bu da bazar təsərrüfatının tələbatlarına tam cavab verir.

Kommersiya banklarının daha bir mühüm funksiyası ***iqtisadi sistem çərçivəsində təsərrüfat subyektlərini yığıma həvəsləndirməkdir*** ki, bu da bazar iqtisadiyyatına keçid şəraitində kommersiya banklarının bir investisiya institutu kimi aparıcı rolu ilə izah olunur. İqtisadiyyatın struktur yenidənqurmasının həyata keçirilməsi əsas etibarilə dövlətin daxili investisiya resursları və yığımlarına əsaslana bilər və əsaslanmalıdır, çünki siyasi qeyri-müəyyənlik dövründə böyük xarici investisiyalara arxalanmaq mümkün deyil.

Hazırda az qala yeganə investisiya mənbəyi olan kommersiya bankları yalnız sərbəst pul vəsaitlərinin toplanılması və təkrar bölgüsü ilə məşğul olmayıb, həm də pul vəsaitlərinin yığılmasına və cari istehlakın məhdudlaşdırılmasına həvəsləndirmənin səmərəli sistemini formalaşdırmalıdırlar. Belə həvəsləndirmələr çevik depozit siyasəti əsasında formalaşır. Özü də banka vəsait qoyanlara qoyuluşlara görə yüksək faizlə yanaşı vəsaitlərin bankda yerləşdirilməsinin etibarlılığına ciddi təminatlar verilməlidir. Buna görə də kommersiya banklarının qarşısında duran ən mühüm məsələ vəsait cəlb edilməsinin elə formasını yaratmaqdır ki, onlar müştərini real olaraq vəsait qənaət etməyə həvəsləndirə bilsin, qoyulmuş vəsaitin artmasına və qorunub saxlanılmasına təminat versin, bir də bazar iqtisadiyyatı şəraitində ölkənin investisiya imkanlarını müəyyənləşdirən qənaətə adəti onlarda formalaşdıra bilsin.

Kommersiya banklarının digər bir funksiyası ***ödənişlərdə vasitəçilik və hesablaşma-ödəniş mexanizminin təmin edilməsidir.*** İqtisadiyyatın ayrı-ayrı müstəqil subyektləri arasında ödənişlərdə vasitəçi qismində çıxış edən banklar öz müştəriləri üçün zəruri olan hesablama əməliy- yatlarını

aparırlar.

Ümumxalq mülkiyyətinə dövlətin inhisarı şəraitində həmin mülkiyyətin bütün subyektləri arasında hesablaşmalar vahid Dövlət bankı vasitəsilə aparılırdı. Belə hesablaşma sistemində ödənişlərin edilməsinin təminatçısı qismində dövlət çıxış edirdi və belə şəraitdə yüksək olmayan bütün mümkün riskləri öz üzərinə götürürdü. Bazar tipli bank sisteminin yaradılması hesablaşmaların müxtəlif yerlərdə aparılmasına və bununla əlaqədar olaraq müasir kommersiya banklarının öz üzərlərinə götürdükləri risklərin artmasına, həmin bankların müştəri qarşısında hesablaşma və ödəniş əməliyyatlarının vaxtında və dəqiq yerinə yetirilməsi ilə bağlı məsuliyyətinin artmasına səbəb oldu.

Rusiyada qiymətli kağızlar bazarının formalaşması ilə əlaqədar kommersiya bankları borc kapitalı bazarının bu sahəsinə xidmət göstərməklə bağlı bir sıra funksiyaları yerinə yetirməyə başladılar. Qiymətli kağızların buraxılması və yerləşdirilməsi yolu ilə emissiya-təsisetmə funksiyasını yerinə yetirən kommersiya bankları yığımın iqtisadiyyatın tələbatlarına yönəldilməsini təmin edən kanala dönürlər.

Qiymətli kağızlar bazarı kredit-bank sistemini tamamlayır və onunla təmasda olur. Bununla əlaqədar olaraq kommersiya banklarının ***qiymətli kağızlarla əməliyyatlarda vasitəçilik*** kimi funksiyası da inkişaf tapır.

Bəzi qərb ölkələrinin banklarından fərqli olaraq, Rusiya Federasiyasının kommersiya bankları universal xarakterlidir və qüvvədə olan qanunvericilik çərçivəsində qiymətli kağızlar bazarında ən müxtəlif əməliyyatlar apara bilərlər. Onlar, məsələn, qiymətli kağızların alqa-satqısında müştərinin hesabına və onun tapşırığı ilə komissiya müqaviləsi və ya tapşırıq əsasında vasitəçilik funksiyasını yerinə yetirərək investisiya brokeri qismində çıxış edə bilirlər. Əgər bank öz üzərinə investisiya kompaniyasının funksiyalarını götürürsə, bu halda o, qiymətli kağızların buraxılmasının təşkili və yerləşdirilməsi ilə məşğul olur, qiymətli kağız buraxılışlarının üçüncü şəxsin xeyrinə yerləşdirilməsinə təminat verir,

öz adından və öz hesabına qiymətli kağızların alqı-satqısını həyata keçirir.

Bankın investisiya fondu qismində çıxış etdiyi hallarda o, öz resurslarını öz adından qiymətli kağızlarda yerləşdirir və onda qiymətli kağızların alınması əməliyyatı ilə bağlı bütün risklər, bütün gəlirlər və zərərlər bankın səhmdarlarının hesabına baş verir.

İnvestisiya məsləhətçisi kimi çıxış edəndə bank müştərilərinə qiymətli kağızların buraxılması və tədavülü ilə bağlə konsaltinq xidməti göstərir. Bundan başqa, informasiyaya və iqtisadi vəziyyəti daim təhlil etmək imkanına malik olduqlarından, kommersiya bankları müştərilərinə geniş səpkidə məsələlər və problemlər (investisiya qoyulması, müəssisələrin yeniləşdirilməsi və yenidən qurulması, firmaların birləşməsi və bir-birini udması, illik hesabatların tərtib olunması, audit və s.) üzrə məsləhətlər verə bilirlər. Buna görə də kommersiya banklarının müştərilərə iqtisadi, maliyyə informasiyası təqdim etməkdə və məsləhət verməkdə rolu daim artmaqdadır.

§5. Mərkəzi bank və bazar iqtisadiyyatında onun funksiyaları

Mərkəzi bank – ölkənin kredit sisteminə başçılıq edən, banknotların emissiyasına inhisarçı hüququ olan və milli iqtisadiyyatın maraqlarında kredit-pul siyasətini həyata keçirən bankdır.

Mərkəzi bankların yaranması tarixən bank emissiyasının ən iri və etibarlı kommersiya banklarının əlində obyektiv cəmlənməsi prosesii ilə şərtlənmişdir. Bank işinin yaranmasının erkən mərhələsində bankların kommersiya və emissiya fəaliyyəti arasında hər hansı bir məhdudiyyət yox idi. Kommersiya bankları banknotların emissiyasından kapitalın səfərbər edilməsi mənbəyi kimi geniş istifadə edirdilər, lakin müəyyən müddətdən sonra emissiya fəaliyyəti ümumun etibar etdiyi azsaylı iri banklarda cəmləndi. Bu prosesin məntiqi sonluğu milli iqtisadiyyat çərçivəsində banknot buraxmağa inhisarçı hüququ olan vahid emissiya banklarının yaranması oldu. Belə banklar emissiya və ya Milli bank adlanırdılar, çünki onların banknotları ümumi milli kredit tədavülü vasitəsi funksiyasını yerinə yetirirdilər. Amma artıq XVII əsrdə onları Mərkəzi bank adlandırmağa başladılar ki, bu da onların kredit sistemində aparıcı rolunu əks etdirirdi. XIX əsrin sonunda inkişaf etmiş kapitalist ölkələrinin çoxunda Mərkəzi banklar banknot emissiyası funksiyasını inhisarlaşdırdılar, hazırkı zaman üçün isə bütün ölkələrin kredit sistemində emissiya mərkəzinə çevrilmişlər.

Mərkəzi banklar tarixən iki yolla yaradılırdı. Bankların bir qismi kommersiya banklarından ölkənin emissiya mərkəzinə qədər uzun təkamüli inkişaf yolu keçmişdir. Məsələn, İngiltərə Bankı 1694-cü ildə ilk səhmdar banklarından biri kimi yaradılmışdı və müasir tipli kredit sisteminin yaranması prosesi də ənənəvi olaraq onlarla əlaqələndirilir. Lakin bu bank yalnız 1844-cü ildə ölkənin emissiya mərkəzi oldu. Qərbi Avropa mərkəzi banklarının çoxu XIX əsrdə məhz bu yolla yaradılmışdı.

Digər Mərkəzi banklar dövlət tərəfindən əvvəlcədən emissiya mərkəzi (Rusiya, ABŞ) kimi yaradılmışdılar. Rusiyada ölkənin əsas bankı 1860-cı ildə dövlət tərəfindən yaradılmışdı və Dövlət bankı adlanırdı, çünki digər Mərkəzi bankların çoxundan fərqli olaraq o həmişə dövlət mülkiyyəti olmuşdu. ABŞ-da dövlətin əsas bankı funksiyasını birlikdə ölkənin Federal Ehtiyat Sistemini təşkil edən 12 federal ehtiyat bankı yerinə yetirir. Özü də bütün federal banklar səmdar cəmiyyəti formasında yaradılmışdır və burada əsas səhmdarlar milli kommersiya banklarıdır.

Mülkiyyət formasından asılı olaraq Mərkəzi banklar aşağıdakılar kimi təşkil oluna bilirlər:

- səhmdar (ABŞ);
- kapitalının bir hissəsi dövlətə məxsus olan səmdar cəmiyyətləri formasında olan qarışıq (İsveçrə, Belçika, Yaponiya);

• kapitalı 100% dövlətə məxsus olan dövlət (Rusiya, AFR, İngiltərə, Fransa).

Mərkəzi bankların az bir hissəsi dərhal dövlət bankı formasında yaradılmışda (Rusiya, AFR), lakin onların çox hissəsi əvvəlcə səhmdar formasında yaradılmış, sonradan milliləşdirilmişdi (İngiltərə, Fransa və b.). Hazırda dünya ölkələrinin çoxunda Mərkəzi banklar milliləşdirilmiş dövlət bankıdır. Bununla belə, mülkiyyət formasından asılı olmayaraq, Mərkəzi banklar tam hüquqi və iqtisadi müstəqilliyə malikdirlər. Onlar, bir qayda olaraq, ölkənin hökumətinə tabe deyillər və pul-kredit siyasətini müstəqil, milli iqtisadiyyatın maraqlarından çıxış edərək aparırlar. Bununla belə Mərkəzi bankın müstəqilliyi nisbidir, çünki o istənilən halda dövlətin iqtisadi siyasəti vasitələrindən biridir və uzunmüddətli səpkidə Mərkəzi bankın siyasəti birbaşa ölkə hökumətinin makroiqtisadi kursunun prioritetləri ilə müəyyənləşdirilir.Ölkə hökumətinin və onun Mərkəzi bankının sıx qarşılıqlı əlaqəsi obyektiv olaraq hökumətin maliyyə fəaliyyəti ilə Mərkəzi bankın pul-kredit siyasətinin əlaqələndirilməsinin tələb olunması ilə şərtlənir.

Beləliklə, Mərkəzi bank dövlətin iqtisadiyyatı tənzimləməsi mexanizminin mühüm alətlərindən biridir və özündə bu və ya digər dərəcədə bankın və dövlət idarəetmə orqanının funksiyalarını birləşdirir. Bazar münasibətləri şəraitində Mərkəzi bankın qarşısında duran əsas məsələ milli iqtisadiyyatın kredit-pul və valyuta sabitliyinin təmin edilməsindən ibarətdir.

Rusiya Bankının fəaliyyətinin əsas məqsədi *bunlardır*:

• rublun sabitliyinin, o cümlədən onun alıcılıq qabiliyyətinin və xarici valyutalarla münasibətdə kursunun müdafiəsi və təmin edilməsi;

Rusiya Federasiyasının bank sisteminin inkişaf etdirilməsi və möhkəmləndirilməsi;

hesablaşmalar sisteminin səmərəli və fasiləsiz fəaliyyət göstərməsinin təmin edilməsi.

Özü də ***mənfəət əldə olunması Rusiya Bankının fəaliyyətinin əsas məqsədi deyil.***

Fəaliyyətinin əsas məqsədindən çıxış edərək ***Rusiya Bankı aşağıdakı funksiyaları yerinə yetirir***:

RF Hökuməti ilə qarşılıqlı əlaqədə milli valyutanın (rublun) sabitliyinin təmin edəlməsinə yönəldilmiş vahid dövlət pul-kredit siyasətini hazırlayır və həyata keçirir;

• inhisarçı qaydada nağd pulların emissiyasını və onların tədavülünü həyata keçirir;

• kredit təşkilatları üçün sonuncu mərhələ kredit verəndir və təkrar maliyyələşdirmə sistemini təşkil edir;

Rusiya Federasiyasında hesablaşmaların həyata keçirilmə qaydalarını müəyyənləşdirir;

• bank sistemi üçün bank əməliyyatlarının, mühasibat uçotunun və hesabatın aparılması qaydalarını müəyyənləşdirir;

• kredit təşkilatlarının dövlət qeydiyyatını həyata keçirir, kredit təşkilatlarının, həmçinin onların auditi ilə məşğul olan təşkilatların lisenziyalarını verir və geri çağırır;

• kredit təşkilatlarının fəaliyyəti üzərində nəzarəti həyata keçirir;

• federal qanunlara müvafiq olaraq kredit təşkilatları tərəfindən qiymətli kağızların emissiyasını qeydiyyata alır;

Rusiya Bankının qarşısında duran əsas məsələləri yerinə yetirmək üçün lazım olan bütün bank əməliyyatı növlərini həyata keçirir;

• valyuta tənzimləməsini həyata keçirir və xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyənləşdirir;

Rusiya Federasiyasının qanunvericiliyinə müvafiq olaraq valyuta nəzarətini təşkil edir və həyata keçirir;

RF-nın ödəniş balansı proqnozunun hazırlanmasında iştirak edir və onun tərtib olunmasını təşkil edir;

• yuxarıda göstərilən funksiyaların həyata keçirilməsi məqsədilə Rusiya Federasiyası iqtisadiyyatının bütövlükdə və regionlar üzrə vəziyyətinin, birinci növbədə, pul-kredit, valyuta-maliyyə və qiymət münasibətlərinin təhlilini və pro-

qnozlaşdırılmasını aparır;

- statistik materialları və müvafiq verilənləri çap edir;
- federal qanunlara müvafiq olaraq başqa funksiyaları da yerinə yetirir.

Rusiya Bankının bank qanunvericiliyinin tələblərinə müvafiq olaraq yerinə yetirdiyi funksiyaların sadəcə sadalanması onun hüquq və vəzifələr dairəsinin nə qədər geniş olduğunu göstərir. Bütün funksiyaların hamısının təfərrüatı ilə nəzərdən keçirilməsinə imkan olmadığından, onlardan bazar iqtisadiyyatı şəraitində ənənəvi olaraq mərkəzi banklara xas olanlar üzərində dayanaq.

Ölkənin emissiya mərkəzi. Bu, Mərkəzi bankın ən qədim funksiyası olmaqla yanaşı, həm də ən mühüm funksiyalarından biridir. O, dövlətin nümayəndəsi kimi milli kredit pulu rolunda çıxış edən və borc öhdəliklərinin yerinə yetirilməsinin hamı tərəfindən tanınan, axırıncı vasitəsi olan banknotlar buraxmağa rəsmi inhisara malikdir.

Bazar iqtisadiyyatı şəraitində nağdsız emissiyaya inhisar mümkün deyil, çünki o, kommersiya banklarının əsas rol oynadığı depozit-borc əməliyyatları prosesində həyata keçirilir.

Hazırda ən inkişaf etmiş ölkələrdə banknotlar pul kütləsinin az bir hissəsini təşkil edirlər, buna görə də Mərkəzi bankın emissiya fəaliyyəti Qərbdə get-gedə daha çox texniki iş kimi nəzərdən keçirilir. Emissiya fəaliyyətində Mərkəzi bankın inhisarı hər şeydən əvvəl pərakəndə ticarət sahəsində özbaşınalığa yol verməmək, həmçinin ölkənin kredit sisteminin likvidliyinin təmin edilməsi üçün lazımdır. Dövlətdə nağd tədavülün payı nə qədər çox olarsa, pul vəsaitlərinin nağd emissiyasının rolu bir o qədər vacib olar. Hazırda Rusiyada nağd tədavülün payı inkişaf etmiş Qərb ölkələri ilə müqayisədə xeyli yüksəkdir, buna görə də pul tədavülünün tənzimlənməsi prosesi Mərkəzi bankın ən mühüm funksiyalarından biri kimi qalmaqdadır.

Mərkəzi bank nağd pulların emissiyasına inhisarçı hüququndan istifadə edərək tədavülə yeni banknotların buraxılması və köhnələrinin çıxarılması haqqında müstəqil qərar qəbul edir, yeni pul nişanlarının nominallarını və nümunələrini təsdiq edir. Amma bu zaman o, öz hərəkətləri barədə ölkənin hökumətini məlumatlandırmalıdır. Yalnız və yalnız Mərkəzi bankın səlahiyyətləri çərçivəsinə nağd pul tədavülünün təşkilinin banknotların və metal pulların istehsalı, daşınması və saxlanılması, kassa əməliyyatlarının aparılma qaydalarının müəyyənləşdirilməsi, pul nişanlarının ödəniş qabiliyyətliliyi meyarlarının müəyyənləşdirilməsi və sair texniki funksiyalar da daxil olmaqla bütün texniki məsələlər daxildir.

Nağdsız hesablaşmaların təşkili və tənzimlənməsi məsələsinə gəldikdə isə, yalnız Mərkəzi bankın səlahiyyətlərinə nağdsız hesablaşmaların qayda və formalarının, standartları və müddətlərinin müəyyənləşdirilməsi, həmçinin hesablaşma, o cümlədən klirinq sistemlərinin lisenziyalaşdırılması aid edilmişlər.

Hökumətin bankiri. Hökumətin bankiri funksiyasını yerinə yetirərkən Mərkəzi bank onun xəzinədarı və borc verəni qismində çıxış edir. Bu isə dövlət büdcəsinin xəzinə yerinə yetirilməsini və dövlət borcunun idarə edilməsini nəzərdə tutur. Mərkəzi bankda hökumətin və onun qurumlarının hesabları açılır. Dövlətin vergilər və istiqrazlardan gəlirləri Mərkəzi bankda xəzinədarlığın hesabına daxil olur və orada depozitlər şəklində saxlanılırlar. Mərkəzi bankın vəzifələrinə xəzinədarlığın ödənişlərində vasitəçilik, hökumətin xərclərinin ödənilməsi, həmçinin dövlətin kreditlənməsi və dövlət borcuna (qısamüddətli və uzunmüddətli) xidmət göstərilməsi daxildir. Dövlət borcunun idarə edilməsi dövlət istiqrazlarının tənzimlənməsi və ödənilməsi üzrə əməliyyatları, konversiya və konsolidasiyanı nəzərdə tutur. Bu zaman Mərkəzi bank müxtəlif üsullarla dövlət öhdəliklərinin cəlbediciliyini artırır, onları alır və ya satır, onların satış şərtlərini dəyişir və bununla da onların məzənnə dəyərinə və gəlirliliyinə təsir edir.

Qızıl-valyuta ehtiyatlarının saxlanılması və tənzim-

lənməsi. Mərkəzi bank dövlətin adından dövlətlərarası səviyyədə beynəlxalq hesablaşmalar və ödəniş balanslarının tənzimlənməsini həyata keçirir, dünya borc kapitalı, valyuta və qızıl əməliyyatlarında iştirak edir.

Qızıl monometalizmi dövründə ölkənin qızıl ehtiyatının istənilən dəyişmələri dövlətin tədavülə buraxdığı pulların miqdarını bilavasitə müəyyənləşdirirdi. Qızıl standartı ləğv edildikdən sonra hətta ölkənin qızıl ehtiyatındakı böyük dəyişikliklər pulun emissiyasına, məsələn, dövlətin qiymətli kağızlarının buraxılmasından daha az təsir etməyə başladılar. Buna görə də dövlətin qızıl ehtiyatları hazırda beynəlxalq hesablaşmaların aparılmasında əsasən təminat-sığorta fondu və ehtiyat aktivi rolunu oynayırlar.

Qızıl ehtiyatının çox hissəsi ənənəvi olaraq dövlətin qızıl ehtiyatını saxlama funksiyasını yerinə yetirən Mərkəzi bankda cəmlənmişdir. Onun səlahiyyətlərinə bir də ölkədə qızıl və xarici valyuta ehtiyatlarının tənzimlənməsi daxildir. Dövlətin valyuta ehtiyatları beynəlxalq hesablaşmaların həyata keçirilməsi, ödəniş balansı defisitinin aradan qaldırılmasına və milli valyutanın məzənnəsinin lazımi səviyyədə saxlanılması üçün istifadə olunur. Buna görə də rublun məzənnəsinin qeyri-sabitliyi şəraitində Mərkəzi bankın ölkənin qızıl-valyuta ehtiyatarını tənzimləmə funksiyası Rusiya iqtisadiyyatı üçün ən aktual və vaciblərdəndir.

Banklar bankı. Banklar bankı funksiyasını yerinə yetirərkən Mərkəzi bank kommersiya banklarının xəzinə ehtiyatlarını saxlamağa qəbul edir və zəruri olduqda onlara kredit dəstəyi verir. O, öz hesablarında ölkənin bütün kommersiya banklarının sərbəst ehtiyatlarını toplayır və onlar arasındakı bütün hesablaşmaları həyata keçirir, yəni bank sisteminin vahid hesablaşma mərkəzi rolunu yerinə yetirir. Qeyd etmək lazımdır ki, elektron hesablaşma sistemləri inkişaf etdikcə bütün Qərb ölkələrində Mərkəzi bankın hesablaşma mərkəzi kimi rolu durmadan azalır.

Rusiyanın bank sistemi hazırda Qərbin qabaqcıl hesablaşma texnologiyalarını tətbiq etməyə hazır deyil. Buna görə

də, kommersiya banklarının hesablaşmalarının aparılması funksiyasının təmin edilməsi və onlar arasında hesablaşmaların gedişi prosesinin sürətləndirilməsi, həmçinin kommersiya banklarının sərbəst resurslarının tam uçotunun təmin edilməsi üçün Mərkəzi bank geniş Hesablaşma-Xəzinədarlıq Mərkəzləri (HXM) şəbəkəsinə malikdir ki, onlar da Mərkəzi bankın region idarələrinin nəzdində bütün ölkə ərazisində fəaliyyət göstərirlər.

Mərkəzi bank bütün qalan banklar üçün son mərhələ kredit verəndir, yəni zərurət olduqla onlara kredit dəstəyi verə bilir. Amma Mərkəzi bankın kreditə görə faizi bir qayda olaraq banklararası kreditin faizindən yüksək olur, buna görə də kommersiya bankları Mərkəzi banka kömək üçün yalnız son dərəcə vacib olan hallarda müraciət edirlər.

Banklar bankı funksiyasını səmərəli yerinə yetirmək üçün Mərkəzi bank bank nəzarəti və kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi üzrə lazımi səlahiyyətlərə malikdir.

Bank nəzarəti və kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi. Mərkəzi bank kredit təşkilatlarının fəaliyyətinin dövlət tənzimləməsi və nəzarəti orqanıdır. Bu zaman Mərkəzi bankın nəzarət funksiyasının əsas məqsədi kreditverənlərin və əmanətçilərin maraqlarının qorunmasında, bir də kredit təşkilatlarının operativ fəaliyyətinə qarışmamaq şərtilə bank sistemi sabitliyinin təmin edilməsindən ibarətdir.

Bank nəzarəti və kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi zərurəti kredit sisteminin ölkə iqtisadiyyatında oynadığı mühüm rolla şərtlənir. Mərkəzi bank istənilən iqtisadi şəraitdə ölkənin kredit sisteminin sabit və səmərəli fəaliyyətini təmin etməlidir, buna görə də bank nəzarətinin mühüm vəzifələrindən biri gələcəkdə yarana biləcək problemlərin hazırda qarşısının alınması üçün profilaktik tədbirlərin aparılması məqsədilə onların vaxtında müəyyənləşdirilməsindən ibarətdir.

Mərkəzi bankın nəzarət fəaliyyəti kredit təşkilatlarının

və onların filiallarının yoxlanılmasının gedişində (yerlərdə yoxlamalar), həmçinin onların Mərkəzi banka təqdim etdikləri mühasibat, statistik və başqa hesabatların təhlili yolu ilə həyata keçirilir. Özü də Mərkəzi bankın kredit təşkilatları ilə münasibətləri yalnız «yuxarıdan əmrlərlə» məhdudlaşmamalıdır. Rusiya Bankı haqqında Qanunun yeni redaksiyasında Mərkəzi bankın kredit təşkilatları, onların assosiasiya və ittifaqları ilə normativ xarakterli mühüm qərarların qəbul edilməsi üçün qarşılıqlı məsləhətləşmələr yolu ilə, həmçinin ayrı-ayrı bank problemlərinin öyrənilməsi məqsədilə kredit təşkilatlarının iştirakı ilə ictimai əsaslarla işçi qrupların yaradılması yolu ilə qarşılıqlı fəaliyyəti barədə mühüm müddəa vardır.

Mərkəzi bankın tənzimləyici rolu aşağıdakılarda təzahür edir:

1. Rusiya Bankı kredit təşkilatlarının dövlət qeydiyyatını həyata keçirir, bank fəaliyyəti üçün lisenziya verir və onu geri çağırır, kredit təşkilatlarının başçılarına göstərilən zəruri peşə tələblərini müəyyənləşdirir. Bu zaman lisenziya işinin məqsədi yeni yaradılan kredit təşkilatlarının miqdarının məhdudlaşdırılması ola bilməz. Lisenziyalaşdırmanın qarşısında duran əsas məsələ onların ölkə kredit sistemi tərkibində səmərəli fəaliyyət göstərə bilmə imkanlarının müəyyənləşdirilməsidir.

2. Rusiya Bankı bütün kredit təşkilatları üçün eyni olan bank əməliyyatlarının aparılması, mühasibat uçotu və statistik hesabatın aparılması qaydalarını müəyyənləşdirir, həmçinin kredit təşkilatları tərəfindən bütün növ hesabatların verilmə qaydaları, həcmi və müddətlərini müəyyənləşdirir. Özü də normativ, analitik və yoxlama materiallarının hazırlanması üçün Rusiya Bankı həm kredit təşkilatlarının özlərindən, həm də dövlət icra hakimiyyəti orqanlarından lazımi məlumatı tələb etmək və almaq hüququna malikdir.

3. Rusiya Bankı kreditverənlərin və əmanətçilərin maraqlarının təmin edilməsi və müdafiəsi məqsədilə kredit təşkilatlarının icbari ehtiyat fondlarının formalaşdırılması

qaydalarını müəyyənləşdirir. O həmçinin kredit təşkilatlarının fəaliyyətinin bir sıra məcburi iqtisadi normativlərini müəyyənləşdirir. Mərkəzi bankın tənzimləyici və nəzarətedici fəaliyyətində məcburi iqtisadi normativlər sisteminə xüsusi yer ayrılır.

Rusiya Mərkəzi Bankının 30 yanvar 1996-cı il tarixli əmri ilə 1 mart 1996-cı ildən qüvvəyə minmiş «Kredit təşkilatlarının fəaliyyətinin tənzimləmə qaydası haqqında» təlimatla kredit təşkilatlarının fəaliyyətinin aşağıdakı məcburi iqtisadi normativləri müəyyənləşdirilmişdir:

- yeni yaradılan kredit təşkilatları üçün nizamnamə kapitalının minimum həcmi və fəaliyyət göstərən kredit təşkilatları üçün öz vəsaitlərinin (kapitalının) minimum ölçüləri;
- kapitalın kifayətliliyi normativləri;
- bir borcalana və ya bir-biri ilə əlaqədar olan borcalanlara riskin minimum ölçüləri;
- iri kredit risklərinin maksimum ölçüləri;
- kredit təşkilatının öz iştirakçılarına (səhmdarlarına, payçılarına və insayderlərinə) verdiyi kreditlərin, təminatların və vəsadətlərin maksimum ölçüləri;
- əhalinin cəlb edilmiş əmanətlərinin (depozitlərinin) maksimum ölçüləri;
- kredit təşkilatlarının öz vəsaitlərindən digər hüquqi şəxslərin paylarının (səhmlərinin) alınması üçün istifadə normativləri.

Kredit təşkilatlarının digər məcburi fəaliyyət normativləri Rusiya Bankının xüsusi normativ aktları ilə müəyyənləşdirilir. Bu normativlərə aşağıdakılar aiddir:

- nizamnamə kapitalının qeyri-pul hissəsinin son həddölçüləri;
- yüksək riskli aktivlərə görə yaradılan ehtiyatların minimum ölçüləri;
- valyuta, faiz və digər növ risklərin minimum ölçüləri.

Kredit-pul siyasətinin aparılması. Mərkəzi bankın yu-

xarıda nəzərdən keçirilən funksiyaları bir-biri ilə qarşılıqlı əlaqədar və bir-birindən asılıdır. Kommersiya banklarını və ölkə hökumətini kreditləyəndə Mərkəzi bank bununla kredit tədavül aləti yaradır, qiymətli kağızlar bazarında dövlət öhdəlikləri ilə əməliyyatlar aparanda o, borc faizi səviyyəsinə təsir edir və s. Mərkəzi bankın bütün bu funksiyaları və səlahiyyətləri onun bu gün üçün ən mühüm funksiyası olan ölkə iqtisadiyyatının pul-kredit tənzimlənməsinin uğurla aparılması üçün müəyyən zəmin yaradır.

Mərkəzi bankın pul-kredit siyasəti dövlətin iqtisadi siyasətinin tərkib hissəsidir və onun prioritetləri ilə müəyyənləşir. O, tədavüldə pul kütləsinin, kredit ehtiyatlarının həcminin, faiz dərəcəsi səviyyəsinin və ölkənin və borc kapitalı bazarının pul tədavülünün digər iqtisadi göstəricilərinin tənzimlənməsinə yönəldilmiş tədbirlər məcmusundan ibarətdir.

Pul-kredit siyasətinin əsas məqsədləri qismində çıxış edirlər: iqtisadi artıma nail olunması, işsizliyin və inflyasiyanın səviyyəsinin azaldılması, həmçinin ölkənin tədiyyə balansının tənzimlənməsi.

İqtisadiyyatın pul-kredit tənzimlənməsi üzrə Mərkəzi bankın tədbirləri onun inflyasiya və işsizliyin aşağı səviyyəsində sabitləşdirilməsini təmin etməlidirlər. Pul-kredit siyasəti pul-kredit emissiyasının stimullaşdırılmasına, yəni tədavüldə pul kütləsinin məcmu həcminin genişləndirilməsinə (kredit ekspansiyası) yönəldilə bilər ki, bu da istehsalın tənəzzülü şəraitində bazar konyunkturasının müəyyən qədər dirçəlməsi effektini verir. O, pul-kredit emissiyasının məhdudlaşdırılmasına, yəni tədavüldə pul kütləsi həcminin azaldılmasına (kredit restriksiyası) da yönəldilə bilər. Bu pul-kredit siyasəti Mərkəzi bank tərəfindən adətən iqtisadi bum dövründə və ya «birjada qızğınlıq» əlamətlərinin göründüyü hallarda istifadə olunur. İstehsalın artım tempinin yüksəlməsi şəraitində kredit restriksiyası bazar konyunkturasının «ifrat qızışmasının» qarşısını almağa ünvanlanır. Kredit ekspansiyası siyasəti, əksinə, bazar konyunktu-

rasının canlandırılması məqsədi güdür və adətən böhranlar və istehsalın tənəzzülü dövrlərində tətbiq olunur. O, çox vaxt ölkə iqtisadiyyatının defisitlə maliyyələşdirilməsi ilə uzlaşır və inflyasiya proseslərinin kəskinləşməsinə səbəb olur.

Ölkə iqtisadiyyatının pul-kredit tənzimlənməsi üzrə tədbirlərin həyata keçirilməsi zamanı labüd olaraq inflyasiya ilə mübarizə məsələsi ilə iqtisadi artımın stimullaşdırılması problemi arasında obyektiv ziddiyyət yaranır. Buna görə də Mərkəzi bankın pul-kredit siyasəti ən sıx şəkildə dövlətin investisiya-maliyyə siyasəti ilə əlaqələndirilməli və iqtisadiyyatın çevik vergi tənzimləməsi sistemi ilə tamamlanmalıdır.

Mərkəzi bankın pul-kredit siyasətinin konkret metodları və alətləri Rusiya Bankı haqqında qanunla müəyyənləşdirilmiş və rəngarəngilikləri ilə fərqlənirlər. Mərkəzi banka ölkə iqtisadiyyatının pul-kredit tənzimləməsi üzrə metodların və tədbirlərin seçilməsi məsələsində qüvvədə olan qanunvericilik çərçivəsində ən geniş səlahiyyətlər və tam müstəqillik verilmişdir.

Əsas anlayışlar və məfhumlar

Kredit; borc kapitalı mənbələri; kreditin funksiyaları; borc faizi; faiz norması; kommersiya krediti; sələmçi krediti; bank krediti; istehlak krediti; ipoteka krediti; dövlət krediti; beynəlxalq kredit; kredit sistemi; kredit sisteminin prinsipləri; dövlət kredit təşkilatları; səhmdar bankları; kooperativ banklar; dövlət bankı; kommersiya bankı; kredit təşkilatı; bank; bank əməliyyatları; qeyri-bank kredit təşkilatı; sövdələşmə növləri; ölkənin emissiya mərkəzi.


XI FƏSİL. MALİYYƏ VƏ VERGİQOYMA VƏ DÖVLƏT XƏRCLƏRİNİN İQTİSADİ NƏZƏRİYYƏSİ. DÖVLƏT BORCU

§1. Maliyyənin mahiyyəti və müasir cəmiyyətdə rolu.
§2. Dövlət maliyyələrinin nəzəri konsepsiyaları və onların təkamülü.
§3. Dövlət büdcəsi: formalaşma və istifadə yolları.
§4. Vergiqoymanın və dövlət xərclərinin iqtisadi nəzəriyyəsi. Fiskal siyasət.
§5. Büdcə kəsiri və dövlət borcunun ümumi xarakteristikası.

§1. Maliyyənin mahiyyəti və müasir cəmiyyətdə rolu

Müasir cəmiyyətin təsərrüfat mexanizminin ən mühüm elementi pulun bir sahibkardan digərinə hərəkəti ilə bağlı olan və deməli, təsərrüfat subyektlərinin iqisadi münasibətlərini əks etdirən maliyyədir. Məhz bu, maliyyəyə müxtəlif təriflər verməyə (əsas diqqəti ya pul resurslarının hərəkətinə, ya da iqtisadi münasibətlərə yönəltmək nəticəsində) əsas verir (şəkil 11.1).


Maliyyə – ölkədə və cəmiyyətdə *pulun təbiəti və pul*



Şəkil 11.1. Müxtəlif iqtisad məktəblərinin maliyyəyə verdikləri təriflər

münasibətləri proseslərini səciyyələndirən ümumiləşdirici iqtisadi kateqoriyadır.

Maliyyənin mahiyyəti onun funksiyalarında təzahür edir. Maliyyənin funksiyaları – maliyyəyə xas olan xüsusiyyətlərin spesifik ifadə formasıdır (şəkil 11.2).



Şəkil 11.2. Maliyyənin funksiyalarının təsnifatı

Bölüşdürücü funksiya maliyyənin ümumi daxili məhsulun və milli gəlirin ictimai istehsalın iştirakçıları, istehsal sahələri, regionlar, maddi istehsal sahəsi və sosial-mədəni sahə arasında bölgü və təkrar bölgüdə fəal iştirak etməsində ifadə olunur.

Nəzarət funksiyası cəmiyyət tərəfindən iqtisadi məhsulun istehsalı, bölgüsü və tədavülü üzərində nəzarətdə təzahür edir.

Nəzarət funksiyası vasitəsilə pul vəsaitlərinin bölgüsündə proporsiyaların necə formalaşdığını, maliyyə vəsaitlərinin müxtəlif təsərrüfat subyektlərinin sərəncamına nə qədər vaxtında daxil olduğunu, onların nə qədər qənaətlə və səmərəli istifadə olunduğunu öyrənmək olur.

Allokativ funksiya maliyyə resursları hesabına cəmiyyətdə daxili və xarici təhlükəsizliyin (polisin və ordunun saxlanılması), ictimai nəqliyyat sektoru (yollar, işıqlandırma), müxtəlif növ kommunikasiyalar, rabitə vasitələri, sosial sistem kimi müəyyən xidmətlərlə (ictimai nemətlərin) təmin edilməsidir.

Sabitləşdirici funksiya dövlətin tam məşğulluğun, qiymətlərin sabitliyinin, dayanıqlı iqtisadi artımın təmin edilməsinə yönümlənmiş məqsədlərin həyata keçirilməsindən ibarətdir.

Maliyyənin mahiyyəti, onun inkişaf qanunauyğunluqları və rolu cəmiyyətin iqtisadi quruluşu, həmçinin dövlətin mahiyyəti və funksiyaları ilə müəyyənləşir.

Maliyyə tarixi kateqoriyadır. O, əmtəə-pul münasibətləri şəraitində dövlətin funksiya və tələbatlarının inkişafının təsiri altında yaranmışdır. Maliyyənin rus və Avropa dillərinin əksəriyyətində işlədilən qarşılığı «finansı» məfhumu «gəlir», «ödəniş» mənası verən italyan sözü *finansia* sözündən yaranmışdır. «Pul ödənişi» mənasında o, ilk dəfə XII-XV əsrlərdə Florensiya, Venesiya, Genuya kimi bir sıra şəhərləri həmin dövrdə Avropanın iri ticarət və bank mərkəzləri olan İtaliyada istifadə olunmağa başlayıb. Sonralar məfhum beynəlxalq aləmdə yayılmış və pul münasibətləri sistemi, dövlətin öz siyasi və iqtisadi funksiyalarının yerinə yetirilməsinə cəlb etdiyi pul resurslarının əmələ gəlməsi ilə bağlı olan məfhum kimi işləilməyə başlamışdı.

Kapitalizməqədərki quruluşlarda gəlirlər əsasən natural xarakterli olurdu. Dövlətin tələbatlarının çox hissəsi natural yığımlardan müxtəlif növ mədaxillər hesabına təmin edilirdi. Feodal quruluşu dağıldıqca və onun daxilində kapitalist münasibətləri inkişaf etdikcə dövlətin pul gəlirləri və xərcləri get-gedə daha böyük əhəmiyyət kəsb etməyə başlamışdı. Bu proses əmtəə-pul münasibətləri genişləndikcə, dövlətin funksiyaları artdıqca və mürəkkəbləşdikcə güclənirdi. Dövlət xəzinəsinin hökmdarın şəxsi xəzinəsi və mülkiyyətindən ayrılmasından sonra "dövlət maliyyəsi" və "dövlət büdcəsi" anlayışları yaranır.

Müasir şəraitdə maliyyə anlayışı bir tərəfdən dövlət maliyyəsini, digər tərəfdən isə müəssisə və korporasiyaların maliyyələrini ehtiva edir.

Dövlət maliyyəsi - bu, iqtisadi münasibətlərin dövlətə öz funksiyalarını həyata keçirtmək üçün lazım olan pul fon-

dlarının yaradılması məqsədilə ümumi ictimai məhsulun bir hissəsinin təkrar və həm də ilkin bölgüsü və istehlakı ilə bağlı olan xüsusi sahəsidir. Onların maddi məzmunu dövlət və yerli büdcələrdə, xüsusi fondlarda, dövlət müəssisələrinin maliyyələrində əks olunur.

Xüsusi müəssisə və korporasiyaların maliyyələri onların iqtisadi fəaliyyətinin gedişində yaranan və istehsal prosesini və mənfəət götürülməsini təmin edən pul münasibətlərini ifadə edirlər. Onlar müəssisələrin pul kapitalı, müxtəlif pul fondları şəklində maddiləşirlər.

Müasir maliyyənin səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

1) natural münasibətlərdən fərqli olaraq pul formasında olmaları;

2) münasibətlərin bölgü səciyyəli olması, yəni burada ekvivalent mübadilə yoxdur;

3) ümumi ictimai məhsulun və milli gəlirin, qiymət bölgüsündən fərqli olaraq, real pul fondları vasitəsilə bölgüsü.

Beləliklə, ***öz mənşəyinə görə maliyyə - pul münasibətləridir. Lakin münasibətlərin heç də hamısı maliyyə münasibətləri deyil: yalnız əmtəənin istehsalı və realizə edilməsi prosesində təkrar istehsal prosesi iştirakçılarının pul gəlirləri formalaşanda və bu gəlirlərdən istifadə olunduqda, yəni pulların hərəkəti müəyyən müstəqillik əldə edəndə onlar belə münasibətlərə çevrilirlər.***

Sonrakı təhlillərimizdə biz əsas diqqəti ***dövlət maliyyələri*** və iqtisadi inkişafda onların rolu üzərində cəmləyəcəyik. Cəmiyyət inkişaf etdikcə bu rol dəyişilməz qalmayıb. İlkin mərhələdə bu rol fiskal səciyyəli idi. Müasir şəraitdə ***dövlət maliyyələrinin rolu*** ondadır ki, o, ictimai təkrar istehsal prosesinə, iqtisadi artım tempinin dəstəklənməsinə, təsərrüfatın aparıcı sahələrinin inkişafına, iqtisadiyyatın struktur yenidənqurulmasına, ETT-nin sürətləndirilməsinə mühüm təsir vasitəsi kimi çıxış edir. Belə ki, dövlət investisiyalarının həcmini genişləndirdikdə dövlət avadanlığa, iş qüvvəsinə tələbatın artmasına təkan verir, bu da öz növbə-

sində sənaye istehsalının, məşğulluğun artmasına, təsərrüfat konyunkturasının canlanmasına rəvac verir. Dövlət büdcəsi hesabına tələbin dəstəklənməsi, sosial tədbirlərin, proqramların və s. maliyyələşdirilməsi həyata keçirilir. İqtisadiyyata, ziddiyyətli olsa da, hərbi xərclər də təsir göstərirlər. Hərbi xərclər sənayenin inkişafına müəyyən təkan verirlər, lakin uzunmüddətli silahlanma yürüşü iqtisadiyyatın zəifləməsinə, təsərrüfatdaxili disproporsiyalara, istehsalın strukturunun dəyişilməsinə və digər neqativ nəticələrə gətirib çıxarır. Hazırda dövlət maliyyələri fəal şəkildə uzunmüddətli səciyyəli nəticələrin əldə olunması – milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, ETT-nin sürətləndirilməsi və ölkənin elmi-texniki potensialının gücləndirilməsi, məhsuldar qüvvələrin qeyri-bərabər yerləşdirilməsinin aradan qaldırılması üçün istifadə olunurlar.

Lakin istənilən təsərrüfat sisteminin dialektikası belədir ki, iqtisadi konyunkturaya, artım tempinə, əhalinin həyat səviyyəsinə və s. ciddi təsir göstərən dövlət maliyyələri eyni zamana iqtisadi və sosial sahələrdə yeni çətinliklər və problemlərə səbəb olurlar. Bu problemlərin səmərəli həlli əsasən dövlətin düzgün hazırlanmış maliyyə siyasətindən asılıdır.

Maliyyə siyasəti –hökumət orqanlarının maliyyə sisteminin həlqələri və elementləri vasitəsilə həyata keçirdikləri maliyyə tədbirlərinin məcmusudur. Onun əsasında həmin dövrün hakim nəzəri konsepsiyaları durur ki, dövlətin iqtisadi kursu da onların təsiri altında formalaşır.

§2. Dövlət maliyyələrinin nəzəri konsepsiyaları və onların təkamülü

Müasir Qərb dövlət maliyyələri konsepsiyalarının nəzəri köklərinin XIX əsr və XX əsrin əvvəlləri qərb iqtisadçılarının əsərlərində axtarmaq lazımdır. Onların inkişafı bazar iqtisadiyyatının ümumi hərəkət qanunları ilə bağlıdır və

Qərb dövlətlərinin təsərrüfat inkişafında əsaslı dəyişiklikləri əks etdirir. XX əsrin 20-ci illərinin sonuna qədər bu dövlətlərin maliyyə siyasətinin əsasında neoklassik məktəbin konsepsiyaları dayanırdı. Onların əsas istiqaməti dövlətin iqtisadiyyata müdaxilə etməməsi, azad rəqabətin saxlanılması, bazar mexanizmindən təsərrüfat proseslərinin əsas tənzimləyicisi kimi istifadə idi. 20-ci illərin sonu – 30-cu illərin əvvəllərinin iqtisadi gerçəkliyi artıq həyatın real tələblərinə cavab verməyən bu kursu dəyişməyə vadar etdi.

Dövlət-inhisarçı kapitalizmin inkişafının təsiri altında XX əsrin 30-60-cı illərində maliyyə siyasətinin əsasını keynsçi və neokeynsçi müddəalar təşkil etməyə başladılar. ***C.M.Keynsin maliyyə konsepsiyası*** aşağıdakı əsas müddəalardan çıxış edir:

1. Geniş təkrar istehsalın bütün mühüm problemləri səlaflərin etdikləri kimi resurs təklifinin öyrənilməsi mövqeyindən deyil, resursların realizə olunmasını təmin edən tələb mövqeyindən həll etmək lazımdır.

2. Kapitalist iqtisadiyyatı tamamilə özütənzimlənə bilmir. Əməyin və kapitalın hədsiz böyük ictimailəşməsi şəraitində dövlət müdaxiləsi qaçılmazdır. Dövlət tənzimləməsi iqtisadiyyatın qiymətlərin köməkliyi ilə avtomatik tənzimlənməsi mexanizmini xeyli tamamlamalıdır.

3. İfrat istehsal böhranları hadisələrin səthində tələbin çatışmazlığı kimi görünür, buna görə də iqtisadiyyatda tarazlıq problemi tələb baxımından həll olunmalıdır. Bunun üçün Keyns «səmərəli tələb» məfhumunu tətbiq edir ki, o da istehlakla istehsal, gəlirlə məşğulluq arasındakı tarazlığı ifadə edir.

4. İqtisadiyyatın tənzimlənməsinin əsas aləti büdcə siyasətidir. Bütövlükdə iş qüvvəsinin və istehsal avadanlığının məşğulluğunun təmin edilməsi məsələsi dövlət büdcəsi üzərinə düşür.

«Səmərəli tələb» ideyası əsasında bütün maliyyə konsepsiyası yenidən nəzərdən keçirilmişdi. Tsiklik inkişafa və böhranların aradan qaldırılmasına hökumət müdaxiləsinin

əsas aləti dövlət xərcləridir. Onların formalaşması, strukturu və artımını Keyns «səmərəli tələb»ə çatılmasının olduqca mühüm amili hesab edirdi. Vergilər və istiqrazlarla təmin edilən hökumət tələbi sahibkarlıq fəaliyyətini canlandırmalı və milli gəlirin və məşğulluğun artması ilə nəticələnməlidir. Keyns makrogöstəricilərin hərəkətinə dövlət xərcləri ilə yanaşı vergiləri də əlavə edir və hesab edirdi ki, vergi siyasətindəki dəyişikliklər tələbin əsas komponentlərinə: şəxsi tələbə və investisiya istehlakına – ciddi təsir göstərir. Keynsin dövlət maliyyələri nəzəriyyəsinə gətirdiyi borclar hesabına maliyyələşdirilən dövlət xərclərinin artmasının zəruriliyi haqqındakı müddəa da yenidir. C.Keynsin davamçıları bunu «kəsirlə maliyyələşdirmə prinsipi» adlandırmışdılar. C.Keynsin fikrincə, dövlət investisiyalarını və cari xərcləri borca maliyyələşdirmək olar. Borclar hesabına maliyyələşdirilən hökumət investisiyaları «investiya qoyuluşuna meyilin» genişlənməsinə, eyni qaydada maliyyələşdirilən cari xərclər isə «istehlaka meyilin» artmasına səbəb olur. Keynsin dövründən büdcə xərcləri və gəlirlərinin mütləq bir-birinə uyğun gəlməsi köhnəliyin qalığı hesab olunmağa başladı, «sağlam maliyyə» konsepsiyasına son qoyuldu. Borc kapitalları bazarı «səmərəli tələbə» çatmağın alətlərindən birinə çevrilir, dövlət büdcəsinin kəsiri isə dövlət tənzimləməsi üsullarından biri olur.

Beləliklə, C.Keyns qeyri-təkmil rəqabət şəraitində iqtisadiyyatın tənzimlənməsinə yönəldilmiş tamamilə yeni maliyyə nəzəriyyəsini işləyib hazırlamışdı. Maliyyə siyasətinin işlənilib hazırlanması və onun praktikada tətbiqi C.Keynsin davamçıları (ABŞ-da R.Harrod, A.Ouken, U.Heller; Böyük Britaniyada – C.Vaysman; Fransada – F.Perru; Yaponiyada – K.Emi, X.İto və b.) tərəfindən həyata keçirilmişdi. Ötən əsrin 40-60-cı illərində o, uğur qazanmış və müəyyən müsbət nəticələr vermişdi. Ekstensiv növ iqtisadi inkişafa Keynsin dövlət xərclərinin artmasının zəruriliyi haqqındakı fikri uyğun gəlirdi.Bir sıra Qərbi Avropa ölkələrində dövlət tənzimləməsinin sosial-islahatçı formaları tətbiq olunmuşdu.

Bu zəmində təhsilə, səhiyyəyə xərclər artırdı, səmərəli sosial təminat sistemi formalaşmışdı və XX əsrin 70-ci illərinə qədər aparığı Qərb dövlətlərinin çoxunun maliyyə nəzəriyyəsi və praktikasının əsasında C.Keyns nəzəriyyəsinin ilkin müddəaları dururdu.

İqtisadiyyatın sonrakı inkişafı, ETİ şəraitində iqtisadi artımın intensiv növünə keçid və təsərrüfat həyatının beynəlmiləlləşməsi Keynsin dövlət maliyyələrinin fəaliyyət modelinin yeni şəraitdə özünü doğrultmadığını göstərdi. Dövlət tənzimləməsinin başqa nəzəriyyələri lazım oldu.

Geniş təkrar istehsal şəraitlərinin dəyişməsinin təsiri altında ***"neoklassik sintez" konsepsiyası*** – natamam məşğulluq şəraitində tarazlıq nəzəriyyəsi formalaşır ki, buna pul amili də əlavə olunur. Keynsçi nəzəriyyənin bu versiyası Nobel mükafatı laureatları ingiltərəli C.Xiks və amerikalı P.Samuelsonun əsərlərində inkişafını tapmışdır. Keynsçi fiskalizm ideyaları neoklassiklərin iqtisadiyyatın pul-kredit siyasətinin köməkliyi ilə tənzimlənməsini (uçot dərəcəsinin dəyişdirilməsi, açıq bazarda əməliyyatların aparılması və s.) nəzərdə tutan konsepsiyası ilə birləşdilər . P.Samuelson ***ictimai əmtəə*** məfhumunu işlətməyə başlayır və bu məfhum altında dövlətin cəmiyyətin üzvlərinə təqdim etdiyi əmtəə və xidmətləri başa düşür. "İctimai əmtəə" özündə üç keyfiyyəti birləşdirir: cəmiyyət üzvləri arasında bölünməzlik, ümumi əlyetərlik və dövlət tərəfindən təqdim olunma (yəni bazardan yan keçməklə – məsələn, informasiya). " İctimai əmtəə " ideyasında resursların dövlət və xüsusi bölmələr arasında bölgüsü məsələsi qoyulur – dövlət bölməsinin öhdəsinə iqtisadi və sosial infrastrukturun maliyyələşdirilməsi verilir ki, bu da son nəticədə mənfəəti maksimallaşdırır. P.Samuelsonun fikrincə, ***maliyyə siyasətinin qarşısında duran məsələ "ictimai əmtəə" təklifi bölməsi üçün tənzimləyici tədbirlərin təmin edilməsindən ibarətdir.*** Dövlətin mikroaləmə müdaxiləsinin əsas məqsədi hökumət xərclərində optimallığa, resursların hökumət, müəssisələr və cəmiyyətin ayrı-ayrı üzvləri arasında səmərəli bölgüsü və təkrar bölgüsünə

nail olmaqdır.

XX əsrin 70-ci illərinin sonundan Böyük Britaniya, ABŞ, AFR və bir sıra başqa dövlətlərin maliyyə siyasətinin əsasını iqtisadi fikrin neoklassik istiqaməti ilə bağlı olan neokonservativ strategiya durmağa başladı. O öz əksini müddəalarından biri dövlətin iqtisadi rolunun, onun təsərrüfat həyatına, ələlxüsus sosial sahəyə müdaxiləsinin məhdudlaşdırılması olan ***təklif nəzəriyyəsində*** tapmışdı. Bu konsepsiyanın tədbirləri sırasında dövlət mülkiyyətinin bir hissəsinin təkrar-özəlləşdirilməsi, rəqabətin bazar mexanizminin gücləndirilməsi, iqtisadiyyatda ağırlıq mərkəzinin təklifin artırılması, istehsalın stimullaşdırılması, onun səmərəliliyinin artırılması problemləri vardır. Əsas yer sahibkara verilir ki, onun fəallığını və məhsuldarlığını artıran stimullar məhz onun maraqları dairəsində işlənib hazırlanmalıdır. Dövlətin iqtisadiyyata müdaxiləsi yalnız fərdi istehsalçının maraqlarına xidmət etməlidir.

Maliyyə cəhətdən neokonservativ istiqamət milli gəlirin maliyyə sistemi vasitəsilə təkrar bölgüsü həcminin azaldılmasının, yığımın istehsalın investisiya mənbəyi kimi artımının stimullaşdırılmasının zəruri olmasından çıxış edir. Vergilərə ciddi rol ayrılır – onların azaldılması və onların proqressivlik dərəcəsinin azaldılması məsələsi qoyulur. Büdcə kəsiri və onun doğurduğu inflyasiya ilə mübarizənin zəruriliyi məsələsi irəli sürülür.

Neoklassik məktəbdən olan nəzəriyyəçilər dövlət xərcləri kateqoriyasını istehsal amillərinin nisbəti baxımından nəzərdən keçirirlər. Onlar dövlət investisiyalarının ümumi həcmini ixtisar etməyi və onların strukturunu dəyişməyi: ETT-nin həvəsləndirilməsi, təhsilin, elmin inkişafı ilə bağlı xərclərin xüsusi çəkisini artırmağı təklif edirlər; "insana investisiyaya" xüsusi yer ayrılmalıdır.

Neokonservativ məktəbin nəzəriyyəsində vergilər xüsusi yer tutur. Onda kapital qoyuluşlarının həcmini və son nəticədə təklifi, yəni əmtəə istehsalını müəyyənləşdirən yığımın formalaşmasına təsir vasitəsi kimi vergilərə üstünlük

verilir. Vergi siyasəti bazar qüvvələrinin inkişafına genişlik verən iqtisadiyyatın inkişafı üçün "neytral" olmalıdır.

Neokonservativ "sağlam maliyyə", yəni hər il büdcə gəlirləri və xərcləri arasında tarazlığın mütləqliyi prinsipini bərpa edirlər, çünki dövlət büdcəsinin kəsirliyi iqtisadiyyatın sabit inkişafı üçün ciddi maneə, dövlət borclarının və inflyasiyanın səbəbidir.

Neokonservativlərin maliyyə siyasəti bütövlükdə, onların fikrincə, iqtisadi artımın uzunmüddətli stimullaşdırıcılarının yaradılması, ictimai inkişafın uzunmüddətli səmərəliliyinin əldə olunması məqsədi güdür.

§3. Dövlət büdcəsi: formalaşma və istifadə yolları

Maliyyə sistemi – dövlətin öz siyasi və iqtisadi funksiyalarını yerinə yetirməsini təmin etməyə təyinatlanmış maliyyə hissələrinin məcmusudur. O, dörd əsas hissədən - dövlət büdcəsi, yerli maliyyələr, dövlət müəssisələrinin maliyyələri və xüsusi hökumət fondlarından ibarətdir. Hər bir hissə üzvi surətdə bir-biri ilə əlaqələndirilmiş və dövlətin maliyyə siyasətinin həyata keçirilməsinə yönümlənmiş maliyyə elementlərinin məcmusudur.

Maliyyə sisteminin əsas hissəsi hökumətin sərəncamında olan ən iri mərkəzləşdirilmiş pul fondu olan ***dövlət büdcəsidir.***

Büdcə hər bir dövlətə onun iqtisadi, sosial və siyasi funksiyalarının yerinə yetirilməsinə xidmət edən pul fonduna olan obyektiv tələbatını ödəmək üçün lazımdır. Hər bir dövlətin büdcəsinə eyni kateqoriyalar: vergilər, borclar, xərclər və s. daxildir ki, onların da məzmunu bir ictimai iqtisadi quruluşdan digərinə keçdikdə dəyişmir. Bu məqam büdcəni iqtisadi kateqoriya adlandırmağa əsas verir.

Büdcə maliyyə sisteminin mərkəzi hissəsi olduğundan maliyyənin bütün əsas keyfiyyət əlamətlərini özündə əks etdirir. "Maliyyə" gedişi prosesində dövlətin mərkəzləşdirilmiş pul fondlarının yarandığı və istifadə olunduğu pul

münasibətləri sistemi olduğundan "büdcə" pul münasibətləri sistemidir.

Buna görə də ***büdcə gedişi prosesində büdcə fondunun yarandığı və istifadə olunduğu imperativ pul münasibətləri sistemidir.***

Əhəmiyyətinə görə ikinci maliyyə hissəsi **yerli maliyyə** sistemidir. ETT-nin təsiri altında yerli hakimiyyət orqanlarının rolu və təsirinin artması baş verir. Yerli təsərrüfatın miqyası böyüyür, yerli hakimiyyətin funksiyaları genişlənir və mürəkkəbləşir. Bütün bunlar dövlət quruluşu və dövlətin müvafiq inzibati bölgüsü ilə müəyyən edilən yerli maliyyələrin əhəmiyyətini gücləndirir. ABŞ-da, məsələn, maliyyələrə ştatların, qraflıqların və taunşiplərin maliyyələri daxildir. Federativ dövlətlərdə (ABŞ, AFR, Kanada) ümumdövlət maliyyə sisteminin bütün resurslarının 40%-dən 50%-nə qədəri, unitar dövlətlərdə isə 30%-ə qədəri yerli büdcələrin payına düşür.

Sərəncamlarında əsas və dövriyyə kapitalı olan, müstəqil smetaya malik, dövlət büdcəsi ilə qarşılıqlı münasibətləri qanunla tənzimlənən ***dövlət müəssisələrinin maliyyələri*** müstəqil maliyyə hissəsi əmələ gətirirlər. Dövlət müəssisələri müxtəlif dərəcədə muxtariyyata, istehsal və maliyyə müstəqilliyinə malikdirlər.

Müəyyən müstəqilliyə malik olub dövlət büdcəsindən ayrılmış və bilavasitə mərkəzi hakimiyyət tərəfindən idarə olunan ***xüsusi hökumət fondları*** xüsusi maliyyə hissəsini əmələ gətirirlər. Onlara sosial sığorta fondları, müxtəlif məqsədli fondlar, həmçinin dövlət və yarıdövlət maliyyə-kredit təşkilatları aiddir. Bu fondlar ilkin olaraq ayrı-ayrı məqsədli tədbirləri maliyyələşdirməli idilər, lakin xüsusi fondların funksiyaları genişləndi, onlar tədricən hökumətin maliyyə çətinlikləri üz verəndə müraciət etdikləri ehtiyata çevrilməyə başlayırlar, yəni maliyyə sisteminin bütövlükdə mütəhərrikliyinin artırılması üçün istifadə olunurlar.

Dövlət büdcəsi (RF-də federal büdcə adlanır) özündə

bütün əsas maliyyə institutlarını – xərcləri, müxtəlif növ gəlirləri, dövlət borclarını birləşdirir.Onun ən mühüm funksiyaları maliyyə siyasətinin həyata keçirilməsi, hökumətin maliyyə proqramının yerinə yetirilməsini təşkil etməkdir. ***Büdcə əsas etibarilə vergilər hesabına yığılan və dövlət tərəfindən öz qarşısında duran məsələlərin həll edilməsi üçün istifadə olunan mərkəzləşdirilmiş pul fondudur.*** Hazırda dövlət büdcələri yeni yaradılmış dəyərin 40%-ə qədərini, bəzi ölkələrdə isə bundan da çoxunu təkrar bölürlər. Dövlətin əlində cəmlənən iri maliyyə resursları onun fəaliyyətinin maddi əsası olub, təsərrüfat həyatına müdaxilə etmək üçün geniş imkanlar yaradırlar.

Müasir şəraitdə büdcə dövlət tərəfindən iqtisadi orqanizmin müxtəlif tərəflərinə – yığım normasının artırılmasına, iqtisadi artım templərinin yüksəldilməsinə, daha perspektivlə sahələrin inkişaf etdirilməsinə, əsas kapitalın yeniləşdirilmə və genişləndirilməsi templərinin tənzimlənməsinə və s. təsir etmək üçün istifadə olunur. İqtisadiyyata dövlət müdaxiləsinin formaları müxtəlifdir. Bunlardan dövlət kapital qoyuluşlarını, istehsal və sosial infrastrukturun inkişafını, dövlət istehlakının genişləndirilməsini göstərmək olar. Dünya bazarlarında rəqabətin xeyli kəskinləşməsi şəraitində dövlət büdcəsi NTT-nin inkişafının katalizatoru kimi çıxış edir. XX əsrin 90-cı illərində Qərb ölkələrində ETSKİ-nin (Elmi tədqiqatlar və sınaq-təcrübə işləmələri) maliyyələşdirilməsində dövlətin payı 40%-dən 60%-ə qədər təşkil etmişdi.

Dövlət yalnız yığım prosesini stimullaşdırmır, həm də dövlət tərəfindən əmtəə və xidmətlərin alınması yolu ilə əlavə tələb yaratmaqla ictimai məhsulun realizə olunmasına təsir edir. Təminatlı dövlət bazarı ödəniş qabiliyyətlə məcmu tələbin təkrar bölgüsü ilə birgə istehsalla istehlak arasındakı ziddiyyəti qismən həll etməyə imkan verir.

Müasir ETİ şəraitində insan amilinin rolu kəskin şəkildə artmışdır ki, bu da məhsuldar qüvvələrin əsas elementinə – insana yeni yanaşma tələb edir. ETT-nin yüksək templəri

iş qüvvəsinin keyfiyyətinə, onun peşə hazırlığına, fiziki dözümlüyünə tələbləri artırır. Bütün bunlar sosial sahənin – təhsilin (əsasən ibtidai və orta, həmçinin kadrların peşə yenidən hazırlanması), səhiyyənin, sosial təminatın – inkişafına yönəldilən vəsaitlərin həcminin artırılmasına səbəb olur. Özü də sosial xərclərin çox hissəsi yerli büdcələrin payına düşür. İnkişaf etmiş ölkələrdə sosial məqsədlərə büdcə vəsaitlərinin 30%-ə qədəri xərclənir.

Hər ölkədə dövlət büdcəsnin öz milli xüsusiyyətləri var. O, inzibati sistemin xarakterindən, iqtisadiyyatın struktur xüsusiyyətlərindən və bir sıra başqa amillərdən asılıdır. ABŞ-da, məsələn, federal büdcə "tam" büdcə prinsipinə əsaslanır və iki elementdən: bilavasitə hökumətin büdcəsi və vəkalət (trast) fondlarından ibarətdir.

Bilavasitə hökumət büdcəsi dövlətin siyasi, iqtisadi və sosial funksiyaları ilə bağlı ümummilli proqramları əhatələyir və maliyyələşdirir. Onun xərclərinə hərbi, iqtisadi, xarici iqtisadi, xarici siyasi xərclər, federal borclar üzrə ödənişlər, sosial xərclər, idarəetmə aparatının saxlanılmasına xərclər daxildir. Gəlirlər əsasən vergilər hesabına (gəlir vergisi, korporasiyaların mənfəət vergisi, aksizlər, gömrük rüsumları) formalaşır. Federal fondlar bütün federal büdcənin 70%-ə qədərini təşkil edir.

Vəkalət fondları məqsədli xarakterli olur. Onların çoxu dövlətin ayrı-ayrı istehsal infrastrukturlarının (federal avtomobil yollarının, hava limanlarının, hidroelektrostansiyaların istismarı) fəaliyyəti ilə bağlıdır. Ən iri fondlar sosial sığorta fondlarıdır (müxtəlif növ pensiya təminatı, xəstəliyə, işsizliyə görə müavinət). Sosial sığorta fondları xüsusi bölmədə işçilərin və sahibkarların ödənişləri hesabına, dövlət qulluqçuları üçün isə qulluqçuların özlərinin və federal hökumətin ödənişləri hesabına yaradılır.

§4. Vergiqoymanın və dövlət xərclərinin iqtisadi nəzəriyyəsi. Fiskal siyasət

Müasir vergi sistemi sivilizasiyanın uzunmüddətli inkişafının nəticəsidir. O, həm iqtisadiyyatın, həm də dövlətin inkişafı ilə sıx bağlı olan mürəkkəb sosial hadisədir.

Vergilər – dövlət tərəfindən fiziki və hüquqi şəxslərdən tutulan məcburi ödəmələrdir. Onlar tarixən cəmiyyətin siniflərə ayrılması və dövlətin yaranması ilə meydana gəlmişlər: bu, kütləvi hakimiyyətin saxlanılması üçün "vətəndaşların ödənişləri"dir. Vergilər uzunmüddətli yol keçmişlər. Quldarlıq, daha sonra isə feodal dövləti vergilərdən öz xəzinəsini doldurmaq üçün istifadə etmişdir. Əmtəə-pul münasibətləri inkişaf etdikcə vergilər pul şəkli almışlar. İlk pul vergilərindən biri y.e. II əsrində Roma imperiyasında bütün vətəndaşlardan tutulan nəfərbaşı vergi – tribut olmuşdur. Pul vergiləri tədricən bütün dövlət vergisi növlərinin hamısını sıxışdırıb aradan qaldırır və dövlətin maliyyə resurslarında aparıcı yeri tuturlar. Hazırda onlar dövlətin bütün gəlirlərinin 8/10-9/10 həssəsini təmin edirlər.

Vergilərə tərif verildikdə bəzən onun qanuni səciyyə daşıdığını vurğulayırlar: vergi – fiziki və hüquqi şəxslərin mülkiyyətinin icbarilik, fərdi təmənnasızlıq, qaytarılmazlıq, dövlətin məcbur etməsi ilə təmin olunmuş, cəza və ya kontribusiya xarakteri daşımayan, kütləvi hakimiyyət subyektlərinin ödənişqabiliyyətliliyinin təmin edilməsi məqsədilə alınmasının yeganə qanuni (qanun tərəfindən müəyyənləşdirilən) formasıdır.

Bundan başqa, bəzi müasir müəlliflər vergi anlayışını nəzərdən keçirəndə kateqoriya yanaşmasının zəruriliyini və onun çoxcəhətliliyini qeyd edirlər. A.V.Buzqalin hesab edir ki, vergi kompleks kateqoriyadır, iqtisadiyyatla hüququn simbiozudur. L.V.Dukaniç hesab edir ki, vergi cəmiyyətin real həyatının özündə iqtisadi və sosial-siyasi münasibətləri cəmləyən mürəkkəb çoxcəhətli hadisəsidir.

RF-nin Vergi Məcəlləsində vergi "təşkilatlardan və fiziki şəxslərdən onlara mülkiyyət, təsərrüfat hesabında və ya operativ idarəetmə qismində məxsus olan pul vəsaitlərinin dövlətin və (və ya) bələdiyyə qurumlarının fəaliyyətinin maliyyə cəhətdən təmin edilməsi məqsədilə yığılan mütləq, fərdi təmənnasız ödəniş" kimi müəyyənləşdirilmişdir.

Vergi kateqoriyası cəmiyyətin iqtisadi, sosial, siyasi tələbatlarının daha dolğun ödənilməsi üçün onun resurslarının ictimailəşdirilməsinin obyektiv zəruriliyini ifadə edir. Cəmiyyət inkişaf etdikcə vergilər institusional xarakter alır.

Vergi təkrar bölgüsü mülkiyyətin təkrar bölgüsünü ifadə edir ki, bunu da prinsip etibarilə müvafiq xərclərlə müşayiət olunan müəyyən "transaksiya" forması ilə eyniləşdirmək olar.

Vergi transaksiya xərclərini vergi tutulması mexanizminin fəaliyyət göstərməsinin, bu kimi tutulmaların həyata keçirilməsi ilə əlaqədar münaqişəli vəziyyətlərin həll edilməsinin və institusional mühitin qeyri-təkmilliyi səbəbindən nəzərə alınmamış potensial vergi yığımlarının təmin edilməsinə xərclənmiş resursların qiymətliliyini ifadə edən dəyər qiymətləndirməsi kimi müəyyənləşdirmək olar. Özü də vergi transaksiya xərclərini şərti olaraq iki qrupa bölmək olar:

- *birbaşa iş xərcləri* - vergi tutulması mexanizminin fəaliyyət göstərməsinin, bu kimi tutulmaların həyata keçirilməsi ilə əlaqədar münaqişəli vəziyyətlərin həll edilməsinin təmin edilməsinə xərclənmiş resursların qiymətliliyinin dəyər qiymətləndirməsidir. Bu qrupa fiskal institutun (vergi orqanları) saxlanılmasına xərcləri və onların fəaliyyət göstərməsini təmin edən institutlar (Federal xəzinədarlıq, məhkəmə orqanları, hüquq-mühafizə orqanları və s.) istiqamətində xərcləri aid edirlər;
- *qeyri-səmərəliliyə görə dolayı itkilər* - institusional mühitin qeyri-təkmilliyi səbəbindən nəzərə alınmamış potensial vergi yığımlarının dəyər qiymətləndirməsi.

Transaksiya xərclərinin ikinci qrupuna vergi yığımları ilə əlaqədar qeyri-formal cəhətlər də – ənənələr, vərdişlər, mentalitet – təsir edir ki, bu da əhalinin vergi mədəniyyətinin çox aşağı olduğu müasir Rusiya üçün son dərəcə səciyyəvidir.

Müasir şəraitdə vergilər iki əsas funksiyanı: fiskal və iqtisadi – yerinə yetirir.

Fiskal funksiya – əsasdır və bütün dövlətlərə xasdır. Onun köməkliyi ilə dövlətin pul fondları və dövlətin fəaliyyət göstərməsi üçün maddi şərait yaradılır.

İqtisadi funksiya vergilərin, təkrar bölgü münasibətlərinin fəal iştirakçısı kimi, təkrar istehsalın tempini stimullaşdırmaq və ya ləngitməklə, kapital yığımını sürətləndirmək və ya zəiflətməklə, əhalinin ödəniş qabiliyyətli tələbini artırmaq və ya azaltmaqla ona ciddi təsir göstərdiyini bildirir. Milli gəlirin dövlət üçün səfərbər edilməsində vergi metodunun genişləndirilməsi dövlətin daim istehsal prosesi iştirakçıları ilə təmasda olmasına səbəb olur ki, bu da ona təkrar istehsal prosesinin bütün mərhələlərində iqtisadiyyata real təsir etmək imkanını təmin edir.

Səmərəli vergi sisteminin formalaşmasında vergi qoyulmasının A.Smit tərəfindən verilmiş, lakin bu gun də əhəmiyyətini saxlamış əsas prinsiplərindən düzgün istifadənin böyük əhəmiyyəti var. Bunlara aşağıdakıları aid etmək olar:

ümumilik və ədalət prinsipi – hamıya vergi qoyulmasını və vergi ağırlığının vətəndaşlar arasında onların gəlirlərinə müvafiq olaraq bərabər bölgüsünü nəzərdə tutur;

müəyyənlik prinsipi - verginin məbləğinin, ödənilmə üsulu və vaxtının həm vergini ödəyən şəxslərə, həm də bütövlükdə cəmiyyətə dəqiq məlum olmasını nəzərdə tutur;

rahatlıq prinsipinə görə vergi elə vaxtda və elə üsulla alınmalıdır ki, vergi verən üçün ən rahat olsun;

qənaət prinsipi vergi alınmasında xərclərin maksimum azaldılmasını nəzərdə tutur.

Müasir vergi sisteminə müxtəlif vergi növləri daxildir. Əsas qrupu birbaşa və dolayı vergilər təşkil edirlər. ***Birbaşa***

vergilər bilavasitə gəlirə və ya mülkiyyətə görə müəyyənləşdirilir. ***Dolayı*** vergilər - əmtəə və xidmətlərə əmtəənin qiymətində ödənilən və ya tarifə daxil edilən vergilərdir. Əmtəə və ya xidmətin sahibi onları realizə etdikdə vergi məbləğini əldə edir və onu dövlətə keçirir. Bu halda ödənişçi ilə dövlətin əlaqəsi vergi obyekti vasitəsilə dolayısıyladır. Müasir şəraitdə dövlətin sosial funksiyalarının genişlənməsi ilə əlaqədar olaraq ***sosial sığorta fondlarına ödənişlər*** geniş yayılmışdır. Öz mahiyyətinə görə onlar məqsədli vergilərdir, çünki müəyyən təyinatları vardır (cədvəl 11.1).

Vergini hansı orqanın yığması və onun məbləğindən istifadə etməsindən asılı olaraq dövlət və yerli vergilər fərqləndirilir. Dövlət vergiləri dövlət qanunvericiliyi əsasında mərkəzi hökumət tərəfindən yığılır və dövlət büdcəsinə yönəldilir. Onlara gəlir vergisi, korporasiyalardan mənfəət vergisi, gömrük haqları və s. aiddir. Yerli vergilər müvafiq ərazidə yerli hakimiyyət orqanları tərəfindən yığılır və yerli büdcəyə daxil olur. Yerli hakimiyyət orqanları əsasən fərdi aksizləri və əmlak vergisini yığırlar.

İstifadə edilməsinə görə vergilər ***ümumi*** (onlar vahid dövlət xəzinəsinə daxil olurlar) və ***xüsusi*** (məqsədli) (məsələn, benzin, yanacaq, sürtgü yağlarından yığılan vergilər ABŞ-da yol fonduna yönəldilir) vergilərə bölünürlər.

Vergi dərəcələrinin tutulma xarakterinə görə vergilər proporsional, proqressiv və reqressiv olurlar.

Proporsional vergi - vergi qoyulan bütün məbləğlər üçün dərəcəsi eyni olan vergidir. Məbləğ artdıqca orta faiz dərəcəsi yüksələn vergi proqressiv adlanır. *Reqressiv vergi* məbləğ artdıqca ondan tutulan faiz dərəcəsinin azalmasını nəzərdə tutur. Sonuncu növə adətən dolayı vergilər aiddir.

Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində müxtəlif növ vergilərin nisbəti dəyişilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində dolayı vergilər əsas yerdə idi, İkinci dünya müharibəsindən sonra aparıcı rol birbaşa vergilərə keçdi. Müasir vergi sisteminə sosial sığorta sisteminə ödəmələrin artması səciyyəvidir ki, artım tempinə görə onlar həm birba-

Cədvəl 11.1

Vergilərin təsnifatı

Birbaşa vergilər		Dolayı vergilər			Sosial sığorta fondlarına ödənişlər
Real	**Şəxsi**	**Aksizlər**	**Fiskal inhisar vergiləri**	**Gömrük haqqı**	
Torpaq Ev Mədən Qiymətli kağızlar	Əhalidən gəlir Korporasiyalardan mənfəət İzafi mənfəət Neft çıxarılmasından gəlirlər Pul kapitallarından gəlirlər İrsə və bağışlamalara Əmlak vergisi	Fərdi: pivəyə, qəndə,benzinə və s. Universal (dövriyyədən vergi):bird əfə olan, çoxdəfəli əlavə dəyər vergisi	Duza Tütünə Kibritə Spirtə və s.	Mənşəyinə görə: ixrac, idxal, tranzit. Məqsədlərinə görə: fiskal, himayeçi, antidempinq, əyalət. Dərəcəsinə görə: spesifik, advaler, qarışıq	Muzdlu əməklə məşğul olanların ödənişləri Müəssisələrin ödənişləri

şa, həm də dolayı vergiləri qabaqlayırlar.

Bütövlükdə bir çox qərb ölkələrinin vergi strukturu belədir: 37,4% gəlir və mənfəət vergiləri, 31,3% dolayı vergilər, 22,2% sosial sığorta fondlarına ödəmələr, 9,1% yerdə qalan vergilər təşkil edirlər.


Vergi qoyulması sahəsində siyasəti hazırlayarkən nəzərə almaq lazımdır ki, həddindən artıq vergilər yalnız ölkədə sahibkarlıq fəallığını, investisiya qoyuluşlarını, yeni texnologiyalara vəsait qoyuluşunu nəinki azaldır, həm də son nəticədə büdcə gəlirlərinə mənfi təsir edir. Buna görə də vergiqoymada vergi dərəcəsinin həcmi böyük rol oynayır. ***Vergi dərəcəsi*** yığılan verginin vergi qoyulan obyektin dəyərindəki payına deyilir, yəni vergi dərəcəsi vergi ödəyənin dəyərin hansı hissəsini vergi qismində ödədiyini göstərir.

Vergi dərəcəsi müəyyənləşdirildikdə belə bir sual meydana çıxır: vergi dərəcəsi necə olmalıdır ki, bir tərəfdən dövlət xəzinəsinə müəyyən məbləğdə pulun daxil olmasını təmin etsin, digər tərəfdən isə ölkədə iqtisadi fəallığın əks-stimuluna dönməsin.

Amerika iqtisadçısı A.Laffer ehtimal etmişdi ki, vergi dərəcəsi ilə vergi mədaxilləri arasında xətti deyil, daha mürəkkəb asılılıq mövcuddur və bu asılılığı **Laffer əyrisi** adı altında məlum olan əyri formasında ifadə etmişdi (şəkil 11.3).

Qrafikdən göründüyü kimi, vergi dərəcəsi 0-a bərabər olarsa, dövlət büdcəsinə heç nə daxil olmayacaq. Verginin faiz dərəcəsi 100% olarsa, istehsalçıların istehsala stimulu itəcək, çünki onlar bütün gəlirlərini vergi şəklində dövlət büdcəsinə verməli olacaqlar. Müəyyən optimal vergi dərəcəsi mövcuddur ki, bu zaman dövlət büdcəsinə mədaxillər maksimum olur və həm də istehsalçıların stimulları qalmaqda davam edir. Lakin Laffer əyrisi göstərir ki, vergi dərəcəsinin sonrakı artımında ümumi vergi mədaxilləri azalmağa başlayacaqlar. Bu halda iqtisadi agentlər ya ümumiyyətlə fəaliyyətlərini dayandırırlar, ya da gizli fəaliyyətə keçirlər.

Aparılmış ekonometrik hesablamalar nəticəsində bu nə-



Şəkil 11.3. Laffer əyrisi:
t—vergi dərəcəsinin kəmiyyəti; T-vergi mədaxillərinin kəmiyyəti

ticəyə gəlinmişdi ki, optimal vergi dərəcəsi 35-45% arasındadır, çünki gəlirlərin bundan artığının alınması əhalinin yığımını azaldır, investisiya qoyuluşlarına marağın itməsinə səbəb olur və nəticədə istehsalın və gəlirlərin azalmasına və deməli, vergilərdən mədaxillərin azalmasına səbəb olur.

Laffer əyrisi mücərrəd iqtisadi modeldir və vergi dərəcəsi ilə vergi mədaxilləri arasındakı obyektiv asılılığı əks etdirir. Lakin praktikada onun tətbiqi, təəssüf ki, mümkün deyildir və real iqtisadi vəziyyət üçün vergi mədaxillərinin azalmağa başladığı kritik nöqtəni hesablamaq olduqca çətindir.

Qərb ölkələrinin iqtisadiyyatının müharibədən sonrakı inkişafı təsərrüfat həyatına dövlət müdaxiləsinin liberal-islahatçı formaları çərçivəsində getmiş və nisbətən yüksək inkişaf templəri ilə səciyyələnmişdi. Lakin XX əsrin 70-80-ci illərinin qovuşuğunda təkrar istehsal şəraiti pisləşdi, səmərəlilik və şirkətlərin mənfəətliliyi azaldı, dünya bazarlarında rəqabət mübarizəsi kəskinləşdi. Vergi siyasətinin sabiq keynsçi modeli yeni texnika və texnologiyalar zəminində istehsalın səmərəliləşdirilməsinin yeni məsələlərini həll etmək iqtidarında olmadı. Bütün Qərb ölkələrində vergi sisteminin vergi gəlirləri ilə onların əldə olunması imkanları

arasındakı ziddiyyətin aradan qaldırılması istiqamətində təkmilləşdirilməsi yollarının araşdırılmasına başlanıldı.

ABŞ-da, Böyük Britaniyada, AFR-da əsaslı vergi islahatları aparıldı. Onlar təkrar istehsalın uğurlarının hər şeydən öncə iqtisadi subyektin davranışına təsir edən vergiqoyma səviyyəsindən asılı olmasını göstərən "təklif iqtisadiyyatı" konsepsiyasına əsaslanırdılar. Bu islahatlar aşağıdakı ümumi xüsusiyyətlərlə səciyyələnirlər:

1. Gəlir vergisinin proqressivliyi kəskin şəkildə azalır. Yüksək proqressiv şkalalı gəlir vergiləri maksimum dərəcəsi azaldılaraq minimuma yaxınlaşdırılan vergilərlə əvəzlənir. ABŞ-da, məsələn, 14 dərəcəli vergi şkalalı federal gəlir vergisi iki dərəcəli – 15 və 25%-li yeni gəlir vergisi ilə əvəzlənmişdir, özü də ödənişçilərin 4/5-ü 15%-li dərəcəylə ödəniş etməlidir. İngiltərədə də dərəcələrin sayı ikiyə endirilmiş və XX əsrin 70-ci illərinin sonundakı 33-83% dəyişdirilərək 25 və 40% səviyyəsində müəyyənləşdirilmişdir.

2. Korporasiyaların mənfəətlərinə vergi dərəcəsi azaldılır. ABŞ-da onlar 46%-dən 34%-ə, Yaponiyada 52%-dən 42%-ə, AFR-da 56%-dən 50%-ə, Fransada 45%-dən 42%-ə, Böyük Britaniyada 50%-dən 35%-ə, RF-da 35%-dən 24-ə endirilmişdir.

3. Əvvəllər vergi tutulmayan gəlir mənbələrinin vergi bazasına daxil edilməsi hesabına onun genişləndirilməsi (bəzi vergi güzəştlərindən imtina, ödənişçilərə münasibətdə vergi qanunlarının sərtləşdirilməsi və s.).

4. Gəlir vergisini və mənfəət vergisini əvəzləyən dolayı vergilər artırılır (birinci növbədə aksizlər, o cümlədən əlavə edilmiş dəyərə, spirtli içkilərə, tütünə, benzinə vergilər).

Vergi sisteminin müasir yenidənqurulması ziddiyyətli səciyyə daşıyır. Vergi stimulları iqtisadiyyata, inflyasiyanın tempinin azaldılmasına müsbət təsir göstərirlər. Lakin işsizlik, struktur böhranları, ekoloji böhranlar kimi mənfi hallar qalmaqdadır. Qərb ölkələrinin vergi sistemi bütövlükdə təsərrüfat konyunkturasının tənzimlənməsinin mürəkkəb və səmərəli mexanizminin bir hissəsinə, müxtəlif mülkiyyət

növlərinin gəlirlilik səviyyəsinə, investisiyalara, müasir ETİ və təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi şəraitində milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin və səmərəliliyinin artırılmasına təsir edən çevik alətinə çevrilmişdir.

Bütövlükdə isə qeyd etmək olar ki, hər bir dövlətin vergi sistemi müxtəlif məqsədli çoxsaylı cürbəcür vergilərdən ibarət mürəkkəb mexanizmdir. Vergi sisteminin mürəkkəbləşməsi istər-istəməz vergi ağırlığını ədalət və səmərəlilik prinsiplərindən çıxış edərək müxtəlif kateqoriyadan olan vergi ödəyiciləri arasında bölüşdürmək istəyindən irəli gəlir.Praktikada bu prinsipləri uzlaşdırmaq mümkün deyil, çünki həmişə ədalətə görə səmərəliliyi və səmərəliliyə görə ədaləti qurban vermək lazım gəlir.

Lakin bir ölkənin vergi sistemi digər ölkənin vergi sistemindən daha səmərəli olur. Sistemin keyfiyyətini qiymətləndirmək üçün adətən aşağıdakı meyarlardan istifadə olunur:

1. İqtisadi neytrallıq vergi sisteminin səmərəliliyini əks etdirir. Bu meyarın köməkliyi ilə vergilərin istehlakçı və istehsalçıların bazar davranışına, həmçinin resursların bölgüsünün səmərəliliyinə təsiri qiymətləndirilir.

2. Təşkilati sadəliyi vergi sisteminin işləməsinə, o cümlədən vergilərin yığılmasına xərcləri müəyyənləşdirir. Bu xərclərə vergi sisteminin saxlanılmasına məsrəflər, ödəyicilərin odənilməli olan vergi məbləğinin müəyyənləşdirilməsi, onların büdcəyə dəyişdirilməsi və vergilərin düzgün ödənilməsinin sənədləşdirilməsi və s. bağlı vaxt və vəsait məsrəfləri daxildir.

3. Öhdəliklərin bərabərliyi müxtəlif iqtisadi vəziyyətdə olan vergi ödəyicilərinin onların anadangəlmə keyfiyyətlərinə görə deyil, fəaliyyətlərinin nəticələri ilə bağlı müəyyən meyarlara görə differensiasiyasını nəzərdə tutur. Ohdəliklər bərabərliyini həm şaquli istiqamətdə, həm də üfüqi istiqamətdə nəzərdən keçirirlər.

Şaquli bərabərlik müxtəlif qruplardan olan insanlara müxtəlif tələblər göstərilməsini nəzərdə tutur. Bir qayda

olaraq, gəliri aşağı olan adamlar daha az vergi verirlər.

Üfüqi bərabərlik eyni vəziyyətdə olan adamların eyni öhdəlikləri yerinə yetirmələrini nəzərdə tutur (yəni hər hansı bir diskriminasiyaya yer olmamalıdır).

Vergilərlə yanaşı dövlətin iqtisadiyyatın inkişafına mühüm təsir alətı ***dövlət xərcləridir***. Xərclər sistemi vasitəsilə milli gəlirin xeyli hissəsinin təkrar bölgüsü baş verir, dövlətin iqtisadi və sosial siyasəti həyata keçirilir. Bütün xərcləri aşağıdakı qruplara bölmək olar:

- hərbi;
- iqtisadi;
- sosial məqsədlərə;
- xarici iqtisadi və xarici siyasi fəaliyyətə;
- idarəetmə aparatının saxlanılmasına.

Vergilər və dövlət xərcləri fiskal siyasətin əsas alətləridir. ***Fiskal (büdcə-vergi) siyasəti*** – dövlət xərcləri və vergilərin dəyişdirilməsi yolu ilə iqtisadiyyatı tənzimləmə sistemidir. Fiskal siyasətin bununla bağlı məqsədləri şəkil 11.4-də aydın göstərilmişdir.

İqtisadi elmin fərqləndirdiyi fiskal siyasət tipləri şəkil 11.5-də verilmişdir.


Həm diskresion, həm avtomatik fiskal siyasət dövlətin tənzimləyici tədbirlərində mühüm rol oynayırlar, lakin nə biri, nə də digəri bütün iqtisadi bəlalardan qoruya bilmir. Avtomatik siyasətə gəldikdə, onun özündə yerləşən özünə xas tənzimləyicilər iqtisadi tsiklin artıb-azalmalarının ölçüləri və dərinliyini azalda bilirlər, lakin bu artıb-azalmaları tamamilə aradan qaldırmaq iqtidarında deyillər.

Diskresiya fiskal siyasətinin aparılmasında daha çox problemlər yaranır. Bunlara aşğıdakıları aid etmək olar:


qərarın qəbul edilməsi ilə onun iqtisadiyyata təsiri arasında zaman kəsiyinin olması;

inzibati gecikdirmələr;

stimullaşdırıcı tədbirlərə meyil (vergilərin azaldılması siyasi cəhətdən həvəslə istifadə olunan tədbirdir, amma vergilərin artırılması parlament üzvlərinin karyerasına son



Şəkil 11.4. Fiskal siyasətin məqsədləri



Şəkil 11.5. Fiskal siyasətin növləri

qoya bilər).

Bununla belə, həm avtomatik, həm də diskresion siyasətinin alətlərindən maksimum düşünülmüş istifadə ictimai istehsalın və məşğulluğun dinamikasına, inflyasiyanın templərinin azaldılmasına və digər iqtisadi problemlərin həll edilməsinə ciddi təsir göstərə bilər.

§5. Büdcə kəsiri və dövlət borcunun ümumi xarakteristikası

Dövlət büdcəsi gəlirləri və onun xərcləri prinsip etibarilə balanslaşdırıla bilərlər ki, bu halda iqtisadiyyatda ***büdcənin balansı*** yaranır, lakin belə vəziyyət reallıqda praktik

olaraq rast gəlinmir. Yeni Rusiyanın tarixində kəsirsiz büdcə 2001-ci ildə 1,193 trilyon rubl səviyyəsində qeydə alınmışdı.

Gəlirlərin xərcləri üstələməsi ***büdcə profisiti*** əmələ gətirir ki, o da müxtəlif məqsədlərə: dövlət borcunun ödənilməsinə və maliyyə ehtiyatının artırılmasına xərclənilir.

Federal büdcənin profisiti dövlət maliyyələrinə və pul tədavülünə sabitlik verir. XX əsrin ortalarından Qərb ölkələrinin çoxunun büdcəsi ***kəsirlə***, yəni xərclərin gəlirləri üstələməsi ilə başa vurulub.

Dövlət büdcəsi defisitini daha geniş mənada xərclərin və təmiz kreditləmənin gəlirlərin və dövlət maliyyələrinin müəyyən edilmiş formalaşma prinsiplərinə və xərclərin və gəlirlərin təsnifatına müvafiq olaraq rəsmi alınmış transfertlərin məbləğini üstələməsi kimi müəyyənləşdirmək olar. Kəsirin olması çox vaxt hər şeyin qaydasında olmadığının göstəricisidir və təhlil olunmağı tələb edir.

Böyük büdcə kəsirlərinin əsas səbəbləri sırasına aşağıdakıları aid etmək olar:

- *iqtisadiyyatın inkişafının tsiklik xarakteri* – tənəzzül fazasında bir tərəfdən ev təsərrüfatlarının və müəssisələrin gəlirlərinin azalması ilə əlaqədar olaraq vergi mədaxilləri azalır, digər tərəfdən isə əlavə sosial müavinətlərin ödənilməsinin zəruriliyi ilə əlaqədar olaraq dövlət xərcləri artır ki, bu da büdcə kəsirinin artmasına səbəb olur;

- *iqtisadiyyatın stimullaşdırılması üçün fiskal metodlardan istifadə*, hansılar ki firmaların investisiya fəaliyyətini fəallaşdırmaq və dövlət xərclərini artırmaq üçün vergilərin azaldılmasını nəzərdə tutur;

- *siyasi amillər*, o cümlədən hökumət üzvləri və qanunvericilik hakimiyyəti orqanlarının tərkibi, partiya mənsubiyyəti.

Büdcə kəsirinin təhlili zamanı belə bir sual doğur: büdcə kəsirindən qaçmaq və daim balanslaşdırılmış büdcəyə malik olmaq olarmı və ümumiyyətlə, büdcə kəsirinin və ya artıqlığının olmasına fikir vermək lazımdırmı? İqtisadi nə-

zəriyyədə bu problemə üç əsas konseptual yanaşma mövcuddur:

1. Hər il balanslaşdırılan büdcə.
2. İqtisadi tsikl daxilində balanslaşdırılan büdcə.
3. Funksional maliyyələr.

Bu metodların hər birinin həm müsbət, həm də mənfi cəhətləri var. Hər il balanslaşdırılan büdcə büdcə kəsirinin (kəsir olmadığı üçün) maliyyələşdirilməsi problemini yaratmır. Lakin o, iqtisadiyyatın özündə olan sabitliyi xeyli azaldır və tsiklik artıb-azalmaları gücləndirir. Bu onunla əlaqədardır ki, tənəzzül dövründə hökumət büdcəni balanslaşdırmaq üçün vergi dərəcələrini qaldırmalı olur, dirçəliş dövründə isə onları azaldır. Bu halda hökumətin fəaliyyəti artıb-azalmaların kəskinliyinin zəiflədilməsinə deyil, onların gücləndirilməsinə yönəldilmiş olur.

Büdcənin tsiklik zəmində balanslaşdırılmasına yönümlənmiş metod nəzərdə tutur ki, hökumət antitsiklik siyasət aparır və eyni zamanda büdcəni balanslaşdırır, yəni tənəzzül dövründə büdcə kəsirini artırır və dirçəliş dövründə yaranmış büdcə artıqlığı hesabına onu kompensə edir. Lakin iqtisadi tsikl daxilində dirçəliş və tənəzzüllər bir qayda olaraq uzunluğuna və dərinliyinə görə eyni olmur və iqtisadiyyatın tənzimlənməsi məsələsi büdcənin balanslaşdırılması məsələsi ilə ziddiyyətə girə bilər.

Funksional maliyyələr metodu belə bir ehtimala əsaslanır: iqtisadi siyasətin məqsədi yüksək məşğulluq səviyyəli və aşağı templi inflyasiyalı makroiqtisadi tarazlığın müəyyənləşdirilməsidir və əgər bu, büdcə kəsirinin yaranmasına səbəb olursa, onda iqtisadiyyat üçün təhlükəli deyil, yəni büdcə kəsiri ilə bağlı məsələlər makroiqtisadi sabitlik məsələləri ilə müqayisədə ikinci dərəcəlidirlər.

Dövlət büdcəsi kəsiri birmənalı hadisə deyil. Belə kəsirin ziyan olub-olmaması sualına dəqiq cavab yoxdur. Bundan başqa, keynsçi məktəbin nümayəndələri göstərirlər ki, nisbətən aşağı büdcə kəsiri yaxşıdır, çünki o, dövlət xərclərinin kəsirlə maliyyələşdirilməsi hesabına məcmu tələbi artırmağa

imkan verir. Bütövlükdə büdcə kəsirinin cəmiyyət üçün arzuolunan və ya arzuolunmayan olması sualına cavab vermək üçün hər halda iki problemi həll etmək lazımdır:

1) kəsirin tənəzzülün nəticəsi və ya dövlətin maliyyə siyasətinin nəticəsi olduğunu müəyyənləşdirmək;

2) kəsirin xüsusi investisiyalara azaldıcı və ya həvəsləndirici təsir etdiyini müəyyənləşdirmək.

Birinci suala cavab vermək üçün biz yeni anlayışlara - ***tsiklik və struktur kəsiri*** anlayışlarına müraciət etməliyik. Tsiklik kəsir istehsalın tsiklik düşməsinin nəticəsi olan büdcə kəsiridir, struktur kəsiri isə tənəzzülün qarşısının alınması məqsədilə hökumətin dövlət xərclərinin artırılması və vergilərin azaldılması üzrə tədbirləri nəticəsində yaranan büdcə kəsiridir. Birinci halda kəsiri şər adlandırmaq olar, çünki o, iqtisadi hərc-mərciliyin nəticəsi olub cəmiyyətin istehsal imkanlarından tam istifadə olunmadığını göstərir. Struktur kəsiri iqtisadiyyatın sabitləşdirilməsi üzrə sağlam dövlət siyasətinin məhsulu olarsa, iqtisadi konyunkturada kəskin artıb-azalmalara yol verilməməsi məsələsində xeyli faydalı ola bilər.

İkinci problem xüsusi investisiyaların sıxışdırılması effekti adlanan hadisə ilə bağlıdır. "Sıxışdırılma effekti"büdcə kəsirinin ödənilməsi metodu ilə əlaqədardır və bunlar arasında ən əsasları kredit pullarının emissiyası və dövlət istiqrazlarının buraxılmasıdır. Kredit pullarının emissiyasına gəldikdə, o, inflyasiyanı daha da gücləndirir, pul tədavülünün vəziyyətini pisləşdirir, iqtisadiyyat və sosial münasibətlər sahəsində ağır nəticələrə səbəb olur. Dövlət istiqrazlarının buraxılması isə müəyyən hallarda investisiyaların bir qismini istehsal prosesindən sıxışdırıb çıxarır. Necə? Dövlətin qiymətli kağızlarının buraxılması əhalinin pul vəsaitlərinin bir qismini buxovlayar, pul bazarı pula tələbin artmasına faiz dərəcəsinin yüksəldilməsi ilə cavab verər. Amma onun artması ayrı-ayrı fərdlərin investisiya imkanlarını azaldar və potensial investisiyaların bir hissəsini sıxışdırıb çıxarar. Lakin "sıxışdırma effekti" yalnız

yüksək məşğulluq səviyyəsi və resursların məhdudluğu zamanı böyük və dağıdıcı olur. Resurslarından tam istifadə olunmayan iqtisadiyyatda isə belə siyasət müvafiq pul siyasəti ilə uzlaşdırılarsa, xüsusi investisiyaları əslində sıxışdırmayacaq, stimullaşdıracaq.


Büdcə kəsirindən irəli gələn daha bir problem ***dövlət borcu problemidir.***

Dövlət borcu. İqtisadi nəzəriyyədə dövlət borcu ikili kateqoriyadır. Bu, bir tərəfdən, idarəetmə *obyekti*, dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olan makrokəmiyyətlərdən biridir. İdarəetmə strategiyasına bəzi məqsəd parametrlərinin müəyyənləşdirilməsi, oriyentirlərin seçilməsi və qarşıya qoyulmuş məqsədlərə çatmaq metodlarının işlənib hazırlanması daxildir. Məsələn, hökumət borcun səviyyəsini müəyyən astana səviyyəsinə qədər endirməyə, xidmətin dəyərini minimallaşdırmağa və s. cəhd edə bilər.

Digər tərəfdən, borc obyekt deyil, daha mühüm, məsələn, qeyri-inflyasiya tam məşğulluğun təmin edilməsi ilə əlaqədar makroiqtisadi tənzimləmənin aparılması, qısamüddətli dövrdə büdcə kəsirinin və müvafiq olaraq dövlət borcunun olması hesabına həll olunan sabit artım və ödəniş balansının tarazlığının əldə olunması üçün şəraitin yara- dılması kimi iqtisadi məsələlərin həll edilməsi üçün vasitə, yardımçı alət ola bilər. Bu halda borc yığılması hökumətin müəyyən hərəkətlərinin nəticəsidir və onun həcmi və strukturu zahiri (həmin hadisənin özünə nisbətən) parametrlərlə müəyyənləşdirilir.

RF Büdcə Məcəlləsinə görə dövlət borcu dövlətin aldığı borclardan (mənimsəmələrdən) irəli gələn öhdəliklər, üçüncü şəxslərin öhdəliklərinə görə Rusiya Federasiyasının öz üzərinə götürdüyü təminatlar (zəmanətlər), digər öhdəliklər, həmçinin üçüncü şəxslərin Rusiya Federasiyası tərəfindən öz üzərinə götürülmüş öhdəlikləridir.

İqtisadi nəzəriyyədə ***dövlət borcunu*** toplanmış büdcə kəsirindən büdcə artıqlığını çıxandan sonra qalan məbləğ də adlandırırlar. Əgər nəzərdən keçirilən dövrdə büdcə kəsiri-



Şəkil 11.6. Dövlət borcunun formaları

nin monetizasiyası aparılmamışdırsa, həmin tərif istifadə oluna bilər.

Dövlət borcu iki formada çıxış edir (şəkil 11.6).

Fərqləndirmə meyarı kimi çox vaxt borcun nəzərə alındığı valyuta – milli və ya xarici – çıxış edir. Lakin müasir şəraitdə – dünya iqtisadi proseslərinin qloballaşması, iqtisadi inteqrasiya, informasiya texnologiyalarının və şəbəkə kommunikasiyalarının inkişafı şəraitində borcun kimə məxsus olması mühüm amildir. Çox ola bilər ki, milli valyutada qeyd olunmuş borcun xeyli hissəsi qeyri-rezidentlərin (ölkə ərazisində yaşayan xaricilərin) əlində olsun. Bu halda daxili borcun "özümüzün özümüzə" borcumuzun olması prinsipi işləmir.

Qeyd etmək lazımdır ki, bəzi təhlil sahələri, məsələn, borcun yığılıb qalması və ya borc yükünün yerdəyişməsi prosesi üçün kreditor tipinin (xarici və ya daxili) elə bir fərqi yoxdur, borc kütləsi bütövlükdə əhəmiyyət kəsb edir. Daxili və ya xarici borc ümumi borcun tərkib hissəsidir və bu borc fəaliyyətin ümumi qanunauyğunluqlarına tabe olur və borcun hamısına təsir edən amillərin təsirinə məruz qalır. Bununla belə borcun ödənilməsi zamanı sərvətin yerdəyişməsi məsələləri, həmçinin xidmət göstərilməsi prosesi ilə bağlı problemlər borcun növündən asılı olaraq müəyyən spesifik xüsusiyyətlərə malik olurlar.

Dünya praktikası göstərir ki, ixrac mallarının kreditləməsində xüsusi banklar və dövlət təşkilatları daha sərt borc və kredit şərtləri qoyurlar. Adi kommersiya şərtləri (kredit müddəti, güzəştli dövr, faiz dərəcəsinin səviyyəsi) baxımından beynəlxalq maliyyə təşkilatlarının kreditləri və ikitərəfli inkişafa dəstək daha üstünlükverimlidirlər. Rusiya hökumətinin borc investisiyalarının cəlb edilməsi üzrə struktur siyasəti də bundan çıxış edərək qurulur.

Dövlət borcunun iqtisadi nəticələrini aşağıdakılarda ümumiləşdirmək olar:

xarici borca xidmət göstərilməsinin zəruriliyi; borcun həcmi böyük olduqda bu, həmin ölkə əhalisinin istehlak imkanlarının xeyli azalması deməkdir;

borc müəyyən qədər xüsusi kapitalın sıxışdırılmasına səbəb olur ki, bu da iqtisadiyyatın sonrakı inkişafını məhdudlaşdıra bilər;

artan dövlət borcunun ödənilməsi məqsədilə vergilərin artırılması iqtisadi fəallığın əks-stimulu qismində çıxış edir;

gəlirlərin dövlət istiqrazlarına malik olanların xeyrinə təkrar bölgüsü.

Bilavasitə dövlət borcunun nəticəsi həmin borcun idarə edilməsi sisteminin təşkil edilməsidir. **Dövlət borcunun idarə edilməsi** dedikdə dövlətin borc kapitalı bazarında konyunkturanın öyrənilməsi, yeni istiqrazların buraxılması və buraxılma şərtlərinin hazırlanması, əvvəllər buraxılmış istiqrazlara görə faizlərin ödənilməsi, istiqrazların konversiyası və konsolidasiyasının aparılması, dövlət krediti üzrə faiz dərəcələrinin müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin aparılması, həmçinin əvvəllər buraxılmış və artıq qüvvədən düşmüş istiqrazların ödənilməsi ilə bağlı hərəkətlərinin məcmusudur.

Dövlət istiqrazları adətən iki üsulla yerləşdirilir: yazılma qaydası və ya bankların vasitəçiliyilə (ən geniş yayılmış üsul). Dövlət istiqrazlarına əsas yazılanlar hökumət təşkilatları, kommersiya bankları, sığorta şirkətləri, sənaye korporasiyaları, xüsusi investorlar, yerli hakimiyyət orqanlarıdır. Dövlət borcunun və onun faizlərin ödənilməsi ya büdcə vəsaitləri hesabına, ya da ***təkrar maliyyələşdirmə***, yəni köhnə borc sahibləri ilə hesablaşmaq məqsədilə yeni borc istiqrazların buraxılması yolu ilə aparılır.

Dövlət borc istiqrazının ilkin şərtlərini dəqiqləşdirə bilər. Gəlirliliyə aid olan borc şərtlərinin dəyişdirilməsi *konversiya* adlanır. Borcun müddətləri ilə bağlı dəyişikliklər dövlət borcunun *konsolidasiyası* adlanır (qısamüddətli istiqrazların uzun və ortamüddətliyə çevrilməsi).


Dövlət borcu həcminin qiymətləndirilməsi. Dövlət borcu həcminin qiymətləndirilməsinin iki metodu mövcuddur: mütləq və nisbi kəmiyyətlərdə, özü də bu göstəricilərin dinamikası bir-birinin əksi ola bilər. Mütləq göstəricilər yığılmış öhdəliklərin nominal və ya real kəmiyyətini əks etdirirlər. Nisbi göstəricilər (borcun ağırlığının göstəricisi) arasında aşağıdakıları fərqləndirmək olar: 1) borc/ÜDM; 2) borc/əmtəə və xidmətlər ixracı.

Birinci göstərici cari ildə ÜDM-in hansı hissəsini qurban vermək hesabına borclardan tam qurtarmağın mümkün olmasını göstərir. Bu göstərici geniş yayılmışdır və dövlətin büdcə siyasətində oriyentir ola bilər. Belə ki, məsələn, Avropa Birliyinin üzv dövlətləri Maastrix müqaviləsinə əsasən borc/ÜDM nisbətini 60%-dən aşağı səviyyədə saxlamağa çalışırlar. İkinci göstərici daha çox xarici borca aiddir və dövlətin xarici dövlətlər qarşısında borcunu ixrac məhsulu hesabına ödəmək qabiliyyətini əks etdirir. Onun köməkliyi ilə bütün xarici borcu ödəmək üçün ixrac məhsulunun illik həcminin (və ya neçə ilin ixrac məhsulu) nə qədər olmasını qiymətləndirmək olar.

Nisbi və mütləq göstəricilərin dinamikasına gəldikdə isə artan iqtisadiyyatda borcun mütləq kəmiyyətinin artması zamanı nisbi kəmiyyət sabitləşə və ya hətta azala bilir. Artmayan (və ya "daralan") iqtisadiyyatda bu mümkün deyil və hətta borcun mütləq kəmiyyəti azaldıqda belə nisbi kəmiyyət arta bilir.

Dövlət borcu və büdcə kəsirinin qarşılıqlı əlaqəsi. Dövlət borcuna verilən tərifdən belə görünə bilər ki, borcla büdcə saldosu arasında birtərəfli əlaqə mövcuddur: kəsir borc kəmiyyətini artırır, profisit isə azaldır. Lakin bu göstəricilər arasında əlaqə daha mürəkkəbdir. Büdcə kəsirinin

olması pula tələbi artırır və faiz dərəcəsini artmağa təhrik edir, bu da borca xidmətin dəyərini artırır və büdcə kəsirinin artmasına səbəb olur. Bu proses *borcun özünü təkrar istehsalı* adını almışdır və şəkil 11.7-də daha ətraflı verilmişdir.



Şəkil 11.7. Büdcə resursları kəsirinin təkrar istehsalı

Keçid iqtisadiyyatlarının və inkişaf etməkdə olan iqtisadiyyatların çoxu üçün bu problem olduqca aktualdır, çünki iqtisadi vəziyyətlə müəyyənləşən müxtəlif səbəblərə görə ilkin və ikinci büdcə kəsirləri arasında xeyli fərq mövcuddur və bu, artmaqda olan dövlət borcuna xidmətin zəruriliyi ilə bağladır. Bu fərq büdcə gərginliyini gücləndirir, çünki hətta ilkin profisit mövud olduqda belə o, büdcə bölməsinə maliyyə vəsaitlərinin cəlb edilməsini və borcun artmasını tələb edir.

Şəkil 11.7-dən göründüyü kimi, alınmaların artmasına səbəb yalnız ilkin büdcə kəsiri deyil, həm də artan borca xidmətin zəruriliyinin özü də ola bilir. Bu halda borcun özünü təkrar istehsal prosesi, əgər hökumət onun tənzimlənməsi siyasətini aparmırsa, partlayış səciyyəsi kəsb edir. Sabitləşdirmə dedikdə borcun artımının dB=0 olduğu vəziyyət başa

düşülür.

Beləliklə. iri büdcə kəsirləri və onların doğurduğu dövlət borcu iqtisadiyyat üçün ölümcül olmasalar da, bir sıra ciddi problemlər yarada bilirlər. Buna görə də Qərb ölkələrinin çoxunun hökumətləri hazırda kəsirlə maliyyələşdirmə siyasətindən (büdcə kəsiri hesabına iqtisadiyyatın maliyyələşməsi) neoklassik nəzəriyyəyə əsaslanan büdcə siyasətinə keçmişdir. Dövlətin milli gəlirdən xüsusi bölməyə nisbətən daha az səmərəli istifadə etməsindən çıxış edərək, büdcə vasitəsilə təkrar bölgünün miqyası azaldılmalıdır. Yeni büdcə siyasəti öz əksini birinci növbədə dövlət büdcələrinin gəlir hissəsində tapmışdır. Əgər keynsçilər investisiyaların həm xüsusi, həm də dövlət xərclərinin artırılması hesabına stimullaşdırılmasına daha çox diqqət yetirirdilərsə, təklif konsepsiyası əsas diqqəti yığımın artırılmasına, istehsalın artmasına və investisiyaların genişləndirilməsinə yönəldir. Buna görə də yığıma, onların artırılması üçün stimulların tapılmasına xüsusi diqqət yetirilir. Bunun yollarından biri birbaşa vergilərin azaldılması, mütərəqqi vergidən proporsionala keçid və ya vergilərin mütərəqqilik dərəcəsinin azaldılmasıdır. Ölkələrin çoxunda vergi islahatları məhz bu istiqamətdə aparılmışdır.

Yığımın artımını stimullaşdıran vasitələrdən biri gəlir vergisindən istehlak vergisinə keçiddir ki, bu zaman gəlirin yalnız bir hissəsi, istehlaka sərf olunan hissəsi vergiylə əhatələnir, yığım üçün istifadə olunan hissəsindən isə vergi tutulmur.

Rusiyada yeni büdcə siyasəti büdcənin məxaric hissəsinə əsaslı təsir edərək dövlət xərclərini xeyli azaltmışdır. Bu ixtisar demək olar ki, bütünlüklə iqtisadi və birinci növbədə sosial maliyyələşdirmə hesabına aparılmışdır.

Əsas anlayışlar və məfhumlar

Maliyyə; maliyyələrin funksiyaları – bölgü, nəzarət, allokativ, tənzimləyici; dövlət maliyyələri; xüsusi müəssisələ-

rin və korporasiyaların maliyyələri; maliyyə siyasəti; C.M.Keynsin maliyyə konsepsiyası; neoklassik sintez konsepsiyası; yerli büdcələr; xüsusi hökumət fondları; vergilər; vergilərin funksiyaları – fiskal və iqtisadi; A.Smitin vergiqoyma prinsipləri; vergilər – birbaşa və dolayı, ümumi və xüsusi, proporsional, mütərəqqi və reqressiv; sosial sığorta fondu; vergi dərəcəsi; Laffer əyrisi; iqtisadi neytrallıq; təşkilati sadəlik; öhdəliklərin bərabərliyi; fiskal siyasət; fiskal siyasətin növləri və alətləri; büdcə kəsiri; tsiklik və struktur kəsirləri; daxili və xarici dövlət borcu; təkrar maliyyələşdirmə; konversiya; dövlət borcunun konsolidasiyası.

XII FƏSİL. SOSİAL SİYASƏT VƏ İQTİSADİYYATIN VƏ HƏYAT KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN SOSİAL-İQTİSADİ PROQRAMLARI

§1. Sosial siyasətin mahiyyəti.
§2. Cəmiyyətdə iqtisadi artım və həyat səviyyəsinin qarşılıqlı əlaqəsi.
§3. İqtisadiyyatın yüksəldilməsi və yoxsulluğun ləğvi üzrə sosial proqramlar.

Bazar iqtisadiyyatında gəlirlərin qeyri-bərabərliyi dövlətin onların təkrar bölgüsü prosesinə müdaxiləsini şərtləndirir. Təbii ki, sosial ödənişlərin ölçüləri dövlətin maliyyə sahəsindəki imkanları ilə razılaşdırılmalıdır. Bu və ya digər ölkədə gəlirlərin təkrar bölgüsünün konkret təşkili iqtisadi inkişafın səviyyəsi, siyasi qüvvələrin nisbəti, insanların konkret tarixi şəraitdə həmin ölkə üçün səciyyəvi olan istehlak stereotipləri ilə müəyyənləşir. Təkrar bölgü qarşısında duran məsələ bundan ibarətdir ki, o, eyni zamanda aztəminatlılar üçün hissedilən olmalı və istehsalın səmərəliliyinin azalmasına və bazar mexanizmlərinin ciddi deformasiyasına səbəb olmamalıdır. Bu məsələni sosial siyasət həll etməlidir.

§1. Sosial siyasətin mahiyyəti

Dövlətin sosial siyasətindən danışanda adətən *hökumətin cəmiyyətin müxtəlif üzvləri və qruplarının gəlirlərinin bölgüsü və təkrar bölgüsünə yönəldilmiş hərəkətləri nəzərdə tutulur.* Sözün geniş mənasında sosial siyasət cəmiyyətdə sosial sabitliyi təmin etməyə və ölkə əhalisi üçün mümkün qədər eyni «start şəraiti» yaratmalı olan makroiqtisadi tənzimləmə istiqamətlərindən biridir.

Sosial siyasət - dövlətin cəmiyyətdəki sosial proseslərin idarə edilməsi, maddi və mədəni tələbatların təmin edilməsi, cəmiyyətin hər bir üzvünə özünün şəxsiyyətin normal təkrar istehsalı və inkişafı üçün lazım olan sosial-iqtisadi hüquqlarını realizə etməyə imkan verən sosial

differensiasiya proseslərinin tənzimlənməsi üzrə fəaliyyətidir.

Sosial siyasəti həyata keçirmək üçün dövlət bir sıra, o cümlədən aşağıdakı məsələləri həll edir:

- sosial-əmək münasibətlərinin (əməkhaqqı, gəlirlər, qiymətlər, iş şəraiti və iş qüvvəsinin təkrar istehsalının) tənzimlənməsi;
- ictimai istehsalda iştirak etmək üçün iqtisadi stimulların yaradılması və qüvvədə saxlanılması;
- insanın və onun əsas sosial-iqtisadi hüquqlarının sosial müdafiəsi;
- məhsullarının keyfiyyəti və xarakteri əhalinin həyat fəaliyyətinin təkrar istehsalı və insanın hərtərəfli inkişafı şərtlərinə cavab verən sosial infrastrukturun (mənzil-kommunal xidmətləri, nəqliyyat, təhsil, səhiyyə) inkişaf etdirilməsi.

Sosial siyasətin mahiyyətinin müəyyənləşdirilməsi və dövlət tərəfindən işlənib hazırlanması «minimum istehlak büdcəsi», «yaşayış minimumu», «yoxsulluq səviyyəsi», «minimum əməkhaqqı» kimi kateqoriyalardan istifadəni nəzərdə tutur.

Minimum istehlak büdcəsi insanın fizioloji tələbatlarının ödənilməsi üçün lazım olan minimum ərzaq məhsulları, sənaye malları və xidmətlər dəstinin dəyəri ilə müəyyənləşdirilir. O, həqiqətən də elə minimum maddi təminatı təmin edir ki, ondan sonra yoxsulluq başlayır.

Minimum istehlak büdcəsi iş qüvvəsinin normal ictimai təkrar istehsalını təmin edən daha yüksək istehlak səviyyəsini səciyyələndirir. Onun səviyyəsi ölkənin sosial-iqtisadi inkişafı ilə birgə yüksəlir. Bu səviyyədə gəlir yaşlıların sağlamlığını saxlamağa və uşaqların normal inkişafı və tərbiyəsini təmin etməyə imkan verir. O, ölkədə qəbul olunmuş istehlak səviyyəsini , təhsil almağı, peşəyə yiyələnməyi, ailənin ev əldə etmək və ya onu kirayələmək imkanının olmasını, ayrı-ayrı uzunmüddətli istifadə əmtəələrinin əldə olunmasını təmin edir.

Yoxsulluq səviyyəsi gəliri yoxsulluq səviyyəsindən aşağı olan (bu zaman ailənin əsas tələbatları onları təmin etmək üçün lazım olan vəsaiti üstələyir) hissəsinin əhalinin miqdarını faizlə göstərir. Ailənin gəlir səviyyəsi ona tələbatlarını yaşayış minimumu səviyyəsində ödəməyə imkan verməyəndə ailə yoxsul hesab olunur. ABŞ-da yoxsulluq həddinin müəyyənləşdirilməsi üçün belə bir metodikadan istifadə olunur: əgər ailənin gəliri qidalanmaya xərclərin həcminin üç mislindən azdırsa, ailə yoxsul hesab olunur. Bu zaman nəzərə alınır ki, inkişaf etmiş ölkələrdə qidalanmaya xərclər məcmu istehlak xərclərinin üçdən birini təşkil etməlidir.Yoxsulluq həddindən aşağı səviyyədə yaşayanlar üçün qidalanma ailə büdcəsi xərclərinin əsas maddəsini təşkil edir.

Minimum əməkhaqqı - bu, əməkhaqqının qanunvericiliklə müəyyənləşdirilmiş minimum səviyyəsidir ki, bir qayda olaraq yaşayış minimumuna uyğun olmalıdır. Əgər müəssisə işçilərə qanunla müəyyənləşdirilmiş səviyyədə haqq ödəmək iqtidarında deyildirsə, o, müflis elan edilir və qanuna görə onu ləğv etmək lazımdır. Gəlirlərin istehsal amillərinə tələb və təklifin rəqabət mexanizmi əsasında bazar bölgüsü, hər bir amilin mükafatlandırılması onun son həddi məhsuluna müvafiq olaraq baş verir.

Bu mexanizm gəlirlərin bölgüsündə bərabərliyə təminat vermir və əslində inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə onların bölgüsündə xeyli bərabərsizlik müşahidə olunur.

Funksional və fərdi gəlir bölgüsünü fərqləndirmək qəbul olunmuşdur. Funksional bölgü milli gəlirin müxtəlif istehsal amilləri (əmək, kapital, torpaq, sahibkarlıq) sahibləri arasında bölünməsini göstərir. Bu halda bizi «milli kökənin» hansı hissəsinin əməkhaqqının, faizin, renta gəlirlərinin, mənfəətin payına düşməsi maraqlandırır. Fərdi bölgü – gəlirin ölkə vətəndaşları arasında onların hansı istehsal amillərinin sahibi olmalarından asılı olmayaraq bölgüsüdür. Bu halda biz milli gəlirin pulla ifadədə hansı hissəsini 10% ən yoxsul ailənin və 10% ən varlı ailənin payına düşməsini

təhlil edirik.

Sosial siyasətin mahiyyəti cəmiyyət üzvləri arasında əhalinin aztəminatlı qruplarına köməyə, yoxsulluğun azaldılmasına və bütün cəmiyyət üzvləri üçün məqbul rifah səviyyəsinə çatılmasına yönəldilmiş münasibətlərin tənzimlənməsindən ibarətdir. Sosial siyasət dövlət büdcəsindən maliyyələşdirilən sosial proqramların hazırlanması və həyata keçirilməsi, gəlirlərin təkrar bölgüsü, əhalinin məşğulluğunun tənzimlənməsi və s. yolu ilə həyata keçirilir.

Sosial siyasətin aparılmasının zəruriliyi yalnız gəlirlərin ilkin bölgüsündə amillər üzrə bölgü nəticəsində qeyri-bərabərliyin olması ilə deyil, həm də ailə büdcələrinin formalaşması və ailələrin strukturu, öhdədə olanlarla müstəqil gəliri olanların nisbəti ilə şərtlənir. Son nəticədə bölgüdə qeyri-bərabərlik çoxuşaqlı ailələrdə, əlillər və ya əmək qabiliyyəti olmayanlar olduqda, istehlakda qeyri-bərabərliklə dərinləşir. Bundan başqa, cəmiyyət inkişaf etdikcə təhsilin səviyyəsinə və iş qüvvəsinin inkişafına tələblər də artır. Elmi-texniki tərəqqi yaradıcı əməyi, işçinin innovasiyalı, yaradıcı potensialından istifadəni iqtisadi və sosial yüksəlişin əsas amilinə çevirir. Təhsil və səhiyyəyə tələbatlar elədir ki, onlar cəmiyyət nöqteyi-nəzərindən prioritetlidirlər və onların təmin edilməsini cəmiyyət öz nəzarətində saxlayır.

XX əsrin ikinci yarısı ərzində inkişaf etmiş ölkələrdə sosial siyasətin həyata keçirilməsi *sosial bazar təsərrüfatının* (və ya ümumi rifah) formalaşmasına səbəb oldu ki, burada əhalinin çox hissəsi üçün ixtisaslı əmək və yaradıcı fəaliyyət üçün zəmin yaradılması, şəxsiyyətin innovasiya potensialından istifadə və cəmiyyətin sosial sabitliyinin təmin edilməsi üçün lazım olan sabit rifah səviyyəsi təmin edilir.

Sosial bazar iqtisadiyyatı, təsərrüfat sisteminin xüsusi bir növü kimi, sadəcə olaraq əhalinin yüksək rifah səviyyəsi ilə səciyyələnmir. Onu *bu sistemin bütün elementlərinin fəaliyyətini sosial ədalət, müdafiə, yüksək həyat səviyyəsi və*

keyfiyyəti məqsədlərinin realizə olunmasına istiqamətləndirən sosial-iqtisadi institutlar dəsti fərqləndirir.

Yüksək həyat səviyyəli və böyük sosial xərcli iqtisadiyyatı bilavasitə sosial bazar iqtisadiyyatının özündən fərqləndirmək vacibdir. Birincisi çox yüksək maddi sərvət səviyyəsinə nail olmuş adi liberal cəmiyyətdir və buna görə də yoxsullara köməyə, səhiyyənin, təhsilin maliyyələşdirilməsinə və digər sosial məqsədlərə böyük məbləğdə vəsait ayıra bilir. Belə cəmiyyətə ən bariz misal ABŞ və Kanadadır. Lakin bu ölkələrin müxtəlif sosial qrupların maraqlarının uzlaşdırılmasının kifayət qədər güclü «özündə quraşdırılmış» mexanizmi yoxdur. Bunun əksinə olaraq, məsələn, Avstriya, Belçika və İsveçrə kimi kiçik Qərbi Avropa dövlətləri «sosial iqtisadiyyat» ölkələrinə aid edilə bilərlər, çünki onlar gəlir və həyat keyfiyyətinin mütləq göstəricilərinə görə aparıcı bazar iqtisadiyyatı dövlətlərindən geri qalsalar da, onların sosial-iqtisadi və hüquqi normaları əhalinin əsas hissəsi üçün sosial razılığın və yüksək həyat səviyyəsinin əldə olunmasına «köklənmişlər».

Müxtəlif ölkələrdə tətbiq olunan sosial-iqtisadi modellərə çatılmış inkişaf səviyyəsindən, tarixi yolundan və milli ənənələrindən asılı olaraq aşkar görünən spesifiklik xasdır.

Dörd əsas modeli fərqləndirmək olar.

Birinci model ənənəvi olaraq *kontinental* və ya *alman* modeli adlanır. Kontinental model Almaniyadan başqa, Avstriyada, Belçikada, Niderlandda, İsveçrədə, qismən Fransada tətbiq olunur. Bu model üçün büdcə vasitəsilə ÜDM-in təkrar bölgünün yüksək həcmi (50%-ə yaxın), işverənlərin hesabına sığorta fondlarının formalaşması, inkişaf etmiş sosial tərəfdaşlıq sistemi, tam və ya heç olmasa yüksək səviyyəli məşğulluğa can atma səciyyəvidir.

İkinci – ingilis-sakson modelidir və Böyük Britaniya, İrlandiya və Kanadada istifadə olunur. O, ÜDM-in büdcə vasitəsilə bölgüsünün daha aşağı səviyyəsini (40%-dən az), dövlətin məşğulluq siyasətinin əsasən passiv səciyyəli olmasını, sosial xidmətlərin göstərilməsində xüsusi ictimai şirkət

və təşkilatların xüsusi çəkisinin yüksək olmasını nəzərdə tutur. Burada qeyd etmək lazımdır ki, müxtəlif ümumi indekslər üzrə həyatın «rahatlığı» və keyfiyyətinə görə Kanada son illərdə dünyada birinci yerə çıxmışdır.

Cənubi Avropa ölkələrində (Yunanıstan, İspaniya və İtaliya) *üçüncü model – Aralıq dənizi modeli* həyata keçirilir. Büdcə vasitəsilə təkrar bölünən ÜDM-in səviyyəsi burada xeyli fərqlidir (Yunanıstan və İtaliyada az qala 60%-dən İspaniyada 40%-ə qədər). Sosial siyasət əsasən sosial müdafiəsi zəif olan vətəndaşlara ünvanlanır və ümumi səciyyə daşımır.

Nəhayət, *dördüncü – Skandinav modeli* İsveçdə, Danimarkada, Norveçdə və Finlandiyada tətbiq olunur (əslində bu model sosial deyil, sosial-demokratik bazar iqtisadiyyatlarına aiddir). Skandinav modelinə olduqca fəal sosial siyasət, sosial rifahın dövlətin iqtisadi fəaliyyətinin məqsədi kimi dərki, büdcə vasitəsilə təkrar bölünən milli sərvətin həcminin böyük olması (ÜDM-in 50-60%), sosial həmrəylik ideyasının həyata keçirilməsi və sosial siyasətin fəal qabaqlayıcı xarakteri xasdır. Sosial xərclərin maliyyələşdirilməsində əsas rolu dövlət oynayır və bu rolu həm mərkəzi hökumətin büdcəsi, həm də submilli büdcələr vasitəsilə həyata keçirir.

Sosial mühitə görə məsuliyyəti öz üzərinə götürən dövlət öz hərəkətlərinin ictimaiyyət tərəfindən olduqca ziddiyyətli qarşılanması məsələsi ilə üzləşir. Məsələ burasındadır ki, sosial tədbirlərin uğurla həyata keçirilməsi üçün külli miqdarda maliyyə vəsaiti lazımdır. Onların mənbəyi vergilərdir. Buradan da belə bir qanunauyğunluq irəli gəlir: sosial nemətlərin səviyyəsi nə qədər yüksək olarsa, vergiqoyma bir o qədər sərt olmalıdır.

Sosial siyasətin ən mühüm istiqamətləri

İnkişaf etmiş ölkələrdə sosial siyasətin aparılması praktikası onun həyata keçirilməsinin bir neçə istiqamətini doğurmuşdur. Bunlara aiddirlər:

- sosial sığorta;
- əhalinin sosial müdafiəsi;
- əməkhaqqı sahəsində siyasət;
- əmək bazarında sosial tədbirlər;
- mənzil siyasəti.

Sosial sığorta – məcburi xüsusi ödənişlər əsasında təşkil olunmuş pul ödəncləri sistemidir. Sığorta ödənclərinə aiddirlər: işsizliyə, müvəqqəti əmək qabiliyyətsizliyinə, hamiləliyə görə ödənclər, həmçinin qocalığa, əlilliyə, ailə başçısını itirməyə görə təqaüdlər və s. Sığortanın xüsusiyyəti ödənclərlə sığorta xidmətlərinin həcmi arasındakı sıx əlaqədədir. Ödənclərin həcmi fərdi ödənclərin həcmindən asılıdır. Sosial sığorta üzrə bütün ödənişlər əməkhaqqı ilə əlaqələndirilir və onun həcminin faizi şəklində həyata keçirilir. Sığortanın bu kimi prinsipi bazar prinsiplərinə cavab verir. Dünya praktikasında sığortanın iki növü mövcuddur: xüsusi (könüllü) və dövlət (məcburi).

Sığorta fiziki və hüquqi şəxslərin mülkiyyət maraqlarını müdafiə etmək və uğursuz hallar və hadisələr üz verdikdə onların maddi itkilərinin əvəzini ödəmək üçün məqsədli pul vəsaitləri fondlarının formalaşması və istifadəsi üzrə təkrar bölgü münasibətlərinin xüsusi sahəsini təşkil edir.

İctimai təkrar istehsal prosesində sığortanın mühüm rolu dövlətin iqtisadi inkişaf tipinə müvafiq sığorta xidmətləri bölməsinin olmasını nəzərdə tutur. Bazar təsərrüfatı şəraitində təbiət xarakterli fövlqəladə hallardan (zəlzələ, torpaq sürüşmələri, sel və s.) və texnogen (yanğınlar, qəzalar, partlayışlar və s.) risklərdən müdafiə üzrə ənənəvi sığortanın imkanlarından istifadə ilə yanaşı sahibkarların maliyyə və kredit öhdəliklərinin pozulması, kontragentlərin ödəniş qabiliyyətli olmaması və mənfəət və gəlirin itirilməsinə səbəb olan digər iqtisadi amillərin təsirindən meydana gələn zərərlərin sığorta hesabına ödənilməsinə tələbatları artır. Vətəndaşların həyatının, sağlamlığının, əmək qabiliyyətinin və maddi rifahının sığorta mühafizəsi də onların iqtisadi maraqları ilə sıx bağlıdır və əmlak, şəxsi və sosial

sığorta xidmətləri vasitəsilə həyata keçirilir. Sığorta xidmətləri məcburilik və ya könüllülük əsasında təqdim oluna bilir.

Əhalinin *sosial müdafiəsi* üzrə tədbirlər sırasında dövlət pensiyaları mühüm yer tutur. Pensiya təminatının sosial əhəmiyyəti olduqca böyükdür - o, 37 milyona yaxın qocaların, əlillərin və ailə başçısını itirmiş ailələrin üzvlərinin həyat əhəmiyyətli maraqlarına toxunur.

Hazırda Rusiyanın dövlət pensiya sistemi 1992-ci ildə qiymətlərin pensiyanın alıcılıq qabiliyyətinin dəstəklənməsi istiqamətində təsirli tədbirlərlə müşayiət olunmayan kəskin sıçrayışının doğurduğu böhran yaşayır.

Əmək bazarına nisbətdə sosial siyasət hər şeydən əvvəl dövlətin iş qüvvəsinə tələbə təsir göstərmək imkanları ilə bağlıdır. Bundan başqa, bu bazara təsir ölkədə xarici iş qüvvəsindən istifadəyə aid hüquq normalarının dəqiqləşdirilməsi vasitəsilə aparılır. Tənzimləmə bəzi işçi qruplarının əmək bazarına çıxış imkanlarının azaldılması yolu ilə də (məsələn, pensiya yaşının azaldılması vasitəsilə) aparıla bilər. Bundan başqa, dövlət maraqlı orqanları onun vəziyyəti barədə məlumatlandırmaqla da əmək bazarına təsir edə bilər. Dövlət iqtisadiyyatda struktur dəyişiklikləri ilə əlaqədar işçilərin yenidən hazırlanması sisteminin təşkilini və maliyyələşdirilməsini öz üzərinə götürməklə də bu bazara ciddi təsir göstərir.

Əməyin ödənilməsi sahəsində sosial siyasət differensiasiya edilmiş şəkildə həyata keçirilir. İxtisaslaşdırılmamış əmək sahəsindəki işçilərə münasibətdə minimum əməkhaqqı səviyyəsi təsbit olunur ki, onu bundan aşağı səviyyədə ödəməyə icazə verilmir. Dövlət qanunların köməkliyi ilə əməyin haqqının ödənilməsinin ritmini də müəyyənləşdirir (məsələn, hər 14 gündən bir və ya ayda bir dəfə).

Əməkhaqqı siyasəti bəzi hallarda onun son həddi səviyyəsinin müəyyənləşdirilməsini və müəyyən zaman kəsiyi ərzində dəyişilməməsini nəzərdə tutur. Əməkhaqqının artım tempinə də məhdudiyyət qoyulması mümkündür. Bu tədbir-

lər inflyasiyanın qarşısının alınması və tədiyyə balansı sahəsində çətinliklərin aradan qaldırılması üçün tətbiq olunurlar.

Lazımi yaşayış şəraitinin təmin edilməsi siyasəti mənzil kirayələyən işçilərə kömək məqsədilə büdcədən vəsait ayrılması yolu ilə aparılır. Lakin alternativ variant da var: dövlət mənzil tikintisini həvəsləndirmək iqtidarındadır. Məsələn, ərazi hakimiyyət orqanları nisbətən ucuz yaşayış komplekslərini tikir və gəlirləri aşağı olan ailələrə icarəyə verirlər, xüsusi tikinti kooperativləri tərəfindən tikilmiş mənzillərdən istifadə olunur. Dövlət hərdən tikinti təşkilatlarına pulsuz torpaq sahəsi ayırır, onlara güzəştli kreditlər verir və ya onlara daha yüngül vergilər tətbiq edir. Dövlət adətən sahibkarların kirayəyə verdikləri yaşayış sahəsindən aldıqları gəlirlərinin son həddi məbləğini müəyyən etməklə mənzil haqqının həcmini müəyyənləşdirir və ya torpağı xüsusi mülkiyyətdən pulla alıb onları dövlət mənzil tikintisi üçün istifadə edir.

Əhalinin gəlirlərinə dövlətin təsiri onun institusional əsasları ilə bağlıdır.

Əhali gəlirlərinin tənzimlənməsinin *institusional əsası* kimi sistem dəyişikliklərinin həyata keçirilməsi, sosial sabitliyin və əhalinin gəlir səviyyəsi aşağı olan qrupunun gəlirliliyinin qənaətbəxş səviyyədə saxlanılması üçün nəzərdə tutulmuş ən iri pul fondu olan dövlət büdcəsi çıxış edir. Bu mənada büdcə bazar müvazinətinin müəyyənləşdirilməsində qiymət mexanizminin oynadığı rolu oynayır.

Keçid iqtisadiyyatında əhali gəlirlərinin dövlət tənzimləmə metodlarından sistemli istifadəyə əməkhaqqının, vergiqoymanın, gəlirlərin indeksasiyasının və transfert ödənişlərinin tənzimlənməsi daxildir.

Əməkhaqqına dövlət təsiri minimum əməkhaqqının həcminin müəyyənləşdirilməsi yolu ilə həyata keçirilir. Xüsusi sahibkarlıq sahəsində işçilər və işverənlər (və dövlət) arasında sosial tərəfdaşlıq adı almış ikitərəfli (üçtərəfli) xüsusi razılaşmalar qüvvədə olur.

Əhali gəlirlərinin dövlət tənzimləməsinin növbəti və heç də daha az əhəmiyyətli olmayan aləti *mütərəqqi vergilərdir*. Vergiqoyma dövlət tənzimləməsinin dolayı metodudur.

Vergi tənzimləməsi dedikdə əhalinin gəlirlərinin bir qisminin ümumdövlət ehtiyaclarının ödənilməsi məqsədilə müəyyən faiz dərəcələri üzrə dövlət tərəfindən tamamilə öz sərəncamına götürməsidir.

Əhali gəlirlərinin dövlət tənzimləməsinin daha bir aləti onların indeksasiyasıdır.

Əhali gəlirlərinin indeksasiyası dedikdə inflyasiyanın artması şəraitində əhalinin pul gəlirlərinin istehlak qiymətlərinin artmasına və əhalinin alıcılıq qabiliyyətinin saxlanılmasına uyğunlaşdırmaq məqsədilə istehsal olunmuş ictimai gəlirin bölgüsünün bazar qanunauyğunluqlarının realizə olunması üçün zəruri olan dövlət mexanizmi başa düşülür. Gəlirlərin indeksasiyası, bir tənzimləmə aləti kimi, qiymətlərin artması nəticəsində gəlirlərin itirilməsini kompensasiya etməyə təyinatlanıb.

İndeksasiya mexanizmindən istifadə onun əsas elementlərinin (indeksin, dəqiqləşdirmənin forması və dövriliyinin seçilməsi) cəmiyyətin və dövlətin iqtisadi imkanlarının alınması ilə əvvəlcədən hesablanılmasını nəzərdə tutur.

İndeksasiya həm dövlət büdcəsi hesabına, həm də büdcədənkənar fondlar hesabına həyata keçirilir.

Müasir bazar şəraitində əhalinin gəlirlərinin tənzimlənməsi vasitəsi qismində transfertlər də çıxış edə bilir. *Transfert-gəlir* və ya əmlakın bir hissəsinin təmənnasız verilməsidir. Dünya praktikasında sosial transfertlərə mütəxəssislərin münasibəti eyni deyil. Belə ki, XX əsrin 60-70-ci illərində transfert ödənişlərinin artması müsbət hadisə kimi qiymətləndirilirdi və əhali gəlirlərinin tənzimlənməsində dövlətin rolunun artdığını göstərirdi. Hazırda transfertlərin tənzimləyici rolunun azalmasına meyil get-gedə daha aşkar görünməkdədir. Bundan başqa, bir sıra xarici mütəxəssislər hesab edirlər ki, transfert ödənişlərinin artması əhaliyə zərər vurur, çünki həyat qüvvələrinə zərbə vuran «narkotik»

rolunda çıxış edir.

Hazırda Qərb ölkələrinin sosial siyasətində ağırlıq mərkəzi passiv transfertlərdən (birbaşa pul ödənişlərindən) dövlətin təhsilə, elmə, səhiyyəyə, insan kapitalına investisiyaları ilə bağlı xərcləri ilə əlaqədar fəal transfertlərə keçir.

Sosial müdafiəlilik

«Sosial müdafiə» anlayışının özünün təyin edilməsinə müxtəlif yanaşmalar var. Bəzən ona insanın sosial mühitinə aid hər şeyi – sağlam ətraf mühiti, uşaqlara qayğını, mənzil və nəqliyyat problemlərinin həllini - daxil edirlər. Bu yanaşma XX əsrin 70-ci illərində «həyat keyfiyyəti» anlayışı meydana gələndə təşəkkül tapmışdı. Təəssüf ki, bu yanaşma ümumi olmadı və sosial müdafiə əsasən xeyli dar mənada dərk edilərək pensiya təminatı və işləməyənlərə qayğı ilə məhdudlaşdırılır. Son dövrlərə qədər bizim ölkənin sosial siyasəti belə yanaşmaya əsaslanırdı.

Lakin hələ xeyli əvvəl, ötən əsrin 40-cı illərinin sonu-50-ci illərinin əvvəllərindən yoxsulların sosial müdafiəsi üçün geniş tədbirlərin görülməsinin zəruriliyini bəyan edən «rifah dövləti» (Welfare state) konsepsiyası bir çox ölkələrin rəsmi doktrinası olmuşdur. Amma demək olar ki, sosial dəstək siyasəti Qərb ölkələrində Welfare State tədbirlərindən xeyli əvvəl aparılmağa başlamışdı: hələ XIX əsrin sonu – XX əsrin əvvəllərində Almaniyada Bismarkın, Böyük Britaniyada Dizraelin sosial islahatları, ABŞ-da Ruzveltin "Yeni kurs"u həyata keçirilmişdi. Ölkə vətəndaşlarının minimum həyat standartının saxlanılmasına dövlət məsul elan edilirdi.

"Rifah dövləti" proqramına həm əhalinin bütün təbəqələrinə aid olan sosial sığorta proqramları, həm də ən az təminatlı ailələrin gəlirlərinin dəstəklənməsi üçün tədbirlər sistemi: qocalığa, xəstəliyə görə sığorta, işsizliyə görə müavinət; uşaqlı natamam ailələrə, korlara, əmək qabiliyyəti olmayanlara və b. özündə ərzaq talonlarını, mənzil təminatını, digər sosial xidmətləri birləşdirən əlavə dövlət yardımı

proqramları daxildir. "Rifah dövləti" proqramlarında transfertlərə xüsusi rol ayrılır.

1955-ci ildə BƏT-in sosial təminatın minimum normaları haqqında olan 102 saylı Konvensiyası qüvvəyə mindi ki, məhz ilk dəfə bu sənəddə özündə doqquz əsas növü: tibbi xidmət, işsizliyə görə müavinət, qocalığa görə təqaüd, ailə başçısının itirilməsinə görə müavinət, hamiləliyə və doğuşa görə müavinət, istehsalda alınan zədələrə görə müavinət, əlilliyə görə müavinət, xəstəliyə görə müavinət, ailə müavinətlərini - ehtiva edən "sosial müdafiə" məfhumu işlədildi. Konvensiya əsasında hər bir ölkənin özünün sosial təminat sistemi formalaşdı.

"Sosial müdafiəlilik" və "sosial təminatlar" anlayışlarını dəqiq müəyyənləşdirmək lazımdır.

Sosial müdafiəlilik – bütövlükdə dövlət və onun ayrı-ayrı qurumları tərəfindən vətəndaşların ictimai-normal maddi və sosial vəziyyətinin sabitliyinin təmin edilməsi üzrə həyata keçirilən tədbirlər sistemidir. *Sosial təminatlar* – cəmiyyətin öz üzvləri qarşısında onların bir sıra zəruri tələbatlarının müəyyən qədər ödənilməsinə görə öhdəlikləridir. Sosial müdafiəlilik sosial təminatla müqayisədə daha geniş məfhumdur, çünki ona yalnız dəqiq öhdəliklər deyil, həm də yardım tədbirləri də daxildir; məsələn, təbii və sənaye fəlakətlərindən zərər çəkənlərə kömək proqramlarının hazırlanmasını sadələşdirərək sosial təminatlara çevirmək mümkün deyil. Təəssüf ki, təminatlılıq onlarda bir qayda olaraq çox deyil, amma sosial müdafiəlilik aşkar görünür.

Ədalətlilik baxımından vətəndaşların yalnız onların maraqlarının digər şəxslər və sosial təbəqələr tərəfindən təzyiqlərdən və qəsdlərdən mühafizə edilməsi mənasında deyil, həm də qeyri-iradi, obyektiv olaraq uğursuz gəlmiş, rifah üçün zərərli şəraitlərdən müdafiəyə ehtiyacı var. Məsələn, əgər təbii xəstələnmə insanı əmək qabiliyyətindən məhrum edirsə, bu halda kiminsə bəd niyyəti yoxdur, amma sosial müdafiə zəruridir.

Sosial müdafiəlilik və sosial təminatlar əməyin səmərə-

liliyinin artırılmasında marağın azaldılmasına, hamının bərabərləşdirilməsinə, əməkdə fərqlə obyektiv olaraq şərtlənən gəlirlərdəki differensiasiyanın aradan qaldırılmasına səbəb olmamalıdırlar. Sosial müdafiəlilik və sosial təminatlar cəmiyyətin inkişafının sürətləndirilməsinə rəvac verməli, onu ləngitməməli, oturub hazır nemətlər gözləmək əhval- ruhiyyəsinə səbəb olmamalıdırlar.

Sosial siyasət cəmiyyətin inkişafı və iqtisadi artımı ilə sıx qarşılıqlı əlaqədə və qarşılıqlı şərtlənmədədir.

§2. Cəmiyyətdə iqtisadi artım və həyat səviyyəsinin qarşılıqlı əlaqəsi

Rusiya iqtisadiyyatının islahat illəri ərzində ilk dəfə olaraq hakimiyyət orqanları tərəfindən prioritet istiqaməti insan kapitalına investisiyalar olan iqtisadiyyatın resurs təminatı məqsədli proqramı təklif olunmuşdur. İqtisadiyyatın səhiyyə, təhsil, mənzil, aqrar istehsal kimi əsas nöqtələrindən iqtisadi artıma yeni təkan vermək planlaşdırılır. Bu sahələrə qısa müddət ərzində böyük büdcə vəsaitləri – ÜDM-in 0,5%-i yönəldilir.

Hakimiyyətin məramlarının ciddiliyini bu halda ondan da görmək olar ki, qeyd olunan milli layihələrin həyata keçirilməsi üçün hətta Rusiya hökumətində dəyişiklik edilmiş, onun tərkibinə baş nazirin müavini vəzifəsində D.Medvedev daxil edilmiş və milli layihələrin yerinə yetirilməsinə görə məsul şəxs məhz o olmuşdur.

Təşkilati-idarəetmə baxımdan milli layihələr nəsə yeni bir şey deyildir. Zənnimizcə, onlar nəzəriyyədə "məqsədli kompleks proqramlar" (ölkə təcrübəsində "məqsədli federal proqramlar" məfhumu daha çox işlədilir) adı altında məlum olan məqsədli-proqram planlaşdırılması metodlarının praktik həyata keçirilməsi formalarından biridir. Bu kimi proqramların həyata keçirilməsi strateji menecment prinsiplərinə əsaslanır və resursların proqramın həyata keçirilməsi üçün məsul olan müxtəlif orqanlar arasında parçalanıb paylaşdırılmasına yol verməyib, onları bir əldə cəmləməyə və xərclər – nəticə əlaqəsini aşkar izləməyə imkan verir.

Belə milli proqramlar bir vaxtlar Avropa və Asiya ölkələrinin çoxunda hazırlanmışdı. Məqsədyönlü investisiya qoyuluşdarı son dövrlərdə Böyük Britaniya, Almaniya və Yaponiyada iqtisadi artımı təmin etmişlər. Cənubi-Şərqi Asiya dövlətlərinin iqtisadiyyatının struktur yenidənqurmaları da bu yolla aparılmışdır.

Vəsaitlərin Rusiya iqtisadiyyatına məqsədli yönəldilməsi bir çox amillərlə şərtlənmişdir. Bu, birinci növbədə *əhalinin təbii azalması* prosesinin davam etməsi ilə bağlıdır. 1992-ci ildə ölkədə 148 milyon adam yaşayırdı. Doğumların azalmasının dinamikası və ölümlərin səviyyəsinin yüksək olması onunla nəticələnəcək ki, 2015-ci ildə Rusiyada cəmi 130 milyon adam yaşayacaq. İkincisi, bu, əməyin ödənilməsindəki (əməkhaqqında) böyük fərqlər, şəxsi gəlirin bölgüsü, əmək məhsuldarlığının aşağı olması ilə əlaqədardır.

İqtisadi artımın tempi aşağı düşür, iqtisadiyyatın mədən və "ağırlaşdırılmış" sahələrində yüksək inhisar səviyyəsi saxlanılır, əmək məhsuldarlığı, qeyd olunduğu kimi, aşağıdır. Ölkədə 10% ən varlılarla 10% ən kasıbların gəlirləri arasında fərq 15 dəfəlik həddi ötüb keçmişdir. Mülkiyyətə transformasiyaların daha aşkar göründüyü Moskvada bu fərq, bəzi hesablamalara görə, 45 dəfəyə qədərdir. Rusiyadan fərqli olaraq sosial aləmə və güclü orta sinifə yönümlənmiş inkişaf etmiş ölkələrdə gəlir səviyyələri arasında fərq yüksək deyil və yoxsulların sayı onlarda azdır.

Yoxsulluqla məqsədli mübarizə proqramlarında yalnız yüksək əməkhaqqı nəzərdə tutulmur, həm də ölkə daxilində əmtəə və xidmətlərə tələb stimullaşdırılır. Məlum olduğu kimi, gəlirlərin dövlət tənzimləməsindən imtina və paternalist dövlət müdafiəsi sistemi şəraitində əhalinin həyat keyfiyyətində neqativ meyillər Rusiyanın sabit iqtisadi artıma keçidi yolunda maneə olurlar.

Cəmiyyətin müxtəlif sosial qruplarının gəlirinin həcmi ilə iqtisadi artım qarşılıqlı əlaqədardır. Bu əlaqələr həm gə-

lirlərin səviyyəsinin yığımın formalaşdırılması vasitəsilə iqtisadiyyata mümkün investisiya qoyuluşlarının həcminin müəyyənləşdirildiyi birbaşa, həm də əks ola bilir. Ümumi daxili məhsulun artımı nə qədər çox olarsa, əhalinin gəliri və əhalinin hər nəfərinə düşən ÜDM payı da bir o qədər çox olar.

Əslində, ÜDM-in bölgüsü və hər nəfərə düşən xalis gəlir haqqında faktik verilənlər gəlirlərin differensiasiyasını, əmlak differensiasiyasını və sərvət bölgüsünü əks etdirir. Bu nisbətlər müxtəlif ölkələrdə fərqlidir.

Son illərdə RF-da sərvətin differensiasiya səviyyəsi artır. Bu, mülkiyyətdən gələn gəlir payının artması, bir də gəlirlərin inflyasiya yenidən bölgüsü ilə şərtlənir. Amerika həftəliyi Forbs-un verdiyi məlumatlara görə, 2005-ci ildə Rusiya milyarderlərinin sayı 2003-cü ilə nisbətən 17-dən 100-ə qədər artmışdır. Ən varlı Rusiya biznesmenlərinin şəxsi sərvəti dəyərinə görə ölkənin bütün sərvətinin dörddə birinə bərabərdir.

Rusiya iqtisadiyyatı üçün yalnız kapitalın sahibkarların əlində yüksək təmərküzləşməsi deyil, həm də yığılmış kapitalın istehsalın sonrakı genişləndirilməsi üçün istifadə olunması imkanlarının məhdudluğu səciyyəvidir. Təəssüf ki, onun çox hissəsi xaricə aparılır və inkişaf etmiş bazar iqtisadiyyatı dövlətlərinin banklarına yerləşdirilir və başqa ölkələrdə bahalı daşınmaz əmlak və əmtəələr alınmasına xərclənir.

Əhalinin çox hissəsi isə əmtəələri yalnız daxili bazarla alır və yalnız qismən yığım edir. Hesablanmışdır ki, əhali əmtəə və xidmətlər alınmasına bir ayda 1 trilyon, bir ildə isə 12 trilyon rubl xərcləyir.

Məhz bu xərclər əmtəə və xidmətlərə məcmu bazar tələbini formalaşdırırlar və məhz bu da istehsal artımına təkan verir. Ot günəşə doğru boy atdığı kimi sənaye istehsalı da tələb dinamikasının ardınca gedir. Əhalinin gəlirləri və əməkhaqqı nə qədər yüksək olsa, tələb səviyyəsi də bir o qədər yüksək olar. Əhali gəlirləri ilə istehsalın artım imkanları

arasındakı qarşılıqlı əlaqələrin birinci vacib istiqaməti belədir.

Tələb özü-özlüyündə strukturuna, növlərinə, xarakteri və istehlakçıların zövqünə görə müxtəlif olur. Onun strukturu elmi-texniki tərəqqidən, elmin inkişafından, zövqlərdən, modadan və s. asılıdır. Amma tələbə həlledici təsiri özü də müxtəlif amillərin təsiri altında formalaşan gəlirlərin differensasiyası edir. Bu amillərin çoxu insanın şəxsi xüsusiyyətləri ilə əlaqədardır. Onların əsasında iqtisadi, demoqrafik, sosial və siyasi məqamlar dayanır.

Qeyri-bərabər bölgünün səbəblərindən biri fiziki, intellektual qabiliyyətlərdə, təhsildə, əməksevərlikdə, peşə təşəbbüskarlığında, ailənin tərkibi və ölçülərindəki və s. fərqlərlə şərtlənir.

Modelindən asılı olmayaraq istənilən real mövcud olan cəmiyyətdə tələb və gəlir arasındakı fərq əhalinin əmlak statusunu və əmtəə və xidmətlərə tələb növlərini formalaşdırır. Son nəticədə öz statusuna görə əhali yoxsullara, varlılara və orta sinifə bölünür. Bu qrupların hər birinin maddi və sosial nemətlərə öz spesifik fərqli tələbi, həmçinin səhiyyəyə, təhsilə, istirahətə, turizmə və s. tələbatı olur.

Dövlətlərin inkişaf təcrübəsi göstərir ki, əhalinin gəlirlərinin çox hissəsi, 50%-ə qədəri və hətta daha artığı əmtəə və xidmətlərin alınmasına sərf olunur. Bu rəqəm ABŞ-dakı 68%-dən İsveç və Rusiyadakı 52%-ə qədər dəyişir. Aztəminatlı ailələrin gəlirləri əsasən ərzağa və ən vacib gündəlik tələbat mallarına xərclənir.

Hesablamalara görə, Rusiyada orta ailə gəlirinin yarısına qədərini qidalanmaya xərcləyir, amma inkişaf etmiş ölkələrdə qidalanmaya 8%-dən 18%-ə qədər sərf olunur. Özü də Rusiya Federasiyasında ət istehlakı islahatöncəki 1990-cı ildəki istehlakın cəmi 56%-ni, ərzaq məhsulları istehlakının həcmi isə göstərilən ildəkinin cəmi 72%-ni təşkil edir. Tibbi statistikaya görə, son illərdə Rusiya əhalisinin qidalanmasının keyfiyyəti kritik səviyyəyə düşmüşdür ki, bu zaman sağlamlığı saxlamaq hələ ki, mümkündür, lakin əhalinin bəzi

qrupları üzrə xroniki zülal çatışmazlığını müşahidə etmək olar. Orta ailənin gəlirinin təqribən 24%-i məcburi xidmətlərin ödənilməsinə (MKT, müalicə xərclərinin ödənilməsi, avtonəqliyyatın sığortası, məktəblərdə və uşaq bağçalarında pul yığımları) sərf olunur.

Gəlirlər artdıqca əhalinin paltara, uzunmüddətli istifadə əşyalarına, istirahətə, əyləncələrə xərcləri artır, vəsaitin bir qismi isə yığım kimi saxlanılır.

Yığım gəlirin istehlak xərclərindən sonra istifadə olunmayıb qalan hissəsidir. Yığıma meyil gəlirlərdəki dəyişikliklərlə, iqtisadi müstəqilliyin təmin edilməsi, həmçinin gələcək xərclərin həyata keçirilməsi ilə şərtlənir. Kommersiya-kredit təşkilatlarında əmanətlərin çoxalması son illərdə artır.

Yığım iqtisadiyyat üçün şəksiz investisiya resursları mənbəyidir. Yaxın perspektiv üçün əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasında ən mühüm məsələlərdən biri investisiya resurslarının çatışmazlığı problemini kompensə etməyə imkan verən likvidlikli və sivil yığım pulları bazarının formalaşdırılmasından ibarətdir.

Beləliklə, əhalinin maddi vəziyyəti, gəlirləri və iqtisadiyyatın artım tempi arasındakı qarşılıqlı əlaqə və qarşılıqlı şərtlənmə məcmu tələb və əhalinin yığımın formalaşması vasitəsilə həyata keçirilir. Gəlirlər, əməkhaqqı və ödənişlər nə qədər çox olarsa, əmtəə və xidmətlərə tələb, investisiya yığımının məbləği bir o qədər çox olar.

İqtisadiyyatın artıma ümumi meyilini ləngidən amillərdən biri əhalinin xeyli hissəsinin yoxsulluğudur. Həyat səviyyəsinin tədqiqinin ictimai planlaşdırılması institutunun məlumatlarına görə, Rusiyada əhalinin 15%-ni yuxarı sinif adlandırılanlar (idarəçilər, sahibkarlar, intellektuallar), 25%-ni orta sinif təşkl edir, qalan 60%-i isə yoxsulluq və səfalət zonasının payına düşür. Onların şəxsi gəlirləri ayda 25-110 dollar arasındadır. Bu, əsasən kənd bölgəsi əhalisi, dövlət bölməsində işləyənlər və pensiyaçılardır.

Yoxsulluq yalnız iqtisadi deyil, həm də böyük sosial problemdir. İqtisadi inkişafın templərini ləngidən yoxsulluq

ölkə iqtisadiyyatının arzuolunmaz komponentinə, xüsusi davranış normasına, spesifik qeyri-formal instituta çevrilir. Bu ondan irəli gəlir ki, bu kateqoriyadan olan adamların bütün təsərrüfat fəaliyyəti inkişafa və yığım etməyə deyil, sağ qalmağa yönümlənir, onlar praktik olaraq yeni fəaliyyət növlərinə və yeni istehlak standartlarına keçmirlər. Belə institusional mühit iqtisadiyyatın sürətlə artımına rəvac vermir, çünki yoxsul ölkədə istehlaka yüksək meyil formalaşır.

Əhalinin yoxsul təbəqələri əmək sərfi sahəsində rasional işləməyin zəruriliyinin aşağı sosial dərkinə yönümlüdürlər. Nəticədə onlar 5-7 ilə praktik olaraq ixtisaslarını itirirlər, özlərinə nəsə almaqda qənaət edirlər, onlarda özlərinin qüsurlu olmaları və inamsızlıq hissi yaranır.

Məlumdur ki, azödənişli əmək ən az məhsuldar olandır, o iqtisadi artımı ləngidir və stimullaşdırmır. Beləliklə, yoxsulluq bir tərəfdən mənfi institusional makroiqtisadi nəticələrə səbəb olur, digər tərəfdən isə onun özü institusional, mənəvi davranış normalarının nəticəsi olmaqla gəlirlərin, ÜDM-in artım tempini ləngidən, investisiya fəallığını azaldan amil kimi çıxış edir.

Buna görə də iqtisadiyyatın sonrakı islahatı prosesində ölkə əhalisinin iqtisadi mentallığının tədricən yoxsulluqdan «təmizlənməsinə» istiqamət götürmək lazımdır. Bu sosial-iqtisadi bəlanı aradan qaldırmaq üçün yalnız bazar tənzimləyicilərindən istifadə və əhalinin bazar şəraitinə uyğunlaşması kifayət deyil. İqtisadiyyatın bütün sahə və strukturlarında, birinci növbədə isə səhiyyədə, təhsildə, aqrar bölmədə, mənzil təsərrüfatında və tikintidə çalışan əhalinin pul gəlirləri və əməkhaqqının artırılmasının dövlət strateji proqramlarının hazırlanması lazımdır.

§3. İqtisadiyyatın yüksəldilməsi və yoxsulluğun ləğvi üzrə sosial proqramlar

Rusiya iqtisadiyyatı elə bir inkişaf mərhələsindədir ki, bu zaman təsərrüfatın ən mühüm sahələrinə əmək sərfini stimullaşdırmaq üçün strateji manevr şəraitləri formalaşmışdır. Hökumət tərəfindən 2006-2007-ci illər üçün təhsil, səhiyyə, mənzil tikintisi və sənaye kompleksinin inkişaf etdirilməsində prioritet milli layihələr hazırlanmışdır (bax cədvələ). Bu, «Müasir səhiyyə», «Keyfiyyətli təhsil», «Əlyetər mənzil», «Səmərəli kənd təsərrüfatı» layihələridir.

Nəzərdə tutulmuş sahələrdə RF-nın milli layihələrinin qarşısındakı məsələlərin həllinin əsas iqtisadi zəminini əməkhaqqının artması təşkil etməlidir. Ölkədə orta aylıq əməkhaqqı 2005-ci ilin əvvəlinə 8651 rubl təşkil edirdi, həkim və müəllim 5000 rubldan bir qədər artıq əməkhaqqı alırdı, kəndli isə 3847 rubl alırdı ki, bu da inkişaf etmiş ölkələrdə bu qəbildən olan işçilərin əməkhaqqı səviyyəsindən 7 dəfə azdır. Hazırda həkimlərin əməkhaqqı ayda 10000 rubla, tibb bacılarınınkı isə 5000 rubla qədər artırılmışdır.

Rusiyada millətin sağlamlığı ilə bağlı yaranmış böhranlı vəziyyət hamıya yaxşı məlumdur. Bizim iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən xeyli geri qaldığımız xəstələnmələrin, uşaq ölümlərinin və s. ağır göstəricilərindən başqa, Rusiya səhiyyəsinin keyfiyyətinin ən bariz indikatoru həyatın orta müddətidir. Belə ki, «orta» Rusiya kişisi hətta pensiya yaşına belə çatmır. Halbuki səhiyyənin inkişafı və proqnozlaşdırılan həyat müddəti insanın inkişafının indeksinin hesablanmasında beynəlxalq statistikada nəzərə alınan həyat keyfiyyətinin mühüm indikatorlarıdırlar. İslahatların başlandığı dövrdən ilk dəfədir ki, milli layihədə tibb dövlət siyasətinin prioritet sahələrindən biri adlandırılmışdır.

Bu milli layihənin ən mühüm tərkib hissələrindən biri kimi yalnız onun «zahiri effekti» deyil, həm də tibb işçilərinin əməkhaqqı sisteminə yenidən baxılmasından ibarət olan «daxili effekti» də çıxış edir. Gəlirlərin aşağı olması polikli-

Cədvəl 12.1

Rusiyanın milli layihələri

Layihə	Mahiyyət	Maliyyələşdirmə 2006-cı ilda, mlrd. rubl	Maliyyələşdirmə 2006-2007-ci illərdə, mlrd.rubl.
Təhsilin keyfiyyəti	Sinif rəhbərliyinə görə əlavə ödəniş – ayda 1000 rubla qədər; ən yaxşı müəllimlərə qrantlar – hər biri ildə100 min rubl; şagirdlərə qrantlar – hər biri ildə 60 min rubl;2500 məktəb və ali məktəb üçün kompyuter sinifləri	22	41,3
Müasir səhiyyə	Səhə həkimlərinin əməkhaqqının 10 min rubla qədər; sahə tibb bacılarının əməkhaqqının 5 min rubla qədər artırılması; bahalı əməliyyatların sayının ildə 250 minə qədər artırılması; 12 min «təcili yardım» maşınının alınması	57,9	145,8
Əlyetər mənzil	İpoteka kreditləri verilməsinin 7,5 dəfə artırılması; tikintinin 37% artırılması; MKT aşınmasının 60%-dən 51%- dək endirilməsi	21,9 (o cümlədən əməkhaqqına -12,8)	110,2
Səmərəli kənd təsərrüfatı (aqrar-sənaye kompleksinin inkişaf etdirilməsi)	Heyvandarlıq komplekslərinin inkişafına kreditlər üzrə faizlərin 2/3 və fermerlər üçün kredit faizlərinin hamısını ödəməyi dövlət öz üzərinə götürür; cins mal-qara alınmasına iki il ərzində 8 milyard rubl ayrılır; avadanlıq alınmasına gömrük haqqı ləğv edilir	14,2	30,9

nika və xəstəxanalardan tibbi personalın kütləvi şəkildə getməsinə səbəb olmuşdur. Hazırda Rusiyada sahə həkimlərinin orta yaşı 52 il təşkil edir. Onların əksəriyyətinin qadın olduğu nəzərə alınsa, üç ildən sonra Rusiya ümumiyyətlə bu kateqoriyadan olan tibbi personalsız qala bilər.

Milli tibbi layihənin ikinci istiqaməti ölkə tibb qurumlarının texniki yenidən təchizatıdır ki, ona müvafiq olaraq 10000 bələdiyyə poliklinikasının yeni diaqnostik avadanlıqla təchiz olunması nəzərdə tutulur. Standart avadanlığın – laboratoriya və tədqiqat (rentgen, ultrasəs və s.) – təmiri və dəyişdirilməsinə 30 milyard rubla qədər xərcləmək nəzərdə tutulmuşdur. Gözlənilir ki, nəticədə ilk tibbi yardımın keyfiyyəti yüksələcək və bu da istər-istəməz xəstəlik nəticəsində əmək itkiləri dinamikasına müsbət təsir edəcək və deməli, iqtisadi artım amillərindən biri kimi nəzərdən keçirilə bilər.

Bundan başqa, Rusiyanın regionlarında tibbi xidmətin əsas istiqamətləri: kardiocərrahiyə, travmatologiya, transplantologiya, neyrocərrahiyə və reproduktiv texnologiyalar üzrə 15 yeni yüksək texnoloji tibbi mərkəzlərin tikilməsi planlaşdırılır.

Ölkə səhiyyəsinin, əsasən onun ilk pilləsinin resurs bazasının möhkəmləndirilməsi əhalinin aztəminatlı təbəqələri üçün yüksək səviyyəli tibbi xidmətin əlyetərliliyinin artırılması ilə nəticələnəcək.

Milli insan kapitalı keyfiyyətini və əhalinin həyat səviyyəsini müəyyənləşdirən əsas məqamlardan biri təhsil sisteminin inkişafı və ölkə əhalisinin savad səviyyəsidir. Təəssüf ki, Rusiyada təhsilin maliyyələşdirilməsi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən 6-8 dəfə geri qalır.Bunun bilavasitə nəticəsi məktəbli və tələbələrin, həmçinin mütəxəssislərin hazırlığının qənaətbəxş olmamasıdır.

İqtisadiyyatın innovasiya inkişafı üçün təhsil sisteminin əhəmiyyətini dərk edən Rusiya hökuməti onun büdcədən maliyyələşdirilməsini ardıcıl olaraq artırır. Belə ki, əgər 2000-ci ildə təhsil xərcləri 32,1 mlrd. rubl təşkil edirdisə, 2002-ci ildə bu rəqəm 80,1 mlrd. rubl (nominal artım 2,5 dəfəyə yaxın), 2005-ci ildə isə 119,3 mlrd. rubl (2000-ci illə

müqayisədə artım 3,7 dəfə, 2002-ci illə müqayisədə az qala 1,5 dəfə təşkil etmişdir) olmuşdur. Lakin maliyyələşdirmənin artmasına baxmayaraq, ekspertlərin fikrincə, o hələ də kifayət qədər deyildir. Və məsələ yalnız pulda deyil: həm orta, həm də ali təhsilə bir sistem kimi vahid yanaşma yoxdur.

«Keyfiyyətli təhsil» layihəsinə görə təhsil sistemində rəqabətliliyi, yarışmanı inkişaf etdirmək, ənənəvi olaraq dövlət tərəfindən tənzimlənən bu sahəyə rəqabət elementlərini gətirmək təklif olunur. Məsələn, innovasiya təhsil proqramları müsabiqəsi çərçivəsində 30 ali və 6000 orta məktəb hər il pul qrantları alacaq. Hər il ən təşəbbüskar və qabiliyyətli məktəbli, tələbə və aspirantlar üçün 5000 fərdi qrant ayrılması planlaşdırılır.

Həmçinin keyfiyyətli təhsilin əlyetərliyinin artırılması üçün də tədbirlər görülməsi nəzərdə tutulur. Bu, Moskva və Sankt-Peterburqda dünya səviyyəli biznes-məktəblərin, həmçinin Cənub və Sibir federal dairələrində iki yeni milli universitetin yaradılmasıdır. Bizim fikrimizcə, bu tədbirlər təhsil sahəsində rəqabətliyin artmasına səbəb olacaq ki, bunu da iqtisadiyyatın və bütövlükdə cəmiyyətin innovasiya inkişafına, həyat keyfiyyətinin yüksəldilməsinə, qiymət-keyfiyyət «koordinatlarında» təhsil xidmətlərinin təkmilləşdirilməsinə rəvac verə biləcək müsbət meyil kimi qiymətləndirmək olar.

Təhsil sisteminin informasiya təminatının inkişaf etdirilməsi istiqamətində xeyli iş görülməsi planlaşdırılır ki, bura məktəblərin internet şəbəkəsinə qoşulması (2 il ərzində 20000, belə ki, 2008-ci il üçün məktəblərin 50%-i qoşulmalıdır), məktəblilərin dərsliklərlə təmin edilməsi, distant təhsil sisteminin inkişaf etdirilməsi, elektron tədris resurslarının yaradılması və s. daxildir.

Səhiyyə sahəsindəki milli layihədə olduğu kimi, burada da təhsil sitemi personalının əməyinin əlavə maliyyələşdirilməsinə böyük diqqət yetirilir. Burada da eyni ideologiya gözlənilir – əsas diqqət aşağı pillələrə yetirilir. Müəllimlərin əməkhaqqı (real), bütün büdcə sahələrində olduğu kimi, üç il

ərzində 1,5 dəfə artmalıdır, lakin əməyin ödənilməsi qaydalarında dəyişikliklər ediləcək.

Yeni sxemin əsas ideyası müəllimin əməkhaqqını onun fərdi işinin keyfiyyətindən və bütövlükdə məktəbin işinin keyfiyyətindən asılı etməkdir. Bundan başqa, bir milyona yaxın sinif rəhbəri əlavə pul ödənişləri, hər il ölkənin 10000 nəfər ən yaxşı müəlliminin hər biri 100000 rubl mükafat alacaq. İxtisaslı elmi işçinin orta əməkhaqqı 30000 min rubla qədər artmalıdır.

Göstərilən tədbirlər istənilən dövlət üçün ən mühüm sosial qruplardan birinin - orta və ali məktəb müəllimlərinin sosial müdafiəsini gücləndirməyə, onların gəlirlərini artırmağa və sosial statusunu qaldırmağa imkan verəcək.

Lakin, zənnimizcə, milli təhsil layihəsində Rusiya Federasiyasında yaşayan adamların mədəni birliyinin təmin edilməsi kimi element öz əksini tapmamışdır. Burada problem belədir. Sabit iqtisadi artım meyili fonunda (1998-ci ilin maliyyə böhranı və rublun devalvasiyasından sonra) əhalinin təbii artımı mənfi olan Rusiyada iş qüvvəsinin permanent çatışmazlığı hiss olunur. Onu qısamüddətli dövrdə (uzunmüddətli dövrdə daha məqbul demoqrafik göstəricilərə nail olmağa cəhd etmək lazımdır) yalnız bir üsulla – əmək immiqrasiyasını stimullaşdırmaq hesabına həll etmək olar.

Lakin yaxınlarda Fransada baş vermiş hadisələr (2005-ci ilin oktyabrı) göstərdi ki, intensiv miqrasiya milli təhlükəsizlik üçün ciddi təhlükədir: miqrantlar yaşadıqları ölkədə mədəni assimilyasiyaya heç də həmişə cəhd etmirlər, özlərini aqressiv apara bilirlər ki, bu da hətta daxili silahlı münaqişələrə səbəb ola bilir. Görünür, təhsil layihəsi çərçivəsində miqrantların təhsili üçün xüsusi tədbirlər işlənib həyata keçirilməlidir ki, bu sahədə mövcud olan ziddiyyətlər aradan qaldırıla bilsin.

Rusiyalılar üçün ən kəskin problemlərdən biri mənzil problemidir. Son 20 ildə dövlətin bu istiqamətdə mütəmadi etdiyi cəhdlərin heç biri uğurla nəticələnməmişdir. Mənzil tikintisi həcminin xeyli böyük olmasına baxmayaraq, ölkə əhalisinin çoxu üçün mənzil iqtisadi baxımdan əlçatmazdır.

Problemi yalnız bazar metodları ilə həll etmək mümkün olmadı. Yuxarıda qeyd etdiyimiz kimi, gəlirlərin xeyli böyük differensiasiyası şəraitində yalnız öz vəsaitlərinə və ya borc alınmış vəsaitə (bir qayda olaraq əmlakın girov qoyulması və ya gələcək gəlirlərin təminatı hesabına) əhalinin 20%-dən az hissəsi mənzil ala bilər.

Vəziyyətdən yeganə çıxışı biz büdcə maliyyələşdirilməsi həcminin artırılmasında görürük. «Əlyetər mənzil» layihəsinə görə o, dövlət təminatları və birbaşa xərclər şəklində ildə 100 mlrd rubl təşkil edə bilər. Özü də vəsaitlərin əsas hissəsinin gənc ailələrin mənzillə təmin edilməsinə yönəldilməsi nəzərdə tutulur. Mühüm yenilik mənzillə təmin edilmə mexanizminin dəyişilməsidir: mənzilə ehtiyacı olan vətəndaşlara mənzil əvəzinə pul subsidiyaları veriləcək. Bundan başqa, kommunal infrastrukturun inkişafı, köhnəlmiş fondun boşaldılması və s. daxil olmaqla mənzil sahəsi problemlərinin kompleks həlli nəzərdə tutulur.

İpoteka qiymətli kağızlarının buraxılması və dövriyyəsinin təşkili üçün lazım olan qanunların sürətlə təkmilləşdirilməsi təklif olunur, bütün səviyyələrdən olan büdcələr qarşısında isə yeni mənzil tikintisi üçün torpaq sahələrinin mühəndis infrastrukturu ilə təchiz edilməsi üçün pul ayırmaq məsələsi qoyulur. Mənzil tikintisi sahəsində qanunvericilik və normativ-hüquqi bazanın təkmilləşdirilməsi xüsusilə vacibdir, çünki əks təqdirdə vətəndaşların və dövlətin ipoteka üzrə mənzil alınması üçün xərcləri tikinti inhisarlarına «ötürülə» bilər. Bunun üçün torpaq sahələrinin əlyetərliyini genişləndirmək, istehsalçıların rəqabətini stimullaşdırmaq, dövlət subsidiyaları və ipoteka vəsaitlərinin vasitəçi-bölüşdürücülərin əlinə keçməsinə yol verməmək lazımdır. Mənzil layihəsində, zənnimizcə, tənzimlənməmiş və kifayət qədər işlənilməmiş qalan məsələlər tikinti sənayesi müəssisələrinin istehsal bazasının inkişafı, şəhərlərdə torpaq bazarının formalaşması, ipoteka kreditləməsi və bir sıra başqalarıdır.

Rusiyalıların həyat keyfiyyəti və səviyyəsinə ərzaq təhlükəsizliyi ciddi təsir göstərir ki, bu da ölkənin özünü zəruri olan ərzaqla nə dərəcədə təmin edə bilməsindən asılıdır.

Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin çoxu (ABŞ, Fransa, Yaponiya və b.) öz kənd təsərrüfatı istehsallarını fəal müdafiə edirlər.

Aqrar-sənaye kompleksində himayədarlıq məsələləri hətta iqtisadi məqsədyönlülüyün zərərinə belə həll olunur, çünki hesab olunur ki, ölkənin ərzaq təhlükəsizliyi daha vacib problemdir. Buna görə də təsadüfi deyil ki, DTT, AŞ və digər iri beynəlxalq birləşmələr çərçivəsində ərzaq və digər kənd təsərrüfatı məhsulları ilə ticarət qaydalarının müəyyənləşdirilməsi, bu sahənin tarif və qeyri-tarif tənzimlənməsi ən mühüm problemlərdən biridir.

Rusiya üçün ərzaq təhlükəsizliyi əsas etibarilə ölkə istehsalı olan qida məhsulları ilə təminatdan ibarətdir. Bu məsələnin həlli üçün ölkənin xeyli və kifayət qədər rəngarəng təbii şəraitləri olan torpaq sahələri vardır: Rusiyada hər adambaşına 1,4 ha kənd təsərrüfatı sahəsi, o cümlədən 0,8 ha əkin yeri düşür.

Ərzaq təhlükəsizliyi göstəricilərinin monitorinqini apararaq qeyd etmək olar ki, islahatların aparıldığı illər ərzində Rusiyada kənd təsərrüfatı istehsalının həcmi kəskin şəkildə azalmışdır (bu, orta hesabla 45% təşkil edir ki, bu da Böyük Vətən müharibəsi illərindəki 40%-dən çoxdur).

«Səmərəli kənd təsərrüfatı» layihəsinə görə 2 ilə kənd təsərrüfatına 30 mlrd rubl ayrılır. Prioritet sahələr kimi heyvandarlığın inkişafı və kiçik təsərrüfatçılıq formalarının stimullaşdırılması göstərilmişdir. Birinci prioritetin seçilməsi əlbəttə ki, rusiyalıların zülallı ərzaqdan kifayət qədər istifadə etməmələri barədə yuxarıda verilmiş göstəricilərlə şərtlənmişdir.

İkinci prioritetə gəldikdə isə, xırda kənd təsərrüfatı biznesi və şəxsi həyətyanı sahələr hazırda ölkədə istehsal olunan ətin 50%, tərəvəzin 80% və kartofun 90%-ini verirlər. Bazar şəraitində rəqabət qabiliyyətli olmalarını sübut etmiş bu kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi lazımdır.

Bu tədbirlərin əsas xüsusiyyəti kəndin problemlərini kompleks həll etmək cəhdidir ki, bu da istehsal və sosial in-

frastrukturlarının inkişafı, qazlaşdırma, gənc mütəxəssislər üçün mənzil tikintisi (subsidiyalaşdırılması), idxal məhsullarından tariflə müdafiə və s. ilə bağlıdır.

Texniki yenidən təchizetmənin sürətləndirilməsi məqsədilə ölkədə analoqu olmayan xarici avadanlıqların ölkəyə gətirilməsinə gömrük haqlarının xeyli azaldılması və ləğv edilməsi nəzərdə tutulur.Məhz bu yolla Rusiya iqtisadiyyatı və elminin texnoloji cəhətdən yenidən təchizatının sürətləndirilməsinə nail olmaq olar.

Sosial sahədə əməkhaqqının artırılması, bəzi iqtisadçıların və ictimai xadimlərin söylədikləri kimi, sənaye istehsalının artması ilə nəticələnməyib, yalnız inflyasiyanı artıracaq. Bu, onların fikrincə, Sabitləşdirmə fondunun, özü də ölkədə infrastrukturla investisiya qoyuluşlarının dəstəklənməsi institutlarının yaradılmadığı bir vaxtda, «israf olunmasına» bərabərdir. Əslində isə iqtisadiyyatın müxtəlif sahələrinin qarşılıqlı şərtlənməsi istər-istəməz qonşu istehsal sahələrinin dinamikasına təsir edəcəkdir.

Əhalinin hər nəfərinə düşən ÜDM-in həcminə görə inkişaf səviyyəsi Rusiya kimi olan ölkələrin təcrübəsi göstərir ki, sosial sahədə əməyin stimullaşdırılması və haqqının artırılması qonşu və infrastruktur təsərrüfat sahələrinin dinamikasına müsbət təsir göstərəcəkdir. Bu xərclərin çoxu bir-iki ildən sonra qonşu mövqelər üzrə xərclərin artmasına səbəb olacaqlar.

Belə ki, məsələn, səhiyyə klinikalarının avadanlıqla təchiz edilməsinə investisiya xərcləri avtomatik olaraq ilkin materiallar və avadanlıqların istehsalına xərclərin artması, yeni tibbi mərkəzlərə xidmət göstərən personal üçün iş yerlərinin yaradılması ilə nəticələnəcək. Sonra, avadanlığın, yeni «təcili yardım» avtomobillərinin və s. alınması əlavə xidmətlər göstərilməsini, benzin, qarajların tikilməsini və s. tələb edəcək. Beləliklə, milli layihələr yerinə yetirildikcə çoxsaylı multiplikativ effektlər müşahidə olunacaq (tikinti, avtomobil və b. kompaniyalar üçün əlavə sifarişlər, əlavə məşğulluq və s.).

Kütləvi təhsilin bazis sistemlərinə dövlətin diqqəti

müəllimin statusunu və məktəbin keyfiyyətini qaldıracaq. Bunun üçün, fikrimizcə, dövlət proqramlarında nəzərdə tutulduğundan daha çox vəsait lazım olacaq. Gələcəkdə, görünür, artırılmış dəyər xarakteristikalı, uzunmüddətli sosial proqramlar hazırlamaq, xərclərin səmərəliliyini və onların proqram məqsədlərinə çatmağın məqsəd və alətlərinə adekvatlığını müəyyənləşdirmək lazım gələcək.

Sosial sahənin inkişafının milli layihələrinin yerinə yetirilməsi naminə mənfəətlərin mənzil tikintisinə, təhsil strukturlarına, səhiyyəyə və aqrar sahədə iqtisadi artımın təmin edilməsinə təkrar investisiya qoyuluşu zamanı ekvivalent vergi güzəştləri zəminində regionların və yerli hakimiyyət institutlarının rolu güclənir.

Qeyd etmək lazımdır ki, islahatların aparılması və transformasiya edilməsi sahəsində ölkə və xarici təcrübələr göstərdi ki, hakimiyyət orqanlarının təşəbbüsü ilə hazırlanan sosial proqramlar milli sosial-iqtisadi sistemin həyat tsiklinin strukturlaşmasına mühüm elmi yanaşma, Rusiyanın iqtisadi inkişafının yeni konstruksiyası və iqtisadiyyatın idarə edilməsi sahəsində konstruktiv formadır. Bu kimi proqramlar vaxtı ilə bir çox dövlətlərdə tətbiq olunmuşlar. Onlar üçün səciyyəvi cəhət budur ki, belə proqramlarda həmişə əsas resursdan – ixtisaslı istehsalçının əməyindən - istifadə məqsədi qoyulur. Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, onun həyatının keyfiyyətinin dəyişdirilməsi insana ən səmərəli kapital qoyuluşudur.

Qeyd edilməlidir ki, prezident və hökumət tərəfindən nəzərdə tutulmuş proqramlar iqtisadiyyatın əsaslı sağlamlaşdırılması və iri sosial məsələlərin həllində ilk çıxış nöqtələridir. Onların həyata keçirilməsi insanın həyat şəraiti və tərzinin islahatının bundan sonra da davam etdirilməsinə kompleks yanaşmanı tələb edir.

Transformasiya prosesləri nəticəsində baş vermiş dəyişikliklər əhalinin gəlirlərinin eybəcər deformasiyasına, heyvan mənşəli zülal istehlakının aşağı düşməsinə, alkoqol istehlakı həcminin mütləq artımına, doğumların azalmasına, sui-qəsdlərin və sosial həyatda bir sıra digər neqativ hadisə-

lərin artmasına səbəb olmuşdur.Onların həlli və aradan qaldırılması uzun müddət və böyük maddi resurslar tələb edir. Bu hadisələrin mənbələrinin və nəticələrinin aradan qaldırılması bütövlükdə cəmiyyət qarşısında uzun zaman kəsiyində duran strateji məsələləri təşkil edir.

Yaxın perspektivdə sərf olunmuş əməyin ödənilməsindəki pozulmaları ləğv edərək əmək resurslarının təkrar istehsalı üçün ictimai normal şəraitləri təmin etmək lazımdır. Əməyin haqqının ödənilməsinin ictimai normaları xeyli aşağıdır. Ən aşağı əməkhaqqı Rusiyadadır. Əgər əmək məhsuldarlığına görə biz ABŞ-dan 5-6 dəfə geri qalırıqsa, əməkhaqqının səviyyəsinə görə bu gerilik 10 və daha artıq dəfə təşkil edir. ABŞ-ın ÜDM-də əməkhaqqının payı 70%, Yaponiyada – 74,6%, Rusiyada isə cəmi 3% -dir. Və nəticədə Rusiyada muzdlu işçi öz diləncı əməkhaqqını qiymətləri dünya qiymələrinə çatmaqda olan məhsul və xidmətlərə dəyişməyə məcburdur[1].

Fərdi gəlirlərin təkrar bölgü mexanizminin məntiqini dövlət formalaşdırmalı və bunun üçün özündə olan sabitləşdiricilərdən və vergi sistemindən istifadə etməlidir.

Hazırda Rusiyada gəlir vergisi bütün əməkhaqqı alan vətəndaşlar üçün 13% təşkil edir ki, bu da kölgə gəlirlərini üzə çıxartmaq və gizlədilən gəlirlərin xeyli hissəsini bu zəmində leqallaşdırmaq məqsədi ilə tətbiq olunmuşdu. Amma xüsusi sahibkarlıq sahəsində gəlirlər yalnız qismən leqallaşmışdır. Buna görə də belə verginin tətbiqi ölkə əhalisinin gəlirlərinin differensiasiyasını daha da dərinləşdirdi. Məlumdur ki, bazar iqtisadiyyatı ölkələrində əməkhaqqı iş qüvvəsi əmtəəsinin dəyərinə bərabərdir, bizim ölkəmizdə isə bu problemlər bir sıra iqtisadi və institusional səbəblərdən hələ də həll edilməmişlər.

Görünür, birincisi, iş qüvvəsinin təkrar istehsalının minimum tələbatını təmin edən gəlirlərdən vergi tutulmasından imtina etmək və gəlir vergisi tutulmayan minimumu öhdədə olanlara görə əlavələr də nəzərə alınmaqla minimal istehlak büdcəsi (sosial vergilərin çıxılması şərtilə) səviyyə-

1 Львов Д.С. Вернуть народу ренту. М.: Алгоритм, 2004. С.61, 63.

sində müəyyənləşdirmək lazımdır. İkincisi, ilkin tələbat əmtəələrinə ƏDV maksimum endirilməlidir. Üçüncüsü, dövlət mülkiyyətindən gəlirlərin təkrar bölgüsü hesabına dövlətin cəmiyyətin sosial ehtiyaclara xərcləri artırılmalıdır.

Yoxsulluqla mübarizənin strateji məsələlərinin həllində hüquqi müdafiəsi gücləndirilməklə xırda və orta sahibkarlığın möhkəmləndirilməsi, qeydiyyata alınma və sertifikat verilməsinin sadələşdirilməsi, korrupsiyanın azaldılması və lazımi infrastrukturun yaradılması mühüm taktiki addım olacaq. Bu problemin həlli yollarından biri mikromaliyyələşdirmə – biznesin aparılması üçün banklar tərəfindən kiçik borcların verilməsi ola bilər.

Belə metodlardan istifadə bir sıra Cənubi-Şərqi Asiya ölkələrində qısa müddətdə yoxsulluq zonalarını azaltmağa imkan vermişdir. Burada investisiyaların ardıcıl olaraq təhsilə və sahibkarlıq fəaliyyəti üçün insan kapitalının keyfiyyətinin yüksəldilməsinə yönəldilməsi siyasəti aparılırdı. Qeyd etmək lazımdır ki, Rusiyada da insan kapitalının keyfiyyətinin yüksəldilməsi, iqtisadiyyatın real bölməsinin ixtisaslı işçilərinin hazırlanması məqsədilə ona investisiyaların artırılması aktual məsələdir. Yaxın perspektivdə harmonik inkişaf etmiş şəxsiyyətin əmək resurslarının ictimai-normal təkrar istehsalı prosesində ölkənin sosial standartlarına müvafiq olan normal ictimai istehlak səviyyəsini işləyib hazırlamaq lazımdır.

Həm bütövlükdə ölkə üzrə, həm də onun regionlarında əsas hökumət və məqsədli proqramlarla kompleksdə həyata keçirilməli olan ən mühüm taktiki məsələlər belədir. Bu, əhalinin rifahının müsbət dinamikasını təmin edər, dayanıqlı iqtisadi artım üçün zəmin olar.

Əsas anlayışlar və məfhumlar

Sosial siyasət; yaşayış minimumu; yoxsulluq səviyyəsi; gəlirlərin funksional və fərdi bölgüsü; minimum əməkhaqqı;

sosial-iqtisadi inkişaf modeli: kontinental, ingilis-sakson, Aralıq dənizi, Skandinav; sosial sığorta; sosial müdafiə; «dövlət rifahı» proqramı; həyat səviyyəsi; həyat keyfiyyəti; əhalinin təbii azalması; sərvətin (gəlirlərin) differensiasiyası; Rusiyanın milli layihələri.

II BÖLMƏ. MAKROİQTİSADİYYAT-2

XIII FƏSİL. İSTEHLAKIN MODELLƏŞDİRİLMƏSİ

§1. İstehlakın neoklassik konsepsiyası.
§2. Keynsçi istehlak konsepsiyası.
§3. Modilyaninin həyat tsikli nəzəriyyəsi.
§4. Monetarist konsepsiya (permanent gəlir nəzəriyyəsi).

§1. İstehlakın neoklassik konsepsiyası

Milli iqtisadiyyatın əsas subyektlərindən biri ev təsərrüfatlarıdır. Məcmu tələbin xeyli hissəsini onların istehlak xərcləri təşkil edir. Pula tələbi, onun xarakteri və həcmini xeyli dərəcədə ev təsərrüfatlarının istehlak bazarında davranışı müəyyənləşdirir.

Ev təsərrüfatlarının sərəncamında dövlətə vergilər verildikdən sonra qalan gəlirlər olur. Gəlirin bir qismini onlar xərcləyir, bir qismini isə yığırlar. Sərəncamda olan gəlirin istehlak və yığım arasında bölünmə nisbətindən asılı olaraq son nəticədə istehlak xərcləri bir investisiya mənbəyi kimi yığımın məbləğini və ondan iqtisadiyyatda istifadə imkanlarını müəyyənləşdirir. Ev təsərrüfatlarının istehlak xərclərinin cari ölçüləri və onların həcminin dəyişdirilməsində istiqamət götürəcəyi əsas amillər haqqında makroiqtisadiyyatda əsas məktəblər arasında fikir birliyi yoxdur. İstehlak və yığım arasında nisbət və istehlak həcmi ilə manevr üçün motivasiya problemi də meydana çıxır.

İstehlak xərcləri və yığımın həcmi bilavasitə ev təsərrüfatlarının sərəncamında olan gəlirlərlə bağlıdır. Lakin müxtəlif məktəblər gəlirin istehlakın dinamikasına təsirini müxtəlif cür qiymətləndirirdilər. Neoklassik məktəb gəlirin həcmini tədqiq üçün zəruri, obyektiv zəmin, keynsçilər isə əsas amil hesab edirdilər.

İstehlak davranışının təhlili istehlak modellərini formalaşdırır ki, bunlar da iki növ olur:

- statik;
- dinamik:

- ikidövrlü (hazırkı və gələcək dövrlər);
- çoxdövrlü (subyektin həyatının illəri üzrə).

Dinamik modeldən söhbət getdikdə gəlir, istehlak və yığım axınlarının diskontlaşdırılmış qiymətləndirilməsinə müraciət etmək lazım gəlir.

Neoklasssik istehlak modelləri və F.Modelyani və M.Fridmen modelləri ***İ.Fişerin vaxtarası seçim konsepsiyasına*** əsaslanırlar.

İ.Fişerin istehlak dinamikasının tədqiqində mikroiqtisadiyyatdakı istehlak davranışı nəzəriyyəsi ilə müəyyən oxşarlıq var. İstehlak xərclərinin həcmi barədə qərar qəbul edərkən ev təsərrüfatları həm cari, həm də əldə edəcəkləri gələcək gəlirləri nəzərə alırlar. Yığım pulları gələcəyə təxirə salınmış istehlak xərcləri kimi nəzərdən keçirilir.

Fərz edək ki, subyektin həyatı iki dövrdən ibarətdir.

Birinci dövrdə subyekt gəlir əldə edir və onu istehlaka və yığıma bölür. Bu halda büdcə məhdudiyyəti aşağıdakı kimi olacaq:

$$Y_1 = C_1 + S_1,$$
$$S_1 = Y_1 - C_1.$$

burada C_1 – I dövrdə istehlak;

S_1 – I dövrdə yığım;

Y_1 - I dövrdə gəlirdir.

İkinci dövrdə o həm Y_2 əmək gəliri, həm də topladığı yığımın əsasında formalaşdırdığı əmlakdan gəlir əldə edir. Bu gəlirləri o tam istehlak edir. Bu zaman ikinci dövrün istehlakı birinci dövrdə toplanmış yığımdan ($S_1(1+r)$) və ikinci dövrün gəlirindən - Y_2 - asılı olacaq.

$$C_2 = Y_2 + S_1(1+r);$$
$$C_2 = Y_2 + (Y_1 - C_1)(1+r).$$

Beləliklə, iki dövrdə istehlak həcmi bu dövrlərdəki gəlirlərin həcmindən və faiz dərəcələrindən asılı olacaq:

$$C_2 + C_1(1+r) = Y_2 + Y_1(1+r).$$


Bərabərliyin hər iki tərəfini (1+r) bölək:

$$C_1 + C_2/(1+r) = Y_1 + Y_2/(1+r).$$

Bu bərabərlik dövrarası seçimin olub iki dövrdəki istehlak və gəlir səviyyələrini müəyyənləşdirir.

Birinci və ikinci dövrlərdə istehlak həcmi qrafik şəkildə həmin dövrlərdəki gəlirlərdən asılı olaraq istehsal həcmlərinin əsas kombinasiyalarını göstərən xətt şəklində təsvir olunacaqdır (şəkil 13.1).

Büdcə xəttinin mailliliyi 1/ (1+r)-ə bərabər olacaq.



Şəkil 13.1. İ.Fişer nəzəriyyəsində büdcə məhdudiyyəti xətti

Ev təsərrüfatı faiz dərəcəsindən asılı olaraq cari istehlaka deyil, gələcək istehlaka üstünlük verəcəkdir. Faiz dərəcəsi nə qədər yüksək olarsa, ev təsərrüfatları bir o qədər həvəslə yığım edərlər, nə qədər aşağı olarsa, cari istehlak bir o qədər yüksək olar. Beləliklə, yığım faiz dərəcəsinin artan funksiyası, istehlak isə azalan funksiyasıdır.


İndi subyektə iki müxtəlif dövr arasında (C_1 və C_2) istehlakın strukturunu optimallaşdırmaq qalır.

Biz cari və gələcək dövrlərdəki istehlak həcmlərinin müxtəlif birləşmələrindən ibarət olan düz xətt aldıq. Lakin ev təsərrüfatları üçün istehlak xərclərinin optimal həcminin müəyyənləşdirilməsi vacibdir. Xatırladaq ki, mikroiqtisadi istehlak nəzəriyyəsində istehlakçı özünün əmtəə əldə etmək istəyi ilə ödəniş qabiliyyətinin optimal uzlaşmasına nail olmaq üçün yalnız büdcə əyrisi deyil, həm də fərqsizlik əyri-

si qururdu. Makroiqtisadiyyatda fərqsizlik əyrilərinin parametrləri bir qədər başqa olacaq. Onlar istehlakçı üçün təxminən eyni faydalılığa malik əmtəələrin müxtəlif nisbətdə uzlaşdırılmasını deyil, birinci və ikinci dövrlərdə istehlakın eyni cür rifahı təmin edən müxtəlif variantlarını göstərəcək (şəkil 13.2).

Birinci dövrdə istehlakın azaldılması ikinci dövrdə onu artırmağa imkan verir və əksinə. A nöqtəsində gələcək istehlak caridən üstünlükverimlidir, S nöqtəsində isə əksinə, gələcək istehlakın zərərinə olaraq üstünlük cari istehlaka verilir, B nöqtəsində isə üstünlükverimi təxminən eynidir. Əyri nə qədər yuxarı olsa, ev təsərrüfatı üçün üstünlükverimi bir o qədər vacibdir.

Vaxta görə üstünlükverimi cari və gələcək istehlakın son həddi əvəzləmə norması ilə müəyyənləşdirilir:



Şəkil 13.2. Subyektlərin faydalılıq baxımından üstünlük verimləri (fərqsizlik əyriləri)

$$MRS = dC_1 / dC_2.$$


Burada dC_1 – ikinci dövrün dC_2 istehlakını kompensasiya etmək üçün birinci dövrün istehlak artımıdır.

MRS – bir dövrün istehlak həcminin digər dövrün xeyrinə son həddi əvəzləmə normasıdır.

Əgər üstünlük cari istehlaka verilirsə, onda MRS < 1; əgər MRS>1, deməli, subyektlər öz üsünlükverimlərində gə-

ləcək istehlaka yönümlüdürlər.

Subyektin istehlak seçimi onun gəliri ilə məhdudlaşır, üstünlükverimlərin dinamikası məlumdur, birinci və ikinci dövrlərdə istehlak həcmləri arasında optimal seçim subyektin büdcə məhdudiyyətləri ilə onun üstünlükverimlərinin birləşdirilməsi nəticəsində müəyyənləşdirilə bilər. Optimal seçim B nöqtəsində müəyyənləşəcək (şəkil 13.3).



Şəkil 13.3. Ev təsərrüfatlarının optimal seçimi:
C^*_1 və C^*_2 - I və II dövrlərdə optimal istehlak həcmləridir

Hər iki dövrün istehlakının ən optimal uzlaşması məhz B nöqtəsində əldə olunur.

Bütövlükdə istehlak funksiyası cari dövrün gəlir səviyyəsindən və gələcək dövrün diskontlaşdırılmış gəlirindən asılı olacaq:

$$C = Y_1 + Y_2 / (1+r).$$

Beləliklə, istehlak iki amilin: faiz dərəcəsi və gəlirin səviyyəsindən asılı olacaq.

İstehlak dinamikasının izahında neoklassiklər İ.Fişerin tədqiqat prinsiplərindən və onun gəldiyi nəticələrdən istifadə etmişdilər.

Neoklassik istehlak funksiyası həmçinin nəzərdə tutur ki:

1. İstehlak cari faiz dərəcəsinin funksiyasıdır. İstehlak xərclərinin ölçüləri barədə qərarın qəbul edilməsi üçün əsas faiz dərəcəsidir.

2. Neoklassik konsepsiyada ehtimal edilir ki, istehlakın həcmi ev təsərrüfatlarının büdcəsi ilə məhdudlaşır və aşağıdakı kimi göstərilə bilər: Y – T = C + S (Y- şəxsi gəlir; T- gəlir vergisi). Amma bu şkalada gəlir yalnız ilkin şərt kimi çıxış edir.

3. Neoklassik konsepsiya yığıma böyük diqqət yetirir. *O, yığımı təxirə salınmış istehlak kimi nəzərdən keçirir.*

4. Cari gəlir endogen parametr qismində çıxış edir. Bu konsepsiyaya görə ev təsərrüfatlarının özləri gəlir kəmiyyəti ilə asudə vaxt kəmiyyəti arasında seçim edərək öz gəlirlərinin kəmiyyətini müəyyənləşdirirlər.

Gəlirin ekzogen konsepsiyası aşağıdakı şəkil alır. Neoklassik məktəbin ehtimal etdiyi kimi, subyektlər özlərini rasional aparırlar. Onlar üçün gəlirin istehlaka və yığıma bölünməsində əldə edəcəkləri aşağıdakı üstünlüklər vacibdir:

- gələcək gəlirin artırılması imkanı. Bu halda əsas diqqət yığımın bankda hansı faizlə qəbul olunmasına yetiriləcək;
- cari və gələcək gəlirlərin müqayisəsi;
- hazırda və gələcəkdə istehlakdan faydalılıq.

Sərəncamda olan gəlirin mənbəyi əməkhaqqının həcmidir. Endogen gəlir gəlir səviyyəsinin əmək bazarında yaranmış vəziyyətdən asılı olmadığını göstərir. Hər bir subyekt özü üçün müəyyən həyat səviyyəsini təmin etmək istəyir ki, bu da iki parametrdən asılıdır:

- gəlirdən;
- asudə vaxtın həcmi.

Subyekt hər ikisini maksimallaşdırmağa çalışır. Cari gəlirin həcmi çox olmaq üçün çox işləmək lazımdır, deməli, asudə vaxtı qurban vermək lazım gələcək. Lakin gəlirin yüksək səviyyəsinə çatdıqda subyektin daha çox asudə vaxtı olur. Bu halda həmin subyekt üçün faydalılığın (onun istəklərinin) funksiyasını W kimi göstərmək olar:

$$U = \text{mak } U (Y, t_f).$$

burada Y – subyektin gəlirinin həcmi;

t_f - asudə vaxtın qədəri;

U – faydalılıq.

Hər bir subyektin müəyyən əmlakı olur ki, bu da toplanmış yığımın nəticəsi kimi formalaşır. Lakin əmlakın formalaşmasının ilkin şərti gəlirin istehlaka və yığıma bölünməsidir. Bu problemin optimallaşdırılması problemi ortaya çıxır. Beləliklə, gəlirin istehlak və yığıma bölünməsi kimi statik məsələ cari gəlirin istehlak və yığım arasında dinamik, çoxdövrlü bölgü məsələsinə çevrilir. Bu halda yığım *təxirəsalınmış istehlak* rolunu oynayır və ehtimal olunur ki, subyekt ömrü boyu bütün gəlirlərini istehlak edir. O, əmlakından istifadə edərək gəlir əldə edə bilər. Buna görə də onun gələcəkdə gəlirinin həcmini müəyyənləşdirən ikinci amil *əmlakın gəlirliliyidir.*

Beləliklə, subyektin büdcə məhdudiyyətini aşağıdakı kimi vermək olar:

$$Y = Wt_n + rV.$$

Burada V – əmlakın kəmiyyəti;

t_n – iş vaxtı;

W- əməkhaqqının saata görə dərəcəsi;

r – əmlakın gəlirliliyi (faiz dərəcəsi);

Y – subyektin büdcə məhdudiyyətidir.

Əməkhaqqının real dərəcəsi və əmlakın gəlirliliyi nə qədər yüksək olsa, daha yüksək gəlir dərəcəsi bir o qədər asan əldə olunar.

Bu iki amil subyektin gəlirinin dinamikasını müəyyənləşdirəcək. Əməkhaqqı (gəlir) artarsa, büdcə əyrisi yuxarı qalxar. Bu daha yüksək istehlak səviyyəsini təmin edər. Əmlak gəlirliliyi artarsa, subyekt cari dövrdə istehlakı azaldacaq və onu gələcək dövrdə artıracaq. Subyektlər faiz dərəcəsinin (gəlirliliyin) dinamikasından asılı olaraq gələcək istehlaka nisbətən cari istehlaka daha çox üstünlük verəcəklər.

Beləliklə, cari gəlir subyektin iş vaxtı ilə gəlir arasında-

kı subyektiv seçimindən, təsiri ekzogen xarakter daşıyan amildən asılı olan gələcək gəlir isə **gəlirlilik səviyyəsi və ya faiz dərəcəsindən asılıdır.** Faiz dərəcəsi nə qədər yüksək olsa, istehlak səviyyəsi bir o qədər aşağı olur, faiz dərəcəsi nə qədər aşağı olsa, istehlak həcmi bir o qədər yüksək olur.

Bu nəticələri neoklassiklər klassik məktəbdən götürmüşlər, amma onlar həm də faiz dərəcəsi üzrə istehlaka son həddi meyilliyi və əmlak gəliri üzrə son həddi meyilliyi anlayışlarından da istifadə etməyə başladılar.

Birinci dövrdə gəlir istehlaka və yığıma bölünür. Bu bölgünün dinamikası faiz dərəcəsinin dinamikasından asılı olaraq faiz dərəcəsi üzrə istehlaka son həddi meyilliyi anlayışının köməkliyi ilə ifadə olunur.

Faiz dərəcəsi üzrə istehlaka son həddi meyilliyi – faiz dərəcəsinin bir faiz punktu endiyi təqdirdə istehlakın neçə vahid artacağını və əksinə, faiz dərəcəsinin bir faiz punktu artdığı təqdirdə istehlakın neçə vahid azalacağını göstərən parametrdir.

İkinci dövrdə istehlak həcmi əmlakın gəlirliliyindən asılıdır: o nə qədər yüksək olsa, istehlak da bir o qədər yüksək olar.

İstehlakın hərəkət dinamikasını əmlakın gəlirlilik dinamikasından asılı olaraq nəzərdən keçirsək, onda asılılığı istehlaka əmlakın gəlirliliyi üzrə son həddi meyilliyi parametrinin köməkliyi ilə ifadə etmək olar.

İstehlaka əmlakın gəlirliliyi üzrə son həddi meyilliyi əmlak gəlirliliyinin bir faiz punktu dəyişdiyi təqdirdə istehlakın necə dəyişəcəyini göstərir.

Subyekt gəliri istehlak və yığıma necə bölsə də, o, gəlirin özünün, faiz dərəcəsinin, əmlakın gəlirliliyinin dəyişməsinə baxmayaraq vəsaitin bir hissəsini istehlaka ayırmalıdır.

Beləliklə, neoklassik **məktəb muxtar istehlak** anlayışından da istifadə edir.

Son nəticədə neoklassik yanaşma, istehlakın bütün tədqiq aspektləri nəzərə alınmaqla, aşağıdakı kimi olacaq:

$$C = C_a + b_v V - b_r Y,$$

Burada V – əmlakın kəmiyyəti;

b_v –əmlaka görə istehlaka son həddmeyilliyi (dC/dV);

b_r – faiz dərəcəsinə görə istehlaka son həddmeyilliyi: dC/dr;

C_a – muxtar istehlak.

Əgər yığılmış əmlakın gəlirlilik rolu nəzərə alınmazsa, onda neoklassik məktəbdə istehlakın funksiyası daha sadə şəkil almış olar:

$$C = C_a - b_r C.$$

§2. Keynsçi istehlak konsepsiyası

İstehlak konsepsiyasına C.M.Keynsin yanaşması klassiklər və neoklassiklərin ideyaları ilə müqayisədə yeniliyi ilə seçilirdi:

- birincisi, gəlir kəmiyyəti **endogen** parametr qismində çıxış edir;
- ikincisi, istehlakın həcmi yalnız sərəncamda olan gəlirdən asılıdır;
- üçüncüsü, gəlirin istehlaka və yığıma bölgüsünün nisbətləri bilavasitə istehlakçının gəlirindən asılıdır.

İqtisadi konyunktura, o cümlədən faiz dərəcəsi amilləri hələ ki, rol oynamır. Yığım və istehlakın kəmiyyətləri hələ ki, sabitdir, çünki ailələrdə bu iki hissəyə bölgü ənənələrin və ya müəyyən nizamlanmış qaydaların təsiri altındadır.

İstehlakın sərəncamda olan cari gəlirin mütləq kəmiyyətindən asılılığını C.Keyns ***əsas psixoloji qanun*** şəklində vermişdir ki, həmin qanuna görə «insanlar, bir qayda olaraq, gəlirləri artdıqca istehlaklarını artırmağa meyilli olurlar, lakin gəlirin artdığı qədər yox».

Ev təsərrüfatlarının istehlakı iki hissəyə bölünür. Hissələrdən biri C_a gəlir dinamikasından asılı olmayan muxtar istehlakdır, ikincisi isə bilavasitə ev təsərrüfatlarının gəlirlərinin dəyişməsinin təsiri altında dəyişir.

Keynsçi nəzəriyyədə ən sadə istehlak funksiyası aşağıdakı kimi olur:

$$C = C_a + b\,(Y - T).$$

Burada C – istehlak xərcləri;

C_a – kəmiyyəti sərəncamda qalan cari gəlirdən asılı olmayan muxtar istehlak;

b - istehlaka son həddmeyilliyi (MPC);

Y – gəlir;

T – vergi ödəmələridir.

Muxtar istehlak insanlara həyat qabiliyyətlərini saxlamaq üçün lazım olan istehlak xərclərinin minimum həcmini səciyyələndirir.

Gəlirlərin dəyişyişilmə dinamikasından asılı olaraq subyektlərin istehlak həcminin dəyişməsinə subyektiv üstünlükverimlərini **istehlaka son həddmeyilliyi** parametri ifadə edir. Qısamüddətli dövrdə o dəyişilməzdir, çünki insanlar onlarda ənənəvi olaraq formalaşmış vərdişləri dəyişməyə meyilli deyillər.

Psixoloji amil istehlaka orta meyillik kimi parametrdə əks olunur. İstehlaka son həddmeyilliyindən fərqli olaraq istehlaka orta meyillik (istehlakın gəlirin məbləğinə nisbəti və ya gəlirin istehlaka sərf olunan faizi), Keynsin psixoloji qanununa görə, gəlir artdıqca, azalmalıdır, çünki varlılar istehlakdan çox yığıma meyillidirlər.

Əsas amil qismində sərəncamda olan gəlirin götürülməsi iqtisadi nəzəriyyədə hadisələrin tədqiqinin əsas prinsiplərinə müvafiqdir, lakin real həyatda istehlak dinamikasına sərəncamda olan gəlirdən başqa digər amillər də təsir edəcəklər:

- ev təsərrüfatlarının gəliri;
- ev təsərrüfatlarında yığılmış sərvət;
- qiymətlərin səviyyəsi;
- iqtisadi gözləmələr;
- kreditorlar qarşısında borcun həcmi;
- verginin səviyyəsi.

Keynsçi nəzəriyyədən daha bir nəticə irəli gəlir ki, bu

da ***multiplikativ (gücləndirici) effekt*** adı almışdır. İstehlak xərcləri məcmu tələbin bir hissəsidir. Milli məhsulun artması, çoxalmasının əsas mənbəyi məcmu tələbin həcminin artması olduğundan istehlak xərclərinin dəyişməsi həm də iqtisadiyyatda ümumi gəlirin səviyyəsinə təsir edəcək. Bu dəyişmə multiplikativ effekt səciyyəli olacaq. Muxtar istehlak xərclərinin artması ümumi gəlirin artmasına istehlak xərclərinin ilkin artmasına nisbətən daha çox təsir edəcək. ÜDM artımı multiplikatorun kəmiyyətindən asılı olacaq ki, bu da yığıma son həddmeyilliyin əks kəmiyyətidir.

Beləliklə, C.Keynsin nəzəriyyəsinə görə:

- iqtisadiyyatda istehlak həcminin dəyişməsi yalnız ev təsərrüfatının əldə etdiyi gəlirdən asılıdır;
- istehlakın dəyişmə dinamikası psixoloji qanuna müvafiq olaraq izlənilir və istehlaka son həddmeyilliyi və yığıma son həddmeyilliyi kimi subyektiv anlayışlarla əlaqədardır;
- muxtar istehlak xərclərinin artması milli məhsulun dinamikasında multiplikativ effekt (gücləndirici) verir;
- gəlir artdıqca istehlaka son həddmeyilliyi sabitlik tendensiyalı olur, istehlaka orta meyillik isə azalma tendensiyalı olur.

Amma 1946-cı ildə S.Kuznets «Milli məhsul 1869-cu ildən» kitabında ABŞ-ın son 80 il ərzində dinamikası üzrə tədqiqatlarını çap etdirdi və aydın oldu ki, istehlak və gəlir dinamikası üzrə faktik verilənlər keynsçi nəzəriyyəyə uyğun gəlmir. Uzunmüddətli dövrdə orta istehlak norması kəmiyyətinin azalması və istehlaka son həddmeyilliyinin daimiliyi haqqında tezis statistik göstəricilərlə təsdiqlənmədi.

Uzunmüddətli dövrdə istehlaka orta meyillik sabit kəmiyyətdir. Bundan başqa, uzunmüddətli dövrdə istehlaka son həddmeyilliyi və qısamüddətli dövrdə istehlaka son həddmeyilliyini fərqləndirmək lazımdır. Kəmiyyətinə görə bunlar fərqli parametrlərdir. Əgər qısamüddətli dövrdə gəlirin artması ilə istehlakın payı nisbətən azalırsa, uzunmüddətli dövrdə o, sabit olur. Əks təqdirdə gəlir artdıqca

uzunmüddətli dövrdə istehlak istehlak sıfra doğru meyillənər ki, bu da reallıqla ziddiyyətə girir.

S.Kuznetsin tədqiqatının keynsçi nəzəriyyənin müddəaları ilə ziddiyyət təşkil etməsi Kuznets «fenomeni» və ya «müəmması» adını almışdır. İstehlaka orta meyillik qısamüddətli dövrdə azala bilər, lakin uzunmüddətli dövr üçün bu qanunauyğunluq müşahidə olunmur.

§3.Modilyaninin həyat tsikli nəzəriyyəsi

İstehlak xərcləri dinamikası sahəsində sonrakı tədqiqatçılar uzunmüddətli dövrdə orta istehlak normasının (meyilinin) sabitliyini izah etməyə çalışmışdılar. Bu sahədə ən parlaq konsepsiyalar F.Modilyaninin həyat tsikli konsepsiyası və M.Fridmenin permanent gəlir nəzəriyyəsidir. Keyns kimi bu alimlər də istehlak xərclərinin əsas amili kimi gəliri götürürdülər. Lakin onlar cari gəlirdən deyil, ev təsərrüfatının bütün ömür boyu gözlənilən gəlirindən çıxış edirdilər.

F.Modilyani istehlaka orta meyilliyin sabitliyə meyilli olmasını həyat tsikli nəzəriyyəsi vasitəsilə izah edirdi. Bu model dinamikdir və ev təsərrüfatının həyatının bir dövrünü əhatə etmir. O, İ.Fişerin zamanarası seçim nəzəriyyəsinə əsaslanır və tədqiqatın mikroiqtisadi verilənlərinə söykənir. Bu nəzəriyyənin xüsusiyyəti ev təsərrüfatlarının iqtisadi fəaliyyətinin zaman aspektlərinin nəzərə alınmasıdır.

Həyat tsikli nəzəriyyəsinin əsas ideyası uzunmüddətli dövrdə istehlaka orta meyilliyin sabitliyini izah etməkdir ki, bunun üçün isə aşağıdakıları müəyyənləşdirmək lazımdır:

- subyektin həyatı boyu istehlak imkanları necədir;
- ev təsərrüfatları istehlakı öz həyatlarının müxtəlif dövrləri arasında necə bölüşdürürlər.

Bu nəzəriyyə istehlakı subyektin bütün ömrü boyu apardığı planlaşdırmanın obyekti kimi nəzərdən keçirir.

Nəzəriyyənin əsas veriləni bundadır ki, ev təsərrüfatla-

rı **istehlakı** cari gəlirdən deyil, ***bütün həyatları ərzində əldə edə biləcəkləri gəlirdən çıxış edərək*** planlaşdırırlar. Həyat tsikli nəzəriyyəsində **gözləmələr** müəyyən rol oynayırlar. Cari istehlak gələcək gəlirlərin səviyyəsini gözləmənin təsiri altında olacaq. Əgər subyektlər gələcəkdə gəlirlərinin azalacağını güman edirlərsə, onlar öncədən xərclərini azaldacaqlar, gələcəkdə daha çox gəlir əldə edəcəklərini gözləyirlərsə, istehlak xərclərini artırmağa başlayacaqlar.

Bütün həyat dövrü ərzində subyektin həm istehlak dinamikası, həm də gəliri fərqlidir. Həyatının əvvəlində subyektin gəliri minimaldır, lakin istehlakı da böyük deyil. Əmək qabiliyyətli yaşda o özünü daha böyük gəlirlərlə təmin edir, bununla da bərabər istehlak da artır. Pensiya yaşında subyektin gəlirləri azalır və onun istehlak xərcləri də daha az olur. Şübhəsiz ki, insan həyatı boyu gəlirinin bir qismini qənaət edib yığmış, lakin yaşadığı illər nəticəsində yığılmış vəsaitləri istehlakı adət etdiyi səviyyədə saxlamaq üçün istifadə etmişdir. Buna görə də insanın bütün həyatı baxımından onun yığımı sıfra bərabərdir.

Ehtimal olunur ki, subyekt müəyyən t sayda il yaşamağı planlaşdırır. Onun bir hissəsini – t_w - o, işləyəcək, bir hissəsini isə – t_n- təqaüddə olacaq, t – onun yaşamaq istədiyi illərin ümumi miqdarıdır. Bu halda:

$$t = t_w + t_n.$$

İşlədiyi zaman subyektin gəliri formalaşır:

- əməkhaqqından;
- onun yığımdan əldə etdiyi əmlakdan gələn gəlirdən.

Hələlik təsəvvür edək ki, subyektin gəliri yalnz əməkhaqqı şəklindədir və onun qazandığı əmək fəaliyyəti boyunca və pensiya dövrünə bəs etməlidir. Buna görə də, onun rəva biləcəyi istehlakın orta illik həcmi aşağıdakı kimi olacaq:

$$C = W \cdot t_w / (t_w + t_n) = W \cdot t_w / t.$$

Burada t_w – subyektin vaxt ərzində işlədiyi müddət;

t_n – pensiyada olma vaxtı;

$t = t_w + t_n$;

W – saathesabı əməkhaqqıdır.

Subyekti gələcəkdə yığımın hamısını «yeyəcəyinə» baxmayaraq o, onların orta illik həcmini müəyyənləşdirməlidir. yığımın düsturu aşağıdakı kimi olacaq:

$$S = Y - C = Y - W \cdot t_w / t .$$

Misal. 20 yaşında əmək fəaliyyətinə başlayan insan ehtimal edir ki, o, 40 il işləyəcək və sonra təqribən 20 il təqaüddə olacaq. O həm də proqnozlaşdırır ki, onun illik əməkhaqqı orta hesabla 40 min p.v. (pul vahidi) təşkil edəcək. Əmək fəaliyyəti müddətində o, nə qədər qənaət etməlidir ki, adət etdiyi istehlak səviyyəsini özü üçün təqaüddə təmin edə bilsin?

İllik orta istehlakı hesablayaq:

$$40 \cdot 40/(40+20) = 1600/60 = 31 \text{ min p.v.}$$

Bu halda yığım hər il 9 min p.v. təşkil edəcək və o, həmin puldan istifadə edəcək ki, pensiyada onun istehlakı adət etdiyi 32 min p.v. təşkil etsin.

Fərz etsək ki, subyektimiz gəlirin bir hissəsini sadəcə yığım kimi toplamayıb, onu V əmlak şəklində formalaşdırmışdır və bunun hesabına özünün pensiyadakı istehlakını maliyyələşdirəcək.

Bu halda onun orta illik istehlakı bərabərdir:

$$C = (V + W \cdot t_w) / t ,$$

$$C = V / t + W \cdot t_w / t.$$

Bizim misalda $S = 1/60 \cdot V + 40 / 60 \cdot W$.

Deməli, istehlak həcmi əmək gəlirinin və toplanmış sərvətin həcmindən asılı olacaq.

Keynsçi konsepsiyada olduğu kimi burada da müəyyən məfhumlar – «əmlaka görə istehlaka son həddmeyilliyi» və «əmək gəlirinə görə istehlaka son həddmeyilliyi» tətbiq olunur ki, bu halda istehlak belə müəyyənləşdiriləcək:

$$C = b_v \cdot V + b_w \cdot W.$$

Burada W - t_w illəri ərzində illik orta əməkhaqqı;

V – əmlakın kəmiyyəti;

b_v - əmlak üzrə istehlaka son həddmeyilliyi;

b_w - əmək gəliri üzrə istehlaka son həddmeyilliyidir.

İstehlaka orta meyillik aşağıdakı şəkil alır:

$$C / Y = (b_v \cdot V + b_w \cdot W) / Y = b_v \cdot V / Y + b_w \cdot W / Y.$$

Deməli, subyekt bütün həyatı boyu özünə eyni illik orta istehlak səviyyəsini təmin etməyə çalışır və bunun üçün həm əldə etdiyi gəlirdən, həm də yığılmış əmlakdan istifadə edir. Onun orta istehlak norması sabitliyə meyillidir. Adət edilmiş istehlak vəziyyətini saxlamaq istəyi subyekti bütün zaman müddəti ərzində cari gəlir orta gəlir səviyyəsindən yüksək olduqda daha çox yığım etməyə və gəlir aşağı düşən dövrlərdə yığımı xərcləməyə vadar edir.

Beləliklə, Modilyani modeli uzunmüddətli dövrdə orta istehlak normasının sabitliyə meyilini izah edir. Qısamüddətli dövrdə o, cari gəlirdən fərqlənə, ondan çox ola (ailə borcla yaşayır) və ya az ola (pullar «ehtiyat kimi» yığılır) bilər.

Beləliklə, həyat tsikli modeli orta istehlak normasının sabitliyi fenomenini subyektlərin özləri üçün ömürləri boyu bərabər istehlak səviyyəsini təmin etmək istəyi ilə izah edirlər.

İzahının məntiqiliyinə baxmayaraq, həyat tsikli konsepsiyasının müəyyən çatışmazlıqları var:

1. Modelin əsasında mikroiqtisadi verilənlər durur. Modeldə subyektlərin proqnozlarından istifadə olduqca şərtidir. Ehtimal olunur ki, subyektin ailəsi olmayacaq, həmişə işi olacaq və s.

2. Model gələcək dəyər parametrlərinin müasir qiymətləndirilmələri əsasında qurulduğundan pul axınlarının diskontlaşdırılmasını tətbiq etmək lazımdır. Lakin bu model ondan uzaqdır.

3. Gəlir və əmlak iki qarşılıqlı əlaqədə olmayan parametr kimi çıxış edir və ehtimal olunur ki, əmlak xalis gəlirdən formalaşıb.

§4. Monetarist konsepsiya (permanent gəlir nəzəriyyəsi)

Bu nəzəriyyə də S.Kuznetsin uzunmüddətli dövrdə orta istehlak normasının sabitliyi haqqında fenomeninin təsiri altında formalaşmışdı. Bu konsepsiya 1957-ci ildə M.Fridmenin «İstehlak funksiyası nəzəriyyəsi» (The-ory of Consuption Function) kitabında verilmişdi. Modilyani kimi M.Fridmen də istehlak xərcləri dinamikasının subyektlərin özləri üçün bütün həyatları boyu sabit istehlak səviyyəsi təmin etmək istəyindən asılı olması fikrindən çıxış edirdi.

Lakin bu sabitlik istehlak xərclərinin cari gəlirlə deyil, **daimi (permanent) gəlirlə** bağlı olması ilə şərtlənir. Permanent gəlir orta. ev təsərrüfatları üçün adəti gəlir səviyyəsi kimi nəzərdən keçirilirdi. Bu gəlirə səhmlər, istiqrazlar, daşınmaz əmlak, mövcud insan kapitalı təsir göstərəcək. M.Fridmen yığımı yalnız təxirə salınmış tələb (istehlak) (neoklassik məktəb) kimi deyil, həm də aktivlər portfelinin formalaşma mənbəyi kimi nəzərdən keçirirdi.

Subyekt özü üçün bütün ömrü boyu malik olmağa çalışacağı orta istehlak səviyyəsi seçir. Bunun üçün o, daim yönümlənəcəyi müəyyən gəlirə malik olmalıdır (daimi gəlir).

O, mümkün gəlirin səviyyəsini bu gün müəyyənləşdirməlidir, buna görə də gələcək gəlirlərin uçotunda o, onların **diskontlaşdırılmasına** müraciət edir. Formal olaraq gələcək gəlirlərin həcmi cari gəlirlərdən yüksək olacaq, lakin diskontlaşdırma nəzərə alındıqda o, daimi gəlir səviyyəsinə enəcəkdir.

Gələcək əlavə gəlir üçün zəmin subyektin müxtəlif aktivlər şəklində istifadə edəcəyi yığımı olacaq. Gələcəkdə o, müxtəlif aktivlərə qoyulmuş pullardan əlavə gəlir əldə edəcək. Həyat tsikli nəzəriyyəsində olduğu kimi, burada da əmlaka boyük əhəmiyyət verilir. Lakin monetarist konsepsiyada yığımdan əlavə gəliri təmin edən digər istîfadə üsulları da nəzərdən keçirilir. Permanent gəlir nəzəriyyəsi müxtəlif aktivlərin gəlirliliyini təhlil edir.

Subyektin gəliri toplanmış yığım və onların aktivlər

üzrə optimal bölgüsü nəticəsində formalaşır ki, bu da həmin aktivlərin gəlirliliyindən, risk dərəcəsindən, maddi və qeyri-maddi xeyirdən asılı olacaq.

Monetarist nəzəriyyədə beş növ aktiv fərqləndirilir:

1. Pul.
2. Səhmlər.
3. İstiqrazlar.
4. Uzunmüddətli istifadə əşyaları. Uzunmüddətli istifadə əmtəələrinin gəlirliliyi pula qiymətləndirilmələrində deyil, onların gətirdiyi faydadadır.
5. İnsan kapitalı (sağlamlıq, peşəkarlıq səviyyəsi və s.). Onu «investisiyalar nəticəsində formalaşmış və insan tərəfindən toplanmış və insanın gəlirlərinin artmasına xidmət edən sağlamlıq, bilik, vərdiş və motivasiya ehtiyatı» adlandırmaq olar.

M.Fridmenin konsepsiyasında insan kapitalı subyektin bütün ömrü boyu əldə edə biləcəyi əmək gəlirləri məbləğinin diskontlaşdırılmış qiymətləndirilməsi kimi şərh edilir.

Yığımın istifadə istiqamətlərini müəyyənləşdirərkən subyekt son nəticədə əldə olan aktivlərin ümumi gəlirliliyini müəyyənləşdirir ki, bu da sonra hesablanmış daimi gəlir səviyyəsinə müvafiq olmasının qiymətləndirilməsi üçün diskontlaşdırılır.

Müasir dövrdə subyekt cari gəlir əldə edir ki, o da iki hissədən: təsadüfi və daimi gəlirdən ibarətdir.

Təsadüfi gəlir həm müsbət, həm də mənfi səciyyəli ola bilir (udmaq və uduzmaq, mükafatlar, bonuslar, hədiyyələr və s.). Belə gəlir ev təsərrüfatlarının həyatında təsadüfidir.

Daimi gəlir ev təsərrüfatlarının bütün həyatı boyu əldə edəcəyi orta gəlirdir.

Subyektin cari gəliri bərabərdir:

$$Y = Y_p + Y_t.$$

Burada Y_p – daimi gəlir;

Y_t – təsadüfi gəlirdir.

Təsadüfi gəliri bir kənara qoymaq, nəzərə almamaq olar. M.Fridmenin ***permanent*** adlandırdığı daimi gəlir onun

tərəfindən aşağıdakı kimi verilmişdir.

Permanent gəliri formal olaraq belə göstərmək olar:

$$Y_p = 1/n \cdot [(D_1/(1+r) + D_2/(1+r) + D_n/(1+r)].$$

Burada Y_p – nominal permanent gəlir;

D_n – n il ərzində əmlakdan cari gəlir;

r - beş əmlak növünün gəlirliliyi;

n - ömrün illərinin miqdarı.

Subyektin bütün həyatı boyu istehsal həcmi qeyri-sabitliyi ilə fərqlənən cari gəlirdən deyil, müəyyən daimi gəlirin həcmindən asılı olacaq. Bu həcmə əmlakdan gələcək gəlirlər də təsir edəcəklər. Onları nəzərə almaq üçün onların hazırkı dəyərini müəyyənləşdirmək lazımdır. Qiymətləndirmələrin nəticəsindən asılı olaraq daimi gəlirin kəmiyyəti müəyyənləşəcək.

Sonradan M.Fridmen permanent gəlir modelinə subyektin adaptiv gözləmələr nəzəriyyəsinə müvafiq olaraq gözləmələrini əks etdirən göstəricini əlavə etdi.

Permanent gəlir ***sabit kəmiyyətdir***: cari gəlir dəyişdikdə permanent gəlir də dəyişir, lakin xeyli az. Gəlirin dəyişməsi ilə istehsal xərclərinin həcmi də dəyişəcək.

Beləliklə, *monetarist konsepsiyada istehlak funksiyası aşağıdakı kimi olacaq*:

$$C = b_{Y_p} Y_p.$$

Burada b_{Y_p} fasiləsiz gəlirə görə istehlaka son həddi meyilliyidir və bir qayda olaraq daimiliyə meyillidir.

İstehlaka orta meyillik aşağıdakı kimi müəyyənləşdiriləcək:

$$C / Y = b_{Y_p} Y_p / Y.$$

Əgər b_{Y_p} əmsalının daimiliyə meyilli olması nəzərə alınsa, onda orta istehlak norması permanent və cari gəlir arasındakı nisbətdən asılı olacaq. Zahirən monetarist istehsal funksiyası keynsçi istehlak funksiyasına çox oxşayır. Lakin onda cari gəlir permanent gəlirlə əvəzlənib. Bu isə o deməkdir ki, subyektin cari gəliri fasiləsiz gəlirindən yüksək olarsa, yığımı artırır; aşağı olarsa, onda adəti istehlakı saxlamaq

üçün bu düşməni kompensə etmək imkanları axtarır. Subyekt aktivlərin bir hissəsini satmaqla və ya almaqla, yaxud kommersiya bankından kredit götürməklə daimi gəliri saxlamaq imkanına malikdir. Deməli, uzunmüddətli dövrdə istehlaka orta meyillik daimiliyə meyillidir.

Neoklassiklər istehlak dinamikasını faiz dərəcəsi dinamikasından asılı bilirlər. Keynsçilər isə hesab edirlər ki, istehlak dinamikasına psixoloji amillər və birinci növbədə istehlaka son həddi meyilliyi xeyli təsir göstərir. Qısamüddətli dövrdə istehlak dinamikasının təhlili üçün gəlir artdıqca istehlak da artır, lakin gəlirin artdığı səviyyədən daha az artdığını göstərən keynsçi model istifadə olunur. Həyat tsikli nəzəriyyəsi də, monetarist konsepsiya kimi, hesab edir ki, insanlar bütün ömürləri boyu özləri üçün sabit istehlak səviyyəsini təmin etməyə çalışırlar. Lakin istehlak həcmi yalnız şəxsi gəlirdən deyil, həm də əmlakın gəlirliliyindən asılıdır.

Əsas anlayışlar və məfhumlar

İstehlak; istehlaka son həddi meyilliyi; orta istehlak norması; büdcə məhdudiyyəti; zamanarası seçim; permanent gəlir; gəlirə görə istehlaka son həddi meyilliyi; permanent gəlirə görə istehlaka son həddi meyilliyi; əmlak; aktivlər; gəlirlilik; diskontlaşdırma; cari gəlir.

XIV FƏSİL. İNVESTİSİYALARIN NƏZƏRİ MODELLƏRİ

§1. Əsas kapitala investisiyaların neoklassik nəzəriyyəsi.
§2. Tobin əmsalı və əsas kapitala investisiyalar.
§3. Keynsçi investisiya nəzəriyyəsi.
§4. Mənzil tikintisinə investisiyalar.
§5. Ehtiyata investisiyalar.

İnvestisiyalar ÜDM-in ən qeyri-sabit komponentidir. İqtisadi tsiklin gedişində onların artıb-azalmaları daha kəskindir. Belə ki, yüksəlişdə investisiyaların kəmiyyəti kəskin şəkildə artır, tənəzzül mərhələsində isə kəskin şəkildə azalır. ÜDM-in azalması əsasən məhz investisiya komponentinin azalması ilə izah olunur.

Üç növ investisiya fərqləndirilir: əsas kapitala, mənzil tikintisinə və ehtiyata. Bu fəsildə bu üç qrupda investisiya xərclərinin artıb - azalmasını izah edən əsas modellər nəzərdən keçiriləcək. Təqdim olunan modellər əsasən yalnız muxtar investisiyaları nəzərdən keçirirlər.

§1. Əsas kapitala investisiyaların neoklassik nəzəriyyəsi

Neoklassik nəzəriyyədə investisiya prosesi kapital əmtəələr alınması prosesi kimi nəzərdən keçirilir. Kapital ehtiyatının artırılması (investisiya qoyuluşu) ya onun azaldılması (əks-investisiya) barədə qərar qəbul edərkən firma *optimal kapital ehtiyatından* çıxış edir. Əgər ona çatılıbsa, onda bütün digər şərtlərin bərabərliyi şəraitində firmanın investisiya qoyuluşunu davam etdirməsinə ehtiyac yoxdur. Lakin müasir iqtisadi vəziyyət və «digər şərtlərin bərabərliyi» də çox sürətlə dəyişir, buna görə də investisiya tələbi məcmu xərclərin ən dinamik komponentidir.

Ayrılıqda götürülmüş firmanın kapital ehtiyatının optimal kəmiyyətini, neoklassik nəzəriyyəyə görə, necə müəy-

yənləşdirdiyini və bu kəmiyyətə doğru necə irəlilədiyini nəzərdən keçirək.

Hər şeydən əvvəl alınan kapital əmtəə vahidindən firma nə qazanır (gəlirlilik nə qədərdir) və bu alışla hansı məsrəflər əlaqədardırlar.

Deyək ki, əmtəə və ya xidmətlər yaradan firmanın istehsal funksiyası aşağıdakı kimi verilmişdir:

$$Q = F(K,L).$$

Bu halda kapitalın son həddi məhsuldarlığını (MPK) belə qiymətləndirmək olar:

$$MPK = \frac{\partial Q}{\partial K}$$

Kapitalın son həddi məhsuldarlığını (MPK) istifadə olunan kapitalın miqdarı artdıqda (və digər istehsal amilləri dəyişilməz qaldıqda) məhsul istehsalının artmasını göstərir və istehlak funksiyası qrafikinin meyil bucağının tangensi ilə hesablanır.

Təhlili asanlaşdırmaq üçün biz MPK dedikdə *kapitalın pulla ifadə olunmuş son həddi məhsuldarlığını, yəni əlavə kapital vahidinin köməkliyi ilə istehsal olunmuş məhsulun dəyərini nəzərdə tutacağıq.*

Son həddi məhsuldarlığı alınan kapital əmtəə vahidindən *gələn xeyirin* göstəricisi kimi çıxış edir.


İstehsal funksiyasının xüsusiyyətlərindən görünür ki:

- kapital ehtiyatı nə qədər az olsa, MPK bir o qədər böyük olar;
- tətbiq olunan əməyin miqdarı nə qədər çox olsa, MPK bir o qədər böyük olar;
- texnologiya nə qədər mükəmməl olsa, MPK bir o qədər böyük olar.

İndi xərclərə müraciət edək. Firmanın almağa hazırlaşdığı bir kapital vahidinin balans dəyərini P_k ilə qeyd edək. Bu onun nominal qiymətidir. Real qiymət P_k / P kimi müəyyənləşdirilir ki, burada P - iqtisadiyyatda qiymətlərin ümumi səviyyəsidir. Şəkil 14.1-dən görünür ki, kapitalın real

tarazlıqlı qiyməti tələb və təklifi qarşılıqlı təsiri nəticəsində yaranır.

Kapitala tələb son həddi məhsuldarlığı qrafiki ilə verilmişdir. Kapitalın qiyməti yüksək olduqda firma üçün bir neçə vahid alıb yüksək xeyir götürmək daha sərfəli olduğunu, qiymətlər aşağı düşdükdə isə firmanın daha çox miqdarda kapital vahidi alıb bu zaman azalan son həddi məhsuldarlığı qanununun təsiri ilə üzləşə biləcəyini nəzərə alsaq, MPK qrafikinin köməkliyi ilə kapitala tələbi göstərmək



Şəkil14.1 .Kapital bazarı

olar.

Kapital təklifi şaqulidir, çünki hər bir konkret zaman anında onun ehtiyatı məhduddur. Beləliklə, firma üçün tarazlıqda aşağıdakı bərabərlik gözlənilir:

$$\frac{P_k}{P} = MPK$$

Kapital alınmasına real xərclərdən (real qiymətin ödənilməsi) başqa firmanın başqa xərcləri də olur ki, bu da aşağıdakılardın formalaşır:

1. Kapital alınmasının alternativ xərcləri.
2. Kapitalın dəyərinin dəyişməsi.
3. Fiziki və mənəvi aşınma.

Alternativ xərclər vəsaitin başqa cür istifadəsindən alına biləcək, lakin alınmamış gəlirdən formalaşır. Məsələn, firma avadanlıq almaq əvəzinə həmin məbləği banka qoya və qoyulmuş məbləğə görə faiz ala bilərdi. Onun almadığı gəlir iP_k olacaq ki, burada i- nominal faiz dərəcəsidir.

Bir də firma alınan kapital növünün bazar qiymətinin artıb-azalması ilə üzləşir. Vaxt keçdikcə onun qiyməti düşür, firma aldığı vahidi yalnız daha aşağı qiymətə sata bilər, yəni satış zamanı firma kapitalın alış və satış qiymətləri arasındakı fərq qədər itirir. Bu itki növünü $-\Delta P_k$ kimi qeyd edək. Delta işarəsi qarşısındakı mənfi dəyər artımının mənfi olduğunu, yəni bu kapital növünün qiymətdən düşməsini göstərir.

Vaxt keçdikcə kapitalın bazar qiymətinin düşməsi ilə yanaşı onun fiziki və mənəvi köhnəlməsi də baş verir. Sıradan çıxan kapitalı əvəzləmək üçün firma hər il amortizasiya fonduna ayırmalar etməlidir. Amortizasiya norması d olarsa, onun kapital vahidinə xərci dP_k təşkil edəcək.

Beləliklə, firmanın bir kapital vahidinin alınmasına, aşkar və qeyri-aşkar xərclər nəzərə alınmaqla, məcmu xərclərini (TC) belə göstərmək olar:

$$TC = P_k + iP_k - \Delta P_k + d\,P_k,$$

və ya

$$TC = P_k(1 + i - \Delta P_k / P_k + d).$$

$\Delta P_k / P_k$ ifadəsi kapital əmtəələrin qiymətlərinin dəyişmə tempini əks etdirir. Təhlilin sadəliyini saxlamaq məqsədilə təsəvvür edək ki, o, ölkədəki bütün qiymətlərin dəyişmə tempi ilə, yəni π – inflyasiya tempi ilə üst-üstə düşür.

İnflyasiyanın tempi aşağı olduqda nominal faizlə real faizin əlaqəsini əks etdirən Fişer düsturundan istifadə etmək olar:

$$r = i - \pi.$$

Buradan da ümumi xərclər belə olacaq:

$$TC = P_k(1 + r + d).$$

Təhlili yekunlaşdırmaq üçün firmanın bir kapital vahidinə real xərclərini müəyyənləşdirək:

$$\frac{TC}{P} = \frac{P_k}{P}(1 + r + d).$$

Düsturdan göründüyü kimi, firmanın real xərcləri P_k/P - kapitalın nisbi dəyərindən, r – real faiz dərəcəsindən və d – amortizasiya normasından asılıdır.

İndi isə firma üçün optimal kapital ehtiyatının müəyyənləşdirilməsinə müraciət edək. Kapitalın son həddi məhsulunun firmanın müəyyən miqdarda kapitaldan istifadədən əldə etdiyi xeyiri əks etdirdiyini nəzərə alsaq, firmanın son həddi mənfəətini real ifadədə belə göstərmək olar:

$$\Pi = MPK - \frac{P_k}{P}(1 + r + d).$$

Firma əlavə kapital vahidinin alınması haqqında qərarı həmin vahidin istifadə edilməsindən mənfəət götürməyin mümkün olub-olmamasından çıxış edərək qəbul edir. Kapitalın son həddi məhsulu firmanın onun alınmasına real xərclərindən çoxdursa, mənfəət müsbətdir. Bu halda firma kapital ehtiyatını artırır. MPK real xərclərdən az olarsa, firma kapital ehtiyatının miqdarını azaltmalıdır – yeni vahidlər almamaq və mövcud kapitalı maşın və avadanlıqların aşınması hesabına azaltmalıdır.

Dinamik modelə keçərək demək olar ki, t ildə kapital artımı firmanın son həddi mənfəətinin funksiyasıdır:

$$\Delta K_t = I_n\left(MPK - \frac{P_k}{P}(1 + r + d)\right).$$

Burada I_n - xalis investisiyaların funksiyasıdır.


Əgər yeni kapital qoyuluşlarından mənfəət müsbətdirsə, onda $\Delta K_t > 0$; yeni kapital qoyuluşlarından mənfəət mənfidirsə, onda $\Delta K_t < 0$.

Bu vaxta qədər söhbət xalis investisiyalardan, yəni firmanın cari ildə aldığı yeni kapitaldan gedirdi. Firmanın t ildə ümumi investisiyaları xalis investisiyaların və aradan çıxan kapitalın əvəzlənməsinə xərclərin cəmindən ibarətdir. Beləliklə, investisiyaların neoklassik funksiyasını aşağıdakı kimi vermək olar:

$$I_t = \Delta K_t + dK.$$

Firma tərəfindən kapital yığımı prosesi bilavasitə onun investisiya tələbini müəyyənləşdirir. ***İnvestisiyaların neoklassik funksiyası*** alınan kapitalın kəmiyyətinin real faiz dərəcəsindən, amortizasiya norması və kapitalın son həddməhsuldarlığını şərtləndirən amillərdən asılılığını əks etdirir. İnvestisiyalara tələb qrafiki şəkil 14.2-də verilmişdir.

Daha yüksək faiz dərəcəsi firmanın xərclərini artırır və alınan kapitalın miqdarını azaldır. Formalaşmış real r* faiz dərəcəsində firma investisiyaları I_t həcmində həyata keçirəcək. Real faiz dərəcəsindən başqa bütün digər amillərin dəyişilməsi investisiyalara tələbin dəyişməsinə səbəb olacaq. Məsələn, yeni texnologiyaların tətbiqi ilə əlaqədar olaraq kapitalın məhsuldarlığının artması investisiyaya tələbi artırır (tələb qrafikinin I_{d_1} vəziyyətindən yerini I_{d_2} vəziyyətinə dəyişməsi). İnvestisiyaların yeni tarazlı kəmiyyəti I_2 olacaq. İnvestisiyalara tələb qrafikinini yerdəyişməsinin digər amilləri «Makroiqtisadiyyat-1» kursunda nəzərdən keçirilmişdir.



Şəkil 14.2. İnvestisiyaya tələb

Yuxarıda göstərildiyi kimi, kapitalın son həddməhsulunun və onun tətbiqinin real xərclərinin nisbətindən asılı olaraq firma kapital ehtiyatını ya artırır, ya da azaldır. Bu proses onlar bərabərləşənədək, yəni uzunmüddətli dövrdə

davam edir:

$$MPK = \frac{P_k}{P}(1 + r + d).$$

Bu düstur ***optimal kapital ehtiyatının müəyyənləşdirilməsi şərtidir.***

Firmanın optimal kapital ehtiyatı yığması sürəti firmanın dəyişən iqtisadi vəziyyətə nə qədər tez uyğunlaşa bilməsindən, bir də yeni binanın nə qədər tez tikilməsindən və ya yeni avadanlığın nə qədər tez quraşdırılması, sazlanması və istehsala buraxılmasından asılıdır.

İnvestisiyaların funksiyalarına qayıdaraq *t* ildə investisiyaların həcminin fəaliyyətdə olan kapitalın qədərindən və onun optimal ehtiyatdan nə qədər fərqlənməsindən asılılığını əks etdirmək olar:

$$I_t = \beta(K^* - K_t), \quad 0 < \beta < 1.$$

burada K_t - *t* müddətinə mövcud olan kapitalın həcmi;

K^* - kapitalın optimal həddi;

β - mövcud kapitalın *t* müddəti ərzində optimala yaxınlaşma dərəcəsini səciyyələndirən əmsaldır.

Əgər β vahidə yaxın olarsa, onda firma qısa müddətə (bir-iki ilə) optimal kapital ehtiyatına çata bilər. Yox əgər β az olarsa, kapital yığımı müddətinə daha çox vaxt lazım olacaq.

Qeyd etmək lazımdər ki, optimal kapital ehtiyatı sabit qalmır. Hər bir firma üçün o digər şərtlərin eyniliyindən çıxış edərək hesablanır. Məsələn, texnoloji bazanın inkişafı optimal ehtiyatın kəmiyyətini dəyişə bilər ki, bu da öz növbəsində investisiyaya tələbi dəyişəcək (bax şəkil 14.2).

İnvestisiya prosesi və kapitalın quraşdırılmasına xərclər

Firma tərəfindən müəyyən həcmdə kapitalın yığılması bir anda baş vermir. Deyək ki, ΔK_T - kapital ehtiyatının optimal səviyyəyə çatdırılması üçün lazım olan

kapitalın miqdarıdır. Firma həmin investisiyanı bir il ərzində həyata keçirə bilərdi, lakin o, investisiya qoyuluşu prosesini bir neçə ilə bölür:

$$\Delta K_T = \Delta K_1 + ... + \Delta K_t .$$

Firmanın belə davranışı bu vaxtadək kifayət qədər diqqət yetirmədiyimiz növ xərclərlə bağlıdır. Söhbət *yeni kapitalın quraşdırılması və istifadəyə verilməsi xərclərindən* gedir. Həqiqətən də, yeni kapitalın kəmiyyəti nə qədər böyük olarsa, onun istismara verilməsi xərcləri bir o qədər böyük olar. Yeni avadanlığın gətirilməsinə, quraşdırılmasına, montajına, tənzimlənməsinə və işə salınmasına lazım olan vaxtdan başqa, cari istehsal prosesinin pozulması və işçilərin yeni avadanlıqda işləməyə öyrədilməsi ilə bağlı xərclər ortaya çıxır. İqtisadi tədqiqatlar göstərir ki, quraşdırma xərcləri istifadəyə verilən kapital artdıqda, özü də xətti deyil, daha sürətlə artırlar.

Yuxarıda verilmiş misalda firma birdən DK_T-yə investisiya qoymaq və quraşdırmaya çoxlu xərc çəkmək istəmir, investisiya prosesini mərhələlərə bölür. Quraşdırma xərclərinin kapitalın həcmindən asılılığı xətti olmadığından, mərhələlər üzrə xərclərin cəmi birdəfəlik quraşdırma zamanı olduğundan az olacaq.

Beləliklə, firmanın illik investisiyaları kapitalın optimal səviyyəyə çatdırılması üçün lazım olandan az ola bilər. Bunu neoklassik modeldən istifadə etməklə formal göstərək. Deyək ki, bir vahid kapitalın quraşdırılmasına xərclər φ bərabərdir, bu halda investisiya qoyuluşunu belə göstərmək olar:

$$MPK = \frac{P_k}{P}(1 + r + d) + \varphi.$$

İndi investisiyaların mənfəətli olması üçün istifadəyə verilən kapitalın böyük faydalılığı lazımdır. Azalan son həddi məhsuldarlığı qanununun qüvvədə olmasını

nəzərə alan firma optimal ehtiyatın əldə olunması üçün lazım olandan az investisiya qoyacaqdır.

Diqqət verin, quraşdırma xərclərinin həcmi yuxarıda haqqında söhbət gedən β əmsalının kəmiyyətinə təsir edir.

§2. Tobin əmsalı və əsas kapitala investisiyalar

Firmanın əsas kapitala investisiyalarının neoklassik nəzəriyyəsi Nobel mükafatı laureatı Ceyms Tobinin adı ilə Tobin əmsalı adlandırılan q əmsalının köməkliyi ilə genişləndirilə və dərinləşdirilə bilər. Əmsal aşağıdakı kimi hesablanır:

$$q = \frac{\textit{Quraşdırılmış kapitalın bazar dəyəri}}{\textit{Quraşdırılmış kapitalın ödənilmə xərcləri}}$$


Düsturun məxrəci firmanın kapitalının fond bazarında yaranan dəyərinin qiymətidir. Başqa sözlə, firmanın səhmlərinin fond birjasında kotirovkası bazar iştirakçılarının onun gəlirliyi barədə fikirlərini əks etdirirlər. Səhmlərin məzənnəsi qalxırsa, bu o deməkdir ki, iştirakçılar kompaniyanın işlərinin vəziyyətini, onun inkişaf perspektivlərini, onun investisiya layihələrini və həmin kompaniyanın səhmlərinə sahib olmaqla bağlı risk səviyyəsini müsbət qiymətləndirirlər. Onlar firmanın mənfəətinin artmasını və gələcək dividendlərin yüksəlməsini gözləyirlər. Deməli, səhmlərə tələb artacaq və kotirovkalar da qalxacaq. Və əksinə, məzənnə aşağı düşürsə, bu o deməkdir ki, fond bazarı iştirakçıları firmanın gələcək uğurlarına əmin deyillər və ondan yüksək gəlir gözləmirlər.

Düsturun məxrəcində hazırkı zaman anı üçün firma kapitalının bazar dəyəri göstərilir. Başqa sözlə, əgər firma bu gün malik olduğu bütün kapitalı, yəni cari bazar qiymətlərinə almaq qərarına gəlsə, bu yeni kapitalın dəyəri belə ola bilər.

Beləliklə, Tobin əmsalı fond bazarının qiymətləndirdiyi

kapitalın dəyəri ilə kapital alışının bazar qiymətinin nisbətini göstərir. Əgər q>1 olarsa, bu onu göstərir ki, kapitalın bazar qiyməti onun adi ödəmə dəyərindən yüksəkdir. Fond bazarı iştirakçıları kompaniyanın inkişaf perspektivlərini və onun mənfəət əldə etmək imkanlarını müsbət qiymətləndirirlər. Əgər q<1 olarsa, onda çox güman, firmanın çətinlikləri var və ya hər halda fond bazarı onun fəaliyyətini çox aşağı qiymətləndirir.

İndi isə investisiya qoyuluşu məsələsinə müraciət edək. İnvestisiya qərarının qəbul edilməsində Tobin əmsalını bilmək xeyli fayda verə bilər. Belə ki, q>1 olarsa, onda kapital ehtiyatının artırılması fond bazarının gözləmələrinə cavab verəcək – yeni maşınlar, avadanlıq, texnologiyalar daha çox məhsul istehsal etməyə, onun keyfiyyətini yaxşılaşdırmağa, çeşidi genişləndirməyə və s. və bununla da firmanın mənfəətini və səhmdarların dividendlərini artırmağa imkan verər. İnvestisiya qoyuluşu firmaya öz kapitalının bərpaedici dəyərini bazar dəyərinə çatdırmağa imkan verər. Kapital ehtiyatının artması nəticəsində Tobin əmsalı düsturunun məxrəci artacaq və q qiyməti vahidə yaxınlaşacaq. Əgər q<1 olarsa, firma investisiya qoyuluşunu dayandırmalı və kapital ehtiyatını ixtisar etməlidir. Bu halda o, öz resurslarından daha səmərəli istifadə edə bilər və istehsalın həcmini azaltmaqla



Şəkil 14.3. İnvestisiyalar və Tobin əmsalı

mənfəətini artırar. q=1 olarsa, firma üçün «investisiya tarazlığı» yaranacaq, bu halda onun öz kapitalının həcmini dəyişməyə ehtiyacı yoxdur. Şəkil 14.3-də investisiya kəmiyyətinin Tobin əmsalından asılılığı verilmişdir.

Bölmə 14.1-də göstərildiyi kimi, firma tərəfindən lazımi həcmdə kapitalın yığımı ani baş vermir. Tobin əmsalı vahiddən fərqlidirsə, firmalar q=1-ə fiziki cəhətdən mümkün olandan xeyli daha uzun müddət ərzində çata bilərlər ki, bu da **quraşdırma xərclərinin** olması ilə bağlıdır. Nəticədə firmalar kapitalın lazımi səviyyəyə qədər artırılması prosesini bir neçə mərhələyə bölürlər.

Quraşdırma xərclərinin investisiya prosesinə təsirini Tobin əmsalının köməkliyi ilə necə izah etmək mümkün olduğunu nəzərdən keçirək. Bunun üçün fond bazarında kapitalın son həddi məhsulunun diskontlaşdırılmış dəyəri qiymətləndirilən dəyərini götürək:

$$\textit{quraşdırılmış kapitalın bazar dəyəri} = \frac{\text{MPK}}{(1+r)}.$$

Kapitalın dəyişməsi, yəni gələn ildəki investisiya qoyuluşu məsələsini nəzərdən keçirdiyimizdən diskontlaşdırma zamanı yalnız bir il üçün diskont norması nəzərə alınır.

İndi Tobin əmsalını aşağıdakı kimi vermək olar:

$$q = \frac{\text{MPK}/(1+r)}{P_k / P}.$$

Bu düsturdan Tobin nəzəriyyəsi ilə neoklassik investisiya qoyuluşu nəzəriyyəsi arasındakı əlaqə aşkar görünür. Beləliklə, optimal kapital ehtiyatına kapitalın son həddi məhsulu ilə əlavə kapital nemətinin alışına xərclər bərabər olduqda çatılır. Əgər q>1 olarsa, son həddi məhsulu xərclərdən çoxdur və firma üçün investisiya qoyuluşu məqsədə-


uyğundur, amma q<1 olarsa, onda son həddi məhsulu xərclərdən azdır və firma istifadə olunan kapitalın həcmini azaltmalıdır. Diqqət verək ki, belə şərh zamanı amortizasiya ayırmaları və aradan çıxan kapitalın əvəzlənməsi ilə bağlı investisiyalar nəzərə alınmır. Bu xərc növü Tobin əmsalının təhlilinə əlavə edilə bilər, lakin materialın verilməsini sadələşdirmək məqsədilə burada verilmir.

Qayıdaq quraşdırma xərclərinə. $\varphi > 1$ olduğunu nəzərə alsaq, optimal kapital ehtiyatı üçün Tobin əmsalı aşağıakı kimi verilə bilər:

$$q = \frac{MPK/(1+r)}{P_k / P \cdot (1+\varphi)}.$$

Bu halda q=1 olduqda, kapitalın son həddi məhsulu kapital alışına xərclərdən çoxdur, yəni kapital ehtiyatı optimal deyil. Yeni kapital işə salındıqca MPK aşağı düşür və Tobin əmsalı da azalır. İnvestisiyalan az olur, amma quraşdırma xərcləri də azalır. İxtisarlar φ sıfra yaxınlaşana qədər davam edəcək. Bu halda yenə də $q = 1$ və kapital ehtiyatı optimal səviyyədədir.

Quraşdırma xərclərinin olması firmaları optimal kapital ehtiyatları olan nöqtəyə ardıcıl olaraq kiçik addımlarla yaxınlaşmağa məcbur edir. Şəkil 14.4-də bu proses qrafik şəkildə verilmişdir.



Şəkil 14.4.. İnvestisiyalar və quraşdırma xərcləri

Üfüqi ox üzərində alınan kapitalın (investisiyaların) kəmiyyəti, şaquli ox üzərində isə Tobin əmsalı qeyd olunur. Qalxan xətt $(1+\varphi)$ kapitalın quraşdırılmasına xərcləri göstərir. Qrafik alınan kapitalın kəmiyyətindən asılı olaraq xərclərin qeyri-xətti artımını əks etdirir. q=1 səviyyəsində üfüqi xətt kapitalın quraşdırılmasına xərclərin olmadığı vəziyyəti göstərir. ξ_1 –lə qeyd olunmuş xətt kapitalın alınmasına xərclərin hər vahidinə düşən son həddi məhsulunu göstərir:

$$\xi_1 = \frac{MPK/(1+r)}{P_k / P}$$

Quraşdırma xərcləri olmasaydı, onda firma üçün investisiyaların optimal kəmiyyəti I_0 kəmiyyəti, yəni q=1 və kapitalın son həddi məhsulunun onun alınmasına xərclərə bərabər olduğu nöqtə olardı. $\varphi > 0$ olduğu halda firma investisiya qoyuluşu prosesini mərhələlərə bölür. İlkin mərhələdə firma investisiyanın həcmini aşağıdakı şərtlərdən çıxış edərək müəyyənləşdirir:

$$q = \frac{MPK/(1+r)}{P_k / P\,(1+\varphi)} = 1 \text{ və ya } \xi_1 = (1+\varphi).$$

Beləliklə, I_1 investisiya kəmiyyəti ξ_1 və $(1+\varphi)$ qrafiklərinin kəsişmə nöqtəsində müəyyənləşdirilir. Bu zaman Tobin əmsalı vahiddən böyük olur. Yeni kapitalın alınması nəticəsində onun son həddi məhsulu azalır ki, bu da xəttin yerini ξ_1 vəziyyətindən ξ_2 vəziyyətinə dəyişməsinə səbəb olur. İnvestisiyaların yeni kəmiyyəti I_2 –yə, Tobin əmsalının qiyməti isə q_2-yə bərabər olur. Firma investisiya prosesini quraşdırma xərcləri sıfra yaxınlaşıncaya və q –nin qiyməti 1-ə bərabər oluncaya qədər davam etdirəcək.

Diqqət yetirin ki, şəkil 14.3-də verilmiş investisiyaların kəmiyyətinin Tobin əmsalının qiymətindən bilavasitə asılılığı şəkil 14.4-də də təkrarlanır.

§3. Keynsçi investisiya nəzəriyyəsi

Keynsçi investisiya nəzəriyyəsi C.M.Keynsin «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» kitabında verdiyi kapital qoyuluşlarının son həddi səmərəliliyi anlayışına söykənir. O, *kapital qoyuluşlarının son həddi səmərəliliyinin* «bütün xidməti müddətində kapital əmlakının istifadəsindən gözlənilən bir sıra illik gəlirlərin hazırkı dəyərini onun təklif olunan qiyməti ilə bərabərləşdirəcək faiz dərəcəsinə bərabər kəmiyyət» olduğunu göstərir.

Kapital qoyuluşlarının son həddi səmərəliliyi – elə faiz dərəcəsidir ki, o olanda investisiya layihəsindən gəlirlərin göstərilən dəyəri onun hazırkı dəyərinə bərabər olur.

Keyns yanaşması vaxt amilini nəzərə alır. Kapital nemətlərinin alınması firmaya yalnız maşın və dəzgahların quraşdırıldığı ilində deyil, həm də sonrakı illərdə məhsul istehsal etməyə və gəlir götürməyə imkan verir. Beləliklə, investisiyalardan «hazırkı dəyəri» və ya göstərilən dəyəri qiymətləndirmək üçün *diskontlaşdırmadan* istifadə etmək lazımdır. Deyək ki, R_i - i ilində məhsul istehsalına cari xərcləri çıxmaq şərtilə firmanın əldə etdiyi gəlirin miqdarı, n – nəzərdən keçirilən illərin sayıdır, onda gözlənilən gəlirlərin (R) verilən dəyərini belə göstərmək olar:

$$R = \sum_{i=1}^{n} \frac{R_i}{(1+r)^i}.$$

Burada r – diskontlaşdırma normasıdır.

Keynsin sözlərinə görə, «...investisiyalardan gözlənilən gəlirə kapital əmlakın təklif qiyməti qarşı durur, özü də bu qiymət həmin növ əmlakın hazırda bazarda alına biləcəyi bazar qiyməti kimi deyil, istehsalçını həmin əmtəədən əlavə vahid istehsal etməyə sövq etmək üçün kifayət edəcək qiymət kimi başa düşülür, bunu adətən onun bərpaedici dəyəri adlandırırlar».

Kapitalın bərpaedici dəyərini P_k kimi qeyd etsək, kapital qoyuluşunun son həddi səmərəliliyini müəyyənləşdirən

şərti alarıq:

$$P_k = R \text{ və ya } P_k = \sum_{i=1}^{n} \frac{R_i}{(1+r)^i}$$

Kapitalın qiyməti ilə onun gətirilən gəlirini bərabərləşdirən r^* diskont norması *kapital qoyuluşlarının son həddi səmərəliliyidir.*

Yuxarıda verilmiş düsturdan görünür ki, son həddi səmərəliliyi kapitalın yalnız cari gəlirindən deyil, ondan gözlənilən gəlirdən asılıdır. Əlavə kapital vahidindən pul mədaxilləri vaxta görə xeyli fərqli ola bilirlər. İlk illər gəlir avadanlığın fiziki gücündən asılı olmayaraq sonrakı illərə nisbətən daha yüksək ola bilər. Məsələn, $R_1 > R_n$. Bu halda son həddi səmərəliliyi daha aşağı olur, nəinki vaxt ərzində gəlirin dəyişməyəcəyi nəzərdə tutularsa, bu isə statistik modellərdə olduğundan daha az investisiyalara aparır.

Bunu **misalda** nəzərdən keçirək. Deyək ki, alınan kapital vahidinin bərpa dəyəri 1000 rubldur və firma layihə həyata keçirilməndən sonra hər il 1000 rubl olmaqla yalnız iki il ərzində qoyulmuş investisiyadan mənfəət götürəcək. Statistik modeldə mənfəət vaxt ərzində dəyişmir. Bu halda kapital qoyuluşunun son həd səmərəliliyi aşağıdakı kimi hesablana bilər:

$$1000 = \frac{1000}{(1+r)} + \frac{1000}{(1+r)^2}.$$


Bu tənliyi həll etsək, görərik ki, $r \approx 62\%$.

İndi fərz edək ki, ikinci ildə investisiyadan gələn mənfəət 500 rubla qədər azalır. Bu halda son həddi səmərəliliyinin yeni qiyməti: $r \approx 37\%$ təşkil edəcək.

Mənfəətin azalması istehsal xərclərinin artması (məsələn, əməkhaqqının artırılması), həmçinin elmi-texniki tərəqqi ilə əlaqədar ola bilər. Həmin avadanlıqda istehsal olunan məhsul hazır əmtəənin qiymətini aşağı salmağa imkan verən yeni avadanlıq vasitəsilə istehsal olunan məhsulla rəqabətə girməlidir. Nəticədə nəzərdən keçirilən kapital vahidinin is-

tifadə edilməsindən gələcəkdə götürüləcək mənfəət cari mənfəətdən az olacaq.

Bəs kapital qoyuluşlarının son həddi səmərəliliyi ilə investisiya qoyuluşu arasında hansı əlaqə mövcuddur? Əgər hər hansı kapital növünə müəyyən vaxt ərzində investisiyaların artması baş verirsə, onun son həddi səmərəliliyi azalır. Bu, bir tərəfdən, azalan mənfəət vermə (bütün digər amillərin dəyişilməzliyi şəraitində) qanununun təsiri altında baş verir, digər tərəfdən isə, tələbin artmasına görə kapital nemətlərinin qiymətinin qalxması ilə əlaqədardır. İnvestisiyaların həcminin kapital qoyuluşlarının son həddi səmərəliliyi ilə əlaqəsi şəkil 14.5-də I_d investisiyalara tələb qrafiki şəklində verilmişdir.



Şəkil 14.5. İnvestisiyaya tələb

Firma kapital qoyuluşlarının son həddi səmərəliliyi faiz normasından yüksək qaldıqca həyata keçirir. Başqa sözlə, layihənin səmərəliliyi borc götürülmüş resursların qiyməti və vəsaitdən alternativ istifadənin dəyərindən ibarət olan faiz dərəcəsindən yüksək olmalıdır. Əks təqdirdə sahibkar üçün sərbəst vəsaiti banka qoyub faiz almaq investisiya qoymaqdan daha sərfəlidir. Şəkil 14.5-də nominal faiz dərəcəsi a olduqda investisiyaların həcmi I_1 təşkil edəcək. Keynsin interpretasiyasında faiz dərəcəsi pul bazarında tələb və təklifin qarşılıqlı təsiri nəticəsində formalaşan və pul bazarı

iştirakçılarının gözləmə və əhvalı kimi psixoloji amillərdən asılı olan «monetar fenomen» kimi təqdim olunur. Məsələn, iqtisadiyyatda qeyri-sabitlik «likvidliyə meyili» gücləndirir, buna görə də yaranmış meyili dəf etmək üçün daha yüksək faiz gərəkdir. Bazarın sabitliyi isə, əksinə, «likvidliyə üstünlükverimi» və onunla birgə faiz dərəcəsini azaldır.

İnvestisiyaların həcminin kapital qoyuluşlarının son həddi səmərəliliyindən asılılığı inflyasiyanın investisiya prosesinə təsirinin təhlilində böyük rol oynayır. Əgər iqtisadiyyatda qiymətlərin səviyyəsi qalxırsa, son həddi səmərəliliyi də yüksəlir, çünki gələcəkdə gözlənilən R_i gəlirləri də artır. İnvestisiyalara tələb qrafiki sağa yerini dəyişəcək. Bazar faizə dəyişilməz olarsa, investisiyaların həcmi böyük olar. Keynsin özü bu prosesi belə təsvir edirdi: «Pulların dəyərinin gələcək dəyişmələrinin bilavasitə təsirini hiss etdikləri amilin məhz nağd kapitalın son həddi səmərəliliyinin deyil, faiz normasının olması haqqındakı ehtimallar səhvdir. ...Gözləmələrdəki bu kimi dəyişmələrin əhəmiyyəti ondadır ki, onlar (kapitalın son həddi səmərəliliyi vasitəsilə) yeni aktivlər istehsal etmək hazırlığına təsir edirlər. Qiymətlərin gözlənilən artımının stimullaşdırıcı effekti bununla əlaqədar olaraq faiz normasının artması ilə deyil (bu şəkildə məhsul buraxılışını stimullaşdırmaq qəribə olardı – axı, faiz norması art- dıqda, eyni bir dərəcədə də onun stimullaşdırıcı effekti azalır), bununla əlaqədar olaraq həmin növ kapital fondunun son həddi səmərəliliyinin artması ilə şərtlənir. ...Axı, məhsul istehsalının genişləndirilməsinə stimul kapitalın son həddi səmərəliliyinin faiz normasına nisbətən nə qədər artması ilə müəyyənləşir».

İnvestisiyalara tələb qrafiki faiz dərəcəsi dinamikasından gözləmələrdən də asılı olaraq yerini dəyişə bilər. Belə ki, faiz normasının azalmasını gözləmək I_d investisiyalara tələb qrafikini sola hərəkət etdirir, çünki həmin avadanlıqda istehsal olunmuş məhsul gələcəkdə daha aşağı gəlir səviyyəsində öz xərcini çıxardan yeni avadanlıqda istehsal olunmuş məhsulla rəqabət aparmalı olacaq.

Mövcud faiz norması gələcək investisiyaların gəlirliliyinin aşağı həddini müəyyənləşdirir: o nə qədər aşağı olsa, bütün digər şərtlərin bərabərliyi şəraitində investisiya prosesi bir o qədər canlı olar və əksinə. İnvestisiyaların son həddi səmərəliliyi bədbin əhval-ruhiyyəyə və hətta panikaya olduqca həssasdır. Son həddi səmərəliliyinin qeflətən faiz normasına qədər enməsi dərin depressiyalara səbəb ola bilər. C.M.Keyns qeyd edirdi ki, məhz gözləmələrdəki dəyişikliklər kapital qoyuluşlarının son həddi səmərəliliyində və deməli, firmanın investisiya xərclərində kəskin artıb-azalmalar doğura bilərlər. Deyilənləri yekunlaşdıraraq, keynsçi muxtar investisiyalar funksiyasını belə vermək olar:

$$I_t = mpi\ (r - \bar{r}).$$

Burada *mpi* – investisiya qoyuluşlarına son həddi meyilliyidir.

İnvestisiya qoyuluşlarına son həddi meyilliyi kapital qoyuluşlarının son həddi səmərəliliyi ilə faiz dərəcəsi arasında fərq dəyişdikdə investisiya həcminin necə dəyişildiyini göstərir.

Kapital qoyuluşlarının son həddi səmərəliliyi ilə faiz dərəcəsi arasındakı fərq nə qədər böyük olsa, bütün digər şərtlərin bərabərliyi şəraitində investisiyaların həcmi bir o qədər böyük olur.

İnvestisiyaların keynsçi və klassik funksiyaları arasında fərq

İnvestisiya tələbinin təhlilinə keynsçi və neoklassik yanaşmaların zahiri oxşarlıqlarına baxmayaraq onların mahiyyəti və metodologiyaları xeyli dərəcədə fərqlidirlər.

İki nəzəriyyə arasındakı əsas fərq kapitalın son məhsulunun (neoklassik nəzəriyyədə) və kapital qoyuluşlarının son həddi səmərəliliyinin (keynsçi nəzəriyyədə) müəyyənləşdirilməsindədir. Neoklassiklər üçün MPK istehsal funksiyasından alınır, yəni istifadə olunan texnologiyaya və daha geniş götürdükdə, elmi-texniki tərəqqinin nailiyyətlərinə əsaslanır. Keynsçi nəzəriyyədə son həddi səmərəliliyi gələcək mənfəətlərə, inflyasiyaya, faiz dərəcəsinə və s. görə gözləmələrdən asılıdır, yəni bu, sahibkarların fikirləri və proqnozlarına əsaslanan subyektiv kateqoriyadır.

Keynsin qeyd etdiyi kimi, neoklassik son həddi səmərəliliyindən fərqli olaraq, kapitalın son həddi səmərəliliyi «...əmlakın xidmət müddətinin sonundakı verilənlər əsasında onun ilkin dəyərinə nisbətdə investisiya qoyuluşunun nə verdiyinin retrospektiv qiymətləndirilməsi deyil, yeni istehsal olunan əmlaka pul qoyanda əldə etmək istədikləri gəlir normasından asılıdır».

Keynsçi nəzəriyyə, əldə olunacaq gəlirlərin avadanlığın istifadə olunduğu ilk illərə nisbətən sonrakı illərdə azalma ehtimalını nəzərə alaraq, kapitaldan gələcək gəlirlər axınına daha çox diqqət yetirir. Neoklassik nəzəriyyədə bu amilə ümumiyyətlə diqqət yetirilmir. Burada istehsal funksiyasından alınan cari andakı mənfəət nəzərdən keçirilir.

Nəzərdən keçirilən nəzəriyyələr investisiyaların mənfəət veriminin qiymətləndirilməsindəki fərqdən çıxış edərək investisiyaların tarazlı kəmiyyətini müəyyənləşdirən müxtəlif amilləri fərqləndirirlər. Neoklassiklər üçün bu, birinci növbədə bazar faiz dərəcəsidir. Keynsçilər üçün isə sahibkarların son həddi səmərəliliyinin kəmiyyətinə təsir edən nikbinliyi və bədbinliyidir.

İki nəzəriyyədə faiz dərəcəsinə münasibət də xeyli fərqlidir. Neoklassiklər hesab edirdilər ki, faiz norması yığım və investisiya qrafiklərinin kəsişmə nöqtəsi ilə müəyyənləşir (buradan da onlar avtomatik olaraq investisiyalar və yığımın bərabərliyi fikrinə gəlirdilər). Keyns isə yazırdı ki, faiz özü investisiyaların son kəmiyyətini müəyyənləşdirir, özü onlar tərəfindən müəyyənləşdirilmir.

Keynsçi nəzəriyyə və Tobin əmsalı

Əvvəlki bölmədə biz investisiyaların dinamikasını əks etdirən xeyli əlverişli indikator nəzərdən keçirmişdik. Tobin

əmsalının qiymətindən asılı olaraq investisiyaların kəmiyyəti arta və ya azala bilər. Neoklassik yanaşma çərçivəsində Tobin əmsalı öz əksini tapdı. O, keynsçi nəzəriyyəyə də uyğun gələ bilərmi?

Bölmə 14.2-də verilən Tobin əmsalı düsturu belədir:

$$q = \frac{\textit{Quraşdırılmış kapitalın bazar dəyəri}}{\textit{Quraşdırılmış kapitalın ödənilmə xərcləri}}$$

Quraşdırılmış kapitalın bazar dəyəri fond bazarı tərəfindən qiymətləndirilir. Bazar iştirakçıları gələcək gəlirləri gözlənilən makroiqtisadi parametrlərdən çıxış edərək proqnozlaşdırırlar. Başqa sözlə, bazar investorların nikbin və bədbin əhvallarını əks etdirir. Beləliklə, firma kapitalının bazar qiyməti və ya fond bazarının konyunkturası firmanın investisiyalardan diskontlaşdırılmış mənfəət gözləmələrini qiymətləndirir. Keyns özü qeyd edirdi ki, fond birjasındakı kotirovkaların artıb-azalmaları cari investisiyaların səviyyəsinə həlledici təsir göstərir. Quraşdırılmış kapitalın əvəzlənmə xərcləri keynsçi nəzəriyyədə bərpaetmə dəyərinə müvafiqdir.

Deyilənləri nəzərə alaraq, Tobin əmsalını keynsçi model çərçivəsində aşağıdakı kimi vermək olar:

$$q = \frac{R}{P_k}.$$

Əgər q>1 olarsa, bazar firmanın kapitalını və müvafiq olaraq onun gələcəkdə kapitalın bərpaetmə dəyərindən yüksək mənfəət götürmə qabiliyyətini qiymətləndirir. İnvestisiyalar özünü doğruldur. Əgər q<1 olarsa, firma investisiya layihələrini həyata keçirməməlidir.

§4. Mənzil tikintisinə investisiyalar


Milli hesablar sistemində ev təsərrüfatları tərəfindən mənzil alınması investisiya kimi nəzərdən keçirilir. Həqiqətən də, ev alqısı gəlir gətirə biləcək uzunmüddətli vəsait qoyuluşudur. Fərd bir tərəfdən öz evi və ya mənzilini kirayə verib kirayə haqqı ala bilər. Digər tərəfdən isə öz evində (mənzilində) yaşayır, mənzil haqqı verməyib bununla pullarına qənaət edir.

Mənzil tikintisinə investisiya modellərini nəzərdən keçirək.

Mənzilə investisiyalar müəyyən zaman kəsiyi ərzində binaların sayının artması deməkdir. İstənilən vaxt bazarda yaşayış sahəsinə tələb və mənzil təklifi var. Özü də nəzərdən keçirilən dövrdə təklif nağd olan binaların sayı ilə məhdudlaşır. Mənzilin real tarazlı qiyməti (P_h/P) tələb və təklifin qarşılıqlı təsiri nəticəsində yaranır. Bu qiymət tikinti firmaları üçün oriyentir olur. Qiymət aşağı olduqda mənzil fonduna investisiyalar da az olacaq, çünki tikinti firmaları mənzilləri baha qiymətə satmağa ümid etmirlər. Digər tərəfdən, qiymətlər yüksək olsa, investisiyaların həcmi də çox olacaq. Şəkil 14.6-da mənzilə investisiyalar qrafik şəkildə verilmişdir.

Şəkil 14.6, *a*-da cari an üçün mənzil bazarı təsvir olunmuşdur – təklif nağd olan mənzil fondu səviyyəsində təsbit olunmuşdur, tələb mənzilin qiymətindən asılıdır. Bazarda müəyyənləşmiş tarazlı qiymət mənzil tikintisinə investisiyaların həcmini müəyyənləşdirir ki, bu da şəkil 14.6, *b*-də verilmişdir və burada S_1 yeni mənzil təklifidir. Belə ki, qiymət $(P_h/P)_1$ olduqda, investisiyaların həcmi I_1 olacaq, qiymət $(P_h/P)_2$-yə qədər artarsa, onda investisiyalar da artıb I_2 olar.

Mənzil tikintisinə bu investisiya modeli artıq nəzərdən keçirilmiş Tobin əmsalı nəzəriyyəsinə yaxındır. Həqiqətən də, tikinti firmaları mənzilin real qiymətindən (P_h/ P) çıxış edirlər ki, həmin qiymət bir tərəfdən tikinti firmalarının gözlənilən gəlirini, digər tərəfdən isə mənzildən istifadədən ev sahiblərinin xeyirini (bu da mənzilə tələbi müəyyənləşdirir) əks etdirir. Bununla da mənzilin real qiyməti müəyyən mənada Tobin əmsalının analoqu kimi çıxış edir. Qiymətin artması mənzil tikintisinə investisiyaların artması, azalması



Şəkil 14.6.Mənzil tikintisinə investisiyalar

isə - azalması deməkdir.

Bu yerə kimi biz vəziyyəti faiz dərəcəsi məsələsinə toxunmadan nəzərdən keçirirdik. Yuxarıdakı bütün mülahizələr «bütün digər şərtlərin bərabərliyi şəraitində» ehtimalı ilə aparılırdı ki, bu şərtlərdən də biri faiz dərəcəsi idi.

Faiz dərəcəsi mənzilə tələb qurulanda nəzərə alınır. Faiz dərəcəsi, eynilə əsas kapitala investisiya qoyuluşunda olduğu kimi, pul qoyuluşunun, bu halda – mənzilə, alternativ xərclərini əks etdirir. Faiz dərəcəsi nə qədər yüksək olsa, ev və ya mənzil almayıb (yaşayış sahəsinə tələb az olacaq) bankda saxlamaq bir o qədər daha sərfəlidir.


Deyək ki, bazarın faiz dərəcəsi əvvəlcə r_1-ə bərabər olub. Belə faiz dərəcəsində mənzilə tələb D_{h_1}, mənzilə investisiyalar isə I_1 olmuşdur. İndi fərz edək ki, faiz dərəcəsi aşağı

düşür. Nəticədə mənzilə tələb artır. Şəkil 14.6, a-da D_h tələb qrafiki yerini sağa, D_{h2} vəziyyətinə dəyişir. Nəticədə tarazlı qiymət $(P_h/P)_2$–yə, investisiyaların həcmi isə I_2-yə qədər artır. Şəkil 14.6, *b*-də faiz dərəcəsi ilə investisiyaların əlaqəsi göstərilmişdir. Gördüyümüz kimi, faiz dərəcəsi enəndə, investisiyaların həcmi artır və əksinə.

Beləliklə, bütün digər investisiya növləri kimi. mənzil tikintisinə investisiyaların da həcmi bazar faiz dərəcəsindən asılıdır. Başqa sözlə, mənzil tikintisi üçün investisiya resurslarına tələbin kəmiyyətinin faiz dərəcəsindən əks asılılığı mövcuddur.

Mənzilə investisiyalara tələbin həcmi əvvəllər yenə də «digər bərabər» kimi götürülən digər parametrlər dəyişdikdə də dəyişə bilir. Məsələn, ev təsərrüfatlarının rifahının yaxşılaşması, əhalinin sayının artması, mənzil alışında güzəştlərin tətbiq edilməsi əvvəlki faiz dərəcəsində mənzilə tələbin artmasına səbəb olur, mənzilin real qiyməti artır və mənzil tikintisinə investisiyalar da artaraq investisiyalara tələb qrafikinin yerini sağa dəyişdirir. Şəkil 14.7-də bu vəziyyət qrafik şəkildə göstərilmişdir.

Qeyd etmək lazımdır ki, mənzil tikintisinə investisiyalar iqtisadiyyatın dinamik inkişafının təhlilində mühüm rol oynayırlar. XX əsrin görkəmli iqtisadçılarından biri E.Xansen özünün iqtisadi tsikllər nəzəriyyəsində müddəti 17-20 il olan tikinti tsikllərini fərqləndirirdi. Onun nəzəriyyəsinin mahiyyətini qısa şəkildə aşağıdakı kimi vermək olar. Fərz edək ki, hazırda mənzilə tələb artıb və bazarda mənzil çatışmazlığı (defisiti) var. Bazar qiyməti artır, bu da mənzil tikintisinə investisiya qoyuluşu üçün stimuldur. Tikintisi başlanmış evlər əslində tələbi ödəməyə bəs edər, lakin onların tikintisi başa çatmadığından, qiymətlər artmaqda davam edir və yeni investisiyaları stimullaşdırır. Tikinti bumu belə sürət yığır. Sonradan tikilmiş binaların istifadəyə verilməsi mənzilə tələbatı ödəyir, lakin firmalar başlanmış binaları tikib başa çatdırmaqda davam edirlər. Bu halda artıq istehsal və tikinti sənayesində tənəzzül baş verir. Gətirilən mülahi-



Şəkil 14.7. İnvestisiya tələbinin yerdəyişməsi

zələrdən görünür ki, tikinti tsiklləri yeni binalara tələbatın yaranması ilə həmin tələbatın ödənilməsi arasında zaman boşluğu olduğundan meydana gəlirlər, bu da investisiya qoyuluşlarının uzunmüddətli xarakteri ilə əlaqədardır.

§5. Ehtiyata investisiyalar

İnvestisiyalar ehtiyatının toplanılması da investisiya komponentlərindən biridir. Hazır məhsul ehtiyatlarının anbarda artması firma üçün gələcəkdə ona gəlir gətirəcək aktivlərin toplanması deməkdir. Buna görə də belə artımı investisiya qoyuluşu adlandırmaq olar. Qeyd etmək lazımdır ki, bu növ investisiya ən qeyri-sabitdir və iqtisadi tsikl ərzində onların həcmi xeyli fərqli artıb-azalır. Yuxarıda adı çəkilən E.Xansen özünün tsikllər çoxluğu nəzəriyyəsində dövriyyə kapitalının təkrar istehsalının qeyri-bərabərliyin-

dən doğan (maddi-əmtəə ehtiyatlarına kapital qoyuluşları zəminində) iki ildən üç ilədək kiçik tsiklləri də nəzərdən keçirir.

Bəs nə üçün firmalar hazır məhsulun hamısını satmayıb, bir qismini ehtiyatda saxlayırlar? Bu sualın bir neçə cavabı ola bilər.

1. İstehsal həcminin sabitləşdirilməsi. Firmanın məhsuluna tələblərin artıb-azalmaları buna gətirib çıxarır ki, firma öz istehsalını bu artıb-azalmalara uyğunlaşdırmalı olur. Tələb düşəndə istehsal həcmi azalmalı və əksinə. Buna görə də xərclərə qənaət etmək üçün firmaya tələb dəyişdikdə ehtiyatların qədərini dəyişməklə sabit miqdarda məhsul buraxmaq daha sərfəlidir.

2. İstehsalın normal fəaliyyətinin və əmtəə təklifinin təmin edilməsi. Firma ehtiyatı istehsalın gözlənilmədən dayandırılması hallarını (məsələn, dəzgahın sınması və ya işçilərin tətili) nəzərə alaraq sabitləşdirmə (hətta sığortalayıcı da demək olar) fondu kimi saxlaya bilər. Bu halda əlverişsiz vəziyyətlərdə firmanın ehtiyatları azalacaq və bununla əmtəə təklifinin fasiləsizliyini təmin edəcək. Bundan başqa, əmtəə ehtiyatları firmaya gözlənilməz tələb artımlarını ödəməyə imkan verir.

3. Bitməmiş istehsal. İstehsal prosesi müəyyən vaxt ərzində baş verdiyindən istənilən zaman anı üçün firmanın istehsalı hələ başa çatdırılmamış əmtəələri ola bilir. Onlar da firmanın ehtiyatı kimi nəzərə alınır, çünki firma gələcəkdə onların istehsalını başa çatdırıb onlardan təklifinin artırılmasında istifadə edə bilər.

Ehtiyata investisiyaların dinamikası akselerator modelində yaxşı təsvir olunmuşdur. O, 15-ci fəsildə geniş nəzərdən keçirilir, burada isə onun mexanizminin mahiyyətini qısaca təsvir etməklə məhdudlaşaq.

Hər bir zaman anı üçün firmanın müəyyən həcmdə hazır məhsul və bitməmiş istehsal ehtiyatı var ki, firmanın məhsul buraxılışının həcminə mütənasibdir. Bir firmanı nəzərdən keçirməkdən makroiqtisadi kəmiyyətlərə keçərək,

demək olar ki, il ərzindəki investisiyaların həcmi həmin ildəki ehtiyatların artımından ibarətdir. Akselerator modeli göstərir ki, investisiyaların həcmi məhsul buraxılışı həcminə mütənasibdir:

$$I = \alpha \cdot \Delta Y.$$

Burada α – akseleratorun kəmiyyətidir.

Bu model göstərir ki, ehtiyata investisiyalar iqtisadi tsiklin fazasından asılıdırlar. Yüksəliş dövründə firmalar istehsalı artırır, ehtiyata investisiyalar da artır. Əgər milli istehsalın həcmi azalırsa (tənəzzül fazası), onda investisiyalar mənfi işarəli olur – firmalar ehtiyatlarını satırlar.

Digər investisiyalar da belədir, ehtiyata investisiyalar bazar faiz dərəcəsindən asılıdır. Real faiz dərəcəsi ehtiyatların saxlanılmasının alternativ dəyəridir. Firma anbarda saxladığı ehtiyatları satsaydı və pulunu banka qoysaydı, bu halda gələcək dövrdə onun gəliri real faiz dərəcəsinə bərabər olardı. Ehtiyat toplamaqda firma bu növ gəliri itirir. Faiz dərəcəsi nə qədər yüksək olsa, «qurban» bir o qədər böyük və ehtiyatlara investisiya kəmiyyəti bir o qədər az olur. Bu asılılığı qrafik şəkildə şəkil 14.5-dəki kimi göstərmək olar. Milli gəlirin artması qrafikin yerini şəkil 14.2-də olduğu kimi sağa dəyişər.

Əsas anlayışlar və məfhumlar

İnvestisiya tələbi; optimal kapital ehtiyatı; investisiyaların neoklassik funksiyası; kapitalın son həddməhsuldarlığı; kapitalın pulla ifadədə son həddməhsuldarlığı; kapital alışının alternativ xərcləri; kapitalın dəyərinin dəyişməsi; fiziki və mənəvi aşınma; yeni kapitalın quraşdırılması və istifadəyə verilməsinə xərclər; Tobin əmsalı; investisiyaların keynsçi funksiyası; kapital qoyuluşlarının son həddsəmərəliliyi; diskontlaşdırma norması; investisiya qoyuluşuna son həddmeyililik; mənzilə investisiya; ehtiyata investisiya; akselerator.

XV FƏSİL. MULTİPLİKATOR-AKSELERATOR NƏZƏRİYYƏSİ

§1. İstehlak və yığımın dinamikasını müəyyənləşdirən amillər.

§2. İnvestisiyalar və onların dinamikasını müəyyənləşdirən amillər.

§3. Multiplikator və akselerator modellərində investisiyalar.

§4. Samuelson-Xiks modeli.

§5. Teves modeli.


§1. İstehlak və yığımın dinamikasını müəyyənləşdirən amillər

Klassik iqtisadi nəzəriyyə iki əsas müddəadan çıxış edir. Birincisi, bildirilir ki, Y=C+I+G+NX məcmu xərcləri səviyyəsinin resursların tam məşğulluğu şəraitində istehsal olunmuş məhsulu almağa azlıq edəcəyi vəziyyət çətin ki, mümkün olsun (yəni AD ≠ AS olan vəziyyət çətin ki, mümkün olsun).

İkincisi, hətta belə bir vəziyyət yaranarsa, onda dərhal , qiymətlər və faiz dərəcəsi dəyişiləcək və məcmu tələbin ardınca dərhal istehsalın tez və cüzi aşağı düşməsi baş verəcək və bu, vəziyyəti sabitləşdirəcək. Ən əsası odur ki, pul bazarı həmişə investisiyaların və yığımın bərabərliyinə və deməli, resursların tam məşğulluğuna təminat verir. Yalnız işsizliyin təbii səviyyəsi hüdudlarında «könüllü» işsizlik mümkündür. Bu o deməkdir ki, AD və AS müvazinət nöqtəsində Y istehsal həcmi həmişə potensial Y* həcminə bərabərdir.

Keynsçi iqtisadi nəzəriyyə belə bir özünütənzimləmə mexanizminin olması ilə razılaşmır. Böyük depressiya illərində əldə olunmuş empirik verilənlər əsasında C.Keyns sübut etdi ki, tənzimlənməyən iqtisadiyyatda tam məşğulluq yalnız təsadüfən yarana bilər. Tələb və təklifin tarazlığı bir

qayda olaraq resursların tam məşğulluğu ilə üst-üstə düşmür: AD = AS bərabərliyinin yaranmasına baxmayaraq, istehsalın tarazlı həcmi $Y_0 < Y^*$ (şəkil 15.1).



Şəkil 15.1. Məcmu tələb və təklif müvazinəti

Belə uyğunsuzluğun səbəblərindən biri müxtəlif iqtisadi agentlər tərəfindən fərqli səbəblərdən həyata keçirilən və fərqli amillərlə müəyyənləşdirilən investisiya və yığım planlarının fərqli olmasıdır.

Ev təsərrüfatlarının yığım motivləri:

- bahalı əmtəələrin alınması;
- qocalığın təmin edilməsi;
- qəfil hadisələrdən sığortalanmaq (xəstəlik, bədbəxt hadisə);
- gələcəkdə uşaqların təmin edilməsi.

Firmaların investisiya motivləri:

- xalis mənfəət normasının maksimumlaşdırılması;
- real faiz dərəcəsi – investisiya qoyuluşu üçün pul kapitalının alınmasına görə haqq – investisiya planları tərtib olunanda nəzərə alınır.

Klassik iqtisadi nəzəriyyəyə görə yığım və investisiyaların dinamikasını müəyyənləşdirən əsas amil faiz dərəcəsidir: o artdıqda ev təsərrüfatları hər əlavə gəlir vahidindən nisbətən daha çox yığım etməyə və az istehlak etməyə başlayırlar. Ev təsərrüfatlarının yığımının artması müəyyən vaxtdan sonra kreditin qiymətinin azalmasına səbəb olur ki, bu da investisiyaların artmasını təmin edir.

Keynsçi nəzəriyyəyə görə istehlak və yığımın dinamikasını müəyyənləşdirən əsas amil faiz dərəcəsi deyil, ev təsərrüfatlarının sərəncamında olan gəlirin kəmiyyətidir. Özü də gəlirin bütün istehlak xərcləri ödəndikdən sonra qalan hissəsi yığılır. Faiz dərəcəsinin təsiri ikinci dərəcəlidir və gəlirin istehlak və yığıma təsirinə münasibətdə nisbətən az rol oynayır. Eyni zamanda investisiyaların dinamikası hər şeydən əvvəl faiz dərəcələrinin dinamikası ilə müəyyənləşir ki, bu da öz əksini müvafiq istehlak, yığım və investisiya funksiyalarında tapır.

İstehlak və yığımın dinamikasını müəyyənləşdirən amillər:

- ev təsərrüfatlarının gəliri;
- ev təsərrüfatında toplanmış sərvət;
- iqtisadi gözləmələr;
- qiymətlərin səviyyəsi;
- istehlak borcunun həcmi;
- vergilərin səviyyəsi.

Dövlət istehlak və yığımın kəmiyyətlərini dəyişmək üçün xüsusi addımları (o cümlədən vergi sistemi vasitəsilə) atmırsa, onlar nisbətən sabitdir. Bu kəmiyyətlərin sabitliyi ev təsərrüfatlarının «istehlak etmək» və «yığmaq» qərarlarına müvafi ənənələrin təsiri ilə əlaqədardır. Özü də gəlirlə əlaqədar olmayan amillər cürbəcürdür və onların dəyişmələri çox vaxt bir-birini tarazlaşdırır.

Əgər məcmu tələbin birinci komponenti kimi istehlak xərcləri nisbətən sabitdirsə, ikinci komponent – investisiyalar əksinə, dəyişkəndir.

§2. İnvestisiyalar və onların dinamikasını müəyyənləşdirən amillər

Müasir investisiya nəzəriyyəsində gələcək inkişafa xərclər kimi iqtisadiyyatın yüksəlişi də onun prosesinin mühüm amili kimi nəzərdən keçirilir.

İnvestisiya tələbi məcmu tələbin ən dinamik və dəyişkən tərkib hissəsidir, o, obyektiv (iqtisadi konyunkturanın vəziyyətindən: gözlənilən xalis mənfəət norması, faiz dərəcəsi) və subyektiv (sahibkarların qərarları) amillərdən asılıdır. Faiz dərəcəsi ilə tələb olunan investisiyaların məcmu həcmi arasında əks asılılıq mövcuddur. İnvestisiyalara faiz dərəcəsindən başqa ÜDM-in artması, vergilərin həcminin dəyişmələri, texnoloji dəyişikliklər və sahibkar gözləmələri təsir göstərir.

İnvestisiyalara tələbin həcmini müəyyənləşdirən amillərdən asılı olaraq onları muxtar, yəni məcmu tələbin (milli gəlirin) artmasından irəli gəlməyənlərə və stimullaşdırılanlara, yəni məcmu tələbin (milli gəlirin) artmasından irəli gələnlərə bölürlər.

Muxtar investisiyaların ən sadə funksiyası bu şəkildə olur:

$$I_a = e - dr.$$

Burada I_a – məcmu gəlirdən muxtar olan investisiya xərcləri;

e – xarici iqtisadi amillərlə müəyyənləşdirilən muxtar investisiyalar (faydalı qazıntılar ehtiyatı və s.);

r – real faiz dərəcəsi;

d – investisiyaların faiz dərəcəsinin dinamikasına empirik həssasıq əmsalı.

İnvestisiyaların dinamikasını müəyyənləşdirən amillər:

- gözlənilən xalis mənfəət norması;
- real faiz dərəcəsi;
- vergilərin səviyyəsi;
- istehsal texnologiyasında dəyişikliklər;

- nağd əsas kapital;
- iqtisadi gözləmələr;
- məcmu gəlirin dinamikası.

Məcmu gəlir artdıqca muxtar investisiyalara ÜDM artdıqca həcmi böyüyən stimullaşdırılan investisiyalar da əlavə olunur. İnvestisiyalar sahibkar gəlirindən maliyyələşdirildiyindən, o isə öz növbəsində Y məcmu gəliri artdıqca artdığından, Y artdıqca investisiyalar da artır. Özü də məcmu gəlir artdıqda yalnız bilavasitə istehsal investisiyaları artmır, həm də əmtəə-maddi ehtiyatlara və mənzil tikintisinə də investisiyalar artır, çünki iqtisadiyyatın dirçəliş mərhələsində tükənmiş kapital ehtiyatlarının doldurulmasına stimul yaranır və yaşayış binalarına tələb artır.

İnvestisiyaların gəlirdən müsbət asılılığı funksiya şəklində göstərilə bilər:

$$I = e - dr + \gamma Y.$$

Burada γ – investisiya qoyuluşuna son həddi meyilliyi;

Y – məcmu gəlirdir.

İnvestisiya qoyuluşuna son həddi meyilliyi gəlirin istənilən dəyişməsində investisiyalara xərclərin artırılmasına ayrılan hissədir:

$$\gamma = \Delta I / \Delta Y$$

Burada ΔI – investisiyaların həcminin dəyişməsi;

ΔY – gəlirin dəyişməsidir.

İnvestisiyaların qeyri-sabitliyinin əsas amilləri:

- avadanlığın uzun müddət istifadə olunması;
- innovasiyaların qeyri-müntəzəmliyi;
- iqtisadi gözləmələrin dəyişkənliyi;
- ÜDM-in tsiklik artıb-azılmaları.

İnvestisiya planlarının və yığımların üst-üstə düşməməsi istehsalın faktik həcminin potensial səviyyəsi ətrafında artıb-azalmalarını, həmçinin işsizliyin faktiki səviyyəsinin NAIRU (inflyasiyanı sürətləndirməyən işsizlik səviyyəsi) kəmiyyəti ilə üst-üstə düşməməsini şərtləndirir. Bu artıb-azalmalara əməkhaqqının və qiymətlərin azalma istiqa-

mətində aşağı elastikliyi təkan verir. Buna görə də könüllü deyil, məcburi səciyyəli olan tsiklik işsizlik iqtisadi qanunauyğunluqdur.

§3. Multiplikator və akselerator modellərində investisiyalar

İnvestisiyaların məcmu tələbə (milli gəlirə) təsiri multiplikator və akselerator nəzəriyyəsində öz əksini tapır.

Multiplikator nəzəriyyəsi 1929-1933-cü illər depressiyası dövründə kəskin böhran şəraitində olan cəmiyyətə tətbiqən yaranmışdı.

Real iqtisadiyyatda XMM (xalis milli məhsul), gəlir və məşğulluq nadir hallarda sabit tarazlı vəziyyətdə olurlar, onlar üçün yüksəliş və tsiklik artıb-azalmalar dövrləri səciyyəvidir. Məhsul buraxılışının tarazlı Y_0 səviyyəsi məcmu xərclərin istənilən komponentinin: istehlak, investisiyalar, dövlət xərcləri (G) və ya xalis ixrac (NX) - kəmiyyətinin dəyişilməsinə müvafiq olaraq artıb-azala bilər. Bu komponentlərdən hər hansının artması planlaşdırılan xərclər əyrisinin yerini yuxarı dəyişir və buraxılışın tarazlı səviyyəsinin artmasına rəvac verir. Məcmu tələb komponentlərindən hər hansı birinin azalması məşğulluğun və tarazlı buraxılışın aşağı düşməsi ilə müşayiət olunur. XMM-in dinamikasına təsir edən əsas amil investisiyaların artıb-azalmalarıdır. Bu zaman investisiyalarda dəyişikliklər XMM-in dəyişilmələrinə çoxaldılmış dərəcədə təsir göstərir. Bu təsir multiplikator effekti adlanır.

Muxtar xərclərin istənilən komponentinin artması multiplikator effektinə səbəb ΔY məcmu gəlirin bir qədər çox artmasına səbəb olur:

$$\Delta E_a = \Delta(C_a + I + G + NX).$$

Muxtar xərclər multiplikatoru tarazlı ÜDM-in dəyişilmələrinin muxtar xərclərin istənilən komponentinin dəyişilmələrindən asılılığını göstərən miqlari əmsaldır:

$$k = \Delta Y/\Delta E_a.$$

burada k – muxtar xərclər multiplikatoru;

ΔY tarazlı ÜDM-in dəyişilməsi;

ΔE_a – muxtar xərclərin Y-in dinamikasından asılı olmayan dəyişilməsidir.

Muxtar xərclərin dəyişməsi adətən investisiya xərclərindəki dəyişikliklər nəticəsində baş verir, çünki investisiyalar məcmu xərclərin ən dəyişkən komponentidir. Lakin istehlakdakı, dövlət tədarükləri və ya xalis ixracdakı dəyişikliklər də həmçinin multiplikator effektinin təsirinə məruz qalırlar.

Multiplikator ümumi artımın (azalmanın) muxtar xərclərin ilkin artımından (azalmasından) neçə dəfə çox olmasını göstərir. Muxtar xərclərin istənilən komponentinin birqat dəyişməsinin ÜDM-in çoxqat dəyişməsinə səbəb olması əsasdır.

Məsələn, əgər muxtar istehlak hər hansı bir ΔC_a kəmiyyəti qədər artırsa, bu da öz növbəsində istehlakın ikinci dəfə artmasına (gəlir artdığından) səbəb olur, amma artıq MPC · ΔC_a kəmiyyəti qədər və bu, «gəlirlər-xərclər» sxemi üzrə davam edir. Zəncir yaranır:

$$\Delta C_a\uparrow \Rightarrow AD\uparrow \Rightarrow Y\uparrow \Rightarrow C\uparrow \Rightarrow AD\uparrow \Rightarrow Y\uparrow \Rightarrow C\uparrow \Rightarrow AD\uparrow \Rightarrow Y\uparrow \text{ və s.}$$

Bu sadə sxemdən görünür ki, Y məcmu gəliri ilkin $\Delta C_a\uparrow$ impulsuna dəfələrlə reaksiya verir və bu da muxtar xərclər multiplikatoru kəmiyyətində öz əksini tapır.

Multiplikatorun mənası aşağıdakındadır. C, I, G və ya NX kəmiyyətlərindəki nisbətən kiçik dəyişikliklər məşğulluq və buraxılış səviyyələrində xeyli böyük dəyişikliklərə səbəb ola bilərlər. Beləliklə, multiplikator iqtisadi qeyrisabitliyin muxtar xərclərdəki dəyişikliklər səbəbindən baş verən işgüzar fəallığının artıb-azalmalarını gücləndirən amilidir.

Sadə və mürəkkəb multiplikatorlar fərqləndirilir.

Sadə multiplikator–yığıma son həddmeyilliyi və istehlaka son həddmeyilliyi vasitəsilə ifadə olunmuş multiplikatordur.

Multiplikator = 1/MPS = 1/(1-MPC).

burada MPS - yığıma son həddmeyilliyi;

MPC - istehlaka son həddmeyilliyidir.

Sadə multiplikator yalnız yığımın aradan götürülməsini əks etdirir. Əslində isə gəlirlərin götürülməsi və xərclənməsi tsikllərinin ardıcıllığı vergilər, idxal və yığım şəklində götürümlər nəticəsində tədricən azala bilər.


Əlavə götürümləri nəzərə alaraq multiplikatorun düsturunu dəyişmək olar ki, bunun üçün də məxrəcdə MPS yerinə aşağıdakı göstəricilərdən birini qoymaq lazımdır: «gəlirlərin ölkə daxilində məhsul istehsalına xərclənməyən dəyişən hissəsi» və ya «gəlirlərin «aradan çıxan» və ya «gəlirlər-xərclər» axınından götürülən dəyişilən hissəsi».

Yığımlar, vergilər və idxal şəklində olan bütün bu götürümlərin nəzərə alınması hesabına əldə olunan daha realistik multiplikator mürəkkəb multiplikator adlanır.


Hökumətin qarşısında duran ən mühüm məsələlərdən biri iqtisadiyyatın özündə istehlaka son həddmeyilliyi kəmiyyətini (MPC) nisbətən azaltmaq yolu ilə multipikasiya effektini zəiflətməyə imkan verən quraşdırılmış sabitləşdiricilər sisteminin yaradılmasıdır. Bu problem stimullaşdırılmış investisiyalar şəraitində daha mürəkkəb olur, çünki istehsalın hər sonrakı tsiklində artan Y məcmu gəlirindən yalnız yüksək istehlak xərcləri deyil, həm də artan investisiya xərcləri maliyyələşdirilir və supermultiplikator effekti yaranır.

Resessiya fərqi – tarazlı ÜDM-in tam məşğulluğun qeyri-inflyasiya səviyyəsinə qədər yüksəldilməsi üçün məcmu tələbin (*E* məcmu xərclərin) artmalı olduğu kəmiyyətdir (şəkil 15.2).

Əgər Y_0 buraxılışın faktik tarazlı həcmi potensial Y*-dən aşağıdırsa, bu o deməkdir ki, məcmu tələb səmərəli deyil, yəni AD = AS tarazlığı əldə olunsa da, məcmu xərclər



Şəkil 15.2. Resessiya fərqi qrafiki



Şəkil 15.3. İnflyasiya fərqi qrafiki

resursların tam məşğulluğunu təmin etmək üçün kifayət qədər deyil. Məcmu tələbin kifayət qədər olmaması iqtisadiyyata depressiv təsir edir.

Resessiv fərqi aradan qaldırmaq və resursların tam məşğulluğunu təmin etmək üçün məcmu tələbi stimullaşdırmaq və tarazlığın yerini A nöqtəsindən B nöqtəsinə «dəyişdirmək» lazımdır. Bu zaman ΔY tarazlı məcmu gəlirin artımı aşağıdakı kimi olur:

$$\Delta Y = -Resessiv\ fərqin\ kəmiyyəti \times Muxtar\ xərclər\ multiplikatorunun\ kəmiyyəti.$$

İnflyasiya fərqi tarazlı ÜDM-i tam məşğulluğun qeyri-inflyasiya səviyyəsinə qədər endirmək üçün məcmu tələbin (məcmu xərclərin) nə qədər azalmalı olduğu kəmiyyətdir (şəkil 15.3).

Əgər Y_0 buraxılışın faktik tarazlı həcmi potensial Y*-dən çoxdursa, bu o deməkdir ki, məcmu tələb xərcləri izafidir. Məcmu tələbin izafiliyi iqtisadiyyatda inflyasiya bumuna səbəb olur: qiymətlərin səviyyəsi qalxır, çünki firmalar istehsalı artan məcmu tələbə adekvat olaraq genişləndirə bilmirlər, çünki resurslar artıq məşğuldur.

İnflyasiya fərqinin aradan qaldırılması məcmu tələbin

artımının ləngidilməsi və tarazlığın A nöqtəsindən B nöqtəsinə (resursların tam məşğulluğu) «yerdəyişməsi»ni nəzərdə tutur. Bu zaman ΔY tarazlı məcmu gəlirin azalması aşağıdakı kimi olur:

ΔY = *İnflyasiya fərqinin kəmiyyəti* × *Muxtar xərclər multiplikatorunun kəmiyyəti.*

Multiplikatorun statik modeli 1931-ci ildə R.F.Kann tərəfindən təklif olunmuş və C.M.Keyns tərəfindən incəliklərinə qədər işlənmişdir. Miltiplikatorun vaxt amilini nəzərə alan dinamik modeli P.Samuelson, F.Maklup, C.Robinson, A.Xansen və b. tərəfindən diqqətlə tədqiq olunmuşdur. İnvestisiyaların multiplikasiyası konsepsiyası hazırda iqtisadi nəzəriyyənin ən mühüm praktik nəticəsidir və ən müxtəlif ölkələrdə hökumət qərarlarının əsaslandırılmasında geniş istifadə olunur.

Sonradan iqtisadçılar bu nəticəyə gəldilər ki, multiplikasiya effektlərini endogen (daxili) amillər doğura bilər. İstehlak, kredit, bank, depozit və vergi multiplikatoru buna sübut idi.

Akselerator modeli (stimullaşdırılmış (məcburi) investisiyalar) C.Klark tərəfindən irəli sürülmüşdü.

Akselerator multiplikatora əks kəmiyyətdir. O, investisiyaların artımının ona səbəb olmuş gəlirin, istehlak tələbinin və ya hazır məhsulun nisbi artımına nisbətidir.

Akselerator məhsulunun (gəlirinin, tələbinin) artımının yalnız «məcburi» investisiyalara, yəni istehlak xərcləri səviyyəsinin artması nəticəsində yaranmış yeni kapitala nisbətini əks etdirir.

Akselerasiya prinsipi ondan ibarətdir ki, istehlak xərclərinin artması və ya azalması kapital yığımında dəyişikliklərə səbəb olur. Əmtəələrə istehlak tələbinin artması istehsal gücünün artmasına səbəb olur. İstehlak xərclərinin azalması mənfəəti azalda bilər, bu isə investisiya həcminin azalmasına səbəb olar.

Makroiqtisadi modellərdə akselerator multiplikatorla (vuranla) birləşir, iqtisadiyyatın tənzimlənməsi üçün xaricdə geniş istifadə olunur.

Multiplikatorun təhlili real iqtisadi həyatda mövcud olan qənaətcillik paradoksunu izah etməyə imkan verir və bu, ondan ibarətdir ki, cəmiyyətin daha çox qənaət etmək cəhdləri eyni həcmdə və ya daha az yığıma dönür. Əgər yığımın artması investisiyaların artması ilə müşayiət olunmursa, ev təsərrüfatlarının istənilən daha çox qənaət etmək cəhdləri tarazlı ÜDM-in multiplikasiya effekti ilə şərtlənən xeyli azalması ilə əlaqədar olaraq nəticəsiz olacaq. Cəmiyyətin nöqteyi-nəzərindən yığımın artması istehsalın və məşğulluğun ümumi səviyyəsinə arzu olunmayan təsir göstərə bilər. İqtisadiyyatda tənəzzülün gözlənilməsi ev təsərrüfatlarında yığımın artmasına və istehlak xərclərinin və deməli, multiplikasiya effektinə səbəb məcmu gəlirin də azalmasına səbəb olur. Gəlirin aşağı düşməsi investisiyaların bir qismini azaldır, çünki bu, istehsalın və təklifin artmasına mane olur.

Tam məşğulluq şəraitində yığım pullarının artması iqtisadiyyata antiinflyasiya təsiri göstərə bilər, çünki o, istehsalın tənəzzülü, qiymətlər səviyyəsinin düşməsi ilə müşayiət olunan cari istehlak tələbini azaldır və inflyasiyanın artmasına mane olur.

§4. Samuelson-Xiks modeli

Samuelson-Xiks modeli qiymətlər səviyyəsi, nemətlərin nisbi qiymətləri və faiz dərəcəsini dəyişilməz hesab edərək, özündə yalnız nemətlər bazarını ehtiva edir. Keynsçi konsepsiyaya müvafiq olaraq təklif həcmi tam elastik götürülür. Model dinamik olduğundan bütün dəyişənlər vaxt funksiyalarıdır:

$$x_t = f(t).$$

Cari dövrdə (C_t) ev təsərrüfatlarının istehlak həcmi onların əvvəlki dövrdəki gəlirlirinin kəmiyyəti (Y_{t-1}) ilə müəyyənləşir:

$$C_t = C_a + C_y Y_{t-1}.$$

Burada C_a – muxtar istehlak;

C_t – cari dövrdə istehlak həcmi;

C_y – istehlaka son həddmeyilliyi;

Y_{t-1} – əvvəlki dövrdə gəlirin kəmiyyətidir.

Sahibkarlar stimullaşdırılmış investisiyaları məcmu tələb artımının sabit olmasına əmin olduqdan sonra həyata keçirirlər. Buna görə də stimullaşdırımış investisiyalar haqqında qərar qəbul edərkən onlar məcmu tələbin (milli gəlirin) cari dövrdə deyil, əvvəlki dövrdə artmasından çıxış edirlər:

$$I_{tind} = a(Y_{t-1} - Y_{t-2}).$$

Burada I_{tind} - cari dövrdə stimullaşdırılmış investisiyalar;

a – akseleratordur.

Edilən ehtimallar şərtilə iqtisadiyyat tarazlıq vəziyyətində olacaq, əgər:

$$Y_t = C_y Y_{t-1} + a(Y_{t-1} - Y_{t-2}) + A_t = (C_y + a)Y_{t-1} - aY_{t-2} + A_t. \quad (15.1)$$

Burada A_t – muxtar tələbin ekzogen kəmiyyətidir.

Bərabərlik (15.1) qeyri-yekcins sonlu- fərqli ikinci dərəcəli tənlik olub milli gəlirin dinamikasını zamanda səciyyələndirir.

Muxtar xərclərin (tələbin) kəmiyyəti təsbit olunduqda (A_t=A=const) iqtisadiyyatda uzunmüddətli tarazlığa çatılır ki, bu zaman milli gəlirin həcmi müəyyən Y səviyyəsində sabitləşir, yəni $Y_t = Y_{t-1} = Y_{t-2} = ... = Y_{t-n} = \overline{Y}$, burada n – dəyişilməz muxtar xərclər kəmiyyətli dövrlərin sayıdır.

Tənlik (15.1)-dən görünür ki, $\overline{Y} = A/(1 - C_y)$.

Baxaq görək, uzunmüddətli tarazlıq əldə olunduqdan sonra muxtar tələbin kəmiyyəti dəyişərsə, milli gəlirin dinamikası necə olacaq.

Bunun üçün qeyri-yekcins sonlu-fərqli bərabərliyi (15.1) yekcinslə əvəz edək.

Aşağıdakı işarələrdən istifadə edək:

$$Y_t - \overline{Y} = \Delta Y_t.$$

Y_t və $\overline{Y}$ qiymətləri (15.1) bərabərliyini ödəyir, buna görə də aşağıdakı yekcins qeyri-yekcins sonlu-fərqli daimi

əmsallı ikinci dərəcəli bərabərliyi yazmaq olar:

$$\Delta Y_t = (C_y + a)\Delta Y_{t-1} - a\Delta Y_{t-2}$$


$Y_t = \overline{Y} + \Delta Y_t$ olduğu üçün Y_t-nın dəyişilmə istiqaməti DY_t-nın dəyişilmə istiqaməti ilə müəyyənləşir.

Differensial və sonlu-fərqli bərabərliklərin həlli nəzəriyyəsindən göründüyü kimi, ΔY_t-nın dəyişilmə xarakteri xarakteristik bərabərliyin diskriminantının qiymətindən asılıdır.

Bu halda diskriminant $(C_y + a)^2 - 4a$ olduğundan, milli gəlirin dinamikasını istehlaka son həddmeyilliyinin (C_y) və ya multiplikator $(1/(1- C_y))$ və akseleratorun (a) qiyməti müəyyənləşdirir.

$(C_y + a)^2 - 4a > 0$ olarsa, Y_t yeknəsək dəyişir; $(C_y + a)^2 - 4a < 0$ olduqda, dəyişikliklər artıb-azalan olacaq. Şəkil 15.4-də OBD əyrisi ilə verilmiş $(C_y + a)^2 = 4a$ qrafiki (C_y, a)-nın Y_t-nin yeknəsək dəyişməsini təmin edən çoxsaylı uzlaşmalarını (C_y, a)-nın qiymətlərinin artıb-azalmalara səbəb olan çoxsaylı kombinasiyalarını fərqləndirir.

Y_t qiymətinin hər hansı bir sonluqlu kəmiyyətə doğru yönəlməsi və ya sonsuzluğa getməsi xarakteristik bərabərliyin sonuncu tərkib hissəsinin qiymətindən asılıdır. Əgər a<1 olarsa, onda tarazlıq müəyyən bir səviyyədə müəyyənləşir. a>1 olarsa, pozulmuş tarazlıq bir daha bərpa olunmur.



Şəkil 15.4. Muxtar tələbin dəyişməsi zamanı milli gəlirin dinamikasının xarakterinə təsirlərindən asılı olaraq C_y və a qiymətlərinin bölgüsü

a=1 olduqda, Y_t sabit amplituda ilə artıb-azalacaq.

Nəticədə C_y və a-nın bütün birləşmələri çoxluğu şəkil 15.4-də göstərildiyi kimi dörd sahəyə bölünmüş oldu.

C_y və a-nın qiymətləri I sahəsinə düşürlərsə, muxtar tələbin dəyişilməsi nəticəsində tarazlığın pozulmasından sonra Y_t-nin qiyməti yeknəsək şəkildə yeni $\bar{Y}_1 = A_1/(1-C_y)$ tarazlı səviyyəyə yönələcək.

C_y və a-nın qiymətləri II sahəsinə düşərlərsə, milli gəlir sönən artıb-azalmalardan keçərək yeni tarazlı səviyyəyə çatacaq.

C_y və a-nın B nöqtəsindən absis oxuna endirilmiş perpendikulyardan sağda yerləşən sahələrə (III və IV sahələr) düşən qiymətlərinin birləşmələri qeyri-sabit tarazlığa müvafiqdir.

C_y və a-nın qiymətlərinin birləşmələri III sahəsinə düşərlərsə, Y_t -nin dinamikası partlayışlı artıb-azalmalar xarakteri kəsb edir. C_y və a-nın IV sahədəki qiymətlərinin kombinasiyaları buna gətirib çıxardır ki, tarazlıq pozulduqdan sonra Y_t yeknəsək şəkildə sonsuzluğa doğru yönəlir. Akselerator vahidə bərabər olarsa, istehlaka son həddmeyilliyin istənilən qiymətində tarazlıq pozulduqda Y_t -nın ahəngdar. Sönməyən artıb-azalmaları yaranır.

Real iqtisadiyyatda $C_y<1$, $a>1$, yəni ona III və IV sahələr uyğun gəlir. İstehlaka son həddmeyilliyi və akseleratorun belə qiymətlərinin uzlaşmasında tarazlıq qeyri-sabitdir və modeldə o pozulduqda, Y_t çox tez bir vaxtda inanılmaz qiymətlər alır. Gerçəklikdə milli gəlirin həcmi tam məşğulluq dövründəki milli gəlir səviyyəsindin çox artıq ola bilməz. Bu, milli gəlir həcminin artıb-azalmaları amplitudunu yuxarıdan məhdudlaşdırır. Digər tərəfdən, stimullaşdırılmış investisiyaların həcmi amortizasiyanın mənfi kəmiyyətindən az ola bilməz və bu da milli gəlir kəmiyyətinin artıb-azalma amplitudunu aşağıdan məhdudlaşdırır. Nəticədə multiplikator və akseleratorun qarşılıqlı əlaqə modeli belə şəkil alır:

$$Y_t = \min \{(C_y Y_{t-1} + I^a_t - I_t^{ind}), Y_F\}.$$

Burada I^a_t – muxtar investisiya;

I_t^{ind} – stimullaşdırılmış investisiyalar;

Y_F – tam məşğulluğun milli gəlir kəmiyyətidir.

Özü də

$$I_t^{ind} = \max \{ a (Y_{t-1} - Y_{t-2}), -D\}.$$

Burada D – amortizasiya əlavələridir.

Belə şəraitdə muxtar investisiyaların artmaları hətta (C_y, a) kombinasiyası IV sahədə olduqda belə milli gəlir kəmiyyətinin artıb-azalmalarına səbəb olur.

Əgər muxtar tələb x sabit illik artım tempi ilə çoxalarsa, onda (15.1) bərabərliyi aşağıdakı şəkil alar:

$$Y_t = (C_y + a)Y_{t-1} - aY_{t-2} + A_0(1+x)^t.$$

Bu halda multiplikasiya effektinin təsiri altında tarazlı milli gəlirin qiyməti hər il $(1+x)$ dəfə artacaq. Buna görə də tarazlı artıma çatılandan sonra milli gəlirin kəmiyyəti aşağıdakı düsturla müəyyənləşdiriləcəkdir:

$$\bar{Y}_t = (C_y+x)\bar{Y}_t/(1+x) - a\,\bar{Y}_t/(1+x)^2 + A_0(1+x)^t \Rightarrow$$
$$\Rightarrow \bar{Y}_t = 1/[1-(C_y+x)/(1+x)+a/(1+x)^2]\, A_0(1+x)^t.$$

Bu ifadənin sağ tərəfindəki birinci həm vuran Xiks supermultiplikatoru adlanır. O, il ərzində muxtar investisiyaların onların (1+x) tempində ekzogen artımından əlavə bir vahid artdıqda həmin il milli gəlirin nə qədər artacağını göstərir.

Muxtar investisiyaların hər il artması nəticəsində istehsal gücləri (Y_f) – milli gəlirin mümkün artıb-azalmalarının yuxarı həddi də həmin tempdə artacaq:

$$Y_{F_t} = Y_{F_0}(1+x)^t.$$

İstehsal güclərinin artım tempinə illik amortizasiya əlavələrinin artımı müvafiqdir:

$$D_t = D_0(1+x)^t.$$

Burada D_t – cari dövrün amortizasiya əlavələri;

D_0 – baza dövrünün amortizasiya əlavələridir.

Bunu nəzərə alaraq milli gəlirin artıb-azalmalarının

aşağı həddini müəyyənləşdirək. Stimullaşdırılmış investisiyalar özlərinin maksimum qiymətinə:

$$I^{ind}_{t,\ min} = -D_0(1+x)^t$$

çatanda, muxtar investisiyaların ümumi həcmi aşağıdakı kimi olacaq:

$$A_t = A_0(1+x)^t - I^{ind}_{t,\ min} = (A_0 - D_0)(1+x)^t,$$

milli gəlirin kəmiyyəti isə minimuma çatacaq:

$$Y_{t,\ min} = C_y Y_{t-1} + (A_0 - D_0)(1+x)^t,$$


və ya nəzərdən keçirilən şəraitlərdə $Y_t = Y_{t-1}(1+x)$ olduğunu nəzərə alsaq:

$$Y_t[1 - C_y/(1+x)] = (A_0 - D_0)(1+x)^t.$$

Deməli, milli gəlirin artıb-azalmalarının aşağı həddi aşağıdakı bərabərliklə veriləcək:

$$Y_{t,\ min} = 1/[(1 - C_y)/(1+x)](A_0 - D_0)(1+x)^t.$$

Beləliklə, muxtar xərclər milli gəlirin sabit artıb-azalma tempində artdıqda multiplikator və akseleratorun modeldən irəli gələn qarşılıqlı münasibətləri şəkil 15.5-də təsvir olunmuş vəziyyət alır.



Şəkil 15.5. Xiks supermultiplikatorunun fəaliyyəti

§5. Teves modeli

Teves Samuelson-Xiks modelinə pul bazarı modelini əlavə etdi ki, IS-LM modelinə müvafiq olaraq faiz dərəcəsi vasitəsilə nemətlər bazarı ilə əlaqədə olur. Teves modelində pula tələbin dinamik funksiyası aşağıdakı kimidir:

$$L_t = L_y Y_{t-1} + L_i I_{max} - L_i I_t.$$

Yəni cari dövrdə sövdələr üçün pula tələb əvvəlki dövrün gəlirindən, bir əmlak kimi pula tələb isə cari faiz dərəcəsindən asılıdır.

Pul təklifi ekzogen verilib və M-ə bərabərdir. Onda pul bazarında verilmiş qiymətlər səviyyəsində tarazlığın şərti P=1 bərabərliyi ilə göstərilir.

$$M' = L_y Y_{t-1} - L_i I_t.$$

Burada $M' = M - L_i I_{max}$.

Buradan I_t-ni tapaq:

$$I_t = (L_y Y_{t-1})/L_i - M'/L_i.$$

Bu modeldə faiz dərəcəsi vaxt funksiyası olduğundan muxtar tələbin ümumi məbləğindən bir faiz dərəcəsi funksiyası kimi muxtar investisiyalar kəmiyyətini ayırmaq lazımdır. Buna görə də nemətlər bazarında tarazlıq bərabərliyi aşağıdakı şəkil alacaq:

$$Y_t = C_y Y_{t-1} + a(Y_{t-1} - Y_{t-2}) - L_i I_{t-1} + A'_t.$$

Burada $A'_t = A_t + L_i I_{t-1}$.

Çevirmələri etdikdən sonra alarıq:

$$Y_t = (C_y + a)Y_{t-1} - (a + l)Y_{t-2} + A''_t.$$

Burada $l = I_i L_y / L_i$; $A''_t = A'_t + M' I_i / L_i$.

Bu, effektiv tələb həcminin dinamikasının bərabərliyidir.

O, ikinci dərəcəli qeyri-yekcins sonlu-fərqli bərabərlikdir və buna görə effektiv tələb həcminin dinamikası C_y və $(a+l)$ parametrlərinin qiymətlərinin uzlaşmasından asılıdır.


$4(a + l) = (C_y + a)^2$ funksiyasının qrafiki C_y, $(a + l)$ cütlüyünün artıb-azalmaları həmin parametrlərin çoxsaylı

birləşmələri ilə şərtlənən Y_t səmərəli tələb həcminin yeknəsək dəyişməsinə səbəb olan çoxlu birləşməsini fərqləndirir.

Nemətlər və qiymətli kağızlar bazarında dinamik birgə tarazlığın dayanıqlığı və ya dayanıqsızlığı $a + l$ parametrinin qiymətindən asılıdır.

Əgər $a + l < 1$-dirsə, tarazlıq dayanıqlıdır, $a + l > 1$ olduqda tarazlıq pozulduqdan sonra bərpa olunmur, $a + l = 1$ olduqda isə muxtar tələb artımı şəklində olan ekzogen təkan effektiv tələb kəmiyyətinin özünün tarazlı qiyməti ətrafında bir bərabərdə olan sönməyən artıb-azalmalarına səbəb olacaq.

Təsbit olunmuş $l = 0{,}5$ qiymətində səmərəli tələb kəmiyyətinin dinamikasının xarakterini müəyyənləşdirən C_y və a –nın müxtəlif birləşmə çoxluqları şəkil 15.6-da göstərilmişdir. Müqayisə üçün onda qırıq xətlərlə qrafik verilmişdir (bax şəkil 15.4).



Şəkil 15.6. Pul bazarı modelində muxtar tələbin dəyişməsi zamanı milli gəlirin dinamikasının xarakterinə təsirlərindən asılı olaraq C_y və a qiymətlərinin bölgüsü

Öz təbiətinə görə $l > 0$ olduğundan, səmərəli tələb həcminin artıb-azalan dəyişmələrini onun yeknəsək dəyişməsindən (ayıran xətt) ayıran əyri Samuelson – Xiks modelindəki analoji xətdən yuxarıda yerləşir. Eyni zamanda, istehlaka son həddi meyilliyi vahiddən artıq ola bilmədiyi üçün $C_y = 1$

xəttindən yuxarıda yerləşən bütün nöqtələrin iqtisadi əhəmiyyəti yoxdur.

Şəkil 15.6-dan göründüyü kimi, modelə pul bazarının əlavə edilməsiylə sabit tarazlıq sahəsi ştrixlənmiş yer qədər azalır. L parametrinin qiyməti nə qədər böyük olsa, bu azalma da bir o qədər çox olar. Deməli, elastik dayanıqlı tarazlıq sahəsi həm faiz dərəcəsi üzrə investisiyaların elastikliyi, həm də real gəlir üzrə pula tələbin elastikliyi artdıqda daralır; faiz dərəcəsi üzrə pula tələbin artması dayanıqlı tarazlıq sahəsinin daralmasının qarşısını alır.

Teves modelinin köməkliyi ilə iqtisadi fəaliyyətin konyunktur artıb-azalmalarının tənzimlənməsində bank sisteminin imkanlarını göstərmək olar.

Multiplikator və akseleratorun birgə fəaliyyəti məhsul buraxılışı və ya gəlirin fasiləsiz və tərəqqi edən artmasına səbəb olur. Dövlət tənzimləməsi nəticəsində istehlak tələbi artır və əmtəə və xidmətlərə yeni tələbi multiplikasiya edir və bu da son nəticədə milli gəlirin artmasına gətirib çıxardır.

Milli gəlirin artımı, öz növbəsində, investisiyaların stimullaşdırılmasının artmasına səbəb olur, bu da sahibkarlıq fəaliyyətini canlandırır və istehsalın akselerativ artımına rəvac verir.

Multiplikator və akseleratorun iqtisadiyyata belə təsiri yalnız iqtisadi böhrandan çıxış yollarından biri olmayıb, həm də iqtisadi artıma təkan ola bilər.

Əsas anlayışlar və məfhumlar

Yığım amilləri; investisiya amilləri; sadə multiplikator; mürəkkəb multiplikator; resessiya fərqi; inflyasiya fərqi; akselerator; akselerasiya prinsipi; Samuelson – Xiks modeli; Teves modeli.

XVI FƏSİL. ƏMTƏƏ BAZARLARINDA TARAZLIQ

§1. Nemətlər bazarında tarazlıq.
§2. Neoklassik modeldə nemətlər bazarında tarazlığın şərtləri.
§3. Keynsçi modeldə nemətlər bazarında tarazlıq.

Tarazlığı - iqtisadiyyatın əsas anlayışını - iqtisadi konyunkturanın müəyyən parametrlərində məcmu tələbin və məcmu təklifin bir-birinə müvafiqliyi adlandırmaq olar, yəni bu zaman istehsala ödəniş qabiliyyətli tələb müvafiqdir və ya bütün istehsal olunmuş məhsul alınır.

Bazarlardan birində tarazlığı – xüsusi tarazlıq, eyni zamanda bir neçə bazarda (nemətlər bazarı, pul və qiymətli kağızlar bazarı) – birgə tarazlıq və bütün bazarlarda ümumi tarazlığı fərqləndirmək olduqca məntiqidir.

Burada biz nemətlər bazarında tarazlığın əsas məqamlarını və onun pozulmasına iqtisadiyyatın mümkün reaksiyasını nəzərdən keçirəcəyik.

§1. Nemətlər bazarında tarazlıq

Makroiqtisadiyyatda nemətlər bazarında tarazlığın qiymətlərin mümkün səviyyələrinin hər birində məcmu tələblə (AD) məcmu təklifin (AS) bərabərliyi olduğunu söyləmək olar. Tarazlığın şərtləri real buraxılışın həcminin bütün planlaşdırılan xərclərin məbləğinə bərabərliyinə əsaslanan əsas makroiqtisadi eynilikdən irəli gəlir:

$$Y^{AS} = C+I+G+NX.$$

Əgər iqtisadi sistemin nemətlər bazarına gələn və gedən axınlar balanslaşdırılırsa, göstərilən bərabərlik gözlənilir.

Əgər sadə modeldə tarazlığın şərti mövcud olan yığımın həyata keçirilməsinin investisiyalara bərabərliyidirsə, tam modeldə tarazlığı aşağıdakı kimi ifadə etmək olar:

$$S + T + Im = I + G + Ex. \qquad (16.1)$$

Burada S – yığım;
T – vergilər;
Im – idxal;
I – investisiyalar;
G – dövlət tədarükləri;
Ex – ixracdır.

Bu şərt xalq təsərrüfatı əmtəə dövriyyəsinin modelindən irəli gəlir, lakin ədəbiyyatda bu şərtin əsaslı məntiqi əsaslandırılması mövcuddur[1]. Bu, aşağıdakından ibarətdir. İqtisadiyyatı robinzon iqtisadiyyatı vəziyyətində təsəvvür etsək, onda bütün istehsal olunmuş əmtəələr cari istehlaka gedər, çünki təklif həcmi bütünlüklə istehlak əmtəələrindən ibarətdir. Tarazlıq ev təsərrüfatları əldə olunmuş bütün amil gəlirlərini istehlaka yönəltdikdə, yəni C(AS) = C(AD) olduqda yaranacaq.

Əgər ev təsərrüfatları sərəncamda olan gəlirin bir hissəsini yığmağa başlasalar, bu, tarazlığın pozulması ilə nəticələnəcək, çünki amil gəlirlərinin bir qisminin nemətlər bazarandan «yayındırılması» səbəbindən məcmu tələb məcmu təklifdən az olacaq. Deməli, tarazlığın bərpası üçün ya təklifi azaltmaq, ya da əlavə tələb, nemətlər bazarına yeni axın formalaşdırmaq lazım gələcək. Belə axın sahibkarların investisiya tələbi ola bilər və bunun üçün vəsaiti onlar kapital bazarında əmanət kimi yerləşdirilmiş yığım şəklində əldə edə bilərlər. Bu zaman təklifin strukturu dəyişir ki, bu da öz növbəsində tarazlıq şərtlərinin dəyişməsinə səbəb olacaq:

$$C + S = C + I.$$

Dövlətin mövcudluğu özünü nemətlər bazarından vergilər şəklində, yeni vəsait axını şəklində göstərir. Nəticədə tarazlığın bərpa olunması üçün dövlət tərəfindən bazara dövlət tədarükü şəklində müvafiq vəsait axınının təmin edilməsi lazım gəlir. Beynəlxalq ticarət gəlirlərin bir qismini idxal əmtəələri və xidmətləri haqqının ödənilməsi şəklində «aparır». Bu halda ölkəyə vəsait axını vəzifəsini ixrac yerinə yetirir. Deməli:

[1] Лусс А. Макроэкономика.-СПб.: Питер, 2002. С.35.

$$C + S + T + Im = C + I + G + Ex. \qquad (16.2)$$

Beləliklə, (16.2) bərabərliyini alırıq.

Əgər bütövlükdə nemətlər bazarında tarazlıq əldə olunubsa, onda son əmtəə və amillər bazarları da tarazlıqdadır. Tarazlığın dayanıqlı olması üçün əmtəə və xidmətlərin və amillərin qiymətlərinin müəyyən qaydada uzlaşdırılması lazımdır. Əmtəə və xidmətlərin qiymətləri məsrəflərin ödənilməsi və mənfəət əldə olunması üçün lazım olan gəliri təmin etməlidirlər. Əməyin qiyməti kifayət qədər yüksək olmalıdır ki, əməyə motivasiyanın yüksək olmasını və gəlir əldə olunmasını təmin edə bilsin.

Lakin məsələ yalnız tarazlığın şərtlərini müəyyənləşdirməkdə deyil, həm də iqtisadiyyatda onun necə əldə olunmasındadır. Klassik və keynsçi nəzəriyyələr bu suala müxtəlif cavablar verirlər.

§2. Neoklassik modeldə nemətlər bazarında tarazlığın şərtləri

(Y) məcmu buraxılışı Y = Y(A, L, K) istehsal funksiyası ilə müəyyənləşir, yəni onun kəmiyyəti həmin texnologiyadan, əmək resurslarının kəmiyyətindən və iqtisadiyyatdakı kapital ehtiyatından asılıdır.

Deməli, Y nə qiymətlər səviyyəsindən, nə (*r*) real faiz dərəcəsindən asılıdır, buna görə də nemətlər bazarında tarazlığın qrafik təsvirində o, AD əyrisi ilə AS qrafikinin kəsişməsi kimi təzahür edəcək ki, bu da Y_f potensial buraxılış səviyyəsində çəkilmiş şaquli düz xətt ilə ifadə olunacaq (şəkil 16.1).

Tarazlı əməkhaqqı dərəcəsinin çevikliyi şəraitində bütün əmək resurslarının tam məşğulluğu təmin ediləcək, sahibkar optimumu və bütün resursların sərbəst yerdəyişməsi şəraitində isə onlardan istifadənin maksimum səmərəliliyi əldə olunacaq.

Beləliklə, neoklassik model iqtisadiyyatı **resursların tam məşğulluğu şəraitində** təsvir edir.

Bu buraxılışın istehsalında iştirak ev təsərrüfatlarına həcminə görə bərabər amil gəlirləri məbləği gətirir ki, bunlardan da tələb müəyyənləşir. Beləliklə, təklif özü-özü üçün tələb yaradır («Sey qanunu») (J.-B.Sey – XIX əsrin əvvəlinin fransız iqtisadçısı).

Həqiqətən də, pullar insanlara özü-özlüyündə deyil, onlardan əmtəə alınmasında istifadə etmək üçün lazımdır. Deməli, təklif etdikləri əmtəəyə görə ödəniş kimi pul alanların hamısı tez ya gec həmin pulu nəsə almağa xərcləyəcəklər. Beləliklə, ödəniş qabiliyyətli tələbin və əmtəə təklifinin məcmu kəmiyyətləri üst-üstə düşməlidir.

Makroiqtisadiyyatın belə modeli üç şərti nəzərdə tutur:

- bütün cəmiyyət yalnız istehsalçılardan ibarətdir, onlar eyni zamanda həm də istehlakçıdırlar;
- bütün istehsalçılar yalnız öz gəlirlərini xərcləyirlər;
- gəlir tam xərclənir.

Lakin real bazar iqtisadiyyatı daha mürəkkəbdir: istehlakçıların sayı həmişə istehsalçıların sayından artıqdır; gəlir heç də tam xərclənmir (onun bir qismi yığıma çevrilir); xərclərin bir qismini istehsalçı borc (kredit) hesabına həyata keçirir.

Beləliklə, həqiqi vəziyyət «tələb təklifdən doğur» modelində olduğundan fərqli görünür: tələb yığım həcmində azalır, təklif isə kredit həcmində artır.


Nemətlər bazarında tarazlıq şərtləri klassik modeldə aşağıdakı kimi müəyyənləşdirilir.

Ev təsərrüfatları bütün məcmu gəlirlərini istehlaka və yığıma böldüklərindən $Y^{AS} = C + S$.

İqtisadiyyatda məcmu tələb ev təsərrüfatlarının istehlak əmtəələri və xidmətlərinə tələbindən və firmaların investisiya əmtəələrinə tələbindən formalaşır:

$$Y^{AD} = C + I.$$

Deməli, $Y^{AD} = Y^{AS}$, amma əgər I = S olarsa, yəni məcmu tələblə məcmu təklifin tarazlığı investisiyalaşan yığım ilə kreditləşən investisiyaların bərabərliyini tələb edir.



Şəkil 16.1. Nemətlər bazarının tarazlığı

Bazar iqtisadiyyatında gəlirin bir hissəsini yığanlar və kredit hesabına investisiya qoyanlar iqtisadiyyatın ayrı-ayrı iştirakçılarıdır. Bəs yığım və investisiya kəmiyyətlərinin bərabərliyi necə əldə olunur?

İnvestisiya edilən yığımın ölçüləri bir çox amillərlə: pul gəlirinin kəmiyyəti, fərdi tələbin strukturu, inflyasiyanın tempi və s. müəyyənləşir. Lakin o, birinci növbədə – bütün digər şərtlərin bərabər olduğu təqdirdə – faiz dərəcəsindən asılıdır: faiz norması nə qədər yüksək olarsa, gəlirin yığılan hissəsi bir o qədər böyük olar və əksinə.

İnvestisiya qoyuluşunu həyata keçirən sahibkarlara gəldikdə isə, onların kredit götürmək istəyi onun faizi ilə tərs mütənasibdir.

Deməli, pul vəsaitləri bazarı yığım və investisiyaların bərabərliyini təmin edən mexanizmdir: "təklif" yığım ilə, "tələb" börc götürülmüş investisiyalarla təmsil olunurlar, faiz isə "qiymət" rolunu oynayır.

Deməli, tarazlığın bərqərar olmasında əsas rolu ev təsərrüfatlarının yığım təklifinin formalaşdırılması üzrə planlarının əsasında və firmaların investisiya planlarının əsasında duran real faiz dərəcəsi oynayır.

Beləliklə, klassik konsepsiyaya görə iqtisadiyyat özütənzimlənəndir və nemətlər bazarında dayanıqlı tarazlıq in-

vestisiya və yığımın planlaşdırılmış həcmlərini bir-birinə uyğunlaşdıran çevik faiz dərəcəsi kimi özütənzimlənən stabilləşdiricilərin köməkliyi ilə avtomatik əldə olunur.

Lakin keynsçi konsepsiyaya görə, iqtisadiyyat daxilən qeyri-sabitdir, tarazlıq əgər əldə olunursa da, dayanıqsız xarakter daşıyır, tarazlığın pozulması onun üçün səciyyəvidir, buna görə də tarazlığın saxlanılması üçün fəal dövlət siyasəti zəruridir.

§3. Keynsçi modeldə nemətlər bazarında tarazlıq

C.M.Keyns klassik modelin bazar tarazlığına çatılması üçün azad qiymət əmələ gəlməsinin əsas alət olması haqqındakı əsas nəticəsini inkar etdi və müasir qiymət yaranmasını aşağıdakı "günahlarda" "ittiham etdi":

- inhisarçılığa can atma qiymət əmələ gəlməsinin sərbəstliyini məhdudlaşdırır;
- firmalar arasındakı uzunmüddətli müqavilələr qiymətin bazardakı vəziyyətin dəyişmələrinə reaksiya vermək imkanlarını məhdudlaşdırır;
- həmkarlar ittifaqları ilə sahibkarlar arasında müqavilələr əməkhaqqının əmək bazarında qiymətin tənzimləyici funksiyasını yerinə yetirməsinə manea törədir.


Nəticədə ***qiymətlər az hərəkətli olurlar*** (ələlxüsus qısamüddətli dövrdə) və istehsal həcminin dəyişdirilməsi məsələsinin həllində sahibkarları çaşdırırlar.

Qiymətlər səviyyəsi iqtisadiyyatda qeyri-çevik hesab olunduğundan firmalar konyunktura vəziyyətinə qiyməti uyğunlaşmanı kəmiyyəti uyğunlaşma ilə – istehsal həcminin dəyişdirilməsi ilə əvəz edirlər. Bu qiymətlərin səviyyəsinin dəyişilməz olması demək deyil. Sadəcə olaraq o, konyunkturanın dəyişilməsinə uyğunlaşma aləti ola bilməz (o, ***konstata deyil, ekzogen dəyişəndir***).

Keynsçi iqtisadiyyatda qiymətləri dəyişməkdənsə, kəmiyyət parametrlərini (buraxılışı) daha asan və tez dəyişmək

olur.

Əgər faktik real gəlir tarazlı gəlirdən yüksəkdirsə (məsələn, $Y_1 > Y_0$), onda Y_1^{AS} məcmu təklifin həcmi Y^{AD} məcmu tələbin həcmindən çox olur (şəkil 16.2). Bu zaman ($Y_1^{AS} - Y_1^{AD}$) həcmində məhsul satıla bilməyəcək, S_1 yığımı isə I_1 investisiya tələbi kəmiyyətini üstələyəcəkdir.



Şəkil 16.2. İqtisadiyyatda resessiya fərqi vəziyyəti

Beləliklə, **resessiya fərqi** – *məcmu təklifin həcminin məcmu tələb kəmiyyətindən çox olduğu kəmiyyət və müvafiq olaraq planlaşdırılan yığımın investisiya tələbindən artıq olduğu kəmiyyət* meydana gəlir.

Resessiya fərqi vəziyyətində ($I_1 - S_1$) həcmində ehtiyatda planlaşdırılmamış investisiyalar meydana gəlir. Onlar firmalara zərər vurur, çünki satıla bilmirlər.

Qiymətlər çevik olmayanda firmalar artıq məhsuldan qiymətləri endirməklə qurtara bilmirlər. Deməli, onlar istehsalı azaltmalı və işçilərin bir qismini ixtisara salmalı olacaqlar.


Nəticədə həm buraxılış, həm də istehlak (və məcmu) tələbinin həcmi buraxılış özünün tarazlı həcminə qədər azalıncayadək, yığımın azalmış həcmi isə investisiya tələbi

kəmiyyəti ilə bərabərləşənədək azalmaqda davam edəcəkdir.

Məcmu təklif (və yığım) artıqlığı yoxa çıxacaq. Nemətlər bazarı tarazlıq vəziyyətinə çatacaq.

Əgər iqtisadiyyatda artıq tələb yaranırsa, yəni faktik buraxılış tarazlıdan az olursa: $Y_2 < Y_0$ (şəkil 16.3), onda Y_2^{AS} məcmu təklifin səviyyəsi Y_2^{AD} məcmu tələbin həcmindən ($Y_2^{AD} - Y_2^{AS}$) məbləğində az olacaq.

S_2 yığım I_2 investisiya tələbi kəmiyyətindən az olduğu üçün ($I_2 - S_2$) artıq investisiya tələbi yaranır ki, onu da təmin etməyə heç nə olmur.



Şəkil 16.3. İqtisadiyyatda inflyasiyanın fərqli vəziyyəti

Beləliklə, **inflyasiya fərqi** – *məcmu tələbin həcminin məcmu təklifin həcmindən (real gəlirdən) çox olduğu kəmiyyət və müvafiq olaraq investisiya tələbinin həcminin planlaşdırılan yığımdan artıq olduğu kəmiyyət* meydana gəlir.

Firmalar üçün inflyasiya fərqi özünü əldə olunmamış satış pulu şəklindəki zərər kimi təzahür edir. Qiymətlərin çevik olmaması şəraitində firmalar artıq tələbdən qiymətlərin qaldırılması üçün istifadə edə bilmirlər, buna görə də onlar istehsalı genişləndirməli və məşğulluğu artırmalı olurlar. Bunun da nəticəsi buraxılış tarazlıq qiymətinə ça-

tıncayadək istehsal həcminin və istehlak (və məcmu) tələbinin artması olacaqdır.

Beləliklə, firmalar buraxılışı məcmu tələb həcminə tam uyğunlaşdırmağa çalışırlar, çünki bu, itkilərdən yayınmağa imkan verir. Bu onlara müyəssər olanda, iqtisadiyyatda nə investisiya tələbinin artıqlığı, nə də çatışmazlığı müşahidə olunmur və deməli, səmərəli təklif – nemətlər bazarını tənzimləyən məcmu tələb kəmiyyəti formalaşır.

Beləliklə, keynsçi modeldə məcmu təklifin kəmiyyəti avtomatik olaraq məcmu tələb kəmiyyətinə uyğunlaşır.

Bu, Xansen qanunudur: «Məcmu tələb özü-özü üçün təklif yaradır».

Məcmu təkliflə məcmu tələbin həcmləri arasındakı fərq (bax şəkil 16.2 və 16.3) həmişə investisiya tələbi kəmiyyəti ilə yığım pulları arasındakı fərqə bərabərdir.

Buna görə də buraxılış və planlaşdırılan xərclərin bərabərliyi yalnız investisiya tələbi həcmi ilə yığım pulları həcminin bərabərliyi (I=S olmaqla $Y^{AD}= Y^{AS}$) şərtilə mümkündür.


Qeyd etmək lazımdır ki, investisiya tələbi kəmiyyəti ilə yığımın həcmi birbaşa tarazlaşa bilmirlər, çünki müxtəlif amillərdən asılıdırlar: I = I(r) və S = S(Y). I = S bərabərliyi iqtisadiyyatın real və pul bölmələrinin mürəkkəb qarşılıqlı əlaqələri nəticəsində mümkündür.

Keynsçiliyin əvvəllər məcmu tələblə məcmu təklif arasında tarazlığa nail olunmasının iqtisadiyyatın bütün sahəsində tarazlığa çatılması demək olduğunu hesab edən iqtisadi elmdə etdiyi çevriliş məhz bundan ibarətdir. Lakin aydın oldu ki, hətta bu kəmiyyətlərin bərabərliyinə çatandan sonra da bazar iqtisadiyyatı yenə də bir sıra, məsələn, inflyasiya, işsizlik və istehsalın düşməsi kimi iqtisadi problemlərlə "xəstələnir".

Keynsçi model ya inflyasiya, ya da işsizliklə mübarizə aparmağa imkan verirdi. Amma müasir bazar iqtisadiyyatında yüksək işsizliklə yüksək inflyasiyanın – staqflyasiyanın - daim mövcudluğu keynsçi model çərçivəsinə sığışmır. Bundan başqa, tələbin təbii artımının məqsədyönlüyünü

əsaslandıraraq bu model müəyyən mənada staqflyasiyanı sürətləndirir. Tələbin stimullaşdırılması məqsədilə aparılan ekspansiya siyasəti (pul vəsaitlərinin ödənilməsi) real tələbin deyil, nominal tələbin artmasına səbəb olur. Bu istehsalı qısa müddətə stimullaşdırır, uzunmüddətli dövrdə isə tələbin süni surətdə artırılması inflyasiya, istehsalın azalması və işsizliyin artması ilə nəticələnir.

Ekspansiya siyasəti (tələbin stimullaşdırılması) staqflyasiya iqtisadiyyatını "yerində saymaqla" qəliz trayektoriya üzrə hərəkətə vadar edir. Şəkil 16.4-ü nəzərdən keçirək.



Şəkil 16.4. İnflyasiya şəraitində ekspansiya siyasəti

Fərz edək ki, iqtisadiyyat "tarazlığaqədərki" səviyyədədir (A nöqtəsi) və onu stimullaşdırmaq üçün ekspansiya siyasəti tətbiq olunur. Əhalinin pul gəlirlərinin artması ilkin mərhələdə həqiqətən də istehsal həcminin artmasına səbəb olur (B nöqtəsi). Amma əgər keynsçilər bu yerdə dayanmışdılarsa, təhlilin davam etdirilməsi maraqlı məqamları aşkarladı. Məsələ burasındadır ki, istehsal tələbin nominal artımını real tələb artımı hesab edərək ona eyni zamanda həm qiymətlərin yüksəldilməsi, həm də istehsalın artırılması ilə reaksiya verir. Tələbin artması eyni zamanda həm məşğulluğun armasına, həm də inflyasiyanın artmasına səbəb olur. İqtisadiyyat B nöqtəsinə keçir. Lakin bir müddətdən sonra gələcək inflyasiyanın gözləmələri başlayır və bununla

əlaqədar olaraq əməkhaqqının artırılması tələbləri artır. Artan məsrəflər təklif əyrisini yuxarı hərəkət etdirir. Nəticədə, müəssisələr və muzdlu işçilər inflyasiyaya uyğunlaşıb yenidən inflyasiyadan əvvəlki qərarları qəbul edəndə iqtisadiyyat yeni məşğulluq və istehsal səviyyəsinə keçir. Amma indi inflyasiya daha yuxarıda, C nöqtəsində olacaq.

Lakin tezliklə istehsal aldadıldığını və hökumətin payladığı pulları qazanmağa vadar edildiyini duyaraq ilkin səviyyəyə qayıdır. Lakin pul gəlirlərinin baş tutmuş artımı artıq əməkhaqqı səviyyəsinə çatmış, istehsal məsrəfləri tərkibinə daxil olmuşdur. Buna görə də istehsal A nöqtəsinə deyil, C nöqtəsinə qayıdır ki, burada da əvvəlki istehsal həcmi qiymətlərin inflyasiya səviyyəsi ilə qovuşur. «Yerində saymaq» baş tutdu, lakin vəziyyət staqflyasiyalı oldu. Buna görə də qısamüddətli vəziyyət xaricində istehsal (təklif) həcmi dəyişilməz qalır və hər bir ekspansiya siyasəti mərhələsinə öz artımının inflyasiya immitasiyası ilə cavab verir (AC vektoru).

Tələb iqtisadiyyatının (keynsçi model tərəfindən göstərilən) təklif iqtisadiyyatından (neoklassik modeldə təsvir olunan) əsas fərqləri:

1. Əgər neoklassik modeldə təklif özünə tələb yaradırsa, C.M.Keynsin modelində əksinə, tələb təklifi özünə uyğunlaşdırır.

2. Neoklassik modeldə tələb kəmiyyətinin təklif kəmiyyətinə uyğunlaşdırılması qiymət amillərinin (faiz dərəcəsi və qiymətlər) dəyişdirilməsi hesabına əldə olunur. Keynsçi modeldə təklifin kəmiyyəti səmərəli tələb kəmiyyətinə buraxılışın dəyişdirilməsi yolu ilə uyğunlaşdırılır.

Əsas anlayışlar və məfhumlar

Məcmu tələb və təklif modeli; makrotarazlıq şərtləri; makrotarazlığın klassik modeli; makrotarazlıq keynsçi modeli; resessiya fərqi; inflyasiya fərqi; səmərəli tələb.

XVII FƏSİL. PUL BAZARI MODELİNİN ƏSAS PARAMETRLƏRİNİN FORMALAŞMA PRİNSİPLƏRİ

§1. Pula tələbin formalaşması.
§2. Boumol-Tobinin nağd pulun idarə edilməsi modeli.
§3. Pul təklifi və ona təsir edən amillər.
§4. Pul bazarında tarazlıq.
§5. Mərkəzi bankın pul-kredit siyasəti və onun növləri.

Bu fəslin məqsədi pul bazarı modelinin əsas tərkib hissələrini, onun tarazlığını nəzərdən keçirmək və bundan çıxış edərək, əsas diqqəti RF Mərkəzi Bankının pul-kredit siyasəti üzərində cəmləməklə, pul istehsalının bank sistemini aydınlaşdırmaqdır.

§1. Pula tələbin formalaşması

Pul bazarı maliyyə bazarının bir hissəsi, pula tələb və təklifin faiz dərəcəsinin səviyyəsi ilə müəyyənləşdirildiyi yüksək likvidlikli qısamüddətli aktivlər bazarıdır. Bu həmçinin tələb və təklifin qarşılıqlı təsirini təmin edən bütöv institutlar şəbəkəsidir.

Pul bazarının özəlliyi ondadır ki, pullar digər likvidlik vəsaitlərinə: səhmlər, istiqrazlar və müxtəlif növ qiymətli kağızlara dəyişdirilir.

Pulların dəyəri, onların daxili xüsusiyyəti olmaqdan kənarlaşaraq, istənilən digər əmtəəyə dəyişdirilmək qabiliyyəti ilə müəyyənləşir. Maliyyə aktivlərinin bir qismi kimi pullar sövdələşmələrin aparılması üçün istifadə edilə bilirlər. Sövdələşmələrin aparılması üçün nə qədər çox pul lazım olsa, tədavüldə bir o qədər çox pul olmuş olur.

Bu, pula tələb anlayışını doğurur.

Pula tələb dedikdə iqtisadi subyektlərin öz sərəncamlarında müəyyən miqdarda nağd və nağdsız vəsaitlərin (yəni kassa qalıqlarının) olmasını istəmələri başa düşülür. Bu vəsaitlər, *birincisi, qarşıdakı ödənişlərin ehtiyatı* – qiymətlər indeksi nəzərə alınmaqla real ifadədə pul ehtiyatlarına tələb kimi müvəqqəti topla-

na bilər (P). *Real pul ehtiyatları* iqtisadiyyatda özündə yalnız nağd pulları deyil, həm də cari və təcili hesablardakı vəsait qalıqlarını da ehtiva edən pul kütləsinin və qiymətlərin ümumi səviyyəsinin nisbətini səciyyələndirir (M/P).

Və *ikincisi*, bu vəsaitlə müvəqqəti olaraq *məcmu sərvətin bir hissəsi kimi* toplanıla bilər. İnsan yalnız indiki zamanda yaşamır, həm də gələcək haqqında düşünür və onlardan maksimum xeyir götürmək ümidi ilə ehtiyat yaradır. Nağd pulların saxlanılması mülkiyyətçiləri həmin pula ala biləcəkləri əmlak növlərindən götürə biləcəkləri qazancdan məhrum edir. Buna görə də demək olar ki, bu alternativ məsrəflərlə bağlıdır.

Pul bazarının özəlliyi bundadır. Pul bazarında sövdələr zamanı pullar nominal faiz dərəcəsi ilə ölçülən alternativ dəyərlərinə görə digər likvidlikli vəsaitlərə dəyişdirilir. Yüksək faiz dərəcəsi istiqrazların yüksək gəlirliliyi və pulların əldə saxlanılmasının yüksək alternativ məsrəfləri deməkdir ki, bu da müvafiq olaraq nağd pula tələbi azaldır. Nağd pulların saxlanılmasının alternativ xərclərinin, yəni faiz dərəcəsinin aşağı olması göstərir ki, insanlar əllərində daha çox nağd pul saxlamağa cəhd edəcəklər.

Beləliklə, pullar bilavasitə qeyri-müəyyənliklə və risklə bağlıdırlar, özü də «pulların vacibliyi əsasən ondan irəli gəlir ki, onlar keçmişlə gələcək arasında əlaqələndirici vasitədir»[1].

Pula tələb konsepsiyaları

Pula tələbin klassik analizi pulun kəmiyyət nəzəriyyəsinə əsaslanır.

Pulun məbləği ilə sövdələrin ümumi həcmi arasında əlaqə ***İ.Fişerin mübadilə*** tənliyi vasitəsilə göstərilə bilər:

$$MV = PQ.$$

Burada M – tədavüldəki pulun miqdarı;

1 Кейнс Дж.М. Общая теория занятости, процента и денег.-М.: Прогресс, 1978. С.368.

V – pulun tədavül sürəti;

P – qiymətlərin səviyyəsi;

Q – bağlanmış sövdələşmələrin miqdarıdır.

Tənliyin sağ hissəsi sövdələr haqqındakı informasiyanı daşıyır. Sol hissəsi sövdələşmələrin bağlanılması zamanı istifadə olunmuş pulları təsvir edir.

Bu tənliyin ilkin formasının tətbiqinin mürəkkəbliyi bağlanmış sövdələşmələrin miqdarının hesablanmasının çətinliyi ilə bağlıdır, onu **Y** məcmu istehsal həcminin kəmiyyəti ilə əvəz edirlər:

$$M = \frac{PY}{V}$$

Burada tədavüldəki pulların miqdarı nominal gəlirin pulların tədavül sürətinə nisbətinə bərabərdir.

Bu tənlikdə V - pulların gəlir şəklində tədavül sürətidir. O həmin zaman kəsiyi ərzində eyni bir banknotun neçə sahibkarın gəlirləri tərkibinə daxil olmasını göstərir.

Fişer göstərirdi ki, pulun tədavül sürəti əhalinin sıxlığı, kommersiya ənənələri, nəqliyyat vasitələrinin keyfiyyəti və digər şərtlərlə müəyyənləşir və tədavüldə olan pulların miqdarından və qiymətlərin səviyyəsindən asılı deyil. Pulların tədavül sürətini o, işçilərə hər il ödənilən maaşın miqdarı kimi amillərlə müəyyənləşən sabit kəmiyyət hesab edirdi.

O, birincisi, cəmiyyətin məhdud olan və tam istifadə edilən resursları və ikincisi, sabit olan istehsalın səmərəlilik səviyyəsi ilə müəyyənləşən real istehsal həcmini də verilmiş götürürdü. Bu halda tədavüldə olan pulun miqdarı qiymətlər səviyyəsinə düz mütənasib olacaq. Bu tənliyi pula tələb tənliyi kimi də götürmək olar.

Kembric məktəbinin nümayəndələri (A.Marşall, A.Piqu) hesab edirdilər ki, Fişer tənliyi bütövlükdə doğrudur, lakin o, yalnız bir növ maliyyə aktivlərini – pulu nəzərə alır. Onlar isə pula tələbi portfel təhlili baxımından nəzərdən keçirirdilər.

Portfel nəzəriyyələri əsas diqqəti pulun yığım vasitəsi funksiyasına yönəldən pula tələb nəzəriyyələrinə deyir-

lər.

Portfel nəzəriyyələri baxımından pula tələbat müxtəlif növ aktivlərin nisbi cəlbediciliyi ilə müəyyənləşir. Sərvəti müxtəlif şəkillərdə: pul, real aktivlər (daşınmaz əmlak, müəssisələrin səhmləri və s.), istiqrazlar formasında saxlamaq olar.

Portfel iqtisadi subyektin aktivlərinin məcmusudur. Portfelin seçilməsi sərvəti müxtəlif növ aktivlər arasında necə bölüşdürmək, onların öz sahiblərinə hansı gəliri təmin edə biləcəyi haqqında qərarın qəbul edilməsindən ibarətdir.

Kembric məktəbi iqtisadçıları (A.Marşall Kembric universitetinin professoru olmuşdur, məktəbin adı da buradandır) hesab edirdilər ki, öz portfelində hesab edilə biləcək pul vəsaitlərinin həcmi iki amillə müəyyənləşir.

Birincisi, pulların likvidliyi ilə və ikincisi, pulların, məsələn, qiymətli kağızlar kimi gəlir gətirməməsi ilə. Əgər bir şəxs Y_N nominal gəlir əldə edirsə, gəlirin bir hissəsini o nağd pul şəklində saxlayır. *Nominal gəlir* real gəlirin qiymətlərin ümumi səviyyəsinə hasilinə bərabərdir:

$$Y_N = PY.$$

Kembric məktəbinin tənliyi aşağıdakı kimi olacaq:

$$M = kPY.$$

Burada k (likvidlik göstəricisi) = 1/V, yəni pulun tədavül sürətinə tərs mütənasibdir. Çünki nağd pul nə qədər az olsa, onların tədavül sürəti bir o qədər çox olar. Bu ifadədə k kəmiyyəti nominal gəlirlə (PY) arzu olunan pul ehtiyatları (M), yəni gəlirin təsərrüfat agentlərinin pul şəklində saxlamaq istədikləri hissəsi arasında proporsionallıq əmsalını göstərir:

$$k = (M/P)Y.$$

Müasir iqtisadi ədəbiyyatda faizlə ifadə olunmuş k əmsalını *monetləşmə əmsalı* və ya (M_2 / ÜDM)100% (M_2 – pul aqreqatıdır) nisbəti kimi hesablanan bazarın pulla doyğunluq göstəricisidir. Beləliklə, Kembric tənliyi Fişer tənliyinin başqa formasıdır. O, müxtəlif gəlirlilik səviyyəli müxtəlif maliyyə aktivlərinin və gəlirlərin hansı formada saxlanılma-

sı məsələsi həll olunanda onlar arasında seçim imkanının olmasını nəzərdə tutur.

Bu tənlikdən çıxış edərək adətən *pula real tələb* nəzərdən keçirilir:

$$(M/P)^D = k\,Y.$$

Burada M/P – real pul ehtiyatı;

D - tələbdir.

Deməli, M(1 / k) = PY və ya MV = PY, burada V = 1/k.

Lakin pulla ifadədə tələb real ifadədə nominal faiz dərəcəsindən də asılı olacaq:

$$(M/P)^D = L\,(r, Y).$$

Burada L – pula nominal tələb;

r – nominal faiz dərəcəsidir.

Beləliklə, pulun kəmiyyət nəzəriyyəsi və onunla birgə Kembric məktəbi də *sadə pula tələb funksiyası – real pul ehtiyatlarına tələb gəlirə proporsionaldır* - üzərində qurulur. Lakin nominal faiz dərəcəsi nə qədər yüksək olarsa, real ifadədə pul vəsaitləri ehtiyatına tələb bir o qədər aşağı olar.

Bu nəzəriyyələr özlərinin sonrakı inkişafını müasir monetarizmin banisi M.Fridmenin əsərlərində tapmışdır.

Monetarizm məfhumu 1968-ci ildə Amerika iqtisadçısı K.Brunner tərəfindən tətbiq edilmişdir. Hazırda monetarizm deyiləndə pul-kredit münasibətlərinin xüsusi növünə – pul kütləsinin artım templərinin bilavasitə tənzimlənməsinə üstünlük verən ümumnəzəri yanaşma başa düşülür.

Nəzəriyyənin ilkin müddəaları Amerika iqtisadçısı Nobel mükafatı laureatı M.Fridmen tərəfindən «Pozitiv iqtisadiyyat oçerkləri», «Kapitalizm və azadlıq» əsərlərində, bir də «Seçim azadlığı» kitabında verilmişdi.

Monetarizm klassik iqtisadi təlimin davamıdır və ***neoklassik intibah*** anlayışına daxildir.

Fridmen və onun tərəfdarlarının konsepsiyasının əsas müddəalarını qeyd edək.

Onların fikrincə, insan öz aktivlər portfelini optimallaşdırmaq seçimi qarşısındadır. Əmlaka malik olmaqdan fay-

dalılığı müəyyən risklə maksimum məmnunlaşdırmaq lazımdır. M.Fridmenə görə, pula tələb formal olaraq istehlak mallarına tələblə eyniləşdirilə bilər. Buna görə pula tələbin əsas amilləri bunlardır: sərvətin ümumi məbləği; müxtəlif sərvət formalarına malik olmaqla, sərvət sahiblərinin məqsədləri və üstünlükverimləri ilə bağlı xərclər. Bununla əlaqədar olaraq sərvətin beş növü fərqləndirilir: pul, istiqraz, səhm, fiziki nemətlər və insan kapitalı. Belə nəzəri yanaşmada investisiya portfelinin bütün pul hissələrinin cəmi pula tələb kəmiyyətini verir.

Beləliklə, M.Fridmen pula tələbi sabit kəmiyyət kimi nəzərdən keçirir. Onun nəzəriyyəsində təsərrüfat həyatına təsir edən əsas tənzimləyici qismində «pul impulsları» çıxış edir. Pul kütləsinin həcmi hökumətin pul-kredit siyasətinin əsas obyekti olur. Pulun artım tempinin seçilməsində pul kütləsinin iki amili: gözlənilən inflyasiya səviyyəsini və ictimai məhsulun artım tempini əks etdirən «mexaniki» artım qaydalarını əldə rəhbər tutmaq lazımdır.

Pul tədavülünün sabitliyi aşağıdakı ***Fridmen qaydasına*** əməl edildikdə əldə olunacaq: pul kütləsi daimi yüksək olmayan tempdə artır ki, bu da istehsalın uzunmüddətli artım tempi və pulların tədavül sürətinin nisbətindən asılıdır.Bütövlükdə pul kütləsinin illik artımı 4% həddini keçməməlidir, bu halda iqtisadiyyatda qiymətlərin səviyyəsi sabit olacaq.

Özü də pul kütləsinin həcmi bilavasitə pul bazasının kəmiyyətinə təsir edən RF Mərkəzi Bankının nəzarəti altındadır. İnflyasiyanın qarşısının alınmasının əsas şərti pul kütləsi üzərində ciddi nəzarətdir.İnflyasiya istənilən vasitələrlə, o cümlədən dövlət büdcəsinin sağlamlaşdırılması, yəni sosial proqramların ixtisar edilməsi, dotasiyaların və səmərəsiz istehsala subsidiyaların dayandırılması, dövlət sektorunun azaldılması hesabına aradan qaldırılmalıdır.Bu zaman vergiləri azaltmaq və düşünülmüş qanunvericilik yaratmaqla biznes üçün əlavə stimullar yaradılmasının zəruri olmasına xüsusi diqqət yetirilir.

İqtisadiyyata, xüsusilə pul-kredit sahəsinə düşünülməmiş dövlət müdaxiləsi, Fridmenin fikrincə, iqtisadi böhranı yalnız təhrik edə bilər.

Keynsçi pula tələb nəzəriyyəsi də portfel nəzəriyyələrindən biridir. Keyns «Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi» kitabında qeyd edir ki, pul sərvət növlərindən biridir. Və aktivlər portfelinin təsərrüfat subyektinin pul şəklində saxlamaq istədiyi hissəsi həmin subyektlərin likvidlik xüsusiyyətini nə dərəcədə yüksək qiymətləndirmələrindən asılıdır. Məhz likvidliyə üstünlük verim pula tələbatı – pula tələbi müəyyənləşdirir.

Buna görə də Keyns özünün pula tələb nəzəriyyəsini likvidliyə üstünlük nəzəriyyəsi adlandırmışdı. Onun pul nəzəriyyəsinin əsasında insanların pula malik olmaq cəhdlərini müəyyənləşdirən motivlərin təhlili durur.

Likvidliyə üstünlükverim dörd motivlə müəyyənləşir:

- istənilən sövdələri aparmaq üçün gəlirin bir qismini pul şəklində saxlamaq zərurəti;
- kommersiya əməliyyatları üçün pula tələbat;
- ehtiyyatlılıq;
- möhtəkirlik əməliyyatlarında iştirak etmək niyyəti.

C.Keyns əvvəlki iki motivi birində – transaksionda birləşdirirdi. Bu zaman, C.Keynsin yazdığı kimi, «onların (motivlərin) onun (insanın) öz başında dəqiq fərqləndirilməsinə ehtiyac yoxdur və eyni bir məbləği əsasən bir məqsəd üçün, amma eyni zamanda başqa məqsədlər üçün də saxlamaq olar»[1].

Beləliklə, Keynsə görə, *transaksion motiv* pulların bir qisminin iqtisadi subyektlərə sövdələr üçün lazım olması ilə əlaqədardır.

Bu motiv pulların mütləq müəyyən zaman müddəti ərzində daxil olub xərclənməsindən çıxış edən pul mədaxilləri və xərclərinin qeyri-təkmil sinxronlaşdırılmasının nəticəsidir.

1 Кейнс Дж. Общая теория занятости, процента и денег.- М.: Прогресс, 1978. С.264.

Pula transaksion tələb (transactons demand) gündəlik transaksiyaları həyata keçirmək üçün iqtisadi agentin əlində nə qədər pul saxlamaq istəməsini göstərir:

$$M_d = kY.$$

Burada M_d – pula transaksion tələb;

k - Kembric əmsalı, pul kütləsinin tədavül sürətinə tərs mütənasibdir;

Y - real gəlirin səviyyəsidir.

k kəmiyyəti praktik olaraq 1/4 və 1/5 arasında olur, çünki pul kütləsinin tədavül sürəti də adətən 4 və 5 arasında dəyişir. Pula transaksion tələb çərçivəsində bu əmsal real Y gəliri kəmiyyətinin müəyyən nisbətini təşkil edir. k-nın qiyməti yalnız uzunmüddətli dövrdə, əgər insanların alışlar etmək vərdişləri dəyişərsə, dəyişilə bilər.

Ehtiyatlılıq motivi (precationary motive), Keynsə görə, nəzərdə tutulmayan alışların edilməsi zərurətinin yaranmasının mümkünlüyü ilə izah olunur. Pulların saxlanılmasının bu motivi onların mübadilə vasitəsi olmaq funksiyası ilə bağlıdır. Gerçəklikdə tez-tez *nəzərdə tutulmamış ödənişlər* etmək və gəlirin qəflətən azalması halları ilə üzləşmək lazım gəlir. Ehtiyatlılıq motivi üzrə pula tələbin həcmi nəzərdə tutulmamış ödənişlərin həcmindən asılıdır ki, bu da subyektin gəliri ilə düz mütənasibdir. Əgər o bunu etməsə, zərər çəkəcək. Buna görə də nağd pul çatışmazlığından qaçmaq üçün əldə müəyyən məbləğdə nağd pul saxlamaq lazımdır. Gəlirin artması gözlənilməyən ödənişlərin artmasına aparır, yəni pulu saxlamağın son həddi səmərəsi artır. Böyük həcmdə pullar kənara qoyulur, buna görə də ehtiyatlılıq motivinə görə pula tələb transaksion tələb tənliyinə daxil edilə bilər.

Nəzərdən keçirilən pul ehtiyatı gözlənilməyən ödənişlərlə bağlı xərcləri azaltmaqla alternativ xərclər doğurur. Faiz dərəcəsi artdıqda pulun saxlanılmasının son həddi xərcləri də artır, yəni biz pulun bankda saxlanılması üçün faizləri əldə etmək imkanını itiririk. Nəticədə saxlanılası nağd pul pulun elə səviyyəsi seçiləcək ki, bu zaman son həddi xərcləri son həddi gəlirinə bərabər olsun.

Bu iki motiv pula tələbin bilavasitə milli gəlirin səviyyəsindən asılılığını müəyyənləşdirir.

Keyns pula tələbin digər motivinin – *möhtəkirliyin, yəni pula bir əmlak kimi tələbin* – rolunu xüsusi qeyd edirdi. O, qiymətliliyin saxlanılması funksiyası ilə bağlıdır. Ev təsərrüfatı gələcək qeyri-müəyyənliklə üzləşir ki, o da gələcək aktiv mənbələrinin bazar dəyəri ilə əlaqədardır. Bu, yalnız qiymətli kağız bazarının fəaliyyətində iştirak edən ev təsərrüfatlarına aiddir. Belə ev təsərrüfatları qiymətli kağızları saxlamaqla sərbəst möhtəkir pullarını saxlamaq arasına seçim imkanına malikdirlər. Və bu seçim ev təsərrüfatlarının faiz dərəcələrinin gələcək dəyişmələri barədə gözləmələrindən asılıdır.

Keyns hesab edirdi ki, təsərrüfat agentləri portfellərinin bir qismini likvidli formada ya istiqrazlar, ya da digər mülkiyyət hüququ daşıyıcısı şəklində saxlayacaqlar ki, bu da səviyyəsi qiymətli kağızlar bazarında müəyyənləşən faiz şəklində gəlir gətirə bilər. Amma bu bazarda faiz dərəcəsi dəyişilə bilər və deməli, istiqrazların da bazar qiyməti dəyişilər. Bazar faiz dərəcəsi yüksək olduqda iqtisadi subyekt istiqrazlara tələbi artırır və müvafiq olaraq pula tələbi azaldır. Və əksinə, aşağı faiz dərəcəsində pula tələbi artırıb, istiqraza tələbi azaltmağa üstünlük verilir. Özü də qiymətli kağızlar bazarında borc faizi norması aşağı düşdükcə pula tələb kəmiyyəti tədricən artır. Deməli, pula tələb faiz dərəcəsi səviyyəsindən əks asılılıqdadır.

Pula möhtəkirlik tələbi ev təsərrüfatlarının müxtəlif faiz dərəcələrində (qiymətli kağızların müxtəlif qiymətlərində) nə qədər pul əldə saxlamağı lazım bilirlər.

Əgər bazar faiz dərəcəsi bir maliyyə aktivi kimi istiqrazlardan gəlirlər həmin qiymətli kağızlara qoyulması ilə bağlı riski kompensə etmək üçün yetərli olmayan müəyyən minimum səviyyəyə çatırsa, «likvidliyə mütləq üstünlük» zamanı yetəcək, yəni pullar istiqrazlarlan əlverişli olacaq. Təsərrüfatçı subyektlər üçün aktivlərini pul və ya qiymətli kağızlar şəklində saxlamağın fərqi olmayacaq.Lakin bu, di-

videndlərinin ödəmə müddəti müxtəlif qiymətli kağızlar üzrə investisiya portfelinin və müxtəlif ölkələrin qiymətli kağızlarının diversifikasiya olunmamasını nəzərdə tutur. Bu zaman bütün bazar iştirakçılarının gözləmələrinin üst-üstə düşməsi lazımdır.

Belə vəziyyət *«keynsçi likvidlik tələsi»* adı almışdır. Keynsə görə, belə vəziyyət depressiya dövründə mümkündür və yüksək işsizlik səviyyəsi ilə əlaqədar olmalıdır.

Deməli, pula möhtəkirlik tələbi motivi bazar konyunkturasından asılı olaraq öz kapitalından daha səmərəli istifadə etmək üçün müəyyən ehtiyatın saxlanılması zərurəti ilə şərtlənir.

Beləliklə, Keyns pula tələbi iki dəyişən kəmiyyətin: gəlir və faiz normasının - funksiyası kimi nəzərdən keçirirdi. Bütün digər şərtlərin bərabərliyi şərtilə nominal gəlirin artması pula tələbin transaksion motiv və ehtiyatlılıq motivi ilə şərtlənən artmasına səbəb olur. Saxlama üçün sərvətlərdən və digər maliyyə aktivlərindən istifadə imkanları nə qədər az olsa, pula möhtəkirlik tələbi bir o qədər yüksək olacaq. Buna görə də pula tələb faiz dərəcəsindən əks asılılıqdadır. Faiz dərəcəsi nə qədər yüksək olsa, bir o qədər çox potensial gəlir itiririk, pulların nağd şəkildə saxlanılmasının alternativ dəyəri bir o qədər yüksəkdir və deməli, nağd pula tələb də aşağıdır. İnkişaf etmiş maliyyə bazarı olduqda, onlarda qısamüddətli, faiz gəliri gətirən aktivlər olduqda, pula möhtəkirlik tələbi minimum səviyyədədir.

Möhtəkirlik motivlərinə görə sərbəst pullar şəklində pula malik olmaq istəyini faiz dərəcəsi dəyişdikdə möhtəkirlik motivi üzrə pula tələbin nə qədər dəyişəcəyini göstərən likvidliyə üstünlükvermə son həddi meyilliyi adlandırılan anlayışın köməyi ilə ifadə etmək mümkündür.

Likvidliyə üstünlükverim nəzəriyyəsinə müvafiq olaraq pula ümumi tələb aşağıdakı şəkil alır:

$$M_d = M_{d1} + M_{d2} = L_1(Y) + L_2(r - r_{göz}).$$

Burada M_{d1} – transaksion motivə və ehtiyatlılıq motivinə cavab verən nağd pulun həcmi;

M_{d2} – möhtəkirlik motivinə cavab verən nağd pulun həcmi;

$L_1(Y)$ – likvidliyin gəlir səviyyəsindən asılı olan funksiyası;


$L_2(r - r_{göz})$ – likvidliyin faiz dərəcəsindən asılı olan funksiyası;

r – bazar faiz dərəcəsi;

$r_{göz}$ – gözlənilən faiz dərəcəsi.

Şəkil 17.1-də müxtəlif pula tələb növlərinin qrafikləri verilmişdir.

Qrafik 17.1, *a* - pula transaksion tələbi göstərir. O, faiz dərəcəsindən asılı olmadığından , qrafik şaqulidir; qrafik 17.1, *b* – pula möhtəkirlik tələbini göstərir. Faiz dərəcəsi nə qədər nə qədər yüksək olarsa, aktivləri nağd şəkildə deyil, istiqrazlar formasında saxlamaq bir o qədər sərfəlidir; 17.1, *s* – pula ümumi tələb (likvidliyə üstünlükverim əyrisi) M_{d1} və M_{d2} xətlərinin birləşməsi nəticəsində yaranır.



Şəkil 17.1. Pula tələbin müxtəlif növləri:
a) transaksion; b) möhtəkirlik; c) ümumi

Bunu da mütləq qeyd etmək lazımdır ki, faiz dərəcələrinin gələcək kursuna ev təsərrüfatlarının münasibəti ölkədə siyasi və ya iqtisadi dəyişikliklərlə asılı olaraq dəyişəcəkdir. Faiz dərəcəsi azalanda möhtəkirlik tələbi əyrisi ya yuxarı qalxa, ya da aşağı enə bilər.

Hazırkı mövqelərdən likvidliyə üstünlükverimin keynsçi təhlili nisbətən natamam və məhduddur, buna görə də

C.M.Keynsin ideyaları *müasir pula tələb nəzəriyyələrinin müxtəlif istiqamətlərinə* rəvac vermişlər.

Pulun tədavül vasitəsi kimi rolunu önə çəkən pula tələb nəzəriyyələri ***pula transaksion tələb nəzəriyyələri*** adlanırlar.

Bu nəzəriyyələr insanların nə üçün pulların bir qismini özlərində və ya cari hesablarında saxladıqlarını izah edirlər. Pula tələbin yeganə motivi faiz dərəcəsindən əks asılılığa malik olan transaksiondur.

§2. Boumol-Tobinin nağd pulun idarə edilməsi modeli


Pula transaksion tələb nəzəriyyəsi XX əsrin 50-ci illərində Uilyam Baumol və Ceyms Tobin tərəfindən işlənib hazırlanmış və " **Boumol-Tobinin nağd pulun idarə edilməsi modeli** "[1] adını almışdı. O hələ də pula tələb nəzəriyyələrinin əsaslarından biridir.

Modelin əsas ideyası ondadır ki, sövdələşmələr aparmaq üçün pulun nağd şəkildə saxlanılmasının rahatlığı və həmin pulun əmanət hesablarında saxlanıldığı təqdirdə alına biləcək faiz arasında kompromis mövcuddur. Hər bir dövrün əvvəlində gəlir təminatlı faiz gəlirli depozitə köçürülür.

Müəyyən ödəniş qabiliyyətliliyi saxlamaq üçün nə qədər pul ehtiyatı saxlamaq lazım olması məsələsini həll etmək vacibdir. Deyək ki, iqtisadi subyektin bir ay ərzində əldə etdiyi nominal gəlir Y-ə bərabərdir. Fərz edək ki, bütün gəlir ay ərzində bir qaydada alışlara xərclənir. Pulun məbləği ayın əvvəlində Y, ayın axırında isə 0, ay üçün orta məbləğ isə Y/2-dir (şəkil 17.2).

Lakin pulların bir qismi bankda müəyyən faizlə əmanət hesabında saxlanıla bilər. Onda hər dəfə banka gedib hesabdan Y/N-ə (N – banka gedişlərin sayıdır) bərabər məbləğdə

1 Баумол У. Экономическая теория и исследование операций.-М.: Прогресс, 1965.
Tobin J. Liquidity Preference as Behavior Towards Risk/-The Review of Economic Studies. Vol. XXV (2).# 67/ February 1958.



Şəkil 17.2.Ödəniş qabiliyyətini saxlamaq üçün lazım olan pul ehtiyatı

pul götürdükdə, subyekt bu məbləğləri bərabər hissələrlə 1/N dövrlərin hər biri ərzində bərabər hissələrlə xərcləyə bilər. Problem bankdan pul götürümlərinin optimal sayının müəyyənləşdirilməsindədir. Bu götürümlərin sayı nə qədər çox olsa, əldə olan pulların miqdarı və deməli, alınmamış faizlər şəklindəki itkilər də bir o qədər aşağı olar, amma banka daha tez-tez getmək lazım gələcək.

Deyək ki, **F** – banka gedişlərlə bağlı xərclər, r – faiz dərəcəsidir. Subyektin ay ərzində saxladığı nağd pulların orta miqdarı Y/(2N)-ə bərabər olacaq. Pul ehtiyatının saxlanılması ilə bağlı alınmamış faizlər şəklindəki itkilər rY/(2N)-ə bərabər olacaq. Banka gedişlərin ümumi məbləği dəyər ekvivalentində FN-ə bərabər olacaq.

Onda pulların əldə saxlanılması ilə bağlı məcmu xərcləri bərabərdir:

$$(TC) = rY / (2N) + FN,$$

yəni alınmamış faizlər + banka gedişlərə xərclər.

N banka gedişlər sayı nə qədər yüksək olsa, onlarla bağlı xərclər və alınmamış faizlərin məbləği bir o qədər az olar. İqtisadi subyekt qarşısında duran məsələ bu ümumi xərcləri minimuma endirmək, yəni bankdan götürümlərin optimal sayını və deməli, nağd pulların optimal ehtiyatını müəyyən-

ləşdirməkdir.

Məcmu xərclərin funksiyasının differensiasiyasının köməkliyi ilə aşağıdakını alırıq:

$$TC'(N) = (-rY) / (2N^2) + F.$$

Bu funksiyanın birinci törəməsini sıfır götürsək. Onun aşağıdakı halda minimuma çatacağını görərik:

$(-rY) / (2N^2) + F = 0$, buradan da $F = rY / (2N^2)$.

Bu zaman $N^2 = rY / (2F)$; deməli, $N = \sqrt{rY / (2F)}$.

Düsturdan belə çıxır ki, pula tələb $(M/P)^D$, yəni iqtisadi subyektlərdə pul ehtiyatının formalaşması Y nominal gəlirdən düz və faiz dərəcəsi səviyyəsindən tərs asılılıqdadır. Bu zaman subyektləri pulun məhz alıcılıq qabiliyyəti maraqlandırır.

Beləliklə, model bizim əvvəlcə qəbul etdiyimiz şəkildə pula tələb funksiyasını təsdiq edir:

$$(M / P)^D = L (r, Y).$$

Burada r – nominal faiz dərəcəsidir.

Müasir pula tələb portfel nəzəriyyələrində müxtəlif aktivlər sahiblərinə hansı gəliri təmin edə biləcəklərindən və bu və ya digər maliyyə aktivinin seçilməsi ilə bağlı risk dərəcəsinin necə olmasından asılı olaraq seçilirlər. Pula tələb fərdin ümumi sərvətindən asılılıqda olur, çünki bu sərvətin həcmi bütövlükdə aktiv portfelinin həcmini müəyyənləşdirir. Deməli, pula tələb müxtəlif toplananların funksiyası olacaq:

$$(M / P)^D = f (rs, rb, \pi^e, W).$$

Burada rs – səhmlər üzrə gözlənilən real gəlirlər;

rb- istiqrazlar üzrə gözlənilən real gəlirlər;

π^e- inflyasiyanın gözlənilən tempi;

W – toplanılmış sərvətdir.

Pula tələb təsərrüfat agentinin pul ehtiyatından əldə etdiyi səmərə və alternativ aktivlərin gətirdiyi gəlirin müqayisə edilməsinin nəticəsi kimi müəyyənləşdirilir.

İlk üç toplanan artdıqda pula tələb aşağı düşür. Toplanmış sərvət artdıqda pula tələb artır, çünki aktivlərin ümumi

məbləği və onların hər birinin mütləq yığım kəmiyyəti artır. Verilmiş düstur pula tələbin $(M / P)^D = L (r, Y)$ sadə funksiyası ilə də düz gəlir, çünki gəlir artdıqca təsərrüfat subyektinin topladığı sərvət də artır.

Müasir nəzəriyyə təsərrüffat agentlərinin likvidlik portfelinə üstünlük vermək istəyinə təsir edən digər şərtləri də özündə ehtiva edir. Məsələn, gözləmələrdə dəyişikliklər. Gələcək konyunkturanın bədbin proqnozunda pula tələb kəmiyyəti artıma meyilli olur və əksinə. Nikbin proqnozda digər aktiv növləri üstünlükverimli olur, buna görə də pula tələb aşağı düşür.

İnflyasiya proseslərinin artdığı hallarda pula tələb azalır və portfel sahibləri vəsaitlərini real aktivlərə çevirməyə çalışırlar.

Lakin pul qoyuluşlarının qiymətli kağızlar və pul arasında diversifikasiya vasitəsilə əldə olunan optimallaşdırılması yalnız iqtisadi sistemdə pula tələb və təklifin balanslaşdırıldığı təqdirdə mümkün olur.

Optimal portfelin seçimində insanların riskə meyilliliyinin özü böyük rol oynayır. Aşağıdakılar fərqləndirilir:

- riskə münasibətdə neytrallıq;
- riskə üstünlükverim;
- riskə nifrət.

Əgər insan riskə qarşı neytraldırsa, o, risk dərəcəsinin dəyişməsi barədə düşünmür, buna görə də pullarını möhtəkirlik motivinə görə saxlamayacaq. Əgər fərd riski xoşlayırsa, o, daha yüksək riskli və gəlirli portfeli seçəcək. Onun portfeli yalnız pullardan deyil, həm də böyük gəlir və böyük zərər gətirə biləcək aktivlərdən ibarət olur. O da möhtəkirlik motivinə görə pul saxlamır, çünki bu motiv kapital dəyəri itkilərinin minimallaşdırılması imkanlarına əsaslanır.

Yalnız riskin mənfi qiymətliliyə malik olduğunu düşünənlər möhtəkirlik pulu saxlamağa çalışacaqlar.

Beləliklə, *pula tələb nəzəriyyələrinin təhlili göstərdi* ki, onların hamısı, hər birinin öz özəllikləri olsa da, pula tələb kəmiyyətini müəyyənləşdirən üç əsas amili fərqləndirirlər:

- qiymətlərin səviyyəsi;
- milli istehsalın real həcmi;
- real və nominal faiz dərəcəsinin səviyyəsi.

§3. Pul təklifi və ona təsir edən amillər

Ölkədəki pulun ümumi miqdarını ***pul təklifi*** adlandırırlar. Onlar maliyyə aktivlərindən ən likvidlik formasında olanlardır.

Artıq başa düşdük ki, pul kütləsinin tərkibinə yalnız əhalinin sərəncamında olan və miqdarı RF Mərkəzi Bankı tərəfindən sərt tənzimlənən nağd pullar deyil, həm də kommersiya banklarındakı cari və təcili hesablardakı pullar daxildir. Pul kütləsinin tərkibi və strukturu hər bir ölkə üçün milli iqtisadiyyatın inkişafından, bazar və pul münasibətlərinin inkişaf səviyyəsindən və Mərkəzi bankın siyasətindən asılıdır. Lakin pul kütləsinin ayrı-ayrı tərkib hissələrinin likvidliyi fərqlidir. Özü də M_1, M_2, M_3 pul kütləsi yalnız likvidliklərinə görə deyil, həm də pula tələbin motivasiyasına görə fərqlənirlər. Belə ki, M_1 və M_2 transaksiyaların kassa nağd puluna və ehtiyatlılığın kassa nağd puluna, M_2 və M_3 isə transaksiyaların, ehtiyatlılığın və möhtəkirliyin kassa nağd puluna tələbi formalaşdırırlar.

Buna görə də pula tələb kəmiyyəti yalnız Mərkəzi bankın siyasətindən deyil, həm də kommersiya banklarının fəaliyyətindən və müvafiq olaraq pul vəsaitlərini nağd pulla bank hesablarındakı vəsait arasında hansı nisbətdə bölmək haqqında qərarı qəbul edən əhalinin davranışından asılıdır. Özü də Mərkəzi bank pul təklifinə yalnız nəzarət edir. Pulun yaradılması prosesi ilə isə kommersiya bankları məşğul olur. Banklar əhali və firmalar arasında əsas iqtisadi vasitəçi olmaqla iqtisadiyyatda əsas pul təklifini təmin edirlər.

Bu prosesi diqqətlə nəzərdən keçirək.

Banklar öz fəaliyyətlərini mənfəət götürmək üçün həyata keçirirlər, özü də bu zaman bankın likvidliyi, yəni müştəriyə münasibətdə öz öhdəliklərinə: istənilən sayda

müştəriyə əmanətlərini nağd pulla qaytarmaq öhdəliyinə vaxtında əməl edə bilmək qabiliyyəti mühüm əhəmiyyət kəsb edir. Hesabından pul götürmək istəyən müştərilərin sayı, adətən, pul qoyan müştərilərin sayına təxminən bərabər olur.

Bankın likvidliyinin və həmçinin tədiyyə qabiliyyətliliyinin təmin edilməsi üçün, yəni onun aktivlərinin kəmiyyətinin borclarının kəmiyyətinə bərabər olduğu vaxt, bankın aktivləri və passivlərinin strukturu arasında müəyyən nisbət olmalıdır. Balansın maddələrinin vəziyyəti bankın passiv və aktiv əməliyyatlarının nəticəsidir. Onların həyata keçirilməsi üçün bank lisenziyası lazımdır.

Balansın passivi, yəni vəsait mədaxili mənbəyi kapital və cari maddələrdən ibarətdir. **Kapital maddələr** – səhmdar, ehtiyat kapitalları və bölünməmiş mənfəətdir, cari maddələr – bank depozitləri (əmanətlər) və sairdir. ***Passiv əməliyyatlar*** – bankların özlərinin resurslarının formalaşması ilə bağlı əməliyyatlardır. Onların köməkliyi ilə əhalinin passiv və passivlərin aktivlərdən üstün olduğu hissədə aktiv-passiv hesablarında olan pul vəsaitlərinin artırılması baş verir.

Nəticədə bankın özünün şəxsi kapitalı yaranır və onun mövcudluğu özgə vəsaitlərinin cəlb edilməsi üçün zəmin olur. Bankın öz şəxsi kapitalının tərkibinə daxildir:

- nizamnamə kapitalı. Bank səhmdar cəmiyyəti formasında yaradılırsa, nizamnamə kapitalının kəmiyyəti səhmdarlar tərəfindən alınmış səhmlərin nominal dəyərlərinin cəminə bərabərdir;
- ehtiyat kapitalı (xalis gəlirdən hər il ayırmalar hesabına yaranmış ehtiyat və digər fondlar). Fondun minimum həcmi – nizamnamə kapitalının 15%-i qədərdir. Bu vəsaitlər verilmiş borclardan və qiymətli kağızlarla əməliyyatlardan ola biləcək itkilərin yerinin doldurulması üçün nəzərdə tutulurlar;
- xüsusi iqtisadi və sosial inkişaf (sığorta, yığım) fondları;

• emissiya kapitalı (əmlakın təkrar qiymətləndirilməsi zamanı onun dəyərinin artması, səhmlərin kursunun qalxması);

• bölünməmiş mənfəət – mənfəətin bütün ödənişlər edildikdən sonra qalan hissəsi.

Balans passivlərinin strukturunda öz kapitalının payı çox azdır. Lakin o, bankın öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi, əmanətçilərin və digər kreditorların maraqlarının qorunması, bankın müflisləşməsinin qarşısının alınmasına kifayət etməlidir. Bankın dayanıqlığının və onun işinin səmərəliliyinin təmin edilməsində öz kapitalının mühüm əhəmiyyəti var.

Bank resurslarının çox hissəsini kommersiya banklarının cəlb olunmuş vəsaitləri təşkil edir ki, onlar da bankın götürdüyü depozitlərdən (əmanətlərdən) və kreditlərdən (borclardan) ibarətdir. Əmanətçilərin və kreditorların vəsaitlərinin qəbul edilməsi passiv bank əməliyyatlarının əsas növüdür. Bu, müxbir hesabları[1], bankın balansında olan və onların geri alınması razılaşması ilə satılan qiymətli kağızlar ola bilər.

Bank resursları tərkibinə emitasiya edilmiş vəsaitlər daxil ola bilir ki, bu da bankın borc qiymətli kağızlarının buraxılması hesabına əldə edə biləcəyi istiqraz borcları, bank vekselləri və sairdir.

Bankın banklararası kredit bazarından götürə bildiyi borc vəsaitləri də mühüm əhəmiyyət kəsb edir.

Aktiv əməliyyatlar – bank resurslarının yerləşdirilməsi ilə bağlı əməliyyatlardır.

Bank aktivləri, yəni əmanətçilərin vəsaitlərindən istifadə istiqamətləri, kapital və cari maddələrdən ibarətdir. Aktivlərin kapital maddələri banka məxsus torpaq, binalardır; cari maddələr – bankların nağd pulları, qeydiyyata alınmış veksellər və digər qısamüddətli öhdəliklər, borclar və investisiyalardır.

1 Müxbir hesabı – müxbir-bankların, yəni bir-biri ilə müqavilə münasibətlərində olan bankların tələbə qədər depozitləri.

Likvidlik və mənfəətlik baxımından dörd qrup bank aktivləri fərqləndirilir:

1. İlkin ehtiyatlar – götürülən aktivlərin ödənilməsi və kreditorların sifarişlərinin təmin edilməsi üçün dərhal istifadə oluna bilən ən likvidli aktivlərdir. Onlara bankın nağd pulları, çeklər və inkassasiya prosesində digər ödəniş sənədləri, digər kommersiya banklarında müxbir hesablarındakı vəsaitlər aiddir. Bu aktivlər gəlir gətirmir, lakin bankın likvidliyinin əsas mənbəyidir.

2. İkinci ehtiyatlar - bu, kiçik gəlir gətirən yüksək likvidlikli aktivlər qrupudur ki, onları cüzi ləngiməklə və kiçik itki riskilə nağd pula çevirmək olar. Bura veksellər və digər qısamüddətli qiymətli kağızlar, tələbə qədərki borclar, birinci dərəcli barc götürənlərin qısamüddətli borclarıdır. İkinci dərəcəli aktivlər ilkin ehtiyatların doldurulması mənbəyi rolunu oynayır.

3. Bank borcları portfeli – bu, bank aktivlərinin ən mühüm hissəsidir, çünki bank borcları ən gəlirli, lakin ən riskli aktivlərdir.

4. Qiymətli kağızlar portfeli. Bank investisiyaları paketi bankın gəlir əldə etməsi və uzunmüddətli qiymətli kağızların ödənilməsi və onların qısamüddətliyə çevrilməsi müddəti yaxınlaşdıqca ikinci ehtiyatların doldurulması məqsədilə baş verir.

Bank aktivlərinin yarısından çoxu kredit əməliyyatları və qiymətli kağızlarla əməliyyatların payına düşür. Onlar üzrə gəlirlər bank mənfəətinin əsas mənbəyidir. Portfelin strukturu portfeldəki qiymətli kağızların konkret növlərinin nisbətidir. Lakin ən gəlirli qiymətli kağızlar riskli olanlar, amma ən etibarlı qiymətli kağızlar isə mənfəəti az olanlardır.

Kommersiya banklarının əsas aktiv əməliyyat növləri bunlardır:

• kreditin verilməsi;

• qiymətli kağızlara investisiyalar;

• müxtəlif investisiya layihələrinin həyata keçirilməsi;

• valyuta əməliyyatlarıdır.

Aktiv və passiv əməliyyatlar həyata keçirilməsi üçün bank lisenziyası tələb olunan əməliyyatlardandırlar. Bu əməliyyatlar Mərkəzi bank tərəfindən tənzimlənməlidirlər və onlar bank balansında öz əksini tapır.

Kommersiya bankının *əsas balans eyniliyi* passivlərin (onun öhdəlikləri və öz kapitalının məbləği) aktivlərin ümumi kəmiyyətinə bərabərliyidir.

Bank balansının aktiv və passivlərinin müddətə görə bu nisbəti bankın nisbi sabitlik dərəcəsini müəyyənləşdirməyə imkan verir. Rusiyada ləğvlik aktivləri arasında asan realizə olunanlar dövlətin qiymətli kağızları, bir də ən iri bankların maliyyə alətləri və yanacaq-energetika kompleksinin ən iri korporasiyalarının səhmləridir.

Amma son vaxtlar kommersiya bankları bank əməliyyatları üçün qeyri-ənənvi olan və Mərkəzi bank tərəfindən tənzimlənməli olmayan əməliyatlarla get-gedə daha çox məşğul olmağa başlayırlar. Onlar arasında bank xidmətləri və bankların öz əməliyyatları fərqlənirlər.

Bank xidmətləri:

• komisyon əməliyyatlar – müştərinin hesabına onun tapşırığının yerinə yetirilməsi;

• akkreditiv əməliyyatlar – müştəridən xeyrinə akkreditiv açılmış üçüncü şəxsə ödənişin qanuniliyini təsdiqləyən sənəd təqdim olunduqda ödəniş etmək tapşırığı;

• inkassiya əməliyyatları – hesabdan şərtsiz pul silinməsi. Daha çox cərimə sanksiyalarının, arbitraj və məhkəmələrin qərarlarının icrası zamanı tətbiq olunur;

• faktorinq əməliyyatları – müştərinin borc öhdəliklərinin (verilmiş əmtəə və ya göstərilmiş xidmətə görə ödənilməmiş ödəniş sənədlərinin) faktura dəyərinin çox hissəsinin dərhal ödənilməsi şərti ilə alınması;

• forfeytinq – hər hansı bir müəssisəyə borcun (debitor borcunun) reqress hüququ (ödənilmiş məbləğin əvəzinin ödənilməsi tələbi) olmadan bank tərəfindən alınması;

• lizinq əməliyyatları – uzunmüddətli istifadə əmtəələrinin (maşın, avadanlıq) icarəsi;

• trast əməliyyatları – müştərinin pul mülkiyyətinin idarə edilməyə götürülməsi;

• informasiya xidmətləri – müştrilərə informasiyanın verilməsi.

Bankların öz əməliyyatları - bu, bankların müştərilərin göstərişləri ilə deyil, öz istəkləri ilə apardıqları əməliyyatlardır (valyuta alqısı, daxili fondların strukturunun dəyişdirilməsi).

Kommersiya banklarının likvidliyinə təsir edən amillər:

• aktivlərin keyfiyyəti – aktivlər nə qədər çox diversifikasiya edilmiş olsalar, bankın ləğvliyi bir o qədər yüksək olar;

• depozit bazasının keyfiyyəti – depozitlərin sabit bazası nə qədər böyük olsa, bankın likvidliyi bir o qədər yüksək olar.

İnkişaf etmiş ölkələrdə ən yüksək sabitliyə və az miqrasiya mütəhərrikliyinə tələbə qədərki depozitlər (cari hesablardakı vəsaitlər) malikdər, çünki onlar faiz dərəcəsinin səviyyəsindən asılı deyillər. Tələbə qədərki əmanətlər ucuz resurslardı, çünki müştəri hesablarına xidmət xərcləri minimaldır. Bununla yanaşı, tələbə qədərki əmanətlər passivlərin müəyyən şəraitlərdə, ələlxüsus keçid iqtisadiyyatı olan ölkələrdə qabaqcadan müəyyənləşdirilə bilməyən elementidir. Buna görə də bank menecmentinin qarşısında duran mühüm vəzifə optimal depozit bazası strukturunu tapmaqdır:

• aktivlərin və passivlərin bir-birinə quruluşuna, məbləğinə və müddətlərinə görə qoşulması («bankın qızıl qaydası»);

• bank menecmentinin keyfiyyəti;

• imic, bankın iş reputasiyası.

Bankın müştərilərdən aldığı vəsaitlər bankın ehtiyatıdır. Tam və qismən ehtiyatda saxlama sistemləri fərqləndiri-

lir.

Tam ehtiyatda saxlama sistemi bank aldığı vəsaitləri kredit kimi verməyəndə mövcuddur. Bu şəraitdə bank əlbəttə özünün tam tədiyə qabiliyyətliliyini və likvidliyini təmin edə bilər. Lakin bu zaman bankın təminatlı mənfəət əldə etməsi pozulacaq.

Beləliklə, deyək ki, (M_s) pul təklifinə iqtisadi subyektlərin sövdələşmələr üçün istifadə edə biləcəyi bank sistemindən kənar (C) nağd pulları və (D) depozitləri daxildir:

$$M_s = C + D.$$

Nağd pullar bilavasitə pul təklifinin bir hissəsidir. Pul təklifi modelinin təhlili üçün düstura pulların (*cr*) depozitləşmə edilməsi əmsalını daxil edək:

$$C = cr\ D.$$

Burada *cr* - nağd pulun depozitləşmə nisbətinə bərabər olan deponə edilmə əmsalıdır:

$$cr = C / D.$$

Bu, əsasən, pulların hansı hissəsinin nağd pul şəklində, hansı hissəsinin depozit şəklində saxlanılması barədə qərar qəbul edən əhalinin davranışı ilə müəyyənləşir.

Bu halda pul təklifini belə göstərmək olar:

$M_s = cr\ D + D = D\ (1 + cr)$; buradan da

$$D = M_s / (1 + cr).$$

Amma borc pul vermək üçün banklar depozitlərinin yalnız bir hissəsindən istifadə edirlər, qalanını isə ehtiyat kimi saxlayırlar. Bu, *qismən ehtiyatda saxlama sistemini* təşkil edir və göstərir ki əmanətlərin yalnız bir hissəsi ehtiyat kimi saxlanılır, qalan məbləğ isə kreditlərin verilməsi üçün istifadə olunur.

Bu bank ehtiyatları pul təklifini artırmaqla bankların yeni depozitlər yaratmaq qabiliyyətini yüksəldir.

RF-nın Mərkəzi Bankı hər bir kommersiya Bankı üçün mövcud depozitlərin məbləğindən Rusiya bankının mütləq ehtiyatlar fonduna (MEF) ayırmaların faizini müəyyənləşdirir. Bu vəsaitlər Rusiya Bankına faizsiz əmanətlər şəklində

saxlanılır. *Minimal mütləq ehtiyatlar norması (reserve ratio* – $rr_{mütləq}$) kommersiya banklarının Rusiya Bankında mütləq əmanətlər norması olub kommersiya banklarına əmanət qoyuluşlarının ümumi məbləğinin faizi kimi müəyyənləşdirilir. Bu norma əmanətlərin növləri və kəmiyyətindən, bankın öz kapitalının kəmiyyətindən və onun coğrafi mövqeyindən asılıdır:

$$rr = R / D.$$

Burada R / D –depozitlərin ümumi kəmiyyətində ehtiyatların payıdır.

Bankın mütləq ehtiyatlarının kəmiyyətini (*required reserve* – $R_{mütləq}$) aşağıdakı düsturla müəyyənləşdirmək olar:

$$R_{mütləq} = D \cdot rr_{mütləq}.$$

Əgər depozitlərin ümumi həcmindən mütləq ehtiyatların həcmini çıxsaq, onda bankın kredit verə biləcəyi məbləği, yəni onun kredit imkanları kəmiyyətini alarıq:

$$K = D - R_{mütləq} = D - D\ rr_{mütləq} = D\ (1 - rr_{mütləq}).$$

Burada K – bankın kredit potensialıdır.

Banklar nəzərdə tutulmamış hallar üçün əlavə ehiyat da saxlaya bilərlər, lakin bu onları həmin vəsaitlərin dövriyyədə istifadəsindən əlavə gəlirdən məhrum edir. Artıq ehtiyatların həcmi ayrılıqda götürülmüş hər bir banka aid olan pul yaradılmasının son həddini göstərir. Faiz dərəcəsi artdıqca artıq ehtiyatların səviyyəsi adətən aşağı düşür.

Pul bazası (MB) əhalinin əlində olan (C) və bank ehtiyatlarında saxlanılan (R) nağd vəsaitlərin məbləğidir. Bu, pul kütləsinin ən sabit komponentidir, çünki o, bilavasitə Mərkəzi bankın siyasəti ilə nəzarətdə saxlanılır.

$$MB = C + R.$$

Sözün geniş mənasında pul bazası kommersiya bankları sisteminin milli valyutada[1] mobil, blokirovka olunmuş və potensial pul ehtiyatlarının məcmusudur. *Mobil ehtiyatlar* deyildikdə kommersiya banklarının kassalarındakı milli pulun qalıqları və onların Mərkəzi bankdakı hesablarındakı və-

1 Косой А.М. Денежная эмиссия: сущность, свойства и оптимальность.-Деньги и кредит, 2001, № 5.

saitlər başa düşülür. *Blakirovka olunmuş mütləq ehtiyatlar* cəlb olunmuş vəsaitlərə nisbətdə müəyyənləşdirilir və Mərkəzi bankda depozit şəklində (faizlə ifadə olunmuş hissə) saxlanılır. *Potensial* ehtiyatlar – əhalinin əlində olan nağd pullardır. Pul bazasının bütün bu komponentləri pul kütləsinin *multiplikasiya* edilməsi[1] prosesində öz rolunu oynayır.

Pul kütləsinin artımı pul bazasının genişləndirilməsi ilə təmin edilir. Lakin iqtisadi sistemin özü də bank depozitlərinin genişləndirilməsi hesabına müəyyən həddə qədər artmaq qabiliyyətinə malikdir.

Özü də pul bazasını Mərkəzi bankın müvafiq siyasəti ilə təmin edilən ilkin ləğvlik kimi səciyyələndirirlər, ikinci, yəni ixtiyari likvidliyə isə depozitlərin genişlənməsinin multiplikasiya effekti hesabına yaranan məcmu pul kütləsi aid edilir[2].

Depozitlərin multiplikasiya edilməsi sxemi əsasında (onu həm də kredit multiplikasiyası adlandırırlar) kommersiya banklarının əmanət qoyuluşu və depozitlər şəklində əldə olunmuş vəsaitlərin bir hissəsinin Mərkəzi bankda xüsusi hesablarda mütləq ehtiyata qoyulması prosesi dayanır.

Bu multiplikator bütün bank sisteminin tədavüldə pul kütləsinin artırılması üzrə imkanlarını əks etdirir.

Pul multiplikatoru mexanizmi aşağıdakı kimi fəaliyyət göstərir. Deyək ki, kommersiya bankı əmanətçidən depozitə 1000 vahid qəbul edib. Açılmış depozitin bir hissəsi Mərkəzi bankdakı ehtiyat fondunda mütləq ehtiyat şəklində yerləşdirilməlidir. Onların həcmi kommersiya banklarının öhdəlikləri məbləğinin *mütləq ehtiyat norması* adlandırılan müəyyən faizinə bərabərdir.

1 Мултипликатор – iqtisadiyyatda maliyyə axınlarının iki və daha artıq parametrləri arasında əlaqəni səciyyələndirən göstəricidir. Bu effektin əsasında iqtisadiyyatın bir subyektinin xərclərinin həmişə digərinin gəlirini əmələ gətirməsi faktı dayanır. Multiplikasiya ideyası iqtisad elminə ilk dəfə ingilis iqtisadçısı R.Kan tərəfindən 1931-ci ildə daxil edilmişdir və o, investisiyaların əhalinin alıcılıq qabiliyyətinin və məşğulluğunun multiplikasiya edilməsinə necə səbəb olmasını göstərmişdi.

2 Бурлачков В.К. Денежная теория и динамичная экономика: выводы для России.- М.: Эдиториал. УРСС, 2003. С.170.

Ehtiyat hesabındakı pullar Mərkəzi bankın öhdəlikləri və eyni zamanda kommersiya banklarının aktivləridir.

Mütləq ehtiyat norması kimi 20%-ə (*rr*) bərabər kəmiyyəti götürsək, onda mütləq ehtiyat 200 vahidə bərabər olacaq. Qalan 800 vahiddən bank istədiyi kimi istifadə edə bilər. Onlar kommersiya bankının *artıq ehtiyatlarıdır*. Bankın digər aktivləri kimi bu aktivlər də işləmli, yəni gəlir gətirməlidir. Əmanətçilərin yenə də əvvəlki kimi 1000 vahid depoziti var, akin borcluların əlində cəmi 800 vahid var. Nəticədə bank bu məbləği kredit qismində öz müştərilərinə verəcək. Onlar öz növbəsində bu vəsaitləri banklarda öz hesablarında yerləşdirəcək, banklar isə daha 20%, yəni 160 vahid ehtiyata yönəldəcəklər. Yerdə qalan 640 vahid də maksimum səmərəylə istifadə olunacaq.Depozit və kreditlərin genişlənmə effektinin təsiri belədir. Bu zaman depozit hesablarında nə qədər çox qalıq olsa, pul multiplikatorunun effekti bir o qədər çox olar. Nəticədə iqtisadiyyatda depozitlərin məcmu kəmiyyəti K dəfə arta bilər.

Beləliklə, ikinci bank üçün:

- yeni depozitlərin alınması bərabərdir: 1000 (1-*rr*) = 800 vahid;
- mütləq ehtiyatlar = 1000*rr* (1-*rr*) = 160 vahid;
- artıq ehtiyatlar =1000*rr* $(1-rr)^2$ = 640 vahid;
- yeni kredit = 640 vahid.

Bu proses qalan məbləğdən kredit verilməsi və ya aktivlər alınması üçün daha istifadə etmək mümkün olmayana, bankların kredit verməni genişləndirməkdə maraqlı olmadığı ana qədər davam etdiriləcək.

Əgər R = *rr* D düsturunu MB = C + R pul bazası ifadəsində yerinə qoysaq, aşağıdakını alarıq:

$$MB = cr\ D + rr\ D = D\ (cr + rr), \text{ onda}$$

$$D = MB / (cr + rr).$$

İndi depozitlər üçün bərabərliklərin sağ tərəflərini pul kütləsi və pul bazası vastəsilə bərabərləşdirək:

$$M_s / (1 + cr) = MB / (cr + rr), \text{ onda}$$

$$M_s = MB\ (1 + cr) / (cr + rr).$$

$(1 + cr) / (cr + rr)$ kəmiyyəti pul multiplikatoru adlanır və pul bazasının bir vahid artdığı təqdirdə pul təklifinin nə qədər artdığını göstərir.

Beləliklə, **pul multiplikatoru** pul bazasının artması nəticəsində pul kütləsinin artmasını səciyyələndirir:

$$(1 + cr) / (cr + rr) = m.$$

Buradan da, pul təklifi pul bazası ilə pul multiplikatorunun hasilinə bərabərdir:

$$M_s = m\ MB.$$

Bu bərabərlik ***pul təklifii funksiyası*** adlanır.


Beləliklə, düsturdan göründüyü kimi, pul təklifi pul bazası və pul multiplikatoru kəmiyyətindən düz asılılıqda, o da öz növbəsində ehtiyatda saxlama norması və deponə etmək əmsalından tərs asılılıqdadır.

Bu bərabərlikdən aşağıdakı nəticələrə gəlmək olar:

1. Pul təklifi pul bazasına proporsionaldır.

2. Depozitlərin ehtiyata qoyulma norması nə qədər aşağı olsa, kreditləmə həcmi bir o qədər yuxarı olar və bir o qədər də pul artımı yüksək olar.

3. Depozitləşmə əmsalı nə qədər aşağı olsa, əhalinin əlində nağd pul bir o qədər az və deməli, banklardakı ehtiyat vəsaitlərin həcmi bir o qədər böyük olar. Deməli, pul təklifi



Şəkil 17.3. Pul təklifi əyrisi (yüksələn)


artacaqdır.

Bu halda pul təklifi əyrisi yüksələn şəkildə olacaqdır (şəkil 17.3).

Bununla əlaqədar olaraq pul təklifinə yalnız Mərkəzi bankın və kommersiya banklarının qərarları deyil, həm də əhalinin qərarları təsir edəcəkdir.

Pul təklifi əyrisi tədavüldəki pulun miqdarının faiz dərəcəsi səviyyəsindən asılılığını əks etdirir. O, qısamüddətli və uzunmüddətli olur. M_1 aqreqatı üçün qısamüddətli şaquli xəttir, çünki pul multiplikatoru sabitdir və faiz dərəcəsindən asılı deyil. Uzunmüddətli dövrdə o, maili xətlə təmsil olunmuşdur. Tədavüldə pul kütləsi artdıqda və faiz dərəcəsi yüksəldikdə (yəni ÜDM-in artıb-azalmaları olanda) əyri maili olacaq (bax şəkil 17.3).

Əgər pul təklifini nəzarətdə saxlayan RF Mərkəzi Bankı faiz dərəcəsinin dəyişmələrindən asılı olmayaraq onu təsbit olunmuş səviyyədə saxlamağa çalışarsa, təklif əyrisi şaquli düz xətt şəklində olacaq. Beləliklə, Bank inflyasiyanın qarşısının alınması məqsədilə sərt pul-kredit siyasəti aparacaq (şəkil 17.4).




Şəkil 17.4. Pul təklif əyrisi (şaquli)

RF Mərkəzi Bankı siyasətinin əsas məqsədi borc faiznin nominal ölçüsünün sabit saxlanılması olarsa, təklif əyrisi şaquli olacaq. Belə ki, ödəmələr böhranından qaçmaq üçün yumşaq pul-kredit siyasəti aparılacaq

(şəkil 17.5).

Pul təklifi funksiyası iki dəyişənlə: ölkədəki pulun



Şəkil 17.5. Pul təklifi əyrisi (üfüqi)

nominal və real (yəni real kassa) kəmiyyəti ilə səciyyələnir. Onlar pulların alıcılıq qabiliyyətini səciyyələndirir. Bundan başqa, ÜDM, investisiyalar, faiz dərəcələri kimi göstəricilər də pul multiplikatoruna və deməli törəmə likvidlik həcminə bilavasitə təsir göstərirlər.

Əgər əhalinin əlində nağd pul yoxdursa və o, bütün pullarını banklarda depozitdə saxlayırsa, yəni $cr = 0$, onda pul multiplikatoru depozit və ya bank multiplikatoruna çevrilir:

$$Mult_{bank} = 1 / rr.$$

Burada rr – minimum mütləq ehtiyatlardır.

Bütövlükdə əlavə pul təklifini aşağıdakı düsturla hesablamaq olar:

$$M_s = (1/rr)\ D.$$

Bank multiplikatoru bank sisteminin kommersiya bankında hesaba qoyulmuş hər bir pul vahidindən yarada biləcəyi depozitlərin ümumi məbləğini göstərir:

$$Mult_{bank} = M_s / D.$$

Bank multiplikatoru vasitəsilə yalnız pul kütləsinin kəmiyyətini deyil, həm də onun dəyişməsini hesablamaq mümkündür. Pul təklifinin dəyişməsini (ΔM) Mərkəzi bank bank ehtiyatlarına və bank multiplikatoruna təsir yolu ilə

həyata keçirə bilər:

$$\Delta M = R \cdot Mult_{bank}.$$

Onu da nəzərə almaq lazımdır ki, multiplikativ genişlənmədən başqa tədavüldə pul kütləsinin azalması da baş verə bilir (kredit sıxlaşması baş verir). Pul bazasının sərt ixtisarı zamanı bank sisteminin pul yaratmaq imkanları xeyli məhdudlaşır. Bundan başqa, banklar gözlənilməz hallar üçün artıq ehtiyatlarını çoxaltmalı olurlar ki, bu da son nəticədə maliyyə böhranına gətirib çıxarda bilər.

Beləliklə, əgər:

- faiz dərəcəsi çox aşağıdırsa və kommersiya banklarındakı hesablarda kifayət qədər artıq resurs toplanıbsa, multiplikatorun effekti aşağı olacaq;
- faiz dərəcəsi artırsa və bank kreditlərindən rentabelli istifadəyə imkan verirsə, ən yüksək multiplikasiya effekti müşahidə olunur;
- faiz dərəcəsi bu həddən yüksəkdirsə, pul tədavülü sürətinin xeyli artması baş verir ki, bu da pul multiplikatorunun təsirinin kəskin azalmasına səbəb ola bilər. Belə mənzərə Rusiyada XX əsrin 90-cı illərinin sonlarında, Rusiya bankları yeni hesablaşma texnologiyaları tətbiq edərək müştərilərin ödənişlərini ləngitməyə başlayanda müşahidə olunmuşdu[1].

§4. Pul bazarında tarazlıq

Artıq qeyd olunduğu kimi, pul bazarı maliyyə bazarının bir hissəsidir. Bu, qısamüddətli yüksək likvidli aktivlər bazarıdır ki, burada pula tələb və onların təklifi pulun qiymətini – faiz dərəcəsinin səviyyəsini müəyyənləşdirirlər.

Pul bazarında tarazlıq təklif olunmuş pulun miqdarına əhlidə nağd pul və çek əmanətləri şəklində tələb olanda əldə olunur. Pul bazarında tarazlığın dəyişməsi pul bazarında ya pula tələb, ya da pul təklifi dəyişdikdə baş verir.

1 Бурлачков В.К. Денежная теория и динамическая экономика: выводы для России.- М.: Эдиториал, УРСС, 2003. С.186-187.

Qısamüddətli dövr şəraitində fərz edək ki, pul təklifi Mərkəzi bank tərəfindən nəzarətdə saxlanılır və o daim M səviyyəsindədir. Bu halda təklif əyrisi şaquli əyri şəklində olacaq.

Pula tələb əyrisi qiymətlərin və real istehsalın dəyişilməzliyi şəraitində azalan olacaq. Pul bazarında tarazlıq tələb və təklif əyrilərinin kəsişmə nöqtəsində olacaq. O, tarazlı borc faiz dərəcəsini müəyyənləşdirəcək.

Belə şəraitdə **klassik nəzəriyyənin nümayəndələri**, pula transaksiya tələbi nəzərə alaraq, hesab edirdilər ki, pul bazarında tarazlıq qiymətlərin müəyyən səviyyədə tələb və təklif əyrilərinin kəsişmə nöqtəsində müəyyənləşəcək. Əgər qiymətlərin ümumi səviyyəsi P_2 kəmiyyətinə qədər enərsə, onda $M_2 - M_{S1}$-ə bərabər artıq pul təklifi yaranacaq. Bu halda pullar qiymətdən düşməyə başlayacaq və qiymətlər qalxacaq və əvvəlki səviyyəsinə çata bilər. Beləliklə, pul bazarında tarazlığın avtomatik saxlanılması baş verəcək.

Keynsçi modeldə pul bazarında tarazlıq tələb və təklifin kəmiyyətlərinin bərabərliyi zamanı yaranır. C.Keyns hesab edirdi ki, Mərkəzi bank pul təklifinə tamamilə nəzarət edir, buna görə də pul təklifi qrafiki şaqulidir.


Fərz edək ki, *faiz dərəcəsi tarazlıda aşağıdır*. Bu halda nağd pulla işləmək daha sərfəli olacaq. Qiymətli kağızların məzənnəsinin aşağı düşməsi faiz dərəcəsinin artması ilə müşayiət olunacaq. Faiz dərəcəsi artdıqca, pula tələb pul bazarı tarazlı vəziyyətə qayıdıncayadək azalacaq.

Faiz dərəcəsi daha yüksək olarsa, onda istiqrazlara tələb artacaq ki, bu da faiz dərəcəsinin azalmasına rəvac verəcək. Bu da öz növbəsində pula tələbin artmasına və tarazlığın bərpa olunmasına səbəb olacaq.

1. Bu pul bazarı modelindən istifadə edərək *pul təklifi əyrisiin yerdəyişməsinin* səbəb olacağı nəticələri təhlil edək.

Əgər Mərkəzi bank bazardan qiymətli kağızlar alıb pul təklifini artırmaq qərarına gəlsə, bu, artıq bank ehtiyatlarının çoxalmasına səbəb olacaq. Öz balanslarının tarazlığını bərpa etmək üçün banklar öz artıq ehtiyatlarını gəlirə çevirmək üçün onları satışa çıxardacaqlar. Ən cəld üsul onların borca verilməsidir. Amma bu, faiz dərəcəsinin azalmasına səbəb olacaq.

Düşən faiz dərəcələri pulların saxlanılmasının alternativ dəyərini azaldır və insanların nağd pul saxlamağa meyilini gücləndirir. Beləliklə, əlavə miqdarda ehtiyatların tədavülə daxil edilməsi təklif əyrisinin sağa yerdəyişməsinə səbəb olur, düşən faiz dərəcələri insanları öz davranışlarını dəyişməyə məcbur edir, bu da pula tələb əyrisi üzrə aşağı və sağa yerdəyişməyə səbəb olur. Tədricən pulun miqdarının ilkin vəziyyətdən yuxarı, faiz normasının isə aşağı olduğu E_2 nöqtəsində yeni tarazlıq müəyyənləşəcək (şəkil 17.6).




Şəkil 17.6. Pul bazarında tarazlığın qrafiki (pul təklifi artırıldıqda)

Məsələn, RF Mərkəzi Bankı pul təklifini azaltsa, banklar öz ehtiyatlarını təmin etmək üçün ehtiyat çatışmazlığı ilə üzləşəcəklər. Onlar qiymətli kağızları satmaq qərarına gələcək və ya əvvəllər verilmiş borcların ləğv edilməsi hesabına ödənişlər qəbul edəcəklər və onların həcmini əvvəlki səviyyədə bərpa etmək üçün yeni borclar verməyəcəklər. Borc alanlar arasında rəqabət tezliklə borc faizi dərəcəsini qaldıracaq. Təsərrüfat agentləri bilərəkdən portfellərində saxlamağa hazır olduqları pulun miqdarını məhdudlaşdırmağa başlayacaqlar.

Lakin indi pul bazarında tarazlıq faiz dərəcəsinin daha

yüksək r_1 faiz dərəcəsində olacaq (şəkil 17.7).




Şəkil 17.7 Pul bazarında tarazlığın qrafiki (pul təklifi azaldıqda)

Pul təklifi dəyişmələrini nəzərdən keçirərkən biz nominal gəlir səviyyəsinin sabit olmasını nəzərdə tuturduq.

2. Gəlin nominal gəlir səviyyəsinin dəyişib pul təklifi əyrisinin hərəkətsiz qaldığı zaman pul bazarında nə baş verdiyini təhlil edək.

Fərz edək ki, bazar E_1 noqtəsində tarazlıqdadır. Nomi-



Şəkil 17.8. Pul bazarında tarazlığın qrafiki (təsbit olunmuş pul təklifində)

nal gəlirin artması pula tələbin artmasına və əyrinin M_{d2} vəziyyətinə yerdəyişməsinə səbəb olacaq. Mövcud faiz dərəcəsində pula tələb onların təklifini üstələyəcək. Pul təklifi dəyişmədiyindən əlavə vəsaiti qiymətli kağızları satmaqla əldə etmək olar.

Bu kimi hərəkətlərin nəticəsi faiz dərəcəsinin r_2 səviyyəsinə qədər dəyişməsi olacaq. Deməli, təsbit olunmuş pul təklifində pula tələbin artması tarazlı faiz dərəcəsinin artmasına səbəb olacaq. Pul bazarının yeni tarazlığı E_2 nöqtəsində əldə olunacaqdır (şəkil 17.8).

Pula tələb azaldıqda hər şey əks istiqamətdə gedəcəkdir. Beləliklə, faiz dərəcəsinin dəyişmələri pul bazarında tarazlığı bərpa edir.

§5. Mərkəzi bankın pul-kredit siyasəti və onun növləri

Kommersiya banklarından və digər kredit təşkilatlarından fərqli olaraq Mərkəzi bankın əhəmiyyəti ondadır ki, o, pul təklifinin tənzimlənməsinə, pul siyasətinin aparılmasına və bütövlükdə bank sisteminin sabitliyinə cavabdeh olan dövlət orqanıdır.

Mərkəzi bankın pul-kredit siyasəti – pul-kredit tənzimləməsi institutları vasitəsilə həyata keçirilən tədavüldə pul kütləsinin miqdarının, kreditlərin həcminin, faiz dərəcələri səviyyəsinin və s. tənzimlənməsi yolu ilə əsasən iqtisadiyyatın sabitləşməsi və iqtisadi konyukturanın dəyişməsinə yönəldilmiş tədbirlərin məcmusudur.

Onun obyektləri pul bazarında tələb və təklifdir və o, əsasən qısamüddətli və ortamüddətli dövrlərdə təsir etmək üçün istifadə olunur.

Mərkəzi bankın pul-kredit siyasətinin ***əsas məqsədləri*** bunlardır: qiymətlərin və məhsul buraxılışı səviyyələrinin sabitləşdirilməsi, resursların nisbətən tam məşğulluğuna, tədiyə balansının tarazlığına, iqtisadi artıma çatılması.

Lakin heç də bütün məqsədlər bir-biri ilə uzlaşmır. İqti-

sadi artım və işsizlik səviyyəsinin aşağı salınması faiz dərəcəsinin artımı ilə müşayiət oluna bilər.

Problem bir də onunla çətinləşir ki, son məqsədi seçib, pul-kredit siyasəti alətlərini tətbiq edəndə Mərkəzi bank dərhal və bilavasitə məqsəd parametrlərinə nəzarət edə bilmir. O, son nəticəyə təsir edən və onun nəzarətinə gələn göstəriciləri müəyyənləşdirməlidir. Belə göstəriciləri *ara göstəriciləri* adlandırırlar.

Ara məqsədləri qismində çıxış edə bilirlər: pul kütləsi, nominal faiz dərəcəsi, nominal ÜDM, milli pul vahidinin valyuta kursu.

Lakin Mərkəzi bankın alətləri hətta bu ara məqsədlərinə çatmağa imkan vermirlər. Buna görə də *taktik məqsədlər* və ya *əməliyyat prosedurları* adlandırılan dəyişənlər dəsti seçilir. Bu, pul-kredit sahəsinin elə parametrləridir ki, Mərkəzi bank onlara bilavasitə təsir edə bilir, məsələn, bank ehtiyatları, pul bazası, banklararası bazarın məzənnələri, kreditlərin həcmi, milli pul vahidinin valyuta kursu və s.

İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində XX əsrin 70-ci illərinə qədər konyunktura tsikllərinin yaranmasının qarşısını almaq üçün faiz dərəcəsinin sabit saxlanılması praktikası üstünlük təşkil edirdi. Sonralar dünya böhranından sonra iqtisadiyyatın bərpa edilməsi üçün aqressiv inflyasiyanın ram edilməsi məqsədilə tənzimləmə pul kütləsinin sabitləşdirilməsinə yönəldildi ki, bu da faiz dərəcəsinin artıb-azalmalarının güclənməsinə səbəb oldu.

1980-ci illərdən inkişaf etmiş dövlətlər tərəfindən daha sərbəst pul siyasəti aparılıb ki, onun gedişində iqtisadi məqsədlərin seçilməsi cari iqtisadi konyunktura ilə müəyyənləşirdi.

1990-cı illərdən bir çox ölkələrdə pul-kredit siyasətinin əsas məqsədi inflyasiyanın targetə edilməsi olur. Hazırda pul-kredit siyasətinin əsas məqsədi kimi qiymət sabitliyi konsepsiya daha çox yayılmağa başlayır. Pul-kredit siyasəti iqtisadiyyatın bütün dövlət tənzimləməsinin əsası, maliyyə sabitliyi amilidir. Buna görə də Mərkəzi bankın səmərəli fəa-

liyyəti bazar iqtisadiyyatının səmərəli fəaliyyətinin şərtlərindən biridir.

Dövlətin pul-kredit siyasətinin həyata keçirilməsi modelləri

Klassik konsepsiyaya görə pul təklifinin dəyişilməsinə təsir mübadilənin miqdar tənliyi ilə tam təsvir olunur:

$$Y = 1 / k \cdot M / P.$$

Belə şərh «Kembric effekti» adını almışdır.

Real kassa qalıqları əmsalının verilmiş kəmiyyətində real milli gəlirin kəmiyyəti (Y) ciddi təsbit olunmuşdur. Müvafiq olaraq real pul kütləsinə tələb optimal səviyyədə təsbit olunacaq.

Hər hansı bir səbəbdən pul təklifi dəyişərsə, buna bir reaksiya mümkündür – nemətlərə əlavə tələb ortaya çıxacaq. Lakin nemətlər təklifi iqtisadiyyatın tam məşğul olması səbəbindən ciddi təsbit olunmuşdur, deməli, məcmu tələbin artmasına yalnız bir yolla – nemətlərin qiymətinin artması ilə cavab vermək olar. Nəticədə real kassa qalıqları kəmiyyəti öz optimal səviyyəsinə qayıdacaq.

Beləliklə, *klassik konsepsiya pulun iqtisadiyyatın real sektoru ilə əlaqəli olmadığı qənaətinə gəlir. O, neytraldır.*

Lakin pulların neytrallığı barədə fikir pul siyasətinin qiymətlərin dəyişdirilməsindən başqa bir nəticəsinin olmasını inkar edir.

Keynsçi nəzəriyyə pul-kredit tənzimləməsini iqtisadiyyatın sabitləşdirilməsinin səmərəli vasitəsi hesab etmir.

Pulları maliyyə aktivləri, yəni səhmlər, istiqrazlar və s., qismində nəzərdən keçirərkən pul-kredit tənzimləməsinin əsas obyekti faiz dərəcəsinin dəyişdirilmə mexanizmini hesab edirlər. Pul təklifinin dəyişməsi faiz dərəcəsinə, onun vasitəsi ilə isə investisiyalırın səviyyəsinə və nominal ÜDM-ə təsir edir.

Bu konsepsiya *Keyns effekti* kimi məlumdur. Keynsçi-

lər pula tələb konsepsiyasından çıxış edərək pulun tədavül sürətini sabit hesab etmirlər. Nağd pullarla əlaqədar olan transaksion pula tələb və ehtiyatlılıq motivinə görə tələb müsbət tədavül sürətinə malikdirlər. İstiqrazların alınmasına xərclənən möhtəkirlik tələbinin sürəti sıfra bərabərdir. Buna görə də hər şey tələb növləri arasında bölgüdən asılı olacaq. Pula möhtəkirlik tələbinin artması pulun tədavül sürətini azaldacaq, azalması isə, əksinə, artıracaq. Pula transaksion tələbin və ehtiyatlılıq motivinə görə tələbin artması pulun tədavül sürətini artıracaq.

Lakin pul-kredit siyasəti iqtisadiyyatın real sektoruna təsir edərək tənəzzül və dirçəliş dövrlərində özünü müxtəlif cür göstərə bilər. Dirçəliş dövründə yüksək faiz dərəcəsi məhz maliyyə aktivlərinə üstünlük verilməsini şərtləndirir. Tənəzzül və ya böhran dövründə onun təsiri xeyli məhduddur, çünki iqtisadiyyat ya likvidlik, ya da investisiya tələsinə düşə bilər, belə vəziyyətlərdə isə pulun miqdarının dəyişməsi iqtisadi konyunkturaya təsir etmir. Buna görə də müəyyən şəraitlərdə pul-kredit siyasəti qeyri-səmərəli və proqnozlaşdırıla bilməyən olacaq.

Mərkəzi bank pul təklifini artırmaq məqsədilə mütləq ehtiyatlar normasını azaltdıqda bankların artıq ehtiyatları yaranır ki, onlar həmin ehtiyatlardan kredit verilməsi və qiymətli kağızların alınmasında istifadə edə bilərlər. Vətəndaşların əmlakının strukturunda adəti nisbət dəyişilir və onu bərpa etmək üçün onlar da real və maliyyə aktivlərinə tələb göstərməyə başlayırlar. Nəticədə məcmu tələb artmağa başlayacaq.

Belə yanaşma iqtisadiyyatda iki effektin: substitusiya effektinin və əmlak effektinin – təsirinə əsaslanır.

Substitusiya effekti. Pul yalnız maliyyə aktivləri üçün deyil, həm də real əmtəə və xidmətlər üçün substitut olduğu üçün pul kütləsinin artması səbəbindən istiqrazların gəlirliyinin azalması real kapitala tələbin artmasına rəvac verəcək.

Əmlak effekti. Əhalinin əlində olan pulun artması əhalinin maliyyə aktivlərinə, real kapitala və real nemətlərə tə-

ləbinin artmasına səbəb olacaq. Bu isə öz növbəsində məcmu tələbin artmasına və müvafiq olaraq milli istehsalın artmasına səbəb olacaq.

Hər iki effekt məcmu tələbin artmasına rəvac verir.

Monetaristlər həmçinin sübut etməyə çalışırdılar ki, natamam məşğulluq zamanı pul təklifinin dəyişmələri qısamüddətli dövrdə real ÜDM-ə, istehsal həcminə və məşğulluğa təsir edə bilərlər. Uzunmüddətli dövrdə pul təklifi dəyişmələri yalnız nominal ÜDM-ə təsir edirlər. Pulun nominal göstəricilərə təsiri haqqındakı bu sübutlar pulun tədavül sürətinin sabitliyi haqqındakı müddəaya əsaslanır. Fişerin V-nin sabit olduğu MV = PY miqdari tənliyindən çıxış etsək, tədavüldəki pul kütləsi nominal ÜDM-ə proporsional təsir göstərəcək. Pul təklifinin genişlənməsi məcmu tələbin və pul təklifinin artımına proporsional kəmiyyətdə ÜDM-in artmasına rəvac verəcək.

Son nəhayətdə pul-kredit siyasətinin dəyişməsinin nəticəsi qiymətlərin artması və pulların neytrallığı prinsipi olur. ***Neytrallıq prinsipi*** göstərir ki, uzunmüddətli perspektivdə pul təklifində dəyişikliklər real kəmiyyətlərə: istehsal həcmi, məşğulluq və faiz dərəcələri – təsir etmir.

Beləliklə, pul təklifinin dəyişməsi ilə milli istehsal həcmi arasında əlaqə faiz dərəcəsi vasitəsilə deyil, birbaşa həyata keçirilir.

Lakin nə monetarizm, nə keynsçilik, nə digər dövlət tənzimləməsi konsepsiyaları ölkə iqtisadiyyatına təsir istiqamətində praktikada xalis şəkildə tətbiq olunmurlar.

Qeyd etmək lazımdır ki, ölkələrin çoxunda pul kütləsinin 75-90%-ni bank depoztləri və yalnız 25-10%-ni Mərkəzi bankın banknotları təşkil edir. Buna görə də pul-kredit sahəsinin dövlət tənzimləməsi yalnız dövlət Mərkəzi bank vasitəsilə kommersiya banklarının əməliyyatlarının miqyasları və xarakterinə təsir etmək iqtidarında olanda uğurlu ola bilər[1].

Bu proses özündə iki mərhələni ehtiva edir: birincisi, Mərkəzi bank pul-kredit sahəsinin parametrlərinə təsir edir;

[1] Экономика: Учебник / Под редакцией А.И.Архипова.-М.: Проспект, 2005.-С.293.

ikincisi, dəyişilmiş parametrlər istehsal sahəsinə ötürülür.

Bununla əlaqədar olaraq pul-kredit siyasətinin aparılmasının səmərəliliyi xeyli dərəcədə alətlərin (metodların) seçilməsindən asılıdır.

Alət dedikdə elə əməliyyatlar və üsullar nəzərdə tutulur ki, Mərkəzi bank onların vasitəsilə bank ehtiyatlarını, pul kütləsini və iqtisadiyyatın kreditlənməsinin həcmini dəyişə bilsin.

Onlar aşağıdakı kimi olurlar:

- ümumi, borc kapitalı bazarına təsir göstərənlər;
- selektiv, müəyyən kredit formalarının tənzimlənməsi üçün nəzərdə tutulanlar;
- təsir formasına görə – dolayı və birbaşa, yəni inzibati;
- tənzimləmənin gedişində müəyyənləşdirilən parametrlərin xarakterinə görə – kəmiyyəti və keyfiyyəti.

Mərkəzi bankın birbaşa direktivləri şəklində olan inzibati tədbirlərin həyata keçirilməsi nəzarət baxımından tez nəticə verir, lakin müəyyən vaxtdan sonra uğursuz şəraitdə, məsələn, maliyyə vəsaitlərinin xaricə axması kimi əks effekt verə bilər.

Dolayı metodlar (ümumilər də bu kimi ola bilərlər) bazar mexanizmini pozmadan daha rəvan təsir edirlər. Bu mənada onlar daha üstünlükverimlidir.

Selektiv metodlar maraqlıdır. Onlara əsas etibarilə çox nadir hallarda, xüsusi vəziyyətlərdə (məsələn, təkrar istehsal tsiklinə təsir göstərmək, günahı olan bankları cəzalandırmaq lazım gələndə) müraciət edirlər.

Dolayı metodlardan istifadənin səmərəliliyi maliyyə bazarının inkişaf səviyyəsi ilə sıx bağlıdır.

Mərkəzi bankın pul-kredit siyasətinin əsas alətlərinə açıq bazarda əməliyyatları, bankların əks-maliyyələşdirilməsi və Mərkəzi bankın əməliyyatları üzrə faiz dərəcələrini, ehtiyat tələblərini, depozit əməliyyatlarını, birbaşa miqdar məhdudiyyətlərini aid edirlər.

Özü də praktikada Mərkəzi bankın fəaliyyəti bu alətlərin tətbiqinin baza prinsiplərinə tabe olmalıdır:

- səmərəlilik (tez və dəqiq nəticə əldə etmək qabiliyyəti);
- ölçülərindən asılı olmayaraq bütün kredit təşkilatlarına bərabər münasibət (əməliyyatların aparılması qaydaları və prosedurlarının standartlaşdırılması mövcuddur);
- sadəlik və şəffaflıq;
- ardıcıllıq (qayda və prosedurları tez-tez dəyişmək olmaz);
- aparılan əməliyyatların dəyəri hər iki tərəf üçün minimal olmalıdır.

Sadalanmış tənzimləmə metodlarından hansına üstünlük verilməsi ölkənin pul bazasının strukturundan asılıdır. Məsələn, Amerika açıq qiymətli kağızlar bazarında mütəmadi əməliyyatlar aparır, Almaniya pul kütləsinin əsas tənzimlənmə metodu kimi kommersiya banklarına kreditləri seçmişdir. Avropa bankı REPO əməliyyatlarını əsas tənzimləmə aləti hesab edir.

Kommersiya banklarının mütləq ehtiyatlarının normativləri (*required reserve radio*). Bu üsul ilk dəfə 1913-cü ildə ABŞ-da bankın müflisləşdiyi təqdirdə əmanətçilərə pul ödənilməsinə təminat verilməsinin zərurəti ilə əlaqədar tətbiq olunmuşdu və tənzimləmənin dolayı metodlarına aiddir. Hazırda o, Böyük Britaniya, Kanada və Lüksemburqdan başqa hər yerdə istifadə olunur. Lakin hər bir ölkədə bu alətin öz konkret formaları var.

Mütləq ehtiyatların ($R_{mütl.}$) kəmiyyəti kommersiya bankının depozitlərinin ümumi məbləğinin (D) faizi kimi müəyyənləşdirilən mütləq ehtiyatlar ($rr_{mütl.}$) normasına müvafiq olaraq təyin edilir: $R_{mütl.} = D\ rr_{mütl.}$

Ehtiyatların depozit hesablarına vəsaitlərin daxil olması və çıxmasından və bir də banklar üçün istehsal xərclərinin nə olmasından asılı olaraq müəyyənləşdirildiyindən, mərkəzi banklar müəyyən vaxt kəsiyi üçün ehtiyatların orta kəmiyyətini götürmək metodikasını tətbiq edirlər. Rusiya üçün ehtiyatların zəruri həcminin müəyyənləşdirilməsi

dövrü bir ay təşkil edir. Banklar orta xronoloji hesablar üzrə ehtiyatları hesablayırlar və ayda bir dəfə hesablanmış kəmiyyəti ehtiyata qoyulmuşla tutuşdururlar. Əgər ehtiyatdakı vəsait kifayət etmirsə, bank müxbir hesabının çatmayan məbləğini Mərkəzi bankdakı ehtiyat hesabına köçürür. Bundan sonra ehtiyatların müəyyənləşdirilmiş kəmiyyətinin ərzində dəstəkləndiyi dövr başlayır. Rusiya bankları üçün bu daha bir ay təşkil edir. Buna görə də həmin alətin istifadə səmərəliliyinin artırılması məqsədilə Rusiya Bankı vaxtaşırı mütləq ehtiyatların deponə edilməsi qaydalarını yenidən nəzərdən keçirir[1].

Mütləq ehtiyat norması, bir qayda olaraq, əmanət növləri üzrə differensiasiya edilir: əmanətin həcmi və müddəti nə qədər az olarsa, ehtiyata ayırmalar norması bir o qədər yüksək olar. Bu minimal ölçülər normasının *ikili mənası* var: kommersiya banklarının likvidliyinin minimum səviyyəsi təmin olunur (müəyyən risksiz bank aktivləri kəmiyyəti təmin edilir), digər tərəfdən isə Rusiya Bankının mühüm nəzarət və tənzimləmə aləti kimi istifadə olunmaqla kommersiya bankları tərəfindən kredit pullarının emissiya edilməsinin qarşısını alır.

Rusiya Bankı ilk dəfə əksmaliyyələşdirmə dərəcəsini 1 yanvar 1992-ci ildən tətbiq etmişdi. Onun maksimum göstəricisi 1993-cü ilin oktyabrından 1994-cü ilin aprelinə qədər 210%-ə qədər olmuşdur. İnkişaf etmiş ölkələrdə əksmaliyyələşdirmə dərəcəsinin kəmiyyəti Rusiyadakından xeyli aşağıdır. Ən yüksək dərəcələr İspaniya və İtaliyada müəyyənləşdirilib. Yaponiyada o ən aşağıdır – 2,5%. Minimal ehtiyatların bir alət kimi istifadə olunmadığı İngiltərə Bankında kredit institutlarından minimal ehtiyatlarda qeydə alınmalı olan öhdəliklərin cəmi 0,45% tələb olunur[2].

Ehtiyat normalarının azaldılması kreditləmənin artırılması, ehtiyat normalarının artırılması isə sərbəst pul vəsaitlərinin azaldılması deməkdir.

1 Деньги. Кредит. Банки: Учебник / Под ред.В.В.Иванова, Б.И.Соколова.-М.: Проспект, 2003.-С.525.

2 Деньги. Кредит. Банки: Учебник / Под ред.О.И.Лаврушина, Финансы и статистика 2004.-С.413.

Ehtiyat normasının artırılması. 1. Banklar mütləq normanı əvvəlki kimi saxlayıb borc verməni azalda bilərlər. 2. Onlar öz mütləq ehtiyatlarını artıra bilərlər. Bunun üçün onlara sərbəst pul vəsaitləri lazım olacaq. Banklar qiymətli kağızları satacaq, müddəti ötmüş borcların qaytarılmasını tələb edəcəklər. Qiymətli kağız alıcıları banklardakı depozitlərindən istifadə edərək başqa şəxslərə verdikləri borcların qaytarılmasına nail olmağa çalışacaqlar. Bu proses bütün bank sisteminə yayılmağa başlayacaq. Banklar adətən mütləq ehtiyatları artırır və borc verilməsini azaldırlar.

Ehtiyat normasının azaldılması kredit verilməsi yolu ilə pul yaradılmasına xidmət edir.

Beləliklə, mütləq ehtiyatlar normasının dəyişməsi pul kütləsinə iki kanal - kommersiya banklarının ehtiyatlarının və kredit imkanlarını dəyişdirilməsi və bir də bank multiplikatoru kəmiyyətinin dəyişdirilməsi – vasitəsilə təsir göstərir. Buna görə ehtiyat normalarının tənzimlənməsi bir tərəfdən pul təklifinə, digər tərəfdən isə likvidliyə güclü multilikasiyaedici təsir göstərir. Bundan başqa, ehtiyat norması kəmiyyəti faiz dərəcələrinə də təsir göstərir: o, kreditlər üzrə faiz dərəcələrindən düz, depozitlər üzrə faiz dərəcələrindən isə tərs asılılıqdadır.

Ehtiyat normalarında tez-tez və böyük dəyişikliklər hətta kommersiya banklarının kredit siyasətində ciddi dəyişikliklərə və deməli, iqtisadiyyatda pul-maliyyə tarazlığının pozulmasına səbəb ola bilir.

İnkişaf etmiş ölkələrdə ehtiyat normalarının dəyişdirilməsinə get-gedə daha az müraciət olunur və ya bu alətdən pul təklifi üzərində cari nəzarətin tez həyata keçirilməsi məqsədilə istifadə olunur. İngiltərədə bu alət ümumiyyətlə ləğv olunub, ABŞ-da isə ehtiyat sistem minimum ehtiyatlar dərəcəsinin dəyişdirilməsi mexanizmindən çoxdan imtina edilib. Ehtiyat siyasəti bir sıra ölkələr tərəfindən ölkəyə «qaynar pullar» axınının məhdudlaşdırılması üçün istifadə olunur. Bununla əlaqədar olaraq əcnəbilərin əmanətləri üzrə

(məsələn, Fransada – 100%) yüksək mütləq ehtiyat normaları müəyyənləşdirilir. Beləliklə, Mərkəzi bank xarici pul axınlarını nəzarətdə saxlaya bilir.

RF Mərkəzi Bankının faiz siyasəti. Rusiya Bankının faiz dərəcələri sistemi əsasən dünya praktikasına müvafiqdir. O, kommersiya bankları borclarının tənzimlənməsi və Rusiya Bankının əksmaliyyələşdirmə faiz dərəcəsi və onun kredit və depozit əməliyyatları ilə ifadə olunmuş depozit siyasəti ilə təmsil olunmuşdur. Bu alətin köməkliyi ilə o, bankların pul bazasına və ləğvliyinə təsir edə bilir.

Təkrarmaliyyələşdirmə dərəcəsi Mərkəzi bankın maliyyə cəhətdən dayanıqlı kommersiya banklarına hansı faizlə kredit verməsini bildirir.

Rəsmi uçot dərəcəsi (*discount rate*) – Mərkəzi bankın kommersiya banklarından ödəniş müddəti başa çatmamış qiymətli kağızlar aldıqda onlardan tutduğu ödənişdir. Bu, bankların qiymətli kağızların girov qoyulması ilə kreditlənməsi növlərindən biridir.

Rusiya Bankı müxtəlif əməliyyatlar üzrə bir və ya bir neçə faiz dərəcəsi müəyyənləşdirə bilər: əksmaliyyələşdirmə faiz dərəcəsi, lombard faiz dərəcəsi, REPO sövdələşmələri üzrə, «overnayt» kreditləri üzrə faiz dərəcəsi. RF Mərkəzi Bankının əksmaliyyələşdirmə faiz dərəcəsi baza faiz dərəcəsi rolunu oynayır. Əgər Rusiya Bankının faiz siyasəti faiz dərəcəsi təsbit edilmədən aparılırsa, bu halda o, hərrac keçirilməsi yolu ilə müəyyənləşdirilir.

Bank banklararası bazarda digər kommersiya banklarından və ya Rusiya Bankında uçot (diskont) pəncərəsi vasitəsilə borc götürə bilər. RF-nın Mərkəzi Bankı belə borcu dövlət qiymətli kağızlarını girov götürməklə və borc alandan müəyyən faiz tutmaqla verir. Bu faiz norması uçot dərəcəsi (diskont) adlanır.

Uçot dərəcəsi banklararası faiz dərəcəsinin və kommersiya banklarının qeyri-bank sektoruna – ev təsərrüfatları və firmalara – kredit verdiyi faiz dərəcələrinin müəyyənləşdirilməsində oriyentir kimi çıxış edir.

Kommersiya bankları uçot pəncərəsi vasitəsilə iki halda borc götürürlər. Birincisi, mütləq ehtiyatların doldurulması üçün (əgər Rusiya Bankının uçot dərəcəsi banklararası bazardakı faiz dərəcəsindən aşağıdırsa və ya əgər başqa banklardan borc almaq imkanları məhduddursa). İkincisi, mənfəət əldə etmək üçün (əgər uçot dərəcəsi ilə borc faizi arasında fərq kifayət qədər böyükdürsə).

Kommersiya banklarına kredit həm birbaşa, həm də veksellərin təkrar uçotu və qiymətli kağızların təkrar girovu formasında verilir. Əksmaliyyələşdirmənin ənənəvi forması kimi çıxış edən veksellərin təkrar uçotunun ümumi qanunauyğunluqları var:

- veksellər növlərinə, ödənilmə müddətinə, zəmanətlərinə aid müəyyən tələblərə cavab verməlidirlər;
- uçot kreditlərinin həcminə müəyyən hədd qoyulur;
- uçot dərəcəsi elan edilir.

RF Mərkəzi Bankının girovlu kreditləri üzrə faiz dərəcəsi adətən təkrar uçot dərəcəsindən yüksək olur. Lakin bu əksmaliyyələşdirmə siyasətinin öz üstünlükləri və çatışmazlıqları var.

Üstünlükləri: o, real sektorun tələbatlarını daha yaxşı əks etdirir. Əksmaliyyələşdirmə faizinin dəyişməsi tədavüldəki pul kütləsi həcmini çevik tənzimləməyə imkan verir, depozitlər və kreditlər üzrə bazar faiz dərəcələri üçün oriyentir rolunu oynayır,antiinflyasiya aləti qismində istifadə oluna bilir və qiymətli kağızların kursunun hesablanmasında nəzərə alınır.

Çatışmazlıqları: veksellərin təkrar uçotu əksmaliyyələşdirmənin emissiya forması kimi nəzərdən keçirilir. Bazarda çoxlu «şişirdilmiş» veksellərin olması iqtisadiyyatın pulla təmin olunmasının yüksəldilməsinə gətirmir, yalnız iqtisadiyyatın kriminallaşmasının artmasına rəvac verə bilər.

Rusiya Bankı ölkədəki pul kütləsini artırmaq istəyirsə, uçot faiz dərəcəsini aşağı salır. Kommersiya banklarının Rusiya Bankından borca tələbi artır. Kommersiya banklarına pul borc verəndə Rusiya Bankı borclu bankların ehtiyatları-

nı müvafiq məbləğə artırmaqla pul bazasını genişləndirir. Bu ehtiyatlar artıqdır və banklar onlardan borc vermək üçün istifadə etməklə yeni pullar yaradırlar.

Uçot dərəcəsi banklararası bazardakı faiz dərəcəsindən artıq olduqda kommersiya bankları Rusiya Bankından borc götürmələrini azaldırlar ki, bu da pul təklifini azaldır. Bu, banklararası bazarda faiz dərəcəsinin artması və kreditin bahalanması ilə nəticələnir. Rəsmi uçot dərəcəsi nə qədər yüksək olsa, Rusiya Bankının əksmaliyyələşdirmə kreditlərinin dəyəri bir o qədər yüksək olar. Və deməli, onların verdiyi kreditin həcmi azalır. Müvafiq olaraq tədavüldə pul kütləsi azalır.

Mərkəzi bankın uçot dərəcəsinin dəyişməsi yalnız pul bazarında deyil, həm də qiymətli kağızlar bazarında şəraitin dəyişməsinə səbəb olur. Bu alətin dolayı təsiri məhz bunda təzahür edir. Pul bazarında kreditlər və depozitlər üzrə faiz dərəcələrinin RF Mərkəzi Bankının uçot faiz dərəcələrinin artması ilə şərtlənən qalxması qiymətli kağızlara tələbin azalmasına və onların təklifinin çoxalmasına rəvac verir. Qiymətli kağızlara tələb azalır, müvafiq olaraq qiymətli kağızların özlərinin dəyəri aşağı düşür, eyni zamanda depozitlər daha cəlbedici olurlar.

Lakin uçot faiz dərəcəsinin dəyişməsi bankların davranışına ciddi təsir edə bilmir, çünki:

1. Rusiya Bankı kommersiya banklarını ondan borc götürməyə məcbur edə bilməz, bir də pul təklifinin artmasını və ya azalmasını dəqiq hesablamaq mümkün deyil;

2. Banklararası bazar faiz dərəcələri ilə müqayisədə o daha az mobildir;

3. Rusiya Bankından götürülmüş vəsaitin həcmi kommersiya banklarının ehtiyatlarının ümumi həcmində cüzi yer tutur;

4. Faiz dərəcəsinin artması və azalması iki cür: inflyasiya probleminin həlli vasitəsi kimi və əksmaliyyələşdirmə faiz dərəcəsinin banklararası bazarın faiz dərəcələrinə uyğunlaşdırılması kimi başa düşülə bilər.

Nəticədə təkrarmaliyyələşdirmə faiz dərəcəsinin dəyişməsi maliyyə bazarlarına başqa alətlərlərə nisbətən dolayı təsir vasitəsidir.

Kommersiya banklarının kreditləri və depozitləri üzrə faiz dərəcələrinin sərt inzibati tənzimlənməsi inkişaf etməkdə olan dövlətlər üçün daha çox səciyyəvidir.

RF Mərkəzi Bankının faiz siyasəti istiqamətlərindən biri kimi *depozit siyasəti* çıxış edir. O, pul vəsaitləri axınlarının kommersiya bankları və RF Mərkəzi Bankı arasında hərəkətini tənzimləyir və bank ehtiyatları səviyyəsinin tənzimlənməsi və artıq likvidliyin aradan götürülməsi məqsədilə aparılır. Kommersiya banklarının Rusiya Bankında depozitləri onların mütləq ehtiyatlarından ibarətdir. Bankların ehtiyatlarının depozitlərə cəlb edilməsi üzrə əməliyyatlar üzrə faizlər sərbəst resurslara tələbin dəyişməsini və bazar faiz dərəcələrinin dinamikasını əks etdirir.

İnkişaf etmiş ölkələrin çoxunda hazırda depozitlərin mütləq sığortalanması praktikası tətbiq olunur. RF Mərkəzi Bankı tərəfindən maksimal ilkin faiz dərəcəsinin təyin edilməsi ilə bağlı bankların müqavilə sifarişlərinin faiz müsabiqəsi kimi depozit hərracı adlanan hərrac keçirilir.

Açıq bazarda əməliyyatlar (*open market operations*). Bu, Mərkəzi bankın valyuta və fond bazarlarında qiymətli kağızlar alıb-satmasıdır. Kommersiya banklarının öz ehtiyatlarının həcmini alışla artırması və ya satışla azaltması kreditin dəyərinin dəyişilməsinə və buradan da pula tələbin dəyişməsinə səbəb olur.

Rusiya Bankı kommersiya bankından qiymətli kağızlar aldıqda, o həmin bankın ehtiyat hesabındakı məbləği dəyişir, bank isə əməliyyatlarının həcmini genişləndirə bilər. Əgər Rusiya Bankı qiymətli kağızlar satırsa, onda bankların məcmu ehtiyatları azalır və müvafiq olaraq pul kütləsi də azalır. Açıq bazarda qiymətli kağızların satışı sterilizasiya, yəni artıq pul kütləsinin sorulması üçün tətbiq olunur.

Açıq bazarda əməliyyatlar həlledici alətlər olublar:

- birincisi, RF Mərkəzi Bankı kommersiya bankların-

dan asılı deyil;

• ikincisi, dövlətin qiymətli kağızlarını müxtəlif miqdarlarda satmaq və almaq və deməli, pul təklifinə təsir etmək mümkündür;

• üçüncüsü, əməliyyatların həcminə nəzarət etmək imkanı yaranır;

• dördüncüsü, bazar likvidlidir və əməliyyatların aparılma sürəti yüksəkdir.

Bu açıq bazarda əməliyyatlar sövdələşmə şərtlərindən asılı olaraq fərqlənirlər: nağd pulla alqı-satqı (birbaşa sövdələşmələr) və ya sonradan mütləq geri satılması şərtilə müddətli alqı-satqı (REPO). Sövdələşmələrin obyektləri dövlət və ya xüsusi qiymətli kağızlarla əməliyyatlar.

Birbaşa sövdə kağızların dərhal ötürülməsi ilə aparılan alqı-satqını bildirir. Bu sövdələşmələrin ödəmə müddəti yoxdur, faiz dərəcələri isə hərracda müəyyənləşir.

REPO sövdələri geriyə satınalma razılaşması şərtilə aparılırlar. Bu zaman birbaşa və əks (və ya cüt, qoşa) REPO sövdələri fərqləndirilir. Birbaşa sövdə Mərkəzi bank tərəfindən qiymətli kağızların müəyyən müddətdən sonra onların mütləq germ alınması şərtilə almasını bildirir. Əks REPO sövdələşməsi bağlayanda Mərkəzi bank kağızları satır və onları müəyyən müddətdən sonra geri almaqla bağlı öz üzərinə öhdəlik götürür.

Açıq bazar əməliyyatları növlərinə görə dinamik və qoruyuculara bölünürlər. Dinamik əməliyyatlar birbaşa sövdələşmələrdən istifadə edirlər və bank ehtiyatlarının və pul bazasının səviyyəsinin dəyişdirilməsinə yönümlənirlər. Qoruyucular REPO sövdələşmələrindən istifadə edir və ehtiyatların verilmiş səviyyədən qəfil sapınmalarında onların təshih edilməsi üçün istifadə olunurlar.

Qiymətli kağızların alqı-satqısı yalnız tədavüldəki pulun miqdarını nəzarətdə saxlamağa imkan vermir, həm də onu lazımi parametrlər çərçivəsində dəyişməyə imkan verir.

Yeni pulların yaradılması məqsədilə Mərkəzi bank tərəfindən dövlət qısamüddətli istiqrazların (DQİ) (dövlət kredit öhdəlikləri) alınması dövlət borcunun pula çevrilməsini (yəni pul tədavülünün təşkilini) bildirir, çünki onlar dövlət tərəfindən və onun vergi bazası tərəfindən təmin edilirlər. Dövlətin istiqrazlar üzrə ödədiyi faiz gəliri Mərkəzi bank və kommersiya bankları arasında bölüşdürülür. Bu zaman Mərkəzi bank istiqrazlar üçün elə kurs müəyyənləşdirməlidir ki, kommersiya bankları həmin anda aparılan siyasətdən asılı olaraq onları almaqda və ya satmaqda maraqlı olsunlar.

Valyuta siyasəti. Bu, ölkənin beynəlxalq hesablaşmaları sahəsinin tənzimlənməsinə və milli valyuta məzənnəsinin dəstəklənməsinə yönümlənmiş siyasətdir. Bu alət ölkədə pul təklifi kəmiyyətinə bilavasitə təsir edə bilir.

Valyuta siyasətinin həyata keçirilməsinin ən mühüm vasitələrindən biri valyuta tənzimləməsidir ki, pul-kredit siyasəti aləti kimi iqtisadi böhran şəraitində kapitalın ölkədən qaçmasına cavab olaraq mərkəzi banklar tərəfindən tətbiq olunmağa başlanmışdır .

Valyuta tənzimləməsi dedikdə valyuta axınları və xarici ödənişlərin idarə edilməsi, milli pul vahidinin valyuta kursunun formalaşması başa düşülür.

Mərkəzi bank adətən valyuta siyasətinin iki əsas formasından: diskont və deviz formalarından istifadə edir.

Diskont siyasət iki funksiya: daxili və xarici – yerinə yetirir. Uçot faiz dərəcəsinin dəyişməsi ölkədə faiz dərəcələrinin səviyyəsinə təsir edir. Uçot faiz dərəcəsinin artması zamanı diskont siyasətin xarici funksiyası xarici kapitalın cəlb edilməsinə və milli valyutanın məzənnəsinin qaldırılmasına, bir də tədiyyə balansının tənzimlənməsinə yönəldilmişdir. Diskont siyasətinin xarici funksiyasının səmərəliliyi qısamüddətli xarici kapitalın ölkəyə və ölkədən axınları ilə bağlıdır. Banklar milli və dünya valyuta və kredit bazarlarındakı faiz dərəcələri arasında fərqi nəzərə alırlar. Onlar faiz dərəcəsi aşağı olan ölkədə kredit götürərək xarici valyutanı faiz dərəcəsi yüksək olan bazarda yerləşdirirlər.

Mərkəzi bank xarici valyutanı (devizləri) almaqla və ya satmaqla milli pul vahidi məzənnəsinin lazımi istiqamətdə

dəyişməsinə təsir göstərir. *Deviz siyasəti* belə həyata keçirilir. Özü də RF-nın Mərkəzi Bankı açıq bazarlardakı əməliyyatlara oxşar təsir mexanizmi olan valyuta müdaxiləsindən istifadə edir. Valyuta müdaxilələri pul kütləsinin artırılması və ya sterilizasiya edilməsi məqsədilə daxili bazarda xarici valyutanın alqı-satqısıdır. Bu zaman milli valyutanın məzənnəsinin artıb-azalmalarını tənzimləməyə imkan yaranır: dolların satılması rublun məzənnəsini qaldırır və əksinə. Amma ödəniş balansı sistemində böyük pozuntularla aparılan belə siyasət çox pis nəticələrə – milli valyutanın dəyərsizləşməsinin qarşısını almadan ölkənin valyuta ehtiyatlarının tükənməsinə gətirib çıxarda bilər. Bununla bağlı olaraq RF-nın Mərkəzi Bankı daha çevik alətdən – valyuta svoplarından istifadə edir ki, bu da rublun məzənnəsinə əlavə təsir etmədən valyuta bazarının likvidlik səviyyəsini tənzimləməyə imkan verir.

Valyuta svopu – valyutanın alqı-satqısının valyutanın dərhal çatdırılması və eyni zamanda razılaşdırılmış məzənnə üzrə təcili mübadiləsi şərtilə baş verdiyi sövdələşmə formasıdır. Bu sövdələşmələr valyuta ehtiyatının doldurulması və milli valyutasının sabitliyinin dəstəklənməsi məqsədilə istifadə olunurlar. Belə çıxır ki, Mərkəzi bank faktik olaraq bankları kreditləyir.

Pul-kredit siyasətinin tənzimlənməsinin dolayı alətləri ilə yanaşı ***birbaşa nəzarət metodları*** da mövcuddur ki, onları Qərbdə selektiv nəzarət adlandırırlar. Bu, faiz dərəcələrinə müəyyənləşdirilən limitlər və kreditlərin birbaşa limitləşdirilməsidir. Kredit emissiyasının yuxarı həddi – kredit tavanı müəyyənləşdirilir. Ümumi kredit tavanları bank sektorunun verdiyi kreditlərin ümumi məbləğinə nisbətdə, eyni məhdudiyyətlər isə kreditin artım tempi və ya həcmi üçün müəyyənləşdirilir. Lakin hər halda qeyd etmək lazımdır ki, hazırda inzibati tənzimləmə metodlarına deyil, bazar tənzimləmə mexanizmlərinə daha çox üstünlük verilir. Rusiya Bankının bazar münasibətlərinin inkişaf etdirilməsinə yönümlənməsi öz əksini kredit hərraclarının təşkil

edilməsində tapdı ki, onların tətbiqi ilə faiz dərəcələrinin və Mərkəzi bank kreditlərinin həcminin inzibati qaydada aparılması məhdudlaşır.

Mərkəzi banklar həmçinin aşağıdakı alətlərdən də istifadə edirlər:

- kapital bazarı üzərində nəzarət (səhmlər və istiqrazların buraxılma və yerləşdirilmə qaydaları, xarici borcların müəyyənləşdirilməsi);
- bazarlara çıxış imkanı vermək (yeni banklar və kredit təşkilatlarının, o cümlədən xarici bankların açılmasının tənzimlənməsi);
- pul targetasiyası (tədavüldə pul kütləsinin ayrı-ayrı komponentlərinin məqsəd oriyentirləri (yuxarı və aşağı həddləri) artımının müəyyənləşdirilməsi). Son zamanlar bu məfhum yerinə «pul-kredit siyasətinin oriyentirləri məfhumundan istifadə olunur»;
- dövlət qiymətli kağızlarına investisiya normaları (dövlət borclarının dayanıqlı yerləşdirilməsi və möhtəkirlik əməliyyatlarının məhdudlaşdırılması məqsədilə banklar üçün müəyyənləşdirilir).

Bu və ya digər alətin seçilməsinə təsir edən həlledici amil bankların tədiyyə qabiliyyətliyinə təsir göstərməkdir. Ən əsası bu və ya digər konkret şəraitdə onlardan necə daha yaxşı istifadə etməkdir.

Göstərilən alətlərin müxtəlif kombinasiyaları RF-nın Mərkəzi Bankına müxtəlif pul-kredit siyasəti aparmağa imkan verir.

Pul-kredit siyasətinin növləri

Son məqsədlərindən asılı olaraq pul-kredit siyasətinin müxtəlif növləri var.

1. O ya pul-kredit emissiyasının stimullaşdırılmasına yönəldilə bilər – ***kredit ekspansiyası*** (*expansionary monetary policy*). Yumşaq pul-kredit siyasəti ("ucuz pul və ya kredit ekspansiyası siyasəti") iqtisadiyyatı pul kütləsinin artırılması və faiz dərəcələrinin müəyyən səviyyədə saxlanıl-


ması vasitəsilə stimullaşdırmağa yönümlənir.

Bu siyasət istehsal səviyyəsinin aşağı düşdüyü dövrlərdə iqtisadiyyatı çanlandırmaq üçün aparılır və RF Mərkəzi Bankının pul təklifinin artırılması ilə bağlı tədbirlər aparması ilə bağlıdır.

Mərkəzi bank nə edir? Mütləq ehtiyat normalarını və uçot faiz dərəcəsini azaldır, dövlət qiymətli kağızlarını alır, verilən borcların həcmini artırır. Bu necə baş verir?

Pul təklifinin artması məcmu tələbin artmasına səbəb olur. Bu isə öz növbəsində buraxılışın Y_1 həcmindən Y* potensial həcminə qədər artımını təmin edir. Nəticədə iqtisadiyyat canlanma fazasına keçə bilər (şəkil 17.9).


2. Ya da bu siyasət emissiyanın məhdudlaşdırılması istiqamətində aparılacaq – ***kredit restriksiyası*** (*contractory monetary policy*). Sərt pul-kredit siyasəti ("bahalı pul" və ya restriktiv siyasət) məhdudlaşdırıcı səciyyə daşıyır və inflyasiyaya qarşıdurmaq məqsədilə istifadə olunur. O, iqtisadi dirçəliş dövründə "iqtisadiyyatın artıq qızması"nın qarşısının alınması məqsədilə verilən kredit resurslarının azaldılmasına yönəldilir.



Şəkil 17.9. Yumşaq pul-kredit siyasətinin qrafiki

Bu dövrdə RF-nın Mərkəzi Bankı açıq bazarda qiymətli kağızlar satır, mütləq resurslar normasını artırır,uçot-faiz dərəcəsini qaldırır, həmçinin inzibati məhdudiyyətlər də aparır: verilən kreditlərin yuxarı həddini aşağı salır, istehlak kreditinin həcmini azaldır.

Bu siyasət Rusiya Bankı tərəfindən pul təklifinin azaldılması üzrə tədbirlərin aparılması ilə bağlıdır ki, bu da məcmu tələbin azalmasına gətirir. Nəticədə qiymətlərin səviyyəsi P_1-dən P_2-ə enir. Qrafikdə Y_1 buraxılış həcmi özünün potensial Y* səviyyəsinə qayıdır (şəkil 17.10).



Şəkil 17.10. Sərt pul-kredit siyasətinin qrafiki

3.Tədavüldə pul kütləsinin və faiz dərəcəsinin sərbəst artıb-azalmasına yol verilən pul siyasətinin seçilməsi mümkündür. İqtisadiyyatın tsiklik «artıq qızdığı» halda faiz dərəcələrinin artırılmasına yol verilir ki, bu da işgüzar fəallığının aşağı düşməsinə səbəb olur və əksinə.

Bütün hallarda RF Mərkəzi Bankı pul-kredit siyasətinin aparılmasnda ölkənin iqtisadi inkişafının sabitləşdirilməsinin zəruriliyindən çıxış edir.


Siyasi qərarların bütövlükdə iqtisadiyyata təsiri *pul-kredit siyasəti mexanizminin transmissiya mexanizmi və ya pul ötürücü mexanizmi (transmission mechanism of monetary polisy)* kimi məlumdur. O ilk dəfə keynsçi təhlildə tətbiq olunmuşdu və Keyns onu pul təklifinin iqtisadi fəallığa təsir etdiyi dəyişənlər sistemi adlandırmışdı.

O, pul bazarında vəziyyətin dəyişməsinin əmtəə və xid-

mətlər bazarındakı vəziyyətin dəyişməsinə necə təsir etməsini göstərir. Bu zaman təsir xeyli gecikməylə, 2-3 il fasiləylə baş verə bilər. Buna görə də RF-nın Mərkəzi Bankı gələcəkdə vəziyyətin sabitliyini təmin etmək üçün bu gün hansı tədbirləri görmək lazım olması məsələsini həll etməlidir. Uğurlu siyasət orta təcililikli və uzun təcililikli perspektivə yönümlənməlidir.

Şəkil 17.11-dən göründüyü kimi transmissiya mexanizmi iqtisadi əlaqələrin mürəkkəb kələfidir.

Transmissiya mexanizminin strukturu makroiqtisadi dəyişənlərin özünəməxsus zənciri şəklində olan və Rusiya Bankının pul-kredit siyasəti alətləri vasitəsilə təkan verdiyi dəyişikliklər impulsunun ötürüldüyü kanallardan ibarətdir.



Şəkil 17.11. Transmissiya mexanizminin təsviri[1]

1 Деньги. Кредит. Банки: Учебник/Под ред. В.В.Иванова, Б.И.Соколова – М.:Проспект, 2003.–С.532.

RF Mərkəzi Bankının uçot dərəcələrinin dəyişmələri banklararası bazarın faiz dərəcələrinə və valyuta kursuna təsir göstərirlər. Sonra maliyyə aktivlərinin qiymətlərinin dəqiqləşdirilməsi aparılır, bu da ev təsərrüfatları və firmaların xərclərinə təsir edir. Faiz dərəcəsi nə qədər yüksək olsa, firmalar bir o qədər az kredit götürür və əsas kapitala investisiyalar bir o qədər az olur və deməli, məhsul buraxılışına tələb və onun həcmi azalır. Son nəticədə iqtisadi artımın və işsizliyin tempinin dəyişməsi qiymətlərə və əməkhaqqına yenidən baxılmasına səbəb olur. Milli iqtisadiyyat yeni iqtisadi tarazlığa keçir.

Məsələnin belə qoyuluşu ilə əlaqədar ***pul-kredit siyasətinin aparılmasının müxtəlif strategiyaları*** mövcuddur. Onlara aiddirlər: pul targetə edilməsi, inflyasiyanın birbaşa targetə edilməsi və valyuta məzənnəsinin targetə edilməsi.

Pul targetə edilməsi Mərkəzi bankın pul kütləsinin verilmiş parametrlərinin dəyişdirilməsini dəstəklədiyini bildirir.

İnflyasiyanın birbaşa targetə edilməsi zamanı Mərkəzi bankın strategiyası inflyasiyanın dinamikasının dəyişdirilməsinə yönəlir.

Valyuta məzənnəsinin targetə edilməsi faiz dərəcələri və pul bazasının tənzimlənməsi yolu ilə onun verilmiş səviyyədə saxlanılmasına əsaslanır.

Amma praktikada Mərkəzi bank çətin ki, seçilmiş strategiyalardan biri üzrə hərəkət etsin. Bu strategiyaların mənası seçilmiş kursun sabitləşdirilməsindədir. Bir çox parametrlər bir-biri ilə əlaqədardırlar və Mərkəzi bank çox vaxt bütün mümkün vasitələrlə yaranmış müəyyən ziddiyyətləri həll etməyə çalışır.

Rusiya iqtisadi ədəbiyyatında Rusiyanın pul-kredit siyasətinin formalaşmasında iqtisadiyyatın real və pul bölmələrinin inkişaf dinamikalarındakı dəyişikliklərə müvafiq gələn üç mərhələ fərqləndirilir.

İnkişafın birinci, ilkin mərhələsi (1991) bir tərəfdən RF Mərkəzi Bankı tərəfindən inflyasiyanın dəf edilməsinə sərt

məqsəd yönümü və digər tərəfdən isə büdcə kəsirinin emissiya kreditləməsi ilə səciyyələnirdi.

Nəticədə məcmu pul kütləsində nağd pulun payı kəskin şəkildə artır və müvaviq olaraq nağdsız pulların payı azalırdı. Həmin dövrdə pul bazarının aparıcı tendensiyası həm depozitlər üzrə, həm də bank və banklararası kreditlər üzrə faiz dərəcələrinin daima artması idi. Maliyyə bazarları dairəsi pulların yüksək sürətlə tədavülü, həddsiz yüksək gəlirlərlə və az risklə səciyyələnirdilər.

İnkişafın ikinci mərhələsi nisbi maliyyə sabitliyi dövrü ilə səciyyələnir ki, bu da 26 aprel 1995-ci il tarixli «Rusiya Federasiyası Mərkəzi Bankı (Rusiya Bankı) haqqında» Qanunun qəbul edilməsindən sonra başlandı. Bu Qanun büdcə kəsirini birbaşa kreditləməyi qadağan edirdi. Bu dövrdə onun maliyyələşdirilməsi banklar tərəfindən daxili bazarda dövlət qiymətli kağızlarının alınması vasitəsilə aparılırdı. Həmçinin qeyri-rezidentlərin miqyaslı vəsait axınından istifadə olunurdu. Xaricdən alınan borclar bir qayda olaraq möhtəkirlik səciyyəliydi və sənayenin inkişafına deyil, büdcə «deşiklərinin» yamanmasına yönəldilirdi. Nəticədə bu strategiya ölkəni defolta və bütün maliyyə sahəsinin qeyri-sabitliyinə gətirib çıxartdı. Formalaşmamış bazar mühiti şəraitində restriktiv pul-kredit siyasətinə yönümlənmə yalnız bank sahəsindəki deformasiyaları gücləndirdi.

Ölkənin bütövlükdə dollarlaşması əhalinin əlində nağd pulların miqdarının həddsiz artmasına səbəb oldu. Və deməli, bankların iqtisadiyyatın real sektorunu kreditləmək imkanı yox idi.

Üçüncü mərhələ RF Hökumətinin 1998-ci ilin defoltundan sonra ölkə iqtisadiyyatını sabitləşdirmək cəhdlərindən başlayır. Bütün cəhdlər belə böhrana bir daha yol verməməyə və milli valyutanın məzənnəsinin sabit saxlanılmasına yönəldildi. RF Mərkəzi Bankı tərəfindən pul tədavülü üzərində nəzarətin və kommersiya banklarının fəaliyyəti üzərində real operativ nəzarətin sərtləşdirilməsi istiqamətində tədbirlər görüldü.

Hazırkı pul-kredit siyasəti iki baza prinsipi əsasında qurulur: məqsədli inflyasiya metodlarının tətbiqi, bir də ara oriyentiri kimi M_2 pul aqreqatından istifadə edilməsi.

Beləliklə, Rusiya Bankı öz hərəkətlərində o dərəcədə müstəqil olmalıdır ki, öz fəaliyyətini tamamilə real iqtisadiyyatın maraqlarına tabe edə bilsin.

Əsas anlayışlar və məfhumlar

Pul bazarı; pula tələb; pula tələb tənliyi; portfel pula tələb nəzəriyyələri; Fridmen «qaydası»; likvidliyə üstünlük verilməsi nəzəriyyəsi; pula transaksion tələb; ehtiyatlılıq motivi; pula möhtəkirlik tələbi; likvidlik tələsi; pul təklifi; «nağd pulun idarə edilməsinin Baumol-Tobin modeli»; bankların likvidliyi; bankların passiv və aktiv əməliyyatları; kommersiya bankları vəsaitlərinin cəlb edilməsi və emitasiyası; kommersiya bankının əsas balans eyniliyi; minimum mütləq ehtiyatlar; pul bazası; bank multiplikatoru; pul multiplikatoru; rəsmi uçot dərəcəsi; açıq bazarda əməliyyatlar; REPO sövdələşmələri; valyuta müdaxilələri; valyuta tənzimləməsi; valyuta svopu; pul kütləsinin sterilləşdirilməsi; pul-kredit siyasətinin transmissiya mexanizmi; inflyasiyanın targedə edilməsi; kredit ekspansiyası; kredit restriksiyası; diskont siyasəti.

XVIII FƏSİL. ƏMTƏƏ VƏ PUL BAZARLARININ QARŞILIQLI ƏLAQƏSİ: MODEL IS-LM

§1. IS-LM modelinin nəzəri əsasları.
§2. IS əyrisi, onun elastiklik və yerdəyişmə amilləri.
§3. LM əyrisi, onun elastiklik və yerdəyişmə amilləri.
§4. IS-LM modeli və tarazlı vəziyyətin dəyişdirilməsi mexanizmləri.

Əvvəlki fəsillərdə ayrı-ayrılıqda əmtəə və pul bazarlarında tarazlığın müəyyənləşdirilməsinin şərtləri və mexanizmləri diqqətlə nəzərdən keçirilmişdi. Bununla yanaşı, artıq hər iki bazarda tarazlığın təhlilində onlarda baş verən proseslərin ***qarşılıqlı asılılıqda*** olması dəqiq nəzərə çarpır: ***əmtəə*** bazarlarındakı dəyişikliklər birbaşa ***pula*** tələbə və bununla da real faiz dərəcəsinə təsir edirlər; ***pul*** bazarında baş verən dəyişikliklər ***məcmu xərclərin*** və milli gəlirin səviyyəsinə təsir edirlər.

§1. IS-LM modelinin nəzəri əsasları

Milli iqtisadiyyat ***bir neçə*** növ bazarın: əmtəə və xidmətlər bazarı, iş qüvvəsi bazarı, bilavasitə pul bazarı və qiymətli kağızlar bazarının qarşılıqlı əlaqəsindən ibarətdir. Bir halda ki, əmtəə və xidmətlir bazarı iş qüvvəsi bazarı ilə sıx bağlıdır (iş qüvvəsinə tələb onun istehsal etdiyi əmtəə və xidmətlərə tələbə nisbətən ikinci yerdədir), bilavasitə pul bazarı isə qiymətli kağızlar bazarından ayrılmazdır (pul bazarının tənzimlənməsi dövlət qiymətli kağızları vasitəsilə həyata keçirilir), onda bütün bazar növlərini iki növə bölmək olar: əmtəə və xidmətlər bazarı və pul bazarı.

Əmtəə və pul bazarlarının qarşılıqlı əlaqəsinin tədqiqi yalnız nəzəri maraq kəsb etmir. Məlum olduğu kimi, iqtisadçılar hələ də ***fiskal*** və ***pul-kredit siyasətinin*** səmərəliliyi haqqında mübahisə aparır, öz baxışlarından və hansı nəzəri məktəbə mənsub olmalarından asılı olaraq ya birinə, ya da digərinə üstünlük verirlər. Həm fiskal, həm də pul-kredit

siyasətinin şəksiz həm üstünlükləri, həm də çatışmazlıqları var (müvafiq fəsillərə bax). Amma ayrılıqda götürülmüş hər hansı bir model vasitəsilə hər iki siyasətin müqayisəli təhlilini aparmaq olduqca çətindir. Məsələ burasındadır ki, fiskal siyasət əsasən əmtəə bazarları elementləri ilə bağlıdır (milli istehsal səviyyəsi, məcmu istehlak, investisiyalar), pul-kredit siyasəti isə pul bazarı məfhumları ilə işləyir (pul təklifi, pula tələb, orta faiz dərəcəsi).

Beləliklə, ***pul və əmtəə bazarlarını birləşdirən*** modelin tətbiq edilməsi zərurəti yaranır. Bu ideya 1937-ci ildə C.Xiks tərəfindən həyata keçirilmişdi. Özünün klassik və keynsçi məktəblərin müqayisəli təhlilinə həsr olunmuş məqaləsində o, IS-LM modelini işlətmişdi ki, ondan bu gün də pul-kredit və fiskal siyasətlərin səmərəliliyinin qiymətləndirilməsində geniş istifadə olunur.

Ən dahiyanə şeylər sadədir. Əgər investisiyaya tələb orta faiz dərəcəsindən asılıdırsa, onda sonuncunu pul bazarı modelinə daxil etmək olar. Əgər pula tələb milli gəlirdən asılıdırsa, sonuncunu pul bazarı modelinə daxil etmək olar.

IS-LM modeli milli gəlirlə orta faiz dərəcəsinin (bundan sonra – faiz dərəcəsi) elə kombinasiyasını göstərir ki, bu zaman həm pul bazarında, həm də əmtəə bazarında eyni vaxtda tarazlıq müəyyənləşir.


IS-LM modeli iki əyridən – IS və LM (modelin adı da buradandır) – ibarətdir ki, məhz onların kəsişməsi faiz dərəcəsi ilə milli gəlirin tarazlı kombinasiyasını verir. Əvvəlcə bu əyrilərin hər birini nəzərdən keçirək.

§2. IS əyrisi, onun elastiklik və yerdəyişmə amilləri

IS əyrisi milli gəlir (Y) və orta real faiz dərəcəsinin (r) elə müxtəlif kombinasiyalarını göstərir ki, onlarda əmtəə bazarlarında tarazlıq yaranır, yəni investisiyalar (I) yığıma (S) bərabər olur.

Qeyd edək ki, IS-LM modelində I – ***planlaşdırılan*** investisiya xərcləridir.

IS əyrisi investisiya (I) və yığımın (S) bərabərliyi haqqındakı keynsçi modelindən aşağıdakı kimi alınır (şəkil 18.1).



Şəkil 18.1. IS əyrisinin formalaşması

Fərz edək ki, əmtəə bazarlarında ilkin tarazlıq I_0 və S_0 kəsişmə nöqtələrində müəyyənləşir və Y_0 milli gəlir səviyyəsinə uyğun gəlir (bax şəkil 18.1, *a*), bu zaman faiz dərəcəsi r_0 bərabərdir (bax şəkil 18.1, *b*). Beləliklə, biz aşağı qrafikdəki gələcək IS əyrisinin birinci *nöqtəsini* (A) əldə etmiş oluruq.

İndi fərz edək ki, faiz dərəcəsi r_1 səviyyəsinə qədər enmişdir (bax şəkil 18.1, *b*). Bu hadisə investisiyaları artırmaqla (çünki investisiya kreditlərinin qiyməti aşağı düşür) və yığımı azaltmaqla (çünki pulu bankda saxlamaq daha az

sərfəli olur) əmtəə bazarlarına təsir edir. İnvestisiyaların artması I_0 əyrisinin I_1 vəziyyətinə yerini dəyişməsinə səbəb olur, yığımın azalması isə S_0 əyrisinin S_1 vəziyyətinə keçməsi ilə nəticələnir (bax şəkil 18.1, *a*). Belə ikiqat yedəyişmə nəticəsində yeni tarazlıq nöqtəsi yaranır ki, bu da milli gəlirin Y_1 səviyyəsinə uyğun gəlir.

Y_1-i aşağı qrafikə proeksiya edərək IS əyrisinin *ikinci* nöqtəsini (B) alarıq. Əldə olan bu iki nöqtədən də bir düz xətt keçirmək mümkündür ki, bu da IS əyrisi olacaq.

Aşkar görünür ki, IS əyrisinin *elastikliyi* (mailliyi) aşağıdakı amillərdən asılıdır:

1) investisiyaların və yığımın faiz dərəcəsinin dəyişməsinə həssaslıq dərəcəsindən. Bu reaksiya nə qədər güclü olsa, yəni faiz dərəcəsinin azalması nəticəsində investisiyalar və yığım əyrilərinin yerdəyişməsi nə qədər böyük olsa, milli gəlirin artımı bir o qədər çox, IS əyrisi bir o qədər *elastik* olacaq (buna I və S əyrilərinin *müxtəlif* yerdəyişmə diapazonlarını ehtimal etməklə əmin olmaq olar). Əgər investisiyalar və yığım faiz dərəcəsinin dəyişməsinə az reaksiya verirlərsə, milli gəlirin artımı az və deməli, IS əyrisi də qeyri-elastik olacaq.

2) multiplikatorun ölçülərindən və yığıma son həddmeyilliyindən. Multiplikatorun əmsalı nə qədər böyük, yəni yığıma son həddmeyilliyi nə qədər kiçik və deməli, S əyrisi nə qədər elastik olsa, faiz dərəcəsinin azalması nəticəsində milli gəlirin artımı bir o qədər çox, IS əyrisinin *elastikliyi* bir o qədər yüksək olar (yığım əyrisinin *müxtəlif* mailliklərini ehtimal etməklə bunu yəqin etmək olar). Əgər yığıma son həddmeyilliyi yüksək və deməli, multiplikator kiçik olarsa, milli gəlirin artımı az və deməli, IS əyrisi də qeyri-elastik olacaq.

IS əyrisi investisiya və yığım pullarında faiz dərəcəsinin artıb-azalmalarında baş verən dəyişikliklərdən *asılı olmayaraq* paralel sağa yuxarı və sola aşağı yer dəyişə bilər. Bu zaman aşağıdakılar baş verir:

- *investisiyaların* müstəqil *azalması* (məsələn, iqtisa-

diyyatda uğursuz işgüzar gözləmələr nəticəsində) IS əyrisinin paralel *sola* yerdəyişməsinə səbəb olur: bu halda hər bir faiz dərəcəsində multiplikator effektinə səbəb milli gəlir *az* olacaq. Və əksinə, investisiyaların muxtar artımı (məsələn, mənfəət vergisinin azaldılması nəticəsində) IS əyrisinin paralel sağa yerdəyişməsinə səbəb olacaq;

• *yığımın* müstəqil *azalması* (məsələn, kütləvi yay məzuniyyətləri nəticəsində) IS əyrisinin paralel *sağa* yerdəyişməsinə səbəb olur: hər bir faiz dərəcəsində istehlakın kəskin artması nəticəsində və multiplikator effektinə səbəb milli gəlir *çox* olacaq. Və əksinə, *yığımın* muxtar artımı (məsələn, əhalinin banklara etibarının artması nəticəsində) IS əyrisinin paralel *sola* yerdəyişməsinə səbəb olacaq;

• *məcmu tələbin digər komponentlərinin* (istehlakın, dövlət xərclərinin, xalis ixracın) müstəqil *azalması*, məsələn, xaricə mühacirət prosesləri, büdcə vəsaitlərinə sərt qənaət siyasəti, idxal məhsullarının kəskin şəkildə dəbə minməsi IS əyrisinin paralel *sola* yerdəyişməsinə səbəb olur: hər bir faiz dərəcəsində milli gəlir multiplikativ olaraq *azalır*. Və əksinə, muxtar xərclərin (məsələn, demoqrafik bum, hökumətin sosial xərclərinin artması, ixracedici sahələrin rəqabətqabiliyyətliyinin artması nəticəsində) *artması* IS əyrisinin paralel *sağa* yerdəyişməsinə səbəb olacaq.

Məcmu tələbi və multiplikatorun düsturlarından istifadə edərək IS əyrisini aşağıdakı tənlik şəklində vermək olar:

$$r = A / b - Y / (kb),$$

Burada r – faiz dərəcəsi;

Y – milli gəlir;

k – multiplikator (gəlir vergisi dərəcəsi nəzərə alınmaqla);

A – məcmu muxtar xərclər (faiz dərəcəsi səviyyəsindən asılı olmayan istehlak, investisiyalar, dövlət xərcləri, xalis ixrac);

b – faiz dərəcəsinin dəyişməsinə investisiyaların reaksiya səviyyəsini göstərən əmsal.

Bu tənlik aydın göstərir ki, A-nın (muxtar xərclərin)


artması IS əyrisinin sola yerdəyişməsinə səbəb olur, bu zaman multiplikator (k) və faiz dərəcəsinin dəyişməsinə investisiyaların reaksiya dərəcəsi (b) nə qədər böyük olsa, IS əyrisi bir o qədər elastik olar.

§3. LM əyrisi, onun elastiklik və yerdəyişmə amilləri

LM əyrisi milli gəlir (Y) və orta real faiz dərəcəsinin (r) elə müxtəlif kombinasiyalarını göstərir ki, onlarda pul bazarında tarazlıq yaranır, yəni pullar (L) pul təklifinə (M_s) bərabər olur.

Qeyd edək ki, LM modelində L pula nominal deyil, real tələbi, yəni qiymətlər səviyyəsinə bölünmüş pula nominal tələbi (real pul balansı adlanılan) göstərir.

LM əyrisi pul bazarının $L = M_s$ olan tarazlıq modelindən aşağıdakı kimi alınır (şəkil 18.2).



Şəkil 18.2. LM əyrisinin formalaşması

Fərz edək ki, pul bazarında ilkin tarazlıq (şəkil 18.2, *a*) M_s və L_0 –ın kəsişmə nöqtəsində müəyyənləşir və r_0 faiz dərəcəsinə və Y_0 milli gəlirə (bax şəkil 18.2, *b*) uyğundur. Beləliklə, LM əyrisində biz *birinci* nöqtəni (A) alırıq.

İndi isə fərz edək ki, iqtisadiyyatda milli gəlirin Y_1 səviyyəsinə qədər artımı baş verir (bax şəkil 18.2,*b*) və bu da pul bazarına təsir edərək miqdarı artmış sövdələrə xidmət

etmək üçün pula transaksiya tələbi artırır, yəni L əyrisinin sağa yerini dəyişir (şəkil 18.2, *a* –*da* L_0 –ın L_1-ə yerdəyişməsi). Pula tələbin artması nəticəsində (pul təklifinin dəyişməzliyi şərtilə) tarazlı faiz dərəcəsi r_1 səviyyəsinə qədər qalxır (bax şəkil 18.2, *a*).

Yeni tarazlı faiz dərəcəsini proyeksiya edərək (bax şəkil 18.2,*b*) LM əyrisinin *ikinci* (B) nöqtəsini tapırıq. İki nöqtədən istifadə edərək hər bir nöqtəsində pula tələbin pul təklifinə bərabər olduğu düz xətti qururuq.

IS əyrisi kimi LM də müxtəlif elastikliyə malik, yəni daha maili (yüksək elastiklik) və ya daha dik (aşağı elastiklik) ola bilər. LM əyrisinin elastikliyi aşağıdakı amillərdən asılıdır:

1) pula tələbin milli gəlirin dəyişməsinə reaksiya dərəcəsindən. Bu reaksiya nə qədər güclü olsa, yəni milli gəlirin artması nəticəsində L əyrisinin yerdəyişməsi nə qədər böyük olsa, faiz dərəcəsinin artımı bir o qədər çox, LM əyrisi bir o qədər *qeyri-elastik* olacaq (buna şəkil 18.2,*a* üzərində L əyrisinin *müxtəlif* yerdəyişmə diapazonlarını ehtimal etməklə əmin olmaq olar). Əgər pula tələb milli gəlirin dəyişməsinə (məsələn, istehsal və istehlakın artan səviyyəsinə qismən pul kütləsinin tədavül sürətinin artması hesabına xidmət göstərilir) zəif reaksiya verirsə, onda faiz dərəcəsi də az artacaq və deməli, LM əyrisi daha elastik olacaq;

2) ***pula tələbin faiz dərəcəsinin dəyişməsinə reaksiyası dərəcəsindən.*** Bu reaksiya nə qədər güclü, yəni şəkil 18.2, *a* –dakı L əyrisi nə qədər elastik olsa (faiz dərəcəsinin artması nəticəsində pula tələb nə qədər azalırsa), tarazlı faiz dərəcəsi bir o qədər az artar, LM əyrisi bir o qədər *elastik* olar (buna şəkil 18.2, *a* üzərində L əyrisinin *müxtəlif* maillik dərəcələrini ehtimal etməklə əmin olmaq olar). Əgər pula tələb faiz dərəcəsinin dəyişməsinə zəif reaksiya verirsə, yəni pula tələb əsasən möhtəkirlik deyil, transaksiya tələbidirsə, onda L əyrisi qeyri-elastik olacaq və deməli, yeni tarazlı faiz dərəcəsi daha çox, LM əyrisi isə qeyri-elastik olacaq. LM əyrisi milli gəlirdə baş verən dəyişikliklərdən asılı olmayaraq pula teleb

və pul təklifində dəyişikliklər nöqtəsində paralel sağa aşağı və ya sola yuxarı yerdəyişmə edə bilər. Bu zaman aşağıdakılar baş verir:

- *pula tələbin müstəqil azalması* (məsələn, kütləvi mühacirət etmə nəticəsində) LM əyrisinin paralel *sola* yerdəyişməsinə səbəb olur: hər bir faiz dərəcəsində işgüzar fəallığın azalması nəticəsində milli gəlir az olacaq. Və əksinə, pula muxtar tələbin artması (məsələn, Yeni il bayramı zamanı) LM əyrisinin paralel sağa yerdəyişməsinə səbəb olacaq;

pul təklifinin müstəqil artımı (məsələn, pulun emissiyasının artması nəticəsində) LM əyrisinin paralel *sağa* yerdəyişməsinə səbəb olur: hər bir faiz dərəcəsində pul transmissiyası mexanizminə səbəb milli gəlir daha çox olacaq. Və əksinə, muxtar pul təklifinin azalması (məsələn, milli valyutanın ölkədən kütləvi şəkildə getməsi nəticəsində) LM əyrisinin paralel sola yerdəyişməsinə səbəb olacaq.

Beləliklə, LM əyrisi aşağıdakı tənlik şəklində verilə bilər:

$$r = 1 / h \bullet (nY - M / P).$$

Burada *r* – faiz dərəcəsi;

Y – milli gəlir;

M – nominal pul təklifi (konstanta);

P – qiymətlərin cari səviyyəsi;

M / P – real pul təklifi;

h – pula real tələbin faiz dərəcəsinin dəyişməsinə reaksiya səviyyəsini göstərən əmsal;


n - pula real tələbin milli gəlirin dəyişməsinə reaksiya səviyyəsini göstərən əmsal.

Bu tənlikdən aydın görünür ki, pula tələbin milli gəlirin dəyişmələrinə həssaslığı (*n*) nə qədər böyük olsa və pul a tələbin faiz dərəcəsinin dəyişmələrinə həssaslığı (*h*) nə qədər aşağı olsa, LM əyrisi bir o qədər dik olar, özü də pul təklifinin artması (M / P) LM əyrisinin yerini sağa dəyişdirir.

İndi isə əmtəə və pul bazarlarında eyni zamanda tarazlıq nöqtəsini tapmaq üçün IS və LM əyrilərini birləşdirək.

§4. IS-LM modeli və tarazlı vəziyyətin dəyişdirilməsi mexanizmləri

Əmtəə və pul bazarlarında eyni zamanda tarazlıq IS və LM əyrilərinin kəsişmə nöqtəsində əldə olunur (şəkil 18.3).



Şəkil 18.3. IS-LM modelində əmtəə və pul bazarlarının tarazlığı

Şəkil 18.3-də göstərildiyi kimi, Y_e və r_e – müvafiq olaraq tarazlı milli gəlir və tarazlı faiz dərəcəsidir, yəni hazırkı milli gəlir və faiz dərəcəsi səviyyəsində hər *iki bazar* (həm əmtəə, həm də pul) *tarazlıq* vəziyyətindədir. Bundan başqa, normal fəaliyyət göstərən bazar iqtisadiyyatında *tarazlıq pozulduqda onu bərpa edən mexanizm mövcuddur.*

Deyək ki, milli gəlirin cari səviyyəsi (Y_1) şəkil 18.3-də göstərildiyi kimi tarazlıdan yuxarıdır. Vəziyyətin dəyişməsinə birinci pul bazarı «hay verir». Artan həcm dərhal pula tələbi və deməli, r_1 faiz dərəcəsini artıracaq (bax şəkil 18.3). Növbəti mərhələ investisiya və yığımın artmış faiz dərəcəsinə uyğunlaşmasıdır. İnvestisiyalar azalmağa, yığım artmağa və milli gəlirə azalmaq istiqamətində təzyiq göstərməyə başlayacaqlar. Azalan milli gəlir isə, öz növbəsində, pula tələbi (şəkil 18.3-də bu, LM əyrisi boyunca oxla göstərilmişdir) və nəticədə faiz dərəcəsini azaldır. Və nəhayət, düşən faiz dərəcəsi investisiyaların artmasına və yığımın azalmasına gətirir (şəkil 18.3-də bu hərəkət IS əyrisi boyunca oxla göstərilmişdir). Aydındır ki, iki bazar növünün bir-birini qarşılıqlı tənzimləmə prosesi *yalnız* IS=LM *olan tarazlıq nöqtəsində* dayanacaq.

IS=LM modelində tarazlığı yuxarıda verilmiş tənlikləri birləşdirərək düstur şəklində göstərmək olar. $r = A / b - Y / (kb)$ tənliyində Y-i r –lə ifadə edirik, sonra isə əyrilərin kəsişmə nöqtəsində Y və r hər iki bazar üçün eyni olduğundan r-in yerinə $r = 1 / h \bullet (nY - M / P)$ tənliyini qoyuruq. Tarazlı milli gəlirin aşağıdakı tənliyini alırıq:

$$Y_e = k\,[A\text{-}b/h(nY\text{-}\,M / P)].$$

Bu tənlik göstərir ki, tarazlı mili gəlir iki ekzogen (müstəqil) dəyişənlə: muxtar xərclər (A) və real pul kütləsi ilə (M / P) müəyyənləşir. Hər ikisi nə qədər çox olsa, milli gəlirin səviyyəsi də bir o qədər yüksək olar.

Sonra Y_e –nin qiymətini $r = 1 / h \bullet (nY - M / P)$ tənliyində yerinə qoyub, tarazlı faiz dərəcəsini alırıq:

$$r_e = n / h \bullet aA - 1/(h + nbk) \bullet M / P.$$

Burada $a = k/(1 + nbk/h)$.

Beləliklə, bu tənlik göstərir ki, tarazlı faiz dərəcəsi də muxtar xərclər (düz asılılıq) və real pul kütləsindən (tərs asılılıq) asılıdır.


Bu son iki tənlikdə ifadə olunmuş asılılıqlar növbəti fəsildə fiskal və pul-kredit siyasəti effektinin nəzərdən keçirilməsi zamanı lazım olacaqlar.

Məlum olduğu kimi, tarazlıq hərəkətsizlik deyil. IS-LM modelində milli gəlirin və faiz dərəcəsinin tarazlı səviyyəsi IS və LM əyrilərinin yerdəyişməsindən asılı olaraq dəyişə bilər. İki parametrin köməkliyi ilə əyrilərin dəyişməsinin nəticəsində yeni tarazlığın müəyyənləşməsi mexanizmini nəzərdən keçirək.

Birinci misalda muxtar xərclərin (məsələn, dövlət xərclərinin faiz dərəcəsinin dəyişməsi ilə bağlı olmayan artması) *artmasını* nəzərdə tuturuq. Yuxarıda göstərildiyi kimi, bunun nəticəsində IS əyrisi paralel olaraq yerini sağa yuxarı

dəyişəcək (şəkil 18.4).

IS əyrisinin yerdəyişməsi nəticəsində həm tarazlı milli



Şəkil 18.4. Müstəqil xərclərin artması nəticəsində IS-LM modelində tarazlığın dəyişməsi


gəlir (Y_0-dan Y_1-ə qədər), həm də tarazlı faiz dərəcəsi (r_0-dən r_1-ə qədər) artır. Özü də bu zaman milli gəlirin artımı ($\Delta Y = Y_1 - Y_0$) pul bazarının təsiri olmayan vaxta nis- bətən (yəni LM əyrisi üfüqi olardısa, yəni pula tələb faiz dərəcəsiylə deyil, pul təklifiylə müəyyən olunardısa) xeyli *azdır* ($\Delta Y < |AB|$). Beləliklə, pul bazarının mövcud olması sanki muxtar xərclərin artımının multiplikativ effektini «söndürür», çünki |AB| xərclərin artımının multiplikator əmsalına hasilidir.

Bu fenomenin məntiqi izahı aşağıdakı kimidir. Muxtar xərclərin artması əvvəlcə milli gəlirin multiplikativ artımına səbəb olur, lakin eyni zamanda pula tələb də sürətlə çoxalır və özü ilə faiz dərəcəsini də (pul təklifi təsbit olunduğu halda) yuxarı dartır. Artan faiz dərəcəsi də öz növbəsində investisiyaları azaldır və yığımı artırır və bununla da milli gəliri «ləngidir».

IS-LM modelində tarazlığın dəyişməsi ilə bağlı *ikinci* misal LM əyrisinin yerdəyişməsi ilə bağlıdır. Fərz edək ki, iqtisadiyyatda milli gəlirin artması ilə (məsələn, dövlət borcunun ödənilməsi ilə bağlı əlavə pul emissiyası) bağlı olma-

yan pul təklifi artmışdır. Bunun nəticəsi LM əyrisinin paralel olaraq sağa və aşağı yerdəyişməsi olacaq (şəkil 18.5).

LM əyrisinin yerdəyişməsinin nəticəsində tarazlı milli



Şəkil 18.5. Pul təklifinin artması nəticəsində IS-LM modelində tarazlığın dəyişməsi

gəlir (Y_0-dan Y_1-ə qədər) artır və eyni zamanda tarazlı faiz dərəcəsi (r_0-dən r_1-ə qədər) aşağı düşür. Özü də bu zaman faiz dərəcəsinin azalması ($\Delta r = r_1 - r_0$) əmtəə bazarlarının təsiri olmayan vaxta nisbətən (yəni IS əyrisi şaquli olardısa, yəni həm investisiyalar, həm yığım faiz dərəcəsindən asılı olmazdılarsa) xeyli **azdır** ($\Delta r < |CD|$). Beləliklə, əmtəə bazarları sanki faiz dərəcəsinin aşağı düşməsini «söndürür».

Həqiqətən də, pul təklifinin artması faiz dərəcəsinin aşağı düşməsinə səbəb olur, bu da öz növbəsində investisiyaları və istehlakı stimullaşdırır. Bu halda pula tələb artır və faiz dərəcəsini yuxarı «itələyir».

Beləliklə, IS-LM modelinin tətbiq edilməsi ilə əmtəə və pul bazarlarının tədqiq edilməsi aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Milli gəlirin müxtəlif səviyyələri və həm əmtəə, həm də pul bazarlarında tarazlığın müəyyənləşdiyi orta faiz dərəcəsinin müxtəlif kombinasiyalarından ibarət olan IS-LM modeli həm göstərilən bazarların qarşılıqlı əlaqəsinin təhlilində, həm də makroiqtisadi siyasətin səmərəliliyinin qiymətləndirilməsində istifadə olunur.

2. Əmtəə bazarlarında tarazlığı göstərən IS əyrisi keynsçi «investisiya-yığım» modelindən alınır, onun elastikliyi investisiyaların və yığımın faiz dərəcəsinin dəyişməsindən, həssaslığından, multiplikatorun ölçülərindən və yığıma son həddmeyilliyindən asılıdır.

3. Pul bazarlarında tarazlığı göstərən LM əyrisi pul bazarında tələb və təklif modelindən alınır, onun elastikliyi pula tələbin milli gəlirin dəyişməsinə və faiz dərəcəsinin dəyişməsinə həssaslığından asılıdır.

4. Həm əmtəə, həm də pul bazarlarında IS və LM əyrilərinin kəsişmə nöqtəsində mövcud olan eyni vaxtdakı tarazlıq hər iki bazardakı artıb-azalmaların qarşılıqlı «söndü- rülməsi» hesabına avtomatik bərpa olunma qabiliyyətinə malikdirlər.

İdealda əmtəə və pul bazarlarının kənar və təsadüfi amillərin təsirindən yaranan artıb-azalmaları (həm yaxşı, həm də pis) çarpaz söndürməyə qabil olan mexanizmləri iqtisadi stabilliyi təmin edirlər. Cari məqsədlərə çatmaq üçün iqtisadi siyasət işlənib hazırlananda bu xüsusiyyəti nəzərə almaq lazımdır. Məhz buna görə IS-LM modeli fiskal və pul-kredit siyasətinin əsaslandırılmasında geniş istifadə olunur və bu növbəti fəsildə göstəriləcək.

Əsas anlayışlar və məfhumlar

IS-LM modeli; IS əyrisi; IS əyrisinin elastikliyi; IS əyrisinin yerdəyişməsi; LM əyrisi; LM əyrisinin elastikliyi; LM əyrisinin yerdəyişməsi; IS-LM modelində tarazlığın bərpa olunma mexanizmi.

XIX FƏSİL. ƏMTƏƏ VƏ PUL BAZARLARININ QARŞILIQLI ƏLAQƏSİNİN DÖVLƏTİN İQTİSADİ SİYASƏTİNƏ TƏSİRİ

§1. IS-LM modelinin keynsçi və monetarist modeli.
§2. Keynsçi və monetarist məktəblər baxımından fiskal siyasətin səmərəliliyi.
§3. Pul-kredit siyasətinin səmərəliliyi: keynsçi və klassik yanaşmalar.
§4. Qarşıq siyasət konsepsiyası: kompromis mümkündürmü?

Dövlətin bu və ya digər iqtisadi siyasətinin səmərəliliyini qiymətləndirmək üçün IS-LM modelini seçən müxtəlif nəzəri məktəblər bu modeli və müvafiq olaraq iqtisadi siyasətin nəticələrini müxtəlif cür şərh edirlər. Modelin əsas şərhləri və onların əsasında alınmış nəticələr necədir, kompromis mümkündürmü? Bu fəsildə söhbət məhz bundan gedəcək.

§1. IS-LM modelinin keynsçi və monetarist modeli

Əvvəlcə IS-LM modelinin keynsçi nəzəri məktəbin əsas müddəalarına müvafiq olaraq hazırlanmış ***keynsçi*** modifikasiyasını nəzərdən keçirək.

Birincisi, keynsçi təsəvvürlərə görə IS əyrisi *nisbətən qeyri-elastikdir.* Yada salaq ki, Keynsə görə, investisiyaya tələb faiz dərəcəsindən az asılıdır, çünki investisiyalar işgüzar gözləmələr, texnologiya səviyyəsi, artıq istehsal obyektləri, mənfəət vergisinin səviyyəsi və s. kimi güclü amillərin təsirinə məruz qalır. Əvvəlki fəsildə göstərildiyi kimi, investisiyaların faiz dərəcəsinin dəyişməsinə həssaslığı nə qədər az olsa, IS əyrisi bir o qədər qeyri-elastik olar.


İkincisi, keynsçi LM əyrisi nisbətən *elastikdir.* Əsas səbəb pula tələb əyrisinin elastikliyidir (Pula tələb). Qeyd olunduğu kimi, Keynsə görə, transaksion və möhtəkirlik tələbindən ibarətdir, özü də faiz dərəcəsinin dəyişməsi so-

nuncuya olduqca güclü təsir edir. Əvvəlki fəsildə göstərilmişdi ki, pula tələbin faiz dərəcəsinin dəyişməsinə həssaslığı nə qədər çox olsa, LM əyrisinin elastikliyi bir o qədər böyük olar.

İfrat keynsçi mövqe likvidlik tələsi effektini şərh edərək LM əyrisini üfüqi verir.

Xatırladaq ki, ***likvidlik tələsi*** faiz dərəcəsinin hədsiz dərəcədə az olduğu və buna görə pul kütləsinin istənilən artımının möhtəkirlik pul balanslarında yığılıb qalaraq nə faiz dərəcəsinə, nə də milli gəlirin səviyyəsinə təsir etmədiyi şəraitdə yaranır.

LM əyrisinin üfüqi növü bildirir ki, pula tələb faiz dərəcəsiylə deyil (o olduqca aşağıdır), pul təklifi ilə müəyyənləşir.



Şəkil 19.1. IS-LM modeli Keynsçi məktəbi baxımından


IS-LM modelinin keynsçi modifikasiyası şəkil 19.1-də verilmişdir.

Bu modeldə IS əyrisi qeyri-elastik, LM əyrisi elastikdir, mtarazlıqlı milli gəlir (Y_e) və tarazlı faiz dərəcəsi (r_e) isə əyrilərin kəsişmə nöqtəsində müəyyənləşir.

İndi isə IS-LM modelinin ***klassik*** (monetarist) şərhinə müraciət edək.

Birincisi, monetarizmə görə, IS əyrisi nisbətən *elastikdir*. Klassik nəzəriyyə faiz dərəcəsini investisiyalara təsir edən və iqtisadiyyatda investisiyalara və yığıma təsir edən əsas amil hesab edir. Beləliklə, investisiyalara tələb əyrisi elastikdir və deməli, IS əyrisi də elastikdir.

İkincisi, monetarist LM əyrisi nisbətən *qeyri-elastikdir*. Belə yanaşmanın əsas səbəbi neoklassiklərin *pulun miqdar nəzəriyyəsi* tərəfdarı olmalarındadır.Klassik konsepsiyaya görə, pula tələb xeyli dərəcədə transaksiondur və faiz dərəcəsinin dəyişməsinə az reaksiya verir. Beləliklə, pula tələb əyrisi qeyri-elastikdir və deməli, LM əyrisi də qeyri-elastikdir.



Şəkil 19.2. IS-LM modeli monetarist məktəbi baxımından

Klassik konsepsiyanın ekstremal variantı *şaquli LM əyrisidir* ki, bu zaman pula tələb ümumiyyətlə faiz dərəcəsinə reaksiya vermir.

IS-LM modelinin monetarist modifikasiyası şəkil 19.2-də verilmişdir.

Bu modeldə IS əyrisi elastik, LM əyrisi qeyri elastikdir, əmtəə və pul bazarlarının tarazlığı isə əyrilərin kəsişmə nöqtəsində müəyyənləşir.

Beləliklə, müxtəlif iqtisadi məktəblərin IS-LM modelindən istifadə edərək fiskal və pul-kredit siyasətinin səmərəliliyini necə qiymətləndirdiklərini nəzərdən keçirək.

Yada salaq ki, ***fiskal siyasət cari iqtisadi məqsədlərə çatılması üçün dövlət xərcləri və vergi mədaxillərindən istifadə edilməsidir.***

Əgər məqsəd məcmu tələb və işgüzar fəallığın stimullaşdırılması olarsa, dövlət *ekspansionist* fiskal siyasət tətbiq edərək dövlət xərclərini artırır və vergiləri azaldır. Əgər məqsəd inflyasiya ilə mübarizədirsə, onda hökumət *ləngidici* fiskal siyasət apararaq dövlət xərclərini azaldır və vergiləri artırır.

Pul-kredit siyasəti cari iqtisadi məqsədləri həyata keçirmək üçün pul təklifinə, faiz dərəcəsinə və biznes və əhali üçün kreditin əlyetərliyinə təsirdir.


Əgər məqsəd iqtisadi artım və işgüzar fəallığın stimullaşdırılmasıdırsa, onda hökumət *ucuz pul* (ekspansionist pul-kredit siyasəti) siyasəti apararaq pul təklifini artırır, faiz dərəcəsini aşağı salır və kreditləri daha əlyetər edir. Məqsəd inflyasiyanın qarşısının alınmasıdırsa, Mərkəzi bankla təmsil olunan dövlət *bahalı pul* (ləngidici pul-kredit siyasəti) siyasəti apararaq pul təklifini azaldır, faiz dərəcəsini artırır və kreditin əlyetərliyini məhdudlaşdırır.

§2. Keynsçi və monetarist məktəblər baxımından fiskal siyasətin səmərəliliyi

Ekspansionist fiskal siyasətdən başlayaq: onun səmərəliliyinin qiymətləndirilməsi keynsçi və monetarist məktəblər arasında fikir ayrılığının əsas bəndidir. Əvvəlki fəsildən yada salaq ki, dövlət xərclərinin muxtar artırılması və vergilərin azaldılması *IS əyrisinin sağa və yuxarı* yerdəyişməsinə səbəb olur. Belə yerdəyişmənin son nəticəsi hər iki məktəb baxımından şəkil 19.2-də göstərilmişdir.

Ekspansionist fiskal siyasətin səmərəliliyinin şəkil 19.3-də verilmiş müqayisəli təhlilindən irəli gələn *birinci nəticə* aydındır: keynsçi baxışa görə həmin siyasət milli gəlirin artmasına güclü təsir edir, amma monetaristlər bu siyasəti iş fəallığının stimullaşdırılması üçün zəif alət hesab edirlər

(şəkil 19.3, b-də Y_0 və Y_1 arasında məsafə şəkil 19.3, a-da olduğundan xeyli azdır). Səbəbi aydındır: monetarist konsepsiyaya görə, artan faiz dərəcəsi ekspansionist fiskal siyasətin müsbət effektinin çox hissəsini "yeyir" və xüsusi investisiyaları azaldır.



Şəkil 19.3. Ekspansionist fiskal siyasətin səmərəliliyi:
a) keynsçi mövqe; b) klassik mövqe


Artan dövlət xərclərinin sanki xüsusi sektordan maliyyə və maddi resursları alıb xüsusi investisiyaları sıxışdırdığı bu hadisə sıxışdırma effekti adını almışdır.

Şəkil 19.3-dən irəli gələn *ikinci nəticə* məhz sıxışdırmanın miqyası ilə bağlıdır. Dövlət xərclərinin artması nəticəsində faiz dərəcəsi (r) nə qədər çox artsa, investisiyaların azalması bir o qədər çox olar və deməli, sıxışdırma effekti də bir o qədər güclü olar. Şəkil 19.3, a və şəkil 19.3, b-ni müqayisə etdikdə görürük ki, keynsçilərdən fərqli olaraq monetaristlər ekspansionist fiskal siyasət nəticəsində sıxışdırma effektinin böyük olmasını göstərirlər (şəkil 19.3, b-də r_0 və r_1 arasında məsafə şəkil 19.3, a-da olduğundan xeyli böyükdür). Səbəbi LM əyrisinin qeyri-elastikliyidir.

Ekstremal hallarda milli gəlirin artırılması effekti və sıxışdırma effekti şəkil 19.4-də verildiyi kimidir.

Keynsçi mövqeyə görə (qrafik 19.4, a), milli gəlirin stimullaşdırılması effekti maksimaldır (dövlət xərclərinin ar-

tması multiplikativ olaraq milli gəliri artırır), amma sıxışdırma effekti sıfra bərabərdir (faiz dərəcəsi dəyişmir). Klassik yanaşmaya görə (qrafik 19.4, b), dövlət xərclərinin artması ümumiyyətlə milli gəlirin artmasına rəvac vermir



Şəkil 19.4. Ekspansionist fiskal siyasətin səmərəliliyinə ekstremal keynsçi və klassik baxışlar:
a) keynsçi mövqe; b) monetarist mövqe

(Y dəyişmir), amma *tam sıxışdırma effekti* özünə yer alır (*faiz dərəcəsinin artımı elədir ki, yeni xüsusi investisiyalar dövlət xərcləri ilə tamamilə sıxışdırılıb çıxarılırlar*).

Ekspansionist fiskal siyasətin stimullaşdırıcı effektini ***nəticədə milli gəlirin dövlət xərclərinin ilkin artımından neçə dəfə çox olduğunu göstərən fiskal siyasət multiplikatoru*** vasitəsilə ifadə etmək olar.

Əvvəlki fəsildəki tənlikdən istifadə edərək fiskal siyasətin multiplikatorunu aşağıdakı kimi göstərmək olar:

$$k_f = k_g / (1 + nk_g b / h).$$

Burada k_f – fiskal siyasətin multiplikatoru;


k_g – dövlət xərclərinin multiplikatoru (vergi gəlirləri nəzərə alınmaqla);

n – pula real tələbin milli gəlirin dəyişməsinə reaksiya dərəcəsini göstərən əmsal;

h - pula real tələbin faiz dərəcəsinin dəyişməsinə reaksiya dərəcəsini göstərən əmsaldır.

Yuxarıda verilmiş tənlik göstərir ki, n və b nə qədər kiçik olsa və h nə qədər böyük olsa, fiskal siyasətin multiplikatoru bir o qədər böyük və bu siyasət bir o qədər səmərəli olar. Klassik baxışlara görə, pula tələbin milli gəlirə və investisiyaların faiz dərəcəsinə həssaslığının böyük, pula tələbin faiz dərəcəsinə həssaslığının isə az olmasını yada salsaq, onda klassik cərəyan iqtisadçılarının ekspansionist fiskal siyasətin səmərəliliyini aşağı qiymətləndirməsinin səbəbi aydın olar.

Ləngidici fiskal siyasətə gəldikdə isə, onun səmərəliliyinin hər iki məktəb tərəfindən qiymətləndirilməsi **IS əyrisinin sola aşağı** yerdəyişməsinin nəticəsi kimi təqdim oluna bilər (şəkil 19.5).



Şəkil 19.5. Ləngidici fiskal siyasətin səmərəliliyi: keynsçi və klassik yanışmalar:
a) keynsçi mövqe; b) monetarist mövqe

Keynsçi baxışlara görə (qrafik 19.5, a), məcmu tələbin azaldılması yolu ilə inflyasiya təzyiqinin nisbətən azaldılması (r_0-dan r_1-ə qədər) yalnız milli gəlirin xeyli aşağı düşməsi (Y_0-dan Y_1-ə qədər) hesabına əldə oluna bilər. İnflyasiya ilə mübarizə belə qurbanlara dəyərmi – bu sual iqtisadiyyatda konkret situasiya qarşısında dura bilir. Məcmu tələbin azalmasının son nəticədə məcmu təklifin azalması ilə nəticələnəcəyini, yəni inflyasiyanın əsas səbəblərinin aradan qalxmayacağını güman edən keynsçi iqtisadçılar fiskal siya-


səti yalnız qısamüddətli, «yanğınsöndürmə» tədbiri hesab edirlər.

Klassik baxışlara görə (qrafik 19.5, b), ləngidici fiskal siyasət qısamüddətli dövrdə səmərəli ola bilər (Y-nin nisbətən kiçik azalması müqabilində r-in xeyli aşağı düşməsi), lakin uzunmüddətli dövrdə o, qeyri-elastik olduğundan, müvəqqəti boşluqların mövcudluğundan və siyasətçilər və ictimaiyyət tərəfindən güclü təzyiq səbəbindən məqbul deyil. Məhz buna görədir ki, müasir klassiklər-monetaristlər cari iqtisadi məqsədlərin həyata keçirilməsində əsasən pul-kredit vasitələrinin istifadə edilməsi tərəfindən çıxış edirlər.

§3. Pul-kredit siyasətinin səmərəliliyi: keynsçi və klassik yanaşmalar

Bildiyimiz kimi, pul təklifinin artması ilə bağlı olan ***ekspansionist pul-kredit siyasəti*** milli gəlirin dəyişməsindən asılı olmayaraq *LM əyrisinin sağa aşağı* yerdəyişməsinə səbəb olur. Belə yerdəyişmənin son nəticəsi şəkil 19.6-da göstərilmişdir.

Keynsçi modelə görə, ekspansionist pul-kredit siyasəti investisiyaların və yığımın faiz dərəcəsinin dəyişməsinə az həssas olması səbəbindən iqtisadi artımı az stimullaşdırır



Şəkil 19.6. Ekspansionist pul-kredit siyasətin səmərəliliyi:
a) keynsçi mövqe; b) monetarist mövqe

(qrafik 19.6, a-da Y_0-dan Y_1-ə qədər). Faizin özü çox düşür. Amma faiz dərəcəsinin özü xeyli düşür (qrafik 19.6, a-da r_0-dan r_1-ə qədər). Nəticədə iqtisadiyyat ***likvidlik tələsinə düşə bilər: hökumətin pul kütləsini artırmaqla iqtisadi artıma nail olmaq cəhdləri son nəticədə faiz dərəcəsinin get-gedə daha çox, bütün «artıq» pulların möhtəkirlik pul balanslarında yığılacağı səviyyəyə qədər düşməsinə səbəb olacaq.***

Keynsçi IS əyrisinin ekstremal vəziyyəti (o, şaquli olanda) bilavasitə xalis likvidlik tələsini göstərir: iqtisadiyyatda heç bir artım baş vermir, amma pul bazarı dağılır (faiz dərəcəsi aşağı olanda qiymətli kağızlarla əməliyyatlar qeyri-mümkün olur). Bununla əlaqədar olaraq keynsçilər ekspansionist siyasəti qeyri-səmərəli hesab edirlər və onu yalnız qısamüddətli tədbir kimi və cəmi bir dəfə, iqtisadiyyatda faiz dərəcəsi aşkar yüksək olanda və pul kütləsi çatışmazlığı defisiti hiss olunduqda tətbiq etməyi təklif edirlər.

Ekspansionist pul-kredit siyasətinin stimullaşdırıcı effektini ***milli gəlirin nəticəli real artımının real pul təklifinin ilkin artımını neçə dəfə üstələməsini göstərən pul siyasəti multiplikatoru*** vasitəsilə ifadə etmək olar.

Əvvəlki fəsildəki tənlikdən istifadə edərək pul siyasəti multiplikatorunu aşağıdakı kimi göstərmək olar:

$$K_m = bha.$$

Burada $a = k_g / (1+nk_g b / h)$;

K_m = pul siyasəti multiplikatorudur.

Bu tənliyə görə, pula tələbin faiz dərəcəsinin dəyişməsinə (h) və milli gəlirin dəyişməsinə (n) həssaslığı nə qədər az və eyni zamanda investisiyaların faiz dərəcəsinin dəyişməsinə həssaslığı nə qədər çox və dövlət xərcləri multiplikatoru (k_g) nə qədər böyük olarsa, pul-kredit siyasətinin stimullaşdırıcı effeti bir o qədər böyük olar. Keynsçilərin bu göstəricilərə münasibətini yada salsaq, onların ucuz pul siyasətinin səmərəliliyinə şübhə ilə yanaşmasının səbəbi aydın olar.

Qrafik 19.6, b-dən və yuxarıdakı tənlikdən çıxış edərək ***monetarist məktəb*** ekspansionist pul-kredit siyasətinə müs-


bət yanaşmalıydı. Həqiqətən də, qrafikə görə belə siyasətin nəticəsi faiz dərəcəsinin az enməsi (r_0-dan r_1-ə qədər) müqabilində milli gəlirin (Y_0-dan Y_1-ə qədər) xeyli artmasıdır.Lakin yada salaq ki, monetarist məktəb pulun *miqdari nəzəriyyəsinə* söykənərək məcmu tələb milli istehsal səviyyəsini dəyişməyib, iqtisadiyyatda yalnız *inflyasiya proseslərini* "stimullaşdırır". Beləliklə, pul təklifinin artması faiz dərəcəsini aşağı salmaqla məcmu xərclərin artmasına səbəb olur və B qrafikində Y_0-dan Y_1-ə yerdəyişmə monetaristlər tərəfindən milli istehsalın deyil, məhz məcmu tələbin artması kimi nəzərdən keçirilir.Vəziyyəti faiz dərəcəsinin pozitiv azalması da xilas etmir, çünki o, sadəcə olaraq nəhəng inflyasiya tələbi tərəfindən udulur. Beləliklə, monetaristlərin gəldikləri nəticə belədir: ekspansionist pul-kredit siyasəti pul kütləsinin və məcmu xərclərin artmasından irəli gələn inflyasiya proseslərinin fəallaşması səbəbindən son dərəcə *qeyri-səmərəlidir.*

Beləliklə, ekspansionist pul-kredit siyasəti keynsçilər tərəfindən ehtiyatla qəbul olunur və monetaristlər tərəfindən rədd edilir. Onların həm biri, həm də digəri onun milli istehsal səviyyəsinə zəif təsirini, yəni iqtisadi artım məqsədini həyata keçirməyə qabil olmamasını qeyd edir. *Ləngidici antiinflyasiya pul-kredit siyasətinə başqa münasibət* müşahidə olunur.

Ləngidici pul-kredit siyasəti pul təklifini azaldaraq *LM əyrisinin sola və yuxarı* yerdəyişməsinə səbəb olur. Belə yerdəyişmənin son nəticəsi şəkil 19.7-də göstərilmişdir.

Qrafik 19.7, a-dan göründüyü kimi, *bahalı pul* siyasətinin nəticəsi məcmu xərclərin cüzi azalması, yəni inflyasiya tələbinin azacıq zəifləməsidir. **Keynsçilərin** fikrincə, bu siyasət yalnız qısamüddətli «inflyasiya tətili» tədbiri kimi məqbuldur, çünki uzunmüddətli dövrdə məcmu tələbin azalması mütləq milli istehsalın düşməsi ilə nəticələnir və pul kütləsi ilə milli istehsalın həcmi arasında fərqi dərinləşdirir, yəni mahiyyət etibarilə inflasiyanın səbəblərini təkrar istehsal edir. Keynsçilərin bu mövqeyi bahalı pul siyasəti aparan ölkələrin təcrübəsində qismən təsdiqləndi: onların hamısı iqtisadi artım tempinin xeyli aşağı düşməsi ilə üzləşdilər.

Monetaristlər, əksinə, ləngidici pul-kredit siyasətini məcmu tələbə təsir üçün ən səmərəli və az qala yeganə məq-



Şəkil 19.7. Ləngidici pul-kredit siyasətinin səmərəliliyi: a) keynsçi mövqe; b) klassik mövqe

bul siyasət hesab edirlər. Qrafik 19.7,b-yə görə, pul kütləsinin azalması məcmu xərcləri xeyli sıxır (Y_0-dan Y_1-ə qədər) və bununla da inflyasiya tələbini ləngidir, bu zaman faiz dərəcəsi az artır (r_0-dan r_1-ə qədər), milli istehsal isə uzunmüddətli dövrdə ümumiyyətlə zərər çəkməyəcək, çünki məcmu təklif əyrisi şaqulidir.

Gördüyümüz kimi, bu və ya digər siyasətin səmərəliliyi barədə iqtisadiyyatçılar arasında vahid fikir yoxdur. Amma nəzəriyyədə çarpışmalar gedən zaman iqtisadçı-praktiklər kompromis tapmağa cəhd edirlər.


§4. Qarışıq siyasət konsepsiyası: kompromis mümkündürmü?

Fiskal və pul-kredit siyasəti arasında kompromisin *mümkünlüyü* əmtəə bazarı və pul bazarı arasında qarşılıqlı təsir və qarşılıqlı əlaqədən irəli gəlir: istənilən fiskal tədbir pul bazarına (yalnız əmtəə bazarına deyil) təsir edir və əksi-

nə, istənilən pul-kredit tənzimləməsi tədbiri əmtəə bazarının parametrlərində əks olunur. Kompromis imkanı onun *zəruriliyi* ilə təsdiqlənir: yadımızdadır ki, nə xalis fiskal siyasət, nə də xalis pul-kredit siyasəti ayrılıqda qarşılarında duran vəzifələrin öhdəsindən gələ bilmirlər.

Hazırda praktik olaraq bütün iqtisadçılar bu fikrə gəliblər ki, hökumətin fiskal və pul tədbirlərindən *ən böyük effekt* həmin tədbirlər *eyni vaxtda* tətbiq olunanda əldə oluna bilər.

IS-LM modelindən istifadə edərən nəzəri cəhətdən fiskal və pul-kredit siyasətinin eyni zimanda aparılmasının nəticələrini göstərmək olar.




Şəkil 19.8. Ekspansionist fiskal və pul-kredit siyasətinin eyni zamanda aparılmasının nəticələri

Fərz edək ki, hökumətin cari məqsədi iqtisadi artımı və işgüzar fəallığı stimullaşdırmaqdır. Bu halda həm fiskal, həm də pul-kredit siyasətinin ekspansionist tədbirlərini tətbiq etmək lazımdır. Sadə dillə desək, hökumət dövlət xərclərini artırır (vergiləri azaldır) və eyni zamanda pul təklifini artırır. Bu tədbirlərin son nəticəsi şəkil 19.8-də göstərilmişdir.

Qrafikdən göründüyü kimi, dövlət xərclərinin artması (IS əyrisinin IS_1 vəziyyətinə yerdəyişməsi) pul təklifinin müəyyən artımı ilə müşayiət olunursa (LM əyrisinin LM_1 və-

ziyyətinə yerdəyişməsi), bunun nəticəsində milli gəlir xeyli artacaq (Y_0-dan Y_1-ə qədər) və bu zaman faiz dərəcəsi dəyişilməz qalacaq (r_0). Nəzəri cəhətdən məqsədə (iqtisadi artıma) nail olundu. Amma məsələ bir qədər də sadə deyil. Məsələ burasındadır ki, dövlət xərclərinin artması qiymətlərin səviyyəsini qaldırmaqla bununla *real* pul təklifini azaldır və avtomatik olaraq LM əyrisinin sola yuxarı (LM_2 vəziyyəti) yerdəyişməsinə səbəb olur. Nəticədə faiz dərəcəsi r_2 səviyyəsinə qalxır, milli gəlirin səviyyəsi isə dəyişilmir (Y_0), yəni burada *tam sıxışdırma effekti* özünü göstərir. Vəziyyəti düzəltmək üçün artıq real pul təklifini LM-dən LM_1-ə qədər deyil, LM_2-dən LM_1-ə qədər artırmaq lazım gəlir ki, bu da yeni inflyasiya proseslərinə səbəb ola bilər. Sıxışdırma effekti ilə daha bir mübarizə metodu investisiya subsidiyalarıdır (birbaşa və ya «vergi krediti» vasitəsilə, yəni investisiyalara vergiləri azaltmaq, yaxud onların ödəniş müddətinin geri çəkilməsidir). Lakin investisiya subsidiyaları IS əyrisini sağa və yuxarı hərəkət etdirərək yenə də, müsbət iqtisadi artıma baxmayaraq, faiz dərəcəsini artırırlar.

İndi isə qiymətlərin və faiz dərəcələrinin stabilləşdirilməsi məqsədilə ***ləngidici fiskal və pul-kredit siyasətinin eyni zamanda aparılmasının*** nəticələrinə nəzər salaq (şəkil



Şəkil 19.9. Ləngidici fiskal və pul-kredit siyasətinin eyni zamanda aparılmasının nəticələri

19.9).

Əgər dövlət xərclərinin azaldılması və (və ya) vergilərin artırılması (IS əyrisinin IS_1 vəziyyətinə yerdəyişməsi) pul təklifinin azalması ilə müşayiət olunursa, bunun nəticəsi faiz dərəcəsinin (və qiymətlərin) sabitləşməsi olacaq. Elə gəlir ki, ləngidici siyasətin məqsədinə çatılıb, amma nəyin bahasına? Bunun başqa bir nəticəsi milli gəlirin Y_0-dan Y_1-ə qədər düşməsidir.

Beləliklə, IS-LM modeli eyni zamanda iki məqsədə: həm iqtisadi artım, həm də qiymətlərin sabitləşməsi - çatmağın *mümkünsüzlüyünü* göstərir, baxmayaraq ki, *məqsəd bir olduqda* fiskal və pul-kredit siyasətlərinin birgə tətbiqi *maksimum effekt verir.*

Bu nəzəri nəticənin dövlətin iqtisadi qərarlar qəbul etməsində tam praktik tətbiqi var. *Birincisi*, iqtisadi siyasətin səmərəsini maksimallaşdırmaq üçün *prioritet məqsəd* dəqiq müəyyənləşdirilməlidir, əlbəttə, bu zaman digər məqsədlər də yaddan çıxarılmır. *İkincisi*, ən səmərəli fiskal və maliyyə tədbirlərini *birləşdirən* siyasətdir.

Bundan başqa, fiskal və pul-kredit siyasəti arasında seçim hökumətin bu və ya dəgər siyasəti yeritməyə nə qədər qabil olmasından, əhalinin dövlətə etibarının səviyyəsindən və nəhayət, iqtisadiyyatın sabitlik dərəcəsinin nə vəziyyətdə olmasından asılıdır.


Sonda IS-LM modelini Rusiya iqtisadiyyatının təhlilində və Rusiya hökumətinin fiskal və pul-kredit siyasətinin səmərəliliyinin qiymətləndirilməsində necə istifadə etmək olar məsələsini nəzərdən keçirək.

Əvvəlcə IS və LM əyrilərinin Rusiya iqtisadiyyatında *elastiklik dərəcəsi* məsələsinə aydınlıq gətirək. Məlum olduğu kimi, bizim iqtisadiyyatımızda yığımın səviyyəsi faiz dərəcəsinin dəyişməsinə həssas deyil – bu baxımdan IS əyrisi qeyri-elastik olmalıdır. Lakin yığıma son həddi meyilliyi də Rusiya iqtisadiyyatında yüksək deyil, yəni multiplikatorun kəmiyyəti xeyli böyükdür. Bundan başqa, Rusiyada daxili investisiyalar maliyyə vəsaitlərinin xroniki, ələlxüsus xırda

və orta biznes üçün, defisiti şəraitində faiz dərəcəsindən çox asılıdır. Beləliklə, *IS əyrisini kifayət qədər elastik* hesab etmək olar. LM əyrisinə gəldikdə isə, faiz dərəcəsinin dəyişməsinə pula tələbin reaksiyasının zəif və pula möhtəkirlik tələbin nisbətən aşağı olması nəticəsində *LM əyrisini qeyri-elastik* hesab etmək olar.

IS-LM modeli vasitəsilə Rusiyadakı yenidənqurmadan sonrakı islahatların nəticələrini göstərməyə çalışaq. Məlum olduğu kimi, ötən əsrin 90-cı illərinin əvvəllərinin «şok terapiyası» və hiperinflyasiyasından sonra bizim ölkənin iqtisadi siyasətində əsas və müəyyənləşdirici yeri ləngidici pul-kredit siyasətinin monetarist variantı tutdu. Amma iqtisadiyyatda məcmu xərclərin səviyyəsi azalırdı: dövlətin qoyduğu xərclər (daxili və xarici borclara xidmətin göstərilməsi də daxil olmaqla) və xalis ixrac artsa da, istehlak xərcləri və xüsusi sektorun investisiyaları sürətlə azalırdı. IS-LM modeli terminləri ilə desək, bu, eyni zamanda LM əyrisinin sola yuxarı və IS əyrisinin sola aşağı yerdəyişməsi demək idi (şəkil 19.10).

Şəkil 19.10-dan göründüyü kimi,bahalı pul siyasətinə səbəb bizim hökumətə inflyasiyanı və faiz dərəcəsini sabitləşdirmək müyəssər olmuşdu, baxmayaraq ki, faiz dərəcəsi investisiyaların səmərəli stimulyatoru olmaq üçün həddin-



Şəkil 19.10. Rusiya hökumətinin IS-LM modelində ləngidici pul-kredit siyasətinin nəticələri

dən artıq yüksəkdir (rs_1). Eyni zamanda məcmu tələbin azalması (həm də sərt pul-kredit siyasəti) milli gəlirin xeyli azalması (Y_0-dan Y_1-ə qədər) ilə nəticələndi ki, sonuncu SSRİ dağılanda onsuz da zərər çəkmişdi. Hazırda aydındır ki, pul kütləsinin sıxlaşdırılmasının davam etdirilməsi islahatları çıxılmaz vəziyyətə gətirib çıxarar, çünki məcmu tələbin azalması pul təklifinin növbəti "qurbanını" tələb edərək daima inflyasiyanı təkrar istehsal edir.

Pul-kredit tənzimləyicilərinin daha tez nəticə verməsinə və fiskal tədbirlərdən daha rahat olmasına (siyasi təzyiqin olmaması) baxmayaraq, hazırda səmərəli fiskal siyasətin işlənib-hazırlanmasına get-gedə daha çox diqqət yetirilir. Vergi ağırlığının azaldılması, dövlət vəsaitlərindən istifadə üzərində nəzarətin gücləndirilməsi, əmək haqlarına və sosial ödənişlərə görə borcların ləğv edilməsi cəhdləri göstərir ki, hökumət məcmu tələbi stimullaşdırmağa cəhd edir və ya IS-LM modeli terminləri ilə desək, IS əyrisinin yerini yuxarı sağa dəyişdirməyə cəhd edir. Lakin artıq gördüyümüz kimi, ekspansionist fiskal siyasət eyni yönümlü pul-kredit siyasəti ilə birləşdikdə daha səmərəli olur. Beləliklə, pul kütləsinin müəyyən qədər genişlənməsi (LM əyrisinin sağa aşağı yerdəyişməsi) faiz dərəcəsini azaltmağa imkan verər və bununla da investisiyaları və istehlakı stimullaşdırar. Bundan başqa, dövriyyəyə pulların ölçülü qaydada hissə-hissə buraxılması iqtisadiyyatda ödəmələr problemini zəiflətməyə və barter sövdələrinin azaldılmasına imkan yaradar. Qeyd edək ki, əgər dövlət vəsaitləri məcmu tələbin real stimullaşdırılmasına yönəldilərsə, Rusiya iqtisadiyyatı klassik anlamdakı likvidlik tələsi, bir də sıxışdırma effekti ilə üzləşməyəcək.

Beləliklə, əmtəə və pul bazarlarının qarşılıqlı əlaqəsinin dövlətin iqtisadi siyasətinə təsirinin təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. IS-LM modelinə *keynsçi yanaşmada* IS əyrisi nisbətən qeyri-elastik, LM əyrisi isə elastikdir. *Monetarist yanaşmasında*, əksinə, IS əyrisi nisbətən elastik, LM əyrisi isə qeyri-elastikdir.

2. Keynsçi məktəb, IS-LM modelinə əsaslanaraq, *ekspansionist fiskal siyasəti* nisbətən səmərəli hesab edir, amma *monetaristlər* güclü sıxışdırma effektinin olmasını nəzərə alaraq bu siyasətin qeyri-səmərəli olmasını sübut edirlər. *Ləngidici fiskal siyasət keynsçilər* tərəfindən milli gəlirin azalması səbəbindən, arzuolunmaz hesab edilir, monetaristlər isə onu qısamüddətli antiinflyasiya tədbiri kimi nəzərdən keçirilir.

3. *Ekspansionist pul siyasəti*: *keynsçi* baxımından iqtisadiyyatın artımını az stimullaşdırır və iqtisadiyyatı likvidlik tələsinə sala bilər; *monetarist* baxımından isə məcmu xərcləri şişirdir və az iqtisadi artıma səbəb olmaqla güclü inflyasiyaya aparır. Ləngidici pul siyasəti: *keynsçi* baxımından yalnız qısamüddətli antiinflyasiya tədbiri kimi məqbuldur; *monetarist* baxımından isə qiymətlərin səviyyəsinin sabitləşdirilməsi üçün ən səmərəli siyasətdir.

4. Fiskal və pul-kredit tədbirlərindən *ən böyük effekt* yalnız bu tədbirlər *eyni zamanda* və iqtisadi siyasətin *prioritet* məqsədlərinin (hamısının deyil) həyata keçirilməsində tədbiq olunduqda əldə oluna bilər.

Əmtəə və pul bazarlarının IS-LM modelində təqdim olunmuş mürəkkəb qarşılıqlı əlaqəsi həm pul-kredit siyasətinin, həm də fiskal (büdcə-vergi) siyasətinin aparılmasında iqtisadiyyatın cari vəziyyətinin və mümkün nəticələrin (hər iki bazar tərəfdən) diqqətli təhlilini tələb edir. Növbəti fəsildə büdcə-vergi siyasətinin iqtisadi proseslərə necə mürəkkəb və bəzən ziddiyyətli təsir göstərdiyini görəcəksiniz.

Əsas anlayışlar və terminlər

IS-LM modelinin keynsçi şərhi; IS-LM modelində likvidlik tələsi; IS-LM modelinin monetarist şərhi; IS-LM modelində sıxışdırma effekti; IS-LM modelində fiskal siyasətin multiplikatoru; IS-LM modelində pul siyasətinin multiplikatoru.

XX FƏSİL. BÜDCƏ-VERGİ SİYASƏTİNİN İQTİSADİ PROSESLƏRƏ TƏSİRİ

§1. Büdcə-vergi siyasəti, onun məqsəd və vəzifələri.

§2. Diskret və avtomatik büdcə-vergi siyasətinin aparılma mexanizmi.

§3. Büdcənin balanslaşdırılması metodları və iqtisadiyyatın inkişafında büdcə defisitinin rolu.

§4. Dövlət borcunun əsas modelləri və onun iqtisadiyyata təsiri.

§5. Büdcə-vergi siyasətinin səmərəliliyinin qiymətləndirilmələri.

§1. Büdcə-vergi siyasəti, onun məqsəd və vəzifələri

Büdcə-vergi siyasəti vergilərin və dövlət xərclərinin dəyişdirilməsi yolu ilə iqtisdiyyatın dövlət tənzimləməsi siyasətidir. Belə siyasəti bəzən fiskal siyasət adlandırırlar.

Büdcə-vergi siyasətinin qarşısında duran ümumi məsələ büdcə gəlirləri və xərclərinin təkrar bölgüsü vasitəsilə makroiqtisadi sabitliyin təmin edilməsidir. Lakin iqtisadi vəziyyətdən asılı olaraq büdcə-vergi siyasətinin məqsədi dəyişə bilər.

Bu, birincisi, ***sabitləşdirmə siyasəti*** ola bilər. Bu halda dövlət tənzimləməsinin məqsədi ÜMM-in real həcminin potensial ÜMM-ə maksimum yaxınlaşdırılması, yüksək məşğulluq səviyyəsinə çatılması və qiymətlərin artım tempinin aşağı səviyyədə saxlanılması olur.

İkincisi, ***iqtisadi artım*** siyasəti. Bu büdcə-vergi siyasətinin məqsədi ÜDM-in artım tempini saxlamaqdır.

Həm iqtisadi artım siyasəti, həm sabitləşdirmə siyasəti ümumilikdə ***stimullaşdırıcı*** büdcə-vergi siyasəti səciyyəlidir.

Üçüncüsü, ***iş fəallığının məhdudlaşdırılması siyasəti*** (ləngidici) ÜDM-in artım tempinin azaldılmasına yönəldilib. O, bir qayda olaraq, iqtisadi yüksəliş mərhələsində, iqtisa-

diyyatın inkişafı potensial səviyyəyə çatdıqda həyata keçirilir.

Dövlətin büdcə-vergi siyasətinin qarşısında duran məsələləri bytövlükdə belə müəyyənləşdirmək olar:

- iqtisadi tsiklin artıb-azalmalarının rəvanlaşdırılması;
- iqtisadi inkişaf templərinin sabitləşdirilməsi;
- yüksək məşğulluq səviyyəsinin və inflyasiyanın aşağı tempinin əldə olunması.

Büdcə-vergi siyasətinin aparılması üçün dövlət özünün əsas resursundan – dövlət büdcəsindən istifadə edir.

Məlumdur ki, dövlət büdcəsi gəlir və xərclərdən ibarətdir. Gəlir hissəsi vergi və qeyri-vergi mədaxillərdən ibarətdir. Xərc hissəsi transfertlərdən və dövlətin əmtəə və xidmətlər alışlarından formalaşır. Dövlət məcmu tələbin həcminə təsir etmək üçün dövlət büdcəsi alətlərindən – dövlətin əmtəə və xidmətlər alışı, vergilər və transfertlərdən istifadə edir. Bu alətləri iqtisadi ədəbiyyatda bəzən *tənzimləyicilər* adlandırırlar.

Beləliklə, dövlət büdcə-vergi siyasətinin aparılmasında aşağıdakı alətlərdən istifadə edir:

- *Dövlətin əmtəə və xidmətlər alışları.* Bunların altında hökumətin nemətlər bazarında əmtəə və xidmətlərə tələbi başa düşülür.
- *Vergilər* – ev təsərrüfatları və firmaların dövlətin xeyrinə mütləq, təməmnasız, qayıtmaz ödənişləridir. Bəzər büdcə-vergi siyasətinin təhlili zamanı sadəlik üçün hesab olunur ki, vergiləri yalnız ev təsərrüfatları ödəyir.
- *Transfert ödənişləri.* Bu məfhum altında dövlətin sosial səciyyəli ödənişləri və ya dövlət müəssisələrinə və xüsusi müəssisələrə dəstək sistemidir. Transfertlərə birinci halda pensiyalar, müavinətlər, təqaüdlər, ikinci halda firmalara dövlət dotasiyaları, subsidiyaları aid olacaqlar.

İqtisadiyyatda istifadə olunan dövlət alətlərinin səciyyəvi xüsusiyyəti var: hansı alətdən istifadə etməyimizdən asılı olmayaraq onun ümumi gəlirin tarazlı səviyyəsinə təsiri

multiplikativ səciyyəli olacaq. Bütün digər şərtlərin bərabərliyi şəraitində alətlərdən birinin kəmiyyətinin dəyişməsi (ya dövlət alışları, ya transfertlər, ya da vergilərin) tarazlı gəlir səviyyəsinin kəmiyyətinin daha böyük dəyişməsinə səbəb olacaq.

Dövlətin büdcədən iqtisadiyyatda vəziyyəti sabitləşdirmək üçün istifadə etmə intensivliyindən asılı olaraq iki növ büdcə-vergi siyasəti fərqləndirilir:

1. Diskret və ya fəal siyasət. Bu halda dövlət məqsədyönlü şəkildə büdcə gəlirləri və xərcləri ilə manipulyasiyalar edərək makrogöstəricilərin qiymətlərini tənzimləmək üçün bilərəkdən onların kəmiyyətini dəyişir.

2. Qaydalanmış sabitləşdiricilər siyasəti, passiv büdcə-vergi siyasəti. Dövlətin həmişə vergiləri formalaşdırmalı və iqtisadi və ya sosial problemlərin həllində istifadə edəcəyi xərcləri həyata keçirməli olduğu üçün bu tənzimləyicilərin kəmiyyətlərinin dəyişməsi avtomatik olaraq iqtisadi proseslərə təsir edəcək.

Büdcə-vergi siyasəti alətlərinin təsiri aşağıdakı hallarda təhlil olunurlar:

- qiymətlər səviyyəsi sabitdir;
- xalis ixracın səviyyəsi nəzərə alınmır;
- dövlət investisiyaları həcminin dəyişməsi xüsusi investisiyaların həcmini dəyişmir.

«Məcmu tələb və məcmu təklif» modelində büdcə-vergi siyasəti məcmu tələb və məcmu təklifin dinamikasına təsir edir. Təsir obyekti alət seçimindən asılı olaraq formalaşır. Məcmu təklifə firmaların ödədikləri vergilərin və transfertlərin kəmiyyətinin dəyişməsi təsir edir. Məsələn, vergilərin artması məcmu təklifin həcminin azalmasına aparır, vergilərin azalması onun artmasını stimullaşdırır. Firmalara dotasiya və subsidiyaların artırılması iqtisadiyyatda məcmu təklifi də artırır. Dövlət xərclərinin artırılması qısamüddətli dövrdə məcmu tələbin müsbət dinamikasına təsir edir.

§2. Diskret və avtomatik büdcə-vergi siyasətinin aparılma mexanizmi

Dövlət xərcləri həcminin dəyişməsinin ÜMM-in həcminə təsiri

Təhlilin aparılması məqsədilə vergilərin sabit olması şərti qəbul olunur. ÜDM-in həcminə təsir göstərmək üçün dövlət yalnız dövlət əmtəə və xidmətlər alışlarından istifadə edir.

Yuxarıda biz iqtisadiyyatın yalnız xüsusi firmaların və ev təsərrüfatlarının fəaliyyət göstərdiyi sadə modelini nəzərdən keçirmişdik[1]. Məcmu tələb iki tərkib hissədən: istehlak xərcləri və investisiyalardan ibarət idi.

$$AD = C + I.$$


İndi məcmu tələbin strukturunda yeni parametr - ***dövlət xərcləri*** meydana gəlir. Bu xərclər muxtar səciyyəlidir – onların kəmiyyətləri milli istehsalın kəmiyyətindən asılı deyil. Məcmu tələb aşağıdakı şəkil alır:

$$AD = C + I + G.$$

Əgər əvvəl ÜMM-in həcmini istehlak xərcləri və ümumi xüsusi investisiyaların cəmi kimi nəzərdən keçirmək mümkün idisə, daha bir parametrin əlavə olunması avtomatik olaraq məcmu tələb əyrisinin yerdəyişməsinə səbəb olur, ÜMM-in tarazlı həcmini Y_1-dən Y_2-ə qədər artırır (şəkil 20.1).

Lakin dövlət xərclərinin ÜDM-in həcminə təsirinin bir xüsusiyyəti var. Bu asılılıq düzxətli deyil. Məsələn, dövlət xərclərinin 100 vahid artmasının avtomatik olaraq tarazlı ÜDM-i 100 vahid artıracağını söyləmək olmaz. Dövlət xərclərinin artması ÜDM-i daha çox dəfə artıracaq. Bu kimi asılılıq multiplikator effektini təkrar istehsal edir. Deyək ki, dövlət əmtəə və xidmətlər alınmasına xərcləri 100 pul vahidi artırmışdır. Əmtəə istehsalçıları əlavə gəlir (ΔY_1) əldə edir

1 Diskret büdcə-vergi siyasətinin qrafiki şərhi "keynsçi xaç" əsasında aparılır.



Şəkil 20.1.Dövlət xərclərinin dinamikasının ümumi gəlirin kəmiyyətinə təsiri

və onu istehlaka və yığıma istifadə edirlər. 4-cü fəsildən məlum olduğu kimi, əldə olunmuş əlavə gəlirin (gəlir artımının) bölünmə nisbəti istehlaka son həddi meyilliyindən və ya yığıma son həddi meyilliyindən asılıdır. Tarixi ənənələrdən və ya formalaşmış psixologiyadan asılı olaraq istehlaka son həddi meyilliyi və ya yığıma son həddi meyilliyi sabit olduqlarından, fərz edək ki, istehlaka son həddi meyilliyi (MPC) 0,75-ə, yığıma son həddi meyilliyi (MPS) isə müvafiq olaraq 0,25-ə bərabərdir. Deməli, bizim subyekt əldə olunmuş 100 pul vahidi əlavə gəlirdən 75 pul vahidini əlavə istehlaka xərcləyəcək. İstehlak xərclərinin artması əmtəə və xidimətlərə tələbin əlavə olaraq 75 vahid artmasına səbəb olacaq, əlavə əmtəə və xidmətlərin alınması başqa subyektlər üçün 75 pul vahidi həcmində (ΔY_2) gəlir təmin edəcək və bu da yenidən 56,25 vah. (75·0,75) istehlaka və 18,75 pul vahidi (75·0,25) yığıma bölünəcək. Əldə olunmuş pullar yenə də bazarda satışı artıraraq iqtisadiyyatın digər subyektlərinə əlavə gəlir (ΔY) təmin edəcəklər. Gəlirlərin ümumi artımı ΔY bərabərdir:

$$\Delta Y = \Delta Y_1 + \Delta Y_2 + \dots$$

Hər şey dövlət xərclərinin artmasından başlandığından və birinci subyektin artımı dövlət alışları artımının istehlaka son həddi meyilliyinin hasilinə bərabər olduğundan, gəlirin ümumi artımını belə vermək olar:

$$\Delta Y = \Delta Y + \Delta G \cdot MPC + (\Delta G \cdot MPC) \cdot MPC + \dots$$

və ya $$\Delta Y = \Delta G \cdot 1 / (1 - MPC).$$

Bizim misalda o, 100·1 / 0,25 = 400 pul vahidinə bərabər olacaq. Muxtar dövlət xərclərinin multiplikatoru isə muxtar dövlət xərclərinə bərabər olacaq:

$$K_g = \Delta Y / \Delta G$$

və ya $$K_g = 1 / (1 - MPC).$$

Burada K_g – muxtar dövlət xərclərinin multiplikatoru və ya sadə Keyns multiplikatorudur.

Muxtar dövlət xərclərinin multiplikatoru dövlətin əmtəə və xidmətlər alışının artması (azalması) nəticəsində iqtisadiyyatda tarazlı gəlirin artımının (azalmasının) asılılıq dərəcəsini göstərir.

Beləliklə, dövlət xərcləri artırırsa, bu iqtisadiyyatda ÜDM-in artımının çoxalmasına səbəb olur, dövlət xərcləri azaldırsa, bu, ÜDM-in artım tempinin aşağı düşməsi ilə nəticələnir. Bu qarşılıqlı təsir multiplikasiya səciyyəlidir.

Muxtar dövlət xərclərinin multiplikator effekti iqtisadiyyatın növündən asılı olaraq müxtəlif olur. Qapalı iqtisadiyatda multiplikator effekti açıq iqtisadiyyatdakından daha güclü olacaq.

Dövlət xərclərinin belə multiplikasiyaedici təsiri tənəzzül və ya depressiya vəziyyətində olan iqtisadiyyat üçün səciyyəvi olacaq. İqtisadiyyatın öz potensialına çatdığı şəraitdə dövlət xərclərinin artması iqtisadiyyatda qiymətlərin səviyyəsinin artması ilə nəticələnə bilər.

Vergilərin dəyişməsinin iqtisadi proseslərə təsiri

Vergilərin iqtisadi proseslərə təsirinin öyrənilməsi üçün aşağıdakı verilənlər nəzərə alınır:

- dövlət xərcləri və transfertlərin həcmi daimidir;
- yalnız ev təsərrüfatları vergi ödəyir;
- yalnız verginin həcmi dəyişir.

Deyək ki, dövlət vergi mədaxillərinin həcmini artırmaq istəyir. Vergiləri ev təsərrüfatları ödədiyindən, vergilərin artması onların vergilər ödənildikdən sonra sərəncamda olan gəlirlərini azaldacaq. Fərz edək ki, dövlət vergiləri 100 pul vahidi artırmaq qərarına gəlib. Vergi ödəyicilərinin gəliri 100 pul vahidi azalır, müvafiq olaraq istehlak xərclərinə daha az məbləğ yönəldilə bilər. İstehlaka son həddmeyilliyi 0,75-ə bərabər olduğundan istehlak xərcləri 75 vahid azalacaq.Əmtəə və xidmətlər satanların da gəlirləri azalacaq, müvafiq olaraq onların istehlak xərcləri də azalacaq və b.k. Ümumilikdə bütün gəlir 75·1 / (1-0,75) = 300 pul vahidi həcmində azalacaqdır.

Gəlirin dəyişilmə dinamikası aşağıdakı şəkildə göstərilə bilər:

$$Y = \Delta C \cdot 1 / (1 - MPC),$$

$$K_T = \Delta Y / \Delta T.$$

Burada K_T – vergilərin multiplikatoru;

T - real vergilərdir.

Vergilər multiplikatorunu istehlaka son həddmeyilliyi və yığıma son həddmeyilliyi vasitəsilə müəyyənləşdirmək olar.

$$\Delta C = \Delta Y_d \cdot MPC,\ \Delta Y_d = - \Delta T,$$

$$\Delta C = MPC \cdot (- \Delta T).$$

Burada ΔY_d – sərəncamda olan gəlirin dəyişməsidir.

$$Y\Delta = (MPC \cdot (- \Delta T)) \cdot 1/(1 - MPC) = - MPC/ (1 - MPC) \cdot \Delta T.$$

Burada - MPC/ (1 - MPC) – vergi multiplikatoru və ya

$$K_T = - MPC/ (1 - MPC) = - MPC/ MPS.$$

Birbaşa ümumi gəlirin dəyişməsinə təsir edən dövlət xərclərindən fərqli olaraq vergilər istehlak xərclərinin dəyişməsi vasitəsilə dolıyı təsir göstərirlər. Ümumi gəlir səviyyəsinə bir dövlət tənzimləmə aləti kimi vergilərin təsir səviyyəsi dövlətin əmtəə və xidmətlər alışına nisbətən daha zəifdir.

Dövlətin vergiləri 100 pul vahidi azaltdığını fərz etsək,

onda gəlirin məcmu artımı cəmi 300 pul vahidi təşkil edəcək, halbuki dövlət xərcləri ilə rəvac verilmiş gəlir artımı 400 pul vahidi təşkil etmişdi.

Belə bir sual doğur: əgər dövlət eyni zamanda xərcləri və vergiləri eyni bir kəmiyyətdə artırarsa, tənzimləyicilərdən hansının təsiri daha güclü olar? Son sözü dövlət xərcləri deyir, çünki onlar ÜDM-in artımına birbaşa multiplikasiyaedici təsir göstərirlər. Məsələn, bizim misalda dövlət vergiləri 100 pul vahidi və xərcləri də 100 pul vahidi artırmışdır. Vergilər ümumi gəliri 300 pul vahidi azaldırsa, dövlət xərcləri onu 400 pul vahidi artırır, çünki onların ümumi gəlirə təsiri fərqlidir. Nəticədə gəlirin ümumi artımı tənzimləyicilərin dəyişməsi kimi 100 pul vahidi (400-300) olacaq. Deməli, tənzimlənmiş büdcənin multiplikatoru bərabərdir 1-ə. Ümumi gəlirin səviyyəsi dövlət xərcləri və ya vergilərin dəyişdiyi məbləğ qədər artacaq.

Transfert ödənişlərinin ÜDM-in dinamikasına təsiri

Dövlətin həyata keçirdiyi transfert ödənişləri də ümumi gəlirin dinamikasına təsir edirlər. Təsir mexanizmi sosial transfertlər vasitəsilə daha bariz görünür. Pensiyalar, təqaüdlər, əhaliyə müavinətlər şəxsi gəlir səviyyəsini dəyişir və istehlak xərclərinin artmasına aparırlar ki, onlar da istehlaka son həddmeyilliyindən asılıdırlar. Bizim misalda o, 0,75 səviyyəsində qalmışdı. Deməli, transfertlərin 100 pul vahidi artırılması sərəncamda olan gəlirin 100 pul vahidi artmasına səbəb olacaq, istehlak xərclərinin artması isə 75 pul vahidi təşkil edəcək (100·75). Gəlirin ümumi artımı 300 (75·4) pul vahidi təşkil edəcək, çünki multiplikator 4-ə (1/0,25) bərabərdir. Transfertlərin dəyişməsinin təsiri vergilərin dəyişməsinin təsiri kimidir. Onlar da ümumi gəlir səviyyəsinə istehlak xərcləri kəmiyyətinin dəyişdirilməsi vasitəsilə ***dolayısıyla*** təsir edirlər.

Sərəncamda olan gəlir səviyyəsi transfert kəmiyyəti ilə əvəzlənir. Bu asılılığı aşağıdakı kimi göstərmək olar:

$$\Delta Tr = \Delta Y_d.$$

Sərəncamda olan gəlirin dəyişməsi istehlak xərclərinin dəyişməsinə aparır:

$$\Delta C = \Delta Y \cdot MPC = MPC \cdot \Delta Tr.$$

Onların dəyişməsi multiplikativ olaraq ümumi gəliri dəyişir:

$$\Delta Y = MPC \cdot \Delta Tr \cdot 1 / (1 - MPC) = - MPC/ (1 - MPC) \cdot \Delta Tr.$$

Transfertlərin multiplikatorunun kəmiyyəti bərabərdir:

$$K_{Tr} = MPC/ (1 - MPC).$$

Burada K_{Tr} – transfert ödənişləri multiplikatorudur.

Beləliklə, transfertlərin dəyişmələrinin ümumi gəlirin dinamikasına təsir dərəcəsi transfert ödənişlərinin multiplikatorundan asılı olacaq.

Bu əmsal transfertlər bir vahid artdıqda məcmu gəlirin nə qədər artacağını göstərir və əksinə.

$$K_{Tr} = \Delta Y / \Delta Tr.$$

Transfertlərin təsirinin dolayısıyla olması multiplikatorun kəmiyyətində əks olunur ki, o da həmişə dövlət xərcləri multiplikatorundan kiçikdir.

Büdcə-vergi siyasəti tənzimləyicilərinin təsirinin xarakteri və dərəcəsi cədvəl 20.1-də verilmişdir.

Tənzimləyicilərin həcminin dəyişməsinin təsir dərəcəsi və təsirinin necəliyi dövlətə tənəzzül və ya yüksəliş dövründə onlarla manevr etməyə imkan verir. Böhran dövründə dövlət xərcləri və transfertləri artırmalı, vergiləri isə azaltmalıdır, yüksəliş dövründə isə vergiləri artırıb, xərcləri ixtisar etməli, bir də transfertləri azaltmalıdır. Birinci halda söhbət stimullaşdırıcı, ikinci halda ləngidici büdcə-vergi siyasətindən gedir.

Avtomatik büdcə-vergi siyasəti

Dövlət iqtisadiyyatda möhkəm mövqe tutub. Buna görə də sərəncamında dövlət büdcəsi olduğundan iqtisadi proseslərə avtomatik olaraq təsir göstərir. Vergilər, transfertlər

Cədvəl 20.1

Büdcə-vergi siyasəti alətlərinin ÜDM-in dinamikasına təsir xarakteri

Göstərici	Dövlət alışlarının dəyişməsi	Vergilərin dəyişməsi	Transfertlərin dəyişməsi
Məcmu tələb	Məcmu tələb səviyyəsi düz asılılıqda dəyişir	Məcmu tələb kəmiyyəti tərs asılılıqda dəyişir	Məcmu tələb səviyyəsi düz asılılıqda dəyişir
Məcmu təklif		Məcmu təklifin kəmiyyəti vergilərin dəyişməsindən tərs asılılıqda dəyişir	Məcmu təklifin kəmiyyəti firmalara yönəldilən transfertlərin kəmiyyətindən düz asılılıqda dəyişir
Məcmu tələbə təsir səviyyəsi	Dövlət xərcləri multiplikatorunun effekti $K_g = 1/(1-MPC)$	Vergi multiplikatoru effekti $K_T = -MPC/(1-MPC)$	Transfertlərin multiplikator effekti $K_{Tr} = MPC/(1-MPC)$
Ümumi gəlirin səviyyəsinə göstərilən təsir	Birbaşa	Dolayısıyla	Dolayısıyla

özütənzimlənən stabilləşdiricilərə çevrilirlər.

Özütənzimlənən stabilləşdiricilər elə mexanizmdirlər ki, onlar xüsusi xarici təsirə məruz qalmadan tədqiq olunan prosesə təsir göstərirlər.

İqtisadi nəzəriyyə büdcə-vergi siyasətinin aparılmasında iki özütənzimlənən stabilləşdiricini – vergiləri və transfertləri - nəzərdən keçirir.

Xatırladaq ki, diskret büdcə-vergi siyasəti dövlət xərcləri və vergilərinin şüurlu surətdə dəyişdirilməsini nəzərdə tutur, avtomatik stabilləşdirici hökumət xüsusi addımlar atmadan ÜDM-ə hamarlayıcı təsir göstərirlər. Məsələn, dirçəliş dövründə dövlət böyük məbləğdə vergi mədaxilləri alır. Vergi gəlirlərinin artması, əvvəlki bənddə göstərildiyi kimi, ÜDM-in həcminə ləngidici təsir edir, onun artım sürəti avtomatik olaraq yavaşıyır. Tənəzzül vaxtı dövlət öz üzərinə əhalinin sosial müdafiəsi funksiyasını götürür. Dövlət xərclərinin bir növü olan transfertlər artır (işsizliyə görə müavinətlər, yoxsulluğa görə müavinətlər artır). ÜDM-in artım tempi avtomatik olaraq böyüyür və i.a.

Beləliklə, avtomatik tənzimləyicilərə büdcə-vergi siyasətinin məbləği iqtisadi tsiklin fazasından asılı olan tənzimləyicilər aid olacaqlar. Onların iqtisadiyyata təsiri aşağıdakılardan ibarətdir:

- avtomatik stabilləşdiricilər iqtisadi tarazlığı dəstəkləməyə çalışırlar;
- iqtisadi tsiklin fazalarının keçilmə müddətini azaldırlar.

§3.Büdcənin balanslaşdırılması metodları və iqtisadiyyatın inkişafında büdcə defisitinin rolu

Büdcə kəsirinin yarana biləcəyi stabilləşdirici siyasətin həyata keçirilməsində dövlət büdcəsi əhəmiyyətli rol oynayır. Buna görə də büdcənin balanslaşdırılması zərurəti yaranır. Büdcə kəsirinin əsas səbəbləri bunlardır:

1) vergi qoyulmasının rəvanlaşdırılması istehlakın rəvanlaşdırılması elementi kimi (daha geniş Milton Fridmenin

permanent gəlir modelində təsvir olunur);

2) iqtisadiyyatın qısamüddətli dövrdə stabilləşdirilməsi (əks-tsiklik siyasət);

3) özütənzimlənən stabilləşdiricilərin təsiri.

Dövlətin apardığı siyasət baxımından ***büdcənin üç balanslaşdırma metodunu fərqləndirmək olar:***

1. Hər il balanslaşdırılan büdcə nəzərdə tutur ki, hökumət hər il xərclərinin əldə edilməsi nəzərdə tutulan gəlirləri ilə bir səviyyəyə gətirir. Büdcə kəsirinin olmaması dövlət borcunu artırmır, lakin iqtisadiyyatın qaydaya salınmış sabitliyini xeyli aşağı salır, çünki fiskal siyasətin diskresiya tədbirlərindən istifadə edən hökumət əslində faktik olaraq tsiklin xeyrinə siyasət aparır. Toplanan vergilərin artan kütləsi ilə təmin olunan dövlət xərclərinin artımı iqtisadiyyatın artıq qızmasını gücləndirir, amma resessiya fazasında vergi mədaxillərinin zəifləməsi nəticəsində xərclərin azalması iqtisadiyyatı zəruri dəstəkdən məhrum edir və böhranı uzadır.Bundan başqa, vergi stavkalarının tez-tez dəyişməsi iqtisadiyyatda qeyri-müəyyənliyi artırır və istehsalın inkişafına stimulları azaldır.

2. İqtisadi tsikl çərçivəsində balanslaşdırılan büdcə nəzərdə tutur ki, hökumət tənəzzül dövründə büdcə kəsirini artırır və yüksəliş dövründə büdcə artıqlığı hesabına həmin kəsiri ödəyir. Lakin burada çətinlik ondadır ki, iqtisadi tsikldə yüksəliş və tənəzzüllər dərinliyinə və müddətinə görə eyni olmaya bilirlər və deməli, sabitləşdirmə qarşısındakı məsələ tsikl müddətində büdcənin balanslaşdırılmasının qarşısındakı məsələ ilə ziddiyyətə girir.

3. *Balanslaşdırılmamış büdcə* nəzərdə tutur ki, büdcə kəsiri və ya artıqlığı müddəti qeyri-məhdud uzun müddət mövcud ola bilər. Bu halda iqtisadi siyasətin qarşısında duran əsas məsələ makroiqtisadi tarazlığın əldə olunmasıdır və əgər buna büdcə kəsiri və artan borc şəraitində çatmaq mümkündürsə, bu imkandan istifadə etmək lazımdır.

Ölkələrin çoxunun hökuməti hesab edir ki, büdcə istənilən qədər çox balanslaşdırılmamış qala bilər, amma büdcə kə-

sirlərinin uzun müddət qalması dövlət borcunun idarə olunmasını çətinləşdirir. Belə ki, inkişaf etmiş ölkələrin çoxu son illərdə profisitə çatılması və ÜDM-də borcun payının azaldılmasına yönümlənmiş fəal siyasət aparırlar.

İqtisadiyyatın inkişafında büdcə kəsirinin rolu

Son yarım əsr ərzində *inkişaf etmiş sənaye ölkələri* böyük büdcə kəsirləri ilə müşayiət olunan iki dönüş dövründən keçmişlər ki, onların gedişində təsərrüfatın ümumi modeli, iqtisadi siyasətin xarakteri, dövlətin iqtisadiyyata müdaxiləsinin miqyası və metodları xeyli dəyişilmişdi. Söhbət birinci növbədə hərbi iqtisadiyyatdan geniş miqyasda sülh dövrü iqtisadiyyatına keçidin baş verdiyi müharibədən sonrakı dövrdən (1946-1950-ci illər) gedir. Məhz həmin dövrün xüsusiyyətləri keynsçi nəzəriyyəyə əsaslanan və konyunktur, struktur və sosial siyasətdə aparıcı rol oynayan dövlət maliyyəsinin əhəmiyyətli yer tutduğu iqtisadi strukturu formalaşdırmışdı. Digər dövr XX əsrin 70-ci illərinin ikinci yarısına təsadüf edir ki, bu da neft böhranı və staqflyasiya ilə əlamətdar olmuşdu və eyni zamanda makroiqtisadi keynsçi siyasətinin də böhranına səbəb olmuşdu. Onu əvəzləyən iqtisadiyyatın mühafizəkar idarəetmə metodları dövlət sektorunun payının azaldılmasını, geniş özəlləşdirməni və büdcə kəsiri və dövlət borcunun azaldılmasını nəzərdə tuturdular.

Dövlət maliyyəsi müharibədən sonra inkişaf etmiş ölkələrin iqtisadiyyatının bərpa olunmasında həlledici rol oynadı ki, bunun da ilkin nöqtəsi bir qayda olaraq maliyyə sisteminin özünün sağlamlaşdırılması olmuşdu. İqtisadiyyatın fəal subsidiyalaşdırılması siyasəti ilə birgə maliyyə sabitləşdirilməsi büdcə siyasətinin ən mühüm xüsusiyyəti oldu. Artıq müharibədən sonrakı ilk illərdə hökumətlərin sərəncamında hələ müharibədən əvvəlki illərdə yaradılmış təkrar bölgü sisteminə səbəb kifayət qədər maliyyə vəsaiti var idi. Bu vəsaitlərin xeyli hissəsi xalq təsərrüfatının üstünlükverimli

sahələrinə (yanacaq, energetika, gəmiqayırma, metallurgiya) subsidiya qoyuluşunda istifadə olunmuş və infrastruktura – mənzil və yol tikintisinə, kommunal təsərrüfata - yönəldilmişdi. Qeyd etmək lazımdır ki, bu ölkələrdə hərbi xərclər ya tamamilə yox idi (Yaponiya, AFR), ya da çox az idi. Dövlətin sosial xərcləri də az idi, çünki dövlət hələ büdcə xərclərinin xeyli hissəsinin «insan kapitalına» yönəldiyi «rifah dövlətinə» çevrilməmişdi.

Dövlətin apardığı iqtisadi siyasət nəticəsində inkişaf etmiş dövlətlər müharibənin nəticələrini tez aradan qaldıra və «sosial» inkişafa istiqamət götürə bildilər. Bu dövrdə, keynsçi yanaşmaya görə, stimullaşdırıcı makroiqtisadi siyasətdən istifadə olunurdu ki, o da ekspansionist vergi-büdcə siyasətinin və yüksək məşğulluq və böhransız inkişaf səviyyəsinə çatmaq üçün onu dəstəkləyən pul-kredit siyasətinin tətbiqini nəzərdə tuturdu.

XX əsrin 70-ci illərinin birinci növbədə neft böhranı nəticəsində yaranmış staqflyasiyası hökumətləri büdcə kəsirinin və dövlət borcunun formalaşmasına yanaşmanı yenidən nəzərdən keçirməyə vadar etdi. Birinci növbədə həddindən artıq böyük dövlət büdcələrinin ixtisar etmək lazım idi. Bu vaxt üçün ictimai məhsulun dövlətin xeyrinə təkrar bölgüsü nəhəng həddə çatmışdı – 1975-ci ildə ÜDM-də dövlət xərclərinin payı Yaponiyada 27%, AFR-da 49%, Fransada 43%, İngiltərədə 47%, ABŞ-da 35% idi. Özü də bu xərclərin yarısından çoxu sosial sığorta və təminatla bağlı müavinətlər və subsidiyalar idi. Böyük xərclər yüksək vergilər tələb edir, lakin artıq dövlətin iştahasını ödəyə bilmirdi: büdcə kəsirləri yaranıb artmağa başladılar və dayanıqlı struktur səciyyəli oldular. Büdcə sistemi stabilləşdirmə və iqtisadi artım alətindən onun ləngitmə mənbəyinə və əsas inflyasiya amilinə çevrildi. «Transfert dövləti» optimal hədlərdən kənara çıxdı və büdcə siyasətində əsaslı dəyişikliklər lazım oldu.

Dövlət xərclərinin kəskin məhdudlaşdırılması və faiz dərəcələrinin artırılması tezliklə inflyasiyanı azaltmağa imkan verdi. Eyni zamanda özəlləşdirmə dövlətə böyük yeni gə-

lir mənbəyi oldu. Məsələn, 1979-1991-ci illər ərzində İngiltərədə dövlət müəssisələrinin aktivlərinin satışından gəlir 27 mlrd. funt sterlinqdən artıq olmuşdu. Əksmilliləşdirmə artıq borclara müraciət etmədən büdcə kəsirini maliyyələşdirməyə imkan vermişdi. Bundan başqa, dövlət müəssisələrinin özəlləşdirilməsi dövlət inhisarının əvəzində rəqabət aparan xüsusi firmaların yaradılmasını nəzərdə tuturdu ki, bu da istehsalın səmərəliliyini artırmalı idi.

Eyni zamanda Qərb ölkələrinin heç birinin hökuməti struktur siyasətinin həyata keçirilməsindən imtina etmədi və bunun üçün yenə də əvvəlki kimi büdcə vəsaiti cəlb olunurdu. Özü də vəsait xərclənməsinin üstünlükverimli istiqamətləri iqtisadiyyatın ən yeni sahələrinin inkişafı, ETSKİ-nin maliyyələşdirilməsi oldu.

Aparıcı Qərb ölkələrinin iqtisadiyyatında dönüş, beləliklə, yeni qarışıq iqtisadiyyat modeli hesabına əldə olundu ki, bu da dövlət müdaxiləsi və onun maddi bazası olan dövlət maliyyəsinin ekstensiv genişlənməsinə həddqoydu. Buna bütün iqtisadi siyasətin yönümünün dəyişdirilməsi hesabına çatıldı ki, bunun da hüdudlarında iqtisadiyyatın bazar tənzimləmə mexanizmlərinə geniş yer verildi.

İnkişafda olan ölkələrdə vəziyyət başqa cür idi. İkinci dünya müharibəsindən sonra müstəmləkə ölkələrinin çoxu müstəqillik əldə etdi. Digər zəif inkişaf etmiş ölkələr kimi onlar üçün də ən aktual məsələlər sənayeləşmə, iqtisadi artım və ölkədə əhalinin rifahının inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması oldu. Yığımın səviyyəsi aşağı olduğundan bu ölkələr beynəlxalq yardım kanalları və bank bölməsindən borclar vasitəsilə xarici maliyyə resursları cəlb etmədən yüksək sürətlə inkişaf edə bilməzdilər. Dövlət büdcəsi də iqtisadiyyata investisiya mənbəyi ola bilməzdi, çünki vergi sisteminin xüsusiyyətlərindən asılı olaraq hökumət həmişə resurs çatışmazlığı hiss edirdi. Məsələn, Latın Amerikası ölkələrinin çoxunda əhali gəlirlərinin güclü differensiasiyası müşahidə olunurdu və bu fərqin aradan qaldırılmasına edilən cəhdlərin hamısı hakimiyyətdə olan elitanın

sərt müqaviməti ilə üzləşirdi. Beləliklə, yığılan vergi gəlirləri, investisiya layihələri bir yana, cari büdcə xərclərinin ödənilməsinə belə bəs etmirdi. Daimi büdcə kəsirlərinin maliyyələşdirilməsi çox vaxt pul emissiyası vasitəsilə həyata keçirilirdi, çünki daxili maliyyə bazarlarının inkişaf səviyyəsinin aşağı olması (onların tutumunun azlığı, yüksək risk səviyyəsi və əlyetər alətlərin məhdudluğu) zəruri vəsaitləri cəlb etməyə imkan vermirdi.

İnkişafda olan ölkələrin büdcə kəsirlərinin nəzərdən keçirilməsi göstərir ki, onlar iqtisadiyyata əslində mənfi təsir göstəriblər, çünki onların mövcudluğu makroiqtisadi qeyri-stabilliyə, birinci növbədə inflyasiya proseslərinə, dövlət borcunun çoxalmasına aparmış və maliyyə böhranları üçün zəmin yaratmışdı. Hazırda inkişafda olan ölkələrin çoxu hələ də özünü inflyasiyanın yüksək tempində, milli valyutanın qeyri-stabilliyində və ciddi maliyyə böhranlarında təzahür edən daimi büdcə kəsirləri siyasətinin nəticələrini aradan qaldırmaqla məşğuldur.

Büdcə kəsirlərinin təsnifatı

Büdcə kəsirinin rolu onun yalnız iqtisadi siyasət aləti olması ilə məhdudlaşmır. Onun mövcudluğu maliyyə bazarına və bazar faiz dərəcəsinin formalaşmasına, investisiyalara və real bölmədə istehsala, inflyasiyaya və iqtisadi artımın imkanlarına, cəmiyyətdə vergilərin səviyyəsinə və gəlirlərin bölgüsünə və s. təsir edir. Beləliklə, büdcə kəsiri ən mühüm makroiqtisadi parametrlərdən biridir.

Büdcə kəsirinin təbiətini öyrənib göstərmək olar ki, ümumi büdcə kəsiri (δ) dövlətin aktiv fəaliyyəti ilə bağlı komponentdən (struktur kəsiri) və makroiqtisadi artıb-azalmalardan asılı olan komponentdən (tsiklik defisit) ibarətdir:

$$\delta = \delta^s + \delta^c.$$

Struktur kəsiri (δ^s) cari dövlətş xərcləri (G) və mövcud vergiqoyma sistemində tam məşğulluq şəraitində potensial gəlir mədaxilləri arasındakı fərqdən ibarətdir:

$$\delta^s = G - t \cdot Y_f,$$

Burada t – iqtisadiyyatda vergi dərəcəsi;

Y_f- tam məşğulluq şəraitində real ÜDM-dir.

Bu kəsir dövlət xərclərinin iqtisadi sistemin dövlətin sərəncamına verdiyi resursları üstələyəndə yaranır. Burada əsas məsələ xərclərin necəliyidir. Pul vəsaitləri cari istehlaka (resursların «yeyilməsi») və ya investisiya layihələrinə xərclənə bilər. Sonuncu halda kəsirin olması iqtisadiyyatın uzunmüddətli strategiyası baxımından özünü doğruldur, çünki kapital aktivlərinin artması ÜDM artımı üçün əsasdır[1].

Tsiklik kəsir (δ^c) tsiklik tənəzzül dövründə özündə olan sabitləşdiricilərin təsiri nəticəsində faktik və struktur kəsirləri arasında yaranan fərqdir. Tənəzzül dövründə vergiqoyma bazasının daralması nəticəsində vergi mədaxilləri azalır və transfert ödənişləri, o cümlədən işsizliyə görə müavinətlər və aztəminatlılara sosial yardım çərçivəsində trasfert ödənişləri artır. Yüksəliş fazasında isə əksinə, vergi mədaxillərinin artması və transfert ödənişlərinin azalması nəticəsində tsiklik kəsir mənfi olur:

$$\delta^c = \delta - \delta^s = (G - tY) - (G - tY_f) = t(Y_f - Y).$$

İqtisadi nəzəriyyədə «siyasi kəsir» anlayışı da mövcuddur ki, onun mövcudluğu hakimiyyətdə olan siyasi partiyanın proqramından asılıdır. Demokratik quruluşlu ölkələrin çoxunda siyasi partiyalar ya sağ, ya da sol yönümlüdürlər ki, bu da onların iqtisadi proqramlarını müəyyənləşdirir. Belə ki, «sol» partiyalar sosial xərclərə üstünlük verirlər və onlar hakimiyyətdə olan dövrdə dövlət xərclərinin, o cümlədən sosial proqramlara artması meyili mövcud olur və bu da büdcə kəsirini artırır. «Sağ» partiyalar, əksinə, dövlətin iqtisadi həyata qarışmaması kimi mühafizəkarlar siyasətə üstünlük verirlər. Onların hakimiyyəti dövründə çox vaxt dövlətin xərclərinin və kəsirinin azaldılması baş verir. Büdcə kəsirinin bu növü həm də siyasi tsikllərin mövcud olması nəticəsində də yarana bilər. Hökuməti seçkili olan dövlətlərdə seçkiqabağı dövrlərdə dövlət xərclərinin artırılması və vergilərin azaldılması meyli olur. Populist tədbirlər büdcə kəsirini artırır və onunla mübarizə gələcək hökumətin öhdəsinə düşür.

[1] ÜDM-in kapital yığımından asılılığı «İqtisadi artımın müasir problemləri» mövzusunda daha ciddi nəzərdən keçirilir.

Keçid iqtisadiyyatlı ölkələrdə keçid prosesinin və onu müşayiət edən struktur iqtisadi böhranı ilə bağlı olub, «keçid dövrü kəsiri» adlandırıla biləcək daha bir büdcə kəsiri mənbəyi mövcuddur. Problemin mahiyyəti ondadır ki, istehsalın aşağı düşməsi, əlavə edilmiş dəyərin strukturunun dəyişməsi və hesablaşmalarda barterin artması ilə əlaqədar olaraq vergiqoyma zəmini xeyli azalır, amma bu zaman büdcə xərcləri bundan daha az aşağı düşür.

Büdcənin gəlir hissəsinin strukturunda əsas dəyişikliklər özəlləşdirmə, bazar iqtisadiyyatına müvafiq olan yeni vergi sisteminin yaradılması, səlahiyyətlərin bölüşdürülməsi və büdcə federalizmi prinsiplərindən istifadə ilə bağlıdır. Büdcə kəsirinə əhəmiyyətli təsir göstərən əlavə amil iqtisadiyyatın strukturunda disproporsiyaların, istehsalın yüksək xərc tutumlu (kapitaltutumlu, materialtutumlu, əməktutumlu) olmasının, investisiyaların səviyyə və keyfiyyətinin aşağı olmasının, istifadə olunan texnologiyaların köhnəlməsi ilə bağlı məhsulun keyfiyyətinin aşağı olmasının, həmçinin əhali gəlirləri və yığımın inflyasiya nəticəsində qiymətdən düşməsi səbəbindən tədiyə qabiliyyətli tələbin azalmasının rəvac verdiyi istehsalda tənəzzüldür. Tənəzzül nəticəsində büdcənin istehsaldan vergilərə (mənfəət vergisi, ƏDV və s.) əsaslanan gəlir hissəsi azalır, eyni zamanda iqtisadiyyatın dəstəklənməsinə və böhranın aradan qaldırılmasına resurslar tələb olunur.

Büdcənin xərclər hissəsi də dəyişikliklərə məruz qalır. Lakin onun kəmiyyətinin azalması gəlir hissəsinin azalmasına nisbətən xeyli az olur. Xərclərin büdcənin gəlir hissəsinin səviyyəsinədək azaldılmasındakı çətinlik sosial müdafiə sisteminin kəskin şəkildə ixtisar edilməsi və ya dəyişdirilməsinin, bazar münasibətlərinin qeyri-mümkün olduğu və ya hələ inkişaf etmədiyi sahələrdə istehsalın maliyyələşdirilmə-

sinin azaldılmasının, dövlət müəssisə və təşkilatlarının avadanlıqların fiziki və mənəvi aşılanması, izafi məşğulluq və inflyasiyanın qalması ilə bağlı xərclərin azaldılmasının qeyri-mümkün olması ilə izah olunur. İnflyasiya həm də əhalinin cari gəlirlərinin və əmanətlərinin kompensasiya edilməsinin, minimal normativlərin – minimum əməkhaqqının, büdcə yaşayış minimumunun və s. artırılması zərurətini doğurur.

Keçid dövrü kəsirinin xüsusiyyəti yalnız görünən, «rəsmi» tərəfin deyil, həm də dövlət müəssisələrinin, Mərkəzi bankın və kommersiya banklarının kvazifiskal fəaliyyəti ilə şərtlənən gizli kəsirin olmasıdır. Kvazibüdcə əməliyyatları forma etibarilə Mərkəzi bankın fəaliyyətini əks etdirsələr də, mahiyyət etibarilə hökumətin maliyyə əməliyyatlarına aid olub, onun gəlirlərindən maliyyələşdirirlər. Belə əməliyyatlara aiddirlər: dövlət müəssisələri tərəfindən bank borcları və ya qarşılıqlı borcların yığılıb qalması hesabına izafi məşğulluğun maliyyələşdirilməsi və bazar əməkhaqqı stavkalarından yuxarı əmək haqlarının ödənilməsi; kommersiya banklarında böyük fəaliyyətsiz borc portfelinin (dövlət müəssisələrinin vaxtı ötmüş borc öhdəlikləri, ev təsərrüfatlarına, firmalara və s. vaxtı ötmüş güzəştli kreditlər) yığılıb qalması; Mərkəzi bank tərəfindən valyutanın mübadilə məzənnəsinin sabitləşdirilməsi üzrə tədbirlərin vurduğu zərərin, «pis borclara» xidmət göstərilməsi məqsədilə hökumətə faizsiz və güzəştli kreditlərin və kommersiya banklarına əksmaliyyələşdirmə kreditlərinin maliyyələşdirilməsi, həmçinin Mərkəzi bank tərəfindən kənd təsərrüfatı, sənaye və mənzil proqramlarının güzəştli dərəcələr üzrə əksmaliyyələşdirilməsi və s. Mərkəzi bankın bu kimi kreditləri və mübadilə məzənnəsini maliyyələşdirməsi nəticəsində istənilən zərərləri makroiqtisadi sahəyə büdcə kəsirinin ödənilməsi məqsədilə tədavülə pul buraxılması kimi mənfi təsir edir. Beləliklə, gizli kəsir real vəziyyəti təhrif edir və rəsmi büdcə kəsiri kəmiyyətinin aşağı göstərilməsinə səbəb olur.

Büdcə kəsirinin maliyyələşdirilmə mənbələri

Yuxarıda göstərildiyi kimi, büdcə kəsiri əldə olunmuş dövlət gəlirlərinin büdcənin xərclər hissəsinin maliyyələşdirilməsinə bəs etmədiyi halda yaranır. Çatışmayan vəsaiti aşağıdakı üsullarla əldə etmək olar:

- pul-kredit emissiyası (monetizasiya);
- dövlət borclarının formalaşması;
- əlavə gəlirlərin axtarılması (məsələn, özəlləşdirmədən) və səmərəsiz büdcə xərclərinin azaldılması.

Büdcə kəsirinin ödənilmə mənbələri ilə əlaqəsi formal olaraq aşağıdakı kimi göstərilə bilər:

$$P\delta + i\,(PB) = \Delta M + \Delta(PB).$$

Burada P – qiymətlərin səviyyəsi;

i – nominal faiz dərəcəsi;

ΔM – real pul gəlirinin artım tempi;

$\Delta(PB)$ – həmin ildə nominal dövlət borcunun artımı.

Tənliyin sol hissəsi ilkin büdcə kəsirinin nominal kəmiyyətini və borc üzrə faiz ödənişlərini göstərir. Sağ tərəfdə maliyyələşdirmə mənbələri – monetizasiya və dövlət borcu verilmişdir.

Kəsirin monetizasiyası (yəni daxili bank maliyyələşdirilməsi) çatmayan vəsaitin dövlət tərəfindən pul çap edilməsi ilə əldə olunduğunu bildirir. Ənənəvi olaraq bu mənbə inflasiya mənbəyi hesab olunur, çünki çox vaxt pul kütləsinin artım tempi real ÜDM-in artım tempini üstələyir ki, bu da qiymətlərin orta səviyyəsinin artmasına səbəb olur. Kəsirin monetizasiyası bilavasitə nağd pulun emissiyası vasitəsi ilə deyil, başqa formalarda, Mərkəzi bankın dövlət müəssisələrinə güzəştli faizlə kreditinin genişlənməsi və ya ödənişlərin təxirə salınması formasında da həyata keçirilə bilər. İstənilən halda tədavüldə pulun miqdarı artır.

İnflyasiya səviyyəsinin yüksəlməsi şəraitində «Tanzi effekti» adlanan effekt yaranır ki, bu da vergi ödəyicilərinin bilərəkdən vergi ödənişlərinin büdcəyə ödənilmə vaxtını uzatmasıdır. Uzunmüddətli yüksək inflyasiya mənfi büd-

cə-vergi mühitini formalaşdırır: maliyyə öhdəliklərinin vaxtında yerinə yetirilməsi üçün məsuliyyətin təmin edilməsinin səmərəli mexanizmi olmur; vergidən yayınmanın ən geniş yayılmış forması qarşılıqlı ödəmələr olur; mənfi vergi ənənələri formalaşır. Yüksək inflyasiya müddəti nə qədər uzun olsa, yaranmış meyli aradan qaldırmaq bir o qədər çətin olur və dövlətin vergi gəlirləri bir o qədər dayanıqlı azalır. Vəziyyət hökumətin özünün belə büdcə kəsirinin daha az inflyasiyalı maliyyələşdirmə mənbələrinə (xarici və daxili borc maliyyələşdirilməsi) müraciət etməsi ilə mürəkkəbləşir, büdcə gəlirlərinin dayanıqlı azalma meyli sabit saxlanılır və bu da uzunmüddətli büdcə gərginliyini artırır.

Büdcənin maliyyələşdirilməsinin qeyri-emissiya mənbələrindən istifadə dövlət borcunun artması deməkdir ki, bu da dövlətin qiymətli kağızları, kredit təşkilatlarından alınmış kreditlər, xarici dövlətlərin hökumətlərinin, bank və firmalarının, beynəlxalq maliyyə təşkilatlarının kreditləri, üçüncü şəxslərin öhdəlikləri üzrə təminatlar (zəmanətlər) şəklində ola bilir.

§4. Dövlət borcunun əsas modelləri və onun iqtisadiyyata təsiri

Bu bölmədə dövlət borcunun yığılmasının və vaxtarası təsirini müəyyənləşdirən əsas modelləri nəzərdən keçiriləcək. Birinci model dövlət borcunun müxtəlif şəraitlərdə sabitləşdirilmə imkanlarını təhlil etməyə, ikinci isə borc yükünün gələcək nəsilə ötürülməsini qiymətləndirilməyə imkan verir.

Dövlət borcunun yığılması modeli

Təhlili ən sadə vəziyyətdən başlayaq. Fərz edək ki, iqtisadi artım tempi sıfra bərabərdir və hökumət büdcə kəsirinin pula maliyyələşdirilməsinə müraciət etmir. Bu şəraitdə dövlət borcunun yığılmasını real kəmiyyətlərdə nəzərdən ke-

çirmək daha yaxşıdır. *İqtisadi artım və inflyasiya olmadıqda* ilkin defisit və börca xidmət yeni borclar hesabına ödənilir:

$$\Delta B = G - T + rB.$$

Tənlik borcun özünü təkrar istehsalı və onun həcminin artması ilə bağlı vəziyyəti ən dəqiq ifadə edir. Borcun partlama təhlükəsi onun hətta balanslaşdırılmış büdcədə ($\delta = 0$) artmasındadır. Büdcənin borcun ilkin sabitləşdirilməsinə lazım olan artıqlığı borca xidmətin dəyərinə bərabərdir:

$$T - G = r\,B.$$

Birinci düsturu dinamika düsturu kimi götürsək:

$$\partial B / \partial t = rB(t) - \partial(t)$$

və burada $\delta = T - G$ olsa, onda borcun özünü təkrar istehsalı prosesini differensial tənlik şəklində vermək olar:

$$B_t = \int_t^{\infty} \delta(\tau) e^{-r(\tau - t)} d\tau$$

δ işarəsindən asılı olaraq cavab dayanıqlı ($\delta>0$) ola bilər və profitsitin olması hesabına hökumət borcu sabitləşdirmək və hətta həcmini azaltmaq iqtidarında olar və ya dayanıqsız ($\delta<0$) ola bilər və bu halda borcun qar uçqununa bənzər artımı baş verir və borc böhranı ilə bitir.

Hətta dövlət büdcəsinin kəsiri sıfra bərabər ($\delta =0$) olarsa, onda $\partial B / \partial t = rB(t)$

və borcun kəmiyyəti yenə də eksponentsial artır.Bu tənliyin həlli aşağıdakı kimi verilə bilər:

$$B_t = B_0 e^{rt}$$

Burada B_0 – borc kəmiyyətinin ilkin qiymətidir.

Bu halda borc yığılması prosesi maliyyə «köpüyüdür» - dövlət bazarda həmin zaman anı üçün olan borc üzrə zəruri ödənişlərin həcminə bərabər və ya onlardan artıq olan əlavə borclar yerləşdirir. Başqa sözlə, mövcud borclar gələcəyə ötürülür. Bu proseslərin gedişində borcun kəmiyyəti zaman müddətində sonsuzluğa qədər artır və son nəticədə borc böhranı yaranır. Borcun belə artırılması sistemi XX əsrin əvvəllərində ilk maliyyə piramidasını qurmuş Amerika iş ada-

mının adı ilə *Pontsi sxemi* adlandırılır.

İndi fərz edək ki, ölkədə iqtisadi artım var, lakin hökumət büdcə kəsirini ödəmək üçün yenə də monetar mənbələrdən istifadə etmir. *İqtisadi artım və inflyasiyanın olmaması şəraitində* borcu sadəcə real kəmiyyətlərdə deyil, nisbi kəmiyyətlərdə nəzərdən keçirmək yaxşıdır:

$$dB/Y = G/Y - T/Y + rB/Y.$$

Qeyd edək ki, təqribi qiymət $d(B/Y) = dB/Y - dY/Y$ B/Y və ya

$$db = dB/Y - gb.$$

Burada b–yığılıb qalmış borcun ÜDM-ə nisbətdə götürülmüş real kəmiyyəti;

g – iqtisadi artımın tempi;

$r = i - \pi$ - dövlətin borc öhdəlikləri üzrə real risksiz faiz dərəcəsi;

π – faktik inflyasiyanın tempidir.

Müvafiq olaraq:

$$db = (G-T) / Y + (r-g)b.$$

Real faiz dərəcəsi ÜDM-in artım tempini üstələdikcə borc prosesi yenə də partlayış səciyyəli olacaq. Borc/ÜDM ($d(B/Y) = 0$) nisbətinin sabitləşdirilməsi üçün zəruri olan büdcə artıqlığı aşağıdakı kimidir:

$$(T - G) / Y = (r - g) b.$$

Sonuncu düsturdan göründüyü kimi, əgər $r < g$ olarsa, onda borcun sabitləşməsi mövcud büdcə kəsirində əldə oluna bilər. Əks təqdirdə sabitləşdirmə üçün profisit lazımdır, amma birinci halda olduğundan xeyli az $(T - G = rB)$.

İndi isə *iqtisadi artım və inflyasiyanın eyni zamanda mövcud olduğu* vəziyyətə müraciət edək. İnflyasiya olanda mütləq pul tədavülü nəzərə alınmalıdır. Bu şəraitdə büdcə kəsiri yeni borclarla və ya M_0 əlavə pul bazası yaradılması ilə ödənilir. Nominal büdcə aşağıdakı kimi olur:

$$\Delta (PB) + \Delta M_0 = PG - PT + i(PB)$$

Burada $i(PB)$ – yığılmış borca görə nominal faiz ödənişləridir. Yuxarıda təsvir olunmuş hesablama metodlarından istifadə etməklə borc artımının aşağıdakı kimi olduğunu göstərik:

$$\Delta b = (G-T)/Y + (r-g)b - \Delta m.$$

Borcun sabitləşməsinə artıq daha az büdcə artıqlığı tələb olunur:

$$(G-T)/Y = (r-g)\, b - \Delta m.$$

Burada Δm – real pul kütləsinin real ÜDM-lə nisbətən artım tempidir (senorj ölçüsü)

$$m = \frac{M}{Y}$$

Pul maliyyələşdirmə mənbələrindən istifadə borc yükünü iki yolla – senoraj və inflyasiya vergisi vasitəsilə - azaltmağa imkan verir. *Senorj* – dövlətin pul buraxılışından gəliridir. O, Maliyyə nazirliyi (və ya xəzinədarlıq) Mərkəzi bankdan bilavasitə vəsait götürəndə və ya Mənkəzi bank xəzinədarlıq vekselləri alanda meydana gəlir. Senorajı inflyasiya vergisi ilə qarışdırmaq olmaz. Dövlət inflyasiya vergisini iqtisadiyyatda inflyasiya olması nəticəsində nominal aktivlərin real dəyərinin azalması hesabına əldə edir. Hökumətlərin çoxu nominal indeksasiya edilməyən borc götürür. Qiymətlər artanda borcun real dəyərliliyi azalır. Əlbəttə, inflyasiya vergisi yalnız milli valyutada olan borc öhdəliklərinə şamil edilir. Bundan başqa o, inflyasiya tempi qəflətən təzahür edəndə işləyir. Senoraj və inflyasiya vergisi əl-ələ gedirlər. Senoraj pul artımına və deməli inflyasiyaya aparır, borc isə inflyasiya vergisi mexanizmi vasitəsilə azalır.

Keçid iqtisadiyyatlı ölkələr üçün *iqtisadi artımın olması, lakin inflyasiyanın olması vəziyyəti* səciyyəvidir ki, bunu da düstur şəklində belə vermək olar:

$$\Delta b = (G-T)/Y + rb - \Delta m.$$

Bu tənlikdən istifadə edərək keçid iqtisadiyyatlarında borcun sabitləşdirilməsi siyasətinə dair bir neçə mühüm nəticəyə gəlmək olar.

1. Əgər kəsrin maliyyələşdirilməsinin monetar alətlərindən istifadə olunmursa ($dm = 0$), borcun sabitləşdirilməsi yalnız restriktiv büdcə siyasəti hesabına əldə oluna bilər və

bu da vergilərin artırılmasını və dövlət xərclərinin azaldılmasını nəzərdə tutur ki, bunun özü isə iqtisadiyyatın inkişafına və müsbət artım templərinə çatılmasına mənfi təsir göstərir. Monetar alətlərdən istifadə edilməməsi ehtimalı nəzərdə tutur ki, dövlət maliyyə resurslarına olan ehtiyaclarını əlavə borcların cəlb edilməsi hesabına ödəyir.Belə vəziyyət yalnız hökumət yüksək kreditqabiliyyətli olduqda və borcların həcmi kiçik və kəsirin payı ÜDM-də az olduqda mümkündür. Keçid dövründə bu şərtlər yerinə yetirilmir, çünki böyük büdcə kəsirləri mövcuddur («keçid dövrü kəsiri») və maliyyə bazarının inkişaf etməməsi və öz siyasətinə etibarın azlığı səbəbindən maliyyə vəsaitlərinin cəlb edilməsi məsələsində dövlət hərəkətlərində məhduddur. Buna görə də keçid dövrünün heç olmasa birinci mərhələsində monetar alətlərin tətbiqi özünü doğrudur.

2. Senorajın cari büdcə kəsiri həcmindən çox olmadığı halda (məsələn, antiinflyasiya siyasətinin aparılması nəticəsində) bu tənliyin həlli göstərir ki, dövlət borcu eksponentsial artır və Pontsi sxemi realizə olunur. Keçid tipli iqtisadiyyat üçün dövlət borcunun artmasında Pontsi sxemindən istifadə məsələsi olduqca aktualdır. Transformasiyanın ilkin mərhələsi ərzində hökumət bir sıra makroiqtisadi problemlərlə və birinci növbədə istehsalın düşməsi və kəsirin mövcud olması ilə ifadə olunan gizli formadan aşkar formaya keçən inflyasiya ilə üzləşir. Büdcə kəsirini ödəmək və eyni zamanda inflyasiya ilə mübarizə zərurəti hökuməti qeyri-monetar maliyyə resursları mənbəyi axtarmağa məcbur edir. Daxili maliyyə bazarının zəif olması şəraitində problemin müvəqqəti həlli yolu xarici kredit resurslarının cəlb edilməsi ola bilər. Lakin Pontsi sxeminə riayət etmək – əvvəlki kreditlərin ödənilməsi və onlara xidmət göstərilməsinin yalnız yeni borclar hesabına həyata keçirilməsi – borcun sabitləşdirilməsi üzrə tədbirlərin olmaması şəraitində qaçılmaz şəkildə borc böhranına aparır.

3. Tənlikdən irəli gələn daha bir nəticə budur ki, iqtisadi artımın olmadığı halda və Pontsi sxeminə riayət etmək

qeyri-mümkün olduqda, dövlət borcunun sabitləşdirilməsi senorj hesabına əldə olunur. Senoraj real cari kəsirdən böyük olduqda, onda əlavə yerləşdirilən borc öhdəliklərinin həcmi cari borca xidmət üçün lazım olan səviyyədən aşağı olur. Borcun belə sabitləşdirilməsinin nəticəsi pul təklifinin inflyasiya sıçrayışına səbəb olan hədsiz artmasıdır ki, bu metodu cəlbedici etmir. Bundan başqa, inflyasiya gözləmələri borc bazarının tutumunu məhdudlaşdırır.

Dövlət borcunun vaxtarası modeli

Bu model borc yükünün gələcək nəsillərə ötürülməsi problemini nəzərdən keçirir. Axı, faktik olaraq büdcə kəsirinin cari dövrdə borcla maliyyələşdirilməsi profisitə nail olmaq və yığılmış borcun ödənilməsi üçün vergilərin gələcəkdə artırılması deməkdir. Belə bir sual doğur: doğrudanmı borc yükünün gələcək nəsillərə ötürülməsi baş verir və həqiqətən bu baş verirsə, ötürülmə mexanizmi necədir?


Borc yükünün iqtisadiyyatda *kapital ehtiyatının formalaşması mexanizmi* yolu ilə ötürülməsini nəzərdən keçirək. Təhlilin klassik verilənlərinə müraciət edək: iqtisadiyyat tam məşğulluq şəraitində fəaliyyət göstərir, investisiyalar isə yığımın həcminə bərabərdir. Bu şəraitdə resursların özəl bölmədən dövlət bölməsinə istənilən yerdəyişməsi özəl bölmədə əlyetər resursların kəmiyyətini azaldır. Sözün dar mənasında, bugünkü dövlət xərclərinin yükü (daha dəqiq: onların yığılmış vergilərdən üstünlüyü) bugünkü nəsilin üzərinə düşür. Lakin resursların yerdəyişməsi həm istehlak, həm də kapitalın formalaşması hesabına gedə bilər. Birinci halda bugünkü nəslin istehlak məfhumları ilə ölçülmüş rifahı azalır, gələcək nəsillərin rifahı isə dəyişilməz qalır (İ.Fişer modelindəki zamanarası büdcə məhdudiyyətini yada salın). İkinci halda bugünkü nəslin istehlakı eyni səviyyədə qalır, lakin gələcək nəsillərə daha az kapital çatacaq və deməli, onlar daha az gəlir kəmiyyətini istehlak edə biləcəklər. Biz bir də fərz etsək ki, vergi maliyyələşdirməsi istehlak he-

sabına, borc maliyyələşdirməsi isə yığım (klassik verilənlərə görə, investisiyalar) hesabına həyata keçirilir, onda borcla maliyyələşdirmə yükü gələcək nəsillərə ötürür.

Yuxarıdakı mülahizələrə etiraz kimi Rikardonun rasional gözləmələr ehtimalına əsaslanan teoremidir. Rasional fərdlər olan insanlar görəndə ki, dövlət büdcə kəsirini borcla maliyyələşdirir, gələcəkdə borcun ödənilməsi məqsədilə vergilərin artırılacağını gözləyirlər. Bunu gözlədiklərindən, fərdlər davranışlarını dəyişirlər – cari istehlakı azaldır və yığımı artırırlar. Bununla da büdcə kəsirinin müxtəlif maliyyələşdirmə mənbələri fərdlərin vəziyyətinə eyni cür təsir göstərirlər. ***Borcun neytrallığı haqqında Rikardo teoremində*** göstərilir ki, ***uzunmüddətli dövrdə büdcə kəsirinin maliyyələşdirilmə mənbəyinin fərqi yoxdur.***

Rikardo eyniliyi şəkil 20.2-də verilmişdir: burada özəl bölmənin dövlət xərclərinin həyata keçirilməsindən əvvəlki və sonrakı zamanarası büdcə məhdudiyyəti göstərilmişdir.

A və A′ fərdlərin müvafiq olaraq ilkin təminatını göstərirlər. Dövlətin vergilərin artırılması və ya dövlət qiymətli kağızlarının buraxılması hesabına həyata keçirilən xərcləri xüsusi sərvəti eyni dərəcədə azaldır. Hökumətin bu alış səviyyəsində vergilərin dəqiq təqvimi planlaşdırılmasının mənası yoxdur, çünki dövlət istiqrazları fərd üçün tam yəqin gələcəkdə vergi öhdəlikləri hesabına ödəniləcək aktivdir. Rikardo eyniliyi bildirir ki, hökumət borcu bütün özəl bölmə-



Şəkil 20.2. Rikardo eyniliyi

nin xalis sərvəti deyil.

Rikardo teoremi çox sərt verilənlərə əsaslanır:

1. Təhrif etməyən vergiqoyma.
2. Təkmil kapital bazarları.
3. Tam sığortalanma imkanı.
4. Fiskal illüziyaların olmaması.
5. Sonsuz həyat üfüqləri.

Real həyatda bu teoremin işləmədiyi çox hallar var. Birincisi, bugünkü əhali müxtəlif yaşda olan adamlardan ibarətdir. Daha yaşlı nəsil öz büdcə məhdudiyyətində gələcək vergi məhdudiyyətlərini nəzərə almır, onun sərvəti artır və büdcə kəsiri istiqraz buraxılması hesabına ödənilirsə və o, gələcəyə, daha gənc nəslə ötürülürsə, yaşlı nəslə yük düşmür. Bu model daha ətraflı kəsişən nəsillər modelində nəzərdən keçirilir.

İkincisi, Rikardo eyniliyində belə bir ilkin şərtdən çıxış olunmuşdu ki, hökumət və özəl bölmə öz maliyyə əməliyyatlarını həyata keçirəndə eyni faiz dərəcəsi ilə üzləşirlər. Lakin dövlət istiqrazları üzrə faiz dərəcələri, bir qayda olaraq, özəl bölmədəkindən aşağıdır. Bu halda borcla maliyyələşdirmə daha üstünlükverimlidir, çünki daha aşağı faizlə borc cəlb edən dövlət gələcəkdə verginin kəmiyyətini faiz dərəcələrinin eyni olduğu hala nisbətən daha az artıracaq.

Üçüncüsü, Rikardo eyniliyi bir də vergiqoymanın təhrifedici səciyyəli olmasına görə işləməyəcək. Vergilərin təsiri altında insanlar davranışlarını dəyişir, məsələn, əmək təklifini azaldır, bunun da nəticəsində buraxılış azalır. Əksinə, əgər iqtisadiyyatda resurslar tam istifadə olunmamışlarsa, onda vergilərin azaldılması sərvətin artmasına aparır.

Kəsişən nəsillər modeli

Borc yükünün iki qrup insanın (iki nəslin) mövcud olduğu, özü də cavan nəslin yaşlı nəsli əvəzlədiyi, lakin müəyyən müddət ərzində onların eyni zamanda yaşaması şərti ilə yerdəyişməsi vəziyyətini nəzərdən keçirək. Deyək

ki, 1-ci nəsil 1-ci ildən 50-ci ilə qədər yaşayır, 2-ci nəsil isə 25-ci ildən 75-ci ilə qədər. Həm də fərz edək ki, bütün vergilər istehlakın azaldılması hesabına ödənilir.

1-ci ildə hökumət layihə həyata keçirmək, məsələn, 50 il xidmət edəcək və qiyməti 200000 dollar olan bina tikmək istəyir. Müvafiq olaraq 1-ci nəslin istehlakı azalır. Lakin 25-ci ildən 50-ci ilə qədər hökumət 2-ci nəsildən vergi şəklində 100000 toplayıb 1-ci nəslə verə bilər ki, bu da istehlakın 2-ci nəsildən 1-ci nəslinə yerdəyişməsinə səbəb olacaq. Bu halda dövlət layihəsinin əsas yükünü daşımalı olan 1-ci nəsil onun bir hissəsini 2-ci nəslin üzərinə ötürə bilər. Tikintinin istiqraz buraxılması hesabına tikildiyi və sonra onun bir qisminin vergilərin artırılması hesabına ödənildiyi halda da eyni effekt olacaq.

Beləliklə, kəsişən nəsillər halında da cari büdcə kəsirlərinin gələcək nəsillərə ötürülməsi ola bilər.

Dövlət borcunun iqtisadiyyata təsiri

Mövcud tərifə görə dövlət borcu bir neçə il ərzində yığılmış büdcə kəsiridir, yəni o, hökumətin fəaliyyətinin və onun apardığı siyasətin nəticəsi kimi çıxış edir. Dövlət borcunun hökumətə zəruri maliyyə resurslarının verilməsi kimi müsbət xarakteristikaları ilə yanaşı mənfi cəhəti də var ki, bu da sıxışdırma effekti, xalis ixrac və borc yükünün gələcək nəsillərə ötürülməsidir.

Borc yükünün gələcək nəsillərə ötürülməsi məsələsinə yuxarıda toxunulmuşdu. Digər effektlər, o cümlədən sıxışdırma effekti və xalis ixrac effekti üzərində bir qədər müfəssəl dayanaq.

Sıxışdırma effekti dövlət xərclərinin iqtisadiyyatda daxili xüsusi investisiyaların azalmasına səbəb olduqda yaranır. Təsir mexanizmi burada aşağıdakı kimidir:

$$\uparrow G \rightarrow \uparrow \delta \rightarrow \uparrow M_d \rightarrow \uparrow S_{vil.} \rightarrow \downarrow P_{vil.} \rightarrow \uparrow r \rightarrow \downarrow I.$$

Dövlət xərclərinin artması nəticəsində büdcə kəsiri də artır və bunların maliyyələşdirmə zərurəti dövlətin maliyyə resurslarına tələbatını artırır. Bu tələbatı ödəmək üçün dövlət əlavə istiqrazlar buraxır, yəni dövlət istiqrazları təklifi artır, onların qiyməti düşür, gəlirliliyi isə artır. Rəqabət bazarında müxtəlif maliyyə aktivlərinin gəlirliliyi zamana görə bərabərləşir və deməli, bazar faiz dərəcəsi artır, xüsusi investisiyaların kəmiyyəti isə azalır. Təkrar bölgü üçün əlyetər resursların məhdudluğunu nəzərə alaraq büdcə, qiymətli kağızlar bazarı və kredit bazarı fəal rəqabətə girirlər. Buna görə də dövlətin fəal surətdə qiymətli kağızlar buraxması kommersiya banklarının və istehsalın vəsait cəlb etmək imkanlarını məhdudlaşdırır.

Sıxışdırma kəmiyyəti ümumiləşdirilmiş keynsçi modelindəki muxtar xərclər multiplikatorunun ölçülərindən asılıdır. Multiplikatorun qiyməti vahiddən az olsa, milli gəlirin artımı dövlət xərclərinin artımından az olur, yəni burada sıxışdırma effekti var.

Sıxışdırma effektinin rolunu qiymətləndirmək üçün dövlət xərclərinin xarakterini təhlil etmək lazımdır. Vəsaitlərin çari istehlaka deyil, kapital istehlakına istifadə edilməsi sıxışdırma effektini qismən və ya tamamilə aradan qaldıra bilər. İnsan kapitalına və infrastruktura investisiyalar dayanılı iqtisadi artımı dəstəkləməyə və bir sıra makroiqtisadi problemləri, o cümlədən dövlət borcuna xidmət göstərilməsi problemini həll etməyə şərait yaradır. Misal kimi İsveçi götürmək olar: Birinci dünya müharibəsindən əvvəl bu ölkə kasıb ölkələr sırasındaydı, XX əsrin 70-ci illərinin sonundan isə o, adambaşına düşən gəlirə görə bir sıra inkişaf etmiş ölkələri, o cümlədən ABŞ-ı, Kanadanı, İtaliyanı, Böyük Britaniyanı və b. geridə qoymuşdur. Belə bir fikir var ki, bu hər şeydən əvvəl insan kapitalına, yəni təhsilin və səhiyyənin inkişafına, zəhmətkeşlərin sosial müdafiəsinə qayğıya investisiyalar hesabına mümkün olmuşdur və bu da həm büdcə xərclərinin kəmiyyətinə, həm də dövlət borcunun kəmiyyətinə təsir etmişdir.

Xalis ixrac effekti dövlət xərclərinin artması nəticəsində xalis ixrac kəmiyyətinin azalmasında özünü göstərir. Əvvəlki bir neçə addımı kənara qoysaq, təsir mexanizmi belədir:

$$\uparrow G \rightarrow \uparrow r \rightarrow \uparrow D^e \rightarrow \uparrow r^e \rightarrow \uparrow Im \rightarrow \downarrow Ex \rightarrow \downarrow NX.$$

Burada D^e - milli valyutaya tələb;

r^e - real mübadilə kursu;

Im – idxal;

Ex – ixrac;

NX.- xalis ixracdır.

Dövlət xərclərinin artması nəticəsində bazar faiz dərəcəsi artır və bu da xaricdən maliyyə axınına səbəb olur. Milli valyutaya tələb artır və milli valyutanın məzənnəsi qalxır, revalvasiya baş verir. Nəticədə idxal daha ucuz olur, ixrac isə daha baha və həcmi azalır, bununla da xalis ixrac azalır.

İnkişaf etmiş ölkələrdə dövlət borcunun fəaliyyəti dövlət bölməsinə lazımi maliyyə resurslarının cəlb edilməsi üçün nizamlanmış mexanizmdir. Borcla maliyyələşdirmənin mənfi nəticələrinin olması ehtimalına baxmayaraq, borcun olması inkişaf etmiş ölkələr üçün ciddi makroiqtisadi problem deyil. Hətta borcun səviyyəsinin ÜDM-də 100% yuxarı olduğu ölkələr də, məsələn, Belçika, Yunanıstan və İtaliya, öz borclarına xidmət göstərilməsində çətinliklərlə üzləşmirlər. Əlbəttə, böyük həcmdə borcun olması iqtisadiyyata mənfi təsir göstərir, amma inkişaf etmiş ölkələrdə iqtisadiyyatın maneəsiz fəaliyyəti və borca vaxtında xidmət göstərilməsi üçün zəmin var.

İnkişaf etməkdə olan ölkələrdə əks mənzərə müşahidə olunur. Burada dövlət borcuna xidmət göstərilməsi zərurəti iqtisadiyyatın üzərinə bir ağır yük kimi düşür. Bu, birinci növbədə həmin ölkələrin iqtisadi inkişafının xüsusiyyətləri ilə əlaqədardır. Uolt Rostounun 1960-cı ildə «The Stages of Economic Growth: A Non-Communist Manifesto» kitabında verilmiş artım nəzəriyyəsinə görə, ölkələr ənənəvi iqtisadiyyatdan sənaye iqtisadiyyatına keçəndə «sıçrayış» edirlər. Sıçrayış ölkədə investisiyaların səviyyəsi milli gəlirin

10-12% həddinə çatanda baş verir. Problem ondadır ki, Rostounun fikrincə, inkişaf etməkdə olan ölkələr sıçrayış üçün lazım olan yığım səviyyəsini müstəqill təmin etmək iqtidarında deyillər. Bu resurslar kənardan cəlb oluna və dövlət borcunun yığılmasında əksini tapa bilər. Real vəziyyət göstərir ki, inkişaf etməkdə olan ölkələr borcla maliyyələşdirmə sistemini qurmaq probleminin öhdəsindən gələ bilməmişlər və 80-ci illərin əvvəllərindən onların bəzilərində, məsələn, Meksika, Braziliya, Argentina və b., uzunmüddətli borc böhranı müşahidə olunur və ağır borc yükü iqtisadiyyatın inkişafına mane olur. Bu böhranın əsas səbəblərindən aşağıdakıları göstərmək olar:

1) dünya maliyyə bazarlarından asılılıq – xarici borcun olması resursların ölkədən axmasına səbəb olur və daxili yığımları qeyri-mümkün edir;

2) xarici bazarlara istiqamətlənmə – xammal ixracı, yəni aşağı əlavə dəyərli əmtəələrin üstünlük təşkil etməsi; borca xidmət zərurəti ölkələri ixracı artırmağa təhrik edir;

3) dualist (ikili) cəmiyyətin mövcudluğu – xarici (ixrac yönümlü) və daxili bölmələr arasında əlaqə kəsilib;

4) idarəedici elitanın xarici kreditorların maraqlarına tabeliyi.

Dünya iqtisadiyyatının müasir inkişaf meyilləri - iqtisadi inteqrasiya və qloballaşma, informasiya texnologiyası və rabitə kommunikasiyalarının inkişafı və s. – milli iqtisadiyyatların fəaliyyətinin çevikliyini və dinamikliyini artırır, eyni zamanda da zəif iqtisadiyyatlara böhranlı hadisələri dəf etməyə mane olur.

Bazar iqtisadiyyatına nisbətən keçid iqtisadiyyatında dövlət borcunun rolu və iqtisadi sistemə təsiri artır. İstehsalın tənəzzülünün dərinləşməsi, qeyri-sabit valyuta kursu fonunda o, böhranın aradan qaldırılmasına mane olan və resurslardan qeyri-istifadəyə səbəb olan vəziyyəti ağırlaşdıran şərt olur. Hətta ümumi borcun həcmi nisbətən az olduqda belə, məsələn, ÜDM-in 50%, o, «məhdudlaşan» iqtisadiyyat üçün böyük yükə çevrilir.

Sıxışdırma effektinin mövcud olması faktı vacibdir. Əgər dövlətin cəlb etdiyi maliyyə resursları real bölməyə tətbiq oluna bilərlərsə, onda sıxışdırma effekti mövcuddur. Lakin keçid iqtisadiyyatında ilkin mərhələdə bir qayda olaraq istehsala böyük investisiyalar üçün imkan olmur. Əks təqdirdə dövlətin cəlb etdiyi azad maliyyə resursları istehsalın dirçəlişinə rəvac vermədən və iqtisadiyyata inflyasiya təsiri göstərərək yüksək gəlirli maliyyə sahəsində dövr edərdilər. Beləliklə, xüsusi investisiyalara aşağı tələb dövlətin davranışları ilə deyil (sıxışdırma effekti), digər makroiqtisadi səbəblərlə izah olunur. Bu halda dövlət xüsusi bölmənin rəqibi kimi çıxış etmir, o. tənəzzül mərhələsindəki azad resursları cəlb edir.

Digər tərəfdən, inkişaf etməkdə olan ölkələrlə müqayisədə, iqtisadiyyatın daha yüksək inkişaf səviyyəsi və böyük daxili maliyyə bazarının olması borcla maliyyələşdirmə ilə bağlı bir sıra problemləri yumşaldır və borc böhranlarını daha tez dəf etməyə imkan verir.

§5. Büdcə-vergi siyasətinin səmərəliliyinin qiymətləndirilmələri

Büdcə-vergi siyasəti, iqtisadiyyatın dövlət tənzimləməsinin bir növü kimi, dövlətin iqtisadiyyata təsirinin keynsçi reseptləri ilə bağlıdır. Keynsçi nöqteyi-nəzərdən, büdcə-vergi siyasəti səmərəli iqtisadiyyat yaradılmasında mühüm rol oynayır. Lakin ötən əsrin 70-ci illərinin sonlarından büdcə-vergi siyasəti özünün aparıcı mövqeyini itirdi və birinciliyi pul-kredit siyasətinə verdi. O, iqtisadiyyatın səmərəliliyinin itirilməsinin səbəblərindən biri elan edilmişdi. Lakin XX əsrin 90-cı illərində əhəmiyyəti bərpa olundu və hazırda pul-kredit və büdcə-vergi siyasətləri eyni dərəcədə əhəmiyyətlidirlər.

Büdcə-vergi siyasətinin müsbət effektləri bunlardır:

• iqtisadiyyatın tənəzzülü dövründə dövlətin ÜDM-in dinamikasına müsbət təsiri;

• sosial problemləri, ələlxüsus əhalinin məşğulluğu problemini həll etmək imkanı;

• əmtəə və xidmətlər tədarükü vasitəsilə tənəzzül dövründə sıfır səviyyədə olan investisiya tələbinin inkişafını stimullaşdırmaq imkanının mövcudluğu.

Bununla belə, büdcə-vergi siyasətinin qeyri-səmərəliliyini əsaslandırmaq üçün səbəblər vardır.

İqtisadiyyatda hər hansı mühüm məsələləri həll etmək üçün pul resursları həmişə lazımdır. Pul bazasının təmin edilməsinin ən sadə üsulu vergilərin artırılmasıdır, lakin bunun əks tərəfi də var. Laffer əyrisinə görə, vergi dərəcələrinin artırılması müəyyən mərhələdə vergi mədaxillərinin azalmasına gətirib çıxardır, çünki vergi ödəyicilərində sahibkarlıq fəaliyyətinə stimul azalır. İqtisadi artım dövründə bu bəlkə də düzgün olardı, lakin tənəzzül dövründə bu, neqativ hadisələrə səbəb olur. Vergi ağırlığının artırılmasının mənfi effektinə misal Rusiya ola bilər. XX əsrin 90-cı illərinin sonunda yüksək vergilər iqtisadiyyatda «qara» və «ağ» mühasibatın olması ilə nəticələndi ki, bu da vergi ödəyicilərinə ödənilən vergiləri minimallaşdırmağa və ya onları ümumiyyətlə ödəməməyə imkan verdi. Nəticədə yığılmamış məbləğ dövlət büdcəsinə vergilərdən nəzərdə tutulmuş gəlirin yarısına bərabər olurdu. Əmək bazarında vergilərin yüksək olması heç də daha az mənfi effektə malik deyil. Həddindən artıq yüksək vergi ödəmələri işçilərin əməklərinin nəticəsinə maraqlarını zəiflədir. Beləliklə, aşağıdakı nəticələrə gəlmək olar:


• yüksək vergilər şəraitində sahibkarlıq fəaliyyətinə stimullar azalır;

• yüksək gəlir vergisi şəraitində əməyə stimul azalır.

Müasir dövlət vəsaitin çox hissəsini sosial transfertlərin ödənilməsi üçün istifadə edir.Bu halda da mənfi effektlər meydana gəlir. İşsizliyə görə müavinətin həcminin böyük olması institusional işsizliyi və ya müavinətlə dolanıb işləməyən insanları formalaşdırır.

Dövlətin iqtisadi problemləri dövlətin əmtəə və xidmətlər tədarükü hesabına həll etmək cəhdi iqtisadiyyatdan *xüsusi investisiyaların sıxışdırılmasına* səbəb olur. Dövlətin bir sahibkar kimi fəaliyyətinin fəallaşması ilə xüsusi investisiyaların həcmi dövlətinki ilə müqayisədə daha az olur. Lakin məlum olduğu kimi, dövlət investisiyalarının səmərəliliyi xüsusi investisiyaların səmərəliliyindən xeyli aşağıdır.Dövlət müəssisələri heç də həmişə gəlir əldə etmək məqsədi güdmürlər. Onlar sanki rəqabət mübarizəsindən kənarda mövcud olub, istənilən xərcləri dövlət pul vəsaitləri hesabına ödəyə bilirlər. Dövlət müəssisələrinin səmərəsizliyi XX əsrin 80-ci illərində bazar iqtisadiyyatı ölkələrində onların özəlləşdirilmə proseslərinə səbəb oldu.

Dövlət xərclərinin artması iqtisadiyyatda inflyasiya proseslərinə rəvac verə bilər. Belə hadisə, bir qayda olaraq, uzunmüddətli dövr üçün səciyyəvidir (şəkil 20.3).



Şəkil 20.3. Dövlət xərclərinin dəyişməsinin uzunmüddətli dövrdə qiymətlərin səviyyəsinə təsiri

Muxtar dövlət xərclərinin artması hesabına məcmu xərclərin artması potensial ÜDM şəraitində iqtisadiyyatda qiymətlər səviyyəsinin artmasına səbəb olur. Məsələn, dövlət bəzi iqtisadi problemlərin həllinin maliyyələşdirilməsi məqsədilə (firmalara subsidiyaları artırmaq) xərcləri artırır. Gəlir hissəsinin resursları kifayət etmədiyindən dövlət emissiyaya müraciət edir. İqtisadiyyat təmin edilməmiş pulla dolur, bu da qiymətlərin artmasına səbəb olur, beləliklə, dövlət

növbəti ildə də artan xərclərin maliyyələşdirilməsi problemi ilə üzləşir. Büdcənin gəlir hissəsində vəsait çatışmazlığı bununla nəticələnir ki, yenə də xərcləri maliyyələşdirmək üçün emissiya üsuluna müraciət etmək lazım gəlir və b.k.

Dövlət xərclərinin çox qismi dövlət borcunun ödənilməsinə yönəldilir və qeyri-məhsuldar səciyyəli olur. Məsələn, 1980-ci illərin sonlarında RF dövlət büdcəsinin xərclərində dövlət borcları üzrə ödənişlər bütün büdcə xərclərinin 28-dən 30%-dək təşkil edirdi.

Dövlət xərclərinin həcmi haqqında hökumət qərarları siyasi konyunkturanın təsiri altında qəbul oluna bilər. Dövlət xərcləri və vergilərin həcminin dəyişdirilməsi barədə qərarın qəbul edilməsi ilə qəbul edilmiş qərarın səmərəsi arasında böyük zaman kəsiyi var.

Büdcə-vergi siyasəti dövlət borcunun və dövlət büdcəsinin kəsiri və ya profisitinin öncədən təyin edilməsi çətin olan davranışı ilə müşayiət olunur.

Əsas anlayışlar və məfhumlar

Büdcə-vergi siyasəti; vergi multiplikatoru; dövlət xərclərinin multiplikatoru; dövlət transfertlərinin multiplikatoru; diskret büdcə-vergi siyasəti; ləngidici büdcə-vergi siyasəti; sıxışdırma effekti; büdcə kəsiri; profisit büdcə; büdcə-vergi siyasətinin alətləri; özütənzimlənən stabilləşdiricilər; struktur kəsiri; dövlət borcunun yığılması modeli; tsiklik kəsir; dövlət borcunun vaxtarası yığımı; borcun neytrallığı haqqında D.Rikardo teoremi (Rikardo eyniliyi); kəsişən nəsillər modeli; xalis ixrac effekti; «Tanzi effekti»; büdcə-vergi siyasəti; büdcənin balanslaşdırılması metodu.

XXI FƏSİL. İQTİSADİ ARTIMIN NƏZƏRİ MODELLƏRİ

§1. İqtisad artımın modelləşdirilməsinin genezisi və onun yeni keyfiyyətləri.

§2. Neoklassik artım modelləri – bazarın mütləqləşdirilməsi.

§3. Neokeynsçi artım modelləri – dövlətin mütləqləşdirilməsi.

§4. Artımın institusional və yeniinstitusional modelləri – sosial sintez.

§5. Rusiyada iqtisadi artım problemi.

§1. İqtisadi artımın modelləşdirilməsinin genezisi və onun yeni keyfiyyətləri

İqtisad artımın modelləşdirilməsi iqtisadiyyat elminin həll etdiyi ən çətin praktik problemlər sırasına aiddir. İstənilən modelləşdirmə müəyyən formallaşdırma və eyni zamanda hadisənin mahiyyətinin sadələşdirilmiş ifadəsini nəzərdə tutur. Hazırda söhbət yalnız makroiqtisadiyyatın deyil, həm də onun iki qarşılıqlı əlaqəli proseslərinin: fəaliyyət göstərmə və inkişafın modelləşdirilməsindən gedir. Sonuncu xüsusilə çətin proseslərə aiddir, çünki o, həmişə müəyyən tarixi şəraitdə fəaliyyət göstərən və bu və ya digər ölkənin xüsusiyyətlərini müəyyənləşdirən amillərin təsiri altında inkişaf edən sosial-iqtisadi sistem kimi mürəkkəb qurumun xüsusiyyətlərinin və dinamikasının şərtlərini ifadə edir.

Makroiqtisadiyyatı milli iqtisadiyyat kimi formalaşdıran və onun dinamikasını müəyyənləşdirən amillərin çoxluğu onların dərin, müəyyənləşdirici və fundamental mahiyyət baxımından diqqətlə seçilməsini tələb edir. Buna görə də iqtisadi modelləşdirmə zamanı, ələlxüsus makrosəviyyədə, «model və mahiyyət» arasında seçim etmək lazımdır. Həqiqət və ya dərin mahiyyət keyfiyyətli təhlil metodlarının köməkliyi ilə, yəni təsviri, sübutedici və ya şifahi (sözlə) üsulla

ifadə oluna bilər. Ciddilik riyazi modelləşdirmə metodlarının tətbiqi ilə kəmiyyət təhlili yolu ilə təmin edilə bilər. Lakin bu halda bu iki metodun bir-birini yekunlaşdıra biləcək uzlaşması mühüm əhəmiyyət kəsb edir.

Təcrübə göstərir ki, hadisənin mahiyyətinin riyazi alətlərin tətbiq olmadan təsviri heç də həmişə həqiqətin mahiyyətinin dərkinə səbəb olmur. Eyni zamanda iqtisadi düşüncə məntiqinin riyazi məntiqlə əvəzlənməsi reallıqdan uzaqlaşmaq və mücərrəd riyaziləşdirmək təhlükəsini doğurur, hadisənin mahiyyətini səthi və dayaz qavramağa gətirir. Makroiqtisadiyyatın riyazi modelləri *ceteris paribus* – «digər şərtlərin eyniliyi şəraitində» - prinsipinə əsaslanır. Ayrı-ayrı nəzəriyyəçilərin səhvi hər hansı amilin nəzərə alınmaması və ya onun bilərəkdən digər eynilər sırasına salınması nəticəsində meydana gəlir. Buna görə də riyaziləşdirmə heç də həmişə mahiyyətin dərinliyinin dərkinə və tənqidi yanaşmaya rəvac vermir, sanki səthi formallaşdırma və sadələşdirilmiş modelləşdirmənin səhvlərinə öncədən bəraət qazandırır.

Bu ilkin qeydləri nəzərə almaqla iqtisadi artım modellərinin genezisinə və onların xüsusiyyətlərinin qiymətləndirilməsinə diqqət yetirmək lazımdır. Bu zaman nəzərə almaq lazımdır ki, iqtisadi artım dedikdə iqtisadiyyatın uzunmüddətli müsbət dinamikası başa düşülür ki, bu da milli iqtisadiyyatın mütləq və ya nisbi kəmiyyət dəyişmələrinin yekun kəmiyyət göstəriciləri: artım tempi və ÜMM-in həcmi ilə ifadə olunur.

İqtisadi artım modelləri milli iqtisadiyyatın təkrar istehsalının xarakterini əks etdirir və bu da real ÜMM-in artmasında və əhalinin həyat səviyyəsinin səviyyəsi və keyfiyyətində təzahür edir. Eyni zamanda artımın özü bütövlükdə makroiqtisadi inkişafın fazalarından biri kimi onun tərkib hissəsidir. İqtisadi artımın faza səciyyəli, uzunmüddətli olması və təmin edilməsi şərtləri bütün dövlətlər üçün mərkəzi problemdir. Onun ən optimal modelinin seçilməsinin vacibliyi məsələsi ortaya çıxır. İqtisadi artımın modelləşdi-

rilməsi məsələsi «histerezis» (gecikmə) hadisəsi və onun uzunluğunun aradan qaldırılmasından ibarətdir.

Uzunmüddətli iqtisadi artımın təmin edilməsi problemi və onun həlli variantları bir sıra tarixi mərhələlərdən keçmiş və müxtəlif nəzəri məktəblərin nümayəndələri tərəfindən müxtəlif cür həll olunurdular.

Klassik məktəbin sistemləşdirilmiş iqtisadi artım nəzəriyyəsi olmayıb, lakin o, milli sərvətin artım amilləri və onların gəlirlərin yenidən bölgüsü ilə uzlaşması ilə məşğul olmuşdur. Klassiklərin əsas fikri bundan ibarət idi ki, sərvətin artımı istehsal amillərinin kəmiyyəti və onların məhsuldarlığı ilə müəyyənləşir. Bu məsələni daha geniş nəzərdən öyrənən C.St.Mill əvvəlcə bütün istehsal amillərini, sonra onların artım səbəblərini və məhsuldarlıq dinamikasını nəzərdən keçirir. Təbii istehsal amilləri kəmiyyətinin insanın cəhdlərindən asılı olmadığı ehtimal olunduğundan iqtisadi artımın əsası kimi iqtisadi məhsulun bir hissəsinin kapitalın artması ilə nəticələnən ***yığılması və investisiya edilməsi*** (I) nəzərdən keçirilirdi. Smitdən başlayaraq bütün klassiklərin «qənaətcilliyə» (S) böyük diqqət verməsi bununla əlaqədardır.

Nəzərdən keçirilən dövrdə əsas yığımların kapitalistlərin gəlirlərindən edildiyi üçün (muzdlu fəhlələr gəlirləri az olduğundan, torpaq mülkiyyətçiləri isə istehlak motivasiyası səbəbindən yığım və investisiyalarda əhəmiyyətli rol oynaya bilmirdilər) iqtisadi artıma şərait yaradılmasında həlledici rolu mənfəət norması, həmçinin sahibkarların (kapitalistlərin) maraqlarını təmin edən gəlir bölgüsü oynamağa başladılar.

Mənfəətin kütləsinin avanslaşdırılmış kapital xərclərinə nisbəti (M'=M/K, %) kimi başa düşülən mənfəət normasının özünə gəldikdə isə, klassiklər onun uzunmüddətli dövrdə aşağı düşməsinin qaçılmaz olduğunu hesab edirdilər. Belə uğursuz nəticənin səbəbi torpağın azalan məhsuldarlığı qanunu olmuşdu. Hesab edilirdi ki, əhali artdıqca torpaq sahələrinin genişlənməsi zəruriləşdikcə azalan məhsuldarlıq

rentanın nisbətən artması (R) və mənfəətin (M) azalması ilə nəticələnməliydi ki, bu da öz növbəsində yığımın azalmasına və iqtisadi artımın dayanmasına səbəb olmalıydı. T.Maltusun da müdafiə etdiyi bu bədbin nöqteyi-nəzər həmin dövrdə siyasi-iqtisadın «tutqun elm» *(dismal science)* adlandırılmasına səbəb olmuşdu. Klassik məktəbin nümayəndələri hələ Rikardonun dövründə, görünür, torpağın azalan məhsuldarlığını kompensə etməyə qabil olmayan texniki tərəqqinin rolunu lazımınca qiymətləndirmirdilər.

Klassik iqtisadiyyatın inkişafında siyasi iqtisadın fundamental elm kimi çiçəkləndiyi dövr olan marksist iqtisadi məktəbin böyük (K.Marks, F.Engels) xidməti olmuşdur. O, mərkəzi iqtisadi problem kimi iqtisadi artım prosesi haqqında təsəvvürləri xeyli dərinləşdirdi. Klassik məktəbin baxışlarına olduqca yaxın olan K.Marks iqtisadi artımın uzunmüddətli perspektivlərinin məzmununun başqa cür dərkini verdi.

«Klassiklər»dən fərqli olaraq K.Marks mənfəət normasının azalma meyilini torpağın azalan məhsuldarlığı və renta amilinin təsiri ilə deyil, istehsal vasitələrinə və ya fiziki (maddi-texniki) kapitala qoyulmuş sabit kapitalın (C) onun «kapitalın üzvi quruluşu» adlandırdığı iş qüvvəsinə qoyulmuş dəyişən kapitala (v) nisbətinin artması ilə bağlayırdı.

K.Marksa görə, mənfəət norması fəhlələrin haqqı ödənilməmiş əməyi ilə yaradılmış izafi dəyərin avanslaşdırılmış kapitalın kəmiyyətinə nisbətinə bərabərdir:

$$M' = \frac{m}{C+v}$$

Bu ifadəni riyazi cəhətdən işləyərək və onun surəti və məxrəcini v –yə bölərək aşağıdakını alarıq:

$$M' = \frac{m/v}{C/v+1}$$

Alınmış ifadə göstərir ki, kapitalın üzvi quruluşu nə qədər yüksək olsa, mənfəət norması bir o qədər az olar (m / v

göstəricisi, K.Marksa görə, istismar norması adlandırılanı bildirir və fəhlə sinfi və burjuaziya arasında qüvvələr tarazlığı olduqda dəyişməyən kəmiyyət kimi qəbul olunur).

Sonra K.Marks bu nəticəyə gəlir ki, kapitalist istehsal üsulu bazar iqtisadiyyatının ifadə forması kimi inkişaf etdikcə sabit kapitala nisbətən dəyişən kapitalın nisbi azalması, yəni C/v baş verir. Bu tendensiyanın səbəbini o, kapitalistlərin onların xərclərinin həmin sahə üçün orta xərclərdən aşağı olması hesabına izafi dəyərin artırılması aləti kimi istifadə etdikləri texniki tərəqqidə görürdü. Görünür, K.Marks texniki tərəqqinin yalnız əməyə qənaət edən olub, kapitala qənaət edən olmaması, yəni hər işçiyə düşən maşınların sayının artmasını onların ucuzlaşması ilə kompensasiya etmək imkanını təmin etməyən olması ehtimalından çıxış edirdi. Çoxsaylı qarşılıqlı təsirdə olan amillərdən özünə yol açan bu kimi meyilin nəticəsi odur ki, kapitalist istehsalı sonrakı artıma stimulu itirir, belə istehsal üsulu özü özünə maneə yaradır.

Lakin K.Marks tamamilə fərqli zəmini olan və uzun müddət naməlum qalan başqa inkişaf ssenarisi hazırlamışdı. O, «Kapital»ın hələ 1857- 1859-cu illərdə yazılmış, lakin ilk dəfə ötən əsrin 30-cu illərində əvvəlcə ayrı-ayrı fraqmentlər şəklində, tam şəkildə isə XX əsrin 60-cı illərində çap olunmuş qaralama əlyazmasında idi. Bu ssenari elmi-texniki tərəqqinin başqa inkişaf meyillərinə əsaslanırdı. Hələ XIX əsrin ortalarında K.Marks diqqət yetirmişdi ki, adi əmək fondu təchizatının artması arxasında istehsal prosesindən bilavasitə insan əməyinin sıxışdırılması *meyili* görünməyə başlayır. İşçi bilavasitə həmin prosesin iştirakçısı olmaqdan uzaqlaşaraq istehsal prosesinin *nəzarətçisi* və nizamlayıcısı rolunu özündə saxlayır. Kapitala tabe olan ənənəvi əmək, bir istehsal amili kimi, bu halda arxa plana keçərək yerini iqtisadi artımın əsas mənbəyinə – intellektual potensialda ifadə olunmuş əməyə verir. Bu kimi şəraitdə tərəqqi yeni keyfiyyətli əməyin hesabına daim kamilləşən texniki zəmin əsasında iqtisadi artım mənbəyi kimi ifadə olunur.

Yeni iqtisadi artım mənbəyi, yəni intellektual əmək ənənəvi bazar-kapitalist iqtisadiyyatı sxeminə düz gəlmirdi, çünki o, bilik iqtisadiyyatını nəzərdə tutur ki, bu da XX əsrin sonu – XXI əsrin əvvəllərində postsənaye cəmiyyətinə transformasiya şəraitində özünü göstərdi. Bilik, yeni iqtisadiyyata xas xüsusi bir məhsul kimi, belə bir xüsusiyyətə malikdir: onun təkrar istehsalı qeyri-maddi səciyyə daşıyır, yayılma xərci onların yaradılmasına çəkilən xərclərlə müqayisəyə gəlmir, buna görə də, Marksın fikrincə, kapitalist cəmiyyəti cərçivəsinə sığmır və onun dəyişdirilməsi lehinə əlavə dəlil kimi çıxış edir. Müasir iqtisadi artımın çətinlikləri əsasən Marks tərəfindən kəşf edilmiş, lakin indiyədək heç də həmişə adekvat qiymətləndirilməyən həmin bu amilin təsiri ilə şərtlənir.

İqtisadi nəzəriyyədə marjinalist inqilabı aşağıdakı üç əsas verilənə əsaslanan iqtisadi artımın dərkinə digər yanaşmaya səbəb oldu:

- insanın iqtisadiyyatın subyektiv-rasional amili kimi fəal roluna;
- iqtisadiyyatın bazarla şərtlənən tarazlı inkişafının dərkinə;
- tarazlı vəziyyətin son hədliyinə.

Marjinalist yanaşmanın ən mühüm üstünlüyü universallıq oldu. Onun tərəfdarları insan davranışının gəlirliliyin maksimallaşdırılmasının məlum bazar prinsiplərinə əsaslanan rasionallıq kimi keyfiyyət xüsusiyyətlərini fərqləndirirdilər. Bu prinsiplərin tətbiqi iqtisadi problemləri sırf riyazi formada təqdim etməyə imkan verir.

Marjinalizm məktəbinin əsasında mərkəzi və ya əsas təhlil predmeti klassik məktəb üçün səciyyəvi olan (onun fundamentalizminin ən yüksək nailiyyəti kimi marksizm də daxil olmaqla) istehsal münasibətləri deyil, insanın bazarın özütənzimlənən tarazlıq sistemi kimi müəyyənləşdirilən hərəkətləri və davranışları durur.

Marjinalist məktəbin yanaşmasına görə, iqtisadi artım elə tarazlı vəziyyəti kimi başa düşülür ki, bu zaman milli is-

tehsalın real həcminin ideal vəziyyətdə əmək və kapitalın eyni artım templərinin nəticəsi kimi yaranan tarazlı trayektoriyası yaranmış olsun. Bundan yayınmalar yalnız öz üstünlükverimlərini investisiyaların artım mənbəyi kimi (I) və yığım (S) arasında bölüşdürən fərdin hərəkətlərinin nəticəsi kimi təzahür edə bilər.

Marjinalistlərə görə, real iqtisadiyyatın inkişafı bir qayda olaraq tarazlı trayektoriya üzrə deyil, onun ətrafında rəqslər (artıb-azalmalar) nəticəsində həyata keçirilir. İqtisadi artımın təmin edilməsi məsələsi yayınmalara (A, B, C, D) təsir edən bazar (endogen) və qeyri-bazar (ekzogen) amillərinin nəzəri tədqiqindən ibarətdir. Bu zaman tənzimləməyə dövlət müdaxiləsi tələb olunmur.

İqtisadi artımın modelləşdirilməsinə marjinalist yanaşmanın sonralar neoklassiklər tərəfindən işlənilmiş riyazi şərhi istehsal funksiyasına əsaslanırdı. Məlum olduğu kimi, onun əsasını aşağıdakı riyazi ifadə təşkil edir:

$$\Delta Y = \Delta L + \Delta K.$$

Burada ΔY – milli gəlirin orta illik artımı;

ΔL – əməyin artımı;

ΔK – kapitalın artımıdır.

Bu, əmək və kapitalın asılılığının ikiamilli ilk ən sadə modeli olub, sonralar neoklassiklər tərəfindən Kobb-Duqlas funksiyasının tətbiq edilməsiylə modifikasiya edilmiş şəkildə istifadə olunmuşdu:

$$\Delta Y = \Delta L + \Delta K + n.$$

Burada n milli gəlirin keyfiyyət amil gəlirlərini, məsələn, ETT-nin payını səciyyələndirir.

Bu, riyazi alət kimi istifadə olunan funksiyanın təhlilinin məqsədi iqtisadi artımın ən səmərəli strukturunun seçilməsi və ən optimal istiqamətinin müəyyənləşdirilməsidir.

Kobb-Duqlas funksiyasından istifadənin mühüm əhəmiyyəti ondadır ki, o, marjinalizm üçün səciyyəvi olan statistik funksional analizi əsas amillərin inkişafına təsir edən elastiklik əmsalından istifadə yolu ilə dinamikə çevirməyə

imkan verir. Elastiklik əmsalı nəzərə alınmaqla istehsal funksiyası belə olur:

$$Y = k \cdot K^{\alpha} \cdot L^{\beta} \cdot N^{\gamma}.$$

Burada k – proporsionallıq əmsalı;

α, β, γ – empirik yolla tapılan elastiklik əmsalları;

K, N, L – əsas istehsal amilləridir.

Müəyyən müddətdən sonra iqtisadi artımın modelləşdirilməsinə marjinalist yanaşmada ciddi qüsurlar ortaya çıxdı ki, bunlar XX əsrin 30-cu illərinin Böyük depressiyası və iqtisadiyyatın qeyri-tarazlı vəziyyətləri başlayan dövr- lərdə daha bariz təzahür etdilər. Birincisi, marjinalistlər yalnız insanın rasionallığını nəzərə alır, onun xüsusi təbiətini və ondakı keyfiyyət dəyişikliklərini nəzərə almırdılar. Əslində, insanın bütün davranışı mənfəətin maksimallaşdırılması yollarının axtarılması ilə məhdudlaşırdı ki, bu da insanın daha zəngin sosial təbiətinə uyğun deyil. İkincisi, statik bazar tarazlığının təhlilin daimi şərti qismində götürülməsi bazarın faza təbiətinə müvafiq deyil. Tədqiqatın müstəsna alətinə çevrilmiş riyazi analizə alüdəlik iqtisadi artımın marjinalist modelini müxtəlif ölkələrin milli iqtisadiyyatlarının real şəraitlərindən qoparılmış mücərrədçiliyə çevirmişdi.

Həddən artıq riyaziləşdirmə təhlükəsinə ilk dəfə marjinalizm tərəfdarı A.Marşall diqqət yetirmişdi. O, güclü riyaziyyatçı idi, lakin şəxsən öz nəzəriyyələrinin verilməsində riyaziyyata bu elmi ondan zəif bilən həmmüasirləri Valras və Cevonsla müqayisədə daha az yer verirdi. Marşall hesab edirdi ki, iqtisadiyyatda riyaziyyata hədsiz alüdəçilik «diqqətimizi real həyat şəraitlərinə uyğun gəlməyən intellektual oyuncaqlara, yalançı problemlərə yayındıra bilər. O, perspektivi təhrif edərək bizi riyazi aparata güclə gələn faktlara diqqət yetirməməyə təhrik edə bilər»[1]. O, riyaziyyatı yalnız köməyi ilə fikri daha dəqiq və aşkar ifadə etmək mümkün olan ciddi dil qismində görür, bir təhlil vasitəsi kimi isə onu inkar edirdi. Marjinalist cərəyan Marşallın töv-

1 Bax: История экономических учений.- М.: ИНФРА-М, 2000. С.257-258.

siyə etdiyi yolla getmədi: riyazi modellər iqtisadi fikri şərh etmək və onu ifadə etmək metodu əvəzinə fəal şəkildə məhz əsas təhlil vasitəsi və metodu kimi istifadə olunmağa başladılar.

Marjinalizmin (neoklassisizmin) əsasında daha bir «günah» durur ki, bu da fövqəladiliyə iddiadan və iqtisadiyyatı öz predmeti və metodu olan, yalnız insanın rolunu deyil, həm də onun sosial-iqtisadi sistemdə yerini açıqlayan sistemli fundamental elmə çevirmiş marksist məktəb də daxil olmaqla siyasi iqtisadın müddəalarına məhəl qoymamaqdan ibarətdir. Marjinalistlər, sintezdən və bilikləri artırmaq yolundan imtina edərək, bazar şəraitində insanın rasionalist davranışına və riyazi təhlil metodlarına əsaslanan yanaşmalarını siyasi iqtisadi yanaşmaya qarşı qoyaraq öz elmlərini «ekonomiks» adlı tətbiqi istiqamətə çevirdilər.

Bununla baxışların sonrakı inqilabı üçün şərait hazırlandı ki, bunun da əsası **keynsçi məktəb** oldu. O, iqtisadiyyatın qeyri-sabit, qeyri-tarazlı və ya böhranlı vəziyyəti nəzərə alınmaqla iqtisadi artım prosesinin dərkinə sistemli, yəni makroiqtisadi yanaşmanı bərpa etdi. Keynsçi artım modelləri aşağıdakı verilənlər üzərində qurulmuşdur:

1) iqtisadi artım yığım (qənaət edib saxlama) prosesi ilə bağlıdır;

2) istehsal amilləri qarşılıqlı əvəzlənən deyillər;

3) $I = S$ (investisiyalar – yığım pulları);

4) milli gəlirin artımı yalnız kapital yığımı norması ilə müəyyənləşir;

5) qiymətlər çevik deyil;

6) subyektlərin gözləmələri statikdir;

7) kapital tutumu yalnız istehsalın texniki şəraitləri ilə müəyyənləşir.

Əgər ekzogen amillər nəticəsində tarazlı trayektoriyadan get-gedə daha çox yayınma baş verirsə, tarazlığın bərpa olunmasının mühüm amili yayınma amillərinə (tsikliklik, inflyasiya, işsizlik və s.) yığımları investisiyalara çevirən gəlir multiplikatoru (m – məcmu tələbi vasitəsilə dövlətin

multiplikasiyaedici təsiridir) əsasında tələbi fəal tənzimləmə yolu ilə təsir göstərən dövlət olur.

XX əsrin 40-60-cı illərində keynsçilik hakim nəzəri məktəb oldu. Onun əsas xidməti onda idi ki, o, iqtisadi artıma dar bazar yanaşmasından kənara çıxaraq dövlət-inzibati resursun mühüm rolunu qiymətləndirə bildi və qarışıq iqtisadiyyatın nəzəri bazası olmaqla, xalis kapitalizmin qarışıq iqtisadiyyata çevrilməsinə rəvac verdi. İctimai tələbin dövlət tərəfindən stimullaşdırılması və ən əsası, ailənin (ev təsərrüfatının) iqtisadi artımın sosial amili kimi götürülməsi istehsal və istehlak və müvafiq olaraq iqtisadi (bazar) səmərəlilik və sosial ədalət (gəlirlərin tənzimlənməsi, differensiasiyası baxımından) arasındakı əbədi ziddiyyəti xeyli yumşaltmağa imkan verdi. Bu baxımdan S.Kuznetsin yanaşması xüsusi diqqətə layiqdir. Lakin keynsçi reseptlər əvvəl istifadə olunduqları şəkildə eyni zamanda inflyasiyaya və böhranlara (staqflyasiya) qarşı mübarizə apara bilməzdilər. XX əsrin 70-ci illərində keynsçilikdən əvvəllər neoklassik reseptlərdən imtina etdikləri kimi fəal imtina etməyə başladılar və buna dövlətin və onun bürokratiyasının rolunun mütləqləşdirilməsi kimi əbədi təhlükə xeyli rəvac verdi. Bundan monetarist və liberal tipli yeni klassikanın modernləşdirilmiş istiqamətlərinin nümayəndələri istifadə etdilər.

Lakin qeyd etmək lazımdır ki, iqtisadi artımın yeni qarışıq iqtisadiyyat şəraitində mühüm rolunun dərkində institusionalizm məktəbi böyük rol oynamışdır. Onun nümayəndələri iqtisadiyyatın insan amilinə münasibətdə neoklassiklərin və erkən və yetkin keynsçilərin yanaşmalarındakı çatışmazlıqları nəzərə almağa çalışdılar. Onlar, ziddiyyətlərin tənqidi təhlili mövqeyindən marksist məktəbin ənənələrini davam etdirərək, iqtisadi (bazar) səmərəlilik və sosial ədalətin optimal qarşılıqlı əlaqəsinin təmin edilməsinin bazar və dövlət mexanizmlərinin nisbəti (proporsiyaları) probleminə diqqət yetirdilər. Marksistlərdən fərqli olaraq, sosial ədaləti onlar insan amilinin keyfiyyətinin və onun istehsalçı və istehlakçı kimi rolunun dəyişməsi ilə bağlı nəzərdən keçirir-

dilər. Söhbət yeni növ ikibölməli (bazar - qeyri-bazar) iqtisadiyyatın yaranmasından gedir ki, burada bir iş qüvvəsi kimi insana ondan ayrı olan istehlak sahəsi qarşı durmur. Bu fenomen istehsal fəaliyyətini və nemətlərin və xidmətlərin fəal istehlakını bir-birindən ayırmayan prozyumerin (bu məfhum iki ingilis sözünün: *production* - istehsal və *consumer* – istehlak – birləşməsindən əmələ gəlmişdir) yaranması kimi nəzərdən keçirilir[1]. İş yerində fəaliyyət informasiya istehlakını və biliklərin mənimsənilməsini get-gedə daha çox tələb edir, bu isə öz növbəsində get-gedə daha çox intellektuallaşan məhsulun artımı üçün şərait yaradır. Belə hadisə işçilərin, korporasiya və dövlətlərin yönümünü dəyişir, yeni növ qarışıq iqtisadiyyat növü – insan üçün iqtisadiyyatı və ya sosial yönümlü iqtisadiyyatı formalaşdırır.

Bu fenomeni ilk dəfə institusionalizm məktəbinin məşhur nümayəndəsi C.K.Helbreyt təhlil edərək yeni qarışıq iqtisadiyyatın zəmini qismində kapitalizm və sosializmin konvergensiyası ideyasını irəli sürdü. Lakin onu tənqid edənlər bu ideyaya sırf ideoloji problem kimi baxırdılar. Bu məktəbin dəgər nümayəndəsi bu ideyanı praktikada tətbiq etdi. Məşhur holland iqtisadiyyatçısı Nobel mükafatı laureatı Yan Tinbergen (1969-cu il) böyük ekonometrik model hazırladı ki, bu, Hollandiyanın 20 ildən artıq bir müddət ərzində iqtisadi siyasətinin və inkişaf modelinin sxemi idi. O, «istehsalda kapitalizmi bölgüdə sosializmlə» onların inteqrasiyası zəminində birləşdirən sistemi optimal hesab edirdi. Bu model XX əsrin 70-ci illərinin sonunda neoklassik məktəbin nümayəndələri, o cümlədən R.Lukas tərəfindən iqtisadiyyatın dövlət tənzimləməsində ciddi çatışmazlıq olan siyasi manevrlərlə bağlı qeyri-müəyyənlik amili mövqeyindən tənqid olunmuşdu. Müasir inkişafın göstərdiyi kimi, bu vəziyyətdən çıxış yolu hüquqi dövlət və insanın yeni roluna yönümlənmiş hüquqi bazarın mövcud olduğu institusional iqtisadiyyatdır.

Qeyd etmək lazımdır ki, müasir növ qarışıq iqtisadiyyatın xarakterini ən adekvat əks etdirən əsas iqtisadi artım

1 Bax: Toffler Third Ware. N.Y., 1980. P. 388.

modellərindən biri Rusiya mənşəli Amerika iqtisadiçısı, 1973-cü il Nobel mükafatı laureatı Vasili Leontyevin hazırladığı sahələrarası balans modelidir. Bu model «xərclər - buraxılış» adı altında məlumdur. O, xətti cəbrin aparatından istifadə etməklə şahmat tipli cədvəllər məcmusu şəklindədir. Cədvəldə iqtisadiyyatın ÜMM-dəki xüsusi rollarına görə qruplaşdırılmış sahələri arasındakı miqdari əlaqələr verilmişdir.

V.Leontyev modeli sonrakı inkişafını Rusiya kibernetika alimlərinin - İOFS (iqtisadiyyatın optimal fəaliyyəti sistemi) məktəbi nümayəndələrinin əsərlərində tapdı. Onlardan 1975-ci il Nobel mükafatı laureatı L.V.Kantoroviçi, V.V.Novojilovu, V.S.Nemçinovu, A.L.Luryeni və b. göstərmək olar. Bu modellərin hamısını bir xüsusiyyət – riyaziyyatın iqtisadiyyatdakı əhəmiyyətli hadisələrin ifadə forması olduğu iqtisadi təhlilin dərinliyi fərqləndirir. İqtisadi təhlilin inkişafına böyük töhfələr vermiş və riyazi modellərdən istifadəni bütün iqtisadçılar üçün vacib etmiş V.Leontyev riyazi modellərin «gözəlliyinə» hədsiz aludəçiliyə uymamağa və onların praktik məsələlərin həllindən uzaqlaşdırılmamasına çağırırdı.

İqtisadi artım probleminin praktik işlənilməsinə töhfənin və İOFS modelinin aktuallığının mühümlüyü ondadır ki, o, insana istiqamətlənmiş, özündə sosial ədalət və iqtisadi səmərəlilik prinsiplərini birləşdirən iqtisadiyyatın obrazını yaratdı. İnsan amilinin prioritetliyi zəminində bu iki prinsipin sintezi XXI əsr iqtisadiyyatının əsas problemidir.

Təəssüf ki, İOFS modelini işləyənlərin xidmətləri haqsız yerə kiçildildi və bazar islahatlarının yenidənqurma eyforiyası şəraitində sonrakı inkişafını tapmadı. İqtisadi nəzəriyyədə ortodoksallığı aradan qaldırmaq və sintez ideyasına gəlmək üçün kifayət qədər çox vaxt lazım oldu. Bu model digər istiqamətlərin: neoklassik, neokeynsçi və neoinstitusional – təkmilləşdirilməsi prosesində özünə yol açdı.

§2. Neoklassik artım modelləri–bazarın mütləqləşdirilməsi

Solou modeli neoklassik yanaşma tərəfdarları baxışları çərçivəsində ən sadə müasir iqtisadi artım modelidir. Modeldə əsas subyektlər ev təsərrüfatları və firmalardır. Onun əsas parametrləri qismində bunlar nəzərdən keçirilir: əhalinin ümumi sayında işləyənlərin payı, əhalinin artım tempi (DN/N = *n*), kapitalın amortizasiya payı - dK, S_y milli gəlirdə yığımın xüsusi çəkisi. Bütün amillər qarşılıqlı əvəzlənən olduğundan ehtimal olunur ki, kapitalla silahlanma müxtəlif zaman kəsiklərində (dövrlərdə) dəyişir.

İstehsal texnologiyası dəyişilməz olduğu şəraitdə əhalinin adambaşına düşən istehsal həcminin dəyişmələrini əks etdirən funksiya aşağıdakı kimi göstərilir:

$$y_t = f(k_t).$$

Burada $k_t = \frac{K_t}{N_t}$ əməyin bir işçiyə düşən kapitalla silahlanması;

$y_t = \frac{Y_t}{N_t}$ t dövründə bir işçiyə düşən əmək məhsuldarlığıdır.

Solou modelində kapital yığımının baza tənliyi:

$$\Delta k_t = S_y y_t - (d + n)k_t .$$

Burada Δk_t – t anında kapitala silahlanmanın dəyişməsi;


$S_y y_t$ – t dövründə bir məşğulun yığım payı;

nk_t - əhalinin və məşğulların artması ilə şərtlənən kapital artımı;

dk_t - t dövründə bir məşğulun payına düşən yeniləşən kapitalın payı.

Şəkil 21.1-də Solou iqtisadi artım modeli verilmişdir.

Bu model texniki tərəqqinin ekzogen xarakteri, yəni onun olmaması və yeniləşən kapitalın daimi payı şərti ilə sa-



Şəkil 21.1. Solou iqtisadi artım modeli

bit müvazinətli vəziyyət ideyasını ifadə edir. Bu, kapitalla silahlanmanın (k_t) müəyyən müvazinətli vəziyyətini təmin edir. Dinamik müvazinətli vəziyyətdə kapitalla silahlanmanın artımı sıfra bərabər olmalıdır, onda:

$$S_y f(k_t) = (d + n)k_t .$$

Bu o deməkdir ki, yığımın xüsusi çəkisinin əhali artımı ilə bağlı istənilən dəyişməsi investisiyaların artımının xüsusi çəkisinə müvafiq olmalıdır:

$$\frac{\Delta S_t}{N_t} = \frac{\Delta I_t}{N_t}$$

Belə şərt tam məşğulluq zamanı ideal dinamik tarazlığa müvafiqdir.

Solou modelindən iqtisadi artımın şərtləri olan və eyni zamanda onun optimallığı meyarları qismində çıxış edən bir sıra müddəalar çıxartmaq olar:

1. İqtisadiyyatın dayanıqlı tarazlıqlı vəziyyətində iqtisadi artım tempi əmək resursları keyfiyyətinin artım tempi ilə müəyyənləşir.

2. Modelin texnoloji dəyişilmə şərtləri iqtisadi artım templərinin artmasına səbəb olur.

3. Yığım səviyyəsi qısamüddətli dövrdə artım tempinə təsir edir, uzunmüddətli dövrdə bu təsir olmaya da bilər.

4. İqtisadi artım tempinin optimallıq meyarı adambaşına düşən istehlakın (yığımın «qızıl qaydası») optimallaşdırılmasıdır. Bu o deməkdir ki, iqtisadi artım yalnız mümkün

istehlak səviyyələrindən maksimumuna gətirib çıxartdıqda səmərəli olur. Bu zaman ən yaxşı, yəni maksimal istehlak səviyyəsinin seçilməsi stasionar tarazlı vəziyyətin dayanıqlığını pozmayan variantın tapılmasını nəzərdə tutur. «Qızıl qayda»nın işlənilməsində M.Allenin, K.Vaytszekkerin və E.Felpsin böyük xidmətləri olmuşdu.

İqtisadi artımın optimal templərinin təmin edilməsi üçün bütün mənfəət istehsala qoyulmalıdır.

Solou modelində əsas iqtisadi artım şərti qismində texniki tərəqqi götürülür və o, rifahın təmin edilməsində əsas amil əlavəedici vasitə (kapital və əmək əlavəedici) kimi nəzərdən keçirilir. Bu halda texniki tərəqqi texnologiyanın dəyişməsini dəyişilənlərdən (kapital, əmək, vaxt) asılı olmayaraq zamanda təsvir edən istehsal funksiyası ilə verilirsə, onda ekzogen (muxtar) amil kimi nəzərdən keçirilir. Əgər bu artım bütün amillər üçün eynidirsə, bu eyni əlavəedici texniki tərəqqidir ki, onu neytral kimi səciyyələndirmək olar. Solou modelində istehsal funksiyalarının (kapital, əmək, torpaq, vaxt) hamısının dəyişməsində fəal iştirak edən dəyişilənlərin mövcudluğu ilə səciyyələnən maddiləşmiş (əşyalaşmış) texniki tərəqqi kimi amilin fərqləndirilməsinin mühüm əhəmiyyəti var.

İqtisadiyyat elmi tərəfindən tanınmış məziyyətlərinə baxmayaraq Solou modelinin bir sıra çatışmazlıqları var. Nə yığım prosesi, nə pul yığımı normasının artması iqtisadi artımın fasiləsizliyi mexanizmini izah etmirlər. Bu model bir tarazlıqlı vəziyyətdən digərinə keçməyin mümkünlüyünü istehsalın mikroiqtisadi amillərinin dəyişilməsinin nəticəsi kimi dərk etməyə imkan verir. Buna görə də Solou modelə texniki tərəqqi və əhali artımı kimi makroiqtisadi amilləri daxil edir. Bu ehtimala müvafiq olaraq uzunmüddətli dövrdə dayanıqlı tarazlıq rifahın dayanıqlı artımının yeganə əsası kimi texniki tərəqqi ilə izah olunur. Lakin bu amil əsasən ekzogen kimi nəzərdən keçirilir ki, bu da onların rolunun lazımınca nəzərə alınmaması təhlükəsini artırır. Göstərilən çatışmazlıqlar bütün problemlərin, o cümlədən iqtisadi artım probleminin həllində həlledici rolu bazara ayıran neoklassiklərin ümumi mövqeyindən irəli gəlir.

Öz baxışlarına görə neoklassik istiqamətə aid olan iqtisadçılar Q.Menkyü, D.Romer və R.Lukas bu çatışmazlıqları aradan qaldırmağa cəhd edərək insan amilinin mühüm rolunu nəzərə almaqla Solou modelini dəqiqləşdirməyə və ona əlavələr etməyə cəhd etmişdilər.

Q.Menkyü, D.Romer 1992-ci ildə Solou modelinin özünün klassik şəklində inkişaf edən ölkələrdə və xüsusilə də Şərqi-Sakit okean regionu ölkələrində tətbiq oluna bilməməsi faktına diqqət yetirdilər. Onlar bu nəticəyə gəldilər ki, onun xalis şəkildə tətbiqi inkişaf etmiş ölkələrdə verdiyi nəticəni verə bilməz, çünki modeldə kapital tutumlu (qabaqcıl ölkələr üçün tipik olan) texnologiyalara üstünlük verilir və texniki tərəqqinin əsası hər şeydən əvvəl əməyin kapital silahlanmasıdır.

Yuxarıda göstərilən müəlliflərin işlədikləri iqtisadi artım modellərində Solou modelinin ona insan amilinin özünün yeni keyfiyyətində – insan kapitalı kimi daxil edilməsi yolu ilə genişləndirilməsi variantı təklif olunmuşdu.

İnsan kapitalı dedikdə işçinin biliklər, vərdişlər əldə etməsini, həmçinin motivasiyası və enerjisini nəzərdə tutan bütün istehsal keyfiyyətlərinin məcmusu başa düşülür. Texniki kapitala analogiyaya görə, bu keyfiyyətlər onların daşıyıcısına gəlir əldə etmək imkanı verir.

İnsan kapitalı insanın anadangəlmə keyfiyyətləri əsasında onlara məqsədyönlü investisiyalar qoyulması vasitəsilə formalaşdırılır. İctimai təkrar istehsal səviyyəsində insan kapitalının keyfiyyəti istehsalın səmərəliliyi və iqtisadi artım templərində öz əksini tapır. İnsan kapitalına investisiyalar milli iqtisadiyyata ən çox gəlir gətirir və onu artıma sövq edir. Bu effekt texniki inkişaf səviyyəsi aşağı olan inkişaf etməkdə olan ölkələrdə xüsusilə bariz görünür. O, insan kapitalı nəzəriyyəsinin banisi olan T.Şults tərəfindən tədqiq olunmuş və o, birinci olaraq insan kapitalı effektini qiymətləndirməyə cəhd etmişdi. O, texniki cəhətdən yüksək inkişaf

etmiş sayılan ABŞ iqtisadiyyatının timsalında sübut etmişdi ki, insan kapitalından gəlir texniki kapitaldan gəlirdən çoxdur və bütün ölkələri təhsilə, səhiyyəyə və elmə kapital qoyuluşlarına üstünlük verməyə çağırmışdı.

Solou modelinin modifikasiyasında 1995-ci il Nobel mükafatı laureatı Robert Lukas mühüm rol oynamışdı. O, sosial-texniki tərəqqi kimi başa düşülən texniki tərəqqi amili olan insan kapitalının roluna yeni yanaşmaları nəzərə alaraq Q.Menkyü, D.Romer və D.Ueylin təkliflərini ümumiləşdirmiş və istehsalın daxili endogen amili kimi insan kapitalının təsirini nəzərə alaraq istehsal funksiyasının yeni şərhini vermişdi. Bu, Solou modelinin dar texnokratikliyini aradan qaldırmaq cəhdi idi. Yeni yanaşmanın nümayəndələri istehsal funksiyasının aşağıdakı dərkindən çıxış edirlər: onlar insan kapitalını və fiziki kapitalı əmək amili ilə birgə nəzərdən keçirirlər:

$$\Delta Y = K^{\alpha}L^{\beta}H^{\gamma}.$$

Burada H – insan kapitalı;

Y – milli gəlir həcminin orta illik artım tempi;

α – empirik verilənlər əsasında gəlirdə fiziki kapitalın payı;

β – istehsalda əməkhaqqı payına müvafiq olan adi əməyin payı;


γ – insan kapitalının payıdır.

İnkişaf etmiş ölkələrin statistikası göstərir ki, hazırda insan kapitalının payı dayanıqlı olaraq fiziki kapitalın payını üstələyir. İnkişaf etməkdə olan ölkələrə tətbiqən müəyyənləşdirilmişdir ki, onlarda bütün qeyd olunmuş istehsal amillərinin payı eynidir, yəni $Y = K^{1/3}L^{1/3}$.

Belə yanaşmada iqtisadi artımın texnokratik hadisə, yəni fiziki kapitalın nəticəsi kimi formalaşmış ənənəvi dərki dəf olunur. Onun daimi tərkib hissəsi sosial amil olur, artımın özü isə yeni keyfiyyətlər kəsb edərək, məzmununa görə sosial-iqtisadi hadisə olur. Buna görə də belə yanaşmada inkişaf artıq insan kapitalının onun ən səmərəli formasında yı-

ğılması kimi başa düşülür ki, bu zaman onun milli iqtisadiyyatda praktik realizə olunması üçün zəruri şərait yaradılmış olur. Bundan əlavə, hazırda get-gedə daha çox aydın olur ki, intellektual bilikləri və qabiliyyətləri inkişaf etdirə və onlardan fəal istifadə edə bilməyən ölkə uğursuzluğa məhkumdur. Kapital və torpaq iqtisadi artımın passiv, ümumi və xüsusi biliklərə malik insanlar, həmçinin alimlər isə aktiv amillərinə çevrilirlər. Belə yanaşma, əslində, ənənəvi ekonomiks çərçivəsindən kənara çıxılması deməkdir ki, bu da institusionalizm məktəbinin iqtisad elminə verdiyi töhfələr nəzərə alınmaqla daha bariz görünür.

İqtisadi artım sahəsində yeni yanaşmaları nəzərə alaraq neoklassik yönümlü iqtisadi fikrin iqtisadi artım modelinin ümumi sxemini aşağıdakı şəkildə vermək olar (şəkil 21.2).



Şəkil 21.2. Yeni yanaşmalar nəzərə alınmaqla neoklassik istiqamətin iqtisadi artım modeli

Hətta özünün modernləşdirilmiş variantında neoklassiklərin təklif etdikləri birləşmiş iqtisadi artım modelinin dar praktik tətbiqi var, çünki onda əsas tənzimləyici və təşkiledici mexanizm qismində bazar təklif olunur. Lakin qarışıq iqtisadiyyat və onun gələcək postsənaye cəmiyyətinə və müvafiq olaraq yeni iqtisadiyyata hərəkəti yolunda informasiya, bilik və elm iqtisadiyyatına transformasiyası şəraitində bazar mexanizmlərinə istinadın kifayət etməməsi getgedə daha aşkar görünür. Bazar iqtisadiyyatının əsas məhdudluğu ondadır ki, o, mikrosəviyyədə üfüqi koordinasiya mexanizmi qismində iqtisadi artımın yaxşı tənzimləyicisi və amilidir, lakin müasir iqtisadiyyatın səviyyələr üzrə inkişafı nəzərə alındıqda onun şaquli istiqamətdə səmərəliliyi azalır.

Bazar ilkin mərhələdə yüksək xərc tələb edən təhsil, elm, səhiyyəyə ictimai tələbatı nəzərə almır və təmin edə bilmir. Bundan başqa, bazar mexanizmi beynəlmiləl təbiətli olduğundan iqtisadiyyatın insanların davranışında mühüm rol oynayan mentallıqlarındakı fərqi nəzərə alan milli amillərinə münasibətdə neytraldır.

Bazarın iqtisadiyyatın milli modellərinin yaranmasında təzahur edən müasir transformasiyaları ilə uzlaşmayan bu keyfiyyətləri nəzərə alındıqda, başqa məktəblər tərəfindən təklif olunan, başqa təşkil formalarına və artım mənbələrinə əsaslanan yanaşmalara diqqət artır. Bunların sırasında yeniləşdirilmiş keynsçi və institusional məktəblər diqqətəlayiqdirlər.

§3. Neokeynsçi artım modelləri – dövlətin mütləqləşdirilməsi

Bütün keynsçi artım modelləri iqtisadiyyatda dövlətin daimi fəal təşkiledici roluna əsaslanır və iqtisadiyyat qarışıq iqtisadiyyata çevrilir. Dövlət mikrosəviyyədə öz tənzimləyici rolunu həyata keçirən bazarla yanaşı iqtisadiyyatın makroiqtisadi tənzimləmə mexanizmi kimi nəzərdən keçirilir. Keynsçi baxışların tənqid edilməsi cəhdləri adətən resessiya

fazasına müvafiq olan (böhranlı inkişaf) qısamüddətli dövrdə dövlətin düşünülmüş şəkildə mühüm təşkiledici rolunun etiraf edilməsi ilə məhdudlaşır. Lakin keynsçi yanaşma iqtisadiyyatın səviyyəvi strukturu nəzərə alınmaqla onun şaquli koordinasiyasını təmin edən dövlət tənzimləməsi tələbatını doğuran uzunmüddətli səbəblərlə şərtlənir.

Keynsçi modellərin 60-70-ci illərdə inkişaf etmiş ölkələrdə meydana gələn və iqtisadiyyatın xalis bazar tənzimlənməsinin tərəfdarlarının (neoklassiklərin) yayılması və yenidən canlanmasına əsas vermiş uğursuzluqlarına güman ki, daha çox dövlətin iqtisadiyyata müdaxiləsinin dərkində həddi aşmaq səbəb olmuşdu. Təcrübə göstərir ki, iqtisadiyyatın mərkəzləşdirilmiş tənzimlənməsinin rolunun şüurlu şəkildə şişirdilməsi mənfi nəticələrə gətirə bilər, dövlətin əsassız müdaxilələri isə kəskin şəkildə məhdudlaşdırılmalıdır.

Ölkələrin çoxunun sosial-iqtisadi təcrübəsi XX əsrin ikinci yarısından başlayaraq göstərir ki, iqtisadi artım sürəti və rifah səviyyəsi yalnız bazar mexanizmindən deyil, daha çox iqtisadiyyatı təşkil etmək və nizamlamaq bacarığından asılıdır. İqtisadi artımı bazarın təbii fəaliyyətinin nəticəsi kimi izah etmək cəhdləri tarixin sınağından çıxmadı. Bir sıra ölkələrin iqtisadi inkişafında uğursuzluqlar və iflaslar neoklassiklərin reseptlərinə baxmayaraq, çox heyrətamiz tərzdə istehsal və bütün təsərrüfat həyatının müasir bazar modeli şəraitində düşünülmüş təşkil formalarının dəyərincə qiymətləndirilməməsinin, əsas tənzimləyici rolu inhisarların oynadığı qeyri-təkmil rəqabətin nəticəsi kimi özlərini təkrar istehsal edirlər.

Elmi-texniki tərəqqi və ictimai təşkilin qabaqcıl formaları hazırda iqtisadi artımın ilkin səbəbləri sırasına qatılaraq, onu xalis iqtisadi bazar hadisəsindən iqtisadi inkişafın sosial-iqtisadi amilinə çevirmişlər. 1998-ci ilin Nobel mükafatı laureatı Böyük Britaniyada işləyən hindistanlı iqtisadçı *Amartiya Sen (Amartya Sen)* inkişaf etmiş ölkələrdə aclıq probleminin tədqiqinə həsr olunmuş əsərlərində göstərmişdi ki, aclıq ərzağın çatışmaması ilə deyil, iqtisadiyyatın pis ida-

rə olunması, resursların düzgün bölünməməsi (allokasiya) ilə bağlıdır. Rus iqtisadçı alimi A.Poqorletski bununla əlaqədar olaraq qeyd edir: «İnkişaf etmiş ölkələri sərvətlərinə görə istənilən qədər tənqid etmək olar, lakin bu sərvət onlar üçün göydən tökülməyib, iqtisadiyyatın optimal idarə edilməsi modeli müqabilində əldə olunmuşdur»[1].

Neokeynsçi iqtisadi artım konsepsiyasının əsasında xeyli sadə model durur ki, onun da əsas prinsipləri XX əsrin 40-50-ci illərində R.Xarrod və U.Domar tərəfindən verilmişdi.

Bu modelin xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

1. Onda milli gəlirin artımının yalnız bir amili – kapital qoyuluşu və ya investisiyalar (kapital yığımı norması) nəzərə alınır.

2. Bu, birməhsullu modeldir.

3. Kapital tutumluluğu kəmiyyəti, yəni investisiya edilmiş kapitalın (əsas kapital + ehtiyatlar) milli gəlirə nisbəti sabit götürülür.

4. Yeni kapital qoyuluşları kapital tutumluluğunu dəyişmirlər («neytral texniki tərəqqi»ni belə adlandırırlar).

5. Təbii tarazlıq bazar tərəfindən müəyyənləşdirildiyindən dinamik tarazlığa çatılması üçün iqtisadi artım tempini təmin edən dövlət müdaxiləsi zəruridir.

Xarrod modelində iqtisadiyyatın hər üç subyekti: dövlət, ev təsərrüfatı və firmalar – təmsil olunmuşlar.

Dinamik tarazlığı təmin edən artım tempini Xarrod ***təminatlı artım tempi*** (G_w) adlandırmışdı. Bu temp kapital artımından tam istifadəni təmin edir. Xarrod bir də ***artımın təbii tempini*** və ya təbii faiz normasını (r^n) qeyd etmişdi ki, bu zaman investisiya xərclərinin artımı bütün əmək resursları artımının iş yeri ilə təmin edilməsi üçün kifayət edir. Əgər təminat verilmiş temp təbiidən aşağıdırsa, onda investisiya qoyuluşunun mənası var. Faktik tempin təminat verilmişdən üstün olması dinamik tarazlıqdan yayınmalara

1 Погорлецкий А.И. Экономика зарубежных стран: Учебник.- СПб.: изд-во Михайлова В.А., 2000. С.47.

gətirə bilər.Təminat verilmiş temp təbiidən yüksək olarsa, dinamik tarazlıq yaratmaq üçün əhali artımı kifayət deyil. Əgər faktik artım tempi təminat verilmişdən aşağıdırsa, bu, istehsalın aşağı düşməsinə səbəb olacaq.

Özünün 1946-1947-ci illərdə yazılmış məqalələrində Xarrodun işləri ilə tanış olmayan Amerika iqtisadçısı Y.Domar müstəqil olaraq Xarrodun təminat verilmiş artım tənliyinə analoji olan tarazlı artım tənliyini almışdı. Doma- rın əsas ideyası ondan ibarət idi ki, investisiyalar iqtisadiyyatda ikili rol oynayırlar: onlar, bir tərəfdən, istehsal gücləri yaradırlar, digər tərəfdən isə dövlət tərəfindən tənzimlənən multiplikator vasitəsilə tələb yaradırlar.

Domara görə, investisiyalar iqtisadiyyatda ikili rol oynayırlar: onlar, bir tərəfdən, istehsal gücü yaradır, digər tərəfdən isə, multiplikator effekti vasitəsilə tələb yaradırlar. Buradan da investisiyaların və milli gəlirin artımı (tarazlı artım şərtilə) kapital verimi və yığım normasının hasilinə bərabər templə artmalıdır.

Xarrod-Domar modelindən belə çıxırdı ki, öz bazar təbiətinə görə dinamik tarazlıq qeyri-sabitdir, buna görə də onun dəstəklənməsi üçün dövlətin faiz dərəcəsi və gəlirin tənzimlənməsinə yönəldilmiş müvəqqəti deyil, daimi fəal hərəkətləri lazımdır.

Sonralar bu model milli gəlirin bölgüsü amili nəzərə alınmaqla C.Robinson, N.Kaldor və Q.Pizetti tərəfindən modernləşdirildi.

Neokeynsçilik üçün bazarın tənzimləyici qabiliyyətinə xeyli tənqidi münasibət xarakteriktir, onların modelləri isə inkişaf etməkdə olan ölkələrdə müsbət effekt verdi («yoxsulluğun qüsurlu çevrəsi», «özüdəstəklənən artım», «böyük təkan», «iki kəsirli iqtisadi artım» modelləri).

«Yoxsulluğun qüsurlu çevrəsi» (Q.Zinger, R.Prebış) əsasında əhali artımı ilə iqtisadi şəraitin dəyişməsi nisbəti ideyası durur ki, onların da artıb-azalması həyat səviyyəsi və keyfiyyətində özünü göstərir. Həyat səviyyəsinin yüksəlməsinin sonrakı əhali artımı tərəfindən tezcə yeyilməsi fak-

tını nəzərə alan alimlər bu qənaətə gəldilər ki, dövlətin əsas təsir obyekti hər ölkənin öz milli və təbii xüsusiyyətlərindən asılı olan ÜDM və onun artımı olmalıdır. Hər ölkənin təbii xüsusiyyətlərinin nəzərə alınması ilə iqtisadi artımın dövlət tənzimləməsi ideyası Rusiya üçün mühüm əhəmiyyət kəsb edir, doğrudur, əhalinin təbii artımı nəticəsindən daha çox, təbii renta və əhalinin intellektual qabiliyyətinin və təhsilin yüksəldilməsi cəhdlərinin nəticəsi olan intellektual rentadan səmərəsiz istifadənin nəticəsində.

«Özüdəstəklənən artım» modelinin mahiyyəti hər bir ölkəyə, onun inkişaf mərhələlərinə xas olan tarixi amillərin nəzərə alınmasındadır. Mərhələlərin fərqləndirilməsi üçün meyar yalnız texniki tərəqqinin vəziyyətini səciyyələndirən ənənəvi texniki-iqtisadi göstəricilər deyil, həm də insanların mənəvi inkişafından asılı olaraq həyat səviyyələrini səciyyələndirən sosial göstəricilər olmalıdır və onlar milli sosial institutların köməkliyi ilə iqtisadi artımın təmin edilməsinin mühüm amilləri kimi nəzərə alınmalıdır. Bu modelin əhəmiyyəti ondadır ki, iqtisadi artımın təmin edilməsi amilləri sırasında əsasən investisiyalar və milli gəlirin artım tempinin nisbəti durur, amma sosial, institusional dəyişikliklər kölgədə qalır və bazarın inhisarçılığı və texniki-iqtisadi nailiyyətlərin prioritetlərini izləyən dövlət tərəfindən ləngidilir. Belə yanaşmada inkişaf bir sosial-iqtisadi proses kimi yoxsulluqla uzlaşan yüksək artım tempinin sinonimi̇nə çevrilir.

«Böyük təkan modeli» bir növ əvvəlki iki modelin sintezi oldu. Onun banisi onu Avropa civarlarının zəif inkişaf etmiş ölkələri üçün təklif etmiş P.Rozenşteyn-Rodandır.

Sonradan onun işlənilməsində R.Nurkse, X.Lebenstayn, A.Xirşlan, Q.Zinger və b. iştirak etmişdilər. Bu modellər üçün sosializm ruhundakı direktiv təsirdən azad milli planlaşdırma ideyasına və qarışıq iqtisadiyyatın xüsusiyyətlərinin nəzərə alınmasına əsaslanan makroiqtisadi tənzimləmə ideyası səciyyəvidir. İnkişaf burada dövlətin strateji resurslardan təmərküzləşdirilmiş, mərkəzləşdirilmiş istifadə zəminində həyata keçirdiyi dərin struktur dəyişiklikləri kimi başa düşülür. Bu halda iqtisadi artım strateji milli resurslardan balanslaşdırılmış istifadəni təmin edən dövlətin fəal siyasətinin nəticəsi kimi anlaşılır.

«İki kəsirlə iqtisadi artım modeli» (X.Çeper, M.Bruno, A.Straut, P.Eksteyn, N.Karter və b.) daxili (yığım kəsiri) və xarici (ticarət kəsiri) kəsirlərin dövlət tərəfindən idarə olunması sistemidir. Modernizasiya siyasəti tərəfindən nəzərdə tutulmuş və bu kəsirlərdən ən böyüyü ilə müəyyənləşdirilən verilmiş məqsədli artım tempinin təmin edilməsi üçün xarici siyasət ideyası buna əsaslanır. Bu model inkişafı xarici kömək hesabına həyata keçirilən ölkələr üçün işlənilmişdi.

Neokeynsçi modellər nə qədər cəlbedici olsalar da, onların çatışmazlığı ondadır ki, onlar iqtisadiyyatı ümumi və yeganə idarəetmə mexanizminin bazar olmasının kifayət etməməsini düzgün qeyd etsələr də, dövlətin tənzimləyici rolunu və onun «bürokratik yanaşma inhisarçılığı» qismində iqtisadiyyata hədsiz və məhdudiyyətsiz müdaxiləsinin təhlükəsini şişirdirlər. Məsələn, Rusiyada bu, insan amilinin milli ənənələrini və onun intellektual qabiliyyətlərini (təbii renta ilə yanaşı intellektual renta) diqqətdən kənarda qoyan inzibati-bürokratik yanaşmanın inhisarçılığında bariz təzahür etmişdi. Bununla da artımın sosial amilləri artım mənbələrindən tamamilə çıxarılmış oldu.

§4. Artımın institusional və yeniinstitusional modelləri – sosial sintez

İnstitusional modellər insan amilinin iqtisadiyyatda həm onun iqtisadi artımı vasitəsi, həm də bütövlükdə iqtisadiyyatın inkişafının məqsədi qismində roluna yeni yanaşmalar zəminində yaranmışlar. Sosial institutlardan iqtisadi artımın fəal amili kimi istifadə edilməsi ideyası insanın iqtisadiyyatda roluna daha dərin yanaşma prosesində meydana gəlmişdir.

Klassik nəzəriyyə, həmçinin marksizm də, insanın bu və

ya digər iqtisadi sistemin («şüuru varlıq təyin edir») və onu əhatə edən mühitin (iqtisadi formasiya nəzəriyyəsi) çərçivələrində determinasiyası, qabaqcadan müəyyən olunması ideyasından çıxış edirdi. Belə yanaşmada insana iqtisadi sistemin passiv iqtisadi «vinti və təkərciyi» rolu ayrılırdı. Görünür, ən yaxşı halda iqtisadiyyata siyasi təsir amili kimi götürülən insanın rolunun belə dərki təhlükəsini duyaraq F.Engels qeyd edirdi ki, «Gənclərin hərdən iqtisadi cəhətə lazım olduğundan artıq dəqqət yetirməsində qismən Marks və mən də günahkarıq»[1].

Daha əsaslı tədqiqatlar bu nəticəyə gəlməyə imkan verir ki, K.Marks insanın özünün daxili təbiətinin sosial tərkib hissələri olduğunu və hətta onun sosial-iqtisadi hadisə kimi davranışını müəyyənləşdirən mənəvi aləmini inkar etmirdi. O diqqət yetirmişdi ki, fərd özündə üç tərkib hissəni birləşdirir: «onun mənəvi və təbii xüsusiyyətləri ona eyni zamanda həm də ictimai xüsusiyyətlər forması verir"[2].

Nə qədər paradoksal olsa da, K.Marksa ekonomizmi irad tutan marksist nəzəriyyəsinin tənqidçiləri ona insanın iqtisadi (bazar) modelini qarşı qoyaraq, onun mənəvi amillərini «unutdular», özlərinin insanın mənəvi motivlərin zərərinə sırf praqmatik motivləri əldə rəhbər tutan davranış nəzəriyyələrini yaratdılar. Bu, Smit adamı modeli davranış nəzəriyyəsi adlanan nəzəriyyənin-ekonomiksin əsası oldu. Lakin bu halda insanın davranışı çox vaxt insanı mənəvi şəxsiyyət kimi dağıdan bazar determinizmindən azad olmadı.

Müasir ekonomiksin mərkəzi axını (maynstrimi) olan bu neoklassik nəzəriyyənin bu məntiqi uyğarsızlıqları iqtisadi artımın institusional modeli tərəfdarlarının əsas tənqid obyekti oldular. Tənqidi başlanğıc onları iqtisadiyyatda səbəb-məqsəd əlaqələri (endogen inkişaf qanunları) qismində çıxış edən əsaslı, əhəmiyyətli sosial-iqtisadi ziddiyyətlərin açılmasına əsaslanan marksist nəzəriyyənin metodologiyası ilə yaxınlaşdırır.

1 Маркс К.,Энгельс Ф. Соч. Т.37. М.: Гос.изд-во полит. лит-ры, 1962, С.394-396.

2 Маркс К.,Энгельс Ф. Соч. Т.46. М.: Гос.изд-во полит. лит-ры, 1968, С.457.

İnstitusional nəzəriyyə çərçivəsində yaranmış müasir nəzəriyyələr insanın həm marksist, həm də qeyri-marksist yönümlü ənənəvi iqtisadi nəzəriyyələrdə olduğundan daha dərin və geniş başa düşüldüyü təbiətinin nəzərə alınmasına əsaslanır. İnsanın iqtisadiyyatda roluna yeni yanaşma onun baniləri T.Şults və Q.Bekkerin ideyalarına əsaslanır ki, onlar da *insan = materiya + mənəviyyat + şüur* kimi insanın sosial-iqtisadi mahiyyətini açıqlayan daha dərin düsturdan çıxış edirlər.

Onlar insanın mühüm fəal rolunu tanıyırlar, lakin bu keyfiyyətdə bütün iqtisadi sistemin mərkəzi hissəsi olan müəyyən mikrosistem (Bekkerə görə, kiçik sosium) çərçivəsində. İnsanın belə vəziyyəti və ən əsası – onun mənəvi tərkib hissəsi bütün iqtisadi sistemin məzmunu haqqında təsəvvürləri dəyişir və onu sosial-iqtisadi quruma çevirir. Bu isə öz növbəsində onun inkişafının üç amilinin və müvafiq olaraq artımının üç amilinin: bazar, dövlət və sosial (institusional) tənzimləmənin mühüm rolunu nəzərdə tutur. Eyni zamanda, həmin mexanizmlərin mövcudluğu sistemi həqiqətən də qarışığa (bazar-sosial-dövlət) çevirərək onların insanın özünün davranışına determinasiyaedici təsirini nəzərdə tutur.

Müasir dövrün yeni postsənaye cəmiyyətinə transformasiyasını və əşyalar (bazar) iqtisadiyyatının yeni intellektual biliklər və elm iqtisadiyyatına çevrilmə meyilini nəzərə alaraq sosial tənzimləyicilər əsas və artmaqda olan rol kəsb edirlər. Onlar öz xüsusiyyətlərinə görə (təhsil və mənəviyyat amillərinin həlledici əhəmiyyəti) iqtisadiyyatın real ali tənzimləyicilərinə çevrilir və qarışıq iqtisadiyyatın yeni quruluş qaydalarını təmin edirlər. Bu, etik-mədəni iqtisadiyyatdır ki, burada şəxsiyyət və onun mənəviyyatı bazar və dövlət-hüquqi idarəetmə mexanizmlərindən yuxarıda durur. İqtisadiyyatın belə təşkili sosial-mənəvi istiqamətlənmənin üç tənzimləyici mexanizmi ilə birgə insan təbiətinin yeni dərkinə və onun iqtisadiyyatın əsas vasitəsi və məqsədi qismində vəziyyətinin dəyişməsinə daha çox müvafiqdir.

İnstitusional artım modelləri iqtisadiyyatın artımının mənbəyi kimi bazar və dövlət mexanizmləri rolunun mühümlüyünü etiraf etsələr də, əsas diqqəti insanın əsas resursa, həm də artımının son göstəricisinin - «həyat keyfiyyəti»nin tətbiqini nəzərdə tutan iqtisadiyyatın məqsədinə çevrilməsi amilinə yönəltmişlər.

İnsanın bir insan kapitalı kimi rolu Q.Bekkerin əsərlərində dərindən tədqiq olunmuşdur və o, ailənin (ev təsərrüfatının) mühüm iqtisadi rolunu açıb göstərərək, onun artımın həlledici mənbəyinə çevrilən təhsil və elmi biliklər kimi intellektual məhsul istehsal edən tərkib hissə kimi iqtisadiyyata qoşulması mexanizmini təsvir etmişdir. İnsan kapitalının əhəmiyyətli effekti mikrosəviyyədə müəssisənin resurslarının bazar dəyəri ilə balans dəyəri arasında fərqinin artması şəklində təzahür edir ki, bu da məhsulun intellektual tutumunu müəyyənləşdirməyə imkan verir. Bu məqsədlə qeyri-maddi (insan) resursları müəssisələrin aktivlərinə daxil etməyə başladılar. Məlum oldu ki, bu aktivlərdən gələn gəlir müəssisələrin, xüsusilə yüksək texnologiyalar sahəsində, son nəticə mənfəətinin xeyli hissəsini təşkil edir. Hazırda, bəzi qiymətləndirmələrə görə, ABŞ-ın hətta mədən və emal sənayelərində şirkətlərin bazar dəyərinin payı insan kapitalı effekti hesabına fiziki kapital effektini xeyli üstələyir. Bununla da elmdə hansısa nəzərə alınmayan və məhəl qoyulmayan artım amilinin əhəmiyyətli rolunun olması sübut olunur ki, bu amil qismində də, ehtimal olunur ki, intellektual kapital çıxış edir.

İnsan resurslarının bir makroiqtisadi amil kimi rolunu tədqiq edən V.Şults göstərir ki, insan kapitalına, yəni biliyə, sağlamlığa, təhsilə və elmə investisiyalar indiyədək prioritetli sayılan fiziki kapitala ənənəvi investisiyalara nisbətən daha effektiv artım mənbəyinə çevrilirlər. Belə ənənəvilik əmtəələrə onların bazar üçün daha anlaşıqlı olan maddi ifadəsində bazar yanaşmasına əsaslanır, çünki intellektual məhsul öz xüsusiyyətlərinə görə heç də həmişə bazarın qiymətyaratma mexanizmi ilə uzlaşmır. İntellektual məhsulun

lazımınca qiymətləndirilməməsi və qiymətyaratmada çətinliklərlə əlaqədar olaraq müasir iqtisadiyyatın problemi əşyaların qiymətinin əmək məhsuldarlığının əşyavi-texniki amillərindən asılı edilən əməkhaqqı artımını xeyli qabaqlamasıdır. Bu hadisə sosial siyasəti «yetim qız» vəziyyətinə salan bazar münasibətlərinin formalaşmasının texnokratik metodlarının üstün gəldiyi Rusiya iqtisadiyyatı üçün səciyyəvi olmuşdur.

Sosial yönümlü qarışıq iqtisadiyyatın milli modellərində belə yanaşma anaxronizmə (köhnəliyin qalığına) çevrilir ki, onların aradan qaldırılması da minimal yaşayış minimumunu təmin edən və gəlirliliyin orta sosial ədalətli səviyyəsini tənzimləyən dövlət və institusional mexanizmlərə həvalə olunmuşdur. Bundan başqa, hazırda əməkhaqqına bir iqtisadi artım mənbəyi və mühüm investisiya amili kimi yeni yanaşmalar yaranır.

İqtisad elminin klassik, keynsçi və institusional yanaşmaların elementlərini birləşdirən müasir nailiyyəti *əməyin haqqının stimullaşdırıcı ödənişi nəzəriyyəsi* olmuşdur. İqtisadi artım və onun mənbələrinin həm mikro-, həm də makroiqtisadi əhəmiyyətə malik möqeləri olan bu konsepsiya E.Felps və 2001-ci il Nobel mükafatı laureatı C.Stiqlits tərəfindən işlənilmişdi. Bu nəzəriyyəyə görə, yüksək əməkhaqqı əməyin məhsuldarlığının və keyfiyyətinin yüksəldilməsinə səbəb olur. Bu onunla izah olunur ki, yüksək əməkhaqqı işçiyə sağlamlığını (xüsusilə kasıb ölkələrdə) saxlamağa imkan verir və həm də yaradıcı əməyə marağını artırır, eyni zamanda mənəvi ruhunun yüksəldilməsi və yaxşı işçilər iş yerlərini dəyişməkdə maraqlı olmadığından əmək intizamının gücləndirilməsi amili olur. Bundan başqa, yaxşı əməkhaqqı hesabına ixtisaslı mütəxəssislər cəlb etmək mümkün- dür. Buradan da vergilərin azaldılması və onların əsas yükünün əmək gəlirlərindən, əlavə dəyərdən gəlirlərdən götürülməsi yeni növ iqtisadi artımın, xüsusilə də Rusiyada, mühüm stimuluna çevrilir.

İqtisadi artıma institusional yanaşma XXI əsrin əvvəli-

nin paradoksunu üzə çıxartmağa imkan verdi: insan həyatını yüngülləşdirməli, yaxşılaşdırmalı olan elm, texnika, istehsal bazar rəqabət maraqlarında istifadə edildiklərindən özləri məqsədə və insanın mövcudluğu üçün təhlükəyə çevrilmişlər. Bununla əlaqədar olaraq alimlər get-gedə daha çox ETT-nin və iqtisadi artımın nəticələrinin insani baxımdan ölçülməsinə səsləyirlər. İqtisadi artım nəticələrinin sosial tərkib hissəsinin aşkarlanması məsələsi qoyulur ki, bu da insanın iqtisadi inkişafın məqsədi qismində rolunun qiymətləndirilməsinə bərabərdir.

1961-ci ildə BMT tərəfindən həyat səviyyəsi konsepsiyası çərçivəsində insanın həyat fəaliyyətinin iqtisadi parametrləri müəyyənləşdirilmişdi:

1. Sağlamlıq.
2. Ərzaq məhsullarının istehlakı.
3. Təhsil.
4. Məşğulluq və əmək şəraiti.
5. Mənzil şəraiti.
6. Sosial təminat.
7. Geyim.
8. İstirahət və asudə vaxt.
9. İnsan hüquqları.

Lakin hazırda *həyat keyfiyyəti konsepsiyası* özünə yol açır. Ona iki tərkib hissə daxildir: əmək şəraitinin keyfiyyəti və sosial həyatın keyfiyyəti. Özü də əmək həyatının keyfiyyəti sosial həyatın əsası və onun nəticələrinin göstəricisi kimi nəzərdən keçirilir. Əmək həyatının keyfiyyət şərtlərinə aiddirlər:

1. Əməyə görə ədalətli və layiqli ödəniş.
2. Təhlükəsiz və sağlam əmək şəraiti.
3. Bilavasitə öz qabiliyyətlərindən istifadə etmək və onları inkişaf etdirmək, özünüifadə tələbatını ödəmək imkanı.
4. Peşədə irəliləyiş imkanı və gələcəyinə inam.
5. Layiqli iş yeri.
6. İşin sosial faydalılığı (fəaliyyətin cəmiyyət üçün gərəkli olması və düzgün yerinə yetirilməsinin dərki).

İnkişaf etmiş ölkələrin milli modellərində əksini tapan bu konsepsiyanın əsas şüarı yeni həyat keyfiyyətinə keçid, maddi bazası isə hazırda həm işləyənlər, həm də işləməyənlər üçün həcmi ayda 1500 dollardan yuxarı olan yaşayış minimumunun (ərzaq zənbilinin) minimal səviyyəsinin təsbit olunması və artırılması, eyni zamanda sosial istehlak fondlarının tətbiqi və sürətlə inkişaf etdirilməsi olmuşdur. Sosial yönüm zəminində yanaşma həyat keyfiyyətinin iqtisadi artım amilinə çevrildiyi inkişaf etmiş ölkələrin: Amerika, Almaniya, İsveç və Yaponiya - milli iqtisadiyyat modellərinin qurulmasının əsası oldu.

BMT-nin İnkişaf Proqramının yeni həyat keyfiyyəti konsepsiyasına müvafiq olaraq iqtisadi artımın yekun nəticə göstəricisi qismində «insan potensialının inkişaf indeksi» (İPİİ) təklif olunmuşdur. O, iqtisadi artımın müasir anlamda üç əsas tərkib hissəsini: ömrün uzunluğu, gəlir səviyyəsi və təhsil səviyyəsini səciyyələndirir.

İPİİ üç indeks (qeyd olunmuş göstəricilərin hər biri üzrə) əsasında hesablanır. *Ömrün uzunluğu* orta ömür müddəti ilə hesablanır. *Gəlirlər* – əhalinin hər nəfərinə düşən real ÜMM-lə, *təhsil səviyyəsi* isə yaşlı əhalinin savadlılığı və orta təhsil müddəti ilə hesablanır. Bu indekslərin hər biri aşağıdakı düsturla müəyyənləşdirilir:

$$İ = (D_f - D_{min}) / (D_{maks} - D_{min}).$$

Burada İ – insan potensialının inkişaf indeksi;
D_f – göstəricinin faktik qiyməti;
D_{min} – göstəricinin minimum qiyməti;
D_{maks} – göstəricinin maksimum qiymətidir.


Ümumi İPİİ ayrı-ayrı indekslərin orta kəmiyyəti kimi hesablanır.

BMT-nin İnkişaf Proqramının əməkdaşlarının hazırladıqları insanın inkişafı haqqında birinci illik məruzənin ortaya çıxması yeni amilin iqtisadi artımın məqsəd və vasitəsi kimi rolunun dünya birliyi tərəfindən dərk olunduğunu əks etdirdi. Müvafiq göstəricilər BMT, BVF, BYQİB orqanlarının fəaliyyətində istifadə olunmağa başladılar. Ölkələrin

inkişaf göstəriciləri və milli iqtisadiyyatın nailiyyətlərinin nəticələri get-gedə daha çox İPİİ əsasında müqayisə olunmağa başlayırlar. Hökumətlərin populyarlığı və təkrar seçilmə imkanları get-gedə daha çox bu mərkəzi göstəricidən asılı olmağa başlayır.

Neoklassik və keynsçi modellərin nailiyyətlərini tənqidi yanaşmaqla özündə birləşdirmiş yeni institusional yanaşma özünün sonrakı inkişaf prosesindədir. Lakin artıq aydındır ki, müasir iqtisadi sistemdə insanın rolu və yerinin keyfiyyətcə başqa cür qiymətləndirilməsi əsasında o, iqtisad elminin üç istiqamətinin inkişafında, bir də müasir iqtisadiyyatın üç mexanizminin: bazar, dövlət və institusional mexanizmlərin vəhdəti kimi yeni keyfiyyəti barədə təsəvvürlərin əsas sintezedici ideyası olur.Əgər birinci ikisi müasir iqtisadiyyatın iqtisadi məzmununu təşkil edirlərsə, üçüncü onun getdikcə daha çox iqtisadiyyatın ali şüurlu tənzimləyicisi rolunu oynayan sosial tərkib hissəsini təşkil edir. Bu hadisəni aşağıdakı sxem – müasir sosial yönümlü qarışıq iqtisadiyyat modeli şəklində vermək olar (şəkil 21.3).

Belə sistemin mərkəzi həlqəsi «bazar» adamı deyil, «sosial» (mədəni, mənəvi) adamdır ki, onun da mahiyyəti üç subyektin: ailə, firma və dövlətin iqtisadi fəaliyyətində təzahür edir.



Şəkil 21.3. Sosial yönümlü müasir qarışıq iqtisadiyyat modelinin strukturu

Dəyişən dünya iqtisadiyyatında insan amilinin yeni və artan roluna müvafiq olaraq bazar, dövlət və institutların mexanizmləri əsasında müasir qarışıq iqtisadiyyat kimi başa düşülən bütün sosial-iqtisadi sistemin iqtisadi artım göstəricisi aşağıdakı məlum düsturun modernizasiya edilməsi yolu ilə formallaşdırıla bilər:

$$ES = f(A_1, A_2, ..., A_n).$$

Burada ES – iqtisadi sistem;

$A_1, ..., A_n$ – sistemin xüsusiyyətləri;

n – xüsusiyyətlərin miqdarıdır.

Bu xüsusiyyətlər qeyd olunmuş üç mexanizmin onların işlənilməsinə üç məktəbin: neoklassiklərin, neokeynsçilərin və neoinstitusionalizmin verdiyi töhfələrin sintezi effektinin meyarı kimi çıxış edə bilərlər.

Yeni düstur, iqtisadi artım modellərinin sintezi ideyasının formallaşdırılması kimi, ümumi şəkildə aşağıdakı kimi ola bilər:

$$\Delta ES = f(A^{\alpha}B^{\beta}C^{\gamma}).$$

Burada ΔES – yeni İPİİ metodikası ilə hesablanan sitemin iqtisadi artımı;

A, B, C – müasir qarışıq iqtisadiyyatın bazar, dövlət və institutların üç məktəbin metodikasına müvafiq müəyyənləşdirilən mexanizmlərinin qarşılıqlı təsiri əsasında əsas xüsusiyyətlərini müəyyənləşdirən baza amilləri və müvafiq olaraq meyarları;

α, β, γ – onların iqtisadi artımını müəyyənləşdirən əmsallardır.

İqtisadi artımın mahiyyətinin anlanılmasına yeni yanaşma iqtisadiyyatdakı müasir qlobal meyillərin nəzərə alınmasını nəzərdə tutur və bu meyillər onun sosial tərkib hissəsinin rolunun artdığı bir sosial-iqtisadi hadisə kimi qiymətləndirilməsini tələb edir.

§5. Rusiyada iqtisadi artım problemi

Yeni yanaşma iqtisadiyyatın sosiallaşma və intellektuallaşmaya qlobal meyilini nəzərə almaqla Rusiya iqtisadiyyatının islahatı məsələsini başqa cür qoyur. Bazar islahatları neoklassik ekonomiksin və «Vaşinqton konsensusu»nun[1] yararsızlığını aşkarlamış ciddi çatışmazlıqları üzə çıxartdı və göstərdi ki, inkişafın strateji məqsədlərini aydın dərk etmədən və ölkənin sosial-mədəni milli xüsusiyyətlərini nəzərə almadan iqtisadiyyatı modernizasiya etmək qeyri-mümkündür. Təcrübə göstərir ki, neoklassisizmin və onun əsas tərkib hissəsi olan monetarizmin reseptləri üzrə mücərrəd bazar iqtisadiyyatı qurulmasına postklassik kursa çıxışı olmayan inkişaf variantıdır. İqtisadi artım məsələlərinin təmin edilməsi və yenidənqurma adlanan dövrdə yaranmış dəhşətli yoxsulluqla mübarizə yalnız strateji kursun seçilməsi və yuxarıda qeyd olunmuş yeni iqtisadi yanaşmalar Rusiyanın ənənələri zəminində iqtisadiyyatın sosial meyilli olmasına üstünlük verilməsi ilə ona müvafiq olan strateji proqramın yaradılması nəticəsində mümkündür.Belə kurs Rusiyada mücərrəd «xalqa qayğı» ianəçiliyinə deyil, konkret Rusiya adamının, yeni növ iqtisadiyyatın əsas amili və məqsədi kimi, tələbatlarının ödənilməsinə yönəlmiş öz milli modelinin yaradılmasını göstərir.

Rusiyanın bəlası iqtisadi artımın və həyat keyfiyyətinin eyni vaxtda mövcudluğundadır. Bu, iqtisadi artım mövqeyindən Rusiya iqtisadiyyatının müasir vəziyyətinin qiymətləndirilməsinə həsr olunmuş bölmənin adı təsadüfi seçilməmişdir. Bazar islahatlarının həyata keçirilməsinin gedişində təzahür etmiş xəbərdaredici meyillər 1974-cü il Nobel mükafatı laureatı məşhur İsveç iqtisadçısı Q.Mürdalın əsərində «Asiya dramı» kimi verilmiş problemi xatırladır. İnstitusional istiqaməti marksist yanaşma ilə yaxınlaşdıran dərin meyillərin inkişafda tənqidi təhlil metodologiyası

1 BVF, Dünya bankı və ABŞ-ın Maliyyə Nazirliyi arasında maliyyə yardımı almaq istəyən inkişaf etməkdə olan ölkələrin «düzgün» siyasəti haqqında razılaşması qeyri-rəsmi belə adlanır.

müvafiq olaraq Q.Mürdal, iqtisadi nəzəriyyədə mövcud olan Asiya regionu ölkələrinin təhlilinə neoklassik yanaşmaya və onların təklif etdiyi Qərb tipli iqtisadi artım modellərinin yaramadığına diqqət yetirmişdi.

Bu mövqedən həmin regionun ölkələrinin dramı ondadır ki, həmin ölkələrin spesifikası nəzərə alınmaqla onların inkişafının əsas mənbəyi iqtisadi artım siyasətinin prioriteti qismində çıxış edən ənənəvi fiziki kapital deyil, insan amili olmalıdır. Mürdala görə, paradoks bundadır ki, Asiya regionu ölkələrində iqtisadi artımın aşağı olması fiziki kapitalın çatışmazlığı ilə deyil, işçi qüvvəsindən lazımınca istifadə olunmaması ilə, yəni iş qüvvəsinin artıqlığı şəraitində onun keyfiyyətinin kifayət qədər olmaması kimi ziddiyyətlə izah olunur.

Asiya ölkələrinin faciəsi odur ki, əhali artıqlığı ilə bağlı demoqrafik vəziyyət onların milli mentallığı nəzərə alınmaqla iş qüvvəsinin intellektual resurslara və insan kapitalına çevrilməsinin əsas şərti olan keyfiyyətli təhsil və səhiyyə istiqamətində fəal dövlət siyasəti vasitəsilə iqtisadi artımının etibarlı mənbəyi ola bilərdi. Buradan da institualistlər üçün əsas nəticə irəli gəlir: müasir iqtisadi artımın əsas şərti iş qüvvəsinin iqtisadi artımın prioritetli kapital qoyuluşunu tələb edən sosial-mədəni-mənəvi amilinə çevrilməsini təmin edən milli institutlar olur.

Bazar islahatlarının həyata keçirilməsinin gedişində Rusiyanın vəziyyətini qiymətləndirən digər məşhur iqtisadçı, 2001-ci il Nobel mükafatı laureatı C.Stiqlits hesab edir ki, Rusiyada «erzatskapitalizm», «mafiozlu kapitalizm», «seçilmişlər üçün kapitalist sistemi», yəni əslində kapitalizmin köhnə modeli yaradılmışdır. Bu, «Vaşinqton konsensusu» iqtisadi artım prinsiplərindən gələn monetarist ideyaların təsiri altında yaranan dövlət siyasətinin qanuni nəticəsidir.

Bu tövsiyələr və xarici iqtisadi borclardan ilkin asılılıq nəticəsində Rusiyada aşkar köhnəlmiş texnokratik siyasət formalaşdı və inkişaf tapdı ki, bu da texniki kapitala vəsait

qoyuluşuna üstünlük verir və müasir şəraitdə rolu artan iqtisadi insan amilini, artımın daxili mənbəyi kimi, diqqətdən kənarda qoyurdu. Belə «səhvin» nəticəsi insan iqtisadiyyatı və onun institutlarına: təhsilə, elmə, səhiyyəyə nisbətən əşyalar iqtisadiyyatına üstünlük verilməsi oldu. Rusiyanın zəngin təbii resurs potensialı nəzərə alınsa, bu şəraitdə olduqca böyük gəlirlərin əsas hissəsi bu siyasəti həyata keçirənlər - təbii monopoliyalar və iri korporasiyalar arasında bölünmüş oldu. Belə siyasət yalnız asosial kimi deyil, həm də antimilli kimi qiymətləndirilə bilər, çünki o, Rusiya üçün nəhəng mühüm və spesifik iqtisadi artım mənbəyinə – Rusiyanın zəngin olduğu insan resurslarına məhəl qoymur.

Bu siyasətin təsiri özünü milli iqtisadiyyatın baza sahələrinin strukturunun deformasiyası və destruksiyasında, kütləvi yoxsulluqda, orta sinfin müflisləşməsində, əhalinin azalmasında, milli iqtisadiyyatın digər sahələrinin zərərinə təbii resurslardan intensiv istifadədən əldə olunan qızıl- valyuta ehtiyatlarının artıqlığı fonunda maliyyələşdirilməsinə vəsait çatmaması nəticəsində təhsilin, elmin və səhiyyənin bərbad vəziyyətində özünü göstərmişdi.

İnkişaf etmiş ölkələrdə qəbul olunmuş İPİİ (insan potensialının inkişaf indeksi) göstəricisinin vacibliyi və prioritetliyi nəzərə alınmaqla Rusiya bazar islahatlarının həyata keçirilməsi gedişində xeyli geri atılmış oldu. Amma həmin dövr ərzində inkişaf etmiş ölkələrin çoxunda bu göstəricinin görünməmiş artımı müşahidə olunmuşdu. Belə siyasət nəticəsində Rusiya, iqtisadi artım templərinin artmasına baxmayaraq, iqtisadi inkişafın aşağı mərhələsinə yuvarlandı ki, bu da özünün geridə qalmış vergi sistemi və yüksək dərəcədə kriminallaşma, həyat səviyyəsinin aşağı düşməsi kimi antisosial formasında ilkin kapital yığımı əlamətləri ilə səciyyələnir. Buna «holland xəstəliyi» əlamətlərini də: yüksək gəlir gətirən bir sahənin digər sahələrin zərərinə, qiymətlərin süni artmasına və müvafiq olaraq xroniki inflyasiyaya («iqtisadi boru») aparan möhtəkirliyin inkişafını əlavə etmək lazımdır.

Rusiyada texnokratik siyasətin ciddi «səhvi» mentallığın, yəni rusiyalıların milli xüsusiyyətlərinin lazımınca nəzərə alınmaması oldu. Bazar islahatlarının Rusiya reallıqlarına adekvatlığı problemi dərhal qiymətləndirilmədi. Əvvəlcə elə gəlirdi ki, ekonomiksin tövsiyələrinə müvafiq olaraq bazar təsərrüfatının formalaşma qanunları hər yerdə eynidir. Praktikada isə aydın oldu ki, rusiyalıların mədəni stereotipləri bazar islahatına dəstək vermir, hətta onlara mane olur, ən əsası isə – onlar ümumiyyətlə mütəxəssislər tərəfindən tədqiqat obyekti olmamışdılar. Buna misal güzəştlərin ucdantutma monetizasiyası və milli əməkdaşlıq və qarşılıqlı yardım ənənələrini pozan sahələrdə bir ucdan bazar münasibətlərinin tətbiqi ola bilər. Təəccüblü deyil ki, əhalinin çox hissəsinin bazar iqtisadiyyatına keçidin çətinliyinə cavabı ona uyğunlaşma deyil, ondan sosial gərginliyin artması ilə müşayiət olunan qaçmaq oldu.

Bu hadisə rusiyalıların mentallığının xüsusiyyətləri ilə Qərb sivilizasiyası adamlarının davranışının əsası olan A.Smitin çıxış modeli arasındakı əksliklərlə şərtlənir. Rusiya mentallığının əsasında üç cizgi dayanır: dövlətçilik (ictimai maraqların prioriteti), soborluq (iyerarxizm), icmaçılıq (altruizmə meyillilik) və bu da bazar münasibətləri prinsipləri ilə uzlaşmır (səh. 630-dakı cədvələ bax).

Rusiya iqtisadiyyatının və onun artımının xüsusiyyətlərini formalaşdıran olduqca mühüm amil ekologiyadır. O, iqtisadiyyata iki istiqamətdə təsir edir. Bir tərəfdən, zəngin təbii resurslar torpaq rentası mənbəyidir, digər tərəfdən isə, intellektual, yaradıcı əməyə qabil olan insan resurslarını, yəni intellektual renta gətirən insan kapitalını formalaşdırır. Rusiyanın əhalisini, onun mentallığını və tarixi inkişafının amillərini nəzərə alaraq məhz intellektual rentanı onun ikinci sərvəti hesab etmək olar.

Belə vəziyyət iki şəraitin nəticəsində mümkün olmuşdu: Rusiyanın sərt təbiəti və coğrafi mövqeyi. Sərt təbii şərait daim sağ qalmaq üçün üsullar icad edən xüsusi insan növü formalaşdırmışdır.

Smit modeli və Rusiya adamı xüsusiyyətlərinin müqayisəli xarakteristikası

A.Smitin modeli	Rusiya adamının modeli
1. Müstəqildir – müstəqil qərarlar qəbul edə bilir	1. Qərarlar əsasən kollektiv, birgə qəbul olunur
2.Eqoistdir – birinci öz maraqlarını güdür	2. Mənəviliyə, altruizmə və başqalarına təmənnasız köməyə meyillidir
3. Rasionaldır – zərəri və xeyiri müqayisə etməyə qabildir	3.İrrasionaldır, xərcləri və xeyiri hesablamır, emosionaldır
4. Həm tələbatların özləri, həm də onların ödənilməsi üsulları haqqında məlumatlıdır	4. Mühəndis-texniki və sistemli-fəlsəfi səciyyəli intellektual ağıla malikdir

Bunun nəticəsi mühəndis-texniki düşüncə tərzidir. Bir növ Şərqlə Qərb arasında körpü olan Rusiyanın xüsusi coğrafi vəziyyəti onun mədəniyyətinin formalaşmasına və inkişafına, alimlərin, filosofların, şair və yazıçıların sayının artmasına təsir etmişdi. Bu şərait Rusiyada spesifik intellektual insan təbəqəsinin – Rusiya ziyalılığının formalaşmasına imkan vermişdir. Bu məqam Rusiyanın tarixi inkişafının xarakterinə və onun mədəniyyətinin mənəvi-dini tərkib hissəsinə güclü təsir etmişdir. Bu, elə insan zümrəsidir ki, onlar işləmir, xidmət edirdilər və əməkhaqqı deyil, xidmətə görə maaş alırdılar. Qeyd olunmuş xüsusiyyətlər göstərir ki, Rusiya iqtisadiyyatı sosial yönümlü olmağa sadəcə məhkumdur. Lakin bu proses mürəkkəb və ziddiyyətli olmuşdur.

Neoklassik ekonomiks reseptləri üzrə iqtisadi islahatların Rusiyada uğursuzluğu postsovet məkanı iqtisadiyyatının inkişafın strateji məqsədlərini aydın dərk etmədən və onun milli-sosial-mədəni xüsusiyyətlərini nəzərə almadan

modernizasiya etməyin qeyri-mümkün olduğunu göstərdi. Rusiyada bazar islahatlarının həyata keçirilməsində səhv məhz bundadır, çünki burada dünya praktikasını və milli xüsusiyyətləri nəzərə almaq lazım idi.

Texnokratizm siyasətinin spesifik təzahürü istənilən milli layihədə insan amilinə və Rusiya iqtisadiyyatında onun roluna tam diqqətsizlik və etinasızlıq olmuşdur. Dövlətin nəinki layiqli həyat keyfiyyəti və səviyyəsini təmin edən gəlirə təminat verməməsi, hətta yaşayış minimumu səviyyəsində belə gəlir təmin etməməsi az qala qanuni hala dönmüşdür. Rusiyada yaranmış asosial vergi sisteminə görə əmək, akademik D.S.Lvovun qeyd etdiyi kimi, renta və kapitalla müqayisədə iqtisadiyyatın ən sıxışdırılmış amilinə dönmüşdür. Onun fikrincə, Rusiya büdcəsinin əsas formalaşma bazası qismində renta effektini nəzərə almaqla iqtisadi artım mənbələrinin strukturunu kökündən dəyişmək lazımdır. Bu baxımdan ölkənin milli iqtisadiyyatına zidd səhv büdcəyaratma praktikası formalaşmışdır. Məsələn, təbii resursların dövriyyəsindən əldə olunan renta payı olduqca az – 10-13% təşkil edir, amma ən az məhsuldar amil olan əməyin payı 70% təşkil edir. Bu payın büdcədə toplanması çoxqat pilləli vergi tutulması yolu ilə təmin edilir ki, burada da vergiqoyulma bazası qismində bu amilin Rusiyadan fərqli olaraq ən məhsuldar olduğu Qərb ölkələrindəki kimi əmək amili götürülmüşdür. Belə yanaşma antisosial kimi təsir edərək Rusiya əhalisinin həyat şəraitinin ağırlaşdırılması amili kimi çıxış edir. Rusiyaya yalnız iqtisadi amilləri deyil, həm də sosial amilləri nəzərə alan tamamilə başqa iqtisadi artım modeli lazımdır. Yalnız inkişaf etmiş ölkələrin iqtisadiyyatının transformasiya nəzəriyyəsi və praktikasından deyil, həm də inkişafda olan ölkələrin təcrübəsindən, Rusiya iqtisadiyyatının təbii və insan resursları nəzərə alınmaqla, çıxış etmək lazımdır. Bu amillərin effekti qarşısında duran əsas strateji məsələ olan Rusiya iqtisadiyyatının milli modelinin yaradılması iqtisadi siyasətdə hələ də nəzərə alınmır.

Müasir cəmiyyət bizim iqtisadçılara qarışıq, sosial yönümlü iqtisadiyyatın Rusiya milli modelini işləyib hazırlamağın sosial sifarişini verir. Belə modeli yalnız onun digər iqtisadi inkişaf modelləri ilə oxşarlıqları və fərqli cəhətlərinin aydın dərk etməklə yaratmaq mümkündür. Bu zaman Rusiya siyasətində artıq yol verilmiş səhvin əksi olan səhvə yol verməmək, bizim iqtisadiyyatın milli xüsusiyyətlərinin fərqlilik dərəcəsini şişirtməmək lazımdır. Bəzi Rusiya alimlərinin fikrincə, bu modelə mütləq üç institusional təşkil olunmuş kontur: ekoloji (təbii resurslardan səmərəli istifadə qaydası), iqtisadi (təbii və intellektual renta və digər artım mənbələri effektindən səmərəli bazar istifadəsi qaydası) və sosial (layiqli həyat keyfiyyəti təmin edən) - daxil olmalıdır. Belə modeli qarışıq iqtisadiyyat – «ekohumanizm» modeli adlandırırlar. Ona iqtisadiyyatın bizim milli xüsusiyyətlər nəzərə alınmaqla üç tənzimləmə mexanizmi – bazar, dövlət və institusional – daxil olmalıdır.

Əsas anlayışlar və məfhumlar

İqtisadi model; iqtisadi artım; iqtisadi inkişaf; iqtisadi artım amilləri; neoklassik iqtisadi artım modeli; keynsçi iqtisadi artım modeli; institusional iqtisadi artım modeli; Rusiya iqtisadi artım modeli; iqtisadi artımın genezisi; insan kapitalı; sosial yönüm; qarışıq iqtisadiyyat; yeni iqtisadiyyat.

XXII FƏSİL. MİLLİ DÖVLƏT MARAQLARI VƏ ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİ

§1. İqtisadi təhlükəsizliyin məzmunu və strukturu.

§2. Cəmiyyət maraqlarının ümumi xarakteristikası.

§3. İqtisadi təhlükəsizliyə və milli maraqlara xarici və daxili təhlükələr.

§4. İqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmi.

§5. İqtisadi təhlükəsizliyin səmərəlilik meyarı əsasında maraqların təzahür yetkinliyinin qiymətləndirilməsi.

İqtisadi təhlükəsizlik problemi tarixi və məntiqi baxımdan dövlətçiliyin yaranması və inkişafı, millətin öz iqtisadi maraqlarını dərk etməsi ilə bağlıdır. Bu problem müxtəlif ölkələrdə və müxtəlif vaxtlarda müxtəlif dərəcədə aktuallıq kəsb etmişdi, lakin heç vaxt cəmiyyətin, dövlətin liderlərinin diqqət mərkəzindən kənarda olmamışdır. Bu eyni dərəcədə Rusiyaya da və xüsusilə hazırkı islahatlar dövründə aiddir.

§1. İqtisadi təhlükəsizliyin məzmunu və strukturu

İqtisadi təhlükəsizlik ənənəvi olaraq iqtisadi sistemin əhalinin normal həyat fəaliyyətini lazımi səviyyədə saxlamaq, xalq təsərrüfatını resurslarla dayanıqlı təmin etmək qabiliyyətini, milli-dövlət maraqlarını ardıcıl həyata keçirməsini müəyyənləşdirən ən mühüm xarakteristikası kimi nəzərdən keçirilir. Milli təhlükəsizliyin tərkib hissəsi kimi, iqtisadi təhlükəsizliyin təmin edilməsi zərurəti böhranlı inkişaf fazasında xeyli artır. İqtisadi sistemin bu keyfiyyətinin, onun amilləri və meyarlarının lazımınca dəyərləndirilməməsi cəmiyyətdə sabitliyin saxlanılma mexanizmlərinin hamısına mənfi təsir edə bilir, iqtisadi kompensasiya və sabitləşdirmə proqramlarının hazırlanması və həyata keçirilməsi imkanlarını məhdudlaşdırır. İqtisadi təhlükəsizliyin makroiqtisadi cəhətlərinin əhəmiyyəti son bir neçə ildə Ru-

siyadan da yan keçməmiş böyük milli-dövlət dəyişiklikləri şəraitində xeyli artır.

Milli təhlükəsizlik sisteminə iqtisadi təhlükəsizlik ölkənin etibarlı müdafiə qabiliyyətinin təmin edilməsi, cəmiyyətdə sosial sabitliyin saxlanılması, onun ekoloji bəlalardan qorunması kimi tərkib hissələri ilə birgə üzvi surətdə daxildir. Burada hər şey qarşılıqlı əlaqədardır və bir istiqamət digərini tamamlayır: zəif və qeyri-effektiv iqtisadiyyatda hərbi təhlükəsizlik ola bilməz, necə ki, sosial münaqişələrlə didilən cəmiyyətdə nə hərbi təhlükəsizlik, nə də effektiv iqtisadiyyat mümkün deyil. Belə qarşılıqlı əlaqəni vurğulayanda nəzərə almaq lazımdır ki, onda həlledici, bazis rolu iqtisadi təhlükəsizliyə malikdir.

İqtisadi təhlükəsizliyin özü xeyli mürəkkəb daxili quruluşa malikdir. Real proseslərin təhlili və zəngin ölkə və xarici təcrübənin nəzərdən keçirilməsi ***onun üç mühüm tərkib hissəsini*** fərqləndirməyə imkan verirlər:

- ***iqtisadi müstəqillik*** – müasir dünya təsərrüfatı şəraitində heç də mütləq səciyyə daşımır. Beynəlxalq əmək bölgüsü milli iqtisadiyyatları qarşılıqlı asılı edir. Bu şəraitdə iqtisadi müstəqillik dövlətin öz milli resurslarına nəzarət edə bilməsi imkanını, iqtisadiyyatın rəqabət qabiliyyətliliyini təmin edən və ona dünya ticarətində, kooperasiya əlaqələrində və elmi-texniki nailiyyətlərin mübadiləsində eyni səviyyəli tərəf kimi iştirak təmin edən səmərəliliyi və məhsul keyfiyyətini bildirir;

- ***milli iqtisadiyyatın sabitliyi və dayanıqlığı*** – bütün formalarında mülkiyyətin mühafizəsini, sahibkarlıq fəallığı üçün etibarlı şərait və təminatların yaradılmasını, vəziyyəti sabitlikdən çıxarmağa qabil olan amillərin qarşısının alınmasını (kriminal strukturlarla mübarizə, gəlir bölgüsündə sosial təlatümlərə səbəb ola biləcək ciddi fərqlərə inkan verilməməsi və s.) nəzərdə tutur;

- ***özüinkişafa və tərəqqiyə qabil olma*** – bu, müasir dinamik inkişaf edən ölkədə xüsusilə vacibdir. İnvestisiyalar və innovasiyalar üçün əlverişli mühitin yaradılması, istehsalın daim yeniləşdirilməsi, işçilərin peşə təhsili və ümumi mədəni səviyyəsinin yüksəldilməsi milli iqtisadiyyatın sabitliyinin və özünü qoruyub saxlamasının zəruri və mütləq şərtlərinə çevrilirlər.

Beləliklə, iqtisadi təhlükəsizlik milli iqtisadiyyatın müstəqilliyini, onun sabitliyi və dayanıqlığını, daim yeniləşmə və özütəkmilləşmə qabiliyyətini təmin edən şərtlərin və amillərin məcmusudur.

RF-nın yeni sosial-iqtisadi münasibətlərinə keçməsi, həmçinin onun dünya təsərrüfat sisteminə daxil olması iqtisadiyyatın müvafiq səviyyədə açıqlığını tələb edir. Dəyişmiş geosiyasi şəraitdə milli təhlükəsizlik konsepsiyasının, onun çərçivəsində isə iqtisadi təhlükəsizliyin əsas müddəalarının hazırlanmasına yeni yanaşma gərəkdir.

Keçid iqtisadiyyatında iqtisadi təhlükəsizliyin dövlət strategiyası birinci növbədə əhalinin lazımi həyat səviyyəsinin saxlanılmasına, cəmiyyətin sosial-siyasi təhlükəsizliyinin təmin edilməsinə, RF-nin konstitusiya quruluşunun əsasının qorunub saxlanılmasına və dayanıqlı milli dəyərlər və maraqlar sisteminin formalaşmasına istiqamətlənməlidir.

Böhranlı və irihəcmli keçid prosesləri şəraitində sabitləşdirmə mexanizmləri xeyli ziddiyyətli sistemdir. Bunu, məsələn, Rusiyanın MDB ölkələri ilə qarşılıqlı münasibətlərindən görmək olar: siyasi və milli-etnik sabitlik və təhlükəsizlik böyük iqtisadi məsrəflər hesabına «alınırdı» (əvvəlcədən qeyri-ekvivalent mübadilə, texniki adlanan kreditlərin verilməsi nəticəsində itkilər və s.).

Makroiqtisadi səviyyədə iqtisadi təhlükəsizliyin təhlilinin ən mühüm problemi ***onun əsas meyarının*** müəyyənləşdirilməsidir.

Böhran, keçid proseslərinin müxtəlifliyi şəraitində belə meyar kimi cəmiyyətə, iqtisadiyyata, həmçinin insana vurulan məcmu zərərin minimumu ola bilər. Belə yanaşmanın konkretləşdirilməsi qismində təhlükəsizliyin xüsusi sərhəd həddi çıxış edir ki, onun hüdudlarından kənarda sistemin deqradasiyası və dağılması təhlükəsi və ya faktı yaranır.

Həddqiymətlərinin kəmiyyətlə ifadəsini müəyyənləşdirmək üçün iqtisadi sistemin fəaliyyət göstərmə şəraitlərini səciyyələndirən ən mühüm göstəricilərini fərqləndirmək, onun destabilizasiya amillərini, müxtəlif kritik vəziyyətlərin yaranma ehtimalını nəzərdən keçirmək, təhlükənin aradan qaldırılması və sabitliyin saxlanılması yollarını müəyyənləşdirmək lazımdır.

Təhlükəsizlik anlayışı ***risk kateqoriyası*** ilə sıx bağlıdır. Risk kateqoriyasından istifadə idarəetmənin, xüsusilə də inzibati-amirlik təsərrüfat metodları əsasən bazar münasibətlərinin üstünlük təşkil etdiyi və cəmiyyətdəki təsərrüfat və sosial proseslərin idarə olunmasında kəskin şəkildə əks-mərkəzləşmə baş verən sistemlə əvəzlənəndə, səmərəliliyini xeyli qaldırmağa imkan verir.

Ən dolğun iqtisadi təhlükəsizliyin təmin edilmə variantı hər dəfə xəbərdaredici və kompensəedici səciyyəli tədbirlərin «minimum zərər» və ya «minimum məcmu itkilər və xərclər» meyarından çıxış edərək müəyyənləşdirilir. Belə yanaşma öz əksini müvafiq ***göstəricilər sistemində*** tapır. Bu göstəriciləri şərti olaraq üç qrupda birləşdirmək olar.

Birinci qrupun göstəriciləri cəmiyyətin ***cari*** iqtisadi, sosial və ekoloji potensialını və baş verən qısa- və ortatəcililikli proseslərin ***qiymətləndirilməsi*** üçün istifadə olunurlar. ***İkinci qrupun göstəriciləri uzunmüddətli əks-sabitləşdirmə amillərinin aşkarlanması və dərəcələnməsi*** və onların təqribi hədd göstəricilərinin qiymətləndirilməsinə yönümlənir. ***Üçüncü qrupun göstəriciləri zərərin qarşısının alınması və kompensasiya edilməsinin*** mövcud ***imkanlarını*** səciyyələndirməlidirlər.

İqtisadi təhlükəsizlik həm sırf iqtisadi metodlarla, həm də qeyri-iqtisadi səciyyəli: siyasi, hərbi və sair ***vasitələrlə təmin edilir.***

İqtisadi təhlükəsizlik sahəsində dövlət tənzimləməsi milli təhlükəsizlik sahəsində ümumdövlət məqsədlərinə çatmaq üçün zəruri şərtdir.

§2. Cəmiyyət maraqlarının ümumi xarakteristikası

İstənilən ölkənin milli maraqlarına əsas məqsədlər daxildir: dövlət müstəqilliyi, ərazinin müdafiəsi, xalqın çiçəklənməsi və onun firavanlığı, həyat fəaliyyətinin təkmilləşməsi, mədəni-mənəvi dəyərlərin saxlanılması və inkişaf etdirilməsi.

Milli maraqların iyerarxiyası, onların zaman və məkan parametrləri daxili və xarici şərait dəyişdikcə dəqiqləşdirilə bilərlər.

Maraqların realizə olunmasının prioritetli daxili şəraitləri bunlardır: fərdiyyətin inkişafı, konstitusional quruluşun möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, əlverişli ətraf mühitə olan hüququn və səhhətin təsərrüfat fəaliyyəti və başqa fəaliyyətlər, qəzalar, fəlakətlər, təbii bəlalar nəticəsində ətraf mühitə pis təsirlərdən müdafiə hüququnun realizə olunması.

Maraqların realizə olunmasının prioritetli xarici şəraitləri bunlardır: tərəfdaşlıq və əməkdaşlıq əsasında səmərəli beynəlxalq əlaqələr sisteminin yaradılması və inkişaf etdirilməsi, istənilən xarici təcavüzün qarşısının alınması və dəf edilməsi qabiliyyətinin təmin edilməsi, beynəlxalq münasibətlər sistemində ölkənin tarixi, siyasi, iqtisadi və intellektual səviyyəsinə, hərbi-siyasi və xarici iqtisadi imkanlarına və tələbatlarına daha çox müvafiq olan yeri tutmaqla fəal və tamhüquqlu iştirak.

İqtisadi məkanın vahidliyi, daxili bazarın genişliyi və rəngarəngliyi ölkənin ən mühüm milli sərvətidir. Regionların istehsal ixtisaslaşması nəzərə alınmaqla onun saxlanılıb inkişaf etdirilməsi, məsələn, Rusiya iqtisadiyyatı üçün birləşdirici əhəmiyyətə malikdir.

Xarici iqtisadi sahədə ölkənin milli maraqları milli istehsalçı üçün elə iqtisadi əlaqələrin qurulmasındadır ki, həmin əlaqələr onların maraqlarının həyata keçirilməsinə rəvac versin, milli məhsulun rəqabət qabiliyyətliliyinin artırılmasına, istehsalın səmərəliliyinə və iqtisadi yüksəlişə kö-

mək etsin.

Milli maraqların qorunmasının təsərrüfatçı subyektlərin, onların iqtisadi və maddi bazasının möhkəmləndirilməsinə, inkişafın dayanıqlılığına ehtiyacı var. Bu zəmində iqtisadi maraqlar formalaşır ki, onların da məzmunu və hüquqi statusuna iqtisadi uğurların, mümkün zərərlərin və itkilərin, müvafiq investisiyaların məcburən xərclənməsi, əldən verilmiş mənfəəti və sahibkarlıq fəallığı riskinin qiymətləndirilməsi daxildir. İqtisadi maraqların formalaşması bir çox həyat fəaliyyəti amilləri ilə müəyyənləşir ki, onlar həm fərdi-eqoistik (sağ qalma, sabitləşmə, inkişaf), həm də qarşılıqlı təsir münasibətləri ilə (üstünlük, üstünlükverim, dayanıqlılıq, rasionallıq) səciyyələnirlər.

Milli-dövlət maraqlarının qorunmasında siyasi vasitələrlə yanaşı sırf iqtisadi proseslər və metodlar mühüm əhəmiyyət kəsb etmişlər. Onlar milli təhlükəsizliyin möhkəmləndirilməsinin əsaslı komponentinə, dövlətçiliyin saxlanılmasının mütləq şərtinə və regional münaqişələrin qarşısının alınmasının mühüm şərtinə çevrilir. Xatırladaq ki, beynəlxalq həyatın «iqtisadiləşməsi» çoxdan qeyd olunmuşdu. Hələ 1912-ci ildə məşhur rus filosofu S.N.Bulqakov qeyd etmişdi ki, bizim dövrümüzün tarixi necəliyinin milli əlamətlərindən biri, şübhəsiz, iqtisadçılıqdır. Başqa ölkələrdə edildiyi kimi, xarici siyasəti «iqtisadiləşdirmək» lazımdır, çünki bunda Rusiya «diplomatiyasının» səmərəliliyinin xeyli artırılması ehtiyatı vardır.

Dünya məkanında təsərrüfat sisteminin üzvləri çox vaxt maraqların obyektiv olaraq üst-üstə düşməsi hesabına yekdil fəaliyyət göstərirlər. Bu üzvlər oyun qaydalarını, dili, təsir texnologiyalarını, təşkilati strukturları və kommunikasiyaları formalaşdıran özütörədən tamlıq əmələ gətirirlər. Onlar iri beynəlxalq kapitalı birləşdirən iqtisadi maraqlara şərait yaradır, dünya bazarı miqyasında fəaliyyət göstərirlər və siyasət müxtəlif ölkələrin və dövlətlərarası ittifaqların siyasəti ilə qəribə tərzdə uzlaşaraq qlobal xarakter alır.

Hər bir ölkənin iqtisadi modeli transmilli və milli kapitalların, dünya oliqarxiyası və milli elita arasında dövlət hakimiyyəti institutları üzərində nəzarət uğrunda gərgin mübarizədə formalaşır. Onların maraqları və dəyərləri müxtəlifdir (çox vaxt bir-birinin əksidir), iqtisadiyyata təsir alətləri fərqlidir.

Yuxarıda qeyd olunmuş geniş spektrli məsələlər insanın, cəmiyyətin və dövlətin həyat fəaliyyətinin aspektlərini qismən əks etdirirlər. Bu aspektlər həyat maraqlarının təmin edilməsi üzrə davranış motivlərini müəyyənləşdirir və qorunmanın – təsərrüfat inkişafının təhlükəsizliyinin tərkib hissələridir. İqtisadi zəmini olduğundan onlar bütün səviyyələrdə: dövlətlərarası, milli, regional, yerli, ev təsərrüfatı və ayrı-ayrı fərdlər səviyyəsində təzahür edirlər.

Dünya birliyi səviyyəsində təsərrüfat sistemlərinin təhlükəsizlik maraqları qarşısındakı mühüm məsələ elə inkişafı təmin etməkdir ki, dövrün aclıq və yoxsulluğun ləğvi, mühitin dağıdılmaması, sabit səmərəli inkişaf, terrorizmin aradan qaldırılması, xalqlar, irqlər, dini cərəyanlar arasında münasibətlərin yaxşılaşdırılması və s. kimi bütün məsələlərini balanslaşdırılmış şəkildə həll edə bilsin.

Milli iqtisadiyyat səviyyəsində belə məsələlərə birinci növbədə yüksək həyat səviyyəsini təmin etməyə qabil olan effektiv iqtisadiyyatın yaradılmaq və saxlamaq, beynəlxalq əmək bölgüsündə öz «yerini» tapmaq, beynəlxalq ticarətdə «milli üstünlükdən» rasional istifadə və s. aiddir. İqtisadi maraqlar beynəlxalq əmək bölgüsündə öz yerini tutan milli iqtisadiyyatın elə vəziyyətini şərtləndirirlər ki, bu zaman əhali öz maddi və mənəvi tələbatlarını ödəmək üçün kifayət qədər yüksək həyat səviyyəsinə malik olur, əhalinin sağlamlığını və yaşayış mühitinin sabitliyini təmin etmək mümkün olur.

Regional səviyyədə həyat fəaliyyəti maraqları problemləri öz əksini dövlətdaxili və xarici ticarət mübadiləsində yerli üstünlüklərin tapılması və istifadə edilməsində, əhalinin həyat səviyyəsinin yüksəldilməsində regionun xüsu-

siyyətlərindən istifadədə tapır.

Yerli səviyyədə əhalinin həyat fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi, həmin bölgədə yerləşən müəssisə və şirkətlərin fəaliyyətinin tənzimlənməsi, sosial təminatların, aztəminatlı ailələrə yardımın tam təmin edilməsində yerli imkanlardan istifadə kimi problemlər həll olunurlar.

Ev təsərrüfatı səviyyəsində ailənin gəlirləri tənzimlənir; müasir, mütərəqqi vergi siyasəti aparılır; ailə büdcəsinin, sosial tələbatların ödənilməsinin və s. iqtisadi problemləri həll olunur. Ayrı-ayrı fərdlərə, şəxslərə münasibətdə onlar əməyin layiqincə ödənilməsi, sağlamlığın qorunması və intellektual zənginləşmə şəraiti, özünə və ailəsinə görə məsuliyyətin tərbiyə edilməsi ilə konkretləşdirilir.

Bütövlükdə milli maraqlar problemləri sırasında iqtisadi komponent təsərrüfat fəaliyyətində və dünya münasibətlərində iqtisadi potensialın aparıcı əhəmiyyət kəsb etməsinə görə aparıcı yer tutmağa başlayır. Birincisi, o, istehsalın və bazar münasibətlərinin, əmtəə və xidmətlər mübadiləsinin inkişafında həlledicidir. İkincisi, preventiv tədbirlər və müdafiə-mühafizə tədbirlərinin təmin edilməsini formalaşdırır. Üçüncüsü, o, təcavüzkar və ya yaradıcı-intellektual niyyətləri və hərəkətləri tənzimləməyə imkan verir.

Ədəbiyyatda və təsərrüfat fəaliyyətində bu və ya digər fəaliyyət sahələri üzrə təsərrüfat subyektinin təhlükəsizliyinin təmin edilməsi mövqeyindən müəyyən anlayışlar formalaşmışdır: istehlakçının resurslarla təmin edilməsi (energetik, ərzaq); ətraf təbii mühitin lazımi keyfiyyətdə saxlanılması (ekoloji); biliklərin ötürülməsi prosesinin (informasiya, intellektual) və ya ictimai həyatın (siyasi, hərbi, kriminal) tənzimlənməsi; maliyyə sisteminin fəaliyyət göstərməsi (bank, pul-kredit).

Dünyada müasir iqtisadi inkişaf *iki ziddiyyətli meyilin* uzlaşması ilə səciyyələnir:

1) bütün ölkələrin maraqlarının beynəlxalq maliyyə oliqarxlarının və transmilli kapitalın maraqlarına tabeliliyi;

2) müstəqil dövlətlərin milli iqtisadiyyatlarının rəqabə-

ti.

Bu meyillər hər bir ölkədə maraqların, xarici və daxili amillərin təsirinin mürəkkəb kombinasiyalarını yaradır. Nəticələr və onların sonrakı təsirləri transmilli kapitalın şəksiz dominantlığı ilə tam müstəmləkə asılılığından (Afrika qitəsinin ölkələri) təsərrüfat siyasətinin əsasən milli kapitalın və ölkə əmtəə istehsalçılarının maraqlarından çıxış etdiyi ABŞ, Almaniya, Yaponiyanın iqtisadi gücünə qədər fərqlənir. Bu iki qütblər arasında transmilli korporasiyalar tərəfindən daimi təzyiq şəraitində öz kapitalının inkişafı üçün müəyyən bir yer tapmağa çalışan ölkələr, inkişaf strategiyasında xarici kapitalı cəlb etmə siyasətini bu və ya digər dərəcədə öz maraqları və milli müstəqilliklərindən imtina və ya onları qorumaqla uzlaşdıran ölkələr yerləşir.

Hər bir ölkənin iqtisadi modeli dövlət hakimiyyəti institutları üzərində nəzarət uğrunda iqtisadiyyata təsir alətlərinin tətbiq edilməsi ilə gərgin mübarizə şəraitində formalaşır. Ölkənin tarixən şərtlənmiş inkişafının iqtisadi, mədəni və siyasi xüsusiyyətlərinin öyrənilməsi və istifadə edilməsinə söykənən, rəqabət üstünlüklərinin onların hər birinin öz maraqlarına tabe etdirilməsi, bu şəraitdə daha üstünlükverimli informasiya, hüquqi və güc infrastrukturlarının formalaşdırılması metodları və vasitələri bu alətlər arasındadır. Dünya ticarət və maliyyə dövriyyəsinin yarısından çoxunu, ən gəlirli istehsal sahələrini (neft, elektrotexniki, avtomobilqayırma və başqa sənaye növləri) nəzarətdə saxlayan beynəlxalq maliyyə oliqarxları və iri transmilli kapital böyük iqtisadi qüvvədirlər. Lakin onun hərəkətlərinin birləşdirilməsinin mütləqləşdirilməsi bəzilərinə şişirdilmiş görünür. O, maraqlı şəxslərin bazar şəraitində istənilən özüyaranan birliyi kimi, yalnız birlığə fəaliyyətə subyektiv motivlərin təsirindən deyil, fəaliyyətdə olan maliyyə qurumlarının onlar üçün məqbul olan oyun qaydalarının müəyyənləşdirilməsi və saxlanılması üzrə obyektiv maraqlarının üst-üstə düşməsinin təsiri altında fəaliyyət göstərir. Buna görə də iri bankların və təsərrüfat sistemlərinin, onlara xid-

mət göstərən hüquqi və beynəlxalq təşkilatların, müxtəlif formal və qeyri-formal hüquqi təsir və ictimai rəyi idarəetmə institutlarının mövcud xeyli rəngarəng məcmusu müxtəlif vaxtlarda və müxtəlif ölkələrdə eyni cür hərəkət etmirlər. Bu zaman ən mühüm təsir alətləri bunlar oldular: milli elitanın himayədə yaşamaq əhvalının dəstəklənməsi, ölkələrin borc asılılığına cəlb olunması, milli elitanın pula ələ alınması və mənəviyyatsızlaşdırılması, ictimai rəyə yalan məlumatın verilməsi (PR - texnologiyalar) və onun məqsədli istiqamətlənməsi. Bu xəttin ideoloji təminatı qismində neçə-neçə onilliklərdir ki, formal demokratiya və radikal liberalizm çıxış edir.

Beləliklə, təsərrüfat fəaliyyətinin istiqamətini, təsərrüfat subyektinin davranış və fəaliyyət motivlərini, həmçinin təsərrüfat prosesi iştirakçıları arasında münasibətlərin kəskinləşməsi və harmonikliyini maraqlar və birinci növbədə iqtisadi maraqlar müəyyənləşdirirlər.

Təhlükəsizliyə münasibətdə əvvəllər üstünlük təşkil edən müdafiə (məhdudlaşdırıcı-cəzaverici) funksiyalar bilavasitə qarşıda duran məqsədlərə və ya yaranmış vəziyyətə müvafiq nəticələrə çatılması proseslərinə ən texnoloji təsir prosedurlarına çevrilirlər. Maraqların, məqsəd və vəzifələrin, onların məmnunlaşdırılmasının üsul və metodlarının müxtəlifliyi təsərrüfat subyektlərinin təhlükəsizlik sahələri və istiqamətlərinin miqyasının fərddən ümumbəşəriyə qədər genişlənməsini şərtləndirmişdir.

Təsərrüfat subyektlərinin maraqlarının gözlənilməsi aşağıdakılara təsir etməklə insanların həyatını yaxşılaşdıran amil-nəticələrin təhlilindən çıxış edir:

- birbaşa – məişət vasitəsilə, ərzaq və sənaye əmtəələri ilə təmin etməklə;
- dolayısıyla – təbii-resurs potensialından istifadə etməklə;
- həyat fəaliyyəti şəraitinin dəyişdirilməsi: rahatlıq, məşğulluq, insan hüquqları və azadlıqlar, yaşayış mühitinin keyfiyyəti.

Rusiyada bunun üçün bütün obyektiv şəraitlər var: ixtisaslı kadrlar, müxtəlif cür və kifayət qədər təbii resurslar, güclü istehsal və elmi-texniki potensial var.

Coğrafi məkan baxımından beynəlxalq münasibətlər inkişaf etdikcə maraqlar milli-dövlət forması kəsb edir. Onun sinonimi də - «etnos-millətə» deyil, «dövlət-millətə» yəni həmin dövlətin qanunları üzrə yaşayan və bu qanunlar qarşısında bərabərhüquqlu olan bütün şəxslərə, xalqlara, əhaliyə aid olan «milli maraq» məfhumu geniş işlədilməyə başlayır.

Milli maraqlar əməkdaşlıq və öz iqtisadi potensialından həyat tələbatlarının məcmusu ilə şərtlənən istifadə prioritetlərini diktə edir ki, bunlara da aşağıdakılar aiddir: dünya birliyində layiqli yer, sağlamlıq və firavanlıq, ərazi bütövlüyü, ənənələrin, maddi və mənəvi sərvətlərin saxlanılması. Dünyanın müxtəlif bölgələrində inkişaf edən proseslər xalqların vəziyyətinə və inkişaf perspektivlərinə, bəzən isə milli məqsədlərin dərkinə və müəyyənləşdirilməsinə bilavasitə və əhəmiyyətli dərəcədə təsir edə bilirlər. Müvafiq olaraq milli-dövlət maraqları güc, iqtisadi və psixoloji metodlar vasitəsilə başqa dövlətlərə fəal təsir funksiyasını yerinə yetirirlər. Bu zaman liderlik, təcavüzün qarşısının alınması, həyat fəaliyyətinin etibarlılığı, mənəvi-mədəni müstəqillik və maddi çiçəklənmə maraqları formalaşır.

Tarixi inkişafın hər bir mərhələsində milli-dövlət maraqları siyasi, iqtisadi, hərbi və texnoloji sahələrdə öz prioritetlərini yaradırlar, amma ən əsas kimi milli xüsusiyyətlər: mənəviyyatın, milli sağlamlığın, ləyaqət və rifahın saxlanılması qalır.

Milli-dövlət maraqlarının formalaşması iqtisadiyyatın inkişafının, dövlətçiliyin sosial ilkin şərtlərinin və institusional mexanizmlərinin baza prioritetləri sistemində həlledici olur.

Dünya ölkələrinin çoxu üçün milli-dövlət maraqları konkret formullarla ifadə olunur ki, bu da öz iqtisadiyyatının dayanıqlığı, inteqrasiya ittifaqları prinsipləri, transmilli korporasiyaların korporativ cəhdləri və ya xeyriyyəçiliyə

və müxtəlif növ yardımlara ümidlər.

Rusiyanın milli maraqları milli sərvətə və Rusiya Federasiyası xalqlarının milli dəyərlərinə əsaslanır, iqtisadiyyatın imkanları, dövlətin siyasi və hərbi təşkili, çoxmillətli Rusiya cəmiyyətinin intellektual potensialı ilə təmin edilir.

Rusiya:

- tarixi baxımdan Qədim Rusiyanın, Moskva çarlığının, Rusiya imperiyasının varisi, SSR İttifaqının davamçısıdır;
- geosiyasi baxımdan – Avrasiyada unikal coğrafi mövqedə yerləşən ərazidir ki, bu da düşünülmüş siyasətlə vəhdətdə qlobal güclər balansında mühüm sabitləşdirici rol oynamağa imkan verir;
- iqtisadi baxımdan – güclü resurs potensialına, o cümlədən müstəqil dövlət qismində sürətli inkişafı və lazımi təsərrüfat muxtariyyatının təmin edə biləcək intellektual və təbii sərvətlərə malik ölkədir;
- milli baxımdan – tarixi taleyi ilə vahid dövlətdə bərabərhüquqlu zəmində qarşılıqlı əlaqədə olan rus və digər xalqların çoxetnik birliyidir;
- dünyagörüşü baxımından – çoxəsrlik mənəvi ənənələrin qoruyucusudur.

Müasir mərhələdə Rusiyanın ali milli marağı insanın mənəvi-mədəni inkişafının, onun hüquq və azadlıqlarının təmin edilməsi zəminində rifahının və firavanlığının təmin edilməsi, onun öz hərəkətləri və fəaliyyəti üçün ictimai məsuliyyətinin stimullaşdırılmasıdır. Ölkənin iqtisadi sistemi mürəkkəb iyerarxik struktur olduğundan iqtisadi təhlükəsizlik obyektləri qismində müxtəlif səviyyəli iqtisadi münasibətlər çıxış edir:

- makroiqtisadi səviyyə – bütövlükdə ölkə iqtisadiyyatı;
- region və sahə səviyyələri – Federasiya subyektlərinin və sahələrin iqtisadiyyatı;
- mikroiqtisadi səviyyə – bazar agentləri;

- ailə və şəxsiyyət səviyyəsi – hər bir ölkə vətəndaşının iqtisadi maraqları.

İqtisadi obyektlərin maraqları qarşılıqlı əlaqədar (qarşılıqlı şərtlənən) və eyni zamanda ziddiyyətlidir. Buna görə də iqtisadiyyatın müxtəlif bölmələrinə dövlətin müdaxilə dərəcəsi və onun zaman çərçivələri müəyyənləşdirilməlidir.

Milli-dövlət, milli maraqları bacarıqla və ardıcıl müdafiə etmək üçün onları başa düşmək lazımdır. Dövlət liderləri, bir qayda olaraq, öz milli maraqlarını, özlərinin onları başa düşdükləri və ya dövlətdə kütləvi şüurun onları qavradığı kimi, gözləməkdə rasional və sərtdirlər. Britaniyanın daimi dostları və əbədi düşmənləri yoxdur, yalnız onun «maraqları» daimidir ifadəsi 150 il bundan əvvəl olduğu kimi bu gün də səciyyəvi və doğrudur.

§3. İqtisadi təhlükəsizliyə və milli maraqlara xarici və daxili təhlükələr

İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın səmərəli dinamik yüksəlişi, onun cəmiyyətin, dövlətin, fərdin tələbatlarını ödəyə bilməsi üçün əlverişli olan daxili və xarici şəraitlərin məcmusudur.

İqtisadi maraqlar üçün birbaşa təhlükəni ictimai təkrar istehsalın normal gedişini pozan iqtisadi təhdidlər yaradır. Ən ümumi şəkildə onlar daxili və xaricilərə bölünə bilərlər.

RF-nın iqtisadi təhlükəsizliyi və milli-dövlət maraqları üçün təhlükə yaradan ***xarici amillərə*** aşağıdakıları aid etmək olar:

- Rusiya ixracatında xammal əmtəələrinin üstünlük təşkil etməsi, hərbi və maşınqayırma sənayesi məhsullarını ənənəvi satış bazarlarının itirilməsi;
- Rusiyanın ərzaq əmtəələrinin, bir çox, o cümlədən strateji təyinatlı məhsulların idxalından asılılığı;
- artan xarici borc;
- ixrac və valyuta nəzarətinin qənaətbəxş və gömrük sərhədinin bağlı olmaması;

- Rusiya ixracının rəqabət qabiliyyətliyinin müasir maliyyə, təşkilati və informasiya dəstəyinin və idxalın strukturunun rasionallaşdırılmasının lazımi səviyyədə olmaması;

İxrac-idxal əməliyyatlarına xidmət edən nəqliyyat infrastrukturunun inkişaf etməməsi.

İxrac məhsulları qiymətlərinin kəskin şəkildə düşməsi və ya idxal olunan əmtəələrin qiymətinin qalxması xarici bazardan yüksək asılılıq şəraitində iqtisadiyyatın vəziyyəti üçün olduqca təhlükəlidir, Rusiya üçün mühüm satış bazarı qismində çıxış edən və ya məhsul verən ölkələr və ya ölkələr qrupu ilə ticarətə embarqo qoyulması da təhlükəlidir. Ayrı-ayrı məhsul növlərinin idxalından və ya xarici dövlətdən maliyyə asılılığı yolverilməzdir, çünki bu, kreditorlara Rusiyaya siyasi təzyiq göstərməyə imkan verir.

Açıq iqtisadiyyata keçid son həddə himayədarlığından imtinanı nəzərdə tutur. Lakin Rusiyanın dünya təsərrüfatına qoşulmasının yeni modelinin formalaşması üçün perspektivli sahələr və istehsalatların müdafiəsi üçün himayədarlıq, yəni *selektiv himayədarlıq* lazımdır. İqtisadi təhlükəsizlik baxımından Rusiya əmtəələri üçün satış bazarlarının, idxal xammalı və sənaye məhsulları mənbələrinin diversifikasiyasına çalışmaq, geniş dairədə ölkələrlə iqtisadi əlaqələr saxlamaq, bir ölkələrlə münasibətlər mürəkkəbləşəndə bunu digərləri ilə münasibətlərin genişlənməsi hesabına kompensə etmək lazımdır.

Xarici investisiyaların cəlb edilməsi mexanizmi Rusiya iqtisadiyyatına real maliyyə və maddi resursların daxil olmasına ünvanlanmalı, xaricilərin ölkənin milli sərvətlərini dəyər-dəyməzinə almasına şərait yaratmamalıdır. Bu prosesi elə tənzimləmək lazımdır ki, xarici şirkətlər az vəsait yatırtmaqla Rusiya istehsalının bütöv sahələrinə nəzarət edə bilməsinlər.

Milli valyutanın vəziyyəti dünyanın hər yerində ölkənin iqtisadi vəziyyətinin indikatoru sayılır. Ölkədən geniş miqyasda maliyyə vəsaitinin axması («kapital qaçışı») milli iqtisadi təhlükəsizlik üçün ən ciddi təhlükələrdən biridir. Vəsait

axınının leqal formalarından biri, məsələn, kommersiya banklarının xarici banklardakı hesablarına böyük məbləğdə pul köçürmələridir. Qeyri-leqal kanallara ixrac zamanı qiymətin aşağı və idxal zamanı isə yuxarı göstərilməsi (saxta və əsl qiymətlər arasındakı fərq xarici tərəfdaşlar tərəfindən Rusiya iş adamlarının Qərb banklarındakı hesablara köçürülür), idxal üçün peşin (beh) pul köçürmələri, hansı ki, bunun ardınca heç bir idxal olmur və s. aid edilir.

BMT-nin məlumatlarına görə hər il dünyada qeyri-leqal narkotik ticarətindən, silah alverindən, gizli qumar biznesindən, fahişəlikdən və s. əldə olunmuş 300 mlrd dollar «təmizlənir».

Ölkənin yalnız iqtisadi deyil, həm də siyasi təhlükəsizliyi üçün təhlükə yaradan ən ciddi xarici iqtisadi problemlərdən biri xarici borc problemidir. Xarici borcun yüksək səviyyədə olması dövlətin öz milli maraqlarında müstəqil xarici siyasət aparmaq imkanlarını şübhə altına alır, çünki ölkə daim aparıcı kreditorlarının fikrini nəzərə almalıdır.

Xarici borcun ödənilməsi üçün xarici dövlətlərin Rusiyaya Rusiyanın özünün borclarından xeyli çox olan borclarından istifadə etmək lazımdır. Yeni kreditlər və borclara gəldikdə isə, onları yalnız kreditlərin razılaşdırılmış müddətdə ödənilməsinə təminat verən istehsal layihələrinin maliyyələşdirilməsinə cəlb etmək olar.

Daxili iqtisadi təhlükəsizlik sahəsi təbii, texniki-texnoloji, infrastruktur, sosial və digər makro- və mikroiqtisadi inkişaf amillərindən, daxili immunitetdən və müxtəlif desabitləşdirici və destruktiv təsirlərdən xarici müdafiə olunmaqdan asılıdır.

Cəmiyyətin iqtisadi təhlükəsizliyi və milli maraqları üçün təhlükə yaradan ***daxili amillərə*** aşağıdakılar aiddir:

- iqtisadiyyatın keçmişdən miras qalmış deformasiyası;
- milli təsərrüfat sahələrinin çoxunun texnoloji bazasının geridə qalması, yüksək enerjitutumluluğu və resurstutumluğu ilə bağlı aşağı rəqabət qabiliyyətliyi;
- iqtisadiyyatın inhisarlaşmasının yüksək səviyyəsi;

- inflyasiyanın yüksək səviyyəsi;
- infrastruktur obyektlərinin kifayət qədər inkişaf etməməsi və dayanıqlı olmaması;
- mineral-xammal bazasının zəif öyrənilməsi və resursların təsərrüfat dövriyyəsinə cəlb olunma imkanlarının məhdudluğu;
- ölkənin elmi-texniki potensialının vəziyyətinin pisləşməsi, elmi-texniki inkişafın ayrı-ayrı sahələrində, o cümlədən xaricə və başqa fəaliyyət sahələrinə «beyin axını» nəticəsində aparıcı mövqelərin itirilməsi, intellektual əməyin prestijinin aşağı düşməsi;
- ölkə əmtəə istehsalçılarının, xüsusilə istehlak məhsulları istehsalçılarının daxili bazardan xarici firmalar tərəfindən sıxışdırılması;
- idarəetmə qərarlarının qəbul edilməsi zamanı region separatizmi və sahə lobbizminin yüksək səviyyəsi tendensiyasının mövcudluğu;
- investisiya fəallığının aşağı olması;
- əsaslı xərclərə deyil, cari xərclərə üstünlük verilməsi;
- sosial münaqişələrin, o cümlədən əməyin haqqının ödənilməsi mexanizminin qeyri-kamilliyi, işsizliyin artması, təhsilin keyfiyyətinin və səviyyəsinin aşağı düşməsi səbəbindən, yaranmasına potensial təhlükə;
- hüquqi qanunvericiliyin qeyri-kamilliyi, Rusiya bazarında iqtisadi subyektlərin çoxunun inhisarçı vəziyyəti və vicdansız hərəkətləri, zəif hüquqi intizam;
- bazar agentlərinin maliyyə və müqavilə intizamının aşağı olması;
- iqtisadiyyatın idarə edilməsi sahəsində kriminallaşma və korrupsiya;
- gəlirlərin kütləvi gizlədilməsi və vergidən yayınmalar;
- maliyyə vəsaitlərinin qeyri-qanuni xaricə köçürülməsi.

Daxili amillər aşağıdakılara bölünürlər:

1) iqtisadi sistemin tsiklik inkişafı qanunauyğunluqları ilə əlaqədar olanlar;

2) tsiklik qanunauyğunluqlarla əlaqədar olmayanlar.

Birinci qrup amillərin miqyası və dayanıqlığı onların müəyyən şəraitdə makroiqtisadi səviyyədə neqativ nəticələrə səbəb ola bilərcəyi fikrini ortaya gətirirlər. İkinci qrup amillərin təsiri aşağıdakılarda uzunmüddətli dağıdıcı meyillərin ardıcıl olaraq yığılıb qalmasından irəli gəlir:

- ölkənin istehsal, innovasiya və elmi-texniki potensialından istifadədə;
- təsərrüfatçılıq və idarəetmədə iqtisadi münasibətlərdə;
- sosial sahədə;
- ətraf mühitin vəziyyətində;
- federativ münasibətlər sistemində və regional iqtisadiyyatda.

Rusiyada artıq neçə illərdir ki davam edən bazar islahatları həyat əhəmiyyətli istehsal sahələrinin bir qisminin kəskin azalmasına və digər qisminin, xüsusilə də mədən sahələrinin birtərəfli artımına səbəb olmuşlar. Deformasiyanın miqyasının özü artıq ciddi təhlükə doğurur. Lakin daha vacibi odur ki, əvvəllər Rusiyada inkişaf etmiş mühüm sahələrdə istehsal həcminin azalması ölkə istehsalçılarının nəinki dünya bazarından, hətta daxili bazardan sıxışdırılmasını qaçılmaz edir. Bu istiqamətdə proseslərin inkişafı elə vəziyyətə gətirə bilər ki, bu zaman satış bazarının olmaması səbəbindən hətta güclü maliyyə dəstəyi vasitəsilə də istehsalı bərpa etmək mümkün olmasın.

Ölkənin iqtisadi təhlükəsizliyi üçün ciddi və real təhlükə yaradırlar: fundamental tədqiqatların yığışdırılması, dünya səviyyəli elmi-tədqiqat kollektivlərinin və konstruktor bürolarının dağılması, yüksək texnoloji və yetərincə rəqabət qabiliyyətli məhsula sifarişlərin kəskin azalması, Rusiyadan «beyin axını». Təəssüf ki, yüksək ixtisaslı mütəxəssislərin və fəhlələrin iqtisadiyyatın daha prestijli və yüksək maaşlı sahələrinə gedişinə lazımi diqqət yetirilmir.

Sənaye istehsalının strukturu ciddi dəyişir ki, burada xammal sahələri – yanacaq sənayesi və metallurgiya - get-

gedə daha çox üstünlük təşkil etməyə başlayırlar, bu zaman son nəticə sahələrinin – maşınqayırma, kimya sənayesi, həmçinin yüngül sənaye və yeyinti sənayesinin - xüsusi çəkisi azalır. Bazarın özü-özlüyündə, dövlət tənzimləməsi olmadan və məqsədyönlü selektiv siyasət aparılmadan istehsal strukturunda mütərəqqi dəyişiklikləri edəcəyinə bağlanan ümidlər də doğrulmadı. Xarici investorların da gözləmələri doğrulmadı, çünki onların maraq dairələri Rusiyanın iqtisadi siyasətinin prioritetləri ilə üst-üstə düşmür.

Mövcud strukturların və təsərrüfat əlaqələrinin dağıdılmasında tələskənlik, sənaye və kənd təsərrüfatı arasında qiymət disproporsiyalarının kəskinləşməsi, ölkə istehlakçılarına münasibətdə düşünülmüş himayədarlıqdan imtina və ərzaq məhsullarının idxalı üçün daxili bazarın praktik olaraq tamamilə açılması – bunların hamısı ölkənin özünü ərzaqla təmin etmə bazasını dağıdır.

Kənd təsərrüfatı texnikası istehsalçılarının inhisarçılığı, vasitəçi strukturların artması, düşünülməmiş vergi və kredit siyasəti ərzaq istehsalını qeyri-səmərəli edir, əl əməyinin payını artırır. Ərzaq resurslarının ticarət hissəsinin həcmi və xüsusi çəkisi mütəmadi azalır, istehsalın naturallaşması güclənir.

Bütün bunlar ölkənin istehsal müstəqilliyinin itirilməsi təhlükəsini yaradır və əgər təhlükə vaxtında dərk olunmasa, ölkə istehsalçılarının və onların maraqlarının çevik və səmərəli qorunması sistemi təşkil olunmasa, bunlar artıq baş tutmuş fakta çevriləcək.

Ölkənin sosial sabitliyinin daxili təhlükələr sırasına işsizliyin artması da daxildir. Özü-özlüyündə neqativ olan bu proses işsizlik kütləvi və durğun səciyyə daşımağa başlayanda xüsusi narahatçılıq doğurur. Artan işsizlik Rusiya əhalisinin xüsusi mentallığı ilə birləşərək sosial sahədə narahatçılığı artırır, cinayətkarlığın artması üçün münbit mənbəyə dönür. Səmərəli və məhsuldar işləmək əlverişsiz və qeyri-cəlbedici olur. Bu isə təhlükəsizlik üçün ciddi təhlükədir.

İqtisadi böhran və iş fəallığının süni ləngidilməsi şəraitində Rusiya rəhbərliyi maliyyə sistemindəki «deşikləri yamamaq» üçün xarici borclardan istifadə edir. Xarici borclar iqtisadiyyatın dirçəlməsi, onun texniki yenidən təchiz edilməsi, istehsal olunan məhsulun rəqabət qabiliyyətliliyinin yüksəldilməsində mühüm vasitə ola bilər. Əsas məsələ borclardan məqsədyönlü və dövlət borcu miqyasında istifadə etməkdir. Xarici borcların səmərəsizliyini hazırda istehsalın aşağı düşməsi, onun strukturunun pisləşməsi, investisiya fəallığının azalmasından görmək olar. Xarici borcla və ona xidmət göstərilməsi ilə bağlı yükün ağırlığı kəskin şəkildə artır.

Son illərdə iqtisadi sahədə kriminogen vəziyyət kəskin şəkildə pisləşmişdir. Kriminallaşma praktik olaraq təsərrüfat həyatının bütün sahələrinə – mülkiyyət münasibətlərinə, maliyyə və bank fəaliyyətinə, istehsala, ticarətə, xidmətlərə, xarici iqtisadi əlaqələrə – sirayət etmişdir.

§4. İqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmi

Məlum olduğu kimi, elə problemlər var ki, onlar yalnız dövlətin səlahiyyətindədir. Onları dövlətin iştirakı olmadan həll etmək mümkün olsaydı, dövlət lazım olmazdı. Dövlətin ali borcu və əsas funksiyası cəmiyyətdə sabitliyi, onun özünüsaxlaması və inkişafını təmin etmək, ölkənin təhlükəsizliyinə mümkün təhdidlərin qarşısını almaqdan ibarətdir. Özü də hadisələrin ardınca passiv getmək deyil, yaranmaqda olan təhlükənin qarşısının alınması həlledici əhəmiyyət kəsb edir. Belə, ən ağıllı və səmərəli hərəkət məntiqi ***qabaqlamaq prinsipi*** adlandırıla bilər.

Dövlət orqanları tərəfindən əsaslandırılmış qərarların qəbul edilməsi məqsədilə iqtisadi təhlükəsizlik indikatorlarının (göstəricilərinin) monitorinqi aparılmalıdır ki, o da hər şeydən öncə ən mühüm iqtisadi göstəricilər qrupunun faktik olaraq izlənilməsi, təhlili və proqnozlaşdırılmasını nəzərdə

tutur.

İqtisadi təhlükəsizliyin ***ümumi göstəricilərinə*** (indikatorlarına) aiddirlər: həyatın səviyyəsi və keyfiyyəti; inflyasiyanın tempi; işsizliyin səviyyəsi; iqtisadi artım; büdcə kəsiri; dövlət borcu; xarici borc; dünya iqtisadiyyatına qoşulma; kölgə iqtisadiyyatının fəaliyyəti; mülkiyyətin strukturu; vergi sistemi; bazar strukturlarının inkişafı.

Region səviyyəsində iqtisadi təhlükəsizlik indikatorlarına aşağıdakıları əlavə etmək lazımdır: əhalinin gəlirlərini; pərakəndəsatış qiymətlərinin səviyyəsini; mənzil təminatını; qaçqınların, mühacirlərin sayını və s.; ölkənin ÜDM-də regionun xüsusi çəkisini; regionun ödəniş balansını; ixrac-idxal saldosunu.

İqtisadi təhlükəsizliyin təmin edilməsi sahəsində dövlət strategiyası ölkənin və onun regionlarının iqtisadi və sosial inkişafının proqnoz variantları üzərində qurulur və müəyyən zaman dövrləri nəzərə alınmaqla bu və ya digər variant üzrə baş verənlər hadisələrdən asılı olaraq dəqiqləşdirilir.

Təsərrüfat subyektlərinin fəaliyyətinin iqtisadi təhlükəsizliyə təhdid etməsinə və vətəndaşların zərərinə yönümlənməsinə dövlət yol verməməlidir. Bu məqsədlə sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, xırda və orta biznesin Rusiya iqtisadiyyatına töhfəsinin artırılmasına, iqtisadiyyatın rəqabətqabiliyyətinin inkişafına və inhisarsızlaşdırılmasına, bazar fondlarının, həmçinin torpaq və daşınmaz əmlak bazarlarının formalaşmasına yönəlmiş tədbirlər hazırlanmalı və həyata keçirilməlidir. Bundan başqa, bütün hakimiyyət səviyyələrində qanun layihələrinin keyfiyyətinin və əsaslandırılmasının artırılması üçün tədbirlər görülməli və dövlət orqanları da daxil olmaqla qanuniliyin hamı tərəfindəq gözlənilməsi təmin edilməlidir.

Dövlətin struktur siyasəti makro - və mikrosəviyyədə realizə olunur.

Makroiqtisadi səviyyədə aşağıdakı məsələlər həll olunur:

- məcmu tələbin yüksəldilməsi;

- yığımın normasının artırılması və yığımların investisiyalara transformasiyası üçün şəraitin təmin edilməsi;
- bütün növ resursların durğunluq keçirən bölmələrdən artımlı bölmələrə köçürülməsinin stimullaşdırılması;
- ümumi investisiyaların artırılması;
- ixracın stimullaşdırılması;
- ölkə istehsalçısının müdafiə edilməsi məqsədilə ümumi qəbul olunmuş prosedurlar çərçivəsində idxalın tənzimlənməsi.

Mikroiqtisadi səviyyədə həyata keçirilir:

- iqtisadi cəhətdən səmərəli müəssisə və təşkilatların dəstəklənməsi və inkişafının stimullaşdırılması;
- qeyri-səmərəli iqtisadi strukturların likvidliyi və ya yenidənqurulması;
- yeni inhisarların yaranmasına imkan verilməməsi;
- sahələrarası kapital axınının təmin edilməsi məqsədilə fond bazarının stimullaşdırılması və tənzimlənməsi;
- qiymət artımının ləngidilməsi məqsədilə razılaşdırma prosesnin təşkili;
- iqtisadi subyektlərin bazar davranış normalarının tətbiqinin stimullaşdırılması.

İqtisadi təhlükəsizlik baxımından həyat əhəmiyyətli istehsal sahələrinə yanacaq sənayesini və energetikanı, yeyinti sənayesini, nəqliyyatı, rabitəni və s. aid etmək lazımdır.

Elmi-texniki potensialın saxlanılması, dəstəklənməsi, inkişafı və səmərəli istifadəsini iqtisadi və hərbi təhlükəsizliyin mühüm strateji istiqaməti kimi nəzərdən keçirmək lazımdır. Bu məqsədlə ölkənin elmi-texniki inkişafının uzunmüddətli dövlət konsepsiyası işlənilib hazırlanmalı, ən yaxın dövr üçün dövlətin elmi-texniki siyasətinin prioritetləri, birinci növbədə bizim digər ölkələrdən kifayət qədər üstünlüyümüz olan sahələrdə müəyyənləşdirilməli, elm dəstəklənməli və maliyyələşdirilməli, Rusiya alimlərinin maddi təminatı üçün dövlət tərəfindən müvafiq tədbirlər tələb edən ən mühüm strateji prioritet elan olunmalıdır.

İqtisadi təhlükəsizlik və onun sosial tərkib hissəsi baxı-

mından ***iqtisadi siyasətin realizə olunması cəmiyyətin qütbləşməsi ilə deyil, böhran dövrünün ağırlığının əhalinin müxtəlif sosial qrupları üzərinə bərabər qaydada və ədalətli bölgüsü ilə müşayiət*** olunmasına əsaslanan prinsipə riayət etmək lazımdır.

Müflislik prosedurunun tətbiq edilməsi şəraitində müəssisə işçilərinin sosial dəstəklənməsi üzrə əlavə tədbirlər və hüquqi bazaya əlavələr və dəyişikliklər edilməsi müflislik haqqında qanunvericiliyin realizə olunmasının gedişində sosial məsrəfləri yumşaltmağa və kritik maliyyə vəziyyətində olan müəssisələrə münasibətdə yenidənqurma və likvidlik prosedurlarının aparılması üçün zəruri şərtləri yaratmağa yönəldilir.

Bu gün SSRİ-nin dağılması, sabiq müttəfiq respublikalarda iqtisadi və daxili siyasi vəziyyətin gərginləşməsi, yerli olmayan millətə mənsub şəxslərin dininə, dilinə görə diskriminasiyasına şərait yaradan vətəndaşların əsas hüquq və azadlıqlarının qorunmaması təhlükəsini aradan qaldırmaq lazımdır.

Məcburi miqrasiya probleminin həll edilməsi üçün tədbirlər sistemi yaradılmalıdır ki, bunlardan da ən mühümləri bunlardır:

- miqrasiya axınlarını qəbul edən regionun sosial-iqtisadi inkişafı, yerləşdirmə yerinin iqlim şəraiti, miqrantların psixologiyasının spesifikası nəzərə alınmaqla tənzimlənməsi;
- məcburi miqrantların sosial müdafiə olunmayan kateqoriyalarına yardım proqramlarının hazırlanması və realizə olunması;
- məcburi miqrantların məşğulluğunun təmin edilməsi.

İqtisadi təhlükəsizliyin təmin edilməsi uzunmüddətli, strateji məsələdir. Onun həlli Rusiyanın iqtisadi təhlükəsizliyinin dövlət strategiyasının (doktrinasının) hazırlanmasını və təsdiq edilməsini nəzərdə tutur. Bu, məhz ali milli-dövlət maraqlarına cavab verən və normativ xarakter səciyyəli olan dövlət strategiyası olmalıdır.

§5. İqtisadi təhlükəsizliyin səmərəlilik meyarı əsasında maraqların təzahür yetkinliyinin qiymətləndirilməsi

İqtisadi təhlükəsizliyin müasir neoklassik iqtisadiyyat çərçivəsində fundamental tədqiqi onun tədqiqat proqramlarının əsas müddəaları ilə tutuşdurulmalıdır. Müasir nəzəriyyələrin çoxu neoklassik məktəb hüdudlarından kənara çıxmadığı üçün neoklassik nəzəriyyənin[1] əsas paradiqmasını (mütləq nüvəsini), həmçinin «mühafizə zolağını» təşkil edən əsas verilənlərini elmin İmre Lakatos[2] tərəfindən işlənib hazırlanmış metodologiyasına söykənərək təhlil edək:

- endogen səciyyə daşıyan sabit üstünlükverimlər;
- rasional seçim (davranışı maksimallaşdıran);
- bazarda tarazlıq və bütün bazarlarda ümumi tarazlıq.

Mühafizə zolağı göstərir ki:

- mülkiyyət hüququ dəyişilməz və dəqiq müəyyənləşdirilmiş qalır;
- informasiya tam əlyetər və dolğundur;
- fərdlər öz tələbatlarını xərcsiz, resursların ilkin bölgüsü nəzərə alınmaqla baş verən mübadilə vasitəsilə məmnunlaşdırırlar.

Neoklassik məktəbin davranış verilənlərinə ortodoksal iqtisadi insan modeli əsaslanır. Bu modeldə insan faydalılığın kamil maksimallaşdırıcısı kimi çıxış edir. Müasir elmi ədəbiyyatda iqtisadi insanı qeyd etmək üçün REMM akronimindən istifadə olunur ki, bu da «bacarıqlı, qiymətləndirici, maksimallaşdırıcı insan»[3] deməkdir. Belə modelin yaradılması fərdin təsərrüfat fəaliyyətində seçim və motivasiya probleminin tədqiq olunmasının zəruriliyi ilə şərtlənir.

Q.Saymon maksimallaşdırma prinsipini kafilik prinsipi[4] ilə əvəz etməyi təklif edir, çünki mürəkkəb vəziyyətlərdə

1 Eggertsson T. Ekonomic behavior and institutions. Cambridge, 1990. P.5

2 Лакатос И. Фальсификация и методология научно-исследовательских программ. М., 1995. С.79-89.

3 Брунер К. Представление о человеке и концепция социума: два подхода к пониманию общества // THESIS/ Т.1. Вып.3.1993.

4 Саймон Г. Теория принятия решений в экономической теории и науке о поведении / Под ред. В.М.Гальперина.- СПб.: Экономическая школа, 1996.

kafi seçimi qaydalarına riayət etmək qlobal optimallaşdırma cəhdlərindən daha sərfəlidir. Əgər rasional davranış haqqında verilənlərdə maksimallaşdırma prinsipi kafilik prinsipi ilə əvəzlənirsə, onda neoklassik və neoinstitusional paradiqmaya alternativ olan yeni tədqiqat proqramı formalaşır ki, bu da elmi ədəbiyyatda *yeni institusional iqtisadiyyat* adını almışdır.

Q.Saymon bir də qeyd edir ki, iqtisadi nəzəriyyədə kafilik anlayışı ən mühümlərdən biri olduğu psixologiyada və motivasiya nəzəriyyəsindəki kimi rol oynamır. Psixoloji nəzəriyyələrə görə hərəkətə təhrik məmnunlaşdırılmamış istəklərdən irəli gəlir və onlar məmnunlaşdırıldıqdan sonra yoxa çıxır. Məmnunlaşdırma şərtləri isə öz növbəsində həyat təcrübəsindən asılı olan istəklər səviyyəsi ilə müəyyənləşir.

Bu çıxış prinsiplərindən və ilkin verilənlərdən çıxış edərək güman etmək olar ki, firmanın məqsədi mənfəətin maksimallaşdırılması deyil, müəyyən mərhələyə çatdırılması, bazarın müəyyən qisminin və müəyyən satış həcminin əldə saxlanılmasıdır.

Bu, R.Holl və K.Hitçin[1] («xərclər üstəgəl standart əlavə» formulu üzrə qiymət yaranması), həmçinin R.Sayert və C.Marçın[2] (bazarda vəziyyətləri sabit olan firmalar daha az fəallıqla hərəkət edirlər) tədqiqatlarının statistik verilənləri ilə təsdiqlənir.

Buna görə rasionallıq anlayışı hərəkətin subyektiv əsaslandırılması kimi adekvat anlayışla əvəzlənə bilər. Bu ilkin verilənlərdən çıxış etdikdə iki sual doğur:

1. İqtisadi subyektin bu və ya digər qərarı nə ilə əsaslandırılır?

2. Bu qərarın qəbul edilməsində onun azadlıq dərəcəsi necədir (yəni subyekt iqtisadi fəaliyyətin hansı koordinasiya sisteminə inteqrasiya olunmuşdur)?

Beləliklə, qərarın qəbul edilməsinin əsaslandırılması və

1 Hall R.L., Hitch C.J. Price Theory and Business Behavior // Oxford Economy Papers. 1939. Vol.2.P.12-45.

2 Cyert R.V., March J.G. Behavioral Theory of the Firm. Prentice-Hall. Englewood Cliffs? 1963

məhdudiyyətlərinin qiymətləndirilməsi nəticəsində qəbul olunmuş qərar «tarazlıqlı» olur.

Faydalılıqların yaradılması və istehlakı prosesini (elə bunun özü də əslində iqtisadiyyat, iqtisadi fəaliyyətdir) iki tərəfdən nəzərdən keçirmək olar:

- birincisi, cəmiyyətin harmonik və irəliyə doğru inkişafını təmin edən ictimai rifahın yaradılması prosesi kimi;
- ikincisi, təhlükəsiz inkişaf, yəni ən az zahiri və daxili təhlükələri nəzərdə tutan inkişaf üçün şəraitin təmin edilməsi prosesi kimi.

Nemətlərin istehsalı, istehlakı və mübadiləsi ilə bağlı iqtisadi fəaliyyət çoxsaylı müxtəlif məqsədlərlə yanaşı bir də təsərrüfat subyektinin təhlükəsizliyinin təmin edilməsi məqsədi güdür.

Buna görə də iqtisadi təhlükəsizlik anlayışını yalnız təhlükənin olub-olmaması baxımından deyil, həm də C.Kommonsa görə, çoxu transaksiya olan atılan addımlarla bağlı mümkün riskin qiymətləndirilməsi bucağı altında nəzərdən keçirmək lazımdır. İlk dəfə elmi dövriyyəyə bu anlayışı məhz o daxil etmişdi. Transaksiya əmtəə mübadiləsi deyil, cəmiyyət tərəfindən yaradılmış mülkiyyət hüquqları və azadlıqların əldən alınması və verilməsidir[1]. Belə tərifin (C.Kommons) ona görə mənası var ki, institutlar ayrılıqda götürülmüş insanın iradəsini onun öz hərəkətləri ilə ətraf mühitə bilavasitə təsir edə biləcəyi hüdudlardan kənarda, yəni fiziki nəzarət çərçivəsindən kənarda yayırlar və deməli, fərdi davranışın özündən və ya əmtəə mübadiləsindən fərqli olaraq transaksiya olurlar.

İqtisadi koordinasiyanın bu və ya digər üsulunun nəticəliliyi adətən onun səmərəliliyi ilə müəyyənləşdirilir. Lakin iqtisadiyyatda səmərəliliyin əldə olunması yalnız müəyyən iqtisadi təhlükəsizlik səviyyəsində mümkündür. Digər tərəfdən, iqtisadi təhlükəsizliyin özü iqtisadi inkişafın səmərəliliyinin məqsədi və şərtidir.

1 Commons J/R/ Institutional Economics // American Economic Review. 1931. Vol. 21. P. 652

İqtisadi nəzəriyyədə səmərəlilik faydalılığın fərdlər və ya iqtisadi subyektlər arasında optimal yayılma üsulları vasitəsilə müəyyənləşir. Bu, səmərəliliyin iqtisadi insanın rasional, maksimallaşdırıcı davranışının məqsədi kimi mahiyyətinin üzə çıxarılmasını nəzərdə tutur. Təhlükəsizlik kateqoriyasına münasibətdə bu, faydalılığın istehsalı, bölgüsü və istehlakı prosesində iqtisadi təhlükəsizliyin (kəmiyyətcə və keyfiyyətcə) nə qədər dəyişməsinin müəyyənləşdirilməsini tələb edir. Bu suala cavab vermək üçün iqtisadi subyektlərin davranışının motivləri strukturunda iqtisadi təhlükəsizliyin yerini müəyyənləşdirmək lazımdır.

Subyektlərin tələbatının ödənilməsi üçün nemətlər lazım olduğundan və bu nemətlər öz növbəsində faydalılığa malik olduğundan, rasional iqtisadi insanın məqsədi bu faydalılığı maksimallaşdırmaqdan ibarətdir. Mövcud istehlak seçimi nəzəriyyələri (kardinalist, ordinalist və aşkarlanmış üstünlükverimləri nəzəriyyəsi) «faydalılığı» aksioma kimi qəbul edərək onun məzmun səciyyəsini diqqətdən kənarda qoyurlar.

«Faydalılıq» məfhumuna ilk dəfə İ.Bentamda rast gəlinir. Fayda prinsipi dedikdə o, maraqlarından söhbət gedən tərəfin xoşbəxtliyini artırmağa və ya azaltmağa cəhd etməyə (bizim fikrimizcə) və ya, başqa sözlə desək, bu xoşbəxtliyə dəstək verməyə, yaxud mane olmağa yönümlənmiş hər hansı bir fəaliyyəti təqdir edən və ya təqdir etməyən prinsipi başa düşür[1].

Faydalılıq kimi, təhlükəsizliyin qiymətləndirilməsi də əsasən təsərrüfat fəaliyyəti iştirakçısının endogen üstünlükverimlərindən asılıdır. Təhlükəsizliklə bağlı vəziyyətin subyektin şüurunda əksi onun təhlükəsizliyi qiymətləndirmə səviyyəsini müəyyənləşdirir. Aydındır ki, sonuncular situasiya haqqında, dəyişikliklərin vəziyyətə təsir forması və gücü və s. haqqında bilginin dolğunluğu və dərinliyindən asılı olaraq reallıqdakından xeyli fərqlənə bilərlər. Təhlükəsizliklərin subyektin malik olduğu qiymətləndirilmələri,

1 Бентам И. Введение в основания нравственности и законодательства // Избранные сочинения.-СПб., 1867. Т.1. С.2.

yəni onun təcrübə və intuisiya vasitəsilə müstəqil əldə etdiyi biliklər və ya vəziyyətin tədqiqi əsasında mütəxəssislərin köməkliyi ilə xüsusi olaraq hazırlanmış qiymətləndirmələr onun təhlükəsizlik (təhlükə) duyğusunu müəyyənləşdirirlər və bu da öz növbəsində subyekti ya axtarışa (təhlükəsizliyin artırılması yollarının hazırlanmasına) təhrik edir, ya da ona fəallığını və resurslarını başqa məqsədlərə yönəltməyə imkan verir (əgər təhlükəsizliyin qiyməti yüksəkdirsə, yəni təhlükə səviyyəsi aşağıdırsa)[1].

Deyək ki, iqtisadi təhlükəsizlik təsərrüfat fəaliyyəti iştirakçıları üçün nemətdir, deməli, belə nemətin «istehlakı» faydalılığın bölgüsü ilə əlaqədardır. Təhlükəsizlik, bir iqtisadi nemət kimi, tarazlığa dinamik hərəkət şəraitində, qeyri-müəyyənlik və vaxt amili nəzərə alınmaqla, daha əhəmiyyətli nemət olur. Qeyd etmək lazımdır ki, neoklassik modellərin çoxunda vaxt amili nəzərə alınmır, hərçənd K.Menger bu amilin təhlilə daxil edilməsinin vacibliyini göstərmişdi[2].

Müqayisəli təhlil göstərir ki, K.Mengerin geniş istifadə etdiyi «inamsızlıq dərəcəsi» anlayışı iqtisadi təhlükəsizlik kateqoriyasının müasir şərhinə müvafiqdir. İnsanların sərəncamında olan məhsulun onun istehsalı üçün ali səviyyəli nemətlərə (resurslara) malik olmaq vasitəsilə kəmiyyət və keyfiyyətinin çox və ya az dərəcədə qabaqdangörümü nemətlər istehsalı ilə səbəb əlaqəsində olan kazual prosesin elementlərinin çox və ya az dolğunluqla dərkindən və onların çox və ya az tamlıqla insanların sərəncamlarına tabeliliyindən asılıdır. Əlyetər məhsulun kəmiyyət və keyfiyyətində inamsızlıq dərəcəsi əks vəziyyətlərlə şərtlənir. Nemətlərin yaranma səbəbi prosesində nə qədər çox bilmədiyimiz və ya bilib əldə edə bilmədiyimiz element iştirak edərsə, bu elementlərin nə qədər çox hissəsi özündə nemət xüsusiyyətləri

1 Тамбовцев В.Л. Экономическая безопасность хозяйственных систем: структура проблемы // Вестник МГУ. Экономика. Сер. 6. 1995. № 3. С.3.

2 K.Mengerin «Siyasi iqtisadın özülləri»nin birinci fəslinin dördüncü paraqrafı «Vaxt-çaşma» adlanır (Менгер К. Основания политической экономии // Австрийская школа в политической экономии.-М., 1992. С. 53-56).

daşımazsa, bütün səbəb prosesinin nəticələrinin kəmiyyət və keyfiyyətlərinə dair inamsızlıq, yəni daha aşağı səviyyəli müvafiq nemətlər əldə etmək ehtimalı (istehlak predmetləri) bir o qədər çox olar.

Bu inamsızlıq insanların iqtisadi inamsızlığının təsərrüfat üçün mühüm praktik əhəmiyyəti olan ən mühüm məqamlarındandır[1].

İqtisadi təhlükəsizlik probleminin sonrakı tədqiqi üçün iqtisadi təhlükəsizliklə səmərəliliyin nisbətinə qayıtmaq lazımdır.

Resursların allokasiyasının iqtisadi səmərəlilik şərtləri ictimai rifah nəzəriyyəsinin iki teoremi ilə müəyyənləşdirilmişdir. Birinciyə görə, müəyyən şəraitdə rəqabətli bazarlar resursların elə bölgüsünə gətirib çıxarırlar ki, heç kim başqa birisinin vəziyyətini pisləşdirmədən öz vəziyyətini yaxşılaşdıra bilməz (Paretoya görə səmərəlilik). İkinci teoremdə deyilir ki, «əvvəlcədən resursların düzgün bölgüsü şərti ilə rəqabətli iqtisadiyyat tərəfindən istehlak imkanları əyrisi üzərindəki istənilən nöqtəyə çatıla bilər»[2]. Əgər birinci teorem bölgünün iqtisadi-texniki səpkisini əks etdirirsə, ikinci göstərir ki, cəmiyyətdə gəlirlərin bölgüsünün differensiasiyasının azaldılması üçün ilkin sərvəti təkrar bölmək lazımdır, qalanını isə bazar mexanizmi təmin edəcək.

Artığın özəl (bazar) bölgüsü iqtisadiyyatın optimal nöqtəyə iqtisadi cəhətdən daha səmərəli və sürətli irəliləyişinə səbəb olur. Lakin artığın özəl bölgüsü həm müsbət, həm də mənfi nəticələr meydana çıxanda institusional dəqiqləşdirmələr tələb edir.

Əgər, yuxarıda qeyd olunduğu kimi, təhlükəsizlik fərd üçün nemətdirsə, onda təhlükəsiz vəziyyətlərdən faydalılığın «bölgüsü» zamanı iqtisadi agentlər nemətlər istehlakının (istehsalının) verilmiş həcmində və transaksiyaların miqdarında məcmu təhlükəsizliyin ən yüksək səviyyəsini təmin edən müxtəlif mübadilə, bölgü kombinasiyalarını seçə (və ya, əksinə, seçməyə) bilərlər. Təhlükəsizlik ictimai (sosial) və ya xüsusi ola bilər. Bununla əlaqədar olaraq ictimai təhlükəsizlik funksiyasının movcudluğu haqqında fərziyyə irəli sürmək olar. İctimai təhlükəsizlik funksiyasının maksimallaşdırılması iqtisadi nemətlər istehsalının (istehlakının) optimal (və ya kifayətedici, əgər yeni institusional iqtisadiyyatın verilənləri nəzərə alınarsa) səviyyəsini əks etdirir ki, bu da verilmiş institusional (iqtisadi əməliyyatların – transaksiyaların həyata keçirilməsində təhlükəsizliyin mümkün vəziyyətini müəyyənləşdirən) istehsal strukturu tərəfindən müvafiq məhdudlaşdırılmalarda təhlükəsizliyin ən yüksək vəziyyətini (təsərrüfat subyektlərinin qiymətləndirməsinə görə) təmin edir.

1 Менгер К. Основания политической экономии // Австрийская школа в политической экономии.- М., 1992. С. 56.

2 Стиглиц Дж.Ю. Экономика государственного сектора.- М.: Инфра-М, 1997. С.68-69.

Mülkiyyət hüquqlarının mübadiləsi problemi və bu zaman transaksion xərclərin minimallaşdırılması yeni institusional iqtisadi nəzəriyyədə aktivlərin spesifikliyi problemi ilə vəhdətdə nəzərdən keçirilir. O.Uilyamson onları «ixtisaslaşmış investisiyaların nəticəsi olan və alternativ məqsədlərdə və ya alternativ istifadəçilər tərəfindən istifadə edilmək üçün ixtisası dəyişdirilərək istehsal potensiallarında itkisiz istifadə oluna bilməyənlərdir. Aktivlərin spesifikliyi bir neçə şəkil ala bilər ki, bunlardan da ən əsasları insan kapitalının, əsas fondların, yerləşmə yerinin, həmçinin məqsədli aktivlərin spesifikliyidir. Spesifik aktivlərin mövcudluğu qarşılıqlı asılılığa rəvac verir ki, bu da kontrakt münasibətlərini mürəkkəbləşdirir»[1].

İctimai təhlükəsizlik funksiyasının təhlilinin ilkin bəndi riayət olunduğu zaman təhlükəsizliyin mümkün olduğu *institusional şərtlər* və *ilkin verilənlərin* müəyyənləşdirilməsidir. Belə şərtlərə aiddirlər: mülkiyyət hüququnun ilkin bölgüsü və müdafiə olunması, müqavilə bağlamaq (və ya başlamamaq) imkanı, həmçinin təsərrüfat dövriyyəsinə daxil olunma spesifikliyinə görə ölçülüb-biçilmiş transaksiya intensivliyi.

1 Уильямсон О. Экономические институты капитализма.- СПб.: Лениздат; CEV Press, 1996/

İqtisadiyyatın institusional strukturunun vəziyyəti müəyyən növ transaksiyaların səmərəli həyata keçirilməsi üçün şərait yarada bilir. Məsələn, təsərrüfat fəaliyyəti hüdudlarını tənzimləyən qeyri-formal institutların olmaması (müxtəlif növ təsərrüfat etikaları, müqavilələrin bağlanılma ənənələri və qaydaları, yerinə yetirilməsi və onun üzərində nəzarət) yalnız transaksiya xərclərinə təsir göstərə bilmir, həm də istehsalatda tətbiq olunan aktivlərin spesifiklik dərəcəsinin müəyyənləşdirilməsinə təsir edə bilir.

Əgər cəmiyyətdə mövcud olan etik normalar iqtisadiyyatın subyektlərinə öz fəaliyyətlərində formal hüququn müəyyən sanksiyalarından istifadə etməkdənsə, daha çox etibara əsaslanmağa imkan verirlərsə, belə cəmiyyətdə sövdələr daha mutəmadi və mürəkkəb səciyyəli olacaq. Bu, C.Koulmen tərəfindən sübut olunmuşdur və o. etibar dərəcəsinin və bağlanan müqavilələrdən mümkün xeyir və zərərlərin müqayisə edilməsi üçün aşağıdakı düsturu təklif etmişdi:

$$\frac{P}{(1-P)} > \frac{L}{G}$$

Burada P – insanlara inanmağın mümkünlüyü ehtimalı olub, şəxsi nümunəyə əsaslanır;

L – müqavilə yerinə yetirilməyəcəyi təqdirdə mümkün itki;

G – müqavilənin yerinə yetiriləcəyi təqdirdə mümkün uduş[1].

İqtisadi subyektlərin qarşılıqlı münasibətlərində etibarın yüksək ehtimalı onlara yüksək spesifiklik dərəcəsinə malik və deməli, opportunist davranış hallarında istifadəsi böyük itkilərlə bağlı olan aktivlərlə sövdələşmələr həyata keçirməyə imkan verir. Buna səbəb iqtisadi subyektlərdə yığım və investisiya etməyə stimul yaranır ki, bu da öz növbəsində gələcək sövdələşmələrin həyata keçirilməsində proqnozlaşdırılan aşağı səviyyəli transaksiya xərcləri ilə təmin olunur. Nəticədə mövcud qeyri-formal təsərrüfat praktikasına (etikasına) əsaslanan etibar səviyyəsi iqtisadi təhlükəsizlik qiymətləri ilə müsbət korrelyasiya edəcək.

1 Colerman J.S. Foundations of Social Theory. Cambridge. 1990. P. 99.

İqtisadi təhlükəsizliyin neoklassik yanaşma metodologiyasından istifadəylə dərki iqtisadi təhlükəsizliyin *ictimai rifahın meyarlarından* biri kimi çıxış etməsi fərziyyəsini əsaslandırmağa imkan verir.

Sivilizasiyanın müasir mərhələlərinin təsiri altında artan maddi və mənəvi tələbatların məmnunlaşdırılmasında iqtisadi maraqlar insanların meyilləri və hərəkətlərinin yaşayış mühitinin əmin-amanlığı və rahatlığı, fiziki sağlamlıq və mədəni-təhsil səviyyəsi, həyat fəaliyyəti üçün zəruri informasiyanın və intellektual-mənəvi inkişaf üçün şəraitin əlyetərliyi kimi dəyərlərə yönümlədirlər. Maraqların düşünül- müş şəkildə qorunmasına iqtisadi imkanlarla yanaşı əhalinin öz həyatı üçün lazımi səviyyənin təmin edilməsinə sosial şərtlənmiş köklənməsi rəvac verir. Bu baxımdan xalqın sosial məqsədlərini, milli psixoloji davranış paradiqmasının əsaslarını formalaşdıran mentalitet və tarixi yaddaşdan danışmaq olar. Belə inkişaf ənənələrə və onlara riayət etmək motivlərinə söykənir. Milli şüurda vətəndaş kimi qurban verməyə, kütləvi entuziazma və kollektiv məsuliyyətə hazırlıq təsbit olunur. XX əsrin əsas sınaqlarında ölkə liderləri nəsihətin uduşlu formasına, hadisələrin obyektiv gedişində ölkənin toxunulmuş heysiyyatına və alçaldılmasına görə inciklik hissinə müraciət etmişdilər.

Əsl ümummilli həmrəylik üçün hətta ən radikal və barışmaz rəqiblərin nəhayət razılığa gəldiyi ümumi dünyagörüşü gərəkdir. Bu gün belə bir ideologiya Böyük Rusiyanın özündə özünəməxsus tarixi xüsusiyyətləri bəşəriyyətin əldə etdiyi bütün qiymətli və qabaqcıl hər şeylə birləşdirən, çiçəklənən və demokratik, azad və güclü dünya ölkəsi kimi dirçəlməsi ola bilər.

İnkişafın universal dəyər oriyentirləri olan vətəndaş cəmiyyəti, hüquqi dövlət və iqtisadiyyatda bazar münasibətləri məqsədli inkişaf istiqamətlərində qalmaqdadır.

Vətəndaş cəmiyyəti hüquqi dövlət vasitəsilə onun orqanı və cəmiyyətin və ölkənin bir ərazi, mədəni, təsərrüfat və

s. vəhdəti kimi tamlığının saxlanılmasının xüsusi vasitəsi ilə dəstəklənən azadlığın, demokratiyanın və ədalətin təminatçısıdır. Dövlət o zaman hüquqi olur ki, hakimiyyət öz qərarlarında və hərəkətlərində hüquqla məhdudlaşdırılmış olsun və eyni zamanda hüquqların şəksiz işləməsini səmərəli təmin edə bilsin. Hüquqi dövlətin əsası artıq var: Rusiya Konstitusiyası hüquqi dövlətçiliyi təmin edən bir sıra əsas prinsipləri – hakimiyyət bölgüsü, RF Konstitusiyasının norma və prinsiplərinin birbaşa işləməsi, təqsirsizlik prezumpsiyası, insan hüquqları və azadlıqları ali dəyər kimi - təsbit etmişdir.

Sosial məqsədlərə çatılmasına hər bir cəmiyyət üzvünün ümumi tapşırıqların həllinə məhsuldar töhfə verməklə şəxsi tələbatlarının ödənilməsi üzrə ona müvafiq tələblər göstərməklə öz qabiliyyətlərini real qiymətləndirməsi rəvac verir. Təsərrüfat fəaliyyətində müəyyən nigilizmi və kifayət etməyən peşəkarlığı dəf etməklə hər kəsə öz təsərrüfat fəaliyyətində aydın və anlaşıqlı milli ideyanın formalaşması üçün zəmin ölkənin xalqının sosial tərəqqi, iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi, güclü səmərəli dövlətin yaradılması naminə birləşməyə can atmasıdır.

Əsas anlayışlar və məfhumlar

İqtisadi təhlükəsizlik; iqtisadi təhlükəsizlik obyektləri; iqtisadi təhlükəsizlik subyektləri; iqtisadi təhlükəsizliyə xarici və daxili təhdidlər; iqtisadi təhlükəsizliyin hədd indikatorları; iqtisadi təhlükəsizliyin həssaslıq indikatoru; milli-dövlət maraqları; maraqların reallaşmasının daxili və xarici şərtləri; maraqların iyerarxiyası; Rusiyanın ali milli marağı; selektiv himayədarlıq; qabaqlama prinsipi; İ.Lakatosun «mühafizə zolağı»; Q.Saymonun məmnunluq prinsipi; K.Mengerin «inamsızlıq dərəcəsi»; ictimai rifahın iki nəzəriyyəsi; iqtisadi təhlükəsizliyin institusional şərtləri.

III BÖLMƏ. MEQAİQTİSADİYYAT-1

XXIII FƏSİL. AÇIQ İQTİSADİYYATIN MÜASİR PROBLEMLƏRİ

§1. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlığının meyarları.

§2. Dünya iqtisadiyyatının müasir quruluşu.

§3. «Kapitalın qaçışı» problemi və milli iqtisadiyyat üçün onun nəticələri.

Bu fəsildə açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlığının meyarları açıqlanır, onun quruluşu və xarici ticarətin strukturu, həmçinin «kapitalın qaçışı» problemi nəzərdən keçirilir. Milli iqtisadiyyatların klassikdən müasirlərə qədər açıqlığa meyillərinin müxtəlif aspektlərini açan nəzəri konsepsiyalar ardıcıl olaraq izlənilir.

§1. Açıq iqtisadiyyatın mahiyyəti və onun açıqlığının meyarları

Açıq iqtisadiyyat beynəlxalq əmək bölgüsünün üstünlüklərini mümkün qədər dolğun reallaşdıran və beynəlxalq iqtisadi münasibətlərin müxtəlif formalarından geniş istifadə edən milli iqtisadiyyata deyilir.

Məhdudiyyətsiz açıqlıq şəraitində iqtisadi münasibətlərin bütün subyektləri dünya maliyyə və əmtəə bazarlarında əməliyyatlar həyata keçirirlər. Hazırda kiçik və böyük açıq iqtisadiyyatı fərqləndirmək qəbul olunmuşdur.

Kiçik açıq iqtisadiyyat kiçik ölkənin iqtisadiyyatıdır, çünki dünya əmtəə dövriyyəsində, həmçinin yığım və investisiyalarda onun rolu kiçikdir.

Böyük açıq iqtisadiyyat dünya investisiyaları və yığımlarının əsas hissəsinə malik ölkənin iqtisadiyyatıdır. Müvafiq olaraq, bu, mahiyyət etibarilə valyuta məzənnələri-

nin formalaşma meyllərini müəyyənləşdirən dünya faiz dərəcəsinə təsir göstərməyə qabil olan ölkələrdir (ABŞ, Çin, Yaponiya, AFR və b. kimi).

Milli iqtisadiyyatların açıqlıq prosesi təkamüllü inkişaf edib və xüsusilə də İkinci dünya müharibəsindən sonra, çünki bu, milli iqtisadiyyatın bərpa olunmasına, xüsusilə də Qərbi Avropada kömək etmişdi. Bu dövrdə «azad ticarət», «iqtisadiyyatın açıqlığı» tezisi aparıcı dünya dövləti kimi iqtisadi qarşılıqlı əlaqələrin yeni metod və formalarını diktə edə bilən ABŞ tərəfindən irəli sürülmüşdü. Müharibədən sonrakı inkişafın ilkin mərhələsində bu formalar ABŞ-ın digər ölkələrə nisbətən üstün mövqeyini şərtləndirən alət idi.

Lakin xalq təsərrüfatları bərpa olunduqca ABŞ-ın mütləq iqtisadi üstünlüyü Qərbi Avropa iqtisadiyyatlarının açıqlığının dünya təsərrüfatlarının əlaqələrinin obyektiv beynəlmiləlləşmə prosesi ilə şərtlənən dərin proseslərin nəticəsində artması ilə əlaqədar olaraq tədricən öz əhəmiyyətini itirirdi. Bu zaman istehsalın beynəlmiləlləşməsinin miqyası və səviyyəsinə dövlət tənzimləməsi böyük təsir göstərdi ki, onun da əsas alətləri ixrac istehsallarının stimullaşdırılması, istehsalın beynəlxalq ixtisaslaşması və kooperasiyası proseslərinə ümumdünya dəstəyi oldu. Eyni zamanda xarici investisiyaların, iş qüvvəsinin, texnologiya və informasiyanın ölkəyə axınını asanlaşdıran dayanıqlı və səmərəli hüquqi baza yaradılırdı.

Milli iqtisadiyyatların açıqlığının artmasında transmilli korporasiyaların fəaliyyətinin xüsusi rolu var ki, onlar çoxsaylı xarici qız-filiallar yaradaraq bu və ya digər ölkəyə iqtisadi nüfuz etmə yolundakı himayədarlıq sədlərini uğurla dəf edirlər.

Sürətlə inkişaf edən informasiya sistemlərinin də stimullaşdırıcı rolu böyükdür, internet şəbəkəsinin inkişafı isə əslində yeni səviyyədə açıqlıq və ya, başqa sözlə, müasir dünyanın qloballaşması prosesini yaradır.

Açıq iqtisadiyyat şəraitində xarici amillər – ixrac, idxal, xarici investisiyalar – ölkə daxilində istehsala, gəlirlə-

rin səviyyəsinə və məşğulluğa təsir edir və deməli, onlar vasitəsilə makroiqtisadi tarazlığa təsir etmək mümkündür. İxrac olunan əmtəələri həqiqətən də xarici vətəndaşlar istehlak edir, lakin ixrac milli istehsalın inkişafına, gəlirlərin və məşğulluğun artımına təkan verir. İstehsalın tarazlıqlı həcminin məcmu xərclərlə müəyyənləşdirildiyi Keyns modelini yada salaq:

$$ÜMM = C + I + G.$$

İxrac burada istehlak (C), investisiyalar (I), dövlət xərcləri (G) ilə yanaşı məcmu xərclərin tərkib hissəsi kimi fəaliyyət göstərir, yəni məcmu tələbi artırır. İxrac (Ex) da nəzərə alınmaqla həmin düstur aşağıdakı kimi olacaq:

$$ÜMM = C + I + G + Ex.$$

Məcmu xərclərin daha böyük həcminə tarazlı istehsal həcminin daha yüksək səviyyəsi müvafiq olur. Deməli, ixracın artması milli gəliri artıra bilər. Xarici investisiyalar da həmin effektlə nəticələnir.

Bu modeldə idxal da milli gəlirin funksiyası kimi nəzərdən keçirilir. Başqa sözlə, idxal olunan əmtəələrə ölkədə istehsal olunmuş milli gəlirin bir hissəsini xərcləmək lazım gəlir və bununla da başqa ölkədə istehsal fəallığı stimullaşdırılır. Beləliklə, idxal əmtəənin miqdarını artıraraq ölkə daxilində istehsala xərclərin azalmasına səbəb olur:

$$ÜMM = C + I + G + Ex - Im.$$

İlk nəzərdən bu tənliklərdən dövlət siyasəti üçün irəli gələn nəticə birmənalıdır: istehsalın düşməsi şəraitində idxalı azaltmaq və ixracı isə həvəsləndirmək lazımdır, lakin bu zaman yadda saxlamaq lazımdır ki, bir ölkənin ixracı digər ölkənin idxalıdır. Deməli, bütün ölkələrin ixrac ekspansiyasına yönümlənməsi, yəni müəyyən mənada başqa ölkələr hesabına yalnız öz istehsalını stimullaşdırması çətin ki, mümkün olsun.

Ölkə idxalını, Keyns nəzəriyyəsinə müvafiq olaraq, öz milli gəlirinin funksiyası kimi nəzərdən keçirmək mümkündürsə, onda ixrac başqa ölkələrin milli gəlirinin funksiyası kimi nəzərdən keçirilməlidir. Deməli, ixracın artması və ya

azalması bizim onu artırıb-azaltmaq istəməyimizlə deyil, həm də başqa ölkələrin milli gəlirinin artması və ya azalması ilə şərtlənir. Bundan başqa, satmaq istəyi rəqabət qabiliyyətli məhsulun mövcudluğu, tərəfdaşların alıcılıq qabiliyyətinin nəzərə alınmasının zəruriliyi, onların bizim məhsulları almaq istəyi ilə dəstəklənməlidir.

Digər tərəfdən, ixracın artırılması tələbatı əhali tərəfindən dolayısı ilə idxala tələbat vasitəsilə hiss olunur. İdxal üzərində dövlət nəzarəti daxili bazarı istehlak əmtəələrindən məhrum edə bilər, ölkədə istehlak səviyyəsini aşağı sala bilər. İxrac ekspansiyası zamanı xarici bazarlarda mövqelər yenicə ələ keçirildikdə və rəqabət qabiliyyətli əmtəələri ixrac etməyə çalışdıqda, hərdən daxili bazarda qeyri-rəqabət qabiliyyətli milli istehsal olan əmtəələrlə barışmaq lazım gəlir.

Və nəhayət, ixracın hərtərəfli dəstəklənməsi yolu milli iqtisadiyyatın dirçəlişinə və əhalinin rifahının yüksəldilməsinə o zaman rəvac verə bilər ki, ixracdan alınan vəsaitlər geridə qalmış istehsalların dəstəklənməsinə deyil, iqtisadiyyatın dünya təsərrüfatında uzunmüddətli struktur dəyişikliklərini nəzərə alınmaqla iqtisadiyyatın struktur dəyişikliklərinə yönəldilsin ki, ölkə beynəlxalq əmək bölgüsü sistemində layiqli yer tuta bilsin və bu üstünlükdən öz xeyrinə istifadə edə bilsin.

Cəmiyyətin iqtisadi vəziyyəti qiymətləndirildikdə, ölkənin ixracı və idxalı arasında nisbəti müəyyənləşdirmək zərurəti yaranır. Bu nisbət ölkənin tədiyyə balansı tərtib olunanda müəyyənləşir ki, onun da tərkib hissəsi ticarət balansıdır.

Tədiyyə balansının ümumiləşdirici balansı onun saldosu – onun ixrac və idxal maddələri arasındakı fərqdir.

Başqa ölkələrdən idxalın öz ixracını üstələməsi tədiyyə saldosunun mənfi saldosunu yaradır ki, bu da ölkə iqtisadiyyatı üçün arzuolunmaz nəticələrə, məsələn, xarici ticarət kəsirinə səbəb ola bilər. Sonuncunu ödəmək üçün ölkə borc almağa məcbur olur ki, onun da ödənilməsi daxili istehlakın azalmasına səbəb olur.


Ölkənin il ərzində məcmu ixracı ilə məcmu idxalı arasındakı fərqi göstərmək üçün xalis əmtəə və xidmətlər ixracı və ya sadəcə xalis ixrac (NX) anlayışından istifadə olunur. Bu göstəricinin tətbiqi ilə düstur aşağıdakı kimi verilə bilər:

$$ÜMM = C + I + G + NX.$$

Xalis ixrac (NX) həm müsbət, ixrac idxaldan çox olduqda, həm də mənfi, idxalın milli əmtəə və xidmətlər ixracını üstələdikdə, ola bilir.

Müvafiq olaraq, ixracın idxaldan çox olması və ya müsbət xalis ixrac məcmu xərclərin artmasına və bununla da milli məhsulun artımına səbəb olur. İdxalın ixracı üstələdiyi zaman, yəni xalis ixrac mənfi olduqda, məcmu xərclər və milli məhsul azalır.

İxrac və idxalın milli məhsulun tarazlı səviyyəsinə təsirinin qrafik şərhi şəkil 23.1-də verilmişdir.



Şəkil 23.1. İxrac və idxalın ümumi milli məhsulun tarazlıq səviyyəsinə təsiri

Burada keynsçi xaçı adlandırılan və milli istehsalın tarazlı səviyyəsi və məcmu xərcləri arasındakı asılılığı göstərən qrafik verilmişdir.

OE istehsal həcmi qapalı iqtisadiyyat şəraitində tarazlı həcmdir. Qrafik göstərir ki, müsbət xalis ixrac (NX_I) məcmu

xərclər əyrisinin yerini yuxarı dəyişir və tarazlıq milli istehsalın daha yüksək tarazlı səviyyəsinə müvafiq olan E_1 nöqtəsində müəyyənləşir, mənfi (NX_{II}) isə məcmu xərcləri azaldır ki, buna da tarazlı milli məhsulun daha az kəmiyyəti müvafiq olur.

İqtisadiyyat üçün istehsalın həcminin tarazlıq səviyyəsi, qiymətli istehsalın potensial həcmini, yəni tam məşğulluq şəraitindəki həcmini nəzərə almaqla qiymətləndirilməlidir. Məcmu xərcləri və onlara müvafiq tarazlı istehsal həcmi potensial istehsal həcmindən az və ya çox ola bilərlər.

Deməli, əgər xalis ixrac hesabına məcmu xərclərin artmasından əvvəl deflyasiya fərqi olmuşsa, belə artmanı yalnız alqışlamaq olar, çünki onun ardınca istehsalın artması, məşğulluğun genişlənməsi, yəni deflyasiya fərqinin azalması gələcəkdir. Xərclərin böyük və tarazlı milli məhsulun potensialdan yüksək olduğu inflyasiya fərqi şəraitində ixracın idxala nisbətən genişlənməsi isə ölkədə inflyasiya gərginliyini artıra bilər. Bu halda ixrac ekspansiyasını daxili tarazlıq baxımından müsbət qiymətləndirmək çətindir.

Məcmu xərclərin digər tərkib hissələri kimi, ixrac və idxalın da multiplikativ effekti var. Belə ki, ixrac, investisiyalar və dövlət xərcləri kimi, gəlirlərə çoxaldıcı (multiplikasiyaedici) təsir edir.

İxrac sifarişləri ilkin mərhələdə məhsul istehsalını və deməli, həmin sifarişi yerinə yetirən sahədə əməkhaqqını artıracaq. İnvestisiyaların dəyişməsi kimi, ixracın dəyişməsi də zəncirvari reaksiya yaradır ki, o, hər növbəti tsikldə azalmaqla ilkin effektin dəfələrlə artma effektini yaradır. İxrac multiplikatoru (k_{im}), investisiya multiplikatoru kimi, istehlak sahəsindəki daxili proseslərlə şərtlənir və istehlaka son həddmeyilliyi (MRC) və ya yığıma son həddmeyilliyi (MRS) vasitəsilə müəyyənləşdirilə bilər.

Xarici ticarət multiplikatorunun qrafik şərhi də şəkil 23.1-də verilmişdir. Xalis ixracın artım istiqamətində (b_{II} parçası) və azalma istiqamətində dəyişməsi (b_I parçası) onların tarazlı istehsal həcmində səbəb olduqları dəyişikliklərdən azdır (a_I və a_{II} parçaları).

İqtisadiyyatın açıqlıq dərəcəsini təhlil etmək üçün iqtisadiyyatın inkişafının əsas göstəricilərindən, o cümlədən *xarici iqtisadi kvotadan* istifadə olunur:

$$XT_k = (XT/ÜDM) \cdot 100\%.$$

Burada XT_k – xarici ticarət kvotası;

XT - xarici ticarət dövriyyəsinin həcmi;

ÜDM – ümumi daxili məhsuldur.

Xarici ticarət dövriyyəsinin ümumi daxili məhsula nisbəti ölkənin xarici iqtisadi əlaqələrinin onun ümumi iqtisadi dirçəlişini necə stimullaşdırdığını göstərir. Hesab olunur ki, belə stimullaşdırıcı təsir xarici iqtisadi kvotanın həcmi təqribən 25% olduqda yaranır.

İqtisadiyyatın açıqlıq dərəcəsi ixrac kvotası (ixracın dəyərinin ÜMM və ya ÜDM-a nisbəti), əhalinin hər nəfərinə düşən ixracın həcmi və s.kimi göstəricilərlə də müəyyənləşir. Belə bir fikir formalaşmışdır ki, ixrac kvotası 10%-dən az olmayan ölkələrin iqtisadiyyatı açıq kimi səciyyələndirilə bilər.

Açıqlığın mühüm göstəricilərindən biri idxalla ÜDM (U_{k1}) və idxalla daxili istehlak (U_{k2}) arasında nisbəti ifadə edən idxal kvotasının göstəricisidir:

$$U_{k1} = (U_n / ÜDM)\ 100\% \quad və$$

$$U_{k2} = [(U_n / (ÜDM + U_n - İx_n)]\ 100\%\ .$$

Burada U_{k1} və U_{k2} - idxal kvotası;

U_n – ölkə idxalının həcmi;

ÜDM – ümumi daxili məhsul;

$İx_n$ – həmin ölkənin ixracıdır.

Milli iqtisadiyyatın açıqlığının meyarı xarici ticarət dövriyyəsinin ÜDM-ə nisbətən elastiklik əmsalıdır.

Gəlirlər üzrə idxala tələbin elastiklik əmsalı ÜDM 1% artdıqda idxalın nə qədər artdığını göstərir. İxraca tələbin elastiklik əmsalı həmin ölkənin ixrac məhsullarının artım tempi ilə həmin məhsulu idxal edən dövlətlərin ÜDM-i arasında asılılığı göstərir. Əgər göstərilən elastiklik əmsalları

vahiddən böyükdürlərsə, bu iqtisadiyyatın açıqlığının artmasını göstərir, vahiddən azdırsa, deməli, açıqlıq azalır.

Qeyd etmək lazımdır ki, sadalanmış göstərici və əmsalların hamısı oldüqca şərtidir, çünki onların heç biri açıqlığın real səviyyəsini əks etdirən sintetik göstərici ola bilməz.Müəyyən dərəcədə belə sintetik göstərici istehsala nisbətən üç dəfə[1] sürətlə inkişaf edən dünya xarici ticarət dövriyyəsinin artımıdır.

§2. Dünya iqtisadiyyatının müasir quruluşu

Dünya sosialist sisteminin dağılması ilə açıqlıq prosesləri sürətlə Şərqi Avropa, Asiya ölkələrinə yayılmağa başladı, 1980-ci illərin əvvəllərindən isə Çin də açıqlıq siyasəti tərəfdarı olduğunu bəyan etdi.

Qeyd etmək lazımdır ki. milli iqtisadiyyatların açıqlıq prosesi ziddiyyətlidir, çünki milli istehsala və məşğulluğa mənfi təsir göstərə bilir. Buna görə də bütün kəskinliyi ilə *ölkənin iqtisadi təhlükəsizliyi* problemi durur ki, bu da xalq təsərrüfatı komplekslərinin qarşılıqlı asılılığının elə amil və şərtlərinin tədqiqinin zəruriliyini bildirir ki, bu zaman açıqlıq şəraitində milli təsərrüfatın mühüm xüsusiyyəti kimi suverenlik itirilməsin.

Dünya iqtisadiyyatı daxilində bir sıra alt sistemlər fərqləndirilən çoxsaylı milli iqtisadiyyatların məcmusudur. Belə alt sistemlər ölkələr qruplarıdır, yəni: inkişaf etmiş, inkişafda olan , keçil iqtisadiyyatlı.

Ölkənin bu və ya digər qrupa salınması üçün bu və ya digər meyarlardan istifadə olunur. Birinci növbədə, bu - iqtisadiyyatın xarakteri və onun əhalinin hər nəfərinə düşən ÜDM istehsalı, ÜDM-in sahə strukturu, həyat səviyyəsi və keyfiyyəti ilə müəyyənləşdirilən sosial-iqtisadi inkişaf səviyyəsidir.

İnkişaf etmiş ölkələr üçün ÜDM strukturunda xidmət sahəsinin üstünlük təşkil etdiyi, sənaye və tikintinin birinci

1 Боровиков В.И. Основы мировой экономики.–М.: Центр, 2002. С. 22.

növbədə emal sənayesi ilə təmsil olunduğu, kənd təsərrüfatının payının isə nisbətən az olduğu vəziyyət səciyyəvidir.

Həyat səviyyəsi və keyfiyyəti çoxsaylı göstəricilərlə müəyyənləşdirilir. Onlara daxildir: ömrün uzunluğu, müxtəlif xəstəliklərlə xəstələnmə, təbii mühitin vəziyyəti, şəxsi təhlükəsizlik, məşğulluq, müxtəlif əmtəə və xidmətlərin istehlak səviyyəsi. Bu göstəriciləri ümumiləşdirmək cəhdi özündə ömrün uzunluğunu, həyat səviyyəsini və təhsili birləşdirən ***insanın inkişafı indeksidir.***

İnkişaf etmiş (sənayesi inkişaf etmiş, industrial) qrupa XXI əsrin əvvəlinə ÜDM-i əhalisinin hər nəfərinə 12 min dol. az olmayan bazar iqtisadiyyatlı ölkələr daxildir.

Beynəlxalq Valyuta Fondu XXI əsrin əvvəli üçün inkişaf etmiş ölkələr və əraziləri siyahısına (yəni bəzi ölkələrin xüsusi statusa malik əraziləri, məsələn, Honkonq və ya Qrenlandiya) Qərbi Avropa ölkələrinin hamısını , ABŞ-ı, Kanadanı, Yaponiyanı, Avstraliyanı, Yeni Zelandiyanı, Cənubi Koreyanı, Sinqapuru, Honkonqu, Tayvanı və İsraili daxil etmişdi. BMT Cənubi Afrika Respublikasını da bunlara əlavə edir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı bura Türkiyə və Meksikanı da əlavə edir.

2004-2007-ci illərdə bir sıra Şərqi və Mərkəzi Avropa ölkələrinin, bir də Kiprin AŞ-na qəbul edilməsindən sonra onlar da inkişaf etmiş ölkələr siyahısına salınmışlar.

Rusiyaya gəldikdə isə, qeyd olunan ölkələr qrupuna daxil olmaq üçün o, uzun iqtisadi dəyişikliklər və artım yolu keçməlidir.

İnkişaf etməkdə olan ölkələr qrupuna bazar iqtisadiyyatlı və aşağı iqtisadi inkişaf səviyyəli ölkələr daxildir. Beynəlxalq Valyuta Fondunun 182 üzv ölkəsindən XXI əsrin əvvəlinə inkişaf etməkdə olan ölkələrə 121-i aid edilirdi. Burada liderlər iqtisadiyyatının strukturu nisbətən müasir olan dövlətlərdir (bir sıra Cənubi-Şərqi Asiya və Latın Amerikası ölkələri) ki, onlar üçün insan inkişafının yüksək indeksi və əhalinin adambaşına düşən ÜDM-in yüksək göstəricisi səciyyəvidir.

Hazırda kiçik və böyük açıq iqtisadiyyatları fərqləndirmək qəbul olunmuşdur.

Kiçik açıq iqtisadiyyat – kiçik ölkənin iqtisadiyyatıdır. Dünya bazarının əmtəə dövriyyəsində onun xüsusi çəkisi çox azdır və o, praktik olaraq dünya faiz dərəcəsinə təsir etmir. Bu faiz dərəcəsi necə var qəbul olunur, çünki həmin ölkənin yığımı və investisiyaları dünya yığım və investisiyaların cüzi bir hissəsidir.

Böyük açıq iqtisadiyyat – bu elə bir iqtisadiyyatdır ki, burada faiz dərəcəsi ölkənin öz daxilində gedən iqtisadi proseslərin həlledici təsiri altında formalaşır.

Bu kimi ölkələrə ABŞ-ı, Yaponiyanı, Almaniyanı və b. aid etmək olar.

Ayrı-ayrı ölkələrə gəldikdə isə, ən böyük açıqlıq dərəcəsi AŞ-nın üzv-dövlətləri üçün səciyyəvidir. Bu ölkələrdə ixrac və idxal kvotaları daim 30% yaxınlığında olur, halbuki bu göstərici ABŞ-da 9-11%, Yaponiyada 11-13% təşkil edir[1]. Lakin belə açıqlaq Qərbi Avropa iqtisadiyyatını onun dünya təsərrüfatı çərçivəsində rəqabət qabiliyyətliliyinin dəyişməsindən, bir çox hallarda isə həm iqtisadi, həm də qeyri-iqtisadi səciyyəli müvəqqəti ekzogen amillərdən xeyli dərəcədə asılı edir. Birincilərə 2005-ci ildən başlayaraq avronun dollara nisbətən məzənnəsinin qalxmasını aid etmək olar ki, bu da Qərbi Avropanın ixracı sahəsində ciddi problemlər yaratdı, iqtisadi artım templərinə, məşğulluğa və s. mənfi təsir göstərdi.

Xarici ticarətin coğrafi strukturu da dəyişilir: dünya əmtəə dövriyyəsində inkişaf etmiş dövlətlərin payı 70-80% çatır. Bu ölkələrin iqtisadiyyatının açıqlıq dərəcəsinin artmasını ondan görmək olar ki, XX əsrin 70-ci illərində ABŞ-da bu göstərici 30% olduğu halda, XXI əsrin əvvəlində 14% təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin həcminə görə dünyada ikinci yerə Yaponiya çıxmışdır. İnkişaf etməkdə olan 120 ölkənin payına dünya xarici ticarət dövriyyəsinin 30%-i düşür. Yaponiya gəmiqayırma, elektronika, məişət texnikası, yüngül sənayeyə səbəb dünya ticarətinin lideri ola bilmişdir. O eyni zamanda sanki Qonkonq, Sinqapur və Cənubi-Şərqi Asiyanın digər dövlətlərinin iqtisadi inkişafını stimullaşdırır.

1 Мировая экономика / Под общей ред.проф.А.С.Булатова.-М.: Юристъ, 2002.

Rusiya iqtisadiyyatının xarici ticarətinin strukturu dəyişməklə açıqlığı da artır. XXI əsrin əvvəlinə Rusiya dünya xarici ticarət dövriyyəsində cəmi 1,5-2% yer tuturdu, lakin onun xarici ticarəti istehsalından daha sürətlə artır. Rusiya dünya bazarına dörd min addan çox əmtəə çıxardır ki, bunlardan da ən mühümləri bunlardır: neft, qaz, rəngli və qiymətli metallar, almaz. Rusiyanın ixrac əmtəə dövriyyəsində xammal 45-50%, idxalında isə 34-36% maşın-texniki kənd təsərrüfatı məhsulları təşkil edir[1]. Beləliklə, Rusiya ixracında enerji daşıyıcılarının və mineral xammalların üstünlük təşkil etməsi aşkar görünür, maşınqayırma isə ixracda cəmi 5,3% təşkil edir[2]. Maşınqayırma ixracında əsas yeri silah tutur (ABŞ-dan sonra ikinci yer) ki, onun da xüsusi çəkisi get-gedə azalır.

Dünya iqtisadiyyatının müasir vəziyyəti tam aşkarlığı ilə göstərir ki, onun liderləri Şimali Amerika (ABŞ və Kanada), Qərbi Avropa (Böyük Britaniya, Almaniya, İtaliya və Fransa) ölkələri, Yaponiya və bəzi Şərqi Asiya dövlətləridir. Bura dinamik inkişaf edən yeni sənaye iqtisadiyyatları (YSİ) qrupunu, o cümlədən «Asiya pələngləri»ni (Koreya Respublikası, Tayvan, Sinqapur və b.), bir də Çini də aid etmək olar.

Bütövlükdə dünya ticarətinin təhlilini yekunlaşdıraraq ön plana avtomobillər, texnoloji avadanlıq, kompyuterlər və onların komplektləşdiriciləri, proqram təminatının çıxdığını qeyd etmək olar.


1 Боровиков В.И. Основы мировой экономики.-М.: Центр, 2002.С.23.
2 Yenə orada, s. 24.

§3. «Kapitalın qaçışı» problemi və milli iqtisadiyyat üçün onun nəticələri

Daxilən olduqca ziddiyyətli proses olan iqtisadiyyatın açıqlığı milli iqtisadiyyat üçün rəqabət qabiliyyətliliyin, ixracın, iqtisadi potensialın artması kimi müsbət məqamlarla yanaşı, xeyli mürəkkəb problem olan ölkədən «kapitalın qaçışı» probleminin ortaya çıxmasına səbəb olur ki, bunun da investisiya çatışmazlığı, iqtisadi artım tempinin aşağı düşməsi və başqa uzunmüddətli mənfi nəticələri olur. Bu «qaçış» sosial-iqtisadi qeyri-stabillik dövründə güclənir və xüsusilə Rusiyanın da aid olduğu valyutası konversiya edilməyən ölkələr üçün təhlükəlidir. Bu baxımdan Meksikanın təcrübəsi olduqca ibrətamizdir: 1944-cü ildə ölkədə siyasi vəziyyətin gərginləşməsi və onun görkəmli siyasi xadimlərə qarşı terror aktları ilə müşayiət olunması dünya maliyyə bazarlarında əsəbilik yaratmışdı. Bu bazarların subyektləri Meksikadakı siyasi vəziyyətə verdikləri qiyməti dəyişdirməli olub, Meksika aktivlərindən can qurtarmağa və pullarını ABŞ-a və ya digər daha sakit ölkələrə köçürməyə başladılar. Maliyyə resurslarının ölkədən eyni zamanda kütləvi çıxarılması ***«kapital qaçışı adlanır»***. Üç mərhələdən ibarət bu hadisənin Meksika üçün əhəmiyyətini daha yaxşı dərk etmək üçün iqtisadiyyatın tarazlı vəziyyətinin dəyişməsinin təhlili metodikasına müraciət edək.

Hər şeydən əvvəl «kapital qaçışı»nın bizim modelin hansı qrafiklərinə təsir edəcəyi sualına cavab verək. Xarici investorlar Meksikada siyasi problemlərin olduğunu anlayanda bu ölkənin onlarda olan maliyyə aktivlərini satmağa və ABŞ-ın aktivlərini almağa başladılar. Meksikanın xalis xarici investisiyalar göstəriciləri artırdı və bu həmin modelin hər iki bazarına təsir edirdi. Aydındır ki, hadisələrin belə inkişafı xalis xarici investisiyalar əyrilərinə və bu da öz növbəsində xarici valyuta mübadiləsi bazarında pesonun təklifinə təsir etdi. Bundan başqa. Borc vəsaitlərinə tələb həm daxili, həm də xalis xarici investisiyalardan asılı olduğundan, «kapital qaçışı» borc vəsaitləri bazarının tələb əyrisinə də təsir göstərdi.

Əyrilərin vəziyyətinin necə dəyişdiyini nəzərdən keçirək (şəkil 23.2).



Şəkil 23.2. «Kapital qaçışı» nın nəticələri:
a)Borc vəsaitləri bazarı;
b)Xalis xarici investisiyalar
s)Xarici valyutanın mübadilə bazarı

Xalis xarici investisiyalar çoxalanda, yeni sövdələri maliyyələşdirmək üçün lazım olan borc fondlarına tələb də artır. Beləliklə, şəkil 23.2-dəki qrafikdə göstərildiyi kimi, borc vəsaitlərinə tələb əyrisi yerini D_1 vəziyyətindən D_2 vəziyyətinə dəyişir. Xalis xarici investisiyalar faiz dərəcəsinin kəmiyyətindən asılı olmayaraq artdığına görə onların da əyrisi NFI_1 (*Net Foreign Investment*) vəziyyətindən yerini NFI_2 vəziyyətinə dəyişir (şəkil 23.2, b).

«Kapital qaçışı»nın iqtisadiyyata necə təsir etdiyini qiymətləndirmək üçün tarazlığın ilkin və yeni vəziyyətini müqayisə edək. Şəkil 23.2, a-da göstərilmişdir ki, borc vəsa-

itlərinə tələbin artması Meksikada faiz dərəcəsinin r_1-dən r_2-dək artmasına səbəb olmuşdu. Şəkil 23.2, b xalis xarici investisiyaların artımını əks etdirir. Faiz dərəcəsinin artması Meksika aktivlərini daha cəlbedici etsə də, bu. «kapital qaçışı»nın xalis xarici investisiyalara təsirini yalnız qismən kompensə etdi. Şəkil 23.2, v-də göstərilmişdir ki, xalis xarici investisiyaların artması xarici valyuta mübadiləsi bazarında pesonun təklifini S_1-dən S_2-dək artırdı. Yəni investorlar Meksika aktivlərindən can qurtarmağa çalışanda dollara konversiya olunmağa yönəldilən peso təklifi artdı. Peso təklifinin artması, öz növbəsində, onun valyuta məzənnəsinin E_{r1} qiymətindən E_{r2}-yə qədər enməsinə səbəb olmuşdu. Beləliklə, *Meksikadan «kapital qaçışı» bu ölkədə faiz dərəcəsinin artmasına və xarici valyuta bazarında pesonun mübadilə məzənnəsinin aşağı düşməsinə səbəb olmuşdur.* 1944-cü ilin noyabrından 1945-ci ilin martına qədər məhz belə mənzərə müşahidə olunmuşdu. Meksikanın qısamüddətli dövlət istiqrazları üzrə faiz dərəcəsi 14-dən 70%-dək artdı, bir pesoda mübadilə məzənnəsi isə 29 Amerika sentindən 15 sentə qədər enmişdi[1].

«Kapital qaçışı» Meksika iqtisadiyyatına olduqca ciddi təsir etməklə yanaşı başqa dövlətlərin də vəziyyətinə təsir edir. Məsələn, Meksikadan ABŞ-a «kapital qaçışı» Amerika iqtisadiyyatına tamamilə əks-təsir göstərdi. Meksikada xalis xarici investisiyaların artması onların ABŞ-da azalması ilə üst-üstə düşdü. Pesonun mübadilə məzənnəsinin aşağı düşməsi və Meksikada faiz dərəcəsinin artması ilə yanaşı ABŞ-da dolların məzənnəsi artır və faiz dərəcəsi azalırdı. Lakin Meksikadan «kapital qaçışı»nın nəticələri Amerika iqtisadiyyatı Meksika iqtisadiyyatından çox güclü olduğundan ABŞ üçün o qədər də ciddi olmadı.

Meksikada baş vermiş hadisələr dünyanın istənilən ölkəsində təkrarlana bilər və bu da həqiqətən də ara-sıra baş verir. Məsələn, 1997-ci ildə dünya xəbər tutdu ki, bir sıra Asiya ölkələrinin, o cümlədən Tailandın, Cənubi Koreyanın

1 Грегори Менкью Н. Принципы экономикс. 2-е изд. – СПб. Питер. 2004. С. 512-513

və İndoneziyanın bank sistemi müflisləşmək həddindədir. 1998-ci ildə Rusiya hökuməti öz üzərinə götürdüyü öhdəlikləri, o cümlədən xarici investorlar qarşısında yerinə yetirməkdən imtina etdiyini bəyan etdi (defolt). Hər iki halda «kapital qaçışı» müşahidə olunmuşdu ki, bu da bizim modeldə göstərilən nəticələrə: faiz dərəcəsinin artmasına və milli valyutanın kəskin düşməsinə gətirmişdir.

Əsas anlayışlar və məfhumlar

Açıq iqtisadiyyat; xalis ixrac; idxal; xarici ticarətin multiplikatoru; xarici ticarət kvotası; xarici ticarət dövriyyəsinin elastiklik əmsalı; «kapital qaçışı»; tədiyyə balansı; dünya iqtisadiyyatı; kiçik açıq iqtisadiyyat; böyük açıq iqtisadiyyat; «kapital qaçışı»nın nəticələri.

XXIV FƏSİL. NİSBİ ÜSTÜNLÜKLƏR NƏZƏRİYYƏSİ VƏ ONUN MÜASİR ŞƏRHLƏRİ

§1. A.Smit və D.Rikardonun mütləq və nisbi üstünlüklər nəzəriyyəsi.
§2. Xekşer–Olin konsepsiyası.
§3. Leontyev paradoksu.
§4. Xekşer-Olin nəzəriyyəsinin genişlənməsi.
§5. M.Porter konsepsiyası.
§6. İnkişaf mərhələsi, vahid sivilizasiya və sivilizasiyaların toqquşması nəzəriyyələri.

§1. A.Smit və D.Rikardonun mütləq və nisbi üstünlüklər nəzəriyyəsi

XVII əsrin sonunda ingilis siyasi iqtisadının klassikləri A.Smit və D.Rikardonun «azad ticarət» ideyası (nəzəriyyəsi) meydana gəldi.

A.Smitin əsas əsəri olan «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» millətlər və xalqların sərvətinin əsasının əmək bölgüsü olması ideyası var idi. Müəllif aşağıdakı nəticəyə gəlmişdi: beynəlxalq əmək bölgüsündə fəal iştirak edən ölkələr xeyir götürürlər.

Beynəlxalq əmək bölgüsü, A.Smitin fikrincə, bu və ya digər ölkənin malik olduğu mütləq üstünlüklər nəzərə alınmaqla həyata keçirilməlidir. Ölkənin üstünlüyə malik olmadığı əmtəələrdən imtina və resursların digər əmtəələrin istehsalına yönəldilməsi istehsalın ümumi həcminin çoxalmasına, ölkələr arasında öz məhsullarının mübadiləsinin artmasına səbəb olur.

A.Smitin gəldiyi nəticə merkantilistlərin gəldikləri nəticəylə ziddiyyət təşkil edirdi. İxracın idxaldan çox olması nəticəsində ölkəyə axıb gələn qızıl və ya qiymətli metallardan çox ölkənin malik olduğu təbii və mütləq üstünlüklərin istifadə olunması hesabına beynəlxalq əmək bölgüsündə fəal iştirak dövlətin rifahının yüksəlməsinə səbəb olur.

Bu müddəaları Ukrayna və Rusiyanın qarşılıqlı ticarətinin şərti timsalında nəzərdən keçirək.

İqlim şəraitinə görə Ukrayna çuğundur istehsalında üstün ola bilər ki, bu da ona bir adam-günə Rusiyadakından 3 t fərqli olaraq 4 t çuğundur istehsal etməyə imkan verər. Kartofu isə Rusiyada becərmək sərfəlidir, çünki Ukraynada 1 adam-günə 900 kq istehsal olunursa, Rusiyada bu rəqəm 1 t təşkil edir.

İki gün işləyərək Rusiya 3 t çuğundur və 1t kartof, Ukrayna isə müvafiq olaraq 4 t çuğundur və 0,9 t kartof istehsal edər. Fərz edək ki, Rusiya üstünlüyə malik olduğu əmtəəyə (kartof) yön götürərək, yalnız onun istehsalında ixtisaslaşır və Ukraynaya göndərir. Bu halda kartofu Ukrayna bazarında sataraq (sadələşdirmək üçün nəqliyyat xərcləri və valyuta məzənnəsi nəzərə alınmır) Rusiya 4,4 t çuğundur alır (həm Ukraynada, həm də Rusiyada çuğundurun və kartofun qiyməti onların istehsalına çəkilən xərclə proporsionaldır). Rusiya üçün ticarətin ümumi nəticəsi 1 t kartof və 4,4 çuğundur olacaq.

Ayrı-ayrı ölkələrin məhz mütləq üstünlükləri bazasında istehsalın inkişafı və azad ticarət mübadiləsi ümumi rifahın yüksəlişini təmin etdikləri üçün alimlər bu zəmində xarici iqtisadi siyasət sahəsində merkantilistlərin baxışlarının tam əksi olan tövsiyələr işləyib hazırlayırdılar.

Dövlətə isə bu zaman, dövlətlərarası ixtisaslaşma sahələrinin seçimini «rəqabətin görünməz əlinə» həvalə edərək, öz müdaxiləsini minimuma endirmək təklif olunurdu.

Xarici ticarət mübadiləsinə dövlətin müdaxiləsinə isə nadir hallarda: digər ölkədə ixracın dövlət dəstəklənməsinin neytrallaşdırılması ilə əlaqədar, ölkənin təhlükəsizliyinin təmin edilməsi və ya müdafiə qabiliyyətinin möhkəmləndirilməsi - yol verilirdi.

A.Smit, məsələn, Böyük Britaniyanın o dövrdə ona düşmən olan Hollandiyanın gəmilərindən ingilis əmtəələrinin daşınması üçün istifadə etməyi qadağan edən Naviqasiya aktının müddəalarına haqq qazandırırdı.Bu müddəaların hə-

yata keçirilməsi dəniz yükdaşımalarında ixtisaslaşan Hollandiyanın mövqeyini xeyli zəiflətmiş və ingilis gəmiqayırması üçün himayədarlıq müdafiəsini təmin etmişdi.

Sonralar bu və ya digər səbəbdən xüsusi himayədarlıq tələb edən ayrı-ayrı sənaye sahələrinin mövqeyinin fövqəladiliyi haqqında tezis bir sıra ölkələrdə milli himayədarlıq proqramlarının əsaslandırılması üçün geniş istifadə olunmağa başladı.

Əməyin beynəlxalq bölgüsü nəzəriyyəsinin sonrakı inkişafı D.Rikardonun adı ilə bağlıdır ki, o, A.Smit tərəfindən nəzərdən keçirilən mütləq üstünlüklərin ümumi qaydada xüsusi hallar olduğunu sübut edə bilmişdi. Hətta hər iki əmtəə üzrə daha yüksək istehsal xərcləri səviyyəsinə malik ölkələr də ticarət mübadiləsindən uda bilərlər.

D.Rikardonun müqayisəli üstünlüklər nəzəriyyəsi göstərir ki, ölkə hər hansı bir əmtəənin istehsalında mütləq üstünlüyə deyil, nisbi üstünlüyə malik olduqda belə beynəlxalq ticarət məqsədəuyğundur.

Fərz edək ki, İngiltərədə şərab və Portuqaliyada parça istehsalı fərdi xərclərə müvafiq olaraq həyata keçirilir. Onları nəzərə alaraq D.Rikardonun nisbi üstünlükləri misalını qurmaq olar (istehsal üçün lazım olan əməyin miqdarı (vahidlərlə)) (cədvəl 24.1).

Cədvəl 24.1

Əmtəə istehsalında nisbi üstünlüklərə misal

Ölkə	Parça (1 ədəd)	Şərab (1 barel)
Portuqaliya	90	80
İngiltərə	100	120

Misaldan görünür ki, Portuqaliya bütün məhsullar üzrə mütləq üstünlüyə malikdir: o, həm 1 çəllək (barel) şərabı, həm də 1 ədəd parçanı daha ucuz istehsal edə bilər. Lakin D.Rikardonun qeyd etdiyi kimi, Portuqaliya üçün məhz şərab ticarəti əlverişlidir, çünki şərab istehsalında onun

üstünlüyü parça istehsalında olan üstünlüyündən daha yüksəkdir. Nisbi üstünlüklərdəki fərqlər hər millətə mübadilədə udmağa imkan verirlər.

Portuqaliya firması 80 vahidə başa gələn bir çəllək şərabı İngiltərədə 120 vahidə satıb və çəkilən xərclərə müvafiq qiymətə parça alarsa, onda İngiltərədən 1,2 ədəd parça ala bilər. Analoji əmək vahidi (80 vahid) Portuqaliyada parça istehsalına sərf olunardısa, onda 8/9 ədəd parça əldə olunardı. Başqa sözlə, şərab istehsal edib, onu sataraq parça almaq qərarına gələn Portuqaliyanın uduşu 120/100 – 8/9 = 1,2 –08 = 0,31 ədəd parça olar.

İngiltərə də xarici ticarətdən udacaq. O, parça istehsalında ixtisaslaşaraq onu Portuqaliyada uğurla satarsa, əvəzində 9/8 barel şərab ala bilər ki, bu da satış üçün parça istehsalı ilə məşğul olmayıb, 100 vahidə bərabər ilkin əmək sərf edərək istehsal oluna biləcək 5/6 bareldən çoxdur. İngiltərə üçün uduş burada 9/8 – 5/6 = 7/24 =0,29 barel şərab olacaq.

Nisbi üstünlüklər doktrinasından, yalnız xarici ticarətin təhlilində deyil, bir çox başqa vəziyyətlərdə də istifadə olunur. Firmalar və ya ayrı-ayrı şəxslər üçün nisbi üstünlüyə malik olduqları sahələrdə ixtisaslaşıb, qalan şeyləri mübadilə yolu ilə əldə etmək daha məqsədəuyğundur.

Yuxarıda nəzərdən keçirilən misallar mücərrəddir. Onların real vəziyyətə daha yaxın olması üçün aşağıdakı şərtlərə əməl olunmalıdır.

- əmək ticarət aparan ölkələr arasında deyil, yalnız ölkə daxilində mobil olmalıdır. D.Rikardonun gətirdiyi misalda biz fərz edirik ki, Portuqaliyada şərab istehsalına keçən fəhlələr burada da hər bir işi keyfiyyətli və sürətlə görəcəklər. Eyni tələblər də parça istehsalında ixtisaslaşan ingilis fəhlələrinə göstərilir;
- hesablaşmalarda nəqliyyata, gömrük haqqına, ticarətə qarşı yürüdülən digər məhdudlaşdırılmalar nəzərə alınmamalıdır;
- yeni texnologiyanın tətbiqi, keyfiyyətcə yeni maşın

nümunələrinin yaradılması, istehsalın kütləviliyi və s. təsiri ilə əmtəə istehsalı xərclərində baş verən dəyişikliklərlə hesablaşmamaq olmaz.

D.Rikardonun işini davam etdirən alimlərin tədqiqatları həmin mübadilənin baş tutacağı məhdudiyyətlərə və şərtlərə aid idi. Şərab və parça ilə bağlı misalda Portuqaliya yalnız şərabın 1 barelinə 9/8 ədəd parça alanda şərab mübadiləsindən udacaq. İngiltərə isə şərabın hər barelinə 5/6 ədəddən artıq parça vermədiyi təqdirdə uduşda olacaq.

Bu tezisi inkişaf etdirərək qeyd etmək olar ki, Portuqaliyada 1 barel şəraba əmək sərfi Portuqaliyada 8/9 ədəd, İngiltərədə isə 0,8 ədəd xərcə bərabərdir. Ölkələr arasında mübadilə məhz bu hədlərdə həyata keçiriləcək.

Beləliklə, azad ticarət beynəlxalq ixtisaslaşmanı stimullaşdırmaqla aşağıdakı üstünlüyü təmin edir: hər bir ölkəyə ixtisaslaşmadan əvvəlkindən az olmayaraq əmtəə istehlak etməyə imkan verməklə yanaşı, həmin həcmdə əmtəə yaradılması üçün lazım olan iş vaxtının real məsrəfini minimallaşdırır.

Lakin burada bir məsələ nəzərə alınmır: gerçəklikdə mübadilə pulların iştirakı ilə baş verir. Bir-birinə ödənişlərini etmək üçün ölkələr bir valyutanı digərinə dəyişirlər. D.Rikardo onu da sübut edə bilmişdi ki, milli valyutaların mübadilə məzənnəsi nəzərə alındıqda belə qeyd olunan üstünlüklər qalacaq. Bu halda ixrac-idxal ödənişlərinin balanslı olmaması faktı mümkündür. Bu kimi qeyri-tarazlıq milli valyutanın kursunun dəyişməsi və ya hər hansı ölkədə bütün qiymətlərin dəyişdirilməsi yolu ilə aradan qaldırılır. Nisbi üstünlüklər doktrinasının təsirinin nəticələri praktikada dəyişilməz qalır.

Doktrinaya müvafiq olaraq müəyyənləşdirilir ki, ticarət istehsal şərtlərinə nisbətdə üstünlüklərin istifadə edilməsi hesabına həyata keçirilir. Lakin bu zaman göstərilmir ki, əmtəənin konkret olaraq hansı miqdarı mübadilə olunacaq.

Nəzərdən keçirilən misalda (İngiltərə və Portuqaliya) geniş diapazonda xarici ticarət qiymətlərini qəbul etmək

olar. Portuqaliya şərabının bir bareli İngiltərədə 80 adam-günə adekvat olan pul məbləğindən ucuz satıla bilməz, lakin 120 adam-günün qiymətindən də baha ola bilməz. Analoji olaraq ingilis parçasının qiyməti Portuqaliyada 90-dan 100-ə dək adam-günün qiymətləri arasında dəyişə bilər.

İxrac və idxal olunan əmtəələrin qiymətləri arasında nisbət müəyyənləşdirildikdən sonra «ticarət şərtləri» (*terms of trade*) kimi bir məfhum tətbiq etmək lazım gəlir ki, bunun üçün də aşağıdakı düsturla hesablanan indeks işlədilməyə başlayır:

$$İ_{tş} = (İ_{ix} / İ_{id}) \, 100\%.$$

Burada $İ_{tş}$ – ticarət şərtləri indeksi;

$İ_{ix}$ – ixrac qiymətləri indeksi;

$İ_{id}$ - idxal qiymətləri indeksidir.

İndeks kəmiyyətinin artması, məsələn, 100-dən 105-dək, ticarət şərtlərinin yaxşılaşdığını, yəni verilən miqdarda idxalı ödəmək üçün daha az miqdarda ixracın tələb olunduğunu göstərir.Bütün ölkələr ticarət şərtlərini yaxşılaşdırmağa, yəni idxal və ixrac olunan əmtəələrin qiymətləri nisbətinin onlar üçün daha sərfəli olmasına cəhd edirlər.

Praktikada isə ticarət şərtləri, birincisi, qiymətlərin artıb-azalmalarından, ayrı-ayrı əmtəələrə tələbin dəyişmələrindən asılı olacaq. Qiymətlərin dəyişməsinə baxmayaraq tələbin praktik olaraq dəyişilməz qaldığı əmtəələrin istehsalçıları (məsələn, neft*və neft məhsulları təchizatçıları), aydındır ki, üstünlüyə malik olacaqlar.

İkincisi, ticarət şərtləri təchizat və ya istehsalın «elastikliyi» ilə qarşılıqlı əlaqədardır. Əmtəə təchizatçıları və ya istehsalçıları həmin məhsulun qiymətlərinin dəyişməsinə cəld reaksiya verdikləri halda ixracatçı ölkə çətin ki, həmin əmtəəyə tələbatın artmasından çox xeyir götürsün. Bu kimi əmtəələrə misal istehsalı tələbə çox həssas olan maşın və avadanlıqlar ola bilər.

Nəhayət, üçüncüsü, ticarət şərtləri əmtəənin istehsal və ya istehlak şərtlərinin dəyişməsindən asılı olaraq dəyişilir.

Şəkər qamışı istehsalçıları üçün, məsələn, neqativ məqam şəkər çuğunduru istehsalının artması ilə əlaqədar dünyada şəkər qamışından istehsal olunan şəkər istehsalının azalması olmuşdu.

XX əsrin 50-70-ci illərində iqtisadçılar arasında daha az inkişaf etmiş, ilkin xammal əmtəələri ixracı üzrə ixtisaslaşmış ölkələrin ticarət şərtlərinin pisləşməsi və əksinə, hazır məhsullar istehsalı üzrə ixtisaslaşan ölkələrin ticarət şərtlərinin yaxşılaşması fikri geniş yayılmışdı.

Həmin dövrdə hətta inkişaf etmiş kapitalist ölkələrində hazır məhsulların qiyməti xammalın qiymətindən daha sürətlə artdığından, mürəkkəb hazır məhsulların ixracı üzrə ixtisaslaşan ölkələrin ticarət şərtlərinin yaxşılaşması barədə nəticə çıxartmaq olardı.

Daha az inkişaf etmiş ölkələrin daha pis ticarət şərtləri də həmçinin hazır məhsulların əsas kütləsinin inhisarçı istehsal xarakteri ilə izah olunur. Hazır məhsullar istehsalı üzrə ixtisaslaşan inhisarlar istehsalı təkmilləşdirərək və texnoloji yeniliklər tətbiq edərək, qiymətləri əvvəlki səviyyədə saxlamağa və inhisarçı mənfəəti mənimsəməyə üstünlük verirlər. Eyni zamanda mineral xammalların və kənd təsərrüfatı məhsullarının istehsalında texnoloji tərəqqi paralel olaraq satılan xammalın ucuzlaşmasına səbəb olur.

Lakin kənd təsərrüfatı və mineral xammal istehsalının genişləndirilməsi imkanları məhduddur. Boş torpağın çatışmaması, təbii resursların bərpa olunmaması tələbin artmasına cəld cavab verməyə imkan vermir və hazır məhsulların satışı ilə bağlı vəziyyətdən fərqli olaraq xammal istehsalçısı istehsalı artırmaq barədə özünə əziyyət vermədən yüksək qiymətlər müəyyənləşdirir.

Belə vəziyyətə misal XX əsrin əvvəllərində neftin və bir sıra xammal əmtəələrinin qiymətinin dəfələrlə artması olmuşdu. Müvafiq olaraq 1973-cü ildən 1979-cu ilə qədər ABŞ-ın ticarət şərtləri idxal məhsullarının və əsasən neftin qiymətinin artması ilə əlaqədar olaraq 20% pisləşmişdi.

Ticarət şərtləri indeksi ölkənin dünya ticarətində və-

ziyyətini səciyyələndirən informasiya verir, lakin onun bir sıra çatışmazlıqları var. Onlardan ən mühümü budur ki, bu göstərici şərtlərin ümumilikdə yaxşılaşmasını göstərməklə yanaşı satılmış əmtəənin miqdarını nəzərə almır. Başqa sözlə, ticarət şərtlərinin yaxşılaşması ilə yanaşı ixrac əmtəələrinin həcminin azalması və əksinə, idxal olunan əmtəələrin həcminin artması səbəbindən tədiyə balansı pisləşə bilər.

A.Smit və D.Rikardo hesab edirdilər ki, əmtəə istehsalına təsir edən əsas amil əmək idi və qiymət əmək xərclərindən asılı idi, yəni onlar əmək-dəyər nəzəriyyəsi tərəfdarı idilər.

Sonrakı tədqiqatlar həlledici amil kimi istehsalın torpaq və kapital kimi amillərindən istifadə etməyə imkan verdilər. Əgər əməyin bazar qiyməti fəhlənin ala biləcəyi əməkhaqqı idisə, kapitalın qiyməti faiz dərəcəsi, torpağın qiyməti isə torpaq rentası ilə müəyyənləşirdi.

§2. Xekşer-Olin konsepsiyası

Ötən əsrin 30-cu illərində İsveç alimləri E.Xekşer və B.Olin D.Rikardonun doktrinasını inkişaf etdirdilər.

Xekşer-Olin konsepsiyasının əsasında belə bir fikir durur ki, beynəlxalq ticarətin istənilən iştirakçısı elə məhsulları ixrac etməyə çalışır ki, onların istehsalında həmin ölkə tərəf müqabillərinə nisbətən üstünlüyə malik olduğu istehsal amillərindən intensiv istifadə olunsun.

Onların nəzəriyyələrinin əsas müddəaları aşağıdakılardan ibarətdir:

1) ölkələrdə hazırlanması üçün istehsal amilləri çox olan əmtəələri ixrac etmək və əksinə, istehsalı üçün nisbətən nadir amillər lazım olan idxal etmək meyili müşahidə olunur.

İstehsal amilləri nəzəriyyəsi əmtəə istehsalını ilkin elementlərdən – istehsal amillərindən istifadənin nəticəsi kimi izah edir.

Klassik iqtisadi nəzəriyyə üç əsas istehsal amilini fərqləndirir: əmək, torpaq, kapital;

2) beynəlxalq ticarətdə müvafiq şəraitdə «amil qiymətlərinin» bərabərləşməsi meyili müşahidə olunur. ***Amil qiymətləri*** dedikdə amildən istifadə üçün onun sahibinin aldığı mükafat nəzərdə tutulur: əmək üçün bu əməkhaqqıdır, kapital üçün – faiz dərəcəsi, torpaq üçün – rentadır.

3) əmtəə ixracı istehsal amillərinin yerdəyişməsi ilə əvəzlənə bilər.

D.Rikardonun davamçıları olan E.Xekşer və B.Olin ölkələr arasında həm əmtəələrin, həm də istehsal amillərinin yerdəyişməsini çətinləşdirən məhdudiyyətləri mənfi qiymətləndirirdilər.

Xekşer-Olin konsepsiyasına amillərin fəaliyyət xüsusiyyətlərinə aid olan bir sıra müddəalar daxildir.

Birinci müddəaya müvafiq olaraq istehsala əlavə daxil edilən hər bir növbəti amilin son həddi faydalılıq kəmiyyətinin tədricən azalmasına yol verilir. Bu o deməkdir ki, məsələn, kartof istehsalı ilə məşğul olanların miqdarı 10% artarsa, məhsul istehsalı daha az kəmiyyətə artacaq. İşləyənlərin sayının sonrakı artımı istehsal olunan əmtəənin həcmini daha az artıracaq.

Əlavə cəlb olunan amillərin son həddi faydalılığının hansı istiqamətdə dəyişməsi barədə iqtisadçılar arasında vahid fikir yoxdur. D.Rikardo son həddi faydalılığının sabit kəmiyyətindən çıxış edirdi; onun ardıcıllarının çoxu isə göstərirdilər ki, bir çox hallarda, xüsusilə kütləvi istehsalın təşkilində son həddi faydalılığı artır.

İkinci müddəa əmtəə istehlakının xüsusiyyətlərini səciyyələndirir. Hər iki halda istehlakın strukturunun, əhalinin zövqünün, xüsusiyyətlərinin eyni olduğu güman edilir. Bütün istehsalçılar eyni şəraitdədirlər, anoloji istehsal imkanlarına malikdirlər. Praktiki olaraq tariflər, nəqliyyat xərcləri və digər istehsal xərcləri dəyişmir.

Üçüncü müddəa ölkənin çox olan amillərdən artıqlamasıyla istifadə edərək əmtəə istehsalını genişləndirmək imkanlarını təsbit edir. İstehsalçı ölkədə belə amillər get-gedə artan həcmdə işlədiləcək, onların qiyməti isə hər bir yeni

amilin son həddi faydalılığı azaldıqca artacaq. Həmin amilə tələbin müvafiq əmtəənin istehlakı ilə əvəzləndiyi idxalçı ölkədə amilin qiyməti azalacaq.

Məsələn, Avstraliya və Yeni Zelandiyada yun və taxıl istehsal edilib Böyük Britaniyaya satılması taxıl zəmiləri və otlaqlar qismində ucuz Avstraliya və Yeni Zelandiya torpaqlarından istifadənin genişlənməsi deməkdir. Bunun nəticəsi Avstraliya və Yeni Zelandiyada torpağın qiymətinin qalxması və Avstraliya taxılını idxal etməyə başlayan Böyük Britaniyada torpaq rentasının azalması olacaq.

«Mobil amillər» ə və hər şeydən əvvəl əmək və kapitala gəldikdə isə, onların milli sərhədlər hüdudlarından kənara yerdəyişməsini qəbul edən Xekşer-Olin konsepsiyasına görə, əmtəə yerdəyişməsinin istehsal amilləri yerdəyişməsi ilə əvəzlənməsi ehtimalı proqnozlaşdırılır. Belə ki, Almaniya Polşaya əmtəə ixracını genişləndirmək əvəzinə öz kapitalını ora köçürə, orada zavod tikib həmin əmtəə istehsalını Polşada istehsal etməyə başlaya bilər.

Xekşer-Olin konsepsiyasına müvafiq olaraq xarici ticarət aşağıdakı kimi həyata keçirilir. Eyni zamanda iki dövlətin mövcud olmasını fərz edək. Şərti olaraq onları sənaye əmtəələri istehsalında ixtisaslaşan «Sənaye» və kənd təsərrüfatı məhsulları istehsal edən «Aqrar» adlandıraq.

«Sənaye»də kapital artıqlığı və nisbətən işçi qüvvəsi çatışmazlığı , «Aqrar»da əksinə, kapital çatışmazlığı şəraitində nisbətən torpaq artıqlığı var.

Bəzi əmtəə növlərinin istehsalında kapitalın olması həlledici amildir. Məsələn, neft emalı, elektron maşınqayırma, bir qrup maşın və avadanlıqların istehsalı işləyənlərin az olması şəraitində intensiv kapital istehsalıdır. Artıq kapital kütləsinə malik ölkə məhz bu sahələrin inkişafına yönələcək.

Bununla belə bir sıra istehsallarda – dənli bitkilər təsərrüfatı, buynuzlu heyvanların çoxaldılması – xeyli miqdarda torpaq resursları tələb olunur. «Aqrar» məhz bununla zəngindir, buna görə də kənd təsərrüfatı əmtəələri məhz burada istehsal olunacaq.

«Sənaye» olan məhdud torpaq sahələrindən «Aqrar» sahədən gətirilən dən və ətə dəyişdirilən sənaye əmtəələrinin istehsalı üçün istifadə edə bilər. Ümumi nəticə olan kapital və torpaqdan daha səmərəli istifadə olacaq.

Buna klassik nümunə qismində İngiltərənin Avstraliya, Yeni Zelandiya, Kanada kimi ölkələrlə xarici ticarəti göstərilirdi. Maşın və avadanlıq müqabilində Böyük Britaniyaya taxıl, yun, ət gətirilirdi.

Xekşer-Olinin neoklassik konsepsiyası metropoliya və müstəmləkələr arasında ticarətin inkişafının səbəblərinin izahı üçün əlverişli idi ki, bu zaman inkişaf etmiş ölkələrə idxal olunan xammal əmtəələri əvəzində əks istiqamətdə maşınlar, avadanlıq, kapital ixrac olunurdu.

Bu konsepsiya müasir şəraitdə ölkələrin müəyyən məhsul növlərinin ixracında üstünlüyünün izahında istifadə olunurdu. Məsələn, Cənubi Koreyanın paltar və ya elektron bloklar kimi əmək tutumlu əmtəələrin ixracında üstünlüyü ölkədə xeyli izafi ucuz işçi qüvvəsinin olması, İsveçin poladəritmə sənayesi məhsullarının ixracındakı üstünlüyü isə minimum istehsal xərcləri ilə keyfiyyətli polad əldə etməyə imkan verən, tərkibində fosforun miqdarı az olan dəmir filizi ilə izah olunurdu. Kanada və Norveçin alüminium əridilməsində üstünlükləri ucuz elektrik enerjisi istehsal etməyə imkan verən coğrafi şəraitlə bağlı idi.

40-cı illərin sonu – 50-ci illərin əvvəllərində sənaye cəhətdən inkişaf etmiş ölkələrin xarici ticarətinin əhəmiyyətinin artması bir sıra iqtisadi və siyasi məsələlərin həllini tələb etdi.

«Ümumi bazar»ın meydana gəlməsi yaradılan ümumavropa gömrük «divarı»nın Amerika kapitalının inkişafına təsirini aydınlaşdırmaq zərurətini doğurdu.

Qərbi Avropa ölkələri arasında ticarətin liberallaşdırılmasının eynicinsli istehsalların inkişafına və müvafiq olaraq bu ölkələrdə məşğulluğa təsirinin müəyyənləşdirilməsi də xeyli vacib görünürdü. Xarici ticarət sədlərinin götürülməsinin əməkhaqqına, Avropadaxili ticarətin inkişafına və s.

təsiri kimi suallar ortaya çıxdı.

Xekşer-Olin konsepsiyası yaranan suallara aşağıdakı kimi cavab verirdi. Ticarət iqtisadiyyatlarının strukturu maksimum fərqli ölkələr arasında (istehsal amillərinə maliklik fərqli olduğu üçün) ən çox və xüsusilə səmərəli olmalıdır. Eynicinsli istehsalları bir ölkədə cəmləmək lazımdır.

Ticarətin inkişafı ayrı-ayrı ölkələri eynicinsli əmtəələr istehsalından imtina etməyə, yəni istehsalın sahələrarası ixtisaslaşmasını gücləndirəndə səmərəli olur.

Ölkələr istehsalında nisbətən izafi amillərdən maksimum istifadə olunan əmtəələri ixrac etməlidirlər. Azad ticarət bu zaman əməkhaqqı, faiz dərəcələri, renta ödənişləri və s. kimi amillərin qiymətlərini bərabərləşdirməlidir. Beynəlxalq investisiyalar amil təminatındakı fərqlərlə stimullaşdırılmalıdırlar. Nəhayət, beynəlxalq ticarət və beynəlxalq investisiyaların qarşılıqlı əvəzlənməsi zəruridir.

Bu müddəaların dünyanın real xarici iqtisadi inkişafı ilə üst-üstə düşməməsi tədqiqatçıların diqqətini artıq müharibədən sonrakı ilk illərdə cəlb etmişdi. XX əsrin 50-ci illərində Avropada «Ümumi bazar»ın yaradılması proqramı ilə bağlı xarici ticarətin inkişaf tendensiyalarının neoklassiklərin nəzəri müddəalarına faktiki müvafiqliyi xüsusilə aktuallaşdı.

§3. Leontyev paradoksu

Xekşer-Olin konsepsiyasının müddəaları və nəticələrinin praktik yoxlanılmasına həsr olunmuş çoxsaylı tədqiqatlar arasında artıq ucuz istehsal amillərinə malik ölkənin istehsalında əsasən bu ucuz amillərin istifadə edildiyi əmtəələri ixrac etməsi haqqında tezisin düzgünlüyünü müəyyənləşdirməyə çalışan Amerika iqtisadçısı V.Leontyevin əsərləri üzərində dayanmaq lazımdır.

XX əsrin 20-ci illərində Rusiyanın Dövlət Plan Komitəsinin işçisi, gələcək Nobel mükafatı laureatı **V.Leontyev** hesablamalarda 1947-ci il üzrə Amerika iqtisadiyyatı üçün

hazırlanmış sahələrarası «xərclər-buraxılış» balanslarından istifadə etmişdi.

Sənaye 50 sektora bölünmüşdü (bunlardan 37 sektor öz əmtəəsi ilə xarici bazara çıxırdı); istehsal amillərinə gəldikdə isə iki amil: əmək və kapital götürülmüşdü. Sonra hər birinin ümumi dəyəri 1 milyon dollar olan və tipik idxal və ixrac əmtəələri dəstindən ibarət iki əmtəə «zənbil»i fərqləndirilmişdi. Məsələn, əgər kənd təsərrüfatı maşınqayırması ixracın ümumi məbləğinin 5%-ni təşkil edirdisə, onda «zənbil»də kənd təsərrüfatı maşınqayırmasının payına 1 milyona bərabər məbləğin 5%-i, yəni 50 min dolları düşürdü. Eyni qaydada 1 milyon dollarlıq idxal məhsulunun istehsalına tələb olunan əmək və kapital məsrəfinin məbləği hesablanmışdı. Bəzi, Amerikada istehsal olunmayan əmtəələr (kofe, zeytun və s.) hesablamalarda nəzərə alınmırdı.

Tədqiqatın nəticəsi 1 milyon dollar məbləğində ixrac olunan və 1 milyon dollar məbləğində idxal olunan əmtəənin istehsalı üçün lazım olan kapital və əməyin məbləğlərinin müqayisə edilməsi oldu (cədvəl 24.2).

Cədvəl 24.2

Əmək və kapital məsrəfinin tədqiqinin yekunları

Lazımi məsrəflər	İxrac	Rəqabət aparan idxal məhsulları
Kapital, 1947-ci ilin qiymətləri, ABŞ dolları ilə (C)	2 550 000	309 100
Əmək, adam-il (L)	182	170
C/L nisbəti, hər 1 adam-ilə ABŞ dolları	14 011	18 182

Dəyəri 1 milyon dollar olan ixrac məhsullarının istehsalına 2,5 milyon dollar kapital, analoji rəbabət aparan idxal məhsulları üçün isə 3,09 milyon dollar kapital tələb olunur-

du. Əməyə gəldikdə isə, burada, əksinə, ən əməktutumlu ixrac əmtəələri – 182 adam-il olmuşdu, çünki rəqabət təşkil edən idxal əmtəələrində bu göstərici 170 adam-il təşkil etmişdi. Başqa sözlə, idxal 30%-ə yaxın daha kapitaltutumlu, ixrac isə 25%-ə qədər daha əməktutumlu olmuşdu.

Müharibədən sonrakı dövrdə ABŞ başqa ölkələrə nisbətən kapitala daha yaxşı təmin olunmuşdu, əməkhaqqı isə bu ölkədə xeyli yuxarı idi. Neoklassik konsepsiyaya görə ABŞ kapital ixrac edən və əməktutumlu əmtəələr idxal edən ölkə kimi nəzərdən keçirilirdi.

Yaranmış ziddiyyəti izah etmək üçün çoxsaylı cəhdlər edildi. Birinci izah bundan ibarət idi ki, 1947-ci il müharibədən sonrakı ikinci il idi və V.Leontyevin modelində təsvir olunan vəziyyət fövqəladə vəziyyətdir. Bu etirazları dəf etməyə cəhd edən V.Leontyev 1956-cı ildə iqtisadiyyatın müharibədən sonrakı bərpasının başa çatma ili hesab olunan 1951-ci ilin statistik göstəriciləri əsasında hesablamalarını təkrarladı. Amerika ixracının müəyyənləşdirilmiş əməktutumluluğu Amerika idxalının əməktutumluluğundan 6% yuxarı olmuşdu. Ziddiyyət azalmış, lakin tam aradan qalxmamışdı.

Digər izah ölkəyə əmtəə gətirilməsini məhdudlaşdıran və öz ölkəsində analoji məhsulların istehsalını stimullaşdıran idxal tarifləri ilə bağlı ola bilər. Gömrük tariflərinin strukturunun tədqiqi ABŞ-da əməktutumlu əmtəələrin ən çox müdafiə olunduğunu göstərdi. Lakin hesablamalara görə hətta tariflərin ləğv ediləcəyi təqdirdə dəyişikliklər «Leontyev paradoksu»na təsir etmək üçün yetərli olmayacaq.

V.Leontyevin gəldiyi nəticələrə qarşı tutarlı etiraz bundan ibarət ola bilər ki, ABŞ-a idxal olunan əmtəələrin çox hissəsi hazırlanmaq üçün Amerikada olmayan çoxlu ucuz təbii resurslar tələb edir. Kapitaltutumlu əmtəələrin idxalı aşağıdakı kimi izah oluna bilər: ABŞ istehsalı olduqca kapitaltutumlu olan xammal əmtəələri idxal edir.

Sonrakı əsərlərində V.Leontyev sadalanan məqamları nəzərə almağa çalışdı. Əmək və ya təbii resurslardan asılılı-

ğın əmtəənin işlənilməsinin hansı mərhələsində təsir göstərməsinin müəyyənləşdirilməsinin çətinliyi üzündən nəticələr ziddiyyətli oldu. Sənayenin bu və ya digər sahəsinin təbii və əmək resursları ilə təmin edilməsi səviyyəsinin müəyyənləşdirilməsi subyektiv prosesdir.

Və nəhayət, «Leontyev paradoksu»nun izahına edilən cəhdlərdə nəzərə alınmalı olan daha bir mühüm məqam iş qüvvəsinin ixtisas səviyyəsi ilə bağlıdır. Kadr potensialı birinci növbədə təhsilə «investisiya» hesabına yaradılır. İşçilərin yüksək ixtisas dərəcəsinə çatması və peşə hazırlığı uzun müddət tələb edir, bahadır və istehsalda müstəqil istiqamətdir.

Belə məqamın nəzərə alınması ayrıca dəyişən qismində ixtisaslı əməyi də tədqiq olunan istehsal amilləri sırasına daxil edərək onların sayını artırmaqla neoklassik konsepsiyanın saxlanılmasının mümkünlüyü deməkdir.

V.Leontyev ideyalarının tədqiqinə yönümlənmiş tədqiqatlar başqa ölkələrdə də aparılırdı. Məsələn, 1959-cu ildə Yaponiyada ixrac-idxal əməliyyatlarının təhlili göstərdi ki, ölkə kapitaltutumlu əmtəələri ixrac və əməktutumlu əmtəələri idxal edir. Bu, Xekşer-Olin konsepsiyasından irəli gələn proqnoza ziddir. Lakin ABŞ-la Yaponiyanın ikitərəfli ticarətinin təhlili tamamilə əks nəticələr aşkarladı ki, bu da konsepsiyanın müddəalarına müvafiq idi.

Hindistanın xarici ticarətini tədqiq edən hind alimi R.Bxaradvaj tərəfindən ziddiyyətli nəticələr alınmışdı. Nəzəri cəhətdən Hindistanın xarici ticarət əlaqələri əməktutumlu əmtəələrin ixracına və kapitaltutumlu əmtəələrin idxalına yönümlənməlidirlər, çünki bu ölkə izafi iş qüvvəsinə malikdir. Bununla belə Hindistan və ABŞ arasında ticarətin 1962-ci ildə çap olunmuş göstəriciləri alimi tamamilə başqa nəticələrə gətirdi.

Tədqiqatların müəyyən qədər birmənalı olmamasına baxmayaraq onların ümumi yekunları V.Leontyevin hesablamalarının əsaslandırılmış olduğunu təsdiqlədi və xarici iqtisadi əlaqələrin reallıqları ilə neoklassik konsepsiyanın

müddəaları arasında ziddiyyətin olduğunu göstərdi.

Bir çox tədqiqatçılar neoklassik konsepsiyanın konkret ölkələrin xarici iqtisadi əlaqələrinin inkişaf praktikasına düz gəlməməsi barədə məsələləri həll etməyə cəhd etmiş və neoklassik konsepsiyanın əsas müddəalarını saxlamaqla onun ayrı-ayrı elementlərinə «düzəlişlər etmək» yolunu tutmuşdular. Əksər hallarda düzəlişlər amillərin sayının artırılması və birinci növbədə «texnologiya» və ya «iş qüvvəsinin ixtisas səviyyəsi»nin nəzərə alınması ilə məhdudlaşırdı.

Belə yolu bütün xarici ticarət dövriyyəsi ilə müqayisədə daha çox elmtutumlu əmtəələrin ixrac templərinin yüksəlməsi stimullaşdırırdı. Məsələn, Amerika tədqiqatçısı İ.Kravis belə bir ideya irəli sürdü ki, qiymətlə yanaşı müəyyən ölkələrdə istehsal olunan əmtəənin daha yüksək keyfiyyəti ilə bağlı üstünlüklər heç də az əhəmiyyət kəsb etmirlər. O qeyd edirdi ki, qabaqcıl istehsalat bilikləri müəyyən gecikmələrlə yayılırlar; daha yüksək texnologiyalara malik ölkə müəyyən zaman kəsiyi ərzində rəqabət üstünlüyünə malik olacaq.

ABŞ ticarətində aşkarladığı fenomeni həmin ölkənin izafi miqdarda ixtisaslı əmək kimi mühüm amilə malik olması ilə izah edən V.Leontyev də həmin nəzəriyyənin tərəfdarı idi.

İxtisaslı əməyin istehsalın müstəqil amili qismində nəzərdən keçirilməsinin zəruriliyi Amerika alimi D.Kisinq tərəfindən sübut edilmişdi. O bildirir ki, hazır məhsul qrupu üçün beynəlxalq ticarətin xarakteri və istiqaməti ixtisaslı və ixtisassız əməyin nisbi izafiliyi ilə müəyyənləşir. Nəzəriyyənin hazırlanmasında əsas kimi ABŞ əhalisinin 1960-cı il siyahıya alınmasının nəticələri götürülmüşdü: sənayenin tədqiq olunan sahələrində istehsalatda çalışan fəhlələr ixtisas dərəcəsindən asılı olaraq yeddi qrupa bölünmüşdülər. Sonra D.Kisinq sənaye baxımından inkişaf etmiş ölkələrdən daha az inkişaf etmiş ölkələrə daxil olan xarici ticarət əmtəələrində təzahürünü tapmış ixtisas səviyyəsini qiymətləndir-

məyə cəhd etmişdi.

D.Kisinqin hesablamaları ABŞ-dan ixrac olunan əmtəələrin idxal olunan əmtəələrin səviyyəsi ilə müqayisədə daha böyük «ixtisas dolğunluğu»na malik olduğunu göstərdilər. Tədqiqatçı ölkəyə müəyyən bir dövr ərzində «malik olmaq» amilini daha yüksək səviyyədə saxlamağa imkan verən ixtisaslaşdırılmış əməyin xüsusiyyətlərinə qeyri-bərabər təhsil qabiliyyətinə səbəb olan mədəniyyət fərqlərini, immiqrasiya siyasətini, ixtisaslı müəllimlər, stajorlar və hamilər kimi «ilkin bünövrə»nin olmasını və s. aid edir.

Müxtəlif ölkələrdə aparılmış tədqiqatlar əsasən idxala yönümlənmə xas olan sahələrə nisbətən ixraca yönümlənmiş sahələrdə «ixtisas dolğunluğu»nun daha yüksək səviyyədə olmasını aşkarlayır.

ABŞ iş qüvvəsi ixtisasının, bəzi təbii resursların mövcudluğunun nisbi üstünlüklərinə malikdir. Daha güclü elmi potensial texniki cəhətdən mürəkkəb məhsulla ticarətdə müsbət saldoya səbəb olur. İxtisaslı əmək kapital, marketinq xidmətləri, patentlər, lisenziyalar ixracında üstünlüyə malik olmağa imkan verir. Kənd təsərrüfatı sahələrinin artıqlığı mötədil zona məhsullarını ixrac etməyə imkan verir. Bu, ABŞ-ın imkanlarının məhdud olduğu mineral xammal, neft, tropik məhsulların idxalı ilə kompensə olunur.

Yaponiya təbii resurslar və xammal (kənd təsərrüfatı məhsulları, balıqçılıq, meşə və emal məhsulları) idxalından əhəmiyyətli dərəcədə asılıdır. İdxal Yaponiyanın əməktutumlu məhsulların ixracındakı üstünlüyü hesabına ödənilir ki, bu da ölkənin nisbətən izafi ixtisaslı elmi kadrlarla təmin olunması ilə izah olunur.

Kanada xidmətlər və elmtutumlu sənaye məhsulları müqabilində xammal əmtəələri ixrac edir. Kanadanın standart sənaye məhsulları ilə ticarətdəki zahiri nisbi üstünlüyü xammal izafiliyi ilə əlaqədardır.

Qərbi Avropa ölkələri Yaponiyanın üstünlüklərinə bənzər nisbi üstünlüklərə malikdirlər, lakin onların ixracı və idxalı daha balanslaşdırılmışdır.

Rusiya mineral xammalların emalı və enerji resursları, həmçinin meşə təsərrüfatı sahəsində nisbi üstünlüyə malik ölkə kimi qiymətləndirilməlidir. Digər MDB ölkələri və birinci növbədə Orta Asiya ölkələri xammal əmtəələri və iş qüvvəsi resurslarına malikdirlər.

İstehsal amillərinin ardıcıl xırdalanması onların çoxlu sayda müxtəlif növləri əsasında xarici ticarətin inkişafında meyilləri izah etməyə imkan verir. Məsələn, Yaponiyanın «Toyota» firmasının avtomobilqayırma sahəsində unikal təcrübəsi onu dünya bazarlarını fəth etməyə imkan verən yeni istehsal amilinə çevirir. İstehsal amili qismində sahibkarlıq qabiliyyəti, texnologiyalar və s. nəzərdən keçirilə bilər.

Məsələn, Amerika və Yaponiyanın təyyarəqayırma firmaları «Boinq» və «Mitsubisi» firmalarının qarşılıqlı əməkdaşlığını, Rusiya və Amerika firmalarının təyyarəqayırma sahəsində birgə işlərini və s. şirkətlərin birində «sahibkarlıq qabiliyyəti», digərində isə «istehsal texnologiyası»nın olması ilə izah etmək olar. Lakin yalnız Yaponiya və YSÖ (yeni sənaye ölkələri) hər işləyənə alimlər, ixtisaslı iş qüvvəsi və kapitala təmin olunmağa görə həm Şimali Amerikanı, həm Qərbi Avropanı qabaqlayırlar. Əgər belə davam etsə, inkişaf etmiş sənaye ölkələrində əsas istehsal amilləri ilə təmin olunma strukturlarının tədricən bərabərləşməsi baş verəcək və bu zaman onlarla üçüncü dünyanın az inkişaf etmiş ölkələri arasında fərq qalacaq. Xekşer-Olin nəzəriyyəsinə görə bu aşağıdakılarla müşayiət olunmalıdır:

- sənaye ölkələri arasında ticarətə stimulların azalması;
- inkişaf etmiş (Şimal) və inkişaf etməkdə olan (Cənub) ölkələri arasında «Şimal - Cənub» ticarətinin genişlənməsi.

§4. Xekşer-Olin nəzəriyyəsinin genişlənməsi

Müharibədən sonrakı dövr iqtisadiyyatındakı daha iki hadisə Xekşer-Olinin nisbi üstünlük nəzəriyyəsinin

düzlüyünə şübhə ilə yanaşmağa əsas verir:

1. Gəlir səviyyələri eyni qaydada yüksək olan ölkələr arasında ticarətin daim artması və xüsusi çəkisinin çoxalması. 1953-cü ildə, Koreya müharibəsi qurtaran dövrdə inkişaf etmiş ölkələrin qarşılıqlı ticarəti (Şərqi Avropa ölkələri və SSRİ nəzərə alınmadan) dünya ticarətinin cəmi 42%-ni təşkil edirdi. Hazırda bu göstərici 60%-ə yaxındır. Bundan başqa, həmin ölkələr əhalinin adambaşına düşən gəlir səviyyəsinə görə də bir-birinə yaxınlaşmışlar. Gəlir səviyyəsinin eyniliyi adətən istehsal amilləri ilə təminatda proporsiyaların bərabərliyini göstərdiyindən (daha yüksək gəlir daha ixtisaslı əməklə, daha böyük həcmdə kapitalla və s. assosiasiya olunur), çox güman ki, Xekşer-Olin nəzəriyyəsinin əsas postulatlarına zidd olaraq ticarət istehsal amilləri ilə müxtəlif deyil, eyni proporsiyalarda təmin olunan ölkələr arasında cəmləşir. Bu nə üçün baş verir? Və bunu Xekşer-Olin nəzəriyyəsi ilə uzlaşdırmaq mümkündürmü?

2. Dünya ticarətində oxşar sənaye mallarının qarşılıqlı təchizatının yüksək və artmaqda olan xüsusi çəkisi. İqtisadçılar əvvəlcə bu hadisəni sənədlərlə təsbit edərək göstərdilər ki, A ölkəsindən B ölkəsinə qabaqlayıcı templə o kateqoriyadan olan məhsulların (standart sənaye təsnifatı üzrə – rəngli metallar, elektrik maşınqayırma, avtomobillər və s.) ixracı təşkil edir ki, onlar B-dən A-ya da ixracda üstünlük təşkil edirlər. Bununla yanaşı, əmək və torpaq kimi əsas amillərlə təminatda kəskin fərqlər müşahidə olunmayan ölkələrin sənaye sahələri arasında ticarət də ən yüksək tempdə artır. Nə üçün? Bu Xekşer-Olin nəzəriyyəsinə zidd deyil ki?

İqtisadçılar bu gün də mübahisə edirlər: Xekşer-Olin nəzəriyyəsinin əsas postulatlarını necə yeniləşdirmək və dəyişmək olar ki, beynəlxalq ticarətdəki yeni strukturların inkişafını qənaətbəxş izah etmək mümkün olsun.

İzah imkanlarından biri istehsal amilləri məcmusunu yalnız kapital, torpaq və bir neçə tip əməklə məhdudlaşdırmağın qeyri-real olmasını etiraf etməkdir. Həqiqətən də, onların növləri olduqca çoxdur. Bundan başqa, ayrı-ayrı alt sahələrə və ya hətta firmalara xas olan amillər var. Fərqlilik ən yuxarı mərhələlərdə idarəetmədə və digər nadir peşələrdə təzahür edir. Məsələn, avtomobillərdən söhbət gedəndə, deyək ki, deyə bilərik ki, «Toyota» firmasından olan E.Toyota məhz avtomobilqayırma sahəsində idarəetmə istedadına malikdir və bu da onu unikal istehsal amilinə çevirir. Eyni şeyi yalnız hər hansı firmanın, sahənin, ölkənin malik olduğu patentləşdirilmiş modellər haqqında da demək olar. Həqiqətən də, sahibkarlıq qabiliyyəti, texnologiya, biliklər özü-özlüyündə kiminsə sahib olduğu istehsal amilləri kimi nəzərdən keçirilə bilərlər.

Başqa nöqteyi-nəzərə görə, Xekşer-Olin nəzəriyyəsi təkmilləşdirilməli deyil, tam dəyişdirilməlidir və bu fikrin tərəfdarları artmaqdadır. Çıxış nöqtəsi bundan ibarətdir ki, amillərin nisbəti demək olar ki, heç nəyi izah etmir, çünki ya ölkələr əsas amillərlə oxşar proporsiyalarda təmin olunublar, ya da müxtəlif sahələr bu amillərdən istifadədə bir o qədər də fərqli deyillər. Belə yekcinslik inkişaf etmiş ölkələrin qarşılıqlı ticarətini get-gedə daha çox səciyyələndirir. Sonra göstərilir ki, istehsal amilləri ilə eyni təminatlı ölkələr bir-biri ilə ticarətdən maksimum xeyir götürə bilərlər, əgər hər ikisi miqyaslarda (miqyasın artan effekti və ya kütləvi istehsalın səmərəliliyi) qənaətlə – istehsal həcmi artdıqca məhsul vahidinə xərcin azaldılması ilə səciyyələnən müxtəlif sahələrdə ixtisaslaşarlarsa.

Son zamanlar Xekşer-Olin nəzəriyyəsinin empirik ziddiyyətləri nəticəsində ortaya çıxmış problemləri onun ya inkişaf etdirilməsi və ya əvəz olunması yolu ilə həll etmək olar. İqtisadçılar hələ ki, bu yolların hansının daha perspektivli olması barədə vahid fikrə gələ bilməmişlər.

Amerika alimləri Ç.Kindelberqer, R.Vernon, L.Uellsin adları ilə ***məhsulun həyat tsikli*** nəzəriyyəsi bağlıdır ki, həmin nəzəriyyə Amerika bazarı üçün elmi işləmələr əsasında yaradılmış və ABŞ-da istehlak olunan əmtəələrin tədricən digər inkişaf etmiş ölkələrdə yayılmağa başladığı XX əsrin 60-cı illərinin reallığını əks etdirmişdi.

Nəzəriyyənin tərəfdarlarının göstərdikləri kimi, ABŞ başqa ölkələrdən onunla fərqlənir ki, onun yüksək təhsil, ixtisas, gəlir səviyyəli çoxsaylı istehlakçı dairəsi var. Yeni və ən yeni məhsullar hazırlayan firmalar belə istehlakçılara yönümlənirlər. Yeni əmtəələr ABŞ-da yalnız orada məhz daha ixtisaslı istehsalçıların olması səbəbindən meydana gəlmir. Ən yeni əmtəələrə burada tələb də xeyli yüksəkdir.Xaricdə əhalinin təmin olunmuş qrupu amerikalıları «təqlid edir», bahalı idxal əmtəələri alırlar. Bu halda yeni əmtəəni işləyib hazırlayan ABŞ firmaları xaricə ixraca – ixracın birinci mərhələsinə başlayırlar.

İdxal olunan əmtəəyə xaricdə tələb artdıqca yerli istehsalçılar da ona reaksiya verəcək və deməli, milli istehsal inkişaf etməyə başlayacaq. Yerli firmalar Amerika firmaları qarşısında üstünlüyə malikdirlər: onlar öz bazarlarını daha yaxşı tanıyırlar, iş qüvvəsinə onların xərci daha azdır. Bu, ABŞ-dan ixracın ikinci mərhələsidir ki, ixracın artımının azalması və həmin əmtəəni əvvəllər idxal edən ölkədə milli istehsalın inkişafı ilə səciyyələnir. Milli istehsalçılar amerikalıları üçüncü ölkələrin bazarlarından sıxışdırmağa başlayırlar.

Nəhayət, ixracın üçüncü mərhələsində yerli istehsal tədricən artdıqca o, yavaş-yavaş Amerikaya əmtəə göndərməyə başlayır və burada xərclərinin daha aşağı olması hesabına tədricən Amerika əmtəələrini sıxışdırır. Bu zaman Amerika şirkətləri yeni texnoloji istehsalı mənimsəyərək yeni, daha kamil və bahalı əmtəənin istehsalına keçirlər.

Bəzi tədqiqatçılar inkişaf etməkdə olan (xüsusilə yeni sənaye) ölkələrə ixracın genişlənməsi və sonradan onların ABŞ-a ixracatları ilə bağlı olan dördüncü mərhələni də fərqləndirirlər. «Məhsulun həyat tsikli»nin xronoloji göstəriciləri fərqli olur və bir neçə ildən onilliklərə qədər uzana bilir. İstehsalın mərhələlərə bölünməsi şərtidir, çünki çox vaxt elə olur ki, əmtəə birinci mərhələdən sonra dərhal dördüncü mərhələyə adlayır.

Əmtəənin bu mərhələlərdən keçməsinə klassik misal

elmi-texniki inqilabın zirvəsində meydana çıxmış elektronika kimi əmtəənin inkişaf tarixi ola bilər. İkinci dünya müharibəsindən sonrakı ilk illərdə dünya vakuum trubkaları əsasında işləyən radioaparatura bazarlarında Amerika istehsalçıları üstünlük təşkil edirdilər. Yaponiya ucuz işçi qüvvəsindən istifadə edərək daha ucuz və keyfiyyətcə geri qalmayan radioqəbuledicilərinin istehsalını təmin etmək iqtidarında oldu. Öz növbəsində ABŞ tranzistor radiodetallarının istehsalını yaratdı və «məhsulun həyat tsikli»ndə ikinci «dövrə» başlandı. Bir neçə ildən sonra Yaponiya tranzistorların yerli istehsalını təşkil edərək ABŞ-a çata və beynəlxalq bazarın xeyli hissəsini ələ keçirə bildi. Növbəti «dövrə» ABŞ-da müasir radio istehsalı üçün səciyyəvi olan inteqral sxemlərin və miniatürləşdirmənin digər formalarının işlənib tətbiq edilməsi və istehsalı ilə bağlı olmuşdur.

«Məhsulun həyat tsikli» nəzəriyyəsi geniş yayıldı, çünki böyük bir qrup əmtəənin xarici ticarətinin inkişaf qanunauyğunluqlarını izah edirdi.

Bu nəzəriyyəyə müvafiq olaraq Pakistanda və Hindistanda pambıq parçaların, Argentina və Braziliyada konservlərin istehsalı və s. izah edilirdi. Burada «həyat tsikli»nin uzunluğu İngiltərədə pambıq məhsullarının istehsalından başlayaraq onların Hindistanda istehsalına kimi onilliklər, bəzən isə yüz illər çəkmişdir. Xarici ticarətdə «məhsulun həyat tsikli»ni dəqiq miqdari səciyyələdirməyin mümkün olmaması ilə texniki çətinliklərə baxmayaraq, nəzəriyyə həm iqtisadçılar arasında, həm də yüksək rütbəli siyasətçilər arasında yayıldı. O, birinci növbədə texnoloji mürəkkəb əmtəələrlə ticarətin izahında istifadə olunurdu.

Sonrakı hadisələr nəzəriyyənin çatışmazlıqlarını, onun tətbiqinin bir qədər məhdudluğunu göstərdi. Birincisi, bir sıra əmtəələrin istehsalı (məsələn, əhalinin elit qrupunun tələbinə ünvanlanmış yaxtalar, avtomobillər və s. kimi bahalı əmtəələr) dar ixtisaslaşmış rayonlarda qalır və digər ölkələrə yayılmır.

İkincisi, nəzəriyyə aparıcı mövqeni ABŞ-a verirdi,

çünki o, beynəlxalq əmək bölgüsündə dəyişikliklər etmişdi. Avropanın inkişaf etmiş ölkələrinə və Yaponiyaya da ikinci dərəcəli rol ayrılırdı.

Lakin son dövrlərdə bəzi ölkələr (Yaponiya və Almaniya) müəyyən istehsal növlərində ixtisaslaşaraq ABŞ-a çatmış və hətta onu ötmüşlər.

Sonralar «məhsulun həyat tsikli» nəzəriyyəsinə əlavələr edilmişdi. «Yeniliklər» anlayışı yalnız ən təminatlı istehlakçıların zövqünü oxşamağa deyil, həm də torpaq resurslarına (bu, Qərbi Avropa firmaları üçün vacibdir) və xammala (bunda Yaponiya şirkətləri maraqlıdır) tələbatları azaltmağa yönümlənmiş ixtiraları və texniki təkmilləşdirilmələri əhatələyir.

Əlavələr son on-on beş ildə Amerika firmalarını sıxışdırmış Yapon və Qərbi Avropa inhisarlarının real inkişaf meyillərini əks etdirirlər. Bir sıra hallarda elit istehlakçıların zövqünü oxşamağa ünvanlanmış yüksək keyfiyyətli əmtəələrin istehsalı bir yerdə qalmaqda davam edir, xaricə keçmək meyilini təzahür etdirmir.

§5. M.Porter konsepsiyası

Amerika tədqiqatçısı M.Porter «Nə üçün konkret ölkələrin firmaları ayrı-ayrı sahələrdə rəqabət üstünlüyü qazanırlar?» sualına cavab vermək üçün neoklassik nəzəriyyəsi ilə firmaların xarici ticarət fəaliyyəti nəzəriyyəsinin elementlərini birləşdirməyə cəhd etdi.

XX əsrin 80-ci illərinin sonunda M.Porter dünya ixracının S-ni həyata keçirən on ən iri sənaye ölkəsində tədqiqat apardı. Tədqiqatın nəticələri ona ***millətlərin beynəlxalq rəqabət qabiliyyətliliyi nəzəriyyəsini*** və ya beynəlxalq rəqabət nəzəriyyəsini işləyib hazırlamağa imkan verdi ki, bu nəzəriyyəyə görə rəqabət üstünlüklərinin formalaşması şərtlərinin dəyişməsi rəqabət qabiliyyətliyin ölkənin bu və ya digər istehsal amilinə malik olma üstünlüyündən asılı olmasını aradan qaldırdı. O, ölkənin dünya bazarlarında rəqabət

qabiliyyətinin asılı olduğu dörd əsas parametrin qarşılıqlı əlaqəsini tədqiq edir.

M.Porterin fikrincə, müasir xarici ticarətin inkişafını müəyyənləşdirən *dörd əsas parametr* bunlardır: amil şəraiti; tələb şəraiti; yaxın və xidməti sahələr; firmanın strategiyası və rəqabət.

Bu şəraitlərin və onların öz aralarında nisbətinin dəyişməsi istehsal proqramında və xarici ticarətdə struktur dəyişikliklərinə aparır.

Daxili rəqabət milli firmalara öz uğursuzluqlarında xarici firmaları günahlandıraraq dövlət dəstəyi axtarmağa imkan vermir. Bununla yanaşı, daxili bazardakı həmin rəqabət əmtəələrin kifayət qədər rəqabət qabiliyyətliyi şəraitində fəal surətdə xaricə çıxış axtarmağa imkan verir.

M.Porterin nəzəriyyəsi rəsmi tanınmışdır ki, bunu da alimin ABŞ, Avstraliya, Yeni Zelandiyanın midli əmtəələrinin ixracı ilə bağlı dövlət siyasəti üzrə praktik tövsiyələrin hazırlanmasında iştirakı faktından görmək olar.

Birinci növbədə elmi-texniki tərəqqi ilə bağlı dünya əmtəə dövriyyəsinin inkişafındakı əsas meyilləri aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

1.Elmi-texniki tərəqqi beynəlxalq ticarətin sənaye və kənd təsərrüfatı istehsalının artımını qabaqlayan yüksək dinamikasını şərtləndirir. Nəzərə almaq lazımdır ki, beynəlxalq ticarətin dinamikası istehsalın tsiklik artıb-azalmalarından asılı olaraq qeyri-bərabərliyi ilə fərqlənir. Böhranlı illərdə onun artım templəri kəskin şəkildə azalır, böhranlardan sonra isə, məsələn, 1982-ci ildə olduğu kimi, ticarətin mütləq həcmi də azalır.

2. Beynəlxalq ticarətin əmtəə nomenklaturasının sürətlə yeniləşməsi öz əksini dünya bazarlarına çoxlu sayda hazır məhsulların, xüsusilə sənayenin texniki cəhətdən qabaqcıl sahələrinin məhsullarının çıxarılmasında tapır; müxtəlif ölkələrin firmaları arasında təchizatların öncədən uzunmüddətli razılaşdırılması praktikası geniş yayılmışdır. Bu xüsusilə transmilli korporasiyaların təsərrüfat kompleksləri

üçün səciyyəvidir.

Qeyd etmək lazımdır ki, beynəlxalq iqtisadi münasibətlərin mühüm müasir subyekti kimi TMK-ın fəaliyyəti bütövlükdə beynəlxalq ticarətə get-gedə artan təsir göstərir. Deyilənlər, birinci növbədə, beynəlxalq əmtəə dövriyyəsinin (statistika firmadaxili əmtəə mübadiləsini beynəlxalq ticarətin ümumi yekununa daxil edir) inteqral hissəsini təşkil edən, lakin onu ənənəvi xarici ticarətdən başqa qanunlar üzrə baş verməsi ilə, məsələn, qiymət yaranması xüsusiyyətlərinə görə fərqləndirən ayrı-ayrı nəhəng korporasiyalar hüdudlarında firmadaxili mübadiləyə aiddir.

§6. İnkişaf mərhələsi, vahid sivilizasiya və sivilizasiyaların toqquşması nəzəriyyələri

Hazırda dünya təsərrüfatına həsr olunmuş bitkin iqtisadi nəzəriyyə yoxdur. Amma iqtisadi, sosioloji və sosiomədəni nəzəriyyələr var ki, onların müddəaları dünya təsərrüfatına tətbiq oluna bilərlər. Söhbət **inkişaf mərhələsi nəzəriyyəsi, vahid sivilizasiya nəzəriyyəsi və sivilizasiyaların toqquşması nəzəriyyəsindən** gedir.

Adları çəkilən nəzəriyyələrdən birincisi öz növbəsində iqtisadi artım mərhələsi nəzəriyyəsi, vahid sənaye və yeni sənaye cəmiyyəti nəzəriyyələri, həmçinin postsənaye cəmiyyəti nəzəriyyələri ilə təmsil olunmuşdur.

İqtisadi artım mərhələsi nəzəriyyəsi Amerika iqtisadçısı, sosioloqu və tarixçisi U.Rostou tərəfindən «İqtisadi artım mərhələləri: qeyri-kommunist manifesti» kitabında verilmişdir. Onda artımın beş əsas mərhələsi təsvir olunur:

1) ənənəvi cəmiyyət;
2) yüksəliş üçün zəmin hazırlanması dövrü;
3) yüksəliş (hərəkət, qalxma);
4) yetkinliyə doğru hərəkət;
5) yüksək kütləvi istehlak əsri.

Mərhələlərin fərqləndirilməsinin meyarı qismində burada əsasən texniki-iqtisadi xarakteristikalar, texnikanın in-

kişaf səviyyəsi, təsərrüfatın sahə strukturu, milli gəlirdə yığımın payı, istehlakın strukturu və s. çıxış edir.

Lakin dünyanın müxtəlif regionlarında iqtisadi inkişafın meyillərini dərk etməyə kömək edən bu nəzəriyyə inkişaf dövrlərindən birini – sənaye inqilabı yaratmaq üçün ilkin şəraitin yaradılması və həmin prosesin özünün mövcudluğunu mütləqləşdirir. Yəni postsənaye inkişafın müasir ölkələrin çoxu üçün səciyyəvi olan yeni sosial-iqtisadi mərhələsinin xüsusiyyətləri nəzərə alınmır.

Vahid sənaye cəmiyyəti nəzəriyyəsi əsasən fransız sosioloqu Raymon Aronun adı ilə bağlıdır; o deyirdi ki, müxtəlif ölkələrin sənayeləşməsinin gedişində onlar üçün yeni sənaye cəmiyyəti formalaşacaq ki, burada sovet və qərb sistemləri onun müxtəlif növləridir. Eyniadlı nəzəriyyənin digər müəllifi fransız Ellüelin fikrincə, yalnız iqtisadi qanunların təzahür xüsusiyyətləri dəyişilmir, həm də onların mahiyyətinin özü dəyişir; mülkiyyətin aparıcı rolu aradan çıxır, iqtisadi hakimiyyət iri korporasiyaların əlinə keçir və dövlətin köməkliyi ilə əhalinin gəlir üzrə differensiasiyası aradan qaldırılır.

Bu nəzəriyyənin tərəfdarları olan digər müəlliflərin əsərlərində müasir korporasiyaların strukturu inhisarçı səciyyəli deyil, çünki onların məqsədi yalnız mənfəət əldə etməkdən ibarət deyil, həm də bir sıra mühüm sosial funksiyaların yerinə yetirilməsindədir.

Yeni sənaye cəmiyyəti nəzəriyyəsinin əsası Amerika iqtisadçısı Con Helbreyt tərəfindən bir sıra əsərlərdə və birinci növbədə «Yeni sənaye cəmiyyəti» (1967) kitabında qoyulmuşdu.

Bu və bundan əvvəlki əsərlərində o, sübut etməyə çalışır ki, mürəkkəb və get-gedə daha kamil texnikanın tətbiq olunması kapitalizmin daxilən dəyişilməsinə, bazarın istehlak malları ilə dolmasına, səmərəli xidmət sahəsinin inkişafına və nəticədə əvvəllər mövcud olan sosial təzadların aradan qaldırılmasına aparır. Müasir kapitalizmin bütün iqtisadi sistemini o, iki müxtəlif bölmənin – «planlaşdıran sistemin»

və «bazar sisteminin» - məcmusu kimi göstərmişdi. Birinciyə yalnız qiymətlər, xərclər, texnologiya üzərində deyil, həm də cəmiyyət və dövlət üzərində hakimiyyətə malik iri korporasiyalar dünyası; ikinciyə hakimiyyətləri olmasa da, ölməz iqtisadi, mədəni, mənəvi və sosial dəyərlərin cəm yeri kimi çıxış edən kiçik firmalar aiddirlər. Bununla əlaqədar olaraq dövləti inhisarlaşmamış sektora xidmət etməyə yönümlətmək, onu «planlaşdırıcı bölmənin» hakimiyyəti altından çıxartmaq lazımdır ki, bu da «bazar sisteminin səmərəliliyinin artmasını təmin etməlidir».

Postsənaye cəmiyyəti nəzəriyyəsi birincilər sırasında Amerika sosioloqu Daniel Bell tərəfindən verilmişdir və o, öz konsepsiyasında sənayeləşmə başa çatdıqdan sonra cəmiyyətin iqtisadi xüsusiyyətlərini nəzərdən keçirir. Postsənaye cəmiyyətini, onun fikrincə, beş əlamət səciyyələndirir:

1) iqtisadiyyatın əmtəə istehsalından xidmətlər istehsalına keçməsi;

2) işçilər arasında peşəkar mütəxəssislərin və texniklərin üstünlük təşkil etməsi;

3) nəzəri biliklərin aparıcı rolu;

4) texniki-iqtisadi mühitin texnologiyaya nəzarətə yönümlənməsi;

5) qərar qəbul edilməsi prosesinin yeni «intellektual texnologiya» ilə təmin edilməsi.

Özü də «sənayeləşmə» böhranının aradan qaldırılmasının ən mühüm amilini Bell həm «postsənaye meyilləri»nin inkişafı ilə, həm də mədəniyyət və din birliyinin zəruriliyi ilə bağlayır.

Supersənayeləşmə nəzəriyyəsi Amerika sosioloqu və futuroloqu Alvin Toffler tərəfindən «Üçüncü dalğa» (1980) kitabında irəli sürülmüşdü. Müasir cəmiyyətin yaşadığı bütün mürəkkəb, çoxsəpkili daxili ziddiyyətli dəyişikliklər prosesini müəllif sənayeləşmənin dağılması və «yeni sivilizasiya»nın yaranması ilə izah edir. Bu yanaşma tarixi inkişaf prosesində dalbadal gələn «dəyişikliklər dalğalarının» ardıcıl dəyişməsi nəzəriyyəsi ilə izah olunur. Bildirilir ki,

təqribən 10 min il əvvəl «aqrar sivilizasiya» yaranmışdır, sonra Avropada XVII əsrin sonundan başlayaraq ikinci böyük «planetar dəyişikliklər» dalğasını doğurmuş və sənaye sivilizasiyasını bərqərar etmiş sənaye inqilabı baş verir. XX əsrin 60-cı illərinin əvvəllərindən, onun fikrincə, «üçüncü dalğanın» yaxınlaşması başlayır. Bu, sosial psixologiya və cəmiyyətin həyat tərzi sahəsində dəyişikliklər, yəni «istehsala və istehlaka yönümlənmiş sənaye fərdindən» «mənəvi dəyərlərə və yaradıcılığa yönümlənmiş yeni şəxsiyyətə» keçid deməkdir. Yəni hökmranlıq və tabelik münasibətləri ilə bağlı pula pərəstişlik qarşılıqlı anlaşma və qarşılıqlı yardım münasibətləri ilə əvəzlənir; böyük təşkilatlar çərçivəsində sərt əmək intizamı kiçik təşkilatlarda və evdə könüllü əməklə əvəzlənir; təbiətin dağıdılması, bərpaolunmaz resursların talan edilməsi əvəzinə-təbiətlə əməkdaşlığa istiqamət götürülür; bərpa olunan enerji mənbələri; artımın özü naminə artım əvəzinə məhdud, balanslaşdırılmış artım olmalı.

Vahid sivilizasiya nəzəriyyəsinin əsasında bütün dünya ölkələrinin tədricən vahid siyasi, sosial və iqtisadi quruluşa – liberal demokratiyaya doğru irəliləməsi haqqında liberal ideya dayanır. Bu nəzəriyyənin ən məşhur müəlliflərindən biri yapon mənşəli amerikalı Frensis Fukuyamadır. Onun fikrincə, dünyanın bütün ölkələri liberallaşdıqca vahid cəmiyyətə çevriləcəklər və sanki «tarixin sonu» çatacaq.

Vahid sivilizasiyanın yaradılmasının hərəkətverici qüvvəsi, bu nəzəriyyəyə görə, iqtisadiyyatın qloballaşmasına çevrilən və hər şeydən əvvəl transmilliləşmə və inteqrasiya vasitəsilə təzahür edən beynəlmiləlləşmə gücüdür.

Müəllifi amerikalı professor Semuel Xantinqton olan ***sivilizasiyaların toqquşması nəzəriyyəsi*** dünyanın artan çoxcəhətliyi ideyasından çıxış edir ki, bu cəhətlərə də səkkiz əsas sivilizasiya: qərb, islam, hind, çin, yapon, pravoslav, Afrika və Latın Amerikası sivilizasiyaları daxildir. Bu nəzəriyyəyə görə dünya iqtisadiyyatında və bütövlükdə dünyada Qərbin rolu tədricən azalır və Asiya sivilizasiyalarının əhəmiyyəti artır. Nəticədə, Xantinqtona görə, gələcək dünya

vahid sivilizasiya deyil, onların dəstidir, özü də bu zaman mövcud olan sivilizasiyalar birliyi vaxt keçdikcə itməyən fərqləri istisna etmir. Nəticədə dünyanın iqtisadi gücün sivilizasiyalar arasında daha bərabər bölgüsü ilə müşayiət olunan çoxcəhətliyi artır.

İmperiyaların tənəzzülü nəzəriyyəsi, amerikalı Pol Kennedinin konsepsiyasına görə, keçmiş dövrlərdə o, böyük dövlətlərin süqutunun əsas səbəbini onların saxlanmasına çəkilən böyük xərclərlə izah edir, əsasən bu hərbi xərclərə aiddir. Bu hədsiz xərclər istər-istəməz sosial-iqtisadi inkişaf səviyyəsinə təsir edir ki, bu da son nəticədə imperiyaları tənəzzülə aparır.

Əsas anlayışlar və məfhumlar

Nisbi üstünlüklər nəzəriyyəsi; ticarət şərati indeksi; Xekşer–Olin nəzəriyyəsi; «Leontyev paradoksu»; «məhsulun həyat tsikli» nəzəriyyəsi; «beynəlxalq rəqabət qabiliyyətli millət» nəzəriyyəsi; inkişaf mərhələləri nəzəriyyəsi; vahid sivilizasiya nəzəriyyəsi; sivilizasiyaların toqquşması nəzəriyyəsi; iqtisadi artım mərhələləri nəzəriyyəsi; vahid sənaye cəmiyyəti nəzəriyyəsi; yeni sənaye cəmiyyəti nəzəriyyəsi; postsənaye cəmiyyəti nəzəriyyəsi; supersənayeçilik nəzəriyyəsi; imperiyaların tənəzzülü nəzəriyyəsi.

XXV FƏSİL. İSTEHSAL AMİLLƏRİNİN BEYNƏLXALQ HƏRƏKƏTİ VƏ ONLARIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

§1. İstehsal amillərinin hərəkəti nəzəriyyələri. Kapitalın beynəlxalq hərəkəti.

§2. İş qüvvəsinin beynəlxalq miqrasiyası və onun dövlət tənzimlənməsi.

§3. Texnologiyanın beynəlxalq hərəkəti: mexanizmləri və dövlət tənzimləməsi.

Bu fəsildə istehsal amillərinin hərəkəti nəzəriyyəsi nəzərdən keçirilir və bununla əlaqədar beynəlxalq kapital axınlarının yerdəyişmələri və iqtisadi effektlər tədqiq olunurlar. Kapital hərəkətində beynəlxalq korporasiyaların rolu, iş qüvvəsinin beynəlxalq miqrasiyasının növləri, istiqamətləri, miqyasları və nəticələri təhlil olunur. Texnologiyaların beynəlxalq hərəkəti haqqında məsələ bu prosesin dövlət tənzimləməsi mexanizmi ilə sıx vəhdətdə nəzərdən keçirilir.

§1. İstehsal amillərinin hərəkəti nəzəriyyələri. Kapitalın beynəlxalq hərəkəti

Nəzərdən keçirdiyimiz beynəlxalq ticarət nəzəriyyələrində biz *əmtəə və xidmətlərin tam mobilliyi və istehsal amillərinin beynəlxalq mobilliyinin tamamilə olmaması* şərtindən çıxış edirdik. Lakin real iqtisadi gerçəklikdə kapital, əmək və texnologiya kimi istehsal amilləri dünya təsərrüfatı çərçivəsində fəal yerdəyişmədə olur və bu yerdəyişmələr dünya istehsalının səmərəliliyinin artırılmasında mühüm rol oynayır.

İstehsal amillərinin beynəlxalq hərəkəti bütövlükdə əmtəə və xidmətlərlə beynəlxalq ticarətin tabe olduğu qanunlara tabe olur və həmçinin dövlət tənzimləməsi obyektidir. Lakin qeyd etmək lazımdır ki, kapitalın, əməyin və texnologiyanın bir dövlətdən digərinə yerdəyişməsi yalnız

iqtisadi problemlər yaratmır, həm də həmin dövlətlərin siyasi və sosial həyatına xeyli təsir göstərir. Bununla əlaqədar olaraq istehsal amilləri yerdəyişməsinin dövlət tənzimləməsi beynəlxalq ticarətin tənzimlənməsindən xeyli sərtdir.

İstehsal amillərinin beynəlxalq hərəkəti beynəlxalq ticarətlə sıx bağlıdır. Bu zaman o, beynəlxalq ticarəti ya əvəzləyə, ya da tamamlaya bilər. İstehsal amillərinin beynəlxalq hərəkəti əmtəə ixracı və idxalını o halda əvəzləyir ki, bunun da səbəbi ölkələrin istehsal amilləri ilə müxtəlif səviyyədə təmin olunmasıdır və ticarətin də əsasında miqyas effekti, texnoloji fərqlər və s. kimi səbəblər dayandıqda onları tamamlayırlar. İstehsal amillərinin əsas hərəkət istiqamətlərinə gəldikdə isə, bu hərəkətləri əmtəə və xidmətlərin hərəkətini stimullaşdıran stimullar idarə edirlər: bütün digər şərtlər bərabər olduqda onlar istehsal amillərinin qiyməti daha yüksək olan yerə yönəlirlər.

Kapitalın beynəlxal hərəkəti dünya təsərrüfatı çərçivəsində birinci növbədə əmtəə kapitalının deyil, pul kapitalının hərəkətini nəzərdə tutur, yəni o, ölkədən ölkəyə maşın və avadanlıqların, qurğu və digər investisiyalı əmtəələrin fiziki yerdəyişməsi deyil, maliyyə əməliyyatıdır.

Bu hərəkətin əsasında birinci növbədə ölkələrin bu mühüm istehsal amili ilə müxtəlif səviyyədə təmin olunması ilə ifadə olunan beynəlxalq kapital bölgüsü durur.

Beynəlxalq kapital axınları müxtəlif formalarda yer dəyişə bilərlər. Kapitalın beynəlxalq hərəkətinin iqtisadi ədəbiyyatda ən çox təsadüf olunan təsnifatlarına aşağıdakılar daxildir;

1. Əmələ gəlmə mənbəyinə görə beynəlxalq tədavül dairəsində olan kapital aşağıdakılara bölünür :

- *dövlət* – bura dövlət borcları, ssudalar, yardımlar və hədiyyələr daxildir;

- *xüsusi* – bura xüsusi firmaların xaricə kapital investisiyaları, banklararası kreditləmə və ticarət kreditlərinin verilməsi daxildir.

2. Qoyulma müddətinə görə:

- *qısamüddətli* (bir ilə qədər müddətə);

- *uzunmüddətli* (1 ildən artıq müddətə).

3. İstifadə edilmə növünə görə:

- *borc* – borc faizi götürmək məqsədilə borc verilən vəsaitlər;

- *sahibkarlıq* – mənfəət götürmək məqsədilə birbaşa və ya dolayısı ilə istehsala qoyulan vəsaitlər.

4. Qoyulma məqsədlərinə görə:

- *birbaşa investisiyalar* – qəbul edən ölkədə uzunmüddətli iqtisadi maraq əldə etmək məqsədilə kapital qoyulan obyekt üzərində nəzarəti təmin edən miqyasda uzunmüddətli kapital qoyuluşları;

- *portfel investisiyaları* – xarici qiymətli kağızlara qoyuluş obyekti üzərində nəzarət hüququ verməyən qısamüddətli və uzunmüddətli kapital qoyuluşları.

Kapitalın beynəlxalq hərəkətində birbaşa xarici investisiyalar (BXİ) xüsusi rol oynayır, çünki məhz onlar yeni sahədaxili zəmində beynəlxalq əmək bölgüsünə rəvac verirlər. Bu investisiyalar demək olar ki, tamamilə beynəlxalq korporasiyalar tərəfindən həyata keçirilən xüsusi sahibkarlıq kapitalının ölkədən çıxarılması ilə bağlıdır. *Birbaşa xarici investisiyaların səbəbləri* ən müxtəlif, o cümlədən aşağıdakılara can atma ola bilər:

- kapitalı maksimum mənfəət gətirə biləcəyi ölkələrdə yerləşdirmək;

- kapital ixracatçılarına rəqabət üstünlüyü verən əsas texnologiyalar üzərində nəzarəti əldən verməməklə texnoloji liderliyi saxlamaq;

- miqyasdan qənaətin səmərəsini həyata keçirmək;

- təbii resurslara və ucuz iş qüvvəsinə çıxışı təmin etmək;

- vergi tutumları səviyyəsini aşağı salmaq;

- riski diversifikasiya etmək.

Birbaşa investisiyaların təhlili zamanı ona da diqqət yetirmək lazımdır ki, onların tərkibinə yalnız şirkətlərin xari-

cə öz şəxsi kapitallarını qoymaları deyil, həm də mənfəətlərin təkrar-investisiyası və birbaşa investorla onunla başqa ölkələrdəki qız-şirkətləri və filiallar arasında kreditlər və borclar şəklindəki korporasiyadaxili köçürmələr də daxildir.

Birbaşa xarici investisiyaların ***iqtisadi effektləri*** xarici ticarətin nəticələrindən bir o qədər də fərqlənmirlər və onların təhlili üçün, bir qayda olaraq, iki ölkənin sadə modelindən istifadə olunur. Kapitalın beynəlxalq yerdəyişmələri kapital kimi istehsal amilinin daha səmərəli bölgüsü hesabına dünya istehsalının artımına səbəb olur. Eyni zamanda bir ölkədən başqa ölkəyə kapitalın hərəkəti istehsal amilləri sahiblərinin gəlirlərinin yenidən bölgüsünə səbəb olur. Məsələn, kapital ixracatçısı olan ölkədə kapital sahiblərinin gəliri artır, amma digər istehsal amilləri sahiblərinin gəlirləri azalır. Kapital idxalçısı olan ölkədə vəziyyət başqadır: kapital sahiblərinin gəlirləri azalır, digər istehsal amilləri sahiblərinin gəlirləri isə artır.

Kapitalı həm ixrac edən, həm də idxal edən dövlətlər birbaşa xarici investisiyaların əhəmiyyətinin artmasını etiraf edir və birbaşa investisiyalara dövlət təminatı verilməsi, investisiyaların sığortalanması, ikiqat vergi tutulmasının aradan qaldırılması və müxtəlif diplomatik dəstək şəklində dövlət dəstəyi verirlər.

Son onillikdə xarici portfel investisiyaların xeyli artması baş vermişdir ki, bunlar da həm miqyaslarına, həm artım templərinə görə birbaşa kapital qoyuluşlarını qabaqlayırlar. Onlar da əsasən xüsusi kapitala əsaslanır və birbaşa investisiyalarda olduğu kimi, portfel investisiyalarının əsas axınları inkişaf etmiş ölkələr arasında olur. Portfel investisiyalarının əsas səbəbləri bunlardır:

- onları elə ölkələrdə və elə qiymətli kağızlarda yerləşdirməyə cəhd etmək ki, düşünülmüş risk şəraitində maksimum gəlir götürülə bilsin;
- riski diversifikasiya etmək cəhdi;
- möhtəkirlik motivləri.

Xarici portfel investisiyaların iqtisadi nəticələri birbaşa

investisiyalarda olduğu kimidir və onlar istehsal amilləri sahiblərinin gəlirlərinin təkrar bölgüsünə səbəb olurlar.

Beynəlxalq kapital hərəkətində, ələlxüsus birbaşa investisiya qoyuluşunda XX əsrin 60-70-ci illərində çox fəal formalaşmağa başlayan beynəlxalq korporasiyalar böyük rol oynayırlar. Onlara bir qayda olaraq inkişaf etmiş ölkələrin dünyanın müxtəlif ölkələrinə birbaşa investisiyalar qoyan ən iri korporasiyaları aiddirlər. Beynəlxalq korporasiyalar adətən iki növə bölünürlər: **transmilli korporasiyalar (TMK) və çoxmillətli korporasiyalar (ÇMK).** TMK - əsas kompaniyası bir ölkənin kapitalına mənsub olub filialları və qız-kompaniyaları dünyanın bir çox ölkəsində fəaliyyət göstərən korporasiyalardır. ÇMK - əsas kompaniyası iki və daha çox ölkənin kapitalına mənsub olub filialları dünyanın bir çox ölkəsində fəaliyyət göstərən korporasiyalardır. Müasir beynəlxalq korporasiyalar əsasən TMK-lar formasındadırlar. BMT-nin transmilli korporasiyalar üzrə Komissiyası və Mərkəzinin təsnifatına görə dünya iqtisadiyyatında 40 minə yaxın TMK var ki, onların da dünyanın bütün regionlarında 300 minə yaxın filialı mövcuddur, lakin birbaşa xarici investisiyaların 30%-ə qədəri 100 ən iri TMK-nın payına düşür. Zənnimizcə, TMK-lara xaricdə heç olmasa bircə filialı olan beynəlxalq kompaniyaların hamısını deyil, yalnız dünya istehsalına, beynəlxalq ticarətə və istehsal amillərinin beynəlxalq hərəkətinə xeyli təsir göstərən iri beynəlxalq kompaniyaları aid etmək lazımdır.

TMİ – «transmillilik indeksi» üç göstəricinin: xarici aktivlərin ümumi aktivlərə nisbəti, xarici satışların ümumi satışlara nisbəti və xaricdəki məşğulluğun ümumi məşğulluğa nisbətinin ortaq rəqəmi kimi hesablanır.

TMK-lar adətən aşağıdakı xüsusiyyətləri ilə səciyyələndirilirlər:

- vahid mərkəzdən nəzarətdə saxlanılan beynəlxalq istehsal sisteminin mövcudluğu;
- müxtəlif ölkələrdə yerləşən filiallar və qız-şirkətlər arasında geniş inkişaf tapmış korporasiyadaxili ticarət sis-

temi;

- qərarların qəbul edilməsində yerləşmə ölkəsindən (TMK-nın əsas şirkətinin yerləşdiyi ölkə) və qəbul edən ölkədən (TMK-nın filialları və qız-şirkətləri yerləşən ölkə) nisbətən asılı olmaması;

- qlobal məşğulluq strukturu;

- korporativ struktur çərçivəsində yeni texnologiyanın hazırlanması və istifadə edilməsi.

Beynəlxalq korporasiyaların fəaliyyəti həm yerləşmə ölkəsində, həm də qəbul edən ölkələrdə iqtisadiyyata, siyasətə və sosial vəziyyətə təsir edir. Onların fəaliyyətinin iqtisadi nəticəsi bütövlükdə birbaşa xarici investisiyaların nəticələri kimidir. Bundan başqa, ***beynəlxalq korporasiyaların fəaliyyətinə yalnız maliyyə kapitalının yerdəyişməsi deyil, həm də yeni texnologiyaların, idarəetmə təcrübəsinin və istehsalın təşkilinin yeni metodlarının ötürülməsi daxildir.*** Əlavə olaraq texnoloji və kadr üstünlüklərinin əldə olunması imkanı qəbul edən ölkəni beynəlxalq korporasiyaların fəaliyyətini məhdudlaşdırmağa deyil, həvəsləndirməyə sövq edir. Bununla belə beynəlxalq korporasiyalar həm yerləşmə ölkəsində, həm də qəbul edən ölkələrdə müəyyən müxalifliklə üzləşirlər. Yerləşmə ölkəsinə gəlikdə, beynəlxalq korporasiyalara əsas iradlar onunla əlaqədardır ki, onlar xaricdə istehsalı inkişaf etdirməklə iş yerlərini ora ixrac edir, bu da yerləşmə ölkəsində işsizliyin artmasına səbəb olur. Bundan başqa, yerləşmə ölkəsində yığılan verginin səviyyəsi aşağı düşür, çünki beynəlxalq korporasiyaların mənfəətin bir qismini vergidən yayındırmaq üçün çoxlu imkanları yaranmış olur. Qəbul edən ölkədə beynəlxalq korporasiyalar öz hökumətlərindən himayədarlıq tədbirləri görülməsini tələb edən analoji məhsul istehsalçıları tərəfindən müxalifliklə üzləşirlər. Bundan başqa, beynəlxalq korporasiyaların fəaliyyətinin miqyasının olduqca geniş olması onlara qəbul edən ölkələrə siyasi təsir göstərməyə və onların suverenliyini məhdudlaşdırmağa imkan verir ki, bu da həmin ölkələrin əhalisinin etirazına səbəb olmaya bilməz. Bu, qəbul

edən ölkələrin iqtisadiyyatının bir sıra sahə və dairələrinə birbaşa xarici investisiyalar qoyuluşunu məhdudlaşdıran qanunların qəbul edilməsinə səbəb olur. Lakin bütövlükdə beynəlxalq korporasiyaların fəaliyyətindən həm qəbul edən ölkələr üçün, həm də yerləşmə ölkələri üçün müsbət iqtisadi təsir onun mənfi nəticələrindən daha dəyərli olur.

Beynəlxalq kreditləmə vəsaitlərin müddətə borc alınması və verilməsini və onlardan istifadəyə görə faiz ödənişini nəzərdə tutan kapitalın beynəlxalq hərəkəti formalarından biridir.

Dünya təsərrüfatında borc kapitalı qismində əsasən dövlət kapitalı və ya ixtisaslaşmış beynəlxalq maliyyə-kredit təşkilatlarının kapitalı istifadə olunur, amma son illərdə xüsusi mənbələrdən beynəlxalq kreditləmənin xeyli genişləndiyi də qeyd olunmalıdır. Beynəlxalq kreditləmə bütövlükdə qarşılıqlı faydalıdır, çünki ondan həm borc alan ölkə, həm də borc verən ölkə udur. Lakin bu ölkələrin heç də bütün əhali qrupları uduşda olmur. Kapitalı borc alan ölkədə borc götürən udur, daxili kreditorlar isə ziyanda olur ki, bu da kredit bazarında rəqabətin güclənməsi ilə əlaqədardır. Kreditor ölkədə isə öz növbəsində qoyulmuş kapitala görə daha yüksək faiz alan kreditorlar uduşda olurlar, ölkə daxilində borc götürənlər isə kredit resurslarına görə daha yüksək haqq ödəmək lazım gəldiyindən zərər çəkirlər.

Beynəlxalq iqtisadiyyatın nəzəriyyəsində beynəlxalq kreditləməni adətən beynəlxalq ticarətin növlərinə aid edirlər, çünki beynəlxalq kreditlərin çox hissəsi əmtəə və xidmətlərin ixrac və idxalına xidmət göstərilməsinə yönəldilir.

Beynəlxalq ticarətin bu növü vaxtarası ticarət adı almışdır, çünki əmtəənin əmtəəyə mübadiləsi qismində deyil, bugünkü əmtəənin gələcəkdəki əmtəəyə mübadiləsi şəklində olur.

Belə ticarətin nəticəsi gələcək istehlakın azaldılması hesabına cari istehlakın artırılması (borc alma), yaxud istehlakın gələcəkdə artırılması məqsədilə cari istehlakın azaldılması (kreditləmə) olur. Yəni borc alan kredit götürən-

də gələcəkdə istehlakın azaldılması hesabına, cari istehlakı artırmaq imkanına malik olur, o zaman da götürülmüş krediti faizi ilə qaytarmalı olacaq. Digər tərəfdən, borcu verən kreditor həmin vəsaitləri cari istehlaka xərcləmək imkanından məhrum olur, amma onun gələcək istehlak imkanları xeyli artır.

Vaxtarası ticarəti təhlil etmək üçün iki dövrdə: indi və gələcək - yalnız bir əmtəə istehlak edən iqtisadiyyatı təsəvvür edək. Vaxtarası istehsal imkanları arasındakı həddəmtəənin indi və gələcəkdə istehsalı arasında seçim problemini göstərməyə imkan verir. Müxtəlif ölkələr üçün bu əyri müxtəlif formada olur. Ölkələrin bir qismi bu gün istehsal etdiklərindən daha çox istehlak etmək istəyirlər, buna görə də dünya bazarında pul borc alırlar. Digər ölkələr istehlak həcminin gələcəkdə artırılması üçün cari istehlakı məhdudlaşdırır və kredit verirlər. Lakin bu yerdə gələcək istehlakın qiyməti məsələsi ortaya çıxır ki, bu da indiki istehlak həcmi vasitəsilə ifadə olunur və real faiz dərəcəsi vasitəsilə göstərilə bilir. Ölkə borc alanda gələcəkdə daha çox ödəmək şərti ilə hazırda müəyyən miqdarda nemətlər almaq hüququ əldə edir. Gələcəkdə ödəniş üçün nəzərdə tutulan nemətlərin miqdarı indiki istehlak kəmiyyətinin (1+r) kəmiyyəti hasilinə bərabər olacaq ki, burada r real faiz dərəcəsidir. Gələcək istehlakın nisbi qiyməti 1/(1+r)-ə bərabər olacaq.

Beləliklə, *vaxtarası ticarətin inkişafı üçün zəmin vaxtarası nisbi üstünlüklərin və real faiz dərəcələrində müvafiq fərqlərin mövcudluğudur.* Xaricdən borc götürən ölkələr cari istehsal imkanları baxımından yaxşı investisiya imkanlarına malikdirlər, amma kreditor ölkələr belə imkana malik deyillər.

Müasir beynəlxalq kreditləmənin sxemi deyilənləri təsdiqləyir. Borc kapitalının beynəlxalq hərəkətinin əsas həcmi eyni zamanda həm kreditor, həm də borc alan inkişaf etmiş ölkələrin payına düşür. İnkişaf etməkdə olan ölkələrdən əsas kreditorlar böyük cari gəlirlər əldə edən, lakin böyük cari kapital qoyuluşu imkanlarına malik olmayan neftçıxaran öl-

kələrdir.

Normal fəaliyyət göstərən beynəlxalq borcgötürmə və kreditləmə sistemi onun iştirakçılarına milli və dünya istehsalının həcmini artırmağa imkan verir. Lakin praktikada bu mexanizmin işi kamillikdən uzaqdır, bunu vaxtaşırı baş verən **dünya borclar böhranından** görmək olar. Belə böhranlar bir qrup ölkənin və ya ayrıca bir dövlətin öz xarici borcunu verə bilməməsini və ya borcunun ləğv edilməsini bəyan etməsindən başlayır. Belə hərəkətlərə adətən aşağıdakılar **səbəb** olur:

- ölkənin məcmu börcunun hədsiz çoxalması;
- ticarət şərtlərinin pisləşməsi, bu da tədiyyə balansının tənzimlənməsində çətinliklər yaradır;
- istehsalda ciddi və uzunmüddətli ümumi tənəzzül;
- ölkədə iqtisadi və siyasi şəraitin pisləşməsi səbəbindən ölkədən «kapital qaçışı»;
- uzunmüddətli kapital axınının azalması və daha yüksək faiz dərəcələri ilə qısamüddətli kreditlərin cəlb edilməsi.

Borc səviyyəsi yüksək olan istənilən ölkə əvvəl-axır xarici borc probleminin kəskinləşməsi ilə üzləşir və ***borc əməliyyatları saldosu*** əlverişsiz olduqda ölkə hökumətində xarici borca görə ödənişlərdən imtina etməyə güclü motivasiya yaranır. Borc əməliyyatları saldosu xalis kapital gəlişi (gedişi) ilə xarici borc məbləğinin nisbətidir. Borc əməliyyatları saldosunu BT, yığılmış borcu isə D, borcun ümumi məbləğinin artımını d, xalis kapital axınını (gəlişini) K və orta faiz dərəcəsini i ilə göstərsək, onda borc əməliyyatının saldosu belə olacaq:

$$BT = dD - iD = (d-i)D.$$

$d > i$ olduqda, borc əməliyyatları saldosu müsbətdir, yəni ölkəyə xalis kapital axını baş verir. $d < i$ olduqda isə borc əməliyyatları saldosu mənfi olur və ölkədən valyuta resurslarının getməsi baş verir ki, bu da həmin ölkədə bir qayda olaraq mürəkkəb iqtisadi vəziyyəti xeyli pisləşdirə bilir.

Analoji vəziyyət Rusiyada yaranmışdır. Xaricdən borc almaq siyasəti xarici borc problemini Rusiya iqtisadiyyatı-

nın ən ciddi problemlərindən birinə çevirmişdir. Artıq indi dövlət gəlirlərinin üçdə biri xarici borca xidmət göstərilməsinə sərf olunur, bir neçə ildən sonra isə büdcənin əsas hissəsi onun ödənilməsinə yönəldiləcək. Belə vəziyyət ölkə üçün hədsiz təhlükəlidir və hökumətin əsas cəhdləri kreditorlarla xarici borcun restrukturlaşdırılması və onun cari yükünün yüngülləşdirilməsi barədə danışıqlara yönəldilmişdir.

BVF xətti üzrə kreditlərdən sonra ölkəyə axını gözlənilən sahibkar kapitalına gəldikdə isə o hədsiz dərəcədə az oldu, çünki ölkədə investisiya mühitini müəyyənləşdirən meyarlardan (ölkədə siyasi sabitlik, xarici investisiyaların hüquqi şərtləri, vergi tutma sistemi, infrastrukturun inkişaf dərəcəsi, milli valyutanın sabitliyi, mənfəətin repatriasiya imkanları) çoxu üzrə Rusiya özəl xarici investorların tələblərinə cavab vermir. Amma ölkəmiz borc kapitalının deyil, birinci növbədə məhz sahibkar kapitalının axıb gəlməsində maraqlıdır, çünki:

- real investisiyalar ölkə istehsalının inkişafını stimullaşdıran və iqtisadi artımı təmin edən təkan ola bilərdi;
- belə investisiyalar bir qayda olaraq texnologiyaların, istehsalın təşkili təcrübəsinin ötürülməsi ilə müşayiət olunur, dünya bazarına çıxışı təmin edir;
- birbaşa investisiyalar ölkənin xarici borcunu artırmır.

Bununla əlaqədar olaraq Rusiya hökuməti qarşısında duran ən mühüm məsələ xarici borc probleminin tənzimlənməsi ilə yanaşı ölkədə əlverişli investisiya mühitinin yaradılmasından ibarətdir.

§2. İş qüvvəsinin beynəlxalq miqrasiyası və onun dövlət tənzimlənməsi

İş qüvvəsinin **beynəlxalq miqrasiyası** əmək qabiliyyətli əhalinin bir dövlətdən digərinə bir ildən artıq müddətə köçməsidir. İş qüvvəsinin miqrasiyası **emiqrasiya (iş qüvvəsinin ölkədən getməsi) və immiqrasiya (gəlməsi)** şəklini ala bilər. Miqrasiyanın səbəbləri həm iqtisadi, həm də qeyri-iqti-

sadi ola bilir, lakin əksər hallarda bunlardan ən mühümü ölkələr arasında əməyin haqqının ödənilməsindəki fərq olur. Məhz daha yüksək əməkhaqqı axtarışları insanları adəti həyat şəraitindən imtina edib xeyli böyük ilkin maddi və psixoloji xərclərə getməyə vadar edir. Dünyanın bu və ya digər regionunda iqtisadi vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq beynəlxalq miqrasiyanın istiqamətəri daim dəyişir, lakin əsas miqrant axınları həmişə adambaşına düşən gəlirin daha az olduğu ölkələrdən onun daha yüksək olduğu ölkələrə yönəlmiş olur. Miqrantları cəlb edən mərkəzlər hazırda ABŞ, Kanada, Qərbi Avropa ölkələri, həmçinin Yaxın Şərqin neft çıxaran ölkələri və yeni sənaye dövlətləridir. Miqrasiyanın əsas mənbəyi inkişaf etməkdə olan ölkələr və sabiq sosialist ölkələridir.

İş qüvvəsinin miqrasiyasının ***iqtisadi nəticələri*** rəngarəngdir və bir çox amillərdən asılıdır, lakin əsasən aşağıdakı aspektləri nəzərdən keçirmək qəbul olunmuşdur:

- miqrasiyanın emiqrasiya və immiqrasiya ölkələrinin əmək bazarına təsiri;
- miqrasiyanın dövlət maliyyəsinə təsiri;
- miqrasiyanın əlavə effektləri.

İş qüvvəsinin beynəlxalq miqrasiyasının dövlət maliyyələrinə təsiri birmənalı deyil. Emiqrasiya ölkəsində dövlət maliyyəsinə zərər dəyir, çünki ölkəni tərk etmiş əmək qabiliyyətli əhali gəlir vergisini və başqa vergiləri ödəmir. Digər tərəfdən, transfert ödənişlərinin azalması hesabına büdcənin xərcləri azalır. Amma bütövlükdə emiqrasiya ölkəsinin maliyyəsinə xalis zərər dəyir və bu da onunla əlaqədardır ki, dövlət öz vətəndaşlarının ümumi və ixtisas təhsili almasına artıq külli miqdarda xərc çəkib və onlar fəal əmək fəaliyyətinə başladıqca onlardan vergi tutulacağını gözləyirdi. Lakin əmək qabiliyyətli yaşda olanda onlar başqa ölkədə işləyir və vergi ödəyirlər. Buna görə də fəal emiqrasiya ölkələrinin çoxunda onu məhdudlaşdırmaq və xaricə gedən şəxslərə dövlətin onların təhsili və digər xidmətlərinin xərcinin ödənilməsini nəzərdə tutan xüsusi verginin tətbiq edilməsi tələblə-

ri səslənir.

İmmiqrasiya ölkəsinə gəldikdə isə onun büdcəsi immiqrasiyadan əsasən udur, çünki immiqrantlar artıq öz ölkələrinin vergi ödəyiciləri hesabına təhsil alıb gəlir və fəal vergiödəmə mərhələsinə qəbul edən ölkədə qədəm qoyurlar. Amma büdcə üçün yoxsulluğa görə müavinətlərin ödənilməsinin artması, ictimai asayişin qorunmasına xərclərin artması, ictimai məktəblərin heyətinin hədsiz artması və s. kimi neqativ məqamları da unutmaq olmaz.

Miqrasiyanın bu əsas nəticələri ilə yanaşı onun emiqrasiya ölkəsində işsizliyin azalması və immiqrasiya ölkəsində onun yerli əhali arasında artması, xarici işçilərin, bir tərəfdən, öz bilik və təcrübəsini gətirməsi, digər tərəfdən isə xaricdə işlədikləri zaman onların ixtisas dərəcəsinin artması və öz vətənlərinə qayıtdıqdan sonra bunun tətbiq olunması kimi əlavə effektlərini qeyd etmək olar. Bu xüsusda XX əsrin 60-cı illərindən geniş vüsət almış inkişaf etməkdə olan və sabiq sosialist ölkələrindən ***beyin axını*** xüsusi əhəmiyyət kəsb edir. O, emiqrasiya ölkəsinin elmi-texniki və intellektual potensialına olduqca böyük zərər vurur və eyni zamanda immiqrasiya ölkəsinə böyük xeyir verir, çünki o ən istedadlı alim və mütəxəssisləri özündə cəmləmiş olur.

İş qüvvəsinin miqrasiyası həm iqtisadi, həm də sosial problemlər doğurur və buna görə də kifayət qədər sərt dövlət tənzimləməsi obyekti ola bilməz. Belə tənzimləmələr adətən xaricilərin ölkəyə gəlişini məhdudlaşdıran qanunların qəbul edilməsi, həmçinin dövlət tərəfindən maliyyələşdirilən ya xaricdən işçi qüvvəsinin axınının məhdudlaşdırılmasına, ya da immiqrantların vətənlərinə qayıtmasının stimullaşdırılmasına istiqamətlənən proqramlar vasitəsilə həyata keçirilir. Bu zaman ölkələrin əksəriyyəti miqrasiyanın tənzimlənməsinə selektiv yanaşır, yəni həmin anda bilikləri, bacarıq və qabiliyyətləri lazım olan işçilərin (nadir peşə nümayəndələri, yeni və perspektivli sahələrdə mütəxəssislər, dünyada məşhur mütəxəssislər, həmçinin bir sıra sahələr üçün ixtisassız işçilər) ölkəyə gəlişini təqdir edir və eyni zamanda

başqa qəbildən olan işçilərin ölkəyə gəlişini məhdudlaşdırır. Belə məhdudlaşdırmalar üçün immiqrantın peşəkarlığına və iş stajına, səhhətinə sərt tələblər göstərilməsi, sayına kvota qoyulması (ölkəyə immiqrantların bütövlükdə, ayrı-ayrı sahələr və müəssisələr üzrə gəlişinin kəmiyyət məhdudlaşdırılması), vaxt məhdudiyyətinin müəyyənləşdirilməsi (xarici işçilərin ölkə ərazisində maksimum ola bilmə müddəti), coğrafi prioritetlərin müəyyənləşdirilməsi və s. kimi yanaşmalardan istifadə olunur.

İmmiqrasiya prosesinin tənzimlənməsi ilə yanaşı bir çox inkişaf etmiş ölkələr hazırda reemiqrasiyanı stimullaşdıran müxtəlif proqramlar həyata keçirirlər. Bunlara öz vətənlərinə qayıtmaq istəyənlərə maddi kömək göstərilməsi kimi tədbirlər, işçilərlə, onların vətənə döndükdən sonra daha yüksək maaşlı iş ala bilmələri üçün, peşə təhsili proqramlarının aparılmasını, kütləvi emiqrasiya ölkələrinə iqtisadi yardım göstərilməsi daxildir. Lakin belə proqramlar, bir qayda olaraq, həm işçilərin özlərinin, həm də iş qüvvəsini ixrac edən ölkələrin hökumətlərinin reemiqrasiyada maraqlı olmaması səbəbindən yüksək səmərə vermir.

§3. Texnologiyanın beynəlxalq hərəkəti: mexanizmləri və dövlət tənzimləməsi

Müasir iqtisadi nəzəriyyədə texnologiyanın beynəlxalq yerdəyişməsini həm ümumi beynəlxalq ticarət nəzəriyyəsi çərçivəsində adi ticarət kimi, həm də olmaması müasir istehsal prosesinin bütövlükdə mövcudluğunu mümkünsüz edən xüsusi istehsal amilinin beynəlxalq hərəkəti kimi nəzərdən keçirmək olar. Biz texnologiyanın hərəkətini dünya təsərrüfatı çərçivəsində ***texnologiyanın xüsusi iqtisadi resurs kimi beynəlxalq ötürülməsi*** qismində təhlil edəcəyik. Texnologiyanın beynəlxalq ötürülməsi dedikdə adətən elmi-texniki nailiyyətlərin dövlətlər arasında kommersiya əsaslarında və ya təmənnasız yerdəyişməsi başa düşülür ki, bu da patentlərin, lisenziyaların, nou-hauların satılması və ya

yüksək texnoloji əmtəələrin satışı şəklində həyata keçirilə bilir. Texnologiyanın beynəlxalq hərəkətinin əsası beynəlxalq bölgüdür ki, bu da onun müxtəlif ölkələrdə müxtəlif dərəcədə cəmlənməsində ifadə olunur və bu da öz növbəsində elmi-texniki tərəqqinin onlarda müxtəlif dərəcədə inkişafının nəticəsidir. ***Texnologiyaların beynəlxalq ötürülmə formaları*** adətən aşağıdakı kimi bölünür:

- patent və lisenziya razılaşmaları: birinci halda patent sahibinin özünün ixtiradan istifadə hüquqlarının patent alana verilməsi, ikinci halda isə ixtiranın sahibinin lisenziya alıcısına öz hüquqlarından istifadə etməyə icazə verməsi nəzərdə tutulur;
- nou-haunun verilməsi: bura patentləşdirilməmiş texniki sınaqların və istehsal sirlərinin verilməsi daxildir;
- injinirinq razılaşmaları: burada alınmış və ya icarəyə götürülmüş avadanlığın quraşdırılması və istifadə edilməsi üçün lazım olan texnoloji biliklərin verilməsi nəzərdə tutulur;
- elmi konfranslar, simpoziumlar, sərgilər və texnologiyaların qeyri-kommersiya zəminində beynəlxalq ötürülməsi üzrə digər tədbirlər.

Texnologiyanın beynəlxalq otürülməsi beynəlxalq əmtəə və xidmətlər ticarəti ilə sıx bağlıdır. Bu zaman texnologiyanın yüksəlişi və istehsalın sonrakı yüksəlişi ticarətə müsbət, mənfi və neytral təsir göstərə bilər. Texniki tərəqqi beynəlxalq ticarətə o zaman müsbət təsir göstərir ki, ticarətin artımı daxili istehsalı qabaqlamış olsun, bu da bir qayda olaraq o zaman olur ki, ixrac istehsalı idxalı əvəzləyən məhsulun istehsalından daha sürətlə inkişaf etmiş olsun. Əks təqdirdə texnologiyanın beynəlxalq ticarətə təsiri mənfi olur. Texniki tərəqqinin ticarətə neytral təsiri istehsalın və ticarətin artımı eyni olduqda müşahidə olunur.

İş qüvvəsinin miqrasiyası və kapitalın beynəlxalq hərəkəti kimi, texnologiyanın beynəlxalq ötürülməsi də ciddi dövlət tənzimləməsi obyektidir. Ən yeni texnologiyaya malik olmaq dünya bazarında rəqabət mübarizəsinin əsas alətidir və texnoloji inkişafda üstünlüyə malik olan ölkə yeni texnologiyanın beynəlxalq yerdəyişməsi yolunda müxtəlif maneələr müəyyənləşdirməklə onu öz dövləti hüdudlarında saxlamağa çalışır. Texnologiyanın hərəkəti üzərində sərt nəzarətin olması texnoloji liderliyin əldə saxlanılmasından başqa, həm də milli təhlükəsizliklə və ya beynəlxalq razılaşmaların şərtləri ilə əlaqədar ola bilər. Texnologiyanın ötürülməsinin tənzimlənmə metodları həm birbaşa (sərhəd, ixrac, gömrük nəzarəti, hərbi texnologiyanın və «ikili təyinatlı» texnologiyanın ixracına qadağan), həm də dolayı (patentlərin qeydiyyat sistemi, yüksək texnoloji məhsulu ixrac etməyə hüquq verən lisenziyaların verilməsi) ola bilir.

Beləliklə, istehsal amillərinin beynəlxalq hərəkəti bütövlükdə əmtəə və xidmətlərlə beynəlxalq ticarətin tabe olduğu qanunlara tabe olub, eyni qaydada dövlət tənzimləməsi obyektidir. Lakin bu tənzimləmə beynəlxalq ticarətin tənzimlənməsi ilə müqayisədə daha sərtdir.

Birbaşa xarici investisiyaların iqtisadi effektləri beynəlxalq ticarətin nəticələrindən əsaslı şəkildə fərqlənir və onların təhlili üçün bir qayda olaraq iki ölkənin sadə modelindən istifadə olunur.

Kapitalın beynəlxalq hərəkətində, xüsusilə birbaşa investisiya qoyuluşunda beynəlxalq korporasiyalar əhəmiyyətli rol oynayır. Özü də onların fəaliyyəti həm yerləşmə ölkəsində, həm də qəbul edən ölkədə iqtisadiyyata, siyasətə və sosial vəziyyətə ciddi təsir göstərir.

Beynəlxalq iqtisadi nəzəriyyədə beynəlxalq kreditləməni adətən beynəlxalq ticarətin növü hesab edilir və bu növ vaxtarası ticarət adı almışdır, özü də əmtəənin əmtəəyə mübadiləsi deyil, əmtəənin bu gün gələcəkdəki əmtəəyə mübadiləsi şəklində olur.

İş qüvvəsinin beynəlxalq miqrasiyası əmək qabiliyyətli əhalinin bir dövlətdən digərinə bir ildən artıq müddətə köçməsidir.

İş qüvvəsinin beynəlxalq miqrasiyasının nəticələri dövlət maliyyəsi üçün birmənalı deyil. İmmiqrasiya ölkəsində

onlar zərər çəkir, çünki əmək qabiliyyətli əhali vergi ödəmir. Digər tərəfdən, transfert ödənişlərinin azalması hesabına büdcə xərcləri azalır.

Texnologiyanın hərəkətinin beynəlxalq bölgüsünün əsasını onun beynəlxalq bölgüsü təşkil edir ki, bu da onun müxtəlif ölkələrdə müxtəlif dərəcədə cəmləşməsində öz əksini tapır.

Texnologiyanın beynəlxalq ötürülməsi dövlət tənzimləməsi obyektidir. Ən yeni texnologiyaya malik olmaq dünya bazarında rəqabət mübarizəsində əsas alətdir.

Əsas anlayışlar və məfhumlar

Xarici investisiyalar: portfel, uzunmüddətli, qısamüddətli; vaxtarası ticarət; kapitalın beynəlxalq hərəkəti; beynəlxalq korporasiyalar: çoxmilli, transmilli; beynəlxalq borc alma və kreditləmə; iş qüvvəsinin beynəlxalq miqrasiyası: immiqrasiya, emiqrasiya, reemiqrasiya; texnologiyanın beynəlxalq ötürülməsi; «beyin axını»; birbaşa xarici investisiyalar; birbaşa xarici investisiyaların iqtisadi effekti; borc əməliyyatlarının saldosu.

XXVI FƏSİL. BEYNƏLXALQ VALYUTA MÜNASİBƏTLƏRİ VƏ DÜNYA VALYUTA SİSTEMİ

§1. Valyuta növləri və onların konversiya problemləri.
§2. Valyuta məzənnələri və dünya valyutalarının təsnifatı.
§3. Valyuta bazarında tarazlıq və nominal valyuta məzənnəsini müəyyənləşdirən amillər.
§4. Valyuta bazarları. Valyuta bazarında sövdələşmələrin növləri.
§5. Rusiya valyuta bazarının xüsusiyyətləri.
§6. Tədiyyə balansı: əsas parametrlər, mənbələr və təsnifat meyarları.

Fəsildə dünya iqtisadiyyatında özündə valyuta növlərinin və onların beynəlxalq tədavülünün çoxluğunu ehtiva edən valyuta tədavülünün xüsusiyyətləri ilə bağlı məsələlərin mürəkkəb kompleksi, valyuta məzənnələrinin formalaşmasının özəlliyi, bu məzənnələrə təsir amilləri, iqtisadiyyatın açıqlığı şəraitində tədiyyə balansının formalaşma xüsusiyyətləri nəzərdən keçirilir.

§1. Valyuta növləri və onların konversiya problemləri

Valyuta – hansısa yeni pul növü deyil, onların xüsusi fəaliyyət növüdür ki, bu zaman milli pul vahidləri beynəlxalq ticarət və kredit münasibətlərini əhatələyir.

Milli və xarici valyuta ilə yanaşı ***ehtiyat valyuta*** da mövcuddur ki, bu da başqa dövlətlərin mərkəzi banklarının xarici ticarət əməliyyatları və xarici investisiyalar üzrə beynəlxalq hesablaşmalar üçün öz ehtiyatlarını yığıb saxladıqları valyutadır.

Beynəlxalq hesablaşmalarda milli valyutalardan başqa *SDR (Special Drawing Rights)* kimi beynəlxalq valyuta vahidindən də istifadə olunur. *SDR – Beynəlxalq Valyuta Fondunda (BVF) xüsusi hesabda qeydlər şəklində nağdsız*

pullardır. SDR dəyəri əsas dünya valyutalarını özündə ehtiva edən standart «zənbil» əsasında hesablanır. Bu «zənbil»dəki ayrı-ayrı valyutaların tərkibi və çəkisi hər 5 ildən bir yenidən nəzərdən keçirilir və dünya ticarəti və ödənişlərində, bu ölkələrin hər birinin əmtəə və xidmətlər ixracının dəyəri üzrə, həmçinin BVF-nə üzv-dövlətlərin əvvəlki beşillik dövr ərzində ehtiyat qismində istifadə etdikləri həmin valyutadakı aktivlərin həcminə görə onların nisbi rolunu əks etdirirlər. Beləliklə, «valyuta» (italyanca – valuta, latınca – valeto - qiymət, dəyər) məfhumunun bir neçə mənası var:

1. Ölkənin pul vahidi – onun milli pul sisteminin elementlərindən biri (məsələn, rubl – Rusiyanın valyutasıdır, dollar –ABŞ-ın valyutasıdır, funt-sterlinq – Böyük Britaniyanın valyutasıdır və s.). Növünə görə milli valyuta qızıl, gümüş və kağız ola bilər.

2. Xarici dövlətlərin beynəlxalq hesablaşmalarda istifadə olunan pul vahidləri və onlarda ifadə olunmuş kredit və tədiyyə vasitələri (veksellər, çeklər və s.).

3. Beynəlxalq hesablama sistemləri və tədiyyə vasitələri (SDR, avro).

Daha ciddi yanaşdıqda, valyuta deyildikdə milli pulların beynəlxalq ödəniş-hesablaşma dövriyyəsində xüsusi istifadə üsulu başa düşülür. Başqa sözlə, valyuta (*currency*) – beynəlxalq səviyyədə pul funksiyasını yerinə yetirən istənilən əmtəədir.

Aşağıdakı valyuta növləri fərqləndirilir (cədvəl 26.1).

Dünyanın bütün ölkələrində qanuni ödəniş vasitəsi qismində milli valyuta istifadə olunur. Xarici əmtəələrin və xidmətlərin haqqının ödənilməsi üçün milli əmtəənin xarici əmtəəyə dəyişdirilməsi lazımdır. Bu milli pul vahidinin konvertə edilməsi şəraitində mümkündür.

Konversiya olunan, yəni dönər valyuta digər milli pul vahidlərinə, əmtəə və xidmətlərə sərbəst dəyişdirilə bilən valyutaya deyilir.

Cədvəl 26.1

Valyuta növləri

Milli,daxili valyuta (national or internal currency)	Onu buraxmış ölkənin ərazisində qanuni ödəniş vasitəsi
Xarici və ya dişarı valyuta (foreign or external currency)	Başqa ölkələrin ölkə ərazisində aşkar və ya gizli işlədilən qanuni tədiyyə vasitələri
Bazis valyutası (baze currency)	Həmin ölkədə başqa valyutaların kotirovkası məqsədilə işlədilən valyuta
Ehtiyat valyuta (reserve currency)	Hər hansı bir ölkənin xarici ticarət əməliyyatları üzrə hesablaşmalarda daha çox istifadə olunan və buna görə də ehtiyat beynəlxalq tədiyyə vasitəsi kimi götürülən valyutası
Sərbəst istifadə olunan valyuta (freely usable currency)	Beynəlxalq əməliyyatlarda tədiyyə vasitəsi və dəyər vahidi qismində geniş istifadə olunan valyuta
Konvertə edilməyən, qapalı valyuta (inconvertible currency)	Bir ölkə hüdudlarında istifadə olunan valyuta
Konvertə olunan, dönər valyuta (convertible currency)	İstənilən digər valyutaya dəyişdirilə bilən valyuta
Möhkəm, güclü valyuta (hard currency)	Sabit məzənnəli dayanıqlı valyuta
Yumşaq, zəif valyuta (soft currency)	Öz nominalına və digər valyutaların məzənnəsinə nisbətdə qeyri-sabit valyuta
Qiymət valyutası	Əmtəənin qiymətinin müqavilədə ifadə olunduğu valyuta
Sövdələşmə valyutası	Xarici ticarət razılaşması bağlananda əmtəənin qiymətinin göstərildiyi və ya verilən xarici kreditin məbləğinin müəyyənləşdirildiyi valyuta
Tədiyyə valyutası	Xarici ticarət əməliyyatlarında əmtəənin real ödənişinin həyata keçirildiyi və ya beynəlxalq kreditin ödənildiyi valyuta. O, sövdələşmə valyutası ilə üst-üstə düşmədikdə sövdələşmə valyutasını tədiyyə valyutasına keçirmək üçün çevirmə məzənnəsini tətbiq edirlər

Valyutanın dönərliyi pulun tədavül vasitəsi kimi hərəkət xüsusiyyətlərindən irəli gəlir. Əgər daim və fasiləsiz hərəkət, daim sahiblərini dəyişmək prosesində pul milli sərhədləri dəf etməyə qabildirsə, o, dönər, kon-

vertə edilən olur.

Müasir beynəlxalq iqtisadi həyatı belə valyutalarsız təsəvvür etmək belə mümkün deyil. Məhz valyutaların dönərliliyinə səbəb dünyada olduqca böyük əmtəə dövriyyəsi, ondan da böyük kapital dövriyyəsi baş verir.

Hazırkı dünya valyuta sistemi öz başlanğıcını müharibədən sonrakı ilk illərdən alır. Onda ABŞ və bir neçə başqa ölkə öhdəlik götürdülər ki, öz valyutalarının konvertə edilməsini saxlayacaqlar. Bir müddət sonra sənaye cəhətdən inkişaf etmiş ölkələrin çoxu öz valyutalarının dönərliliyini tətbiq etdi.

Belə addımın zəruriliyi dünya iqtisadiyyatının sürətli inkişafı, təsərrüfat proseslərinin geniş beynəlmiləlləşməsindən irəli gəlirdi. Belə şəraitdə valyutanın qapalılığı ciddi maneə idi və o, aradan qaldırıldı.

Belə məsələləri həll etmək üçün səyləri beynəlxalq miqyasda birləşdirmək lazım idi. Buna Beynəlxalq Valyuta Fondunun (1944), Avropa Valyuta Razılaşması (1958-1973), Avropa Valyuta sisteminin (1978) və b. yaradılması xeyli rəvac verdi. Valyutaların dönərliyi sahəsində böyük təcrübə toplamış BVF xüsusilə fəal işləyirdi. Hazırda BVF-nun 60-dan artıq iştirakçı dövləti bir çox əməliyyatlar üzrə valyuta məhdudluğu ilə üzləşmir.

«Dönərli» və ya «sərbəst konvertə edilən» valyuta məfhumu tarixən qızıl standartı dövründə əskinasların qızıla qeyri-məhdud dəyişdirilməsi şəraitində yaranmışdır. Lakin belə dəyişdirilmə «valyutanın konvertə edilməsi» anlayışından əsaslı fərqlidir. Qızıl pulların maneəsiz dəyişdirilməsi pul vahidinin təsbit olunmuş qızıl tutumunu, qızıl pulların sərbəst kəsilməsini və sərbəst tədavülünü nəzərdə tutan qızıl standart sisteminin mütləq elementlərindən biridir. Valyutanın qızıla dəyişdirilməsi Birinci dünya müharibəsinə qədər mövcud idi, 1929-cu ildən isə heç bir dövlətdə tədavüldə qızıl olmayıb və kağız pullar qızıl pula dəyişdirilməyib. Qızıla mübadilə qabiliyyətini formal olaraq uzun müddət yalnız ABŞ dolları saxlamışdı ki, onun dəyişdirilmə şərtləri get-

gedə sərtləşdirilməklə 1971-ci ilə qədər bəyan edilirdi.

BVF-nin nizamnaməsi konvertə edilən valyutaların iki növünü müəyyənləşdirir: de-fakto və de-yure. Valyuta məhdudiyyətlərini ləğv edib öz üzərinə BVF-nin nizamnaməsi üzrə lazımi öhdəliklər götürmüş ölkənin valyutası ***de-yure konvertə edilən valyuta*** sayılırdı. Verilmiş kreditə görə borcların ödənilməsində BVF yalnız belə valyutadan istifadə edirdi. De-fakto konvertə edilən valyuta anlayışının meydana gəlməsi bununla bağlıdır ki, elə ölkələr var, onlar faktik olaraq keçid dövrünün valyuta məhdudiyyətlərini ləğv edib-lər, lakin onları yenidən tətbiq etmək hüququnu özlərində saxlayıblar.

1985-ci ildə BVF-nin 60 üzv ölkəsi üzərlərinə BVF-nin nizamnaməsində nəzərdə tutulmuş öhdəliklər rəsmi olaraq öz üzərilərinə götürdülər: məhz cari əməliyyatlar üzrə daxili və xarici dönərliyi saxlamaq və yalnız Fondun razılığı ilə valyuta məhdudlaşdırılmaları rejimi tətbiq etmək. Aparıcı ölkələr həmçinin kapitalların hərəkəti ilə bağlı valyuta məhdudiyyətlərini də qismən aradan qaldırırdılar. Valyutaların konvertə edilməsinin möhkəmləndirilməsi işində bu, olduqca böyük irəliləyiş idi.

XX əsrin 70-ci illərinin ortalarına qədər BVF ***konversiya əməliyyatlarını*** (yəni bir valyutanın digərinə köçürülməsi üzrə əməliyyatları) təsbit olunmuş paritetlər (nisbətlər) üzrə həyata keçirirdi. Lakin valyuta məzənnəsinin sərt formalaşma rejimi bazar mexanizminin azadlığı ilə bir araya sığmırdı.

Büün bunlar konvertə edilmə anlayışına yenidən baxılmasını tələb etdi, çünki əvvəlki anlayışlar yeni gerçəkliyə düz gəlmirdi. Bununla əlaqədar olaraq BVF ***azad istifadə olunan valyuta*** konsepsiyasını hazırladı ki, onun da mahiyyəti iki məqamdan ibarətdir: birincisi, valyuta beynəlxalq əməliyyatlar üzrə hesablaşmalarda geniş istifadə olunmalıdır, ikincisi, bazarın əsas valyutalarına sərbəst dönə bilməlidir. 1986-cı ildə BVF Qərbi Almaniya markasını, fransız frankını, yapon iyenini, ingilis funt-sterlinqini və

ABŞ dollarını belə «azad istifadə olunan valyuta» hesab edirdi. Bu beş valyuta beynəlxalq hesablaşmalarda aparıcı rol oynayır və BVF-i tərəfindən kreditlərin ödənilməsində və Fond tərəfindən verilmiş kreditlərin faizlərinin ödənilməsində istifadə olunurlar.

Beləliklə, valyutaların konvertə olunma formaları və əlamətləri həyatın, birinci növbədə beynəlxalq valyuta sisteminin tələbi nəzərə alınmaqla dəyişilmiş, yeni şəraitə asan və tez uyğunlaşmağa imkan verən cizgilər kəsb etmişdir.

Konvertə edilmənin ümumi əlamətlərinin və onların təkamülünün nəzərdən keçirilməsi konvertə edilmənin bəzi formalarını səciyyələndirməyə imkan verir. Burada müəyyən dərəcədə şərtilik olsa da, bu səciyyələndirmə anlayışların fərqləndirilməsi üçün zəruridir.

Fərz etsək ki, qızıl standart şəraitində valyutanın konvertə edilməsi ***mütləqdir***, onda beynəlxalq valyuta sisteminin fəaliyyətinin bütün digər hallarında valyutanın konvertə edilməsini ***nisbi*** kimi səciyyələndirmək olar. Bu halda o, qızıla deyil, bir ölkə valyutasının digər ölkə valyutasına mübadiləsi zamanı təzahür edir. İlkin olaraq belə konvertə edilmə 1971-ci ilə qədər mərkəzi banklar tərəfindən qızıla dəyişdirilən ABŞ dollarına xas olub.

Mövcud konvertə edilmə növlərini iki şərti qrupa bölmək olar: ***tam konvertə edilmə və qismən konvertə edilmə.***

Tam konvertə edilmə - milli valyuta və həmin ölkə valyutası sahibləri üçün onun istənilən əməliyyatlar zamanı və istənilən anda xaricə aparmaq və xaricdən gətirməyə heç bir məhdudiyyətin olmaması deməkdir.

Belə konvertə edilmə forması qanunvericiliyin rezidentlər və xarici fiziki və hüquqi şəxslərin hüquqlarında heç bir fərq müəyyənləşdirmədiyi qızıl standart dövrü üçün səciyyəvi idi. Milli valyutanı qızıl sikkələrə, qızıl külçələrə və xarici valyutaya dəyişə bilmək hüququ heç bir istisnasız bütün vətəndaşlara şamil olunurdu.

Qismən konvertə edilmə dönərliliyin subyektləri, obyektləri və zonalarına şamil olunan müəyyən valyuta məh-

dudiyyətlərinin olduğunu göstərir.

Məsələn, 1958-ci ildə Qərbi Avropa ölkələrində yalnız rezident olmayanlara (dönərlilik subyekti kimi) qismən dönərlilik tətbiq olunmuşdu, yəni vəsait köçürmələri və konversiyalara yalnız xarici fiziki və hüquqi şəxslərin hesabları üzrə icazə verilmişdi. Rezidentlər üçün valyuta məhdudiyyətləri saxlanılır. Belə hallarda dönərliliyi **qeyri-rezident və ya xarici dönərlilik** də adlandırırlar. Belə dönərliliyin tətbiqi bir qayda olaraq milli təsərrüfat mexanizmində böyük struktur dəyişiklikləri ilə əlaqədar olmur və əlavə valyuta ehtiyatları tələb edir.

Rezidetlər, yəni valyuta saxlayan yerlilər üçün qismən konvertə edilmə onlara vəsaitləri azad surətdə ölkədən aparmaq və ölkəyə gətirmək və xaricə köçürmək, məhdudiyyətsiz xarici valyuta almaq hüququnun verilməsi deməkdir. Bu kimi qismən konvertə edilmək idxalın liberallaşdırılması məqsədilə tətbiq edilir və **daxili** adlanır.

Bu konvertə edilmə növlərindən ən tamı daxilidir ki, adətən, çox vaxt xarici dönərliliklə uzlaşır. Daxili konvertə edilmənin tətbiqindən əvvəl milli iqtisadiyyatda əhəmiyyətli struktur dəyişiklikləri aparılır və bu da daxili və xarici bazarların sıx əlaqəsini, daxili qiymətlərin dinamikası və proporsiyalarının dünya qiymətləri və xərclərinə müvafiqliyini nəzərdə tutur.

Qismən konvertə edilmə ayrı-ayrı valyuta və valyuta vəsaitlərinə şamil edilə bilər. Məsələn, əgər konvertə edilmənin obyekti cari əməliyyatlar nəticəsində (yəni xarici ticarət, turizm və sairlə bağlı) əldə olunmuş valyuta vəsaitləridirsə, onda bu, ***kommersiya*** konvertə edilməsidir. Bu zaman, deyək ki, fransız frankının fransız banklarındakı Amerika hesabları üzrə dollara dönərliliyi mümkündür. Hətta eyni bir valyutanın qismən dönərlilik səviyyəsinin müxtəlif olması belə mümkündür.


Həmçinin ***kapitalın hərəkətini əks etdirən əməliyyatlar üzrə qismən konvertə edilmə də*** fərqləndirilir. Kapitalın hərəkətinə məhdudiyyətlərin aradan qaldırılması müasir

şəraitdə valyuta inteqrasiyasının inkişaf istiqamətlərindən biridir. AİB bu sahədə valyuta məhdudiyyətlərini 1992-ci ildə tamamilə ləğv etmişdi.

Həmçinin ***bu və ya digər valyuta zonası hüdudlarında*** həmin zonaya daxil olan ölkələrin valyutalarının dönərliliyinə icazə verildiyi ***qismən konvertə edilməni*** də qeyd etmək lazımdır (şəkil 26.1).

Valyutaların konvertə edilməsinin təmin edilməsinin şərtləri hansılardır?

Valyutanın konvertə edilməsinin tətbiqinə imkan yaradan əsas şərt cari tədiyyə balansının tarazlığıdır. Başqa sözlə, ölkənin tədiyyə balansının kəsiri olmamalıdır, yəni xaricə ödənişlər xaricdən ödənişlərdən çox olmamalıdır. Bundan



Şəkil 26.1. Valyutaların konvertə edilmə formaları

başqa, valyutanın konvertə edilməsi əmtəələrin praktik olaraq maneəsiz hərəkətini və əsasən tələb və təklifin təsiri altında müəyyən qiymətlər səviyyəsini tələb edir. Özü də daxili və dünya qiymətlərinin formalaşmasına bazar mexanizminin təsiri bərabər olmalı və onların dinamikasında eyni

tendensiyaları və qiymətlər səviyyəsində uzunmüddətli ciddi fərqlərin mümkünsüzlüyünü xeyli dərəcədə təmin etməlidir.

Tədiyyə balansının vəziyyətinə təsir edən və bununla da konvertə edilməyə şərait yaradan ən mühüm amillərdən biri -dəyər şərtlərini və həmin ölkənin bütün qalan dünya ilə mübadilə proporsiyalarını əks etdirən real məzənnə nisbətləridir.

Bütün göstərilən əlamətlər yalnız dünya əmtəə, pul və kapital bazarlarında hakim mövqe tutan yüksək inkişaf etmiş ölkələrin milli iqtisadiyyatlarına xasdır. Bu ölkələr olduqca böyük sabit xarici ticarət dövriyyəsinə malikdirlər, dünya bazarına əmtəələrin əsas kütləsini onlar çıxardırlar ki, bu əmtəələrin istehsalına xərclər dünya xərcləri səviyyəsinə yaxın və ya ondan aşağı olur. Bu ölkələrdə milli istehsal şərtləri əmtəələrin dünya bazarında rəqabətqabiliyyətliliyinin ən əsas meyarlarından biri kimi çıxış edir.

Milli pul vahidinin beynəlxalq dövriyyəyə çıxması bir tərəfdən ölkəyə aşağıdakı üstünlükləri verir:

- istehsalçı və istehlakçılara ölkə daxilində və xaricdə hər bir zaman anında ən əlverişli satış və alış bazarlarını azad seçə bilmək imkanı;
- xarici investisiyaları cəlb etmək və xaricdə investisiya qoyuluşlarını həyata keçirmək imkanlarının genişlənməsi;
- xarici rəqabətin müəssisələrin səmərəliliyinə, çevikliyinə və dəyişən şəraitə uyğunlaşa bilməsinə stimullaşdırıcı təsiri;
- milli istehsalın qiymətlərə, xərclərə və keyfiyyətə görə beynəlxalq standartlara yaxınlaşması;
- beynəlxalq hesablaşmaları milli valyutada həyata keçirmək imkanı;
- bütövlükdə xalq təsərrüfatının səviyyəsinə – nisbi üstünlüklərin nəzərə alınması ilə ixtisaslaşma, maddi, maliyyə və əmək resurslarının ən qənaətli işlədilməsi.

Lakin qeyd etmək lazımdır ki, bu üstünlüklərin realizə olunması iqtisadi və siyasi səciyyəli tədbirlər kompleksi ilə təmin edilməlidir.

Digər tərəfdən, milli valyutanın dünya bazarında tədavüldə olması daxili iqtisadiyyatın zərbəyə məruz qalma ehtimalını, xarici mənfi təsir dərəcəsini gücləndirir. Ölkələr öz valyutalarının beynəlmiləlləşməsi prosesinə ehtiyatla və diqqətlə yanaşır, praktikada müxtəlif valyuta nəzarəti tədbirlərindən fəal istifadə edirlər.

Valyutaların inkişaf prosesində onların konvertə edilməsi formaları və şərtlərinin təhlili beynəlxalq iqtisadi həyatda konvertə edilmənin mahiyyəti və əhəmiyyətini, onun bu və ya digər formasından istifadənin qanunauyğunluqlarını dərk etməyə imkan verir ki, bu da ölkə praktikasında istifadə üçün az əhəmiyyət kəsb etmir.

Bizim ölkədə bazar münasibətlərinə keçmək rublun konvertə edilməsi məsələsini gündəmə gətirdə. Təəssüf ki, Rusiya rublu xarici konvertə edilməyən valyuta olaraq qalır ki, bu da bir sıra məsələlərlə izah olunur.

Birinci növbədə bunun günahı dövlətin valyuta inhisarçılığındadır ki, bu da yaxın keçmişdə dövlətin bütün valyuta əməliyyatlarının onun ixtisaslaşmış orqanlarında cəmlənməsi demək idi.

Xarici hesablaşmalar sahəsi XX əsrin 90-cı illərinin əvvəllərinə qədər daxili tədiyyə dövriyəsindən tam təcrid olunmuşdu. Faktik olaraq belə bir qayda qüvvədə idi: «xarici valyuta - xaricilər üçün, rubl – sovet hüquqi və fiziki şəxsləri üçündür», istənilən qarışıqlıq isə dövlətin sərt nəzarətində idi.

SSRİ-nin valyuta sisteminin böyük qüsuru mərkəzləşdirilmiş valyuta resurslarının təfərrüatlı idxal planları və azad valyuta planı əsasında məqsədli təyinat prinsipi üzrə bölgüsü idi.Valyuta resurslarından istifadənin belə təşkili bu sahədə bazar münasibətlərini və deməli, rublun konvertə edilməsini tamamilə istisna edir.

Rublun konvertə edilməsi yolunda ciddi maneə onun hər hansı bir real iqtisadi məzmundan məhrum rəsmi məzənnəsinin süniliyi idi. Müəssisələrin məsrəflərlə xarici iqtisadi fəaliyyətdən gələn mədaxillərin nisbətinə laqeydliyi də

bununla bağlı idi, çünki dövlət büdcəsi dotasiyalar və götürmələr vasitəsilə xarici bazar şərtləri və istehsalçıların rublla gəlirləri arasında bufer rolunu oynayırdı.

Xarici iqtisadi sövdələşmələrin «sıravi» iştirakçıları üçün ölkənin valyuta vəziyyəti haqqındakı informasiya əlyetər olmaması da az rol oynamırdı. Bu, onları yönümlənmə imkanından məhrum edirdi.

Mütləq bağlı valyuta rejiminin göstərilən cizgiləri iqtisadiyyatın XX əsrin 20-ci illərindən SSRİ dağılıncayadək ölkədə hökmran olmuş inzibati-amirlik modelinə tamamilə uyğun idi. Valyuta dönərliyinin tətbiq edilməsi və dəstəklənməsi üçün ən mühüm hesab olunan ilkin ümumi iqtisadi şərtlər SSRİ-də yox idi.

Rusiyada rubl 1992-ci ilin ortalarına qədər konvertə edilən deyildi. Hazırda Rusiya rublu qismən konvertə edilən valyutadır ki, bu da Rusiya vətəndaşlarına və firmalarına xaricdə ödənişlər etməyə və məhdudiyyətsiz xarici valyuta almağa imkan verir. Valyutanın konvertə edilməsi mürəkkəb və uzunmüddətli prosesdir. Valyutanın konvertə edilən olması üçün sərbəst hərəkətlər deyil, iqtisadi şərait lazımdır. Məsələn, Yaponiya valyutasının konvertə edilməsini yalnız 1964-cü ildə tətbiq edə bildi.

§2. Valyuta məzənnələri və dünya valyutalarının təsnifatı

Beynəlxalq iqtisadi əməliyyatlar həmişə olmasa da, çox vaxt bir valyutanın digərinə mübadilə edilməsi ilə bağlı olur. Buna tələbat o cümlədən həm xarici ticarət əməliyyatları, həm də xaricə uzun- və ya qısamüddətli investisiyalarda, bir valyutanın o birisinə satılmasında meydana çıxır. Valyutalar arasında müəyyən mübadilə nisbətinin müəyyənləşdirilməsinin zəruriliyi belə meydana gəlir.

Valyuta məzənnəsi bir ölkənin pul vahidinin digər ölkələrin pul vahidləri ilə ifadə olunmuş qiymətidir.

Beləliklə, valyuta məzənnəsi milli və dünya iqtisadiyya-

tı sahələri arasında qarşılıqlı əlaqəni əks etdirdiyi üçün spesifik səciyyəyə malik pul kateqoriyasıdır. Hər bir valyutanın əsas xarakteristikaları milli təsərrüfat çərçivəsində formalaşdığı halda, dünya bazarında beynəlxalq iqtisadi əməliyyatların həyata keçirilməsinin gedişində onların kəmiyyət qarşılaşdırılması baş verir.

Valyuta məzənnəsi pul kateqoriyası olduğundan əmtəə-pul münasibətlərini onların bütün çoxsəpkililiyində əks etdirirlər. Beynəlxalq tədavül sahəsinin elementlərindən biri kimi çıxış edən valyuta məzənnəsi bütövlükdə beynəlxalq əmtəə-pul münasibətləri sistemi ilə, beynəlxalq mübadilənin gedişində formalaşan dəyər proporsiyaları ilə sıx əlaqədardır.

Beynəlxalq iqtisadi əlaqələrin həyata keçirilməsi zamanı daxili və xarici olmaqla iki növ qiymətlərin müqayisə edilməsi baş verir. Əgər daxili qiymətlər milli səciyyəli müxtəlif amillər (dəyər, faydalılıq, tələb və s.) əsasında yaranırlarsa, xaricilər beynəlmiləl amillər əsasında yaranırlar. Ayrı-ayrı ölkələrin əmtəələri xarici ticarət dövriyyəsinə düşdükdə bir qayda olaraq onların öz milli qiymətləri aşağı düşür və dünya bazarı qiymətlərinə satılırlar. Buna görə də beynəlxalq mübadilə inkişaf etdikcə, əmtəələrin milli qiymətlərini onların beynəlmiləl səviyyələri ilə tutuşdurmaq zərurəti meydana gəlir.

Pulun bilavasitə əmtəə qiymətlərinin ölçüsü kimi çıxış etdiyi milli bazarlardan fərqli olaraq, beynəlxalq mübadilənin gedişində müxtəlif ölkələrdə formalaşan qiymətlər nisbəti milli pul vahidlərinin nisbəti kimi çıxış edir. Beləliklə, valyuta məzənnəsi milli qiymətlərin birbaşa deyil, dolayı formada – milli pul vahidlərinin müqayisəsi vasitəsilə ölçəni qismində çıxış edir. O, müxtəlif ölkələrdə baş verən iqtisadi prosesləri sanki müqayisə edir. Valyuta məzənnəsinin bu rolu beynəlxalq mübadilənin özünün həyata keçirilməsini mümkün edir, çünki beynəlxalq hesablaşmaların aparılmasında meyarların olması xarici iqtisadi əməliyyatların səmərəliliyini ölçməyə imkan verir.

Təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi proseslərinin genişlənməsi və dərinləşməsi, xarici iqtisadi əlaqələrin daha təkmil və dayanıqlı formalarına keçməklə milli qiymətlərin müqayisəsi get-gedə daha geniş miqyaslarda baş verir və valyuta məzənnəsi artıq yalnız müxtəlif ölkələrin xarici ticarət sahələrində yaranan qiymətlər arasında əlaqələndirici həlqə qismində deyil, həm də bütövlükdə ictimai istehsal xərclərinin ölçəni qismində çıxış edir ki, bu da milli təkrar istehsal proseslərinin daha sıx qarşılıqlı əlaqəsinin zəruriliyini əks etdirir. Heç bir şişirtməsiz demək olar ki, valyuta məzənnəsində bu və ya digər şəkildə qiymətlər, əmək məhsuldarlığı, əməkhaqqı, istehsal xərcləri, iqtisadi artım templəri və bir çox başqa iqtisadi kateqoriyalar öz əksini tapır.

Ayrı-ayrı milli iqtisadiyyatların qarşılıqlı asılılığının artması, bennəlxalq tədavülə qızıla dəyişdirilməyən kredit pullarının daxil edilməsi valyuta məzənnəsini müasir şəraitdə ayrı-ayrı ölkələrin iqtisadiyyatının inkişafının xarici təzahürünə çevirir. Valyuta məzənnəsi bu keyfiyyətdə istehsal sahəsinə çox güclü əks-təsir göstərir.

Valyuta məzənnələri beynəlxalq valyuta bazarında müəyyən şərtiliklə uzunmüddətli, ortamüddətli və qısamüddətlilərə bölünə bilən çoxsaylı amillərin təsiri altında formalaşırlar.

Məzənnələrin dinamikasına təsir edən ***uzunmüddətli amillərə*** pul vahidlərinin əsas xarakteristikalarını formalaşdıranları – bu və ya digər ölkədə əmək məhsuldarlığının səviyyəsini, ümumi milli məhsulun uzunmüddətli artım tempini (pulun əmtəə tutumunun əsasını məhz bu təşkil edir), dünya ticarəti və xarici investisiyalarda ölkənin yeri və rolunu - aid edirlər. Bu amillər pul kütləsi və əmtəə və xidmətlərin kütləsi arasında uzunmüddətli mübadilə proporsiyalarını, yəni pulun valyuta məzənnəsinin əsasında duran alıcılıq qabiliyyətini müəyyənləşdirirlər.

Ortamüddətli amillərə ölkənin cari əməliyyatlar üzrə tədiyyə balansının vəziyyətini, uzunmüddətli kapitalların

hərəkət balansı saldosunu, depozitlər üzrə faiz dərəcələrinin səviyyəsini, bu və ya digər ölkədə daxili qiymətlər arasında fərqin artma templərini aid etmək olar. Son vaxtlar belə amillərə dövlət maliyyəsinin vəziyyəti – büdcənin kəsirli olub olmaması, kəsirlidirsə, nə səviyyədə və s. – aid edilməyə başlamışdır. Belə ki, Amerika dollarının başqa valyutalara nisbətdə məzənnəsi son illərdə ABŞ-ın federal hökumətinin büdcə kəsirinin səviyyəsindən açıq-aşkar asılıdır.

Qısamüddətli amillərə valyuta bazarlarının fəaliyyətinə təsir edən psixoloji amillər aiddir. Bu, məsələn, iri bankirlərin, valyuta dilerlərinin, aparıcı şirkətlərin valyuta şöbələrinin müdirlərinin bu və ya digər valyutanın məzənnəsinin dinamikası barədə fikirləri, dezinformasiyadır. Bu amillər qrupuna həmçinin hökumətin və bankların valyuta bazarlarına müdaxiləsi də aiddir.

Dünya təcrübəsi göstərir ki, faiz dərəcələrinin artırılması valyuta məzənnəsinin kəmiyyətinə praktik olaraq ani təsir edə bilir. Məsələn, ABŞ-ın Federal Ehtiyat Sistemi Şurasının sədri A.Qrispen baza faiz dərəcəsinin 0,25%, yəni 3,25%-ə qədər artırıldığını bəyan etdikdən cəmi bir saat sonra (1994-cü ilin fevralı) dolların məzənnəsi 1 funt-sterlinqə 1,7350-dən 1,6765-ə qədər artmışdı.

Valyuta məzənnəsinin kəmiyyətinə tədiyyə balansının vəziyyəti də birbaşa təsir edir. Fəal tədiyyə balansı milli valyuta məzənnəsinin artmasına səbəb olur, çünki müvafiq valyutaya xarici debitorların tələbini artırır.

Passiv tədiyyə balansına gəldikdə isə o milli valyuta məzənnəsinin aşağı düşməsi tendensiyasını şərtləndirir, ona görə ki, yerli borclular öz xarici öhdəliklərini ödəmək üçün onu xarici valyutaya satmağa cəhd edirlər. Tədiyyə balansının valyuta məzənnəsinə təsir dərəcəsi iqtisadiyyatın açıqlığı dərəcəsi ilə müəyyən olunur. Adətən ÜMM-ə ixracın payı nə qədər çoxdursa (iqtisadiyyatın açıqlığının göstəricilərindən biri) tədiyyə balansı vəziyyətinin dəyişmələrinə uyğun olaraq valyuta məzənnəsinin elastikliyi də bir o qədər artır.

Konyunktura amilləri də milli valyutanın məzənnəsinə

xeyli təsir edə bilirlər. Məsələn, 1996-cı ilin iyununda Amerika dollarının məzənnəsinin iyenə nisbətdə 1 dollar müqabilində 110,8 iyendən 111,2 ienə qalxması Amerika iqtisadiyyatının uğurlarına və ABŞ-da baza faiz dərəcələrinin artırılacağı barədə şayiələrə səbəb olmuşdu.

Valyuta məzənnəsinin tənzimlənməsinin bazar elementlərindən başqa dövlət tənzimləməsi də var. Onun məqsədi valyuta bazarındakı kortəbii artıb-azalmaların neqativ nəticələrini aradan qaldırmaq, tədiyyə balansının tarazlılığına nail olmaq, işsizlik və inflyasiyanın səviyyəsini aşağı salmaqdır.

Valyuta məzənnəsi kəmiyyətinə dövlət təsirinin əsas tədbirlərinə aiddir:

• *valyuta müdaxiləsi – milli valyuta məzənnəsinin artırılması;*

• *mərkəzi bankların milli pul vahidinin alqı-satqısı üzrə valyuta bazarlarında aparıcı xarici valyutalara qarşı əməliyyatları.* Valyuta müdaxiləsinin məqsədi müvafiq valyuta məzənnəsinin səviyyəsinin, müxtəlif valyutalar üzrə aktivlər və passivlərin balansının dəyişdirilməsidir. Valyuta müdaxiləsi mexanizmi aşağıdakından ibarətdir: milli valyutanın məzənnəsini qaldırmaq üçün Mərkəzi bank eyni zamanda xarici valyutanı satmalı və milli valyutanı almalıdır. Müvafiq olaraq xarici valyutaya tələb azalır və milli valyutaya tələb artır. Nəticədə milli valyutanın məzənnəsi yüksəlir. Milli valyutanın məzənnəsinin aşağı salınması üçün Mərkəzi bank onu satır və xarici valyutanı alır. Müdaxilə məqsədilə rəsmi valyuta ehtiyatlarından istifadə olunur və deməli, onların səviyyəsinin dəyişməsi bilavasitə valyuta məzənnəsinin formalaşmasına dövlətin təsirinin miqyasının səviyyəsi ilə əlaqədardır;

• *diskont siyasəti – Mərkəzi bank tərəfindən uçot faizinin dəyişdirilməsidir ki, bu da daxili bazarda kreditin dəyərinə təsir etməklə valyuta məzənnəsinə də təsir göstərməyə imkan verir.*

• *himayədarlıq tədbirləri – milli iqtisadiyyatın və dema-*

li, milli valyutanın müdafiəsinə yönümlənmiş tədbirlərdir. Bu məqsədlə müxtəlif növ valyuta məhdudiyyətləri tətbiq olunur: məsələn, rezidentlərin və qeyri-rezidentlərin valyuta və valyuta dəyərləri ilə əməliyyatlarının qadağan edilməsi və ya tənzimlənməsi. Valyuta məhdudiyyətlərinə xarici valyutanın azad alqı-satqısına qadağalar, kapitalın hərəkətinin, mənfəətin repatriasiyasının, qızılın və qiymətli kağızların hərəkətinin tənzimlənməsi və ya məhdudlaşdırılması, xarici valyutanın və digər valyuta sərvətlərinin dövlətin əlində təmərküzləşməsi aiddir.

Beləliklə, valyuta məzənnələri ən müxtəlif çoxsaylı təsirlərə məruz qalırlar. Öz növbəsində, dünya valyuta bazarının həcminin hədsiz dərəcədə böyük olması və bank texnikasının geniş inkişafı nəticəsində konversiya əməliyyatları (bir valyutanın digərinə köçürülməsi) hesabına valyuta məzənnəsi əsas məzənnə yaradan amillərin dinamikasını qabaqlayır və bununla da bəzən xeyli uzun müddətə həmin amillərin formalaşması üçün oriyentir olur.

Valyuta məzənnələrinin formalaşması texnikası uzun və mürəkkəb yol keçmişdir. Hazırda onun əsas xüsusiyyəti, necə deyirlər, valyutaların, sərt nisbətlər olmadığı şəraitdə, bir-birinə nisbətən üzməsidir. Bu, əlbəttə, dövlətin öz valyutasına (bəzən nəinki öz valyutasına) müəyyən iqtisadi (hətta siyasi) nəticələr əldə etmək məqsədilə bu və ya digər tərəfə dəyişmək üçün təsir etməsini istisna etmir.

Müasir şəraitdə valyuta məzənnələrini eyni zamanda milli pul bazarlarının vəziyyətini öyrənmədən tədqiq etmək mümkün deyil, çünki valyuta məzənnələri ayrı-ayrı ölkələrin milli pul vahidlərinin nisbətinin nəticəsidir. Rusiya rublu konvertə edilməyən olduğundan valyuta məzənnələrini ona tətbiqən nəzərdən keçirmək daha çətindir. Buna görə də aşağıda verilən nəzəriyyə Rusiya şəraitinə rublun konvertə edilən pul vahidi kimi formalaşmasının nə dərəcədə getməsindən asılı olaraq tətbiq oluna bilər. Qeyd edək ki, hazırda fəaliyyət göstərən Rusiya valyuta birjası sisteminin dünya valyuta birjasına birbaşa aidiyyatı yoxdur və yalnız dövlətin

və Mərkəzi bankın müəyyən, əsasən qısamüddətli məqsədlərinin həyata keçirilməsi aləti kimi nəzərdən keçirilə bilər.

BVF-nin 1982-ci ildə qəbul etdiyi təsnifata görə bütün dünya valyutaları məzənnələrinin dəyişməsinin azadlıq səviyyəsinə görə üç böyük qrupa bölünürlər (cədvəl 26.2).

Cədvəl 26.2

BVF-nin metodikası üzrə valyuta məzənnələri rejimləri

Valyuta məzənnəsinin rejimi	Təsviri
Təsbit olunmuş məzənnəli valyutalar	Bir valyutaya nisbətdə təsbit olunma Valyuta zənbilinə (kompozitə) nisbətdə təsbit olunma
Məhdud çevik məzənnəli valyutalar	Bir valyutaya nisbətdə məhdud çevik məzənnə Birgə siyasət çərçivəsində məhdud çevik məzənnə
Üzən valyuta məzənnəli valyutalar	Təshih edilən valyuta məzənnəsi İdarəolunan üzmə Müstəqil üzən valyuta məzənnəsi

Bu təsnifat «Başqa ölkələrin valyutasından daxili valyuta qismində istifadə», «Valyuta idarəetməsi», «Ümumi valyuta məzənnəsinin bir xarici valyutaya nisbətdə təsbit olunması», «Məqsədli zonalar», «Valyuta dəhlizi», «Sürünən təsbit etmə», «İdarəolunan üzmə» kimi valyuta məzənnəsinin formalaşması rejimlərini nəzərə almır. Buna görə də əvəzində çoxlu alternativ, məsələn, İngiltərə Bankının Tədqiqat Mərkəzinin (İBTM) istifadə etdiyi təsnifat kimi, təsnifatlar təklif olunur (cədvəl 26.3)[1].

Valyuta məzənnələrinin tənzimlənmə formasından asılı olaraq təsbit olunmuş valyuta məzənnəsi və çevik üzən fərqləndirilir.

Təsbit olunmuş valyuta məzənnəsi – milli valyutaların qanunverici qaydada müəyyənləşdirilmiş valyuta paritetinə əsaslanan rəsmi müəyyən edilmiş nisbətidir. Təsbit olunmuş mübadilə məzənnəsi sistemində Mərkəzi bank (yaxud digər tənzimləyici orqan) daxili və xarici valyuta-

1 Моисеев С.Р. Международные валютно-кредитные отношения: Учебное пособие.- М.: Дело и Сервис, 2003. С.14-17.

ların nisbi qiymətlərini və ya valyutaların paritetini təsbit edir.

Cədvəl 26.3

İBTM-nin metodikası üzrə valyuta məzənnələri rejimləri

Valyuta məzənnəsinin rejimi	Təsviri
Azad üzmə (Free float)	Məzənnə yalnız bazar qüvvələrinin təsiri altında formalaşır
İdarəolunan üzmə (Managed float)	Valyuta məzənnəsinin kəskin dəyişmələrini rəvanlamaq üçün Mərkəzi bank bazara müdaxilələr edir
Sürünən bağlılıq (Crawling peg)	Valyuta məzənnəsinin müəyyən qiymətinə çatmaq məqsədilə Mərkəzi bank bazara müdaxilələr edir
Müəyyənləşdirilmiş hüdudlarda təsbit etmə və ya məqsədli zonalar (Fixed) with margin or target zone)	Valyuta məzənnəsinin müəyyənləşdirilmiş hüdudlarda artıb-azalmaları mümkündür; nəzərdə tutulmuz dəyişmələr diapazonundan yayınma hallarında Mərkəzi bank müdaxilə edir və valyuta bazarındakı meyili dəyişməyə çalışır
Təshih olunan təsbitlik (Fixed but adjustable)	Direktiv və ya bazar metodları ilə valyuta məzənnəsi uzun müddətə təsbit olunur (cüzi artıb-azalma hədlərinin nəzərə alınması mümkündür), makroiqtisadi disbalans yarandıqda və ya valyuta məzənnəsinə güclü təsir olduqda təsbitlik səviyyəsi dəyişdirilir
Məzənnənin Mərkəzi bank tərəfindən təsbit olunması (Fixed, by Central Bank)	«Təshih edilən təsbit» rejiminin daha sərt versiyası
Məzənnənin valyuta idarəetməsi ilə təsbit olunması və ya qızıl standart (Fixed, by Currency board or gold standard)	Pul bazası təsbit olunmuş mübadilə stavkaları üzrə valyuta (və ya qızıl) ehtiyatları ilə tam təmin olunmalıdır
Yeganə valyuta (Unified Currency)	Əvvəl müstəqil olmuş valyutalar yeni yaradılmış və ya artıq mövcud olan valyuta ilə əvəz edilir

Təsbit olunmuş məzənnə rejimində mübadilə məzənnəsi aşağıdakı üsullarla müəyyənləşdirilir:

- bir valyutaya bağlılıq;
- valyuta zənbilinə bağlılıq;

- valyuta komitəsinə bağlılıq.

Bir valyutaya bağlılıq göstərir ki, bu və ya digər ölkələrin valyutası hansısa bir valyutaya bağlıdır. Məsələn, Karib adaları ölkələrinin pul vahidləri, bəzi kiçik Mərkəzi Amerika ölkələrinin və Sakit okean adaları ölkələrinin valyutaları ABŞ dollarına bağlıdır. Fransız dilli zonası ölkələrinin (Benin, Burkina-Faso, Qabon, Qvineya-Bisau, Kamerun, Konqo, Kot-d'İvuar, Mali, Niger, Seneqal, Toqo, Mərkəzi Afrika Respublikası, Çad, Ekvator Qvineyası) valyutaları fransız frankına (1999-cu ildən avroya) bağlıdır. Lesoto krallığı, Namibiya və Svazilend Cənubi Afrika randına bağlıdır. Butan və Nepal hind rupisinə, Bruney isə Sinqapur dollarına bağlıdır.

Valyuta zənbilinə bağlılıq göstərir ki, bu və ya digər ölkənin valyutası bir neçə ölkənin valyutalarının yaratdığı valyuta zənbilinə bağlıdır. O, xarici ticarəti daha diversifikasiya olunmuş kiçik olkələr tərəfindən istifadə olunur, amma bir valyutalı bağlılığa nisbətən daha az şəffafdır. Valyuta zənbilinə bağlılıq bir valyutaya bağlılığa nisbətən daha az istifadə olunur və XX əsrin 90-cı illərindən bu üsul populyarlığını itirmişdir.

Valyuta komitəsinə bağlılıq bağlılıqlı valyuta məzənnəsi rejiminin daha sərt formasıdır. O. pul-kredit siyasətinin tamamilə mübadilə məzənnəsinə tabeliliyini nəzərdə tutur. Valyuta vəsaitlərinin gəlməsi və getməsi ilə əlaqədar olaraq pul bazasının genişlənməsi və daralması şəraitində real mübadilə məzənnəsini təshih etmək imkanı olmur.

Bir sıra iri, orta və kiçik inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatlı ölkələr bağlılıqlı mübadilə məzənnələrinin təsbit olunmuş dəhliz, maili dəhliz, sərt idarəolunan üzmə kimi növlərinə üstünlük verirlər. Məsələn, Çin idarəolunan üzmə tətbiq edir, lakin 1995-ci ildən yuanın məzənnəsi ABŞ dolları ilə sıx bağlıdır. İdarəolunan üzmə mübadilə məzənnəsinin daha çevik rejimidir.

İnkişaf etməkdə olan ölkələrin çoxunda hazırda təsbit olunmuş mübadilə məzənnəsi üstünlük təşkil edir.

Çevik və ya üzən valyuta məzənnəsi - tələb və təklifin təsiri altında sərbəst dəyişən məzənnədir.

Çevik valyuta məzənnəsi tələb və təklifin, valyuta bazarında valyutaların tarazlı qiymətləri kimi, sərbəst artıb-azalmaları nəticəsində müəyyənləşir. Belə valyuta məzənnəsində tarazlıq qiymətinin aşağı düşməsi valyutanın dəyərsizləşməsi deməkdir.

Azad üzən məzənnədə Mərkəzi bank valyuta bazarındakı vəziyyətə müdaxilə etmir.

Əgər Mərkəzi bank mübadilə məzənnəsinin dəyişməsini zəiflətmək məqsədilə valyuta bazarındakı əməliyyatlarda fəal iştirak edirsə, mübadilə məzənnəsi sistemi idarə olunan üzən adlanır.

Mərkəzi bank xarici valyutanın alışı və satışı vasitəsilə valyuta mübadiləsi bazarlarına müdaxilə etmədikdə daxili valyuta **«təmiz» üzmə** vəziyyətində olur. Çevik məzənnəyə malik ölkələr valyuta əməliyyatları vasitəsilə milli valyutanın dəyərinə təsir etməyə cəhd edirlərsə, bu sistem **«çirkli» üzmə** adlanır.

Rusiyanın milli valyutasının valyuta məzənnəsi üzəndir və ABŞ dollarına bağlıdır. 1995-ci ilin iyunundan RF-nın Mərkəzi bankı **«valyuta dəhlizi»** (rublun ABŞ dollarına mübadilə məzənnəsinin yuxarı və aşağı həddini) tətbiq etmişdi, lakin bu təsbit olunmuş valyuta məzənnəsinin tətbiq edilməsi demək deyildi, çünki müəyyənləşdirilmiş hədlər valyuta hərracları iştirakçıları üçün məcburi deyildilər. Yalnız Rusiya Bankı «dəhlizdən» ±6%-dən artıq kənara çıxmamağı öhdəsinə götürmüşdü. Lakin 1998-ci ilin defoltundan sonra «dəhliz» ləğv edildi və rubl yenə də «üzən» oldu.

BVF-nin etirazlarına baxmayaraq, bir çox ölkələr **çoxsaylı** – müxtəlif məzənnələrdən, məsələn, kommersiya əməliyyatları üçün və kapitalın yerdəyişməsi üçün istifadə edirlər.

Bəzi ölkələr müxtəlif növ kommersiya əməliyyatlarında fərqli məzənnələr tətbiq edirlər: əsas ərzaq məhsulları, dərman və kapital əmtəələri üçün - aşağı və sənaye əmtəələri və

zinət əşyaları üçün – yuxarı.

Çevik məzənnələr rejimində tarazlıq qiymətinin aşağı salınması valyutanın dəyərsizləşməsi, yuxarı qaldırılması isə valyutanın bahalaşması adlanır.

Təsbit olunmuş məzənnələr rejimində həmin proseslər devalvasiya və revalvasiya adlanır.

Valyutaların mübadilə məzənnəsinin qiymətləndirilməsi və onun optimaq kəmiyyətinin axtarılması milli və beynəlxalq iqtisadiyyatın vəziyyətinin təhlilinin mühüm alətləridir.

Bu məqsədlə iqtisadi ədəbiyyata **fundamental tarazlı kapital** (fundamental equilibrium exchange rate, FEER) anlayışı daxil edilmişdi. FEER anlayışını Beynəlxalq İqtisadiyyat İnstitutunun (Vaşinqton) professoru Con Villyamson daxil etmişdi.

FEER – ölkənin daxili və xarici makroiqtisadi tarazlığı uğurla saxlaya bildiyi valyuta məzənnəsidir.

Daxili tarazlıq göstərir ki, iqtisadiyyat tam məşğulluq və aşağı inflyasiya səviyyəsində maksimum artım nümayiş etdirir.

Xarici tarazlıq cari əməliyyatlar hesabının elə balansıdır ki, bu zaman o, o qədər mənfi deyil ki, ölkə xarici borcu verə bilməmək təhlükəsi qarşısında qalsın və o qədər də müsbət deyil ki, xarici dövlətləri həmin vəziyyətə salsın. Xarici tarazlığa çatmaq bir sıra amillərdən asılıdır ki, bura valyuta məzənnəsi rejimi, yığımın norması, demoqrafik amillər və s. daxildir.

FEER-yanaşma 1987-ci il Luvr razılaşmasının məqsəd zonaları layihəsinin (target zones) əsası olmuşdu. Zonaların mərkəzi qismində ortauzunluq müddəti dövründə daxili və xarici tarazlığın tələblərinə cavab verən FEER çıxış edirdi.

Valyuta məzənnəsinin formalaşmasının müasir modellərindən biri valyuta məzənnəsinin iki konsepsiyasının – alıcılıq qabiliyyəti pariteti və faiz dərəcələri pariteti – birləşdirilməsinə əsaslanır. Bu modelə görə, iki valyutanın mübadilə məzənnəsinin dəyişməsi onların alıcılıq qabiliyyətinin ar-

tıb-azalma templərində əki fərqi ifadə edirlər.

Alıcılıq qabiliyyəti pariteti (AQP) – valyutaların mübadilə məzənnəsinin elə səviyyəsidir ki, onun vasitəsilə onların hər birinin alıcılıq qabiliyyətinin tarazlaşdırılması həyata keçirilir.

AQP konsepsiyasının mahiyyəti bundan ibarətdir ki, uzunmüddətli dövrdə azad ticarətdə eyni bir nemətin (nemətlər zənbilinin) qiyməti, transaksiya xərclərini çıxmaq şərtilə, bütün ölkələrdə eyni olacaq. AQP konsepsiyasına görə, beynəlxalq rəqabət beynəlxalq ticarətdə iştirak edən əmtəə və xidmətlərin daxili və xarici qiymətlərinin tarazlaşmasına aparır. AQP-nin əsas ideyası vahid qiymət qanunudur, yəni ümumi bazarda istənilən əmtəənin bir qiyməti var. Bu qanuna görə, xarici qiymətləri daxiliyə və əksinə çevirmək imkanının olması üçün iki qiymət bərabər olmalıdır.

«Optimal» valyuta məzənnəsinin bəzi konsepsiyaları, onların zəif və güclü cəhətləri cədvəl 24.6-da verilmişdir[1].

Cədvəl 26.4

Valyuta məzənnəsi konsepsiyaları

Məziyyətlər	Qüsurlar
1. Tədiyyə balansının cari hesabını balanslaşdıran valyuta məzənnəsi tarazlıdır	
Tədiyyə balansının cari hesabının tarazlığı çox vaxt iqtisadi siyasətin səmərəli oriyentiri kimi nəzərdən keçirilir	Əsas qüsur tarazlığın qiymətləndirilməsinin dəqiqliyidir: tədiyyə balansının cari hesabının valyuta məzənnəsinin dəyişməsinə reaksiyası qeyri– müəyyən şəkildə və naməlum boşluq vasitəsilə baş verir. Özü də cari hesabın sıfır balansı çox nadir hallarda təsadüf olunur. Bəzi ölkələr yığımın təbii artıqlığı və ya çatışmazlığı ilə səciyyələnirlər ki, bu da kapitalın ölkədən getməsinə və ya ölkəyə gəlməsinə səbəb olur. Kapitalın hərəkəti isə zamanda dəyişən struktur amilləri və başqa amillərdən asılıdır
2. Valyuta məzənnəsinin fundamental tarazlığı kapitalın «təbii» hərəkəti nəzərə alınmaqla tədiyyə balansının cari hesabını tarazlığı vasitəsilə müəyyənləşdirilir	

1 Моисеев С.Р. Международные валютно-кредитные отношения: Учебное пособие.- М.: Дело и Сервис, 2003. С.14-17.

Birinci konsepsiya optimal valyuta məzənnəsinin yalnız beynəlxalq ticarətin təsiri altında deyil, həm də struktur amilləri tərəfindən yaradılmış kapital netto-axınlarının nəzərə alınması ilə yaranması faktının etiraf edilməsi hesabına dəqiqləşdirilir	Əsas çatışmazlıq bundan əvvəlki konsepsiyada olduğu kimidir – qiymətin qeyri-dəqiqliyi. Kapitalın «təbii» hərəkətini praktikada nəinki ölçmək, hətta müəyyənləşdirmək belə mümkün deyil.
3. «Alıcılıq qabiliyyətinin mütləq paritetliyi»: iki ölkə arasında mübadilə məzənnəsi bu iki ölkədə qiymətlər səviyyəsinin nisbətindən asılıdır	
Valyuta məzənnəsinin möhkəmləndirilməsi üsulu dəqiq göstərilir – inflyasiyanın aşağı salınması və milli valyutanın ölkə daxilində alıcılıq qabiliyyətinin möhkəmləndirilməsi	Müxtəlif ölkələrdə satılan tamamilə eyni əmtəələrdən ibarət zənbilləri müqayisə etmək çətindir; dövlət məhdudiyyətləri və nəqliyyat xərcləri rəqabəti qeyri-təkmil edirlər; dünya bazarında tədavüldə olmayan çoxlu əmtəə var
4. «Alıcılıq qabiliyyətinin nisbi pariteti»: iki ölkə arasında mübadilə məzənnəsinin dəyişməsi həmin ölkələrdə qiymətlər səviyyəsinin dəyişməsinə proporsionaldır	
Uzunmüddətli perspektivdə valyu- ta məzənnəsinin davranışını real proqnozlaşdırmaq mümkündür	«Alıcılıq qabiliyyətinin mütləq paritetliyi» ilə bağlı olan haldakı çatışmazlıqlar
5.Optimal valyuta məzənnəsi rəqib ölkələrin ixrac qiymətlərini bərabərləşdirir	
Tətbiqi səviyyədə tarazlı valyuta məzənnəsini müəyyənləşdirmək mümkün olur	Beynəlxalq rəqabət, şübhəsiz, eynicinsli məhsul ixracatçılarının qiymətlərinə təsir edir, lakin unutmaq olmaz ki, ixracat gəliri səviyyəsinin dəyişməsi beynəlxalq bazarın daha geniş kontekstdə disbalansının yaranması deməkdir
6. Valyuta məzənnəsi daxili və xarici (beynəlxalq) real əməkhaqqı stavkasını bərabərləşdirir	
7. Tarazlı valyuta məzənnəsi daxili və xarici xərcləri tarazlaşdırır. İdeal-da hesablamaları elə dəqiqləşdirmək olar ki, iş tsiklinə digər iqtisadi göstəricilərin təsirini də nəzərə almaq mümkün olsun	
Bundan əvvəlki konsepsiyanın genişləndirilmiş variantıdır. Bu konsepsiya tarazlığı beynəlxalq rəqabət baxımından müəyyənləşdirməyə imkan verir	Alıcılıq qabiliyyəti pariteti ilə bağlı halda yaranan problemlər kimi problemlər yaranır. Bundan başqa, təcrübədə bütün iqtisadi amillərin hamısını nəzərdən keçirmək mümkün deyil
8. Milli valyuta məzənnəsindəki permanent dəyişmələr real mübadilə məzənnəsini tədricən qiymətləndirməyə imkan verirlər	
Valyuta məzənnəsinə belə yanaşma pul-kredit siyasətinin sərtləşdirilməsi dövründə inflyasiyanı tədricən azaltdıqda istifadə olunur. Konsepsiya inkişaf etməkdə olan ölkələrdə bəzi hallarda tətbiq oluna bilər	İqtisadiyyat müəyyən vəziyyətə çatdıqdan sonra (kritik nöqtə) pul-kredit siyasətinin sərtləşdirilməsi iqtisadiyyatın real sektoruna zərər vurur və ixrac sənayesinin rəqabət qabiliyyətliliyini aşağı salır

Real mübadilə məzənnəsi və onu müəyyənləşdirən amillər

Valyuta məzənnəsinə tətbiqən ən mühüm anlayışlar onun nominal və real qiymətidir.

Nominal valyuta məzənnəsi (nominal exchange rate) aşağıdakı kimi ifadə oluna bilər:

$$E_n = \frac{C_f}{C_d}$$

Burada E_n – nominal valyuta məzənnəsi;

C_f – xarici valyuta;

C_d – milli valyutadır.

Yerli və idxal əmtəələrinin qiymətləri nisbətinin dəyişməsini qiymətləndirmək üçün **real valyuta mübadilə məzənnəsi (real ekchange rate)** göstəricisindən istifadə olunur. O, mili əmtəələrin dünya ticarətində rəqabətqabiliyətliyini göstərir. Real mübadilə məzənnəsi – iki ölkədə istehsal olunmuş əmtəələrin nisbi qiymətidir. Başqa sözlə, real mübadilə məzənnəsi bir ölkənin əmtəələrini digər ölkənin əmtəələrinə hansı nisbətdə dəyişə biləcəyimizi göstərir, buna hərdən ticarət şərtləri də deyirlər.

Real valyuta məzənnəsi – hər iki ölkədə qiymətlər səviyyəsinin dəyişməsi nəzərə alınmaqla hesablanmış valyuta məzənnəsidir. O, həmin iki ölkədəki nominal mübadilə məzənnəsi və qiymətlər səviyyəsindən çıxış edərək hesablanır:

$$E_r = E_n \cdot \frac{P_d}{P_f}$$

Burada E_r – real valyuta məzənnəsi;

P_d – öz ölkəsində istehsal olunmuş əmtəələrin qiymət səviyyəsi, qiymətlərin daxili indeksi;

P_f – xaricdə istehsal olunmuş əmtəələrin qiymət səviyyəsi, xaricdə qiymətlərin indeksi.

Əgər real mübadilə məzənnəsi yüksək olarsa, xarici əmtəələr nisbətən ucuz, ölkədə istehsal olunmuş əmtəələr isə nisbətən bahadır. Əgər real mübadilə məzənnəsi aşağı olarsa,


xarici əmtəələr nisbətən baha, ölkədə istehsal olunmuş əmtəələr isə nisbətən ucuzdur.

Əgər real mübadilə məzənnəsi aşağı və yerli əmtəələrin qiyməti nisbətən ucuz olarsa, onda həmin ölkənin (məsələn, ABŞ-ın) əhalisi daha az xarici əmtəə alacaq: amerikalılar daha çox ehtimalla Toyota deyil, Ford avtomobili alacaq, Heineken deyil, Coors pivəsi içəcək, məzuniyyətini isə Avropada deyil, Kaliforniyada keçirəcək. Elə bu səbəbdən də xaricilər daha çox Amerika əmtəələri alacaqlar. Beləliklə, ABŞ-ın xalis ixracının kəmiyyəti xeyli böyük olacaq (NX=Ex-Im).

Real mübadilə məzənnəsi böyük olduqda, əks vəziyyət müşahidə olunur: yerli əmtəələr xarici əmtəələrə nisbətən daha baha olur. Ölkə əhalisi daha çox xarici əmtəə alacaq, xaricilər isə daha az ABŞ məhsulları alacaqlar. Bu halda ABŞ-ın xalis ixracının kəmiyyəti kiçik olacaq.

Lakin real valyuta məzənnəsinin hesablanmasında yalnız qiymətlərdən deyil, həm də müvafiq ölkələrdə iş qüvvəsinin dəyərindən də çıxış etmək olar.

İstənilən bazar qiyməti kimi, valyuta məzənnəsi tələb və təklifin təsiri altında formalaşır. Onların müvafiqliyi şəraitində bazar valyuta məzənnəsinin tarazlı səviyyəsi ya-



Şəkil 26.2. Valyutanın bazar məzənnəsinin tarazlı səviyyəsi

ranır (şəkil 26.2).

Bu halda (bax: şəkil 26.2) xarici valyutaya tələb (D) ölkənin əmtəə və xidmətlər idxalına tələbatı, xaricə gedən turistlərin xərcləri, rezidentlərin xaricdə investisiya layihələri həyata keçirmək istəkləri ilə bağlı xarici maliyyə aktivləri və xarici valyutaya tələblə müəyyənləşir.

Xarici valyutanın məzənnəsi nə qədər yüksək olsa, ona tələb bir o qədər az olur; məzənnə aşağı düşdükcə tələb artır və yuxarıda verilmiş qrafikdəki əyri bunu əks etdirir.

Xarici valyuta təklifinin həcmi (S) xarici dövlətin rezidentərinin bu dövlətin valyutasına tələbi, xarici turistlərin həmin dövlətdə xidmətlərə tələbi, qeyri-rezidentlərin həmin dövlətdə investisiya layihələri həyata keçirmək niyyətləri ilə bağlı xarici investorların müvafiq ölkənin aktivlərinə və milli valyutasına tələbləri ilə müəyyənləşir.

Beləliklə, xarici valyutanın məzənnəsi yerli valyutaya nisbətən nə qədər yüksək olarsa, valyuta bazarının bir o qədər az subyekti onu xarici valyutaya dəyişməyə hazırdır və əksinə, milli valyutanın məzənnəsi xariciyə nisbətən nə qədər aşağı olsa, milli bazarın bir o qədər çox subyekti xarici valyuta almağa hazır olacaq. Xarici valyutanın təklifi əyrisinin mailliyi də məhz bununla izah olunur.

Artıq qeyd olunduğu kimi, valyuta məzənnəsi kəmiyyətinə bir sıra amillər təsir edirlər. Bunlardan uzunmüddətli dövrdə təsir göstərən struktur və valyuta məzənnəsinin qısamüddətli artıb-azalmalarına səbəb olan konyunktur amilləri göstərmək olar.

Struktur amillərinə əmtəənin dünya bazarında rəqabətqabiliyyətliyini; ölkənin tədiyyə balansının vəziyyətini; inflyasiyanın tempini və pul vahidinin alıcılıq qabiliyyətini; müxtəlif ölkələrdə faiz dərəcələrindəki fərqləri; dövlətin valyuta məzənnəsini tənzimləməsinin xarakterini; iqtisadiyyatın açıqlıq dərəcəsini aid edirlər.

Konyunktur amillərə gəldikdə isə onlar olkədə iş fəallığının dəyişmə meyilləri, siyasi vəziyyətlə əlaqədardırlar. Konyunktur amillər sırasında ölkədə siyasi vəziyyətin xa-

rakterinə, bilərəkdən səhv informasiyanın verilməsinə, şayiə və proqnozlara xüsusi yer ayırırlar.

Sadalanan amillərdən bəzilərinin valyuta məzənnəsinə təsirini nəzərdən keçirək. Belə ki, faiz dərəcələrinin dəyişməsi ikili təsir edir: bir tərəfdən, onların nominal artması ölkə daxilində elə bir vəziyyət yaradır ki, bu zaman kredit sahibkarlar üçün get-gedə daha baha olur. Müvafiq olaraq hazırlanması üçün yüksək faizlə kredit götürülmüş məhsulun maya dəyəri də artır. Bu halda əmtəələrin daxili bazarda qiymətlərinin qalxması qaçılmazdır. Nəticədə milli valyutanın qiymətdən düşməsi səbəbindən xarici valyuta ilə nisbətdə onun məzənnəsi aşağı düşür.

Lakin bunun başqa tərəfi də var: əgər real faiz dərəcələri artırsa, onda həmin ölkədə iş fəallığını artırmaq xarici investorlar üçün sərfəli olur, bu da dünya iqtisadiyyatı üçün səciyyəvi olan real vəziyyətə aydınlıq gətirir: daha yüksək faiz dərəcəli ölkəyə intensiv şəkildə xarici kapital daxil olmağa başlayır ki, bu da müvafiq olaraq, həmin ölkənin valyutasına tələbi artırır və onun məzənnəsinin yüksəlməsinə səbəb olur.

Real valyuta məzənnəsi, xalis ixrac və tədiyyə balansının cari hesabının qarşılıqlı əlaqəsi


Real mübadilə məzənnəsi və xalis ixrac arasında nisbəti belə göstərmək olar:

$$NX = f(E_r).$$

Bu bərabərlikdən göründüyü kimi, xalis ixrac real mübadilə məzənnəsinin funksiyasıdır (şəkil 26.3)[1].

Şəkil 26.3-də real mübadilə məzənnəsi ilə xalis ixrac arasındakı asılılıq göstərilmişdir: real mübadilə məzənnəsi nə qədər aşağı olarsa, idxal əmtəələri ilə müqayisədə yerli istehsal əmtəələri bir o qədər ucuz və xalis ixrac kəmiyyəti bir o qədər böyük olar. Üfüqi oxun bir hissəsi üzərində xalis ixracın (NX) mənfi qiymətləri verilmişdir, çünki idxal ixrac-

1 Грегори Мэнкью Н. Макроэкономика.- М.: МГУ, 1994.



Şəkil 26.3. Xalis ixrac və real mübadilə məzənnəsi

dan çox ola bilər və bu halda ixrac mənfi kəmiyyətdir.


Real mübadilə məzənnəsinin yuxarıda nəzərdən keçirilmiş formalaşma modelində xalis ixracla (NX) real mübadilə məzənnəsi (E_r) arasındakı nisbət tədiyyə balansının cari qiymət modeli (cari əməliyyatların hesabları) ilə birləşir (cari əməliyyatların hesabı – bizim xalis ixracımız müqabilində, bizim istehsal amillərimizin istifadə edilməsindən əldə olunan xalis satış pulu da daxil olmaqla, əldə olunan məbləğdir). Görürük ki, real mübadilə məzənnəsi iki amillə müəyyənləşir:

1. Real mübadilə məzənnəsi tədiyyə balansının cari hesabı ilə əlaqədardır. Real mübadilə məzənnəsi nə qədər yüksək olarsa, xarici istehsal olan əmtəələrlə müqayisədə ölkənin özündə istehsal olunmuş əmtəələr bir o qədər baha, ixraca xalis tələb bir o qədər aşağı və tədiyyə balansının cari hesabının müsbət saldosu kəmiyyəti bir o qədər aşağı olar.

2. Cari əməliyyatlar hesabı kapitalın hərəkəti hesabını tarazlaşdırmalıdır (kapitalın hərəkəti hesabı – daxili investisiyaların daxili yığımdan çox olmasıdır, xarici borclar hesabına maliyyələşdirilən daxili yığım kapitalının həcminə bərabərdir) ki, bu da göstərir ki, cari hesabın saldosu yığım ilə investisiyalar arasındakı fərqə bərabərdir. Yığımlar istehlak və büdcə-vergi siyasəti funksiyası ilə; investisiyalar –

investisiyalar və dünya faiz dərəcəsi ilə verilir.

Hər iki şərt şəkil 26.4[1]-də öz əksini tapmışdır.



Şəkil 26.4. Real mübadilə məzənnəsini müəyyənləşdirən amillər

Tədiyyə balansının cari hesabının saldosu və real mübadilə məzənnəsi arasındakı asılılığı göstərən parabola əks maililiyə malikdir, çünki daha yuxarı real mübadilə məzənnəsi xalis ixrac göstəricisinin azalmasına səbəb olur. Yığımın investisiyalardan çox olmasını əks etdirən xətt şaqulidir, çünki nə yığım, nə investisiyalar real mübadilə məzənnəsindən asılı deyil. Bu iki qrafikin kəsişmə nöqtəsi mübadilə məzənnəsinin tarazlı qiymətini (E^*_r) müəyyənləşdirir.

Beləliklə, real mübadilə məzənnəsi yığıms və investisiyalar arasındakı fərqi göstərən şaquli xətlə xalis ixrac əyrisinin kəsişmə nöqtəsinə müvafiq gələn səviyyədə müəyyənləşir. Bu nöqtədə kapitalın hərəkət hesabı ilə əməliyyatlar nəticəsində əldə olunmuş dolların miqdarı cari hesabın saldosunu ödəmək üçün tələb olunan dolların miqdarına bərabərdir (S-I=NX).

Bu qrafiki xarici valyutaya tələb və təklif qrafiki kimi nəzərdən keçirmək olar. **S-I** şaquli xətti bizim yığımımızın investisiyalarımızdan çox olmasını və müvafiq olaraq xaricdə investisiya qoyuluşu üçün xarici valyutaya dəyişdirilməli


1 Грегори Мэнкью Н. Макроэкономика.- М.: МГУ, 1994.

olan dollar təklifini göstərir. Aşağı yönəldilmiş NX xətti bizim əmtəələri almaq istəyən xaricilərin bizim valyutaya göstərdikləri xalis tələbi əks etdirir. Tarazlı real mübadilə məzənnəsinə müvafiq nöqtədə xaricə kredit qismində milli valyuta təklifi bizim xalis ixracı alan xaricilərin ona göstərdikləri tələbi tarazlaşdırır. Başqa sözlə, tarazlı real mübadiləyə müvafiq nöqtədə kapitala əməliyyatlar üzrə milli valyuta təklifi ona həmin əməliyyatlar üçün göstərilən tələbi tarazlaşdırır.

Milli və xarici büdcə-vergi siyasətinin real mübadilə məzənnəsinə təsiri

Əgər hökumət stimullaşdırıcı büdcə-vergi siyasəti aparırsa, yəni milli yığımın (S) səviyyəsini dövlət tədarükləri (G) və ya vergilərin azaldılması (T) hesabına aşağı salırsa, yığımın bu azalması (S-I) kəmiyyətini və müvafiq olaraq (NX) aşağı salır. Beləliklə, yığımın həcminin azalması cari əməliyyatlar hesabının kəsirinin yaranmasına səbəb olur.


Şəkil 26.5-də real mübadilə məzənnəsinin, NX-in azalmasına rəvac verməklə, necə dəqiqləşdirildiyi göstərilmişdir.



Şəkil 26.5. Ölkə daxilində stimullaşdırıcı büdcə-vergi siyasətinin real mübadilə məzənnəsinə təsiri

İqtisadi siyasətin dəyişməsi S-I şaquli xəttinin sola yerdəyişməsinə səbəb olur və xarici investisiyalar üçün milli valyuta təklifini azaldır. Daha aşağı təklif real mübadilə məzənnəsinin qalxmasına səbəb olur, yəni mili valyuta daha qiymətli olur. Ölkədə istehsal olunmuş əmtəələr milli valyutanın dəyərliliyinin artması hesabına xarici əmtəələrlə müqayisədə daha bahalı olurlar ki, bu da ixracın azalması və idxalın artmasına səbəb olur.

Əgər xarici ölkələrin hökumətləri stimullaşdırıcı büdcə-vergi siyasəti aparırlarsa, yəni dövlət tədarüklərinin həcmini artırır və ya vergiləri azaldırlarsa, bu, dünya yığımlarının səviyyəsinin azalmasına səbəb olur və beləliklə də dünya faiz dərəcəsini artırır. Dünya faiz dərəcəsinin artması (r) I daxili investisiyaların səviyyəsini aşağı salır, nəticədə S-I və müvafiq olaraq NX artır. Beləliklə, dünya faiz dərəcəsinin artması cari əməliyyatların hesablarının müsbət saldosunun yaranmasına səbəb olur. Şəkil 26.6-da bu vəziyyətdə şaquli S-I xəttinin necə yerini dəyişdiyi və bununla da milli



Şəkil 26.6. Xaricdə stimullaşdırıcı büdcə-vergi siyasətinin real mübadilə məzənnəsinə təsiri:


$I(r_1)$ —birinci t_1 dövründə investisiyaların faiz dərəcəsinin funksiyası;
r_1- t_1 dövründə faiz dərəcəsi;
$I(r_2)$– t_2 dövründə investisiyaların faiz dərəcəsinin funksiyası;
r_2– t_2 dövründə faiz dərəcəsi.

valyutanın xaricdə investisiya qoyulması üçün təklifinin artdığını göstərir. Real mübadilə məzənnəsinin tarazlı qiyməti aşağı düşür. Beləliklə, milli valyuta daha az qiymətli olur və yerli istehsal əmtəələri xaricilərlə müqayisədə ucuzlaşır.

Büdcə-vergi tədbirləri vasitəsilə iqtisadiyyatın stimullaşdırılması tədbirləri dünya yığımlarının səviyyəsinin aşağı düşməsinə səbəb olur, dünya faiz dərəcəsini artırır və kiçik açıq iqtisadiyyatda investisiyaların səviyyəsini azaldırlar. İnvestisiyaların azaldılması milli valyuta təklifinin artmasına səbəb olur və real mübadilə məzənnəsinin tarazlı qiymətini azaldır.

İnvestisiya tələbinin real mübadilə məzənnəsinə təsiri

Əgər investisiya tələbi (I) kiçik (milli) açıq iqtisadiyyatda, məsələn, investisiya vergi kreditinin artırılması səbəbindən artırsa, onda həmin dünya faiz dərəcəsində investisiya tələbinin artması investisiya həcminin artmasına səbəb olur. I-nin qiymətinin böyük olması S - I və NX kəmiyyətlərinin az olması deməkdir. Beləliklə, investisiya tələbinin artması cari əməliyyatlar hesabının kəsirinə səbəb olur.




Şəkil 26.7. İnvestisiya tələbi əyrisinin yerdəyişməsinin real mübadilə məzənnəsinə təsiri

Şəkil 26.7-də göstərilir ki, investisiya tələbinin artması şaquli S-I xəttinin yerini sola dəyişir və xaricdə investisiya qoyuluşu üçün milli valyutanın təklifini azaldır. Real mübadilə məzənnəsinin tarazlı qiyməti artır. Belə ki, investisiya vergi krediti milli iqtisadiyyata investisiyaları daha cəlbedici edir, həm də milli valyutanın məzənnəsini qaldırır və yerli istehsal əmtəələri idxal əmtəələri ilə müqayisədə daha baha olurlar.

İnvestisiya tələbinin artması daxili investisiyaların həcminin artmasına səbəb olur. Müvafiq olaraq bu S – I-nin əhəmiyyətini azaldır ki, bu da milli valyutanın təklifini azaldır və real mübadilə məzənnəsinin tarazlı qiymətini artırır.

Xarici ticarət siyasətinin real mübadilə məzənnəsinə təsiri

Sözün geniş mənasında xarici ticarət siyasəti – idxal və ya ixrac edilən əmtəə və xidmətlərin miqdarına birbaşa təsir etmək məqsədilə aparılan siyasətdir. O əsasən öz sənayesinin xaricdən rəqabətdən ya idxala vergilərin tətbiq edilməsi (tariflərin), ya da əmtəə və xidmətlər idxalına kəmiyyəti məh-



Şəkil 26.8. Himayədarlıq siyasətinin real mübadilə məzənnəsinə təsiri


dudiyyətlərin müəyyənləşdirilməsi (kvotalar) yolu ilə müdafiə olunmasına yönəldilmiş olur.

Himayədarlıq ticarət siyasətinin aparıldığı halda real mübadilə məzənnəsinin istənilən mövcud qiymətində idxalın həcmi azalmalı, NX xalis ixrac kəmiyyəti isə artmalıdır. Nəticədə xalis ixrac əyrisi şəkil 26.8-də göstərildiyi kimi yerini yuxarı dəyişir. Yeni tarazlıq nöqtəsində real mübadilə məzənnəsi daha yuxarı olur, xalis ixrac kəmiyyəti isə dəyişilməz qalır.

§3. Valyuta bazarında tarazlıq və nominal valyuta məzənnəsini müəyyənləşdirən amillər

Tarazlıq qiyməti və ya valyutanın bazar qiyməti elə mübadilə məzənnəsidir ki, bu zaman valyuta bazarında valyuta təklifi ona tələbə bərabərdir. Valyutaların – dolların və rublun - tələb (D) və təklif (S) əyriləri şəkil 26.9-da verilmişdir.

E nöqtəsi valyuta bazarında tarazlıq nöqtəsidir; E_n^* – nominal mübadilə məzənnəsidir (xarici valyutanın birbaşa kotirovkası, məsələn, 1 ABŞ dolları 24,40 rubla); M^* –



Şəkil 26.9. Rublun dollara mübadilə məzənnəsinin müəyyənləşdirilməsi:
E_n^*-valyutanın valyuta bazarındakı tələb və təklifi arasındakı tarazlığa müvafiq nominal valyuta məzənnəsi;
M*- valyutanın tarazlı miqdarı

valyutanın tarazlı miqdarıdır.

Tələb və təklif əyriləri klassik formadadır, lakin tələb və təklifi formalaşdıran amillər bir qədər fərqlidir. Xarici valyuta təklifi Rusiya əmtəə və xidmətlərinin idxalçıları, xarici investorlar, Rusiya ixracçıları tərəfindən formalaşdırılır. Valyutaya tələb Rusiya idxalçıları və investorları, Rusiya əmtəə və xidmətlərinin ixracçıları tərəfindən formalaşdırılır. Nəticədə rubla görə dollara tələb mübadilə məzənnəsinin azalan funksiyası, rubla görə dollar təklifi isə artan funksiya olur.Tələb təklifdən nə qədər çox olarsa, valyuta bir o qədər bahalı olar.

Başqa bazarlardan fərqli olaraq bu bazarda valyuta-əmtəəni qiymətləndirən ümumi ölçü vahidi yoxdur. Deməli, bu bazarı müxtəlif valyutaların nisbətini qoşa-qoşa təhlil etmək lazım gələn barter bazarı kimi nəzərdən keçirmək olar.

Nominal mübadilə məzənnəsini müəyyənləşdirən amillərə gəldikdə isə, o, aşağıdakı kimi müəyyənləşdirilir: əgər real mübadilə məzənnəsi belə ifadə olunursa:

$$E_r = E_n \cdot \frac{P_d}{P_f}$$

Burada E_r – real valyuta məzənnəsi;

P_d – öz ölkəsində istehsal olunmuş əmtəələrin qiymət səviyyəsi, daxildə qiymətlər indeksi;

P_f – xaricdə istehsal olunmuş əmtəələrin qiymət səviyyəsi, xaricdə qiymətlər indeksi,

Onda nominal valyuta məzənnəsini belə ifadə etmək mümkündür:

$$E_n = E_r \cdot \frac{P_f}{P_d}$$

Bu bərabərlik nominal mübadilə məzənnəsini nəyin əmələ gətirdiyini göstərir: o, real mübadilə məzənnəsindən və iki ölkədəki qiymətlər səviyyəsindən asılıdır. Məsələn, əgər Rusiyada qiymətlər qalxarsa (P_d), onda nominal mübadilə məzənnəsi (E_n) aşağı düşər, çünki hazırda rublun qiyməti daha aşağıdır və

ona daha az xarici valyuta (məsələn, ABŞ dolları) almaq olar. Digər tərəfdən, əgər ABŞ-da qiymətlər (P_f) artırsa, nominal mübadilə məzənnəsi qalxar, çünki dolların qiyməti aşağı düşdüyündən rubla daha çox miqdarda dollar almaq mümkündür.

Nominal mübadilə məzənnəsinin zaman müddətində dəyişməsi aşağıdakı kimi göstərilə bilər:

Nominal mübadilə məzənnəsinin dəyişməsinin faizlə ifadəsi	=	Real mübadilə məzənnəsinin dəyişməsinin faizlə ifadəsi	+	İnflyasiya templərinin fərqi

§4. Valyuta bazarları. Valyuta bazarında sövdələşmələrin növləri

Valyutaya tələb və təklif və müvafiq olaraq onun alışı və satışı valyuta bazarında baş verir.

Valyuta bazarı (Foreign Exchange Market? FOREX) – valyuta bazarı iştirakçılarının bazar məzənnəsi və ya bazar faiz dərəcələri üzrə valyuta bazarında xarici valyutalarla apardıqları konversiya və kredit-depozit əməliyyatlarının məcmusudur.

O, həmin əməliyyatların cəmləşdiyi rəsmi mərkəzlər şəklindədir. Təşkilati baxımdan valyuta bazarları valyutanın alqı-satqısını həyata keçirən banklar və kompaniyaların məcmusudur. Onların arasında mərkəzi yeri özlərinin dünyanın müxtəlif ölkələrindəki şöbələrindən istifadə edərək bütün gün ərzində əməliyyatlar aparan çoxmillətli iri banklar tutur.

Valyuta bazarlarının əməliyyatlarının əsasında xarici ticarət, xidmətlər, turizm, özəl pul köçürmələri və s. üzrə beynəlxalq hesablaşmalar durur. Lakin son zamanlar, ələlxüsus valyutaların bir-birinə nisbətən «üzməsi» ilə əlaqədar olaraq valyuta bazarlarındakı əməliyyatlarda valyuta əməliyyatları ilə bağlı məzənnə fərqlərindən mənfəət götürməyə hesablanmış möhtəkirlik sövdələşmələri olduqca böyük yer

tutur.

Valyuta əməliyyatları – valyuta bazarı iştirakçılarının alqı-satqıya görə, hesablaşmalar və müəyyən şərtlər əsasında xarici valyutanın borc verilməsi üzrə kontraktlarıdır.

Cari konversiya və kredit-depozit əməliyyatları bütövlükdə valyuta əməliyyatlarının əsas hissəsini təşkil edirlər. Konversiya əməliyyatları müəyyən zaman anlarında həyata keçirilir, amma kredit-depozit əməliyyatlarının təcililiyi var.

Valyuta bazarlarında hesablaşmalar nağd (nağd valyuta, yol çekləri və multivalyuta plastik kartları) və nağdsız yolla həyata keçirilirlər.

Valyuta əməliyyatları çox vaxt nağdsız formada həyata keçirilir, bazarın yalnız az bir qismi əskinaslarla ticarətin və nağd pulların mübadiləsinin payına düşür.

Rusiyada valyuta bazarı leqal şəkildə RF Prezidentinin 15 noyabr 1991-ci il tarixli «Xarici iqtisadi fəaliyyətin liberalizasiyası» fərmanından sonra 1992-ci ilin əvvəlindən fəaliyyət göstərməyə başlamışdır və fərmana müvafiq olaraq bütün vətəndaşlara xarici valyutada bank hesabı açmağa icazə verilirdi.

Ərazi meyarına görə ənənəvi olaraq bir neçə iri valyuta bazarı fərqləndirilir ki, onların da öz maliyyə mərkəzləri var:

- Avropa valyuta bazarı – London, Sürix, Mayn üzərində Frankfurt, Paris, Milan;
- Şimali Amerika valyuta bazarı – Nyu-York;
- Uzaq Şərq valyuta bazarı – Tokio, Sinqapur, Honkonq.

Valyuta bazarının əsas iştirakçılarına aşağıdakı institutlar aiddirlər (cədvəl 26.5).

Hər yerdə üzən valyuta məzənnələrinə keçid valyuta bazarlarının əhəmiyyətini və onların əməliyyatlarının həcmini kəskin şəkildə artırdı. Bu, bir tərəfdən, təsərrüfat həyatının

beynəlmiləlləşmə prosesinin güclənməsi, digər tərəfdən isə pul və valyuta tədavülünün xarakterinin dəyişməsi ilə əlaqədardır.

Cədvəl 26.5

Valyuta bazarının iştirakçıları

Valyuta bazarının əsas iştirakçıları	Funksiyaları
Kommersiya bankları	Banklar əməliyyatların əsas həcmini həyata keçirir, digər bazar iştirakçılarının hesablarını aparırlar və bir çox hallarda onların vasitəsilə öz əməliyyatlarını həyata keçirirlər. Valyuta bazarı, əslində, banklararası əməliyyatlar bazarıdır
Xarici ticarətdə iştirak edən şirkətlər	Beynəlxalq ticarətin iştirakçıları xarici valyutaya sabit tələb göstərir (idxalçılar) və onu təklif edirlər (ixracçılar), sərbəst valyuta qalıqlarını yerləşdirir və qısamüddətli depozitlərə cəlb edirlər
Kommersiya banklarını çıxmaq şərtilə maliyyə qurumları (investisiya fondları və şirkətlər, beynəlxalq korporasiyalar, pul bazarı fondları və s.)	Bu investorlar öz aktivlər portfellərini beynəlxalq miqyasda diversifikasiya etməyə çalışırlar. Bu qrup iştirakçılara filiallar şəbəkəsi, qız şirkətlər və s. yaratmaq üçün birbaşa xarici investisiyaları həyata keçirən TMK aiddir.
Mərkəzi banklar	Valyuta intervensiyaları aparılır, öz qızıl valyuta ehtiyatlarını idarə edir və milli valyuta üzrə aktivlər üzrə faiz dərəcələrini tənzimləyirlər
Valyuta birjaları	Keçid iqtisadiyyatlı dövlətlərdə və inkişaf edən ölkələrdə ixtisaslaşmış valyuta birjaları var ki, onlarda dünyanın qalan ölkələrinin valyutalarına nisbətdə milli valyutanın valyuta məzənnəsinin formalaşması baş verir
Valyuta broker kontorları	Valyuta satanları və alanları bir araya gətirməklə valyuta bazarında tələb və təklifin balanslaşdırılması ilə məşğul olurlar. Broker kontorları real sövdələşmələr üzrə informasiyaya malikdirlər, bu da onlardan ixtisaslaşdırılmış informasiya agentləri və kommersiya banklarına ötürülür.
Xüsusi fərdlər	Valyuta bazarının işində iştirak edən fiziki şəxslər turizm, qonorarların köçürülməsi, pensiyalarla və s. bağlı kiçik həcmdə valyuta əməliyyatları aparırlar

Valyuta məzənnələrinin ən geniş yayılmış kotirovkaları banklar arasında ticarət nəticəsində yaranırlar. Valyuta ba-

zarı telefon zənglərindən və banklar arasında radiosiqnallardan formalaşır. Çikaqodakı Beynəlxalq pul bazarı kimi bir neçə ixtisaslaşmış bazarlar istisna olmaqla, valyuta bazarı satıcı və alıcıların bir yerə yığılıb özlərinin valyuta almaq və ya satmaq istədikləri barədə qışqırdıqları yer deyil. Valyuta bazarında təcrübəli maklerlər müxtəlif banklarda oturub bir-biri ilə kompüter və telefonla əlaqə yaradırlar. Kompyuterin terminalı bütün əsas valyutaların cari kotirovka məzənnələrinin və sövdələşmələrin aparılma tarixini göstərir. Hər bank öz valyuta kotirovkasını göndərir. Sərfəli məzənnə tapdıqda alıcı bank telefonla digər bankla əlaqə yaradır və ən yaxşı təklif qiyməti əldə etmək üçün sövdələşmə bağlayır. Bir qayda olaraq, formal cəhətlər bir dəqiqəyə tənzimlənir və sövdələşmə şifahi razılaşma əsasında bağlanır. Zərurət yarandıqda sonra sövdəlşməni təsdiqləyən sənədlər göndərilir.

Banklararası bazarda valyuta ticarətində iri agentlər iştirak edirlər. Çap olunan məzənnə kotirovkaları 1 mln dollardan az olmayan məbləğə sövdələşmələri nəzərə alırlar. Hər dəqiqə milyon dollarlara sövdələşmələr bağlanır, buna görə də məzənnə mənfəətləri və itkilərinin həcmi çox böyük ola bilir. Məsələn, bir dəqiqə ərzində məzənnəsi 1,1739 dollar olmaqla 10 mln funt-sterlinq alan diler, məzənnəsi 1,740 dollar olan təklifi qəbul etməməklə bir dəqiqəyə öz bankına əlavə 1000 dollar mənfəət gətirdi ki, bu da saatda 60 min dollar edir. Müvafiq olaraq daha böyük sürətlə olduqca böyük məbləğlər itirmək olar, əgər reaksiya ləngdirsə və ya əksinə, hadisələri qabaqlayırsa.

Müasir valyuta bazarı bütün dünyanı əhatələyir və bütün sutkanı, bazar ertəsindən cüməyədək fəaliyyət göstərir. Ticarətin həcmi nəhəngdir, baxmayaraq ki, bu sahədə çalışanların sayı bütün dünyada bir neçə min nəfərdən artıq deyil.

Bu bazardakı sövdələşmələrin xarakteri satıcı və alıcıların niyyətlərindən asılıdır. Belə ki, bazar, onların fikrincə, daha üstünlükverimli olan valyutayla sövdələşmə bağlamaq istəyənlərə ***klirinq xidməti*** təqdim edir. Söhbət birinci növ-

bədə hər il aparılan və məbləği milyardlarla olan beynəlxalq əmtəə ticarəti ilə əlaqədar valyuta hesablaşmalarından gedir. Əgər ABŞ xarici alıcıya 1 mln dollara təyyarə satıbsa, ola bilsin ki, digər tərəf bu 1 mln dolları əldə etmək üçün xarici valyutanı satmağa çalışsın. Bu yalnız Amerika firması ödənişi yalnız dollarla qəbul etdiyi təqdirdə baş verəcək. Əgər Amerika tərəf ödənişi xarici valyutada, məsələn, funt-sterlinqlə qəbul etməyə razıdırsa, onun çeki funt-sterlinqlə aldıqdan sonra dollara satmağa cəhd edəcəyi istisna olunmur. Beləliklə, hər iki halda ixrac xarici valyutanın təklifini və dollara tələbi doğurdu. Nəzərdən keçirilən misalda əgər ABŞ ixracçıları funt-sterlinqi özlərində saxlamağa üstünlük verərlərsə və ya Böyük Britaniyanın idxalçılarının ehtiyatda kifayət qədər böyük dollar ehtiyatları varsa və onların valyuta bazarına müraciət etmələrinə ehtiyac yoxdursa, Amerika ixracı göstərilən hadisələrə səbəb olmaz.

Xarici ticarətlə bağlı sövdələşmələr valyuta bazarının çox hissəsini təşkil etsələr də, xarici valyutaya tələb gələcəkdə əmtəə və xidmətlər almaq üçün ehtiyata malik olmaq məqsədilə həmin valyutada aktivlər almaq istəyindən də irəli gələ bilər.

Növbəti sövdələşmə növü – valyutanın sığortalanması (hedging) və ya hecirlənməsidir ki, xarici valyutada nə xalis aktivlərə, nə də xalis passivlərə yol verməməyə ünvanlanmış fəaliyyətdir. Maliyyə məfhumu kimi, sığortalama xarici valyutada iki növ «açıq» mövqelərdən: «uzun» mövqe, yəni xarici valyutada kifayət qədər uzunmüddətli aktivlərə malik olmaq və «qısalara», yəni qısamüddətli dövrdə lazım olduğundan artıq xarici valyutaya malik olmaq - qaçmaq üçün hərəkətlərdir.

Sığortalama - beynəlxalq valyuta əməliyyatları onlar üçün ikinci dərəcəli əhəmiyyət daşıyanlar və beynəlxalq valyuta bazarlarındakı sürətli dəyişmələr nəticəsində baş verə biləcək gözlənilməzliklərdən qaçmaq istəyənlər üçün bu, normal hərəkətdir. Məsələn, üç ay sonra 100 min f.st. ödəməli olan amerikalı naməlum məzənnə üzrə bu valyutanı al-

maq üçün həmin müddəti gözləməyə bilər.O, sonra borcunu ödəmək məqsədilə funt-sterlinqi indi ala bilər. Bununla da valyuta məzənnələrinin dəyişmələrini doğuran valyuta bazarı eyni zamanda gələcək dəyişmələrdən sığortalanmaq imkanı verir.

Sığortalamanın digər tərəfi *möhtəkirlik* olub, öz üzərinə milli valyutada gələcək dəyəri məlum olmayan valyuta öhdəliklərinin götürülməsini bildirir.Belə öhdəliklərin çoxu düşünülmüş tərzdə, xarici valyutanın qiymətinin gələcəkdə qalxmasının gözlənilməsi nəzərə alınmaqla edilir. Hazırda valyuta birjalarında möhtəkirlik anlayışı çox geniş nəzərdən keçirilir və xarici valyutada, motivlərindən və gələcəkdəki gözləmələrindən asılı olmayaraq, möhtəkir sayılır. Valyuta bazarı həm möhtəkirlərə, həm də öz aktivlərini sığortalayanlara valyuta alveri etməyə imkan verir, çünki bu iki qrup iştirakçını ayırmağa imkan verən meyarlar yoxdur.

Nəzərdən keçirilən bütün sövdə növləri (klirinq, sığortalama, möhtəkirlik) ***spot-bazara***, yəni valyutanın dərhal (iki iş günü ərzində) çatdırılması bazarına aiddir.

Bu bazarın əsas iştirakçıları müxtəlif partnyorlarla: bilavasitə müştərilərlə – dövlət müəssisələri və özəl müəssisələrlə və ya banklararası bazarda – digər kommersiya bankları ilə, ölkənin mərkəzi bankları ilə sövdələşmələr aparan kommersiya banklarıdır. Sövdələşmələr birbaşa brokerlər vasitəsilə aparıla bilər.

Spot-bazar həm özəl, həm də möhtəkirlik tələblərinə, müxtəlif banklar və firmaların əməliyyatlarına xidmət göstərə bilir. Bu bazarın qanunları xüsusi beynəlxalq razılaşmalarda qeyd olunmasalar da, iştirakçıların hamısı onlara riayət edirlər:

- ödənişin çatdırılan valyuta məbləğinə faiz dərəcəsi əlavə etmədən iki bank iş günü ərzində həyata keçirilməsi;
- sövdələşmələr əsasən kompüter ticarəti əsasında, növbəti iş günü ərzində elektron təsdiqləmə göndərilməklə (avizo), bağlanılır;
- mütləq məzənnələrin olması: əgər iri bankın dileri

başqa bankın kotirovkaları ilə maraqlanırsa, ona bəyan edilmiş kotirovkalar valyuta alqı-satqısı üzrə sövdələləşmələrin yerinə yetirilməsində mütləqdir.

Beynəlxalq maliyyə nəşrləri, məsələn, The Wall Street journal və Financial Times kimi, hər gün cari «spot» məzənnələrini (spot rate) və forvard məzənnələrini (forward rate) 30, 90 və 180 gün qabağa çap edirlər. Belə informasiyanı Reuters agentliyi də təqdim edir.

Bazar iştirakçıları həm də müəyyən tarixə valyuta mübadiləsi üzrə kontraktlar da bağlaya bilərlər (təcili kontraktlar).

Valyutaların sonradan mübadiləsi üçün sövdələşmənin bağlanıldığı an üçün razılaşdırılmış məzənnələri təcili və ya forvard (forward) valyuta məzənnələri adlanırlar. Əgər martda funt-sterlinqlərin satışı barədə 90 gündən sonra sövdələşmənin bağlanılması şərti ilə müqavilə bağlanıbsa, onda valyuta əvvəlcədən müəyyənləşdirilmiş gündə artıq razılaşdırılmış məzənnə üzrə, məsələn, 1,1623 dollara mübadilə olunur. Satıcının iyuna qədər funt-sterlinqinin olması vacib deyil, lakin onun valyutanı iyunda satacağı qiymət martda artıq təsbit olunmuşdur.

Forvard məzənnəsi və spot məzənnəsi öz aralarında sıx bağlıdırlar. Nəzəri cəhətdən valyutanın forvard qiyməti (FR) spot qiymətinə (SR) bərabər ola bilər. Lakin praktikada belə üst-üstə düşmə çox nadir hallarda olur. Əgər forvard məzənnəsi spot məzənnədən böyükdürsə (FR>SR), bunu valyutanın «mükafatlı» kotirovkası adlandırırlar, əgər forvard məzənnəsi spot məzənnədən aşağıdırsa (FR<SR) valyuta kotirovkası «diskontlu» adlanır.

Valyuta üzrə forvardlı diskontların və ya mükafatların həcmi aşağıdakı kimi müəyyənləşdirilir:

$$FD(Pm; Dis) = (FR - SR) / SR \cdot 100\% \; 360 / t.$$

Burada FD (Pm; Dis) - forvardlı differensial (mükafat və ya diskont);

FR – forvard məzənnəsi;

SR – spot məzənnə;

t - forvard kontraktının qüvvədə olduğu müddətdir (günlə).

Valyuta bazarında həyata keçirilən svop tipli əməliyyatlar spot və forvard əməliyyatlarının kombinasiyasıdır.

Svop sövdələşmə – özündə iki alqı-satqı valyutasının dərhal çatdırılması şərti və eyni zamanda müəyyən müddətdən sonra həmin valyutalarla əks-sövdələşməni özündə birləşdirən valyuta əməliyyatıdır.

Svop əməliyyatı üzrə nağd sövdələşməsi spot məzənnəsi üzrə həyata keçirilir, amma o, əks-sövdələşmədə mükafat və ya diskont nəzərə alınmaqla korrektə olunur. Bu növ sövdələşmədə müştəri satıcı və alıcı arasında nağd sövdələşmə məzənnələri arasındakı fərqə qənaət edir. «Svop» sövdələşmələri adətən bir gündən altı aya qədər müddətə həyata keçirilir, lakin bəzən (nadir hallarda) icra müddəti beş olmaqla svop-sövdələşmələr bağlanılır. Bu əməliyyatlar bilavasitə müxtəlif ölkələrin bankları arasında, həmçinin kommersiya bankları ilə ölkənin Mərkəzi bankı arasında bağlana bilər. Əgər svop əməliyyatları Mərkəzi banklar arasında bağlanırsa, bu halda onlar milli valyutada qarşılıqlı kreditləmə razılaşmalarıdırlar. 1969-cu ildən başlayaraq svop sövdələşmələri əsasında Bazel şəh. Beynəlxalq Hesablaşmalar Bankı vasitəsilə çoxtərəfli valyuta mübadiləsi sistemi fəaliyyət göstərir. Svop əməliyyatları müxtəlif məqsədlərlə istifadə olunur. Məsələn, ya xarici valyutanın təsbit olunmuş mübadilə məzənnəsi üzrə məhdud müddətə alınması üsulu, ya da valyuta axınlarındakı dəyişmələrə cəld reaksiya kimi.

Xeyli tez-tez svop sövdələşmələri valyuta sövdələşmələrində hesablaşma müddətini bir günə qədər azaltmaq məqsədilə istifadə olunurlar. Bu halda qısamüddətli «svop» istifadə olunur. Bu zaman əsas şərt valyutanın svop-bazardan ikinci iş günü hesablaşmaq şərti ilə alınması və eyni zamanda valyutanın «sabah» çatdırılması və satılan kimi spot tarixinə çatdırılması şərtilə svop-sövdələşmə bağlanılır. Belə sövdələşmə «sabah və sonrakı gün» (torn-next) adlanır. Nəticədə hesablaşma tarixi bir gün qabağa çəkilir, faiz dərə-

cələrindəki fərq isə svop-bəndlərlə aradan qaldırılmalıdır.

Svop sövdələşməsi bağlamaq qərarı qəbul etmək üçün bu sövdələşmədən alınması ehtimal olunan gəliri başqa sövdələşmələrin, məsələn, başqa valyutanın borc götürülməsi və müvafiq depozitə yerləşdirilməsi, həyata keçirilməsindən alınan gəlirlərlə müqayisə edirlər.Valyuta bazarında kross-məzənnələrdən də, yəni iki valyutanın məzənnəsinin üçüncü bir valyutaya, adətən ABŞ dollarına nisbətdə alınan göstəricilərinin qarşılaşdırılmasından geniş istifadə olunur. Məsələn İsveçrə frankının kross-məzənnəsini ingilis funt- sterlinqinə nisbətdə ingilis funt-sterlinqinin ABŞ dollarına nisbətdə məzənnəsindən və İsveçrə frankının ABŞ dollarına nisbətdə məzənnəsindən çıxış edərək hesablamaq olar.

Müxtəlif kotirovka metodları valyuta dilerləri üçün praktik olaraq rahat şərait yaradırlar, çünki əlavə hesablamalara ehtiyac qalmır. İki milli bazarda birbaşa metod üzrə kotirovka bir-birinin əksi olmalıdır, bu şərtlə ki, valyutanın məzənnə dəyərinin təkrar hesablanması sıfra bərabər olsun, yəni:

Valyutanın birbaşa kotirovkası = 1/Valyutanın əks kotirovkası.

Bəzi valyutaların miqyası kiçik olduğundan onların kotirovkasında bir vahid deyil, məsələn, 100 vahid (yapon iyeni) götürülür.

Spot-bazarda valyutaların satış məzənnəsi (ask rate - AR) və alış məzənnəsi (bid rate - BR) kotirovka olunur. Məsələn, əgər avronun dollara görə kotirovkası 1 avroya görə 1,4120-1,4125 ABŞ dolları təşkil edirsə, onda sol tərəfdəki stavka (1,4120) alış məzənnəsi (BR), sağ tərəfdəki isə satış məzənnəsidir (AR). Bu o deməkdir ki, belə qiymət müəyyənləşdirən bazar iştirakçısı avronu 1,4120 ABŞ dollarına alacaq və 1,4125 dollara isə satacaqdır.

Valyutanın alış və satış qiymətləri arasındakı fərqi bildirən spredin mühüm əhəmiyyəti var:

$$C_{pred} = AR - BR.$$

Valyutaların alış və satış məzənnələrinin mütləq fərqindən başqa spredin nisbi kəmiyyətini də (marjlar) hesablayırlar:

$$BAS^{\wedge} = [(AR - BR) / AR] \times 100\%.$$

Burada AR – valyutanın alış məzənnəsi;
BR – valyutanın satış məzənnəsi;
BAS^ - satış-alış spredidir.

Spred və ya marja bankın əməliyyat xərclərini ödəməli və ona normal mənfəət və valyuta əməliyyatlarının aparılmasını təmin etməlidir.

«Kotirovka bazası» (baza valyutası) və «kotirovka valyutası» (kotirovka edilən valyuta) anlayışlarını fərqləndirirlər.

Baza valyutası başqa valyutaların ona nisbətən kotirovka olunduğu valyutadır.

Valyuta riski valyuta məzənnəsində uğursuz dəyişikliklərlə bağlı milli valyutada nəzərdə tutulan mənfəətin itirilməsi və ya əldə olunmaması ilə bağlı riskdir.

Məsələ bundadır ki, spot-əməliyyatlar «cəld» əməliyyatlar olsalar da, bununla belə onlar valyuta riskinə məruz qalırlar. Bu, hər şeydən öncə dünyanın əksər ölkələrində mövcud olan klirinq hesablaşma sisteminin texniki xüsusiyyətləri ilə əlaqədardır. Buna görə də beynəlxalq kapital bazarlarından alınan borcların həcmi artdığından sənaye şirkətləri həcmi hey artmaqda olan bank sığortalamasına (hecirləmə) müraciət etməklə valyuta aktivləri və passivlərinin vəziyyətinə daha çox diqqət yetirməyə başlamışlar.

Valyuta bazarında əməliyyatların müxtəlif növlərinin inkişafında transmilli şirkətlərin fəaliyyətində valyuta ilə alverə meyilin artmasında yalnız cari əməliyyatlarla bağlı riskləri ödəmək və şirkətin valyuta xəzinəsini nəzarətdə saxlamaq istəyi deyil, həm də əlavə mənfəət götürmək istəyi xüsusi rol oynayır.

§5. Rusiya valyuta bazarının xüsusiyyətləri

SSRİ dağılmazdan bir qədər əvvəl daxili valyuta bazarının təşkili ilə bağlı bəzi tədbirlər görülmüşdü. 1990-cı ildən başlayaraq valyuta hərracları təşkil olunmağa başladı (SSRİ Xarici İqtisadi Bankında), 1991-ci ilin yazında isə banklararası valyuta əməliyyatlarının aparılması mərkəzi – SSRİ Dövlət Bankının Valyuta Birjası yaradıldı. Burada mütəmadi olaraq valyuta hərracı aparılırdı, lakin satış həcmi o qədər cüzi (söhbət cəmi bir neçə milyon ABŞ dollarından gedir) və valyuta ticarəti şərtləri o qədər tənzimlənmiş idi ki, bu orqanı olduqca böyük şərtiliklə valyuta bazarı institutlarına aid etmək olar.

SSRİ dağıldıqdan (və müvafiq olaraq SSRİ Dövlət Bankı ləğv olunduqdan) sonra regionlar üzrə yeni valyuta birjaları yaranmağa başladı, məsələn, 1992-ci ilin yanvarında Moskva Banklararası Valyuta Birjası yarandı. Bu gün başlanğıcını 1992-ci ilin ortalarında dolların vahid üzən məzənnəsinin tətbiqindən alan valyuta bazarının inkişafında müəyyən mərhələnin başa çatmasından danışmaq olar.

Bu dövr valyuta bazarının kifayət qədər dinamik inkişafı – əməliyyatların həcminin böyüməsi, kotirovka olunan valyutaların sayının artması, regional valyuta birjalarının yaranması, birjadankənar banklararası valyuta bazarının formalaşması və s. ilə səciyyələnirdi. Tədricən valyuta bazarı daha mürəkkəb struktur kəsb edirdi və Rusiyanın yaranmaqda olan maliyyə bazarının ayrılmaz bir hissəsinə dönürdü.

Eyni zamanda həmin dövr olduqca mürəkkəb idi. XX əsrin 90-cı illərində dörd valyuta məzənnəsi qüvvədə idi (rəsmi, xüsusi, kommersiya, birja). Rəsmi məzənnə statistik idi. Onun köməkliyi ilə dövlət rublla digər valyutalar arasında münasibəti təsbit edir və SSRİ hökuməti üçün statistik hesabat hazırlayırdı. Xüsusi məzənnə xaricilərə xidmət edir və istehlak zənbili əsasında fəaliyyət göstərirdi. Kommersiya məzənnəsi SSRİ-nin xaricilərlə ticarət əməliyyatları üçün təyinatlanmışdı.

1992-ci ilin iyulunda rublun dollara vahid valyuta məzənnəsi müəyyənləşdirildi və o, bu gün də valyuta hərraclarının əsas müəssisəsi olan MVB-nın (Moskva Valyuta Bankı) yaradılması ilə tətbiq olundu. Moskvadan başqa hərraclar başqa şəhərlərdə də: Sankt-Peterburqda, Vladivostokda, Rostovda, Novosibirskdə də aparılır, lakin onların hamısı Moskva ilə əlaqədardır.

Qüvvədə olan qanunvericiliyə görə ilk dəfədir ki, valyuta dəyərlərinə xarici valyuta, qiymətli kağızlar, xarici valyutada qiymətli kağızlar (çeklər, veksellər, səhmlər, istiqrazlar, dollar öhdəlikləri), qiymətli metallar (gümüş, qızıl, platin) və digər zərgərlik məmulatları aiddirlər. Dövlət bütün valyuta dəyərlərinə inhisarçı statusuna malikdir: onların ölkəyə gətirilməsi və ölkədən aparılması yalnız xüsusi icazə ilə mümkündür. Rezidentlərin, yəni valyuta əməliyyatlarını aparmaq hüququna malik subyektlərin hüquqları müəyyənləşdirilib. Onlar ölkə vətəndaşlığına malik olmalı (bu, fiziki şəxslər, müəssisə və firmalardır), onların yerləşmə yeri xaricdə də ola bilər, pasportlarına görə onlar ölkənin vətəndaşı, diplomatik nümayəndələri olmalıdırlar. Rezidentlərin müəyyən statusu var, onlar qanuna ciddi riayət etməlidirlər. Qeyri-rezidentlər isə əksinə, vətəndaşı olduqları başqa ölkənin qanunları üzrə fəaliyyət göstərirlər. Hüquqi şəxslər: həmin ölkənin mülkiyyəti olmayan müəssisələr. Bu xarici vətəndaşlar və onların vəsaitləri bizim ölkədə xüsusi icazə ilə mövcuddurlar. Bir sözlə, rezidentlərin də, qeyri-rezidentlərin də valyutadan istifadədə öz hüquqları var və onları pozmaq olmaz.

Valyuta ilə əməliyyatlar cari və əsaslılara bölünürlər. Cari əməliyyatlar ixracın və idxalın 3 gündən 180 günə qədər ödənilməsi ilə bağlıdır. Bu müddətdə bütün əməliyyatlar cari hesab olunurlar: dividendlərin ölkədən ölkəyə köçürülməsi, cari hesabların ödənilməsi və s.

180 gündən sonra valyuta əməliyyatları əsaslı (kapital) olurlar, onlardan istifadənin başqa qaydaları qüvvəyə minir:

gəlir əldə etmək üçün müəssisənin nizamnamə fonduna birbaşa kapital qoyuluşları, mülkiyyətçi hüququ, xarici mülkiyyət hüququ. İkinci növ valyuta əməliyyatları – portfel investisiyaları onları tamamlayır. Nəhayət, əsaslı əməliyyatların üçüncü növünü daşınmaz əmlakın haqqının ödənilməsi, 180 gündən artıq müddətə (ödənişdə möhlət və s.) kreditin alınması əmələ gətirir.

Rusiyanın bazar təsərrüfatının yaranmasında valyuta bazarının əhəmiyyətini qiymətləndirərkən onun həm müsbət, həm də mənfi cəhətlərini görmək lazımdır.

Valyuta bazarının aktivinə onun Rusiya iqtisadiyyatının özünütəcriddən çıxmasına kömək etməsini, onun dünya təsərrüfatına inteqrasiyasının bünövrəsini qoymasını aid etmək olar. O, bank fəallığını stimullaşdırmış və Rusiya maliyyə bazarının formalaşmasının əsasını qoymuşdur. Valyuta bazarının inkişafına səbəb xarici kapitalın iqtisadiyyata cəlb edilməsi, xarici iqtisadi əlaqələrin rasional iqtisadi zəminə keçirilməsi üçün zəmin yaranmışdı. Əlbəttə, bütün müsbət məqamlardan heç də tam istifadə olunmamışdı, çünki bazar iqtisadiyyatının inkişafında heç də hər şey yalnız valyuta bazarından asılı olmur.

Daxili valyuta bazarının inkişafını müşayiət edən ciddi neqativ məqamlara birinci növbədə iqtisadiyyatın davam etməkdə olan dollarlaşması prosesini aid etmək lazımdır. Lakin onun səbəbi daxili valyuta tədavülünün liberallaşdırılmasında deyil, milli valyutanın – rublun – möhkəmləndirilməsi və sabitləşdirilməsi ilə bağlı təsirli siyasətin olmamasındadır. Büdcə siyasətinin həddən artıq yumşaqlığı və pul-kredit siyasətinin amorfluğu–budur daxili tədiyyə tədavülündə rus rublunun zəifliyinin, onun prestijinin aşağı düşməsi və Rusiya tədavülündə dolların mövqeyinin güclənməsinin əsas səbəbləri. Bu siyasət daim inflyasiyanı və daxili valyuta bazarında rubldan dollara qaçışı gücləndirmişdi.

Qeyd edək ki, hazırda fəaliyyət göstərən Rusiya valyuta birjası sisteminin birbaşa dünya valyuta birjasına aidiyyatı yoxdur və o, yalnız dövlətin və RF Mərkəzi Bankının müəyyən, əsasən qısamüddətli məqsədlərinin həyata keçirilməsi aləti kimi nəzərdən keçirilir.

Rusiya rublunun konvertə olunması formalaşdıqca və dünya valyuta bazarına girdikcə ölkə hər bir mərhələdə valyuta siyasəti strategiyasının seçilməsi problemi ilə üzləşəcək. Müəyyən şərtiliklə bu strategiyanın beş variantını göstərmək olar ki, tədiyyə kəsiri və ya valyuta məzənnəsinin aşağı düşməsi şəraitində istənilən dövlət bunlar arasında seçim etmək məcburiyyəti qarşısında qalır:

1. Ümumi və tədiyyə kəsirinin valyuta məzənnəsi dəyişmədən maliyyələşdirilməsi. Bu zaman:

a) müvəqqəti maliyyələşdirmə ölkənin mövcud valyuta ehtiyatlarından istifadə etdiyi müvəqqəti disbalans şəraitində yolverilməndir; ehtiyatların azalması daxili bazarda pul təklifinə təsir etməməlidir;

b) ölkənin valyutası beynəlxalq hesablaşmalar vasitəsi – «əsas valyuta» - qismində istifadə olunursa, ölkə qısamüddətli dövrdə, tədiyyə balansının müsbət saldosunun bərpa olunmasını gözləyərək, tədiyyə kəsirinə yol verə bilər.

2. Hökumətin ölkə ilə bütün yerdə qalan dünya arasında bütün sövdələşmələri ciddi nəzarətdə saxladığı valyuta nəzarəti. Məsələn, o, valyutanın rəsmi məzənnəsini dəyişmədən rezidentlərin xarici valyutanı xaricdə xərcləmək məqsədilə mübadilə etmək imkanlarını məhdudlaşdıra bilər.

3. Üzən valyuta məzənnələri: ölkə valyuta bazarına valyuta tarazlığını bərpa edincəyədək «düşməsinə» yol verməklə, müstəqil olaraq valyuta məzənnəsini müəyyənləşdirmək imkanı verə bilər.

4. Daim təsbit olunmuş məzənnələr: rəsmi orqanlar iqtisadiyyatda elə dəyişikliklər edə bilərlər ki, o, mövcud valyuta məzənnəsinə uyğun gəlsin. Əgər ölkə daim xarici tədiyyə kəsiri ilə üzləşirsə, xarici partnyorlar isə həmin ölkənin valyutasını götürmək istəmirlərsə, pul kütləsi təklifini xarici valyutaya tələb və onun təklifi verilmiş təsbit olunmuş paritetdə tarazlaşıncayadək azaltmaq olar. Nəzəriyyədə belə yanaşma tədiyyə balansının tənzimlənməsi üçün klassik ya-

naşma adlanır.

5. Valyuta məzənnələrinin kompromisi: ölkə 3 və 4-cü variantları birgə tətbiq edə bilər ki, bu zaman tənzimləmə qismən valyuta məzənnələrinin özlərinin hərəkəti hesabına həyata keçirilir. Bu zaman aşağıdakı yanaşmalar mümkündür:

a) valyutaların paritetlərinin dəyişməsi, yaxud Bretton-Vuds sistemi (1944-cü ildən 1971-ci ilə qədər qüvvədə olub); bu zaman nəzərdə tutulur ki, ölkə təsbit olunmuş məzənnəni iqtisadiyyatda cüzi dəyişikliklər etməklə 4-cü variant üzrə saxlayır.Dəyişikliklər kifayət qədər səmərəli olmazsa, valyutanın devalvasiyası baş verir və yeni təsbit olunmuş məzənnə müəyyənləşdirilir;

b) valyutanın tənzimlənən «üzməsi»: rəsmi orqanlar valyuta məzənnələrinin yeni paritet əldə oluncayadək tədricən dəyişirlər. Valyutanı əvvəlcədən planlaşdırılmış və bəyan edilmiş kəmiyyətə qədər hər gün devalvasiya etmək (sürüşən bağlantı), zərurət yarandıqda məzənnəni böyük kəmiyyətə əvvəlcədən bəyan edilmiş dövriliklə (sürünən bağlantı) və ya əvvəlcədən bəyan edilməmiş kəmiyyətə hər gün («çirkli üzmə») buraxmaq olar. Hökumət eyni zamanda iqtisadiyyatın yeni şəraitə uyğunlaşdırılması və valyuta bazarında lazımi əməliyyatları asanlaşdıran maliyyə vəsaitləri axtarışları üzrə tədbirlər görür.

Bütün variantlar yalnız iqtisadi və valyuta sabitliyi şəraitində, valyuta sahəsindəki neqativ meyilləri iqtisadi sahədəki müsbət meyillərlə tarazlaşdırmaq mümkün olanda işləyirlər. Belə tarazlıq olmadıqda vəziyyəti sabitləşdirməyə imkan verən alətlər praktik olaraq yoxdur.

Hazırda, Rusiya valyuta bazarının formalaşmasının başlanğıc mərhələsi ilkin yekunlaşdırıldıqda olduqca haqlı bir sual meydana gəlir: onun inkişafı bundan sonra hansı yolla gedəcək? İki mümkün variant nəzərə çarpır.

Birinci yol valyuta bazarındakı əməliyyatlar üzərində dövlət nəzarətinin gücləndirilməsindən ibarətdir. Bunun üçün dövlətin külli imkanları vardır. Bir sıra MDB ölkələri-

nin (Ukrayna, Belarus, Qazaxıstan və b.) hazırkı valyuta bazarlarının fəaliyyət praktikası xeyli seçim imkanı verir. MBVB-da dollar alqı-satqısı əməlliyyatları üzrə hesablaşmaların qaydasının dəyişməsi bunlardan yalnız biridir.

Valyuta bazarının inzibati tənzimlənməsi yolu ilə gedəndə bütün nəticələri öncədən görmək lazımdır. Tənzimlənən rəsmi valyuta məzənnəsi bu mənada zəifdir ki, daxili pul tədavülü və maliyyə sahəsində gedən proseslərdən birbaşa və ya dolayısıyla təcrid olunduğundan o, müəyyən vaxtdan sonra obyektiv iqtisadi meyar rolunu itirir. Bu halda iqtisadiyyatın dollarlaşması problemi labüd olaraq kəskinləşəcəkdir. Dollar isə daxili tədiyyə dövriyyəsində rus rublu ilə get-gedə daha fəal rəqabət aparacaq, özü də dollar əməliyyatları getdikcə daha çox gizli şəkil alacaq. Dollarlaşma miqyasını nəzərə alaraq gözləmək olar ki, daxili pul-kredit siyasətinin səmərəliliyi azalacaq.

Və nəhayət, daha bir mühüm məqam. Valyuta bazarında məhdudiyyətlər tətbiq edəndə dövlət daxili maliyyə bazarının inkişafını çətinləşdirir. Maliyyə bazarı mühüm inteqrasiya olunmuş strukturdur ki, ona daxil olan bütün seqmentlər (valyuta, fond bazarı və banklararası kredit bazarı) öz aralarında xeyli sıx bağlıdırlar. Hər bir göstəricinin – valyuta məzənnəsi, Dövlət qısamüddətli istiqrazları (DQİ) üzrə gəlirlilik və banklararası kredit üzrə faizin – hər bir seqmentdə real bazar vəziyyətinin nə qədər obyektiv əks etdirməsindən onların qarşılıqlı fəaliyyəti asılıdır. Bu qarşılıqlı fəaliyyət bankların və onların müştərilərinin kapitallarının bir yerdən başqasına ötürülməsi vasitəsilə baş verir. Nəticədə maliyyə bazarının balanslaşdırılmış və bütöv inkişafı prosesi gedir.

§6. Tədiyyə balansı: əsas parametrlər, mənbələr və təsnifat meyarları

Tədiyyə balansı bu və ya digər ölkə rezidentlərinin qeyri-rezidentlərlə müəyyən vaxt ərzində bütün beynəl-

xalq sövdələşmələri haqqında hesabatdır. O, bu ölkənin xaricdən aldığı və xaricə təqdim etdiyi əmtəə və xidmətlərin həcmi arasındakı nisbəti, həmçinin onun xaricə nisbətən maliyyə mövqeyindəki dəyişiklikləri əks etdirir.

Tədiyyə balansı ehtiyatlarla deyil, axınlarla, ölkənin hər hansı bir konkret zaman anında mövcud olan iqtisadi aktivləri və passivlərinin ümumi məbləği ilə deyil, real və maliyyə aktivləri və passivlərində bazis dövründə baş verən dəyişikliklərlə işləyir.

Tədiyyə balansı həm uçot, həm də öz aralarında sıx əlaqədar olan analitik məsələlərin yerinə yetirilməsi məqsədilə tərtib olunur. Tədiyyə balansının təhlili ölkənin öz xarici iqtisadi fəaliyyətini nə qədər səmərəli yerinə yetirməyə qadir olması barədə nəticə çıxartmağa imkan verir və xarici iqtisadi fəaliyyət sahəsində qərarlar qəbul edilməsində zəmin rolunda çıxış edir.

Tədiyyə balansı üç iri bölmədən ibarətdir:

- cari əməliyyatların hesabı (və ya balansı);
- kapitalla əməliyyatların hesabı (və ya balansı);
- rəsmi beynəlxalq ehtiyatlar üzrə hesablamalar.

Cari tədiyyə balansında (cari əməliyyatlar balansında) əmtəə və xidmətlərlə mübadilə prosesi, həmçinin birtərəfli birdəfəlik ödənişlər öz əksini tapır. Tədiyyə balansının ixracı və idxalı əks etdirən hissəsi ölkənin *ticarət balansı* adlanır (deməli, «cari tədiyyə balansı» anlayışı «ticarət» balansı anlayışından genişdir).

Kapitalların hərəkəti balansı xarici aktivlərin alqısı və satqısını, uzunmüddətli borcların verilməsi və alınmasını əks etdirir. Başqa dövlət və ya xarici müəssisə tərəfindən verilmiş vəsaitlər ölkədən kapitalın gedişi, başqa dövlətlərdən alınmış borclar isə ölkəyə kapital axını kimi nəzərdən keçirilir.

Üçüncü bölmədə kommersiya fəaliyyəti ilə bağlı olmayan əməliyyatlar fərqləndirilir. Onlar tədiyyə balansı saldosunu tarazlaşdırmaq, məsələn, onun kəsirini azaltmaq üçün vasitə kimi çıxış edirlər. Bu məqsədlə qızıl satışı, yeni kre-

ditlərin cəlb olunması, əvvəllər götürülmüş kreditlər və onlardan istifadəyə görə faizlər üzrə ödənişin vaxtının uzadılmasından istifadə olunur. Bütün bu əməliyyatların tədiyyə balansının yaxşılaşdırılması kimi xüsusi təyinatı var və buna görə də onlar xüsusi bölməyə ayrılırlar (cədvəl 26.6).

Cədvəl 26.6

Tədiyyə balansına misal

Sıra №-si	Adı	Məbləğ, pul vah.	Saldo, pul vah.
1	Cari əməliyyatların hesabı:		
	1) əmtəə ixracı	250	
	2) əmtəə idxalı	-500	
	3) xarici ticarət balanslarının saldosu		-250
2	Xidmətlər:		
	4) xidmətlər ixracı	90	
	5) xidmətlər idxalı	-40	
	6) ə/x balanslarının saldosu		-200
3	İnvestisiyalar:		
	7) investisiyalardan xalis gəlirlər	200	
	8) xalis pul köçürmələri	-10	
	9) cari əməliyyatlar üzrə saldo		-190
4	Kapitalların hərəkətinin hesabı:		
	10) gələn kapital axını	200	
	11) gedən kapital axını	-60	
	12) kapital hərəkətinin balansı		-50
5	Ehtiyatların hesabı:		
	13) rəsmi ehtiyatlar		50
	14) tədiyyə balansı saldosu		0

Cari əməliyyatlar üzrə (hesablar) balans və ya cari tədiyyə balansı ölkənin iqtisadi vəziyyəti haqqında kifayət qədər dolğun məlumat verir. Buna görə də bu və ya digər ölkənin iqtisadi vəziyyəti haqqında fikir yürütmək üçün çox vaxt cari tədiyyə balansının vəziyyətindən çıxış edirlər.

Cari tədiyyə balansına aşağıdakı əsas maddələr yarımqrupları daxildir:

1. *Ticarət (ticarət balansı)*: bura əmtəələrin ixracı və idxalı; təkrar emal üçün nəzərdə tutulmuş əmtəələr; təmir; daşıyıcılar tərəfindən limanlara çatdırılmış əmtəələr; qeyri-monetar qızıl daxildir.

2. *Qeyri-amil xidmətləri*: bunlara nəqliyyat xidmətləri; turizm (iş və fərdi); rabitə xidməti; tikinti; sığorta; maliyyə, kompyuter və lisenziyalaşdırılmış informasiya mükafatları (lisenziyadan, nou-haudan və b. istifadə hüququna görə ödəniş); paušal ödənişlər (lisenziyadan istifadə hüququna görə razılaşmalarda dəqiq təsbit olunmuş və birdəfəyə və ya nisbətən qısa müddət ərzində ödənilən pul məbləği) biznes sahəsində digər xidmətlər; əyləncələr, mədəni tədbirlər, istirahət; dövlət müəssisələrinin başqa maddələrə salınmamış xidmətləri daxildir.

3. *Amil xədmətləri*: bunlara muzdlu əmək adamlarına ödənişlər; investisiyalardan gəlirlər, o cümlədən birbaşa (səhmlərdən gəlirlər, verilmiş kreditdən mədaxillər), portfel (səhmlərdən gəlirlər, istiqrazlarla, qısamüddətli qiymətli kağızlarla və s. əməliyyatlardan faizlər) və s. daxildir.

4. *Cari transfertlər*: bunlara dövlət xətti və başqa bölmələr üzrə məbləğlərin köçürmələri, o cümlədən işləyənlərin pul köçürmələri daxildir.

Tədiyyə balansının tərtibi üçün ən əsası beynəlxalq sövdələrin ikiqat qeydiyyatı metodudur: bu da ona əsaslanır ki, hər bir qeydiyyat əməliyyatına bu və ya digər şəkildə ödəniş müvafiqdir, tədiyyə balansı ilə mədaxil balansı düz gəlməlidir.

Tədiyyə balansının tərtibində istifadə olunan ikiqat mühasibat qeydiyyatı o deməkdir ki, hər bir əməliyyat eyni qiyməti olan iki yazıyla təmsil olunur. Onlardan «kredit» kimi qeyd olunan biri müsbət işarəlidir, «debet» kimi qeyd olunan digəri isə mənfi işarəlidir, onların kəmiyyətlərinin cəmi isə, yəni tədiyyə balansı saldosu adlandırılan, sıfra bərabər olmalıdır.

Tədiyyə balansındakı qeydlərin çoxu bir iqtisadi sərvətlərin başqalarına dəyişdirilməsi yolu ilə verildiyi və ya alındığı əməliyyatlara aiddir və qeydiyyat sisteminin tələb etdiyi ödəyici kredit və debet qeydləri çox vaxt hər iki mübadilə predmeti üzrə iki bərabər kəmiyyətin avtomatik qeyd olunması baş verir. Məsələn, hər hansı bir əmtəənin ixracı əmtəələr üzrə statistikada, həmin ixracın haqqının ödənilməsi isə aktiv və passivlərin dəyişdirilməsi üzrə bank əməliyyatları statistikasında qeydə alınır.

Misal kimi öz əmtəəsinin müqabilində xarici valyuta almış ixracatçını götürək. Bu halda qeydlərdən biri (burada «kredit») əmtəənin ixracını, digəri isə (bu halda «debet») ixracatçının valyuta hesabının həmin məbləğə artdığını göstərəcəkdir.

Lakin müəssisənin nizamnamə kapitalı hesabına avadanlığın xaricə aparılması kredit üzrə ixrac kimi, debet üzrə isə xaricə birbaşa investisiya kimi qeyd olunacaq.

Tədiyyə balansından keçənlərin çoxu əks axın gözləyən sövdələrə aiddir: bu, əmtəə, xidmətlər, maliyyə aktivləri mübadiləsi, investisiyalardan gəlirlərdir. Eyni zimanda tədiyyə balansına elə əməliyyatlar salınır ki, onlara bu və ya digər şəkildə (əmtəələr, xidmətlər və ya aktivlər) adekvat kompensasiyalar gözlənilmir. Belə əməliyyatlar transfertlərə, yəni daxilolmaların birtərəfli köçürülmələrinə aiddirlər.

Bu halda əməliyyatın yalnız bir tərəfi avtomatik qeydə alınacaq, lazımi kompensasiyanın mövcudluğu üçün isə tədiyyə balansında transfert maddələri üzrə qeydlər edilir. Transfertlərin ödədikləri qeydlər debetdirlərsə, kredit kimi qeyd olunurlar və qeydlər kreditdirlərsə, debet kimi qeyd olunurlar. Bunlar faktik olaraq təmənnasız köçürmələrdir və buna görədir ki, balansda onları köçürmələr (cari və ya əsaslı) adlandırırlar. Beləliklə, tədiyyə balansının tərtibində «kredit» xanasına əmtəə və xidmətlər ixracı, əldə olunan gəlir, passivlərin artması və aktivlərin azalması, «debet» xanasına isə əmtəə və xidmətlərin idxalı, ödənilən gəlir, passivlərin azalması və aktivlərin artması qeyd olunur. Başqa sözlə, aktivlər (maddi və ya maliyyə) üçün kredit xanasından keçmək onların aparılması (bununla da azalması) ilə

nəticələnən əməliy- yatı bildirir, amma debet xanası üzrə əks keçmə gətirilmə (və bununla da artım) ilə nəticələnən əməliyyatı göstərir. Passivlərə (öhdəliklərə) gəldikdə isə tamamilə əks qanunauyğunluq alınır.

İkili qeyd sistemi kredit və debet maddələri üzrə saldoların ölçüləri arasında formal olaraq fərqin olmamasını nəzərdə tutur. Praktikada belə vəziyyətə çatmaq mümkün deyil. Bütün sövdələrin tam əhatələnməsinin çətinliyi, qiymətlərin yekcins olmaması, sövdələrin qeydə alınma vaxtının fərqli olması və s. müxtəlif təhrifləri qaçılmaz edir. Tədiyyə balansına xüsusi «Səhvlər və buraxılmalar» (və ya xalis səhvlər və buraxılmalar) maddəsinin salınması da bununla şərtlənir. Bir qayda olaraq, həmin maddədə göstərilən kəmiyyət nisbətən kiçik və sabit olur, lakin xarici ticarət əlaqələri iştirakçılarının tədiyyə balansı statistikasına hesabatlar təqdim etməsi üzərində nəzarətin zəif olduğu ölkələrdə xeyli böyük ola bilir.Bu halda buraxılmalar və səhvlərin kəmiyyəti ölkədən (ölkəyə) qeyd olunmamış kapital axını haqqında təsəvvür yaradır.

Tədiyyə balansının qurulma prinsiplərinə müvafiq olaraq o həmişə balanslaşdırılmış olur. Mənfi və ya müsbət saldo anlayışı onun ayrı-ayrı hissələrinə tətbiq oluna bilər. Bu zaman qeyd etmək lazımdır ki, balansın saldosu özü-özlüyündə milli iqtisadiyyata təsiri baxımından birmənalı şərh oluna bilməz. İqtisadi siyasətin məqsədindən asılı olaraq müxtəlif maddələr üzrə həm mənfi, həm də müsbət saldo həm pozitiv, həm də neqativ planda nəzərdən keçirilə bilər.

Tədiyyə balansının saldosunun müəyyənləşdirilməsi üçün tədiyyə balansının kreditin məbləği və debetin məbləğinin hesablanması aparılır.

Tədiyyə balansı kreditinin məbləği əmtəə, xidmətlər (turistik, sığorta, nəqliyyat, injinirinq, informasiya-kompyuter) ixracından gəlirlərin, xaricə investisiyalardan gəlirlərin; transfert ödənişləri, xaricilərin həmin ölkə aktivlərini almalarından gəlirlərin toplanması yolu ilə aşağıdakı

düsturla hesablanılır:

$$\Sigma_{kred} = \Sigma_1 + \Sigma_2 + \Sigma_3 + \Sigma_4 + \Sigma_5 .$$

Ölkənin ***tədiyyə balansında debetin məbləği*** əmtəə, xidmətlər üzrə xərclərin, ölkəyə xarici investisiyalardan gəlirlərin, xaricilərin ölkədən transfert ödənişlərinin, ölkə vətəndaşlarının xarici aktivlərin (səhmlər, istiqrazlar) alınmasına xərclərinin toplanması yolu ilə belə hesablanılır:

$$\Sigma_{deb} = \Sigma_1 + \Sigma_2 + \Sigma_3 + \Sigma_4 + \Sigma_5 .$$

Tədiyyə balansı saldosu kredit maddələrinin məbləği ilə debet maddələri məbləği arasında fərq kimi hesablanır:

$$S_{təd.b.} = \Sigma_{kred} - \Sigma_{deb} .$$

Adətən ümumi tədiyyə balansı tərkibində ticarət balansı saldosu, cari əməliyyatlar üzrə balans, kapital hərəkəti balansı və rəsmi hesablaşmalar balansı fərqləndirilir.

Beynəlxalq statistika göstərir ki, dünya ölkələrinin tədiyə balansları daim qeyri-tarazlıqdadırlar, yəni cari əməliyyatlar üzrə saldo və yekun balans saldosu adətən sıfra bərabər deyil və buna görə də kapitalın hərəkəti, dövlətin balanslaşdırığı əməliyyatlarla və ehtiyatlarda dəyişikliklərlə balanslaşdırılırlar ki, tədiyyə balansını tarazlaşdırsınlar.

Ökənin tədiyyə balansının qeyri-tarazlı olması, birinci növbədə daxili iqtisadi proseslərin tənzimləyicisi olduğundan, onun iqtisadiyyatı üçün bir sıra nəticələrə səbəb olur.

Balansın cari əməliyyatlar üzrə sabit müsbət saldosu (***aktiv tədiyə balansı*** adlandırılan) milli valyutanın mövqelərini möhkəmləndirir və eyni zamanda kapitalın ölkədən aparılması üçün möhkəm maliyyə bazasına malik olmaq imkanı verir; sabit mənfi saldo (passiv tədiyyə balansı adlandırılan) milli valyutanın mövqelərini zəiflədir və ölkəni daha çox xarici kapital cəlb etməyə təhrik edir. Əgər belə kapital gəlişi uzunmüddətli sahibkar investisiyaları vasitəsilə deyil (yəni birbaşa və portfel), uzunmüddətli dövlət və xüsusi bank borcları vasitəsilə və xüsusilə fövqəladə maliyyələşdirmə və xarici öhdəliklərin artması yolu ilə həyata keçirilsə, bu, ölkənin xarici borcunun və ona görə ödənişlərin sürətlə artma-

sına səbəb olur. Ölkə kreditlə yaşamağa başlayır.

Cari əməliyyatlar üzrə balans saldosunun güclü artıb-azalmaları (bu və ya digər tərəfə) ölkə üçün xoşagəlməz nəticələrə səbəb olur. Belə ki, müsbət saldonun kəskin artması pul kütləsinin sürətlə artması üçün zəmin yaradır və inflyasiyanı stimullaşdırır, mənfi saldonun kəskin artması isə mübadilə məzənnəsinin kəskin düşməsinə səbəb olur ki, bu da ölkənin xarici iqtisadi əməliyyatlarında hərc-mərclik yaradır. Buna görə də, tədiyyə balansı tarazlığından söhbət gedəndə birinci növbədə cari tədiyyə balansının kəsiri (cari tədiyyə balansının mənfi saldosu) və onun saldosunun kəskin artıb-azalmaları olur.

Tədiyyə balansının vəziyyətinə dövlət təsiri metodları. Daxili və xarici tarazlıq modelləri

Tədiyyə balansının vəziyyətinə dövlət təsirinin bir neçə əsas metodu mövcuddur.

Birinci metod – bu, **birbaşa nəzarət** olub, özündə idxalın tənzimlənməsini (məsələn, kəmiyyətcə məhdudlaşdırmalar), gömrük və sair yığımlar, xarici investisiyalar üzrə gəlirlərin və fiziki şəxslərin pul transfertlərinin xaricə köçürmələrinin qadağan edilməsi və ya məhdudlaşdırılması, təməmnasız yardımın, qısamüddətli və uzunmüddətli kapitalın ölkədən çıxarılmasının kəskin azaldılmasını və s. ehtiva edir. Bu kimi birbaşa nəzarət metodları adətən ölkə firmalarının çoxu üçün böyük çətinliklər yaradır və müvafiq olaraq pis qarşılanır.

Qısamüddətli planda birbaşa nəzarət müsbət nəticə verir. Uzunmüddətli planda bu kimi tədbirlərin təsiri ziddiyyətlidir, çünki yerli istehsalçılar üçün «istilik rejimi» yaradılır, gəlirlərinin ölkədən çıxarılmasına qoyulan qadağalar xarici investorların ölkəyə marağını azaldır, xarici mütəxəssislərin cəlb edilməsi ilə bağlı çətinliklər yaranır, ölkə ixracçıları üçün xaricdə əmtəə və xidmətlər yaymaq üçün

şəbəkənin genişləndirilməsi yolunda maneələr yaranır.

İxracın subsidiyalaşdırılması kimi birbaşa tədbir ölkə firmaları tərəfindən nəinki pislənmir, hətta alqışlanır da. Lakin bu tədbir bahalıdır və buna görə də onun tətbiqi ölkə büdcəsinin vəziyyətindən asılıdır.

İkinci metod - **deflyasiyadır** (yəni inflyasiya ilə mübarizə) ki, daxili iqtisadi məsələlərin həllinə yönümlənibdir və bu zaman əlavə effekt tədiyyə balansının yaxşılaşmasıdır. Hesab olunur ki, deflyasiya siyasəti üçün ənənəvi nəticələr – istehsalın, investisiya və gəlirlərin həcminin aşağı düşməsi – idxalın azalmasına və ixracın artırılması üçün ehtiyat qüvvələrin artımına səbəb olur. Deflyasiya zamanı müşahidə olunan real faiz dərəcəsinin artması ölkəyə qısamüddətli kapital cəlb edir, əlbəttə, əgər burada inkişaf etmiş bank sistemi varsa və siyasi riskin səviyyəsi aşağıdırsa.


Lakin başqa bir baxış da var: deflyasiya ixracı azaldır və idxalı artırır. Deflyasiya zamanı milli valyutanın mübadilə məzənnəsi artır ki, bu da idxalçıların imkanlarını genişləndirir. İxracçılar üçün isə milli valyutanın yüksək məzənnəsi o deməkdir ki, ixrac pulunu dəyişdirdikdə onlar daha az milli valyuta əldə edəcəklər, bu isə ixracı stimullaşdırmır.

Üçüncü metod – **mübadilə məzənnəsinin dəyişməsidir.** Həm sərt məzənnədə, həm də üzən məzənnədə o, dövlətin ciddi nəzarəti və təsiri altında baş verir. Belə ki, hətta üzən məzənnə zamanı dövlət (ölkənin Mərkəzi bankı ilə təmsil olunaraq) güclü iqtisadi tələtümlərdən qaçmaq üçün məzənnə məqsədləri adlandırılanlara yönümlənərək bu artıb-azalmaları çox vaxt müəyyən hüdudlarda saxlamağa çalışır.

Mübadilə məzənnələrinin dəyişməsi dövlətə tədiyyə balansı tarazlığını tənzimləməyə imkan verir, lakin nəzərə alınmalıdır ki, revalvasiya/devalvasiyanın effekti ixrac və idxalın elastikliyi, həmçinin xarici ticarət axınlarının ətaləti ilə yumşaldılır. Buna görə də mübadilə məzənnəsindəki qısa–, orta– və uzunmüddətli dəyişikliklərin tədiyyə balansına təsiri bir-birindən fərqlidir.

Mübadilə məzənnəsində dəyişikliklərin kapitalın hərəkətinə təsiri müxtəlif cürdür. Uzunmüddətli kapitalın ölkəyə gətirilməsi perspektivli məqsədlərlə müəyyənləşir və ona görə də mübadilə məzənnəsinin dəyişməsi onda zəif əks olunur. Azad konvertə olunan valyutalı qısamüddətli kapitalın ölkəyə gətirilməsi üçün isə, əksinə, bunun böyük əhəmiyyəti var, çünki burada məzənnənin dəyişməsi üzərində oyun imkanı var. Revalvasiya öncəsi kapitalın gətirilməsi artır, ondan sonra isə aparılması artır.

Ticarət balansı (elə cari əməliyyatlar üzrə balans da) milli valyutanın devalvasiyası və ya revalvasiyasından sonra bir neçə ay mənfi saldoya malik ola, sonra onun vəziyyəti yaxşılaşa və bu vəziyyət bir müddət davam edə bilər. Şəkil 26.10-da milli valyuta məzənnəsinin düşməsinə ticarət balansı və cari əməliyyatlar üzrə balansın adətən necə təsir etdiyini əks etdirən sxematik əyri verilmişdir.



Şəkil 26.10. «J-əyri»; milli valyutanın məzənnəsinin aşağı düşməsinə mümkün reaksiya

Əyri öz formasına görə «J-əyri» (Cey-əyri) adlanır. Uzunmüddətli zaman kəsiyində bütün ölkələr başqa ölkələrdə qiymətlərin dəyişməsi məsələsində «kiçik» kimi görünürlər. Dolların məzənnəsinin düşməsi uzunmüddətli planda balansın yaxşılaşmasına səbəb olmalıdır, bu da ilkin mərhələdə mümkün ola biləcək pisləşməni kompensə edir.

Praktik tövsiyələrin təhlili büdcə və pul-kredit siyasətindən faydalı istifadə metodu aşkarlayır. Söhbət **R.Mandellin**[1] hazırladığı **«Rolların bölgüsü qaydası»ndan** (assignment rule) gedir ki, o, büdcə siyasətini yalnız daxili iqtisadi sistemi sabitləşdirmək, pul-kredit siyasətini isə tədiyyə balansını sabitləşdirmək üçün istifadə etməyə imkan verir.

Bu qayda istənilən makroiqtisadi siyasətdə diqqəti bir məsələnin həllinə yönəltməyə imkan verir və bu zaman büdcə və pul-kredit siyasətləri arasında yüksək dərəcədə koordinasiyanı tələb etmir. O, həm də istənilən siyasətə, məhz ən çox təsir etdiyi məqsədə təsir göstərməyə imkan verir. Belə ki, deyək ki, söhbət valyuta sabitliyi ilə yanaşı Mərkəzi bankın ənənəvi olaraq xüsusi qayğı predmeti olan tədiyyə balansından gedə bilər.

Lakin praktikada R.Mandell qaydasına riayət etmək heç də həmişə səmərəli olmur. Söhbət faiz dərəcələrinin tez-tez dəyişməsi və ya iqtisadi sistem adlandırılan bu və ya digər siqnala reaksiya vermək səpkisində iqtisadi siyasətin konkret tədbirlərinin «gecikməsi» ilə səciyyələnən vəziyyətdən gedir.

Ticarət balansının reaksiyasının elastikliyini tədqiq edərkən **Marşall-Lerner şərtindən** istifadə edirlər ki, bu da satıcının valyuta ilə müəyyənləşdirdiyi qiymətin dəyişilməz olduğu vəziyyətə aiddir. Bu şərt təklifin sonsuz elastik, qiymətlərin isə təsbit olunmuş olduğu keynsçi makromodellər sisteminə aiddir. Qeyd olunan «şərt» göstərir ki, mütləq kəmiyyətinə görə tələbin hər iki elastikliyinin cəmi vahiddən böyük olmalıdır, yəni

$$|d_x + d_m| > 1.$$

Burada d_x – ixraca tələbin elastikliyi;

d_m - idxala tələbin elastikliyidir.

İlkin ticarət balansı müsbət olmamışsa, sabit nəticə əldə

[1] Robert Mandell (1932). Amerika iqtisadçısı, 1999-cu il iqtisadiyyat üzrə Nobel mükafatı laureatıdır. Makroekonomika və beynəlxalq valyuta sistemi tarixi üzrə əsərlərin müəllifidir. Vahid Avropa valyutası, optimal valyuta məkanı nəzəriyyələri, inflyasiya və faiz nəzəriyyəsi, təklif iqtisadiyyatı nəzəriyyəsinin ilk layihələrini hazırlamışdır.

etmək üçün bu kifayətdir ki, bu da devalvasiya üçün tipikdir:

$$V_x \leq V_m .$$

Burada V_m – xarici valyutaya tələb;

V_x – cari xərclər üzrə xarici valyuta təklifi və ya ixracın dəyəridir.

Marşall-Lerner şərti istənilən halda məhdud çərçivədə modellər üçün yerinə yetirilir, o, çox böyük şərtiliklə də olsa, devalvasiyanın ticarət balansına müsbət təsirini qiymətləndirməyə imkan verir, çünki ümumi qanunauyğunluğu göstərir: elastiklik nə qədər yüksək olsa, nəticə bir o qədər sabit olar.

Əgər R.Mandellin rolların bölünməsi modeli hər şeydən əvvəl böyük açıq iqtisadiyyata tətbiq oluna bilərsə, T.Svon diaqramı daxili faiz dərəcəsinin dünya faiz dərəcəsi səviyyəsi ilə müəyyənləşdiyi kiçik iqtisadiyyata tətbiq olunur. Ehtimal olunur ki, iqtisadi siyasətin daxili və xarici tarazlığa təsir tədbirləri devalvasiya və ya revalvasiya nəticəsində real valyuta məzənnəsinin dəyişməsi və daxili xərclərin səviyyəsinin dəyişməsidir. Bu halda ziddiyyətli vəziyyətin yaranması mümkündür: hökumətin stimullaşdırıcı büdcə-vergi siyasəti gəliri artıra bilir, lakin cari əməliyyatlar hesabının vəziyyətini pisləşdirir. Gəliri milli valyutanın devalvasiyası da artıra bilər, lakin bu halda cari əməliyyatlar hesabının vəziyyəti də arta bilər. Deməli, eyni zamanda daxili və xarici tarazlığa yalnız büdcə-vergi siyasətinin koordinasiyası yolu ilə çatmaq olar.

T.Svon diaqramı elə xarici və daxili tarazlıq əyrilərinin bir yerdə verilməsindən ibarətdir (şəkil 26.11).


Bu halda dörd tarazsız vəziyyət mümkündür:

I – cari əməliyyatların kəsiri və natamam məşğulluq;

II – cari əməliyyatların kəsiri və inflyasiya təlabi;

III – cari əməliyyatların balansının müsbət saldosu və inflyasiya təlabi;

IV - cari əməliyyatların müsbət saldosu və natamam məşğulluq.



Şəkil 26.11. T.Svon diaqramı

Aydındır ki, yalnız A nöqtəsində ümumi tarazlıq mövcuddur və problem «rol bölgüsündə» gimin daxili və xarici tarazlığa görə cavabdeh olmasındadır.

Ehtimal olunur ki, Mərkəzi Bank və Maliyyə Nazirliyi, müvafiq olaraq valyuta məzənnəsini və dövlət xərclərini tənzimləyərək, tarazlı struktur yaratmağa çalışırlar.

Əsas anlayışlar və məfhumlar

Valyuta; valyutanın konvertə olunması; tam konvertə olunma; qismən konvertə olunma; qeyri-rezident dönərlilik;valyuta zonası; valyuta məzənnəsi; diskont siyasət; valyuta müdaxilələri; valyuta məzənnəsi rejimi; alıcılıq qabiliyyətinin pariteti; nominal valyuta məzənnəsi, real valyuta məzənnəsi; valyuta bazarı; valyuta əməliyyatları; klirinq xidmətləri; hecirləmə; Forvard valyuta kursu; svop-sövdələşmə; baza valyutası; valyuta riski; «Cey-əyri»; Marşall-Lerner şərti; R.Mandellin «Rolların bölgüsü qaydası»; T.Svon diaqramı.

IV BÖLMƏ. TRANSFORMASİYALAR İQTİSADİYYATI

XXVII FƏSİL. İQTİSADİ SİSTEMLƏRİN MÜASİR TRANSFORMASİYASI

§1. Sistem anlayış və iqtisadi sistemin xüsusiyyəti kimi.
§2. İqtisadi sistemlərin inkişafı və transformasiyası.
§3. Yeni iqtisadiyyatın formalaşması və onun ən mühüm əlamətləri.

İqtisadi sistemlərin tədqiqi fundamental problemlərə aiddir. O, müasir dövrün mürəkkəb və birmənalı olmayan hadisələrinin dolğun qavranılmasına, sosial-iqtisadi inkişafın, onun qanunauyğunluqlarının kompleks nəzəri konsepsiyasının yaranmasına, bu zəmində adekvat siyasətin işlənib hazırlanmasına rəvac verir. Müasir dövrün qlobal dəyişiklikləri sosial-iqtisadi sistemlərin (SİS) fəaliyyətinin daxili mexanizmlərini və vadaredici motivlərini transformasiya edir.

Hazırda dünya iki sivilizasiyanın keçidindədir, eyni zamanda yeni iqtisadi sistemlərin yaranması və mövcud olanların transformasiyası baş verir. Dərsliyin bu fəsli məhz bu proseslərin ümumi səciyyəsinə həsr olunmuşdur.

§1. Sistem anlayış və iqtisadi sistemin xüsusiyyəti kimi

«Sistem» sözü iqtisad elminə əsaslı surətdə daxil olmuşdur.Çox vaxt maliyyə sistemi, pul sistemi, informasiya sistemi, nəqliyyat sistemi, energetika sistemi, təşkilati sistem, ticarət sistemi kimi məfhumlar istifadə olunur.

Sistem müəyyən təşkil qaydaları (qanunları) olan, bu qaydalara müvafiq olaraq tərkib elementləri fərqləndirilən, onların arasındakı əlaqə göstərilən nizamlandırılmış

obyekti bildirir.

Sistem hərdən «proseslər və onlar arasındakı əlaqələrin kompleksi», «model», «real obyekt və eyni zamanda real əlaqələrin mücərrəd əksi ilə yaxınlaşaraq» proseslər və hadisələrin tədqiq üsulu, real obyektlərin hansısa mücərrəd əksi kimi nəzərdən keçirilir. Amma sistemi ona yaxın olub, mənaca identik olmayan çoxluq, məcmu, kompleks, model anlayışlarından fərqləndirilməlidir. *Çoxluq* - bəzi obyektlərin onlar üçün ümumi olan xüsusiyyətlərinə görə birləşməsi və vahid tamlıq yaratmasıdır. *Məcmu* – sistem münasibətlərində olmaları vacib olmayan bir-biri ilə əlaqəli elementlər çoxluğudur. Kompleks sistem xüsusiyyətlərinə malik olmaları vacib olmayan, lakin özləri sistem ola bilən hissələrdən ibarət olur. *Model* – real obyektin əks etdirilməsi, obyektin müşahidə edilməsi, öyrənilməsi vasitəsidir. İstənilən sistem modeldir, lakin hər bir model sistem deyil.

«Sistem» kimi ümumi anlayışın belə çox tərifinin olması sistemlərin hazırda bu kateqoriyanın tədqiqinin müxtəlif yanaşmaları, aspektləri istifadə olunan sistemlər nəzəriyyəsi, sistem təhlili, iqtisadi kibernetika, sistemotexnika, sinergetika, fəlakətlər nəzəriyyəsi və s. kimi bir sıra tədris fənlərində öyrənilməsi ilə şərtlənir.

Məlum olduğu kimi, Sistemlər nəzəriyyəsinin hazırlanmasının əsası kibernetika olmuşdur. «Kibernetika» məfhumunun özü geniş ədəbiyyata ötən əsrin ortalarında N.Viner tərəfindən daxil edilmişdir. O hesab edirdi ki, birlik öz aralarında sıx əlaqədar olan və bir böyük orqanizm əmələ gətirən fərdlərin məcmusudur.

Sistemlərin rəngarəngliyi onların təsnifatını tələb edir. Aşağıdakı sistemləri fərqləndirmək qəbul edilmişdir:

- *bioloji* - onların təkrar istehsalı biogenetik səciyyəli qanunlarla müəyyənləşir;
- *kosmik* - onların hərəkətləri kosmos qanunları əsasında baş verir və Yer üzərindəki bütün canlılara təsirləri hədsiz dərəcədə böyük, olduqca ziddiyyətli və öncədən müəyyənləşdirilə bilməyəndir;

• *nəzəri, texnoloji* - cəmiyyətin bütün həyat fəaliyyəti prosesinin əsasıdır və insan cəmiyyətinin mövcudluğunun və inkişafının ən mühüm şərtlərinin məcmusunu müəyyənləşdirir;

• *sosial-iqtisadi* - hərəkəti hər ölkənin, regionun, müəssisənin, ev təsərrüfatının və s. geoiqtisadi, təbii-tarixi əsası ilə şərtlənir. Texnogen sistemlərdən fərqli olaraq iqtisadi, sosial sistemlər insanların, müəssisələrin, dövlətin fəaliyyətinin düşünülmüş təşkili, onların konkret məcmusu, qarşılıqlı əlaqələri, ziddiyyətləri vasitəsilə realizə olunur;

• *funksional* – zaman və məkanda həyata keçirilən fəaliyyət formalarının ardıcıl, qarşılıqlı şərtlənmiş dəyişmələri kimi inkişaf edən müxtəlif prosesləri özündə ehtiva edir.

Təsərrüfat fəaliyyəti prosesində insanlar arasında iqtisadi münasibətlər həmişə bu münasibətlərin obyektləri və subyektlərini, onların arasındakı müxtəlif əlaqə formalarını özündə ehtiva edən müəyyən sistem kimi işləyir. V.Leontyevin fikrincə, hər bir ölkənin iqtisadiyyatı böyük bir sistemdir və onda çoxlu müxtəlif fəaliyyət növləri və sistemin hər bir hissəsi, komponenti yalnız başqalarından nə isə aldığına görə mövcud ola bilir, yəni başqa hissələrlə qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqdadır.

İqtisadi sistem – maddi və qeyri-maddi nemətlər və xidmətlər istehsalçıları və istehlakçıları arasında xüsusi şəkildə nizamlanmış əlaqələr sistemidir.

Hazırda iqtisadi ədəbiyyatda «iqtisadi sistem» anlayışının dar və geniş şərhi fərqləndirilir.

Dar mənada şərhə görə, iqtisadi sistem əsasını istehsal vasitələrinə mülkiyyət münasibətləri təşkil edən istehsal münasibətlərinin məcmusudur.

Geniş mənada iqtisadi sistem cəmiyyətin iqtisadi həyatının inkişafın humanistik məqsədli istehsalının ən yüksək səmərəliliyini ifadə edən hərəkət forması kimi çıxış edir. Bu ona görə belədir ki, istehsal münasibətləri ictimai istehsal sisteminin mühüm səciyyəsi olub məhsuldar qüvvələrlə qırılmaz bağlıdır. Məhsuldar qüvvələrin inkişafında müxtəlif mərhələlər bu və ya digər istehsal münasibətləri növünü səciyyələndirir. Məhsuldar qüvvələrdən ictimai istehsalın idarə edilmə forması və sosial-iqtisadi siyasətin kursu asılıdır.

Beləliklə, «iqtisadi sistem» anlayışı özündə iqtisadiyyatın tənzimlənmə metodlarını, təsərrüfatın aparılması və əsasında məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişaf səviyyəsi dayanan iqtisadi həyata təsir etmə üsullarının özünəməxsusluğunu ehtiva edir.

İqtisadi sistemin xüsusiyyətləri

Sistem həm *kəmiyyət* (sistemin elementlərinin sayı), həm də *keyfiyyət* tərəfindən səciyyələndirilə bilər. İqtisadi sistemin keyfiyyət tərəfi bu sistemin məzmununu əks etdirir və onun bir sıra mühüm keyfiyyətləri ilə açıqlanır.

1.İqtisadi sistemin əsas xüsusiyyəti onun *tamlığı*, sistemə onu təşkil edən elementlərin xüsusiyyətlərindən fərqli olaraq tama məxsus olan *inteqrativliyidir*. Bu o deməkdir ki, sistem, bir tamlıq kimi, elementlərinin xüsusiyyətlərindən fərqli bəzi ***yeni xüsusiyyətlərə*** malikdir, sistemə daxil olmayan elementlərə münasibətdə həmin sistemin elementlərinin funksiyalarının sadəcə məcmusundan fərqli funksiyaları yerinə yetirir. Yeni keyfiyyətin meydana gəlməsi sistemin inteqrasiya prosesi, sistemin elementlərini ayrılmaz vəhdətdə birləşdirən strukturlaşdırıcı amilin işləməsi ilə bağlıdır.

Məhz tamlıq iqtisadi sistemin təcridliyini, onun vahid bitkin bir orqanizm kimi fəaliyyət göstərməsini təmin edir və ***müəyyən dayanıqlılıqla***, yəni dayanıqlı fasiləsiz bitkin təkrar istehsalı həyata keçirmək qabiliyyəti ilə səciyyələnir.

2.İqtisadi sistem mürəkkəb olduğundan *kogerentlik* xüsusiyyətinə malikdir və bu da sistemin elementləri üçün birgə fəaliyyətin xas olmasını göstərir ki, bunun da nəticəsində onlar bir-birini gücləndirir və ya zəiflədir. Qeyd etmək vacibdir ki, kogerentlik xüsusiyyəti yalnız qeyri-tarazlı sistemlərdə təzahür edir ki, bunlarda da, birincisi, proseslərin

getmə sürəti onların inkişaf səviyyəsindən, sistemin tipindən asılıdır; ikincisi, məhz tarazlı vəziyyətin daim pozulması, özü-özlüyündə tarazlığın olmaması bu kimi sistemlərin inkişafına rəvac verən qarşısıalınmaz hərəkətverici qüvvəyə çevrilir; üçüncüsü, yeni elementin daxil edilməsi və ya mövcud olanın keyfiyyətcə tamam dəyişməsi mümkündür və bunlar sistemin elementlərinin birgə fəaliyyətinin xarakterinin dəyişilməsinə səbəb olur.

3.İqtisadi sistemin digər xüsusiyyəti onun *balanslaşdırılmış* olmasıdır ki, bu da sistemin xüsusiyyətlərini zaman və məkanda planlı və kortəbii hərəkət formaları vasitəsilə realizə edən konkret elementlərin, münasibətlərin obyektiv şərtlənmiş keyfiyyət, kəmiyyət, zaman, energetik qarşılıqlı fəaliyyətidir. Balanslaşdırılma məzmununa görə balanslaşdırmadan zəngin olan tamlıqla eyni deyil.

4.İqtisadi sistemin obyektiv xüsusiyyətləri arasında mühüm yeri özüinkişaf tutur ki, bu zaman amillərin, şərtlərin və münasibətlərin məcmusu, onların dinamikası həmin sistemin mövcud təkrar istehsal tsiklinə müvafiq olaraq dayanıqlı, fasiləsiz kapital yığımını həyata keçirməyə imkan verir. Özüinkişaf elmi, texniki, texnoloji, təşkilati nailiyyətlərlə şərtlənən yeni inkişaf tendensiyalarının realizə olunma imkanlarını formalaşdırır.

5.İstənilən fəaliyyət sahəsində iqtisadi sistemin dayanıqlı inkişafının xüsusiyyətlərindən biri *iyerarxikliyin* sistemin daxili və xarici elementlərinin bütün məcmusu, onların qarşılıqlı əlaqələrinin qanunauyğun inkişafının fəaliyyət göstərməsinin nəticəsi kimi reallaşdırılmasıdır. İyerarxiklik – iqtisadi sistemin müxtəlif hissələrinin (altsistemlərinin) dəqiq qarşılıqlı əlaqəsi və məsuliyyətidir. İyerarxiya müxtəlif altsistemlərdən istifadə əsasında yaranır və sadədən daha mürəkkəbə keçmək üçün real imkanar yaradır. Sistemdə iyerarxiya mütləq deyil, nisbidir, yəni istənilən sistemlər (altsistemlər) müəyyən dərəcədə *muxtariyyata* malikdirlər.

6.İstehsal amillərində olan *iqtisadi sistemdə ictimai əməyin fasiləsizliyi, bitkinliyi* də bu sistemin ən mühüm

xüsusiyyətidir. Həmin proses əməyin müxtəlif forma və növlərinin kəmiyyət, keyfiyyət, zaman, məkan, energetik çevrilmələrinin vəhdəti kimi həyata keçirilir. Elmi-texniki tərəqqi fasiləsiz olduğundan ictimai əməyin hərəkətini həyata keçirən dəyişikliklərin sürəti dəyişir.

7.İqtisadi sistemin mühüm xüsusiyyətlərindən biri də odur ki, onun inkişafı qarşılıqlı əlaqələri tam sistemin dayanıqlığını, onun inkişafını realizə etməyə imkan verən determinasiya olunmuş və ehtimal olunan proseslərin ziddiyyəti nəticəsində həyata keçir.

Sistemin ziddiyyətləri onun inkişafının ziddiyyətli meyillərini şərtləndirir: bir tərəfdən – tamlığa (eyniliyə), digər tərəfdən - təcridliyə (rəngarəngliyə), bir tərəfdən – mənkəzləşməyə, digər tərəfdən- əks mərkəzləşməyə, bir tərəfdən – ictimailəşməyə, digər tərəfdən – təcridləşməyə, dəyişkənliyə və dayanıqlılığa və s. Bunlar iqtisadiyyatın inkişafının dalğavariliyini şərtləndirir.

Sistemin inkişafı daxili (elementlər, sistemin hissələri arasında) və xarici ziddiyyətlərdən (sistemlə xarici mühit arasında) asılıdır.

8. *Dekompozisiya* (bölünənlik), iqtisadi sistemin xüsusiyyəti kimi, onun əlaqələrinin xarakterini, onların yaradılma və həyata keçirilməsinin təşkilati şəraitinin məqsədə- uyğunluğunu, məqsədyönlüyünü daha dərindən müəyyənləşdirməyə imkan verir. Bölünməklik metodlarının hazırlanması sistemlərin hərəkətinin xarakterinə (vaxt, dövrilik, enerji, nəticəlilik və s.), tərkibi və quruluşuna təsir göstərir.

9. *Adaptivlik* sistemin ətraf daxili və xarici mühitə reaksiya verərək balanslaşdırılmaya, maksimum dayanıqlığa, tarazlığa nail olmağa imkan verir.

İqtisadi sistemlərin dinamikasının ekstensiv və intensiv artımını fərqləndirmək ümumi qəbul olunmuşdur. İqtisadi sistemin ekstensiv artımı öz əksini elementlərin, mühüm olmayan əlaqələrin, entropiyanın artmasında tapır[1]. Sistemin

1 Entropiya – qeyri-müəyyənlik, vəziyyətin nizamı və ya sistemin davranışı ölçüsüdür. Sistem nə qədər nizamlanmış olsa, müvafiq olaraq entropiya bir o qədər az olar. Sadə entropiya qanununa görə,

nizamlılığı *zəifləyir*, o. müxtəlif növ siqnallara cavab verməyə daha az qabil olur. İntensiv artımda sistemin entropiyası, əksinə, azalacaqdır. Bu halda sistemin qaydaları dəyişir, iqtisadi sistem xarici mühitdə daha çox adaptasiya olunmağa qabil olur.

İqtisadi sistemin dinamikası Rusiya alimi S.V.Lyubimtsevanın[1] əsərində xeyli təfərrüatlı təhlil olunmuşdur.

10. İqtisadi sistem *özüidarəolunandır* (yüksək təşkil olunmuş sistemlərin xüsusiyyətidir). Onda müəyyən orqanlar və institutlar şəklində alt idarəetmə sistemi mövcuddur.

11. Sistem *xüsusilə strukturun yuxarı iyerarxiya səviyyələrində dağılmalara həssasdar.*

12. İqtisadi sistemin xüsusiyyəti qismində onun xarici mühitlə qarşılıqlı əlaqənin intensivliyindən asılılığı çıxış edir. Qaydanın pozulması, xarici mühitin nizamsızlaşması sistemə təsirin artmasına və onun bir tərəfdən səbatsız vəziyyətə keçməsinə aparır, digər tərəfdən isə xarici mühitin təsirləri əvvəlcə sistemin dayanıqlılığının pozulmasına, sonra isə sistemin yeni qaydasının yaranmasına səbəb ola bilir.

Özü də xarici mühitə yalnız iqtisadi milli və qlobal sistemlər deyil, həm də daxili sosial sistemlər və onların alt sistemləri: siyasət, ideologiya, hüquq, elm, təhsil, mədəniyyət, din və s. aiddir.

13. Hər bir sistem kimi iqtisadi sistemdə *məqsədəuy-*

sistemin entropiyası onun elementləri sayının kvadratına düz mütənasib, onun mürəkkəblik kəmiyyətinin iki mislinə tərs mütənasib olaraq dəyişir.

Əsaslı yenidənqurmaya – dolayı əlaqələri xeyli azaldan əlaqələri əhəmiyyətli (və ya inteqrasiyaedici) kimi müəyyənləşdirmək qəbul olunmuşdur. Onların yaranması sistemin entropiyasını aşağı salır. Əhəmiyyətli əlaqələr sistemin elementləri arasında asılılığı, sistemləşmə prosesini gücləndirirlər. Sistemin bütün struktur vahidləri arasında iqtisadiyyatda əhəmiyyətli əlaqələr kimi, məsələn, ictimai təkrar istehsalın bölmələri arasında əlaqələri və ya əmtəə və pul bazarları arasında əlaqələri götürmək olar. Əhəmiyyətsiz əlaqələr entropiyanın həcminə demək olar ki, bilavasitə təsir etməyən elementlər hesab olunur.

[1] Любимцева С.В. Трансформация экономических систем. М.: Экономистъ, 2003.

ğundur. Onun məzmunu hər bir subyektinin (amilinin) həmin ümumi sistemə xas olan məqsədlərə çatılmasına can atması ilə səciyyələnir.

İqtisadiyyatın rasional modeli üçün belə məqsədlər qismində bunlar çıxış edə bilər: 1) əhalinin həyat səviyyəsinin yüksəldilməsi; 2) dünya bazarında layiqli vəziyyət və s.

14. İqtisadi sistemin istehsal imkanları tətbiq olunan resursların nadirliyi ilə məhdudlaşır, çünki onlar cəmiyyət inkişaf etdikcə artmır, bəzən isə hətta azalır. Bu onunla şərtlənir ki, bərpaolunmaz təbii ehtiyatlar azalır, istehlak yeni əmtəə və xidmətlərin inkişafı üçün yeni təkanlar vermir. Əmtəə və xidmətlərin keyfiyyət göstəriciləri dəyişirlər ki, bu da istehlak əmtəələrinə və investisiyalara tələbin artmasına səbəb olur.

İqtisadi nəzəriyyədə resursların mütləq və nisbi məhdudluğu fərqləndirilir. Mütləq məhdudluq dedikdə istehsal resurslarının cəmiyyət üzvlərinin bütün tələbatlarını eyni zamanda ödəmək üçün kifayət etməməsi başa düşülür. Lakin tələblərin sayı məhdudlaşdırılarsa, onda tələbatların mütləq məhdudluğu nisbi olur, çünki məhdud həcmdə tələbatlar üçün resurslar nisbətən qeyri-məhduddur.

§2. İqtisadi sistemlərin inkişafı və transformasiyası

İqtisadi sistemin inkişafı iqtisadi, texnogen amillərin sabitliyi və çoxölçülüyü və istehsalın, realizə olunmanın və istehlakın intellektual amillərinin mənəvi təbiətinin dəyişkənliyi, ehtimallığı ilə şərtlənən bütün amillərin, onların məcmusunun daimi ziddiyyəti vasitəsilə həyata keçirilir.

İqtisadi ədəbiyyatda sosial-iqtisadi sistemlərin dinamikasının (dəyişmələrinin, hərəkətinin) müxtəlif tipləri və növləri fərqləndirilir.

İqtisadi sistemin təhlili zamanı onun ayrı-ayrı elementlərinin hərəkətinin qeyri-bərabərliyi nəzərə alınmalıdır ki, bu da *çoxvariantlı inkişafın* zəruriliyini nəzərdə tutur. İstə-

nilən iqtisadi sistem yeni xüsusiyyətləri köhnələr vasitəsilə (ətalət prinsipi), onların əlaqələrini, bütün məcmusunun qarşılıqlı təsirini nəzərə almaqla, əldə edir.

Təsərrüfat sistemlərinin (iqtisadi sistemlərin) inkişaf meyillərinə baxışlar müxtəlifdir. Bəziləri hesab edir ki, sistemlərin inkişafında müəyyənləşdirici istiqamət eyniliyə, bütün struktur elementlərinin unifikasiyasına cəhddir. Məsələn, Y.Preobrajenski yazırdı ki, müxtəlif təsərrüfat sistemləri milli təsərrüfat hüdudlarında onlar arasında tam iqtisadi tarazlıq zəminində mövcud ola bilərlər, amma bu tarazlıq uzun müddət mövcud ola bilməz, çünki bir sistem digərini yeməlidir. Bu kimi nəzəri baxış hər hansı iqtisadi hadisələr və proseslərin (məsələn, kapitalizmdən sosializmə keçid dövründə xüsusi mülkiyyətin məhv edilməsi) tam məhvinə və yenilərinin yaradılmasına yönümlənmiş islahatlar dövrü iqtisadi siyasətinin əsasını təşkil edir.

Başqa iqtisadçıların fikrincə, müxtəlif iqtisadi sistemlərin yanaşı mövcudluğu həmin sistemləri qarşılıqlı surətdə zənginləşdirir, bu isə iqtisadi yüksəlişə və keyfiyyətcə yeni təsərrüfat sisteminin yaranmasına aparır. Məsələn, N.Buxarin yeni iqtisadi siyasətin (YİS) dərin mənasını onda görürdü ki, ilk dəfə müxtəlif təsərrüfat qüvvələrinin qarşılıqlı mayalandırılması üçün imkan açılmışdı və bu zəmində də yüksəliş təmin olunurdu. Müasir konvergensiya nəzəriyyəsi müxtəlif iqtisadi sistemlərin özlərinin inkişafı və təkmilləşməsi prosesində son nəticədə qovuşacağı və yeni təsərrüfat sistemi yaradacağı tezisinə əsaslanır.

Baxışlardakı bu kimi ziddiyyətlər iqtisadi sistemin inkişafının bir meyilin digərini əvəzlədiyi ziddiyyətli dövrünü əks etdirir. Bir çox ölkənin hazırda inkişafı bu nəzəri müddəanı təsdiqləyir.

«İqtisadi transformasiya» məfhumu iqtisadi sistemlərdə bərpası mümkün olmayan və gələcək modelin formalaşması yolunda yeni keyfiyyətə müəyyən keçid vəziyyəti yaradan əsaslı dəyişikliklərin qiymətləndirilməsinin zəruriliyi ilə əlaqədar meydana gəlmişdi. O, həmin prosesi müşayiət edən radikal islahatçı və ya inqilabi dəyişiklikləri nəzərdə tutur. «İqtisadi transformasiya»nı sıçrayış və tədrici təkamüli inkişafda müəyyən fasilə kimi nəzərdən keçirmək olar.

İqtisadi sistem qarşılıqlı əlaqədə olan fəaliyyət göstərmək və inkişaf etmək iki proseslə səciyyələnir ki, bunlar da bütün iqtisadi nəzəriyyənin məzmun özəyini istehsal üsulu və inkişaf üsulu olmaqla iki tərkib hissə kimi müəyyənləşdirir. İqtisadi sistemlərin transformasiyası nəzəriyyəsinin işlənilməsində iqtisadi elmi klassik məktəb üçün səciyyəvi olan metafizik metodu əvəzləyən materialist dialektika metodu ilə silahlandırmış marksist məktəbin böyük tarixi xidməti olmuşdur.

İqtisadi fikir tarixinin məşhur tədqiqatçısı M.Blauq dialektik metod baxımından inkişaf nəzəriyyəsinə K.Marksın tarixi xidmətlərini qiymətləndirərkən qeyd etmişdir ki, Marks təlimini min dəfə yenidən nəzərdən keçirmiş, inkar etmiş və dəfn etmişdilər, lakin o intellektual tarixlə qırılmaz əlaqədə qalmaqdadır. Bunun yaxşı və ya pis olmasından asılı olmayaraq, onun ideyalarının bir hissəsi bizim düşüncələrimizdə söykəndiyimiz zəmini təşkil edir.

Transformasiyanı iqtisadi sistemlərin inkişafının sabit inkişafı əvəzləyən müvəqqəti vəziyyətlərindən biri kimi başa düşmək lazımdır. Bu eyni zamanda keçidlilik vəziyyətidir ki, tədrici təkamülü əvəzləyir və vaxtaşırı meydana gələn obyektiv transformasiya proseslərinə adekvat reaksiya olan iki əsas formada çıxış edə bilir: inqilabi və islahati.

Bu proses tsiklik səciyyəlidir ki, ona hələ qədim dövrlərdə İbn Haldunun ideyalarında (sosial-iqtisadi sistemlərin təsnifatı cəhdləri), əl-Biruninin «böyük tarixi tsikllər»ində, daha sonralar isə N.D.Kondratyevin «uzun dalğalar» nəzəriyyəsində diqqət yetirilmişdi. Tarixi inkişaf prosesinin mahiyyəti, bu prosesə həsr olunmuş müasir nəzəriyyələrdə qeyd olunduğu kimi, «sabit (sustain-able) inkişaf»ı əvəzləyən keçid vəziyyəti fazasının yaranmasındadır.

Transformasiya prosesi hazırda bütün ölkələri əhatə

edir, lakin onların səviyyəsindən asılı olaraq xeyli fərqlidir. İnkişaf etmiş ölkələr üçün transformasiya artıq XX əsrin sonunda başlanğıc alan yeni iqtisadi sistem –postsənayenin (postsənaye və ya yeni informasiya cəmiyyəti) formalaşması deməkdir. İnkişaf etməkdə olan ölkələr üçün transformasiya inkişaf iqtisadiyyatı ilə səciyyələnir. Postsosialist ölkələri üçün keçid iqtisadiyyatı ilə xarakterizə olunur. Sivilizasiyaların inkişafı nəzəriyyəsinə görə Rusiya postsənaye iqtisadi sisteminə təxminən 2005-ci ildə daxil olmalıydı, lakin son islahatların nəticələri bunu proqnozlaşdırılan vaxt üçün etməyə imkan vermədi. Bəzi tədqiqatçılar göstərirlər ki, Rusiyada islahatlar həmişə «yuxarı»dan aparılıb və həmişə də, sonuncu istisna olunmaqla (XX əsrin sonu) böyük uğur qazanıb.

Keçid iqtisadiyyatlı digər postsosialist ölkələri kimi Rusiya üçün də inkişaf etmiş ölkələrlə müqayisədə transformasiyanın mahiyyəti tamamilə başqadır. Elmi birliyin çoxu bunu amirlik (totalitar) iqtisadiyyatından bazar təsərrüfatçılıq sisteminə keçid prosesi kimi başa düşür. Lakin keçid iqtisadiyyatının transformasiyanın belə şərhi kifayətedici və konkret deyil, çünki bazar iqtisadiyyatının hansı modelinin bizim üçün daha əlverişli olması məlum deyil.

Təcrübə göstərir ki, bazar iqtisadiyyatının bir çox modelləri var:

- klassik kapitalizmin bazar iqtisadiyyatı;
- inhisarçılıq dövrünün bazar iqtisadiyyatı;
- DİK və TMK bazar iqtisadiyyatı;
- Sosial yönümlü bazar iqtisadiyyatı.

Bazarın sosial yönümü – yalnız əhali üçün lazım olan əmtəələrin istehsalı və yalnız pul üzərində nəzarət deyil. Bu həm də pulsuz təhsil və səhiyyə sisteminin inkişafına dotasiyadır, dövlət tərəfindən tənzimlənən pensiya təminatıdır, ekologiyaya, əhalinin «zəif» qruplarına – əlillərə, xəstələrə, kimsəsizlərə, çoxuşaqlılara və s. qayğıdır. «Dövlət sosializmi»nin verdiyi, amma çoxları üçün dilənçi səviyyəsində[1], hər bir şey.

Postsosialist ölkələrində transformasiya prosesi sadəcə totalitar sistemdən azad bazar təsərrüfat sisteminə keçiddən çox mürəkkəbdir; o, informasiya iqtisadiyyatının, qloballaşmanın, kompyuterləşdirilmənin, informatikalaşdırmanın formalaşması, insan amilinin, maliyyə kapitalının rolunun artması və s. proseslərlə sıx qovuşur.

Keçid cəmiyyəti mozaik, çoxukladlıdır ki, burada ukladlardan heç biri üstün deyil və bütövlükdə cəmiyyətin iqtisadi sisteminin xarakterini müəyyənləşdirmir. Bütün ukladlar daimi qarşılıqlı əlaqədə, qarşılıqlı şərtlənmədə, inkişafdadır, çünki təkamüli inkişaf nəticəsində onların hansının qalib gələcəyi məlum deyil, çünki yenini assimilyasiya etməyə və öz inkişaf mənbəyinə çevirməyə qabildirlər. Keçidliyi müxtəlif formasiyalar, iqtisadi sistemlər arasında ara mərhələ hesab etmək lazım deyil.

Rusiya iqtisadiyyatı dünyanın XX əsrin əvvəlinin özünəməxsus modelidir. Bu gün də belə olaraq qalmaqdadır.

Rusiya modelinin aşağıdakı xüsusiyyətlərini fərqləndirmək olar:

- Rusiyada iqtisadiyyatın əhəmiyyətli inkişafı üçün zəruri olan istehsalın təmərküzləşməsi Qərbdəki kimi qabaqcıl texnika əsasında deyil, zəif texniki inkişaf zəminində aparılırdı;
- Bank və sənaye kapitallarının qovuşması inkişaf etmiş ölkələrdəki kimi real kapitalın maraqlarında deyil, bank kapitalının maraqlarında baş verirdi ki, bu da ölkənin iqtisadi inkişafını ləngidirdi;
- Ölkənin ölçülərinin nəhəngliyi və regionların inkişafının qaçılmaz qeyri-bərabərliyi dövlətin iqtisadiyyata ciddi müdaxiləsini tələb edir ki, bu da həmişə səmərəli olmur. Hələ F.Engels yazırdı ki, Rusiyada sənayenin inkişafı süni, yuxarıdan göstərişlə olmuşdu.

1 Daha ətraflı bax: Эрхард Л. Благосостояние для всех. Экономическая библиотека, http:// e2000/Kyiv.org.

Bu gün yenidən iqtisadi artım problemi gündəlikdədir. Belə ki, C.Perkins göstərir ki, Harvard universitetinin professorlarının irəli sürdüyü iqtisadi artım konsepsiyası doğru deyil. İqtisadi artımın bütün bəşəriyyətə rifah gətirməsinə və bu artım nə qədər böyük olsa, insanların bir o qədər uduşda olacağına inam yanlışlıqdır. «Biz bilirik ki,- C.Parkins yazır,- bir çox ölkələrdə iqtisadi artım əhalinin az bir hissəsinə xeyir gətirir, özü də bu zaman çoxluğu çox vaxt olduqca ağır vəziyyətə salır». Belə ki, Ekvatorda neft bumu 1970-ci illərdən ölkə əhalisinin yoxsulluğunu 50%-dən 70%-ə, işsizliyi 15%-dən 70%-ə qaldırdı, dövlət borcu 240 mln ABŞ dollarından 16 mlrd. dollara qədər artdı, əhalinin ən yoxsul təbəqəsi üçün ayrılan təbii resursların payı 20%-dən 6%-ə düşdü. Hazırda bütün dünyada üçüncü dünya ölkələrində xüsusi kapitalın və daşınmaz əmlakın 70-dən 90%-ə qədəri həmin ölkələrin 1% əhalisinə məxsusdur. Bununla əlaqədar olaraq, müəllif göstərir ki, ÜDM-in təbiəti də aldadıcıdır, onun artımının iqtisadi tərəqqinin göstəricisi olması fikri də yanlışdır. Zənnimizcə, burada istehsalı və iqtisadi artımın nəticələrinin bölgüsünü səciyyələndirən əsas makroiqtisadi göstəricinin - ÜDM-in istehsalı və bölgüsünün iki problemi qarışdırılır. Bir şeylə razılaşmamaq mümkün deyil ki, hazırkı bazar təsərrüfat sistemi şəraitində iqtisadi artımın nəticələrinin bölgüsündə ədalətsizlik artıq elə həddə çatmışdır ki, bundan sonra insan sivilizasiyasının məhvi mümkündür.

Bu mülahizələr qısa tarixi müddət ərzində ölkədə istehsal həcminin (və deməli, ÜDM-in) iki dəfə artırılması ilə bağlı Rusiya konsepsiyasına tənqidi nəzər salmağı labüdləşdirir. Bu məsələni həll etmək mümkündürmü? Bəli. Məqsədəuyğundurmu? Heç də yox. Məsələ burasındadır ki, neft çıxarılmasının, meşə kəsilməsinin artırılması və onların xaricə daşınması ÜDM-in iki dəfə artmasını təmin edər.Və bu artım, şübhəsiz, bizim cəmiyyətin aşağıdakı üç sosial qrupunun maraqları dairəsində baş verər: xammal ixracı həcminin artırılmasını istəyən ***xammal qrupları***, həcmlərin artırılması yolu ilə gedən (dəqiq vuran silah yerinə daha çox tank istehsal etmək) ***hərbi-sənaye kompleksi*** və uzaqgörən olmayan ***bürokratiyanın***, çünki o, hesab edir ki, hər şey öz yoluyla getdikdə, idarə etmək asan olur.

Lakin ölkəyə bu yalnız zərər verə bilər, çünki o, qabaqcıl ölkələrin xammal mənbəyinə dönər və onlardan asılılığı artar.

RF iqtisadiyyatının inkişafının başqa bir variantı da var, məsələn, mövcud sahələrin, məsələn, avtomobilqayırmanın, istehsal həcmini iki-üç dəfə artırmaq. Ölkənin məlum avtomobillərini daha çox istehsal etmək Moskvanın və digər böyük şəhərlərin havasını xarici avtomobillərdən istifadə etdiyindən daha çox çirkləndirmək deməkdir. Xarici avtomobillər yanacağı daha az işlədir və daha ekolojidir. Buradan da belə nəticə çıxır: istənilən istehsalı deyil, istehsalla yanaşı həm də bütövlükdə cəmiyyətdə tərəqqini təmin edən istehsalı artırmaq lazımdır!

Deməli, söhbət həm də iqtisadi artımın onun nəticələrinin ədalətli səmərəli bölgüsü probleminin həllini özündə ehtiva edən yeni keyfiyyətindən getməlidir. Yeni iqtisadi sistemin formalaşma prinsiplərinin özlərinin dəyişdirilməsi lazımdır. Məsələn, əgər sənaye dövründə artım prioritetlərini 30-50 il üçün müəyyənləşdirmək və bu müddət başa çatdıqdan sonra qabaqcıl ölkələr sırasına daxil olmaq mümkün idisə, hazırda prioritetlər sürətlə dəyişir. Deyək ki, adambaşına düşən kompyuter istehsalına görə bütün dünyanı qabaqlamaq olar, lakin bu reallaşandan sonra aydın ola bilər ki, kompyuterlər artıq lazım deyil. Başlanan postsənaye dövründə ən əsas şey «dəmir-dümür» deyil, yüksək ixtisaslı savadlı adamların sərbəst malik olduğu informasiya axınlarıdır, bizdə isə vətəndaşların 85%-i internetlə heç vaxt işləməyib, 35%-i isə rəsmi statistikaya görə yoxsulluq səviyyəsindən aşağı səviyyədə yaşayır.

Bu, inkişaf etmiş ölkələrlə müqayisədə Rusiya iqtisadi modelinin bir xüsusiyyətidir.

Rusiya iqtisadiyyatının ikinci xüsusiyyəti onun xammal yönümlü olmasıdır. Əgər ABŞ 16 ildən sonra neftlə əla-

qədar olmayan başqa yanacaqla işləyən avtomobil yaratmağı qarşısına məqsəd qoysa, bizim neftimiz kimin nəyinə lazımdır?

Rusiya iqtisadi sisteminin özəlliyini səciyyələndirirlər: qanunvericilik sistemi ilə iqtisadi praktika arasındakı hədsiz böyük fərq; bizneslə hakimiyyətin qovuşması – bu, RF-də «oliqarx təsərrüfat sisteminin» və ya Q.Yavlinskinin sözləri ilə desək, *qeyri-səmərəli kapitalizm sisteminin* yaranmasından danışmağa əsas verir.

İqtisad elmində iqtisadi transformasiyanın üç növü fərqləndirilir:

- epoxal (böyük texnoloji inqilablarla şərtlənən);
- sistemlərarası (kapitalizm və sosializm);
- sistemdaxili.

İqtisadi sistemlərin transformasiyasının ümumi qanunauyğunluqlarına müasir elm aid edir:

- qeyri-sabitliyi;
- keçidliliyi;
- qeyri-xəttiliyi;
- qloballığı.

Müasir iqtisadi sistemlərin transformasiyası üçün ***institusional islahatlar siyasətinin*** mühüm əhəmiyyəti var.

İnstitutlar – qaydalar, qanunlar, adətlər, ənənələr, müxtəlif növ təşkilatlar: korporasiyalar, həmkarlar ittifaqları, dövlət *(institutum* – qurum, təşkilat).

Əsas qüvvələrin təşkilatların – institutların olduğu təşkilati cəmiyyətin iqtisadi sistemi institusional iqtisadiyyat adlanır. İnstitusionalizm çərçivəsində postsənaye, informasiyalı yeni, postmodernist iqtisadiyyat, virtual kimi konsepsiyalar yaradılmışdır ki, inkişaf etmiş ölkələr öz sistemlərinin transformasiyasını məhz bu istiqamətdə aparırlar.

İnkişaf etmiş sənaye ölkələrinin iqtisadi sistemləri sənaye cəmiyyətinin postsənaye, informasiyalı cəmiyyətə, yeni iqtisadiyyata transformasiyasına məruz qalırlar.

§3. Yeni iqtisadiyyatın formalaşması və onun ən mühüm əlamətləri

Müasir cəmiyyətin formalaşmasının ən mühüm meyili xammal və sənaye iqtisadiyyatından intellektual resurslara, elmtutumlu və informasiya texnologiyalarına əsaslanan yeni iqtisadiyyata keçiddir. Hazırda yeni iqtisadiyyatın elmtutumlu sahələri yalnız qabaqcıl ölkələrin iqtisadi inkişafında həlledici rol oynamır və bunu da dünya yüksək texnologiyalar və elmtutumlu məhsullar bazarında xammal bazarındakı dövriyyəni bir neçə dəfə üstələyən dövriyyənin hər il artmasından görmək olar. Rusiyada yeni iqtisadi sistemin bərqərar olmasına əsas maneə istehsala yeni işlənmiş texnologiyaların tətbiqinin olduqca aşağı səviyyədə olmasıdır. Bununla əlaqədar olaraq yeni iqtisadiyyatın inkişafının təmin edilməsi yollarının axtarılması, onun mahiyyətinin və məzmununun öyrənilməsi get-gedə daha çox aktuallıq kəsb edir.

«Yeni iqtisadiyyat» məfhumu 1980-ci illərin əvvəllərində meydana gəlmişdi, lakin onda o, iqtisadiyyatın təsviri üçün əmtəə istehsalından daha çox xidmətlər istehsalı sahəsinə istinad edirdi.

Bu məfhum hazırda iqtisadiyyatın ənənəvi sahələrinin yeni elementlərlə üzvi surətdə qovuşaraq bütün sistemə prinsipial olaraq başqa keyfiyyətlər verən inkişafın postsənaye mərhələsinin sinonimii kimi şərh olunur.

Yeni iqtisadiyyat kimi bəşər sivilizasiyasının postsənaye inkişaf mərhələsi götürülərsə, onda onun tarixi yeri aydın olar (tarixi yeri sənaye iqtisadiyyatından sonradır). Olvin və Xaydi Tofflerlərin fikrincə, dünya iqtisadiyyatında yaranmış yeni hadisələr «yeni sivilizasiyadır ki, bünda «neoiqtisadiyyat» tərkib hissələrindən biridir»[1].


Bəzən «yeni iqtisadiyyat» dedikdə (dar mənada) yüksək texnologiyaların təsiri altında müasir sənaye iqtisadiyyatında meydana gələn və ayrı-ayrı makroiqtisadi parametrlərin dəyişməsinə səbəb olan müxtəlif dəyişikliklərin məcmusu

1 Walt Street Journal. 2001. March 29.

başa düşülür[1].

Əlbəttə, müxtəlif yeniliklərin və onların iqtisadiyyata təsirinin öyrənilməsi olduqca vacibdir, lakin onlar, birincisi, iqtisadiyyatda ayrı-ayrı xırdalıqlardır, ikincisi isə, mühüm xırdalıqlar olsalar da, iqtisadidən çox texnoloji xırdalıqlardır. İqtisad elmi iqtisadiyyatda hər şeydən əvvəl funksional texnoloji əsasları deyil, iqtisadi əsasları görməlidir. Və əgər yeni iqtisad məfhumu altında müxtəlif dəyişikliklərin məcmusu başa düşülərsə, onda onlar bütövlükdə iqtisadi sistemin dəyişilməsinə səbəb olan dəyişikliklər olmalıdır. Zənnimizcə, «yeni iqtisadiyyat», ənənəvi sahələrin həlledici rol oynadığı «köhnə sənaye iqtisadiyyatından» fərqli olaraq, çox vaxt təqdim olunduğu kimi yüksək texnoloji sahələrin inkişafı ilə məhdudlaşmır. Söhbət iqtisadiyyatda yalnız struktur dəyişikliklərindən deyil, həm də keyfiyyət dəyişikliklərindən getməlidir.

Yeni iqtisadiyyatın tarixi formalaşma prosesi göstərir ki, sonrakı sivilizasiyanın elementləri əvvəlki sivilizasiyada yaranırlar. Əvvəlcə ayrı-ayrı hadisələr kimi, sonra güclənirlər, onların xüsusi çəkisi artır, onlar artıq iqtisadi sistemdə ayrıca bölmə və ya altsistem əmələ gətirirlər. Yeni altsistem üstün yer tutmağa başladığı halda iqtisadi sistem onun adını daşımağa başlayır (şəkil 27.1).



Şəkil 27.1. Yeni iqtisadiyyatın formalaşması:
a) sənaye iqtisadiyyatı; b) yeni iqtisadiyyat

1 Стрелец И.А. Новая экономика и информационные технологии. М.: Экзамен, 2003. С.137-138.

Şəkil 27.1.a-da altsistemi sivilizasiyanın bu inkişaf mərhələsində ən çox xüsusi çəkiyə malik olan sənaye (ənənəvi) iqtisadiyyatı təsvir olunmuşdur. Yeni iqtisadiyyat bölməsinin inkişafı və genişlənməsi ilə əlaqədar olaraq sənaye iqtisadiyyatının bölməsi azalır, bütün iqtisadi sistem isə «yeni iqtisadiyyat» (şəkil 27,1,b) adlı iqtisadi sistemə çevrilir.

Müasir dünya ölkələrindən çoxu, o cümlədən də Rusiya, hələ ki, yeni iqtisadiyyata gedən yoldadırlar.

Yeni iqtisadi sistemi yeni iqtisadi məzmunlu iqtisadi sistem və iqtisadiyyatın bir hissəsi, yəni yüksək texnoloji sahələrdən (aerokosmik, kompyuter, kommunikasiya vasitələri, proqramm təminatı, biotexnologiya) ibarət iqtisadiyyatın, iqtisadi sistemdə müxtəlif meyarlar üzrə fərqləndirilən ənənəvi «təhsilin iqtisadiyyatı», «elmin iqtisadiyyatı», «şəbəkə iqtisadiyyatı», «virtual iqtisadiyyat», «ev təsərrüfatının ye ni iqtisadiyyatı» bölmələri və s. ilə yanaşı, texniki cəhətdən şərtlənmiş fraqmenti və ya bölməsi kimi fərqləndirmək lazımdır.

İqtisadi ədəbiyyatda yeni iqtisadiyyatın ən müxtəlif məfhumlarla adlandırılmasına rast gəlinir. Hər halda ona yaxın mənada post- və yenisənaye cəmiyyəti, informasiya, virtual, şəbəkə iqtisadiyyatı, bilik, təhsil, elm iqtisadiyyatı və s. işlədilir. Bu ondan irəli gəlir ki, nəzəri iqtisadda (tədqiqat obyekti praktik iqtisadiyyat olan elmdə) praktik iqtisadiyyatın iqtisadi dominantın (təsərrüfat sistemində ən mühüm iqtisadi hadisə) fərqləndirilməsi əsasında müxtəlif iqtisadi sistemlər şəklində fəaliyyət göstərməsi qəbul olunur. Praktik iqtisadiyyat hər hansı bir subyektiv qiymətləndirmədən asılı olmayan obyektiv reallıqdır. Nəzəri iqtisad isə şüurun məhsuludur ki, o da alimin unikal keyfiyyətlərindən asılıdır və buna görə də subyektiv səciyyəlidir. Ayrı-ayrı iqtisadi sistemlər üçün iqtisadi dominantın müxtəlif cür şərh olunma imkanı da bundan irəli gəlir.

Sənaye iqtisadiyyatının iqtisadi dominantı-maddi əmtəələrin sənaye istehsalının həlledici əhəmiyyəti - hamıya məlumdur. Postsənaye iqtisadiyyatında sənayenin tərkib hissə-

si *texnoloji komponentin əhəmiyyətinin artması səbəbindən öz aparıcı rolunu itirir, əsas məhsuldar funksiya isə elmə, biliklərə, xidmət sahələrinə verilir* (bu zaman sonuncuda işləyən əhalinin 50%-dən çoxu çalışmalıdır). Bu iqtisadi dominantın fərqləndirilməsi alimlərə intellektual rentanın təbii rentanın xeyli hissəsini əvəzləyən sosial-iqtisadi inkişafın fundamental mənbəyinə çevrildiyi «təhsil iqtisadiyyatı», «yeni elm iqtisadiyyatı»nın formalaşmasından danışmağa əsas verir.

Postsənaye və ya yenisənaye iqtisadiyyatı

«Postsənaye cəmiyyəti» məfhumunun meydana gəlməsi həmin ifadəni 1958-ci ildə öz məqaləsinin adında işlətmiş *Amerika sosioloqu D.Rismenə* və ya bu anlayışı 1959-cu ildə Zalsburqda beynəlxalq seminardakı çıxışında işlətmiş digər *Amerika sosioloqu D.Bellə* aid edilir.

Amerika iqtisadçısı K.Klarkın «İqtisadiyyat 1960-cı ildə» və fransız ictimaiyyətşünası J.Furastyenin «XX əsrin böyük ümidi» əsərlərində postsənaye cəmiyyəti nəzəriyyəsinin ən mühüm metodoloji prinsipləri və xidmət sahəsi və informasiya bölməsinin həm məcmu iş qüvvəsində, həm də ÜDM-in strukturunda gələcəkdə payının artması haqqında müddəa verilmişdi.

Postsənayeçiliyin əsasını yeni maddi-texniki baza, daha dəqiq: elektronika, ən yeni texnologiyalar, kompyuterləşmə təşkil edir ki, bu da işçilərə yeni tələblər doğurur.

Bu cəmiyyətdə əsas fiqur insandır. Ona görə də cəmiyyəti sosial yönümlü bazar iqtisadiyyatı adlandırmaq olar.

Postsənaye cəmiyyətini səciyyələndirən əsas məqamlar (cizgilər) bunları hesab etmək olar:

- xidmət sahəsinin üstünlük təşkil etməsi;
- fərdlərarası kommunikasiya;
- elmi tədqiqatların böyük rolu;
- nəzəri biliklərin artan rolu;
- təhsilin aparıcı rolu.

Cəmiyyətdə peşə strukturunun sürətlə dəyişilməsi, məhsul istehsalı texnologiyasının daim yeniləşməsi, həmçinin innovasiya prosesi və elmi texniki tərəqqi ilə əlaqədar olaraq insanın müasir cəmiyyətə adaptasiyası qarşısında **ön plana təhsil məsələsi, yəni ikinci ali və orta təhsilin alınması, işçinin ixtisasının dəyişdirilməsi məsələsi çıxmışdır.**

Postsənaye cəmiyyəti innovasiya spiralının təsiri altında informasiya cəmiyyətinə çevrilir.

Postsənaye («postiqtisadi») məzmun istehsala nisbətdə - bilavasitə məhsuldar qüvvə kimi elmə və xidmət sahəsinə struktur meyil etməsini; məhsula nisbətdə - elmi biliklərin, informasiyanın, mənəvi nemətlərin ön plana çıxmasını; əməyə nisbətdə – ümumun elmi əməyinin yaradıcı əmək kimi formalaşmasını; tələbatlara nisbətdə – sosial-mənəvi tələbatların (təhsildə, mədəniyyətdə, yaradıcılıqda, sağlam ətraf mühitdə və s.) həlledici əhəmiyyətini; stimullara nisbətdə – şəxsiyyətin yaradıcı özünürealizəsi stimullarının üstünlüyünü; mülkiyyətə nisbətdə – intellektual mülkiyyətin ona xas olan elmi əmək məhsulunun özgəninkiləşdirilməsinin spesifik üsulunun rolunun mühümlüyünü və «əşyavi» mülkiyyət formalarının rolunun azalmasını və s. bildirir. Bütün bu xarakteristikalar yeni postsənaye iqtisadiyyatı kateqoriyalarının bitkin sistemini formalaşdırmağa qabildir.

İqtisadi inkişafın mənbələri və amilləri haqqında yeni təsəvvürlər təhsili, elmi, tibbi, telekommunikasiyaları, menecment vərdişləri və təcrübəsini ictimai həyatın bütövlükdə ölkənin iqtisadi inkişafının sürəti və istiqamətinə həlledici təsir göstərən sahələri kimi qavramağa və qiymətləndirməyə imkan verir. Bu gün ictimai istehsalda qeyri-maddi komponentin nə dərəcədə inkişaf etməsindən, postsənaye meyillərin nə dərəcədə güclü olmasından çıxış edərək ölkənin inkişafı haqqında fikir yürütmək olar.

İnformasiya iqtisadiyyatı

Postsənaye («postiqtisadi») cəmiyyətin əsasını keyfiy-

yətcə başqa texnoloji bazis və iqtisadiyyatın başqa strukturu təşkil edir və təsadüfi deyil ki, «informasiya cəmiyyəti» (məfhum elmi dairəyə 1960-cı illərdə ABŞ-da F.Mahlup və Yaponiyada T.Umesao tərəfindən daxil edilmişdir), «informatika və yüksək texnologiyalar cəmiyyəti», «xidmətlər cəmiyyəti», «yeni iqtisadiyyat» və s. adını almışdır.

İnformasiya cəmiyyətinin yaradılması üç mərhələdən keçmişdir:

1) zehni əməyə qabil olan elektron-hesablama maşınlarının yaranması. İlk EHM 1945-ci ildə yaradılmışdı;

2) mikroprosessorlarla işləyən kompyuterlərin yaradılması;

3) mobil rabitənin inkişafı.

1970-ci illərin ortalarında (1975-ci il civarında) «İnformasiya cəmiyyətinin layihəsi – 2000-ci il üçün milli ideya» işlənib hazırlanmışdı və tədqiqat qrupunun rəhbəri Yonen Masuda idi.

İnformasiya cəmiyyəti və ya bilik cəmiyyəti elə bir cəmiyyətdir ki, burada informasiya məhsulunun istehsalı maddi nemətlər istehsalından üstündür.

Xalq təsərrüfatı kompleksinin bütün sahələrində əsas mövqeləri biliklər tutur və onlar cəmiyyətin inkişafının elə aşkar və həlledici amilinə dönürlər ki, strateji resurslara çevrilirlər. İnformasiya cəmiyyətinin strateji resursları onun inkişafının özündə zehni kapital, insanın intellektual qabiliyyətləri, nəzəri biliklərin cəmlənməsini, peşəkarlığı birləşdirən vasitə və mənbələridir. İnformasiya cəmiyyəti – bilik cəmiyyətidir, lakin alimlərin çoxu informasiyanın biliklə eyniləşdirilməsinin əleyhinə çıxır, hesab edirlər ki, informasiya cəmiyyətindən deyil, «informatika və rabitə cəmiyyətindən» danışmaq lazımdır, «bilik» anlayışı isə «informasiya» anlayışından fərqləndirilməlidir. Hərdən bu kimi təsərrüfat sisteminə tətbiqən «bilik iqtisadiyyatı» məfhumunu işlədir və bununla da vurğulayırlar ki, cəmiyyətin ən mühüm istehsal resursu nisbətən obyektiv mahiyyət kimi informasiya və ya bu və ya digər istehsal prosesləri və texnoloji proseslər haqqında verilənlər dəstindən çox biliklər, yəni insan tərəfindən qavranılmış və onun şüurundan kənarda mövcud olmayan informasiya olur.

İnformasiya iqtisadi sistemində informasiya məhsulu istehsalı maddi nemətlərin istehsalından üstünlükverimli olur, iqtisadiyyatın kənd təsərrüfatı, sənaye, xidmətlər bölməsindən sonra gələn dördüncü bölməsi üstünlük təşkil edir. Sənaye cəmiyyətinin əsası olan kapital və əmək yerini informasiya cəmiyyətinin əsası olan informasiyaya verir.

İnformasiya cəmiyyətinin konsepsiyası postsənaye cəmiyyəti nəzəriyyəsinin bir növüdür və bu da postmodernist cəmiyyətinin sinonimi ola bilər.

Postmodernist cəmiyyəti

Postmodernist cəmiyyəti informasiya cəmiyyətinin sonrakı inkişafıdır.

«Postmodernist cəmiyyəti» məfhumunun meydana gəlməsi «postmodernizm» məfhumunun meydana gəlməsi ilə bağlıdır. «Postmodernizm – son on beş-iyirmi ildə Qərbin inkişaf etmiş ölkələrinin mədəni özünüdərkində təzahür edən meyillərin məcmu şəklində göstərilməsidir»[1].

Postmodernizm sözün hərfi mənasında *moderndən sonra*, yəni müasirlikdən sonra (fransızca modern - müasir) deməkdir. Məfhum statusunu postmodernizm 1980-ci illərin ortalarında (1985-ci ilə yaxın) postmodernizm haqqında diskussiyaları fəlsəfə sahəsinə gətirmiş *fransız filosofu Jan-Fransua Liotarın* (1924-cü ildə doğulub) əsərləri sayəsində almışdır.

Postmodernist cəmiyyətində böyük siyasi fəallıq, siyasi fəaliyyətə böyük investisiyalar, biliklərin, təhsilin və elmi tədqiqatların prioritetli olması kimi parametrlər ön plana çıxır. Postmodernist cəmiyyəti – XX əsrin sonu və XXI əsrin əvvəlinin sivilizasiyasının müasir cəmiyyətidir.

1 Современная западная философия: Словарь / Сост. В.С.Малахов, В.П.Филатов.- М.: Политиздат, 1991. С.117.

Postmodernist cəmiyyətinin fəaliyyət göstərməsinin ən mühüm şərtlərindən biri *informasiya istehsalında plüralizmdir*. Bu halda plüralizm (latınca: pluralis - çoxluq) *fikir və baxışların çoxluğunu bildirir*. Bu gün müxtəlif təsərrüfat subyektlərinin (korporasiyalar, firmalar, sığorta şirkətləri və s.) kompyuterlərinin fayllarında strateji mühüm informasiya vardır. Dövlət bunları nəzarətdə saxlamalıdır.

Postmodernist cəmiyyətin inkişafı virtual iqtisadiyyat və interaktiv bizneslə sıx bağlıdır.

Virtual iqtisadiyyat

Virtual iqtisadiyyat – insanın həyat və fəaliyyətinin əsas qanununa (vaxta qənaət qanunu) və interaktiv biznesə əsaslanan iqtisadiyyatdır.

İnsanın öz həyatında istifadə etdiyi vaxt iki hissədən ibarətdir: faydalı və lazımsız. İnsanın faydalı vaxtına iş vaxtı, istirahət vaxtı, fizioloji tələbatların ödənilməsinə vaxt daxildir. Lazımsız vaxta nəyinsə gözlənilməsinə sərf olunan vaxt, növbələrdə, yollarda, işə gedəndə və işdən qayıdanda yolda itirilən vaxt və s. daxildir.

Vaxta qənaət qanununun mahiyyəti lazımsız vaxt sərfini aradan qaldırmaq və minimuma endirməkdən ibarətdir.

Hazırda inkişaf etmiş ölkələrdə bu qanunun həyata keçirilməsi halları çoxdur. Məsələn, evdə əməyin (muzdlu əməyin) inkişaf etdirilməsi və ümumi əmək sərfində onun payının artırılması. Belə ki, rabitə vasitələrindən istifadə edərək evdən çıxmadan istehsalatda texnoloji xətləri, müəssisənin maliyyə-kommersiya fəaliyyətini idarə etmək, mühasibat uçotunu aparmaq, insanın xəstəliyinin diaqnostikasını aparmaq və ona ilk tibbi yardım göstərmək, distant yolla təhsil müəssisəsində oxumaq, kitabxanada kitab oxumaq, prezidentləri seçmək, əmtəə almaq (məhsulun miqdarını nəzarətdə saxlayan və məhsulun gətirilməsinə avtomatik sifariş verən soyuducular artıq vardır), bank, birja və digər maliyyə əməliyyatları və s. mümkündür.

İnteraktiv biznes (ingiliscə: interaction – qarşılıqlı əlaqə və buziness - iş) iş adamı ilə təmsil olunan biznes- prosesin və kompyuter və ya hər hansı başqa bir avtomatlaşdırılmış rabitə vasitəsinin birgə fəaliyyəti üzərində qurulan biznesdir.

Virtual iqtisadiyyat bazar iqtisadiyyatının ənənəvi formalarından fərqli baza parametrlərinə malik modifikasiya olunmuş bazar iqtisadiyyatı formasıdır. Bazar iqtisadiyyatından danışanda, birdəfəlik bilmək lazımdır ki, bu, imiclər iqtisadiyyatıdır. Virtual iqtisadiyyat – olduqca yüksək imiclər və olduqca yüksək reytinq səviyyəsi iqtisadiyyatıdır və bu da internet şəbəkəsi və mobil rabitədən istifadə şəraitində sərt rəqabətə səbəb olur. Virtual iqtisadiyyat bazarlarında əsas əmtəə avtomatlaşdırılmış informasiya texnologiyasıdır.

Şəbəkə iqtisadiyyatı

Yeni iqtisadiyyatı təsvir etmək üçün bir sıra iqtisadçılar «şəbəkə iqtisadiyyatı» (network ekonomy) məfhumundan da istifadə edirlər. Belə yanaşma tamamilə düzgün görünür, çünki yuxarıda sadalanmış yüksək texnoloji sahələr şəbəkə nemətlərinin istehsalı ilə məşğul olurlar; məhz şəbəkələr, bir sıra prinsipial unikal xarakteristikalara malik olmaqla, yeni iqtisadiyyatın xüsusiyyətlərini müəyyənləşdirirlər.

Və həqiqətən də iqtisadiyyata keyfiyyətcə yeniliyi qlobal elektron torda – internetdə yerləşən sahibkarlıq şəbəkələri gətirmişlər. İnternetin yaranmasının ilkin mərhələsində sahibkarlıq şəbəkələri özlərini dünya təsərrüfatının hətta TMK-a tabe olmayan virtual korporasiyalar şəklində göstərmişlər. Onların əsas rəqabət üstünlüyü transaksiya xərclərinin aşağı olmasıdır. 1997-1998-ci il böhranından sonrakı iki il ərzində TMK əsas virtual şəbəkələri öz təsir dairələrinə daxil etdilər və pul vəsaitlərinin azad axınlarını biznesin elektron idarəolunması texnologiyalarına yönəltməyə başladılar. İnnovasiyalı elektron firmalarının TMK tərəfindən udulması prosesi xüsusilə çətin gedirdi.

Ümumiliklə kompyuterləşmə və internetin mənimsənilməsi kapitalın əsas (bir ildən çox müddət) və dövriyyə (bir ildən az müddət) kapitalına bölünməsinin əsası kimi vaxt amilinin rolunun dəyişməsinə səbəb oldu. Bu da öz növbəsində dəyərin məzmununa və deməli, qiymətə və xərclərə yenidən baxılmasını tələb etdi. Dəyərin və xərclərin və ya qarşılıqlı əlaqəyə xərclərin modifikasiyası öz əksini dəyərin saxlanılmasına xərclərin xeyli azalmasında tapdı və dünya ***transaksiya inqilabı adını aldı.***

İntellektonomika və bilik iqtisadiyyatı

Yeni iqtisadiyyatın müəyyənləşdirici zəmini kimi cəmiyyətin sonrakı inkişafının əsas resursuna çevrilən bilik və intellekt çıxış edirlər. Məhz buna görə də bəzi müəlliflər yeni iqtisadiyyatı intellektonomika və bilik iqtisadiyyatı adlandırırlar. İntellekt (latın sözü: *intellectus*) insanın ağlını, düşüncəsini, şüurunu, düşüncə qabiliyyətini, bilik toplamaq qabiliyyətini bildirir. İntellektual əmək cəmiyyətdə sərvət toplanılmasının həlledici amilinə dönür.

Bu gün və yaxın gələcəkdə məhz intllektual cəhətdən inkişaf etmiş insan yeni məsuliyyətli və qeyri-standart qərarlar qəbul etməlidir, informasiya və kompyuterlər isə onların mexaniki həyata keçirilməsi vasitələridirlər. Yeni kompyuter texnologiyaları və işləmələri hər şeydən öncə bu kimi qərarların meydana gəlməsi üçün əlverişli mühit yaradılmasına, insanın istedadlar və yaradıcılıq imkanlarının maksimum üzə çıxarılmasına yönəldilmişdir.

Yeni cəmiyyət tipi kimi intellektonomikanın formalaşmasının əsasında üç əsas meyil dayanır: intellektuallaşdırma, sosiallaşdırma və humanizasiya.

Cəmiyyətin intellektuallaşdırılması, ədəbiyyatda hesab olunduğu kimi, geniş dairələr üçün əlyetər olan ən yeni informasiya texnologiyalarının yaradılmasını, intellektual komponentlərin insanın həyat fəaliyyətinin bütün sahələrinə tətbiq edilməsini, həmçinin biliklərin yeni sahələrinin və tətbiq istiqamətlərinin yaradılması və inkişaf etdirilməsini, elmi bazanın genişləndirilməsini, ölkədə təhsil səviyyəsinin yüksəldilməsini nəzərdə tutur.

Humanizasiya - yaranmaqda olan cəmiyyətin tamhüquqlu üzvü kimi yüksək mənəviyyatlı və intellektual insanın istehsal prosesidir. Bu prosesin ən mühüm komponentləri insanın cəmiyyətdə mövqeyindən asılı olmayaraq qiymətli olmasını və şəxsiyyətin öz yaradıcı qüvvələrini inkişaf etdirmək hüququnun olmasını təsdiqləyən ümumi baxışların formalaşması, insanlar arasında bərabərlik, ədalətlilik prinsiplərinin bəyan edilməsidir.

Sosiallaşdırma – insanın müəyyən mədəniyyəti onun cəmiyyətdə bərabərhüquqlu partnyor kimi fəaliyyət göstərməsinə imkan verən biliklər, normalar və dəyərlər sistemi kimi mənimsəməsi prosesidir. İnsanların bir insani varlıq kimi formalaşması mədəniyyət normalarının mənimsənilməsini nəzərdə tutur və onların sonrakı həyat fəaliyyəti bu normaları bilmələrinə söykənir.

Əvvəllər ictimai nemət hesab olunan əmək amilinin təkamül məhsulu kimi intellektual əmək yeni iqtisadiyyat şəraitində xüsusi mülkiyyət olur, dəyərin maddi substansiyası isə əmtəə – bilik olur.

Tamamilə yeni iqtisadi sistemin formalaşması prosesinin fundamental zəmini ***keyfiyyətcə yeni tip texnoloji və təsərrüfat ukladıdır.*** Qərb iqtisadçısı D.Tapskott yeni texnologiyaları köhnələrindən fərqləndirən texnoloji baxımdan bir sıra prinsipial dəyişiklikləri fərqləndirir: rəqəmsal siqnalın, mikroprosessorların, müştəri-server arxitekturalı hesablama kompleksinin, informasiya magistralının, informasiya məişət aparaturasının, multimediyanın, açıq sistemlərin, intellektual şəbəkələrin, obyektiv-yönümlənmiş proqramlaşdırmanın, multimediya interfeyslərinin meydana gəlməsi[1].

Texnoloji dəyişikliklərin tempində müəyyən artımı da qeyd etmək olar. Son illərdə yeni texnologiya məhsullarının

1 Тапскотт Д. Електронно-цифровое общество. М.: «Рефл-бук», 1999. С.121.

qiymətlərinin dinamikasının əhəmiyyətli dərəcədə azalması baş verir. Kompyuterin məhsuldarlığının real qiyməti ildə təxminən 35%, telefon danışıqlarının dəyəri ildə təxminən 10% azalır. Deməli, qeyd etmək olar ki, innovasiyaların tempi sadəcə yüksək görünmür, o həqiqətən də artır.

Yeni iqtisadiyyatın xüsusiyyəti kimi praktik olaraq bütün iqtisadi sektorlarda səmərəliliyin artmasına rəvac verən ***informasiya texnologiyalarının hər şeyə nüfuz edən*** olmasını da göstərmək olar. İnternet əmtəə və xidmətlərə daha əlverişli qiyməti tapmağa imkan verir, potensial partnyorlar arasında transaksiya xərclərini azaldır, bazarın yeni iştirakçıları qarşısından artıq maneələri aradan qaldırır. Onlayn ticarəti artıq vasitəçiləri sıxışdırmaqla inzibati xərcləri azaltmağa imkan verir, artıq əmtəə-material ehtiyatlarını azaldır. Bir çox tədqiqatçılar yeni iqtisadiyyatın fərqli xüsusiyyəti kimi belə bir amili götürürlər: ***əsas istehsal resursu iqtisadi informasiya*** (yəni iqtisadi fəaliyyətə təsir göstərən obyektlər və hadisələr, onların təsərrüfatçılıqda zəruri olan biliklərin qeyri-müəyyənliyini, yarımçıqlığını azaldan parametrləri, xüsusiyyətləri və vəziyyəti haqqında verilənləri) ***olur.***

Ayrı-ayrı iqtisadçılar bundan da uzağa gedirlər. Bir halda ki, yeni iqtisadiyyatda istənilən informasiya deyil, insan tərəfindən dərk olunub mənimsənilmiş, onun biliyinə çevrilmiş (onun şüurundan kənarda mövcud olmayan) informasiya ən çox əhəmiyyət kəsb etdiyindən ***yeni iqtisadiyyatın əsasının bilik, intellekt olduğunu söyləmək daha düzgün olar.*** Yeni cəmiyyətin inkişafının əsas resursu məhz onlar olur.

M.Kastels bununla bağlı yazırdı ki, yeni iqtisadiyyatın xüsusiyyəti informasiyanın mərkəzi rolu deyil, «informasiyanın bilik istehsalına və informasiyanı işləyən və innovasiya ilə innovasiyaların istifadə edilməsi istiqamətləri arasında əks əlaqənin kumulyativ ilgəyində kommunikasiyanı həyata keçirən qurğulara tətbiqidir»[1].

1 Кастелс М. Информационная эпоха: экономика, общество и культура /Под ред. О.И.Шкаратана.- М.: ГУ ВШЭ, 2000. С.51.

Yeni iqtisadiyyatın formalaşması daha az «maşın-intensiv» və daha çox «bilik-intensiv» iqtisadiyyatın formalaşması prosesidir. Ənənəvi istehsal amilləri – torpaq (yəni təbii resurslar), iş qüvvəsi və kapital yoxa çıxmayıblar, amma ikinci məna kəsb ediblər. Əgər lazımi biliklər varsa, bu resursları, özü də böyük əziyyətsiz, əldə etmək olar. Yeni anlamında bilik real faydalı qüvvəni, iqtisadi nəticələrə çatmaq vasitəsini bildirir.

Sənaye iqtisadiyyatı üçün istehsalın inkişafının ümumi meyili xarakterikdir və bu, məhsulun əməktutumluluğunun azaldılmasından və eyni zamanda kapitaltutumluluğunun artmasından ibarətdir. Yeni iqtisadiyyatda bu iki göstərici arasında qarşılıqlı əlaqələr daha mürəkkəb səciyyə daşıyır, çünki əmək və kapitalla yanaşı istehsalın mühüm amili elmi-texniki biliklər və informasiya olur.


Yeni iqtisadiyyatın digər xüsusiyyəti onun «görünməmiş» mənfəətliliyi haqqındakı miflə bağlıdır. 2000-ci ilin martından Amerikanın yüksək texnoloji kompaniyalarının indikatoru olan Nasdaq birja indeksi durmadan aşağı düşməyə başladı: 5000 punktdan 2000 punktadək. İnvestisiyalar və kreditlər axını tamamilə real olduğu, amma gəlirlər gözlənildiyi qədər böyük olmadığından (yeni iqtisadiyyatın bəzi sahələrində ümumiyyətlə yox idi), belə bir sual doğur ki, son 15 ildə yaradılmış yeni iqtisadiyyatın bölməsi istixana şəraitində deyil, real iqtisadi şəraitdə necə fəaliyyət göstərəcəkdir.

Beləliklə, yeni iqtisadiyyat bu günə, şəksiz, birmənalı olmayan və xeyli ziddiyyətli hadisədir.

Yeni iqtisadiyyatın xüsusiyyətlərinə bazar modelinin dəyişməsini də aid etmək olar:

- yeni iqtisadiyyatda bazarda alqı-satqı obyekti şəbəkə nemətləridir ki, onları da praktik olaraq sıfır son həddə xərcləri ilə təkrar istehsal etmək olar və onlar istehsalçılar üçün zahiri şəbəkə effektləri doğururlar;
- yeni iqtisadiyyatda bazarın əsas parametrləri – məhz tələb və təklif – özlərini ənənəvi qaydada aparmırlar. İstəni-

lən dərslikdə verilən standart iqtisadi nəzəriyyə məlum fikrə əsaslanır: konfiqurasiyasının əsasında artan son həddi xərcləri duran təklif əyrisi müsbət mailliklidir, konfiqurasiyasının əsasında azalan son həddi faydalılığı duran tələb əyrisi mənfi mailliklidir. Şəbəkə nemətləri ilə bağlı vəziyyətdə tələb və təklif əyrilərinin sanki yeri dəyişilir: təklif əyrisi mənfi mailliklidir, çünki son həddi xərcləri böyük intervallarda sıfra yaxınlaşırlar, tələb əyrisi isə müsbət mailliklidir, çünki nemətin istehlakı iştirakçılarının sayı artdıqca son həddi faydalılığı da artır. Bu proses dinamik inkişaf edərsə, əyrilər şəkil 27.2-də əks olunduğu kimi get-gedə daha aşağı qiymətlərdə kəsişməyə meyilli olacaqlar.



Şəkil 27.2. Şəbəkə nemәti bazarında tarazlıq

Beləliklə, əgər nemət miqdarı artdıqca qiymətliliyini artırırsa və bu zaman onun istehlakçılar üçün qiymətliliyi artdıqca qiyməti düşürsə, aşağıdakı nəticəyə gəlirik: yeni iqtisadiyyat şəraitində ən böyük qiymətliliyə müftə təqdim olunan nemət malikdir. Nəticə yalnız ilk nəzərdən paradoksaldır, çünki söhbət bütün nemətlərdən deyil, yalnız şəbəkə nemətlərindən gedir ki, yeni iqtisadiyyatın əsasını da məhz onlar təşkil edirlər. Yeni iqtisadiyyat buna çoxlu misallar verir ki, həmin misallar iri şirkətlərin bu məntiqi dərk etmələrini göstərir: məsələn, onların çoxu öz brauzerlərini pulsuz təqdim edirlər (*Microsoft, Netscape*).

İnformasiya rəqabətinin – informasiya, informasiya **re**sursları və onun iki tərkib hissəsi – istehsalçıların rəqabəti və alıcıların rəqabəti - bazarında liderlik uğrunda mübarizənin meydana gəlməsini bu bazar modelinin xüsusiyyəti hesab etmək olar. Birinci tərkib hissə resurslara, ən müasir informasiya texnologiyalarına, həmin bazarda paya, əldə olunan gəlirə çıxış əldə etmək uğrunda rəqabətlə bağlıdır. İstehlakçıların rəqabəti zəruri informasiyanın əldə olunmasında birinciliyin təmin olunmasına çalışmaqdan ibarətdir ki, bu da qərar qəbul edilməsi və müvafiq təsərrüfat əməliyyatlarının həyata keçirilməsində çıxış nöqtəsi rolunu oynayır. Belə ki, səhmlərin məzənnəsi haqqında informasiyada yalnız onun məzmunu deyil, həm də onun alınma sürəti vacibdir: «İnformasiyaya sahib olan, dünyaya sahibdir». Yeni iqtisadiyyatın müasir formalaşma şəraiti üçün informasiya rəqabəti artıq reallıqdır.

Yeni iqtisadiyyat fenomeni bir tərəfdən sahəyə girmək üçün sırf texniki səciyyəli həddi və maneələrin silinməsi, digər tərəfdən isə *Microsoft* kimi nəhəng inhisarların meydana gəlməsi ilə bağlıdır ki, bu da makroiqtisadi səciyyəli prinsipial cəhətdən çoxsaylı yeni xüsusiyyətlər doğurur.

Amerika iqtisadçısı K.Şapiro göstərir ki, təklif tərəfdən və tələb tərəfdən miqyas effektinin kombinasiyası bazarda inhisarçı meyilləri gücləndirir[1].

Burada inhisarçı tendensiyalar ənənəvi iqtisadiyyat şəraitində olduğundan fərqli təzahür edir. Hesab olunur ki, nəzarətsiz inhisar rəqabət səviyyəsi ilə müqayisədə qiyməti qaldırır və istehsal həcmini azaldır. Lakin informasiya əmtəələri bazarında vəziyyət tamamilə başqa cürdür: *inhisar istehsal həcmini artırır və qiymətləri aşağı salır.*

İnformasiya texnologiyalarına səbəb məhsuldarlığın artması mənfəət normasının artmasına səbəb olur, amma qısamüddətli dövrdə, çünki bu inhisarçı bazarında mövcud olan sərt rəqabət uzunmüddətli dövrdə mənfəət normasının güman edilə biləcəyi kimi artmasına deyil, azalmasına səbəb

1 Shapiro C., Varian H. Information Rules: A Strategic Guide to the Network Economy Boston, Mass.: Harvard Business School Press, 1999. P.352.

olur. İnformasiya sahəsində inhisarlar ***sərt rəqabət şəraitindədirlər*** və buna görə də daim istehsal və idarəetmə məsələlərinin səmərəli həlli axtarışlarındadırlar.

Beləliklə, informasiya texnologiyalarının yayılması şəraitində bazar qaçılmaz şəkildə inhisarlaşır və eyni zamanda inhisarlar özlərini daha çox təkmil rəqiblər kimi aparmağa başlayırlar. Bu C.Şumpeterə şüurlu dağıtma nəzəriyyəsini irəli sürməyə imkan verdi ki, həmin nəzəriyyəyə görə inhisar texniki tərəqqini və iqtisadi artımı ləngitməz, ancaq, stimullaşdıra bilər, çünki öz xərclərini çıxartmaq üçün o, informasiyaların tətbiqini stimullaşdırır[1].

Amerika iqtisadçısı P.Romer, əksinə, vurğulayır ki. informasiya texnologiyaları şəraitində inhisarlar mənfi rol oynayırlar, çünki öz inhisarçı vəziyyətlərini saxlamaq üçün innovasiya prosesinə mane olmaq onlar üçün sərfəli olur[2]. Yeni iqtisadiyyat şəraitində antiinhisar tənzimləməsinin mahiyyəti informasiyanın artıq qapalılığının aradan qaldırılması yolu ilə belə inhisarların yaranmasına yol verməməkdən, bir sıra informasiya obyektlərinə mülkiyyət hüququnun dövlətə verilməsindən və analoji tədbirlərin həyata keçirilməsindən ibarətdir.

Yeni iqtisadiyyat şəraitində bazarın və əmtəənin aşağıdakı fərqli xüsusiyyətləri var:

- birincisi, yeni məhsulun ömrünün müddəti qısalır, çünki onun haqqında informasiya sürətlə və hər yerə yayılır;
- ikincisi, perspektivdə daha çox elə əmtəələr meydana gəlir ki, onlar funksional təyinatlarının tələb etdiyindən daha çox «bilik tutumlu» olurlar. Belə ki, istehsal olunan saatlarda, fotokameralarda, fərdi kompyuterlərdə elə funksiyalar ola bilər ki, alıcı onlardan çətin ki istifadə etsin və ya onlara çox az ehtiyac duysun[1];
- üçüncüsü, ənənəvi sənaye cəmiyyətində reklamın rolu əmtəəni bazarda irəlilədən ling rolunu oynayırdısa, informasiya cəmiyyətində reklamın rolu hər hansı *konkret* əmtəənin istehlakını stimullaşdırmaqdan ibarətdir. Son həddə faydalılığı əyrisi informasiya cəmiyyətində reklamın təsiri altında yerini yuxarı dəyişir, bu isə perspektivdə hətta əhəmiyyətli təsərrüfat dəyişiklikləri olmadıqda belə iqtisadi artım üçün böyük imkanlar yaradır.

Yeni iqtisadiyyat şəraitində ***mülkiyyətin də təbiəti dəyişir***. C.Xocsonun fikrincə, «...biliklərin tərəqqisi mülkiyyətin tamlığını «pozur» və azad bazarın fəaliyyət şəraitini korlayır»[2]. O, belə bir paradoksa diqqət yetirir ki, XX əsrin bilik toplanılması məsələlərinə xüsusi diqqət yetirən iqtisadçıları eyni zamanda azad bazar tərəfdarı olmuşdular və buna misal kimi F.Xayekin ideyalarını göstərir.

Açıq proqram təminatının yaranması və inkişafı öz qiymətliliyini itirə biləcək **intellektual mülkiyyətin** yaradılması və qorunması problemini yeni cür qoyur və bu proses proqram biznesində artıq gedir.

İntellektual mülkiyyətin çox hissəsi açıq proqram təminatı bazarında pulsuz yayılır və istifadə olunur. Vaxt keçdikcə belə məhsul istehsalçılarının sayı artır və deməli, bu proqramlarla işləyən və müxtəlif yardımçı məhsul və xidmətləri təqdim edən firmaların da payı artır, yəni bazarın bu seqmentində firmaların differensiasiyası artır və onların ixtisaslaşması güclənir. Qapalı proqramm təminatı tətbiq edən firmalarla açıq proqram təminatı hazırlayan və istifadə edən firmalar arasında rəqabətin güclənməsini proqnozlaşdırmaq olar ki, bu da bu sahədə innovasiya fəaliyyətinin yeni mərhələsinə səbəb ola bilər.

Yeni iqtisadiyyatda, R.Kouzun sözlərinə görə, bazarda fəaliyyət göstərən ***firmanın təbiəti*** dəyişir. «İntellektual fir-

1 Schumpeter J.A. Essays on economic topics of J.A. Schumpeter / R.V.Clemence, Ed.N.Y.: Kennikat Press< 1969. P.327.

2 Romer P.M. Endogenous technological change // Journal of Political Economy. 1990. Vol. 98.№5. P.345-399.

1 Сакайя Т. Стоимость, создаваемая знанием, или История будущего // Новая постиндустриальная волна на Западе: Антология / Под ред. В.Л.Иноземцева.- М.: Academia, 1999. С.367.

2 Ходжсон Дж. Социально-экономические последствия прогресса знаний и нарастания сложностей.// Вопросы экономики, 2001. №8. С.37.

ma» bu gün ümumiyyətlə ənənəvi anlamda istehsal fondlarına malik olmaya bilər, çünki maddi aktivlər intellektual aktivlər tərəfindən sıxışdırılmağa başlayır, cari aktivlər isə informasiya tərəfindən sıxışdırılır. Firmanı qiymətləndirərkən analitiklər get-gedə daha çox onun maddi aktivlərinin qiymətləndirilməsindən qaçırlar. Belə ki, Microsoft şirkətinin aktivlərinin bazar kapitallaşması *IBM* şirkətinin analoji göstəricisindən yüksəkdir, baxmayaraq ki *Microsoft* daha az məhsul satır. Firmanın səhmlərini alan investor ənənəvi anlamda fondlar almır. «İntellektual firma»nın böyük aktivlərə ehtiyacı yoxdur, onun üçün əsas fondların dəyərinin azalması meyli mövcuddur.

İqtisadiyyatın informasiyalaşdırılması yeni xərc növünün – ***informasiya xərcləri***, duyulmaz xərclərin meydana gəlməsini şərtləndirir. Duyulan, maddi xərclərlə müqayisədə onların payı böyükdür və onların artması meyili də müşahidə olunur. Məsələn, ABŞ-da duyulmaz xərclərin payı (informasiyanın axtarılması, onun partnyorlarla mübadiləsi, rəqiblərin hərəkətlərinin monitorinqi və s.) ümumi xərclərdə orta hesabla mədən sənayesində 30-40%, maliyyə institutlarında 60%-ə qədərini təşkil edir.

Yeni iqtisadiyyatın xüsusiyyəti ***iqtisadiyyatın yeni bölməsinin – virtual*** bölmənin formalaşması və inkişafı ilə bağlıdır. İqtisadiyyatın müxtəlif bölmələri – real, monetar və virtual – arasında ziddiyyətlər yaranır. Bu bölmələrin hər birinin öz məntiqi və inkişaf prinsipləri, öz qanunları var, özü də onlar bir-biri ilə sıx əlaqədar və bir-birindən qarşılıqlı asılıdır. Onların bütövlükdə iqtisadi sistemdə bir-birindən müəyyən qədər təcridliyi, uzaqlığı və üstünlüyü vardır. Belə ki, Rusiyada hazırda iqtisadiyyatın monetar bölməsi üstünlük təşkil edir ki, həyata keçirilən monetarist kursundan elə bunu da gözləmək lazım idi.

İqtisadiyyatın virtual bölməsi indi-indi formalaşır, inkişaf etmiş ölkələrdə o sürətlə genişlənir, lakin onun subyekti və obyekti, hüdudları, iqtisadiyyatın real və monetar bölmələri ilə qarşılıqlı təsir formaları hələ dəqiq aydın deyil-

dir. Onun gur inkişafı bütövlükdə iqtisadiyyat üçün hələ çox problemlər yaradacaq. Bu, resursların (maddi, pul, əmək) məhz iqtisadiyyatın bu bölməsinə, onun infrastrukturuna axını ilə bağlı ola bilər ki, bu da makroiqtisadiyyatın qeyri-balanslı olmasına, digər bölmələrdə resurs çatışmazlığına səbəb ola bilər. Realdan fərqli olaraq virtual bölmə ona xas olan qeyri-müəyyənliklə istifadəçilərinin hamısı – həm alanlar, həm satanlar, həm istehsalçılar, həm istehlakçılar üçün (saytların informasiya şəbəkəsi iştirakçılarının hamısı üçün eyni dərəcədə əlyetərliyi) faktik olaraq simmetrik (eyni dərəcədə tam, dolğun) informasiya təqdim edir. Bu şəraitdə problemə informasiyanın asimmetrikliyi deyil, informasiyanın bilavasitə seçilməsi, onun təhlili və müvafiq təsərrüfat qərarının qəbul edilməsi çevrilir. İqtisadiyyatın virtual bölməsində bu kimi informasiya şəbəkəsi ilə yanaşı firmanın kommersiya sirri olan bazarın digər agentləri üçün qapalı informasiya da olur. Lakin o, xakerlərin (mühafizəni sındıranlar) köməkliyi ilə rəqiblər üçün əlyetər ola bilər. İqtisadiyyatın virtual bölməsinin zəif həlqəsi məhz burada üzə çıxır və buna yalnız firmalar və ev təsərrüfatları deyil, həm də dövlət diqqət yetirməlidir.

Yeni iqtisadiyyat yeni məşğulluq formaları doğurur. «Uzaq iş» konsepsiyası genişlənməyə başlayır ki, buna görə əməyin klassik ofis təşkili sxemi öz potensialını çoxdan başa vurmuşdur, çünki personalın əmək məhsuldarlığının dayanıqlı artımını təmin etməyə qabil deyil.

Onun yerinə ötən əsrin 80-ci illərində D.Nilles tərəfindən təklif olunmuş telekompyütinq – ***məsafədən iş*** konsepsiyası gəlmişdir. Ondan istifadə əmək məhsuldarlığının orta hesabla 15%, bəzi sahələr üzrə isə 40%-ə qədər artmasına səbəb olmuşdur. Bu məşğulluq forması dövlət səviyyəsində dəstəklənmişdir. Belə ki, ABŞ-da öz əməkdaşları üçün məsafədən iş yerləri quraşdıran müəssisələr üçün vergilərin azaldılması haqqında qanun qəbul olunmuşdur. Avropa İttifaqı bu sahədə tədqiqatları və proqramları maliyyələşdirir, bu zaman kənd rayonlarına və daha az inkişaf etmiş regionlara

xüsusi diqqət yetirilir.

Məsafədən işin əsas üstünlükləri çevik iş qrafikinin olmasında, daha geniş əməkdaşlar kontingentinin (başqa şəhərlərdə, bölgələrdə yaşayan, məhdud əmək qabiliyyətli və s. kimi əməkdaşlar) cəlb edilməsi və eyni zamanda onun optimallaşdırılması, maliyyə və vaxt sərfinin azaldılması imkanının olmasındadır.

Məsafədən işin inkişafını bu fəaliyyətə nəzarətin zəruriliyi, məsafədə məlumatların itirilməsi ehtimalı və informasiya kəşfiyyatı ilə bağlı informasiya təhlükəsizliyinin təmin edilməsi, vergidən yayınmanın yeni üsullarının (internet-firmaların qeydiyyatı) meydana gəlməsi və s. ləngidir.

Rusiya firmaları üçün hazırda, təəssüf ki, ofisdə işləmək daha sərfəlidir, çünki məsafədən məşğulluq iş yerinin bahalı informasiya texnologiyaları ilə təmin edilməsi ilə bağlıdır.

Yeni iqtisadiyyatda təsərrüfatçılığı ***yeni növ rasionallıq*** səciyyələndirir. Məlumdur ki, rasionallıq anlayışı iqtisadi məktəblər – klassik, neoklassik, neoinstitusionalist - tərəfindən müxtəlif cür şərh olunur. Faydalılığın maksimallaşdırılmasından məmnunluğa qədər – subyektlərin rasionallığı haqqında təsəvvürlərin diapazonu belədir. İnformasiya iqtisadiyyatı şəraitində subyektlərin fəaliyyətinin rasionallığı anlayışı keyfiyyətcə yeni tip, yeni vəziyyətədək transformasiya olunur. Subyektlər üçün rasional onun normalarına (ümumi qəbul olunmuş, fərdi) uyğun gələn olur. Ənənəvi anlamda rasionallıq iqtisadiyyatın ənənəvi anlamında iqtisadiyyatın virtual sektorunda yoxdur, onun sinonimi başqa anlayışlar – sürət, həcm, məqsəd, nəticə olur, özü də bu zaman onların nisbəti məkan-zaman koordinatlarında müxtəlif ola bilir. Belə ki, müasir internet-texnologiyalar bir çox prosesləri modelləşdirməyə, təbii resursları sünilərlə əvəzləməyə, innovasiyaların işlənib hazırlanması və istehsala tətbiqinin mərhələlərini bir neçə dəfə sürətləndirməyə imkan verirlər.

Yeni iqtisadiyyatda ***«varlılar»*** və ***«kasıblar»***ın yeni

dərki və fərqli bölgüsü meydana gəlir. Kasıb subyekt gəlirinin 50%-dən çoxunu qidalanmaya sərf edən deyil, iştirakçı kimi vahid informasiya məkanına qoşulmayan olur. İnformasiya texnologiyalarını bilmək müasir intellektual kapitalın ayrılmaz elementinə çevrilir.

Yeni iqtisadiyyatda informasiya texnologiyaları iqtisadi subyektlərin, fərdlərin davranışını modelləşdirir, onların psixologiyasını və seçim probleminə münasibətini, onların rasionallıq anlayışını dəyişir. Onlar tədricən ***yeni norma və məqsədlərə*** doğru aparırlar. İnformasiya iqtisadiyyatı yeni Veb – müasir institusional strukturların həyat və təsərrüfatçılıq sistemləri üslubunu formalaşdırırlar. Real əlaqələr və partnyorlara əsaslanan ənənəvi təsərrüfat metodları ilə yanaşı yeni, virtual vasitəçi vasitəsilə interaktiv təsərrüfat formaları meydana gəlir, yeni institutlar yaranır.

Daxili bazarda yeni iqtisadi mühitin xüsusiyyətləri belədir.

Beynəlxalq səpkidə informasiya texnologiyaları bir-birindən uzaqda olan subyektlərin ünsiyyəti üçün daha çox imkanlar yaradır. Məlum qravitasiya modelinə müvafiq olaraq ölkələr arasında məsafə nə qədər böyük olsa, onlar bir-biri ilə bir o qədər az ticarət aparırlar. Əgər 1970-ci ildən 1990-cı ilə qədər məsafə amilinin beynəlxalq ticarətə xeyli təsiri (amerikalı E.Rouzun hesablamalarına görə 1,09-dan 1,12-yə qədər) nəzərə çarpırdısa[1], bu gün bir-birindən uzaqda yerləşən ərazilər arasında kommunikasiyaları xeyli asanlaşdıran yeni imkanlar yaranmışdır (daha sıx ticarət ünsiyyəti baş verir, intellektual və innovasiya klasterləri yaranır). Daha məsafə ünsiyyət üçün güclü maneə olmur.

Beynəlxalq miqyasda yeni iqtisadiyyatın formalaşması şəraitində yadda saxlamaq lazımdır ki, milli iqtisadiyyatın rəqabət qabiliyyəti hazırda birbaşa informasiya texnologiyaları ilə bağlıdır, elektron infrastruktura və təhsil sahəsinə investisiyalar isə onun mühüm tərkib hissələridir. Başqa in-

1 Rose A.K. One Money, One Market: Estimating the Effect of Common Currencies on Trade // NBER Working Paper 7432.1999.http:// www.nber.org/papers/w7432

kişaf prioritetləri, başqa səmərəlilik meyarları, başqa iqtisadi inkişaf imkanları formalaşır.

Yeni iqtisadiyyatın formalaşmasında bu və ya digər ölkələrin inkişafın bu və ya digər sahələri və istiqamətlərində prioritetli olduğu ***qeyri-bərabərliyi*** görməmək mümkün deyil. Belə ki, dünya bazarında yüksək informasiya texnologiyaları və özündə cib kompyuteri və mobil telefonu, işıqlı klaviaturanı və məftilsiz monitoru birləşdirən kommunikasiya vasitələrini işləyib hazırlayan Amerika və yapon firmaları fərqlənirlər.Onların kütləvi son istehsalı, yığılması Cənubi-Şərqi Asiya ölkələrində cəmlənmişdir. Proqram və antivirus mühafizə vasitələrinin hazırlanması yönümündə Rusiya mütəxəssisləri də dünyada tanınırlar.

Beləliklə, yeni iqtisadiyyata bir sıra prinsipial fərqli cəhətlər xasdır ki, bu da həm daxili bazarda, həm də beynəlxalq miqyasda ayrı-ayrı makroiqtisadi parametrlərin dəyişmələrindən danışmağa əsas verir.

Müasir dünyada elmin əhəmiyyəti və rolu yalnız yeni biliklərin əldə olunması və onların praktikada tətbiqi hüdudlarından çox kənara çıxır. Elm cəmiyyətin dayanıqlı inkişaf prosesinin bütünlüklə qurulduğu bünövrədir.

Yeni iqtisadiyyatın formalaşması elm qarşısında dünya iqtisadiyyatında artıq mövcud olan aşağıdakı neqativ hadisələrin aradan qaldırılması məsələsini qoyur:

- dünya istehsalı həcminin 18 dəfə artması və əhalinin sayının dördqat artması ilə əlaqədar olaraq ekosistemə hədsiz dərəcədə böyük yükün düşməsi. Hesablanmışdır ki, təbiətlə tarazlıqda yaşamaq üçün Yer əhalisi 500 milyondan çox olmamalıdır (akad. N.N.Moiseyev). Təbiətin təəssübkeşlərinin dediklərinə riayət olunsa, ya planetin əhalisinin sayı, ya da tələbatlarımız 10 dəfə azaldılmalıdır. Bunların heç birinin hazırda mümkün olmadığını söyləmək artıqdır;
- bərpaolunmaz təbii resurslardan vəhşicəsinə istifadə və ərzağa və təmiz suya «istehlak cəmiyyətinin» idealları ilə şərtlənən və insanların səhhətinin pisləşməsinə aparan hədsiz, qeyri-rasional tələb; hazırda istehsal və istehlak sistem-

lərində kök salmış israfçılığı radikal kökündən aradan qaldırmaq, istehsal və istehlakın artması xarakterinin yönümünü dəyişməyin üsullarını tapmaq lazımdır ki, o, israfçılığı qənaətlə əvəzləyərək, ətraf mühitə daha düzəlməz zərər vurmasın və insanlara ağıllı və ədalətli həyat səviyyəsinə çatmağa imkan versin;

- yerli xalqların təbiətin xüsusiyyətləri haqqında bilgilərinin məcmu şəklində itirilməsi təbiətə uyğunlaşma qabiliyyətinin itirilməsi ilə nəticələnə bilər;
- ətraf mühitin deqradasiyası (təmiz suyun, təmiz havanın, ərzağın və s. çatışmaması), yaxınlaşmaqda olan qlobal ekoloji böhran təhlükəsi;
- xalqın yoxsulluğu, artan bərabərsizlik: əgər XX əsrin əvvəllərində varlılar kasıblardan 19 dəfə yaxşı yaşayırdılarsa, əsrin sonunda bu rəqəm 78 olmuşdur (C.Perkinsin məlumatlarına görə);
- mənəviyyatın pisləşməsi, təcavüz, terrorizm, narkomaniya, alkoqolizm və s.

Bu problemlərin yalnız inzibati metodlarla həll edilməsi mümkün deyil, elmin təklif edə biləcəyi yeni metodlar lazımdır. Bundan başqa, yeni vətəndaş cəmiyyətinə, birincisi, ətraf mühitin problemlərinin digər problemlərdən təcrid olunmuş halda səmərəli həllinin qeyri-mümkünlüyünü və ikincisi, istənilən problemlərin həllində dayanıqlı inkişafın sosial, iqtisadi komponentlərinin dəyişilməsinə təsir edən amillərin nəzərə alınmasının zəruriliyini dərk etməyə imkan verən yeni kompleks yanaşmalar lazımdır. Belə yanaşmalar çərçivəsində beynəlxalq əməkdaşlığın, bilik, təcrübə, qabaqcıl praktikanın mübadiləsi məqsədilə bütün səviyyələrdə elm və təhsil şəbəkəsinin yaradılması və möhkəmləndirilməsinin böyük əhəmiyyəti var.

Müasir ekoloji problemlər sosial tələbatlarla, demoqrafik vəziyyətlə, yoxsulluqla sıx əlaqələndirilməlidir və buna görə də onların heç biri ayrılıqda nəzərdən keçirilə bilməz. BMT-nin proqnozlarına görə iqtisadi və texnoloji inkişafdan nemətlər alanlarla həmin nemətləri almayanlar arasında fərq

əvvəlki kimi artacaqdır. Son həddə zənginliyi və son həddə yoxsulluğunun belə qeyri-dayanıqlı ağırlaşması bütün bəşəriyyətin sabitliyini, onunla birgə isə qlobal ekosistemin əhalinin normal sağlamlığı və rifahını təmin etmək qabiliyyətini zərbə altına qoyur.

Elmin yaxın 25 ildə inkişafında aşağıdakı meyilləri fərqləndirmək olar:

- elmin kommersiyalaşması, yəni dövlətin dəstəklədiyi akademik kapitalizm qalacaq və yeni iqtisadiyyat şəraitində dövlətin rolu artacaq ki, bu da «dövlətin ikinci dəfə doğulması» (C.Stiqlitsin nəzəriyyəsi) haqqında danışmağa əsas verir. Artıq bu gün xüsusi kapitalın dövlət hakimiyyəti ilə qovuşması hadisəsini müşahidə etmək olar;
- sintez, tədqiqat metodu kimi sinergiyanın tətbiqi əsasında müxtəlif elmlərin (təbii, humanitar, sosial, psixoloji, fəlsəfi, ictimai və s.) yaxınlaşması;
- ayrı-ayrı elm sahələrində, yeni konkret problemlərin dərki və həllində biliklərin dərinləşməsi.

Beləliklə, dünya sivilizasiyasının gur, qasırğavari inkişafı yeni biliklərin fəal toplanılmasının zəruriliyini şərtləndirir və onlar da yalnız yığılıb qalmış problemləri həll etmir və onları elmin gündəliyindən çıxartmır, həm də yeni nəslin təhsilli adamlarının həll etməli olacağı yeni məsələlər doğurur.

Elmi-texniki işləmələrdə istənilən dayanmalar (və ya hətta ləngimələr) cəmiyyətin deqradasiyasına, onun intellektual potensialının zəifləməsinə gətirib çıxarda bilər ki, bunun da fəlakətli nəticələri olar.

Təhsil və maarifləndirmə düşüncə stereotiplərinin dəyişdirilməsi, cəmiyyətin, iqtisadiyyatın və bütövlükdə dövlətin yeniləşdirilməsi üçün həmişə səmərəli alətlər olmuşlar, onlar dəyişikliklərin əsas amilləridirlər.

Dövlətin inkişafında təhsilliliyin rolu son onilliklərdə hədsiz dərəcədə artmışdır. Biz texnika, texnologiya, ticarət sahəsində yarışmalardan ideya və təşkilati struktur sahəsində yarışmalara keçirik. Kifayət qədər təhsilli adam varsa,

onda istənilən yeniliklər, istənilən nou-hau hamı üçün əlyetərdir. Elmi-texniki tərəqqinin görünməmiş tempi və rabitənin inkişaf nəticəsində onlar bir neçə ay ərzində köhnəlirlər. Buna bəşəriyyəti yeni iqtisadiyyatda gözləyən həyat şəraitini də – bilavasitə istehsalatda çalışan adamların miqdarının azalması və ixtisas səviyyəsinin yüksəlməsi, işsizliyin artmasını və s. – əlavə etmək lazımdır.

XXI əsrdə yeni ideyalar yarada bilən ölkələr qabaqda olacaq. İnsanların təhsilliliyi gələcəyin açarıdır.

Rusiyanın əsas milli sərvəti, onun əsas resursu millətin intellekti, onun təhsilliliyidir. Bu tezis adicə söz, vətənpərvərlik şüarı deyil, planetdə birliyin inkişaf yolları və xalqın onda yeri barədə formalaşmış təsəvvürdür. O, bir anda deyil, sivilizasiyanın müasir inkişaf mərhələsi haqqında dərin düşüncələr və xaricdə müşahidə olunanla hələ ki, ölkəmizdə olan intellektuallaşdırma səviyyələrinin müqayisə edilməsi əsasında yaranıbdır. Daha bir arqument də var: ruslar çox asanlıqla öyrədilirlər, onlara kütləvi şəkildə biliklərə can atma xasdır. Bu, bizim sivilizasiyanın xüsusiyyətidir və onu nəzərə almaq lazımdır.

Artıq yaxın onilliklərdə tarixin ön səhnəsinə daha yüksək səviyyədə təhsil, tərbiyə, bütün təzahür formalarında sənətkarlıq, axtarış qabiliyyətini təmin etməyə qabil olan ölkələr çıxacaqlar. Və hətta mənəviyyatı da. Lakin (hazırda hesab olunduğu kimi) daha yüksək həyat səviyyəsinə çatanlar və ya hətta daha təkmil elektronika istehsal etməyi öyrənənlər yox.

BMT-nin hesablamalarına görə, təhsil sistemində praktik olaraq bütün ölkələr - həm inkişaf etmiş, həm də keçid iqtisadiyyatında olanlar - üçün səciyyəvi olan ən mühüm problemlər aşağıdakılardır: təhsilin keyfiyyəti və əlyetərliyi; onun fasiləsizliyi və açıqlığı, təhsil sistemlərinin səmərəliliyi. BMT-nin Baş Məclisi dayanıqlı inkişaf üzrə yüksək səviyyədə Ümumdünya görüşünün təkliflərini nəzərdən keçirərək, 2005-ci ildən başlayaraq ən yaxın onilliyi «Dayanıqlı inkişaf naminə təhsil onilliyi» elən etmişdir.

İcraçıların sənətkarlığı və peşəkarlığından, keyfiyyətli əməkdən birinci növbədə cəmiyyətin rifahı asılıdır. Buna bir tələbi də – yüksək mənəviyyat səviyyəsini – əlavə etmək lazımdır.

Hazırda Rusiya gerçəkliyinin əsas ziddiyyəti ölkənin nəhəng resurs potensialı və əhalinin, həmin potensialın iqtisadi və mənəvi baxımdan bütölükdə cəmiyyətə məxsus olmalı olan əsas hissəsinin bir qrup şəxs tərəfindən mənimsəməsi ilə şərtlənən, çox aşağı həyat səviyyəsi arasındakı uyğunsuzluqla müəyyənləşir.

Milli firavanlıq (və müvafiq olaraq milli məqsədlər) yalnız iqtisadiyyatla və sabahı günə arxayınlıqla müəyyənləşmir. Cəmiyyətdəki ümumi mənəvi mühit, onun mənəvi həyatının xarakteri, öz xalqının dünya birliyində yeri haqqında təsəvvür və bir çox digər qeyri-maddi amillər mühüm rol oynayır. Və onların hamısı bir yerə cəmlənir.

İnkişaf etmiş, inkişaf etməkdə olan və postsosialist ölkələrin iqtisadi sistemlərinin transformasiyası bu gün qloballaşma şəraitində həyata keçirilir ki, dərsliyin növbəti fəsli də məhz buna həsr olunmuşdur.

Əsas anlayışlar və məfhumlar

Sistem; iqtisadi sistem; iqtisadi sistemin xüsusiyyətləri: qiymətlilik, dayanıqlılıq, kogerentlik, balanslılıq, özüinkişaf, iyerarxiklik, muxtariyyat, dekompozisiya, adaptivlik, məqsədyönlülük; deqradasiya; dissipasiya; kollaps; entropiya; iqtisadi sistemin transformasiyası; iqtisadi sistemlərin inkişaf meyilləri; keçid iqtisadiyyatı; inkişaf iqtisadiyyatı; Rusiya iqtisadiyyatının xüsusiyyətləri; institusional iqtisadiyyat; yeni iqtisadiyyat; postsənaye iqtisadiyyatı; informasiya iqtisadiyyatı; şəbəkə neməti bazarında tarazlıq; intellektual mülkiyyət; rasionallığın yeni tipi; iqtisadiyyatın virtual bölməsi.

XXVIII FƏSİL. QLOBALLAŞMANIN NƏZƏRİ PROBLEMLƏRİ

§1. Qloballaşma prosesinin mahiyyəti və fərqli xüsusiyyətləri.

§2. Maliyyə və əmtəə bazarlarının qloballaşması.

§3. Dünya təsərrüfat əlaqələrinin qloballaşmasının üstünlükləri və ziddiyyətləri.

Qloballaşma prosesi artıq çoxdandır ki, müasir dünya iqtisadiyyatının real və ən mühüm, dünya təsərrüfatının sonrakı inkişafının gedişinin ən təsirli və həlledici aspekti olmuşdur. O, iqtisadiyyat, siyasət, təhlükəsizlik, sosial və mədəni sahələr, ekologiya da daxil olmaqla ictimai həyatın bütün sahələrini ehtiva edir və dünya təsərrüfat sisteminin ciddi transformasiyasına dəlalət edir.

Hazırda dünya iqtisadiyyatının inkişafı iki əsas meyillə müəyyənləşir: bir tərəfdən iqtisadi fəaliyyətin sürətlə qloballaşma prosesi, digər tərəfdən isə regional inteqrasiyanın güclənməsi müşahidə olunur.

Qloballaşma prosesi elə bir nizamın yaranmasına aparır ki, bu zaman müxtəlif ölkələrin istehsalı və maliyyələri qarşılıqlı əlaqələnmiş olur. Bu proses transaksiyaların miqdarının artması ilə müşayiət olunur, effektlərdən biri kimi isə milli sərvətin yaranmasının get-gedə daha çox başqa ölkələrin subyektlərindən asılı olduğu yeni beynəlxalq əmək bölgüsü çıxış edir.

§1. Qloballaşma prosesinin mahiyyəti və fərqli xüsusiyyətləri

Ötən əsrin ikinci yarısında təsərrüfat həyatının beynəlmiləlləşməsi: ənənəvi əmtəələrlə ticarətin genişlənməsi xid-

mətlər, intellektual fəaliyyətin məhsulları, kapital mübadiləsinin daha sürətlə artması, istehsal-kooperasiya əməkdaşlığının və elmi-texniki mübadilənin güclənməsi xeyli intensivləşmişdi. Dünya iqtisadiyyatında qloballaşma prosesi başlandı.

«Qloballaşma» məfhumunu XX əsrin 80-ci illərindən geniş işlətməyə başlamışlar. Elmi və publisistik ədəbiyyatda bir məfhum kimi qloballaşmadan ilk dəfə Amerika sosioloqları və iqtisadçıları C.Maklin, M.Uoters və R.Robertsonun əsərlərindən (1981-1985) sonra danışmağa başladılar. Ondan birinci C.Maklin 1981-ci ildə istifadə etmiş, amma həmin məfhumu geniş şəkildə Amerika sosioloqu R.Robertson işlətmişdi. 1983-cü ildə o həmin məfhumu öz məqalələrindən birinin başlığında işlətmiş, 1985-ci ildə kateqoriyanın izahını vermiş, 1992-ci ildə isə onun «Qloballaşma»[1] kitabı çapdan çıxmışdı və həmin kitabda müəllif qeyd etmişdi ki, qloballaşma - empirik qeyd olunan, müxtəlif, lakin dünyanın vahid tamlığa çevrilməsi məntiqi ilə birləşdirilən dəyişikliklər sırasıdır. «Qloballaşma» məfhumu elmi ədəbiyyatda artıq geniş istifadə olunur və hətta kütləvi informasiya vasitələrində də müxtəlif ölkələrdəki oxşar hadisələrin təsvir edilməsi üçün istifadə olunur.

Beynəlxalq Valyuta Fondunun (BVF) ekspertləri bu fenomeni «əmtəə, xidmətlər və beynəlxalq valyuta axınlarının həcmi və müxtəlifliyinin transsərhəd transaksiyasının artması nəticəsində, həmçinin texnologiyaların get-gedə daha sürətlə və geniş diffuziyasına səbəb bütün dünya ölkələrinin artan qarşılıqlı asılılığı»[2] kimi müəyyənləşdirirlər.

Alman iqtisadçıları X.Zibert və X.Klodtun verdiyi tərifə görə, «qloballaşma – ayrı-ayrı milli təsərrüfatların inteqrasiya olunmuş qlobal iqtisadiyyata transformasiyası prosesidir»[3]. Bu transformasiyanın gedişində dünya birliyinin tarixində hələ ki, nə nəzəriyyəçilər, nə də praktiklər tə-

1 Robertson R. "Globalization" / London: Sage., 1992.
2 World Economic Outlook. May 1997. P.45
3 Sibert H. and Klodt H. Towards Global Competitions: Catalyst and constraints. Kiel, December 1998. P.2.

rəfindən tam dərk olunmamış ən mühüm dönüşlərdən biri – çox-çox onilliklər ərzində sistem yaradan təşkilati struktur qismində çıxış edən dövlətlərin devalvasiyası baş verir.

Rusiya alimləri bu problemə müxtəlif cür yanaşırlar. V.Kuvaldin qloballaşmanı «obyektiv ümumsivilizasiya prosesi, XXI əsrin reallıqlarına müvafiq yeni mövcudluq formasıı» kimi başa düşür. Professor V.Mironovun fikrincə isə dünya bazarının, dünya maliyyələrinin və xidmətlərin vahid məkanının yaranması «qlobal dəyərlər sisteminin və vahid hökmran mədəniyyətin» formalaşması ilə müşayiət olunur. Qloballaşma, alimin fikrincə, «ən yeni informasiya sivilizasiyasına olduqca ziddiyyətli keçid formasıdır».

Nəticədə demək olar ki, ***qloballaşma – dünya məkanının informasiyanın, əmtəə və xidmətlərin, kapitalın sərbəst yerdəyişmədə olduğu, müasir institutların inkişafını stimullaşdıraraq və onların qarşılıqlı əlaqəsini təmin-ləyərək ideyaların asanlıqla yayıldığı və onların daşıyıcılarının maneəsiz hərəkət etdiyi vahid zonaya çevrilməsi prosesidir.***

Qloballaşma vahid (ümumi) beynəlxalq iqtisadi, hüquqi və mədəni-informasiya məkanının yaranmasını nəzərdə tutur.

Burada əsas müddəaları fərqləndirmək lazımdır. Birincisi, qloballaşma – postsənaye cəmiyyətinə xas olan müasir obyektiv və qarşısıalınmaz proses, bazarın və istehsalın Böyük coğrafi ixtiralar (XV əsr), sənaye inqilabları (XVII-XVIII əsrlər), XIX əsrin hüdudlarında maliyyə kapitalının formalaşması dövründə başlanğıc alıb, bütün sivilizasiyalardan və onların hər birinin içərisindən keçən beynəlmiləlləşməsi uzun tarixi prosesinin mərhələsidir. İkincisi, qloballaşma prosesi - müasir dövrün real faktıdır və dərk edilmə və uyğunlaşma tələb edir; o nə yaxşı, nə pis, na xeyirxah, nə pis deyil. Və üçüncüsü, qloballaşma – müəyyən fəlsəfə və ideologiyadır, Malayziyanın sabiq baş naziri M.Maxatxiranın sözlərinə görə, «bu, yeni dindir, bütün dünya üçün yeganə ideologiyadır» və bir də bütün dünyada inteqrasiya olunmuş

bazarın ictimai rifaha qulluq etməsi, qlobal mənəviyyatı və mənəvi məsuliyyəti formalaşdıran müəyyən mifologiyadır.

Dünya təsərrüfat əlaqələrinin sürətlə inkişafı yer üzündə maddi istehsalda və ona qulluq edən infrastrukturda keyfiyyət dəyişiklikləri ilə bağlı bir sıra amillərin təsiri ilə şərtlənir.

Son onilliklər ərzində elmi-texniki diffuziyanın miqyasları genişlənmişdir. Dünya iqtisadi liderlərinin ardınca onun nailiyyətlərini hazırda yeni sənaye ölkələri, o cümlədən qabaqcıl texnika və texnologiyanın alınması yolu ilə mənimsəyirlər. Dünyada yeni tələbatlar doğuran və özünün yaradılması üçün yeni texnoloji və təşkilati əlaqələrin yaradılmasını tələb edən yeni-yeni əmtəə və xidmətlər yaranır. Yeni, müasir məhsulların – elektronika, kompyuterlər, optiklif texnikası, riyazi təminat və s. – istehsal miqyasları genişlənir. Əvvəlki texnologiyaların yerinə müasir, resursa qənaəti və ekoloji təmizliyi təmin edən texnologiyalar gəlir.

Elmi-texniki tərəqqi hazır, birinci növbədə yüksək texnoloji və elmtutumlu məhsullar istehsalının artmasına səbəb oldu ki, bu da beynəlxalq, xüsusilə də sahədaxili, firma səviyyəsində həyata keçirilən əmək bölgüsünün daha da dərinləşməsinə təkan verdi.

Beynəlxalq nəqliyyat infrastrukturu ciddi yeniləşmiş, bütün nəqliyyat növlərinin yeni nəsli meydana gəlmişdir. Bunun nəticəsində yük və əhali daşımaları xeyli sürətlənmiş və ucuzlaşmışdır.

Elektronika və rabitə sistemindəki ən yeni nailiyyətlərə söykənən informatizasiyada kəskin, əslində inqilabi sıçrayış baş vermişdir.

İnformasiya inqilabı real vaxt rejimində dünyanın istənilən nöqtəsindən lazımi informasiyanı almağa və resursların və istehsal proseslərinin ölkədən ölkəyə yerdəyişməsi ilə bağlı qərarları daha operativ qəbul etməyə imkan vermişdir. İnformasiyanın əlyetərliyi dövlətlərdə və ayrı-ayrı korporasiyalarda idarəetmə aparatına ən optimal fəaliyyət variantı seçməyə əlavə imkanlar yaratmışdır.

Beynəlxalq istehsal və mübadilə kooperasiyasının miqyası, birinci növbədə onların transmilli korporasiyalar (TMK) çərçivəsində intensiv inkişafı hesabına genişlənmişdir. Hazırda onlar dünya təsərrüfatında xeyli böyük rol oynayırlar.

Yalnız istehsal və satış əlaqələri deyil, həm də borc kapitalının bir-biri ilə qarışması xeyli güclənmişdir. Bu proses nəticəsində kredit resurslarının həcmi və dünyanın istənilən nöqtəsində onlara çıxış imkanları xeyli genişlənmişdi.

Bütün bunlarla yanaşı ticarət və maliyyə əməliyyatlarının beynəlxalq tənzimlənmə sistemi formalaşırdı. Hazırda onların həyata keçirilməsi normaları və qaydaları ixtisaslaşdırılmış beynəlxalq forum və institutlarda – Ümumittifaq Ticarət Təşkilatı (ÜTT), BMT-nin ticarət və inkişaf konfransı (YUNKTAD), Beynəlxalq Valyuta Fondu (BVF), Beynəlxalq İnkişaf və Yenidənqurma Bankı (BİYB) - çoxtərəfli razılaşdırılır. Buna görə də bu kimi təşkilatlarda üzvlük hər bir ölkə üçün başqa ölkələrin onun maraqlarını gözləmələrinin müəyyən mənada təminatıdır, əlbəttə, əgər o özü ticarətin və kapital hərəkətinin tənzimlənməsi tədbirlərinə dair çoxtərəfli razılaşmalara sözsüz əməl edirsə.

İstehsal və infrastruktur sahəsində keyfiyyət dəyişiklikləri qarşılıqlı beynəlxalq təsərrüfat əlaqələrinin həcminin dinamik artımını, dünya əmtəə və xidmətlər ticarətində struktur dəyişikliklərini şərtləndirmiş, kapitalların bir milli bazardan digərinə yerdəyişmə sürətini xeyli artırmışlar. Beynəlmiləlləşmənin güclənməsi nəticəsində dünya iqtisadiyyatının görünüşü keyfiyyətcə dəyişilmişdir: o, bu və ya digər dərəcədə qarşılıqlı asılılıqda olan ölkələrin zəif məcmusundan nisbətən bitkin iqtisadi sistemə çevrilmişdir. Bu sistemin XXI əsrdə təsiri onun hər bir tərkib elementinin – milli təsərrüfatların inkişafının xarakterini ötən əsrin ortalarındakına nisbətən daha çox nəzərəçarpan dərəcədə müəyyənləşdirir.

Dünya təsərrüfat əlaqələrinin həcmlərinin və müxtəlifliyinin dünya ölkələrinin qarşılıqlı iqtisadi asılılıqlarının

güclənməsi ilə müşayiət olunan artması, yəni qloballaşma prosesi hazırkı dövrdə dünya iqtisadiyyatı transformasiyasının əsas və qanunauyğun meyili olur. Bu proses, təbii ki, inkişafdadır və bu inkişaf yalnız yüksələn xətt üzrə, böhransız və ziddiyyətsiz, tempin artması və azalması olmadan gedə bilməz ki, bu da müvafiq qaydada milli təsərrüfatlara və hökumətlər tərəfindən aparılan iqtisadi siyasətə təsir edir.

Təsərrüfat həyatının beynəlmiləlləşməsinin yeni mərhələsi kimi qloballaşma prosesinin bir sıra fərqli xüsusiyyətləri var. O, birinci növbədə beynəlxalq ticarət, maliyyə və investisiya axınlarının maddi istehsala nisbətən daha sürətlə artımı ilə səciyyələnir. Dünya iqtisadiyyatının qloballaşması prosesinin digər səciyyəvi xüsusiyyəti milli təsərrüfatların iqtisadi açıqlığının artmasıdır ki, bu meyil də XX əsrin ikinci yarısında bariz görünməyə başlamışdı.

İqtisadi açıqlığın artması milli təsərrüfatların inkişafının daxili və xarici amillərinin nisbətini dəyişir. Əgər hələ ötən əsrin ortalarında aparıcı yer daxili amillərin idisə, hazırda milli sərhədlərdən kənardakı iqtisadi vəziyyət milli iqtisadiyyata get-gedə daha çox təsir edir. Bu isə o deməkdir ki, müasir şəraitdə milli dövlətlər dünya təsərrüfatında baş verənləri nəzərə almadan ölkə daxilindəki iqtisadi həyatı tənzimləyə bilmirlər. Ekzogen amillərin təsiri gücləndikdə dövlətin tənzimləyici rolu istər-istəməz azalır.

Əlbəttə, hər bir konkret ölkənin beynəlxalq iqtisadi münasibətlər sistemində iştirak dərəcəsi və forması, əvvəlki kimi, onun milli təsərrüfatının inkişaf səviyyəsi və spesifikası, dövlətin apardığı xarici iqtisadi siyasətlə müəyyənləşir. Amma dünya təsərrüfatı münasibətləri sisteminin özü o qədər ciddi dəyişikliklərə məruz qalıb ki, ona qoşulan dövlətlər sistemin diktə etdiyi «oyun qaydalarına» riayət etməyə məcburdurlar.

Milli təsərrüfatların açıqlığının artması və onların yaranmaqda olan qlobal iqtisadiyyata qovuşmaları başqa bir proseslə – təxminən eyni inkişaf səviyyəli ölkələrin ticarət-iqtisadi birliklərinin yaranması və ya necə deyərlər,

dünya iqtisadiyyatının regionallaşması ilə paralel gedir. Regionlaşma əslində qloballaşma prosesinə zidd olan bir meyildir. O, ayrı-ayrı milli təsərrüfatların formalaşmaqda olan nisbətən bitkin dünya iqtisadiyyatı sistemindən müəyyən təcridliyinə aparır və cari qrup maraqları və uzunmüddətli qlobal maraqlar arasındakı ziddiyyətlərin əksidir.

Belə təcridliyə misal hazırda Avropa Birləşmiş Ştatları ideyasını müzakirə edən Avropa Şurası ola bilər. ABŞ (Avropa Birləşmiş Ştatları) ideyası ilk dəfə böyük fransız yazıçısı V.Hüqo tərəfindən 1849-cu ildə Sülh tərəfdarlarının birinci qurultayında irəli sürülmüşdü. O dövrdə Avropa xalqları arasında milli ədavət və müharibələr qızışdıran Avropa hökmdarlarının antixalq siyasətinin əksinə olaraq V.Hüqo Avropa xalqları arasında qardaşlıq ideyasını irəli sürdü və onları birləşməyə və Amerika Birləşmiş Ştatlarına bənzər vahid Avropa dövləti, yəni ABŞ (Avropa Birləşmiş Ştatları) yaratmağa çağırdı[1]. Bu ideya Avropada düşmənçilik və müharibələrə son qoymaq, hər bir Avropa xalqının və ölkəsinin özəlliyinin tam saxlanması şərti ilə avropalıların birləşməsi barədə düşünən qabaqcıl avropalıların şüurlarında tədricən özünə yer almağa başladı. Əlbəttə, bu ideyanın onu kəskin tənqid edən əleyhidarları da var idi; bu ideya gah sönükləşir, gah da yeni qüvvə ilə, xüsusilə də Avropada müharibələr alovlananda və ya inqilablar tüğyan edəndə, parlayırdı. Məsələn, Birinci və İkinci dünya müharibələri zamanı belə olmuşdu. Və təbii ki, belə vaxtlarda ABŞ ideyasının tərəfdarları və əleyhdarları fəallaşırdılar. ABŞ ideyasının ən sərt tənqidçilərindən biri V.İ.Lenin olmuş və Birinci dünya müharibəsinin ən qızğın dövründə, 1915-ci ildə məşhur «Avropa Birləşmiş Ştatları şüarı haqqında» məqaləsini çap etdirərək ABŞ ideyasını sinfi mövqedən tənqid etmiş və göstərmişdi ki, Avropanın birləşməsi proletariat, demokratiya və sosializm əleyhinə iri Avropa kapitalının maraqlarına xidmət etmiş olardı[2]. Xoşbəxtlikdən, proletar inqilabı rəhbəri-

1 Гюго В. Речь на Первом конгрессе сторонников мира в Париже (1849 г.). - ПСС. Т.15. С.205.

2 Ленин В.И. О лозунге Соединенных Штатов Европы.-ПСС. Т. 26. С.315-355.

nin qiymətləndirməsi və qorxuları təsdiqlənmədi. İkinci dünya müharibəsindən sonra Avropanın birləşməsi, Avropa inteqrasiyası ideyası yeni mərhələyə qədəm qoydu.

İnkişaf səviyyəsinə görə yaxın ölkələrin regional zəmində iqtisadi birləşmə cəhdi ondan irəli gəlir ki, müasir, mürəkkəb və çoxnomenklaturlu istehsal şəraitində hətta nisbətən iri ölkələrin daxili bazarları ona kifayət etmir və daha geniş iqtisadi məkanın yaranması uğurlu inkişafın və qlobal miqyasda rəqabətqabiliyyətliliyin artırılmasının şərti kimi çıxış edir. Formalaşan vahid iqtisadi məkanlarda xarici iqtisadi əlaqələr yolunda yalnız daxili maneələr aradan qaldırılmır və birgə gömrük siyasəti aparılmır, həm də iqtisadi siyasətin digər istiqamətləri - struktur, pul-kredit, energetik, nəqliyyat, sosial və s.- koordinasiya olunur. Beləliklə, həmin qruplaşmaya daxil olan ölkələrin iqtisadi subyektləri üçün sanki preferensial rejimli inteqrasiya «adaları» formalaşır. Qalan dünyanın müəssisə və firmaları inteqrasiya birləşməsi ərazilərində ən böyük əlverişlilik rejimi və hər hansı bir preferensiya olmadan milli rejimə malik olurlar.

Dünya iqtisadiyyatı hazırda çoxqütblü struktur, çoxsaylı milli-dövlət birləşmələrinin inkişafı qeyri-bərabər gedən dinamik və daim dəyişən ilişmələri şəklində olurlar.Bu strukturun hissələri arasında qarşılıqlı əlaqələr və qarşılıqlı asılılıqlar asimmetrikdir, müxtəlif qrup ölkələr dünya inteqrasiya proseslərinə müxtəlif dərəcədə və faktiki olaraq qeyri-bərabər cəlb olunublar.

Dünya iqtisadiyyatında ən güclü mövqeyi ABŞ tutur. Xüsusi çəkisinin dünya istehsalı və ticarətində azalmasına baxmayaraq o, iki böyük ticarət-iqtisadi ittifaqında Şimali Amerika Azad Ticarət Zonası (NAFTA) və Asiya–Sakit okean İqtisadi Əməkdaşlıq Təşkilatı (ASET) aparıcı dövlət olmaqda qalmaqdadır. ABŞ həm də hüdudlarında dünya ticarətinin aparılması və ölkələr arasında kapitalın yerdəyişmə qaydalarının hazırlandığı beynəlxalq iqtisadi institutların (ÜTT, BVF, BBBİD və b.) fəaliyyətinə hiss olunacaq dərəcədə nəzarət edir. Bütün bunlara səbəb o, dünya təsərrüfat əlaqələri sistemində üstünlüklərini saxlayırlar.

Regional və subregional iqtisadi ittifaqlar və qruplaşmalar – Avropa Şurası (AŞ), NAFTA, Cənubi-Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN), Cənubi Amerika ümumi bazarı (MERKOSUR) və bir sıra başqaları – hazırda müəyyən dərəcədə muxtar iqtisadi məkanlardır ki, bunlarda həmin ölkələrin müəssisə və firmaları arasında qarşılıqlı təsərrüfat əlaqələri daha intensiv inkişaf edir.

Əsasən bu səbəbdən və bir-birinə ərazi yaxınlığına görə inteqrasiya qruplarına daxil olan ölkələrin xarici iqtisadi əlaqələri birinci növbədə birlik üzrə partnyorlarına istiqamətlənmişdir. Regionlaşma, beləliklə, sanki qloballaşma prosesini sürətləndirir, ayrı-ayrı milli təsərrüfatları inteqrasiya qruplarına qoşmaqla onların daha sıx bağlanmasına aparır.

Təsərrüfat həyatının beynəlmiləlləşməsinin müasir mərhələsi, deməli, eyni cür olmayan milli təsərrüfatların açıqlığının dünya iqtisadiyyatının bir sistem kimi tamlığının möhkəmlənməsinə aparan artımı və bu sistemi nisbətən muxtar hissələrə bölən region inteqrasiya qruplarının möhkəmlənməsi kimi meyillərin bir-biri ilə qovuşması ilə səciyyələnir. Bu proseslərin inkişafı, onların qarşılıqlı təsiri, onların hər birinin güclənməsi və zəifləməsi üçüncü minillikdə beynəlxalq iqtisadi münasibətlərin inkişaf perspektivlərini müəyyənləşdirəcəklər.

§2. Maliyyə və əmtəə bazarlarının qloballaşması

Dünya təsərrüfatının qloballaşması prosesi sanki bir-birindən asılı olmayan iki bloka bölünür: nisbətən müstəqil transmilli kapital bazarının mövcud olmasını nümayiş etdirən maliyyə və beynəlxalq əmək bölgüsünün əksi olan və əmtəə və xidmətlərin mübadiləsinə əsaslanan istehsal (texnoloji). Lakin bu müstəqillik xeyli şərtidir və yalnız üzdən belə görünür. Əslində isə əmtəə və maliyyə bazarları qarşılıqlı əlaqədardır: bank kapitalı axınlarının arxasında çox vaxt sə-

naye korporasiyaları, əmtəə mübadiləsi arxasında isə maliyyə dairələri durur.

Hazırda maliyyə sahəsi istehsal sahəsinə nisbətən daha çox beynəlmiləlləşmişdir. Son vaxtlar maliyyə bazarlarının qloballaşma prosesi bir çox ölkələrin pul tədavülünün, o cümlədən faiz dərəcələri və valyuta mübadiləsi əməliyyatlarının, bankların kredit əməliyyatları kəmiyyət məhdudlaşdırılmasının, kapitalların beynəlxalq hərəkətinin və s. sərt tənzimlənməsindən imtina etməsi nəticəsində xeyli sürətlənmişdir.

Maliyyə kapitalları ilə əməliyyatlar hazırda ötən əsrin ortalarında olduğu kimi yalnız milli bazarlarda deyil, həm də beynəlxalq bazarlarda həyata keçirilir. Onları həm xüsusi banklar, kommersiya bankları, qeyri-bank maliyyə təşkilatları (sığorta, investisiya və pensiya fondları), həm də dünyanın mərkəzi bankları, dövlət orqanları aparırlar.

Qloballaşma nəticəsində maliyyə alətləri artıq iqtisadiyyatın inkişafının sırf milli tənzimləyiciləri kimi qalmayıb, bir qism ölkələrin və onların aparıcı korporasiyalarının digər ölkələrin iqtisadiyyatına güclü təcavüz vasitəsinə çevrilmişlər.

Real sektorda da müxtəlif ölkələrin əmtəə və xidmətlərin milli istehsalçıları arasında qarşılıqlı asılılıq güclənir. Bazarların artan liberallaşması şəraitində maddi, texnoloji və intellektual resursların beynəlxalq yerdəyişməsi intensivləşir, dünya iqtisadiyyatının strukturu get-gedə daha çox sənayeləşir.

Dünya ticarət mübadiləsi müasir şəraitdə artıq yalnız ölkələr arasında əmək bölgüsünü deyil, həm də milli hüdudlardan kənara çıxan transmilli konsernlərin daxilində istehsal funksiyalarının bölgüsünü əks etdirir. Elmi-texniki və istehsal-investisiya əməkdaşlığının intensiv inkişafı əmtəə və xidmətlər mübadiləsinin hüdudlarının yeni hüdudlara – beynəlxalq korporasiya mübadiləsinə yerdəyişməsinə aparır. Bu prosesin təsiri altında milli iqtisadiyyatların, o cümlədən təşkilati-idarəetmə xətti üzrə, istehsal-texnoloji yaxınlaşması baş verir.

Hazır məhsulların dünya ixracının çox hissəsi (təxminən 80%) sənaye cəhətdən inkişaf etmiş ölkələrin payına düşdüyündən əslində məhz bu ölkələr ikitərəfli və ya çoxtərəfli razılaşmalar əsasında elm- və texnikatutumlu istehsal məhsullarının mübadilə qaydalarını müəyyənləşdirirlər. Texniki tərəqqi pillələri ilə qalxdıqca onların, təbii ki, ölkənin maddi və əməktutumlu məhsullar istehsalçılarının maraqlarını müdafiə etmək istəyi itirilir və onlar idxal tariflərinin azaldılması və ya hətta aradan götürülməsi yolu ilə mübadiləni ucuzlaşdırmağa çalışırlar. Onlara çatmağa çalışan ölkələr, imkan daxilində öz maraqlarını qorumaqla, istər-istəməz dünya iqtisadi avanqardının işləyib hazırladığı «oyun qaydalarını» qəbul etməyə məcbur olur, yeni kateqoriyadan olan əmtəələrin yüksək tarifləri və dünya iqtisadiyyatının aşağı pillələrində dövr edən məhsulların tariflərinin azaldılması ilə barışırlar.

Beləliklə, maliyyə və istehsalın beynəlmiləlləşməsi milli bazarların get-gedə daha çox qovuşmasına aparır. Yer üzündə çoxtərəfli qaydada tənzimlənən, dünya əmək bölgüsünə əsaslanan və regionların makroiqtisadi xüsusiyyətləri ilə qovuşan beynəlxalq istehsal-maliyyə kompleksi yaranır.

Onun əsasını bütün qitələrin bazarlarında öz aralarında rəqabət aparan və böyük iqtisadi təsirə malik olan TMK təşkil edir. Perspektivdə əsasən bu kompleksin fəaliyyəti beynəlxalq əmtəə, xidmətlər və kapital axınlarının dinamikası və strukturunda dəyişiklikləri müəyyənləşdirəcək.

§3. Dünya təsərrüfat əlaqələrinin qloballaşmasının üstünlükləri və ziddiyyətləri

Bazarların və bütövlükdə dünya iqtisadiyyatının qloballaşması inkişafın obyektiv meyili kimi çıxış edir və bunun,

çox güman, yaxın perspektivdə alternativi yoxdur. Lakin o, «xətti deyil, olduqca ziddiyyətli, qeyri-bərabər, öz konkret reallaşdırılma, təzahür formalarını, metod və mexanizmlərini dəyişən prosesdir»[1].

Müasir təcrübə göstərir ki, dünya təsərrüfat əlaqələrinin dinamik inkişafı milli çərçivələr hüdudlarında ölkələrin istifadə etdiyi resursların həcmini dəyişərək və onları maddi-əşyavi formaya çevirərək, təkrar istehsal prosesini xeyli yeniləşdirir. Xarici rəqabətin təsiri altında açıq bazar təsərrüfatlarında struktur yenidənqurması baş verir: həyat qabiliyyətli olmayan və ya düşkünlük vəziyyətində olan istehsallar yığışdırılır, qabaqcıl sahələr inkişaf edir. Eyni zamanda texniki yeniləşmə prosesi həyata keçirilir, təsərrüfat fəaliyyətinin yeni təşkil formaları tətbiq olunur, idarəetmə metodları təkmilləşdirilir. Ölkələrin beynəlxalq əmək bölgüsünə fəal cəlb olunması onları xərcləri azaltmağa, əmək məhsuldarlığını artırmağa, lazımi rəqabətqabiliyyətlilik səviyyəsini saxlamağa vadar edir. Təsərrüfat həyatının beynəlmiləlləşməsinin güclənməsi müasir məhsul növlərinin, texnologiyaların, istehsal prosesləri və sistemlərin, patentlərin, nou-hauların, marketinq və menecmentin beynəlxalq diffuziyası, başqa sözlə, postsənaye cəmiyyətinin iqtisadi, ekoloji və başqa standartlarının yer kürəsində yayılması üçün imkanlar yaradır.

İstehsal-texnoloji, maliyyə və intellektual resursların transsərhəd yerdəyişmələrinin intensivləşməsi, beləliklə, bir tərəfdən, onların planet miqyasında daha səmərəli təkrar bölgüsünə və istifadəsinə, milli iqtisadiyyatların inkişafının sürətlənməsinə aparır. Digər tərəfdən, bazarların liberallaşdırılması və milli təsərrüfat sistemlərinin qarşılıqlı asılılığının güclənməsi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə fərqli effektlər gətirir ki, bunlar da rəqabətqabiliyyətliliyin istehsal amillərinin mövcudluğu üzrə xeyli fərqlənirlər. Birincilər struktur artıqlığı olması səbəbindən öz artıqlıqlarına dünya təsərrüfatında istifadə etmək imkanı

1 Коллонтай В. О неолиберальной модели глобализации // МЭ и МО, 1999. №10. С.3.

tapır və dünya istehsal resursları və nəticə kimi öz uzunmüddətli gəlirləri üzərində öz nəzarətlərini artırırlar. İkincilər struktur kəsirli olduqlarından özlərinin istifadə olunmayan resurslarından daha səmərəli istifadə etmək və məhsuldarlığın və gəlirlərin artırılması məqsədilə iqtisadiyyatın struktur yenidənqurmasını aparmaq imkanı əldə edirlər.

Məşhur beynəlxalq ticarət nəzəriyyələri, o cümlədən Xekşer-Olin modeli, göstərirlər ki, dünya mübadiləsi həmin ölkədə çox olan istehsal amillərinin gəlirliliyinin artmasına və ölkədə az olan amillərin gəlirliliyinin azalmasına rəvac verir[1]. Ölkələrin əmək və kapitalla müxtəlif dərəcədə təminatı şəraitində onların dünya təsərrüfatı əlaqələrinə qoşulması əmək kəsiri və əmək artıqlığı olan regionlarda əməkhaqqı səviyyələrinin yaxınlaşdırılmasına imkanlar yaradır.

Qloballaşma tərəfdarları adları çəkilən nəzəriyyələrə söykənərək göstərirlər ki, inkişaf etməkdə olan ölkələrdəki kapital kəsiri və əmək resursları artıqlığı daha yüksək mənfəət norması əldə etməyə imkan verir. Buna görə də, onların fikrincə, kapital axını qarşısındakı maneələrin aradan götürülməsi onun inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə yerdəyişməsini sürətləndirir. Bu, öz növbəsində, kapitalı qəbul edən ölkələrdə iqtisadi artım tempinin əhalinin adambaşına düşən gəlirin artmasına səbəb olur. Başqa sözlə, qloballaşma müxtəlif qrup ölkələrin gəlirləri arasında fərqin azalmasına təkan verir, arxada gələn ölkələrin müəyyən qədər iqtisadi liderlərə yaxınlaşmasına kömək edir.

Qloballaşma tərəfdarlarının opponentləri bildirirlər ki, kapitaldan mənfəət (söhbət mənfəət normasından deyil, onun kütləsindən, həcmindən gedir) inkişaf etmiş ölkələrdə inkişaf etməkdə olan ölkələrdə olduğundan yüksək olaraq qalır. Buna insan kapitalına (təhsil və kadr hazırlığına) geniş miqyaslı kapital qoyuluşları, miqyas effektindən istifadə, daimi innovasiya fəallığı və dünya təsərrüfatının sənaye mərkəzlərində fəaliyyətdə olan bəzi digər amillər rəvac ve-

1 Оболенский В.П., Поспелов В.А. Глобализация мировой экономики: проблемы и риски российского предпринимательства.-М.: Наука, 2001. С.32.

rir. Deməli, kapital inkişaf etmiş ölkələrdən inkişafda olan ölkələrə deyil, əks istiqamətdə yerini dəyişir. Onlar haqlı olaraq qeyd edirlər ki, inkişaf etməkdə olan ölkələrdəki iqtisadi artım idxal imkanlarını ciddi şəkildə məhdudlaşdıran nəhəng xarici borcla, xammal ixracatçısı olan ölkələr üçün «ticarət şəraiti»nin[1] pisləşdirilməsi, sənaye cəhətdən inkişaf etmiş ölkələrin qalan dünyanın məhsullarının ixracına tələbinin məhdudluğu ilə ləngidilir. Buna görə də qloballaşmanın nəticələri onlar tərəfindən mənfi qiymətləndirilir.

İnkişaf etməkdə olan ölkələrdə qloballaşmanın nəticələri daha kəskin qiymətləndirilir. Onların siyasətçiləri və iqtisadçıları iddia edirlər ki, ticarətin liberallaşması, kapital ixracatçılarına təminatlar və intellektual mülkiyyət hüququnun müdafiəsi yalnız bir neçə varlı dövlət üçün uduşludur və Şimal ilə Cənub arasında texniki-iqtisadi inkişafda fərqin artmasına aparır. Bəzi ölkə tədqiqatçıları da müasir qlobal iqtisadi inkişafı belə sərt səciyyələndirirlər. Belə ki, məsələn, S.Qlazyev «dünya iqtisadiyyatının beynəlxalq maliyyə oliqarxiyasının və transmilli kapitalın maraqlarına»[2] tabeçiliyini qeyd edir.

Ən kasıb ölkələr bildirirlər ki, onlar nəinki liberallaşdırma hüdudlarını genişləndirə bilməyi özlərinə imkan verə bilməzlər, hətta əvvəllər əldə olunmuş razılaşmaların qüvvəyə minməsi templərini ləngitmək istərdilər. Bu, qismən onunla əlaqədardır ki, inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələrin ixracının onların bazarlarına girməsi yolundakı maneələri azaltsalar da, Qərb inkişaf etməkdə olan ölkələrdən idxalın, birinci növbədə kənd təsərrüfatı məhsulları və toxuculuq məmulatlarının idxalının liberallaşdırılması üzrə öz öhdəliklərini yerinə yetirməyə tələsmir.

Hələ 1999-cu ilin dekabrında ÜTT-nın Sietldəki konfransında inkişaf etməkdə olan ölkələr sərt mövqe tutaraq,

1 «Ticarət şəraiti» dedikdə konkret götürülmüş ölkənin xarici ticarətində orta ixrac və idxal qiymətlərinin indekslərinin nisbəti başa düşülür. Onlar həmin göstərici artdıqda yaxşılaşır və azaldıqda pisləşir.

2 Глазьев С. Мы и новый порядок // Независимая газета. Приложение «Сценарии», 1997. №11.

dünya iqtisadiyyatı liderlərinin birtərəfli üstünlüklər əldə etmək cəhdlərinə və onların dünya əhalisinin 80%-nin yaşadığı bölgələrin həyat əhəmiyyətli maraqlarını nəzərə almaq istəməməsinə qarşı etirazlarını nümayiş etdirdilər. Nəticədə bazarların liberallaşdırılması üzrə çoxtərəfli danışıqların yeni mərhələsinə başlamaq nəzərdə tutulmuş Sietl görüşü pozuldu.

Qloballaşmanın nəticələrinin bir-birinə tamamilə əks qiymətləndirilmələri ən azı onun müsbət effektinin planet üzrə qeyri-bərabər, asimmetrik bölüşdürüldüyünü göstərir. Qloballaşmanın üstünlükləri dünyanın sənaye avanqardından texniki-iqtisadi və sosial gerilikləri artmaqda davam edən ən kasıb ölkələrdə, birinci növbədə ən az inkişaf etmiş ölkələrdə (Afrika, Asiya, Karib dənizi hövzəsi və Yaxın Şərqin 48 dövləti) əslində özünü heç cür büruzə vermir. Bunun nəticəsi dünyanın iqtisadi qütbləşməsinin, Şimalla Cənub arasındakı münasibətlərdə artan gərginliyin saxlanılmasıdır.

Bu məsələyə diqqət yetirən O.Boqomolov tamamilə haqlı olaraq qeyd edir ki, iqtisadi qloballaşmanın üstünlükləri avtomatik realizə olunmur və bütün ölkələr onları eyni dərəcədə hiss etmirlər. Bu prosesin yer kürəsində dayanıqlı iqtisadi artıma rəvac verməsinə inandırıcı dəlillər yoxdur. Sonuncu hələ ki, daxili şəraitlərdən və ayrı-ayrı, iqtisadi cəhətdən ən güclü dövlətlərdən asılıdır.

Qloballaşmanın nəticələri haqqında məsələyə aydınlıq gətirməyə cəhd edən ayrı-ayrı xarici mütəxəssislər və ölkə mütəxəssisləri qloballaşmanın tərəfdarları və əleyhidarlarının gəldikləri nəzəri nəticələrin korrektli olmasını çox sayda ölkələrin inkişafı haqqında geniş statistik materialların təhlilinin köməkliyi ilə yoxlamağa cəhd edirlər. Belə ki, C.Saks və E.Vorner 117 ölkə üzrə iyirmiillik dövr üçün hesablamalar apararaq bu nəticəyə gəlmişlər ki, yoxsul ölkələrin sürətli inkişafı üçün qənaətbəxş şərait birinci növbədə milli təsərrüfatın açıqlığına və xüsusi mülkiyyətin müdafiəsinə yönümlənmiş iqtisadi siyasətin aparılmasıdır. Y.Şişkov

ÜDM, əhalinin sayı, xarici ticarət dövriyyəsi və istehlak göstəricilərinin dinamikasını aqreqasiya etdiyi altı qrup ölkələr üzrə nəzərdən keçirərək bildirir ki, xarici ticarət dövriyyəsinin region əhalisinin hər nəfərinə düşən artımı nə qədər yüksək olarsa, əhalinin adambaşına düşən ÜDM və istehlak bir o qədər sürətlə artır. Onun fikrincə, qloballaşmanın nəticələri ilə bağlı qorxular mürəkkəb birbaşa və əks asılılıqların tam başa düşülməməsi ilə əlaqədardır ki, bunların da yekun balansı prinsip etibarilə bütün ölkələr üçün müsbətdir. Struktur böhranlarının normal iqtisadi qanunauyğunluqları pozduğu keçid iqtisadiyyatlı ölkələr istisna təşkil edir[1].

Lakin bu və digər nikbin qiymətləndirmələr iqtisadi açıqlığın artması nəticəsində yaranan müəyyən real təhlükələri görməməyə əsas vermir.

Məsələn, aydındır ki, qloballaşma nəticəsində beynəlxalq əmək bölgüsünün dərinləşməsi və təkrar istehsal zəncirinin bütün planet üzrə uzadılması təkrar istehsal probleminin kiçik hissələrlə paylaşdırılmasına və geniş ərazi üzrə disproporsiyasına, onların dünya təsərrüfatı mərkəzlərindən kənarlara köçürülməsinə səbəb olmuşdur.

Yenə də aydındır ki, dünya iqtisadiyyatına inteqrasiya prosesində inkişaf etməkdə olan ölkələr və postsosialist ölkələri ciddi adaptasiya problemləri ilə üzləşirlər. Onlar üçün əsas təhlükə ondan ibarətdir ki, dünya təsərrüfat əlaqələrinin tənzimlənməsində milli dövlətlərin rolunun zəifləməsi şəraitində bazar kortəbiiliyinin destruktiv qüvvələrindən, daha güclü rəqiblərin təcavüzündən, dağıdıcı maliyyə və iqtisadi böhranlardan qorunmaq imkanları xeyli azalır.

Qloballaşmanın «narahatlıqlarını» sənaye cəhətdən inkişaf etmiş ölkələr də get-gedə daha tez-tez hiss etməyə başlayırlar. Dünya təsərrüfatına ucuz əmək qüvvəli regionların cəlb edilməsi və kasıb ölkələrdən daha varlı ölkələrə iş qüvvəsinin miqrasiyası artıq Qərb ölkələrində gəlir səviyyəsinə təzyiq göstərir və bu da özünü ABŞ-da görülmüş işə görə ödənişin azalmasında və Avropada yüksək işsizlik səviyyəsində göstərir.

Milli təsərrüfatların qarşılıqlı asılılığının güclənməsi dünyanın ayrı-ayrı əmtəə və maliyyə bazarlarında böhran proseslərinin baş verdiyi hallarda onları daha zəif edir. Qiymət konyunkturasının təsir etdiyi ölkələrdə ixrac gəlirləri azalır, maliyyə cəhətdən yaxşı olmayan milli bazarlardan xarici və birinci növbədə möhtəkirlik kapitalı tez və geniş miqyasda gedir. Bunun nəticəsində böhrana cəlb olunmuş ölkələr xarici borclarına xidmət göstərilməsində çətinliklərlə üzləşirlər, onların borc yükünü ağırlaşdıran yeni borclar götürməyə, bir də idxalı məhdudlaşdırmağa məcbur olurlar ki, bunlar da bütövlükdə onların iqtisadi artımını ləngidir.

Bu baxımdan 1997-ci ilin ortalarında Cənubi-Şərqi Asiyada baş vermiş valyuta-maliyyə böhranının nəticələri xeyli ibrətamizdir. Tailand batının kəskin şəkildə qiymətdən düşməsindən başlayan böhran bir yanğın kimi İndoneziyaya, Malayziyaya və Filippinə keçdi və oralarda da milli valyutanın zəifləməsinə səbəb oldu. Sonra böhran Honkonqun fond bazarını və Cənubi Koreyanı çulğadı, yapon iyenini sarsıtdı. Böhranın öz miqyasına görə get-gedə daha genişlənməsi səbəbindən Cənubi-Şərqi Asiyanın və investisiya riski səviyyəsinin yüksək olduğu digər inkişaf etməkdə olan və keçid iqtisdiyyatlı ölkələrdən xarici kapitalın kütləvi çəkilməsi başlandı. 1998-ci ildə böhran Rusiyaya zərbə vurdu, MDB ölkələrinə ciddi təsir göstərdi, Rumıniya və Çexiyaya toxundu, sonra isə Braziliyaya zərbə endirdi.

İqtisadiyyatın qloballaşmasının effektlərindən biri beynəlxalq təsərrüfat əlaqələri sisteminin qeyri-sabitliyidir. Açıqlıq şəraitində konyunkturanın tsiklik artıb-azalmalarına ayrı-ayrı ölkələrdə birdən yaranan təsərrüfat həyatındakı pozuntular da əlavə oluna bilir ki, bunlar da milli hüdudlardan kənara çıxa bilirlər. Bu böhranların qonşu regionlara, onların lokallaşdığı qitəyə və yer kürəsinin digər bölgələrinə yayılması ayrı-ayrı ölkələri, bir tərəfdən, maliyyə-iqtisadi təlatümlər infeksiyasından qorumaq üçün tədbirlər görməyə, birinci növbədə himayədarlıq hədlərini yüksəltməyə və

1 Шишков Ю. Эволюция мирового сообщества: поляризация или возрастание гомогенности // МЭ и МО, 1999.№ 9. С.8.

antidempinq prosedurları tətbiq etməyə, yəni qloballaşmanın imperativlərinin əksinə getməyə məcbur edir. Digər tərəfdən, lokal tənəzzüllərin qlobala çevrilməsi ehtimalının artması dünya təsərrüfat fəaliyyətinin əsas iştirakçılarını böhran oyanışlarının qarşısını almaq üçün kollektiv cəhdlərin zəruriliyini dərk etməyə və antiböhran tədbirlərinin beynəlxalq koordinasiyasının yeni formalarını axtarmağa məcbur edir. Sənaye cəhətdən inkişaf etmiş ölkələr böhrandan zərər çəkmiş ölkələrə yardım edilməsini razılaşdırmağa, qlobal bazarda vəziyyətin inkişafını proqnozlaşdırmalı və onun pisləşməsinin qarşısını almağa qabil olan previntiv tədbirlər hazırlamalı olan məsləhət strukturları yaratmağa məcburdurlar. Razılaşdırılmış tövsiyələri artıq yaranmaqda olan «maliyyə sabitliyi forumu», «yeddilik» ölkələri, beynəlxalq təşkilatların himayəsi altında «qlobal maliyyə arxitekturası», «yeddilik» ölkələri, Rusiya, Çin və digər ölkələrin iştirakı ilə G 20 kimi strukturlar işləyib hazırlayırlar.

Qloballaşmanın üstünlüklərinin bölgüsündə dünyada yaranan disproporsiyaların aradan qaldırılmasının zəruriliyini BMT bəyan edir. Bu təşkilatın XXI əsrdə rolu haqqında məruzəsində onun Baş katibi Kofi Annan qeyd etmişdi ki, qloballaşmanın açdığı perspektivlərdən istifadə etmək və bu zaman onun neqativ təsirlərini aradan qaldırmaq üçün biz daha yaxşı idarə etməyi öyrənməli və birgə daha yaxşı idarə etməyi öyrənməliyik.

Təsərrüfat həyatının beynəlmiləlləşməsinin artması, beləliklə, dünya birliyi qarşısında inkişafın sürətləndirilməsi üçün yalnız yeni imkanlar açmır, həm də milli səviyyədən daha yuxarıda razılaşdırma olmasa, həll edilə bilməyən yeni mürəkkəb problemlər doğurur. Başqa sözlə, dünya təsərrüfat əlaqələri sisteminin qeyri-sabitliyi iqtisadi əməkdaşlığın həyata keçirilməsinin iştirakçıların çoxunu qane edən şərtlərinin işlənib hazırlanmasında beynəlxalq birgə səylərin gücləndirilməsinə tələbat yaradır. Buna görə də dünya birliyinin siyasi dairələrdən elmi dairələrə kimi ən müxtəlif dairələrində dünya təsərrüfat əlaqələrinin tənzimlənməsinin ən

optimal modellərinin axtarışları fəallaşdırılır.

Əsas anlayışlar və məfhumlar

Qloballaşma; elmi-texniki tərəqqi; informasiya inqilabı; dünya iqtisadiyyatının transformasiyası; regionlaşma; dünya iqtisadiyyatının çoxqütblü strukturu; beynəlxalq korporativ mübadilə; bazarların liberallaşdırılması; qloballaşma effektinin asimmetrikliyi.

XXIX FƏSİL. QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İNKİŞAF İQTİSADİYYATININ NƏZƏRİYYƏSİ

§1. Dünya təsərrüfatının inkişaf iqtisadiyyatı: yoxsul və varlı ölkələr.

§2. Dünya təsərrüfatında varlılıq və yoxsulluğun qütbləşməsinin səbəbləri.

§3. Zəif inkişaf etmiş ölkələrin (LDC) inkişaf perspektivləri.

§1. Dünya təsərrüfatının inkişaf iqtisadiyyatı: yoxsul və varlı ölkələr

Vahid dünya, vahid bazar (one world, one market) – qlobal iqtisadiyyatın bu gün üçün devizi belədir.

Bu devizdə müasir iqtisadi inkişafın obyektiv prosesi əks olunur. Bu, eyni zamanda bazar inkişaf modelinin, özü də onun Amerika Birləşmiş Ştatlarının hegemonluğu ilə diktə olunan subyektiv variantının üstünlük təşkil etdiyini göstərir. Amerikanın "Self made men" (Hər kəs öz sərvətinin yaradıcısıdır) şüarı bütöv xalqların şüuruna yeridilir. ABŞ-da bir neçə nəslin ailə sərvətini necə toplamasını "self made men"lərin necə ciddi-cəhdlə gizlətməyə çalışmalarını müəyyənləşdirən alimlər açıq-aşkar əylənirlər[1]. Lakin dünyanın iqtisadi mənzərəsinin strukturu bunun əksini deyir: hər bir ölkə özünü varlı edə bilməz. Yoxsul və varlı ölkələr arasında suayrıcı get-gedə dərinləşir.

İqtisadi dinamika arxasında duran keyfiyyət göstəricilərinə diqqətin gücləndirilməsinə tələbat dünya iqtisad elmində iqtisadi artım nəzəriyyələri (economic growth) ilə yanaşı, yeni elmi istiqamət – iqtisadi inkişaf nəzəriyyəsi (economic development) yayılmışdır. Artıq XX əsrin 70-ci illərində iqtisadi inkişafın xarakteristikasında əsas diqqət iqtisadi artım prosesində yoxsulluğun, qeyri-bərabərliyin və işsizliyin aradan qaldırılması və ya miqyasının azaldılması

1 Бродель Ф. Время мира. Т.3.-М.: Прогресс, 1992. С.645-646.

üzərində cəmlənirdi. «Artım vasitəsilə bölgü» şüarı ümumi oldu. Professor Dadli Spirs inkişafın mahiyyətini qısa şəkildə belə vermişdir: «Ölkənin inkişaf etdiyini bilmək üçün bu kimi sualları vermək lazımdır: Yoxsulluq necə olub? İşsizliyin səviyyəsi necə dəyişib? Qeyri-bərabərlik səviyyəsi necədir? Əgər hər üç göstərici ilkin yüksək səviyyə ilə müqayisədə azalmışsa, onda ölkə, şübhəsiz, inkişaf dövrünü yaşayır. Əgər onlardan biri ya ikisi, xüsusilə də üçü də pisləşibsə, onda əhalinin adambaşına düşən gəliri hətta ikiqat artarsa belə, inkişafdan danışmaq qəribədir»[1].

Hətta ötən əsrin 80-ci illərində iqtisadi artımı inkişafın məqsədi bəyan edən Ümumdünya bankı bu nöqteyi-nəzərə qoşulmuşdur. «Dünyanın inkişafı haqqında məruzə»də 1991-ci ildə deyilir ki, ***inkişafın məqsədi həyatın keyfiyyətinin yaxşılaşdırılmasıdır.***

***Həyatın keyfiyyəti* – yalnız gəlirlərin artması deyil, həm də təhsilin, qidalanmanın, səhiyyənin yaxşılaşdırılması, yoxsulluğun miqyasının azaldılması, ətraf mühitin sağlamlaşdırılması, imkanların bərabərliyi, şəxsi azadlığın genişlənməsi və daha dolğun mədəni həyatdır.**

Əvvəlcə iqtisadi nəzəriyyənin tərkib hissəsi kimi yaranmış iqtisadi inkişaf nəzəriyyəsi, bəzi alimlərin fikrincə, tədricən elmin üçüncü dünya ölkələrinin inkişafını tədqiq edən müstəqil sahəsinə çevrilmişdir (*less-developed countries, LDC*).

İnkişaf iqtisadiyyatı dünyada iqtisadi inkişafın qeyri-bərabərliyini şərtləndirən səbəblərin təhlili, cəmiyyətin mümkün qədər qısa müddətdə radikal iqtisadi, institusional və sosial dəyişmələrinin həyata keçirilməsinə yönümlənmiş dövlət siyasətinin işlənib hazırlanması ilə məşğul olur. Belə siyasət olmazsa, arzu olunan məqsədlə reallıq arasında uçurum ildən-ilə dərinləşəcək. İnkişaf iqtisadiyyatının obyektləri insanlarda təbii potensialın realizə olunması üçün onları maddi şəraitlə təmin etməlidir.

1 Dudly Seers. The meaning of development: cəmiyyətin XI konfransında məruzə. Beynəlxalq inkişaf problemləri üzrə. New Dehli (1969, p.3).

İstənilən cəmiyyət üçün əsas iqtisadi problemlər nəyin, nə qədər, necə, hansı miqdarda və kim üçün istehsal edilmə olmasıdır. Lakin fundamental problem **qərarları kimin qəbul etməsi və ya onların qəbul olunmasına təsir göstərməsi və onların kimin maraqlarına qulluq etməsidir.** Buna görə də inkişaf problemlərinin tədqiqi sırf iqtisadi dəyişənlərdən (gəlir, mülkiyyət, qiymətlər və əmanətin səviyyəsi) başqa, qeyri-iqtisadi institusional problemləri (torpaqdan istifadənin xarakteri, müxtəlif siniflərin və sosial təbəqələrin təsiri, kredit institutları, təhsil və səhiyyə sistemləri, hökumət məmurları hərəkətlərinin motivasiyası, dövlət idarəetməsi mexanizmləri, əhalinin işə münasibəti, asudə vaxtdan istifadə, şəxsiyyətin inkişafı, siyasi və iqtisadi elitaların dəyər məqsədləri, rolu və davranışı) də əhatə etməlidir. Kənd təsərrüfatı istehsalının dirçəlişinə, məşğulluğun artırılması və yoxsulluğun aradan qaldırılmasına yönümlənmiş iqtisadi inkişaf strategiyaları çox vaxt ona görə nəticəsiz qalırdılar ki, iqtisadçılar və siyasi müşavirlər iqtisadiyyatı iqtisadi və qeyri-iqtisadi amillərin inkişafa həm kömək edə biləcəyi, həm də mane ola biləcəyə qarşılıqlı əlaqədar, qarşılıqlı asılılıqlı sosial sistem kimi görmürdülər.

İnkişaf iqtisadiyyatı hər bir ölkənin qlobal orqanizmin bir hissəsi olduğu dünya birliyi çərçivəsində bütün xalqların və ölkələrin artan qarşılıqlı asılılığını da nəzərə almaya bilməz. Demək olar ki, bu gün dünya iqtisadiyyatı insan bədəninə bənzəyir: əgər onun bir hissəsi xəstələnərsə, bunu qalanların hamısı hiss edir, əgər bir neçə hissə xəstələnərsə, bütün orqanizm əzab çəkir.

Qloballaşma şəraitində ayrı-ayrı ölkələrin yoxsulluğu və varlılığı problemi xüsusilə kəskinləşir. Yoxsul ölkələr yoxsulluqda qalır və bundan başqa, yoxsulluq daha da artır, varlı ölkələr isə varlanır, çünki onlar artıq varlıdırlar[1].

Yoxsulluq və varlılıq problemi dünyanın özü kimi əbədidir. İqtisadçıların bir qismi bu hadisənin səbəblərini aydınlaşdırmağa cəhd etmədən onu təbiətin qanunu kimi qəbul edirlər. Onların fikrincə, kasıblar müəyyən qədər ehtiyatlı

1 Бродель Ф. Время мира. Т.1.- М.: Прогресс, 1992. С.41.

deyillər (improvident – yəni o dərəcədə ehtiyatsızdırlar ki, ağızlarında qızıl qaşıq olmadan dünyaya gəlirlər), ona görə də cəmiyyətdə ən qaba, çirkli və alçaq funksiyaları yerinə yetirən adamlar həmişə olur. İnsan xoşbəxtliyinin cəmi (the stock of humanhappiness) buna səbəb xeyli artır, daha nəcib adamlar (the more delicate) əziyyətdən qurtarır və maneəsiz öz yüksək təyinatlarına doğru gedə bilirlər və s.[1]

«İctimai sərvətin tərəqqisi,- Ştorx hesab edirdi,- cəmiyyətin ən darıxdırıcı, alçaq və iyrənc işlərini görən, bir sözlə, həyatdakı ən xoşagəlməz və kölələşdirən şeyləri öz çiyinlərinə götürən və bununla da başqa siniflərin asudə vaxtını, şən əhval-ruhiyyəsini və xarakterinin şərti ləyaqətini və s. təmin edən faydalı sinifi doğurur»[2].

Sismondi cəmiyyətin yoxsullara və varlılara bölünməsini onunla izah edirdi ki, «sənaye və elmin inkişafına səbəb hər bir fəhlə özünün istehlakı üçün lazım olandan xeyli çox istehsal edə bilir. Lakin onun əməyi sərvət istehsal etsə də, həmin sərvəti onun özü istehlak etməli olsaydı, bu onu əməyə az qabiliyyətli edərdi». İşləmək və başqalarının «qulluğunda durmaq» üçün yoxsul olmaq lazımdır. «... Əməyin məhsuldar qüvvələrinin hədsiz artmasının nəticələri veyil varlıların cah-calalının və nəşəsinin artırılmasından başqa bir şey ola bilməz»[3].

1920-ci ildə C.M.Keyns birmənalı şəkildə bildirmişdi ki, onun fikrincə, «sərvət bölgüsündə qeyri-bərabərlik» - tam dolğun iqtisadi həyat üçün lazım olan kapital yığımının artırılması üçün ən yaxşı vasitədir.

Nə vaxtsa (200 ildən çox əvvəl) ayrıca bir ölkə çərçivəsində düz olan şey qloballaşma şəraitində bütün dünya iqtisadiyyatına şamil edilir. Dünya bu gün «qızıl milyard» ölkələrinə və inkişaf etməkdə olan ölkələrə bölünür. Bəzən ölkələrin yoxsul və varlılara bölgüsü varlı Şimalla yoxsul Cə-

1 A Dissertation on the Poor Laws. By a Well-wisher to Mankind (keşiş Q.C.Taunsend). 1786. "London". P. 1539.

2 Storchi "Cours of Economic Politigue"/ -Изд. Petersburg , 1815. T. III, p.223.

3 Сисмонди. Новые начала политической экономии.- М.: Соцэкгиз, 1936. Т.1. С.184.

nub[1] arasındakı ziddiyyət kimi təqdim olunur.

XX əsrin sonuncu onilliyi ərzində (D.Stiqlitsin məlumatlarına görə) yoxsulluq içində yaşayan adamların sayı 100 mln. nəfərə yaxın artmışdı. Bu zaman ümumdünya gəliri 2,5% artsa da, yoxsullarla varlılar arasında fərq dərinləşir. Əgər 1960-cı ildə ən varlı beş ölkə ilə ən kasıb beş ölkənin gəlirləri arasında fərq 30:1 nisbəti kimi idisə, 2000-ci ildə bu nisbət 75:1 olmuşdur. Qloballaşma yoxsulluq problemini həll edə bilmədi.

Ölkələrin yoxsulluğu və varlılığı bir sıra göstəricilərə görə müəyyənləşdirilir. Bu, birinci növbədə, gəlirlər arasında fərqdir. «İqtisadiyyat» dərsliyinin müəllifləri S.Fişer, R.Dornbuş və R.Şmalenzi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin gəlir səviyyələrinin təhlili əsasında maraqlı nəticəyə gəlmişlər: ***dünya əhalisinin çoxu elə yoxsulluqda yaşayırlar ki, onu gəlir səviyyəsi yüksək olan ölkələrdəki adamlar təsəvvür belə edə bilmirlər.***

Yoxsulluq yalnız gəlir səviyyəsi göstəricisi ilə deyil, həm də həyat keyfiyyətinin aşağı səviyyədə olmasını təsdiqləyən orta həyat müddəti, tibbi yardımın əlyetərliyi, savadlılıq və təhsil səviyyəsi kimi göstəricilərlə təsdiqlənir. Belə ki, XX əsrin sonunda inkişaf etmiş ölkələrdə yaşlılar arasında savadlılıq 99% təşkil edirdisə, gəlir səviyyəsi aşağı olan ölkələrdə bu 51% olmuşdur. Birinci növbədə səhiyyənin inkişafından asılı olan ömrun uzunluğunu belə verilənlərlə şərh etmək olar: **inkişaf etmiş ölkələrdə bir həkimə 554 adam, inkişaf etməkdə olan ölkələrdə isə 5375 adam**, yəni az qala 10 dəfə çox düşür ki, bu da səhiyyənin əlyetərliyinin 10 dəfə pis olması deməkdir[2].

Qeyd etmək lazımdır ki, son 40 ildə gəlirlərin, həyatın keyfiyyət göstəricilərinin artım tempi bütün dünyada yüksəlmişdi. Lakin zəif inkişaf etmiş ölkələrin (LDC) iqtisadi inkişafa görə «qızıl milyard» ölkələri ilə bərabərləşməsi üçün onların inkişaf tempi həmin ölkələrin inkişaf səviyyəsindən bir neçə dəfə yüksək olmalıdır, çünki hazırkı an üçün verilənlər bazası çox fərqlidir. Məsələn, əgər yoxsul ölkələrdəki orta gəlirin böyük olmayan məbləği (deyək ki, 300 doll.) 3% artarsa, bu varlı ölkələrdə orta gəlirin (deyək ki, 11500 doll.) 2% artmasından xeyli az olacaq, yəni yoxsul və varlı ölkələrin gəlirləri arasındakı mütləq fərqi azaltmaq üçün yoxsul ölkələrdəki iqtisadi artım tempinin müəyyən qədər yüksək olması deyil, on dəfələrlə yüksək olması lazımdır.

1 Фишер С., Дорнбуш Р., Шмалензи Р."Экономика".–М.:Дело, 1993. С. 735.
2 S. Fişer, Dornbuş R. Şmalenzinin verilənləri üzrə hesablanıb. "Экономика".–М.:Дело, 1993. С. 734.


Bir vaxtlar inkişafın bazar modelinə nəzəri alternativ ictimai təsərrüfatın planlı qaydada tənzimlənməsinə əsaslanan marksist-leninçi iqtisadi inkişaf modeli idi. Bu modelin SSRİ-də və bəzi Avropa və Asiya ölkələrində realizə olunma praktikası inkişaf etməkdə olan ölkələri (onlara üçüncü dünya ölkələri də deyirdilər) inkişaf yolu seçimi qarşısında qoyurdu. Onlar bir çox hallarda sosialist inkişaf yolunu seçməyə meyilli olurdular ki, bunun da əsas səbəbi iqtisadi inkişaf tempi idi. Sovet İttifaqının özü 1980-ci il üçün milli gəlir istehsalının həcminə, əmək məhsuldarlığına görə dünyada ikinci yerdə idi. Bu nəticələri şərtləndirən səbəblərin təhlili bu fəslin təhlil predmeti deyil. Bundan başqa, sovet modelinin dağılması inkişaf etməkdə olan ölkələri praktik olaraq onları iqtisadi inkişafın bazar yolundan başqa bir yol seçmək imkanından məhrum etdi. Amma yoxsul və varlı ölkələr probleminin kəskinliyi qaldı. Rusiya üçün bu problem xüsusi maraq kəsb edir, çünki hazırda onun iqtisadiyyatı həm kəmiyyət göstəricilərinə, həm də keyfiyyət göstəricilərinə görə inkişaf etməkdə olan ölkələrə aiddir.

§2. Dünya təsərrüfatında varlılıq və yoxsulluğun qütbləşməsinin səbəbləri

Zəif inkişaf etmiş ölkələrin iqtisadiyyatının təhlili, qloballaşmanın nemətlərini Yer əhalisinin daha geniş kütlələrinə çatdırmaq istəyi, müasir sivilizasiyanın dünyada inkişafı, yeni iqtisadiyyatın yaradılması problemləri ilə birbaşa əlaqədardır.

İnkişaf etməkdə olan ölkələrin geridə qalması iqtisadçıların çoxu tərəfindən texniki-iqtisadi problemlə əlaqələndirilir.

İkinci dünya müharibəsindən, müstəmləkə sisteminin dağılmasından sonra ***zəif inkişaf etmiş iqtisadiyyatlı dövlətlərin*** yaranması belə vəziyyətin səbəblərini araşdırmaq üçün alimlərin diqqətini cəlb etdi. 1949-1950-ci illərdə «yoxsulluğun qüsurlu çevrəsi» anlayışı yarandı. Yoxsulluq dairələrinin qapalılığı, qüsurluğu çoxvariantlıdır. Belə ki, X.Leybenstayn bunu kənd təsərrüfatında ***məhsuldarlığın artıb-azalmaları*** ilə bağlayır (şəkil 29.1).



Şəkil 29.1. X.Leybenstayn üzrə «yoxsulluğun qüsurlu çevrəsi»

Gerçəklik X.Leybenstaynın gəldiyi nəticələri təsdiqləyir. Üçüncü dünya ölkələrinin əhalisinin artımı ilə bağlı 1970-2025-ci illər üçün proqnozlar təsdiqlənir. Belə ki, Afrika əhalisinin payı göstərilən müddətdə 2 dəfəyə yaxın artacaq, Asiyanın əhalisi də artacaq və dünya əhalisinin 57,8%-ni təşkil edəcək. Eyni zamanda yüksək inkişaf etmiş iqtisadiyyata malik ölkələrin cəmləşdiyi Avropa əhalisinin payı 2 dəfədən çox (12,5-dən 6,1%-ə qədər) azalacaqdır, bu həm də Şimali Amerika ölkələrinə aiddir – orada da əhalinin payı kəskin şəkildə azalacaqdır (6,1%-dən 3,9%-ə qədər)[1].

R.Nureyev yoxsulluğun, onun qüsurlu qapalılığının səbəbi kimi ***kapital çatışmazlığını*** göstərir ki, bu da əmək məhsuldarlığının aşağı olmasına gətirir və müvafiq olaraq alıcılıq qabiliyyətini aşağı salır və nəticədə investisiya qoyuluşuna stimul azalır və s.

1 Родионов И.А. Глобальные проблемы человечества.- М.: Аспект Пресс, 1995. С.48.

LDC-in geriliyi və yoxsulluğunu bəzi alimlər ***işçi qüvvəsinin peşəkarlığının aşağı olması***, təhsil səviyyəsinin qənaətbəxş olmaması və nəticədə elm və texnikanın qabaqcıl nailiyyətlərindən istifadənin qeyri-mümkünlüyü ilə izah edirlər. «Yoxsulluğun təhsil çevrəsinin qapalılığı»nın məntiqi belədir: geridə qalmış iqtisadiyyat xalq təhsili və mütəxəssislərin peşə hazırlığı sisteminin kifayət qədər maliyyələşdirilməməsini şərtləndirir, bunun da nəticəsi işçi qüvvəsinin çatışmamasıdır və bu da əmək məhsuldarlığına təsir edir ki, iqtisadiyyatın geridə qalması da bundan irəli gəlir və beləliklə çevrə qapanır.

C.Keynsin konsepsiyasına görə, «yoxsulluğun qüsurlu çevrəsi» ***istehlak və yığımın aşağı səviyyəsi*** ilə bağlıdır. İstehlakın aşağı səviyyəsi məcmu tələbin azalmasında əksini tapır, bu da müvafiq olaraq daxili bazarı daraldır, investisiyaları stimullaşdırmır, nəticədə istehsalın səmərəliliyi, onun mənfəətliliyi aşağı düşür.

«Yoxsulluğun qüsurlu çevrəsi» yalnız iqtisadi deyil, həm də siyasi proseslərlə bağlıdır. Siyasi qeyri-sabitlik birbaşa transaksiya xərclərinə təsir edir, istehsalın səmərəliliyini azaldır, bunun da nəticəsində «kapital xaricə qaçır», iqtisadi artım tempi aşağı düşür[1].

Nəzərdən keçirilən yoxsulluq çevrələrinin qüsurluluğu hər şeydən əvvəl onların qapalılığında, onlardan kənara çıxmağın mümkünsüzlüyündədir. Bundan başqa, çevrələrin qapalılığının ***ilkin səbəbi*** kimi har hansı bir amil göstərilir. Real həyatda bu, bir qayda olaraq, ardıcıl deyil, paralel qarşılıqlı asılılıq, amillər kompleksinin (kapital çatışmazlığı, təhsil səviyyəsi və siyasi qeyri-sabitlik) qarşılıqlı əlaqəsidir və bu da iqtisadiyyatın geriliyinə aparır.

«Yoxsulluğun qüsurlu çevrələri»nin qaçılmazlığı inki-

1 Нуреев Р.М. Экономика развития.-М.: ИНФРА-М, 2001. С.6-14.

şaf iqtisadiyyatı nəzəriyyəsinin, üçüncü dünya ölkələrinin yeniləşməsinin tədqiqinin davam etdirilməsini zəruriləşdirdi. 1956-cı ildə Amerika alimi U.Rostou ***«özü-özünü ləngidən artım» nəzəriyyəsini*** irəli sürdü. Onun əsasında cəmiyyətin ardıcıl olaraq bir inkişaf mərhələsindən digərinə keçmək ideyası durur. Bu keçid əsasən texnikanın inkişaf, yığım, istehlak və s. səviyyəsi kimi texniki-iqtisadi göstəricilərin artması ilə şərtlənir. Bir inkişaf mərhələsindən digərinə keçid, «yoxsulluğun qüsurlu çevrəsi»nin yırtılması, U.Rostounun firincə, «böyük təkan»ın köməkliyi ilə mümkündür. ***«Böyük təkan» konsepsiyası*** Qərb alimləri tərəfindən LDC–in yoxsulluqdan çıxma yollarının əsaslandırılması üçün istifadə olunmuşdur.

Geridə qalmış ölkələrin yeniləşdirilməsi probleminin həllində xüsusi yeri institusional tövsiyələr tutur. İnstitusionalizm nümayəndələri zəif inkişaf etmiş ölkələrin geridə qalmasının ilkin səbəblərini iqtisadiyyatdan çox, onların sosial inkişaf tarixində axtarırlar. İsveç alimi Q.Mürdalın (1898-1987) bu sahədə tədqiqatları şəksiz maraq doğurur. Özünün «Asiya dramı. Xalqların yoxsulluğunun tədqiqi» monoqrafiyasında o, birinci növbədə ona diqqət yetirir ki, üçüncü dünya ölkələrinin problemlərinə burjua siyasi iqtisadı klassiklərinin kapitalist bazar inkişafı yoluna birinci qədəm qoymuş ölkələrə tətbiq etdiyi meyarlarla yanaşmaq olmaz. İnkişaf etməkdə olan ölkələrdə mövcud olan dəyərlər sistemi çox vaxt bazar iqtisadiyyatı ideallarına və müvafiq olaraq Qərb anlamında cəmiyyətin yeniləşdirilməsinə ziddir. Məhz buna görə Afrika, Asiya ölkələrinin çoxu bir vaxtlar (XX əsrin 60-70-ci illərində) qeyri-kapitalist inkişaf yolu seçirdilər. Q.Mürdal yoxsulların tarixi və milli spesifikasını nəzərə almaqla onların rifahının yüksəldilməsini təmin edən inkişaf tərəfindən çıxış edir.

LDC–in iqtisadi geriliyinin səbəblərinin institusional təhlili yalnız texniki-iqtisadi göstəricilərlə (əmək məhsuldarlığı, texnikanın inkişafı, istehlak və yığım səviyyəsini, gəlir və s.) məhdudlaşmır, həm də onların reallaşdırılma «mühiti»ni, atmosferini nəzərə alır.

Qərbin varlılığının səbəbini, sənayeləşmiş dünyanın iqtisadi dəyişməsini, kapitalizmin genezisini alimlər ticarətin, kommersiyanın inkişafı, yəni bazar təsərrüfat sisteminin inkişafı ilə əlaqələndirirlər. Lakin ***kapitalizmin inkişaf eşelonları*** nəzəriyyəsinə görə «üçüncü eşelon» (LDC) çətin ki, «ikinciyə» (bu, bazar inkişaf mərhələsinə Avropa ölkələrinə nisbətən gec qədəm qoymuş ölkələr – Rusiya, Yaponiya, Türkiyə) və xüsusilə də «birinci eşelona» («qızıl milyard» ölkələri) çata bilsin.

Bazar modelinin inkişaf etməkdə olan ölkələrə yayılması yalnız institusional çətinliklərlə deyil, həm də ***hazırda bazar mexanizminin özünün və birinci növbədə onun özəyini – rəqabətin – dəyişilməsi*** ilə mürəkkəbləşir.

Rəqabətqabiliyyətlilik get-gedə daha çox istifadəsi təhsil və cəmiyyətin rifahı ilə bağlı olan texnologiyalarla müəyyənləşdirilir. Təhsilsiz adamlar yüksək texnologiyalardan, hətta onları alsalar belə, istifadə edə bilməzlər, kasıb cəmiyyət isə təhsilli adamlara malik ola bilməz. Qloballaşma inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında əməkdaşlığı keyfiyyətcə dəyişdi. XIX əsrdə və XX əsrin birinci yarısında rəqabət inkişaf etmiş ölkələrin birbaşa investisiyalar, sənayenin inkişaf etdirilməsi və müvafiq olaraq əhalinin peşə hazırlığının və təhsil səviyyəsinin yüksəldilməsinin köməkliyi ilə inkişaf etməkdə olan ölkələrdə yaradıcı funksiyanı yerinə yetirirdilər. XX əsrin ikinci yarısı inkişafın əsas resurslarının dəyişilməsi ilə əlamətdardır. Bu, üzərində istehsal təsbit olunmuş məkan deyil, mobil maliyyə və intellektdir ki, inkişaf etməkdə olan ölkələrdən aparılır və bununla da onların yoxsulluq həddindən çıxmasına mane olur.

İnkişaf iqtisadiyyatı şəraitində rəqabət inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasındakı texnoloji cəhətdən şərtlənən uçurumu dərinləşdirərək zəif inkişaf etmiş cəmiyyətlərin tərbiyəsi və inkişafı mexanizmindən onların məhv edilmə mexanizminə çevrilir. Cəmiyyətin inkişafının tərəqqisi mənimsənilənin tənəzzülü hesabına ge-

dir.

BMT mütəxəssislərinin 2000-ci ildə minilliyin sammitinə hazırladıqları məruzədə qeyd olunduğu kimi, qloballaşmanın başlaması ilə sərvətin artması ilk dəfə olaraq bəşəriyyətin yoxsulluq, uşaqların istismarı, qadınların bərabərhüquqlu olmaması kimi fundamental problemlərinin avtomatik həllinə aparmadı.

Texnoloji proses qloballaşma mərhələsində rəqabəti bəşəriyyətin əsas kütləsi üçün dözülməz səviyyəyə qədər gücləndirərək özünün sonrakı inkişafının əsaslarını dağıdır. O özünü yalnız inkişaf etmiş ölkələrlə məhdudlaşdırır, özü də rəqabətin kəskinləşməsi perspektivdə bu ölkələrin dairəsinin daralmasına aparır, nisbətən yaxşı vəziyyətdə olan ölkələrin istehsal etdiyi yüksək texnoloji bahalı məhsulların satış bazarının məhdudluğu isə artıq indi texnoloji tərəqqini ləngitməyə başlayır.

İqtisadi inkişafın qeyri-bərabərliyinin səbəblərinə müxtəlif alimlərin baxışlarını təhlil edərkən K.Marksın bu məsələdə mövqeyini yada salmamaq mümkün deyil. Ayrılıqda götürülmüş ölkə daxilində sərvətin qeyri-bərabər bölgüsü ilə bağlı məsələni nəzərdən keçirən K.Marks bunu kapitalizmdə mövcud olan ictimai münasibətlər sistemi ilə izah edirdi. Hələ XIX əsrin ortalarında o, «kapitalist yığımının mütləq, ümumi qanununu» vermişdi. Onun mahiyyəti bundan ibarət idi: «İctimai sərvət, işləyən kapital, onun artması dərəcəsi və gücü nə qədər yüksək isə və deməli, proletariatın mütləq miqdarı və əməyinin məhsuldar qüvvəsi nə qədər çoxdursa, sənaye ehtiyat ordusu bir o qədər çoxdur... Lakin fəal fəhlə ordusuna nisbətən bu ehtiyat ordusu nə qədər artıqsa, yoxsulluğu fəal fəhlə olrdusu əməyinin əzablarına düz proporsional olan daimi artıq əhali də bir qədər çox olur. Nəhayət, fəhlə sinfinin yoxsul təbəqələri və sənaye ehtiyat ordusu nə qədər artıq isə, rəsmi pauperizm də bir o qədər artıq olur. Bu - kapitalist yığımının mütləq, ümumi qanunudur[1]. Deməli, bir qütbdə sərvətin cəmlənməsi eyni zamanda digər qütbdə, yəni öz məhsulunu kapital kimi istehsal edən

1 Маркс К. Капитал. Т.1.-М.: Политиздат, 1969. С.646.

sinfin tərəfində yoxsulluğun, əmək əzablarının, **köləliyin,** cəhalətin, vəhşiləşmənin və mənəvi deqradasiyanın cəmlənməsidir»[1]. Böyük utopist Ş.Furye də bunu deyirdi: «...yoxsulluq bolluğun özündən doğur»[2].

Bütün digər iqtisadi qanunlar kimi K.Marks tərəfindən verilmiş ümumi yığım qanununun da çoxsaylı şəraitlərlə yeniləşdirilməsinə baxmayaraq, bununla belə statistika göstərir ki, o hazırda da ***dünya iqtisadiyyatı səviyyəsində*** işləyir. İşsizlər ordusu dünyada həm mütləq, həm də nisbi baxımdan artmaqdadır. Yoxsulluq və varlılığın qütbləşməsi də güclənir. İnkişaf etmiş ölkələrdən geriliyi sürətlə artan LDC əhalisi bu ölkələrə və onların dəyərlərinə bir də ona görə düşməni münasibətdədir ki, həmin dəyərlərin özü üçün prinsipial olaraq əlyetər olmamasını anlayır.

Beləliklə, yoxsulluq və varlılıq problemi mövcuddur və onun əhəmiyyətinin dünyada artmasını bu hadisənin səbəblərini aydınlaşdırmağa çalışan nəzəriyyələrdən də görmək olar.İqtisadi, sosial bərabərsizlik bəzi siyasətçilərin maraqlarında aqressiv-terroristik əhvalların qızışdırılması üçün yaxşı zəmindir. Hadisənin səbəbini aydınlaşdırmaq onu dərk etməyə və idarə etməyə açar vermək deməkdir.

§3. Zəif inkişaf etmiş ölkələrin (LDC) inkişaf perspektivləri

Dünya gəlirinin artdığı, LDC və inkişaf etmiş ölkələrin gəlirlərinin artdığı müasir şəraitdə eyni zamanda yoxsul və varlı ölkələr arasında fərq də artır. Bu fərqi necə azaltmalı, inkişaf iqtisadiyyatı necə olmalıdır?

Problemin həllinin birinci variantı – dünya gəlirinin təkrar bölgüsü - ən sadə və eyni zamanda da ən ədalətlisidir. Bu vəziyyəti ayrıca götürülmüş ölkədə daha varlı vətəndaşlardan daha az varlıların xeyrinə vergi tutulması sistemi ilə müqayisə etmək olar. Gəlirlərin belə təkrar bölgüsü xeyrinə LDC-in əsas dəlili budur ki, varlı ölkələrin çiçəklənməsi əsa-

1 Маркс К. Капитал. Т.1.-М.: Политиздат, 1951. С.650-651.
2 Fourier Oeuvres completes, T.I. Paris, 1845. P.35.

sən yoxsul ölkələrin ucuz xammal və insan resurslarından istifadə hesabına əldə olunub[1]. Bu təkrar bölgü ərzaq göndərilməsi, ucuz kreditlər verilməsi, birbaşa pul subsidiyaları şəklində istifadə olunsa da, haqlı tənqidə məruz qalır. Bunu dövlətin işsizliyə münasibətdə aktiv və passiv siyasəti ilə müqayisə etmək olar. Bu o demək deyil ki, dünya birliyi bu kimi yardımlardan birdəfəlik imtina etməlidir, lakin LDC-in özünün inkişafı üçün şəraitin yaradılması daha vacibdir.

Yardım və gəlirlərin təkrar bölgüsü problemi müzakirə olunanda çox vaxt A.Oykenin «deşik vedrə»si yada düşür. Dövlətlər arasında gəlirin təkrar bölgüsünü A.Oyken deşik vedrədə su daşınması ilə müqayisə edir. Suyun bir hissəsi istehlakçıya gedib çatmır, digər hissəsi isə öz funksiyasını yerinə yetirsə də, belə su daşınmasının səmərəliliyi itirilən hissənin çatdırılan suyun nisbəti kimi hesablanır.

LDC-ə yardım edilməsinin əleyhidarları hesab edirlər ki, belə yardım «bu ölkələrin hökumətlərini korlayır», onlara resursların israf edilməsi siyasətini davam etdirməyə imkan verir və onun dəyişdirilməsinə kömək etmir. Bu nöqteyi-nəzərin xeyrinə olan məqam yardım proqramından daha çox LDC elitasının istifadə etməsidir. Belə transfert paradoksal ola bilər – varlı ölkənin kasıb vergi ödəyicisinin vəsaitləri LDC elitası tərəfindən mənimsənilir.

1 LDC-nin fikrincə, dünyada mövcud olan iqtisadi qaydalar aşağıdakı istiqamətlər üzrə onlara qarşı yönümlənibdir:
1) (LDC) ölkələrinin ixracının əsasını xammal əmtəələri (mis, qalay, boksitlər, kofe, kakao) təşkil edir. Bu əmtəələrin bazarları inkişaf etmiş ölkələrin nəzarətindədir, həmin bazarlarda qiymətlər aşağıdır, bu da yoxsul ölkələrə sürətlə inkişaf etməyə imkan vermir;
2) LDC-in istehsal etmək və sənayeləşməni təmin etmək məqsədilə istehsal etmək istədikləri sənaye əmtəələri bazarları inkişaf etmiş ölkələrin himayədarlıq siyasəti səbəbindən onlar üçün bağlıdır;
3) inkişaf üçün kreditlərin, maliyyə yardımının verilmə şərtləri olduqca ağır, BB-ın borcları ucuz deyil;
4) özlərinin hədsiz yoxsulluqlarını dünya iqtisadiyyatının keçmişdə inkişafı ilə izah edən LDC inkişaf etmiş ölkələr tərəfindən yardımı ədalətin bərpası hesab edir.
Bu dörd bənd onlarda göstərilmiş problemləri həll etmək məqsədilə yeni beynəlxalq iqtisadi qaydanın tətbiq edilməsi uğrunda LDC-in apardığı kampaniyanın əsasını təşkil edir.

Beləliklə, gəlirlərin yoxsul və varlı ölkələr arasında təkrar bölgüsü dünyada yoxsulluq və varlılıq probleminin həll edilməsinin ən yaxşı həlli deyil.

Bu problemin digər həlli üsulu ***LDC ölkələrinin inkişafı üçün şəraitin yaradılmasıdır.***

Belə şəraitlərdən biri azad miqrasiyaya icazə verilməsidir. Bu halda yoxsul ölkələrin vətəndaşları daha yüksək gəlir axtarışında istənilən ölkəyə gedə bilərlər bu da son nəticədə dünyada gəlirlərin bərabərləşməsinə gətirə bilər. Bununla belə hazırda varlı ölkələrə qanuni azad immiqrasiya üçün şərait yoxdur. Bunun əleyhidarları deyirlər ki, bu da əsassız deyil (immiqrantların 2006-cı ildə Fransada çıxışları), bu sahədə azadlıq velfer (ABŞ-da sosial təminat sistemi), pulsuz səhiyyə xidməti və təhsil verilməsi istiqamətində axtarışlar və tələblərlə nəticələnə bilər. Bundan başqa, yalnız Qərbdə deyil, həm də Rusiyada (yaxın xarici ölkələrdən) azad immiqrasiya praktikası bu problemin birinci növbədə yerli əhali ilə gəlmələr arasında ziddiyyətlərin kəskinləşməsi səbəbindən həllinin çətinliyini göstərir.

Bəzi iqtisadçılar LDC-yə ən mühüm və sadə yardım formasının onlara inkişaf etmiş ölkələrin bazarlarına çıxmaq imkanlarının verilməsi olduğunu göstərirlər[1]. «Yardım əvəzinə ticarət» - LDC-ə yardım edilməsi əleyhdarlarının devizidir. Onların fikrincə, ticarətə əsaslanan iqtisadi inkişaf yardımdan daha effektivdir. İnkişaf etmiş ölkələrin bazarlarına çıxış LDC-ə istehsal həcmini artırmağa imkan verir, halbuki adi yardım istehsalı genişləndirmədən istehlak həcmini artırmağa imkan yaradır.

Lakin LDC-in inkişaf etmiş ölkələrin bazarlarına buraxılması sonuncuların müqaviməti ilə üzləşir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə münasibətdə dünyada ikili standartlar qüvvədədir[2]. LDC-in iradları bundan ibarətdir ki, xammal əmtəələri bazarları himayədarlıqları onların sürətli iqtisadi inkişafına mane olan inkişaf etmiş ölkələrin nəzarəti altındadır.

1 Фишер С., Дорнбуш Р., Шмалензи Р. Экономика.- М.: Дело, 1993. С.748.
2 Стиглиц Д. Глобализация: тревожные тенденции.- М.: Мысль, 2003.

Beləliklə, inkişaf iqtisadiyyatının əsas ziddiyyəti bəşəriyyətin mütləq (özü də durmadan azalan) azlığının rifahının sürətlə yüksəldilməsi hesabına onun əsas (özü də artan) kütləsinin tərəqqisinin ləngidilməsi və ya mövcudluğunun pisləşdirilməsidir. Bu ziddiyyət müasir bəşəriyyətin əsas xarakteristikasıdır.

D.Stiqlits kimi bir çox iqtisadçılar ona diqqət yetirirlər ki, bu ziddiyyətin həlli üçün ***texnoloji prosesin bazar xarakterinin korrektə olunması lazımdır.*** Təsadüfi deyil ki, texnoloji baxımdan perspektivli biznes sahələri (məsələn, B.Qeytsin imperiyası və b.) yalnız məhdud bazar zəminində mövcuddurlar.

Bu sahədə beynəlxalq iqtisadi institutlar əhəmiyyətli rol oynamalıdırlar. Məsələn, DVF (Dünya Valyuta Fondu) yaradılanda dünyanın iqtisadi sabitliyinin qlobal səviyyədə kollektiv səylər tələb etməsi prinsipinə əsaslanırdı. Vaxt keçdikcə DVF, elə DİƏB (Dünya İqtisadi Əməkdaşlıq Bankı) da xeyli dəyişikliyə uğradılar. Onların yaradıcısı C.M.Keynsin bazar mexanizminin təkmil olmadığına görə korrektə tələb olunması haqqındakı fikri təhrif olundu. D.Stiqlits yazır ki, C.M.Keyns balasından necə istifadə olunduğunu görsəydi, qəbirdə çevrilərdi. Bu özünü xüsusilə 1980-ci ildə, həmin təşkilatlar azad bazar ideologiyası siyasətini təbliğ edib həyata keçirəndə aydın göstərdi. İqtisadi sərhədlərin şəffaflığı siyasəti birtərəfli qaydada, inkişaf etmiş ölkələrdən deyil, LDC-dən söhbət gedəndə aparılır ki, bu da yoxsul və varlı ölkələr arasında fərqin daha da artmasına rəvac verir.

İnkişaf etmiş ölkələr qloballaşmanı idarə edən beynəlxalq institutların (DVF, DİƏB, ÜTT) islahatını aparmalıdırlar ki, onlar yalnız varlı və sənaye cəhətdən inkişaf etmiş ölkələr üçün deyil, həm də yoxsul və inkişaf etməkdə olan ölkələr üçün işləsinlər.

İnkişaf etməkdə olan ölkələr üçün ən vacibi güclü və müstəqil məhkəmə hakimiyyəti, aşkar və şəffaf, ictimai bölmənin səmərəliliyini və xüsusi bölmənin artımını boğan korrupsiyadan azad səmərəli dövlətçiliyə malik olmaqdır. Xammal ölkələri üçün səciyyəvi olan «holland xəstəliyi» ölkənin inkişafı deyil. Ölkənin inkişafı cəmiyyətin transformasiyasında, yoxsulların həyat şəraitinin yaxşılaşdırılmasında, uğur qazanmaq, səhiyyə və təhsilə çıxış imkanı əldə etmək imkanının yaradılmasındadır[1]. D.Stiqlitsin bu sözləri yalnız istənilən yoxsul ölkə üçün deyil, həm də bu qəbildən olan ölkələr sırasına düşmüş Rusiya üçün inkişaf proqramıdır.

Qloballaşma indiyədək getdiyi kimi eyni qaydada davam edərsə, əgər biz öz səhvlərimiz üzərində öyrənməkdən imtina etməkdə davam edəriksə, o nəinki inkişafa rəvac verməyəcək, hətta yoxsulluq və dayanıqsızlıq yaratmaqda davam edəcək... Bu, bizim ümumi faciəmiz olacaq[2].

Əsas anlayışlar və məfhumlar

İnkişaf iqtisadiyyatı; velfer; zəif inkişaf etmiş ölkələr (LDC); «Oyken vedrəsi»; həyatın keyfiyyəti; X.Leybenstaynın «yoxsulluğun qüsurlu çevrəsi»; U.Rostounun «özü-özünü ləngidən artım» nəzəriyyəsi; «böyük təkan» konsepsiyası; «kapitalizmin inkişaf eşelonları» nəzəriyyəsi; K.Marksın kapitalist yığımının mütləq, ümumi qanunu.

1 Стиглиц Д. Глобализация: тревожные тенденции.- М.: Мысль, 2003. С. 285.
2 Yenə orada.

ƏDƏBİYYAT

1. Агапова Т. А., Серегина С. Ф. Макроэкономика. — М.: Дело и сервис.

2. Алле М. Условия эффективности в экономике. — М.: Наука для общества, 1998.

3. Баумоль У. Экономическая теория и исследование операций. — М.: Прогресс, 1965.

4. Бентам И. Введение в основание нравственности и законодательства // Избранные сочинения. — СПб., 1867. Т.1.

5. Боровиков В. И. Основы мировой экономики. — М.: Центр, 2002.

6. Бродель Ф. Время мира. — М.: Прогресс, 1992.

7. Брунер К. Представление о человеке и концепция социума: два подхода к пониманию общества // THE S1S. 1993. Т. 1. Вып. 3.

8. Булатов А. С. (Под общ. ред.). Мировая экономика. — М.: Юристъ, 2002.

9. Бурчаков В. К. Денежная теория и динамичная экономика: выводы для России. — М.: Эдиториал, УРСС, 2003.

10. Валентей С. Д., Нестеров Л. И. Накопление национального богатства на фоне мировых тенденций. — М.: ИЭ РАН, 2000.

11. Витте С. Принципы железнодорожных тарифов по перевозке грузов. — 2-е изд. — Киев, 1884.

12. Гальперин В. М., Гребенников П. И., Леусский А. И., Тарасевич Л. С. Экономическая теория. — СПб.: СПГУЭиФ, 1997.

13. Гринэуэй Д., Блини М., Стюарт И. Панорама экономической мысли XX столетия. Т. 1 / Пер. с англ. — СПб.: Экономическая школа, 2002.

14. Добрынин А. И., Журавлева Г. П. Общая экономическая теория: Учеб. пособие. — СПб.: Питер, 2002.

15. Долан Э., Кэмпбелл К., Кэмпбелл Р. Деньги, банковское дело и денежно-кредитная политика. — М.: Дело, 1991.

16. Журавлева Г. П. Экономика: Учебник. — М.: Юристъ, 2006,

17. Журавлева Г. П., Синев В. М., Бархатов В. И. Государство в условиях глобализации: внешнеторговый либерализм и протекционизм. — Челябинск: ЮурГУ, 2004.

18. Иванов В. В., Соколов Б. И. (Под редакцией). Деньги, кредит, банки. — М.: Проспект, 2003.

19. Иноземцев В. Л. Современное постиндустриальное общество: природа, противоречия, перспективы. — М.: Логос, 2000.

20. Кастельс М. Информационная эпоха: экономика, общество и культура / Под ред. О. И. Шкаратана. — М.: ГУ ВШЭ, 2001.

21. Кейнс Дж. М. Альфред Маршалл (1842-1924) // Маршалл А. Принципы экономической науки. — М.: Прогресс, 1993. Т. 1.

22. Кейнс Дж. М. Общая теория занятости, процента и денег. — М.: ЭКСМО, 2007.

23. Климов С. М. Интеллектуальные ресурсы общества. — СПб., 2002.

24. Коллонтай В. О неолиберальной модели глобализации // МЭ и МО, 1999. № 10.

25. Кругман П. Р., Обстфельд М. Международная экономика. Теория и политика: Учебник. — М.: Юнити, 1997.

26. Курс экономической теории / Научн. ред. А. В. Сидороаич. —М.:ДИС, 1997.

27. Кэмпбелл Р., Макконнелл, Стенли Л. Брю. Экономикс. — М.: Республика, 1993. Т. 2.

28. Лаврушин (Под редакцией). Деньги, кредит, банки. — М.: Финансы и статистика, 2004.

29. Ленин В. И. О лозунге Соединенных Штатов Европы. —ПСС, Т. 26.

30. Лисин В. Макроэкономическая теория и политика экономического роста. — М.: Экономика, 2004.

31. Львов Д. С. Экономика развития. — М.: Экзамен, 2002.

32. Малахов В. С, Филатов В. П. Современная западная философия: Словарь. — М.; Политиздат, 1991.

33. Макроэкономика. Теория и российская практика: Учебник / Под ред. А. Г. Грязновой и Н. Н. Думной. — Ы: КноРус, 2004.

34. Маркс К. Капитал. Т. I. — М.: Политиздат, 1951.

35. Маркс К., Энгельс Ф. Т. 37. — М.: Государственное изд-во политической литературы, 1962.

36. Маршалл А. Принципы экономической науки. — М.: Прогресс, 1993. Т. 13

37. Мельянцев В. Информационная революция — феномен новой экономики // Мировая экономика и международные отношения. 2001. № 2.

38. Менгер К. Основания политической экономии // Австрийская школа в политической экономии. — М., 1992.

39. Мордвинов Н. С. Избранные произведения, — М.: Госполитиздат, 1945.

40. Мэнкъю Н. *Грегори.* Принципы экономикс. — 2-е изд. — СПб.: Питер, 2004.

41. Нуреев Р. М. Экономика развития. — М.: ИНФРА-М, 2001.

42. Оболенский В. П., Поспелов В. А. Глобализация мировой экономики: проблемы и риски российского предпринимательства. — М.: Наука, 2001.

43. Осипов Ю. М., Белолипецкий В. Г., Зотова Е. С. (Под общ. ред.). Переворот в экономике и науке / Экономическая теория на пороге XXI века. Неоэкономика. — М.: Юристъ, 2001.

44. Петти В. Трактат о налогах и сборах. Антология экономической классики. В 2 т. — М.: МП "Эконов", 1993.

45. Погорлецкий А. И. Экономика зарубежных стран: Учебник. — СПб.: Издательство Михайлова В. А., 2000.

46. Попов А. И. Рыночные процессы в микро- и макроэкономике: Учеб. пособие. — СПб.: СПГУЭиФ, 2001.

47. Райская Н. Н,, Сергиенко Я. В., Френкель А. А. Инфляционные процессы в России (1992-1999 гг.): тенденции, факторы. — М.: ЗАО "Финстатинформ", 2001.

48. Рикардо Д. Начала политической экономии и налогового обложения. Антология экономической классики. В 2 т. — М.; МГГ"Эконов", 1993.

49. Родионова И. А. Глобальные проблемы человечества. — М.: Аспект-Пресс, 1995.

50. Россия на пути к новой экономике / Под ред. В. И. Видяпина и Г. П. Журавлевой. — М., 2006.

51. Сакайя Т. Стоимость, создаваемая знанием, или История Будущего // Новая постиндустриальная волна на Западе: Антология / Под ред. В.Л.Иноземцева. — М.: Academia, 1999.

52. Сакс *Дж. Д., Ланрен Б. Ф.* Макроэкономика. Глобальный подход. — М.: Дело, 1996.

53. Самуэльсон Пол Л., *Нордхаус Вильям* Д. Экономика. —М.: Бином, КноРус, 1997.

54. Саймон Г. Теория принятия решений в экономической теории и науке о поведении // Теория фирмы / Под ред.В. М. Гальперина, — СПб., 1996.

55. Сисмонди. Новые начала политической экономии. — М.: Соцэкгиз, 1936.Т. I.

56. Смит *А.* Исследование о природе и причинах богатства народов. Антология экономической классики. 2 т. — М.: МП"Эконов",1993.

57. Стиглиц Дж. Ю. Глобализация: тревожные тенденции. — М.: Мысль, 2003.

58. Стиглиц Дж. Ю. Экономика государственного сектора. — М.: Изд-во МГУ; ИНФРА-М, 1997.

59. Стрелец И. А. Новая экономика информационных технологий. — М.: Экзамен, 2003.

60. Тамбовцев В. Л. Экономическая безопасность хозяйственных систем: структура проблемы // Вестник МГУ. Экономика. Сер. 6, 1995. № 3.

61. Тапскотт Д. Электронно-цифровое общество. — К.: "INT-press ". — М.: "Релф-бук", 1999.

62. Теория переходной экономики / Под ред. В, Ц. Герасименко. — М.: Теис, 1997. Т. 1, 2,

63. Тироль Жан. Рынки и рыночная власть. В 2 т. — СПб.: Экономическая школа, 2000.

64. Тодаро М. П. Экономическое развитие: Учебник. — М.: Юнити, 1997.

65. Трансформация современной рыночной системы хозяйствования. Теория и практика / Под ред. Г. П. Журавлевой и В. Б. Бычина. — М.: РЭА им. Г. В. Плеханова, 2006.

66. Уильямсон О. Экономические институты капитализма.—СПб., 1996.

67. Фишер С, Дорнбуш Р., Шмалензи Р. Экономика. — М,: Дело, 1993.

68. Ходжсон Дж. Социально-экономические последствия прогресса знаний и нарастания сложностей // Вопросы экономики. 2001, № 8.

69. Шишков Ю. Эволюция мирового сообщества: поляризация или возрастание гомогенности // МЭ и МО, 1999. № *9.*

70. Эрхард Л. Благосостояние для всех. —*М.:* Дело, 2001.

71. Экономический словарь для специалистов по рыночной экономике. — М., 2006.

72. Экономическая теория: **Учебник / Под ред В. И. Бариятова, Г. П. Журавлевой.** — М.: Финансы и статистика, **2007.**

73. Экономическая теория **на пороге XXI в. Глобальная экономика,** — М.: Юристъ, 2003.

74. Экономическая **теория в XXI в. Глобальное и национальное в экономике.** Т. 1, 2 — М.: **Экономистъ, 2004.**

75. Экономическая теория: **Учебник / Под ред. В. И. Видяпина, А. И. Добрынина, Г. П. Журавлевой, Л. С. Тарасевича. — М.: ИНФРА-М, 2007.**

76. Collerman J.S. Foundations of Social Theory. Cambridge. 1990.

77. Commons J.R. Institutional Economics// American Economics Review. 1931. V. 21.

78. Cyert R.M., March J.G. Behavioral Theory of the Firm. Prentice-Hall. Englewood Cliffs, 1963.

79. Dudly Seers. The meaning of development: доклад на XI конференции общества. По проблемам международного *развития. New Dehli (1969).*

80. Fiscal Accounts and Macroeconomic Performance. World Bank Policy Research Bulletin. Vol. 4, #3,1993.

81. Fourier Oeuvres completes, T. I. Paris, 1845.

82. Hall R. E., Hitch C. J. Price Theory and Business Behaviour // Oxford Economy Papers. 1939. Vol. 2.

*83.*http://www.dunainyan.m/rubl.shtml.cind=schcat=587&vip=13

84. Mann C. E. Global Electronic Commerce. Washington, DC: Institute for International Economics, 2000.

85. Mortenstern O. Thirteen Critical Points in Contemporary Economic Theory. N. Y. University Press, 1976

86. Robertson R. "Globalization" / London: Sage., 1992.

87. Romer P. M. Endogenous technological change // Journal of Political Economy. 1990. V. 98. N. 5. P. 345-399.

88. Rose A. K. One Money, One Market: Estimating the Effect of Common

89. Currencies on Trade // NBER Working Paper 7432.1999. http://www.nber.org/papers/w7432

90. Schumpeter J. A. Essays on economic topics of J. A. Schumpeter / R. V. Clemence, Ed. N. Y.: Kennikat Press, 1969.

91. Shapiro C, Varian H. Information Rules: A Strategic Guide to the Network Economy, Boston, Mass.: Harvard Business School Press, 1999.

92. Sibert H. and Klodt H. Towards Global Competitions: Catalyst and constraints. Kiel, December 1998.

93. Storchi "Cours of Economic Politigue". Изд.. Petersburg, 1815, т. III.

94. Toffler. Third Ware. N.Y., 1980.

95. Walt Street Journal. 2001. March 29.

96. World Economic Outlook. 1987. May.

İQTİSADİ NƏZƏRİYYƏ

Makroiqtisadiyyat – 1, 2

Metaiqtisadiyyat

Transformasiya iqtisadiyyatı

Dərslik

Texniki redaktoru M.X.Xanbabayeva
Korrektoru S.D.Hüseynova

Çapa imzalanıb: *05.01.2011.* Formatı *70x100* 1/16
Ş.ç.v. *70,3.* Ofset kağızı. Sayı 500 nüsxə.

CBS POLYGRAPHIC PRODUCTION

mətbəəsində çap olunmuşdur.

Bakı şəhəri., Şərifzadə kuç., 3
Tel.: 447-75-05